MEHMAN SÜLEYMANOV

# GÜLÜSTAN MÜQAVİLƏSİ

# I

«Elm və təhsil»
Bakı - 2014

**Mehman Süleymanov** *polkovnik, tarix elmləri doktoru*
**GÜLÜSTAN MÜQAVİLƏSİ – I hissə**
**Bakı, "Elm və təhsil", 2014, 624.**

Kitab XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları ərazisində və bütnlükdə Cənubi Qafqazda baş verən hərbi-siyasi proseslərə həsr olunmuşdur. Nadir şah dövlətinin dağılmasından sonra Azərbaycan xanlıqlarının yaranması, xanlıqlar və qonşu xalqlar arasındakı qarşılıqlı münasibətlər, bu xanlıqların hərbi potensialı, xanlıqların işğalçı hücumlara qarşı mübarizəsi, xanlıqlar əhalisinin işğala qarşı mübarizəsi və "Gülüstan" müqaviləsinin imzalanmasına qədər bölgədə baş vermiş digər hərbi-siyasi hadisələr geniş şəkildə tədqiq edilmişdir.

**ISBN 978-9952-8176-4-5**

$\frac{4702000000}{N098 \quad 2014}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2014**

# GİRİŞ

Şərqin sonuncu böyük fatehi kimi tanınan Nadir şahın 1757-ci ildə qətlə yetirilməsindən sonra onun yaratdığı Əfşarlar dövləti süquta uğrayaraq çoxsaylı xırda dövlət qurumlarına parçalandı. Yeni tarixi şərait Azərbaycan xalqının həyatında da tamamilə yeni bir səhifə açdı və Azərbaycan torpaqlarında müstəqil dövlət qurumları olan xanlıqlar meydana gəldi.

Bu xanlıqlar müstəqil qurum kimi mövcudluğunun elə ilk illərindən gərgin hərbi-siyasi proseslərin çevrəsinə düşdülər. Həmin proseslərin xarakterik xüsusiyyətlərindən biri ondan ibarət idi ki, ilk vaxtlar Azərbaycan xanlıqları öz aralarında münasibətlərin aydınlaşdırmağa və xanlıqlar arasında öz yerlərini müəyyənləşdirməyə çalışdılar. Çünki bu xanlıqların heç biri öz sərhədlərinə sığınıb qalmaq istəmir və daha geniş çevrəni hakimiyyət altına almaq istəyirdilər. Ona görə də tarix səhnəsinə qədəm qoyduqları gündən Azərbaycan xanlıqları arasında kifayət qədər dinamik hərbi-siyasi prosüslər cərəyan etdi. Eyni zamanda xanlıqlar ərazisi həm də ağır işğalçı yürüşlərin meydanına çevrildi. Bununla belə Arazın şimalında meydana gəlmiş Azərbaycan xanlıqları Naxçıvan və İrəvan xanlığı istisna olmaqla ən azı yarım əsrlik müstəqil dövlətçilik tarixini yaşamağa müvəffəq oldular.

Azərbaycan xanlıqları Nadir şah dövrünün uzun-uzadı və dağıdıcı müharibələrindən çıxdıqları üçün onların hamısı siyasi-iqtisadi inkişafın təxminən eyni səviyyəsində qərar tuturdular. Ona görə də onların heç biri digəri üzərində mütləq hərbi-siyasi üstünlüyə malik deyildi. Doğrudur, Quba xanı Fətəli xan Azərbaycan xanlıqlarını birləşdirərək mərkəzləşdirilmiş bir dövlət yaratmağa cəhd göstərdi və bu istiqamətdə müəyyən uğurlar da əldə etdi. Amma bu uğurlar Quba xanlığının sürətli hərbi-iqtisadi inkişafı ilə yox, daha çox Fətəli xanın şəxsi istedadı və ba-

carığı ilə şərtlənirdi. Bunun nəticəsi idi ki, onun ölümündən sonra Quba xanlığına birləşdirilən ərazilər ondan qopmağa başladı.

Xanlıqlar arasında baş verən daxili müharibələr isə onları heç də gücləndirmədi. Əksinə, onların müqavimət potensialına müəyyən zərbə vurdu və bununla onların müstəqilliklərinin qorunmasını xeyli həssas etdi.

XVIII əsrin sonlarında isə Cənubi Qafqaz və konkret olaraq Azərbaycan xanlıqları böyük dövlətlərin hərbi-siyasi qarşıdurmasının məkanına çevrildilər. Bir tərəfdən Rusiya, bir tərəfdən Nadir şahdan sonra mərkəzləşdirilmiş hakimiyyət yaratmağa müvəffəq olmuş Qacarlar dövləti, bir tərəfdən də Osmanlı Türkiyəsi Azərbaycan xanlıqlarına ciddi iddialar irəli sürdülər. Bu iddialar mahiyyət etibarilə oxşar olsa da, onların motivlərində zahiri bir rəngarənglik mövcud idi. Rusiyanın Cənubi Qafqaz siyasətinin açıq işğalçılıq xarakteri gizlədilmirdisə, Qacar sarayı öz iddialarına Səfəvilər sərhədlərinin bərpası görüntüsü verməyə çalışır, Osmanlı Türkiyəsi isə mümkün vasitələrdən istifadə etməklə Cənubi Qafqazda öz nüfuzunu qoruyub saxlamaq istəyirdi. Vaxt ötdükcə bu iddialar kəskin qarşıdurmaya yol açdı və həmin qarşıdurma da bölgədə sərhədlərin dəyişməsi ilə baş verən konkret nəticələrə gətirib çıxardı.

Bu dövrün tarixi Azərbaycan xalqının tarixində tamamilə yeni bir mərhələnin başlanğıcını qoydu və bölgədə tam yeni bir geosiyasi mənzərə formalaşdı. Bu mənzərə Azərbaycan xanlıqlarının iradəsindən asılı olmayaraq formalaşdı və bu yeni reallığa qarşı başlanan xalq üsyanları da işğalçı dövlətin cəza qüvvələri tərəfindən amansızlıqla yatırıldı.

XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları ərazisində baş verən hərbi-siyasi proseslər haqqında müfəssəl biliklərin ictimailəşdirilməsi, Gülüstan müqaviləsinin imzalanması ilə bölgədə yeni geosiyasi mənzərənin yaranmasına yol açan səbəblərinin aydınlaşdırılması məsələləri uzun illərdir ki, Azərbaycan və bölgə dövlətləri tarixşünaslığında davamlı şəkildə müraciət edilən mövzulardan biridir. XIX əsrin əvvəllərindən başlayaraq indiyə kimi Azərbaycan xanlıqları ərazisində yaşanan tarix müxtəlif salnaməçilərin və tədqiqatçıların diqqətini cəlb etmiş və indi də cəlb etməkdədir. Bununla belə bu mövzunun öyrənilməsini hələ də bitmiş hesab etmək olmaz. Bu da təsadüfi deyil. Çünki mövcud salnamə və mənbələrdə mövzu mənsub dövlətin siyasi maraqları xüsusi olaraq qabardıldığı kimi, tarixçilərin və araşdırmaçıların əsərlərində də etnik və dövləti maraqların əsaslandırılması cəhdi daha çox irəli çəkilmişdir. Elə bunun üçündür ki, dövrün obyektiv tarixinin ortaya qoyulmasına bu gün də ehtiyac vardır.

Əslində, XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları ərazisində cərəyan edən hərbi-siyasi proseslərə belə münasibət nümayiş etdirilməsinin konkret səbəbləri vardır. Çünki bölgədə cərəyan edən həmin hadisələrə milli-etnik maraqlardan yanaşaraq tarixi siyasiləşdirmək və saxtalaşdırmaq və bununla tarixə sahib çıxmaq meyyləri də mövcuddur. O cümlədən erməni tarixşünaslığında da belə bir xəttin izlənildiyini açıq görmək mümkündür. Belə yanaşmanın tərəfdarları çox ardıcıl şəkildə belə bir təsəvvürə tarixi don geyindirməyə çalışırlar ki, guya Qarabağ və İrəvan xanlıqları ərazisində cərəyan edən hərbi-siyasi proseslərdə erməni toplumu xüsusi tarixi rola malik olmuşdur. Mövcud faktların doğru-düzgün öyrənilməsi isə bu qeyri-ciddi mövqeni təsdiqləmir Dövriyyədə olan rus və farsdilli mənbələr də bu yanaşmanın yanlışlığını sübut edir. Təqdim olunan hazırkı əsərdə də bu məsələ ilə bağlı rus və farsdilli mənbələrdəki çoxsaylı faktlara istinad edilmişdir.

Bu baxımdan XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Azərbaycan xanlıqları ərazisində cərəyan edən hərbi-siyasi hadisələrin obyektiv və tərəfsiz araşdırılmasına indi də maraq qalmaqdadır. Belə araşdırma bir tərəfdən dövrün tarixinin obyektiv mənzərəsini ortaya qoyar, həm də qonşu xalqların tarixşünaslığında həmin tarixə etnik-siyasi maraqlardan calaşdırılan saxta baxışların kənarlaşdırılmasına və onların mahiyyətinə aydınlıq gətirilməsinə, həm də bir sıra ənənəvi baxışların yenidən dəyərləndirilməsinə, Azərbaycan xanlıqlarının bu dövrünün tarixinin mənzərəsinin daha da təkmilləşdirilməsinə kömək edə bilər.

Azərbaycan xanlıqları ərazisində cərəyan edən və Gülüstan müqaviləsi ilə birinci mərhələsi tamamlanan müharibədə iştirak edən tərəflərin düzgün müəyyənləşdirilməsi məsələsinə bir dəqiqlik gətirilməsinə də ehtiyac vardır. Çünki ənənəvi baxışlar həmin müharibədə Azərbaycan xanlıqlarının, o cümlədən də bəzi bölgə xalqlarının bu müharibədə iştirakı barəsində natamam təsəvvür yaradırlar.

Mövzunun öyrənilməsi, bölgədə baş verən proseslərin araşdırılması böyük qonşu dövlətlərdən əlavə, digər böyük dövlətlərin, o cümlədən konkret olaraq Fransanın və İngiltərənin bölgədə toqquşan geosiyasi maraqlarının öyrənilməsi, Azərbaycan xanlıqlarının müstəqil dövlətçiliyinə son qoyulmasında bu dövlətlərin fəaliyyətinin müəyyənləşdirilməsi, müharibəyə cəlb edilən tərəflərin hərəkətverici qüvvələrinin qiymətləndirilməsi, Azərbaycan xanlıqları əhalisinin işğala qarşı mübarizəsinin tədqiqi və bütünlükdə Azərbaycanın xanlıqlar dövrünün hərbi-siyasi tarixinin daha müfəssəl mənzərəsinin yaradılması baxımından da əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, Azərbaycan xanlıqlarının hərbi-siyasi tarixinin ayrı-ayrı problemləri Azərbaycan tarixşünaslığında da geniş öyrə-

nilmişdir və ayrı-ayrı tədqiqat əsərləri mövzunun əhatəli şəkildə öyrənilməsi üçün elmi-tarixi əhəmiyyətə malikdir. Bununla belə, Azərbaycan xanlıqlarının Gülüstan müqaviləsinə qədər olan hərbi-siyasi tarixi bütöv və əhatəli şəkildə öyrənilməsinə ilk dəfədir ki, cəhd göstərilir. Mövzu ilə bağlı kifayət qədər zəngin mənbələrin və tarixi ədəbiyyatın öyrənilməsi, tutuşdurulması və onlardan düzgün nəticə çıxarılması böyük səylər tələb edir. Belə bir ağır işin öhdəsindən bir araşdırma ilə gəlmək yəqin ki, mümkün deyil. Ona görə ümid edilir ki, Azərbaycan tarixşünaslığında aparılacaq gələcək tədqiqatlar bu mühüm mövzunun öyrənilməsini daha da tamamlayacaq və dövrün mükəmməl bir tarixi ortaya qoyulacaqdır.

# I FƏSİL

## GÜLÜSTAN MÜQAVİLƏSİNƏ APARAN TARİXİN BAŞLANĞICI

### *1. XVIII əsrin əvvəlində Azərbaycanı özündə birləşdirən Səfəvilər dövlətinin vəziyyəti*

XVIII əsrin əvvəllərində Şərqin əzəmətli imperiyalarından olan Səfəvilər dövləti kifayət qədər mürəkkəb ictimai-siyasi və ağır hərbi durumda idi. Şah üsuli-idarəsinin ənənəvi çərçivələrindən uzaqlaşmağa cəsarət etməyən son Səfəvi şahlarının qətiyyətsiz fəaliyyəti əslində, Şah İsmayıl Səfəvi tərəfindən əsası qoyulan bu dövləti vaxt ötdükcə öz süqutuna yaxınlaşdırmaqda idi. Dəyişməkdə olan dünyanın ciddi tələblərinə cavab verə bilməyən idarəçilik üsulunun mövcudluğu, saray elitası ilə xalq arasında uçurumun dərinləşməsi, həmin elitanın sonsuz iddialarının həyata keçirilməsinin ağır bir yük kimi xalq kütlələrinin üzərinə düşməsi ölkənin ictimai-siyasi həyatını böhrana yaxınlaşdırdığı kimi, dövlətin xarici təsirlərə qarşı müqavimətini də iflic edirdi.

XVII əsrin sonlarında Səfəvi taxt-tacına sahib olan Şah Sultan Hüseynin dövründə ölkənin siyasi, iqtisadi və hərbi həyatındakı böhranı daha da dərinləşdi. Mövcud olan tarixi faktlar göstərir ki, Sultan Hüseynin taxt-taca çıxarılmasında saray əyanlarının xüsusi rolu var idi. Çünki onlar zəif iradəli bir şəxsin hakimiyyətə gətirilməsi ilə dövlət idarəçiliyində malik olduqları təsir və imkanları əldən vermək istəmirdilər. Şah Sultan Hüseynin atası Şah Süleyman da saray əyanlarının bu istəyini nəzərə aldı. Bunun nəticəsi kimi Səfəvi dövlətinin idarəçiliyi Şah Süleymanın digər övladı Abbas Mirzəyə deyil, Sultan Hüseynə verildi. İstər Şah Süleyman, istərsə də saray əyanları yaxşı bilirdilər ki, Sultan Hüseynin şah seçiləcəyi təqdirdə saray daxilində mövcud olan qayğısız həyat davam edəcəkdir. Hakimiyyətə gələcəyi təqtəqdirdə dövlət idarəçiliyində daha ciddi qətiyyət və iradə nümayiş etdirəcəyi güman edilən Abbas Mirzə isə saray mənsublarının qayğısız həyatını məhdudlaşdıra bilərdi ki, bu da harınlamış saray əyanlarını qane etmirdi(1).



***Şah Süleyman Səfəvi***

Dövlətin kifayət qədər ciddi böhran keçirdiyi bir vaxtda xeyli şişib harınlamış olan saray elitası bu böhranın aradan qaldırılması, Səfəvi dövlətinin əvvəlki qüdrətinin bərpa edilməsi haqqında deyil, yalnız fərdi mövqeləri, şəxsi iddiaları haqqında düşünürdülər. Bu baxımdan Sultan Hüseynin şah olması onları tamamilə qane edirdi. Çünki bir tərəfdən Sultan Hüseyn dövlət işlərində təcrübəsiz bir şəxs idi və qardaşı Abbas Mirzədən fərqli olaraq o idarəçilik təcrübəsinin qazanılmasına da təşəbbüs göstərmirdi. Sultan Hüseyn daha çox hərəmxana həyatının qayğısız güzəranına adət etməklə ətrafını bürümüş olan müxtəlif xidmətçilərin mühitində böyümüşdü. O bu mühitin çevrəsindən çıxmağa ciddi bir maraq da göstərmirdi. Digər tərəfdən isə Sultan Hüseyn mövhumat adamı idi. İbadətlə məşğul olmaqla bərabər, qəzavü - qədərə etiqad edən bir adam idi. Onun bu inancı elə bir hal almışdı ki, ətrafında baş verən bütün hadisələrə qəzanın qədəri kimi yanaşır və həmin hadisələrin qəzavü-qədərdən irəli gəldiyi üçün ona təsir göstərilməsinə ehtiyac görmürdü. Bu isə saray əyanlarında törətdikləri bütün əməllərin qəzavü-qədərlə bağlanacağına, başqa sözlə əməllərinin cəzasız qalacağına bir əminlik yaradırdı. Bunun nəticəsi idi ki, Şah Sultan Hüseynin dövründə saray əyanlarının dövlət maraqlarına cavab verməyən özbaşınalıqları günü-gündən idarə olunmaz hal alırdı.

Şah Sultan Hüseynin şahlıq taxtına çıxması 1694-cü ilin avqustuna təsadüf edir. Onun tacqoyma mərasimi dəbdəbəli şəkildə keçirildi. Mərasimim təşkil olunduğu gün İsfahan şəhəri çil-çırağa qərq olundu, səhərə kimi küçələr işıqlandırıldı, yerli əhalini əyləndirmək üçün küçələrə fil, şir, pələng kimi heyvanlar çıxarıldı (2)

Tarixi ədəbiyyatda mövcud olan məlumata görə, tacqoyma mərasimində dövrün nüfuzlu və hörmətli adamları Şah Sultan Hüseyndən saray əyanları arasında rəvac tapmış olan şərab içilməsi və göyərçin oynadılması kimi yüngül əyləncələrə son qoyulmasını xahiş etdilər. Doğrudur, şah buna söz verdi, hətta lazımi fərman imzalamaqla anbarlarda saxlanılan şərabların məhv edilməsi haqqında göstəriş də verdi. Lakin xarak-

terinin mülayimliyi onu öz qərarının icrasını sona çatdırmağa imkan vermədi. Şah Sultan Hüseyn öncə şərab içilməsinə qoyulan qadağanı aradan qaldırdı. Bununla bağlı o, saray əyanlarının qurduğu oyunların qurbanı oldu, içkiyə aludəçilik üçün əyanların ortaya atdığı bəhanələrin mahiyyətinə vara bilmədi. Şaha çatdırıldı ki, xəstə olan əmisi arvadı Məryəm bəyimin yaxşılaşması üçün həkim ona şərabdan istifadə etməyi tövsiyə etmişdir. Ona görə də saray əyanlarının istəyi əsasında Məryəm bəyimin müalicəsi üçün şəraba qoyulan qadağa aradan qaldırıldı. Sonra saray əyanları şahın özünün də yenidən şərab içməsinə nail oldular. Nəticədə şərab və yüngül güzərana olan bağlılıq yenidən Səfəvi sarayını öz cənginə aldı, ciddi dövlət işləri ikinci plana keçdi. Bu da ona gətirib çıxardı ki, nuru sönməkdə olan Səfəvi sarayında sağlam düşüncə yerinə xurafat, təvəkkül, mövhumat, yüngül həyat tərzi, intriqa əhval-ruhiyyəsi xeyli gücləndi. Bu da saray təfəkkürünün kütləşməsinə, sarayla xalq arasında uçurumun genişlənməsinə, həlli aktuallıq tələb edən məsələlərə qarşı biganəliyin, laqeydliyin güclənməsinə yol açırdı. Dövlətin iflic hala düşməsini şərtləndirən bu halların qarşısının alınmasına təşəbbüs göstərmək istəyənlər isə ən müxtəlif saray intriqalarının və çəkişmələrinin qarşısında aciz qaldı.

Şəraba olan aludəçilik istər şahda, istərsə də saray əyanlarında hərəmxana həyatına bağlılığı da gücləndirirdi. Onların həyatının xeyli hissəsi də hərəmxanalarda keçirdi. İsfahana səfər edən xaricilər də öz gündəliklərində bildirirdilər ki, Şah Sultan Hüseyn ova gedərkən də hərəmxananı özü ilə aparırdı və həmin hərəmxanada 500-dən artıq xanım var idi. Bildirilir ki, şah hətta bununla da kifayətlənmir və hərəmxanasının daha da genişlənməsinə meyl göstərirdi (3).

İflic vəziyyətinə düşmüş olan şah sarayı ölkə həyatını da özü kimi iflic bir hala gətirmişdi. Dövlət siyasətini düzgün formalaşdıracaq və onu həyata keçirə biləcək idarəçilik aparatı mövcud deyildi. Xüsusilə, saray daxilinə təsadüfi adamların, təcrübəsiz insanların toplaşmasının ağır nəticəsi dövlətin bütün sahələrində mənfi nəticələrini göstərməkdə idi. Bu insanlar isə dövlətçilik üzərində mövcud olan təhlükəni nəinki vaxtında aradan qaldıra bilmirdilər, əksinə heç belə bir təhlükənin yaxınlaşmaqda olduğunu da duymurdular.

Saray daxilində yüksək vəzifələrə təkrar-təkrar təyinatlar həyata keçirilirdi. Rüşvət və başqa yollarla saray daxilinə yol tapanlar bacarıqsız saray əyanları dəstəsini tamamlayır, ya da saray daxilində və ölkənin idarəçiliyində mövcud olan problemlərin aradan qaldırılması üçün göstərdikləri cəhdlərə görə saray intriqalarının qurbanına çevrilirdilər. Tarixi mənbə və ədəbiyyatda şah sarayının baş naziri və ya etimadüddövlə vəzi-

fəsinə seçilmiş müəyyən şəxslər haqqında məlumatlar mövcuddur. Onların arasında Şahqulu xanın, Məhəmməd Şamlının, Mirzə Tahir Qəzvininin, Fətəli xan Dağıstaninin, Məhəmmədqulu xanın adları vardır. Həmin şəxslər vəzifəyə təyin edilsələr də saray daxilində cərəyan edən özbaşınalıqlar və qanunsuzluqlar üzündən öz vəzifələrinin öhdəsindən gələ bilmirdilər. Şah Sultan Hüseynin isə bu vəziyyət qarşısında qətiyyətsizlik göstərməsi bütünlüklə ölkə daxilində qanunsuzluq və özbaşınalıqların rəvac tapmasına zəmin yaradırdı.

Şah sarayında mövcud olan vəzifəli şəxslər arasında nüfuz dairəsi uğrunda gərgin bir çəkişmə getməkdə idi. Bu daxili çəkişməyə mollabaşı, həkimbaşı, münəccim, qoşun başçısı və hətta saray xacələri də qoşulmuşdular. Müəyyən hallarda xacələr şaha yaxınlığına görə daha üstün mövqelərə malik olurdular. Bu yaxınlıqdan istifadə etməklə onlar ən müxtəlif dövlət işlərinə müdaxilə edir və öz maraqlarını hər bir dövlət işindən üstün tuturdular. Mühüm dövlət vəzifələrinə təyinatların həyata keçirilməsinə də xacələr çox ciddi şəkildə təsir edə bilirdilər.

Belə bir xəstə mühitdə rüşvətxorluq adi bir hala çevrilmişdi. Rüşvət alınıb-verilməsi dövlət idarəçiliyinin tərkib hissəsini təşkil edirdi. Rüşvət müqabilində saray əyanları hər bir işi görməyə hazır idilər. Vəzifələrə təyinatın əsas meyarı rüşvətin miqdarı olduğu kimi, bütün qanun pozğunluqları da müvafiq rüşvət qarşısında çox asanlıqla unudulurdu. Səfəvi dövlətinin son dövründə yaşamış Yesai Həsən Cəlalian yazırdı ki, şah və onun vəzirləri şəxsləri müvafiq rüşvət əvəzində tez-tez dəyişirdilər. Rüşvət verməklə vəzifə sahibi olan şəxslər isə verdiyi rüşvətin əvəzini xalqı soyub-talamaqla çıxırdı (4).

Bununla ağır durumda olan xalqın vəziyyəti daha da ağırlaşırdı. Bir tərəfdən xalq kütlələri maliyyə istismarına məruz qalır, digər tərəfdən də rüşvətxorluğun doğurduğu qanunsuzluqlarla üzbəüz qalırdı. Rüşvət alınmasını davamlı xətt üzərinə qoymaq üçün saray elitası müxtəlif fərmanların verilməsinə də cəhd göstərirdilər. Məsələn, əyanlar şahı inandırmağa çalışırdılar ki, cinayətkarların cəzalandırılması üçün vaxtilə Şah Abbasın müəyyənləşdirmiş olduğu qaydalara dəyişiklik edilsin, cinayət törətmiş adamlar cəzalandırılmaqdansa əmlakı müsadirə olunsun və ya onlara müəyyən maliyyə cəzaları müəyyənləşdirilsin (5).

Saray əyanlarının həyata keçirdikləri siyasət rüşvətxorluğu və onunla bağlı olan qanunsuzluqları təşviq edirdi. Vəzifə sahibləri həbs olunan şəxslərdən tələb edirdilər ki, maliyyə cərimələri versinlər. Pulu olmayanlar isə azadlığa buraxılırdılar ki, həmin maliyyə cərimələrini tapıb gətirsinlər. Maliyyə vəsaiti olmayan şəxslər isə onu tapmaq üçün oğur-

luqla, soyğunçuluqla məşğul olur və vəzifə sahiblərinin tələb etdiyi rüşvəti verməklə canlarını həbsdən qurtarırdılar (6).

Şah səviyyəsində həyata keçirilən müəyyən mərasimlər də yerlərdə rüşvətxorluğun genişlənməsinə yol açırdı. Bir daha qeyd edilməlidir ki, bu rüşvətxorluq ağır bir maliyyə yükü kimi xalq kütlələrinin üzərinə düşürdü. Əvvəllər şah tərəfindən Novruz bayramı ərəfəsində vilayət hakimlərinə qiymətli hədiyyələr göndərilirdi. Yerli hakimlər də şübhəsiz ki, bunun əvəzində şaha bahalı hədiyyələr göndərməli olurdular. Şah Sultan Hüseynin dövründə isə yerli hakimlərə göndərilən hədiyyələrin sayı artırıldı. Yerli hakimlər də cavab hədiyyələrinin göndərilməsi üçün əhalinin soyub-talanmasını genişləndirirdilər və qanunsuz toplanan vergiləri artırırdılar (7).

Rüşvətxorluğun çiçəklənməsi, dövlət idarəçiliyində özbaşınalıqların artması ölkənin iqtisadi həyatını da tənəzzülə uğradırdı. İqtisadi fəallığın artmasına heç bir dəstəyin olmaması, ağır vergi siyasəti, təsərrüfat əhalisinin istismarı, ticarət əlaqələrinin əyanların qanunsuz əməllərindən asılı vəziyyətə düşməsi iqtisadi inkişaf üçün ciddi əngələ çevrilirdi. Mərkəzlə vilayətlər arasında əlaqələrin zəifləməsi də iqtisadi fəallığı kifayət qədər mürək kəbləşdirirdi. Bir vaxtlar vilayətləri birləşdirən gediş-gəliş yolları lazımi nəzarət altında saxlanılırdısa və tacirlərin karvan yollar ilə sərbəst hərəkətləri təmin edilirdisə, Şah Sultan Hüseyn dövründə artıq başqa vəziyyət yaranmışdı. Karvan yolları üzərinə soyğunçu basqınlar o dərəcədə artmışdı ki, artıq bir vilayətdən başqasına satış yüklərinin aparılması son dərəcə qorxulu olmuşdu. Bunun nəticəsi idi ki, karvan yolları ilə hərəkət etmək xeyli təhlükəli idi. Hakimiyyət orqanlarının təhlükəsizlik üçün hər hansı bir tədbir görmədiyindən karvan sahibləri bir çox hallarda soyğunçuluğun rəhbərləri ilə əlaqəyə girir və onlara müəyyən maliyyə vəsaiti verməklə təhlükəsizliyini əldə etməyə çalışırdılar. Lakin belə hallar ölkənin iqtisadi həyatının fəallaşmasına heç də təkan vermirdi.

Dövrün müasirlərinin fikrincə, saray elitasının pul-maliyyə siyasətinin bərbadlığı da ölkənin iqtisadi həyatını çökdürməklə bərabər, siyasi separatizmin güclənməsinə zəmin yaradırdı. Əvvəllər pul yalnız mərkəzi hakimiyyət tərəfindən kəsilirdisə, Şah Sultan Hüseynin dövründə vilayətlərin hakimlərinə də pul kəsmələrinə icazə verildi. Bu isə bir tərəfdən vilayətlərin mərkəzlə bağlılığını zəiflətdi, digər tərəfdən də vilayətlər arası iqtisadi mübadiləni aşağı saldı. Çünki məlum idi ki, vilayət daxilində kəsilən pul daha çox həmin vilayət daxilində dövriyyədə idi. Vilayət hakimi vəzifəsindən dəyişdiriləndə isə onun kəsdirdiyi pul da qiymətdən düşürdü (8).



*Şah Sultan Hüseyn*

Bütün bunlar isə iki yüz ildən çox mövcud olan Səfəvi dövlətini süquta sürəkləyirdi. Baxmayaraq ki, Şah Sultan Hüseynin hakimiyyətinin ilk illəri nisbi sakitliklə xarakterizə olunur, amma bir neçə ildən sonra dövlət daxilində özünü göstərən böhranın qarşısını almaq mümkün olmadı. Qüdrətli Səfəvi hakimiyyətinin son nümayəndələrindən olan Şah Sultan Hüseyn və onun saray əyanları boyunlarına düşən tarixi məsuliyyəti lazımınca qiymətləndirə bilmədilər və Səfəvi dövlətinin tarixinin ağır günləri başladı. İllər keçdikcə ölkə daxilində iğtişaşlar artdı və mərkəzi hakimiyyət əleyhinə kütləvi qırğınlar genişləndi.

1699-cu ildən başlayaraq əhalinin siyahıya alınmasının aparılmasının - nəticələri də yerlərdə qiyam əhval-ruhiyyəsini gücləndirdi. 1702-ci ilə qədər davam edən bu siyahıya alınmada əsas məqsəd 15 yaşına qədər olan vergi ödəyicilərinin sayının müəyyənləşdirilməsi idi. Əhalinin bütün əmlakı da siyahıya alınmaqla onlardan şah xəzinəsi üçün pay müəyyənləşdirilirdi. Siyahıya alma bitəndən sonra əhalidən alınan vergilərin miqdarı üç dəfə artırıldı(9). Başqa sözlə, əhalinin istismarı daha da gücləndirildi.

Bütün bunların nəticəsi idi ki, XVII əsrin sonlarından etibarən Səfəvi dövlətini qiyamlar və itaətsizlik bürüdü. Tarixi ədəbiyyatda bu qiyamlar çox zaman xalq qiyamları kimi xarakterizə olunsa da, onların çoxu separat xarakterli və ya yerlərdə hakimiyyətin ələ alınması üçün başlanan itaətsizlik qiyamları idi. Belə qiyamların çoxunu yerli hakimlər tabeliklərində olan silahlı dəstələrlə başlayırdılar. Separatçı mahiyyət daşımasına baxmayaraq, belə qiyamlar da saray daxilində baş alıb gedən çəkişmələr və qanunsuzluqlar, ölkə daxilində mövcud olan anarxiya, mərkəzi hakimiyyətin zəifləməsi və digər səbəblərlə bağlı idi. Mərkəzi hakimiyyət gücdən düşdükcə mərkəzdənqaçma meylləri də güclənirdi. 1699-cu ildə Kermanda baş verən üsyan, Qəndəharda yaxınlaşmaqda olan qiyam yerli hakimlərin mərkəzdənqaçma meyllərinin ifadəsi idi.

Aşağılardan başlanan, yerli əhalinin kütləvi şəkildə qoşulduğu qiyamlar da mövcud idi. Xüsusən, Azərbaycan ərazisində baş verən antidövlət çıxışları belə kütləviliyi ilə seçilirdi. Yəni belə çıxışlarda sadə əhali öz fəallığı ilə fərqlənirdi.

Başqa özlə, XVIII əsrin əvvəllərində Azərbaycan ərazisində dövlət əleyhinə olan çıxışlar artmaqda idi. Bu çıxışlar vasitəsilə yerli əhali mərkəzi dövlətin əzici siyasətinə, mərkəzi dövlətin yerlərdəki hakimlərinin qanunsuz fəaliyyətinə və istismarına, insanların ağır güzəran sürməsinə öz etirazlarını bildirirdilər. Baxmayaraq ki, Azərbaycan böyük iqtisadi potensialı olan əraziləri əhatə edirdi və daxili siyasətin düzgün qurulacağı halda yerli əhalinin də yaşayışının yaxşılaşmasına nail olmaq olardı.

Səfəvilər dövləti dövründə Azərbaycan əraziləri Azərbaycan, Çuxur-yurd, Qarabağ və Şirvan bəylərbəyliklərində birləşdirilmişdi. Azərbaycan bəylərbəyliyi əsasən, Araz çayından cənubdakı əraziləri əhatə edirdi. Bu bəylərbəyliklərin hər biri öz coğrafi və iqlim xüsusiyyətlərinə görə geniş təsərrüfatçılıq imkanlarına malik idi. Bütünlükdə, Azərbaycan əraziləri həm əhalinin sıxlığı ilə, həm də ölkə iqtisadiyyatının  əsasını təşkil edən kənd təsərrüfatının və heyvandarlığın inkişaf səviyyəsi ilə seçilirdi. Kənd təsərrüfatı ümumən bölgənin iqtisadiyyatının əsasını təşkil edirdi. Bu dövrdə Azərbaycanda olmuş xaricilər də təsdiq edirdilər ki, bu diyar Xəzər dənizinin kənarında yerləşməklə çox zəngindir. Burada çoxlu taxıl yetişdirilir ki, onun mərkəzi hətta digər vilayətlərin ehtiyaclarını ödəməyə də yetir. Mənbələrdə Azərbaycanda evdarlıq heyvanları ilə yanaşı çoxlu balıq olması da qeyd edilirdi (10).

Təsadüfi deyil ki, tarixi ədəbiyyatda Azərbaycan əraziləri Səfəvilər dövlətinin həyat mənbəyi kimi xarakterizə olunur. Bu bölgə ölkənin ərzaq təminatında və iqtisadiyyatında mühüm yer tuturdu. Doğrudur. Mərkəzi hakimiyyət bu məqamdan sui-istifadə edirdi və ölkə xəzinəsinin doldurulması üçün 35 növ müxtəlif vergilər müəyyənləşdirilmişdi. Təkcə 1698 və 1701-ci il ərzində kəndlilərə və sənətkarlara tətbiq edilən vergilərin həcmi 2-3 dəfə artırılmışdı (11).

Dövrün iqtisadiyyatında toxuculuq təsərrüfatı önəmli yer tuturdu. Tarixi ədəbiyyatda Azərbaycan ərazisində yun parçaların toxunması və satışa çıxarılması haqqında məlumatlar vardır. Şahidlər hətta Azərbaycanda, konkret olaraq Qubada toxunan yun materialların keyfiyyətinin son dərəcə yüksək olmasından söhbət açırlar (12).

Bununla belə, qeyd etmək lazımdır ki, bu dövr Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən birini ipək toxuculuğu təşkil edirdi. Şirvan Səfəvilər dövlətində Gilanla birlikdə ipək toxuculuğunun mərkəzi sayılırdı. Bu mərkəzlərdə toxunan ipək ölkənin ixracının da əsasını təşkil edirdi və dünya bazarında Şirvanda toxunan ipəyə böyük maraq göstərilirdi.

Rusiya dövləti tərəfindən Səfəvi paytaxtına göndərilmiş nümayəndəliyin rəhbəri A.Volınski öz gündəliyində qeyd edirdi ki, Şirvanda diqqəti daha çox cəlb edən buranın ipəyidir. Bölgədə elə bir kənd tapmaq mümkün deyil ki, orada ipək istehsalı müəssisəsi olmasın (13).

Şirvanda istehsal olunan ipək öz keyfiyyəti və tələbatı etibarilə müəyyən mənada strateji əhəmiyyət kəsb edirdi. Çünki dünya bazarında bu məhsula olan maraq Şirvanın geostrateji əhəmiyyətini də aktuallaşdırır və qonşu dövlətlərin bu bölgəyə olan marağını artırırdı.

İpək istehsalı sahəsində Gəncədə, Ərəşdə, Şamaxıda da zəruri potensial olmaqla yanaşı, həm də bir ənənə yaranmışdı. Bu sahəyə lazımi diqqətin

ayrılması ilə bölgənin iqtisadi inkişafında bir dinamikliyə nail olmaq mümkün idi.

Səfəvilər dövründə Azərbaycanda xalçaçılıq, pambıq toxuculuğu, sənətkarlıq, neftin istehsalı və ixracı iqtisadi həyatda özünəməxsus yer tuturdu. Bu sahələrin inkişaf etdirilməsi üçün də Azərbaycanda obyektiv baza mövcud idi. Səfəvilər dövlətinin çiçəklənmə dövründə bu fəaliyyət sahələri əhalinin güzəranının müəyyənləşməsində önəmli əhəmiyyət kəsb edirdi. Lakin Səfəvilər dövləti daxilində başlamış olan tənəzzül Azərbaycanda iqtisadiyyatın böhranına da təsirsiz ötüşmədi. Vilayətlər arasında iqtisadi əlaqələrin zəifləməsi, iqtisadiyyatın inkişafının təşviq edilməməsi, ticarətin böhrana düşməsi, rüşvətxorluğun və özbaşınalıqların artması, əhali üzərinə əsaslandırılmamış vergilərin artırılması Azərbaycan iqtisadiyyatının bütün sahələrini inkişafdan saxladı. Bir tərəfdən mərkəzi hakimiyyətin maliyyə istismarı, digər tərəfdən də yerli hakimlərin acgözlüyü elə ağır bir yükə çevrildi ki, onların altından çıxmaq təsərrüfat adamları və sənətkarlar üçün elə də asan deyildi. Baxmayaraq ki, mərkəzi hakimiyyətin müəyyənləşdirdiyi vergilər onsuz da ağır idi, yerli hakimlər də bir tərəfdən onları ağırlaşdırırdılar. Tarixi ədəbiyyatda mövcud olan faktlardan aydın olur ki, Səfəvilər sarayının yarıtmaz işi və siyasəti nəticəsində şah xəzinəsi tamamilə boşalmışdı. İstər harınlayıb şişmiş olan saray aparatının saxlanması, istər hərbi xərclərin artması yeni maliyyə vəsaitlərini tələb edirdi. Bu ehtiyacın aradan qaldırılmasının əsas yolu isə xalqın maliyyə istismarının gücləndirilməsi idi. XVIII əsrin ilk illərində quraqlıq üzündən kənd təsərrüfatında çətinliklərin olması isə əhalinin maliyyə vəziyyətini daha da ağırlaşdırırdı.

Bütün bunlar da öz növbəsində dövlət əleyhinə çıxışlara yol açırdı. Dövrün öyrənilməsinə həsr edilmiş araşdırmalarda XVIII əsrin əvvəllərində Car-Balakən və sonra da Şirvanda genişlənən kütləvi antidövlət çıxışlarına toxunulmuşdur. Car-Balakən bölgəsində alovlanan kütləvi çıxış 1707-ci ilə təsadüf edir. Bu kütləvi çıxış bölgənin bir sıra kəndlərini əhatə edirdi. İstər yerli hakimiyyət, istərsə də Səfəvi əyanları bu kütləvi çıxışın yarada biləcəyi problemləri, onun ətrafa yayıla biləcəyini anlayaraq güc vasitələrinə əl atdılar. Bu çıxışların yatırılması üçün yeridilmiş silahlı dəstələr kütləvi narazılıqlara son qoymağa müvəffəq oldular (14). Bununla belə, Car-Balakən bölgəsində, o cümlədən də Azərbaycan ərazisində kütləvi çıxışlar üçün mövcud olan səbəblər aradan qaldırılmadı. Əksinə, inzibati tədbirlərin gücləndirilməsi yeni dağıntılar və qanunsuzluqlar gətirdi və xalqın güzəranını daha da ağırlaşdırdı. Buna görə bir müddət sonra Şirvanda antidövlət çıxışı oldu. 1709-cu ildə carlılar yenidən dövlət əleyhinə kütləvi çıxışlara əl atdılar. Bu dəfə kütləvi çıxışın iştirakçıları Şirvan bəylərbəyliyinin mərkəzi olan Şamaxıya doğru hərəkət etdilər. Sərhəd bölgəsində yerləşdikləri və sərhədin

qorunması üçün aldıqları müəyyən maliyyə vəsaitlərinin verilməsinin Şirvan bəylərbəyi tərəfindən dayandırılması görünür, carlıların Şamaxıya doğru irəliləməsinə səbəb olmuşdu. Şamaxıya doğru hərəkət zamanı Şəki və Şirvanın bir çox kəndləri də bu çıxışlara qoşuldular. Şübhə yoxdur ki, Şəki və Şirvan kəndlərində mövcud olan ağır vəziyyət həmin kəndlərdə yaşayanların dövlət əleyhinə etirazlara qoşulmasına gətirib çıxarmışdı. Mövcud olan məlumatlardan aydın olur ki, Car və İlisu camaatının birgə antidövlət çıxışına İlisu sultanı Əli Sultan başçılıq edirdi. Onun rəhbərliyi altında olan qüvvələr Şamaxı, Gəncə, Qazax, Ağstafa, Şəmşəddil, Şəmkir şəhərlərinə basqın etdilər. Həmin yaşayış məntəqələri üzərinə hücum etməkdə əsas məqsədin həmin məntəqələrdəki dövlət məmurlarının cəzalandırılması olduğunu ehtimal etmək olar. Lakin sözsüz ki, belə basqınlar həm də qanunsuzluqların mövcudluğu ilə müşayiət olunurdu. Şirvan bəylərbəyi Həsənəli xan Cardan başlanan kütləvi çıxışın qarşısını almağa cəhd göstərdi. Lakin onun ixtiyarında olan silahlı qüvvə qarşıya qoyulan məqsədə nail olmadı. Həmin silahlı dəstə ciddi müqavimətlə rastlaşıb geri çəkildi. Şirvan bəylərbəyi Həsənəli xanla Şəki hakimi Kiçik xan isə qarşılaşma zamanı həyatlarını itirməli oldular (15).

Car bölgəsinin əhalisinin antidövlət çıxışlarına başladığı illərdə Qəndəharda da Gilzai əfqanları Səfəvi hakimiyyətinə qarşı qiyama başladılar. Vaxtında lazımi tədbir görülmədiyi üçün əfqanların qiyamı tezliklə daha geniş xarakter aldı və dövlətçiliyin mövcudluğuna qarşı daha ciddi təhlükəyə çevrildi. XVIII əsrin 10-cu və 20-ci illərində Qəndəhar qiyamı şah sarayının daha böyük diqqətini və gücünü özünə cəlb etdiyi üçün Azərbaycanda başlanan antidövlət çıxışlarının yatırılmasına lazımi sayda qüvvə göndərilə bilmirdi. Görünür, elə bunun üçündür ki, Azərbaycan ərazisində başlanan kütləvi çıxışlar əsrin 20-ci illərinə qədər davam etdi. Qeyd etmək lazımdır ki, bu çıxışların uzun müddətli və kütləvi olması bölgənin mərkəzə bağlılığını da xeyli zəiflətdi.

Səfəvi sarayı ölkə ərazisindəki antidövlət çıxışlarının yatırılmasına kömək alınması üçün öz nümayəndələrini 1713-cü ildə Rusiya sarayına göndərdi (16). Rusiya sarayının Azərbaycan əraziləri ilə bağlı öz planları olsa da, onun diqqəti hələlik başqa vəzifələrin həllinə yönəlmişdi. Ona görə də Rusiya gözlənilən köməyi göstərmədi və nəticədə Şirvandakı kütləvi çıxışların qarşısının alınmadı mümkün olmadı.

XVIII əsrin 20-ci illərində Şirvanda Hacı Davudla Surxay xanın rəhbərliyi altında dövlətə qarşı çıxışlar baş qaldırdı. Bu çıxışlar haqqında tarixi araşdırmalarda kifayət qədər məlumat vardır. Yalnız onu xatırlatmaq lazımdır ki, şimaldan alovlanan bu kütləvi çıxış 1721-ci ilin avqustunda Şamaxıya çatdı. Hacı Davudla Surxay xanın qüvvələri Səfəvi dövlətinin

böyük inzibati vahidlərindən biri olan Şirvan bəylərbəyliyinin mərkəzini – Şamaxını ələ keçirdilər, bu şəhərdəki qoşun qüvvələrini zərərsizləşdirdilər. Şəhərdə kütləvi talanlar, soyğunçuluqlar, dağıntılar aparıldı. Həmin vaxtlarda Şamaxı şəhərində olan rus tacirləri də belə talan və soyğunluqların qurbanı oldular (17).

Hacı Davudla Surxay xan Şamaxının ələ keçirilməsi ilə kifayətlənmədilər və az bir müddət ərzində Azərbaycanın böyük bir hissəsini onlar nəzarəti altına aldılar. Başqa sözlə, onların nəzarəti altına keçirilmiş olan ərazilər Səfəvi sarayının nəzarətindən qoparıldı. Ölkəni kütləvi qiyamlar və çıxışlar bürüdüyü bir vaxtda Azərbaycan ərazisində mərkəzi hakimiyyətin bərpa edilməsi Səfəvi sarayı üçün elə də asan deyildi. XVIII əsrin 20-ci illərindən etibarən Rusiyanın və Osmanlı sarayının Azərbaycan əraziləri ilə bağlı yeni niyyətlər ortaya qoyması isə Səfəvi dövlətinin Azərbaycan ərazisində öz hakimiyyətinin bərpa edilməsini xeyli çətinləşdirirdi. Əslində, haqqında danışılan dövrdə Azərbaycan əraziləri Rusiyanın, Osmanlı və Səfəvi dövlətlərinin böyük planlarının kəsişməsində qalmışdı. Mahiyyət etibarilə işğalçılıq xarakteri daşıyan həmin planların həyata keçirilməsi Azərbaycan ərazilərinin işğalını da nəzərdə tuturdu. Bu baxımdan bu dövrdə Azərbaycan ərazilərinin geosiyasi dəyəri artmaqda idi.

XVIII əsrin 20-ci illərində Cənubi Qafqazda ciddi proseslərin cərəyan etməsi və Səfəvi hakimiyyətinin burada zəifləməsi, Osmanlı dövlətinin, xüsusən də Rusiyanın bölgəyə diqqətini daha da artırdı. Çünki Rusiya sarayı cənuba doğru işğalçılıq siyasətinin həyata keçirilməsi üçün münasib bir fürsətin yarandığını güman edirdi.

### *2. Rusiyanın işğal siyasətinin aktuallaşması və bu siyasətin icrasında erməni vasitəçiliyi*

XVIII əsrin əvvəllərində Cənubi Qafqazın geopolitikasının müəyyənləşdirilməsində Rusiya daha fəal bir oyunçuya çevrildi. Avropa məkanında kifayət qədər güclənmiş olan çar Rusiyası Səfəvi dövlətinin tənəzzülə doğru sürüklənməsindən istifadə edərək öz işğalçı planlarını ortaya qoydu və bu planların həyata keçirilməsi üçün yaranmış olan fürsətdən bəhrələnməyə çalışdı.

Çar Rusiyası Azərbaycan ərazisinə, o cümlədən Xəzərətrafı ərazilərə çox böyük iddialarla meydana atıldı. Baxmayaraq ki, Səfəvilər dövlətinin mövcudluğu ərzində bu iki dövlət arasında daha dinc qarşılıqlı münasibətlər mövcud idi. Rusiya tacirləri Səfəvi dövlətinin iqtisadi imkanlarını lazımınca qiymətləndirərək bu dövlətlə ticarət əlaqələrini genişləndirməyə maraq göstərirdilər. Müəyyən geostrateji maraqlar da bu iki dövlətin yaxınlaşmasını

şərtləndirirdi. Xüsusilə, Osmanlı dövlətinin Cənubi Qafqazdakı nüfuzuna qarşı birgə müqavimət göstərmək istəyi Səfəvi dövləti ilə Rusiya arasındakı əlaqələri daha da yaxınlaşdırırdı. XVII əsrdə bu dövlətlərin sərhəd təmasları kifayət qədər sakit idi. Səfəvi dövlətinin rəhbərliyi hətta Rusiya ilə münasibətlərin genişlənməsinin iki dövlətin mənafelərinə xidmət etdiyinə şübhə etməyərək XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Cənubi Qafqazın müəyyən hissəsi Osmanlı dövlətinin işğalı altında olanda Rusiyanın bölgəyə müdaxiləsinə etiraz etmədiyini bildirdi (18).

Rusiya yaranmış bu məqamdan dərhal istifadə etməyə çalışdı. Məlumdur ki, Rusiyanın Səfəvi dövlətinin nəzarəti altında olan ərazilərə fəal müdaxiləsi XVIII əsrin əvvəllərindən başlandı. Lakin bu müdaxilədən öncə və müdaxilə ərəfəsində Rusiya bölgədə özünə yer etməyə və bunun üçün Səfəvi dövləti ərazisində yaşayan ermənilərdən öz maraqlarına uyğun istifadə etməyə çalışırdı. Artıq XVII əsrdə Rusiya ilə Səfəvi dövləti ərazisində yaşayan ermənilərin qarşılıqlı münasibətlərinin konturları formalaşmaqda idi. Bu qarşılıqlı münasibətlərin yaradılmasında, əslində ermənilərin də öz maraqları var idi. Onlar Rusiyanın köməyi ilə Azərbaycan ərazilərinə olan iddialarını həyata keçirmək istəyirdilər. Bu baxımdan Rusiya ilə əməkdaşlıq onlarda müəyyən ümidlər yaradırdı. Rusiya isə ermənilərin ruspərəstliyindən və xidmətlərindən istifadə etməklə Azərbaycan torpaqlarının işğalında yerli yardıma sahib olmaq istəyirdilər.

Məsələnin belə qoyuluşunu erməni tarixçiləri də inkar etmirlər. Bununla bağlı erməni müəlliflərindən biri yazır: "Böyük Avropa dövlətlərinin mübarizəsinin əsas hədəflərindən biri Yaxın və Orta Şərq idi. O cümlədən, İngiltərənin, Fransanın və Rusiyanın bu bölgədə xüsusi maraqları var idi. Rusiya da Şərq ticarətinin inkişafında maraqlı idi və o, Cənub dənizlərinə can atmaqla şərqdə özünün iqtisadi və siyasi təsirini artırmağa çalışırdı. İngiltərə və Fransa isə buna hər vasitə ilə mane olurdu. Müvəffəqiyyətə nail olmaq üçün Rusiyanın ciddi və etibarlı dayağa ehtiyacı var idi. Onun üçün belə bir dayaq öz milli azadlığı uğrunda mübarizə aparan Balkan və Zaqafqaziya xalqları oldu " (19).

Zaqafqaziya xalqları deyəndə müəllif heç şübhəsiz ki, ilk növbədə erməniləri nəzərdə tuturdu. Səfəvi dövlətindən aldıqları bütün qayğılara baxmayaraq ermənilərin bu dövlətə qarşı xəyanət və sədaqətsizlik yolu tutması Rusiyanın işğalçılıq siyasətinə cavab verirdi və bu erməni xislətindən bəhrələnməyə çalışan Rusiya əslində, ermənilərə öz şərq siyasətinin həyata keçirilməsində bir vasitə kimi baxırdı.

XVII əsrin əvvəllərində İsveç-Polşa müharibəsindən sonra Rusiya cənuba doğru diqqətini xeyli artırdı və ilk növbədə gürcü çarları ilə münasibətləri nizamladı (20). Şərq tacirlərinin, konkret olaraq erməni tacirlərinin

Rusiyaya axınını gücləndirmək üçün Rusiya sarayı öz siyasətinə yenidən baxdı, Şamaxıdakı və Cənubi Qafqazın digər nöqtələrindəki böyük bazarlarla əlaqə yaratdı. XVII əsrin ortalarında və 2-ci yarısında bölgədə nisbi sakitliyin olması isə belə əlaqələrin daha da genişlənməsinə təkan verdi (21).

Qarşılıqlı maraq qarşılıqlı əlaqələri də sürətləndirirdi. XVII əsrin ortalarında Azərbaycan və Gilan ətrafından Rusiyaya hər il 70 min pud ipək göndərilirdi (22). Bu ipək Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün çox qiymətli xammal idi. Həmin yüklər başlıca olaraq erməni tacirləri tərəfindən Rusiyaya daşınırdı. Burada ermənilər öz mövqelərini möhkəmləndirdikcə Rusiya sarayına yollar tapmağa və Rusiyanın Səfəvi dövlətinə qarşı işğalçılıq siyasətinin formalaşmasına təkan verməyə çalışırdılar. Onlar hər vasitə ilə Rusiya sarayını cənuba doğru irəliləməyə təhrik edirdilər. Rusiya sarayı isə erməni tacirləri tərəfindən irəli sürülən təklifləri heç də qulaq ardına vurmurdu. Məsələn, çar Mixayil Fyodoroviçin hakimiyyəti dövründə İngiltərənin və digər Avropa dövlətlərinin tacirləri Volqa çayı ilə üzərək Səfəvi dövlət ilə azad ticarət aparılmasına icazə verilməsinə çalışırdılar. Lakin ermənilər Səfəvi dövləti ilə ticarət monopoliyasının onlara verilməsinə çalışır və bunun Rusiyanın da maraqlarına cavab verdiyini bildirirdilər. Ermənilərin bu təkliflərini Rusiya sarayı şərq siyasətində uğur qazanılması üçün daha münasib sayırdı.

1666-cı ildə Rusiya ilə ticarət əlaqələrinə malik olan Yeni Culfa erməni kompaniyası Rusiya sarayı qarşısında Rusiyadan tranzit hüququ verən ticarət müqaviləsinin bağlanması haqqında məsələ qaldırdı. Həmin müqaviləyə əsasən, Azərbaycanda və Gilanda istehsal olunan ipəklər Xəzər-Volqa su yolu ilə Rusiya ərazisindən daşınmalı idi. Rusiya dövləti üçün belə bir təklif son dərəcə əlverişli və siyasi baxımdan da maraqlı idi. Onun reallaşdırılması Rusiyanı Avropa ilə Şərq arasında əlverişli məkana çevirə, Rusiya xəzinəsinə qazanc gətirməklə bərabər, ona düşmən olan Osmanlı xəzinəsini real gəlirdən məhrum edə bilərdi (23).

Çar Aleksey Mixayloviç qaldırılan bu təşəbbüsü bəyəndi və 1667-ci ildə erməni kompaniyasının Rusiyaya ipək və xammal gətirməsi haqqında 8 bəndlik müqavilə imzaladı. Bu müqavilənin imzalanması Rusiya sarayı tərəfindən o qədər maraqla qarşılandı ki, müqaviləni imzalayan ermənilər vasitəsilə Şah Abbasa xoş niyyətli bir məktub da göndərdi. Həmin məktubda arzu olunurdu ki, "qonşuluq səfərləri və ticarəti kəsilməsin, ildən-ilə daha da artsın və heç vaxt, heç kimə ziyan və zərər gətirməsin" (24).

Ancaq çox tezliklə Rusiya ilə Səfəvi dövləti arasındakı ticarət əlaqələrində müəyyən çətinliklər ortaya çıxdı. 1667-ci ildə Şah Abbas dünyasını dəyişdi. Rusiya ilə münasibətlərin isti qalmasına çalışan Şah Abbasın ölümü bu münasibətlərin gələcək taleyinə heç də müsbət təsir göstərmədi.

XVII əsrin sonlarından etibarən beynəlxalq aləmdə baş verən hadisələr Rusiyanın Səfəvi dövləti ilə olan münasibətlərini müəyyən qədər arxa plana keçirdi. Xüsusilə də çariça Sofiyanın dövründə Türkiyə ilə münasibətlərin aydınlaşdırılması Rusiyanın xarici siyasətində üstün xətt təşkil edirdi. Bu dövlətin Avropada oynadığı rol Rusiyanın mənafelərinə heç də uyğun deyildi. Osmanlı Türkiyəsinin şərq siyasəti, xüsusilə onun Cənubi Qafqaza nüfuz etməyə çalışması Rusiyanı ciddi narahat edirdi.

I Pyotrun çar taxtına oturması Rusiya-Səfəvi münasibətlərində yeni bir mərhələnin başlanğıcını qoydu. Onun hakimiyyətə gəlməsi elə Rusiyanın öz tarixinin də yeni bir səhifəsini açdı. Həyata keçirdiyi islahatlar və müəyyənləşdirdiyi siyasət vasitəsilə I Pyotr Rusiyanın iqtisadi, siyasi, sosial, hərbi və digər sahələrində ciddi dəyişikliklərin yaranmasına, ölkənin güclənməsinə yol açdı. Bununla Rusiyanın Avropa və dünya nizamındakı yerində də dəyişikliklər baş verdi. Rusiya gücləndikcə daha böyük iddialar ortaya qoydu və ölkə sərhədlərinin cənuba doğru genişləndirilməsi də bu iddiaların tərkibində idi. Mövcud olan məlumatlara görə, hələ XVII əsrin sonlarında Rusiya Xəzərətrafı ərazilərin işğalını öz iddiaları sırasına daxil etdi və bu dənizi Rusiyanın daxili dənizinə çevirmək üçün yollar axtarmağa başladı (25).

Xəzər ətrafı ərazilərin işğalının həyata keçirilməsi üçün I Pyotr 1699-cu ildə Volqa donanmasının təşkil edilməsinə göstəriş verdi (26). Lakin I Pyotr həmin vaxt Xəzərətrafı ərazilərin işğalı üçün konkret tədbirlər həyata keçirməyə müvəffəq olmadı. Xüsusilə, də Avropa məkanında Rusiyanın üzləşməli olduğu müharibə bu dövlətin cənuba doğru irəliləmək planlarını təxirə salmağa sövq etdi. Rusiya sarayının bütün diqqəti, potensialı qərb cəbhəsinə yönəlsə də Xəzərətrafı əraziləri, o cümlədən Azərbaycan ərazilərinin işğal edilməsi heç də unudulmadı. Əksinə, Xəzərətrafı ərazilərin öyrənilməsi, bu ərazilərə işğalçı yürüşlər edilməsinə zəruri olan məlumatların toplanması üçün mümkün fürsətləri əldən buraxmırdı. XVII əsrin sonunda, XVIII əsrin ilk illərində belə bir fürsəti Rusiya sarayı üçün Azərbaycan ərazilərində yaşayan ermənilər və xristianlar yaratdılar. Ermənilər və Qarabağ xristianları Rusiyanın işğalçılıq siyasətinin vasitələrindən biri olmaq üçüni öz xidmətlərini təklif etdilər və Rusiya sarayında nəhayət ki, ermənilərin bu xidmətindən də yararlanmağı qərarlaşdırdılar. Mövcud olan tarixi sənədlərə əsasən belə güman etmək olar ki, ilk vaxtlar I Pyotr ermənilərin Rusiya sarayına yalmanmağına elə də ciddi yanaşmadı. Lakin sonradan I Pyotr onun işğalçılıq siyasətinin uğurunun elementi ola biləcək ermənilərdən yararlanmağı qərarlaşdırdı.

Yuxarıda qeyd edildiyi kimi, XVII əsrin sonlarında Səfəvi sarayının yarıtmaz siyasəti bütün ölkə ərazisində olduğu kimi Azərbaycanda da ciddi narazılıqlarla qarşılanırdı. Bu narazılıqlar kütləvi antidövlət çıxışları ilə mü-

şayiət olunur, mərkəzi hakimiyyət nümayəndələrinə qarşı itaətsizlik göstərilirdi. Ağırlaşan həyat şəraitinə qarşı heç şübhəsiz ki, Azərbaycan ərazisində yaşayan ermənilər və xristianlar da biganə qalmırdılar. Ölkədə mövcud olan xaos, ağır iqtisadi şərait onları da daha rahat həyat tərzi üçün düşünməyə sövq edirdi. İstər azərbaycanlılar və müsəlmanlar arasında, istərsə də ermənilər və xristianlar arasında həyatın yeniləşdirilməsinə istiqamətlənmiş ictimai baxışları özündə əks etdirən liderlər də meydana çıxardı. Şirvanda bütün bəylərbəyliyi, hətta müəyyən qonşu əraziləri də nəzarəti altına almağı bacaran Hacı Davud və Surxay xan bu ictimai fikrin lideri idisə, ermənilər və xristianlar arasında isə İsrail Ori kimi bir fırıldaqçı irəli atılmağa müvəffəq oldu. Hacı Davud və Azərbaycan ərazisində baş verən digər kütləvi çıxışların rəhbərləri narazı qaldıqları ictimai həyat tərzini ətrafına səfərbər edə bildiyi kütlələrin gücü ilə həyata keçirməyə çalışırdısa, İsrail Ori isə fırıldaq və təxribatları ilə fərqlənirdi. Qarşısına qoyduğu məqsədə çatmaq üçün Ori ona etibar edənlərə də fırıldaq gəlirdi, qəbul edildiyi Avropa dövlətlərinin rəhbərlərinə də, XVII əsrin sonlarından etibarən əlaqə qurmağa çalışdığı Rusiya sarayına da. XVII əsrin sonlarından başlayaraq Azərbaycan ərazilərinin işğalında vasitəçiliyə razı olan erməni ictimai fikrinin təmsilçisi kimi İsrail Ori "milli" mübarizə adı altında öz maraqlarını xeyli qabartmağı da yaddan çıxarmırdı.

Ermənilər və Qarabağ xristianları yaşadıqları inzibati-ərazi vahidləri daxilində çoxluq təşkil etmirdilər və həmin vahidlərdə ümumi ictimai fikrin təmsilçisi ola bilmirdilər. Ona görə də onlar Carda, Şirvanda və digər ərazilərdə baş verən kütləvi ictimai çıxışların oxşarı olan çıxışlar təşkil edə bilmirdilər. Baxmayaraq ki, bəzi tarixi sənədlərdə çoxsaylı erməni qoşunlarının toplana biləcəyi planlarından söz açılırdı. Əslində, bu da erməni saxtakarlığının başqa bir üzü idi. Tarixi araşdırmalar da göstərir ki, XVII əsrin əvvəllərində Azərbaycan ərazisində ermənilərin sayı bəzi tarixi sənədlərdə iddia olunanlardan xeyli az idi (27).

Buna görə də ermənilər xəyanət və siyasi təxribatlar yolunu tutdular. Onlar əvvəlcə Avropa dövlətləri, sonra da Rusiya vasitəsilə Azərbaycan ərazilərinin işğalı istiqamətində iş aparmağa başladılar. Çünki xristian işğallarından sonra Azərbaycan ərazilərini azərbaycanlılardan daha asanlıqla yadlaşdırmaq və ilk baxışdan xristian işğalçılara dəstək kimi görünə biləcək ermənilərin geniş əl-qol açmasına nail olmaq mümkün idi.

Qeyd etmək lazımdır ki, İsrail Orinin Rusiya sarayı ilə bağlı sərgüzəştləri başlamazdan əvvəl o, Avropada Azərbaycan ərazilərinin xristian işğalına dəstək olacaq dövlətlər tapmağa çalışdı. Bu cəhdləri bir nəticə verməyəndə Ori öz bəxtini Rusiyada sınamağı qərara aldı. Bu sınağa da İsrail Ori özünün Qarabağ məlikləri adından I Pyotra tərtib etdiyi müraciətlə

başladı. İsrail Ori 1699-cu il aprelin 29-da 10 nəfər məlik tərəfindən imzalanıb ona verilmiş ağ kağıza sonradan saxta müraciət əlavə etdi və onu Rusiya sarayına göndərdi (28).

Erməni tarixi ədəbiyyatında İsrail Ori erməni milli azadlıq hərəkatının lideri kimi çox geniş vəsf olunur. Amma əslində, o, konkret tarixi şəraitdə üzə çıxmış olan adi bir fırıldaqçı idi və elə erməni tarixi ədəbiyyatında bunu sübut edən faktlar mövcuddur. İ.Ori I Pyotra saxta müraciəti göndərməsindən bir müddət əvvəl, konkret olaraq 1699-cu il aprelin 4-də Eçmiədzin kilsəsində oldu və burada özünün erməni kilsəsinin təmsilçisi kimi təsdiqlənməsinə nail olmağa çalışdı. Bunun üçün o, Avropadan gətirmiş olduğu məktubu da Eçmiədzin kilsəsinə təqdim etdi. Lakin Eçmiədzində İsrail Ori erməni kilsəsinin təmsilçisi hüququnu ala bilmədi. Belə olanda o, Qarabağdakı Gəncəsar kilsəsinə yollandı ki, heç olmasa alban kilsəsindən təmsilçilik hüququnu əldə etsin (29). Belə bir təmsilçilik səlahiyyəti olmadan İ.Ori heç bir yerdə ermənilər adından danışa bilməzdi.

Beləliklə, Eçmiədzindən rədd cavabı alan İ.Ori Qarabağa gəldi və təmsilçilik hüququ əldə etmək üçün müxtəlif bəhanələr ortaya atdı. O, Avropada görüşdüyü kilsə mənsublarının Azərbaycan ərazisində yaşayan ermənilərə kömək etmək niyyətində olduğunu bildirdi. İ.Orinin qaldırdığı məsələlərin müzakirəsi üçün Gəncəsar kilsəsində patriarx və baş arxiyepiskopun iştirakı ilə iclas çağırıldı. Onlar İ.Orinin dinlədilər. İ.Ori bildirdi ki, Avropanın ən güclü dövlətlərindən birinin adından onların yanına gəlmişdir. O, erməni ruhanilərini aldatmağa çalışırdı ki, müdafiəsinə arxalandığı monarx dini təəssübkeşlik üzündən ermənilərin imdadına çatmağa, buradakı xristian kilsələrinə, xəstəxanalara ianələr verməyə hazırdır. Gəncəsar ruhaniləri isə nə müəyyən şərtlər daxilində göndəriləbiləcək Avropa himayədarlığını qəbul etdilər, nə də İ.Oriyə Gəncəsar patriarxlığının təmsilçilik səlahiyyətini verdilər (30).

Erməni və alban kilsələrinin təmsilçiliyini əldə edə bilmədiyi üçün Avropaya qayıda bilməyən İ.Ori erməni məlikləri adından hazırladığı müraciətlə Rusiya sarayına üz tutdu. Bu müraciətin birinci hissəsi çar I Pyotrun tərifinə, ona bəslənilən ümidlərə həsr olunmuşdu. Ermənilər çara və onun ordusuna öz arzularını ifadə etdikdən sonra onun köməyinə pənah apardıqlarını bildirirdilər. Müraciətdə rus çarına itaət və sədaqət ifadə olunur və ondan ermənilərin imdadına yetişmək xahiş olunurdu. Müraciətdə bildirilirdi ki, hələ 1678-ci ildə Rusiyaya müraciət edilməsi ermənilər tərəfindən qəbul olunmuşdu və elə o vaxtlardan onlar gözlərini rus taxttacına dikmişdilər. Orada yazılanlardan sonra belə məlum olurdu ki, 1678-ci ildə Eçmiədzində olan gizli yığıncaqda üç nəfərlik nümayəndə heyəti seçilmişdi ki, ermənilərin müraciəti rus çarına çatdırılsın. Guya bu üç nəfər Rusi-

yaya getmək üçün Konstantinopola yollanmışdı. Ancaq Səfəvi qoşunlarının gürcülərə qarşı başladığı müharibəyə görə həmin nümayəndə heyətinin Moskvaya getməsi məqsədəuyğun bilinməmiş və geri çağırılmışdı (31).

Buradan belə məlum olurdu ki, ermənilər hələ 1678-ci ildən Rusiya hökumətinin Azərbaycan torpaqlarına müdaxilə etməsinə, Qarabağda və Qarabağ ətrafı ərazilərdə rus süngüsü üzərində erməni dövləti yaradılmasına can atmışdılar.

Müraciətin digər bir hissəsi ermənilərin müsəlmanların zülmü altında qalmasına və bu zülmdən nicat tapması üçün rus ordusunun tezliklə bölgəyə yürüş etməsi zəruriliyinə həsr edilmişdi. Rus çarından iltimas edilirdi ki, səxavət göstərsin, erməniləri əsirlikdən qurtarsın, onlara azadlıq versin. Ermənilər hətta I Pyotru şirnikləndirməyə də çalışırdılar. Onlar bildirirdilər ki, Qafqaza qoşun çıxarsa, çarın şöhrəti və şərəfi daha da genişlənəcəkdir. Guya erməni məlikləri rus çarını inandırmağa çalışırdılar ki, qorxularından özləri onun yanına gələ bilmirlər. Ona görə də onların bütün arzularını və dərdlərini İ.Oridən öyrənə bilər. İ.Orinin hazırladığı müraciətdə xüsusi olaraq vurğulanırdı ki, biz və bizim bütün xalqımız böyükdən kiçiyə kimi hamı rus çarının hakimiyyəti altın düşməyə, son nəfəsə qədər həyatımızı və sərvətlərimizi çarın xidmətinə verməyə hazırıq.

1701-ci ilin ortalarında İ.Ori Rusiyanın paytaxtına gəlib çıxdı. O burada Rusiya sarayının nümayəndələri ilə görüşdü, özünün Avropa dövlətləri tərəfindən müdafiə olunduğunu və Cənubi Qafqaza hərbi müdaxilə edilməsi planlarının mövcudluğundan danışdı. Rusiya sarayının əyanları İ.Oriyə ehtiyatla yanaşdılar. Amma eyni zamanda Avropa dövlətlərinin Cənubi Qafqaza müdaxilə etmək planları haqqında söylənilənlər də Rusiya sarayında biganə qarşılanmadı. Rusiyanın Avropada möhkəmlənməyə çalışdığı bir vaxtda Avropadakı müəyyən qüvvələrin Rusiyanın cənub sərhədi boyu ərazilərə müdaxilə etmək ehtimalı müəyyən nigarançılıqla qarşılandı. Ona görə İ.Ori ilə müxtəlif səviyyələrdə bir neçə söhbət aparıldı, ondan məsələnin mahiyyəti haqqında daha geniş məlumat alınmasına cəhd göstərildi.

Konkret tarixi şəraitdə Rusiyanın İsveçlə müharibədə olduğu bir vaxtda Cənubi Qafqaza qoşun çıxarmaq planı olmasa da, Rusiya sarayı belə bir addım atacağından da imtina etmədi. Rusiyanın ağır durumda olduğunu İ.Ori də görürdü. Amma bununla belə, o, Rusiyanı necə olursa-olsun Cənubi Qafqaza hərbi müdaxiləyə cəlb etməyə çalışırdı. Ona görə İ.Ori Rusiya sarayının əyanları ilə görüşlərində Xəzərboyu ərazilərin işğalı üçün 5 minlik bir dəstənin kifayət edəcəyini söylədi. Onun fikrincə, hərbi qüvvələrin çatışmayacağı təqdirdə Xəzəryanı ərazilərə kazak dəstələri də göndərmək olardı. Kazak dəstələrinin göndərilməsi Rusiyanın ehtiyatda saxladığı qüvvələrin kənara göndərilməsinə də ehtiyac yaratmazdı. İ.Ori Azərbaycan

ərazilərinə çıxarılacaq rus qoşunlarına ermənilərin də dəstək verəcəyini bildirir və ermənilər haqqında fantastik məlumatlar verməkdən də çəkinmirdi. O, Şamaxını erməni şəhəri kimi təqdim edir, hər bir müsəlman kəndinə bölgədə 10 erməni kəndinin düşdüyünü iddia edirdi (32).

Bir daha qeyd edilməlidir ki, Rusiya Xəzəryanı ərazilərin Səfəvi dövlətindən qoparılmasına xüsusi önəm verirdi. Ona görə Rusiya sarayının əyanları İ.Oridən rus qoşunlarının Cənubi Qafqaza müdaxiləsini necə gördüyü barədə fikirlərini soruşdu. İ.Ori də Rusiya qoşunlarının Cənubi Qafqaza müdaxiləsi ilə bağlı öz planını hazırladı və təqdim etdi. Doğrudur, İ.Ori öz planında əsas vurğunu bölgədə erməni dövlətinin yaradılmasına yönəltmişdi. Lakin o bu məqamı da qəbul edirdi ki, Cənubi Qafqazda erməni dövləti yaradılması üçün bu bölgə gərək əvvəlcə Rusiya tərəfindən işğal olunsun.

İ.Ori tərtib etdiyi planına (33) Rusiya tərəfindən münasibət bildirilməsini xahiş etdi. O bildirirdi ki, əgər rus çarı irəli sürülən təklifləri qəbul etmiş olsa onda onun həyata keçirilməsi planları üzərində də düşünmək olar. Onun fikrincə, bölgəyə qoşun yeridilməsi və ermənilərin müsəlmanların hakimiyyətindən azad edilməsi üçün aşağıdakı işlər görülməli idi:

1. Rusiya çarı əvvəlcə bu planın həyata keçirilməsi üçün ayrılacaq qoşunların sayını müəyyənləşdirməli idi. Ümumi miqdarı 25 min olan qoşunun 10 mini süvari və 10 mininin də piyada olması lazım bilinirdi. Təklif olunurdu ki, qoşunlar kazaklar və çərkəzlər arasından toplansın. Çünki onların toplanması sakit keçə bilər və heç kimdə şübhə yaratmazdı. Bundan başqa 6 ədəd top, 100 ədəd bomba, barıt, habelə 100 ədəd döyüş bayrağı tələb olunurdu. Döyüş bayraqları da toplanmalı olan erməni könüllü dəstələrinə paylanmalı idi. Ori təklif edirdi ki, bu döyüş bayraqlarının bir üzündə çarmıx, o biri üzündə isə çarın gerbi təsvir edilsin.

2. Təklif olunurdu ki, qoşun hissələrinin döyüş hazırlığı üçün çar dərhal əmr versin ki, oktyabr ayında artıq düşmən üzərində hərəkət etmək mümkün olsun. Nəzərdə tutulan bütün qoşundan 5 min süvari və 5 min piyada hərəkət etməli və 3 gün ərzində 20 mil yolu qət edərək Şamaxıya yetişməli idilər. Qüvvələrin limana enməsi, çevik süvari dəstələrinin hərəkət yolu boyunca irəli göndərilməsi düşməni qabaqlamış və bununla da təhlükəsizliyi təmin etmiş olardı. Şamaxıda qalanın daş hasarının olmadığı bildirilirdi. Orada xan mühafizəsiz yaşayırdı, ətrafında cəmi 150 nəfər xidmətçisi var idi. Guya bütün əhalinin əsasını da ermənilər təşkil edirdilər. Şəhəri iki saat ərzində işğal etmək mümkün idi. Orada 10 min xristian süvarisinin toplanması imkanı da diqqətlə çatdırılırdı. Qəzada çoxlu atlar var idi. Həmin atlar hesabına çar ordusunun piyadalarını da süvariyə çevirmək mümkün idi.

3. Şamaxının tutulmasını İ.Ori erməni torpaqlarının açarının əldə edilməsi kimi qiymətləndirirdi. Su yolu ilə göndərilmiş qoşunun ardınca digər qüvvələr də quru yolla hərəkət etməli idi. Bu qüvvələr Həştərxandan keçib Dərbəndə gəlməli və oradan erməni torpağına keçməli idi. Su yolu ilə gəlmiş 10 minlik qoşunun Şamaxının işğalından sonra dörd alaya bölünməsi təklif olunurdu. Bu alaylardan biri Gəncəyə doğru irəliləməli idi. Orada xanın ətrafında cəmi 100 adamın olduğu iddia edilirdi. Orinin yazdığına görə, bütün qalan adamlar erməni idi. İkinci alayın Lorentə yola düşməsi məsləhət bilinirdi. Orada da bəyin ətrafında cəmi 20 adam yaşayırdı və onların məhv edilməsi də çətin deyildi. 3-cü alayın Qafana, 4-cü alayın isə Naxçıvana getməsi lazım bilinirdi. Qafan bəyini 20 nəfər, Naxçıvan xanlığını isə 200 nəfər qoruyurdu. Ori yazırdı ki, Naxçıvan xanı ermənilərin düşmənidir. Onun yazdığına görə, guya həmin məntəqələrdə erməni əhalisi çoxluq təşkil edirdi.

4. Dörd alayın göndərildiyi istiqamətdəki xanlar ermənilərin əsas düşməni hesab edilirdi. Həmin xanlar isə mənşəcə azərbaycanlılar idi. Orinin fikrincə, bu adamların aradan götürülməsi qarşıya qoyulmuş məqsədə çatmağı asanlaşdırmalı idi. Ori təklif edirdi ki, Araz çayına çatan kimi onun üzərində qurulmuş keçidlər tutulsun. Çünki Araz iti axan bir çay idi və keçidlər tutulmasaydı ondan adlamaq çətinləşə bilərdi. Ori bildirirdi ki, Şamaxıdan Araz çayına kimi olan ərazilərdə yad insanlar yoxdur. Orada yaşayanların hamısı xristianlar idi və onlar rus qoşunlarına yardımçı ola bilərdilər.

5. Naxçıvandan 15 mil məsafədə yerləşən Ordubad əhalisini Ori fars adlandırırdı. Halbuki, bu əhali azərbaycanlı idi. Ori bildirirdi ki, bu şəhərdə imkanlı adamlar yoxdur. Ancaq orada sənətkarlar yaşayırlar. Bu sənətkarlar həm odlu, həm soyuq silah, həm də parça istehsal edirlər. Ori yazırdı ki, Ordubadda istehsal olunan parça ilə 100 minlik orduya geyim hazırlamaq mümkündür. Naxçıvanda yaşayan ermənilərin isə rus ordusuna yazılacağı və rus çarına sədaqətlə xidmət göstərəcəyi ehtimal olunurdu.

6. Bildirilirdi ki, Naxçıvandakı erməni böyükləri və oradakı erməni hərbi qüvvələri rus bayrağı ilə təltif edildikdən sonra daha böyük istəklə yadlar üzərinə hücum çəkəcək və onlardan xilas olacaqlar.

7. Naxçıvanda toplanmış qoşunlardan 5 min nəfərlik bir dəstə Rəvan şəhərinə (İrəvan nəzərdə tutulur) göndərilməsi nəzərdə tutulurdu. Orinin məlumatına görə, orada 30 ədəd səhra topu və 200-ə qədər döyüşçü var idi. İrəvan ətrafında qalanın mövcudluğu da qeyd edilirdi. Orinin fikrincə, İrəvan elə də möhkəm deyildi və qəfil hücumla oranı almaq olardı. Ona görə də ora qəfil hücum edilməsini məqsədəuyğun bilirdi. Çünki orada barıt və digər döyüş əşyaları da var idi. Həmin əşyalar ermənilərə tapşırılmışdı. Şəhərdə 300 erməninin yaşadığı iddia olunurdu. Ori onu da yazırdı ki,

İrəvan qalasının iki qapısı var. Hər qapını bir nəfər gözətçi qoruyur. Qala divarının üzərinə qarovul qoyulmur. Şəhər ətrafında bağların olması da qeyd edilirdi. Ori bildirirdi ki, gecə ilə həmin bağa qoşun yeritmək, orada yerli ermənilərlə işbirliyi yaratmaq və qala qapılarının açılmasında onlardan istifadə etmək olardı. İ.Orinin Azərbaycan şəhərlərinin hərbi imkanları barəsində söylədiklərində bir qeyri-obyektivlik nəzərə çarpır. O, Rusiya dövlətinin nəzərinə çatdırırdı ki, Azərbaycan şəhərlərində (Ori onları fars şəhərləri adlandırırdı) yerli bəylərin, xanların heç bir döyüş potensialı yoxdur, hər bir bəyi və ya xanı olsa-olsa 20 nəfər qoruyur. Bununla İ.Ori heç şübhəsiz ki, rus çarını bölgəyə qoşun yeritməyə həvəsləndirmək, Azərbaycan ərazilərini çox asanlıqla tutacağına şirnikləndirmək istəyirdi. Sözsüz ki, həqiqət heç də Orinin təsvir etdiyi kimi deyildi. Əks-təqdirdə bölgədə 10 minlərlə hərbi qüvvə toplamağa qadir olan ermənilər 20-30 nəfərlə qorunan şəhərləri çoxdan ələ keçirmiş olardılar. Bunun üçün daha xaricdən qüvvə gətirməyə heç ehtiyac olmazdı.

8. Ori təklif edirdi ki, əgər İrəvanı hiylə yolu ilə almaq mümkün olmasa, onda onu mühasirəyə alıb əsas qoşun dəstələrinin gəlib çatmasını gözləmək olardı. Əsas qoşun dəstələrinin yetişəcəyi vaxta qədər isə ətrafda əsasını ermənilər təşkil edən məntəqələrin tutulması lazım bilinirdi. Şəhər ətrafında 3 qəzanın olduğu və həmin qəzaların da əhalisinin çoxunu ermənilərin təşkil etdiyini bildirirdi. Ori yazırdı ki, şəhər ətrafındakı qəbiristanlıqda qəbirlərin arasında toplar yerləşdirib qalanı atəşə tutmaq yaxşı olardı.

9. Quru yolla Rusiyadan hərəkət edən 15 minlik qoşunu Ori Gürcüstana göndərməyi təklif edirdi. O yazırdı ki, gürcü xanı müsəlmanlığı qəbul etsə də, onun qoşunlarının əsasını xristianlar təşkil edir. Rus qoşunları gürcü torpağına daxil olan kimi xan yenidən xristian məzhəbinə dönəcəkdir. Xristianlar isə bütünlükdə rus qoşunlarını yaxşı qarşılayacaqlar.

10. Oriyə görə, əgər fars şahı qoşun toplayıb hücuma keçmək istəsə, onda ilk növbədə Araz çayı boyunca istehkamlar qurulması məqsədəuyğun sayılırdı. Ori bildirirdi ki, burada fars qoşunlarına nəinki müqavimət göstərmək, hətta buradan irəli də hərəkət etmək və Təbriz şəhərini də tutmaq olardı. Oriyə görə, bu şəhər çox zəngin şəhər idi. Bu şəhəri ələ keçirməklə rus qoşunları çox böyük sərvətə nail ola bilərdilər. Ori rus dövlətini buna şirnikləndirməyə çalışır və bildirirdi ki, Təbriz xanının 80 ədəd topu olsa da şəhər ətrafında qala yoxdur. Bu da şəhərin tutulmasını asanlaşdıra bilərdi. Ori onu da əlavə edirdi ki, bu şəhər öz imkanlarına görə 100 minlik qoşunu yedizdirib, geyindirə bilər.

11. İ.Oriyə görə, Təbriz şəhəri işğal edildikdən sonra ətraf kəndlərdən çoxlu sərvət toplamaq olardı. Çünki həmin kəndlər zəngin kəndlər idilər.

12. Ori bildirirdi ki, Stepan Razin 3000-lik kazak dəstəsi ilə Qızılbaş dövlətinin Gilan şəhərini tutmuş və uzun müddət onu əlində saxlamışdı. Fars şahı şəhərin geri qaytarılmasına müvəffəq ola bilməmişdi. Yalnız müəyyən vaxtdan sonra S.Razin özü şəhəri tərk etmişdi. Onun fikrincə, rus kazakları elə indi də böyük həvəslə həmin şəhərin işğalında iştirak edirdilər. Çünki kazaklar orada çoxlu sərvət toplaya bilərdilər. Ori təklif edirdi ki, Həştərxandan hərəkət edən qüvvələr arasından kazaklar ayrılsın və Gilanın işğalına istiqamətləndirilsin. Ori qeyd edirdi ki, müdafiə üçün orada əlverişli yer vardır. Bəzi məntəqələrə 200 nəfər yerləşdirməklə 30 minlik qoşunun qarşısını saxlamaq olardı.

13. Ori bildirirdi ki, Təbriz və Gilan tutulduqdan sonra rus qoşunları qışı orada keçirə bilərlər. Ətrafdakı çoxlu kəndlərdən qış üçün zəruri olan ərzaq və yem toplamaq mümkündür. Orada yerləşdikdən sonra düşmən qüvvələrin nə edəcəyini də müşahidə etmək olardı. Onun fikrincə, fars qoşunları o ətrafa gəlməyəcəkdi. Çünki ətraf kəndlər erməni və ruslar tərəfindən qarət edildiyindən fars qoşunlarının ora gəlməsinin mənası yox idi.

14. Ori bir daha qeyd edirdi ki, əgər rus qoşunları bölgəyə qəfildən hücum etsələr 15 gün ərzində o yerləri tutmaq mümkündür. Ona görə qoşunların özü ilə ərzaq daşımasına ehtiyac görmürdü. Məntəqədə hər şey tapmaq mümkün idi. Ori onu da məsləhət bilirdi ki, qoşunlar gecə hərəkət etsin. Bu zaman onları müşahidə etmək olmazdı. Gündüz isə qoşunlar istirahət edə bilərdilər. Ətrafda nələrin baş verdiyini bilmək üçün yerli ermənilərdən kəşfiyyat işində istifadə edilməsi zəruri sayılırdı.

15. Ori əmin idi ki, rus qoşunları orada keçirdikləri qış ərzində fars qoşunlarının hücumlarına məruz qalmayacaqdır. Cəmi 38 min toplana biləcək şah qoşunları qış vaxtı şimala doğru hərəkət etməyəcəkdir. Çünki orada qışlamaq, ərzaqla təmin olunmaq çətin məsələ idi. Havalar yaxşılaşana kimi isə rus və erməni qoşunları strateji məntəqələri ələ keçirərək şah qoşunlarının irəliləməsinin qarşısını ala bilərdilər.

16. Ori bildirirdi ki, ermənilər və gürcülər ruslara qoşulandan sonra şah qoşunlarının sayı azalacaq və 20 minə enəcəkdir. Bu qoşun da əsasən Buxara xanı tərəfindən mövcud olan təhlükənin qarşısının alınması üçün nəzərdə tutulduğundan rus qoşunlarını elə bir təhlükə gözləməzdi.

17. Ori sonda bir daha xatırladırdı ki, mövcud şərait əməli addımlar atmaq üçün əlverişli fürsətdir. Çünki farslar zəifləmişdi və hər hansı müharibə hazırlığı aparılmırdı. Xristianlar isə əksinə, şah hakimiyyətinə qarşı ayağa qalxmaqdadırlar. Çox asanlıqla onları şah əleyhinə üsyana qaldırmaq olardı. Ori onu da əlavə edirdi ki, əgər yazdıqları uzunçuluq kimi görünə bilərsə, lazımınca sübutlar gətirə bilər.

Bütün bu yazılanlara, Orinin görüşlərinə və onun təqdim etdiyi sənədlərə baxmayaraq, mövcud olan sənədlər Rusiya rəhbərliyinin Ori və yoldaşı Minasın missiyasına hələ də şübhə ilə yanaşdığını göstərirdi. Məsələn, 1701-ci il iyunun 29-da İ.Ori rus məmurları tərəfindən sorğu-suala tutuldu, ondan irəli sürdüyü təkliflərin mahiyyəti barədə yenidən məlumat istənildi (34).

1701-ci il oktyabrın sonlarında I Pyotrun Orini qəbul edəcəyi açıqlandı. Arxiv sənədlərində Orinin rus çarı ilə görüşünün dəqiq tarixi göstərilmir. Bu görüşün oktyabrın 28-i ilə noyabrın 8-i arasında olduğu göstərilir.

Bir müddət sonra Rusiya sarayı İ.Orini Səfəvi dövlət ərazilərinə göndərməyi qərara aldı. İ.Ori və onun ətrafındakılar tacir adı ilə göndərilməli və İ.Oriyə çar tərəfindən ticarət fərmanı verilməli idi. O, Şamaxıya çatandan sonra həmin fərmanı Şamaxı xanına təqdim etməli və o da bu fərmanı Səfəvi şahına göndərməli idi. Həmin fərmana əsasən, guya İ.Ori at alveri üçün Şamaxıya gedirdi. Bu ad altında o istər Şamaxıda, istərsə də Şamaxıdan kənarda sərbəst gəzib dolaşa, istədiyi adamlarla görüşə, onlarla vədələşə, gələcək fəaliyyətlərini müzakirə edə və Rusiya üçün lazım olan məlumatları toplayıb Moskvaya göndərə bilərdi. Ancaq əvvəllər olduğu kimi, Rusiya sarayı Cənubi Qafqaza müdaxilə işində tələsməməyi qərarlaşdırdı. Tarixçilər bunun İsveçlə aparılan müharibə ilə bağlı olduğunu yazırlar. Bir müddət sonra çar özü də İ.Oriyə şifahi olaraq çatdırdı ki, hazırkı vəziyyətdə Rusiya İsveçlə müharibə aparır. Həmin müharibə sona çatdıqdan sonra Xəzərətrafı ərazilər məsələsi gündəliyə gələcəkdir. Bu minvalla İ.Ori Rusiya sarayının Xəzəryanı bölgələrə müdaxiləyə başlaması barəsində qərarını çox gözləməli oldu. Nəhayət, 1707-ci ilin əvvəlində İ.Orinin Rusiya dövlətinin nümayəndəsi kimi Səfəvi dövlətinə göndərilməsi qərara alındı. Həmin il fevral ayının 1-də ona Rusiya dövləti tərəfindən vəkalətnamə verildi.

Cənubi Qafqaza yollanarkən Orini böyük bir nümayəndə heyəti müşayiət edirdi. Bu nümayəndə heyətinin üzvlərinin sayı 50-yə çatırdı. Belə böyük bir səfirlik heyətinin gəlişi Şamaxıda təəccüblə qarşılandı. Şamaxı xanı dərhal bu barədə Səfəvi sarayına xəbər göndərdi və bildirdi ki, Moskvanın nümayəndəsi Roma papasının və Almaniya imperatorunun məktubları ilə birlikdə çox böyük bir nümayəndə heyəti ilə Şamaxıya gəlmişdir. Rusiya sarayının elçisinin əslən qarabağlı olması Şamaxı xanı tərəfindən nigarançılıqla qarşılanırdı və onun əsil niyyəti haqqında müəyyən mühakimələr də irəli sürülürdü (35).

Məlumatlar dərhal Səfəvi sarayına da çatdırıldı. Şah Sultan Hüseynə bildirildi ki, Roma kilsəsinin və Rusiyanın səfiri kimi Şamaxıya gələn İ.Ori həm də rus ordusunun polkovniki rütbəsini almış bir qarabağlıdır.

Şirvana yetişən kimi İ.Ori casusluq fəaliyyətinə başladı. O, Şirvan bəylərbəyliyinin dənizə giriş-çıxış yollarını öyrəndi, piyada və süvari qoşunları haqqında məlumat topladı. Qarabağ ərazisində olarkən ərazinin kəşfiyyatını apardı, bölgəyə gələn və gedən yolları müəyyənləşdirdi, ipəkçilik barədə məlumat topladı, bu işlə məşğul olanların bir çoxunu ələ alıb Rusiyaya getməsinə razı saldı (36).

Haqqında həyəcanlı məlumatlar alınmasına baxmayaraq, Səfəvi şahı onun İsfahana gəlməsinə icazə verdi və orada onu qəbul etdi. İ.Orinin İsfahandakı fəaliyyəti barədə konkret fikir söyləmək çətindir. Lakin onun gətirdiyi məktublara cavab olaraq Səfəvi şahı da I Pyotra məktub yazdı. Həmin məktubdan aydın olur ki, Rusiya çarı Səfəvi ərazisində ermənilərin guya sıxışdırıldığına toxunubmuş. Səfəvi şahı məsələyə münasibətini belə bildirirdi: "Roma papasının göndərişi ilə gəlmiş və sizin hüzurunuzda olmuş İsrail Ori guya bizim himayəmizdə yaşayan xristianların əziyyət çəkməsindən bəhs edir. Bütün dövlətdə olduğu kimi cinayət işlətmiş təbəələrin, eyni zamanda xristianların da cəzalandırılması bizim məmləkətimizdə də baş verir. Mənim təbəələrim arasında cəzaya layiq olanları var, ancaq çara hörmət xatirinə bir daha xəyanətkar hərəkətlərə yol verməmələri şərti ilə onları bağışlayıram və onlara tapşırılır ki, öz yerlərində sərbəst yaşaya bilərlər. Lakin bir daha hamıya təhlükəli olan hərəkətlərə yol verməsinlər" (37).

1710-cu ilin əvvəlində o, Səfəvilər dövləti ərazisindən Rusiyaya doğru hərəkətə başladı. İ.Ori 1701-ci ilin noyabrında Həştərxanda dünyasını dəyişdi. Lakin bundan qabaq o, topladığı kəşfiyyat materiallarının bir hissəsini Rusiyaya göndərməyə müvəffəq oldu.

### *3.A.Volınskinin Səfəvi dövlətinə elçilik missiyası*

Görünür, İ.Ori tərəfindən Azərbaycan əraziləri, bütünlükdə Səfəvi dövləti haqqında təqdim edilən məlumatlar Rusiya sarayını tam qane etməmişdi. Çünki bu səfərin ardınca Xəzəryanı ərazilərə digər elçiliklər və heyətlər göndərildi. Amma hələlik Rusiya dövləti hərbi müdaxiləyə əl atmaq fikrində deyildi. Ola bilsin ki, Rusiyanın cənuba doğru hərbi yürüşə keçməməsi Səfəri sarayında Rusiya ilə əməkdaşlığa və həmin əməkdaşlıq vasitəsilə daxili antidövlət çıxışlarını yatırmağa bir ümid yaratmışdı. 1713-cü ildə Rusiya ilə dostluq və ticarət müqaviləsi imzalamaq üçün Səfəvi sarayının Feyzulla bəy adlı birisini Peterburqa yollaması da (38) bununla bağlı ola bilərdi. Tarixi ədəbiyyatda Feyzulla bəyin Peterburqa səfərinin nəticələri haqqında elə də geniş məlumat yoxdur. İstənilən halda, bu səfərin nəticələrindən asılı olmayaraq Xəzəryanı ərazilərlə bağlı Rusiyanın niyyəti

qətiləşmişdi və Osmanlı dövləti ilə olan çəkişmələr isə Rusiyanı tez bir zamanda bu bölgəyə hərbi müdaxiləyə sövq edirdi.

Buna görə də I Pyotr hərbi yürüşə çıxmağı planlaşdırdığı əraziləri daha yaxşı öyrənməyə, Səfəvi dövlətinin hərbi-siyasi imkanları haqqında daha geniş məlumatlar toplamağa çalışırdı. Bu məqsədlə Səfəvi dövləti ərazisində daha mükəmməl kəşfiyyat işlərinin aparılması üçün bu dövlətin ərazisinə yeni bir heyət göndərilməsini qərara aldı. Bu heyətə Artyom Petroviç Volınski rəhbərlik etməli idi. Formal olaraq belə bir heyətin Səfəvi dövlətinə göndərilməsinə səbəb Səfəvi sarayının 1703-cü ildə Rusiya sarayına müraciət etməsi göstərilirdi. A.Volınskiyə bu formal səbəbin məntiqi nəticəsi kimi Səfəvi sarayı ilə danışıqlar aparmaq və iki dövlət arasında ticarət əlaqələri üzrə müqavilə bağlamaq vəzifəsi tapşırılmışdı (39).

Belə bir müqavilənin bağlanmasında da Rusiya maraqlı idi. Qeyd edildiyi kimi, Rusiya Şirvanda, Gilanda və digər məntəqələrdə istehsal olunan ipəyin Rusiya ərazisindən Avropa bazarlarına çıxarılmasını istəyirdi. Rusiyanın daxili bazarında da Səfəvi dövləti ərazisində istehsal olunan ipəyə geniş tələbat var idi.

A.Volınski elçiliyinin göndərilməsi barədə I Pyotr 30 may 1715-ci ildə Şah Sultan Hüseynin adına fərman imzaladı və həmin il iyul ayının 7-də də A.Volınskinın heyəti Peterburqdan yola düşdü. A.Volınskini kifayət qədər böyük bir nümayəndə heyəti müşayiət edirdi. Lopuxin adlı birisi ona köməkçi kimi verilmişdi. Heyətin tərkibində məmurlar, zabitlər, keşişlər və digər şəxslər var idi. A.Volınski işlərinin yaxşı qurulması üçün Avropa ölkələrindən də bir neçə mütəxəssisi də öz heyətinə cəlb edə bilmişdi (40). Bütünlükdə isə A.P.Volınskinin elçiliyinin tərkibinə 71 nəfər daxil idi və belə böyük bir heyətlə o, Rusiya çarı tərəfindən verilən tapşırıqları yerinə yetirməli idi.

Rusiya çarı gələcək planlarının yerinə yetirilməsi üçün A.Volınskinin elçiliyinə xüsusi əhəmiyyət verirdi və bu elçiliyin onu maraqlandıran kəşfiyyat materiallarını toplayacağına ümid edirdi. Elçiliyin uğurla başa çatdırılması üçün I Pyotr tərəfindən xüsusi təlimat hazırlanmışdı və həmin təlimatda elçiliyin görməli olduğu işlər öz ifadəsini tapmışdı. I Pyotr bu təlimatı təkrar-təkrar gözdən keçirmiş və ona bir sıra əlavələr və düzəlişlər etmişdi. Bununla da o, A.Volınskinin diqqətini bu və ya digər məsələlərə cəlb etmişdi (41).

Təlimatın ilk bəndlərində bildirilirdi ki, A.Volınski Səfəvi dövlətinə yollanarkən həm dəniz, həm də quru yoldan istifadə etsin və bu zaman getdiyi marşrutun kəşfiyyatını aparsın. Tələb olunurdu ki, hərəkət zamanı ərazini diqqətlə nəzərdən keçirsin, Xəzər dənizinə hansı böyük çayların tökülməsi, həmin çayların hansı hissəsinə qədərin hərəkət üçün yararlı olması,

gəmiçilik üçün mümkünlüyü, Xəzər dənizi ilə Hindistan arasında su əlaqəsinin olması haqqında məlumat toplasın. I Pyotru eyni zamanda maraqlandırırdı ki, Xəzər dənizi sahilindəki limanlarda Səfəvi şahının hərbi və ya ticarət gəmiləri varmı, Gilanın şəraiti necədir, Gilanı hansı dağlar əhatə edir və bu dağlardan keçid yolları varmı və s. A.Volınski bu məlumatları toplayandan sonra onları öz gündəliyinə salmalı idi.

Təlimatda V.Volınskiyə məsləhət bilinirdi ki, I Pyotrun fərmanının təqdim olunması üçün dərhal şahla görüşməyə tələsməsin, saray əyanları ilə görüşsün, xarici elçilərin şah tərəfindən necə qəbul edilməsi təcrübəsini öyrənsin. Təkid olunurdu ki, A.Volınki saray əyanları ilə görüşün, sarayın vəziyyətindən və adət-ənənələrindən daha yaxşı xəbərdar olsun. Şahla gö-rüşdüyü zaman isə o, Rusiya ilə dostluq münasibətlərinin genişləndirilməsinə meylli olduğunu çatdırmalı, Rusiya tərəfindən şah sarayına elçiliyin əvvəldən göndərilməsinin planlaşdırıldığını, lakin dövlətin cəlb edildiyi müharibələr üzündən bunun ləngiməli olduğunu söyləməli idi.

Bütünlükdə, I Pyotr tərəfindən imzalanmış təlimatla A.Volınskiyə həvalə olunmuş vəzifələri üç qrupa bölmək olar: birinci qrup vəzifələr sırf kəşfiyyat xarakterli vəzifələr idi və A.Volınski Rusiyanın Xəzərboyu ərazilərə hərbi müdaxiləsi üçün zəruri olan məlumatları toplamalı idi. İkincisi, iqtisadi xarakterli vəzifələr idi. A.Volınski Rusiyanın iqtisadi maraqlarını təmin etmək üçün Səfəvi dövlətinin ipək ticarətinin əsasən Rusiya ilə aparılmasına çalışmalı idi. Üçüncüsü isə, rus səfiri ermənilərin ələ alınmasına çalışmalı idi. A.Volınski ermənilərin əhval-ruhiyyəsini öyrənməli, onların başbilənlərini ələ almalı, tacirlərini Rusiya ilə ticarətə sövq etməli idi.

Kəşfiyyat xarakterli vəzifələrə gəlincə, konkret olaraq tələb olunurdu ki, ehtiyatla və şübhə yaratmadan Səfəvi vilayətlərində neçə qalanın olması, onların harada yerləşməsi, hərbi qüvvələrin, piyadaların, atlıların, artilleriya və digər qüvvələrin mövcudluğu, qalaların necə qorunması, qoşunların və artilleriyanın necə yerləşdirilməsi, onların sayının artması imkanları, müharibədə Avropa döyüş taktikasının istifadə olunub-olunmaması barəsində məlumat toplasın.

Səfəvi şahının Osmanlı dövləti ilə münasibətləri, Omanlı dövlətinə qarşı müharibə başlamaq ehtimalları, Səfəvi dövlətinin Osmanlıya qarşı hər hansı bir dövlətlə ittifaq yaratmaq meyli ilə bağlı məlumatlar da Rusiya çarını maraqlandırırdı.

A.Volınskidən tələb olunurdu ki. Rusiya təbəəsi olan tacirlərin fəaliyyətinin genişləndirilməsi, onların qazanclarının və dövlətə verəcəkləri faydanın artırılması üçün yollar arasın. Rusiyanı Səfəvi dövləti ərazisindən Hindistanla əlaqə yaradılması, Səfəvi-Hindistan əlaqələrinin xarakteri, bu dövlətlərin ərazisində hansı mallara daha çox ehtiyac olması, o dövlətlərin ərazisin-

dən hansı malların gətirilməsinin mümkünlüyü barədə məlumatlar da maraqlandırırdı. Təlimatda bildirilirdi ki, bu məsələlərlə bağlı ətraflı yazılı məlumatlar hazırlansın.

A.Volınskinin qarşısında belə bir vəzifə qoyulurdu ki, Səfəvi şahı ilə danışıqlar zamanı rus tacirlərinin sərbəst ticarətinə nail olsun, Səfəvi dövləti ərazisində hər cür malların alınmasına və Rusiyaya gətirilməsinə icazə əldə edilsin. Təlimatda Gilanda istehsal olunan ipəyin Rusiyaya gətirilməsinə ayrıca toxunulurdu. Rusiya dövləti istəyirdi ki, rus tacirləri azad şəkildə burada istehsal olunan ipəyi alıb gətirmək imkanına malik olsun, erməni tacirlərinin Rusiyaya gətirdiyi ipək məhsullarının həcmi daha da artsın. Yaradılmış imkanlara baxmayaraq erməni tacirlərinin bu sahədə fəallıq göstərməməsi Rusiyanı heç də razı salmırdı. Ona görə də A.Volınski Səfəvi şahı ilə danışıqlarında bu məsələyə də toxunmalı, Yeni Culfa erməni tacirlərinin Rusiyaya istiqamətləndirilməsinə təsir göstərməsini xahiş etməli idi. Həm də onun nəzərinə çatdırmalı idi ki, Rusiya ilə ticarət həm yolların yaxınlığı, həm də təhlükəsizliyi ilə faydalı ola bilərdi. Danışıqlar zamanı şaha xatırladılmalı idi ki, hələ rus çarı Aleksey Mixayloviçin dövründə Rusiya ilə erməni tacirləri arasında müqavilə bağlanmışdı. Həmin müqaviləyə görə ermənilər ipək məhsullarını ya Rusiyaya gətirməli, ya da Rusiyanın su yolları ilə Avropaya daşımalı idi. Yəni erməni tacirlərinin dəvə karvanları ilə ipəyi Hələb və Smirnəyə və oradan da Avropaya aparmaqdansa Rusiya yolunu seçmələri hər iki tərəf üçün qarşılıqlı fayda gətirə bilərdi. A.Volınski şah və onun ətrafındakılardan başqa, erməni tacirlərinin özləri ilə görüşməli və onları da Rusiya ilə ticarət dövriyyəsinin artırılmasına cəlb etməli idi.

Nəhayət, ermənilərin öyrənilməsinə gəlincə A.Volınskinin qarşısına belə bir vəzifə qoyulmuşdu ki, erməni xalqı ilə bağlı kəşfiyyat aparsın, onların sayının nə qədər olması, harada yaşamaları, onların başbilənlərinin və tanınmış adamlarının Rusiyaya münasibəti barədə məlumat toplasın. A.Volınskidən tələb olunurdu ki, ermənilərə şəfqətlə yanaşsın, onları dostluğa cəlb etsin, oralarda başqa xristian xalqların olmasını və varsa onların vəziyyətini öyrənsin.

Erməni tarixçiləri I Pyotrun ermənilərə münasibətinə milli-azadlıq hərəkatına yardım kimi qiymət versələr də, bu cümlələrdən də görünür ki, rus çarını heç də ermənilərin milli-azadlıq hərəkatı düşündürmürdü. O çalışırdı ki, bölgəyə qarşı təcavüz zamanı ermənilərdən və digər xristian xalqlardan bir alət kimi istifadə etsin. Buna görə də o tələb edirdi ki, ermənilərə qayğı göstərilsin, onların ələ alınmasına diqqət yetirilsin. Rusiya sarayına çatan məlumatlara görə, Səfəvi sarayı Rusiya tərəfdən Volqa çayında gəmilər tikilməsindən, Xivə xanlığında qala qurulmasından xəbər tutmuşdu. A.Volınski bu məsələ ətrafında da iş aparmalı və şah sarayını inandırmalı idi

ki, görülən həmin işlər hərbi xarakter daşımır və yalnız rus tacirlərinin təhlükəsizliyinin təmin edilməsi üçün görülür. A.Volınski Səfəvi dövlətində hansı xarici dövlətlərin səfirliklərinin olmasını da Rusiya sarayına çatdırmalı idi. A.Volınski eyni zamanda şah tərəfindən əsir götürülmüş gürcü şahzadəsi Vaxtanq Leonoviçin harada saxlanması barəsində də məlumat toplamalı idi.

Belə geniş tapşırıqlar alan A.Volınski 1716-cı ilin iyulunda onun heyəti üçün ayrılmış üç böyük gəmi və üç barjda Həştərxandan yola düşdü və bir də sentyabrın 6-da Niyazabad limanına çatdı. Şirvan bəylərbəyi A.Volınski elçiliyinin Niyazabada çatmasını eşidən kimi onu qarşılmağa və mühafizəsinin təmin edilməsinə 200 nəfərlik atlı dəstəsi göndərdi. Atlı dəstəsinin müşayiəti ilə elçilik Şamaxıya yollandı. Mövcud olan məlumatlara görə, A.Volınski öz heyəti ilə birlikdə üç ay Şamaxıda qaldı. Həmin müddət ərzində o, Rusiya sarayı tərəfindən verilən tapşırığın icrası ilə də məşğul oldu, Şirvanla bağlı həm hərbi xarakterli, həm də ticarət xarakterli məlumatlar topladı. A.Volınski bir də 1716-cı il dekabrın 6-da müşayiətçi dəstə ilə birlikdə Şamaxıdan İsfahana doğru hərəkətə başladı (42).

Tarixi ədəbiyyatda olan məlumata görə, A.Volınski 1717-ci ilin martında İsfahana çatsa da, ona şah sarayı tərəfindən lazımi diqqət və qayğı göstərilmədi. Hətta onun qarovul altında saxlandığı və hərəkət azadlığının məhdudlaşdırıldığı da bildirilir (42).

Digər məlumatlara görə isə, şah sarayı A.Volınskinin elçiliyinə kifayət qədər isti münasibət göstərdi. Baxmayaraq ki, o, Şah Sultan Hüseynlə təxminən 2 aydan sonra görüşə bilmişdi. Şah Sultan Hüseyn A.Volınskinin elçiliyini qəbul edəndən sonra Rusiya çarına çoxlu qiymətli hədiyyələr bağışladı. Həmin hədiyyələr arasında bir fil və iki bəbir var idi. Eyni zamanda azad ticarət aparılması haqqında Rusiya tərəfinin təklifi şah tərəfindən qəbul edildi. Nəticədə, 1717-ci il iyun ayının 30-da A.Volınski ilə etimadüddövlə Fətəli xan tərəfindən Səfəvi və Rusiya dövlətləri arasında ticarət münasibətləri haqqında müqavilə imzalandı. 10 maddədən ibarət olan bu müqaviləyə əsasən Rusiya tacirlərinə Səfəvi dövləti ərazisində sərbəst ticarət etmək hüququ verilirdi. Müqaviləyə görə, həm rus, həm də yerli erməni tacirlərindən aldıqları xammal üçün vahid rüsum tutulması müəyyən olunmalı idi (43).

Səfəvi dövlətinin ərazisində A.Volınski yerli ermənilərin vəziyyəti və onların Rusiya dövlətinə münasibəti haqqında məlumatlar toplamağa başladı. Ancaq A.Volınski bölgədə olduğu zaman Rusiya tərəfindən qayğı göstərilən ermənilərin Rusiyaya olan münasibətinin də şəxsi maraqdan o yana keçmədiyinin şahidi olmuşdu. Bu məsələ şah əyanları ilə olan görüşlərdə də müzakirə edilmiş və qarşılıqlı danışıqlar zamanı ermənilərin öz vədlərinə heç də sədaqətli olmadığı diqqət mərkəzinə çəkilmişdi. Bu baxımdan

A.Volınskinin şah sarayının yüksək vəzifəli əyanlarından olan Etimadüddövlə ilə olan söhbəti xarakterikdir. Etimadüddövlə həmin söhbətində bildirmişdi ki, doğruluğuna inanmasa da aldığı məlumatlar Rusiyanın xarici siyasəti haqqında narahatçılıq yarada bilər. Onu da əlavə etmişdi ki, bu barədə söz-söhbətlər Culfa ermənilərі tərəfindən yayılır. A.Volınski Etimadüddövləni inandırmağa çalışmışdı ki, belə söhbətlərə diqqət yetirməsin. Çünki hər iki tərəfdə qarşılıqlı münasibətlərin yaxşılaşmasını istəməyən qüvvələr vardır. O qeyd etmişdi ki, xüsusilə ermənilərə inanmaq lazım deyil. Ona görə ki, onlar ya öz məqsədləri üçün, ya da şah təbəəliyindən azad olmaq məqsədilə mübahisələr üçün qəsdən bəhanələr axtarırlar.

İki dövlət arasında ticarət əlaqələrinin azalması ilə bağlı Rusiyanın verdiyi notaya şah sarayının cavabında ermənilərin öz vədlərinə və sözlərinə əməl etməməsi əsas gətirilirdi. Notada deyilirdi ki, haqqında danışılan ermənilər öz müqavilələrinin və vədlərinin əskinə olaraq Rusiyaya çox miqdarda ipək aparırdılar. Ona görə Rusiya tərəfinə də tövsiyə olunurdu ki, ermənilərdən öz müqavilələrinə əməl etmələri tələb olunsun. Notaya verilən cavabda deyilirdi ki, tacirlərin necə ticarət etmələri onların öz ixtiyarındadır və onları Rusiyaya qayıtmağa məcbur etmək olmaz.

Şah tərəfindən birmənalı şəkildə bildirilirdi ki, iki dövlət arasında qarşılıqlı ticarət dövriyyəsinin azalmasında erməni tacirlərinin günahı heç də az deyil. Əgər onlar öz mallarını Rusiyaya daşıyarlarsa, bu onlara da xeyir gətirərdi.

Erməni ticarət kompaniyasının imzaladığı müqavilələrə kifayət qədər məsuliyyətsiz yanaşması Rusiya dövlətinin nümayəndələrini heç də razı salmırdı. Ona görə A.Volınski bölgədə olarkən ayrı-ayrı erməni tacirlərini Rusiyaya tərəf cəlb etmək istəyir, onlara mümkün yardımı etməyə çalışırdı. Məsələn, o, Qarabağdan olan Manusov adlı erməni tacirinin öz ticarətini Rusiya vasitəsilə həyata keçirməsinə xeyli köməklik göstərmişdi. Manusov əvvəllər ipək məhsullarını Hələb vasitəsilə Avropaya daşıyırdı. Onun Rusiyaya meyllənməsi A.Volınskini sevindirmişdi və o, arzulayırdı ki, digər ermənilər də Manusovun yolunu təkrar etsinlər (44).

Hər halda Rusiya dövləti ümid edirdi ki, imzalanmış müqavilədən sonra Rusiya ilə Səfəvi dövləti arasındakı ticarət əlaqələri xeyli genişlənəcək, erməni tacirlərinin Rusiyaya meyllənməsi güclənəcəkdir. Ancaq bağlanılan müqavilə heç də gözlənilən nəticəni vermədi. Çünki Səfəvi dövləti daxilində siyasi böhran güclənmişdi, mərkəzi hakimiyyət kifayət qədər zəifləmişdi, yerlərdə özbaşınalıqlar artmışdı. Ona görə də mərkəzi dövlətin bağladığı müqavilə yerlərdə öz həllini tapmırdı, yerli hakimlər müstəqilləşməyə səy göstərirdilər. Digər tərəfdən də erməni tacirləri Rusiya ilə bağladıqları müqaviləyə əməl etməkdən çox uzaq idilər. Onlar öz ticarətini istədikləri

kimi qururdular. Satılacaq məhsulların başqa yollarla Avropaya daşınması isə Rusiyanın iqtisadi maraqlarına cavab vermirdi. Ona görə də A.Volınski Rusiya dövləti tərəfindən erməni tacirləri üçün müəyyən edilmiş bütün güzəştlərin ləğvi haqqında vəsatət qaldırdı. Rusiya dövləti həmin vəsatətə əməl etməyi məqsədəuyğun saydı və bu məsələ ilə bağlı 1719-cu il iyulun 6-da çar fərmanı imzalandı (45).

Fərmanda göstərilirdi ki, ermənilərlə əvvəllər başlanmış mübahisələr əsasında Səfəvi dövləti ərazisində istehsal olunmuş bütün ipək məhsulları tam şəkildə Rusiyaya çıxarılmalı və ipək alverində Türkiyədən və digər yerlərdən keçən marşrutlardan imtina edilməli idi. 1711-ci ildə Rusiya çarı tərəfdən göstərilən qayğı nəticəsində Rusiya ilə olan ticarətin artacağına ümid edilirdi. 1711-ci il may ayının 14-də Senat tərəfindən qəbul olunmuş sənədə uyğun olaraq çar ermənilərin Rusiya ərazisində almaz, mirvari və başqa qiymətli daşlarla alverinə bütün gömrük vergilərini ləğv etmişdi. Rusiya dövlətinin fikrincə, ermənilər onlara göstərilən bu qayğının qədrini bilməlidirlər. Ona görə də qərara alınırdı ki, Rusiya ərazisində erməni tacirlər üçün nəzərdə tutulan bütün güzəştlər ləğv edilsin. Ermənilər Rusiya ərazisində ticarət etmək fikrinə düşsəydilər, onda onlar digər xarici tacirlər kimi ticarət üçün nəzərdə tutulan bütün vergiləri ödəməli idilər.

Qeyd etmək lazımdır ki, rus dövlətinin ermənilərin naxələfliyinə qarşı qəbul etdiyi qərarlar bir də Xəzəryanı ərazilərin Rusiya tərəfindən işğal olunmasından sonra ləğv edildi. 1723-cü il iyulun 5-də və 1725-ci il iyulun 8-də imzalanan çar fərmanları erməni tacirlərini yenidən Rusiya bazarlarına cəlb etmək məqsədi daşıyırdı.

1718-ci ildə A.Volınski bölgədə fəaliyyətini bitirib geri qayıtdı. O, çara təqdim etdiyi raportunda bildirirdi ki, bu yerlərin adamlarını siyasətlə Rusiyaya meyilləndirmək mümkün deyil. Bunu yalnız silah vasitəsilə etmək lazımdır (46). Yəni, artıq Rusiya sarayında belə bir qənaət hasil olmuşdu ki, hərbi müdaxilə olmadan Cənubi Qafqazda Rusiyanın mənafelərini təmin etmək mümkün olmayacaq. Bölgədə gedən proseslər də əslində heç Rusiyanın xeyrinə deyildi. Ona görə də Rusiya bölgəyə qoşun çıxarmaq və Xəzəryanı əraziləri özünə birləşdirmək istəyirdi.

Səfəvi dövlətinə ezamiyyətin nəticəsi kimi Rusiya sarayına təqdim etdiyi raportunda A.Volınski Səfəvilər dövlətinin tənəzzül dövründə olduğunu, iradəli dövlət başçısının tapılmayacağı halda Səfəvi dövlətinin nəinki xarici düşmənlərə, hətta heç ölkə daxilindəki iğtişaşları belə yatırmağa gücü çatmayacağını yazırdı. A.Volınskiyə görə, Rusiya Avropa cəbhəsində İsveçlə müharibə aparsa belə Səfəvi dövlətində ələ düşmüş fürsətin qaçırılmamasını təklif edirdi. Həmin fürsət isə ondan ibarət idi ki, Səfəvi dövləti daxilində qarışıqlıq var və bu, dövləti zəiflətmişdir. Ona görə

də, A.Volınski mövcud dövrü Rusiya hərbi müdaxiləsi üçün ən münasib zaman kimi dəyərləndirirdi. A.Volınskinin gümanına görə, bir korpusdan artıq olmayan bir hərbi qüvvə ilə xeyli ərazi ələ keçirmək mümkün idi. O təkid edirdi ki, mövcud münasib şəraitdən hərbi müdaxilə üçün istifadə edilməsi, bacarıqlı şahın hakimiyyətə gəlməsi ilə vəziyyət tamamilə dəyişə bilər (47).

1718-ci ilin ortalarında A.Volınski öz missiyasını başa vurub geriyə yola düşdü. Səfəvi dövləti ərazisində olduğu vaxt A.Volınski Rusiya sarayının Xəzəryanı ərazilərə hərbi müdaxilə ilə bağlı qəti qərar qəbul etməsinə zəmin yaradacaq məlumatlar topladı. I Pyotrla görüşü zamanı müşahidə etdiklərini ona da çatdırdı. I Pyotr gördüyü işlərə görə A.Volınskinin fəaliyyətindən razı qaldı və Səfəvi dövləti haqqında geniş məlumatlara malik olduğu üçün onu Həştərxanın qubernatoru təyin etdi (48). Çünki Həştərxan Xəzəryanı ərazilərə hərbi müdaxilə üçün dayaq məntəqəsi kimi qəbul edilirdi. A.Volınski kimi məlumatlı bir şəxsin burada qubernator olması Xəzəryanı ərazilərə hərbi yürüşün təşkil edilməsində faydalı ola bilərdi.

A.Volınski elçiliyinin əldə etdiyi nəticələrdən biri də o oldu ki, Səfəvi dövləti ərazisində rus konsulluğunun açılmasına icazə verildi. Mövcud olan məlumatlara görə, Səfəvi dövləti ərazisində rus konsulluğunun ilkin olaraq Şamaxı şəhərində açılması məqsədəuyğun sayılırdı. Şamaxı rus tacirlərinin ipək ticarətinin əsas mərkəzlərindən biri olmaqla yanaşı, digər böyük şəhərlərlə əlaqə saxlamaq üçün tranzit rolunu oynayırdı. Lakin Rusiya dövlətinin bir niyyəti Səfəvi sarayını qane etmədi və Rusiya sarayına təklif olundu ki, rus konsulluğu İsfahanda açılsın. Şamaxıda isə vitse-konsulluq açıla bilərdi (49).

İsfahan şəhərindəki rus konsulu vəzifəsinə Semyon Abramov təyin edildi. Şamaxıya vitse-konsul vəzifəsinə isə kapitan Aleksey Baskakov məsləhət bilindi. Həmin vəzifəyə hərbçinin təyin olunması da I Pyotrun Azərbaycan ərazisini işğal etmək planları ilə bağlı idi. Heç şübhəsiz ki, hərbçi tanış olduğu ərazilərin kəşfiyyatını daha yaxşı apara bilərdi. Bu da hərbi kampaniyanın uğurlu təşkilində faydalı ola bilərdi. Bu məqsədlə kapitan A.Baskakova I Pyotr tərəfindən konkret tapşırıqlar da verilmişdi. Ondan tələb olunurdu ki, Terekdən Şamaxıya, oradan isə Abşeron və Gilana qədər olan yolların kəşfiyyatını aparsın, həmin yolların qoşunların keçməsi üçün yararlı olub-olmadığını müəyyənləşdirsin. Bu tapşırıqların lazımınca yerinə yetirilməsi və bölgənin coğrafi xüsusiyyətlərinin yaxşı öyrənilməsi üçün A.Baskakova 4 nəfər geodeziya mütəxəssisi də verilmişdi (50).

Adları çəkilən konsulların təyin edilməsi ilə Rusiyanın Xəzəryanı ərazilərə hərbi müdaxiləyə hazırlığı həlledici mərhələyə qədəm qoymalı idi. Bu konsulluqlar Rusiyanın bölgədəki hərbi-siyasi maraqlarının həyata keçirilməsinə xüsusi diqqət yetirməli idi. Qeyd etmək lazımdır ki, bu konsul-

ların heç biri təyinat yerinə gedib çıxa bilmədi. Şamaxı Hacı Davud tərəfindən tutulduğu üçün kapitan Baskakov ora gedə bilmədi. S.Abramov isə öz missiyasını Ənzəli, Rəşt və Qəzvin şəhərlərində icra etməli oldu.

Xəzəryanı ərazilərin, o cümlədən də Azərbaycan torpaqlarının işğalının və nəzarət altında saxlanmasının daha da asanlaşdırılması üçün I Pyotr gürcülərlə və Azərbaycan ərazisində yaşayan ermənilərlə əlaqələrə yeni bir görüntü verdi. Əvəzində gürcülər və ermənilər də rus qoşunlarının Azərbaycan ərazilərinə hücum edəcəyi təqdirdə Rusiyaya yardım göstərməyi vəd etdilər. Bu əlaqələrin qurulmasında A.Volınski də iştirak edirdi. Gürcü çarı Vaxtanq, A.Volınskiyə xəbər göndərmişdi ki, rus qoşunları Cənubi Qafqaza çıxacağı təqdirdə öz qüvvələri ilə onlara qoşulmağa hazırdır. Özbaşına o, Səfəvi dövlətinə qarşı itaətsizlik göstərməyə cəsarət etmirdi. Baxmayaraq ki, o, Səfəvi qoşunlarını qorxaq adlandırırdı. Rus qoşunları ilə birlikdə isə İsfahana qədər irəliləyəcəyinə söz verirdi (51).

Gürcü çarı Vaxtanqla əlaqələrin qurulmasına A.Volınski hələ İsfahanda olarkən cəhd göstərdi ki, bu iş də Rusiya sarayından alınmış təlimat əsasında aparılırdı. 1718-ci ilin mayında Şamaxıda olarkən A.Volınski VI Vaxtanqın gizli nümayəndəsi olan Fərsadan bəylə görüşdü və həmin görüşü zamanı Səfəvi dövlətinə qarşı müharibədə rus və gürcü qoşunlarının əməkdaşlıq imkanları müzakirə olundu. A.Volınski gürcü çarının nümayəndəsinə dərhal müharibə başlamağın imkansız olduğunu çatdırdı. Gürcü çarı Vaxtanq islam dinini qəbul etmiş və ona Hüseynqulu xan adı verilmişdi. Eyni zamanda o, Səfəvi qoşunlarının sipəhsaları vəzifəsinə təyin olunmuşdu. Bəzi məlumatlara görə, bu faktlar Vaxtanqın Rusiya sarayına sədaqətinə nigarançılıq yaratmağa səbəb ola bilərdi. Ona görə Vaxtnq öz nümayəndəsi Fərsədan bəyi bir neçə dəfə Şamaxıya, A.Volınski ilə görüşə göndərdi və rus qoşunlarının Xəzəryanı ərazilərə yürüşü zamanı Səfəvi dövlətini deyil, Rusiyanın maraqlarını qoruyacağını bəyan etdi (51a).

Mövcud olan faktlar göstərir ki, I Pyotrun Xəzəryanı ərazilərə hərbi yürüşlərinin başlanmasında A.Volınski təhrikçi rolunu oynayırdı. 1721-ci ilin avqustunda Hacı Davudun və Surxay xanın rəhbərliyi altında olan qüvvələrin Şamaxıda olması zamanı buradakı rus tacirlərinin talan edilməsi faktını A.Volınski hərbi müdaxilənin başlanması üçün əlverişli bir bəhanə kimi qiymətləndirirdi. O hətta çarı arxayınlaşdıraraq yazırdı ki, bu yürüşün başlanması üçün elə də böyük qüvvə lazım deyildir (52).

Bu yürüşü başlamaq üçün artıq müəyyən hazırlıq işləri də görülmüşdü. Bir tərəfdən Xəzər dənizinin xəritəsi tərtib edilmiş (53), digər tərəfdən də bölgədəki xristian elementlərlə birgə fəaliyyət üçün razılıq əldə edilmişdi. Digər tərəfdən də Səfəvi dövlətinin böhranı dərinləşməkdə idi. Xüsusilə, Səıfəvi sarayı Qəndəharda baş qaldırmış əfqan qiyamının qarşısını almaqda

gücsüz idi. Dövlətin ağır vəziyyətində şah Sultan Hüseynin oğlanlarından biri, Təhmasib Mirzə şahzadə seçildi. O, ölkənin şimalına göndərildi ki, əfqan qiyamının qarşısının alınması üçün orada yeni qoşun dəstələri toplasın. Lakin Təhmasib Mirzə bu vəzifənin öhdəsindən gələ bilmədi. Bu da dövlətin böhranını daha da dərinləşdirdi. I Pyotr Səfəvi dövlətinin böhranlı vəziyyətini də öz yürüşlərinin həyata keçirilməsi üçün əlverişli fürsət kimi qəbul etdi.

Bununla bağlı Rusiya sarayı tərəfindən Xəzər dənizinin şərq və qərb sahillərinin öyrənilməsi üçün xüsusi komissiya göndərilmişdi. Dənizin qərb sahillərinin öyrənilməsi və xəritəsinin hazırlanması kapitan-leytenant Karl Fon Verden və leytenant Fyodor Soymonova tapşırılmışdı. Heyət Xəzər dənizinin qərb sahili boyu Rusiya hərbi gəmiləri üçün liman rolunu oynaya biləcək şəhər və yaşayış məntəqələrinin hərbi-coğrafi şəraitinin öyrənilməsinə xüsusi diqqət yetirməli idi. Bu məqsədlə ekspedisiya Dərbənd, Bakı, Niyazabad, Salyan məntəqələri, Kür çayının mənsəbi haqqında hərbi baxımdan əhəmiyyət kəsb edən məlumatlar topladı. Ekspedisiya Astaradan Xəzərin cənubuna, Ənzəli və Rəşt istiqamətinə doğru hərəkət etdi və bu bölgə haqqında da zəruri məlumatlar topladı (54).

Mövcud olan bəzi məlumatlara görə, həbsdən azad olduqdan sonra Səfəvi sarayına qarşı mübarizəsinin ikinci mərhələsində Hacı Davud kömək üçün Rusiya sarayına müraciət etdi. 1721-ci ilin aprelində Volınski vasitəsilə həyata keçirilən həmin müraciətdə Hacı Davud Rusiya sarayına rus təbəəliyini qəbul etməyə hazır olduğunu bildirdi. Bunun əvəzində Hacı Davud Rusiya sarayından onun köməyinə rus qoşun dəstələri və toplarının göndərilməsini xahiş etdi. A.Volınskiyə görə, Hacı Davud hərbi kömək sayəsində Kür çayına qədər olan əraziləri ələ keçirərək öz nəzarəti altında saxlamaq istəyirdi. O, Şamaxı və Dərbənd şəhərlərinə də iddia irəli sürürdü. Rus qoşunları isə Kür çayından cənubda olan əraziləri işğal edə bilərdilər. Belə bir təklif Rusiya sarayını qane etmirdi. Hər şeydən əvvəl Rusiya sarayı Dərbəndin, Bakının və Xəzəryanı ərazilərin əldən çıxmasına və onların Hacı Davudun nəzarəti altında qalmasına razı deyildi. Ona görə də Hacı Davudun təklifinə qarşı Rusiya sarayından rəsmi münasibət bildirilmədi. Hacı Davud isə öz hərəkatının genişləndirilməsi üçün Rusiyanın yardımını ala bilməyəndə başqa yollar axtarışına düşdü. Şamaxıdakı rus tacirlərinin talan edilməsi və Hacı Davudla Osmanlı sarayı arasında əlaqələrin genişlənməsi də bundan sonrakı dövrə təsadüf edir (55).

A.Volınski də Rusiyadan kömək ala bilməyən Hacı Davudun Osmanlı sarayına qarşı meyllənəcəyini və bunun nəticəsi kimi Şirvanda Osmanlı təsirinin güclənəcəyini öncədən görürdü. Rusiyanın maraqlarına cavab verməyən belə hadisənin baş verməsinin qarşısının alınması üçün A.Volınski çar I

Pyotra göndərdiyi məktubunda Rusiyanın bölgədə daha da fəallaşmasını və bölgədə cərəyan edən hadisələrə fəal müdaxilə etməsini təklif edirdi (55). Başqa sözlə A.Volınski bir daha rus çarını bölgəyə hərbi müdaxilə etməyə çağırırdı.

Məsələnin təfərrüatına varmadan qeyd etmək lazımdır ki, Osmanlı dövlə-tinin Cənubi Qafqazla bağlı fəal siyasəti də Rusiyanın Xəzəryanı ərazilərə hərbi müdaxiləsinin mahiyyətinin anlaşılmasında mühüm əhəmiyyətə malikdir. Rusiya sarayı şübhə etmirdi ki, Cənubi Qafqaz siyasətində baş verəcək ləngimələr bu bölgədə Osmanlı dövlətinin möhkəmlənməsi və Xəzəryanı ərazilərin itirilməsi ilə nəticələnə bilər. I Pyotr məktublarının birində yazırdı ki, Xəzər dənizinin sahillərini ələ keçirmək bizim üçün çox zəruridir və ora türklərin gəlməsinə yol vermək olmaz (56). Ona görə də daha konkret addımların atılması qərarlaşdırıldı. 1721-ci il avqustun 30-da Niştaxtda sülh müqaviləsinin imzalanması ilə Şimal müharibəsinin başa çatmasından sonra Rusiya tərəfindən Xəzəryanı ərazilərə hərbi müdaxilə edilməsi planları həlledici mərhələyə qədəm qoydu.

### *4. I Pyotrun Azərbaycana hücumu*

Azərbaycana qarşı müharibəyə başlamazdan əvvəl I Pyotr artıq süquta uğramış Səfəvi dövlətində formal hakimiyyətə malik Təhmasib Mirzəyə diplomatik təzyiqlər etməklə müəyyən planlarının həyata keçməsinə cəhd göstərdi. Bu diplomatik təzyiqlərin məqsədi Təhmasib Mirzənin düşdüyü ağır vəziyyətdən yararlanaraq onu Rusiyanın xeyrinə ərazi güzəştlərinə getməyə məcbur etmək idi. Bununla bağlı 1721-ci ildə Ənzəlidə öz vəzifəsinin icrasına başlamış rus konsulu S.Abramova tapşırıq verildi ki, Xəzəryanı ərazilərin Rusiyaya güzəştə gedilməsi üçün Təhmasib Mirzə ilə danışıqlar aparılsın. 1721-ci il oktyabr ayının 31-də Rusiya sarayının nümayəndələri S.Abramovun yanına göndərildi. Saraydan alınan təlimat əsasında S.Abramov aşağıdakı tapşırıqları yerinə yetirməli idi:

1. O, yeni və köhnə şahla görüşməli idi;

2. Şaha Rusiyanın Şamaxıya qoşun çıxarmaq niyyəti haqqında məlumat verməli və ona çatdırmalı idi ki, Şamaxıya, rus qoşunlarının çıxarılmasında məqsəd Səfəvi dövləti ilə müharibə aparmaq yox, orada baş qaldıran və rus tacirlərinə də ziyan yetirən qiyamın yatırılmasıdır;

3. Xəzəryanı vilayətlərin Rusiyaya güzəştə gedilməsinə nail olmalı idi. Rusiya sarayı Səfəvi şahına Səfəvi dövlətinin süqutuna və İsfahanın itirilməsinə səbəb olmuş əfqan qiyamının yatırılmasına və Osmanlı dövlətinin Səfəvi ərazilərinə doğru irəliləməsinin qarşısının alınmasına hərbi yardım təklif

edirdi. Həmin hərbi yardımın əvəzi kimi isə Səfəvi şahı Xəzəryanı əraziləri Rusiyaya güzəştə getməli idi.

4. S.Abramov Səfəvi şahına çatdırmalı idi ki, lazım bilindiyi vaxt Rusiya sarayına Səfəvi elçisi göndərilə bilər (57).

Verilmiş tapşırıqların icrası üçün S.Abramov Səfəvi dövlətinin şimalında dolaşan Təhmasib Mirzə ilə görüşə bildi. Lakin Təhmasib Mirzə ilə aparılan danışıqlar Rusiya üçün gözlənilən nəticəni vermədi.

Bununla, Rusiya sarayında əminlik yarandı ki, diplomatik təzyiqlər yolu ilə də qarşıya qoyulan məqsədə çatmaq mümkün deyil və Xəzəryanı ərazilərin ələ keçirilməsi üçün mümkün yol hərbi müdaxilə yoludur.

Xəzəryanı ərazilərə rus qoşunlarının çıxarılması Rusiya sarayı tərəfindən 1723-cü ilə planlaşdırılmışdı. Rus qoşunlarının Azərbaycan ərazisinə yürüşü isə rəsmi sənədlərdə "Şamaxı ekspedisiyası" adlandırılmışdı (58). Lakin yuxarıda göstərilən səbəblər Rusiyanın planlarının dəyişməsinə yol açdı və 1721-ci ilin son aylarında Xəzəryanı ərazilərə yürüşün təşkilinə hazırlıq üzrə konkret addımların atılmasına başlandı.

Tarixi ədəbiyyatda Rusiyanın Xəzəryanı ərazilərə hücuma keçməsi bir sıra səbəblərlə əlaqələndirilir. Həmin mülahizələri bir neçə qrupa bölmək olar. Birinci qrupa Rusiyanın dini-etnik təəssübkeşliyi ilə bağlı olan mülahizələri daxil etmək olar. Bu mülahizələrə tərəfdar olan müəlliflər Rusiyanın Səfəvi dövləti tərkibində əzilən gürcüləri və erməniləri rastlaşdıqları zülm və əzablardan xilas etmək üçün Cənubi Qafqaza qoşun çıxarıldığını yazırlar. Məsələn, rus tarixçisi Kovalenski öz əsərində mövzu ilə bağlı gürcüləri və erməniləri Qafqazda ən sülhsevər və dinc xalqlar kimi, onların ətrafındakı xalqları isə son dərəcə talançı, soyğunçu kimi xarakterizə edirdi. Onun fikrincə, gürcülərlə ermənilər Qafqazda odla su arasında qalmışdılar və onların vəziyyəti günü gündən daha da ağırlaşırdı. Guya onlar bir tərəfdən Osmanlı qoşunlarının, digər tərəfdən də Səfəvi qoşunlarının aramsız təqiblərinə məruz qalırdılar. Müəllif qeyd edir ki, bu xalqların nicatının yeganə yolu rus çarının onları himayə altına alması ola bilərdi (59).

Rus tarixçiləri gürcülərin və ermənilərin Rusiya sarayına müraciətlərini və Rusiya sarayının bu xalqlarla bağlı xüsusi planlarının olmasını da bir çox hallarda erməni və gürcülərə göstərilən himayə və qayğı kimi təsvir edirlər. I Pyotr da istər gürcülərə, istərsə də ermənilərə verdiyi cavabında onları müsəlmanların təzyiq və zülmlərindən xilas edəcəyini bildirirdi. I Pyotr hətta Şərqi Qafqazda Rusiyanın nəzarəti altında olan gürcü-erməni çarlığı yaratmaq ideyaları da irəli sürürdü. Belə bir fikir irəli sürülürdü ki, gürcü-erməni çarlığı yaradılsa, həmin çarlığın ərazisindəki bütün "farslar" (başqa sözlə azərbaycanlılar) oradan qovulsun (60).

Oxşar mövqeni erməni tarixçilərinin əsərlərində də görmək mümkündür. Hətta belə bir iddia irəli sürülür ki, I Pyotr ermənilərin Səfəvi zülmündən xilas edilməsini 24 il müddətində diqqət mərkəzində saxlamış və yalnız Şimal müharibəsi başa çatandan sonra bu məqsədinin həyata keçirilməsinə başlamışdı. Eyni zamanda qeyd olunur ki, Qafqazın xristian xalqlarının müsəlmanların zülmündən qurtararaq Rusiyaya birləşdirilməsi təşəbbüsü də I Pyotra məxsusdur (61).

Rusiyanın Xəzəryanı ərazilərə qoşun çıxarılmasının əsaslandırılmasına xidmət edən ikinci qrup səbəblərə isə iqtisadi xarakterli mülahizələr daxildir. Həmin mülahizələrin əsas məzmunu ondan ibarətdir ki, Xəzəryanı ərazilərin işğalı Səfəvi dövləti ilə ticarət əlaqələrinin genişlənməsinə Xəzəryanı ərazilərin böyük iqtisadi potensialının Rusiyanın maraqları üçün istiqamətlənməsinə, Xəzəryanı ərazilərdən keçməklə Rusiya ticarət xətlərinin Hindistana qədər çatdırılmasına yol aça bilərdi. Məsələn, müəlliflərdən biri bildirir ki, Səfəvi sarayına göndərilmiş olan A.Volınski geri qayıtdıqdan sonra I Pyotr onunla söhbətində Rusiya ticarətinin Hindistana qədər genişləndirilməsi imkanları ilə maraqlanmışdı. A.Volınski də I Pyotra məsləhət görmüşdü ki, əfqan qiyamçıları Xəzər sahillərinə çatmamış Rusiya zəngin imkanlara malik olan Xəzəryanı vilayətləri nəzarət altına alsın. X.Atayevə görə isə I Pyotr İran qapılarını daha geniş şəkildə rus ticarətinin üzünə açmaq və Səfəvi dövləti ərazisində istehsal olunan ipəyi Xəzər və Volqa marşrutu üzrə Avropaya yönəltmək istəyirdi. Müəllifə görə, şərq ölkələri ilə fəal xarici ticarət əlaqələri Rusiyanın qüdrətini və gücünü daha da artıra bilərdi. Xəzər dənizi belə fəal ticarətin aparılması üçün əlverişli marşrut hesab edilirdi. Bu amil isə Rusiya sarayının nəzərindən qaçmırdı. Öz tədqiqat əsərini də X.Atayev Rusiyanın Xəzəryanı ərazilərə və bütünlükdə Səfəvi dövləti ilə ticarət əlaqələrinin genişləndirilməsinin əsaslandırılması üzərində qurmuşdur. A. Abdürəhmanov da öz tədqiqat əsərində Rusiyanın Xəzəryanı ərazilərlə bağlı siyasətinin iqtisadi maraqlarla əlaqələndirildiyinə toxunmuşdur. Müəllif yazır ki, Xəzəryanı ərazilər Rusiya üçün strateji ərazi dəyərinə malik idi və bu ərazilərin ələ keçirilməsi ilə mühüm təsərrüfat-iqtisadi rayonlar ələ keçirilmiş, rus ticarəti üçün əlverişli şərait yaradılmış olardı. Mənbələrə istinadən müəllif qeyd edir ki, Rusiya dövləti Bakını işğal etdikdən sonra Kür çayı istiqa-mətində irəliləmək və onun mənsəbində Hindistan, fars, Gürcüstanla ticarət mərkəzi olan bir şəhər salmaq istəyirdi (62).

Bəzi tədqiqat əsərlərində belə bir məqama da toxunulur ki, Avropa ölkələrinin şərqlə güclənməkdə olan ticarət əlaqələrinin zəiflədilməsi və bunun qarşısında Rusiyanın mövqelərinin gücləndirilməsi istəyi, Səfəvi dövləti ərazisindən keçməklə Hindistandan Rusiyaya doğru uzanan ticarət marşrutu-

nun təhlükəsizliyinin təmin edilməsi, Hindistanla birbaşa əlaqələr qurulması niyyəti də Rusiyanı Xəzəryanı ərazilərə qoşun çıxarmağa sövq edirdi (63).

Rusiyanın Xəzəryanı ərazilərə qoşun çıxarmaq planının əsaslandırılmasına istiqamətləndirilmiş olan digər qrup mülahizələr Rusiyanın geosiyasi maraqları ilə bağlanılır. Rusiya özünün şərq siyasətinin həyata keçirilməsində və öz təsirinin cənuba doğru genişləndirilməsində istər Cənubi Qafqazın, istərsə də Xəzər dənizinin geostrateji mövqeyinə böyük əhəmiyyət verirdi. Məlumdur ki, Rusiya Xəzər dənizini bütünlüklə daxili dənizə çevirərək bölgədəki mövqeyini möhkəmlətməyə çalışırdı. Bu dənizdə möhkəmlənməklə Rusiya həm Cənubi Qafqazda, həm Orta Asiyada möhkəmlənə və Səfəvi dövlətinə də öz təzyiqlərini gücləndirə bilərdi. Bu planın həyata keçirilməsində Rusiyanın qarşısına çıxacaq real maneə Osmanlı dövləti ola bilərdi. Rusiya sarayına yaxşı məlum idi ki, Osmanlı dövləti hətta Şimalı Qafqazı da nəzarət altına almaq üçün konkret siyasət formalaşdırmaqda idi. Osmanlı dövlətinin Cənubi Qafqaza qoşun çıxarması ilə bütünlükdə Qafqazda möhkəmlənmək imkanları daha çox idi. Bir tərəfdən Cənubi Qafqaz ərazisində Hacı Davudun rəhbərliyi altında başlanan hərəkata Osmanlı dövlətinin rəğbətli münasibəti, digər tərəfdən Şimali Qafqaz xalqlarının sünni məzhəbinə malik olması Osmanlı dövlətinin Qafqazda möhkəmlənməsinə əlverişli şərait yaradırdı (64).

Cənubi Qafqazı nəzarət altına almaqla Rusiya bu bölgədən keçən ticarət yollarını nəzarət altına almış olardı. Bu bölgədə möhkəmlənmək üçün Rusiyanın Qara dəniz ətrafında möhkəmlənmək ümidlərini artıra bilərdi. Nəhayət, bu bölgədə möhkəmlənmək Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyini təmin etmiş olardı.

Nəhayət, digər qrup mülahizələrdə Rusiyanın Xəzəryanı ərazilərə qoşun çıxarmasının onun işğalçılıq siyasəti ilə bağlı olduğu bildirilir. Belə mülahizələr daha çox son illərdə işıq üzü görmüş yazılar üçün xarakterikdir. Müəlliflər bildirirlər ki, Rusiya dövlət uzun illər boyu cənuba doğru işğalçılıq siyasətini həyata keçirməyə çalışırdı. Lakin Rusiyanın müxtəlif dövlətlərlə müharibələrə cəlb olunması həmin siyasətin həyata keçməsini ləngidirdi. Rusiya üçün Baltik dənizi ətrafının işğal edilməsi və Baltik dənizinə çıxış nə dərəcədə əhəmiyyət kəsb edirdisə, Xəzərətrafı ərazilərin işğal edilməsi, Xəzər dənizinə çıxış o dərəcədə əhəmiyyət kəsb edirdi. Çünki bununla Rusiya böyük dənizlər dövlətinə çevrilər və böyük dünyaya çıxışlar əldə edərdi (65).

Rusiya böyük bir imperiyaya çevrilməkdə idi və işğalçılıq müharibələrinin aparılması imperiyanın mahiyyəti ilə şərtlənirdi. İşğalçılıq Rusiyanın şərq siyasətinin əsasını təşkil edirdi və əslində, yuxarıda sadalanan səbəblər də həmin siyasətin işğalçılıq mahiyyətinin pərdələnməsindən irəli gəlirdi.

Nəhayət, 1721-ci ilin avqustunda Şamaxının Hacı Davudun rəhbərliyi altında olan qoşunlar tərəfindən tutulmasından sonra Xəzəryanı ərazilərə rus qoşunlarının çıxarılması üçün konkret addımlar atılmasına başlandı. 1721-ci il noyabr ayının 26-da qoşun hissələrinin formalaşdırılması məqsədilə əhali arasında rekrut toplanışı aparılması haqqında çar fərmanı imzalandı. 1721-22-ci ilin qışında ekspedisiya ordusunun təşkili başa çatdırıldı. Bu ordunun tərkibinə bütün qoşun növləri, o cümlədən nizami piyada draqun süvariləri, Don və Ukrayna kazakları və artilleriya daxil edilmişdi. Xəzəryanı ərazilərə hücumda iştirak edəcək qoşun hissələrinin təşkilində onların lazımi təcrübəyə malik olmasına da ciddi diqqət yetirilirdi. Bununla əlaqədar qərara alındı ki, neçə illər ərzində İsveçə qarşı müharibə aparmış Finlandiya korpusunun hər bir alayının şəxsi heyətinin yarısı yeni yaradılan hərbi strukturlara daxil edilsinlər (66).

Sonradan Nizovı korpusu adlandırılan bu hərbi qüvvələrin tərkibində 28 piyada taboru var idi: üç qvardiya taboru, Həştərxan alayının 2 taboru, 4 qrenadyor taboru, habelə İnqermanland, Moskva, Tobol, Qolitsın, Vıborq, Sibir, Ryazan, Sankt-Peterburq, Kopyor, Troitski, Nijeqorod, Pskov, Voronej, Velikoluksk, Şlisselberq, Voloqda, Kazan, Azov, Arxangelqorod alaylarının hər birindən bir tabor, atlı qüvvələrinin tərkibinə isə Moskva, Arxangelsk, Ryazan, Rostov, Novqorod, Həştərxan və Kazak draqun alaylarından başqa, Ukrayna və don kazakları, habelə kalmık atlıları daxil olmalı idi. I Pyotrun 7 fevral 1722-ci il tarixli fərmanına əsasən hərbi qüvvələrin dənizlə daşınması üçün gəmilərin və üzən vasitələrin hazırlanmasına başlandı. Bu işlər Moskva ilə bərabər, Uqliçdə, Tverdə, Yaroslavlda, Nijni Novqorodda, Kazanda aparılmalı idi. Bütünlükdə 200 lodkanın və 45 gəminin hazırlanması planlaşdırılırdı. Bu gəmilər və üzən vasitələrin hazırlanması və təchizi üçün takelaj, yelkən ustaları və matroslar Baltik dənizindəki gəmilərdən götürüldü. Gəmilərin və üzən vasitələrin hazırlanması gedişi I Pyotrun xüsusi nəzarəti altında idi. O öz nümayəndələri vasitəsilə tikinti-quraşdırma işlərinin sürətini artırmağa çalışırdı. Təşkil edilən hərbi qüvvələrin təchizat mərkəzi kimi isə Nijni Novqorod şəhəri seçildi. Burada lazım olacaq barıt, sursat, iaşə malları, at üçün yem və s. hazırlanırdı. Təchizat əşyalarının hazırlanması işlərinə qvardiya mayoru Q.Yusupov rəhbərlik edirdi (67).

Xəzəryanı ərazilərə hücuma hazırlıq işləri bir sıra çətinliklərlə müşayiət olunurdu. Xüsusilə tikinti-quraşdırma materiallarının, təchizat əşyalarının çatışmazlığı bir sıra problemləri ortaya çıxarırdı. Bununla belə, 1722-ci ilin may ayına kimi hücum üçün zəruri olan hazırlıq işlərini müəyyən dərəcədə yekunlaşdırmaq mümkün oldu və may ayında bütün qüvvələrə Həştərxan istiqamətində irəliləmək əmri verildi. Xəzəryanı ərazilərə hücum-

da iştirak etmək üçün Həştərxana yollanan hərbi qüvvələrin sayı haqqında rus tarixi ədəbiyyatında fərqli məlumatlarla rastlaşmaq mümkündür. İlkin mənbələr əsasında aparılmış tədqiqatlardan birində göstərilir ki, piyadaların ümumi sayı 21093 nəfər, atlı qüvvələrin və kazakların sayı isə 25 min nəfərə çatırdı. Artilleriyanı əsasən alay topları və 196 ədəd səhra topu təşkil edirdi. Hücuma başlanması ərəfəsində bu qüvvələrə 4 min kalmık və bir neçə min də kabarda birləşməli idi. Nəzərdə tutulmuşdu ki, Xəzəryanı ərazilərə hücumda 46 min nizami qüvvə və kazak, 10 min nəfərə qədər isə kalmık və dağlı atlıları iştirak etsin. Piyadalar Həştərxana doğru hərəkət etmək ərəfəsində Moskvada, Yaroslavlda, Volqaboyu şəhərlərdə yerləşdirilmişdilər ki, işarə veriləndən sonra onları asanlıqla Həştərxana atmaq mümkün olsun. Atlı qüvvələr isə əsasən Kurskda, Kiyevdə və Donda toplanmışdılar. Bildirilir ki, 1722-ci ilin fevral-mayında 47 yelkənli və 400-dən artıq avarlı gəmi istifadəyə verildi. Döüş tapşırıqlarının həyata keçirilməsi üçün isə 2874 bomba, 29820 qranat, 12579 pud barıt və s. hazırlandı (68).

Volqa çayı boyunca yerləşdirilmiş hərbi qüvvələrin əsas hissəsi çayda hərəkət edən üzən vasitələrlə Həştərxana çatdırıldı. Qalan qüvvələr isə alay atlarından istifadə edilməklə Volqa çayı boyunca quru yolla Həştərxana doğru istiqamət götürdülər. Ukayna və Don kazakları da quru yolla Həştərxana çatdılar. Hərbi qüvvələrin sonrakı irəliləməsinin təşkil edilməsi üçün I Pyotr A.Volınskiyə Həştərxanda 700 ədəd araba toplanmasını və yükərin daşınması üçün 300 baş dəvə alınmasını tapşırdı. Tədqiqatçıların fikrincə, Xəzəryanı ərazilərə hücum üçün toplanmış hərbi qüvvələrin şəxsi heyəti 50 min nəfərə yaxın idi. Bəzi müəlliflər toplanmış hərbi qüvvələrin sayının 100 mindən artıq olduğunu da yazırlar. Lakin bu rəqəm bir sıra tədqiqatçılar tərəfindən həqiqətə uyğun olan rəqəmlər kimi qəbul edilmirlər (69).

Qeyd etmək lazımdır ki, Rusiya sarayının Xəzəryanı ərazilərə hücuma hazırlıq aparması haqqında məlumat qərb dövlətlərinə və Osmanlı sarayına da çatdı. Rusiya sarayı daha çox Osmanlı dövlətinin bu xəbəri ciddi qarşılayacağından və Rusiyadan əvvəl Cənubi Qafqaza qoşun çıxaracağından narahat idi. Osmanlı sarayının nigarançılığının aradan qaldırılması üçün Rusiya öz diplomatik fəaliyyətini bir qədər də fəallaşdırdı. Bununla belə, hücum planının həyata keçirilməsi hazırlığı heç də zəiflədilmədi.

Azərbaycanın Xəzəryanı ərazilərinin işğalına şəxsən rəhbərlik etmək məqsədilə I Pyotr 1722-ci il may ayının ortalarında Həştərxana doğru hərəkətə başladı. Bu səfərdə onu xanımı Yekaterina, habelə knyaz Tolstoy və knyaz Apraksin və mühafizə qvardiyası müşayiət edirdi. Bu hərəkəti zamanı da I Pyotr Qafqaz və Səfəvi dövləti ilə bağlı lazım olan məlumatların toplanmasını və öyrənilməsini davam etdirdi (70).

I Pyotr onu müşayiət edən şəxslərlə birlikdə 1722-ci il iyun ayının 26-da Həştərxana çatdı və Azərbaycan ərazilərinə hücum üçün daha münasib şəraitin əldə edilməsi məqsədilə bir sıra diplomatik addımlar atdı. Əvvəlcə, gürcü əsilli knyaz Boris Türküstanişvili vasitəsilə Kartli çarı VI Vaxtanqla əlaqə yaratmağa cəhd göstərdi. Rus çarı Vaxtanqa Həştərxana gəlməsi və Dərbənd üzərinə hücuma hazırlaşması barəsində məlumat çatdırdı və ona tövsiyə etdi ki, Rusiya ilə münasibətlərə sadiqdirsə, qoşunları ilə onun qarşısına çıxsın (71).

Kartli çarı rus qoşunlarının bölgəyə çatdırılmasına böyük ümidlərlə yanaşırdı və güman edirdi ki, Səfəvi dövlətinin böhranda olduğu bir vaxtda Gürcüstanın Səfəvi dövlətindən qopmasına yol aça bilər. Ona görə də Vaxtanqın Rusiya çarının təklifinə münasibəti müsbət oldu.

Öz qoşunları ilə Həştərxandan Dərbəndə doğru hərəkətə başlayanda I Pyotr Vaxtanqa bir də məktub göndərdi və ona qarşıda dayanan planlar haqqında məlumat çatdırdı. I Pyotr şübhə etmirdi ki, Dərbənd şəhərini işğal etdikdən sonra Şamaxıya tərəf hərəkətini davam etdirəcək. Gürcü qoşunlarının yardımı da ona məhz bu zaman lazım idi. Nəzərdə tutulurdu ki, Şirvan ərazisində rus qoşunları gürcü çarları ilə birləşsin və birgə fəaliyyət nəticəsində Azərbaycan ərazilərinin işğalı başa çatdırılsın. Gürcü çarı öz qoşunları ilə Şirvana doğru hərəkətə başlayanda erməni silahlı dəstələri də ona qoşulmalı idi. Erməni silahlı dəstələrinin də Azərbaycan ərazilərinin işğalında istifadə edilməsi Rusiyanın hərbi planlarına daxil idi. Belə bir hərbi fəaliyyət birliyinin yaradılması Azərbaycan torpaqlarının asanlıqla işğalına təminat verə bilərdi.

Rus qoşunlarının Xəzəryanı ərazilərə yürüşə başlaması Azərbaycan ərazilərində yaşayan erməniləri də qiyama və itaətsizliyə təhrik etdi. Qafan və Qarabağdakı ermənilər ruslar tərəfindən dəstəklənəcəklərinə ümid edərək qiyam qaldırdılar və Gəncə bəylərbəyliyinə itaətsizlik göstərdilər. Ermənilərin bu itaətsizliyi əslində, rus çarının çağırışlarından irəli gəlirdi. Yerli xanların və bəylərin müqavimətinin zəifləməsi üçün rus çarı erməniləri qiyama və sonra da rus qoşunları ilə birləşməyə çağırdı. Gürcü çarının Şamaxıya doğru hərəkət xəbəri alınanda isə ermənilərin silahlı dəstələri onunla birləşmək üçün Gəncə ətrafına göndərildilər. Ermənilər ümid edirdilər ki, onların rus qoşunlarına birləşməsi gələcəkdə Gəncənin və Qarabağın da işğal altına düşməsi ilə və Azərbaycan ərazisində Rusiyanın nəzarəti altında olan erməni qurumunun yaradılması ilə nəticələnə bilər (72).

Gürcü çarını və Azərbaycan ərazisində yaşayan erməniləri öz tərəfinə səfərbər etməklə I Pyotr əslində, Səfəvi dövlətinin şimal sərhədi boyunca separatçılığı xeyli gücləndirildi ki, bu da Səfəvi dövlətinin və yerli hakimlərinin bölgədəki hakimiyyətinin daha da zəifləməsinə zəmin yaratdı.

Rusiya çarı erməniləri və gürcüləri öz ətrafına səfərbər edə bildiyi kimi, müsəlman əhalinin də başlanan hücuma loyal qalmasını istəyirdi. Ona yaxşı məlum idi ki, yerli əhali rus qoşunlarına ciddi müqavimət göstərə bilərdi ki, bu da rus qoşunlarının vəziyyətini mürəkkəbləşdirərdi. Bunun qarşısının alınması üçün I Pyotr müsəlman əhali arasında təbliğat işinin genişləndirilməsinə diqqət artırdı. Həmin məqsədlə I Pyotr Xəzəryanı bölgənin müsəlman əhalisinə yazılı müraciətlə çıxış etdi. "Manifest" kimi tanınan həmin müraciət məzmunundan asılı olmayaraq tarixi əhəmiyyət kəsb edən bir sənəd idi. Çünki bu müraciət türk dilində olmaqla tipoqrafiya üsulu ilə çap olunmuş ilk türkdilli sənəd idi. "Manifest" qısa zaman ərzində əhali arasında yayıldı və bu sənəddə Xəzəryanı ərazilərə qoşun çıxarılması ilə bağlı I Pyotrun "niyyətləri" yerli əhaliyə çatdırıldı. Müraciət əhalinin bütün təbəqələrinə, o cümlədən sənətkarlara, tacirlərə, sadə əhaliyə ünvanlanmışdı (73).

Erməni və gürcülərə münasibətdə rus çarı məqsədinin xristianları müsəlmanların zülmündən xilas etmək olduğunu bildirirdisə, müsəlman əhaliyə münasibətdə fərqli mövqe tutur və onlar tərəfindən xristian əhaliyə zülm edilməsinə heç bir işarə edilmirdi. Əksinə, Rusiya sarayı müsəlmanların rəğbətini qazanmağa və başlanan hücumun da onların həyatına və yaşayışına çətinlik gətirməyəcəyini sübut etməyə çalışırdı. Ona görə müraciətdə də belə bir məqama təkid edilirdi ki, rus qoşunlarının yaxınlaşması yerli əhalini narahat etməməli və onlar öz yurd-yuvalarını tərk etməməlidirlər. Çünki rus komandirlərinə göstəriş verilmişdi ki, yerli əhalinin talan edilməsi və onlara ziyan yetirilməsi halları ölüm cəzası ilə cəzalandırılacaqdır. Başqa sözlə, "Manifest" vasitəsilə əhalidə belə bir əminlik yaradılmasına cəhd göstərilirdi ki, Rusiya qoşunlarının bütün fəaliyyəti ciddi nəzarət altındadır və yerli əhalinin maraqlarına təhlükə yaratmayacaqdır.

"Manifest"in başqa bir məqamı rus qoşunlarının hücumunun əsas məqsədi ilə bağlı yanlış təsəvvürün formalaşdırılması idi. Müraciətdə Rusiya sarayı Səfəvi şahı ilə dost münasibətdə olduğunu, rus qoşunlarının Azərbaycan ərazisinə müvəqqəti gəldiyini xatırladırdı. Qeyd olunurdu ki, əsas məqsəd Şamaxıdakı rus tacirlərinin talanıb öldürülməsində günahkar olan Hacı Davudla Surxay xanın cəzalandırılmasıdır. Guya həmin şəxslər cəzalandırıldıqdan sonra rus qoşunları yenidən geri qayıdacaqlar. Qeyd etmək lazımdır ki, yerli əhalinin müəyyən hissəsi rus çarının bu müraciətini loyallıqla qarşıladı. Xüsusilə, sünni ləzgilərin əksəriyyəti şiə olan Şirvana yürüşlərindən cana gələn yerli əhalidə məzhəb təəssübkeşliyi daha güclü idi. Bu əhali sünnilərin təzyiqlərinə dözməkdənsə, özünü Səfəvi şahının dostu hesab edən rus çarının hakimiyyəti altına düşməyi daha yaxşı bilirdilər (74).

Mövcud olan məlumatlara görə, adı çəkilən "Manifest" rus qoşunlarının Həştərxandan Dərbəndə doğru hərəkətə başlaması ərəfəsində, yəni 1722-ci il iyulun 15-də senator Dimitri Kantemirin hazırladığı mətn əsasında səyyar tipoqrafiyada çap edildi. "Manifest" Azərbaycan türkcəsindən əlavə türk və fars dillərində də çap olunmuşdu (75).

Rusiya çarı təxminən bir ay Həştərxanda qaldı. Bu müddət ərzində hücuma hazırlıq işləri tam başa çatdırıldı və iyun ayının 18-də rus qoşunları Dərbəndə doğru hərəkətə başladı. Qoşunlara general-admiral Apraksin rəhbərlik edirdi və o, "Şahzadə Anna" gəmisi ilə hərəkət edirdi. I Pyotr öz xanımı və Həştərxan qubernatoru A.Volınski ilə "İnqermanland" gəmisində idilər. Rusiya çarının səfər jurnalında olan qeydlərindən aydın olur ki, rus qoşunları Xəzər dənizinə çıxarılmış olan 274 gəmidə hərəkət edirdilər (76).

Beləliklə, Rusiyanın Xəzəryanı ərazilərə qoşun çıxarmaqla bağlı çoxdan hazırladığı planın icrasının son mərhələsinə qədəm qoyuldu. Bu planın icrasını başlamaqla Rusiya sarayının qarşısına qoyduğu əsas strateji məqsəd Şamaxının ələ keçirilməsi, rus qoşunlarının burada möhkəmlənməsi Osmanlı qüvvələrinin Şamaxıya və bütünlükdə Xəzər kənarına yaxınlaşmasının qarşısının alınması idi. Bu strateji məqsədə çatmaq üçün qarşıda konkret vəzifələrin icra edilməsi dayanırdı. Yəni, rus qoşunları əvvəlcə Dərbəndi, sonra Bakını və sonra da Şamaxını ələ keçirməli idi. Lakin bununla da Rusiya sarayı öz işini bitmiş hesab etmirdi. Belə bir niyyət var idi ki, Şamaxı ələ keçirildikdən sonra qoşunlar qərb istiqamətində irəliləsin, Gəncə, Tiflis və İrəvan da Rusiyanın nəzarəti altına salının. Bu böyük planın həyata keçirilməsi üçün Rusiya sarayı əməliyyat bazalarının yaradılmasını da lazım bilirdi. Həmin əməliyyat bazalarının aşağıdakı məntəqələrdə yaradılması planlaşdırılırdı: Həştərxan - Dördtəpə adası – Müqəddəs Xaç qalası – Dərbənd – Bakı – Kür çayının mənsəbi. Rus qoşunlarının silah və sursatla, canlı qüvvə ilə, yem və ərzaqla təmin edilməsi həmin əməliyyat bazalarından həyata keçirilməli idi (77).

Rusiya sarayının bu böyük işğalçılıq planlarının həyata keçirilməsi Dərbəndin işğalından başlamalı idi. Hərbi qüvvələr Həştərxandan hərəkətə başlamazdan əvvəl I Pyotr briqadir Veteraniyə tapşırıq verdi ki, Andreyev kəndinə hücum etsin, burada toplanmış qüvvələri zərərsizləşdirsin, Aqraxan çayını mənsəbinə çıxaraq burada düşərgə yaratsın və əsas qüvvələr heç bir maneəsiz həmin düşərgəyə gəlsinlər. Bu tapşırığın icrası üçün Veteraninin sərəncamına üç draqun alayı və Don kazakları verilmişdi. O, ixtiyarında olan qüvvələrlə iyul ayının 15-də Həştərxanı tərk etdi və həmin ayın 23-də Andreyev kəndinə yetişdi, buradakı 5 min nəfərlik dəstəni zərərsizləşdirərək Aqraxan çayının mənsəbinə çıxdı (78).

Həştərxandan hərəkətə başlayandan 10 gün sonra, yəni 1722-ci il iyun ayının 27-si səhəri rus gəmiləri Aqraxan körfəzinə daxil oldular. Münasib dayanacaq tapılandan sonra qüvvələrin sahilə çıxarılmasına başladılar. Aqraxan körfəzi qoşunların əsas düşərgə-dayanacağı kimi seçilmişdi. Hərbi qüvvələr Dərbəndə doğru irəlilədikləri zaman hərbi qüvvələrin parkı, nəqliyyat vasitələri, xəstə hərbçilər burada qalmaqda idi. Onların təhlükəsizliyinin təmin edilməsi üçün I Pyotr göstəriş verdi ki, orada möhkəmləndirilmiş düşərgə yaradılsın (79).

Qeyd etmək lazımdır ki, Dərbəndə doğru hərbi yürüşün başlanması heç də I Pyotrun gözlədiyi kimi asanlıqla həyata keçmirdi. Əvvəla, atlı qüvvələr heç də vaxtında toplanış məntəqəsinə yetişmədi. Baxmayaraq ki, atlıların dənizlə hərəkət edən qüvvələrdən daha tez Aqraxan körfəzinə yetişəcəyi gözlənilirdi. Atlı qüvvələr I Pyotrun Aqraxan körfəzinə gəlməsindən bir həftə sonra, yəni avqust ayının ilk günlərində toplanış məntəqəsinə yetişə bildilər. Bu gecikmə ilə onlar əsas qüvvələrin Dərbəndə doğru hərəkətə başlamasını da təxirə saldılar. Bundan əlavə, Veteraninin rəhbərliyi altında atlı qüvvələrin Andreyev kəndi ətrafında itkilər verməsi də heç də I Pyotrun ürəyincə olmadı. Orada baş verən döyüş zamanı 89 nəfər ölmüş, 115 nəfər isə yaralanmışdı. Bu xəbər rus çarını xeyli qəzəbləndirmiş və o, Həştərxan qubernatoru A.Volınskini Xəzəryanı ərazilərə hücuma təhrik etməkdə, bu yürüşün problemsiz ötüşəcəyi barədə düzgün məlumat verməməkdə günahlandırılmışdı. A.Volınski öz məlumatlarında Andreyev məntəqəsində yaşayan əhalinin sayca az olduğunu bildirməsi də I Pyotrun qəzəbinə səbəb olmuşdu. Rusiya çarına görə, A.Volınskinin məlumatları həqiqəti əks etdirsəydi böyük itkilərin qarşısını da almaq olardı. Çarın A.Volınskiyə olan sonsuz qəzəbinin qarşısını çarın xanımı ala bildi və nəticədə A.Volınski ciddi cəzadan nicat tapa bildi (80).

I Pyotr heç də xoş olmayan belə ilkin təəssüratla 1722-ci il avqust ayının 5-də bütün qüvvələrin Dərbəndə doğru hərəkətini davam etdirdi. Aqraxandakı düşərgə-dayanacaqda 300 əsgər və 1500 kazak saxlanıldı. Kazakların bir hissəsinin də atları alınaraq əsas qüvvələrə verildi. Qoşunlar Xəzər sahili boyunca hərəkət edirdilər. Bu hərəkət də gözlənildiyindən kifayət qədər çətin keçdi. Xüsusən, Sulak çayını keçərkən qoşunlar bir neçə gün vaxt itirməli oldular. Sulak çayının adlanılması zamanı yerli şamxal Adil Girey rus düşərgəsinə gəldi və Rusiya çarına itaətini bildirdi. Şamxal Adil Girey itaətini bildirməklə yanaşı rus qoşunlarına öz köməyini də təklif etdi, rus qoşunlarına yük heyvanları, ərzaq bağışladı, qoşunların marşrutu üzərində su quyuları qazdırdı. Yolda olarkən I Pyotrun yanına Dərbənddən də bəzi nümayəndələr gəldilər, onlar çarın "Manifest"ini aldıqlarını və rus qoşunlarını sevinclə qəbul etməyə hazır olduqlarını çatdırdılar. Bu nüma-

yəndələrin gəlişi ilə eyni vaxtda I Pyotr Dərbəndə aparan yolun öyrənilməsi üçün podpolkovnik Naumovun rəhbərliyi altında 271 əsgərdən təşkil edilmiş dəstəni Dərbəndə göndərildi. Naumov hərbi qüvvələrin hərəkəti üçün münasib marşrut müəyyənləşdirməklə yanaşı Dərbənd əhalisinə çatdırmalı idi ki, rus çarı öz qoşunları ilə onları qorumağa gəlir (81).

Rus çarı Adil Gireyin və eləcə də ona itaət bildirən digər yerlilərin səmimiyyətinə heç də tam əmin deyildi. Elə bütün yerli hakimlər də Rusiya sarayına itaəti qəbul etmək fikrində deyildi. Xüsusilə, Qaytaq usmisi Əhməd xan və Utemiş sultanı Mahmud rus qoşunlarına müqavimət göstərilməsi üçün xeyli qüvvə toplamışdılar. Mövcud olan faktlardan görünür ki, adı çəkilən şəxslərin müqavimətinin güclü ola biləcəyini I Pyotr da hiss edirdi və həmin müqavimətin aradan qaldırılması üçün rus çarı Utemiş sultanı Mahmudla əlaqə yaratmağa cəhd göstərdi. Bu məqsədlə çar, sultan Mahmudun yanına üç nəfər kazakdan ibarət nümayəndə heyəti göndərdi. Lakin sultan Mahmud onların hər üçünü qətlə yetirdi və rus çarına da xəbər göndərdi ki, ələ keçirəcəyi bütün rus hərbçilərini oxşar aqibət gözləyir. 1722-ci il avqust ayının 22-də Əhməd xanın və sultan Mahmudun qüvvələri ilə rus qüvvələri arasında döyüş baş verdi. Əhməd xanla sultan Mahmudun qüvvələrinin sayı haqqında tarixi ədəbiyyatda fərqli məlumatlar mövcuddur. Həmin qüvvələrin sayı 10, 12 və 16 min kimi təqdim olunur. Hər halda rus qüvvələri kifayət qədər ciddi bir müqavimətlə rastlaşmalı oldular. Həmin müqavimətin aradan qaldırılması üçün I Pyotr şəxsən 8-ci draqun taborunu döyüşə çıxardı. Onun ardınca isə kazaklar döyüşə qoşuldular. Rus çarı öz yazılarında bildirirdi ki, dağlılar ruslara ciddi müqavimət göstərdilər, onlar şücaətlə vuruşdular, tüfəng döyüşü başa çatandan sonra əlbəyaxa döyüşə atıldılar. Buynak yaxınlığında baş verən bu döyüşdə göstərilən bütün cəhdlərə baxmayaraq, Əhməd xanla sultan Mahmudun qüvvələri geri çəkilməli oldular. Onlar təxminən 1000 nəfərə yaxın itki verdilər. Rus qoşunları çox böyük qəddarlıq nümayiş etdirdilər. Ələ keçirilmiş əsirlər bütünlüklə qətlə yetirildi. Bununla da kifayətlənməyən rus qoşunları ətrafdakı kəndləri talan edib viranə günə qoydular. I Pyotr sonradan Senata göndərdiyi məktubunda yazırdı ki, rus qüvvələri 6 kəndi yandırıb məhv etdilər ki, həmin kəndlərdən birində 500 ev var idi (82).

Tək yerli feodallar arasında deyil, elə Dərbəndin özündə də rus qoşunlarının bu şəhərə yaxınlaşmasına münasibət bir mənalı deyildi. Burada Arslan bəy tərəfindən rəhbərlik edilən bir dəstə rus qüvvələrinə qarşı müqavimət göstərilməsinə təkid edirdilər. Bu mövqedə dayananlar Qaytaq usmisinin və Hacı Davudun dəstələrinin köməyi ilə belə müqavimətin təşkil olunmasına çağırırdılar.




*I Pyotr qoşunlarının Dərbənd və Bakı üzərinə hücumu*

Şəhər naibi İmamqulu bəy isə yaxınlaşan çoxsaylı hərbi qüvvələrin qarşısında müqavimət göstərilməsinin mənasız olduğunu bildirirdi. Rus qüvvələrinin ilk dəstələrinin şəhərə yaxınlaşması ilə ikili mövqeyə son qoyuldu. Avqust ayının 15-də podpolkovnik Naumovun rəhbərliyi altında olan dəstə Dərbəndə yetişdi. Elə həmin günlərdə kapitan Verdenin rəhbərliyi altında olan 25 gəmilik rus eskadronu da Dərbənd sahillərində göründü. Şəhər nayibi İmamqulu bəy podpolkovnik Naumovu qəbul etdi və ona şəhəri təslim etməyə hazır olduğunu çatdırdı (83).

Avqust ayının 23-də şəhər nayibi İmamqulu bəy onu müşayiət edən əyanlarla və şəhər nümayəndələri ilə Dərbəndin giriş qapıları qarşısında Rusiya imperatorunu qarşıladı və şəhər darvazalarının gümüş açarlarını ona təqdim etməklə həm də itaətini bildirdi. I Pyotr böyük sevinclə şəhərə daxil oldu. Qoşunların əsas hissəsi isə şəhərdən keçərək cənub divarlarının bayırında düşərgə aldı. Şəhərə nəzarət rus qoşunlarına tapşırıldı. Polkovnik Yunqer Dərbənd komendantı, İmamqulu bəy isə yenidən şəhər nayibi seçildi. Şəhərdə olan hərbi silah, sursat və təchizat rusların əlinə keçdi. Onların arasında 238 top, çoxlu barıt və geyim əşyaları var idi. Rusiyaya göstərdiyi sədaqətə görə isə İmamqulu bəyə maaş təyin edildi, ona I Pyotrun almazlarla bəzədilən və 1400 rubl qiyməti olan portreti bağışlandı. Dərbənd əhalisinə isə sərbəst ticarətlə məşğul olmaq səlahiyyətləri verildi (84).

Rus qoşunları müqavimətsiz şəkildə Dərbəndə daxil olsalar da şəhər əhalisi arasında rus işğalı ilə barışmayanlar da var idi. Bunun nəticəsi idi ki, müqavimət əhval-ruhiyyəli şəxslər I Pyotra qarşı sui-qəsd hazırladılar. Lakin bu sui-qəsdin üstü vaxtından qabaq açıldı və onu hazırlayanlar da həbs edildi (85).

I Pyotr üç gün ərzində Dərbənd şəhəri ilə tanış oldu. Harada liman tikilməsini müəyyənləşdirdi, şəhər qalasını gəzdi . Dərbənddə olarkən I Pyotrun yanına Bakı nümayəndələri gəldilər və onlar ruslarla dostluq münasibətlərinə hazır olduqlarını çatdırdılar.

Sonradan I Pyotr senatorlara göndərdiyi məktubunda Bakı nümayəndələri ilə görüşməyə və onlardan rus təbəəliyini qəbul etməyə hazır olmaları barədə məlumat almağa çox sevindiyini bildirirdi. Rus çarı onu da əlavə edirdi ki, tezliklə Bakıya rus qarnizonu göndərəcəkdir. Baxmayaraq ki, Bakı nümayəndələrinin gətirdiyi məktubda rus qarnizonunun Bakıya buraxılacağı haqqında heç bir məlumat yox idi.

Bakı nümayəndələri I Pyotra göndərdikləri məktubda daha çox şəhər əhalisinin zalımların əlindən əziyyət çəkməsi və bu zülmlərin qurtarılmasında kömək almaq ümidləri ifadə olunurdu. Rus çarı isə bu müraciəti öz maraqları mövqeyindən qiymətləndirdi və poruçik Lunini dəniz yolu ilə Bakıya göndərdi. Poruçik Lunin Bakı hakimlərini razı salmalı idi ki, rus qarnizonunun şəhərə daxil olmasına icazə versinlər (86).




*Dərbənd şəhəri XVIII əsrdə*

Bakı şəhəri nümayəndələri adından I Pyotra göndərilmiş olan məktub heç də bütün şəhər əhalisinin əhval-ruhiyyəsini əks etdirmirdi. Belə bir məktubun yazılması daha çox şəhər əhalisinin müəyyən hissəsinin Şirvan üsyançılarının mühasirəsindən və təzyiqlərindən xilas olmaq istəyi ilə bağlı idi. Məhdud sayda insanlar güman edirdilər ki, Rusiya imperiyasına itaəti qəbul etməklə daha rahat həyata nail ola biləcəklər. Əslində isə şəhər əhalisinin böyük hissəsi, o cümlədən şəhər hakimi Məhəmməd Hüseyn xan da rus qoşunlarının Bakı şəhərinə buraxılmasına qarşı idilər. Elə bunun nəticəsi idi ki, I Pyotrun rus qarnizonunun Bakıya buraxılması çağırışını gətirən poruçik Lunin şəhərə buraxılmadı və Bakı hakimləri ona çatdırdılar ki, şəhəri öz qüvvələri ilə qorumağa hazırdırlar (87).

Bununla belə, Dərbəndin işğal edilməsi rus çarında işğalçılıq siyasətinin genişləndirilməsi üçün yeni ümidlər yaratdı. Bir tərəfdən çar yenidən Təhmasib Mirzəyə diplomatik təzyiqlər göstərməklə Xəzəryanı ərazilərin böyük bir hissəsinə olan iddialarını təmin etməyə çalışdı. Bununla bağlı, I Pyotr öz nümayəndəsini xüsusi məktubla Təhmasib Mirzənin yanına göndərdi. Dərbəndin işğalı ərəfəsində, yəni 1722-ci il avqustun 21-də çarın xüsusi nümayəndəsi olan Çebotaryov Rusiya konsulu Abramovla birlikdə Təhmasib Mirzənin qəbulunda oldu və ona Rusiyanın hərbi yardımını təklif etdi (88).

O biri tərəfdən də rus çarı Bakı üzərinə hücum hazırlamağa başladı. I Pyotr Bakını aldıqdan sonra Kür çayının mənsəbinə qədər irəliləməyi planlaşdırırdı. Ona görə o, general-admiral F.M.Apraksinə tapşırdı ki, Bakıya aparan marşrutla maraqlansın. Lakin qoşunların vəziyyətinin araşdırılması göstərdi ki, Bakıya doğru hərəkət etmək elə də asan olmayacaqdır. Avqust ayının 27-28-də Həştərxandan Dərbəndə hərbi qüvvələr üçün ərzaq gətirən 13 gəmi tufana düşərək məhv oldu. Qoşunların ərzaq ehtiyatı məhv olduğu kimi, onların Bakıya hərəkəti zamanı müşayiət edəcək gəmilərin sıradan çıxması da yeni problem yaratdı. Avqust ayının 29-da I Pyotr Hərbi Şuranın iclasını çağırdı və orada Bakıya doğru irəliləyib-irəliləməmə məsələsi müzakirəyə çıxarıldı. Hərbi Şura üzvlərinin əksəriyyəti mövcud vəziyyətdə Bakıya doğru irəliləməyin düzgün olmadığını bildirdilər. Həmin günlərdə kapitan Bilbaonun rəhbərliyi altında 17 gəmidən ibarət başqa bir qrup da Həştərxandan hərbi yük gətirməyə çıxmışdı. I Pyotr bu gəmilər qrupunun gəlməsi ilə Bakıya doğru hərbi yürüşü davam etdirəcəyinə ümid edirdi. Amma 1722-ci il sentyabrın 4-də I Pyotr bu gəmilərin də qəzaya uğraması, gəmilərin yararsız hala düşməsi və gətirilən yüklərin məhv olması xəbərini aldı. Bu xəbər Bakıya doğru hərəkətin artıq qeyri-mümkünlüyü haqqında əminlik yaratdı. Sentyabr ayının 5-də Bakıya göndərilmiş poruçik Osip Lunin Dərbəndə qayıtdı və

Bakı hakimlərinin rus qarnizonunu şəhərə buraxmamaq xəbərini rus çarına çatdırdı. Bakıya doğru hərəkət etməyin artıq heç bir perspektivi olmadığını görən I Pyotr sentyabr ayının 6-da Dərbənddən Həştərxana dönmək barədə göstəriş verdi. Dərbənd şəhərində kiçik bir qarnizon saxlandı, qüvvələrin əsas hissəsi isə çarla birlikdə Həştərxana doğru hərəkətə başladı (89).

Lakin I Pyotr Bakını işğal etmək niyyətindən heç də əl çəkməmişdi. Həştərxana çatan kimi o, Həştərxanda, Nijni Novqorodda və Kazanda yeni gəmilərin hazırlanmasına, lazımi sayda atların və digər yük heyvanlarının alınmasına pul ayrılması barəsində göstəriş verdi. 1722-ci il oktyabr ayının əvvəllərində Həştərxana çatan I Pyotr öz hərbi yürüşünün nəticəsini müsbət qiymətləndirdi və qeyd edirdi ki, Xəzər sahillərində möhkəm dayaq əldə edə bilmişdir. Həştərxanı tərk etməzdən əvvəl rus çarı digər möhkəm bir dayağın Xəzərin cənub sahilində əldə edilməsinə cəhd göstərdi. Belə ki, o, Həştərxanda olduğu vaxt Rəşt hakimindən məktub aldı. Rəşt hakimi ölkədə əfqan qiyamının genişlənməsindən ehtiyatlanaraq Rusiyadan hərbi kömək istəyirdi. I Pyotr belə bir müraciətə dərhal cavab vermək qərarına gəldi. Çünki Xəzərin cənub sahillərinin işğalının həyata keçirilməsi üçün onun əlinə yaxşı bir bəhanə düşdü. Dərhal da o, Rəştə səfər hazırlığı barədə göstəriş verdi. Zəruri hazırlıqlar başa çatdırılandan sonra rus hərbi dəstəsi 1722-ci il noyabrın 4-də Həştərxandan yola düşdü. Dəstənin yola salınmasında I Pyotr şəxsən iştirak etdi. Beş bölükdən ibarət olan rus dəstəsi tam şəkildə silahlanaraq 14 ədəd gəmidə hərəkət edirdi. Eskadrilyaya rəhbərlik kapitan-leytenant F.İ.Soymonova, piyadalara rəhbərlik isə polkovnik P.M.Şipova tapşırıldı. Çar tərəfindən polkovnik Şipova tapşırıldı ki, Rəşt şəhərini nəzarət altına alandan sonra şəhərin müdafiəsi üçün əlverişli mövqelər seçsin. Yerli hakimlərə və əhaliyə isə Şipov bildirməli idi ki, ruslar onları qorumağa gəlmişlər (90).

Cənuba doğru hərəkət edən F.Soymonov və P.Şipov dəniz sahillərinin kəşfiyyatını da aparırdılar. Dekabr ayında rus gəmiləri Ənzəliyə çatdılar və Pəribazar çayının mənsəbində lövbər saldılar. P.Şipovun komandanlığı altında olan piyadalar qayıqlarla çayı üzüyuxarı üzüb Pəribazar kəndinə çatdılar və oradan da quru yolla Rəştə yollandılar. Ruslar hər hansı bir müqavimətə rast gəlmədən Rəşt şəhərini tutdular (91).

Polkovnik P.Şipovun Gilandakı fəaliyyəti ilə bağlı maraqlı hadisələrdən biri onun Səfəvi elçisi İsmayıl bəylə görüşməsi və onun Peterburqa göndərilməsində iştirak etməsi idi. Rusiyanın öz maraqları mövqeyindən Səfəvi sarayı ilə əlaqələr yaratmaq cəhdlərinin qarşılığı olaraq şah sarayı İsmayıl bəyi elçi sifətində Peterburqa göndərməyi qərara almışdı. Ümid edilirdi ki, İsmayıl bəyin apardığı danışıqlar nəticəsində Ru-

siya dövləti Səfəvi dövlətinə qarşı genişlənməkdə olan əfqan qiyamının qarşısını almağa yardım göstərəcəkdir. Səfəvi şahı Şah Sultan Hüseyn hakimiyyətinin sonlarına yaxın İsmayıl bəyi elçi təyin etdi və ona Rusiya dövləti ilə danışıqlar aparmaq və Rusiyanın hərbi yardımı haqqında müqavilə imzalamaq səlahiyyəti verdi. İsmayıl bəy Ənzəlidən Rusiyaya yollanmaq niyyətində idi və bununla əlaqədar 1722-ci ilin sonlarında Rəştə gəlib çıxdı. Bura yetişənə qədər Şah Sultan Hüseyn hakimiyyəti əfqanlara təhvil verdi və onun hakimiyyətdən əl çəkməsindən sonra varisi olan Təhmasib Mirzə özünü Səfəvi şahı elan etdi. Bundan xəbər tutanda İsmayıl bəy Təhmasib Mirzə ilə görüşməyi və səlahiyyətlərinin onun tərəfindən təsdiqlənməsini istədi. Təhmasib Mirzə Rusiyadan hərbi yardım almaq təşəbbüsünü müsbət qarşıladı və İsmayıl bəyin Rusiyaya yollanmasına etiraz etmədi. Bununla belə, havaların soyuması, Volqa çayında gəmiçiliyin təxirə salınması ilə əlaqədar olaraq İsmayıl bəyin səfəri də xeyli ləngiməli oldu. İsmayıl bəy səfərinin başlanmasını gözlədiyi günlərdə Təhmasib Mirzə Rusiya qoşunlarının Xəzəryanı ərazilərə hücum etməsi və Dərbəndi işğal etməsi barəsində məlumat aldı. Rusiyanın Xəzəryanı əraziləri işğal etmək niyyəti aydınlaşanda Təhmasib Mirzə İsmayıl bəyin elçiliyinə daha lüzum qalmadığı barədə qərar verdi və onun geri qaytarmaq üçün adam göndərdi (92).

Rusiya sarayı Xəzəryanı ərazilərin işğalının hüquqi əsaslandırılması üçün Səfəvi dövləti ilə hər hansı bir sənədin imzalanmasına xüsusi əhəmiyyət verirdi. İsmayıl bəylə imzalanacaq sənəd bu ehtiyacı aradan qaldıra bilərdi. Rusiya sarayı Səfəvi nümayəndələrinin Peterburqa gəlməsində çox maraqlı idi. Ona görə də bölgədəki rus konsulu S.Abramovla, polkovnik P.Şipov Səfəvi elçisi İsmayıl bəyin geri qaytarılmasının qarşısını almaq üçün işə qarışdılar və əvvəlcə S.Abramov Səfəvi elçisinin geri qaytarılması üçün Təhmasib Mirzə tərəfindən göndərilmiş çaparı Rəşt yolu üzərindəki kəndlərdən birində ləngidə bildi. Polkovnik P. Şipov isə kapitan F.Soymonova xəbər göndərdi ki, S.Abramov şah çaparını ləngitdiyi vaxt İsmayıl bəyi Rusiyaya yola salmağa çalışın və yerli üzən vasitələrin rus gəmilərinə yaxınlaşmasına icazə verməsin. Nəhayət, 1723-cü il mart ayının 17-də İsmayıl bəyi Rusiyaya yola salmaq mümkün oldu. Səfərə yollanarkən İsmayıl bəy onun səlahiyyətlərinin Təhmasib Mirzə tərəfindən ləğv edildiyi barədə məlumata malik deyildi (93).

Rus məmurları İsmayıl bəyi aldadaraq Peterburqa gətirdikləri kimi, burada da onu bir daha aldadaraq dövlətlərarası müqaviləni imzalamağa sövq etdilər. Bununla Rusiya sarayı daha çox formal Səfəvi şahlığını daşıyan Təhmasib Mirzəni fakt qarşısında qoymaq və Xəzəryanı ərazilərin Rusiya işğalı altına düşməsini qanuniləşdirmək istəyirdi. Bir qədər irəli

gedərək qeyd etmək lazımdır ki, həmin müqavilə 1723-cü il sentyabr ayının 23-də Peterburqda imzalandı. Səfəvi dövləti ilə Rusiya arasında müqavilə imzalanması üçün aparılan müzakirələrə Rusiya tərəfindən Osterman rəhbərlik edirdi. Səlahiyyətlərinin Təhmasib Mirzə tərəfindən geri çağırılması bəlli olsa da İsmayıl bəy Peterburqda təntənə ilə qarşılandı və hətta I Pyotr da onu qəbul etdi. Danışıqlar Rusiyadan hərbi yardım alınması və bunun əvəzində Səfəvi dövlətinin gedə biləcəyi güzəştlər ətrafında aparılırdı. Rusiya sarayının təzyiqləri ilə imzalanan müqavilə beş maddədən təşkil olunmuşdu. Müqavilənin birinci maddəsinə əsasən Rusiya dövləti Səfəvi dövləti qarşısında ona hərbi yardım göstərmək, Səfəvi düşmənlərini ölkədən qovmaq və Səfəvi dövləti ərazisinə rus qoşun dəstələri göndərmək öhdəliyi götürürdü. İkinci maddə isə Rusiyadan alınan hərbi yardımın əvəzində Səfəvi dövlətinin gedəcəyi güzəştlər öz əksini tapmışdı. Səfəvi dövləti öhdəsinə götürürdü ki, Rusiyanın köməyi əvəzində Dərbəndi, Bakını və onların ətrafını, Gilan, Mazandaran və Astrabad vilayətlərini birdəfəlik Rusiyaya bağışlasın. Göründüyü kimi, bu maddədə Şamaxının adı çəkilməsə də, Bakı və Dərbənd şəhərlərinin Rusiyaya bağışlanması öz əksini tapmışdı. Başqa sözlə, Rusiya sarayı Azərbaycanla bağlı olan işğalçılıq planlarının müəyyən hissəsini qanuniləşdirməyə cəhd göstərmişdi. Üçüncü maddədə bildirilirdi ki, Səfəvi dövləti ərazisindəki rus qoşunlarının atlara və təchizat əşyalarına olan ehtiyacını aradan qaldırmaq üçün yerlərdə şərait yaradılacaqdır. Dördüncü maddədə iki ölkə arasında dostluq münasibətlərinin bərpa olunduğu və əhalinin qarşılıqlı şəkildə azad surətdə səfər etmək hüququ təsbit olunurdu. Ticarət işlərinə sərbəstlik verilməsi də bu müqavilədə əks olunmuşdu. Müqavilənin beşinci maddəsinə görə isə tərəflərdən birinin dostu digər ölkənin dostu kimi və ya əksinə tanınmalı idi (94).

Heç bir qanuni səlahiyyəti olmayan İsmayıl bəyin belə bir müqaviləni imzalması Səfəvi dövlətinin parçalanmasının daha da sürətləndirilməsi demək idi. Elə əvvəldən də məlum idi ki, Təhmasib Mirzə belə bir müqaviləni qəbul etməyəcəkdir. Çünki o, qətiyyətlə Rusiyanın işğalçılıq siyasətinə qarşı çıxırdı. Əslində elə belə də oldu. Təhmasib Mirzə Rusiya ilə imzalanan müqaviləni qəbul etmədi. Əksinə, belə ağır şərtli müqaviləni imzaladığı üçün İsmayıl bəyi də satqın adlandırdı. Bundan sonra cəzalandırılacağından qorxan İsmayıl bəy canını qurtarmaq üçün Həştərxana qayıtdı və ömrünü də orada başa vurdu (95).

Haqqında danışılan müqavilənin imzalanması ərəfəsində Rusiya sarayının Xəzəryanı ərazilərlə bağlı diqqət yetirdiyi başlıca məsələ Bakı şəhərinin işğalı idi. Hələ Həştərxanı işğal etməmişdən əvvəl I Pyotr general Matyuşkinə Bakı üzərinə hücum üçün hazırlıq işlərini davam etdirməyi tapşırdı. General Matyuşkin Bakı şəhəri üzərinə hücumda iştirak edəcək

qoşunların ərzaq ehtiyatlarını yaratmalı və bu səfər üçün hazırlanan gəmilər üzərindəki quraşdırma işlərini nəzarət altında saxlamalı idi. Rusiya çarının qərarına əsasən Bakı üzərinə hücum 1723-cü ilin yayında həyata keçirilməli idi. Onun fikrincə, Bakı Rusiyanın bölgədəki bütün işlərinin açarı rolunu oynayırdı. I Pyotr öz göstərişində bildirirdi ki, 1723-cü ilin yazında Kazanda hazırlanan 15 hekbot Həştərxana gəlməli və sonra da 4 alaylıq qüvvə ilə Bakıya doğru hərəkətə başlanmalı idi (96).

Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsi, Xəzəryanı ərazilərə Osmanlı qoşunlarının çıxarılması ehtimalı Rusiya sarayının Bakının işğalı ilə bağlı daha çevik addımlar atmağa sövq edirdi. Rusiya dövləti Dərbənd istiqamətində qoşun çıxarmaqla və Şamaxıya doğru istiqamət götürməklə Osmanlı sarayında belə bir təsəvvür yaratmaq istəyirdi ki, məqsədi yalnız Şamaxıda rus tacirlərini talan edənləri cəzalandırmaq və rus tacirlərinə dəymiş ziyanın əvəzini çıxmaqdır. Lakin sonradan Rusiyanın Xəzəryanı ərazilərlə bağlı siyasətinin mahiyyəti aydınlaşanda Osmanlı dövləti də öz maraqlarına uyğun siyasətə üstünlük verdi. Osmanlı dövlətinin Cənubi Qafqazla bağlı ciddi siyasəti Rusiya sarayını təşvişə saldı və Rusiya sarayında şübhə qalmamışdı ki, Osmanlı dövləti tərəfindən Şamaxının və Bakının tutulması üçün ciddi addımlar atıla bilər.

Osmanlı qoşunlarının Xəzəryanı ərazilərə çıxarılmasının önlənməsi üçün I Pyotr 1723-cü ilin martından etibarən general Matyuşkini Bakıya hücum etməyə tələsdirməyə başladı. Həmin ilin may ayında rus çarı bir daha Bakının işğalının zəruriliyinə diqqət yönəltdi. O ehtiyat edirdi ki, Osmanlı qoşunları yaxın zamanlarda Şamaxını tuta bilərlər. Ona görə də çar general Matyuşkindən tələb edirdi ki, ixtiyarında olan gəmilərlə Bakıya doğru istiqamət götürsün, Bakıya türk qüvvələrindən əvvəl çatsın, rus qüvvələrinin əsas hissəsi yetişən kimi isə Bakı əhalisi ilə danışıqlar aparsın. Bununla belə general Matyuşkinin ümumi rəhbərliyi altında olan rus qüvvələri 1723-cü il iyun ayının 20-də Həştərxandan Bakıya doğru istiqamət götürdülər. Bakıya göndərilən qüvvələr 4 alaydan ibarət idi. Dənizdə irəliləyərkən rus qüvvələri üç dəstəyə bölündülər ki, hər bir dəstənin həm quru, həm də dəniz komandiri var idi. Birinci dəstəyə general-mayor Matyuşkin və kapitan-leytenant Usov, ikinci dəstəyə general-mayor Trubetskoy və kapitan-leytenant Puşkin, üçüncü dəstəyə briqadir Baryatinski və kapitan-leytenant Soymonov rəhbərlik edirdilər (97).

General Matyuşkin Həştərxandan yola düşməzdən əvvəl Səfəvi elçisi kimi Peterburqa yollanmaqda olan İsmayıl bəydən Bakı xanının adına məktub aldı. Çox güman ki, rus generalları İsmayıl bəyin imzaladığı məktubun onların işini asanlaşdıracağını güman edirdilər. İsmayıl bəyin məktubunda deyilirdi ki, yaxın zamanlarda Rusiya ilə Səfəvi dövləti arasında müqavilə

imzalanacağı və həmin müqavilə əsasında bir sıra ərazilərlə bərabər, Bakının da Rusiyaya güzəştə gediləcəyi gözlənilir. Ona görə də İsmayıl bəy Bakı xanını rus qoşunlarına müqavimət göstərməməyə çağırırdı (98).

Mövcud məlumatlara görə, rus qüvvələrinin ilk gəmiləri 1723-cü il iyul ayının 6-da Bakı körfəzində göründü. Sonrakı günlər isə digər qüvvələr Bakıya yetişdilər (98). Bəzi tarixi ədəbiyyatda rus qüvvələrinin iyul ayının 17-də Bakı buxtasına yetişdiyi göstərilir (100). Bildirilir ki, elə həmin gün də general Matyuşkin İsmayıl bəyin məktubunu mayor Neçayev vasitəsilə Bakı hakimlərinə göndərdi. Eyni zamanda general Matyuşkin öz adından çatdırdı ki, keçən il rus çarının nümayəndəsinə rədd cavabı verilmişdi və ümid etdiyini bildirirdi ki, bu il Bakı hakimlərinin cavabı fərqli olacaqdır. General Matyuşkin onu da əlavə etdi ki, böyük Rusiya imperatoru adından Bakını qiyamçılardan qorumaq üçün gəlmişdir və inanır ki, Bakı sultanı bu niyyətin həyata keçməsinə mane olmayacaqdır. General Bakı hakiminə məsləhət görürdü ki, İsmayıl bəyin təkliflərini qəbul etsin (101).

Lakin ruslar ümidində olduqları cavabı ala bilmədilər. İyul ayının 19-da Bakı hakimi Məhəmməd Hüseyn bəyin cavabı general Matyuşkinə çatdırıldı. Məktubda bildirilirdi ki, Bakı şəhərinin əhalisi şaha sədaqətini saxlamaqla 4 il ərzində Hacı Davud qiyamçıları qarşısında dözüm nümayiş etdirmiş və gələcəkdə də müqavimət göstərməyə hazırdırlar. Bunun üçün şəhər əhalisinin heç bir əlavəköməyə ehtiyacı yoxdur. İsmayıl bəyin məktubu ilə bağlı isə bildirildi ki, bu məktub Rusiyada yazılıb və şəhər əhalisi heç də İsmayıl bəyin təkliflərini qəbul etmək məcburiyyətində deyildir. Bu cavab general Matyuşkinin şəhəri döyüşsüz almaq ümidini puça çıxardı və dərhal şəhərə hücum hazırlığı barəsində göstəriş verdi. Generalın əmrinə əsasən ilkin olaraq polkovnik Astafyev və polkovnik Bezobrazov dörd taborla bərabər sahilə çıxaraq şəhər üzərinə hücuma keçməli idi. Eyni zamanda topçu mayor Qerberq göstəriş verdi ki, iki bombardmançı qelbotu və 18 futluq topların yerləşdiyi beş gəmini hazır vəziyyətə gətirsin (102).

Bakı şəhəri ətrafında yerli qarnizonla rus hərbi qüvvələri arasında baş verən döyüş haqqında tarixi ədəbiyyatda müfəsəl məlumat yoxdur. Lakin mövcud olan kəsad məlumatlarda yerli qarnizon tərəfindən ruslara qarşı müqavimət təşkil edildiyi göstərilir. İyul ayının 21-də səhər saat 7-də rus hərbçilərinin sahilə çıxarılmasına başlandı. Onların təhlükəsizliyi bir neçə gəmi tərəfindən təmin olunurdu. Rus qüvvələrinin bir hissəsi sahilə çıxarıldıqdan sonra yerli qarnizonun hücumuna məruz qaldı. Ruslar əvvəlcə atlı döyüşçülərin üzərinə hücum etdilər. Onların hücumunun qarşısının alınması üçün ruslar topları işə saldılar. İki səhra topundan atılan atəşlər qala atlılarını geri çəkilməyə məcbur etdi. Sonrakı hücumların qarşısının alınması üçün general Matyuşkinin əmrinə əsasən iki bombardmançı qelbot və toplar

yerləşdirilmiş beş gəmi şəhərə yaxınlaşaraq döyüş mövqeləri tutdular. Qala müdafiəçiləri də toplardan istifadə etməklə rusların hücumuna mane olmaq istədilər. Lakin rusların ixtiyarında olan toplar daha güclü idi və daha uzaq məsafəni vururdu. Gün ərzində rus toplarından şəhərə 94 bomba atıldı. Nəticədə şəhərdə yanğın başladı. Rusların iki taboru sahilə çıxarıldıqdan sonra onların yanında 4 qaubitsa döyüş vəziyyətinə gətirildi. Həmin qaubitsalar da gün ərzində atəş açaraq qala divarlarında uçuqlar yaratmağa çalışdılar (103).

Davamlı top atəşləri nəticəsində Bakının qala divarlarında oyuqlar yarandı. Lakin rus qüvvələrinin gücü ayın 24-də bundan artığına çatmadı. Şəhər üzərinə növbəti hücum iyulun 25-nə planlaşdırıldı. General Matyuşkinin planına görə, sürətlə həyata keçirilən hücum nəticəsində həmin gün şəhər alınmalı idi. Niyyətinə çatmaq üçün general xüsusi plan da hazırlamışdı. Plana görə gecə ikən sahilə çıxarılmış rusların düşərgəsində hay-küy qaldırılmalı və qala müdafiəçilərinin diqqəti də həmin istiqamətə cəlb edilməli idi. Bu zaman gəmilərdə olan rus qüvvələri sakit şəkildə qala divarlarının uçulmuş yerinə yaxınlaşmalı və şəhərə daxil olmalı idilər. Lakin iyulun 25-nə keçən gecə dənizdə güclü külək qalxdı və bu külək rus gəmilərini sahildən xeyli uzaqlaşdırdı. Ona görə həmin gəmilərdən səmərəli atəş açılması da mümkün olmadı. Qala müdafiəçiləri bundan istifadə etdilər və qalanın uçulmuş yerlərini tamamilə bərpa etdilər. Ayın 26-da rus hərbçiləri qala daxilinə satmağa qarpız aparan birisini tutub general Matyuşkinin yanına gətirdilər. Bu adam isə rusları maraqlandıran suallara cavab verə bilmədi. Belə olanda qərar verildi ki, həmin şəxs vasitəsilə qala daxilindəkilərə məktub göndərilsin. General Matyuşkin məktubunda qala daxilindəkilərə müqavimət göstərməyin mənasız olduğunu və təslim olacaqları halda rus imperatorunun lütfü ilə qarşılaşacaqlarını çatdırdı. Məktub qala daxilindəkilərə çatandan sonra dənizə baxan bürclərin birinin üstündə ağ bayraq qaldırıldı. Qala müdafiəçiləri tələb etdilər ki, onların yanına əvvəlcə rusların nümayəndəsi göndərilsin və həmin nümayəndə rusların məqsədi barəsində məlumat versin. General Matyuşkin bir neçə zabiti iki qayıqda sahilə göndərdi. Onların qarşısına şəhərdən dörd nəfər nümayəndə çıxdı. Şəhər nümayəndələri ruslara şəhəri təhvil verməyə hazır olduqlarını bəyan etdilər. Şəhər nümayəndələrinin yanında general Matyuşkin şəhərin təslim ediləcəyi təqdirdə üzərinə götürdüyü öhdəlikləri yazılı şəkildə ifadə etdi və şəhər əhalisinə çatdırılmasını xahiş etdi. Şəhər nümayəndələri geri qayıtdılar və eyni zamanda general Matyuşkinə şəhər qapılarının açılması üçün bir neçə saat vaxt lazım olduğunu bildirdilər. Çünki top atəşlərindən sonra qapıların arxasında torpaq yığıntıları yaranmışdı. Bir müddətdən sonra şəhər qapıları açıldı və şəhər əhalisi şəhəri təslim etməyə hazır olduqlarını bildirdilər. Qapıların açılması ilə sahildə olan rus qüvvələri şəhərə daxil oldular (104).

Bəzi tarixi ədəbiyyata görə, Bakının təslim edilməsi iyul ayının 27-də, rus qüvvələrinin şəhərə daxil olması isə iyulun 28-də baş vermişdi. Məlumatlardan o da aydın olur ki, şəhər rəhbərliyi arasında heç də hamı şəhərin təslim edilməsinə razı deyilmiş. Şəhərin təslim edilməsi tərəfdarlarına yüzbaşı Dərgahqulu bəy və onun qardaşı Hacı Emin rəhbərlik edirmiş. Yüzbaşı Dərgahqulu bəy tarixi ədəbiyyatda şəhər qarnizonunun rəhbəri kimi təqdim olunur. Bildirilir ki, iyulun 28-də səhər saat 5-də Dərgahqulu bəy və onun ətrafındakılar şəhər qapısını açdılar və bildirdilər ki, bəzi adamlar onları müqavimət göstərməyə məcbur edirdilər. Gündüz saat 3-də isə rus qüvvələri şəhərə daxil oldular. Onların şəhər əhalisi tərəfindən duz-çörəklə qarşılandığı qeyd olunur. Şəhər rəhbərliyi isə general Matyuşkinə şəhər darvazalarının açarlarını təqdim etdi. Qoşunlar şəhərə daxil olduqdan sonra qala bürclərinə, qala divarları qarşısına, darvazalara, barıt anbarları və toplar yanına postlar qoyuldu. Sonra gəmilərdən 14 ədəd top, ərzaq və təchizat əşyaları şəhərə daşındı (105).

Kapitan-leytenant Soymonov rus qüvvələrinin şəhərə daxil olmasını təsvir edərkən yazırdı ki, sahilə çıxarılmış olan rus taborları sıraya düzüldülər və Bakı əhalisi hamılıqla silahsız şəkildə şəhərdən bayıra çıxdılar. Əhali general Matyuşkinə çatdırdı ki, onlar şəhəri təslim etməyə hazırdırlar. F.Soymonov qeyd edirdi ki, rusların şəhərə daxil olması çox nizamlı şəkildə baş verdi. O da təsdiq edirdi ki, darvazalara və digər yerlərə qarovul təyin edildi, şəhərdəki böyük meydan yaxınlığında qauptvaxt yaradıldı. Əsgərlər boş olan kazarmalarda yerləşdirildilər (106).

Bakı şəhərinin işğal edilməsini I Pyotr çox böyük sevinclə qarşıladı. Onun nəzərində Bakı şəhəri Xəzər dənizindəki ən yaxşı liman idi və şərqlə əlaqələrin genişləndirilməsi üçün bu şəhərə xüsusi əhəmiyyət verilirdi. Qeyd etmək lazımdır ki, ruslara qarşı müqavimətin olmasına baxmayaraq, əslində Bakı müdafiəçilərinin başqa seçimi yox idi. Tarixi məlumatlara görə, şəhərdə yalnız 700 nəfərlik bir qarnizon var idi. Bu qarnizonun ixtiyarında rus toplarından daha zəif olan 80 ədəd top var idi. Qala daxilində barıt və digər hərbi təchizat əşyaları yetərincə deyildi (107). Bu mövcud imkanlarla çox saylı rus qüvvələrinin qarşısında dayanmaq uzun müddət mümkün deyildi. Səfəvi dövlətinin ciddi böhran içində olduğu bir vaxtda kənardan hər hansı bir köməyin gələcəyi də real deyildi.

Şəhərin təslim edilməsində göstərdiyi fəallığa görə Dərgahqulu bəy Rusiya sarayı tərəfindən Bakının hakimi təyin edildi. Şəhərin əvvəlki hakimi olan Məhəmməd Hüseyn bəy isə Bakıdan uzaqlaşdırıldı. Məhəmməd Hüseyn bəy və onun üç qardaşı Həştərxana aparıldı (108) və məlumdur ki, o öz həyatını sürgündə başa vurdu.

Hadisələrin sonrakı inkişafı göstərdi ki, Dərgahqulu bəy heç də Rusiyaya sədaqətli olan bir insan deyildi. Tarixi məlumatlara görə, 1724-cü ildə Dərgahqulu bəy şəhərdəki rus qarnizonunun məhv edilməsi üçün plan hazırlamışdı. Lakin bu planın üstü açıldı və Dərgahqulu bəy şəhər hakimliyindən kənarlaşdırıldı (109).

Bakı şəhəri işğal edildikdən sonra rus qüvvələrinin bütün artilleriyası, təchizatı şəhərə daşındı. Briqadir Baryatinki rus çarının sərəncamına əsasən Bakının komendantı təyin edildi. Matyuşkin isə şəhərin tutulmasındakı roluna görə general-poruçik rütbəsinə layiq görüldü. Bir müddətdən sonra o və general Trubetskoy Həştərxana qayıtdılar. General Matyuşkin oradan da Peterburqa yollanmalı idi. Həştərxanı tərk etməzdən əvvəl o, Baratinskiyə tapşırıq göndərdi ki, sərəncamında olan hərbi qüvvələrin bir hissəsini Kür çayının mənsəbinə yollasın və həmin məntəqəni işğal etsin. Kür çayının mənsəbinə qoşun göndərməkdə məqsəd Salyanın işğal edilməsi idi. Həmin tapşırığın yerinə yetirilməsi üçün podpolkovnik Zinbulatov atlı draqun taboru ilə Salyan istiqamətinə göndərildi. Salyanın işğal edilməsi bölgəni nəzarət altında saxlamaqla bərabər, bölgənin otlaqlarını, balıq vətəgələrini, əkin sahələrini nəzarət altında saxlamaq imkanı verirdi. Bu bölgənin işğalı Bakıdakı hərbi qüvvələrin ərzaq və yemlə təminatına da kömək etmiş olardı. Tarixi faktlardan aydın olur ki, Salyana gəlmiş olan tabor yerli hakimlərin qurduğu plan nəticəsində məhv edildi. Bununla belə, I Pyotr öz niyyətindən əl çəkmədi və general Matyuşkinə göstəriş verdi ki, özü Salyana yollanın, orada liman yaradılmasına rəhbərlik etsin və sonra isə Gilana yollansın və oradakı rus qüvvələrinə rəhbərliyi öz üzərinə götürsün (110).

Azərbaycanın Xəzəryanı ərazilərinin böyük bir hissəsinin işğal edilməsi, rus qoşunlarının Xəzərin cənubuna çıxarılması Osmanlı dövləti tərəfindən heç də biganə qarşılanmadı. Rusiyanın Xəzəryanı ərazilərdə genişlənən işğalı qarşısında bölgədə öz mənafelərini reallaşdırmaq istəyən Osmanlı dövlətinin siyasətinin fəallaşması isə Rusiyada yeni bir nigarançılıq yaratdı. Qeyd etmək lazımdır ki, hətta Bakı işğal edilməzdən qabaq Osmanlı dövləti ciddi şəkildə Rusiyadan öz qoşunlarını Dağıstandan çıxarmağı tələb etdi. Osmanlı dövlət bəyan edirdi ki, Şirvan Osmanlı himayəsi altına alındığı üçün Dağıstanın sünni əhalisi də Osmanlı təbəələridir və onların Rusiya işğalı altında olması ilə barışmayacaqdır. Rusiya bu tələbi yerinə yetirmək əvəzinə Səfəvi dövlətinin şimal ərazilərini Rusiya ilə Osmanlı dövləti arasında bölüşdürməyi təklif etdi (111).

Rusiyanın irəli sürdüyü təklif Omanlı dövləti tərəfindən dərhal qəbul edilməsə də, sonradan bu məsələ üzərində ikitərəfli müzakirələr başlandı. Bakı şəhərinin işğal edilməsindən sonra bu müzakirələr daha da fəallaşdı. 1724-cü il iyun ayının 27-də İstanbulda Rusiya ilə Osmanlı dövləti arasında

Səfəvi dövlətinin şimal ərazilərinin bölüşdürülməsi barəsində müqavilə imzalandı. Bu müqavilə Azərbaycan ərazilərinin də iki dövlət arasında bölüşdürülməsini özündə əks etdirirdi. Cənubi Qafqazda olan Azərbaycan əraziləri şimaldan cənuba demək olar ki, ortadan bölünərək şərq hissə Rusiyanın, qərb hissə Osmanlı dövlətinin nəzarəti altına düşdü. İstanbul müqaviləsi müqəddimə, 6 maddə və bir neçə qeyddən ibarət idi (112). Birinci maddədə əsasən Cənubi Qafqazdakı Azərbaycan torpaqlarının iki dövlət arasında bölüşdürülməsi konkretləşdirilirdi. Təsbit olunurdu ki, Rusiya ilə Osmanlı dövləti arasındakı sərhəd xətti Dağıstanın sərhəd xəttinin Xəzər dənizindən 24 fərsəng aralı olan nöqtəsindən başlayır və dənizə qədər həmin fasilədə Dərbənddən keçir, sonra sərhədin 7 fərsəngliyində Şamaxıdan keçir və oradan düz xətlə Kür və Araz çayının qovşağına qədər uzanır. Həmin sərhəd xətti iki dövlətin təyin etdiyi nümayəndələr tərəfindən Fransanın vasitəçiliyi ilə dəqiqləşdirilməli idi. Tərəflər qərara gəlirdilər ki, sərhəd xətti boyunca tikilə biləcək istehkam qurğuları barədə qarşı tərəf məlumatlandırılacaqdır. Eyni zamanda tərəflər razılaşırdılar ki, istehkam qurğuları sərhəd xəttindən 3 fərsəng aralıda qurulmalıdır.

İkinici maddəyə əsasən, Şamaxı və İrəvanda istehkamlar tikilməməli və həmin şəhərlərdə hərbi qarnizonlar saxlanmamalı idi. Əgər bu şəhərlərdə hansısa etiraz çıxışları baş versəydi və Osmanlı sarayı bu çıxışların yatırılması üçün qoşun göndərmək məcburiyyətində qalardısa, onda bu qoşunlar Kür çayını adlayana kimi Rusiya hökuməti məlumatlandırılmalı idi. Etiraz çıxışları yatırılandan sonra qoşunlar yenidən geri çağırılmalı idi.

Üçüncü maddə Osmanlı dövləti ilə Səfəvi dövləti arasındakı yeni sərhəd xəttini müəyyənləşdirirdi. Dördüncü maddəyə əsasən, Rusiya Təhmasib Mirzənin İstanbul müqaviləsinin şərtlərini qəbul etməyə razı salmalı idi. Əks təqdirdə, Rusiya və Osmanlı dövləti iddia etdikləri ərazilərin nəzarət altına alınmasını təmin etməli idilər. Beşinci maddəyə əsasən, Təhmasib Mirzə İstanbul müqaviləsinin şərtləri ilə razılaşacağı halda Rusiya və Osmanlı dövləti ona hərbi yardım göstərməli və onun hakimiyyətinin möhkəmlənməsinə çalışmalı idilər.

Müqavilənin imzalanmasından sonra Osmanlı dövləti onun üçün ayrılmış ərazilərin nəzarət altına alınmasına başladı. Bu proses 1725-ci ilin sonuna kimi davam etdi. Həmin müddət ərzində Gəncə, Qarabağ, İrəvan, Naxçıvan və digər məntəqələr Osmanlı dövlətinin nəzarəti altına düşdü.

1725-ci ildə I Pyotrun dünyasını dəyişməsi, digər tərəfdən də Rusiya-Osmanlı müqaviləsinin imzalanması sonrakı bir neçə ildə Azərbaycan ərazilərində beynəlxalq çəkişməni bir qədər səngitdi. Əslində, Rusiya ilə Osmanlı dövləti öz maraqlarını kifayət qədər təmin etmişdilər. Səfəvi dövlətinin isə elə bir gücü yox idi ki, Rusiyanın və Osmanlı dövlətinin nəzarət

altına aldıqları ərazilərdən çəkindirə bilsin. Rusiya sarayından hətta general Matyuşkinə göstəriş verilmişdi ki, yeni Səfəvi ərazilərini işğal etməkdən çəkinsin və əsas diqqəti nəzarət altına alınmış ərazilərdə möhkəmlənməyə versin. Bu vəzifənin həyata keçirilməsi üçün 1725-ci ildə Xəzəryanı ərazilərə 4 piyada alayı və 3 atlı draqun alayı gətirildi. Eyni zamanda Həştərxandan Dərbəndə və Bakıya silah və hərbi sursatla dolu 54 gəmi göndərildi (113).

Rusiya Azərbaycanın Xəzəryanı ərazilərində öz maraqlarını və hakimiyyətini qorumaq üçün bir sıra addımlar atdı. Əvvəla, burada yeni idarəetmə sistemi yaratdı və knyaz V.Dolqorukova bölgənin idarə olunması həvalə olundu. Bir sıra şəhərlərdə əvvəlki hakimlər saxlanılsa da müəyyən yerlərdə yeni və daha etibarlı hakimlər təyin edildilər. Dərbənddə, Avropada, Salyanda, Niyazabadda istehkam tikililərinin əsası qoyuldu, Bakı qalasının çöl divarı yanında 5 qala bürcü tikildi (114).

XVIII əsrin 20-ci illərinin sonunda əfşarlar tayfasına mənsub olan Nadirqulunun şah Təhmasiblə fəaliyyət birliyi qurması bölgədə hərbi-siyasi vəziyyətin dəyişməsinə fəal təsir göstərdi. Azərbaycanın Xəzəryanı ərazilərinin işğal edildiyi dövrdə Nadirqulu Xorasan vilayətinin şimal-şərqindəki Dərgəz məntəqəsində ətrafına topladığı kiçik dəstə ilə yaşadığı və qonşu olduqları kəndləri talançı yürüşlərdən qorumaqda ad çıxarmışdı. Onun qeyri-adi döyüş məharəti və təşkilatçılıq istedadı tez bir zamanda talançı yürüşləri özlərinə həyat tərzi seçən insanların qəlbinə də bir vəlvələ saldı. Bacarığı ilə tanınan Nadirqulu döyüşgən bir şəxs kimi ad çıxardı. Qısa zaman ərzində o, bölgədə məğlubedilməzlik simvoluna çevrildi və döyüşçülük keyfiyyəti ilə Şah Təhmasibin də diqqətini cəlb etdi. Şah Təhmasibə görə, Səfəvi dövlətinin əvvəlki qüdrətinin bərpa edilməsində Nadirqulu ona yardımçı ola bilərdi və ona görə də onu fəaliyyət birliyinə dəvət etdi. Nadirqulu özü də ölkə ərazisini parçalamış düşmənlərə layiqli cavab vermək məqsədilə Şah Təhmasibə qoşulmağı qərara aldı.

Bu hadisə 1726-cı il sentyabr ayının 2-də baş verdi. 1730-cu ilə qədər keçən dövr ərzində isə Nadirqulu sərkərdəlik məharətini nümayiş etdirərək bir çox əraziləri və şəhərləri Səfəvi hakimiyyəti altına qaytara bildi. Əldə olunan bu uğurlar Səfəvi dövlətinin mövqeyini və beynəlxalq çəkisini də xeyli möhkəmləndirə bildi. Bu möhkəmlənmə o dərəcəyə çatdı ki, əsrin 30-cu illərində artıq Rusiya və Osmanlı dövlətləri Səfəvi dövlətinin qüdrətindən ehtiyatlanmağa başladı. Bir tərəfdən Nadirqulu əfşarın sərkərdəlik məharəti və uğurlu döyüşləri nəticəsində Səfəvi dövlətinin möhkəmlənməsi, digər tərəfdən də Avropa dövlətləri arasında Rusiyanın maraqlarına cavab verməyən koalisiyanın qurulması ehtimalı Rusiyanın Xəzəryanı ərazilərdəki mövqelərini zəiflətməyə başladı.



*Nadirin cavanlığı*

Rusiya hakimiyyətində olanların səriştəsiz idarəçiliyi də Rusiyanın beynəlxalq mövqelərinin zəifləməsinə yol açırdı. Belə bir şəraitdə Rusiyanın Nadirqulu qoşunları qarşısında Xəzəryanı əraziləri qoruyub saxlamaq imkanları zəifləməkdə idi. Nadirqulu qoşunları ilə qarşılaşmanın olmaması üçün Rusiya sarayı Şah Təhmasibin elçiləri ilə danışıqlara başlamağı qərarlaşdırdı.

Iki dövlət arasında danışıqların aparılması üçün 1730-cu ilin əvvəllərində Şah Təhmasibin nümayəndəsi Moskvaya gəldi. Şah Təmasibin nümayəndəsi belə bir təklif verdi ki, Rusiya dövləti Osmanlı qoşunlarını Səfəvi ərazilərindən çıxarmağa kömək edərsə Rusiya ilə Səfəvi dövləti arasındakı münasibətlər əvvəlki kimi qala bilər. Əks təqdirdə, Rusiya işğal etdiyi Xəzəryanı əraziləri geri qaytarmalıdır. Rusiya sarayı məsləhətləşmələrdən sonra belə bir qərara gəldi ki, güclənməkdə olan Səfəvi qoşunları ilə döyüşə girmək Rusiya üçün sərfəli deyil. Bu müharibə çox baha başa gələ bilər. Eyni zamanda işğal olunmuş Xəzəryanı ərazilərin qorunub saxlanması da Rusiya üçün sərfəli deyildi. Həmin ərazilər Rusiya dövlətinin ümidində olduğu gəlirləri vermədi. Ona görə həmin ərazilərin saxlanması da əlavə böyük xərclər tələb edirdi. Rusiya dövləti Xəzəryanı əraziləri tərk edəcəyi halda həmin ərazilərin Osmanlı dövləti nəzarəti altına düşməsinə də razı deyildi. Ona görə Rusiya sarayı tərəfindən həm knyaz Dolqorukova, həm də general Levaşova göstəriş verilmişdi ki, Səfəvi dövləti taxt-tacına öz ərazilərini qorumağa qadir olan bir şəxs gələrsə, yəni təhvil veriləcək Xəzəryanı əraziləri Səfəvi dövləti özü qorumağa qadir olacaqsa onda bu dövlətlə sülh müqaviləsinə getmək olar (115).

Nadir Əfşarın Osmanlı qüvvələrinə qarşı uğurlu döyüşləri və ciddi qələbələri də Rusiyanı Səfəvi dövləti ilə barışığa getməyə sövq edirdi. Xüsusilə, Nadirin öz qoşunları ilə Osmanlı qüvvələrini Təbriz ətrafında ciddi məğlubiyyətə uğratması və 1730-cu il avqustun 12-də Təbrizin Osmanlı nəzarətindən çıxarılması (116) Səfəvi dövlətinin bölgədəki mövqeyini daha da möhkəmləndirdi. Lakin 1731-ci ildə Şah Təhmasibin Nadirlə razılaşdırmadan Naxçıvan-İrəvan istiqamətinə qoşun çıxarması və səriştəsizliyi üzündən Osmanlı qüvvələrinə məğlub olması, habelə bu məğlubiyyətin nəticəsi kimi Arazdan şimalda və Səfəvi dövlətinin qərb sərhədləri boyunca ərazilərin yenidən itirilməsi Osmanlı dövlətinin mövqelərinin möhkəmlənməsinə yol açdı. Yəni, yaranmış şəraitlə əlaqədar olaraq Rusiya və Səfəvi danışıqları və müzakirələri uzanmalı oldu. Bunun üçün Rusiya sarayının nümayəndəsi Şafirov 1731-ci ilin mayında Rəştə gəldi və burada general Levaşovla birlikdə Şah Təhmasibin nümayəndəsi İbrahim Mirzə ilə görüşdü. Müzakirələrin bitməsi ərəfəsində Şah Təhmasibin rəhbərliyi altında olan qoşunların məğlubiyyəti haqqında xəbər alındı. Rusiya nümayəndələri təhvil

veriləcək ərazilərin Osmanlı dövləti tərəfindən tutulmayacağına əmin deyildi. Ona görə də danışıqların bir qədər də uzadılması qərara alındı (117).

Belə bir şəraitdə Rusiya sarayı da danışıqları uzatmağı lazım bildi. Bununla belə, Rusiya nümayəndələri 1731-ci ilin iyununda yenidən müzakirələri bərpa etdilər. Şah Təhmasibin nümayəndələri Rusiya nümayəndələrini müqavilənin imzalanmasına tələsdirməyə başladılar. Şah Təhmasib işğal olunmuş ərazilərin azad olunmasını, Rusiya tərəfi isə azad olunacaq ərazilərin Osmanlı dövləti tərəfindən tutulmayacağına zəmanət istəyirdi. Nəhayət, Rusiya nümayəndələri Nadirlə əlaqə saxladıqdan sonra ikitərəfli müqavilənin imzalanmasına razı oldular. Həmin müqavilə 1732-ci il yanvar ayının 21-də Rəştdə imzalandı. Müqavilənin birinci maddəsi Rusiya tərəfindən işğal olunmuş Xəzəryanı ərazilərin azad olunması ilə bağlı idi. Bu maddədə deyilirdi ki, müqavilənin imzalanmasından və ratifikasiyasından beş ay sonra Rusiya Astrabaddan başlayaraq Kür çayına qədər olan Xəzəryanı əraziləri təhvil verəcəkdir. Kür çayından şimaldakı ərazilər isə osmanlıların işğal etdikləri ərazilər geri qaytarılacağı təqdirdə azad olunmalı idi (118).

1732-ci ilin sentyabrında Şah Təhmasib hakimiyyətdən uzaqlaşdırıldı və onun yerinə kiçik yaşlı oğlu Abbas Mirzə, III Şah Abbas kimi şah elan olundu. Nadir isə nayibüssəltənə, yəni səltənət nayibi vəzifəsinə yiyələndi və ölkənin idarəçiliyi onun əlində cəmləndi. Sonradan Cənubi Qafqazdakı Azərbaycan torpaqlarının Rusiya və Osmanlı nəzarətindən çıxarılması ilə bağlı danışıqlar onun rəhbərliyi və nəzarəti altında aparıldı. 1732-1733-cü illərdə Nadir daha çox ölkənin qərbindəki ərazilərin Osmanlı nəzarətindən çıxarılması və Fars vilayətində çox böyük vüsət almış qiyamın yatırılması ilə məşğul oldu. Cənubi Qafqazın Osmanlı və Rusiya nəzarətindən çıxarılması üçün fəal danışıqlar 1734-cü ildə aparıldı. Nadir Rusiya tərəfindən Xəzəryanı ərazilərin tezliklə boşaldılmasını istəyirdi. Rusiya tərəfi isə Cənubi Qafqazın böyük bir hissəsinin Osmanlı nəzarəti altında olmasını təkid edərək tutduğu əraziləri azad etməyə heç də tələsmirdi. Nadirlə danışıqların aparılması üçün Rusiya sarayı knyaz S.D.Qolitsıni onun yanına göndərdi. Knyaz Qolitsın bir müddət Bakıda qaldı, onun İsfahana buraxılmasını gözlədi. Rus nümayəndəsinin İsfahana gəlməsinə bir də 1734-cü ilin may ayında icazə verildi. İsfahana gəldikdən sonra knyaz Qolitsın əvvəlcə Nadirin nümayəndəsi ilə danışıqlar apardı (119).

Görünür, knyaz Qolitsınla Nadirin nümayəndəsi arasında aparılan danışıqlar lazımi nəticəni vermədi. Yəqin elə bunun üçün idi ki, knyaz Qolitsını Nadir də qəbul etdi və Bakı ilə Dərbəndin geri qaytarılması haqqında Nadir onun qarşısında sərt tələblər qoydu

Knyaz Qolitsının İsfahanda olduğu vaxt Osmanlı sarayının elçisi Qazi Əbdülrəhim əfəndi də Arazdan şimaldakı Azərbaycan ərazilərinin taleyi ilə

bağlı danışıqlar aparmaq üçün Nadirin yanına gəlmişdi. Osmanlı nümayəndəsi apardığı müzakirələrdən sonra geri qayıtsa da, Rusiya nümayəndəsi uzun müddət Nadirin yanında qaldı. Qeyd etmək lazımdır ki, istər Osmanlı elçisi ilə, istərsə də Rusiya elçisi ilə aparılan danışıqlar Nadirin ümidində olduğu konkret nəticəni vermədi. Osmanlı sarayı sülh danışıqlarının aparılması üçün Nadirin nümayəndəsini Diyarbəkrə dəvət etdi. Bu təklifin qəbul edilməsi danışıqların uzanması demək idi. Əslində isə, Osmanlı sarayı həqiqətən də danışıqları uzatmaq və Cənubi Qafqazda işğal olunmuş Azərbaycan ərazilərini geri qaytarmaq niyyətində deyildi. Belə olanda Nadir, Osmanlı sarayı tərəfindən sülh danışıqlarının aparılması üçün Diyarbəkrdə səlahiyyətli olan Abdulla paşaya məktub göndərdi. Onun nəzərinə çatdırıldı ki, Arazdan şimalda olan ərazilər geri qaytarılmasa, onda müharibə qaçılmaz olacaqdır (120).

Knyaz Qolitsın İsfahanda apardığı danışıqlarda Nadirin şərtlərini heç də mümkünsüz hesab etmirdi. Lakin Rusiya sarayı onun vasitəsilə aparılan danışıqlarda eyni zamanda öz maraqlarını da təmin etməyə çalışırdı. Rusiya Dərbəndin və Bakının geri qaytarılmasını İrəvanın, Tiflisin, Gəncənin, Şirvan vilayətinin Omanlı qoşunlarından azad edilməsi ilə bağlayırdı. Bununla əslində Rusiya tərəfi Nadiri Osmanlı dövləti ilə müharibəyə sövq edirdi. Çünki belə bir müharibə Osmanlı dövlətini Cənubi Qafqazdan sıxışdırıb çıxara bilərdi (121).

Çox güman ki, Nadir Osmanlı dövləti ilə Diyarbəkrdə aparılan danışıqların nəticə verəcəyini gözləmirdi. Ona görə həm Osmanlı dövlətini, həm də Rusiyanı Qafqazdan daha tez sıxışdırmaq üçün Şirvana qoşun çıxarmaq qərarına gəldi. Rusiya tərəfi bu qərarı soyuqqanlıqla qarşıladı. Çünki Nadirin iradəsi qarşısında Rusiya işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməyə hazır idi. Lakin bunun əvəzində Osmanlı qüvvələrinin Cənubi Qafqazdan uzaqlaşdırılmasını istəyirdi. Mövcud olan məlumatlara görə, Rusiya tərəfi Osmanlı qoşunları ilə müharibə aparmaq üçün Nadirə hətta kömək təklif etdi. Nadir bu köməyi qəbul etmədi. Amma Rusiya elçisi knyaz Qolitsının onu Qafqaz yürüşündə müşayiət etməsinə icazə verdi.

1734-cü il avqust ayının 17-də Nadir ciddi müqavimətə rast gəlmədən Şamaxıya daxil oldu və Cənubi Qafqazdakı Azərbaycan hüdudlarında strateji əhəmiyyət kəsb edən bu ərazini nəzarət altına aldı. Nadir istəsəydi buradan həm Bakıya, rus qoşunları üstünə hücum edə bilərdi, həm də Gəncədəki Osmanlı qarnizonu üstünə hücum etmək olardı. Amma o, Gəncəyə doğru irəliləməyə üstünlük verdi. Çünki Gəncənin tutulmasından sonra ruslar döyüş aparmadan Bakı və Dərbəndi boşalda bilərdilər.

Nadir əvvəlcə Qəbələdən keçməklə Dağıstana doğru hərəkət etdi, həmin istiqamətdə itaətsizlik edən bir sıra dəstələri zərərsizləşdirdikdən

sonra, 1734-cü il noyabr ayının əvvəllərində Gəncə şəhəri yaxınlığında düşərgə saldı. Nadirin Gəncədəki Osmanlı qarnizonu üzərinə hücum etməsi planları aydın olanda Rusiya tərəfi Bakı və Dərbəndin geri qaytarılmasını təsdiqlədi. Əslində, Rusiyanın beynəlxalq vəziyyəti də bunu zəruri edirdi. Ona görə də 1734-cü il oktyabr ayının sonlarında Bakıdakı rus generalı Levaşova şəhəri təhvilə hazırlamaq tapşırığı verildi (122).

Rusiya sarayı eyni zamanda Gəncənin mühasirəsini və şəhərin alınmasının tezliklə başa çatdırılmasını istəyirdi. Bu məqsədlə 1735-ci ildə Bakıda olan general Levaşov tərəfindən Nadirin düşərgəsinə bir istehkamçı zabit, yerli paltar geymiş 4 nəfər topçu və bir neçə ağır top göndərildi (123).

Bir müddətdən sonra, yəni 1735-ci il martın 10 (22)-da Gəncə ətrafındakı düşərgədə Nadirlə knyaz Qolitsın arasında müqavilə imzalandı və həmin müqaviləyə əsasən Rusiya müqavilənin imzalanmasından 2 həftə sonra Bakını, 2 ay sonra isə Dərbəndi təhvil verməli idi. Nadir isə həmin şəhərlərin üçüncü bir dövlətə güzəştə gedilməyəcəyini öz üzərinə götürdü. Nadir eyni zamanda ona da razı oldu ki, Rusiyadan xəbərsiz Osmanlı dövləti ilə danışıqlara girməyəcəkdir (124).

Rusiya tərəfi müqavilə öhdəliklərinə əməl etdi və təyin olunduğu vaxtda işğal olunmuş şəhərləri azad etdi. Nadir isə Bakıya və Dərbəndə və Salyana yeni hakimlər təyin etdi. Bununla Rusiya Azərbaycan ərazilərindən sıxışdırılaraq kənarlaşdırıldı və Cənubi Qafqazdakı Azərbaycan torpaqları 1736-cı ildə əsası qoyulan Əfşarlar dövlətinin tərkibinə qatıldı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. دو سرسو. سقوط شاه سلطان حسین. تهران، ۱۳۶۳، ص.۳۱-۳۲
2. لکارت. انقراز سلسله صفوی.تهران، ۱۳۶۳، ص.۴۱-۴۲
3. سمنانی پناهی. نادر شاه. بازتاب حماسه و فاجعه ملی. تهران، ۱۳۷۵، ص.۲۱
4. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993, с.19
5. تباتبایی. سقوط اصفهان به روایت کروسینسکی. تهران، ۱۳۸۱، ص.۲۵
6. تباتبایی، ص.۲۶
7. تباتبایی، ص.۲۷
8.تباتبایی، ص.۲۷
9. Azərbaycan tarixi. 7 cilddə, III cild, Bakı, 2007, s.319
10. Абдурахманов А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку, 1964, с.10
11. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, 1965, с.9
12. Abdulraxmanov A. ... , s.10
13. Yenə orada, s.10-11
14. Azərbaycan tarixi. 7 cilddə, III cild, ... s.320
15. Mustafazadə T. Ümumi tarix. I cild. Bakı, 2009, s.928
16. Azərbaycan tarixi. 7 cilddə, III cild, ... s.321
17. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения ... с.12
18. Рахмани А.А. Азербайджан в конце XVI и XVII веке. Баку, 1981, с.98
19. Дилоян В.А. Присоединение Восточной Армении и Россия и его исторические значение, с.10-11. См: Присоединение Восточной Армении и его исторические значение. Ереван, 1978, с.6-30
20. Галоян Г.А. Россия и народы Закавказье. М., 1976, с.39-40
21. Алиев Ф. Азербайджано-русские отношения. Баку, 1985, с.37-38
22. Галоян Г.А. Россия и народы Закавказье... с.59
23. Алиев Ф. Азербайджано-русские отношения... с.40
24. Дружба. Ереван, 1960, с.21-22
25. Алиев Ф. Азербайджано-русские отношения... с.44
26. Yenə orada, s.45
27. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007, s.52-53
28.Yenə orada
29. Эзов Г.А. Сношения Петра Великого с армянским народом. СпБ, 1882, с.XXI
30.Yenə orada, .XXII
31.Yenə orada, s.24-25

32. Yenə orada, s.83-84
33. Yenə orada, s.85-91
34. Yenə orada, s.92-95
35. Yenə orada, s.XLIII
36. Армяно-русские отношения в первой трети XVII в. Т.2, ч.1, Москва, c.XXII
37. Nəcəfli G. ... s.66
38. Azərbaycan tarixi. 7 cilddə. C.III ... s.32
39. Рагимов г. Из истории Азербайджано-русских дипломатических отношений во второй половине XVIII, в начале XIX веков. Баку, 1997, с.16-17
40.Тер-Авакимов с.А. Армяно-русские отношения в период подготовки персидского похода. Известия Академии Наук Армянской ССР. Общественные науки.1959, № 7, с.34
41. Инструкция Петра А.П.Волынскому для выполнения дипломатической миссии в Персии. Azərbaycan tarixi. 7 cilddə. C.III, ... s.322; Mustafazadə T. XVIII yüzillik- XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, 2002, s.14
42. Брикнер А.Г. История Петра Великого. Т.11, М,1996, с.181
43. Mustafazadə T.T. XVIII yüzillik- XIX yüz-illiyin əvvəllərində ...s.14
Агаян Ц.П. Роль России в исторических судбах армянского народа. М., 1978, с.68 Рагимов Г. ... с.18
44.Армяно-русские отношения в первой трети XVIII века. Т.2, Ч.I, ... с.XII
45. Лысцов В.П. Персидский поход Петра I. М., 1951, с.65
46. Кононов Г.Л. Армяне в России, с.632. См: Братская помощь пострадавшим в Турции армянам. Ч. II ,СпБ, 1897, с.627-639
47. غمام حسین مقتدر. نبردهای بزرگ نادر شاه. تهران، ۱۳۸۳، ص.۱۰
48. Azərbaycan tarixi. 7 cilddə, cIII, ... s.324
49. Рагимов Г. ... с.19
50. Yenə orada, s.20
51. Брикнер А.Г. История Петра Великого. Т.11, М,1996, с.182
51а. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения ... с.21
Тер-Авакимова С.А. ... с.39
52. Брикнер А.Г. .. с.182
53. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948, с.75
54. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.22 (internet variantı)
55. Сотавов Северный Кавказ в русско-иранских ирусско-турецких отеошениях в XVIII веке . М., 1991, с.
55. Azərbaycan tarixi. 7 cilddə. C.III, Bakı, 2007, s.38
56. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения ... с.12
57. Мамедова Г. Русские консулы об Азербайджане. 20-60-е годы XVIII века.Баку, 1989, с.33-34
58. Azərbaycan tarixi. 7 cilddə, c.III, c.329
59. Ковалевский ... с.16-18

60. Лысцов В.П. ... с.215, 218
61. Эзов Г.А. сношения ... с. Хабатурян Р.Г. Русская историческая мысль и Армения (18-начало 19 вв0 http://meng/am/history/rus/chap02_part07/htm
62. Тер-Авакимова с.а. ... с.40 Атаев х.А. Торгово-экономибеские связи Ирано с Россией в XVIII-XIX веке. М., 1991, с.53-54.Абдурахманов А. . с.28
63. Персидская война 1722-1725 http://www.vostlit.info/Texts/dokumenty/Persien/XVIII/1720-1740/Komarov/pred.phtml?id=7656. Строительство флота в Астрахани. Персидский поход Петра I http://astrakhan.ru/history/read/31/ Каспийский (Персидский) поход 1722-1723 гг. http://protown.ru/information/hide/3673.html
64. Лысцов В.П. .. с.109.
65. Каспийский (Персидский) поход 1722-1723 гг
66. Курукин И.В. Персидский поход Петра Великого. Ниховый корпус на берегах Каспия (1722-1735). М., 2010, с.50
67. Yenә orada, s.51
68. Бескровный Л.Г. русская армия и флот в XVIII века. М., 1958, с.240
69. Кукурин и.В. ... с.55-56
70. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.22 (internet variantı) Брикнер А.Г. .. с.183
71. Mustafazadә T. XVIII yüzillik-XIX yüzilliyin әvvәllәrindә Osmanlı-Azәrbaycan münasibәtlәri... c.15 ( internet variantı)
72. Парсамян В.А. Участие польских армян в восстании Давид века. Ереван, 1962, с.31.Лысцов В.П. ... с.208
73. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.23 (internet variantı)
74. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.46 (internet variantı)
75. Кукурин И.В. ... с.58
76. Кукурин И.В. ... с.59
77. Каспийский (персидский) поход...
78. Каспийский (персидский) поход...
79. Кукурин И.В. ... с.61
80. Кукурин И.В. ... с.62
81. Кукурин и.В. ... с.64-65
82. Кукурин И.В. .. с.65-66; Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие... с.46 (internet variantı); Шишкевич и. Покорение Кавказа. Персидские и Кавказские войны. http://militera.lib.ru/h/sb_istoria_ruskoy_-armii/77.html
83. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.29 (internet variantı) Кукурин И.В. ... с.67
84. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.46 (internet variantı) Абдурахманов А. ... с.29
85. Azәrbaycan tarixi. 7 cilddә, c.III ... s.330
86. Левиатов В.Н. Очерки из истории Азербайджана ... с.79
87. Левиатов В.Н. .. с.80

88. Абдурахманов А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку, 1964, с.31
89. Кукурин И.В. ... с.69-71; Каспийский (персидский) поход 1722-1723гг...
90. Кукурин И.В. ... с.85; Каспийский (персидский) поход 1722-1723гг...
91. نادر شاه و بازماندگانش. تهران، ۱۳۶۸، ص.۱۲۸ Лысцов D.П. ... с.128
92. نـادر شـاه و بازمانـدگانش. تهران، ۱۳۶۸، ص.۷۹; Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с. 51
93. Курукин И.В. .. с.88
94. لکارت. انقراز سلسله صفوی.تهران، ۱۳۶۳، ص.۲۸۹ ; نـادر شـاه و بازمانـدگانش. تهران، ۱۳۶۸، ص.۷۱
95. لکارت. انقراز سلسله صفوی.تهران، ۱۳۶۳، ص.۲۸۹ ;
نادر شاه و بازماندگانش. تهران، ۱۳۶۸، ص.۷۱
96. Курукин И.в. ... с.92; О экспедиции в Баку 1723 года. www.vostlit.info/Texts/Dokumenty/Persien/XVIII/1720 1740/Plakat_pres_pochod/text/phtml?id=8121
97.Курукин И.П. .. с.94; Каспийский (персидский) поход 1722-1723 гг…
98. Бакиханов А. Гюлистани-Ирам. Баку, 1991, с.131; Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.71 (internet variantı)
99. Бакиханов А. ... с.131; Каспийский (персидский) поход .
100. Бескровный Л.Г. ... с.243; Курукин И.П. ... с.94
101. Курукин и.П. ... с.94; О экспедиции в Баку 1723 года ...
102.О экспедиции в Баку 1723 года ...
103. О экспедиции в Баку 1723 года ...
104. О экспедтции в Баку 1723 года ...
105. Курукин И.П. ... с.95
106. Левиатов В.Н. ... с.81
107. Левиатов в.Н. ....с.81
108. Курукин и.п. ... с.95-96
109. Бакыханов А. ... с.132; Левиатов В.Н. .. с.84
110. О экспедиции в Баку 1723 года ...
111. لکارت. انقراز سلسله صفوی.تهران، ۱۳۶۳، ص.۲۵۹
112. حانوی. هجوم افغان و زوال دولت اصفهان. تهران، ۱۳۶۷، ص.۲۰-۱۹
113. Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində ... c.36 (internet var.)
114. Azərbaycan tarixi. C.I, 1994, c.508-509
115. Абдурахманов А. Азербайджан во взаимоотношениях России, Турции и Ирана в первой половине XVIII в. Баку, 1964, с.55
116. Локкарт Л. Надир шах. Баку, 2002, с.60
117. Абдурахманов А. ... с.56
118. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с.184
119. Абдурахманов а ... с.65
121. Локкарт Л Надир шах ... с.100-101
122. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с. 195
123. نادر شاه. آخرین کشورگشای آسیا. تهران، ۱۳۸۴، ص.۳۳۷
124. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие ... с. 196

# II FƏSİL

## MÜSTƏQİL AZƏRBAYCAN XANLIQLARININ YARADILDIĞI DÖVRÜN HƏRBİ-SİYASİ ŞƏRAİTİ

### *1. NADİR ŞAH DÖVLƏTİNİN SÜQUTU*

Nadir Əfşar 1736-cı ildə özünü şah elan etməzdən əvvəl Cənubi Qafqazdakı Azərbaycan torpaqlarından Osmanlı və rus qüvvələri bütünlüklə çıxarıldı və Araz çayından şimalda yerləşən Azərbaycan əraziləri əvvəlcə formal olaraq Səfəvi dövlətinin, sonradan isə Əfşarlar dövlətinin tərkibinə qatıldı. Səfəvilər dövlətinin Qafqaz üzrə əvvəlki sərhədləri bərpa edildi və Əfşarlar dövləti dövründə mərkəzləşdirilmiş idarəçilik kifayət qədər möhkəmləndirildi. Buna hər şeydən əvvəl Nadir şah Əfşarın sərkərdəlik istedadı nəticəsində nail olmaq mümkün oldu. Bununla, Azərbaycan ərazisində müstəqilləşmə meyllərinin qarşısı müəyyən müddət alınmış olsa da Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının ilkin cəhdlərinə də son qoyuldu.

Məlumdur ki, Nadir şah malik olduğu istedadı və məharəti ilə keçmiş Səfəvi sərhədini nəinki bərpa etdi və onu hətta xeyli genişləndirdi də. Onun qurduğu dövlətin ömrü uzun olmasa da şəxsi keyfiyyətləri və sərkərdəlik fəaliyyəti ilə Şərqin çox böyük sərkərdəsi kimi şöhrət tapmışdır. O, oğuz türklərinə mənsub olan əfşar tayfasından idi və mövcud olan məlumatlara görə, Nadirin əcdadlarının mənsub olduğu Qırxlı oymağının bir hissəsi Səfəvilər dövründə sərhəd xəttinin təhlükəsizliyinin təmin edilməsi üçün Xorasan vilayətinin şimal-şərqinə, bugünkü Türkmənistanla sərhəddə olan bölgəsinə köçürülmüşdü. Nadir də 1688-ci ilin sonlarına yaxın burada Dərgəz məntəqəsinin Dəstgird kəndində anadan olmuşdur. Şah Abbas dövründə bölgəyə yerləşdirilmiş olan türk tayfaları bir başa şah sarayına tabe idilər və şah tərəfindən təsdiq edilmiş şəxsin idarəçiliyi altında idilər. Sərhəd xətlərinin təhlükəsizliyinin təmin edilməsində malik olduğu xidmətlərə görə türklərə belə bir seçim verilmişdi. Amma mərkəzi hakimiyyətin zəifləməsindən sonra bölgənin idarəçiliyi Xorasan bəylərbəyinə tapşırıldı.

Sovet və qərb ədəbiyyatında Nadirin atasının varlı, Nadirin özünün və ailəsinin isə talan və soyğunçuluqla məşğul olması haqqında yanlış məlumatlar vardır. Həqiqətdə isə Nadirin atası İmamqulu özü də çoban

olmuşdu (1). Nadir şah haqqında mötəbər mənbələrdən biri sayılan "Aləm Ara-ye Naderi" əsərində də Nadirin atasının qoyunçuluqla məşğul olduğu təsdiqlənir (2). Yəni, Nadir özü də çox kasıb bir həyat keçirmişdi. Amma onun yaşadığı bölgənin əhalisi daim Orta Asiyada yaşayan müxtəlif tayfaların talançı basqınlarına məruz qalırdı. Xüsusilə, mərkəzi hakimiyyət zəifədikdən sonra belə basqınların sayı daha da artdı. Həmin basqınlardan yalnız yerli əhalinin özünün təşkil etdiyi müdafiə nəticəsində nicat tapmaq olardı. Nadir də cavanlığında öz həmyaşıdlarından təşkil etdiyi dəstə ilə talanların qarşısını almağa çalışırdı. Elə o zamanlar Nadirin təşkilatçılıq qabiliyyəti özünü biruzə verdi, talançılara ciddi müqavimət göstərdi, soydaşlarını neçə-neçə soyğunlardan xilas etdi və nəhayət günü-gündən ətrafındakı dəstə də böyüməyə başladı. Vaxt ötdükcə Nadir məğlubedilməzlik simvoluna çevrildi, hərbi peşəkarlığı isə ən yüksək səviyyəyə qalxdı. Təhmasib Mirzə ilə birləşəndən sonra Səfəvilər dövlətinin az qala yarıya qədəri əldən getmiş ərazilərini və itirilmiş hakimiyyətini geri qaytardı və sonra da öz dövlətini qurdu, çobanlıqdan Şərqin sonuncu ən böyük fatehi və böyük Əfşarlar dövlətinin hakimi kimi bir məqama yetişdi.

Nadir şah dünya tarixində əzəmətli bir fateh kimi qalıbdır. Amma onun bu fatehlik qabiliyyəti qurduğu dövlətin uzun müddət yaşamasına kifayət etmədi. Nadir şahın ölümündən sonra onun dövləti də süquta uğradı. Farsdilli və qərb tədqiqatçıları Nadir şah dövlətinin bu qısa ömürlüyünü daha çox hərbi-siyasi və psixoloji amillərlə bağlayırlar. Lakin bu uğursuzluğun daha dərin kökləri vardır və həmin ciddi səbəblər hələ Nadir şahın sağlığında özünü göstərməyə başlamışdı. Hər şeydən əvvəl Nadir şah dövlətinin siyasi sistemi möhkəm deyildi. Nadir şah dövləti qılınc üzərində yaranmış bir dövlət idi və bu dövlətin sərhədlərinin genişləndirilməsi üçün əldə edilən qələbələr güclü siyasi idarəçiliklə möhkəmləndirilmirdi. Həyatının çoxunu yürüşlərdə, düşərgələrdə keçirən Nadir şahın mükəmməl siyasi idarəçilik aparatı yox idi və hər şey yalnız Nadirin iradəsi əsasında müəyyənləşdirilirdi. Eyni ilə yerlərdə də mükəmməl siyasi idarəetmə aparatı qurula bilmədi və bunun üçün mərkəzlə yerli idarəetmə vahidləri arasında möhkəm və səmərəli əlaqə yox idi. Bu isə mərkəzi vilayətlərin siyasi bağlılığını daha da zəiflədir və separatçılığın, habelə dövlət əleyhinə yerlərdə qiyamın baş verməsi ilə nəticələnirdi.

Azərbaycan ərazisində olan bəylərbəyliklər ləğv edilərək həmin inzibati vahidləri mərkəzi Təbriz olan yeni Azərbaycan bəylərbəyliyinə tabe etdirildi. Bu bəylərbəyliklərin rəhbəri Nadir şahın qardaşı, Azərbaycan sipəhsaları olan İbrahim idi (3). Bu dəyişiklik formal xarakter daşıyırdı. Əslində idarəetmənin əsas vasitəsi kimi güc vasitələri qalmaqda idi. Qəbul olunan və ya yuxarıdan alınan qərar da bir çox hallarda reallıqları nəzərə

almadan güc vasitələri ilə həyata keçirilirdi ki, bu da bəzən kütləvi narazılıqlara yol açırdı.

İqtisadi və təsərrüfat əlaqələrinin möhkəm olması da vilayətlərin mərkəzlə, eləcə də vilayətlərin vilayətlərlə əlaqələrinin zəif olmasına aparırdı. Bir tərəfdən böyük bir ölkə daxilində təsərrüfat əlaqələrinin genişləndirilməsi təşviqləndirilmirdi. Inteqrasiya elementləri təsərrüfatın sürətlə inkişafını şərtləndirəcək səviyyədə deyildi. Digər tərəfdən də aramsız müharibələr dövlət əleyhinə təşkil olunan hərəkatlar belə inteqrasiyanın güclənməsinə imkan vermirdi. Bölgələrdə daha çox təsərrüfat-iqtisadi həyatın lokallaşmasına üstünlük meylləri vardı. XVII-XVIII əsrlərdə Azərbaycanın ölkənin digər bölgələri ilə iqtisadi əlaqələri zəiflədi. Buna da əsas səbəb vilayətlərin iqtisadi-təsərrüfat həyatının bərabər inkişaf etməməsi, ölkənin daxili və xarici iqtisadi fəallığının aşağı düşməsi ilə bağlı idi. Azərbaycan şəhərləri zəif olaraq qalmaqda idi (4). Azərbaycanın bir sıra şəhərlərinin Rusiya ilə ticarət əlaqələrinin güclənməsi də həmin şəhərlərdə mərkəzdənqaçma meyllərinin artmasına yol açırdı.

Yerlərdə hakimlərin acgözlükləri və xalqa talançı münasibəti bütünlükdə məhsuldar qüvvələrin inkişafını üstələməsi, kənd təsərrüfatının, ticarətin, sənətkarlığın aşağı düşməsi son nəticədə əhalinin narazılığını artırır və dövlətə qarşı hərəkatları dəstəkləməyə sövq edirdi. Bütün bunlar isə yerlərdə mərkəzdənqaçma meyllərinin artmasına, yerli hakimlərin müstəqillik arzularının güclənməsinə, onların bir tərəfli iddialarının genişlənməsinə təkan verirdi. Bu da öz növbəsində qeyd edildiyi kimi, Nadir şah hakimiyyətinin zəifləməsinə aparırdı.

Nadir şahın hakimiyyəti illərində Cənubi Qafqaz ərazilərində stabil bir durumun olduğunu söyləmək çətindir. Xüsusilə, Şirvan, Dərbənd və Şəki vilayətlərində gərginlik mütəmadi olaraq mövcud olmuş və vaxtaşırı bu vilayətlərdə antidövlət çıxışları özünü göstərmişdi. 1734-cü ildə Şirvan və Dağıstanda, 1735-ci ildə Şəkidə, Car və Talada, 1738-ci ildə yenidən Carda, 1741-ci ildə Şirvan və Dağıstanda, 1743-cü ildə Şirvanda I və II Sam Mirzələrin rəhbərliyi altında, 1742-ci ildə Dərbənddə, 1744-cü ildə Şəkidə (5) Nadir şah hakimiyyətinə qarşı qiyamlar baş verdi. Doğrudur, bu qiyamların baş verməsində subyektiv amillər də var idi. Nadir şahın yerlərdə təyin etdiyi hakimlər etimadı doğrultmur və xalqın fəlakətlərini daha da artırırdılar. Mərkəzi dövlət tərəfindən isə bu hakimlərin fəaliyyəti lazımi səviyyədə nəzarət altında saxlanılmırdı. Və ya bir çox hallarda bu nəzarət mərkəzin müəyyənləşdirilmiş vergilərin toplanmasına olan nəzarətlə kifayətlənirdi. Amma bəzən bu vergilərin də necə toplanmasına və hansı şəraitdə toplanmasına fikir verilmirdi.



*Nadir şah Əfşar*

Nadir şahın hakimiyyət illərinin ikinci yarısında ölkə ərazisindəki iğtişaşların və qiyamların sayı xeyli artdı. Mütəxəssislərin fikrincə, onların arasında aşağıdakı iğtişaşlar öz kütləviliyi və əhatə dairəsi ilə daha çox seçilirdi:

-1743-cü ilin əvvəlində və sonunda yalançı Sam Mirzənin təhriki ilə Şirvanda baş verən iğtişaşlar;

-1743-cü ildə ölkədən qaçqın düşənlərin köməyi və Osmanlı dövlətinin dəstəyi ilə baş qaldıran Səfi Mirzə iğtişaşı;

-Fars bəylərbəyi Tağı xanın rəhbərliyi altında 1744-cü ildə Fars vilayətində baş qaldıran iğtişaş;

-1744-cü ildə Astrabadda Məhəmməd Həsən xanın rəhbərliyi altında qacarların başladığı iğtişaş;

-1744-cü ildə Xoy və Səlmasda köçəri kürd tayfalarının yaratdığı iğtişaşlar;

-1744-cü ildə Bəhreyn və Nəcəfdə köçəri ərəb qəbilələrinin Şeyx Əhməd Mədəninin rəhbərliyi altında baş qaldıran iğtişaşlar;

-1743-46-cı illərdə Xorasan, Kerman və Luristan vilayətlərində baş verə iğtişaşlar;

-1747-ci ildə Sistanda baş qaldıran üsyan (6).

Mütəxəssislər onu da qeyd edirlər ki, 1742-ci ildə oğlu Rzaqulunu kor etdikdən sonra Nadir şah xeyli qəddarlaşdı və bu qəddarlığı da ona qarşı narazılıqların artmasına səbəb oldu. "Aləm Ara-ye Naderi" əsərinin müəllifi yazırdı ki, həyatının son illərində Nadir şahın əhvalının dəyişməsi onun tutulmuş olduğu malixulya xəstəliyi ilə bağlı idi. Müəllifə görə, ölkə daxilində qiyam və üsyanların artması onun böyük planlarının icrasına təsir göstərdiyi kimi, əhval-ruhiyyəsinə, insanlara münasibətinə də ciddi təsir göstərirdi. Nadir şah həmişə öz düşmənlərinə qalib gəlmək iddiası ilə yaşayırdı və buna nail olurdu. Amma vaxt ötdükcə onun düşmənlərinə qalib gəlmək qabiliyyəti və keyfiyyəti sərtləşdi, həmin keyfiyyətlər onda mənəm-mənəmliyə, öz iradəsini başqalarına qəbul etdirilməsi adətinə çevrildi. Müəllif sonra əlavə edir ki, psixoloji sarsıntı ilə əlaqədar bu xəstəliyə tutulan adamda xof, şübhə, hüzn əlamətləri daha da artır, qarşısındakı insanlara qarşı xoflu münasibət daha da qabarıqlaşır, onun psixoloji durumunda əks olan sözləri danışılanlara qarşı sərt cəzaların tətbiqi adi hala çevrilir. Dərrakəsini və aydın zəkasını əldən verən belə xəstələrin müalicəsi asanlıqla başa gəlmir. Əksinə, bir çox hallarda qətl və qarət, qan axıdılması və edamlar bəzən belə xəstələrə təskinlik verir. M.M.Mərvi qeyd edir ki, Avropa həkimləri bu xəstəliyin müalicəsi üçün çarə tapa bilərdilər. Amma kimsə belə bir xəstəliyə tutulduğunu və müalicə ehtiyacı olduğunu Nadir şaha deməyə cəsarət etmirdi (7).

Nadir şahın özünə görə isə ölkə daxili iğtişaşların baş verməsinin səbəbi onun etibar etdiyi adamların vəfasızlığı, üzüdönüklüyü və sədaqətsizliyi idi. Belə hallar çoxaldıqca Nadir şahın ən yaxın adamlarına inamı qırıldı, ardınca isə Nadirin həmin insanların mənsub olduğu oymaqlara və tayfalara inamı azaldı. Ömrünün sonlarına yaxın onun ətrafında etibar edə biləcəyi çox az adam qalmışdı. Sərkərdəlik həyatının ən yaxın və ən sədaqətli silahdaşı olan Təhmasib xan Cəlayirə və qardaşı oğlu Əliqulu xana şübhə və inamsızlıqla yanaşması isə Nadir şahın süqutunu daha da yaxınlaşdırdı.

Qeyd etmək lazımdır ki, Nadir şahın qətlinə onun qardaşı oğlu Əliqulu xan rəhbərlik edirdi və bu hadisə 1747-ci il iyun ayının 19-da baş verdi. Nadir şah Xorasan vilayətinin Xəbuşan məntəqəsinin 2 fərsəngliyində olan Fəthabaddakı düşərgəsində qətlə yetirildi.

Nadir şah qətlə yetiriləndən sonra dərhal Heratda olan qardaşı oğlu Əliqulu xana xəbər göndərildi. Əliqulu xan da vaxt itirmədən Məşhədə gəldi və ixtiyarında olan qoşun dəstəsi ilə Məşhədə nəzarəti ələ keçirdi. Nadir şahın ona qarşı bütün etdiklərini bir anda yaddan çıxaran Əliqulu xan əmisinin xanimanına, nəslinə, var-dövlətinə son qoymaq qərarı verdi, ələ keçirmək niyyətində olduğu hakimiyyətə kimsənin iddia etməməsi üçün əmisinin bütün nəslini qırmaq üçün Kelat məntəqəsinə qoşun dəstəsi göndərdi. Bu qala və bütünlükdə Kelat kəndi sıldırım dağların yüksəkliklərində yerləşirdi və onun müdafiəsini az qüvvə ilə təmin etmək mümkün idi. Təhlükəsiz məntəqə saydığı üçün Nadir şah öz xəzinəsini də orada yerləşdirmişdi. Qalanın ələ keçirilməsi üçün göndərilən qoşun dəstəsinə Söhrab xan adlı birisi rəhbərlik edirdi. Bu dəstə Kelatın alınması üçün bir müddət mühasirəyə girişməli oldu. Yalnız təsadüf nəticəsində qalada yaşayanların birinın su daşıdıqdan sonra arxasınca Nərdivanın yığışdırması nəticəsində qalaya yol tapmaq və onu ələ keçirmək mümkün oldu. Bəzi müəlliflər nərdivanın yığışdırılmamasının Nadir şahın nəslinə qarşı qəsd kimi dəyərləndirirlər. Nəticədə Nadir şahın nəslinin əksər hissəsi ələ keçirildi və onlar hamılıqla qətlə yetirildilər. Əliqulu xan göstəriş vermişdi ki, Nadir şahın ailəsində hamilə olan bütün xanımlar da qətlə yetirilsin ki, onların doğduqları uşaqlar sonradan hakimiyyət iddiası edə bilməsinlər (8).

Mövcud olan bəzi məlumatlara görə, Nadir şahın övladları – Nəsrulla Mirzə və İmamqulu Mİrzə, habelə nəvəsi, Rzaqulu Mirzənin oğlu Şahrux Mirzə Kelatdan qaçıb canlarını qurtarmağa çalışdılar. Lakin Əliqulu xan onların ardınca dəstə göndərdi və uzaqlaşmalarına baxmayaraq onları ələ keçirdi. Nəsrulla Mirzə ilə İmamqulu Mirzə qətlə yetirildilər. Nadir şahın 14 yaşında olan nəvəsi Şahrux Mirzə isə öldürülmədi, zindana atıldı. Bununla belə onun da öldürüldüyü barədə xəbər yayıldı (9). Əliqulu xan bu xəbəri qəsdən yaydırsa da, Şahrux Mirrzəni öldürməməkdə bir məqsədi var idi.

Şahrux Mirzənin anası Şah Sultan Hüseynin qızı idi. Başqa sözlə, onun Səfəvi şah sülaləsi ilə bağlılığı var idi. Əliqulu xan fikirləşirdi ki, əhali onun şahlığına tərəfdar çıxmayıb Səfəvi sülaləsinin bərpa olunmasını istəyərsə, onda Şahrux Mirzəni taxta çıxarar və onun kiçik yaşlı olmasından istifadə edib ölkənin idarə edilməsini öz əlinə alar.

Mövcud olan məlumatlara görə, 1747-ci il iyun ayının 6-da Əliqulu xan özünü Adil şah adı ilə ölkənin şahı elan etdi (10). Tarixi mənbələrdə bəzən Əli şah kimi də təqdim olunan Adil şahın bu adı üzərinə götürməsində məqsədi özünü adil və ədalətli bir şah kimi tanıtmaq olmuşdu. İlk vaxtlar o bunun üçün bir görüntü də yaratmağa çalışdı, ölkə əhalisini üç il müddətinə bütün vergilərdən azad etdiyini bildirdi (11). Çünki Nadir şahdan elə bir zəngin Xəzinə qalmışdı ki, onun səmərəli şəkildə istifadə olunacağı halda hələ daha uzun müddətə kifayət edərdi. Eyni zamanda Adil şah səxavətlilik göstərərək xidmətçilərinə, yaxınlarına 4-5 dəfə artıq məvacib verməyə başladı. Mənbələrin verdiyi məlumatları görə, Nadir şahın xəzinəsi elə israf olundu ki, gümüş şəlğəm qiymətinə, gövhərlər isə saxsı qiymətinə düşdü (12).

Bütün bunlara baxmayaraq, Adil şah ədalətli və xalqın müdafiə etdiyi bir şah olmadı. Tezliklə Nadir şahın xəzinəsi göyə sovrulandan sonra ölkə ciddi ərzaq və digər çətinliklərlə üzləşdi. Bu çətinlikləri aradan qaldıra bilməməsi onu xalq arasında nüfuzdan saldı. Bir müddət sonra isə İsfahana keçmək və bu şəhəri özünə paytaxt seçmək qərarına gəldi. İsfahan şəhərinin paytaxt kimi hazırlanması və buranın təhlükəsizliyinin təmin edilməsi üçün Adil şah kiçik qardaşı İbrahim xanı (İbrahim Mirzəni) İsfahan hakimi təyin etdi. İbrahim xan isə İsfahana gəldikdən sonra heç də Adil şaha sədaqətli qalmadı və 1747-ci ilin sonlarında artıq ona qarşı müxalif mövqe tutdu.

Tezliklə, Adil şaha qarşı narazılıqların coğrafiyası xeyli genişləndi. Azərbaycan bəylərbəyi olan Əmiraslan xan Qırxlı Adil şahı yaxşı tanıyırdı və ona itaəti qəbul etmək istəmirdi. Mazandaran hakimi Məhəmməd Həsən xan isə öz müxalifətçiliyini açıq şəkildə bildirirdi. Bu gedişlə ölkənin əlindən çıxacağını hiss edən Adil şah əvvəlcə Mazandarana qoşun çəkib buradakı itaətsizliyi aradan qaldırmaq istədi. Düz 5 ay qoşunları ilə Mazandaranda olsa da Adil şah niyyətinə nail ola bilmədi və dövlətə qarşı asiliyi aradan qaldıra bilmədən geri qayıtdı (13).

Bu müddət ərzində İbrahim xan İsfahanda qoşunlarının sıralarını genişləndirməyə başladı. O şübhə etmirdi ki, Adil şah ölkəyə hakimi-mütləq olmaq üçün İbrahim xan müxalifətçiliyini aradan qaldırmağı çalışacaqdır. Bir sıra başqa tədbirlərlə yanaşı İbrahim xan Azərbaycan bəylərbəyi Əmiraslan xanla əlaqə yaradılmasına cəhd göstərdi. Əmiraslan xan da İbrahim xan təklifini qəbul etdi və onunla birlikdə Adil şaha qarşı mövqe tutmağa razı oldu (14).

Öz potensialını daha da artırmaq üçün İbrahim xan Kermanşaha hücum etdi. İbrahim xan bu vilayəti ələ keçirməklə bərabər, orada mövcud olan Nadir şahın silah və sursat anbarını da ələ keçirdi. Sonra isə İbrahim xan Azərbaycana doğru hərəkətə başladı. Adil şah da güclənməkdə olan qardaşının qarşısının alınması üçün qoşunlarla birlikdə Mazandarandan Azərbaycana tərəf istiqamət götürdü. Zəncan yaxınlığında Adil şahın qoşunları İbrahim xanla Əmiraslan xanın birləşmiş qoşunları ilə üzbəüz gəldi. Döyüş başlamasından az sonra Adil şahın qoşunlarının əsas hissəsi İbrahim xanın tərəfinə keçdi. Bununla da Adil şahın müqaviməti qırıldı və o, Tehrana qaçdı. Amma Tehran hakimi onu həbs edərək İbrahim xana təhvil verdi. İbrahim xan da 1748-ci ilin iyulunda onun gözlərinin çıxardılmasına göstəriş verdi (15). Bununla da, Adil şahın hakimiyyətinə son qoyuldu.

Amma İbrahim xanla Əmiraslan xan arasındakı ittifaq da uzun sürmədi. Adil şahla döyüşdən sonra Əmiraslan xan özü də müstəqilləşmək və İbrahim xana müxalifət təşkil etmək qərarına gəldi. Buna görə də İbrahim xan qoşunu ilə onun üstünə getdi və Əmiraslan xan qoşunlarını üstələdi. Əmiraslan xan döyüş meydanından qaçsa da tanıdıqları insanlar tərəfindən tutulub İbrahim xana təhvil verildi. İbrahim xan da onu qətlə yetirdi (16).

Əmiraslan xanın qətlindən sonra Arazdan şimalda olan vilayətlərin idarə edilməsi demək olar ki, nəzarətdən çıxdı və Azərbaycan vilayətlərinin xanlıqlar adı altında müstəqilləşməsi dönməz xarakter aldı. İbrahim xan isə əsas rəqiblərini aradan qaldırsa da dərhal özünü şah elan etməyə ehtiyat etdi. O hiss edirdi ki, xalq arasında kifayət qədər hörmət və ehtirama malik deyil. Əhali arasında, xüsusilə Xorasan vilayətində Nadir şahın nəvəsi Şahrux Mirzənin nüfuzu günü-gündən genişlənməkdə idi. Aradan götürmək məqsədilə o, Şahrux Mirzəni yanına dəvət etdi. Lakin Xorasan əhalisi məsələnin nə yerdə olduğunu bilib Şahrux Mirzəni Məşhəddən buraxmadılar. Əksinə, onu Məşhəddə ölkə şahı elan etdilər. İbrahim xan isə özünü Təbrizdə şah elan etdi. Sonra da ikihakimiyyətliliyə son qoymaq üçün İbrahim xan qoşunu ilə Məşhədə doğru istiqamət götürdü. Hələ yolda ikən İbrahim xanın qoşununun böyük bir hissəsi Şahrux Mirzənin tərəfinə keçdi, bir hissəsi də ona xidmətdən üz çevirdi. İbrahim xan şimala doğru qaçıb canını qurtarmağa çalışsa da Şahrux Mirzəyə sadiq qalan qüvvələr tərəfindən tutulub qətlə yetirildi.

Şahrux Mirzənin hakimiyyəti elə də uzun çəkmədi. Ölkə şahı adlandırılsa da onun hakimiyyəti əsasən Xorasan vilayətinə və onun ətrafına yayılırdı. Yerli hakimlər arasında müstəqilləşmə və mərkəzdən qaçma elə bir hal aldı ki, onun qarşısını kəsmək artıq Şahrux Mirzənin imkanları daxilində deyildi. Sonralar çox böyük ərazilərdə nəzarəti ələ keçirmiş olan Kərim xan Zəndin hərbi-siyasi baxımdan möhkəmlənməsi Şahrux Mirzənin şahlığı dövrünə təsadüf edir (17).

1796-cı ildə Ağa Məhəmməd xan Qacar Məşhədə hücum edərkən Xorasan vilayətini öz nəzarəti altına aldı. Taxtdan salınıb Tehrana göndərilən Şahrux Mirzə yolda ikən dünyasını dəyişdi. 1800-cü ildən Şahrux Mirzənin oğlu Nadir Mirzə əfqanların köməyi ilə Məşhəddə özünü hakim təyin etdi. 1805-ci ildə o, Fətəli şah Qacar tərəfindən qətlə yetirildi (18). Bununla da Nadir şah sülaləsinə son qoyuldu.

## *2. MÜSTƏQIL AZƏRBAYCAN XANLIQLARININ YARANMASI*

Nadir şahın ölümündən sonra onun qurduğu dövlətin ərazisində tamami-ə yeni bir tarixi şərait yarandı. Əvvəllər mövcud olan mərkəzdənqaçma meylləri yeni şəraitdə real tarixi prosesə çevrildi və Nadir şahın hakimiyyətinin davamçılarının böyük səylərinə baxmayaraq ölkənin parçalamasının, yerli hakimlərin müstəqilləşməsinin qarşısını kəsmək mümkün olmadı. Mərkəzi hakimiyyətin böhran vəziyyətinə düşməsi Azərbaycan ərazisində də müstəqilləşmə meyllərini gücləndirirdi. Bu tarixi prosesin bir sıra xarakterik xüsusiyyətləri vardır. Hər şeydən əvvəl müstəqil Azərbaycan xanlıqlarının yaranması konkret tarixi şəraitdə baş verən tarixi bir proses idi. Müstəqil xanlıqların yaranması yalnız Nadir şahın qətli ilə bağlı deyil. Nadir şahın qətli sadəcə bu prosesi sürətləndirdi. Yuxarıda qeyd edildiyi kimi, siyasi, iqtisadi reallıqlar daha çevik dövlət qurulmasının mövcudluğunu tələb edirdi ki, bu da yerlərdə müstəqilləşməni gücləndirirdi.

Qarabağ xanlığı istisna olmaqla hazırkı araşdırmanın obyekti olan digər Azərbaycan xanlıqlarının hamısı əvvəllər mövcud olmuş ərazi-inzibati vahidlərinin bazasında formalaşmışdı. Bu inzibati vahidlərin hakimləri ilk növbədə öz ərazi vahidlərində möhkəmlənməyi təmin etdikdən sonra ərazilərin genişləndirilməsi niyyətlərini ortaya qoyurdular.

Müstəqilləşmənin əsas atributlarından biri yerli hakimlərin müəyyən hərbi qüvvələrə malik olması idi. Hərbi qüvvələr yerli hakimlərin gücünün ifadəçisi, müstəqilləşmənin zəmanəti idi. Tarixi şəraitin tələblərinə uyğun olaraq Azərbaycan xanlıqlarının mövcudluğu daha çox hərbi qüvvələrin potensialından asılı idi. Xanlıqlar öz daxilində ya belə qüvvələri formalaşdırır, ya da ittifaqlara gedir və ya da muzdluların köməyinə müraciət edirdilər. Azərbaycan xanlıqları monarxiya tipli müstəqil dövlət qurumları idi. Bu xanlıqların müstəqil dövlət aparatları mövcud idi. Xanlığın hakimi olan xan qeyri-məhdud səlahiyyətlərə malik olmaqla həm də irsi olaraq seçilirdi. Xanlığın daxili və xarici siyasəti xan tərəfindən müəyyənləşdirilirdi. Xan hərbi qüvvələrin baş komandanı olmaqla ali qanunverici və idarəçilik səlahiyyətlərinə malik idi. Xanlıqların öz pul vahidləri var idi. Xanlıq daxilində hüquq-mühafizə işləri bir qayda olaraq şəriət normalarına, adətlərə və xanın iradəsinə əsaslanırdı.




*Qafqaz XIX əsrin əvvəllərində*

Xanlıqların mövcudluğu həm də onların dağınıqlığı, qarşılıqlı əlaqələrinin zəifliyi ilə xarakterizə olunur. Onların hər biri müstəqilliyini qorumağa çalışmaqla güclü düşmən qarşısında təklikdə qalmaq məcburiyyəti ilə rastlaşır və birləşmək ideyasına könüllü meyllilik göstərmirdilər.

Qacarlar dövləti formalaşıb möhkəmləndikdən sonra Azərbaycan xanlıqlarının formalaşma prosesi həm də Qacarlar və Rusiya dövlətlərinin ikitərəfli təzyiqlərinə məruz qalması ilə xarakterizə olunurdu.

Nadir şah qətlə yetirildikdən sonra onun yaxın qohumlarından olan Əmiraslan xan Qırxlı yuxarıda qeyd edildiyi kimi, Azərbaycan hakimi idi. Bütün Azərbaycan torpaqları onun hakimiyyəti altında idi. Mərkəzi hakimiyyətdə böhran yarananda Əmiraslan xan hər şeydən əvvəl Azərbaycan hakimi kimi Azərbaycan ərazisində öz hakimliyini qoruyub saxlamağa çalışdı. O istəyirdi ki, Arazdan şimalda və cənubda olan xanlıqları öz idarəçiliyi altında qoruyub saxlaya bilsin. Məlumdur ki, Nadir şahın həyatının sonlarına yaxın Şəki və Şirvan vilayətlərində mərkəzi dövlət əleyhinə hərəkatlar baş vermişdi. Bu vilayətlərin mərkəzi hakimiyyətlə bağlılığı xeyli zəifləmişdi. Əmiraslan xan qoşunla bu Azərbaycan xanlıqlarına doğru hərəkət etdi. Lakin o, ciddi bir uğur qazanmadı (19).

Tezliklə onun özünün qətlə yetirilməsi isə Azərbaycan xanlıqlarının yaradılmasını və formalaşdırılmasını dönməz bir prosesə çevirdi. Beləliklə, XVIII əsrin ortalarında Azərbaycanın şimal hissəsində aşağıdakı müstəqil dövlət qurumları yaradıldı: İrəvan xanlığı, Gəncə xanlığı, Qarabağ xanlığı, Şəki xanlığı, Şamaxı xanlığı, Dərbənd xanlığı, Quba xanlığı, Bakı xanlığı, Lənkəran xanlığı, Salyan xanlığı, Cavad xanlığı, habelə İlisu, Qutqaşen, Qəbələ, Ərəş, Qazax və Şəmşəddil sultanlıqları. İlisu sultanlığının cənub-qərbində Car-Balakən camaatı mövcud idi.

### *İrəvan xanlığı*

İrəvan xanlığının müstəqil bir dövlət vahidi kimi tarix səhnəsində yer tapması və formalaşması da məhz Nadir şahın ölümündən sonrakı dövrə təsadüf edir. Bölgənin iri dövlətlərinin qovşağında yerləşməklə strateji əhəmiyyət kəsb edən İrəvanın ərazi vahidi kimi formalaşması isə daha əvvəllərə gedib çıxır. Mənbələrdə və müxtəlif tarixi ədəbiyyatdakı məlumatlara əsasən, İrəvan xanlığı ərazisində ərazi-inzibati vahidinin mövcudluğu XV əsrin əvvəllərinə təsadüf edir və hələ o zamandan bu ərazi-inzibati vahidinə Azərbaycan türkləri rəhbərlik edirdilər (20). Başqa sözlə, əvvəllər mənbələrdə Çuxursəəd obalığı kimi xatırlanan ərazi vahidi hələ XV əsrin əvvəllərindən formalaşmış və hətta erməni tarixçilərinin çap etdikləri siyahıya əsasən də

İrəvan xanlığının Rusiya tərəfindən işğalına qədər bu ərazilər Azərbaycan türkləri tərəfindən idarə olunurdu.

Səfəvilərin hakimiyyəti altına düşəndən sonra bu ərazilərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi addımlar atıldı. Türk tarixçisi Övliya Çələbinin "Səyahətnamə" əsərində olan qeydlərə əsasən, İrəvan qalasının əsası da Şah İsmayıl Səfəvi dövründə qoyulmuşdu. Bu müəllifin yazdıqlarından aydın olur ki, İrəvan xanlığı yerləşən əraziləri öz hakimiyyətinə tabe etdikdən sonra Şah İsmayıl Səfəvi Rəvanqulu adlı sərkərdəsinə orada müdafiə qalası tikməyi tapşırdı. Bu qala Səfəvi dövlətinin ərazilərini yad qüvvələrin basqınlarından qorunmasına xidmət etməli idi. Rəvanqulu xan belə bir tapşırığın icrasına başladı və qalanın təbii müdafiə imkanlarının artırılması üçün Zəngi çayının sərt sahilində müvafiq yer seçdi. Qalanın tikilib tamamlanması 7 ilə başa çatdı və həmin qala onu tikdirən sərkərdənin adı ilə, "Rəvan" qala kimi tanındı. Sonradan bu ad "İrəvan" kimi yad olundu. Ölkənin şimal ucqarlarının qorunması üçün İrəvan qalasının möhkəmləndirilməsi uzun müddət Səfəvi hakimlərinin diqqət mərkəzində qaldı və elə buna görədir ki, İrəvan qalası Səfəvilər dövlətinin mühüm hərbi və yaşayış məskənlərindən birinə çevrildi.

Tarixi məlumatlara görə, sonrakı onilliklər ərzində Səfəvi-Osmanlı müharibələri zamanı İrəvan qalası əldən-ələ keçdi. Əlverişli strateji mövqedə yerləşdiyi üçün onu ələ keçirən tərəf qalanı daha da möhkəmləndirməyə, onun müdafiə imkanlarını artırmağa çalışırdı. Məsələn, 1582-ci ildə Səfəvi qoşunlarına üstün gələn Osmanlı sərkərdəsi Fərhad paşa İrəvan qalasının möhkəmləndirilməsinə, onun müdafiə qüdrətinin artırılmasına xüsusi diqqət yetirdi (21).

Azərbaycan türklərinə məxsus olan torpaqlar kimi bu ərazilərdə məskunlaşan əhalinin mütləq əksəriyyətini də azərbaycanlılar təşkil edirdi. Yaxın Asiyanın bir çox ölkələrinə dağılmış ermənilərə İrəvan xanlığı ərazisində Üçmüəzzin kilsə kompleksinin tikilməsinə icazə veriləndən sonra onun ətrafında ermənilərin məskən salmasına dözümlü yanaşılması daha sonralar bu məntəqəyə erməni iddialarının artmasına yol açdı. Tarixi faktların istifadəsində möhtəkirliyə yol vermələrinə baxmayaraq, bir çox hallarda ermənilər özləri də İrəvan xanlığının yerləşdiyi ərazilərdə azərbaycanlı əhalinin çoxluq təşkil etdiyini etiraf etmək məcburiyyətində qalırlar. Məsələn, bildirilir ki, XVII əsrdə İrəvanda əhalinin 80 faizini azəri türkləri təşkil edirdi (22). Doğrudur, müəllif bunu on minlərlə erməninin Səfəvi dövlətinin içərilərinə köçürülməsi ilə bağlayır. Amma elə erməni müəlliflərinə məxsus başqa bir ədəbiyyatdan məlum olur ki, Şah Abbasın Səfəvi dövlətinin daxilinə köçürdüyü ən böyük erməni qrupu 5 min nəfərdən ibarət olmuşdu ki, o da İsfahan ətrafında yerləşdirilmişdi (23).

İstər Səfəvi şahlarının, istər Nadir şahın, o cümlədən də qacar xanlarının ermənilərə qarşı dözümlü siyasət yeritmələrinə, hətta Nadir şah tərəfindən onların dəstəklənməsinə və təşviq edilməsinə baxmayaraq, İrəvan ətrafında ermənilərin say üstünlüyünə rast gəlmək mümkün deyil. Tarixdən məlumdur ki, İrəvan xanlığının Rusiya tərəfindən işğalından əvvəl və sonra da xanlıq ərazisinin əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi.

Rus işğalından xeyli əvvəl İrəvan şəhər qalasına səfər etmiş Fransa səyyahı J.Şarden yazırdı ki, qala divarlarının uzunluğu dörd min addım olan bu şəhərdə 800 ev var idi. Fransalı səyyahın şəhadətinə görə qalada azərbaycanlılar yaşayırdılar. Ermənilər isə bura yalnız ticarətə gəlirdilər. Qalanın daxilində bir neçə erməniyə dükan açmağa icazə verilmişdi. Həmin dükan sahibləri gündüzlər qalaya daxil olub sövdəgərliklə məşğul olur, axşam isə qalanı tərk edib şəhərətrafı yaşayış məntəqəsinə qayıdırdılar (24). Mövcud olan məlumatlara görə, İrəvan şəhəri İrəvan şəhər-qalasından top atəşi məsafəsində yerləşirdi (25).

1827-ci ildə İrəvan qalasını işğal etməyə nail olmuş rus generalı Paskeviç də Moskvaya göndərdiyi məlumatlardan birində İrəvan xanlığı ərazisində 10 min azərbaycanlı ailəsinin və 3 min erməni ailəsinin yaşadığını bildirirdi (26).Yəni, ermənilər xanlıq əhalisinin üçdə birindən də az idilər.

İrəvan xanlığı ərazisindəki əhalinin milli tərkibi məsələsinə milli möhtəkirlik mövqeyindən yanaşan erməni tarixi ədəbiyyatı XIX əsrin sonu, XX əsrin əvvəlində İrəvan əhalisinin çoxluğunu yenə də azərbaycanlılar təşkil etdiyini yazmaq məcburiyyətində qalmışdır. Verilən məlumatlara görə, həmin vaxtda şəhər əhalisinin 49 faizini Azərbaycan tatarları, 48 faizini ermənilər təşkil edirdilər (27).

İrəvan xanlığının yerləşdiyi ərazinin etnik tərkibi ilə bağlı aşağıdakı bir məqam da yaddan çıxarılmamalıdır. İstər XVIII əsrin əvvəlində, istərsə də sonunda Rusiyanın Qafqazdakı işğalçılığında ermənilər ruslara hərtərəfli kömək göstərirdilər. Bu zaman onlar böyük ümidlər bəsləyirdilər ki, ermənilərin və qriqorianlaşdırılmış albanların daha sıx yaşadığı Qarabağın dağlıq hissəsində kiçik bir erməni dövləti də yarada biləcəklər. Üçmüəzzin kilsə kompleksini diqqətdən kənarda qoymasalar da İrəvan xanlığı ərazisində erməni dövləti yaratmaq o zamanlar ermənilər üçün inandırıcı deyildi. Çünki İrəvan xanlığı ərazisində erməni dövləti üçün dayaq ola biləcək etnik-dini tərkib mövcud deyildi.

Rusiya işğalından əvvəlki bir neçə əsr ərzində Osmanlı dövləti ciddi-cəhdlə İrəvan xanlığı ərazisini öz nəzarəti altına almağa çalışmışdı. XVI əsrin əvvəllərindən XVIII əsrin ortalarına kimi İrəvan şəhər-qalası 14 dəfə Osmanlı dövlətinin nəzarəti altına düşmüşdü (28).

Yuxarıda qeyd edildiyi kimi, 1582-ci ildə osmanlılar İrəvan qalasını ələ keçirib onun möhkəmləndirilməsi istiqamətində müəyyən addımlar atanda orada uzun müddət qalacaqlarını güman edirdilər. İrəvan ərazilərinə sahib çıxmaqla Osmanlı dövləti gələcəkdə Qafqazda öz nüfuzunu daha da genişləndirə bilərdi. Amma 1604-cü ildə İrəvan qalası Şah Abbas qoşunları tərəfindən geri alındı. Şah Abbas da İrəvan qalasının divarlarının möhkəmləndirilməsi, onun müdafiə imkanlarının artırılması üçün lazımi işlər gördü. Bunun nəticəsi idi ki, 1615-ci ildə Osmanlı qoşunları 4 ay ərzində İrəvan qalasını mühasirədə saxlasalar da ona sahib ola bilmədilər (29).

Şah Abbasın ölümündən sonra İrəvan qalası yenə Osmanlı qoşunlarının müdafiə istehkamına çevrildi. Amma bu da uzun sürmədi və Şah Səfi dövründə İrəvan qalası bir daha Səfəvi hərbi qüvvələri tərəfindən nəzarət altına alındı (30).

Səfəvi hakimiyyətinin tənəzzülü dövründə, yəni XVIII əsrin əvvəlində İrəvan bir daha Osmanlı nəzarəti altına düşdü. Amma bunun üçün Osmanlı dövləti Səfəvi şahları ilə deyil, Rusiya ilə məsələni aydınlaşdırmalı oldu. Belə ki, I Pyotrun hakimiyyəti illərində çar Rusiyası da Qafqaz uğrunda açıq mübarizəyə başladı. I Pyotrun Qafqaza başlanan hərbi yürüşü Qafqazda tək Səfəvi-Rusiya münasibətlərinin deyil, Osmanlı-Rusiya münasibətlərinin də kəskinləşməsinə yol açdı.

Osmanlı dövləti Şirvanı öz nəzarəti altına alandan sonra Rusiya sarayına elçi göndərdi və Qafqazda qarşılıqlı razılığa gəlinməsi üçün Osmanlı sarayının təklifləri Rusiya rəhbərliyinə çatdırıldı.

İmzalanan Osmanlı-rus müqaviləsinə görə, İrəvan xanlığı Osmanlı dövlətinin nəzarəti altına düşdü. Rusiya İrəvan xanlığının Qafqazda mühüm strateji əhəmiyyətə malik olduğunu bilirdi və ona görə Osmanlı dövlətinin İrəvanda möhkəmlənməsi niyyəti ilə razı deyildi. Yuxarıda qeyd edildiyi kimi, müqaviləyə əsasən, İrəvanda əlavə yeni istehkamlar tikilməməli və orada hərbi qarnizon da saxlanmamalı idi. Əgər İrəvan ərazisində Osmanlı əleyhinə hər hansı etiraz aksiyası baş verərdisə onun yatırılması üçün Osmanlı dövləti tərəfindən əlavə qüvvələr göndərilməzdən əvvəl Rusiya tərəfi məlumatlandırılmalı idi. (30a).

Bir sözlə, İrəvan xanlığı yenidən Osmanlı dövlətinin nəzarəti altına düşdü və malik olduğu müdafiə imkanlarına görə əslində İrəvan qalasında böyük qarnizon yerləşdirmədən belə onu etibarlı şəkildə qorumaq mümkün idi.

İrəvan qalasının və ətraf ərazilərin geri qaytarılması Nadir şahın sərkərdəlik fəaliyyəti ilə bağlıdır. Nadir, İrəvan qalasının geri alınması üçün xüsusi döyüş keçirməli olmadı. Onun Qafqazda Osmanlı qüvvələrinə qarşı apardığı uğurlu döyüşlər son nəticədə İrəvan qalasının Osmanlı qüvvələri tərəfindən boşaldılmasına gətirib çıxardı.

Qeyd etmək lazımdır ki, İrəvanın Osmanlı nəzarətindən çıxarılması üçün Rusiya dövləti də Nadirə müəyyən hərbi yardımlar göstərdi. Xüsusən, 1735-ci ildə Gəncə qalasının mühasirəsi zamanı belə yardımlar göstərildi ki, Nadir tezliklə Gəncə qalasını alıb İrəvana doğru hərəkət edə bilsin. Amma Nadir Gəncənin mühasirəsini başa çatdırmadan İrəvan-Qars istiqamətində irəliləməyə başladı. Onun fikrincə burada Osmanlı qüvvələrinə güclü zərbə vurulması bütünlükdə Qafqazın qərbinin Osmanlı nəzarətindən qoparılmasını təmin edə bilərdi.

Nadir öz qoşunu ilə 1735-ci il may ayının sonlarında İrəvan yaxınlığında düşərgə saldı. İrəvanın Osmanlı hakimi Həsən paşa Nadirin qoşunu ilə qalaya yaxınlaşmasından qorxuya düşsə də, Nadir orada dayanmadı və Qarsa doğru hərəkətini davam etdirdi (31).

Nadir burada Osmanlı qoşunlarının əsas hissəsini açıq döyüşə cəlb etməklə Qafqazın məsələsini bir dəfəlik həll etmək istəyirdi. Lakin Osmanlı qoşunları açıq döyüşə çıxmayanda Nadir geri çəkilib İrəvan qalasını mühasirə etməyi qərarlaşdırdı. Nadirin geri çəkilməsini Osmanlı sərkərdələri onun ehtiyatlanması kimi qiymətləndirdilər və onun ardınca hərəkətə başladılar. Osmanlı qüvvələri 1735-ci il iyun ayının ortalarında İrəvanın qərbinə yetişdilər və Nadir qoşunları ilə burada döyüşə girməyi qərarlaşdırdılar. Mənbələrdə olan məlumata görə həmin il iyun ayının 19-da İrəvan ətrafında baş verən döyüşdə Osmanlı qüvvələri Nadir qoşunlarından bir neçə qat üstün idilər. Buna baxmayaraq, Nadirin sərkərdəlik istedadı Osmanlı qüvvələrini geri çəkilmək məcburiyyəti qarşısında qoydu. Əsas Osmanlı qüvvələrinin geri çəkilməyə məcbur edilməsi digər şəhərlər kimi, İrəvanın da çətin vəziyyətə düşməsini şərtləndirdi. Nadir İrəvandakı Osmanlı hakiminin yanına adamlar göndərib qalanın təhvil verilməsini tələb etdi (32).

Doğrudur, İrəvanın Osmanlı hakimi Nadirin tələbini dərhal qəbul etmədi. Amma çıxış yolunun olmadığı üçün Qafqazın böyük şəhərləri mərhələli şəkildə Osmanlı qüvvələri tərəfindən tərk edildi. 1735-ci il oktyabrın 3-də İrəvan qalası da Osmanlı qüvvələri tərəfindən tərk edildi və qala Nadir Əfşarın nəzarəti altına düşdü (33).

Nadir şahın və onun davamçılarının hakimiyyəti illərində İrəvan xanlığına kimlərin rəhbərlik etməsi barəsində mübahisəli məlumatlar vardır. Daha etibarlı sayıla biləcək bəzi məlumatlara görə, həmin illərdə İrəvana bir neçə xan təyin edilmişdi (34). Heç şübhəsiz ki, bu xanlar Nadir şahın istedadlı sərkərdələri olmaqla ona sədaqətli insanlar idi. Çünki Nadir şahın həyatının sonlarında ölkəni üsyanlar dalğası bürüyəndə mənbələrdə İrəvan xanlığında Nadir şaha qarşı üsyan baş verməsi haqqında məlumata rast gəlinmir.

Nadir şahın qətlindən sonra İrəvan xanlığı da özünün müstəqilliyinin qazanmasına bir fürsət əldə etdi və bu fürsətdən lazımınca istifadə edildi.

Nadir şahın ölümündən sonra İrəvan xanlığı müstəqil bir dövlət kimi tarixinin yeni mərhələsinə qədəm qoydu. Elə erməni tarixçilərinin də qeyd etdiyi kimi, "İrəvan xanlığı faktiki olaraq müstəqil feodal knyazlığı idi" (35). Daha doğrusu, İrəvan xanlığı müstəqil Azərbaycan feodal knyazlığı idi. Xanlıq ərazisindəki bütün inzibati, təsərrüfat, məhkəmə və hərbi işlər xanın əlində cəmləşmişdi. Xan ölkənin tam sahibi idi. O, xanlıq ərazisində görülən işlər üçün heç kəsə hesabat vermir və heç kəsdən icazə almırdı. Xan istənilən adama istənilən cəzanı verə bilir və ya bağışlaya bilirdi. Xanlıq ərazisində yaşayan ermənilər də xanlıq təbəələri idilər və hətta Üçmüəzzin kilsəsində yerləşən erməni katalikosu da İrəvan xanının razılığı ilə seçilirdi.

Xanlıq əhalisinin mütləq əksəriyyəti Azərbaycan türkləri olduğu kimi, onun siyasi, hərbi və inzibati sistemi də Azərbaycan türklərinin əlində idi. Xanlıq ərazisində 15 mahal var idi və bu mahalların toponomik adları da onların Azərbaycan türklərinə məxsusluğundan xəbər verir: Qırxbulaq, Zəngibasar, Gərmibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkəndə, Saatlı, Talin, Seyidli, Sərdarabad, Kərbibasar, Aparan, Dərəçiçək və Göyçə (36).

Müstəqil Azərbaycan xanlıqlarının birləşə bilməməsi heç şübhəsiz ki, onların müdafiə imkanlarını zəiflədir və xarici təcavüzün qarşısının alınmasını xeyli mürəkkəbləşdirirdi. Oxşar vəziyyət İrəvan xanlığı üçün də xarakterik idi. Xüsusən, müstəqilliyinin ilk illərində İrəvan xanlığı üstün xarici təcavüz qarşısında müxtəlif manevrlər etmək məcburiyyətində qaldı. Tarixdən məlumdur ki, 1753-54-cü illərdə İrəvan xanlığı şimaldan hərəkət edən ləzgilərin və digər qüvvələrin təcavüzünə məruz qaldı. Müstəqilliyin qorunması və həmin təcavüzün qarşısının alınması üçün İrəvan xanı gürcü çarından kömək istədi. Gürcü çarı bu köməyi göstərməyə razı oldu. Amma əvəzində İrəvan xanlığından gürcü himayəsini qəbul etmək tələb olundu. Konkret tarixi şəraitdə İrəvan xanı gürcü himayəsini qəbul etdi və gürcü çarına xərac verməyə razı oldu. Müəyyən vaxtlarda bu xərac 40 min tümənə çatırdı (37).Tarixi ədəbiyyatda olan məlumatlara görə, XVIII əsrin ortalarında İrəvan xanı olmuş Həsənəli xanın və onu əvəz etmiş Hüseynəli xanın dövründə xanlığın dirçəldilməsi və möhkəmləndirilməsi üçün təkidli cəhdlər göstərildi. Həsənəli xan hər vasitə ilə İrəvan xanlığını gürcü çarlarının nəzarətindən çıxarmağa və xanlığın mütləq müstəqilliyinin təmin olunmasına çalışırdı.




***İrəvan xanlığı***

Bu səylər Hüseynəli xan Qacarın dövründə də davam etdirildi. Şimaldan gözlənilən soyğunçu basqınların təhlükəsi aradan qalxanda Hüseynəli xan Qacar gürcü çarlarına xərac verməkdən imtina etdi. Gürcü çarları bununla razılaşmadılar və İrəvan xanlığını yenidən xərac verməyə məcbur etmək üçün bir daha silaha əl atdılar.

İrəvan xanlığı ilə gürcü çarlarının qoşunları arasında hərbi qarşıdurma 1705-ci ildə baş verdi. Bu döyüş haqqında müfəssəl məlumat olmadığından güman etmək olar ki, müstəqilliyini yenicə elan etmiş bu kiçik dövlətlərin qoşunları açıq sahədə qarşılaşmalı olmuşdular. Çünki bu döyüşdə İrəvan xanlığının qoşunu geri çəkilməli oldu. Əgər İrəvan xanlığının qoşunu gürcü qoşununu İrəvan qalası daxilində qarşılamış olsaydı, yəqin ki, müqavimət də daha güclü ola bilərdi. Hər halda qoşunların döyüş meydanından çəkilməsi ilə İrəvan xanı yenidən gürcü çarına xərac vermək məcburiyyətində qaldı. Ancaq bu heç də İrəvan xanlığının müstəqilliyinin itirilməsi demək deyildi. İrəvan xanı gürcü çarlarına xərac versə də, daxili idarəçilikdə müstəqilliyini saxlayırdı.

Ancaq bu vəziyyət Hüseynəli xanı heç də təmin etmirdi. Çox güman ki, gürcülərlə birinci döyüşdən sonra Hüseynəli xan qoşunların möhkəmləndirilməsinə daha güclü diqqət yetirdi və qoşunların döyüş hazırlığı səviyyəsinin qaldırılmasına nail olduqdan sonra yenidən xərac verməkdən imtina etdi. Bu qərar bir daha gürcü qoşunları ilə qarşıdurmaya gətirib çıxardı. 1769-cu ildə baş verən həmin döyüşdə yenə gürcü qüvvələri üstünlük qazandı və Hüseynəli xan gürcü çarına xərac verməkdə davam etdi.

On il sonra İrəvan xanlığının qoşunu ilə gürcü qoşunları arasında növbəti döyüş baş verdi. Bu döyüşün başlanması da Hüseynəli xanın gürcü nəzarətindən tamamilə azad olması istəyi ilə bağlı idi. Hüseynəli xan 1779-cu ilin sentyabrında gürcü qoşunları Əştərək kəndi yaxınlığında açıq meydanda döyüşə girməyi mənasız saydı və İrəvan qalasına çəkildi. Uzunmüddətli müdafiə üçün əlverişli imkanları olan İrəvan qalası gürcü qoşunları tərəfindən mühasirəyə alındı. Amma gürcülərin səyləri bir nəticə vermədi. Onlar Hüseynəli xanın, xanlıq qoşunlarının və əhalisinin iradəsini qıra bilməyərək geri çəkildilər. Yalnız onunla təsəlli tapmalı oldular ki, geri qayıdarkən rastlaşdıqları kəndləri talayıb viran qoydular (38).

Bununla belə, sonrakı il İrəvan xanı gürcü çarı ilə danışıqlar apardı və ona yenə də ildə 30 min tümən xərac verməyə razı oldu.

Görünür, şərait bunu tələb edirmiş. Çünki sonrakı bir neçə il ərzində İrəvan xanlığı kifayət qədər möhkəmləndi, qoşunların gücləndirilməsinə diqqət artırıldı, İrəvan qalasının müdafiə imkanları təkmilləşdirildi. Xüsusilə, 1784-cü ildə İrəvan xanı təyin edilən Məhəmməd xan Qacarın döv-

ründə xanlığın inkişafında müsbət irəliləyişlər daha da çoxaldı. Buna baxmayaraq, müəyyən müddət İrəvan xanlığının gürcü çarından nominal asılılığı qalmaqda davam edirdi.

*Qarabağ xanlığı*

Qarabağ xanlığının formalaşması, güclənməsi və az vaxtdan sonra bölgədə söz sahibinə çevrilməsi onun yaradıcısı olan Pənahəli xanın müdrikliyinin, təşkilatçılığının, şücaətinin və tarixi fəaliyyətinin məntiqi nəticəsi idi. Məhz onun əzmkarlığının nəticəsi idi ki, Qarabağ xanlığı digər Azərbaycan xanlıqlarından fərqli bir şəkildə tarix səhnəsinə qədəm qoydu. Başqa sözlə, digər xanlıqlar əsasən, böyük şəhər-qalalar ətrafında mövcud olan ərazi idarəetmə vahidlərinin sərhədləri çərçivəsində və həmin ərazi idarəetmə vahidlərini idarə edən xanlar və bəylər tərəfindən elan edilmişdisə, Qarabağ xanlığı ərazi idarəetmə vahidinə mənsub olmayan hüdudlarda Pənahəli xanın təşəbbüsü əsasında yaradılmışdı. Digər Azərbaycan xanları idarə etdiyi ərazilərdə özlərinin müstəqilliyinə nail olmuşdularsa, Pənahəli xan öz əcdadlarının yaşadığı əraziləri ətrafında birləşdirib yeni xanlığın əsasını qoydu.

Qarabağ xanlığı Səfəvilər dövründə mövcud olmuş Qarabağ (Gəncə) bəylərbəyinin cənub-şərq hissəsində yaradılmışdı və tam formalaşdırılandan sonra bu xanlıq aşağıdakı əraziləri əhatə edirdi: xanlığın sərhədi cənubdan Araz çayından başlayaraq Xudafərin körpüsündən keçməklə Cavad, Əlvənd və Zərdab kəndlərinə kimi uzanırdı. Şərqdən xanlıq Kür çayı ilə hüdudlanırdı. Qərbdə Salvartı və Ərişli dağları xanlığın sərhədini təşkil edirdi. Xanlığın şimal sərhədi isə Goran çayından keçirdi (39).

Başqa bir müəllif isə Qarabağın sərhədlərini belə təsvir edirdi: Cənub tərəfdən xanlığın sərhədi Qafan dağının mis mədənlərindən başlayıb Araz çayına qədər uzanır. Sonra Araz çayının Kürə qovuşana qədər olan məcrası sərhədi təşkil edirdi. Oradan sərhəd xətti Kür boyunca qərbə doğru uzanırdı. Türyançayın poçt stansiyası yaxınlığından sərhəd xətti qərb istiqamətində davam edirdi. Goran mülkündən yuxarıda olan Düzdağdan sərhəd xətti cənuba tərəf dönür və Murovdağın ətəyində mövcud olan Molla Vələdli mülkündən keçir. Murovun uca dağ silsiləsinin Gəncəyə və İrəvana doğru uzanan qolları eyni zamanda Qarabağın şimalından cənuba olan sərhəd xəttini təşkil edirdi (40).

Arxiv sənədlərinə əsaslanan tədqiqatçıların fikrincə, Qarabağ xanlığı Kür-Araz çayları arasında yerləşən ərazini əhatə etməklə şimalda Şəki xanlığı və Kürəkçayla, Şərqdə Kür çayı boyunca Şirvan xanlığı ilə, Muğan düzü istiqamətində isə Qaradağ xanlığı ilə, cənub-qərbdə Naxçıvan xanlığı

və qərbdə İrəvan xanlığı ilə həmsərhəd idi. XVIII əsrin ikinci yarısında Qarabağ xanlığında 130 min nəfər əhalinin yaşadığı bildirilir (41).

Mənbələr Qarabağ xanlığının yaradıcısı olan Pənah xanın əcdadlarının Çingiz xanla bağlılığını qeyd edirlər. Bu, heç şübhəsiz ki, Pənahəli xanın igidliyinə və şücaətinə olan diqqətdən irəli gəlirdi. Bildirilir ki, Pənahəli xanın əsil-nəsəbi Dizağın Cavanşir elindəki Sarıcalı oymağındandır. Sarıcalı oymağı isə Bəhmənli elinin bir qolu sayılır. Mənbə müəlliflərinin fikrincə, Sarıcalı oymağı böyük əfşar elindən, əfşar eli isə böyük türkmən elindəndir. Belə məlumatlar var ki, Pənahəli xanın əcdadları öz başlanğıcını Çingiz xanın nəslindən olan Arqun xandan götürür. Rəvayət edilir ki, Çingiz xanın imperiyası dağıldıqdan sonra bu nəslin nümayəndələrindən biri qaçıb Gürcüstanın Lori qalasına gəlir, sonra isə Gəncəyə üz tutur, Gəncə hakimlərinin yanında xidmətə başlayır. Bir müddət sonra Pənahəli xanın əcdadları Gəncə xanının yanında xidmət etməkdən də boyun qaçırırlar. Mənbələrdə olan məlumatlara görə, ali nəslin nümayndələri hesab olunan həmin şəxslər Gəncə hakimlərinin yanında xidmət etməyi şəxsiyyətlərinə sığışdırmadıqları üçün Qarabağa gəlirlər və Cavanşir camaatı içində azad yaşamağı üstün tuturlar. Çox tez bir zamanda nəslin nümayəndələri, o cümlədən bu nəslin davamçısı Pənahəli xan Qarabağda özlərinə dövran qururlar və onların var-dövləti xeyli çoxalır. Məlumatlara görə, Pənahəli xanın Əli adlı bir övladı dünyaya gəlir. Əlinin sarışın olması, saçlarının qızılı rəngdə olması nəsil içərisində ona xüsusi bir maraq və hüsnü-rəğbət yaradır. Buna görə onu Sarıca Əli çağırırlar. Sonradan nəslin yaşadığı oba isə Sarıca Əli adı ilə məşhur olur. Bu oba həm də Sarıcalı adı ilə tanınırdı (42).

Bəzi müəlliflərin fikrincə, Pənahəli xanın mənsub olduğu Cavanşir eli öz başlanğıcını Uğur xanın dördüncü oğlundan götürür və bu el II Şah Abbasın dövründə, yəni, Səfəvi hakimiyyəti dövründə Qarabağa gəlmişdi (43). Bu fikrin doğruluğunu heç şübhəsiz ki, qəbul etmək olmaz. Çünki Cavanşir eli artıq çoxdan Azərbaycanda formalaşmış olan Azərbaycan türk tayfalarının tərkib hissəsi idi.

Sarıca Əli Pənah xanın ən yaxın əcdadlarından biridir və ona görə də Pənahəli xan həm də Pənahəli xan Sarıcalı adı ilə də tanınır (44).

Mənbələrdə bildirilir ki, sələfləri kimi Sarıca Əli də hörmət və nüfuz sahibi idi, az vaxt içində onun var-dövləti xeyli çoxaldı, ətrafı genişləndi. Sarıca Əlidən sonra onun var-dövləti İbrahimxəlil ağaya nəsib oldu. Onun dövründə də nəslin hörmət və ehtiramı artdı. Xüsusilə, Cavanşir eli içərisində nəslin nüfuzu genişləndi. Pənahəli xanın əcdadları Cavanşir eli içərisində həm var-dövləti ilə, həm də bacarığı ilə seçilirdilər.

İbrahimxəlil ağanın dövründə Pənahəli xanın nəsli daha da məşhurlaşdı. Mənbələrdə olan məlumatlara görə, bu dövrdə İbrahimxəlil ağanın arxa

və əqrəbası artmış və özü də məşhuri-cahan olmuşdu. Ağdam kəndində onun geniş bağları, imarətləri, Arazbarda yaylaqları, mal-qarasının otlaq sahələri və s. var idi (45).

Pənahəli xan İbrahimxəlil ağanın oğlu idi. Onun boya-başa çatdığı və formalaşdığı illər isə Nadir Əfşarın Səfəvilər dövlətinin sərhədlərinin bərpa edilməsi istiqamətində öz sərkərdəlik fəaliyyətinə başladığı illərə təsadüf edirdi..

Qarabağın tarixi haqqında olan mənbələrdə həm Pənahəli xanın, həm də onun böyük qardaşı Fəzləli bəyin Nadir qoşunlarına qoşulması haqqında faktlar vardır. Çox güman ki, bu qardaşların Nadir qoşunlarına qoşulması 1734-cü ilin sonlarında, Nadirin Cənubi Qafqaza yürüş zamanı baş verdi. Bu zaman Nadir hələ şah elan edilməsə də Səfəvilər sülaləsinin son şahı Təhmasib Mirzə hakimiyyətdən kənarlaşdırılmışdı və ölkənin idarəçiliyi real olaraq Nadirin əlində idi.

Mənbələrdə bildirilir ki, Nadir Əfşar Azərbaycanın bir çox yerlərini, o cümlədən Cavanşir oylağını da işğal etmişdi(46). Tarixdən məlumdur ki, Nadir 1734-cü ilin sonlarında Gəncənin mühasirəsinə başladı və 1735-ci ilin novruzundan bir müddət sonraya qədər Gəncə ətrafında qaldı. Sonra isə mənbələr onun İrəvan və Qars istiqamətinə yollandığını yazırlar. Çox güman ki, məhz Gəncə şəhərini mühasirədə saxladığı müddət ərzində Nadir Qarabağ istiqamətinə qoşun göndərdi. Ya da Qarabağ elləri Nadirin gücünü və qüdrətini görərək onun hakimiyyətini tanımalı oldular. Çünki bəllidir ki, Nadirin İrəvan ətrafında Osmanlı qoşunlarına qarşı döyüş apardığı vaxt Pənahəli xan və onun böyük qardaşı Fəzləli bəy Nadirin yanında xidmətə başlamışdılar.

Bəzi mənbə və tarixi ədəbiyyatda Pənahəli xanın və onun qardaşının Nadir şahın yanında nə vaxt xidmətə başlaması haqqında fərqli məlumatlarla da rastlaşmaq mümkündür. Məsələn, elmi dövriyyədə olan Qarabağ-na-mələrə Pənahəli xan Nadirin şahlığı dövründə onun yanında xidmətə başlamasışdı. Amma əgər Pənahəli xan Nadirin Gəncə və Qarabağ ətradında olduğu vaxt ona qoşulmuşdusa, onda o zaman Nadir hələ şah deyildi. Bundan başqa bir sıra mənbə və tədqiqat əsərlərində Fəzləli ilə Pənahəlinin eyni vaxtda Nadirin qoşunlarına cəlb olunduğu bildirilir (47). Bəzi mənbələrdə isə əvvəlcə Fəzləli bəyin, sonra da Pənahəli bəyin Nadir qoşunlarına cəlb edildiyi bildirilir (48). Mənbələrin bəzi məlumatlarından belə bir qənaətə gəlmək olar ki, Fəzləli bəylə Pənahəli bəyin Nadir qoşunlarına cəlb edilməsi İrəvan-Qars istiqamətində Nadir qoşunlarının Abdulla paşanın rəhbərliyi altında olan Osmanlı qoşunları ilə döyüşdən əvvəl baş vermişdi. Bəzi mənbələr ötəri olaraq Pənahəli bəyin Osmanlı qoşunlarına qarşı döyüşlərinə toxundu-

ğunu qeyd etsələr də, Mir Mehdi Xəzani Pənahəli bəyin məhz Abdulla paşaya qarşı döyüşlərdə şücaət göstərdiyini təsvir edir (49).

Bir tərəfdən də güman edilir ki, Gəncə bəylərbəyliyi tamamilə nəzarət altına alınandan sonra Nadir tərəfdən onun qoşunlarına və xidmətinə yeni qüvvələrin toplanmasına göstəriş vermiş və Pənahəli bəy də öz qardaşı ilə məhz bundan sonra Nadirin qoşunlarına qoşulmuşdular. Bu zaman Pənahəli də, Fəzləli bəy də Qarabağda kifayət qədər tanınmış şəxslər idilər və onlar Nadirin diqqətindən kənarda qala bilməzdilər.

Məsələn, Rzaqulu bəy Mirzə Camal oğlu yazır ki, Nadir şah Qarabağ, Gəncə, Tiflis və İrəvanı ələ keçirdiyi vaxtlarda ellər və kəndlərdə olan igid, iş bilən və bacarıqlı adamları öyrənib onları öz yanında qulluğa götürər, hörmət, mənsəb və məvacib sahibi edərdi. Pənahəli bəy də belə insanların arasında idi və Nadirin yanında xidmətə cəlb olunmazdan qabaq o artıq bir çox məşhur işlərdə ad qazanmışdı, iştirak etdiyi döyüşlərdə öz tay-tuşlarından daha hünərli idi (50).

Mənbələr Fəzləli bəyin Nadir Əfşarın eşikağası vəzifəsinə təyin edildiyi bildirirlər. Bir mənbədə isə Fəzləli bəyin əvvəlcə Nadirin saray nayibi vəzifəsinə və yalnız bir müddətdən sonra isə Nadir sarayının eşikağası vəzifəsinə təyin edildiyi bildirilir (51). Buradan belə bir qənaətə gəlmək olar ki, qardaşlar arasında Fəzləli bəy daha çox tədbirliliyi ilə Pənahəli bəy isə fiziki keyfiyyətləri ilə seçiliblər və ona görə də Pənahəli bəy Nadirin döyüşgən ordusunda özünə yer tutubmuş.

Mir Mehdi Xəzaninin fikrincə, qısa müddətdən sonra Fəzləli bəy vəfat etdi. Onda Nadir Fəzləli bəyin özündən də rəşadətli və fərasətli olan kiçik qardaşı Pənahəli bəyi yanına dəvət etdi, onu Fəzləli bəyin vəzifəsinə təyin etdi. Vaxt ötdükcə Nadir Pənahəli bəyin rəşadətini və hüsn-rəğbətini görüb vəzifəsini daha da artırdı, ona daha məsuliyyətli vəzifələr tapşırdı. Sonra da müəllif Pənahəli bəyin Abdulla paşa Körpülünün rəhbərliyi altında olan Osmanlı qüvvələrinə qarşı döyüşlərdə şücaət nümayiş etdirməsindən danışır (52).

Fəzləli bəyin Nadir qoşunlarının İrəvan-Qars istiqmətində Osmanlı qoşunlarına qarşı apardığı döyüşlərdə qətlə yetirildiyini iddia edən mənbələr də vardır (53). Amma mövcud olan məlumatların və faktların tutuşdurulması onu güman etməyə əsas verir ki, Fəzləli bəyin dünyasını dəyişməsi sonrakı dövrlərə təsadüf edir. Çünki elə mənbələrdən o da aydın olur ki, Pənahəli bəy dünyasını dəyişmiş qardaşının yerinə təyin edilmiş və bu vəzifədə çox uzun müddət xidmət etmədən Nadir şahın sarayından qaçmışdı. Onun Nadir şah sarayını tərk etməsi isə Nadir şahın ömrünün son illərində baş vermişdi.

M.M.Xəzaninin əsərində Nadirin Gəncənin mühasirəsindən əl çəkərək İrəvan istiqamətinə, Osmanlı sərkərdəsi Abdulla paşa Körpülünün rəhbərliyi altında olan qoşunlara qarşı yollanması haqqında nisbətən geniş məlumat mövcuddur. Məlumdur ki, Pənahəli bəyin də iştirak etdiyi bu döyüş Cənubi Qafqazın taleyinin müəyyənləşdirilməsi baxımından Nadir üçün tarixi əhəmiyyət kəsb edirdi. Çünki bu döuüşdə qələbə əldə etməklə Nadir Cənubi Qafqazı bütünlüklə öz nəzarəti altına ala bilərdi və Nadir buna da nail oldu.

Mənbələr bildirirlər ki, Fəzləli bəy dünyasını dəyişdikdən sonra Nadir şah Pənahəli bəyi hüzuruna çağırıb əlinə çomaq verdi, əyninə eşikağası xələti geyindirdi və Fəzləli bəyin yerinə təyin etdi. Pənahəli bəy də ona tapşırılan vəzifənin icrasına sədaqət göstərdi. Amma onun Nadir şah yanında xidməti çox da uzun sürmədi və Pənahəli bəy Nadir şahın xidmətindən qaçmağı üstün tutdu. Pənahəli bəyin belə qərar qəbul etməsi üçün müxtəlif səbəblər göstərilir. Bir məlumata görə, bu vəzifə Pənahəli bəyin ürəyincə deyildi, Pənahəli bəy eşikağası vəzifəsini əlində çomaq saray nizamı ilə məşğul olmağı, yasovullarla dil-dilə gəlməyi öz şəninə sığışdırmadı və ona görə də Nadir şahın yanından uzaqlaşmağı qərara aldı (54).

Bir sıra məlumatlara görə, Pənahəli bəy fitnə-fəsadların qurbanı oldu. Çünki onun sədaqətli xidmətləri ilə Nadir şahın hörmət və ehtiramını qazanması Nadir şah əyanlarının paxıllığı və qısqanclığı ilə qarşılaşmışdı. Nadir şahın bədxah əyanları Pənahəli bəyin artan nüfuzundan xoşlanmadıqları üçün onun haqqında Nadir şaha xoşagəlməz məlumatlar çatdırdılar. Bunlar isə Nadir şahın Pənahəli bəyə qarşı münasibətini dəyişdi. Pənahəli bəy anladı ki, Nadir şahda ona qarşı yaranan şübhələr gec-tez gözlənilməz sonluğa gətirib çıxaracaqdır. Ona görə də Pənahəli bəy həyatını xilas etmək üçün Nadir şahın yanından qaçmağı qərara aldı (55).

Bu hadisənin 1737-38-ci ilə, 1743-cü ilə və 1745-ci ilə təsadüf etməsi haqqında mənbələrdə məlumatlar vardır (56). Yuxarıda deyilənləri nəzərə alaraq son iki tarixin həqiqətə daha yaxın olduğunu güman etməyə əsas vardır.

Mövcud olan məlumatlara görə, Nadir şah Xorasanda olanda Pənahəli bəy fürsətdən istifadə edib yenidən Qarabağa qayıtmağı qərara aldı. Onunla birlikdə Nadir şahın xidmətində olan 7 nəfər digər qohum-əqrəbası da Pənahəli bəylə birlikdə Qarabağa qayıtdılar. Həmin 7 nəfər aşağıdakılardan ibarət imiş: Pənahəli bəyin oğlu İbrahimxəlil, Pənahəli bəyin bacısı oğlu Lütfəli bəy Sarıcalı, habelə Seyidəli bəy, Hacı Məhəmməd bəy, Şahverən bəy, Hümmətəli bəy və Küküş bəy (57).

Mirzə Camal Cavanşir və Həsənəli Qaradağinin yazdıqlarına görə, Pənahəli bəy Nadir şaha xidmətdən imtina edərkən oğlu İbrahimxəlil ağanın

15 yaşı var idi və o, Xorasanda qalmışdı. Yalnız müəyyən müddət keçəndən sonra o da atasının arxasınca Qarabağa qayıda bildi (58).

Pənahəli bəyin qorxu-ürküsüz Nadir şahın xidmətindən imtina etməsi və ondan xəbərsiz olaraq Qarabağa doğru istiqamət götürməsi Nadir şaha meydan oxumaq kimi bir əməl idi. Ona qarşı itaətsizlik göstərənlərə sərt münasibət nümayiş etdirən Nadir şah bu dəfə də Pənahəli bəyin arxasınca silahlı adamlar göndərdi və onun tutulub geri qaytarılmasını əmr etdi. Eyni zamanda Nadir şah Təbrizdə oturan Azərbaycan sərdarına, habelə Gəncə, Şirvan və Tiflis hakimlərinə fərman göndərib onlardan Pənahəli bəyin axtarılmasını və ələ keçirilməsini tələb etdi. Nadir şahın əmri ilə Pənahəli bəyin yaxın qohum-əqrəbası nəzarət altına götürüldü, onların bir çoxu, habelə Qarabağda məskunlaşan Cavanşir, Otuziki, Kəbirli camaatı cəzalandırılaraq Xorasan vilayətinə sürgün edildi (59).

Pənahəli bəy də bilirdi ki, Nadir şah onun qaçması ilə barışmayacaq və ona görə etibarlı yerlərdə gizlənməklə özünü şah qəzəbindən qorumağa çalışdı.

Nadir şahın xidmətindən qaçdıqdan sonra Pənahəli bəyin harada olması haqqında mənbələrdə müxtəlif məlumatlar vardır. Onun Şirvanda, Qəbələdə, Car-Balakəndə və Dağıstanda gizləndiyi söylənilir. Əhməd bəy Cavanşirin fikrincə, Dağıstan tayfalarının Nadir şaha güclü müqavimət göstərməsi və ona təslim olmamaları Pənahəli bəyi şah xidmətindən qaçmağa ilhamlandırmışdı (60).

Mənbələrin məlumatına görə, Nadir şahın xidmətindən qaçandan iki ay sonra Pənahəli bəy Qarabağa gəlib çıxdı. Onun izlənməsi üçün göndərilənlər isə öz işlərini yaxşı qura bilmədiklərindən Pənahəli bəy üçün ciddi təhlükə yarada bilmədilər.

Nadir şahın ölümünə qədər Pənahəli bəyin nə işlərlə məşğul olması barədə də mənbələr müxtəlif məlumatlar verirlər. Onun Şirvan və Qarabağ ovlaqlarında ovla məşğul olması, təqibə məruz qalmış yaxınları və qohum-əqrəbası ilə Qarabağ dağlarında vaxt keçirdiyi haqqında məlumatlar mövcuddur (61). Əhməd bəy Cavanşirin fikrincə isə Pənahəli bəy müəyyən vaxtdan sonra Car-Balakən bölgəsinə yollandı, öz ətrafında onlarca atlılardan ibarət dəstə təşkil etdi, onun axtarışında olan qüvvələrə öz dəstəsi vasitəsilə müqavimət göstərdi. Müəllifin yazdığına görə, Pənahəli bəy sadə camaatı incidənlərə qarşı da barışmazlıq nümayiş etdirdi, əhalinin rəğbətini qazandı. Nadir şahın ölüm xəbəri alınandan sonra isı Pənahəli bəy 200 nəfərlik atlı dəstəsi ilə Qarabağa gəldi (62).

Nadir şahın qətlə yetirildiyi zaman Pənahəli bəyin güclü dəstəyə malik olduğu şübhəsizdir. Çünki Nadir şahın qətli xəbəri alınan kimi Pənahəli bəy Qarabağda yeni bir xanlığın yaradılmasına başladı. Baxmayaraq ki, bəzi

mənbələr Pənahəli bəyin öz dəstəsini yaratmasını Nadir şahın ölümündən sonrakı dövrə aid edirlər. Mirzə Adıgözəl bəyin fikrincə, Nadir şahın ölümündən sonra isə Pənahəli bəy qızmış bir şirə, coşqun bir əjdahaya döndü, zərbəsinin və hücumlarının qorxusu qarşısındakı düşmənlərini vahiməyə saldı, ona qarşı çıxmaq istəyənlər Pənahəli bəyin şücaəti qarşısında diz çökdü (63).

Qarşısına qoyduğu məqsədə çatmaq üçün Pənahəli bəyə güclü və böyük bir dəstə lazım idi. Başqa sözlə, elə bir dəstəyə malik olmalı idi ki, həm Qarabağda yeni bir xanlığı elan etsin, həm də bu xanlığı qoruyub saxlaya bilsin. Qarabağın tarixindən danışan bir sıra mənbə müəllifləri Pənahəli bəyin Qarabağ əhalisi hesabına öz dəstəsini genişləndirdiyini və tədricən ətraf məntəqələri nəzarət altına aldığını, Gəncə, Şəki, Şirvan və Naxçıvan xanlarının ərazilərinə silahlı basqınlar etdiyini yazırlar. Tədbirliliyi nəticəsində Pənahəli bəy çox qısa zaman ərzində öz dəstəsinin üzvlərini atla, silahla, lazımi təchizatla təmin etdi və bununla da dəstəsinin döyüş imkanlarını təkmilləşdirdi. Qarabağda yeni bir xanlığın yaradılmasında heç şübhəsiz ki, Pənahəli bəyin tədbirliliyini, təşkilatçılığını və əzmkarlığını da istisna etmək olmaz. Pənahəli bəy Nadir şahın qəzəbindən nəinki qorxub çəkinmədi, əksinə öz bacarığını ortaya qoydu, yerlərdə olan müqaviməti aradan qaldırdı, kimsədən fərman, razılıq almadan Qarabağda özünü xan elan etdi.

Elan etdiyi xanlığın dayaqlarının möhkəmləndirilməsi üçün Pənahəli bəy güclü bir ictimai dayağın vacibliyini də diqqətdən qaçırmadı. Belə bir ictimai dayaq isə onun mənsub olduğu Cavanşir eli və onun oymaqları ola bilərdi. Yuxarıda qeyd edildiyi kimi, Qarabağda məskunlaşmış olan Cavanşir və digər ellər Nadir şah tərəfindən Xorasan vilayətinə sürgün edilmişdi. Nadir şahın ölümündən sonra onun ölkənin müxtəlif nöqtələrinə sürgün etdiyi tayfalar, ellər öz doğma yerlərinə qayıtmaq imkanı əldə etdilər. O cümlədən Qarabağdan sürgün edilmiş Cavanşir, Otuziki, Kəbirli və digər ellər geri qayıtmağı qərarlaşdırdılar. Bir sıra mənbələr bildirirlər ki, Pənahəli bəy adları çəkilən ellərin Xorasandan Qarabağa doğru üz tutması xəbərini eşidəndə çox sevindi. Hətta ətrafındakı dəstəsi ilə birlikdə Xorasandan qayıdan elatları qarşılamaq üçün cənuba doğru hərəkət etdi. Pənahəli bəy Qarabağ elatlarının qayıtmasına sevindiyi kimi, sürgündən geri qayıdan elatlar da Pənahəli bəyi görməyə sevindilər. Çünki onlar Pənahəli bəyi öz dayaqları və mühafizəçiləri kimi görürdülər. Xüsusilə, Pənahəli bəyin böyük dəstəyə malik olması Qarabağ elatını daha da sevindirdi. Pənahəli bəyin və onun dəstəsinin müşayiəti ilə sürgündən qayıdan elatlar öz yerlərində məskunlaşdılar. Pənahəli bəy bu insanların yerləşməsinə, yeni güzəran qurmasına köməklik göstərdi, bu ellərin qoçaq cavanlarını öz dəstəsinə cəlb

etdi. Həyata keçirdiyi hərbi yürüşlər zamanı əldə etdiyi qənimətlərlə Qarabağda yenicə məskunlaşmış əhaliyə də yardımlar etdi. Bununla, Qarabağa qayıdan əhali arasında Pənahəli bəyin hörmət və nüfuzu artdı, onların içərisində söz sahibinə çevrildi. Pənahəli bəyə qarşı çıxmaq istəyənlər isə onun tərəfindən cəzalandırıldı, onlar Pənahəli bəyin iradəsini qəbul etməyə məcbur edildi. Bütün bunların nəticəsi kimi, Cavanşir, Otuziki və başqa ellərin və kəndlərin əhalisindən heç kim Pənahəli bəyin əmrindən çıxmağa cəsarət etməzdi (64).

Əhməd bəy Cavanşır isə yazır ki, Pənahəli bəyin özü Xorasana sürgün edilmiş elatlara xəbər göndərib onları vətənə qayıtmağa dəvət etmişdi. Sonra özü də dəstəsi ilə bilrikdə Zəngəzurda, geri qayıdan elatları qarşılamağa yollandı (65).

Pənahəli bəyin nüfuzunun və hakimiyyətinin genişlənməsində heç şübhəsiz ki, onun Cavanşir və digər elatlara arxalanmasının böyük əhəmiyyəti var idi. Həmin elatlar həm cəsurluğu ilə məşhur idilər, həm də Qarabağın ictimai həyatını müəyyənləşdirən əsas qüvvə idilər. Bu elatlara arxalanmaqla Pənahəli bəy elə böyük nüfuz və söz sahibi oldu ki, çox qısa zamandan sonra ətraf xanların narahatlığına səbəb oldu. Bu xanların arasında Şəki və Şirvan xanları da var idi. Həmin xanların hər ikisi kifayət qədər güclü qüvvələrə malik idilər. Xüsusən, Şəki xanı Hacı Çələbi xan hələ Nadir şaha qarşı müqavimət göstərməyi ilə ətrafda ad çıxarmışdı.

Pənahəli bəy Qarabağ xanlığını yaratmaq və onun sərhədlərini genişləndirmək fikrinə düşəndə fəaliyyətinin müəyyən çətinliklərlə qarşılaşacağını da istisna etmirdi. Ona görə də müxtəlif qüvvələrin silahlı hücumlarından daha etibarlı şəkildə müdafiə olunmaq üçün qala tikdirdi, səngərlər və istehkam qurğuları yaratdı və müdafiə məsələlərinə diqqəti artırdı.

Pənahəli bəyin güclənməsi Qarabağın dağlıq hissəsində məskunlaşan erməniləşmiş alban məliklərinin də ciddi narahatçılığına səbəb oldu. Yerli tayfa və elatlardan Pənahəli bəyə qarşı olan şəxslər bu məlilklərlə sövdələşməyə girdilər və Pənahəli bəyə qarşı mübarizədə birləşməyi razılaşdırdılar. Bununla belə, onlar birləşəndən sonra da Pənahəli bəyin qarşısında duruş gətirə bilməyəcəklərini anladılar. Onda qərara alındı ki, Şəki xanı Hacı Çələbiyə müraciət etsinlər və onu Pənahəli bəyə qarşı döyüşə girməyə razı salsınlar. Pənahəli bəy dəfələrlə Şəki xanlığı ərazisinə hərbi yürüşlər etmişdi. Hacı Çələbi həm bu yürüşlərin qarşısını almağı, həm də öz nüfuzunu Qarabağda möhkəmlətməyi əhəmiyyətli saydı və Pənahəli bəyə qarşı Şamaxı xanı ilə ittifaq bağladı. Pənahəli bəyə qarşı müxalif olan yerli qüvvələr tərəfindən dəstəklənən Şəki və Şamaxı xanları Qarabağa birgə qoşun çəkdilər.

Mənbələrdə olan məlumatların tutuşdurulmasından belə bir qənaətə gəlmək olar ki, birləşmiş qüvvələrin Pənahəli bəy üstünə yürüşü 1748-1749-cu

illərdə baş vermişdi. Bu vaxt Pənahəli bəy kifayət qədər möhkəmlənmiş və lazımi döyüş taktikasına da yiyələnmişdi. Onun Bayat qalasında Şəki və Şirvan xanlarına qarşı tətbiq etdiyi döyüş taktikası da bunu sübut etdi. Mənbələrin məlumatlarına görə, Pənahəli bəy özünün tikdirdiyi Bayat qalasında müdafiəyə çəkildi. Birləşmiş qoşun dəstəsi ay yarım ərzində Bayat qalasını mühasirədə saxladı. Pənahəli bəy birləşmiş qoşunların dəf edilməsi üçün ciddi hazırlıq görmüşdü və ona görə də yalnız Bayat qalasına sığınmaqla kifayətlənmədi. Onun cəsur döyüşçülərdən təşkil etdiyi dəstələr mütəmadi olaraq birləşmiş qoşun dəstəsi üzərinə hücum edir və qarşı tərəfə təsirli zərbə endirəndən sonra qalaya çəkilirdi. Şəki və Şirvan xanları belə yürüşlərin qarşısını almaqda gücsüz idilər. Qoşunlara vurulan itkilər isə onların qüvvəsini zəiflətməkdə idi. Pənahəli bəyin müdafiə döyüşünü düzgün təşkil etməsi və Bayat qalasına yerləşdirilmiş əhali tərəfindən də lazımınca dəstəklənməsi ona qələbəni təmin etdi. Döyüşün gedişini öz xeyirlərinə dəyişə bilməyən Şəki və Şamaxı xanları geri çəkilməyi qərara aldılar və bu zaman Şəki xanı Hacı Çələbi xan sonradan məşhur olan və Qarabağın tarixi haqqındakı mənbələrin çoxunda öz əksini tapan sözlərini söylədi: "Pənah xan bir sikkəsiz gümüş idi, biz gəldik ona sikkə vurduq və qayıtdıq" (66).

Bayat qalası ətrafında baş verən döyüş Pənahəli bəy üçün ciddi əhəmiyyət kəsb edən bir döyüş idi. Pənahəli bəy bu döyüşdə yalnız öz hərbi bacarığını nümayiş etdirmədi. O eyni zamanda Qarabağ xanlığının mövcudluğu ilə barışmağın zəruriliyini sübut etdi. Pənahəli bəy Qarabağda kifayət qədər möhkəmləndi və öz nüfuzu ilə ətrafda daha da məşhurlaşdı.

Mənbələr 1748-ci ildə Pənahəli bəylə Azərbaycan sərdarı Əmiraslan xan arasında münasibətlər yaradılmasından da xəbər verirlər. Qarabağda Pənahəli bəyin möhkəmlənməsi Əmiraslan xanın da diqqətindən qaçmadı. O, Pənahəli bəyin yanına öz elçilərini yolladı. Bu elçilər vasitəsilə Əmiraslan xan Pənahəli bəyə at, qılınc və qiymətli xələt göndərdi və Nadir şahdan sonra Adil şah adı ilə taxta çıxmış olan qardaşı oğlu Əliqulu xana itaət etməyi təklif etdi. Mənbə məlumatlarına görə, bir tərəfdən Pənahəli bəy yaranmış tarixi şəraitdə mərkəzi hakimiyyəti qəbul etməklə ətrafındakı müxtəlif qüvvələrdən daha yaxşı müdafiə olunacağını güman edirdi. Digər tərəfdən Pənahəli bəy, Əmiraslan xan kimi tanınmış sərkərdə ilə yaxınlıq etməyi özü üçün faydalı bilirdi. Ona görə də o, Əmiraslan xanın elçilərini böyük hörmətlə qarşıladı, təklifini qəbul edərək özü də ona qiymətli hədiyyələr göndərdi. Əmiraslan xan bu xəbəri məmnunluqla qarşıladı və bu barədə Adil şaha məktub göndərdi. Adil şah da onun hakimiyyətini qəbul edən Pənahəli bəyə "xan" adı verilməsi haqqında fərman imzaladı və bu fərmanı qiymətli xələt, qızıl yəhərli at, qaş-daşla bəzədilmiş qılıncla Pənahəli xana göndərdi. Həmin fərman və qiymətli hədiyyələr Əmiraslan

xanın nümayəndələri tərəfindən Bayat qalasında Pənahəli xana təqdim olundu (67).

Beləliklə, 1748-ci ildən Pənahəli xan bir xan kimi təsdiqləndi və dünyasını dəyişənə qədər (1763) Qarabağ xanlığının möhkəmləndirilməsi uğrunda mübarizə apardı.

Pənahəli xanın öz hakimiyyətinin daha da möhkəmləndirməsi üçün diqqət yetirdiyi məsələlərdən biri də Qarabağ məliklərinin bütünlüklə nəzarət altına gətirilməsi məsələsi idi. Mənbələrdə bu məliklər haqqında geniş məlumat mövcuddur. Xəmsə məlikləri adlanan bu beş məliklik aşağıdakılar idi: Dizaq, Vərəndə, Xaçın, Çiləbörd və Talış məlikləri. Elə mənbələrdə olan məlumatlara görə, bu məlikliklərin bəzilərinin məliklərinin əslən Qarabağdan olmadığı aydınlaşır. Məsələn, Qarabağnamə müəllifləri göstərirlər ki, Dizak məliyi Məlik Yeqan adlanırdı. O, Loridən Qarabağa pənah gətirmiş və burada məskunlaşmışdı. Nadir şahın səltənəti dövründə ona məliklik titulu verilmişdi (68). Çox güman ki, Məlik Yeqan Nadir şaha sədaqət nümayiş etdirmiş və əvəzində onun məlikliyə sahiblik iddiası təmin olunmuşdu.

Erməni müəllifi Raffi də Məlik Yeqanın Loridən olmasını təsdiq edir. Onun yazdıqlarından aydın olur ki, Məlik Yeqan yaşadığı ərazidə öz qohumlarından olan Məlik Elizbar adlı birisi ilə hakimiyyət davasına girişmiş və öz niyyətinə nail ola bilmədiyi üçün Qarabağın Tuğ kəndinə köçməli olmuşdu. Müəllif onu da etiraf edir ki, Məlik Yeqanın varisləri sonradan islam dinini qəbul etdilər (69). Dizak məlikliyi Dizak dağı ilə Araz çayı arasındakı ərazidə yerləşirdi.

Vərəndə məlikliyi isə eyni adlı çayın ovalığında qərar tuturdu və onun hakimi Məlik Şahnəzər idi. Məlik Şahnəzərin əcdadları Gəncə mahalından idi. Erməni müəlliflərinə görə, I Şah Abbas öz qoşunu ilə Tiflisdən geri qayıdanda Məzrə adlı bir kənddə dayanır. Məlik Şahnəzərin həmin kənddə yaşayan əcdadları Şah Abbasın qulluğunda durmaqla özlərinə hörmət qazanırlar. Şah Abbas da əvəzində onlara bir neçə kəndi bağışlayır. Amma Şahnəzərin əcdadları bu ərazidə uzun müddət yaşaya bilmirlər və dolanışıqlarının daha yaxşı təmin edilməsi üçün onlar Qarabağa köçməli olurlar. Çanaxçı kəndində köç salan Məlik Şahnəzərin əcdadları sonradan bu ərazidə möhkəmlənə bildilər (70).

Xaçın məlikliyi Xaçın və Tərtər çayları hövzəsində yerləşirdi. Bu məliklik yeganə məliklik idi ki, onun hakimləri yerli nəsillər tərəfindən həyata keçirilirdi. Xaçın məlikliyinin tarixi XII əsrdə Qarabağın dağlıq hissəsində formalaşan Xaçın knyazlığına gedib çıxır. Tədqiqatçılar Xaçın knyazlığını qədim Albaniyanın bir hissəsi hesab edirlər və bu knyazlığa alban nəsli olan Həsən Cəlal nəsli rəhbərlik edirdi. Sonradan alban katalikosluğunun mərkəzi

olan Qəncəsər məbəd kompleksi də XIII əsrdə bu nəslin nümayəndələri tərəfindən tikdirildi (71).

Çiləbörd məlikliyi Tərtər çayı ilə Xaçın çayı arasında yerləşirdi. Tədqiqatçıların fikrincə, bu məlikliyin adı əslində Çiləyurd (köç yeri) olmuşdur. Sonradan onun adı qəsdən dəyişdirilərək erməniləşdirilmiş və bununla da məlikliyin ermənilərlə bağlılığı görüntüsü yaradılmışdı (72).

Qarabağ xanlığı dövründə Çiləbörd məlikliyinin məlikləri Məlik Allahqulu və Məlik Atam idilər.

Nəhayət beşinci məliklik – Talış və Gülüstan məlikliyi idi. Bu məlikliyin əsasını qoyanlar da Qarabağa kənardan gələnlər idi. Qarabağnamələrdə göstərilir ki, Talış məliklərinin əcdadları Şirvandan gəlmişdilər. Onlar köçüb Talış kəndinə gəlmiş və burada öz xanədanlarını qurmuşdular. Qarabağda möhkəmlənmək üçün onlar da öz hakimiyyətlərini ətraf kəndlərə yaydılar və Gülüstan qalasını zəbt edərək orada sakin oldular (73).

Məliklərin mənşəyinə və tarixinə qısaca nəzər salınması onu deməyə əsas verir ki, onların ermənilərlə bağlanması ciddi faktlara söykənmir və bunun nəticəsi kimi Qarabağ məliklərinin erməni dövlətçiliyinin ifadəsi kimi qiymətləndirilməsi elmi-tarixi əsaslardan uzaqdır. Qarabağ məliklərinin Rusiya sarayına yazdıqları məktubların saxtalaşdırılmamış mətnlərində onların özlərinin alban adlandırması halları da mövcuddur (74). Hətta XVIII əsrin birinci yarısında alban xristian dövlətinin yaradılması haqqında planlar da hazırlanmışdı (75).

Pənah xan bölgədə yaranmış olan idarəçilik boşluğundan istifadə edərək bu bölgənin Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirməyi qərara aldı. Bu işdə Pənah xan tezliklə məliklərin müqaviməti ilə qarşılaşmalı oldu. Nadir şah tərəfindən bəxş edilmiş təxminən 10 illik nisbi muxtariyyət Qarabağ məliklərinin separatçılıq meyllərinə təkan versə də, Pənah xan öz tədbirliliyi ilə bu meyllərin qarşısını qətiyyətlə ala bildi.

Erməni müəllifi Raffi heç bir fakta istinad etmədən Pənah xanın Nadirin yanından qaçmasından sonra Çiləbörd məliyi Allahquluya sığındığını və onun kəndlərindən vergi toplanması ilə məşğul olduğunu qeyd edir. Bu məlumat bəzi erməni müəllifləri tərəfindən də təkrar olunmuşdur və Pənahın erməni məliyinə sığınmasını qabartmaqla ona qarşı gizli bir istehza da ifadə olunur. Əslində isə belə deyildi. Kiçik bir malikanə sahibi olan məlik o cürətə malik deyildi ki, Nadir şah kimi bir şaha qarşı şıxsın və Nadir şah tərəfindən axtarılan Pənaha yanında sərbəst yaşamağa imkan versin. Pənah isə o təfəkkür sahibi deyildi ki, Nadir kimi böyük bir sərkərdənin yanında xidməti adi bir məliyin nəzarəti altında olmaqla əvəz etsin.

Qarabağnamə müəllifləri arasında Pənahın Qarabağ dağlarında və sonra da Qəbələ mahalında gizləndiyini yazanlar da vardır. Nadir şahın ölümün-

dən sonra isə o yanındakı azsaylı dəstəsi ilə Qarabağa qayıtdı və yeni keyfiyyətdə fəaliyyətə başladı. Bunu bəzi erməni müəllifləri də təsdiq edirlər (76).

Xəmsə məliklərini öz tabeliyinə gətirmək Pənahəli xan üçün elə də bir çətinlik təşkil etmədi. Çünki Xəmsə məlikləri öz aralarında lazımi əməkdaşlığa və dəstəyə malik deyildilər. Hətta malik olduqları silahlı dəstələrdən də məliklər Pənah xana qarşı səmərəli istifadə edə bilmədilər. Pənah xan əvvəlcə Vərəndə məliyi Şah Nəzəri öz tabeliyi altına aldı. Əslində, Şah Nəzər də yaranmış vəziyyətdə Pənah xana sığınmaqda maraqlı idi. Çünki məlik Şah Nəzər özündən qabaqkı Vərəndə məliyi olan əmisi məlik Həsəni (mənbələrdə məlik Hüsü kimi də tanınır) öldürərək onun yerini tutduğundan digər məlikliklərin qəzəbinə səbəb olmuşdu. Xəmsə məlikləri məlik Şah Nəzəri cəzalandırmaq üçün onun üstünə silahlı dəstə göndərdilər. Məlik Şah Nəzər digər məliklərin hücumundan qorunmaq üçün Çanaxçı kəndindəki qalada müdafiə olundu. Yerli məliklər göstərdiyi bütün cəhdlərə baxmayaraq onlar məlik Şah Nəzərə üstün gələ bilmədilər və geri çəkilmək məcburiyyətində qaldılar. Məlik Şah Nəzər öz soydaşlarının təhlükəsi əhatısində olduğu üçün Pənah xana tabe olmağı qərara aldı. Sonradan məlik Şah Nəzər öz qızını Pənah xanın oğlu İbrahim xana ərə verməklə Qarabağ xanı ilə qohumluq əlaqəsi də yaratdı (77).

Vərəndə məlikliyini öz tabeliyi altına alandan sonra Pənah xan diqqətini Xaçın məlikliyi üstündə cəmlədi. Bu məlikliyin məliyi də Pənah xana müəyyən müqavimət göstərmək istədi. Xaçın məliyi ətrafında 2 min nəfərə yaxın atlı və piyadadan ibarət bir silahlı dəstə toplanmışdı. Belə bir dəstəyə malik olması Xaçın məliyinin ümidini bir qədər artırırdı. Bundan əlavə, Xaçın məliyi Pənah xana qarşı müqaviməti artırmaq üçün Ballıqaya adlanan bir yerdə müdafiə səngərləri və sığınacaqlar da yaratdı. Güman edilirdi ki, bu müdafiə qurğuları Xaçın məliyinin gücünü daha da artıracaqdır. Amma bütün bunlar Pənah xanı heç də çəkindirmədi. Pənah xan əvvəlcə Xaçın məliyinə dinc yolla itaətə gəlməsini təklif etdi. Daha böyük iddialarla yaşayan Xaçın məliyi bu təklifi qəbul etmədi. Belə olanda Pənah xan öz dəstəsi ilə Xaçın məliyinin üstünə hücum etdi. Xaçın məliyi bu hücumun qarşısında üç gün ərzində müqavimət göstərə bildi. Üç günün sonunda Pənah xan Xaçın məliyinin dəstəsinə güclü zərbə vurdu, onun müdafiə qurğularını ələ keçirdi və Xaçın məliyini tabe olmağa məcbur etdi. Xaçın məliyinin istinad etdiyi yüksək dağlarda qurulan müdafiə mövqeləri tamamilə məhv edildi. Pənah xan Xaçın əhalisinin itaətsizliyinə son qoymaq üçün bu məlikliyə Xındırıstandan olan Mirzəcanı məlik təyin etdi (78).

Digər məlikləri tabeliyə gətirmək baxımından Xaçın məliyinin müqavimətinin qırılması təsirli əhəmiyyətə malik oldu. Çünki digər məlikliklər güclü müdafiə mövqelərinə malik olan Xaçın məliyinin müqavimətinin

qırılmasını görəndə Pənah xana qarşı çıxmağın asan olmayacağını anladılar. Mövcud olan məlumata görə, Talış məliyi Pənah xanla təklikdə bacara bilməyəcəyini görüb Çiləbörd məliyi məlik Hatəm ilə ittifaqa girdi. Bu məliklər də Pənah xana müqaviməti gücləndirmək üçün istehkam qurğularına diqqəti artırdılar və Çarmıx qalasında müdafiəyə qapıldılar. Çox güman ki, məhz qalaya sığınmaları onların müdafiəsini müəyyən qədər uzatdı. Mənbə məlumatlarına görə, Pənah xan dörd ilə yaxın Talış və Çiləbörd məliklərinə qarşı mübarizə apardı. Nəhayət Talış və Çiləbörd məlikləri Pənah xanın mühasirəsinə davam gətirmədilər və məhv olmaqdan nicat tapmaq üçün ailələri və yaxınları ilə birlikdə Şəmkir mahalına qaçdılar. Mənbələr onu da xəbər verirlər ki, həmin məliklər Pənah xanla düşmənçilikdən yenə də əl çəkmədilər və Pənah xan üzərinə hücum edən qüvvələrə bələdçilik etməklə ondan qisas almağa çalışdılar (79).

Bununla da, Pənahəli xan tərəfindən Qarabağ məlikləri də itaət altına gətirildi və bütün Qarabağı öz hakimiyyəti altında birləşdirdi. Bu isə Qarabağ məliklərinin Pənah xana qarşı olan ədavətini heç də yaddan çıxarmadı. Pənah xanın tabeliyi altında olsalar da Qarabağ məlikləri Qarabağ xanlığından ayrılmağın yollarını da arayırdılar (80).

XVIII əsrin ortalarında sonralar özünü şah elan etmiş Ağa Məhəmməd şah Qacarın atası Məhəmməd Həsən xan Qacar Qarabağ xanlığını tutmaq və Pənah xanı özünə tabe etmək məqsədilə Arazı keçərək Şuşa qalasının dörd ağaclığında düşərgə saldı. Şuşa qalası mühasirəyə alındı və təxminən bir ay həmin qala mühasirədə saxlandı. Məhəmməd Həsən xan nə tədbirə al atdısa, qalanın mühasirəsini yarmağa müvəffəq olmadı. Əksinə, vaxtaşırı Pənah xanın qalada olan qoşun dəstələrinin mütəmadi hücumlarına məruz qalıb çoxlu itki verdi. Nəhayət mühasirədən əl çəkib Arazdan cənuba çəkildi (81).

Bu hadisədən bir müddət sonra Pənah xan başqa bir təhlükə ilə üzbəüz gəlməli oldu. Bu təhlükə Urmiya xanı Fətəli xan Əfşarın Qarabağ üzərinə hücum etməsi ilə bağlı idi.

Fətəli xan Əfşar Arazdan şimalda da möhkəmlənmək niyyətinə düşdü. Bu niyyətinin həyata keçirilməsi üçün onun qarşısına çıxacaq ən böyük qüvvə Pənah xan ola bilərdi. Ona görə də Fətəli xan Əfşar Pənah xanı aradan götürməyi qərarlaşdırdı. O, əvvəlcə Pənah xanın yanına öz elçilərini göndərdi. Elçilər Pənah xana Fətəli xan Əfşarın gücündən və qüdrətindən söz açıb ona Fətəli xana tabe olmağı təklif etdilər. Bəzi mənbələr Fətəli xan tərəfindən Pənah xanın yanına bir neçə dəfə elçilər göndərildiyini qeyd edirlər. Pənah xan isə bu elçilərə sərt cavab verdi və onun Fətəli xanın tabeliyi altına girməsinin qəbuledilməz olduğunu anlatdı. Belə olanda Fətəli

xan Əfşar Urmiyadan və ətraf Azərbaycan xanlıqlarından çoxlu qoşun topladı və Qarabağa doğru yürüşə başlamaq haqqında göstəriş verdi (86).

Fətəli xan Əfşar yaxşı anlayırdı ki, Pənah xan güclü və tədbirli bir şəxsdir və ona görə də niyyətinə nail olmaq üçün Qarabağ üzərinə hücuma ciddi hazırlıq gördü. Əhməd bəy Cavanşirin fikrincə, Fətəli xan Əfşar 30 min nəfərlik bir dəstə toplaya bildi və Pənah xan öz qoşunlarının böyük bir hissəsini istirahətə buraxdığı bir vaxtda Qarabağ üzərinə hücum çəkdi. O fikrini davam etdirərək bildirir ki, Fətəli xan Əfşar Şuşa qalasını qəflətən ələ keçirmək istəyirdi və ona görə də çox ehtiyatlı şəkildə Qar-Qar çayı tərəfdən irəliləyirdi. Amma əslində, Fətəli xan Əfşar və onun qoşun başçıları səhv etmişdilər. Qarabağ xanlığının qoşunları sərt qayaların və təpələrin arasında gizlənərək münasib anın yetişməsini gözləyirdilər. Əlverişli məqam yetişən kimi Qarabağ döyüşçüləri Şuşa qalasına doğru irəliləyən Fətəli xan dəstələri üzərinə hücum çəkdilər və onlara ağır zərbə endirdilər. Fətəli xan Əfşarın dəstələri ağır itki verərək geri çəkilmək məcburiyyətində qaldılar (87).

Başqa mənbələrə görə isə, Fətəli xan Əfşarın qoşun dəstəsi Şuşa qalasının bir ağaclığında, Ballıca çayı ilə Xacə Əlili çayının arasında düşərgə saldı. Pənah xanla öz ədavəti olan Talış məliyi məlik Hatəm və Çiləbörd məliyi məlik Usub Fətəli xan Əfşarın Qarabağa qoşun çəkməsi xəbərindən çox sevinib onunla əlaqə yaratdılar və ona öz köməklərini təklif etdilər. Məliklər öz silahlı dəstələrini gətirməklə bərabər, hücum zaman bələdçilik etməyi, səngərlər qazılmasına yardımçı olmağə vəd etdilər. Fətəli xan Əfşar məliklərin yardımını məmnuniyyətlə qəbul etdi və onların silahlı dəstələri ilə birlikdə Şuşa qalası üzərinə hücuma başladı (88).

Əhməd bəy Cavanşirin fikrincə, Fətəli xan Əfşar Şuşa qalası üzərinə ilk hücumun uğursuzluğundan sonra Xocalıya geri çəkildi və burada ona adları çəkilən məliklər öz silahlı dəstələri ilə birləşdilər. O əlavə edir ki, Qarabağ məlikləri Fətəli xan Əfşarla ittifaqa girəndən sonra bölgədə partizan fəaliyyəti də gücləndi. Yəni, Qarabağ xanlığının ayrı-ayrı silahlı qrupları yerli şəraiti yaxşı tanımalarından istifadə edərək gözlənilmədən Fətəli xan Əfşar qoşunları üzərinə basqınıar həyata keçirir və onlara itkilər yetirirdilər (89).

Digər mənəblərin məlumatına görə, Şuşa qalası ətrafında Fətəli xanın qoşun dəstəsi ilə Pənah xanın silahlıları arasında 7 döyüş baş verdi. Bu döyüşlərin hamısı Qarabağ qüvvələrinin üstünlüyü ilə başa çatdı (90).

Qarabağin tarixi haqqında mənbələrin birində qeyd edilir ki, Şuşa uğrunda mübarizə 7-8 ay davam etdi. Fətəli xan və onun müttəfiqləri olan yerli məliklərin birləşmiş qoşun dəstələrinin göstərdiyi bütün cəhdlərə baxmayaraq, Pənah xan tərəfindən bacarıqla idarə olunan Qarabağ qüvvələrinin müqavimətini qırmaq mümkün olmadı. Hər hücumdan sonra Fətəli xan da, onun müttəfiqi olan məlikıər də məğlubiyyətin biabırçılığını

yaşamaq məcburiyyətində qalırdılar. Mövcud olan məlumatlara görə, Fətəli xan Əfşar Pənah xan qoşunları ilə apardığı döyüşlərdə iki mindən artıq silahlısını itirdi, çoxlu sayda adam isə əsir düşdü.

Əhməd bəy Cavanşirin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Fətəli xan Şuşa qalasını qəflətən ələ keçirmək istəyirmiş. Bu məqsədlə o, seçmə qoşunları ilə Qarqar çayı tərəfdən hücuma keçdi. Fətəli xan xüsusilə bu istiqamətin sərt qayalar olamsına görə, Şuşa müdafiəçilərinin duyuq düşməyəcəyini güman edirdi. Əslində isə qala müdafiəçiləri gizləndikləri mövqelərdə düşmənin yaxınlaşmasını gözləyirdilər. Fətəli xanın qüvvələri göstərdikləri bütün cəhdlərə baxmayaraq, qala müdafiəçilərinin müqavimətini qıra bilmədilər. Bununla belə, Fətəli xan qalanı tutmaq niyyətindən əl çəkmədi. O, məlik Hatəm və məlik Usubun silahlı dəstələri ilə birlikdə Xocalı ətrafında yeni mövqelər tutdu. Bildiririlir ki, Qara Murtuza bəy və Pənah xanın başqa silahdaşları düşmən qüvvələrinə ciddi zərbə vurdular (91)

Raffi öz əsərində yazırdı ki, Pənah xanla döyüşdə Fətəli xan üstünlük qazandı və qələbə əldə etdi. Guya o, Talış məliyi məlik Usuba və Çiləbörd məliyi məlik Hatəmə söz veribmiş ki, uğur qazandığı halda Pənah xanı tutub onlara təhvil verəcək. Amma müəllifin sözlərinə görə, Fətəli xan vədinə əməl etmədi və Pənah xanın oğlu İbrahim xanı əsir götürərək geri çəkildi (92).

Qarabağnamə müəlliflərinin heç biri Raffinin versiyasını təsdiq etmir. Başqa sözlə Qarabağnamə müəlliflərinə görə, Fətəli xan Əfşar hiss edəndə ki, hərbi qarşıdurma yolu ilə Pənah xanın müqavimətini qırmaq mümkün deyil, onda hiylə işlətməyi qərara aldı. Qış fəslinin yaxınlaşması da onu başqa çıxış yolları aramağa məcbur edirdi. O yenə bir neçə elçini Pənah xanın yanına göndərdi. Fətəli xan Əfşar ona çatdırdı ki, qarşıdurmanın davam etdirilməsinə lüzum yoxdur və ondan xahiş etdi ki, əsir götürdüyü döyüşçüləri azad etsin. Bunun əvəzində Fətəli xan Əfşar Pənah xana dostluq və qohumluq münasibətləri təklif etdi və hətta onu da bildirdi ki, öz qızını Pənah xanın oğlu İbrahimxəlil ağaya kəbin etdirməyə hazırdır. Fətəli xan Əfşar onu da təklif edirdi ki, İbrahimxəlil ağanı onun düşərgəsinə göndərsin, iki xanın arasında qohumluq əlaqələri qurulması qeyd edilsin və bir neçə gündən sonra İbrahimxəlil ağa geri qayıtsın. İbrahimxəlil ağanın təhlükəsizliyinə zəmanət verilməsi üçün Fətəli xan Əfşar hətta bir neçə yaxın adamını da Pənah xanın yanına göndərdi (93).

Pənah xan ona göndərilən təkliflərin səmimiliyinə inandı və çox güman ki, Fətəli xan Əfşarla yaxın olmağı özü üçün əhəmiyyətli saydı. Buna görə də İbrahimxəlil ağa bir neçə şəxslə bərabər Fətəli xan Əfşarın düşərgəsinə göndərildi. Fətəli xan Əfşar da vəd etdiyi kimi özünün bir neçə yaxın adamlarını Şuşa qalasına göndərdi. İbrahimxəlil ağa Fətəli xan Əfşarın dü-

şərgəsində yaxşı qarşılansa da, bir neçə gündən sonra ona qarşı hiylə işlədildiyini anladı. İbrahimxəlil ağa hər dəfə geri qayıtmaq istəyini səsləndirəndə Fətəli xan Əfşar müxtəlif bəhanələrlə onun geri qayıtmasını əngəllədi. Onda İbrahimxəlil ağa atası Pənah xana məktub göndərdi və vəziyyəti ona çatdırdı. İbrahimxəlil ağa həmin məktubunda Fətəli xan Əfşarın düşərgəsinə hiylə ilə gətirildiyini və Fətəli xan Əfşarın onu girov kimi özü ilə aparacağını qeyd etdi. Bu məktubdan sonra Pənah xan oğlunun azad edilməsi üçün tədbirlər tökməyə çalışsa da, çox tezliklə aydın oldu ki, Fətəli xan Əfşar bütün düşərgəsi və İbrahimxəlil ağa ilə birlikdə Urmiyaya çəkilmişdir (94).

Belə güman etmək olar ki, Fətəli xan Əfşar Şuşa qalasını ələ keçirə bilmədən geri qayıtsa da, kifayət qədər güclü idi və Pənah xan da təkbaşına onun üstünə qoşun çəkməklə İbrahimxəlil ağanı azad edə bilməyəcəyini bilirdi. Çünki Fətəli xan Əfşar yuxarıda deyildiyi kimi, Arazın cənubunda olan Azərbaycan xanlarını öz tabeliyi altına almışdı və hakimiyyətinin genişləndirilməsi üçün daha böyük iddialara malik idi. Fətəli xan Əfşar Kərim xan Zəndlə bir vaxtda ölkədə hakimiyyətin genişləndirilməsi iddiasına düşmüşdü və bu şəxslərin hər ikisi daha geniş hakimiyyət iddiasında olduğundan tez-gec onların yolları kəsişməli oldu. Kərim xan Zənd Fars və İraq bəylərbəyliklərini ələ keçirdikdən sonra hakimiyyətini Azərbaycan bəylərbəyliyinə yaymaq arzusuna da düşdü. Bu isə onun Fətəli xan Əfşarla qarşı-qarşıya gəlməsi demək idi. Fətəli xan Əfşara qalib gələcəyi təqdirdə Kərim xan Zənd ölkə ərazisində öz hakimiyyətini xeyli genişləndirmiş olardı. Bu məqsədlə Kərim xan öz qoşununu hazırladı və Fətəli xan Əfşarın üzərinə göndərdi. Mənbələrin yazdığına görə, həmin qoşun dəstəsinə Kərim xan Zəndin qardaşı İsgəndər xan rəhbərlik edirdi. Tarixdən məlumdur ki, Fətəli xan Əfşar bu zamanlarda bölgədə ona tabe olmaq istəməyən yerli hakimlərlə bir sıra döyüşlər apardı və həmin döyüşlərdə kifayət qədər gücə malik olduğunu nümayiş etdirdi. Fətəli xan Əfşar Kərim xan Zəndin qoşunları üzərinə də ehtiyatlanmadan hərəkət etdi. Mənbələrin məlumatına görə, Kərim xan Zəndin və Fətəli xan Əfşarın qoşunları İsfahan yaxınlığında döyüşə girdilər. Fətəli xan Əfşar qarşı tərəfin qoşun dəstəsini önləmək üçün İsfahana qədər hərəkət etmişdi. Onun qoşun dəstəsi İsfahan yaxınlığında baş verən qarşıdurmada üstün gəldi və hətta Kərim xan Zəndin qardaşı bu döyüşdə öldürüldü (95).

Bu hadisə sözsüz ki, Kərim xan Zəndin ciddi narahatçılığına səbəb oldu. Yaxın qohumunu və çoxlu sayda döyüşçüsünü itirməkdən əlavə, Fətəli xan Əfşarın bu qələbəsi ölkədə hakimiyyətin genişləndirilməsi uğrundakı mübarizəni daha da kəskinləşdirdi. Kərim xan Zənd Fətəli xan Əfşara qarşı yeni döyüşdə qələbəni təmin etmək üçün Pənah xanla ittifaqa girməyi qərar-

laşdırdı. Bu məqsədlə Kərim xan Zənd elçi vasitəsilə Pənah xana məktub göndərdi. Həmin məktubunda Kərim xan Zənd yazırdı: "Fətəli xan bizimlə nəinki düşmən, bəlkə qanlıdır. O əhdə vəfa etməmək, andından və sözündən dönmək, hiylə işlətmək kimi yaramaz işlərin hamısını sənin haqqında etdi. Oğlunu məkr və hiylə ilə yanına apartdırıb həbsə aldı. İndi əlindən gələn yoldaşlığı və dostluğu müzayiqə etmə. İntiqam alsaq və oğlunu azad etsək, sən sevindiyin kimi, biz də arzumuza çatmış olacağıq" (96).

Pənah xan bu təklifi məmnuniyyətlə qəbul etdi və qoşununu təkmilləşdirərək Kərim xan Zəndə qoşuldu. Onların birləşmiş qoşun dəstəsi Fətəli xan Əfşarın üzərinə hücum etdi. 1762-ci ildə baş verən bu döyüşə Fətəli xan Əfşar da yaxşı hazırlaşmış, əlavə qoşun dəstələri toplamışdı. Lakin döyüşdə növbəti uğur qazanmaq üçün onun göstərdiyi cəhdlər heç bir nəticə vermədi və o, uğursuzluğa düçar oldu. Bir müddət Urmiya qalasında mühasirədə qalandan sonra Fətəli xan Əfşar təslim oldu və sonradan o, Kərim xan Zənd tərəfindən qətlə yetirildi. Onun qətli ilə Kərim xan Zənd Araza qədər olan əraziləri də öz hakimiyyəti altına almış oldu.

Birləşmiş qoşunlar Urmiyada əsirlikdə saxlanılan İbrahimxəlil ağanı azad etdilər. Kərim xan Zənd yeni mərkəzi hakimiyyətin təmsilçisi kimi İbrahimxəlil ağanın adına fərman yazdı, onu Qarabağın hakimi elan etdi (97). Pənah xanı isə yanında saxladı. Fətəli xan Əfşar üzərində qələbənin qeyd edilməsi bəhanəsilə Kərim xan Zənd onun köməyinə gəlmiş Pənahəli xanı, Qaradağ xanı Kazım xanı, Xoy hakimi Şahbaz xanı, naxçıvanlı Hacı xan Kəngərlini, sərablı Əli xan Şəqqaqini və bir neçə digər xanları Şiraza dəvət etdi. Görünür, Pənah xanın bu dəvəti qəbul etməkdən başqa seçimi qalmamışdı. Ona görə də o, Şiraza yollandı və bir daha oradan Qarabağa qayıda bilmədi. Çox güman ki, Kərim xan Zənd də Pənah xanın tədbirliliyindən ehtiyat edirdi və onun tərəfindən hakimiyyətinə hər hansı bir təhlükənin yaranmaması üçün Pənah xanı yanında girov saxlamağı qərarlaşdırdı. Bununla da, Kərim xan Zənd Pənah xanın nəzarət altında saxlanılmasına nail oldu (98).

Başqa bir mənbə məlumatına görə, Kərim xan Zənd ona göstərdiyi sədaqətin və köməyin əvəzini çıxmaq üçün Pənah xanı bir müddətə Şiraza dəvət etdi və Pənah xan da bu dəvəti müsbət qarşıladı (99). Hər halda məqsəd Pənah xanı girov kimi saxlamaqla Qarabağ xanlığını asılı vəziyyətə gətirmək idi ki, Kərim xan Zənd də buna nail oldu.

Pənah xan vəfat etdiyi vaxta kimi, 1763-cü ilə qədər Şirazda qaldı. Vəfat etdikdən sonra Pənah xan Ağdama gətirildi və orada torpağa tapşırıldı.

Pənah xanın vəfatından sonra Qarabağ xanlığının İbrahim xan dövrü başladı. Onun xanlığı dövründə Qarabağ xanlığı daha da möhkəmləndi və bölgədə bu xanlığın nüfuz dairəsi xeyli genişləndi. Qarabağın tarixi

haqqında olan mənbə müəllifləri əsasən hamılıqla İbrahim xanı Qarabağa qayıdandan sonra onun hakimiyyətinin xalq tərəfindən qəbul edildiyini yazırlar. Əhməd bəy Cavanşir isə İbrahimxəlil xan Qarabağa qayıdandan sonra xanlıq üzərində onunla kiçik qardaşı Mehrəli bəy arasında ixtilaf olduğunu yazır (100).

Pənah xan Kərim xan Zəndlə birlikdə Fətəli xan Əfşara qarşı döyüşə yollananda Qarabağın idarəçiliyini kiçik oğlu Mehrəli bəyə tapşırmışdı. Əhməd bəy Cavanşirin fikrincə, Mehrəli bəy xanlığın möhkəmləndirilməsi ilə məşğul oldu və hətta Əsgəran və Ağoğlan qalalarının əsasını qoydu. İbrahim xan Şuşaya qayıdandan sonra qardaşlar arasında xanlığın kim tərəfindən idarə edilməsi üzərində ixtilaflar yarandı. Müəllifə görə, İbrahim xan avar hakimi Ümmə xanın bacısı ilə evlənəndən sonra Mehrəli bəy sıxışdırılmağa başladı. Onda İbrahim xanın təzyiqlərinə dözməyən Mehrəli bəy Kərim xan Zəndə pənah apardı. Onun vəfatından sonra Mehrəli bəy Quba hakimi Fətəli xanla iş birliyi yaratmağa çalışdı. Amma tezliklə Mehrəli bəy ittifaqa girdiyi Fətəli xan dünyasını dəyişdi və bununla onun hakimiyyət iddiasına da son qoyuldu.

İbrahim xan da mənbələrdə atası kimi tədbirli və bacarıqlı bir xan kimi təsvir olunur. Mürəkkəb tarixi şəraitdə yaşasa da, İbrahim xan Qarabağ xanlığının zəifləməsinə nəinki imkan vermədi, əksinə onu daha da möhkəmləndirdi, xanlığın müstəqilliyinə qarşı çevrilmiş fitnə-fəsadların qarşısını aldı. Xüsusən, avar hakimi Ümmə xanla qohumluğa girməsi İbrahim xanın döyüş gücünü daha da artırdı. Ümmə xanın ayırdığı hərbi kömək İbrahim xana imkan verdi ki, xanlığın sərhədlərini daha da genişləndirsin. Mənbələrin məlumatına görə, Gəncə, Şamaxı və Şəki xanlıqları İbrahim xanın təsiri altına düşdü. Bu istiqamətdə o, həm özünün döyüş potensialına arxalanır, həm də qohumluq əlaqələrindən istifadə edirdi. Bundan başqa İrəvan və Naxçıvan tərəfdən sərhədləri genişləndirdi, Təbrizi döyüşsüz tutdu və bacısı oğlu Əsədulla bəyi oranın hakimi təyin etdi. Sonra o, Azərbaycanla İranın sərhəddindəki Qaflan Guh dağında 600 nəfər süvaridən ibarət bir gözətçi dəstəsi qoydu və beləliklə də Qaflan Guh dağından şimalda olan tayfaları öz tabeliyinə gətirdi (101).

Amma bütün bunlar elə də asanlıqla baş vermirdi. Xüsusən, gürcü hakimi II İraklinin kifayət qədər güclü olduğu və Cənubi Qafqazda möhkəmlənməyə çalışdığı, habelə Quba xanı Fətəli xanın Azərbaycan xanlıqlarının möhkəmləndirilməsi üçün göstərdikləri səylər İbrahim xandan daha tədbirli və sayıq olmağı tələb edirdi.

Mənbələrdə İbrahim xanın keçirdiyi bəzi döyüşlər haqqında müxtəsər məlumatlara da rast gəlmək mümkündür. Məsələn, Mirzə Yusif Qarabaği İbrahim xanın Naxçıvan xanlığı üzərinə qoşun çəkməsindən söhbət açır.

Müəllif tarixini göstərməsə də bu hücumun iki xan arasında yaranmış ədavətlə bağlı olduğunu qeyd edir. İbrahim xan Naxçıvan xanına üstün gəlmək üçün qohumu Ümmə xandan da kömək aldı. Naxçıvan xanı Kəlbəli xan da bu hücumun qarşısını saxlamaq üçün İrəvan xanından müəyyən kömək aldı. Müəllifin yazdığına görə, Kəlbəli xan geri çəkilməyə məcbur oldu. Amma onun sonrakı təsvirindən belə görünür ki, Kəlbəli xanın geri çəkilməyi İbrahim xanın qoşun dəstəsini daha əlverişli döyüş mövqeyinə cəlb etmək istəyi ilə bağlı ola bilərdi. Çünki xüsusilə ləzgi atlıları Kəlbəli xanı təqib etməklə ağır vəziyyətə düşdülər və Kəlbəli xan tərəfindən ciddi zərbə aldılar. İbrahim xan bununla da qarşısına qoyduğu məqsədinə nail olmadı və müəllifə görə, məhz bu döyüşdən sonra İbrahim xanla Kəlbəli xan arasında xoş münasibətlərin əsası qoyuldu (102).

Mövcud olan məlumatlardan aydın olur ki, İbrahim xanın Xoy xanı Əhməd xanla yaxşı münasibətləri var idi (103). Görünür ki, 1786-cı ildə Əhməd xan dünyasını dəyişəndən sonra İbrahim xanla yeni Xoy xanı Cəfərqulu xan arasında münasibətlər gərginləşibmiş. İbrahim xan Xoy xanlığı üzərindəki təsirini bərpa etmək üçün 1788-ci ildə bu xanlıq üzərinə hücum çəkdi. Bu zaman Qarabağ xanlığının qoşunlarına Qaradağ xanlığının qoşunları, ləzgi və avar silahlı dəstələri də kömək edirdilər. İbrahim xanın qoşunu Mərəndə yetişib düşərgə saldı. Xanlığını qorumaq üçün qoşun toplayan Cəfərqulu xan da Mərəndə yetişib döyüş qabağı mövqe tutdu. Mənbələrdə bu qarşıdurmanın təfərrüatı açıqlanmır. Mövcud olan məlumatlardan isə aydın olur ki, döyüşün elə ilk mərhələsində Xoy döyüşçülərinin üstünlük əldə etməsi qarşıdurmanın taleyini həll etdi. Qarabağ xanlığının çoxlu sayda döyüşçüsü, o cümlədən xanlığın vəziri Molla Pənah Vaqif əsir düşdü. Bir müddətdən sonra İbrahim xan Xoy hakimi ilə əlaqələr yaradaraq döyüşçülərini onun əsirliyindən azad edə bildi (104).

Qarabağ xanlığının möhkəmləndirilməsi üçün İbrahim xanın da diqqət yetirməli olduğu məsələlərdən biri yerli məliklərlə münasibətlərin aydınlaşdırılması oldu. Çünki məliklərin bəziləri hələ də xanlığın mərkəzləşdirilmiş hakimiyyətindən yayınmağa müvəffəq olacaqlarına ümidlərini kəsməmişdilər.

İbrahim xan ilk növbədə Vərəndə məliyi Şahnəzərlə Pənah xan dövründən başlanmış qarşılıqlı münasibətləri sahmana saldı, məlik Şahnəzərin qızını özünə kəbin etdi. Heç şübhəsiz ki, bu məqam məlik Şahnəzərlə İbrahim xan arasındakı münasibətləri daha da yaxşılaşdırdı. İbrahim xanla ailə qohumluğu məlik Şahnəzərin özünün də Qarabağ məlikləri arasındakı nüfuzunu artırdı, öz aralarında çəkişmə və didişmələrdən yorulmayan digər məliklər isə bundan müəyyən təşvişə düşdülər. Çünki məlik Şahnəzərin Qarabağ xanı ilə münasibətlərinin xarakteri digər məliklərin də qəbul etməli olacaqları bir seçim idi. Bu seçimi qəbul edəcəkləri halda onlar Qarabağ xa-

nının sərt münasibəti ilə qarşılaşmalı olacaqdılar. Belə bir seçimlə razılaşmayan Dizak məliyi Yeqan Qarabağ xanlığının hakimiyyətinə sədaqətinə görə məlik Şahnəzəri aradan götürmək qərarına gəldi və onun üstünə silahlı dəstə göndərdi. Erməni müəlliflərinin yazdığına görə, məlik Şahnəzər etibarlı müdafiə olunmaq üçün Xaçın məliyi Mirzəxandan kömək istədi. Xaçın məliyi də özü şəxsən dəstəsi ilə məlik Şahnəzərin köməyinə yollandı. Lakin necə oldusa məlik Mirzəxan məlik Yeqanın silahlıları tərəfindən qətlə yeti-rildi. Bundan sonra İbrahim xan məlik Şahnəzərin köməyinə silahlılar göndərdi. Erməni müəllifi yazmasa da belə aydın olur ki, məlik Yeqan öz niyyətinə nail olmadan geri çəkildi. Lakin onun xan hakimiyyətinə itaətsizliyi uzun çəkmədi və 1781-ci ildə növbəti qarşıdurmada öz həyatını itirməli oldu (105).

### *Gəncə xanlığı*

Bu xanlıq Səfəvilər dövründən mövcud olan Qarabağ bəylərbəyliyinin qərb ərazilərində yaradılmışdı və xanlığın yaradılması Ziyadoğlular nəslinin adı ilə bağlıdır. Mənbələrin məlumatlarına görə, Ziyadoğlular qacar tayfasının bir qoludur və onun üzvləri Səfəvilərin əmirləri və sufiləri sırasında xeyli çox idilər (106). Bu nəsil Səfəvilər hakimiyyətinin ilk illərindən Rusiya işğalına qədər Mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinə hakimlik edirdilər.

Səfəvilər dövrünə aid olan mənbələr arasında İsgəndər bəy Münşinin "Dünyanı bəzəyən Abbasın tarixi" ("Tarix-e Aləm Ara-ye Abbasi") əsərində Ziyadoğluların adına rast gəlmək mümkündür. Həmin əsərdə Təhmasib şahın dövründə Ziyadoğluların nümayəndəsi artıq Qarabağın hakimi kimi təsvir olunur. Daha doğrusu bu əsərdə Ziyadoğlu nəslinin nümayəndəsi kimi Şahverdi sultan Ziyadoğlunun sərkərdəliyi haqqında məlumat vardır. Məsələn 1535-ci ildə Şahverdi xan Ziyadoğlu bir sıra digər sərkərdələrlə və döyüşçülərlə birlikdə Şirvana göndərilmişdi. Sonra onun Mərəndə göndərilməsi haqqında məlumat vardır (107).

Mərənd tərəfə göndərilmiş olan Şahverdi xan Ziyadoğlu burada Osmanlı qoşunları ilə döyüşə girməli oldu. Müəllif onun dəstəsinin şücaətlə vuruşmasından söz açmışdır.

Adı çəkilən mənbədə Şahverdi xan sonra Qarabağ hakimi kimi xatırlanır (108). Çox güman ki, Təhmasib şah igidliyini və fədakarlığını görəndən sonra onu Qarabağ bəylərbəyliyinin hakimi təyin etməyi qərara almışdı. Şahverdi sultan Ziyadoğlunun sonradan bir daha Osmanlı qüvvələrinə qarşı vuruşması və Gürcüstan üzərinə Səfəvi qoşunlarının yürüşündə iştirak etməsi də mənbədə öz əksini tapmışdır. Mənbədə yazılanlardan aydın olur ki, gürcü qoşunları ilə aparılan döyüşlərin heç də hamısı Səfəvi qüvvələrinin üstünlüyü ilə bitməmişdi. 1555-ci ildə gürcü qüvvələri ilə Səfəvi qüvvələri

arasında baş verən döyüş zamanı sərhədin müdafiəsini öz üzərinə götürmüş olan Şahverdi sultan Qarabağ döyüşçülərini toplayaraq döyüşə qatıldı. Gürcü qüvvələri bu hücuma davam gətirməyərək geri çəkildilər. Qızılbaş qüvvələrində belə bir güman yarandı ki, gürcülər artıq məğlub olaraq geri çəkilirlər. Ona görə də onlar döyüşün bitdiyini ehtimal edib ətraf kəndlərə dağıldılar. Bu əsnada gürcülər əks-hücuma keçib qızılbaşlara güclü zərbə endirdilər. İsgəndər bəy Münşi yazır ki, Şahverdi sultan Ziyadoğlu döyüş qayda-qanunlarına əməl etdiyi üçün sağ-salamat döyüş meydanından çıxmağa müvəffəq oldu (109).

Azərbaycan tarixinin qiymətli mənbələrindən olan "Dünyanı bəzəyən Abbasın tarixi " əsərində Qarabağ və Gəncə bəylərbəyliyinin əsasını qoymuş olan Şahverdi sultan Ziyadoğlu kifayət qədər bacarıqlı və cəsur bir sərkərdə kimi təsvir edilmişdir. Onun belə cəsurluğunun ifadəsi olan növbəti döyüşlərindən biri haqqında mənbədə nisbətən daha geniş məlumat vardır. 1560-cı ildə baş verən həmin döyüş yenə də gürcü qoşunlarına qarşı həyata keçirilmişdi. Şahverdi sultan Ziyadoğlu bu dəfə də ətrafına Qarabağ əmirlərini, ətraf məntəqələrin döyüşçülərini toplayaraq çoxsaylı gürcü qoşunları üzərinə getdi. Şahverdi sultanın qüvvələri düşmən mövqelərini tutandan sonra onun çərxçiləri ilkin olaraq düşmən üstünə atıldılar. Gürcü qüvvələri də bu döyüşdə ciddi müqavimət göstərməyə müvəffəq oldular. Döyüşü izləyən Şahverdi sultan meydanda dəyişiklik yaratmaq üçün mərkəzdəki qüvvələri gürcülərin üzərinə apardı. Bundan sonra döyüş daha da gərginləşdi. Az sonra gürcü qoşunları təzyiqlərə davam gətirə bilmədi. Onlardan qırılanı qırıldı, qalanı isə başını götürüb qaçmalı oldu. Şahverdi sultan isə zəfərlə Gəncəyə döndü (110).

Şahverdi sultan Ziyadoğlunun dünyasını dəyişməsindən sonra İbrahim sultan Qarabağ bəylərbəyi təyin olundu. İbrahim sultandan sonra II Şah İsmayıl tərəfindən Şahverdi xanın oğlu Yusif xəlifə həmin vəzifəyə irəli çəkildi. "Dünyanı bəzəyən Abbasın tarixi" əsərindən anlaşılır ki, Yusif xəlifə sağ ikən vəzifəsindən uzaqlaşdırıldı və onun yerinə əmisi oğlu Peykər sultan təyin olundu. Peykər sultan görünür, Yusif xəlifənin hakimliyi yenidən geri qaytara biləcəyindən ehtiyatlanırmış. Ona görə də tezliklə onu qətlə yetirdi. II Şah İsmayıl onun bu əməlindən qəzəbləndi və onu da öz vəzifəsindən kənarlaşdırdı və yerinə İmamqulu xan Qacarı təyin etdi (111).

Qarabağın sonrakı hakimi kimi mənbələrdə Məhəmməd xanın da adı çəkilir. O, Şahverdi sultanın oğlu Xəlil xanın oğlu idi. Bildirilir ki, Məhəmməd xan Gəncənin ən tanınmış hakimlərindən biridir. Doğrudur, Gəncənin osmanlılar tərəfindən işğalı onun həyat dövrünə təsadüf edir. Bu zaman o hakimlikdən kənarlaşdırılsa da sonradan həmin vəzifəyə təyin edildi. Gəncənin osmanlılar tərəfindən tutulması I Şah Abbasın hakimiyyətinin ilk illərinə

təsadüf edirdi. Osmanlılar güman edirdilər ki, Şah Abbasın hakimiyyətinin ilk illərində qarışıqlıq olması mümkündür və həmin qarışıqlıqdan istifadə edib Gəncəni tutdular. Şah Abbas isə yaranmış şəraitdə osmanlılarla sülhə getməyə üstünlük verdi.

1590-cı ildə Osmanlı dövləti ilə Səfəvi dövlət arasında sülh müqaviləsi imzalanması ərəfəsində Məhəmməd xan Ziyadoğlu Qarabağın və o cümlədən də Gəncənin osmanlıların işğalı altında olması ilə barışmırdı. Ona görə Fərhad paşanın rəhbərliyi altında olan Osmanlı qoşunları Qarabağa gələndə Məhəmməd xan Arasbara çəkilməli oldu. Məhəmməd xan Ziyadoğlu sülh müqaviləsinin imzalanması üçün İstanbula yetişməmişdən əvvəl hücum edib Gəncəni azad etmək istədi. Bunun üçün o, qacar və digər tayfalardan çoxlu sayda döyüşçünü öz ətrafında topladı və hücum edib Gəncə şəhərini mühasirəyə aldı. Gəncədəki Osmanlı sərkərdələri məsələni Təbrizin osmanlı hakimi Cəfər paşaya çatdırdılar və o da Şah Abbasa xəbər göndərdi ki, Məhəmməd xan Ziyadoğlunun bu addımı sülh danışıqlarında çətinlik yarada bilər. Şah Abbas da Məhəmməd xana xəbər göndərdi ki, Gəncə üzərinə hücumdan əl çəksin. Bununla bağlı o, qacar tayfasının tanınmış adamlarından olan Şahrudi bəyi Gəncəyə yolladı. Məhəmməd xan da məcbur olub Gəncənin mühasirəsini dayandırmalı oldu (112).

Bəzi məlumatlara görə, Gəncənin mühasirəsinin dayandırılmasından sonra osmanlılar Məhəmməd xanı tutub İstanbula apardılar. İki dövlət arasında sülh müqaviləsi imzalanandan sonra isə Məhəmməd xan azad edildi. Təxminən 20 illik fasilədən sonra Gəncə Şah Abbas tərəfindən ələ keçirildi, Məhəmməd Ziyadoğlu yenidən Qarabağ və Gəncə bəylərbəyi oldu. Məhəmməd xan Ziyadoğludan sonra Məhəmmədqulu xanın və Uğurlu xanın Gəncə (Qarabağ) bəylərbəyi olması məlumdur (113).

Nadir şahın və Qacarlar dövlətinin dövründə də Gəncədə Ziyadoğlular hakimlik edirdilər. Məlum olduğu kimi, 1736-cı ildə Muğan düzündə çağırılan qurultay zamanı Nadirin şah elan edilməsi məsələsinə heç də bütün iştirakçılar birmənalı şəkildə yanaşmadılar. Bu qurultayda uzun sürən müzakirələr zamanı bəzi şəxslər, o cümlədən Ziyadoğlular nəslindən olan Gəncə xanı Səfəvi dövlətinin dağılmasına və hakimiyyətin Səfəvi nümayəndələrinin əlindən alınmasına qarşı çıxış etdi. Ziyadoğluların bu mövqeyi Nadirə çatdırıldı və Nadir, şah kimi taxta çıxandan sonra Ziyadoğluları cəzalandırmaq qərarına gəldi. Nadir şah Gəncə xanlığının tabeliyində olan Qazax və Borçalı ərazilərini gürcü çarlığının idarəsi altına verdi. Qarabağda olan məlikləri isə Gəncə hakiminə tabe olmaqdan azad etdi. Nadir şahın əmri ilə Qarabağ məlikləri bir sıra digər hakimlər kimi Azərbaycan bəylərbəyinə, yəni Nadir şahın qardaşı İbrahim xana tabe etdirildi. Nadir şahın bu bölgə ilə bağlı olan əmr və fərmanları da Təbrizdə oturan Azərbaycan bəylərbəyi vasitəsilə həyata keçirilirdi (114).

Nadir şahın dövründə Gəncə hakimliyi Kəlbəli xan Ziyadoğluna tapşırılmışdı. Onun ölümündən sonra oğlu Uğurlu xan Gəncə hakimi oldu. Mənbələrdə Uğurlu xanın, Nadir şahın qardaşı, Azərbaycan sipəhsaları İbrahim xanla birlikdə Car və Talada Nadir şah dövlətinə itaətdən boyun qaçırmış yerli əhali üzərinə hücumda iştirak etməsi haqqında məlumat mövcuddur. Həmin hücum 1738-ci ildə baş vermişdi. Nadir şah özü bu zaman Hindistan yürüşündə idi. İbrahim xan onunla razılaşdırmadan Car və Taladakı əhalini itaətə gətirmək üçün ora qoşun çəkdi. Bu qoşunların tərkibində Uğurlu xanın rəhbərliyi altında olan qoşun dəstəsi də var idi. Uğurlu xanın qardaşı Həsənəli xan isə Bərdə hakimi idi və o da Car üzərinə hücumda iştirak edirdi. İbrahim xanın dəstəsi Cardakı dağlıq və meşəlik ərazidə yerli əhalinin güclü müqaviməti ilə rastlaşmalı oldu. İtkilərin çoxaldığı bir vaxtda Uğurlu xan İbrahim xana yaxınlaşıb onu döyüş meydanından uzaqlaşmağı və təhlükəsiz yerə çəkilməyi məsləhət bildi. İbrahim xan onun təklifini qəbul etmədi. Elə bu anlarda Uğurlu xan qarşı tərəfdən atılan güllənin qurbanı oldu. Nəfəsinin son anlarında Uğurlu xan qardaşı Həsən xana tapşırdı ki, İbrahim xanı təhlükəsiz bir əraziyə çəksinlər. Çünki İbrahim xanın həyatı ilə bağlı bir hadisə baş verərdisə bütün Azərbaycan Nadir şahın qəzəbinə tuş gələ bilərdi. Lakin İbrahim xanı daha təhlükəsiz yerə çəkmək mümkün olmadı və o da qarşı tərəfdən atılan güllənin qurbanı oldu (115).

Bəzi mənbələrdə Uğurlu xandan sonra onun qardaşı Həsənəli xanın Gəncə hakimi olması haqqında məlumat vardır. Bildirilir ki, Gəncə bəylərbəyi Həsənəli xan Kəlbəli xan oğlu ölümündən sonra Gəncə məscidində dəfn edilmişdir (116). Tarixi araşdırmalarda isə Uğurlu xandan sonra Gəncə hakiminin Şahverdi xan olması qeyd edilmişdir (117).

Hər halda məlumdur ki, 1743-cü ildə Nadir şah tərəfindən Gəncə hakimliyinə kürd sərkərdələrindən olan Hacı xan Çeşmgəzək təyin olunmuşdu (118). Çox güman ki, bu təyinat 1743-cü ildə Şirvanda geniş vüsət almış Sam Mirzə üsyanı ilə bağlı idi. Nadir şahın oğlu Nəsrulla Mirzənin rəhbərliyi ilə Şirvana göndərilən qoşun dəstəsi Sam Mirzə qiyamının yatırılmasından sonra Gəncəyə də daha etibarlı bir hakimin təyin olunmasına ehtiyac yaranmışdı.

Bununla belə, Nadirin şahın ölümündən sonra Şahverdi xan Gəncə üzərində öz hakimiyyətini bərpa etdi. Bu işdə Kartli çarı Teymuraz ona kömək etdi. Teymurazın göndərdiyi qoşun dəstəsi ilə Şahverdi xan Gəncə qalasındakı qoşun dəstəsini məğlub etdi və özünü müstəqil Gəncə xanlığının xanı elan etdi. Göstərilən yardıma görə Şahverdi xan Kartli çarına illik maliyyə vəsaiti ödəməyi öz öhdəsinə götürdü (119).

Şahverdi xanın hakimliyi altında elan olunan Gəncə xanlığı Azərbaycanın qərbində yerləşməklə 5 min kvadrat verst əraziyə malik idi. Xanlıq Sa-

mux, Kürəkbasan, Gəncə, Şamxor və Ayrım mahallarından ibarət idi. Eyni zamanda xanlıq ərazisində Gəncə şəhərindən başqa 78 kəndin olması haqqında məlumat vardır (120).

Elan olunmasından sonrakı ilk illər ərzində xanlığın formalaşması gərgin tarixi şəraitdə həyata keçirdi. Bir tərəfdən Nadir şahın ölümündən sonra Azərbaycan üzərində hakimliyini saxlamaq istəyən Azərbaycan hakimi Əmiraslan xan bu xanlıqların tamamilə müstəqilləşməsinə heç də razı deyildi. Ona görə onun Azərbaycan xanlıqları ilə münasibətlərində hakimiyyətin mərkəzləşdirilməsi məqsədi güdülürdü. Yuxarıda qeyd edildiyi kimi, Qarabağ xanı Pənahəli xanla münasibətləri Əmiraslan xan dinc yolla nizamlaya bilmişdisə, Gəncə xanı ilə münasibətlərin aydınlaşdırılması üçün Əmiraslan xan qoşun çəkməyi qərara aldı. Bununla belə, həyata keçirilən hərbi yürüş gözlənilən nəticəni vermədi və Gəncə xanlığı üzərində nəzarəti təmin edə bilmədən Əmiraslan xan geri qayıtmalı oldu.

Digər tərəfdən güclənməkdə olan Qarabağ və Şəki xanlıqları Gəncə xanlığı ilə qarşılıqlı münasibətlərdə üstün mövqeyə malik olmaq istəyirdilər. Nəhayət, Gəncədə hakimiyyətin ələ keçirilməsinə hərbi yardım etmiş Kartli çarı da Gəncə xanlığının tamamilə müstəqilləşməsi marağında deyildi. Ona görə də XVIII əsrin 50-ci illəri, Gəncə xanlığının mövcudluğunun ilk illəri bu xanlığın qonşu xanlıqlarla, habelə gürcü çarlıqları ilə silahlı qarşıdurmaları ilə xarakterizə olunur. Bu qarşıdurmalara getməklə həm qonşu xanlıqlar, həm də gürcü çarlıqları Gəncə xanlığı hesabına həm ərazilərini, həm də gəlirlərini artırmağa çalışırdılar.

1749-cu ildə Qarabağ xanı Pənahəli xan Gəncə xanlığı üzərinə hücum çəkdi. Mövcud olan məlumatlara görə, Pənah xan əslində Gəncə xanlığı ilə birlikdə Gürcüstana hücum etməyi planlaşdırırmış. Lakin Pənahəli xanla Şahverdi xan arasında yaranan anlaşılmazlıq bu iki xan arasında silahlı qarşıdurmaya gətirib çıxarmışdı. Pənah xan Gəncə xanı Şahverdi xandan nəzarət altına götürdüyü Kilsəkənd əhalisindən müəyyən miqdar pul aldıqdan sonra geri qayıtdı. Lakin onun ardınca gürcü qoşunları Gəncə üzərinə hücum etdilər. Gürcü qoşunları Gəncəni nəzarət altına almaqla kifayətlənməyib bu xanlığa iddiaları olan Pənah xanı da cəzalandırmağı qərara aldılar və buna müvəffəq oldular. Pənah xanın qoşunları gürcü qoşunlarından ciddi zərbə aldı. Bir müddətdən sonra Pənah xan yenidən Gəncə üzərinə qoşun çəkdi. Bu yürüşün ağır nəticələri ola biləcəyini hiss edən Şahverdi xan bu dəfə özü gürcü çarlarına kömək üçün müraciət etdi və bu müraciətinə müsbət cavab aldı. Bununla belə, gürcü qoşunları yetişənə qədər Pənahəli xanın qoşunları Gəncəyə girə bildilər. Mövcud olan məlumatlara görə, Pənah xanın Gəncə xanlığı üzərinə bu dəfəki yürüşü böyük dağıntılarla müşayiət olundu. Gürcü qoşunlarının yetişməsindən sonra Pənah xan yenə

də öz qoşunları ilə geri çəkilməli oldu. Gürcü qoşunlarının göstərdiyi hərbi yardıma görə isə Şahverdi xan gürcü çarlarına böyük miqdarda maliyyə vəsaiti və bir də Şəmşəddil bölgəsini vermək məcburiyyətində qaldı (121).

1752-ci ildə Gəncə ətrafında növbəti böyük döyüş baş verdi. Bu dəfə Gəncə xanı, Qarabağ xanı və digər xanlar gürcü çarı II İrakli ilə razılığa gəlib Şəki xanı Hacı Çələbi xanın üstünə hücum etməli idilər. Azərbaycan xanları öz qoşunları ilə Gəncə ətrafına toplanandan sonra onlarla ittifaqa girməyə söz vermiş II İraklinin qoşunlarının hücumuna məruz qaldılar. Azərbaycan xanları, o cümlədən Gəncə xanı Şahverdi xan gürcü çarı tərəfindən əsir götürülüb aparıldı. Lakin sonradan Hacı Çələbi xanın işə qarışması nəticəsində Azərbaycan xanlarını əsirlikdən qurtarmaq mümkün oldu 9122).

Bununla belə, Gəncə xanı ilə Qarabağ xanı arasında ədavət qalmaqda davam edirdi. Pənah xan hər vasitə ilə Gəncə xanlığını özündən asılı vəziyyətə salmaq istəyirdi. Gəncə xanı Şahverdi xan isə xanlığın müstəqilliyinin qorunub saxlanması yollarını axtarırdı. 1757-ci ilin avqustunda bir sıra əraziləri ələ keçirmiş astrabadlı Məhəmməd Həsən xan Qacar (Ağa Məhəmməd şah Qacarın atası) Arazdan şimalda olan Azərbaycan xanlıqlarının işğal edilməsi və hakimiyyəti altında olan ərazilərin genişləndirilməsi iddiasına düşdü. Məhəmməd Həsən xan əvvəlcə bu niyyətini dinc yolla həyata keçirməyə çalışdı. Lakin onun təkliflərini yalnız Gəncə xanı Şahverdi xan qəbul etmək niyyətində olduğunu bildirdi. Digər xanlıqları isə Məhəmməd Həsən xan qılınc gücünə hakimiyyəti altına almağa çalışdı və bu məqsədlə Qarabağ xanlığı üzərinə qoşun çəkdi. Şahverdi xan ittifaqa girdiyi Məhəmməd Həsən xana yardım verməklə ona rəqib kəsilmiş olan Pənah xanı da müəyyən qədər zəiflətmək meylində idi. Amma Məhəmməd Həsən xan göstərdiyi cəhdlərə baxmayaraq, yuxarıda deyildiyi kimi, Qarabağ xanlığı qoşunlarının müqavimətini qıra bilmədi. Məhəmməd Həsən xan qoşunları ilə geri qayıdan kimi onun müttəfiqi olmuş Gəncə xanı Şahverdi xan Qarabağ xanının qəzəbinə tuş gəldi və Pənah xan bir daha Gəncə üzərinə qoşun göndərdi. Nəticədə, Pənah xan yenə də Şahverdi xandan böyük miqdarda maliyyə vəsaiti alıb geri döndü. Pənah xan bununla da kifayətlənmədi və bir müddətdən sonra oğlu İbrahimxəlil ağanın rəhbərliyi altında yeni bir qoşun dəstəsini Gəncə üzərinə göndərdi. Bu hücumdan sonra Şahverdi xan tutulub Qarabağa gətirildi, Gəncə xanlığı isə Qarabağ xanlığından asılı vəziyyətə düşdü (123).

1761-ci ildə Şahverdi xan əsirlikdən nicat taparaq Qarabağdan qaça və sonra da gürcü qoşunlarının köməyi ilə yenidən Gəncə xanlığını ələ keçirə bildi. Bununla belə, onun xanlığı uzun çəkmədi və 1768-ci ildə dünyasını dəyişdi.

1768-ci ildən 1786-cı ilə, yəni Cavad xanın Gəncə xanlığına yüksəldiyi vaxta qədər olan 20 illik müddəti Gəncə xanlığının tarixində qeyri-stabil bir dövr kimi xarakterizə etmək mümkündür. 20 il ərzində xanlıqda 5 xan bir-birini əvəzləməli oldu. Onların hər biri xanlığın möhkəmləndirilməsi üçün müəyyən cəhdlər göstərməyə çalışsalar da, xanlıq daxilində və ətrafında cərəyan edən çəkişmələr xanlıq həyatının davamlı inkişafına da müəyyən mənfi təsir göstərirdi. 1786-cı ildə Şahverdi xanın böyük oğlu Məhəmməd Həsən xan Gəncə xanı elan edildi. Məhəmməd Həsən xan xanlığın möhkəmləndirilməsi üçün yalnız ətraf təzyiqlərlə deyil, həm də ailə üzvlərinin təzyiqləri ilə qarşılaşmalı oldu. Bununla belə, 1778-ci ildə onu qardaşı Məhəmməd xan əvəz etdi. Məhəmməd xan isə Qarabağ xanı ilə Kartli çarının təzyiqləri qarşısında xanlığı itirməli oldu və xanlığın idarəçiliyi bir müddət Qarabağ xanının və Kartli çarının təyin etdikləri nayiblər tərəfindən həyata keçirildi. 1783-cü ildə həmin nayiblər Gəncə əhalisinin qəzəbinə hədəf oldular və Ziyadoğlu nəslindən olan Hacı bəy Gəncə xanı elan edildi. Onun da xanlığı uzun çəkmədi. 1785-ci ildə Şahverdi xanın digər oğlu Rəhim xan, 1786-cı ildə isə Şahverdi xanın kiçik oğlu Cavad xan Gəncə xanı elan edildi (124).

### *Şəki xanlığı*

Şəki xanlığının müstəqil bir ərazi vahidi kimi formalaşması hələ Nadir şahın sağlığında başlamışdı. Əyalət vilayəti olan Şəkidə mərkəzdənqaçma qüvvələrinin güclənməsi Səfəvilər dövrünə təsadüf edir. Səfəvilər dövlətinin son dövründə Arazdan şimalda olan vilayətlərin, o cümlədən də Şəki vilayətinin mərkəzə bağlılığı xeyli zəifləmişdi. XVIII əsrin əvvəllərində Rusiyanın və Osmanlı dövlətinin Cənubi Qafqaza olan yürüşləri isə Şəkidə yerli idarəçiliyin möhkəmlənməsinə yol açdı. Bundan başqa yuxarıda qeyd edildiyi kimi, XVIII əsrin 30-cu illərini Şirvanı dövlət əleyhinə çıxışlar bürümüşdü. Həmin çıxışlar da mərkəzi hakimiyyətin idarəçiliyini Şirvanla bərabər, ətraf bölgələrdə, o cümlədən də Şəkidə yox vəziyyətinə çatdırmışdı.

Nadir Əfşarın Təhmasib Mirzə ilə birləşməsindən sonra Səfəvi dövlətinin möhkəmləndirilməsi məsələsi kifayət qədər aktuallaşdı. Onun Cənubi Qafqaza olan ilk yürüşündən sonra Şəkinin də mərkəzi hakimiyyətin idarəçiliyi altına gətirilməsinə cəhd göstərildi. Mövcud olan məlumatlara görə, Şirvanda baş qaldıran Surxay xan hərəkatının yatırılması üçün Nadir öz qoşunları ilə 1734-cü ilin avqustunda Şamaxıya daxil olandan sonra Şəkinin, Qəbələnin, Dərbəndin əyanlarına və tayfa başçılarına məktub göndərərək onları öz yanına çağırtdırdı. Bu dəvətin qəbul edilib-edilmədiyini və görüş baş tutmuşdusa orada hansı məsələlərin müzakirə olduğunu söyləmək çətin-

dir. Amma o məlumdur ki, Surxay xan Şamaxıdan qaçanda o yolunu Şəki istiqamətindən saldı və Şəkinin yaşayış məntəqələrini talamağa başladı. Nadir özünün ən yaxın sərkərdələrindən olan Təhmasib xan Cəlayiri qoşun dəstəsi ilə Şəki istiqamətinə göndərdi. Surxay xan da Təhmasib xan Cəlayirin dəstəsini Qəbələdə qarşılamağı qərara aldı (125). Lakin Təhmasib xan Cəlayirin dəstəsinə müqavimət göstərməyə gücü çatmadı, məğlub olaraq Avarstana qaçdı.

Mənbələrdə Nadir Əfşarın qoşunlarının 1734-cü ildə Şəkidə olması haqqında məlumata rast gəlmək çətindir. Görünür, Surxay xanın dəstəsi ilə Qəbələ ətrafında baş verən döyüş Şəki vilayətində Səfəvi hakimiyyətinin bərpası üçün yetərli olmuşdu. Tarixi araşdırmalarda Nadir Əfşarın dövründə Əlimərdan bəy adlı birisinin Şəki vilayətinin hakimi (məliyi), onun ölümündən sonra isə Nəcəfqulunun hakim təyin olunması haqqında məlumat vardır (126).

Məlik Nəcəfin əzazil və zülmkar bir şəxs olması haqqında mənbələrdə çoxlu məlumat mövcuddur. Vergilərin toplanmasında məlik Nəcəf yerli əhalini incitdiyi kimi, adamlar arasında məzhəb ayrı-seçkiliyini də qabardırmış. Başqa sözlə, Şəki əhalisi sünni olduğu üçün məlik Nəcəfin təzyiqlərinə məruz qalırdılar (127).

1741-ci ildə Nadir şah Dağıstanda olanda Şəki əhalisi öz nümayəndələrini onun yanına göndərdi. Nadir şah onları qəbul edib şikayətlərinə qulaq asdı. Nümayəndələr onun nəzərinə çatdırdılar ki, məlik Nəcəf qızılbaş (onun şiə məzhəbinə mənsub olmasına işarədir) olduğu üçün yerli əhaliyə məzhəb fərqi qoyur, sünni əhali üçün daha yüksək vergilər təyin edir, camaatın da bu vergiləri verməyə gücü çatmır. Nümayəndələr Şəki əhalisinin Nadir şaha itaətini çatdırmaqla rastlaşdıqları çətinliklərin həlli üçün də kömək istədilər. Nadir şah əhalinin xahişini qəbul etdi və onlara bildirdi ki, öz aralarından bir nəfəri vəkil seçsinlər ki, bu vəkil də məlik Nəcəfin fəaliyyətinə nəzarət etsin. Mənbədəki məlumatdan belə bir qənaətə gəlmək olar ki, Nadir şah Şəki əhalisinin məzhəb fərqinə görə sıxışdırılmasını düzgün saymırdı və ona görə də məlik Nəcəfin əməllərinə nəzarət edəcək yerli vəkilin seçilməsinə razılıq verdi. Şəki əhalisi də götür-qoy etdikdən sonra camaat arasında hörmət və nüfuz sahibi olan Hacı Çələbinin vəkil təyin edilməsini istədi (128).

Hacı Çələbi həm imkanlı, həm də dindar bir şəxs idi. Camaatın razılığı olandan sonra Nadir şah Hacı Çələbinin Şəki vilayətinin vəkili olması haqqında fərman imzaladı və ona müəyyən səlahiyyətlər verdi. Bu səlahiyyətlərə əsasən, Şəki hakimi Hacı Çələbinin razılığı olmadan əhaliyə hər hansı bir mükəlləfiyyət təyin edilə bilməzdi.

Bir müddət Məlik Nəcəf və Hacı Çələbi öz aralarında yola getməyə çalışdılar. Hacı Çələbi də çalışarmış ki, mərkəzdən alınan göstərişlərə Məlik

Nəcəf öz göstərişlərini əlavə etməsin və bununla xalqın üzərinə qoyulan yük daha da artırılmasın. Görünür, Hacı Çələbi tərəfindən həyata keçirilən nəzarət Məlik Nəcəfi heç də təmin etmirdi. Çünki Hacı Çələbinin mövcudluğu istər-istəməz onun hakimiyyətini kifayət qədər məhdudlaşdırır və sərbəstliyini əlindən alırdı. Bu vəziyyətə son qoymaq üçün Məlik Nəcəf Nadir şahla olan görüşlərinin birində Hacı Çələbidən şikayət etdi və bildirdi ki, ondan aldığı tapşırıqların icrasına Hacı Çələbi maneçilik yaradır və xalqı da Nadir şahın tapşırıqlarını yerinə yetirməməyə təhrik edir. Bildirilir ki, Nadir şah eşitdiyi bu xəbərdən qəzəbləndi və Hacı Çələbini yanına çağırtdırdı. Çox güman ki, Nadir şah 1743-cü ildə Şirvanda və Dağıstanda olarkən Hacı Çələbini yanına çağırtdırmışdı. Dərhal da onun qətlə yetirilməsi haqqında göstəriş verdi. Ölüm ayağında olarkən Hacı Çələbi vəziyyəti Nadir şaha izah etmək fürsəti əldə etdi. O bildirir ki, Məlik Nəcəf alınan tapşırıqları öz tapşırıqları ilə şişirdərək əhalinin üstünə yükləməyə çalışır. Nəticədə əhali də şahın tapşırıqlarını icra etmək imkanını əldən verir. Hacı Çələbi bildirir ki, onun məqsədi şah göstərişlərinin yerinə yetirilməsinə şərait yaratmaqdır, şah tərəfindən müəyyənləşdirilən vergilərin toplanmasına mane olmaq deyil. Hacı Çələbi eyni zamanda qeyd edir ki, Şəki rəiyyəti Nadir şaha sədaqətlidir (129).

Kərim ağa Fatehin yazdığına görə, Hacı Çələbi ölüm təhlükəsindən azad edildi və Nadir şah onun cəsarətinə öz təəccübünü də gizlədə bilmədi. Ətrafındakılara da çatdırdı ki, yanımda kimsənin nəfəs çəkməyə həddi olmadığı halda "şəkili Çələbinin nə cürəti varmış ki, boğazında kəndir cürət eləyib bu ərzləri mənə elədi. Heç sözün yanılmazdı. Əlbəttə bundan bir xəta əmələ gələcək. Mənim zənnim xəta olmaz " (130).

Qeyd etmək lazımdır ki, Nadir şah haqqında mövcud olan mötəbər farsdilli qaynaqlarda bu hadisə ilə bağlı məlumat mövcud deyil. Əgər Kərim ağa Fatehin yazdığı məlumat doğrudursa, onda Hacı Çələbinin Nadir şahla bu qarşılaşmasını Nadirin həyatında maraqlı bir hadisə kimi dəyərləndirmək olar.

Beləliklə, Nadir şah Hacı Çələbini edamdan azad etdi, Məlik Nəcəfi də öz vəzifəsində saxladı. Lakin baş verən hadisə maliyyə idarəçiliyində mövcud olan çətinlikləri aradan qaldırmadı. Hacı Çələbi son qarşılaşmasından və öz vəzifəsində saxlanılmasından istifadə edib Məlik Nəcəfi daha da sıxışdırmağa başladı. Xalq kütlələri də bütünlükdə Hacı Çələbinin fəaliyyətini dəstəkləməkdə davam edirdi. Tarixçilərin fikrincə, Hacı Çələbi artıq Məlik Nəcəfi aradan götürmək və vilayətin idarəçiliyini öz əlinə almaq istəyirdi (131). Belə bir addımın atılması Nadir şahın böyük qəzəbi ilə rastlaşa bilərdi. Görünür, Hacı Çələbi vilayətin əhalisinin Nadir şaha müqavimət imkanlarını lazımınca araşdırmış və vilayətin idarəçiliyinin şah hakimiyyətindən qoparılmasının mümkünlüyünə əmin olmuşdu. Bir müddətdən sonra isə Məlik Nəcəf yenidən Hacı Çələbi haqqında Nadir şaha xəbər göndərdi. Bu dəfə

Nadir şah Hacı Çələbiyə 100 tümən cərimə kəsdi və məmurlarından birini göndərdi ki, Hacı Çələbidən həmin cəriməni alıb xəzinəyə gətirsin.

Hacı Çələbi bu cəriməni verməkdən imtina etdi və qərarını şah məmurlarına da çatdırdı. Nadir şahın qərarına belə münasibət göstərilməsinin heç də yaxşı qurtarmayacağını hiss edən Hacı Çələbinin əmisi Hacı Şeyxəli işə qarışmalı oldu və Hacı Çələbi üçün kəsilmiş cəriməni ödədi. Hacı Çələbinin itaətsizliyini isə şah məmuru Nadir şahın diqqətinə çatdırdı. Bir müddətdən sonra Hacı Çələbinin itaətsizliyi haqqında yenidən Nadir şaha şikayət çatdırıldı. Bu dəfə Nadir şah daha qətiyyətli addım atmaq qərarına gəldi və Hacı Çələbini hüzuruna çağırtdırdı. Vəziyyətin ciddiliyini Hacı Çələbi də başa düşdü və ona görə vilayət böyüklərini və yüzbaşılarını yanına toplayıb onlarla məsləhətləşmə apardı. Məşvərətə gələnlər bildirdilər ki, Hacı Çələbi Nadir şahın hüzuruna getsə geri qayıtmayacaq. Onun geri qayıtmayacağı halda isə vilayətə şah tərəfindən təyin edilmiş hakimlə bacarmaq çətin olacaq. Qərar verildi ki, Hacı Çələbi şah hüzuruna getməsin. Bu məsləhətləşmələrin ardınca Hacı Çələbi ətrafının köməyi ilə Məlik Nəcəfi və onun yaxınlarını qətlə yetirdi. Bundan sonra Hacı Çələbi özünü Şəki vilayətinin hakimi elan etdi (132).

Hacı Çələbinin qiyam qaldırması Nadir şahın Osmanlı dövləti ilə müharibə illərinə və ölkə daxilində iğtişaşların genişlənməsi illərinə təsadüf edir. Bu baxımdan Hacı Çələbi yəqin ki, tarixi şəraiti incəliklə dəyərləndirərək mərkəzi hakimiyyətin vəziyyətinin xeyli həssas olduğu bir vaxtda belə bir addım atmağa qərar verdi. Hacı Çələbinin Nadir şahın təyin etdiyi hakimi qətlə yetirməsi əslində, Nadir şaha qarşı qiyam qaldırmaq, Nadir şahın dövlətinin ərazi bütövlüyünün parçalanmasına cəhd göstərmək kimi bir cəsarət idi.

Ona görə Hacı Çələbi şübhə etmirdi ki, onun mərkəzi hakimiyyətə qarşı çıxması Nadir şahın diqqətindən kənarda qalmayacaqdır. Fürsət yaranan kimi Nadir şah Şəki əhalisinə öz gücünü və qəzəbini göstərə bilərdi. Bunun qarşısının alınması üçün Hacı Çələbi Nadir şahın başı Osmanlı dövləti ilə müharibəyə qarışdığı bir vaxtda xanlıq ərazisində müdafiə tədbirlərini gücləndirdi. Əhalini "Gələsən-Görəsən" qalasına köçürdü, orada ərzaq ehtiyatlarını artırdı, qalanın divarlarının və ətrafının etibarlı müdafiəsi üçün əlavə tədbirlər gördü. Bu qala Şəkinin 8 kilometrliyində sıldırım qayalıq dağların yüksəkliyində yerləşmişdi. Qalanın ətrafı isə sıx meşəlik idi. Bu isə qalanın müdafiə imkanlarını daha da artırırdı.

Yerli və rus mənbələri, habelə onların əsasında aparılan tarixi araşdırmalar Nadir şahın 1744-cü ilin payızında və 1745-ci ilin əvvəlində Şəkidə olmasını və Hacı Çələbinin rəhbərliyi altında baş verən hərəkatın yatırılmasına cəhd göstərdiyini bildirirlər. Lakin Nadir şahın 1744-cü ilin sonlarına

yaxın Şəkidə olması haqqında Nadir şah haqqında mötəbər mənbələr olan "Tarix-e Cahanqoşa-ye Naderi" də və "Aləm Ara-ye Naderi"də heç bir məlumat yoxdur. "Aləm Ara-ye Naderi"də qeyd olunurdu ki, 1744-cü ilin sonlarında Nadir şah Qars ətrafından Arpaçaya doğru hərəkət etdi, oradan Ahalkələkə keçib bir neçə günlük düşərgə saldı. Həmin günlər ərzində məntəqədən azuqə ehtiyatları topladı. Qışı isə Nadir şah su və azuqə ehtiyatları ilə dolu olan Bərdədə keçirməyi qərara aldı. Mənbənin məlumatlarına görə, Nadir şah Bərdədə çox dayanmadı və Dağıstan tayfalarının itaət altına gətirilməsi üçün bir neçə gündən sonra Dağıstana doğru hərəkətə başladı. Məlumdur ki, qoşunların bütün yükləri Bərdədə saxlanıldı. Cavad yaxınlığında Kür çayı üzərində qurulmuş körpüdən keçən Nadir şah qoşunları ilə Dərbəndə üz tutdu. Dərbənddə olarkən Nadir şah qoşunlarını dörd dəstəyə böldü və bu dəstələrin hər birini bir istiqamətə göndərdi. 3-4 gün ərzində qoşun dəstələri göndərildikləri istiqamətlərdə yerli əhalini itaət altına gətirməklə bərabər, həm də azuqə toplaması ilə məşğul oldu. Mənbə xəbər verir ki, bir çox məntəqələrin hakimləri Nadir şahın yayına gəldilər və ona itaət etməyə hazır olduqlarını bildirdilər. Nadir şah da əvəzində onların hakimliyini təsdiq edib öz yerlərinə qaytardı. 1745-ci il yanvar ayının ortalarında Nadir şah Tabasaran yolu ilə Bərdəyə qayıtdı (133).

Yəni, bu mənbədə Nadir şahın 1744-cü ilin sonlarına yaxın Şəkidə olmasını təsdiq və ya inkar edən məlumat mövcud deyil. Yuxarıdakı tarixi təsvirin ümumi mənzərəsindən belə anlaşılır ki, Nadir şah dəstələrini müxtəlif istiqamətlərə göndərdi, özü isə Dərbənddə qaldı. Başqa sözlə, Şəkidəki hərəkatın yatırılmasına və oradan da azuqə toplanmasına göndərilən dəstələrdən birinə Nadir şahın sərkərdələrindən biri rəhbərlik edə bilərdi. Tabasaran yolu ilə Bərdəyə Nadir şah Şəkidən də qayıda bilərdi. Azərbaycan və rus tarixçilərinin istinad etdiyi bəzi tarixi mənbələr, habelə Kərim ağa Fatehin əsərində də Nadir şahın 1744-cü ilin sonlarında Şəkidə olması haqqında birmənalı təsdiq faktına rast gəlmək mümkün deyil. Həmin mənbələrdən birində Nadir şah qoşunlarının Şamaxıdan iki günlük məsafədə, Gəncə ilə Araz çayları arasındakı Bərdədə yerləşdiyini xəbər verən müəllif daha sonra yazır: "...Fars şahı qoşunları Şəki kəndinə göndərdi ki, ...oranı var-yoxdan çıxarsın. O kəndin əhalisi də fars qoşunlarının gəlməsini görüb meşələrdə, dağ dərələrində gizləndilər və çoxlu fars qoşunu qırdılar" (134).

Başqa bir mənbədə isə göstərilir ki, qoşunların bir hissəsi Şəki əhalisindən ərzaq ehtiyatlarının toplanmasına göndərildi. Amma şəkililər taxıl vermək əvəzinə güclü müqavimət göstərdilər və imkan vermədilər ki, şah qoşunları onları qarət etsinlər. Onları məcbur etdilər ki, qoşunlar əli boş geri qayıtsınlar. Nadir bu vəziyyəti görəndə qərara aldı ki, zor və silah gücünə günahkarları cəzalandırsın (135).

İstinad edilən mənbələrin birincisi 1744-cü ilin sonunda Nadir şahın özünün Şəkidə olmadığını və yalnız qoşun dəstələrinin ora göndərildiyini güman etməyə əsas verir. İkinci mənbədə isə bir qeyri-müəyyənlik vardır. Mənbədə konkret olaraq bildirilmir ki, Nadir şah Şəkiyə yollandı, yoxsa burada onun 1745-ci ilin fevralında Şəkiyə yollanması nəzərdə tutulur.

Kərim ağa Fatehin əsərində isə konkret tarix göstərilməklə Nadir şahın Şəki yürüşündə iştirak etməsinə işarə olunur. Bildirilir ki. Nadir şahın qoşun dəstəsi Daşbulaq kəndi yaxınlığındakı Kotandüzündə düşərgə saldı. Qoşunun əsas hissəsini orada saxlayıb seçmə qoşun dəstəsi ilə Gələsən-Görəsən qalasına tərəf yollandı. Tərəflər arasında uzun bir döyüş baş verdi və hər iki tərəf ciddi itkilərlə qarşılaşdı. Müəllifə görə, şahın pişxidmətçisi də onun gözləri qarşısında qətlə yetirildi. Belə olanda şah əmirləri ona yaxınlaşıb bu itkilərin verilməsinə son qoyulmasını təklif etdilər. Nadir şah da bu təklifi qəbul edib qoşun dəstəsini geri çəkdi (136).

Nadir şahın yürüşlərində iştirak etmiş rus rezidenti Bratişevin raportlarında da şahın qoşun dəstəsi ilə 1744-cü ilin noyabr ayında Şəkidə olması haqqında qeyri-konkret məlumat vardır. Bratişev bildirir ki, Nadir şah 1744-cü ilin noyabr ayında Şəki üsyançıları üzərinə etdiyi hücumdan sonra təhqir olunmuş şəkildə geri qayıtdı. O eyni zamanda döyüşlər zamanı Nadir şahın az qala qətlə yetiriləcəyindən xəbər verir (137). "Aləm Ara-ye Naderi" də Şəkiyə hücum zamanı Nadir şahın qətl təhlükəsini təsvir edir. Amma mənbəyə görə, bu hadisə Şəki üzərinə 1745-ci ilin fevral ayında təşkil edilən hücum zamanı baş vermişdi (138). Bütün bu deyilənlər 1744-cü il noyabr ayının sonlarında Şəki üsyanının yatırılmasında Nadir şahın şəxsən iştirakına müəyyən şübhələr yaradır.

Bununla belə, 1744-cü il noyabr ayının sonlarında Nadir şah qoşunlarının Şəkiyə gəldiyi bəllidir. Qoşun dəstəsi Şəkiyə yaxınlaşanda vilayətin bəzi imkanlı adamları şah qəzəbindən qorxaraq mərkəzi hakimiyyətə itaətlərini bildirdilər. Buna görə də, onlar Nadir şahın bahalı hədiyyələrinə layiq görüldülər. Amma bununla Şəkidəki müqavimət hərəkatı heç də aradan qalxmadı. Yerli əhalinin şah hakimiyyətinə qarşı müqavimətinin mərkəzi isə təbii xüsusiyyətləri baxımından etibarlı müdafiə imkanlarına malik olan "Gələsən-Görəsən" qalası idi. Rus mənbələrinə görə, Nadir şah qoşunları 15 min nəfərdən ibarət idi. Bu qoşun dəstəsi "Gələsən-Görəsən" qalasını mühasirəyə aldı və müqavimətə əl atan şəkililərin itaət altına gətirilməsinə cəhd göstərdi. Nadir şah döyüşçülərinin irəliləmək istəyi yüksəklikdə qərar tutmuş qalanın müdafiəçilərinin atəşləri ilə qarşılaşdı. Həmin qalanın sərt qayalıqlar üzərində yerləşməsi və onun hərtərəfli mühasirəyə alına bilməməsi, digər tərəfdən ətrafın sıx meşəliklərlə örtülməsi şəkililərin daha yaxşı vuruşmasına

imkan yaradırdı. Car-Balakəndən gələn silahlı kömək isə şəkililərin gücünü bir qədər də artırdı və onlar qalanın müdafiəsini təmin edə bildilər (139).

Nadir şahın qoşunlarının sayına və təcrübəsinə baxmayaraq, Şəki üsyançıları iradə və dözüm nümayiş etdirdilər. Sığındıqları qalanın müdafiə imkanlarından məharətlə bəhrələndilər və Nadir şah qoşunlarının hücumları qarşısında bacarıqla müdafiə olundular. "Aləm Ara-ye Naderi"yə görə, Nadir şah Dağıstan tayfaları ilə məsələləri yola qoyduqdan sonra Dərbəndə gəldi. 1745-ci il yanvar ayının 14-də isə Bərdəyə yola düşdü. Lakin Nadir şah burada çox dayanmadı və 20 gündən sonra Kür çayını keçib Ərəşdə düşərgə saldı (140).

"Aləm Ara-ye Naderi" əsərində o da bildirilir ki, Ərəşdən sonra Nadir şah Şəki yaylaqlarına getdi və üç ay orada qaldı (141). Həmin mənbədə Nadir şahın Şəkiyə yürüşü haqqında yalnız bu məlumat vardır.

Mövcud olan digər məlumatlara görə, 1745-ci il fevral ayının 13-də Nadir şah qoşunları ilə Şəkiyə doğru hərəkətə başladı. Hücumun əsas hədəfi isə "Gələsən-Görəsən" qalasının alınması idi. Çox tezliklə adı çəkilən qala mühasirəyə alındı, qalanın ətrafının ağacları kəsilib təmizləndi. Lakin Şəkidə olduğu üç ay ərzində üsyançıların müqavimətini tam şəkildə qırmaq Nadir şaha müyəssər olmadı. 1745-ci ilin may ayında Nadir şahın qoşunları ilə "Gələsən-Görəsən" qalasından geri çəkildi. Amma qoşunların bir dəstəsini qala ətrafında saxlamaqla Nadir şah mühasirəni davam etdirmək və qala müdafiəçilərini taqətdən salmaq niyyətində idi. Həmin mühasirə qala müdafiəçilərinin taqətini doğrudan da üzdü və ərzaq məhsullarının tükənməsi üzündən "Gələsən-Görəsən" qalasının müqaviməti dayandırıldı. Bu hadisə 1746-cı ilin martında baş verdi. Nadir şah fərmanı ilə qala müdafiəçilərini bağışladı, Cəfər adlı birisini Şəki hakimi təyin etdi. Hacı Çələbi də yenidən öz vəzifəsində saxlanıldı (142).

1747-ci ildə Nadir şahın qətlə yetirilməsindən sonra Şəki vilayətinin müstəqilləşməsi və xanlığa çevrilməsi üçün obyektiv bir şərait yarandı. Hacı Çələbi hakimiyyəti tamamilə əlinə aldı və Şəki xanlığının ilk xanı oldu. Onun hakimiyyəti altında xanlığın formalaşması və möhkəmləndirilməsi aparıldı. Şəki xanlığı şimal-qərbdə Dağıstanla və İlisu sultanlığı, şimal-şərqdə Quba xanlığı, şərqdə Şamaxı xanlığı, qərbdə Gürcüstan və cənubda Qarabağ xanlığı ilə həmsərhəd idi. XVIII əsrin 50-ci illərində xanlığın ərazisi daha da genişləndirildi. Şəki xanı xanlıqdan asılı vəziyyətdə olan Ərəş və Qəbələ sultanlıqlarını da, habelə Qarabağ xanlığının bir hissəsini də xanlığın tərkibinə daxil etdi (143).

Ərazisi genişləndiriləndən sonra Şəki xanlığı 8 mahala bölünmüşdü: Şəki, Xaçmaz, Qəbələ, Ərəş, Padar, Ağdaş, Alpout və Göynük mahalları.

Mahallar xan tərəfindən təyin olunmuş nayiblər tərəfindən idarə olunurdular (144).

Mənbələr bildirirlər ki, Hacı Çələbi xanın xanlıq məqamına yüksəlməsi yerli əhali tərəfindən rəğbət və sevinclə qarşılandı. Hacı Çələbi də Nuxa şəhərini xanlıq mərkəzi etdi və xanlığa başladığı zaman adi bir kənd halında olan Nuxada xeyli tikinti işləri də apardı. Xanlığın möhkəmlənməsinin və müstəqilləşməsinin qarşısının alınması üçün Azərbaycan hakimi Əmiraslan xan Şəkiyə də qoşun çıxarmağı qərara aldı. Mənbələrdən aydın olur ki, Əmiraslan xanın bu cəhdinin qarşısının alınması üçün Hacı Çələbi xan oğlu Həsən ağanın rəhbərliyi altında ona qarşı qoşun dəstəsi göndərdi. Həsən ağa bu döyüşdə həlak olsa da, Əmiraslan xanın hücumunun qarşısını almaq və onu geriyə çəkilməyə məcbur etmək mümkün oldu (145).

Xanlığın ərazisinin genişləndirilməsi üçün Hacı Çələbi xanın Cara və Qarabağ xanlığına hücumları haqqında da mənbələrdə məlumatlar mövcuddur. Bildirilir ki, Carı tutmaq üçün Hacı Çələbi xan Kaxetiya çarı II Teymurazla ittifaqa girdi. Amma Teymurazın Şəki xanlığına qarşı məkrli planları aydın olanda Hacı Çələbi carlılarla və dağıstanlılarla birləşərək II Teymurazın üstünə hücum etdi və ona ağır zərbə vurdu. Şamaxı xanı ilə Qarabağ xanlığına hücum etməsi də Hacı Çələbinin uğursuzluğu ilə başa çatdı və ittifaqda olan qoşunlar Qarabağ xanlığının qoşunlarının müqaviməti qarşısında geri çəkilməli olalar (146).

Pənah xan da öz növbəsində Hacı Çələbi xanı zəiflətmək və onu öz təsiri altına almaq istəyirdi. Amma Pənah xan onu da yaxşı bilirdi ki, təkbaşına Şəki xanını öz təsiri altına ala bilməyəcəkdir. Ona görə də Pənah xan Qaradağ hakimi Kazım xanla, Naxçıvanlı Hüseynqulu xanla, Gəncəli Şahverdi xanla Hacı Çələbi xana qarşı birgə fəaliyyətə başlamaq haqqında qərara gəldilər. Görünür, bu xanların birgə qüvvələrinin də Hacı Çələbi xanın qüvvələrinə üstün gələcəyi barədə əminlik yox idi. Bunun nəticəsi kimi, adları çəkilən xanlar Gürcüstan hakimi İrakliyə məktub göndərdilər və onu da Şəki xanına qarşı mübarizəyə çağırdılar. Güman edilirdi ki, Şəki xanlığı ilə olan narazılıqlarına görə, Gürcüstan valisi də ona qarşı cəbhə tutacaqdır. Gürcüstan hakimi ilk baxışdan bu təkliflə razılaşdı. Eyni zamanda Pənah xana və onun müttəfiqlərinə məktub göndərdi ki, hazırladıqları planı həyata keçirmək üçün vaxt itirmədən qüvvələrini toplayıb Gəncə xanlığı ilə Gürcüstan sərhədinə gəlsinlər. Əslində isə Gürcüstan hakiminin öz planları var idi. O, Azərbaycan xanlarını aradan götürərək öz dövlətinin ərazilərini genişləndirmək fürsəti əldə etmək istəyirdi. Azərbaycan xanları isə Gürcüstan hakiminin niyyətlərindən xəbərsiz döyüş bayrağını qaldırdılar və təklif olunan məntəqəyə yola düşdülər. Onlar Gəncə şəhərindən yuxarıdakı Qızıl Qaya adlı məntəqədə düşərgə saldılar (147).

Mövcud olan məlumatlara görə, bu hadisə 1752-ci il martın sonlarına yaxın baş verdi. Gürcüstan hakimi qərarlaşdırılan yerə gələn kimi haqqında danışılan Azərbaycan xanlarının dördünü də həbs etdi. Mənbələrdə Azərbaycan xanlarının necə həbs edilməsi barəsində məlumat yoxdur və Pənah xan kimi tədbirli bir şəxsin də çox asanlıqla əsir götürülə bilməsi də təəccüb doğurur. Ola bilsin ki, Azərbaycan xanları Gürcüstan hakiminin müttəfiqlik vədinə inanaraq mühafizə tədbirlərinə bir qədər sərbəstlik veriblərmiş. Bunun nəticəsi isə onların həbsi ilə başa çatıb.

Hacı Çələbi xan isə Pənah xanın və onun müttəfiqlərinin ona qarşı qoşun çəkməsi barəsində xəbəri alanda öz qoşunlarını toplayıb Mingəçevir kəndi yaxınlığında düşərgə saldı. Elə burada olarkən Gəncə xanı Şahverdi xanın xidmətçilərindən biri özünü onun yanına yetirərək Gürcüstan hakiminin Azərbaycan xanlarını əsir götürməsi barəsində xəbər verdi.

Bu xəbəri eşidən kimi Hacı Çələbi xan ona qarşı ittifaq qurmuş Azərbaycan xanlarını azad etməyi qərarlaşdırdı. Bu qərarı necə həyata keçirməyi müəyyənləşdirmək üçün isə o, yaxın adamlarının, qoşun başçılarının müşavirəsini çağırdı. Müşavirə iştirakçıları qoşunla Kür çayını keçməyin çətinliklərini nəzərə alaraq əvvəlcə döyüşə meylli olmasalar da, sonradan gürcü qoşunlar ilə döyüşə girmək qərarını dəstəklədilər. Bununla da, Şəki xanlığının qoşun dəstəsinə Gəncəyə doğru hərəkətə başlamaq əmri verildi. Gürcüstan valisi Hacı Çələbi xanla döyüşə girməyə maraqlı olmasa da, başqa seçim yeri də qalmadı. Bu qarşı tərəflərin qoşun dəstələri Gəncə yaxınlığında üzbəüz gəldi. Mənbələrdə gürcü qoşunları ilə Şəki qoşunlarının qarşılaşmasının Nizami Gəncəvinin məqbərəsi ətrafında baş verdiyini qeyd edirlər. Gürcü hakimi çox səy göstərsə də, Hacı Çələbinin qüvvələri qarşısında duruş gətirə bilmədi və bütün əmlakını Qızıl Qaya adlı məntəqədə ataraq geri qaçmağa başladı. Hacı Çələbi xan Qızıl Qayada həm gürcü qoşunlarının əmlakını ələ keçirdi, həm də həbs edilmiş Azərbaycan xanlarını əsirlikdən xilas etdi. Şəki xanlığının qoşunları gürcü qoşunlarını az qala Tiflisə qədər təqib etdilər və onlara güclü zərbə vurdular (148).

Bu hadisədən sonra Pənah xanla Hacı Çələbinin arasında münasibətlərin hansı məcrada olması barəsində mənbələrdə ciddi məlumata rast gəlmək çətindir. Əhməd bəy Cavanşir isə bu hadisəni tamamilə başqa şəkildə təsvir edib. Onun fikrincə, Pənah xanın Şahverdi xanla, Cəfərqulu xanla və Kazım xanla yaratdığı ittifaq əslində II İrakliyə qarşı təşkil olunmuş bir ittifaq idi. Çünki II İrakli malik olduğu güclü silahlı dəstələrlə həm Gəncə xanlığına, həm də Naxçıvan xanlığına soxulmaqla Araz çayına qədər irəliləyə bilmiş və Azərbaycan xanlarına ciddi xəsarət yetirmişdi. Ona görə də Azərbaycan xanları birləşərək gürcü hakiminə dərs vermək istəyirlərmiş. Müttəfiqlər Hacı Çələbi xana müraciət edərək onu da antigürcü ittifaqına qoşulmağa ça-

ğırdılar. Müəllifin sözlərinə görə, Hacı Çələbi xan bu ittifaqa qoşulmaqla gürcü qoşunlarının məğlub edilməsində və onların Tiflisə qədər qovulmasında fəal iştirak etdi (149).

Amma bir daha qeyd edilməlidir ki, II İraklinin qoşunları ilə döyüşlə bağlı Qarabağnamə müəlliflərinin əksəriyyəti Azərbaycan xanlarının əsir edilməsi variantına üstünlük verirlər.

Mövcud olan məlumatlara görə, bu döyüşün gedişində Hacı Çələbi Borçalını ələ keçirdi və oğlu Ağakişi bəyi ora hakim təyin etdi. Bu döyüşdən sonra gürcü çarları kifayət qədər ciddi zərbələr aldılar. Onlar öz vəziyyətlərini düzəltmək və Azərbaycan xanlarının növbəti təzyiqlərindən canlarını qurtarmaq üçün Hacı Çələbi ilə münasibətlərin yaxşılaşdırılmasına çalışdılar və ona danışıqlar aparılmasını təklif etdilər. 1752-ci ilin yazında Hacı Çələbi xan öz nümayəndələrini çar Teymurazın yayına göndərdi. Amma son anda çar Teymuraz danışıqlardan imtina etdi. Çünki Kabardadan onun yanına 2 min nəfərlik dəstə yardıma gəlmişdi. Bu dəstənin köməyinə arxalanan çar Teymuraz Hacı Çələbi ilə danışıqlardan imtina etməklə bərabər, Borçalıda hakimlik edən Ağakişi bəyi də oradan sıxışdırıb çıxara bildi. Bundan sonra isə II İrakli Car üzərinə hücum çəkdi. Car camaatı vəziyyətin mürəkkəbləşdiyini görəndə kömək üçün Hacı Çələbiyə müraciət etdilər. Hacı Çələbi qoşun dəstəsi ilə gürcü çarının qoşunlarını Qanıq çayının kənarında qarşıladı və gürcü qoşunlarına növbəti dəfə güclü zərbə vurdu (150).

Gürcü qoşunları üzərində əldə edilən növbəti qələbə Hacı Çələbi xanı Şamaxı xanlığı üzərinə əvvəldən planlaşdırılan hücumu həyata keçirməyə həvəsləndirdi. 1755-ci ildə o, Ağsu üzərinə hücuma keçdi. Şamaxı xanı kömək üçün Quba xanı Hüseynəli xana müraciət etdi. Şamaxı və Quba xanlıqlarının birgə müqavimətini qırmaq Hacı Çələbiyə müyəssər olmadı və ona görə də geri çəkilmək məcburiyyətində qaldı (151).

1755-ci ildə Hacı Çələbi xan dünyasını dəyişdi və xanlıq məqamına onun oğlu Ağakişi bəy yüksəldi. Ağakişi bəyin xanlıq fəaliyyəti haqqında istər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda geniş məlumat yoxdur. Çox güman ki, Ağakişi bəyin xanlıq dövrü nisbi sakitliyi ilə fərqlənirdi və ona görə də mənbə müəlliflərinin diqqətini cəlb etməmişdi. Onun xanlığı 1759-cu ilə qədər uzandı. Həmin ildə Ağakişi bəy qayınatası, qumuq xanı Məhəmməd xan tərəfindən qətlə yetirildi. Vaxtilə Hacı Çələbi xan qumuq xanı ilə qohum olmasının onun hakimiyyətinin möhkəmlənməsinə kömək edəcəyini düşünmüşdü. Bəzi tarixi məlumatlara görə, Məhəmməd xanla Hacı Çələbi arasında sonradan narazılıq yaranmışdı. Hacı Çələbinin sağlığında bu narazılıq üzə vurulmasa da, onun ölümündən sonra Məhəmməd xan Ağakişi bəydən qisas almağı qərarlaşdırdı. Bunun üçün 1759-cu ildə qoşun dəstəsi ilə Ərəş sultanlığına gəldi və Ərəş sultanı Məlik Əliməhəmməd xanın

köməyi ilə Ağakişi bəyi görüşə çağırdı. Heç nədən şübhələnməyən Ağakişi bəy qayınatası ilə görüşmək üçün Ərəşə gəldi və orada qayınatasının qurduğu sui-qəsdin qurbanı oldu. Bundan sonra Məhəmməd xan qoşun dəstəsi ilə Şəkiyə gəlib oranı nəzarət altına aldı. Məhəmməd xan ilk növbədə Hacı Çələbidən qalmış var-dövləti axtarıb tapdı, sonra da yerli əhalini soyub-talamağa başladı. Məhəmməd xanın soyğunçuluğu elə bir miqyas aldı ki, Şəkiyə gəlməsindən 40 gün sonra yerli əhali ona qarşı qiyam qaldırdı və onu Şəkidən qaçmağa məcbur etdi. Xanlıq məqamına Hacı Çələbi xanın böyük oğlu Həsən xanın oğlu, Şirvana pənah aparmış Hüseyn ağa gətirildi. Məhəmməd xanın Şəkidəki hakimliyi dövründə Hüseyn ağa ötəri təhlükələrdən kənarda qalmaq üçün Şirvana aparılmışdı (152).

Tarixi araşdırmalarda Hüseyn ağanın Şirvana deyil, Quba xanlığına pənah aparması və Quba xanı Fətəli xanın qoşun dəstəsinin yardımı ilə Şəkidə hakimiyyəti ələ keçirməsi haqqında da məlumat vardır (153).

Ərəş sultanı Məlik Əliməhəmməd xan qumuqlı Məhəmməd xana Şəki xanı Ağakişi bəyin öldürülməsində və Şəkinin Məhəmməd xan tərəfindən ələ keçirilməsində göstərdiyi köməyin əvəzi olaraq müstəqil olmağa çalışırdı. Görünür, bununla bağlı o, Məhəmməd xanla da müəyyən razılığa gəlmişdi. Çünki Məhəmməd xandan sonra xan olan Hüseyn xanın dövründə də o, xanlıq tərkibinə daxil olmaq istəmirdi. Məlik Əliməhəmməd istəyinə çatmaq üçün yollar arayırdı və bu istiqamətdə Qarabağa hücum etmiş urmiyalı Fətəli xana müraciət etməyi qərara aldı. Ərəş sultanı bu məqsədlə Fətəli xanın yanına gedib onun Şəki xanı təyin edilməsinə kömək göstərməsini xahiş etdi. Mənbələrin məlumatına görə, Fətəli xan araşdırmağa başladı ki, Şəki xanı olmağa kimin daha çox haqqı çatır. Hüseyn xanın, yoxsa Məlik Əliməhəmmədin. Fətəli xana çatdırılır ki, Ərəş sultanları həmişə Şəki xanlarından asılı vəziyyətdə olublar. Ona görə Fətəli xan Məlik Əliməhəmmədin xahişini qəbul etmədi, əksinə onu tutduraraq Hüseyn xanın əlinə verdi. Hüseyn xan isə Şəkiyə qayıtdıqdan sonra Şəki xanlığına iddialı olan Məlik Əliməhəmmədi qətlə yetirdi (154).

Hakimiyyətinin saxlanması üçün Hüseyn xan urmiyalı Fətəli xana formal itaətini bildirsə də məlumdur ki, Fətəli xan Cənubi Qafqaza olan yürüşlərində uğur qazanmayıb geri döndü. Bununla, Hüseyn xanın ona olan formal itaətinə də son qoyuldu.

Hüseyn xan 20 il Şəki xanı oldu və həmin müddət ərzində o, xanlığının ərazisini də genişləndirməyə cəhd göstərdi. Xanlıq ərazilərini genişləndirmək üçün Hüseyn xan Şamaxı xanlığını təsiri altında saxlamaq və bu xanlığın müəyyən ərazilərinin Şəki xanlığı tərkibinə qatmaq istəyirdi. Niyyətinə nail olmaq üçün Hüseyn xan Quba xanı Fətəli xanla ittifaqa girdi. Amma bu ittifaq uzun çəkmədi. Sonra onların arasında yenə barışıq baş ver-

di. Şirvan və Quba xanları ilə çəkişmələr və ya fəaliyyət birliyi qurmaq cəhdləri Hüseyn xana bir nəticə vermədi.

Hüseyn xan eyni zamanda ailə çəkişmələri ilə üzbəüz gəldi və nəhayətdə elə ailə çəkişmələrinin də qurbanı oldu. Hakimiyyət uğrunda Hacı Çələbinin oğlu, yəni Hüseyn xanın əmisi Cəfər ağa ilə Hüseyn xan arasında ədavət başladı. Cəfər ağa Hacı Çələbinin oğlu kimi xanlığa daha çox haqqı olduğunu bildirirdi və bu iddianı həyata keçirməyə çalışırdı. Bu iddialara son qoyulması üçün Hüseyn xan əmisi Cəfər ağanı qətl etmək yolunu tutdu.

Cəfər ağanın öldürülməsindən sonra onun qardaşı, Hacı Çələbinin digər oğlu Hacı Əbdülqadir Hüseyn xanla barışmaz mövqe tutdu. O, Kür çayı kənarına çəkilərək orada özünə sığınacaq qurdu və Şəkinin, habelə Ərəşin çox bəylərini də öz ətrafına cəm etdi. Qarabağ xanı İbrahim xan da onu dəstəkləməyə başladı. 1779-cu ildə Əbdülqadir ağa ətrafına topladığı tərəfdarları ilə gözlənilmədən Nuxaya daxil oldu və Hüseyn xanı qətlə yetirdi. Bununla da o, Şəkidə xanlığı öz əlinə aldı (155).

Hacı Əbdülqadir xanın hakimiyyəti çox çəkmədi. O da Hüseyn xanın oğlu Məhəmməd Həsən xanla apardığı çəkişmələrin qurbanı oldu. Hüseyn xan qətlə yetiriləndən sonra Məhəmməd Həsən xan Qarabağ xanı İbrahim xana sığınmışdı. İbrahim xan onu qoşun toplamaq və Şəki xanlığını ələ keçirməyə hazırlamaq üçün Cara göndərdi. Məhəmməd Həsən xan orada özünə qoşun dəstəsi toplayıb Şəki üzərinə hücuma keçdi. Amma onun bu yürüşü uğursuz oldu və yenidən Cara qayıtdı. Məhəmməd Həsən xan bir daha qoşun toplamağa cəhd göstərdi və yenidən Şəki üzərinə hücuma keçdi. Bu dəfə o öz niyyətinə nail oldu və onun qoşun dəstəsi qarşısında müqavimət göstərməyə gücü çatmayan Hacı Əbdülqadir xan Şamaxı xanlığına qaçdı. Xanlığı ələ keçirən Məhəmməd Hüseyn xan Şamaxı xanı Ağası xandan onun tutulub qaytarılmasını tələb etdi. 1783-cü ildə Məhəmməd Həsən xan Şəki xanı məqamına yüksəldi və elə həmin ildə Şamaxı xanının təhvil verdiyi Hacı Əbdülqadir xanı və onun bütün oğlan övladlarını qətlə yetirdi (156).

Məhəmməd Həsən xan 10 ilə yaxın, yəni 1795-ci ilə qədər Şəki xanı oldu. Onun da xanlığının tarixi dövr və şəraitdən irəli gələn xarakterik xüsusiyyətləri var idi. Hakimiyyətinin möhkəmləndirilməsi üçün bir tərəfdən qonşu xanlıqlarla, o cümlədən Quba xanlığı ilə əlaqələri möhkəmləndirməyə çalışırdı. O, Fətəli xanın bacısına evlənmişdi və öz bacısını da ona ərə vermişdi. Ona görə ətraf xanlıqlarla bağlı siyasətin formalaşdırılmasında Məhəmməd Həsən xanla Fətəli xan oxşar mövqedən çıxış edirdilər. O biri tərəfdən Məhəmməd Həsən xan hakimiyyətinin möhkəmləndirilməsi üçün qardaşları ilə çəkişmə aparırdı. Onların hakimiyyətə olan iddialarını aradan qaldırmaq üçün Məhəmməd Həsən xan kiçik qardaşını kor etdirdi. Sonra digər

qardaşı Səlim xanı da aradan götürmək istədi. Amma Səlim xan onun planlarından vaxtında xəbər tutub Cara qaçdı (157).

1795-ci ildə Ağa Məhəmməd xan Qacar Qarabağa hücum edəndə bəzi Azərbaycan xanları kimi Məhəmməd Həsən xan da öz nümayəndəsi Hacı Səid bəyi çoxlu hədiyyələrlə şahın yanına göndərdi ki, ona itaət etməyə hazır olduğunu bildirsin. Bununla Məhəmməd Həsən xan özünün təhlükəsizliyini təmin etdiyini və hakimiyyətinin qorunacağını güman edirdi. Amma Məhəmməd Həsən xanın nümayəndəsi Ağa Məhəmməd xana tamam başqa məlumat çatdırdı və hətta onun öldürülməsi üçün məsələ qaldırdı. Ağa Məhəmməd xan da sərkərdəsi Mustafa xan Dəvəlinin rəhbərliyi altında Şəki və Şamaxını tutmaq üçün 12 min nəfərlik qoşun dəstəsi göndərdi. Mustafa xan Dəvəli əvvəlcə Şamaxı üzərinə qoşun çəkdi. Məhəmməd Həsən xan da Ağa Məhəmməd xana kömək üçün qoşun dəstəsini Mustafa xan Dəvəliyə qoşmaq istədi. Ancaq Nuxadan bir qədər uzaqlaşan kimi qardaşı Səlim xanın Carda topladığı qoşunla Nuxaya doğru gəldiyini eşitdi. Məhəmməd Həsən xan geri qayıdıb Səlim xanın qarşısını almaq istədi. Ancaq o bu qarşıdurmada məğlub oldu. Məhəmməd Həsən xan Qacar qoşunlarının yardımı ilə yenidən xanlığı geri qaytarmaq istədi. Bu məqsədlə Mustafa xan Dəvəlinin düşərgəsinə gəldi. Qacar sərkərdəsi isə onu tutdurub gözlərini çıxartdırdı və Təbrizə göndərdi (158).

Səlim xan 1795-ci ildə Şəki xanı oldu. Onun xanlığı Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı dövrünə təsadüf edir. O, təxminən 10 ilə yaxın hakimiyyətdə oldu. Onun hakimiyyəti dövründə kor edilmiş Məhəmməd Həsən xan yenidən xanlıq məqamına çata bilsə də, bu, çox uzun sürmədi və Səlim xan sonradan xanlığı ələ keçirdi. Şəki xanlığının Rusiya tərkibinə qatılması da Səlim xanın xanlıq dövründə baş verdi.

### *Bakı xanlığı*

Bakı xanlığı ərazi baxımdan Azərbaycan xanlıqları içərisində nisbətən kiçik olan xanlıqlardan biri idi. Lakin tutduğu ərazinin geostrateji əhəmiyyəti baxımından bu xanlıq Rusiyanın işğalçılıq planlarında xüsusi yer alan bir xanlıq idi. Səfəvilər dövləti dövründə Bakı xanlığının ərazisi Şirvan bəylərbəyliyinə daxil idi və Şirvan bəylərbəyinə tabe olan hakim tərəfindən idarə olunurdu. XVII əsrin sonlarına aid olan mənbələrdə bildirilirdi ki, Bakı ayrıca bir vilayətdir və sultan titulu olan hakimlərin idarəçiliyi altındadır. XVII əsrin sonunda Bakı sultanının idarəçiliyi altında 34 kənd var idi (159).

Səfəvilər dövləti dövründə Bakı Rusiya ilə ticarət aparılması üçün tranzit məntəqəsi kimi mühüm əhəmiyyət kəsb edirdi. Bu şəhər eyni zamanda liman şəhəri idi və bu baxımdan Rusiya sarayının diqqətini özünə

cəlb edirdi. Rusiya sarayı həm iqtisadi baxımdan, həm də siyasi baxımdan Bakını öz işğalçılıq planlarına daxil etmişdi. Yuxarıda qeyd edildiyi kimi, Bakı şəhərini işğal etməklə Rusiya Xəzər dənizinə və Xəzərətrafı ərazilərə nəzarəti əlinə keçirə bilərdi. Iqtisadi baxımdan isə Bakını bölgənin ticarət mərkəzinə çevirmək və Abşeron yarımadasının sərvətlərindən şəriksiz istifadə etmək olardı.

Yuxarıda qeyd olunanlardan da aydındır ki, 1723-cü ildə Rusiya qoşunları Bakını işğal etdi və on ildən artıq Bakını öz nəzarəti altında saxladı. Doğrudur, sonradan Nadir Əfşarla Gəncə şəhərində imzalanan müqaviləyə əsasən Rusiya Bakını tərk etməli oldu. Bununla belə, Rusiya Bakını işğal etmək planından əl çəkmədi.

Hələ Nadir şahın hakimiyyətindən əvvəl, I Pyotr qoşunları tərəfindən Bakı işğal olunanda bu şəhərdə kifayət qədər müstəqil bir hakimiyyət formalaşmışdı. Məsələn, məlumdur ki, Bakı hakimi Məhəmməd Hüseyn bəy rus işğalına qarşı mübarizə apardığı kimi Bakı şəhərinin Şirvan üsyançılarının nəzarəti altına düşməsinə də razı olmurdu. Qüvvələr nisbətində müəyyən yaxınlıq olsaydı Məhəmməd Hüseyn bəy 1723-cü ildə Rusiya qüvvələrinə daha ciddi müqavimət göstərə bilərdi.

Ruslar Bakını işğal etdikdən sonra Məhəmməd Hüseyn bəyi şəhər hakimliyindən kənarlaşdırdılar və Dərgahqulu xan Bakı xanı təyin edildi. Bakının alınmasında Dərgahqulu xan şəhər qarnizonunun rəhbəri kimi ruslara yol açsa da, sonradan özü ruslara qarşı qəsd təşkil etdi. Buna görə Dərgahqulu xan da hakimiyyətdən uzaqlaşdırıldı, sonra yenə hakimiyyətə gətirildi. Nadir şahın fəaliyyəti genişlənəndə isə şəhər hakimiyyətindən imtina edərək ona qoşuldu.

Mövcud olan məlumatlara görə, Dərgahqulu xanın oğlu Mirzə Məhəmməd xan da Nadir şah dövlətinin xidmətində idi. Ona ingilis mütəxəssisi Con Eltonla birlikdə Ləngərudda Xəzər hərbi donanmasının yaradılması tapşırılıbmış. Nadir şah qətlə yetiriləndən sonra Mirzə Məhəmməd Bakıya döndü və imkanlarından, habelə Bakı əhalisi içərisindəki nüfuzundan istifadə edərək şah tərəfindən təyin edilmiş sultanı Bakıdan qovdu və özünü Bakı xanı elan etdi (160).

Bakı xanlığının ərazisinin uzunluğu 75 verst və eni 30-40 verst idi. Şimaldan və şərqdən xanlığı Xəzər dənizi əhatə edirdi. Şimal-qərbdə Quba xanlığı ilə, cənub-qərbdə isə Şamaxı xanlığı ilə həmsərhəd idi. Xanlıq iki nayibliyə bölünmüşdü – Maştağa və Binəqədi nayibliyi. Nayibliklər xan tərəfindən təyin olunan nayiblər vasitəsilə idarə olunurdu (161).

Mirzə Məhəmməd xan 20 il ərzində Bakı xanı oldu. Mənbələrdə və tarixi ədəbiyyatda bu xanlıq daxilində hakimiyyət uğrunda ciddi çəkişmələrin olması haqqında xüsusi bir məlumat yoxdur. Buradan belə bir qənaətə gəl-

mək olar ki, Mirzə Məhəmməd xan xanlıq daxilindəki vəziyyəti kifayət qədər nəzarət altında saxlaya bilmişdi. Mövcud olan məlumata görə, Nadir şahdan sonra özünü şah elan etmiş Adil şahdan (Əliqulu xandan) hakimiyyəti ələ keçirmiş qardaşı İbrahim xan Azərbaycan xanlarına qoşun toplayıb onun ixtiyarına verməyi təklif edəndə Mirzə Məhəmməd bundan imtina etdi (162). Məlumdur ki, İbrahim xanın da hakimiyyəti uzun sürmədi və yəni elə buna görə onların arasındakı mövqe müxtəlifliyi silahlı qarşıdurmaya gətirib çıxarmadı.

Bakı xanlığının ərazisi kiçik olduğu kimi, onun əhalisinin sayı az və buna görə də müdafiə imkanları da az idi. Belə bir şəraitdə Mirzə Məhəmməd xan öz hakimiyyətini qorumaq və xanlığın təhlükəsizliyini təmin etmək üçün digər xanlıqlarla və dövlətlərlə əməkdaşlıq qurmaq yollarını arayırdı. Bu istiqamətdə Mirzə Məhəmməd xanın Kartli çarı II Teymurazla, Rusiya dövləti ilə əlaqələr qurmaq cəhdləri haqqında məlumatlar mövcuddur (163).

Hakimiyyətinin qorunması üçün Mirzə Məhəmməd xan nikah diplomatiyasına da əl atdı. 1766-cı ildə Mirzə Məhəmməd xan həmin dövrdə güclənməkdə olan Quba xanı Fətəli xanın bacısı Xədicə Bikəni oğlu Məlik Məhəmməd üçün aldı. Bu qohumluq həm də iki xanlıq arasında münasibətlərin genişlənməsinə yol açdı. Bunun nəticəsi idi ki, Quba xanı Fətəli xan 1765-ci ildə Şamaxı xanlığına qarşı qoşun çıxaranda Bakı xanı Mirzə Məhəmməd də onu müdafiə etdi. 1768-ci ildə Mirzə Məhəmmədin ölümündən sonra onun oğlu Məlik Məhəmmədin hakimiyyəti illərində isə Bakı xanlığı Quba xanlığından asılı vəziyyətə düşdü (164). Xüsusilə, Məlik Məhəmmədin xanımı Xədicə Bikənin kifayət qədər qətiyyətli və iradəli olması xanlığın idarəçiliyində də özünü göstərirdi. Fətəli xan da bacısının bu iradəsini və qətiyyətini istiqamətləndirməklə yanaşı, xanlığın idarəçiliyinə də fəal təsir göstərirdi. Mövcud məlumatlara görə, hətta Məlik Məhəmmədlə Fətəli xan arasında anlaşma da imzalandı və həmin anlaşmaya görə Bakı xanı özünü Quba xanından asılı vəziyyətdə tanıyırdı. Məlik Məhəmməd Quba xanına heç bir vergi vermirdi. Lakin o, lazım olanda Quba xanına qoşun dəstəsi verməyə, zərurət yarananda Fətəli xana kömək göstərməyə borclu idi (165).

Məlik Məhəmmədin xanlığı təxminən 20 ilə yaxın çəkdi və o, 1768-ci ildə dünyasını dəyişdi. Onun vəfatından sonra Bakı xanlığı uğrunda çəkişmələr artdı. Əvvəlcə, Məlik Məhəmməd xanın qardaşı Xəncan xan Bakı xanlığına olan iddiasını ortaya qoydu. Amma Məlik Məhəmməd xanın xanımı Xədicə Bikə buna imkan vermədi və Fətəli xanın köməyi ilə Məlik Məhəmməd xanın kiçik yaşlı oğlu Mirzə Məhəmməd Bakı xanı elan edildi. II Mirzə Məhəmmədin əmisi Məhəmməd Qulu ağa da Bakı xanlığını əldə etmək üçün mübarizəyə qoşulmuşdu. O, 1789-cu ildə vəfat etmiş Fətəli xandan sonra onun Quba xanı elan olunmuş oğlu Əhməd xanla danışıqlar apardı

və xan olacağı təqdirdə Əhməd xana vergi verməyi öhdəsinə götürdü. Əhməd xan da qoşun dəstəsi ilə Bakı qalasını ələ keçirdi, II Mirzə Məhəmmədi tutaraq Qubaya göndərdi və onun yerinə Məhəmməd Qulu ağanın xanlıq məqamına yüksəlməsinə kömək etdi. Xan olduqdan sonra Məhəmməd Qulu xan Əhməd xana verdiyi sözə əməl etmədi. Belə olanda Əhməd xan, II Mirzə Məhəmmədi qoşun dəstəsi ilə Bakı üzərinə göndərdi. Bu hərəkət bir neçə dəfə təkrar olunsa da Məhəmməd Qulu xanı üstələmək olmadı (166).

1791-ci ildə Əhməd xan dünyasını dəyişəndən sonra kiçik qardaşı Şeyxəli xan Quba xanı elan edildi. II Mirzə Məhəmməd xan onun kiçik yaşlı olmasından istifadə edərək yenidən Bakı xanlığını geri qaytarmaq iddiasına düşdü. Bununla bağlı o, Şeyxəli xana müraciət etdi. Şeyxəli xan da ona kömək etməyi boynuna götürdü və qoşun dəstəsi ilə Bakıya doğru hərəkətə başladı. Yürüşünün uğurla başa çatması üçün Qafqazdakı rus qoşunları komandanı general Qudoviçə də məktub göndərdi və ondan hərbi yardım istədi. Şeyxəli xan Qudoviçə çatdırdı ki, Məhəmməd Qulu xan onun təbəəsidir və onun ələ keçirmiş olduğu Bakını geri qaytarmaq istəyir. Mövcud məlumatlardan aydın olur ki, Qudoviç kömək xahişini qəbul etdi və onun əmri əsasında Xəzər dənizindəki rus gəmiləri öz atəşləri ilə Şeyxəli xanın Bakı üzərinə hücumlarına dəstək verdi. Rus qoşunlarının müdaxiləsinin həlledici ola biləcəyini görən Məhəmməd Qulu xan general Qudoviçə məktub göndərdi və özünün qanuni Bakı xanı olduğunu ona çatdırdı. Eyni zamanda onun Rusiya təbəəliyinə qəbul olunmasına və kənar təzyiqlərdən qorunmasına kömək göstərilməsini xahiş etdi (167).

Məktubların çox gec çatdığı üçün Qudoviç Bakı xanlığına kimin qanuni hakim olduğunu vaxtında araşdıra bilmədi. Məhəmməd Qulu xan isə 1791-ci ildə Şeyxəli xanla barışmaq qərarına gəldi. Bununla o öz hakimiyyətini möhkəmləndirməyə çalışsa da hakimiyyətinin ömrü uzun çəkmədi. 1792-ci ildə Məhəmməd Qulu xan vəfat etdi. Onun vəfatından onra Bakı xanlığı uğrunda mübarizə yenidən qızışdı. Qubalı Şeyxəli xan öz nüfuzundan istifadə edərək himayəsində olduğu Mirzə Məhəmməd xanı yenidən Bakı xanlığına gətirdi. Lakin Mirzə Məhəmməd xan bu məqamı əlində uzun müddət saxlaya bilmədi. Bakı əyanları Mirzə Məhəmməd xanı Bakını tərk etməyə məcbur etdilər. Bakı xanlığına isə Məhəmməd Qulu xanın əmisi oğlu Hüseynqulu xan gətirildi (168). Sonrakı bir neçə il ərzində Hüseynqulu xanla Qubalı Şeyxəli xan və keçmiş Bakı xanı Mirzə Məhəmməd xan arasında Bakı xanlığına hakimlik uğrunda mübarizə getdi. Bununla belə Hüseynqulu xan öz mövqeyini kifayət qədər möhkəmlədə bildi və rus işğalına qədər Bakı xanı məqamında qaldı.

*Quba xanlığı*

Quba xanlığı Azərbaycanın şimal-şərqində, Xəzər dənizi sahili boyunca yerləşmişdi. Bu xanlığın inzibati-ərazi vahidi kimi mövcudluğu, xanlıq kimi formalaşmasından əvvəlki dövrlərə gedib çıxır. Məlumdur ki, hələ Səfəvilər dövründə Quba xanlığı ərazisində yarımmüstəqil inzibati vahid var idi ki, bu vahid "ölkə" də adlandırılırdı. Həmin inzibati ərazi vahidi Səfəvi dövlət tərəfindən təyin olunan və "xan" titulu daşıyan hakimlər tərəfindən idarə olunurdu. XVIII əsrin əvvəllərində, yəni ilk rus yürüşlərinin həyata keçirildiyi dövrlərdə Quba ərazisi Xudat qalasının əsasını qoymuş Əhməd xanın nəsli tərəfindən idarə olunurdu (169).

Quba ərazisində hakimiyyət irsi olaraq keçirdi. Bununla bağlı, rus mənbələrində bildirilirdi ki, Quba xanları şah fərmanları ilə təyin olsalar da hakimiyyətin irsi keçməsi mütləq nəzərə alınırdı. Bu vəzifəyə xanın varisi, yaxud da onun qohumlarından biri təyin oluna bilərdi. Həmin nəslə aid olmayan şəxs hakim təyin edilsəydi, yerli əhali onu qəbul etməzdi (170).

Quba xanlığının əhatə etdiyi ərazilərin inzibati vahid kimi formalaşdığı dövrdə Quba və Xudat onun əsas şəhərləri olmuşdular. Bir sıra mənbələr və tarixi araşdırmalar Xudatı Quba xanlığının ilk mərkəzi kimi qələmə verirlər (170). Baxmayaraq ki, bəzi Azərbaycan müəllifləri Qubanın inzibati ərazi vahidi kimi formalaşmağa başladığı dövrdən Qubanın onun mərkəzi olduğunu qeyd edirlər (171).

1718-ci ildə Quba hakimi Sultan Əhməd qətlə yetirildi və xanlıq ərazisi Nadir şaha qarşı üsyan qaldırmış Hacı Davudun nəzarəti altına düşdü (173).

XVIII əsrin 20-ci illərində isə məlum olduğu kimi, Rusiyanın Xəzəryanı ərazilərə yürüşləri başladı. Qubanın ərazilərinin işğalı Rusiyanın planlarına daxil idi. Bu yürüşdə Xəzəryanı əraziləri işğal etməyi planlaşdıran Rusiya üçün Quba ərazisi də xüsusi əhəmiyyət kəsb edirdi. Bakı və Salyanla quru əlaqələrinin yaradılması Qubanın nəzarət altına alınmasını tələb edirdi. Dərbənd şəhərinin işğalından sonra rus qoşunlarının geri qayıtması Quba xanlığının Rusiya tərəfindən işğalını ləngitdi. Bakı şəhəri işğal edildikdən sonra Quba xanlığı ərazisi də Rusiyanın nəzarəti altına düşdü.

Səfəvilər dövlətinin böhran içərisində olduğu bir vaxtda Rusiyanın Xəzəryanı sahilləri işğal etmək siyasəti kifayət qədər ciddi və uzun müddətli görünürdü. Belə bir şəraitdə Rusiyanın dəstəyi olmadan Qubanın inzibati ərazi vahidi kimi mövcudluğunu qoruyub saxlamaq da asan deyildi. Ona görə Hacı Davudun kənarlaşdırılmasından sonra Quba hakimliyinə irsi olaraq iddia edən Hüseynəli bəy Rusiyanın himayəsinin qəbul olunmasına qərar verdi.

1726-cı il oktyabrın 20-də Hüseynəli bəy Dərbənddəki Rusiya qoşunları komandanlığına gəldi, Rusiyanın himayəsini qəbul etdiyini bildirdi və Rusiyaya sədaqətli olacağı haqqında and qəbul etdi. Həmin andda deyilirdi: "Mən, Quba xanlığının oğlu Hüseynəli bəy öz əqidəmlə şəriət qaydası ilə qurana and içirəm ki, imperator həzrətlərinin təbəəliyində olub, öz təbəələrimlə, canım və ruhumla və bütün pak vicdanımla imperator əlahəzrətlərinin təbəəsi və sadiq qulu kimi qulluq edəcək, ona və onun təbəələrinə qarşı heç bir zidd hərəkət etməyəcək və bütün Rusiya imperiyasına mən öz təbəələrimlə sədaqət və hər cür xeyirxahlıq göstərəcəyəm". Hüseynəli bəylə birlikdə Quba xanlığının nüfuzlu şəxsləri də Rusiyaya sədaqətli olacaqlarını vəd etdilər. 1726-cı ilin sonunda isə Rusiyanın ali hakimiyyət orqanlarında Hüseynəli bəyin müraciəti müzakirə olundu və onun Rusiya himayəsinə alınmasına qərar verildi (174).

Quba xanlığının ərazisi 1735-ci ilə qədər Rusiyanın himayəsi altında qaldı və həmin ildən sonra yenidən son illərini yaşayan Səfəvi dövlətinin tərkibinə qatıldı. Nadir Əfşarla Rusiya hökuməti arasında yaranan münasibətlər əsasında Xəzəryanı ərazilər, o cümlədən Quba xanlığının ərazisi heç bir döyüş olmadan Nadirin nəzarəti altına verildi. Bu məsələ ilə bağlı uzun müddət idi ki, Nadir nümayəndələri ilə Rusiya sarayı nümayəndələri arasında danışıqlar gedirdi. Nadir əmin idi ki, Rusiya Xəzəryanı əraziləri, o cümlədən də Quba xanlığı ərazisini döyüşsüz təhvil verəcəkdir. Yuxarıda qeyd edildiyi kimi, bu məsələnin tezliyi və gecliyi Osmanlı dövləti ilə formalaşdırılan yeni siyasətin məzmunundan asılı idi. Ona görə də, Nadir Əfşar 1734-cü ildə Şirvan və Dağıstan istiqamətində qoşun çəkəndə Xəzəryanı əraziləri marşrutdan kənarda saxladı. O, Şamaxı və Qəbələdən keçməklə Dağıstana doğru irəlilədi və 1734-cü ilin oktyabrında Qəbələdən keçməklə Gəncə ətrafına gəldi (175).

1735-ci ildə Gəncə ətrafında Rusiya ilə müqavilə imzalandı və həmin müqaviləyə əsasən Rusiya Xəzəryanı əraziləri, o cümlədən də Quba xanlığı ərazilərini geri qaytardı. Nadir Quba hakimi Hüseynəli bəyi öz məqamında saxladı. Tarixi məlumatlara görə, Nadir Quba xanlığını zəiflətmək məqsədilə Salyanı Qubadan ayırdı və Məhəmməd xan adlı birisini Salyan hakimi təyin etdi (176).

Nadir şahın hakimiyyəti illərində Hüseynəli xan Quba xanlığında dəyişməz qaldı. Bu onu göstərir ki, Nadir şahın hakimiyyəti illərində Hüseynəli xan kifayət qədər müdriklik və çeviklik göstərmiş, xanlıq ərazisində mərkəzi hakimiyyətin kəskin münasibətinə səbəb olacaq ciddi proseslər baş verməmişdi. Elə mənbələrdə də Nadir şah dövründə Quba xanlığı ərazisində böyük antidövlət hərəkatlarının baş verməsi haqqında məlumatlar yoxdur.

Nadir şah dövləti süquta uğrayandan sonra isə Hüseynəli xan Quba xanlığının müstəqilliyinə nail oldu.

Quba xanlığının mövcudluğunun ilkin illəri də Hüseynəli xanın dövrünə təsadüf edir. Azərbaycan xanlıqları arasında çəkişmələrin vüsət aldığı bir vaxtda Hüseynəli xan Quba xanlığının toxunulmazlığını qoruyub saxlamaqla bərabər, onun möhkəmləndirilməsi yolunda da lazımi tədbirlər həyata keçirdi. Bu istiqamətdə atılan addımlardan biri də Salyan xanlığının Quba xanlığına birləşdirilməsi oldu. Doğrudur, bu məsələdə Salyan xanlığının nüfuzlu adamları da xanlığın Quba xanlığının nəzarəti altına düşməsinə münasib şərait yaratdılar. Salyan xanının idarəçiliyindən ciddi narazı olan Salyan əhalisi öz nümayəndələrini Quba xanı Hüseynəli xanın yanına göndərdilər və ondan kömək istədilər. Hüseynəli xan da Salyana qoşun dəstəsi göndərmək qərarına gəldi. A.Bakıxanov, Hüseynəli xanın fəaliyyətini qiymətləndirərkən yazırdı ki, o səxavətli və cəsur əmir idi, öz ərazilərini genişləndirməyə çalışmırdı və yalnız öz diyarının abadlaşdırılması qayğısına qalırdı (177).

Ola bilsin ki, A.Bakıxanov bu mövqeyini Quba xanının Şirvan yürüşünün nəticələrinə görə yazmışdı. Həmin yürüş 1756-cı ildə baş verdi və məqsəd də Şəki xanı Hacı Çələbinin Şamaxı xanlığına hücumunun qarşısının alınmasında kömək göstərmək idi. A.Bakıxanovun yazdığına görə, 3 min nəfərlik dəstəsi Hüseynəli xanla 500 atlısı olan Qaytaq usmisi Əmir Həmzə Ağsuya gəldilər. Hacı Çələbi birləşmiş qoşunlara qalib gələ bilməyəcəyini anlayanda Hüseynəli xanın yanına nümayəndələrini göndərdi və ondan Şamaxı xanı ilə olan münaqişəsinə qarışmamağı tələb etdi. Bununla belə, Hüseynəli xan öz mövqeyindən əl çəkmədi və baş verən döyüşdə Hacı Çələbi xan məğlub olaraq geri çəkilməli oldu. Bu qələbədən sonra Ağsu şəhərinin qapılarının açarları Hüseynəli xana təqdim olunsa da, Hüseynəli xan onu qəbul etmədi və Qubaya qayıtdı (178).

Salyan xanlığına gəldikdə isə, Hüseynəli xan ora cavan oğlu Fətəlinin rəhbərliyi altında qoşun dəstəsi göndərdi. Fətəli ciddi bir müqavimətlə rastlaşmadan Salyanı aldı və hələ Nadir şah dövründən burada məqama yüksəlmiş hakimləri xanlıq ərazisindən sıxışdırıb çıxardı. 1757-ci ildə baş verən bu yürüşdən sonra Salyan xanlığının müstəqilliyinə son qoyuldu və bu xanlığın ərazisi Quba xanlığının tərkib hissəsinə çevrildi. Sonradan buranın hakimləri sultan adlandırıldı və Quba xanı tərəfindən təyin edilirdi. Salyanın Quba xanlığına birləşdirilməsi istər iqtisadi baxımdan, istər hərbi baxımdan, istər geosiyasi baxımdan xanlığın daha da möhkəmlənməsinə yol açdı. Xəzər dənizi sahillərinin xeyli hissəsi, Kür çayı mənsəbi kimi iqtisadi əhəmiyyətli rayonlar Quba xanlığının güclənməsi üçün yeni imkanlar açdı (179).

Həyatının və hakimiyyətinin son illərində Hüseynəli xan xanlığının əhalisinin sayının artırılması üçün konkret addımlar atdı. Əhalinin sayının

artırılması isə xanlığın istehsal qüvvələrinin artırılması demək idi. Xanlıq əhalisi eyni zamanda qoşun toplanılması mənbəyi idi. Bu məqsədlə Hüseynəli xan Şabran mahalına Dərbənddən, Şirvandan, Muğan çöllərindən çoxlu sayda əhali köçürüldü. 1757-ci ildə Muğandan Quba xanlığı ərazisinə xeyli sayda şahsevən də köçürüldü. Mövcud olan məlumatlara görə, hətta cənub xanlıqlarından da Quba xanlığı ərazisinə əhali köçürüldü (180).

Hüseynəli xan 1758-ci ildə vəfat etdi və onun oğlu Fətəli Quba xanı məqamına yüksəldi. Onun dövründə Quba xanlığı kifayət qədər genişləndi, möhkəmləndi və Azərbaycan xanlıqları arasında xüsusi bir mövqe əldə etdi. Mənbələr və tarixçilər Fətəli xanı bacarıqlı, istedadlı və yetişmiş bir xan kimi xarakterizə edirlər. Qısa müddət ərzində xanlığın daha da möhkəmlənməsi də yəqin ki, onun sadalanan keyfiyyətlərinin nümayişi idi. Onun dövlətin möhkəmləndirilməsi, ticarətin və iqtisadiyyatın inkişaf etdirilməsi sahəsindəki fəaliyyətləri, hərbi sahədə qazandığı uğurları ilə müşayiət olunurdu.

Hüseynəli xan vəfat edəndə Şamaxı xanının qardaşı Ağarəzi bəy qoşun dəstəsi ilə Quba xanlığı ilə sərhəddə yerləşən Bərmək mahalına hücum etdi. Ağarəzi bəy ehtimal edirdi ki, Hüseynəli xanın vəfatından sonra xanlıq daxilində bir qarışıqlıq var, yeni hakimiyyət hələ vəziyyətə tam nəzarəti əlinə ala bilməyib və belə bir şəraitdən bəhrələnmək olar. O bu niyyətində heç də yanılmadı və müqavimətsiz olaraq mahalı talan etdi, yerli əhalidən 200 ailəni özü ilə apardı. Fətəli xan hakimiyyət başına gələn kimi dərhal Şamaxı xanlığına qarşı qoşun çıxardı, Şamaxı yaxınlığında Ağarəzi bəyin dəstəsi ilə qarşılaşdı. Fətəli xan bu döyüşdə qalib gəldi, Ağarəzi bəy öldürüldü, Şamaxı ətrafından 400 ailəni gətirərək Quba xanlığı ərazisində yerləşdirdi (181).

Fətəli xan tezliklə Şəki xanlarının və əhalisinin də köməyinə getməli oldu. Yuxarıda qeyd edildiyi kimi, Şəki xanı Hacı Çələbi xanın vəfatından sonra oğlu Ağakişi bəy xanlığa yiyələndi. Lakin o, qayınatası qazıqumıqlı Məhəmməd xan və Ərəş sultanı Məlik Əlinin qurduğu qəsdin qurbanı oldu və Məhəmməd xan 40 gün ərzində Şəkidə hakim oldu. Onun soyğunçuluğu və talançılığı yerli əhalini fəlakətlərə sürüklədiyindən ona qarşı etirazlar böyüməyə başladı. Belə vaxtda Fətəli xan xanlığa pənah gətirmiş Hacı Çələbi xanın nəvəsi Hüseyn ağanı Şəki xanlığı məqamına yüksəlməsi üçün köməklik göstərdi. Qoşun dəstəsinin köməyi ilə Fətəli xan Hüseyn ağanı Şəkiyə gətirdi və qazıqumuqlu Məhəmməd xanı qovaraq xanlığı Hüseyn ağaya təhvil verdi. Bununla, Şəki xanlığı eyni zamanda Quba xanlığından da asılı vəziyyətə düşdü (182).

1759-cu ildə Fətəli xan Dərbənd xanlığının Quba xanlığına birləşdirilməsi planının həyata keçirilməsinə başladı. Bu xanlığın tutulması Quba xanlığı üçün strateji əhəmiyyət kəsb edirdi. Dərbəndin ələ keçirilməsi Quba xanlığının şimaldan təhlükəsizliyini daha etibarlı müdafiə etməklə bərabər,

bu xanlığın hərbi-siyasi imkanları da Quba xanlığının möhkəmləndirilməsinə səfərbər oluna bilərdi. 10 min əhalisi olan Dərbənd həm də mühüm ticarət mərkəzi idi. Məlumdur ki, rus çarı I Pyotr da Xəzəryanı Azərbaycan ərazilərinin işğalına başlanması üçün ilkin olaraq məhz Dərbəndin tutulmasına üstünlük vermişdi.

Müstəqilliyini elan etdikdən sonra Dərbəndi Məhəmməd Hüseyn xan idarə edirdi. Amma onun xanlığı heç də stabilliyi ilə fərqlənmirdi və əhali arasında xanlığa qarşı müəyyən gərginlik mövcud idi. Fətəli xan da Dərbəndin tutulması üçün xanlıq əhalisinin narazılıqlarından istifadə etmək qərarına gəldi. Xüsusilə, əhali Dərbənd xanı Məhəmməd Hüseyn xanın qardaşı Tahir bəyin qanunsuz əməllərindən çox narazı idilər. Bu narazı insanlar da Tahir bəyin özbaşınalıqlarından qurtarmaq üçün Fətəli xandan kömək istədilər. Belə bir şəraitdə Fətəli xan Dərbəndi də Quba xanlığına birləşdirməyi qərara aldı. Bu planının uğurla həyata keçirilməsi üçün Fətəli xan Dağıstanın bir sıra əyanlarını öz tərəfinə çəkməyə müvəffəq oldu. Fətəli xanla ittifaqa razı olanlar arasında Tarku şamxalı Murtuzəli, Qaraqaytaq usmisi Əmir Həmzə və Tabasaran hakimi də var idi. Lazımi hazırlıq işləri başa çatandan sonra 1759-cu ilin payızında Fətəli xan Dərbənd xanlığı üzərinə hücum təşkil etdi. Öndə gedən qoşun dəstəsinə Əmir Həmzə rəhbərlik edirdi və onun ardınca da digər dəstələr hərəkət edirdilər. Dərbənd xanı Fətəli xanın qoşun dəstəsinə müqavimət göstərilməsinin çətin olacağını görüncə şəhər qalasına çəkildi. Quba qoşunları əvvəlcə Samur çayı yaxınlığındakı Müşkür, Niyazabad, Şabran, Rustov, Beşbarmaq məntəqələrini nəzarət altına aldılar. Bir müddətdən sonra Dərbənd şəhəri ələ keçirildi (183).

Dərbəndin alınması üçün dərhal gözlənilməz addım atılmadı. Fətəli xan ətrafında toplanmış olan əyanlar xəyanətlə rastlaşa biləcəklərindən ehtiyatlanırdılar. Bunun üçün də irəliyə Əmir Həmzənin dəstəsi buraxıldı. Bu dəstənin tərkibində Dərbənd əhalisindən olan könüllülər də var idi. Qoşunların əsas hissəsinə isə Dərbənd qalası divarları ətrafında dayanmaq tapşırılmışdı. Fətəli xan tərəfindən Məhəmməd Hüseyn xana bir neçə dəfə könüllü şəkildə təslim olmaq təklif edildi. Belə təkliflərdən birinin müzakirəsi üçün Fətəli xanın düşərgəsinə gələn Məhəmməd Hüseyn xan həbs edildi və Bakıya sürgün olundu. Dərbənd xanlığı ləğv olundu və Dərbənd şəhəri isə sonradan Quba xanı tərəfindən təyin olunan nayiblər vasitəsilə idarə olunmağa başladı (184).

Dərbəndin birləşdirilməsindən sonra Quba xanlığı xeyli möhkəmləndi və ticarət yollarının nəzarətinə malik olmaqla üstün iqtisadi durum əldə etdi.

Dərbənd şəhəri ələ keçirildikdən sonra qısa müddət ərzində onun idarəçiliyi Fətəli xanın xanımı Tuti Bikə xanıma tapşırıldı. Tuti Bikə Qaraqaytaq usmisi Əmir Həmzənin bacısı idi və Fətəli xan da Əmir Həmzə ilə qo-

hum olmaqla öz mövqelərini bir qədər də möhkəmlətmək istəyirdi. Dərbənd üzərinə hücum zamanında onlar ittifaqda idilər. Fətəli xan vəd etmişdi ki, bacısı Xədicə Bikəni Əmir Həmzəyə nikah etdirəcəkdir. Amma Fətəli xan onu Məhəmməd xana ərə verdi ki, Bakı üzərindəki nəzarətini daha da gücləndirsin. Əmir Həmzə isə bundan çox narazı qaldı. O, bacısı ilə görüşmək adı altında Dərbəndə gəldi və Dərbənd qalasını ələ keçirdi. Fətəli xan bunu eşidib Dərbənd qalası üzərinə qoşun çəkdi və üç gündən sonra Əmir Həmzəni oradan sıxışdırmağa müvəffəq oldu (185).

Bacısı Xədicə Bikəni 1767-ci ildə Bakı xanının oğlu, sonralar isə Bakı xanı olmuş Məlik Məhəmmədə verməklə Bakı xanlığı da Fətəli xanın nəzarəti altına düşdü. Əslində, Bakı xanlığı çox həssas bölgədə yerləşirdi və Şamaxı xanlığının və Dağıstan xalqlarının silahlı dəstələrinin basqınlarına məruz qalırdı. Bu silahlı yürüşlərə qarşı Bakı xanlığı heç də həmişə ciddi müqavimət göstərə bilmirdi. Kənar basqınlar xanlığın iqtisadi həyatını iflic etməklə bərabər, yolların bağlanmasına, ticarətin zəifləməsinə zəmin yaradırdı. Bu basqınların və yürüşlərin qarşısını almaq üçün Bakı xanlığı da yollar axtarırdı. Fətəli xanın bacısı Xədicə Bikə ilə evlənməklə Məlik Məhəmməd onun himayəsini qazanacağını planlaşdırırdısa, Fətəli xan da bu nikahla Bakı xanlığını özündən asılı vəziyyətə salacağını düşünürdü. Əslində bu planların hər ikisi həyata keçdi və Bakı xanlığı kənar yürüşlərdən mühafizə olunsa da, Fətəli xanın təsiri və asılılığı altına düşdü (186).

Bakı xanlığının nəzarət altına alınması Quba xanlığının iqtisadi qüdrətini gücləndirməklə yanaşı, həm də bu xanlıq qonşu Şamaxı xanlığını təsir altına almaq üçün strateji məkan rolunu oynayırdı. Bakı xanlığını asılı vəziyyətə salandan sonra Şamaxı xanlığına qarşı siyasi iddialar irəli sürülməsi üçün daha münasib bir imkan əldə edildi.

Bakı xanlığının idarə edilməsinə Fətəli xanın bacısı Xədicə Bikə daim müdaxliə edirdi və bu zaman Quba xanlığının maraqları diqqət mərkəzində saxlanılırdı. Dövrün müasirlərinin yazdığına görə, Bakı xanı Fətəli xanın yanında şəhər hakimi statusunda idi. Məlik Məhəmməd xanın vəfatından sonra isə onun kiçik yaşlı oğlu Mirzə Məhəmməd yeni xan və anası Xədicə Bikə isə onun qəyyumu elan edildi. Yeni şəraitdə artıq xanlıq işlərinə nəzarət bütünlükdə Fətəli xanın əlinə keçdi və onun razılığı olmadan xanlıq daxilində hər hansı bir qərar qəbul etmək mümkün deyildi (187).

Qeyd edildiyi kimi, Bakı xanlığını asılı vəziyyətə salmaq Fətəli xan üçün Şamaxı xanlığını ələ keçirmək üçün daha münasib şərait yaratdı. Ona görəAzərbaycan xanlıqlarını öz ətrafında birləşdirməyə çalışan Fətəli xan tezliklə Şamaxı xanlığını nəzarət altına almağı qərarlaşdırdı. Onun bu planının həyata keçirilməsi bir neçə il uzanmalı oldu. Quba xanlığı ilə Şamaxı xanlığı arasında müəyyən münasibətlər mövcud idi. Fətəli xan iddia

edirdi ki, o, Şamaxı xanlığını ləzgilərin və digərlərinin hücumlarından qoruyur və buna görə Şamaxı xanı ona vergi verməlidir. Şamaxı xanı da 1765-ci ilə qədər Quba xanına belə bir vergi verdi. 1765-ci ildə isə Şamaxı xanı Məhəmməd Səid xan Fətəli xana vergi verməkdən imtina etdi. Bundan qəzəblənəcək Quba xanının silahlı yürüşlərindən qorunmaq üçün Məhəmməd Səid xan Şəki xanı Hüseyn xanla anlaşma əldə etdi və onun hərbi yardımına arxalandı. Mənbələrdə olan məlumatlara görə, Şəki xanından alınan köməyin sayəsində Şamaxı xanlığının müdafiəsi xeyli gücləndirildi. Hətta Fətəli xan da bu ittifaqa qalib gəlməyin mümkünsüz olduğunu ehtimal edirdi. 1768-ci ilə qədər Fətəli xan Şamaxı xanlığını nəzarət altına almağın yolunu tapa bilmədi. Həmin ildə Şamaxı xanı Məhəmməd Səid xanla Şəki xanı Hüseyn xanın arasında narazılıq yarandı. Belə olanda Şəki xanı Fətəli xana xəbər göndərərək daha Şamaxı xanını müdafiə etmədiyini, hətta Şamaxı xanlığı üzərinə hücum edəcəyi təqdirdə ona yardım etməyə hazır olduğunu bildirdi. Bununla da Şamaxı xanlığını nəzarət altına almaq üçün Fətəli xanın əlinə fürsət düşmüş oldu (188).

Fətəli xan Şəki xanı Hüseyn xanın yardım təklifini də qəbul etmək qərarına gəldi və onlar birlikdə 1768-ci ildə Şamaxı şəhəri üzərinə hücum etdilər. Şəhər üç gün mühasirədə qaldı və ağır vəziyyətlə qarşılaşan Məhəmməd Səid xan təslim oldu. Xanlıq Fətəli xanın nəzarəti altına düşdü. Hərbi yardım göstərdiyinə görə xanlığın qərbindəki ərazilərin bir hissəsi Şəki xanının nəzarəti altına verildi. Ağsu şəhərinin nayibi də Şəki xanı tərəfindən təyin edilmişdi. Bir müddətdən sonra Fətəli xan Ağsunun nayibini oradan qovdu. Yəni, tezliklə Fətəli xanla Şəki xanı arasında da narazılıq yarandı. Şamaxı alınarkən Məhəmməd Səid xanın kor edilmiş qardaşı Ağası xan da Şəki xanı Hüseyn xana müraciət etdi ki, birlikdə Şamaxı xanlığını Fətəli xanın nəzarəti altından çıxarsınlar. Hüseyn xan bu təkliflə razı oldu və Şamaxı üzərinə hücumun uğurla başa çatdırılması üçün Dağıstandan da kömək aldı. Bununla belə, Fətəli xanı üstələmək mümkün olmadı (189).

Şamaxı xanlığının birləşdirildiyi ildə elə də böyük olmayan ərazini əhatə edən Cavad xanlığı da Quba xanlığına birləşdirildi. Quba xanlığının genişləndiyini görüncə Cavad xanı könüllü şəkildə Fətəli xandan asılılığı qəbul etdi. Çünki əslində onun başqa bir seçimi və Fətəli xanın genişləndirilmə siyasətinə müqavimət göstərə biləcək gücü də yox idi.

Sonrakı illərdə Şamaxı xanı, xüsusilə də onun kor edilmiş qardaşı Ağası xan bir neçə dəfə xanlığı geri qaytarmağa cəhd göstərdi. Lakin onların bu cəhdləri uğursuzluğa düçar oldu.

1774-cü ildə Fətəli xanla Ağası xan arasında növbəti qarşıdurma oldu. Bu dəfə Ağası xanı daha böyük qüvvələr müdafiə edirdi. Şəkili Hüseyn xan və avar Nutsal xan da öz dəstələri ilə Şamaxı üzərinə hücumda iştirak edirdi.

Ağası xanın öz ətrafına toplaya bildiyi qüvvələr Şamaxını ələ keçirməyə müvəffəq oldular. Məsələdən xəbər tutan kimi Fətəli xan 20 minlik qoşun dəstəsi topladı və Şamaxı üzərinə yeridi. Fətəli xan bu dəfə də öz əleyhdarları üzərində qələbə çaldı (190).

1774-cü ildə Fətəli xanla ona düşmən kəsilmiş qüvvələr arasında məşhur Qavduşan döyüşü baş verdi. Qavduşan döyüşündə əks tərəfi təşkil edən Dağıstan hakimləri və əyanları Quba xanlığının ərazisinə daxil olanda Fətəli xan artıq Qarabağ və Şəki xanlıqlarının da nəzarət altına alınması üçün konkret planların icrasına başlamışdı. Onun belə güclənməsi və genişlənməsi ətraf ərazilərin hakimlərini, o cümlədən də Dağıstanın yerli hakimlərini ciddi təşvişə saldı. Çünki Fətəli xanın genişlənmə siyasətinin onların hakimiyyəti altında olan ərazilərə də çatmayacağına heç kim zəmanət verə bilməzdi. Ona görə də Dağıstan hakimləri Fətəli xana qarşı bir ittifaq yaratdılar. Bu ittifaqa Qaraqaytaq hakimi Əmir Həmzə, Qazıqumıq hakimi Məhəmməd xan və başqaları daxil idilər. Həmin hakimlər ətraflarına topladıqları qoşunlarla Quba xanlığının içərilərinə doğru irəliləməyə başladılar. Fətəli xan onlara qarşı Xudat yaxınlığındakı Qavduşan düzündə mövqe tutdu və burada tərəflər arasında qanlı döyüş baş verdi (191).

Quba xanlığının və eləcə də Fətəli xanın həyatında xüsusi maraq kəsb edən Qavduşan döyüşünün təfərrüatı haqqında istər məlum mənbələrdə, istərsə də tarixi ədəbiyyatda kifayət qədər məlumat yoxdur. Ona görə döyüşün necə getməsi haqqında geniş fikir söyləmək mümkün deyil. Hər halda məlum olan odur ki, Fətəli xan müttəfiq qüvvələrin qoşun dəstəsinə üstün gələ bilmədi və zərbə alaraq geri çəkilməli oldu. Tarixi ədəbiyyatda bildirilir ki, döyüşün əvvəlində Fətəli xan hərbi təşəbbüsü əlinə alsa da Dağıstan əmirlərinin qoşun dəstəsinin artan təzyiqi nəticəsində bu təşəbbüsü əldən verdi. Fətəli xan özü əvvəlcə Qubaya sığınmaq istədi. Lakin orada qalmağın qorxulu olduğunu görəndə Salyana çəkilməli oldu (192).

Quba xanlığının bir hissəsi Dağıstan əmirlərinin nəzarəti altına düşdü. Bununla kifayətlənməyən əmirlər Quba xanlığı üçün strateji əhəmiyyət kəsb edən Dərbənd qalasını almağa cəhd göstərdilər. Fətəli xanın yoxluğu dövründə Dərbəndin müdafiəsinə onun xanımı, Qavduşan döyüşündə Fətəli xana qarşı mövqe tutan Əmir Həmzənin bacısı Tuti Bikə rəhbərlik edirdi. Tarixi ədəbiyyatda bu məsələ geniş işıqlandırılmışdır. Qeyd etmək lazımdır ki, Tuti Bikə Fətəli xana sədaqət nümayiş etdirərək qardaşı Həmzənin təslim olmaq təklifini qəbul etmədi və Dərbənd qalasının qapısını Quba xanlığının işğalını qarşısına məqsəd qoymuş əmirlərin üzünə açmadı. Əmir Həmzə döyüşdə Fətəli xanın həlak olması xəbərini çatdırsa da Tuti Bikə kişi paltarı geyinib qala müdafiəçilərinə qoşuldu və ətrafındakıları da qalanın müdafiəsinə səfərbər etdi (193).

Bir müddət sonra Fətəli xan özü də Salyandan Dərbəndə gəldi və şəhərin müdafiəsini öz üzərinə götürdü. Fətəli xan ona qarşı səfərbər olmuş Dağıstan əmirlərinin birləşmiş qüvvələrinin müqavimətini təklikdə qıra bilməyəcəyi üçün Rusiya sarayından yardım istədi. Bununla bağlı hələ Salyanda ikən o, Rusiya çariçası II Yekaterinanın yanına öz nümayəndələrini göndərdi. Rusiya sarayı Fətəli xanın müraciətinə müsbət cavab verdi. Bu qərarın siyasi məqamlarına toxunmadan qeyd etmək lazımdır ki, Əmir Həmzə tərəfindən həbs edilmiş və həbsdə dünyasını dəyişmiş rus akademiki Qmelinin qisasını almaq bəhanəsi altında Rusiya sarayı Dağıstan əmirlərinə qarşı qoşun göndərilməsinə razı oldu. Tarixi ədəbiyyatda olan məlumata görə, akademik Qmelin elmi tədqiqatlar adı altında Qafqaza gəlsə də, eyni zamanda kəşfiyyat məlumatları da toplayırdı və buna görə də Əmir Həmzə tərəfindən həbs edilmişdi. Amma onun həbsdə dünyasını dəyişməsi Rusiya sarayı tərəfindən qəzəblə qarşılandı və Dağıstan əmirlərinin cəzalandırılması qərara alındı. Bu məqsədlə Şimalı Qafqazda olan rus qoşunları komandanı general-mayor Medemə tapşırıq verildi ki, Fətəli xana hərbi yardım göstərilsin və onu təzyiqlər altına almış Dağıstan əmirlərinə zərbə vurulsun. General Medem də bu tapşırığın icrası üçün Dərbəndə qoşun çıxardı. Əmir Həmzə rus qoşun dəstəsinə müqavimət göstərməyi qərarlaşdırsa da ciddi zərbə alıb geri çəkilmək məcburiyyətində qaldı. Fətəli xan rus qoşun dəstəsinin köməyə gəlməsindən istifadə edərək Əmir Həmzə ilə bərabər ona qarşı cəbhə tutmuş Qazıqumlaqlı Məhəmməd xana, Tabasaran hakiminə güclü zərbə vurdu. Bununla da o, Quba xanlığını yenidən öz nəzarəti altına almaqla, ona qarşı cəbhə tutanların da müqavimətini qırmağa müvəffəq oldu (194).

Fətəli xanın hakimiyyətini kifayət qədər möhkəmləndirdikdən sonra rus qoşun dəstəsi 1774-cü ilin sonunda Dərbəndi tərk etdi. Vəziyyətinin yaxşılaşmasından istifadə edən Fətəli xan Qarabağ xanlığına da iddia irəli sürməyə başladı. 1780-ci ildə Fətəli xan iki dəfə Qarabağ xanlığı üzərinə qoşun çəkdi. Lakin bu hücumların heç biri uğurla başa çatmadı. Bir tərəfdən Fətəli xanın möhkəmlənməsindən müəyyən narahatçılıqlar keçirən Kartli-Kaxetiya çarı Qarabağ xanına hərbi yardım göstərdi. Digər tərəfdən də Fətəli xanın dəstəsinə cəlb edilmiş dağıstanlı silahlılar ona sədaqətsizlik nümayiş etdirdilər. Onların Fətəli xanın dəstəsindən ayrılması Fətəli xanın gücünü də azaltdı. Bununla belə, Fətəli xan öz inadından əl çəkmədi, 1781-ci ildə yenidən Qarabağ xanlığına hücum etdi və Kür çayına qədər olan əraziləri ələ keçirdi (195).

Fətəli xanın iddiaları yalnız Qarabağ xanlığı ilə kifayətlənmirdi. O, gürcü çarlarını da öz nəzarəti altına almağı planlaşdırırdı. Lakin 1783-cü ildə Rusiya ilə Gürcüstan arasında Georgiyevsk traktatının bağlanması ilə Fətəli xan Gürcüstana olan iddialarından geri çəkilməli oldu. Çünki Rusiya sarayı Fətəli xanın bu niyyətlərinə dəstək vermədi və onu Gürcüstan üzərinə hü-

cumdan çəkindirməyə çalışdı. Belə olanda Fətəli xan bir müddət üzünü cənuba doğru istiqamətləndirdi. 1784-cü ildə Fətəli xan ətrafına topladığı böyük qoşun dəstəsi ilə Ərdəbilə doğru istiqamət götürdü. Əvvəlcə, Ərdəbili, sonra da Meşkini ələ keçirdi. Lakin uzun müddət bu əraziləri öz nəzarəti altında saxlaya bilmədi. Çünki Fətəli xanın ərazilərinin belə genişlənməsi və özünün də möhkəmlənməsi Rusiya sarayında da müəyyən narahatlıqlara səbəb olurdu.

1795-ci ilin fevralında knyaz Potyomkinin Fətəli xana göndərdiyi məktubda tələb olunurdu ki, cənuba göndərilmiş qoşunlar geri çağırılsın. Bu xəbərdarlığın ciddi olduğunu göstərmək üçün Rusiyanın təhriki ilə bəzi Dağıstan əmirləri Fətəli xana qarşı yenidən fəallaşmağa başladılar (196).

Bu tələbin qarşısında Fətəli xan qoşunları ilə geri çəkilmək məcburiyyətində qaldı. Sonrakı il Fətəli xanın başı daha çox Şamaxı və Şəki xanlıqları daxilində mövqe aydınlaşdırılmasına qarışdı. Fətəli xanın artan gücü və qüdrəti qarşısında Qarabağ xanı İbrahim xan da müəyyən narahatlıqlar keçirirdi. Buna görə də, Fətəli xanın zəiflədilməsi üçün İbrahim xan Şamaxı və Şəki xanlıqları daxilində Fətəli xana qarşı olan qüvvələrlə əlaqə yaradıb onları hər vasitə ilə Quba xanına qarşı səfərbər etməyə çalışdı. Fətəli xan isə İbrahim xanın təhrikçiliyinin qarşısını almaq və onu özündən asılı vəziyyətə salmaq üçün 1784-cü ildə yenidən İbrahim xanın üzərinə qoşun çəkdi. Bu yürüşdə Şəki xanı Əbdülqadir xan da Fətəli xanın yanında idi. Fətəli xan Ağdamı və Qarabağın aran zonasının böyük bir hissəsini var-yoxdan çıxardı. Bu zaman İbrahim xan yanında sığınacaq tapmış keçmiş Şəki xanı Hüseyn xanın oğlu Məhəmməd Həsən ağa yaranmış şəraitdən istifadə edərək Cara gedib ətrafına dəstə topladı və bu dəstənin köməyi ilə Şəki xanlığını öz nəzarəti altına ala bildi. Bunun nəticəsində Fətəli xan da Şəki xanlığı üzərindəki nəzarətini əldən verdi (197).

Amma bu hal uzun çəkmədi. Sonradan Qarabağ xanı ilə də barışan Fətəli xan həm Şamaxı, həm də Şəki xanlıqları üzərindəki nəzarətini bərpa etdi. Bununla demək olar ki, cənubi Qafqazın şərq hissəsi Fətəli xandan asılı vəziyyətə düşdü. 1879-cu ildə Fətəli xan Şamxor yaxınlığında Kartli-Kaxetiya çarı II İrakli ilə görüşdü və aralarındakı münasibətləri aydınlaşdırmağa çalışdı. Lakin elə həmin ildə də, yəni 1789-cu ildə Fətəli xan gözlənilmədən dünyasını dəyişməli oldu və bununla da Azərbaycanın şimal torpaqlarının bir xanlıq daxilində birləşdirilməsi hərəkatına son qoyuldu.

Fətəli xan Azərbaycanın xanlıqlar dövrünün görkəmli dövlət xadimlərindən biri idi. Güclü siyasi duyumu, təşkilatçılığı və sərkərdəlik və idarəetmə bacarığı ilə fərqlənən Fətəli xan hakimiyyətdə olduğu illərdə ətraf xanlıqların ərazisini özünə birləşdirməklə vahid dövlətin yaradılması istiqamətində inamlı və əhəmiyyətli addımlar ata bildi. A. Bakıxanov onu aşağıdakı

kimi xarakterizə edirdi: "Fətəli xan Qafqaz tarixində görkəmli şəxsdir. O öz zəkası, səxavəti və təşəbbüskar xarakteri nəticəsində yüksələ bilmişdi. Hakimiyyətə yiyələnəndən sonra onda ağıllı və işgüzar hakim keyfiyyətləri, bütün ətrafdakıları özünə cəlb etmək üçün xüsusi qabiliyyət, düşmənlərinin fəaliyyətini susdurmaq və ən çətin vəziyyətlərdən baş çıxarmaq keyfiyyətləri özünü göstərdi" (198).

Fətəli xanın vəfatından sonra böyük oğlu Əhməd xan onun yerinə xanlıq məqamına çatdı. O, atasından qalan irsi qorumaq istəsə də, atasının malik olduğu təcrübə və bacarıqdan çox uzaq idi. Ona görə Əhməd xan hakimiyyətə gələn kimi Quba xanlığından qopmalar başladı. Əvvəlcə, Şəki xanlığı Quba xanlığından ayrılmaq və müstəqilləşmək üçün əməli işlərə əl atdı. Baxmayaraq ki, Şəki xanı Məhəmməd Həsən xanı Əhməd xanla qan qohumluğu bağlayırdı, bununla belə müstəqilləşmək istəyi onları qarşı-qarşıya qoydu. Məhəmməd Həsən xan eyni zamanda şirvanlıları da Əhməd xana qarşı qaldırmağa müvəffəq oldu. Əhməd xan onlara qarşı müqavimət göstərməyə çalışsa da niyyətinə nail ola bilmədi və geri çəkilmək məcburiyyətində qaldı. Bununla da həm Şəki xanlığının, həm də Şamaxı xanlığının Quba xanlığından asılılığına son qoyuldu (199).

Yuxarıda qeyd edildiyi kimi, Əhməd xanın xanlığı dövründə onun Bakı xanı ilə münasibətlərində də bir narahatçılıq yaşandı. Bakıya göndərdiyi qoşun dəstəsi II Mİrzə Məhəmmədi xanlıqdan uzaqlaşdırsa da, xanlıq ərazisində möhkəm bir sabitlik yaranmadı. Bu da sözsüz ki, Quba xanlığı daxilində sabitliyin zəifləməsinə öz təsirini göstərdi.

Əhməd xanın xanlığı da uzun çəkmədi və o, 1791-ci ildə vəfat etdi. Onun yerinə qardaşı Şeyxəli xan Quba xanı elan olundu. Şeyxəli xanın dövründə də Quba xanlığının zəifləməsi davam etdi və rus işğalı ərəfəsində Quba xanının hakimiyyəti Quba və Dərbəndin çevrəsi ilə məhdudlanırdı. Quba xanlığının Rusiya tərəfindən işğalı da Şeyxəli xanın xanlığı dövründə baş verdi.

### *Şamaxı xanlığı*

Digər xanlıqlar kimi Şamaxı xanlığının müstəqilləşməsi üçün Səfəvilər hakimiyyətinin son dövründə artıq obyektiv zəmin formalaşmağa başlamışdı. Şamaxı xanlığının əhatə etdiyi ərazinin kifayət qədər inkişaf etmiş iqtisadi həyatı var idi. Doğrudur, Səfəvilər dövlətinin süquta başlaması burada iqtisadiyyatın inkişafına müəyyən çətinliklər yaradırdı. Bununla belə, Şamaxının xarici ticarət əlaqələrinin formalaşması iqtisadiyyatın inkişafına stimul olmaqla bərabər, mərkəzdən asılılığı da zəiflətməkdə idi. Səfəvilər dövründə Şamaxı ölkənin əsas ipək istehsalı mərkəzlərindən biri idi. Bu

bölgənin ipəyi həm Rusiya, həm də Rusiya və Osmanlı dövləti ərazilərindən keçməklə Avropa dövlətlərinə daşınırdı. Cənubi Qafqazın mərkəzində yerləşməklə Şamaxı həm də mühüm geostrateji əhəmiyyət kəsb edirdi. Ona görə də istər Rusiya, istərsə də Osmanlı dövləti Şamaxıda möhkəmlənməyə çalışırdılar.

Səfəvilər dövlətinin hakimiyyətinin son illərində Şamaxı ətrafında dövlət əleyhinə güclü çıxışlar baş verdi. Bu çıxışlar Nadir şah dövləti dövründə də təkrar olundu. Qeyd etmək lazımdır ki, bu çıxışlar öz kütləviliyi il fərqlənirdi. Sam Mirzə hərəkatı, Hacı Davud və Surxay xan hərəkatı buna misal ola bilər.

Nadir şahın qətlə yetirilməsi isə Şamaxı xanlığının müstəqilliyinə yol açdı. Hələ Nadir şah tərəfindən Şamaxıda vergilərin toplanmasına rəhbərlik edən Hacı Məhəmmədəli xan Nadir şahın qətlindən sonra yaranmış tarixi şəraitdən istifadə edərək Yeni Şamaxını öz nəzarəti altına aldı. A.Bakıxanov onun şamaxılılar tərəfindən xan seçildiyini yazırdı. Şamaxıda kifayət qədər nüfuz sahibi olan Xançobanı tayfasının Sərkarlar nəslinin nümayəndəsi Məhəmməd Səid xanla Ağası xan isə Köhnə Şamaxıda hakimiyyəti əllərinə aldılar və Şirvanın köçəri tayfalarını özlərinə tabe etdilər (200).

Yeni Şamaxıda Məhəmməd xanın, Köhnə Şamaxıda isə Sərkarlar nəslindən olan Allahverdi bəyin oğlanları Məhəmməd Səidlə Ağası xanın hakimlik etməsi Şamaxı xanlığının ikihakimiyyətlilik dövrü kimi xarakterizə olunur.

Şamaxı ərazisində qısa müddət ərzində mövcud olmuş bu xanlıqların hər biri qonşuları ilə münasibətlərini müstəqil şəkildə qurmuşdular. Tarixi mənbə və ədəbiyyatda Məhəmməd Səid xanla Ağası xanın kiçik qardaşı Ağarəzi bəyin də adı çox çəkilmişdir. Ağarəzi bəy kifayət qədər cəsur bir döyüşçü idi və ona görə də güman etmək olar ki, qardaşları tərəfindən ona hərbi yürüşlərə və ya hərbi yürüşlərə qarşı müqavimətə rəhbərlik etmək tapşırılmışdı. A. Bakıxanov onun 1749-cu ildə şahsevənlərin Şamaxı üzərinə hücumunun qarşısının alınmasında şücaət göstərdiyini qeyd edir. Ağarəzi bəy Şahsevənli Əhməd xanın qardaşı Məhəmmədrza bəyi döyüş zamanı qətlə yetirməyə müvəffəq oldu. Azərbaycan xanları ilə Kartli çarının tarixi qarşılaşması və onların əsirlikdən qurtarması üçün qoşun çəkən Hacı Çələbi xanın yanında Ağarəzinin də olması haqqında "Gülüstani-İrəm" əsərində məlumat vardır (201).

Şamaxı xanlığında ikihakimiyyətlilik 1761-ci ilə qədər davam etdi. Mövcud olan məlumatlara görə, həmin il yeni Şamaxının əhalisi Hacı Məhəmmədəli xanın yarıtmaz idarəçiliyindən, xalqı incitməsindən, şərab içməyə aludəçiliyindən Köhnə Şamaxının xanı Məhəmməd Səid xana şikayət etdilər və ondan yardım istədilər. Məhəmməd Səid xan əhali arasında olan

bu narazılıqlardan bəhrələnmək qərarına gəldi və Yeni Şamaxı üzərinə hücum etdi. Məhəmmədəli xan bu hücumun qarşısını saxlaya bilmədi. O, həbs edilərək Köhnə Şamaxıya gətirildi və bununla da Şamaxı xanlığı daxilində ikihakimiyyətliliyə son qoyuldu (202).

Birləşdirilmiş olan Şamaxı xanlığı aşağıdakı sərhəd xətti ilə əhatələnmişdi: xanlıq şimalda Samur çayı, cənubda isə Kür çayı ilə məhdudlaşırdı. Şərqdə xanlıq Xəzər dənizi və Bakı xanlığı, qərbdə Şəki və Qarabağ xanlığı, cənubda isə Lənkəran xanlığı ilə həmsərhəd idi. Xanlıq 17 mahaldan təşkil olunmuşdu və ərazisi 14500 kvadrat verstə çatırdı (203).

Şamaxı xanlığında ikihakimiyyətliliyə son qoyulması Quba xanlığında Fətəli xanın hakimiyyətinin ilk illərinə təsadüf edir. Şamaxının mərkəzləşdirilmiş hakimiyyət tərəfindən idarə edilməsi bu xanlığın gücünü artırsa da güclənməkdə olan Fətəli xanın bu xanlığa olan iddialarını heç də aradan qaldırmadı. Əksinə, Dərbənd xanlığını işğal edəndən və Bakı xanlığını da nəzarət altına aldıqdan sonra Şamaxı xanlığına qarşı təzyiqlərin genişləndirilməsi üçün daha yaxşı zəmin yarandı. Dərbənd xanlığı nəzarət altına alınandan sonra Dağıstan xalqlarının Şamaxı xanlığı üzərinə silahlı yürüşlərinin qarşısı alındı. Buna görə yuxarıda qeyd edildiyi kimi, Quba xanı Şamaxı xanlığını Dağıstan xalqlarının silahlı yürüşlərindən qoruduğu üçün 10 min rubl pul tələb etdi. Şamaxı xanı bu qədər vəsaiti vermək imkanında olmadığını bildirsə də sonradan razılığa gəlindi ki, Şamaxı xanlığı hər il Quba xanlığına müəyyən miqdar pul versin (204).

Amma məlumdur ki, bu anlaşma çox da uzun sürmədi. Şamaxı xanı Məhəmməd Səid xan Şəki xanı ilə formalaşan yaxşı münasibətlərə arxalanaraq Quba xanına vergi verməkdən imtina etdi. 1764-cü ildə Quba xanı Şəki xanı Hüseyn xanla ittifaqda Şamaxı xanlığı üzərinə hücuma keçdi. Bu dəfə də Məhəmməd Səid xan geri çəkilmək məcburiyyətində qaldı və hər iki xanlığa vergi ödəməyə razı oldu. Amma Məhəmməd Səid xan bu razılaşmanı da yerinə yetirmədi. Belə olanda 1768-ci ildə Quba və Şəki xanlıqlarının birləşmiş qoşunları bir daha Şamaxı xanlığı üzərinə hücum etdi. Mövcud olan məlumatlara görə, bu hücumun təşkili müəyyən qədər gözlənilməz oldu. Ona görə də Şamaxı xanı müdafiəni lazımi səviyyədə qura bilmədi. Bu isə öz növbəsində Şamaxı xanlığının müdafiəsinə öz mənfi təsirini göstərdi. Köhnə Şamaxının mühasirəyə alınması nəticəsində ətrafla əlaqələr kəsildi və şəhərə ərzaq gətirilməsinin qarşısı alındı. Ona görə də, Şamaxının əyanları, əhalisi mühasirəyə uzun müddət dözə bilmədilər və 1768-ci ilin iyun ayında Şamaxı xanlığı təslim oldu (205).

Bu döyüşdən sonra Şamaxı xanlığının az bir hissəsi Şəki xanlığının nəzarəti altına düşdü. Xanlığın əsas hissəsi isə Quba xanlığının nəzarəti altına keçdi. Məhəmməd Səid xanla Ağası xan hakimiyyətdən uzaqlaşdırıldılar.

Məhəmməd Səid xan Fətəli xan tərəfindən əsir edilərək Dərbəndə göndərildi. Ağası xan isə Şəki xanının əsirinə çevrildi və onun göstərişi əsasında Ağası xanın gözləri kor edildi. Tarixi mənbələrdə göstərilir ki, Şamaxı xanlarının və əyanlarının bir hissəsi Quba xanını öz düşmənləri saydıqları üçün şəkili Hüseyn xana təslim olmağı üstün tutdular. Ağası xan da bu qərara gələn şəxslər arasında idi. Amma bu şəxslər öz gümanında səhv etdilər. Şəki xanı ona pənah gətirmiş şəxsləri əsir etdikdən sonra Fətəli xana onlar haqqında məlumat göndərdi. Fətəli xan Ağası xandan qəzəbli olduğu üçün Hüseyn xana məsləhət gördü ki, onu dünya işığından məhrum etsin. Belə bir təklifi Fətəli xan həm də ona görə irəli sürürdü ki, Ağası xan qardaşı Məhəmməd Səid xandan fərqli olaraq cavan və enlikürək bir şəxs idi. O, gələcəkdə öz fəaliyyəti ilə Fətəli xan üçün yeni problemlər yarada bilərdi. Bu narahatçılığın qarşısını almaq üçün onun kor edilməsinə üstünlük verdi və şəkili Hüseyn xan da onun bu təklifini yerinə yetirdi (206).

Şamaxı xanlığından Şəki xanlığının idarəçiliyi altına düşmüş Sərdərin və Həsən mahallarının hakimi vəzifəsinə Şəki xanlarının nəslindən olan Manaf bəy təyin edildi. Mövcud olan tarixi məlumatlara görə, belə bir qənaətə gəlmək olar ki, Şəki xanı Hüseyn xan Şamaxı xanlığının ərazisinin Şəki və Quba xanlıqları arasında qeyri-bərabər bölüşdürülməsindən razı deyildi və bütün Şamaxı xanlığını öz nəzarəti altına almaq istəyirdi. Bu məqsədlə Manaf bəy Yeni və Köhnə Şamaxının əyanlarına arxalanaraq Quba xanını Şamaxıdan tamamilə sıxışdırmaq üçün gizli iş aparırdı. Bunun üçün Manaf bəy plan hazırladı və onun məzmunu haqqında şəkili Hüseyn xana da məlumat göndərdi. Plana əsasən nəzərdə tutulmuşdu ki, Şəki xanının rəhbərliyi altında gələn qoşun dəstəsinin köməyi ilə bütün Şamaxı xanlığı nəzarət altına alınsın. Amma tezliklə Şamaxı əyanları Quba xanının nəzarəti altından çıxarılacaq xanlığın yenidən Şəki xanının nəzarəti altına düşməsi ilə razı olmadılar. Ona görə hazırlanan planla bağlı Fətəli xana da məlumat çatdırıldı. O isə 1768-ci il avqust ayının 17-də qoşunu ilə Yeni Şamaxıya yaxınlaşaraq düşərgə saldı. Fətəli xan ciddi bir müqavimətə rast gəlmədən Yeni Şamaxını ələ keçirdi. Manaf bəy və onun silahdaşları əsir edilərək Dərbəndə göndərildi (207). Fətəli xanın bu yürüşündən sonra Şamaxı xanlığı tamamilə Quba xanlığından asılı vəziyyətə düşdü. Fətəli xanın ölümünə qədər Şamaxı xanlığı Quba xanlığından asılı vəziyyətdə qaldı. Doğrudur, həmin dövr ərzində Məhəmməd Səid xan, xüsusilə də kor edilmiş Ağası xan Şamaxı xanlığını öz hakimiyyəti altına qaytarmağa cəhd göstərdilər. Amma bu cəhdlər ciddi bir nəticə vermədi.

Hətta Şamaxının Ağası xan tərəfindən ələ keçirildiyi vaxtlar da olmuşdu. Məsələn 1774-cü ildə tarixi Qavduşan döyüşündən sonra Ağası xan şəkili Hüseyn xanla, habelə Dağıstan əmirləri ilə ittifaq bağlayaraq

Şamaxını ələ keçirə bildi. Amma o, Şamaxını uzun müddət nəzarət altında saxlaya bilmədi. Fətəli xanın gördüyü tədbirlər nəticəsində Ağası xan Şamaxıdan uzaqlaşmalı oldu və Şamaxı üzərində yenidən Fətəli xanın hakimiyyəti bərpa olundu.

1789-cu ildə Fətəli xan dünyasını dəyişəndən sonra Şamaxı xanlığı yenidən müstəqilləşdi və xanlıq daxilində hakimiyyətin ələ keçirilməsi uğrunda mübarizə başladı. Əvvəlcə, Şəki xanları nəslindən olan Manaf bəy bir daha Şamaxıda hakimiyyətə gətirildi. Amma onun hakimiyyəti möhkəm olmadı. Onunla birlikdə keçmiş Şamaxı xanları Məhəmməd Səid xanın oğlanları Əsgər bəylə Qasım bəy, habelə Ağası xanın oğlu Mustafa bəy hakimiyyət uğrunda iddialarını ortaya qoydular. Manaf bəydən sonra Əsgər bəy Şamaxı xanı elan edildi. 6 aydan sonra qardaşı Qasım bəy Şamaxı əyanlarının yardımlarına arxalanaraq Şamaxı xanlığını ələ keçirdi. Onun da hakimiyyəti uzun sürmədi. Qasım xanın qəddarlığına və özbaşınalıqlarına dözməyən yerli əhalinin istəyi ilə 1792-ci ildə Ağası xanın oğlu Mustafa bəy xanlıq məqamına gətirildi (208). Yenidən müstəqilliyini əldə etdikdən sonra Şamaxı xanlığının möhkəmlənməsi Mustafa xanın adı ilə bağlıdır. Şəki xanı ilə Quba xanı sonradan Şamaxı xanlığını yenidən nəzarət altına almağa çalışsalar da ciddi bir nəticəyə nail ola bilmədilər. Xanlığın Rusiya tərəfindən işğalı Mustafa xanın hakimiyyəti illərində baş verdi.

### *Lənkəran xanlığı*

Bu xanlıq mənbələrdə və tarixi ədəbiyyatda Talış xanlığı kimi də təqdim olunur. Lənkəran xanlığı Xəzər dənizi boyunca yerləşirdi. Xanlıq Talış dağları ilə, qərbdə Qarabağ xanlığı, şimalda Şamaxı və Bakı xanlıqları ilə, habelə Muğan düzü, cənubda isə Gilan və Ərdəbil xanlığı ilə məhdudlanırdı. Səfəvi dövləti illərində Lənkəran xanlığının ərazisinin Gilan vilayətinin tərkibində olması haqqında məlumatlar vardır. Sonradan isə Lənkəran xanlığı ərazisində üç ərazi-inzibati vahid formalaşdı və onlar ölkə adı ilə Səfəvi dövləti tərəfindən idarə olunurdu. Bu ərazi vahidləri Lənkəran, Astara və Qızılağac idi (209).

XVIII əsrin birinci rübünün sonlarında Rusiya qoşunları Xəzəryanı ərazilərə hücum edəndə Lənkəran hakimi Mir Abbas, Astara hakimi Musa xan, Qızılağac hakimi isə Becan Sultan idi (210). Lənkəran bölgəsindəki inzibati ərazi vahidlərində də mərkəzə bağlılıq xeyli zəifləmişdi və bu bağlılıq daha çox formal xarakter daşıyırdı. Rusiya qoşunlarının bölgəyə gəlməsi isə yerli hakimləri ciddi seçim qarşısında qoydu. Çünki bölgə hakimləri özlərini Rusiya qoşunlarından qorumaq imkanında deyildilər. Ona

görə də onlar hakimiyyətlərini qorumaq üçün Rusiya sarayına loyallıqlarını nümayiş etdirirdilər.

Məlumdur ki, 1722-ci ilin oktyabrında Rəşt hakimi ruslardan kömək almaq məqsədilə Həştərxana məktub göndərdi. Rəşt hakimi ölkədə genişlənməkdə olan əfqan qiyamından ehtiyat edirdi və bu qiyamdan qorunmaq üçün ruslardan kömək almaq istəyirdi (211). Baxmayaraq ki, I Pyotr bu zaman Dərbəndin işğalından sonra Bakıya yürüşü təxirə salmışdı, Gilana qoşun göndərməyi vacib bildi. Həmin yürüşü həyata keçirmək üçün çarın fərmanına əsasən, səfərə 14 gəmi və 2 tabor hazırlandı. Məlumdur ki, kapitan Soymonovla polkovnik Şipovun rəhbərlik etdiyi həmin dəstə 1722-ci il noyabr ayının 4-də Həştərxandan yola düşdü. Səfər zamanı rus hərbçiləri Xəzər sahili ərazilərin kəşfiyyatını aparırdılar. Rus qoşun dəstəsinin Lənkəran sahillərindən keçərək Ənzəliyə çıxması bölgənin hakimlərində müəyyən narahatçılıqlar yaratdı. Tarixi ədəbiyyatda olan bəzi məlumatlara görə, bu səfər zamanı rus qoşunları Lənkəran ətrafında hətta quruya çıxdılar və 1722-ci ilin sonlarından başlayaraq təxminən 10 illik bir müddətdə Lənkəran bölgəsi rusların nəzarəti altına düşdü. Bildirilir ki, ruslar həmin illərdə Lənkəranda, Astarada və Qızılağacda müdafiə istehkamlarını tikdilər (212).

1724-cü ildə İstanbulda Səfəvilər dövlətinin şimal ərazilərinin bölüşdürülməsi üçün Rusiya ilə Osmanlı dövləti arasında imzalanan müqaviləyə əsasən, Xəzəryanı ərazilərin, o cümlədən də Lənkəran bölgəsinin Rusiyanın nəzarəti altına verilməsi bölgənin böyük dövlətləri arasında razılaşdırıldı. Doğrudur, Osmanlı dövləti də bölgəni nəzarət altında saxlamaq istəyirdi və onların tətbiq etdiyi yüksək vergilər isə əhali tərəfindən narazılıqla qarşılanırdı. Lənkəran hakimləri də güman edirdilər ki, rusların bölgəyə gəlməsi onların vergi yüklərindən müəyyən qədər azad olması ilə nəticələnə bilər. Görünür elə bunun üçün idi ki, Lənkəran hakimi Mirabbas sonralar Bakıdakı rus komendantına məktub göndərib rus qoşunlarını Lənkərana dəvət etdi. Mirabbasın rus himayəsinə meylli olması bölgədəki osmanlıların qəzəbinə səbəb oldu. Ona görə onlar Mirabbası qətlə yetirdilər. Onun öldürülməsindən sonra Lənkəran hakimi Mirabbasın qardaşı Mirəziz oldu (213).

Osmanlıların bölgə hakimlərinə və əhalisinə qarşı belə sərt tədbirlərə əl atması həm Mirəziz xanı, həm də Astara hakimi Musa xanı ehtiyatlı olmağa və öz təhlükəsizlikləri üçün təminatı Rusiya himayəsində axtarmağa sövq etdi. Bununla bağlı, 1726-cı ildə Lənkəran hakimi Mirəzizlə Astara hakimi Musa xan Rusiyanın Gilandakı qüvvələrinin rəhbəri Dolqoruki ilə əlaqə saxlayıb Rusiya himayəsini qəbul etməyə hazır olduqlarını bildirdilər. 1727-ci ildə isə Qızılağac hakimi Becan Sultan Rusiya himayəsi üçün Dolqorukiyə

müraciət etdi. Rus hakimi bu təklifi qəbul etdi və bölgə hakimlərinin nəzarət altında saxlanması üçün Lənkərana qoşun dəstəsi göndərildi (214).

XVIII əsrin 30-cu illəri Nadir Əfşarın fəaliyyətinin genişləndiyi dövrə təsadüf edir. Bir tərəfdən münasib olmayan beynəlxalq şərait, digər tərəfdən də Nadir Əfşarın Səfəvi sərhədlərinin bərpası istiqamətində davam etdirdiyi uğurlu döyüşlər Rusiyanı da işğal etdiyi Xəzəryanı ərazilərdən çəkilmək qərarına gətirdi. Bununla bağlı 1732-ci ildə Rusiya nümayəndələri ilə Səfəvi dövləti nümayəndələri arasında Rəşt müqaviləsi imzalandı. Həmin müqaviləyə əsasən, Kür çayının mənsəbindən cənubda olan Xəzəryanı ərazilər Rusiya qoşunları tərəfindən tərk edilməli idi. 1735-ci ildə Gəncədə imzalanan müqaviləyə görə isə Rusiya bütün Xəzəryanı ərazilərdən geri çəkilməli idi. Nadir Əfşar bunun əvəzində Rəştdə konsulluq açmaq və ipək ticarətinin davam etdirilməsi üçün isə Ənzəlidə nümayəndəlik açmaq haqqını Rusiyaya vermişdi (215).

Xəzəryanı ərazilərlə birlikdə Lənkəran bölgəsi də Nadir Əfşarın nəzarəti altına düşdü. Belə olanda bölgənin hakimləri də Nadir Əfşara öz sədaqətini ifadə etdilər. Bununla belə, Nadir tərəfindən müəyyənləşdirilmiş olan ağır vergilər bölgə əhalisinin narazılıqlarına səbəb oldu. Yerli əhali hətta silaha əl ataraq Nadirin bölgəyə gəlmiş vergi məmurları üzərinə hücum çəkdilər və onları məcbur etdilər ki, bölgədən uzaqlaşsınlar. Bu hadisə 1735-ci ildə, Nadir Əfşarın Şamaxı üzərinə hücuma başladığı vaxt baş vermişdi. Nadir həmin vaxt Surxay xan hərəkatının yatırılması ilə məşğul olduğu üçün Ərdəbil və Gilan hakimlərinə, habelə Astara hakimi Mustafa xana tapşırıq verdi ki, vergi məmurlarına qarşı üsyan qaldırmış əhalini sakitləşdirsinlər. Bildirilir ki, bölgədə üsyan qaldıranlar Surxay xandan və həmçinin osmanlılardan yardım alırdılar. Buna görə üsyançılar müqavimət göstərəcəklərinə arxayın olsalar da onlara qarşı göndərilən qüvvələrin qarşısını kəsə bilmədilər. Nadir Əfşarın qüvvələri üsyançılara qarşı sərt mövqe tutdular və üsyançılara ciddi zərbə endirdilər. Onların arasında qırılanlar da oldu. Üsyanın rəhbərlərindən olan Cəlal xan adlı birisi həbs edilərək Nadirin yanına aparıldı və onun göstərişi əsasında qətlə yetirildi (216).

Məlumdur ki, Nadir Əfşar Şamaxıda genişlənməkdə olan antidövlət hərəkatının rəhbəri Surxay xana məktub göndərdi və ondan tələb etdi ki, Şirvanı tərk etsin. Surxay xan da bu tələbə qarşı məşhur olan cavabı verdi və bildirdi ki, "o, Şirvana ləzgi şirlərinin qılıncı gücünə yiyələnmişdir, heç kəsin ona belə təklif verməyə ixtiyarı yoxdur " (217).

Tarixi ədəbiyyatda olan məlumata görə, Nadirin tələbini əks etdirən bu məktub Surxay xana Astara xanı Musa xan tərəfindən çatdırılmışdı. Surxay xanın cavabını eşidəndən sonra Nadir Şamaxı üzərinə hücumu qətiləşdirdi və Musa xandan tələb etdi ki, dəstəsi ilə ona qoşulsun. Musa xan da bölgə

bəylərinə xəbər göndərdi ki, öz döyüşçüləri ilə birlikdə Nadirin Şirvan yürüşlərinə qoşulsunlar. Musa xan 600 döyüşçü ilə Nadirin qoşununa qatıldı (218).

Bununla belə, Astara hakimi Musa xanın Nadirə olan itaəti çox da uzun sürmədi və Nadir özünü şah elan etdikdən sonra Musa xanla olan münasibətləri xeyli mürəkkəbləşdi. Bəzi məlumatlar Lənkəran hakimi Seyid Mir Abbasın Nadir şahla Musa xan arasında vəziyyətin mürəkkəbləşməsindən məharətlə istifadə etdiyindən xəbər verirlər.

Seyid Mir Abbas Lənkəranın xanlıq nəslinin başlanğıcı hesab olunur. O da Nadir Əfşara loyallığı ilə seçilirdi və 1736-cı ildə Nadirin şah elan edilməsi üçün Muğanda təşkil olunmuş qurultayda o da iştirak etdi. Əslində, Nadir özü fərman vermişdi ki, Talış bölgəsinin tayfalarından 500 nəfər Muğan qurultayının təşkilində iştirak etsin. Bildirilir ki, Mir Abbas bu qurultayda fəal iştirak etməklə astaralı Musa xanla müqayisədə Nadirin daha çox rəğbətini qazanmaq istəyirdi. Mir Abbas burada olarkən oğlu Camaləddini də gətirib Nadirə təqdim etdi və Nadir də onu qoşunlarına qəbul edib yüzbaşı vəzifəsinə təyin etdi. Qarayanız olduğu üçün Nadir Camaləddini "Qara bəy" deyə çağırırdı. Ona görə tarixi ədəbiyyatda da o daha çox "Qara bəy" kimi tanınmışdır (219).

Qeyd etmək lazımdır ki, Mir Abbas Nadir şahın rəğbətini qazana bildi. Onun rəqabətdə olduğu Musa xan isə Nadirin şah elan edilməsindən sonra müxalifətçiliyə doğru meyl etdi. Nadir şaha qarşı ehtiyatlı mövqe tutan və var-dövlətini Nadir şahın müsadirəsindən qorumağa çalışan tək Musa xan deyildi. Bu xanlar hiss edirdilər ki, nə vaxtsa Nadirin şahın qəzəbinə rast gələ bilərlər və ona görə də onlar ruslarla əlaqə saxlamağa və onların himayəsinə sığınmağa cəhd göstərirdilər. Musa xan Lənkərana və Astaraya səfər edən rus tacirləri vasitəsilə Həştərxandakı Rusiya məqamları ilə əlaqə yaratdı, həmin məqamlara məktub göndərdi və Rusiyaya olan rəğbətini bəyan etdi. Bundan xəbər tutulan kimi Musa xan həbsə alındı və Astara hakimliyindən kənarlaşdırıldı (220).

Lənkəran xanlığının Nadir şah dövrünə aid olan tarixi mənbələri və tarixi ədəbiyyatındakı məlumatlar arasında bir qarışıqlıq mövcuddur. Bu qarışıqlığa görə, tarixi şəxsiyyətlərin xronoloji ardıcıllığını aydın şəkildə müəyyənləşdirmək mümkün olmur. Bununla belə qeyd olunduğu kimi, Seyid Mir Abbas Lənkəran xanları sülaləsinin banisi hesab olunur. Lənkəran xanlığının ərazi vahidi kimi formalaşması onun hakimiyyəti illərinə, müstəqil xanlıq kimi formalaşması isə oğlu Qara xanın hakimiyyəti illərinə təsadüf edir. Qara xan 1747-ci ildən 1783-cü ilə qədər Lənkəran xanı oldu və Nadir şahın ölümündən sonra Lənkəran xanlığının müstəqilliyinə nail oldu. Tarixi məlumatlara görə, Qara xan Nadir şah qoşunlarının bacarıqlı sərkərdələrindən

biri olmaqla Nadir şah yanında da hörmət və ehtirama malik idi. 1744-cü ildə bütün ölkəni üsyanlar dalğası bürüyəndə Lənkəran bölgəsinin əhalisi də Nadir şaha qarşı itaətsizlik göstərdi. Həmin itaətsizliyin aradan qaldırılması üçün Nadir şah Qara bəyi 1500 nəfərlik dəstəsi ilə bölgəyə göndərdi. Amma Qara bəy meşələrə və dağlara sığınan üsyançıların müqavimətini tam qıra bilmədi. Onda Nadir şah 3 min nəfərlik əfqan dəstəsini onun köməyinə göndərdi. Bundan sonra Qara bəy üsyançıların müqavimətini qırmağa müvəffəq oldu (221).

Nadir şah qoşunları tərkibində göstərdiyi şücaətlərə görə Qara bəy "xan" məqamına yüksəldildi. Eyni zamanda Nadir şahın fərmanına əsasən, Qara xanın anadan olduğu Uluf mahalı tiyul kimi ona bağışlandı. Nadir şahın qətlindən sonra Qara xan və Astaranın keçmiş hakimi Musa xan bölgəyə gəldilər və burada öz hakimiyyətlərini bərpa etməyə çalışdılar (222). Qara xanın sonradan Lənkəran xanı kimi tanınmasından belə nəticə hasil olur ki, o, Musa xanla mübarizədə üstün oldu.

Qara xan Nadir şahın ölümündən sonra Lənkəran xanlığının mərkəzini Astaradan Lənkərana köçürdü, ticarətin, iqtisadiyyatın, sənətkarlığın inkişafı üçün tədbirlər görməyə başladı. Onun xanlığı dğvründə bir sıra qalaların bünövrəsi qoyuldu. Xanlığın hərbi-siyasi baxımdan möhkəmləndirilməsi diqqət mərkəzinə gətirildi. Lənkəran kiçik yaşayış məntəqəsindən çoxlu karvansaraları, məscidləri, müdafiə qurğuları olan bir şəhərə çevrildi. Lənkəran xanlığının inkişafı və möhkəmlənməsi onunla çəkişmədə olan digər xanlıqların istəyincə deyildi. Buna görə də, 1768-ci ildə Gilan hakimi Hidayət xan 12 min nəfərlik qoşunla Lənkəran xanlığı üzərinə hücum etdi. O, Qara xandan itaət göstərməsini və illik bac verməsini tələb etdi. Qara xan irəli sürülən tələblə razı olmadıqda xanlıq ərazisi talanlara məruz qaldı və Qara xan özü isə həbs edildi. Yalnız böyük miqdarda bac verəndən sonra Qara xan həbsdən azad oldu. Qara xanın azad olunması məsələsinə Quba xanı Fətəli xan da qarışdı və onun Hidayət xana göndərdiyi tələblər Qara xanın azad edilməsinə təsir göstərdi.

Başqa bir məlumata görə isə Qara xan oğlanları Mustafa bəylə və Mirəsgər bəylə birlikdə həbsə alınıb Rəşt şəhərinə aparıldılar. Bir müddət Rəştdə qaldıqdan sonra Qara xan və onun oğlanları həbsdən xilas olub yenidən Lənkəran bölgəsinə qayıtdılar və xanlıqda hakimiyyəti yenidən əllərinə aldılar. Yenidən Hidayət xanın təcavüzü ilə rastlaşmamaq üçün Qara xan Korqanrud hakimi Aslan xanla və Əsalim hakimi İbrahim xan ilə qarşılıqlı münasibət yaratdı. Bununla kifayətlənməyən Qara xan Fətəli xanla münasibətləri yaxşılaşdırmaq və onun yardımlarına arxalanmaq üçün Qara xan qardaşı Kərbəlayı Sultanı Qubaya göndərdi. Fətəli xan Lənkəran xanlığı üzərində öz nüfuzunu möhkəmləndirmək üçün Qara xanla ittifaq yaratmağa

razılıq verdi. Amma Fətəli xan Lənkəran xanlığı ilə sadəcə ittifaq münasibəti qurmaqla kifayətlənmədi və bu xanlığı bütünlüklə asılı vəziyyətə salmaq üçün 1781-ci ildə xanlıq üzərinə əmisi oğlu Mirzə bəy Bayatın rəhbərliyi altında qoşun dəstəsi göndərdi (223).

Görünür Mirzə bəy Bayatın bu yürüşü uğursuzluqla başa çatmışdı. Çünki mövcud olan məlumatlara görə, Lənkəran xanlığı 1784-cü ildə Quba xanlığından asılı vəziyyətə düşdü. Bu da Fətəli xanın Ərdəbil, Meşkin və onlarla qonşu olan ərazilərin işğalına qoşun çıxarması ilə bağlı idi. Həmin yürüş zamanı Fətəli xan Lənkəran xanlığını da ələ keçirdi və Qara xan bütün ailəsi ilə birlikdə həbs edildi. Qara xan və ailəsi Bakıya sürgün olundu. Yuxarıda qeyd edildiyi kimi, Rusiya hökumətinin təzyiqləri nəticəsində Fətəli xan öz qoşunlarını Ərdəbillə Meşkindən, habelə Lənkəran xanlığından geri çəkdi. Qara xan da həbsdən azad edildi və o, Lənkərana qayıdaraq yenidən öz məqamına yüksəldi (224).

Qara xan 1768-ci ildə dünyasını dəyişdi. Onun yerinə xanlıq məqamına böyük oğlu Mir Mustafa xan gətirildi. Lənkəran xanlığının işğal edilməsi və ləğv olunması da Mir Mustafa xanın xanlıq dövrünə təsadüf edir.

### *Naxçıvan xanlığı*

Digər Azərbaycan xanlıqları kimi Naxçıvan xanlığının formalaşması da Nadir şahın dünyasını dəyişməsindən sonrakı dövrə təsadüf edir. Qeyd etmək lazımdır ki, bu xanlığın ərazisi Səfəvi və Osmanlı dövlətlərinin sərhədində yerləşməsi etibarilə Səfəvi dövlətinin süqutu ərəfəsində Osmanlı yürüşlərinə məruz qalmışdı. Osmanlı imperiyasından Cənubi Qafqaza aparan yolların Naxçıvan bölgəsindən keçməsi də bu xanlığın coğrafi həssaslığına yol açırdı.

Məlumdur ki, XVIII əsrin birinci rübünün sonlarında Rusiya ilə Osmanlı dövləti arasında ərazilərin bölüşdürülməsi uğrunda ciddi mübarizə başladı. İki dövlət arasında aparılan müzakirələrin nəticəsi kimi 1724-cü ildə İstanbulda imzalanan müqaviləyə əsasən, Azərbaycanla mərkəzi, şərq və qərb əraziləri, o cümlədən də Naxçıvan bölgəsi Osmanlı dövlətinin nəzarəti altına düşdü. Bu vəziyyət Nadirin özünü şah elan etməsi vaxtlarına qədər davam etdi.

Nadir Əfşarın fəal döyüşlər aparması nəticəsində Səfəvilər dövlətinin qərb sərhədlərinin Osmanlı nəzarətindən azad edilməsi və Naxçıvan bölgəsinin də yenidən Səfəvi dövlətinə qaytarılması üçün tarixi bir fürsət fürsəti yarandı. Amma Şah Təhmasibin Nadir Əfşarla razılaşdırmadan Təbrizə qoşun çıxarması və sonra da İrəvana doğru istiqamət götürməsi

vəziyyəti mürəkkəbləşdirdi. Şah Təhmasibin qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidəndə Naxçıvan və Ordubaddakı qarnizonları döyüşə girmədən İrəvana doğru geri çəkildilər. İrəvan ətrafında Şah Təhmasibin rəhbərlik etdiyi qoşunla Osmanlı qoşunları arasında döyüş baş verdi. Şah Təhmasib rəhbərlik etdiyi qoşun dəstəsi ilə iştirak etdiyi döyüşdə kiçik uğur qazansa da sonrakı döyüşlərdə ciddi zərbə aldı və sürətlə geri çəkilməyə başladı. Həmin uğursuzluğun nəticələri 1732-ci ilin yanvarında Şah Təhmasiblə Osmanlı dövləti arasında imzalanan müqavilədə də öz əksini tapdı. Bu müqaviləyə görə, Qərbi Azərbaycan torpaqları, o cümlədən də Naxçıvan bölgəsi Osmanlı dövlətinin nəzarəti altında qalmalı oldu (225).

1735-ci ildə Nadirin İrəvan ətrafında Osmanlı qüvvələrinə üstün gəlməsindən sonra Naxçıvan bölgəsi yenidən Səfəvi dövlətinin, sonradan isə Əfşarlar dövlətinin sərhədləri daxilinə salındı. Mirzə Rza adlı birisi Naxçıvana hakim təyin olundu (226). Mirzə Rzanın hakimliyi xalqa qarşı qəddarlığı, amansızlığı ilə müşayiət olunurdu. Ona görə ona qarşı narazılıq genişləndi. Mövcud olan məlumatlara görə, Mirzə Rza Naxçıvana aid olan 82 kəndin hamısından vergi topladığı halda, bu vergilərin heç də hamısını dövlət xəzinəsinə çatdırmırdı. Yerli hakimin belə özbaşınalığından Nadir də xəbər tutdu və xeyli qəzəbləndi. Mirzə Rzanın soyğunçuluğu və qanunsuz əməlləri xalq arasında narazılıqlara və kütləvi çıxışlara çevrilməsinə də zəmin yaratdı. Belə kütləvi çıxışların qarşısının alınması üçün Nadir tərəfindən Kəngərli tayfasının bir çox üzvləri Əfqanıstana sürgün edildilər (227).

Mirzə Rzanın idarəçilik işlərində yol verdiyi qəddarlıq və qanunsuzluqlar Nadirə bəlli olanda onu kənarlaşdıraraq yerinə Ağa Həsən adlı birisini təyin etdi. Lakin Ağa Həsənin idarəçiliyi də xalqın həyatında müsbət dəyişikliklər yaratmadı. Əksinə, onun hakim təyin olunmasından çox keçməmiş xalq kütlələri arasında narazılıqlar artdı və hətta hakimiyyətə qarşı çıxışlar da baş verdi. Tarixi ədəbiyyatdakı məlumata görə, Naxçıvan bölgəsində hakimiyyət əleyhinə çıxışların nəzarət altına alınmasını Nadir şah İrəvan hakiminə tapşırdı (228).

Nadir şah haqqında mövcud olan mötəbər yazılı mənbələrdə Naxçıvan bölgəsində hakimiyyət əleyhinə kütləvi və uzunmüddətli çıxışların baş verməsi haqqında məlumat yoxdur. Ola bilsin ki, Naxçıvanda hakimiyyət əleyhinə çıxışlar baş qaldırmışdısa da, onlar tez bir zamanda nəzarət altına alınmışdılar. Nadir şahın ölümündən sonra Naxçıvan da xanlıq şəklində müstəqilləşdi. Kəngərli tayfasının başçısı Heydərqulu xan Kəngərli Nadir şah tərəfindən təyin olunan Ağa Həsəni bölgədən uzaqlaşdıraraq özünü xan

elan etdi. Qeyd etmək lazımdır ki, Kəngərlilər tayfası Azərbaycan tarixində, o cümlədən Naxçıvan tarixində döyüşgən və mübariz bir tayfa kimi özünə yer tapmışdır. Heydərqulu xan da Nadir şahın ölümündən sonra həm tayfa üzvlərini, həm də Naxçıvan bölgəsi əhalisini ətrafında səfərbər edərək xanlığın idarəçiliyini ələ keçirə bildi. Hakimiyyətə gəlməsindən sonra Heydərqulu xanın xanlığın möhkəmləndirilməsi, xəzinə gəlirlərinin artırılması üçün ticarətin və sənətkarlığın inkişafı, yollaırn abadlaşdırılması, körpülərin tikilməsi və təmiri haqqında əhəmiyyətli işlər görməsi haqqında məlumatlar vardır (229).

Ərazisinin sahəsinə və insan ehtiyatlarına görə Naxçıvan xanlığının hərbi potensialı digər xanlıqların və kənar qüvvələrin təzyiqlərinə tam davam gətirməyə yetərli səviyyədə deyildi. Ona görə istər Heydərqulu xan, istəsə də ondan sonra gələn xanlar digər xanlıqlarla ittifaq münasibətlərinin yaradılmasına xüsusi əhəmiyyət verirdilər.

1763-cü ildə dünyasını dəyişən Heydərqulu xandan sonra Naxçıvan xanlığının həyatında və tarixində önəmli fəaliyyəti ilə fərqlənən xanlardan biri də Kəlbəli xan Kəngərlidir. Onun xanlığı 1787-1800-cü illəri əhatə edir. Heydərqulu xandan sonra Kəlbəli xanın hakimiyyətə gəlməsinə qədər arada qalan dövr isə Naxçıvan xanlığı üçün qeyri-sabit bir dövrdür. Bu dövrdə bir-birinin ardınca Hacı xan Kəngərli (1763-1779), Rəhim xan, Əliqulu xan, Vəliqulu xan, Abbasqulu xan, Cəfərqulu xan, Şükrəli xan hakimiyyətə gəldilər. Kəlbəli xanın dövründə Naxçıvan xanlığı beynəlxalq münasibətlərin subyektinə çevrildi və sonradan Naxçıvanın Rusiya tərəfindən işğalı da onun dövründə baş verdi.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. لارودی ن. نادر پسر شمشیر. تهران، ۱۳۸۳، ; قدوسی م. نادرنامه. خراسان، ۱۳۳۹، ص.۴۶۲
ص.۳۰

2. مروی. عالم آرای نادری. جلد اول، تهران، ۱۳۷۴، ص.۶

3. Mustafazadə T. Ümumi tarix. I kitab, Bakı, 2009, s.941

4. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение его с Россией. Баку, 1965, с.77

5. Azərbaycan tarixi. Bakı, 1994, s.516-520

6. سمنانی پناهی. نادر شاه. بازتاب حماسه و فاجعه ملی. تهران، ۱۳۶۸، ص.۲۸۴-۲۸۵

7. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۰۸۳

8. پری. کریم خان زند. تهران، ۱۳۶۵، ص.۴

9. آسترابادی م. تاریخ جهانگشای نادری. تهران، ۱۳۶۸، ص.۵۴۳

10. پری. کریم خان زند. تهران، ۱۳۶۵، ص.۴

11. پری. کریم خان زند. تهران، ۱۳۶۵، ص.۵

12. آسترابادی م. تاریخ جهانگشای نادری. تهران، ۱۳۶۸، ص.۵۴۵

13. خاطرات طبیب مخصوص نادر شاه، ص.۸۳۹؛ در کتاب افراسیبی عقاب کلات. تهران، ۱۳۷۰، ص.۸۰۳-۸۵۱

14. آسترابادی م ، ص.۵۴۵

15. خاطرات طبیب مخصوص نادر شاه، ص.۸۴۴ ; آسترابادی م ، ص.۵۴۶

16. آسترابادی م ، ص.۵۴۷

17. پری. کریم خان زند. تهران، ۱۳۶۵، ص.۲۷

18. لارودی ، ص.۲۴۷

19. Mustafayev N. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995, s.42

20. Историческая география Западного Азербайджана. Баку, 1988, с.48-49

21. Акопян Т.Х. Очерки истории Еревана. Ереван, 1977, с.48-49

22. هویان. ایرانیان ارامنه. تهران، ۱۳۸۱، ص.۱۷

23. www.visitarm.com|yerevanhistory.htm

24. Акопян Т.Х. Очерки истории Еревана. Ереван, 1977, с.86

25. موریس بویه. مسافرت به ایران. تهران، ۱۳۶۵، ص.۱۲۹

26. Bax: Rusiya Mərkəzi dövlət arxivi, Hərbi elmi arxiv fondu, iş 4326, v.129

27. www.visitarm.com|yerevanhistory.htm

28. www.visitarm.com|yerevanhistory.htm

29. موریس بویه. مسافرت به ایران. تهران، ۱۳۶۵، ص.۱۲۹

30. موریس بویه. مسافرت به ایران. تهران، ۱۳۶۵، ص.۱۲۹

30a. حانوی. هجوم افغان و زوال دولت دولت اصفهان. نهران، ۱۳۶۷، ص.۲۱۳-۲۱۴

31. مروی. عالم آرای نادری. جلد اول، تهران، ۱۳۷۴، ص.۳۸۹

32. آسترابادی م. تاریخ جهانگشای نادری. تهران، ۱۳۶۸، ص.۳۳۲

33. Lokkart L. Nadir şax. Baku, 2002, s.108-109

34. Историческая география ... с.48-49

35. Парсамян В.А. История армянского народа. Кн.1, Ереван, 1972, с.32-33

36. Шопен И. Исторический памятник состояний Армянской области в эпоху ее присоединение к Русской империи. Саикт-Петербург, 1852, с.442-446
37. Акопян Т.Х.. ... с.54
38. Yenə orada, s.54-55
39. Xəzani, Mir Mehdi "Kitabi tarixi Qarabağ", s.99. Bax: Qarabağnamələr. İkinci kitab, Bakı 1991 s.94-204
40. Fəna, Mirzə Rəhim. "Tarixi cədidi Qarabağ", s.250. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.248-268
41. Абасов Ф.Гарабахское ханство. Баку, 2007, с.49
42. Xəzani M.M. ... s.104-105; Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xanın və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, s.208-209. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.203-248; Mirzə Adıgözəl bəy. Qarabağnamə, s.31. Bax: Qarabağnamələr. Birinci kitab. Bakı, 1989, s.5-104
43. Əhmədi Hüseyn. Mirzə Camal Cavanşir Qarabağinin "Tarixi Qarabağ" kitabına ( Tehran, 1384) kitabına müqəddəmə, s.20
44. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, s.14
45. Xəzani M.M. ... s.105; Mirzə Adıgözəl bəy ... s.31
46. Əlizadə, Həsən İxfa. Şuşa şəhərinin tarixi, s.313. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.310-350
47. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.30; Azərbaycan tarixi. Bakı, 1994, s.531
48. Mirzə Adıgözəl bəy ... s.31; Qarabaği Həsənəli. Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları (iqtibas), s.355; Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.350-360
49. Xəzani M.M. ... s.106
50. Rzaqulu bəy Mirzə Camal oğlu ... s.204
51. Mirzə Adıgözəi bəy ... s.31
52. Xəzani M.M. ... s.106
53. Qaradaği H. ... s.355
54. Mirzə Adıgözəl bəy ... s.32
55. Mirzə Camal Cavanşir Qarabaği ... s.14; Xəzani M.M. ... s.106
56. Mirzə Camal Cavanşir Qarabaği ... s.14; Rzaqulu bəy Mİrzə Camal oğlu ... s.174; Əlizadə H.İ. ... s.313
57. Xəzani M.M. ... s.106-107
58. Mirzə Camal Cavanşir Qarabaği ... s.14; Qaradaği H. ... s.355
59. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 17047-1805-ci illərdə siyasi vəziyyətinə dair, s.157. Bax: Qarabağnamələr. Birinci kitab. Bakı, 1989, s.150-183
60. Yenə orada, s.158
61. Xəzani M.M. ... s.107; Mirzə Adıgözəl bəy ... s.32
62. Əhməd bəy Cavanşir ... s.158
63. Mirzə Adıgözəl bəy ... s.32
64. Mirzə Camal Cavanşir Qarabaği ... s.14-15
65. Əhməd bəy Cavanşir ... s.159
66. Xəzani M.M. ... s.109; Mirzə Adıgözəl bəy ... s.35

67. Mirxə Camal Cavanşir Qarabaği ... s.103-104
68. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.49
69. Раффи. Меликства Хамса. http://armenianhouse.org/raffi/novels-r5u/khamsa/meliks/_14.html, Гл.2
70. Axundov N. ... s.49; Raffi ... Гл.2
71. Имранлы К. Черная судьба черного сада
72.Xəlilli X. Qarabağ: etmo-mənəvi inkişaf tarixi. http://garabagh.ws/wp-content/uploads/2009/11/30.pdf, s.51
73.Axundov N., ... s.50
74. Xəlilli X. ... s.52
75. Имранлы К. ... с.20
76. Нагорный Карабах в Международной праве и мировой политике. Документы и материалы. Т.11. Комментарии к документам. Москва, 2009, с.30
77. Mirzə Yusif Qarabaği. Tarixi Safi, s.16. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.6-94
78. Xəzani M.M. ... s.111
79. Yenə orada, s.112-113
80. Azərbaycan tarixi. Bakı, 1994, s.535
81. Mirzə Camal cavanşir Qarabaği ... s.17
82. Mirzə Adıgözəl bəy ... s.35-36
83. Mirzə Camal Cavanşir Qarabaği ... s.19
84. Mirzə Camal Cavanşir Qarabaği ... s.20
85. Mirzə Adıgözəl bəy ... s.41
86. Mirzə Camal Cavanşir Qarabaği ... s.21; Xəzani M.M. ... s.123; Rzaqulu bəy Mirzə Camal oğlu ... s.216
87. Əhməd bəy Cavanşir ... s.162
88. Xəzani M.M ... s.122; Əlizadə H.İ. ... s.321; Rzaqulu bəy Mirzə Camal oğlu ... s.216
89. Əhməd bəy Cavanşir ... s.162
90. Mirzə Adıgözəl bəy ... s.44; Əlizadə H.İ. ... s.32
91. Axundov N. ... s.63
92. Raffi...
93. Xəzani M.M. ... s.122
94. Əlizadə H.İ. ... s.322
95. Xəzani M.M. ... s.123; Rzaqulu bəy Mirzə Camal oğlu ... s.217
96. Rzaqulu bəy Mirzə Camal oğlu ... s.217
97. Xəzani M.M. .. s.124
98. Hacıyeva Z. ... s.57
99. Mirzə Camal Cavanşir Qarabaği ... s.24
100. Əhməd bəy Cavanşir ... s.163
101. Yenə orada, s.164
102. Mirzə Yusif Qarabaği ... s.25
103. Yenə orada, s.46

104. Mirzə Yusif Qarabaği ... s.26
105. Раффи. Меликства Хамса. http://armeniahouse.org/raffi/novels-ru/khamsa/meliks15_34.html, Гл.XV
106. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۳۰۶
107. Münşi İ. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe Aləm Araye Abbasi), Bakı 2000, s.155-156
108. Yenə orada, s. 164
109. Yenə orada, s.185
110. Yenə orada, s.186
111. Yenə orada, s. 375
112. پارسادوست. شاه عباس اول. تهران، ۱۳۸۸، ص.۴۴۰
113. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۳۰۶
114 Xəzani M.M. … s.103-104
115. مروی. عالم آرای نادری. جلد اول، تهران، ۱۳۷۴، ص.۶۷۵
116. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۳۰۷
117. Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003. Istoriya.az/kitablar/Gəncə.pdf (s.11)
118. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение его с Россией. Баку, 1965, с. 203
119. Бабаев Э.… (elektron variantı c. 12)
120. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004, s.22
121. Бабаев Э. … s.15
122. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, s.168
123. Бабаев Э. ... s.19
124. Mustafazadə T. Azərbaycan xanlıqları ... s.169-170
125. مروی. عالم آرای نادری. جلد اول، تهران، ۱۳۷۴، ص.۳۷۴
126. İsmayılov M. Şəki. Bakı, 1982, s.16
127. Kərim ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi, s.12. Bax: Şəki xanlığı tarixindən. Bakı, 1993, s.9-20
128. Yenə orada, s.12-13
129. Yenə orada, s.13
130. Yenə orada
131. İsmayılov M. ... s.18
132. Kərim ağa Fateh ... s.14
133. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۰۴۶
134. Bax: Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1964, с.202
135. Arunona M.P., Əşrəfyan K.Z. Doulət-e Nader şah. Tehran, 1352, s.248
136. Kərim xan Fateh ... s.14
137. Алиев Ф.М. Антииранские выступления ... с.202
138. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۰۴۷
139. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi ... s.139

140. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۰۴۷

141. مروی. عالم آرای نادری. جلد سوم، تهران، ۱۳۷۴، ص.۱۰۴۷

142. Багирова М. По велению разума. Баку, 1969, с.13

143. Yenə orada, s.15

144. Azərbaycan xanlıqlarının qısa tarixi ... s. 140

145. Mustafa ağa Şuxi. Hekayəti əhvalati sabiğeyi xəvanini Nuxu, s.117. Bax: Tahirzadə Ə. Şəkinin tarixi qaynaqlarda. Bakı, 2005, s.113-124

146. Mustafazadə T.T. Azərbaycan xanlıqlarının qısa tarixi ... s.141

147. Mirzə Adıgözəl bəy ... s.42

148. Yenə orada, s.43

149. Əhməd bəy Cavanşir .. s.16

150. Бакиханов А. Гюлистани Ирам. Баку, 1991, с.157; Mirbağırzadə M. Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat, s.151. Bax: Tahirzadə Ə. Şəkinin tarixi qaynaqlarda. Bakı, 2005, s.135-170

151. Azərbaycan tarixi. Bakı, 1994, s.526

152. Kərim ağa Fateh .. s.15-16

153. Mirbağırzadə M. .. s.153; İsmayılov M. .. s.24

154. Kərim ağa Fateh ... s.16

155. Yenə orada

156. Mirbağırzadə M, ... s.155

157. Yenə orada, s. 156

158. Yenə orada, s.157

159. Искендеров А. Завоевание Бакинского ханства Россией. Journal.qu.edu.az/article_pdf/1004_33.pdf

160. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi .. s.155

161. Искендерова М. Бакинское ханство. Баку, 1999, с.19; Azərbaycan tarixi. Bakı, 1994, s.544

162. Искендерова М. Бакинское ханство. Баку, 1999, с.93

163. Yenə orada, s.95

164. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi .. s.161

165. Ашурбейли С. История города Баку. Баку, 1992, с.284

166. Бакиханов А. Гюлистани Ирам ... с.170

167. Ашурбейли С. ... с.289

168. Yenə orada

169. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi ... s.10. Qarayev E. Azərbaycan XVIII əsr rus və qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2005, s.101

170. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.9

171. Бакиханов А. Гюлистани Ирам ... с.156; Левиатов В.Н. Очерки истории Азербайджана, Баку-----, с.128; Qarayev E. ... s.101

172. Mustafazadə T. Quba xanlığı .. s.9

173. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi ... s.12

174. Yenə orada, s.13

175. Локкарт. Надир шах.Баку, 2004, с.104. Azərbaycan tarixi. Bakı, 1994, s.512
176. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение его ... с.187
177. Бакиханов А. Гюлистани Ирам ... с. 157
178. Yenə orada
179. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение ... с.187-188
180. Yenə orada, s.191
181. Бакиханов А. Гюлистани Ирам ... с. 158
182. Валуев П.Н. Фатфли хан Кубинский. Баку, 1942, с.8
183. Azərbaycan tarixi. Bakı, 1994,
184. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение ... с.203,205
185. Бакиханов А. Гюлистани Ирам ... с. 159
186. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение ... с.209-210
187. Yenə orada, s.211
188. Qarayev E. Azərbaycan XVIII əsr ... s.108
189. Бакиханов А. Гюлистани Ирам ... с. 160-161
190. Левиатов В.Н. ... с.132
191. Yenə orada, s.133-134
192. Валуев П.Н. ... с.15
193. Бакиханов А. Гюлистани Ирам ... с. 162
194. Бакиханов А. Гюлистани Ирам ... с. 162; Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi .. s.37
195. Валуев П.Н. ... с.20
196. Левиатов В.Н. ... с.144
197. Бакиханов А. Гюлистани Ирам ... с. 165
198. Yenə orada, s.169
199. Yenə orada, s.169
200. Yenə orada, s.155
201. Yenə orada, s.156-157
202. Bayramova N. Şamaxı xanlığı. Bakı, 2009, s.35
203. Umudlu V. .. s.21
204. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi ... s.213
205. Azərbaycan tarixi. Bakı, 1994, s.547
206. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношение ... с.222
207. Yenə orada, s.224
208. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi ... s.78
209. Yenə orada, s.224
210. Mirzə Əhməd Əxbarnamə. Bakı, 2009, s.26

211. نادر شاه و بازماندگانش. تهران، ۱۳۶۸، ص.۱۲۸ Nader şah və bazmandəqanəş . Tehran,

212. اسداوف. تالش.تهران، ۱۳۸۴، ص.۲۶-۲۵

213. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi .. s.185

214. Yenə orada, s.186

215. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۹۰

216. آقاجانی. جسارتهایی در تاریخ تالش در گسترده تاریخ ایران. جلد اول، تهران، ۱۳۷۸، ص.۴۴۹

217. Azərbaycan tarixi. Bakı, 1994, s.512

218. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۹۱

219. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۹۲

220. Əsədov F ... s.28

221. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۹۵

222. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۹۶

223. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۱۰۱

224. احمدی. تالشان. تهران، ۱۳۸۴، ص.۱۰۴

225. Локкарт. Надир шах... с.69

226. Hacıyev İ. Tarihde və günümüzde Nahçivan. Ankara, 1998, s.22

227. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996. ebooks.preslib.az/pdfbooks/azbooks/...

228. Yenə orada

229. Heydərqulu Kəngərli. http://shexsiyyetler.nakhchivan.az/h_kengerli:html

# III FƏSİL

## AZƏRBAYCAN XANLIQLARININ DAXİLİ VƏ XARİCİ HƏRBİ-SİYASİ VƏZİYYƏTİ

Nadir şahın hakimiyyətinin süquta uğraması ilə Cənubi Qafqazda tamamilə fərqli bir siyasi şərait yarandı. Böyük imperiyanın nəzarəti altından çıxan bölgə ərazisində yeni Azərbaycan xanlıqları və gürcü çarlıqları yarandı. Kiçik bir bölgədə çoxsaylı xırda dövlətlərin meydana gəlməsi Cənubi Qafqazın xanlıqlar dövrünün xarakterik xüsusiyyətidir. Mövcud tarixi şəraitdə bu dövlətlərin hər birinin öz mövcudluğunu və siyasi müstəqilliyini qoruyub saxlamağa çalışması onların qarşısında dayanan başlıca vəzifə olmaqla bərabər, həm də bölgənin siyasi mənzərəsini müəyyənləşdirən əsas amillərdən biri idi.

Azərbaycan xanlıqlarının yerləşdiyi bölgənin siyasi mənzərəsini müəyyənləşdirən əsas amillərdən biri də heç şübhəsiz ki, böyük dövlətlərin bölgə ilə bağlı maraqlarının kəsişməsi idi. Müstəqil xanlıqların mövcudluğu həmin dövlətlərin, konkret olaraq Rusiyanın, Osmanlı və Qacarlar dövlətlərinin siyasi istəklərinə cavab vermirdi. Ona görə də həmin dövlətlər Azərbaycan xanlıqlarının ərazilərini nəzarət altına almaq üçün təcavüzkar hərbi-siyasi mövqe nümayiş etdirməkdən də çəkinmirdilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan xanlıqlarının yerləşdiyi bölgə, adları çəkilən dövlətlərin hər biri üçün müəyyən geosiyasi əhəmiyyət kəsb edirdi. İşğalçılıq siyasətinin fəal tarixi dövrünü yaşayan Rusiya üçün Azərbaycan xanlıqlarının işğalı iqtisadi önəmindən əlavə, Xəzər hövzəsində hərbi-siyasi nəzarətin ələ keçirilməsi, Xəzərdən şərqə açılan yollara nəzarətin əldə edilməsi, Xəzərin cənubunda yaranan dövlətlərdən və Osmanlı Türkiyəsindən etibarlı müdafiə üçün strateji mövqelərin qazanılması, Böyük Britaniyanın Xəzər dənizi hövzəsindən Cənubi Qafqaza və Orta Asiyayasoxulmaq planlarının qarşısının alınması demək idi (1).

Osmanlı dövləti üçün də Cənubi Qafqazda möhkəmlənmək oxşar geosiyasi əhəmiyyət kəsb edirdi. Amma XVIII əsrin sonlarında və XIX əsrin əvvəllərində Osmanlı dövləti Cənubi Qafqazda fəal siyasi oyunçuya çevrilə bilmədi. Çox güman ki, Osmanlı dövlətinin beynəlxalq öhdəlikləri Rusiya və Qacarlar dövləti ilə apardığı müharibələr bu dövlətin Azərbaycan xanlıqları ilə bağlı siyasətinə bir donuqluq gətirdi. XVIII əsrin sonu və XIX

əsrin əvvəllərində Cənubi Qafqazın siyasi mənzərəsini müəyyənləşdirən əsas güc mərkəzləri isə Rusiya, Qacarlar dövləti və Azərbaycan xanlıqları oldular.

Azərbaycan xanlıqlarının ələ keçirilməsi Qacarlar dövləti üçün də geostrateji əhəmiyyət kəsb edirdi. Bununla ilk növbədə daxili hakimiyyətin möhkəmləndirilməsinə nail olmaq olardı. Eyni zamanda bölgəyə nəzarətin əldə edilməsi Xəzər hövzəsində möhkəmlənməklə bərabər, Rusiya sarayının fəallaşmaqda olan şərq siyasətinin qarşısında etibarlı müdafiə zolağı yaratmış olardı.

Adları çəkilən dövlətlərin siyasi maraqlarının kəsişməsində yeləşən Azərbaycan xanlıqları siyasi müstəqilliklərini qorumaq üçün bu dövlətlərin fəallığı qarşısında öz siyasətlərini formalaşdırmaq, müvafiq addımlar atmaq məcburiyyətində idilər. Bunun üçün Azərbaycan xanlıqları ilk növbədə öz aralarında münasibətlərin aydınlaşdırılmasına çalışır, siyasi ittifaqlar qurur, siyasi təhlükələrin qarşısının alınması, bu və ya digər xanlığın zəiflədilməsi, siyasi nüfuzun genişləndirilməsi üçün çevik manevrlər etməyə çalışırdılar.

### *1.Azərbaycan xanlıqlarının qarşılıqlı hərbi-siyasi münasibətləri*

XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqları arasında əsasən üç güc mərkəzi formalaşmaqda idi. Bunlar Qarabağ xanlığı, Şəki xanlığı və Quba xanlığı idi. Malik olduğu hərbi-siyasi çəkisinə və potensialına görə bu xanlıqlar digər xanlıqlardan fərqlənirdilər. Bu xanlıqlar ətraf xanlıqlarla könüllü ittifaq yaratmaq və ya onları təsir altına almaqla güc mərkəzi formalaşdırırdılar. Bunun üşün bu xanlıqlar hakimiyyətin siyasi təsir sahəsini genişləndirməyə, habelə mövcud təhlükə mənbələrinə qarşı müdafiə imkanlarını genişləndirməyə çalışırdılar. Hakimiyyət dağınıqlığı, güclərin parçalandığı tarixi şəraitdə xanlıqların ayrılıqda hərbi-siyasi hədələrə qarşı səmərəli müqavimət göstərmək imkanı son dərəcə az idi. Bu da xanlıqların hər birini çıxış yolu tapmağa, siyasi maraqlara cavab verən addımlar atmağa sövq edirdi.

Yuxarıda qeyd edildiyi kimi, digər xanlıqlar müəyyən coğrafi hüdudlarda mövcud olan ərazi inzibati vahidlər əsasında formalaşdığı halda, Qarabağ xanlığı yeni bir coğrafi məkanda formalaşdı. Bu xanlığın formalaşması üç istiqamətdə öz ifadəsini tapdı. Qarabağda ayrı-ayrı feodal hakimlərinin siyasi müstəqilliyini ləğv etməklə xanlıq hakimiyyətini bərpa etmək, xanlığın hərbi-siyasi mərkəzini yaradıb möhkəmləndirmək, xanlıq hakimiyyətini qonşu ərazilərə yaymaq (2).

Qarabağ xanlığının banisi Pənahəli xan bildirirdi ki, biz qonşularımız olan xanların sədaqətinə heç vaxt bel bağlaya bilmərik, çünki onlar başqalarının təhriki ilə Qarabağ xanlığı üzərinə hücum edə bilərlər. Qarabağ

xanının fikrincə, qonşu xanların hərbi qüvvələrinin belə hücumları nəticəsində yerli əhali çox ciddi bəlalarla üzləşə bilərdi. Bu təhlükənin qarşısının alınması üçün Pənah xan müdafiə tikililərinin ucaldılmasını vacib saydığı kimi, digər xanlıqlarla siyasi əlaqələrin qurulmasını, zərurət yarandığı halda həmin xanlıqdan kömək alınmasını lazımlı bilirdi (3).

Yəni, Pənah xan digər xanlıqlarla siyasi əməkdaşlığın bərqərar edilməsini xanlığın müstəqilliyinin qorunması, əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün müdafiə qalalarının tikilməsi qədər əhəmiyyətli sayırdı.

Xanlığın daxilində siyasi hakimiyyətin möhkəmləndirilməsi qeyd edildiyi kimi, xanlığın siyasi formalaşmasının əsas istiqamətlərindən birini təşkil edirdi. Bu baxımdan, Pənah xanın Qarabağ məliklərinin siyasi hakimiyyət altına gətirilməsi uğrunda mübarizəsi xarakterikdir. Əvvəlki fəsillərdə Qarabağ məliklərinin Qarabağ xanlığına tabe etdirilməsi istiqamətində aparılan mübarizəsi haqqında geniş məlumat verilmişdir. Vaxtilə Nadir şah tərəfindən müəyyən hüquqlar əldə etmiş və Qarabağın dağlıq hissəsində kiçik inzibati vahidlər kimi formalaşmış məlikliklərin öz iddialarını ortaya qoyması bölgənin geosiyasi mənzərəsinin də əlvanlığına yol aça bilərdi. Pənah xanın məqsədi isə Qarabağı tam bir qurum kimi formalaşdırmaq, xanlıq daxilində hakimiyyəti mütləq şəkildə mərkəzləşdirmək idi. Aparılan ardıcıl mübarizə nəticəsində Pənah xan buna nail oldu və XVIII əsrin 50-ci illərində Qarabağ məliklərinin müqaviməti sındırıldı və bu məliklər Qarabağ xanlığının siyasi hakimiyyətini tanımalı oldular. Doğrudur, Qarabağ məlikləri Rusiya sarayına göndərdikləri məktublarda dini ayrı-seçkiliyi qabardaraq Rusiyanın yaxın rəğbətini qazanmaq istəyirdilər. Lakin dini ayrı-seçkiliyin ortaya atılması əslində, bir bəhanə idi. Onlar hər vasitə ilə çalışırdılar ki, Rusiyanı bölgəyə cəlb etsinlər və Rusiyanın Qarabağ xanlığına qarşı sərt mövqe tutması ilə Qarabağ xanına itaətdən üz döndərsinlər və bununla öz siyasi hakimiyyətlərini bərqərar etsinlər (4).

Qarabağı bütünlüklə öz hakimiyyəti altına gətirməsi Pənah xanın şöhrətini və nüfuzunu daha da artırdı. Mənbələrin məlumatına görə, Şirvan, Şəki, Gəncə, İrəvan, Təbriz və Qaradağ xanları Pənah xanın yanına elçi və məktublar göndərərək onunla dost və müttəfiq olmaq istədiklərini bildirirdilər. O da bu xanların bəzisi ilə qohum oldu və bəziləri ilə də yaxşı münasibətlər qurmağa çalışdı (5).

Bununla bərabər, Pənah xan malik olduğu xanlığın sərhədlərinin genişləndirilməsinə də çalışırdı. Məhz bunun nəticəsi idi ki, Pənah xan Mehri və Güney mahallarını Bərgüşada qədər Qaradağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatef və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngəzur və Qafan mahallarını Təbriz bəylərbəyindən aldı. Kolanıların məskəni olan və Uşacıq kəndindən Göyçə sərhədinə qədər uzanan ərazilər

İrəvan hakimindən qoparıldı. Pənah xan eyni zamanda Gəncə hakiminə aid olan və Xudafərin körpüsündən Kürəkçaya qədər olan əraziləri də Qarabağ xanlığının tərkibinə qatdı. Naxçıvan xanlığında bir minbaşıya aid olan Kəngərli eli, Gürcüstanda da bir hərbçinin mülkü olan Dəmirçi Həsənli eli, orada başqa bir hərbçiyə mənsub olan Cinni tayfası könüllü şəkildə Qarabağ xanlığının tərkibinə qatılmağı arzuladılar ki, Pənah xan da onları məmnuniyyətlə qəbul etdi. Adları çəkilən tayfaların əhalisi Qarabağda özlərinə yurd qurub həyatlarını sürdülər (6).

Qarabağ xanlığının sərhədlərinin formalaşdırılması istiqamətində Pənahəli xanın mübarizəsi XVIII əsrin ortalarına qədər davam etdi. Onun hökmü və tədbirliliyi bununla da bitmədi. Pənah xan ətrafındakıları da özünə tabe etmək üçün planlar qurmağa başladı. Pənah xanla qonşu xanlıqlar arasında qanlı döyüşlərin baş verməsi mənbələrdə təsdiq olunmasa da, hər halda məlumdur ki, Gəncə, Şirvan, Naxçıvan və Ərdəbil xanları da Pənah xanın hökmü ilə hesablaşmağa məcbur oldular. Pənah xan həm qohumluq əlaqələri yaradılması yolundan istifadə etməklə bəzilərinə məktub göndərdi, bəzilərinin yanına isə elçisini göndərdi. Adları çəkilən xanlar Pənah xanın artan gücünü və qüdrətini görərək onunla hesablaşmaq qərarına gəldilər. Pənah xan hətta Ərdəbil xanını dəyişərək yerinə Sarıcalı Dərgahqulu bəyi Ərdəbil hakimi təyin etdi. Gəncə hakimlərinin övladları və yaxın adamları isə girov kimi Qarabağda saxlanılırdı (7).

Pənah xan öz hakimiyyətinin hətta Arazdan cənuba yayılmasına da nail oldu. Sərhədi çox genişlənmiş bir xanlığın idarə edilməsi həm də onun etibarlı şəkildə müdafiə olunmasını tələb edirdi. Xüsusilə, güclü hücum silahlarına malik olmaması Pənah xandan xanlığın müdafiəsi məsələsinə diqqət artırmağı tələb edirdi. Arazdan şimaldakı Azərbaycan xanlıqları tərəfindən Qarabağa qarşı ciddi təhlükə olması da, Arazdan cənubda gedən proseslər Pənah xandan daim ehtiyatlı olmasını tələb edirdi. Nadir şahın qətlindən sonra hakimiyyət iddiasında olan qüvvələrin Qarabağ üzərinə hücuma keçə bilmək ehtimalı daimi bir narahatlıq yaradırdı.

Siyasi məqsədlərinə nail olmaq üçün Pənah xanın digər xanlarla ittifaqa girməsi haqqında da məlumatlar mövcuddur. Məsələn, məlumdur ki, 1752-ci ildə Şəki xanı Hacı Çələbiyə qarşı vuruşmaq üçün Pənah xan gürcü çarı İrakli ilə, Gəncə xanı Şahverdi xanla, Qaradağ xanı Qasım xanla, İrəvan xanı Hüseynəli xanla, Naxçıvan xanı Heydərqulu xanla ittifaqa girdi (8).

Doğrudur, bu ittifaqla qarşıya qoyulan məqsədə çatmaq mümkün olmadı və Azərbaycan xanları gürcü çarının xəyanətinin qurbanı oldular. Bununla belə, xanlıqlar arasında belə ittifaqlar qurulması halları tez-tez baş verirdi. Qeyd etmək lazımdır ki, siyasi məqsədlər naminə ittifaq yaradılan xan və ya hakim bir müddətdən sonra düşmənə çevrilə bilərdi və ya əksinə.

Məsələn, 1748-ci ildə Qarabağ xanlığı üzərinə hücum zamanı Hacı Çələbi ilə Pənah xan biri digərinə siyasi rəqib idisə, 1752-ci ildə bir sıra Azərbaycan xanlarının, o cümlədən Qarabağ xanının gürcü çarının əsirliyindən azad edərkən Çələbi xan Pənah xana müttəfiq mövqeyindən yanaşdı. Çünki Şəki xanlığının siyasi maraqları bunu tələb edirdi. Gürcü çarı Azərbaycan xanlarını həbs etməklə Azərbaycan xanlarını özündən asılı vəziyyətə salmaqla Şəki xanlığının müstəqilliyinə də ciddi təhlükə yarada bilərdi.

Qarabağ xanlığına hücum zamanı Şəki xanı Şamaxı xanı ilə ittifaqda çıxış edirdisə (9), 1749-cu ildə Hacı Çələbi xan Şamaxı xanlığı üzərinə qoşun çəkdi və Şamaxı xanlığını özünə tabe etmək istədi (10). Elə bu hücumun qarşısının alınması üçün Yeni Şamaxının hakimi Hacı Məhəmmədəli xan gərgin münasibətlərdə olduğu Quba xanı Hüseynəli xana müraciət etdi və onun göndərdiyi köməyin sayəsində öz hakimiyyətini qoruyub saxlaya bildi (11).

Azərbaycan xanlarının konkret tarixi şəraitdə bu və ya digər xanla müttəfiqlik münasibətləri yaratması haqqında çoxlu məlumatlar mövcuddur. Məsələn, Naxçıvanlı Abbasqulu xan İbrahim xanla gürcü çarı II İrakli ilə (12), XVIII əsrin 60-cı illərində Şəki xanı Hüseyn xan Şamaxı xanı Məhəmməd Səid xanla (13), Lənkəran xanı Qara xan şamaxılı Məhəmməd Səid xanla (14) müttəfiqlik əlaqələri yaratmışdılar. Xanlıqların tarixində belə faktlar xeyli çoxdur. Lakin qeyd etmək lazımdır ki, xanlıqların tarixində belə ittifaq münasibətlərinin yaradılması davamlı siyasi sabitliyin bərqərar edilməsi üçün deyil, konkret tarixi hadisələrin, yəni hər hansı bir döyüş əməliyyatının həyata keçirilməsi, ya da konkret hərbi təhlükənin qarşısının alınması üçün edilirdi. Adətən, qarşıya qoyulan taktiki vəzifə başa çatdırıldıqdan sonra belə ittifaq əlaqələrinə son qoyulurdu. Məhz onun üçün idi ki, yuxarıda qeyd edildiyi kimi qarşıya qoyulan məqsədə uyğun olaraq bir halda müttəfiqlik münasibətlərində olan xanlıqlar, başqa halda əks mövqelərdə qərar tuturdular.

Müttəfiqlik münasibətlərinin qurulması üçün xanlıqlar arasında nikah diplomatiyasından da istifadə edilməsi halları mövcuddur. Məsələn, Qarabağ xanı İbrahim xan Avar hakimi Ümmə xanın bacısı Bikə xanımla evlənmiş, qızı Tuti Bikəni isə Şəki xanı Səlim xana vermişdi (15). Quba xanı Fətəli xan bacısı Xədicə Bikəni Bakı xanı Mirzə Məhəmməd xanın oğlu Məlik Məhəmmədə vermişdi. Sonradan Quba xanı Şeyxəli xan Bakı xanı II Mirzə Məhəmmədin bacısı Bəyimlə evləndi. Gəncə xanı Şahverdi xan isə böyük qızı Tuti Bəyimi qarabağlı İbrahim xana, Tutu Bəyimin vəfatından sonra digər qızı Xurşid bəyimi İbrahim xana, kiçik qızı Xeyrənsə xanımı isə şəkili Həsən xana ərə verdi (16).

Qeyd etmək lazımdır ki, nikah diplomatiyasının yaratdığı müttəfiqlik münasibətləri müəyyən hallarda xanların hərbi-siyasi gücünün artırılmasına kömək edirdi. Bu baxımdan İbrahim xanın Ümmə xanla qohumluq əlaqələri xarakterik ola bilər. Ən çətin anlarında Ümmə xana sığındığı kimi İbrahim xan dəfələrlə Ümmə xanın hərbi köməyindən öz yürüşlərində istifadə etmişdi (17).

Lakin bəzi hallarda nikah diplomatiyası heç də möhkəm müttəfiqlik əlaqələrinə etibarlı zəmanət vermirdi. Məsələn, Quba xanlığı ilə Bakı xanlığı arasında olan münasibətlər heç də qarşılıqlı müttəfiqlik üzərində qurulmamışdı. Fətəli xan öz bacısını Bakı xanına verməklə daha çox Bakı xanlığını öz nəzarəti altında saxlamaq məqsədi güdürdü. Ağa Məhəmməd xan Qacarın Tiflisə hücumundan sonra İbrahim xan qohumluq əlaqələrində olduğu Gəncə xanlığı üzərinə hücum çəkdi (18).

Azərbaycan xanlıqlarının hərbi-siyasi münasibətlərində Quba xanı Fətəli xanın birləşdiricilik fəaliyyəti kifayət qədər maraq kəsb edir. Digər Azərbaycan xanlarından fərqli olaraq Fətəli xan qarşısına Azərbaycan xanlıqlarını bir hakimiyyət altında birləşdirilməsi kimi böyük planlar qoymuşdu. Fətəli xan çalışırdı ki, Azərbaycan xanlıqlarının bir hakimiyyət altında birləşdirməklə həmin xanlıqların hərbi-siyasi potensialını da səfərbər edə bilsin və bu potensialı mövcud hərbi təhlükəyə qarşı istiqamətləndirsin.

Fətəli xanın Azərbaycan xanlıqlarını birləşdirmək siyasətinin həyata keçirilməsində onun şəxsi iradəsi başlıca motiv olsa da, bütünlükdə bu prosesi təsadüfi bir proses saymaq doğru olmazdı. Bölgədə cərəyan edən proseslərin fəal elementinə çevrilmək, böyük qonşu dövlətlərin siyasi maraqlarının qarşısında müqavimət göstərmək üçün parçalanmış qüvvələrin birləşdirilməsi böyük aktuallıq kəsb edirdi. Bu istiqamətdə Qarabağ və Şəki xanlıqları da müəyyən cəhdlər göstərsələr də onların genişlənmək siyasəti ümumazərbaycan miqyası almadı (19).

Azərbaycan xanlıqlarının vahid dövlət ətrafında birləşdirilməsi bölgədə yeni bir güc mərkəzinin formalaşdırılması baxımından da tarixi əhəmiyyət kəsb edirdi. 10-12 il ərzində Fətəli xan Qafqazdakı Azərbaycan xanlıqlarının ərazilərinin dörddə üç hissəsini birləşdirməyə müvəffəq olaraq yeni bir geosiyasi reallığı ortaya qoydu. Lakin yuxarıda qeyd edildiyi kimi, bu proses daha çox şəxsi siyasi iradə üzərində qurulduğu üçün Fətəli şahın ölümündən sonra birləşdirilmiş Azərbaycan xanlıqları Quba xanlığından qopmağa çalışdı. Çünki Azərbaycan xanlıqları üçün tarixi əhəmiyyət kəsb edən birləşdirmə prosesi zəruri siyasi-iqtisadi islahatlarla müşayiət olunmurdu. Başlıca olaraq, Azərbaycan torpaqlarının birləşdirilməsi ideyası Azərbaycan xanlıqları arasında siyasi inam səviyyəsinə qalxa bilmədi. Bu birləşmə siyasi ehtiyacdan daha çox hərbi gücün və digər diplomatik güc elementlərinin

hesabına həyata keçirildi. Güc amili ortadan qalxdıqda xanlıqlar da müstəqilləşməyə və yenidən öz ərazilərində hakimə çevrilməyə üstünlük verdilər.

Quba xanlığına birləşdirilmiş xanlıqların hər birində separatizm üçün obyektiv baza qalmaqda idi və yerli hakimlər fürsət yaranan kimi bu bazadan bəhrələnməyə çalışdılar. Çünki xanlıqlar Quba xanlığına birləşdirilsələr də, onların idarəetmə aparatı demək olar ki, dəyişdirilməmiş saxlanıldı, xanlıqlar ya əvvəlki xanlar tərəfindən, ya da statusu müəyyən qədər aşağı salınmış hakimlər tərəfindən idarə olunurdular. Quba xanlığının xəzinəsinə vergi verməklə və Quba xanlığına qoşun dəstəsinin verilməsində iştirak etməklə yerli hakimlər formal müstəqilliklərini saxlayırdılar. Bu isə konkret tarixi şəraitdə xanlıqlar arasında daxili bağlılığın güclənməsinə heç də müsbət təsir göstərmirdi. Bunun nəticəsi idi ki, Azərbaycan xanlıqlarının vahid güc mərkəzi ətrafında birləşdirilməsi siyasəti uğursuzluğa düçar oldu və Azərbaycan xanlıqları şimaldan və cənubdan həyata keçirilən təcavüzləri hər biri ayrılıqda qarşılamalı oldu. Azərbaycan xanlıqları arasında müstəqilləşmə meylləri onların həyata keçirdikləri xarici siyasətdə özünü göstərdi. Hər bir xanlıq öz maraqlarına uyğun olan xarici siyasəti həyata keçirir və bu zaman bu və ya digər xarici dövlətlərə qarşı müxtəlif mövqe nümayiş etdirilirdi. Siyasi müstəqilliyin qorunması üçün Azərbaycan xanlıqları Rusiya, Osmanlı dövləti, Arazdan cənubda hakimiyyət uğrunda mübarizə aparan siyasi güclərlə bərabər, eyni zamanda da Kartli-Kaxetiya çarlığından doğan siyasi təzyiqlər qarşısında müvafiq siyasi manevrlər etmək məcburiyyətində qalırdı.

### *2.Kartli-Kaxetiya çarlığının Azərbaycan xanlıqlarına qarşı iddiaları*

Kartli və Kaxetiya çarlıqları Nadir şahın ölümündən sonra Gürcüstanın şərqində, Azərbaycan xanlıqları ilə bir vaxtda formalaşmış kiçik dövlətlər idilər. Adları çəkilən çarlıqlar ərazi vahidləri şəklində Nadir şah dövlətinin tərkibində də mövcud olmuşdular. 1744-cü ildə Nadir şah Kartli vilayətinin hakimi vəzifəsini II Teymuraza, Kaxetiya vilayətinin hakimi vəzifəsini isə onun oğlu II İrakliyə həvalə etdi. Nadir şahın ölümündən sonra Azərbaycan xanlıqları kimi, Kartli və Kaxetiya çarlıqları da öz müstəqilliklərini təmin etdilər və ayrı-ayrılıqda kiçik dövlətlər kimi formalaşdılar. Müstəqil olsalar da ata və oğulun hakimiyyəti altında olan bu dövlətlər arasında siyasi müttəfiqlik mövcud idi və bu əlaqələrin mövcudluğu çarlıqların siyasi və hərbi gücünü daha da möhkəmləndirirdi. Həmin güc də imkan verirdi ki, Kartli və Kaxetiya çarlıqları Azərbaycan xanlıqlarına qarşı təcavüzkar siyasət həyata keçirsin. Doğrudur, müəyyən vaxtlarda Kartli və Kaxetiya çarlıqlarının Azərbaycan xanlıqları ilə ittifaq

münasibətlərinə girməsi də müşahidə olunurdu. Lakin belə münasibətlərin qurulması gürcü çarlığı üçün müvəqqəti hal daşıyırdı və çarlıqların siyasi maraqlarından irəli gələn taktiki gedişlər idi.

Siyasi məqsədlərinə nail olmaq üçün gürcü çarlıqları vaxtaşırı Azərbaycan xanlıqlarının daxili işlərinə qarışır və bölgədə hegemonçu siyasətə olan iddialarını ortaya qoyurdular. Məsələn, Kartli çarı Teymuraz Nadir şahın vaxtında ona pənah gətirmiş olan keçmiş Gəncə hakimi Şahverdi xanın Gəncə xanı məqamına yüksəlməsində bir başa iştirak etdi. Teymurazın bu xidmətinin əvəzində Şahverdi xan ona hər il 10 min tümən məbləğində vergi verməli idi (20).

Tarixi ədəbiyyatda mövcud olan məlumatlara görə, Kartli çarı Teymuraz və onun oğlu İrakli ətrafda cərəyan edən prosesləri reallıqla qiymətləndirir və daha təmkinli siyasət yeridirdilər. Xüsusilə, onlar Nadir şahdan sonra bir-birini əvəzləyən hakimlərlə normal münasibətlər qurmağı bacardılar (21). Bu da onlara imkan verirdi ki, çarlıqlar daxilində daha sabit həyatı təmin etsinlər və öz güclərini Cənubi Qafqaz daxilində nüfuzlarının güclənməsinə sərf etsinlər Azərbaycan xanlıqları arasında mövcud olan parçalanma və mövqe mübarizəsi isə gürcü çarlarının iddialarının həyata keçməsinə daha əlverişli şərait yaradırdı.

Gürcü çarlıqlarının güclənməsi və hərbi-siyasi təhlükəyə çevrilməsi Azərbaycan xanlıqları tərəfindən də müşahidə edilirdi və bu çarlıqlara zərbə vurulması üçün 1749-cu ildə ilk cəhd göstərildi. Bu cəhdin təşəbbüskarı Qarabağ xanı Pənah xan idi. O, Gəncə xanı Şahverdi xanı, Şəki xanı Hacı Çələbi xanı, Şamaxı xanı Hacı Məhəmmədəli xanı ətrafına toplayaraq Gürcüstan üzərinə hücum təşkil etmək istədi. Lakin Azərbaycan xanları arasında baş verən anlaşılmazlıqlar üzündən bu hücum baş tutmadı (22).

XVIII əsrin 50-ci illəri Qarabağ xanı Pənah xanla gürcü çarları arasında qarşıdurmanın olması isə xarakterikdir. Bu qarşıdurma da Gəncə xanlığının təsir altına alınması məsələsi ilə bağlı idi. Hər iki tərəf Gəncə xanlığına iddia irəli sürürdü. İlk vaxtlar gürcü çarları Gəncəyə qarşı açıq iddia irəli sürməsələr də, onların belə planları mövcud idi. Digər tərəfdən də Qarabağ xanının Gəncə xanlığında möhkəmlənməsi gürcü çarları üçün təhlükə mənbəyi ola bilərdi. Ona görə də, gürcü çarlıqları Pənah xanın Gəncə planlarına qarşı çıxırdılar. 1749-cu ildə Pənah xanla gürcü çarlıqları arasında ilk hərbi qarşıdurma baş verdi. Pənah xan Gəncəni ələ keçirməyə çalışsa da, gürcü çarları ixtiyarlarında olan 12 minlik qoşun dəstəsi ilə onu geri çəkilməyə məcbur etdilər. 1749-cu ilin sonunda Pənah xan öz cəhdini bir də təkrarladı. Lakin yenidən gürcü qoşunlarının təzyiqi altında geri çəkilməli oldu. Bununla, gürcü çarları əslində Gəncə xanlığındakı mövqe üstünlüyünü qoruyub saxladılar (23).

Kaxetiya çarı bununla da kifayətlənmək niyyətində deyildi. O, Azərbaycan xanlıqlarını işğal etməklə böyük bir dövlət yaratmaq haqqında fikirləşirdi. Bununla bağlı Kaxetiya çarı XVIII əsrin ortalarında Gəncə və Qarabağ xanlıqlarını, habelə Car-Balakən ərazilərini işğal etmək üçün əməli fəaliyyətə keçdi. 1751-ci ildə Kaxetiya çarı Teymuraz Kartli çarı olan oğlu İrakli ilə birlikdə Cara qoşun çıxardı. Lakin gürcü çarlarının Azərbaycan torpaqlarının işğal edilməsi üçün göstərdikləri cəhdlər uğursuzluğa düçar oldu və onlar Cardan geri çəkilmək məcburiyyətində qaldılar (24).

Bununla belə, gürcü çarları güman edirdilər ki, Azərbaycan xanlıqları arasında mövcud olan parçalanma işğal yolu ilə bölgənin siyasi coğrafiyasının öz xeyirlərinə dəyişdirilməsi üçün əlverişli tarixi zəmindir. Bu tarixi fürsətdən istifadə etmək üçün gürcü çarları 1752-ci ildə Gəncə ətrafına məlum olan yürüşü həyata keçirdilər. Bu yürüş Qarabağ xanı Pənah xanın, Gəncə xanı Şahverdi xanın, İrəvan xanı Hüseynəli xanın, Naxçıvan xanı Hüseynqulu xanın İrakli ilə ittifaqda Şəki xanı Hacı Çələbi xanın üzərinə yürüş kimi planlaşdırılmışdı. Əslində isə, gürcü çarı qarşısına hiyləgər bir vəzifə qoymuşdu. O, əvvəlcə ittifaqa girdiyi Azərbaycan xanlarını aradan götürmək və sonra da onların hakimiyyəti altında olan böyük əraziləri özündən asılı vəziyyətə salmaq istəyirdi. Bundan sonra Şəki xanına qarşı mübarizə aparmaq və onu da özündən asılı vəziyyətə salmaq elə də çətin olmazdı. Azərbaycan xanları isə uzaqgörənlik nümayiş etdirə bilmədilər və gürcü çarının tələsinə düşdülər (25). Amma Şəki xanının huşyarlığı sayəsində Azərbaycan xanları gürcü çarının əsirliyindən azad edildilər.

Gürcü çarlarının Azərbaycan xanlıqlarına qarşı təcavüzkar siyasət yeritmək xətti Hacı Çələbi xan üçün tamamilə aydın idi. Qeyd etmək lazımdır ki, gürcü çarları Azərbaycan xanlıqlarının möhkəmlənməsini öz dövlətçilikləri üçün təhlükə sayırdılar və hər vasitə ilə Azərbaycan xanlıqlarını təzyiq və təsir altında saxlamaq istəyirdilər. Gürcü çarlarının bu siyasəti onların Rusiya ilə münasibətlərinin fəallaşmasına qədər davam etdi. Ona görə, baş verən məlum hadisədən sonra Şəkili Çələbi xan gürcü çarlarına güclü zərbə vurmaqla onların təcavüzkarlıqlarının zəiflədilməsini qərarlaşdırdı. Bunun üçün gürcü qoşunlarını təqib etdi, Qazax və Borçalı mahallarını nəzarət altına aldı və oğlu Ağakişi bəyi həmin mahalların hakimi təyin etdi (26).

Gürcü çarının güclü zərbə alıb geri çəkilməsi bir müddət Gəncə xanlığının da Kartli-Kaxetiyadan asılılığına son qoydu. Belə vəziyyət gürcü çarlarını heç də qane etmirdi. Çünki onlar ağır zərbə almaqla bərabər, nəzarətləri altında olan əraziləri əldən verməklə güclənməkdə olan Azərbaycan xanlıqlarının əhatəsində qaldılar. Buna görə bölgədəki siyasi durumu öz xeyirlərinə dəyişmək üçün gürcü çarları Azərbaycan xanlıqlarına qarşı daha bir təcavüzkar əmələ əl atdılar. Şəki xanı Hacı Çələbi isə gürcü

çarlarının Azərbaycan xanlıqlarına qarşı təcavüzkar siyasətinə son qoymaq üçün İrəvan və Gəncə xanlarının, habelə Qazax, Şəmşəddil və Borçalı sultanlarını öz ətrafında birləşdirdi və Kartli-Kaxetiya çarlıqlarına qarşı ümumi cəbhə yaratdı. II İrakli bu təhlükənin qarşısını almaq üçün əvvəlcə sülh danışıqlarının aparılmasını təklif etdi və onun Gəncəyə gəlmiş nümayəndələri qarşısında Hacı Çələbi belə bir şərt qoydu ki, gürcü çarı Azərbaycanın müxtəlif ərazilərini nəzarət altına almaq iddialarından əl çəkməklə bərabər, bütünlükdə xanlıqların daxili işlərinə qarışmağa son qoymalıdır. Gürcü çarı isə bu təklifi qəbul etmədi və ona görə danışıqlar da nəticəsiz qaldı (27).

Azərbaycan ərazilərinə qarşı siyasi iddiaların həyata keçirilməsi üçün gürcü çarı yenidən silaha əl atmağı qərara aldı. Bu dəfə qarşıya qoyulan vəzifənin həlli üçün gürcü çarı 2000 nəfərlik kabardinlərin dəstəsini və 500 nəfərlik rus dəstəsini də qoşunlarına qatdı. 1752-ci ilin avqustunda Gəncə xanə Şahverdi xanla Hacı Çələbi xanın oğlu Ağakişi bəyin birgə qoşunu gürcü qoşunlarına qarşı döyüşə girdi. Lakin bu döyüş tərəflər arasında münasibətlərin aydınlaşdırılmasına yol açmadı. Belə olanda gürcü çarı Car üzərinə qoşun çəkdi və heç olmasa bu istiqamətdə mövqe üstünlüyü əldə edilməsinə cəhd göstərdi. Lakin bu istiqamətdə gürcü qoşunları güclü zərbə ilə üzləşdilər (28).

Azərbaycan xanları gürcü çarlarının Azərbaycan ərazilərinə qarşı iddia irəli sürdüklərini bildikləri halda bəzi vaxtlar könüllü şəkildə onlarla müəyyən əməkdaşlığı qəbul etməyə hazır olurdular. Bu da əslində həmin xanlıqların öz müstəqilliklərini qoruyub saxlamaq istəyi ilə bağlı idi. Məsələn, məlumdur ki, 1753-54-cü illərdə İrəvan xanlığı ləzgilərin və digər xalqların təcavüzünə məruz qaldı. Bu təcavüzün və hərbi yürüşlərin qarşısının alınması üçün İrəvan xanı gürcü çarından kömək istədi. Göstərilən köməyin əvəzində isə İrəvan xanı gürcü çarlarına xərac verməyə razı oldu. Bəzi vaxtlarda bu xəracın miqdarı 10 min tümənə çatırdı.

Gəncə xanı Şahverdi xan isə gürcü çarları tərəfindən mövcud olan təhlükənin aradan qaldırılması üçün bu çarlarla sülh danışıqlarına getməyi qərara aldı və bu danışıqlar nəticəsində gürcü çarlıqları ilə Gəncə xanlığı arasında sülh münasibətləri bərqərar oldu (29). Əlbətdə, bu heç də o demək deyildi ki, gürcü çarları Azərbaycan xanlıqlarına olan iddialarından əl çəkdilər. Əksinə, çox güman ki, mövcud tarixi vəziyyət və hərbi-siyasi şərait gürcü çarlıqlarını bu addımı atmağa sövq etmişdi.

1761-ci ildə Kartli çarı Teymuraz Rusiyaya yollandı və Peterburqda saray əyanları ilə görüşlər keçirdi. Mövcud olan məlumatları görə, Teymurazın bu səfərdə məqsədi Rusiya ilə əlaqələrin genişləndirilməsi idi.

Teymuraz Rusiya sarayından hərbi və maliyyə yardımları istədi və əvəzində bölgədə Rusiya maraqlarını qoruyacağına söz verdi (30)

Rusiya tərəfindən bu xahişə aydın cavab verilmədi və Peterburqda olarkən Teymuraz xəstələnərək dünyasını dəyişdi. Onun ölümündən sonra Kartli və Kaxetiya çarlıqlarına hakimlik İraklinin əlinə keçdi. 1762-ci ildə adları çəkilən çarlıqlar birləşdirildilər və Gürcüstan ərazisində Kartli-Kaxetiya çarlığı adı ilə yeni bir dövlət qurumu bərqərar oldu. Teymurazın oğlu İrakli isə II İrakli adı altında bu yeni dövlətin çarı oldu.

Kartli-Kaxetiya çarı II İrakli tarixi ədəbiyyatda bacarıqlı və təşkilatçı bir hakim kimi xarakterizə edilir. Onun yürütdüyü siyasət nəticəsində gürcü çarlığı daha da möhkəmləndi və ona görə idi ki, hakimiyyəti dövründə II İrakli Azərbaycan xanlıqlarına qarşı hegemonçu siyasətdən və münasibətdən əl çəkmədi. Azərbaycan xanlarının parçalanmış vəziyyətdə qalması isə onun hegomonçu siyasətinə münasib zəmin yaratdı(31).

Xüsusilə, İran ərazisində güclü mərkəzləşdirilmiş hakimiyyətin olmamasından istifadə edərək II İrakli Cənubi Qafqazda hegemonçu siyasətin davam etdirilməsindən əl çəkmək fikrində deyildi. Yeni çarlıq hakimiyyətinin ilk illərində də II İrakli Gəncə və İrəvan xanlarından bac-xərac almaqda davam edirdi. Bununla belə, II İrakli həm mövcud vəziyyətinin möhkəmləndirilməsi, həm də Azərbaycan xanlıqlarına qarşı daha sərt iddiaların ortaya qoyulması üçün Rusiya ilə əlaqələrin genişləndirilməsinə meyl göstərirdi. Rusiyanın yardımı gürcü çarlığına Osmanlı dövlətinin və İran ərazisində meydana gələ biləcək mərkəzləşdirilmiş dövlətin Cənubi Qafqaza istiqamətlənmiş maraqlarından qoruduğu kimi, Azərbaycan xanlıqlarına qarşı həyata keçirilən təcavüzkar siyasətə arxa-dəstək ola bilərdi. Ona görə də, 1769-74-cü illər rus-türk müharibəsi ərəfəsində gürcü çarlarının Osmanlı Türkiyəsinə qarşı döyüşlərdə iştirak etmək üçün Rusiya sarayı tərəfindən səslənən təklif II İrakli tərəfindən də maraqla qarşılandı. Müharibədə iştirak etməklə II İrakli Rusiyanın müttəfiqliyini qazanacağını, Osmanlı Türkiyəsinin təzyiqlərindən qurtaracağını və "Böyük Gürcüstan" planının həyata keçirilməsinə şans qazanacağını güman edirdi.

İrakli Osmanlı Türkiyəsinə qarşı müharibədə iştirak etdiyi kimi, eyni zamanda Gürcüstan ərazisinə rus qoşun dəstəsi də gətirildi. 1769-cu il avqustun 26-da general Totlebanın komandanlığı altında Gürcüstana gələn rus dəstəsi 600 nəfərdən ibarət idi. II İrakli bu rus dəstəsini öz müstəqilliyinin və Azərbaycan xanlıqlarına qarşı yeridə biləcəyi təcavüzkar siyasətin zəmanəti sayırdı. Ona görə onun xahişi ilə dəstənin sayı artırılaraq 3767 nəfərə çatdırıldı (32).

1774-cü ildə Osmanlı dövləti ilə Rusiya arasında imzalanan Kiçik Qaynarça sülh müqaviləsi Rusiya tərəfində bir sıra üstünlüklər nəzərdə tutsa

da, Rusiyanın Cənubi Qafqazdakı maraqları arzu edilən şəkildə təmin olunmadı. Rusiya Gürcüstana yeritdiyi qoşunları geri çəkmək məcburiyyətində qaldı. Bu isə o demək idi ki, II İrakli Azərbaycan xanlıqlarına qarşı planlaşdırdığı təcavüzkar siyasət üçün Rusiya zəmanətini əldən verdi.

1776-cı ildə Dərbənd şəhərini Fətəli xana düşmən kəsilmiş Dağıstan hakimlərinin mühasirəsindən qurtarmaq üçün ora rus qoşun dəstəsi gələndə II İrakli öz nümayəndələrini bu dəstənin komandanının yanına göndərdi. II İrakli istəyirdi ki, bölgəyə gəlmiş olan rus qoşun dəstəsi Dərbənddən Gürcüstana doğru istiqamət götürsün. II İraklinin bu xahişi Rusiya sarayına çatdırıldı. Rusiya sarayı isə qoşun dəstəsinin Gürcüstana doğru hərəkəti davam etdirməsinə razı olmadı (33). Çünki Osmanlı dövləti ilə olan mürəkkəb gərgin münasibətlər Rusiyaya imkan vermirdi ki, Cənubi Qafqaza qoşun çıxarsın. Buna görə general Medem tərəfindən rəhbərlik edilən rus qoçun dəstəsi tezliklə geri çəkildi.

Rusiyadan hərbi yardım ala bilməməsi II İraklinin hərbi-siyasi planlarının həyata keçməsini də ləngidirdi. Onun "Böyük Gürcüstan" planına Kartli-Kaxetiya və İmeretiya çarlıqlarından əlavə, Gəncə, İrəvan, Qarabağ, Naxçıvan xanlıqları və Axalsıx paşalığı daxil idi. Azərbaycanın Xəzəryanı əraziləri və Şəki xanlığından başqa Cənubi Qafqazın digər əraziləri II İraklinin işğalçılıq planlarına daxil idi (34).

Rusiya sarayı özünün Cənubi Qafqaz siyasətində Gürcüstana dayaqlanmağı heç də inkar etmirdi. Ümumiyyətlə, XVIII əsrin 70-80-ci illərində Rusiya sarayı Cənubi Qafqazda iki xristian dövlətinin – Gürcüstan və Qarabağ xanlığı ərazisində erməni dövlətinin formalaşdırılması və möhkəmləndirilməsi üzərində fəal siyasət həyata keçirməyə başladı. Bununla belə, II İraklinin "Böyük Gürcüstan" planı Rusiyanın Cənubi Qafqazdakı işğalçılıq planlarına əks gedirdi. Ona görə də II İraklinin həddindən artıq güclənməsinə Rusiya sarayı tərəfindən maraqla yanaşılmırdı. Digər tərəfdən Rusiya Cənubi Qafqaza qoşun çıxarmaqla hələlik Osmanlı Türkiyəsi ilə münasibətləri gərginləşdirmək istəmirdi.

Bölgədə özünə daha etibarlı arxa qazanmaq istəyi ilə II İrakli 1776-cı ildə Osmanlı dövləti ilə müqavilə imzaladı. Gürcü çarının bu addımı Nadir şahdan sonra mərkəzləşdirilmiş dövlət yaratmaq istəyində olan Kərim xan Zəndə heç də xoş gəlmədi. Gürcüstan ərazisinin İran ərazisində mövcud olmuş dövlətlərə mənsubluğunu xatırlatmaq üçün Kərim xan Zənd 1778-ci ildə Gürcüstanla müharibəyə hazırlaşmağa başladı. Lakin 1779-cu ildə dünyasını dəyişməsi həmin yürüşün həyata keçməsinə imkan vermədi (35).

Çox tezliklə II İrakli Osmanlı Türkiyəsi ilə ittifaqın onun planlarının həyata keçməsinə kömək etməyəcəyi qənaətinə gəldi və yenidən üzünü Rusiya tərəfinə çevirdi. 1782-ci ildə İrakli II Yekaterinaya müraciət edib Ru-

siya himayəsini istədi. Gürcü çarı Rusiya himayəsinə qəbul olunmaq müraciətini müəyyən şərtlər daxilində irəli sürdü. O, Rusiya imperatriçasından xahiş etdi ki, İrəvan və Gəncə xanlıqları üzərinə malikiyyəti Rusiya tərəfindən tanınsın, habelə Axalsıx və Qars paşalıqlarının ələ keçirilməsinə köməklik göstərilsin. Əvəzində isə II İrakli vəd edirdi ki, İrakli və Osmanlı Türkiyəsi ilə müharibədə Rusiyaya köməklik göstərəcəkdir (36).

II İrakli Rusiya sarayından xahiş etdi ki, Gürcüstana 4 min nəfərlik rus qoşun dəstəsi göndərilsin. Bu qoşun dəstəsi ona həm düşmənlərindən müdafiə olunması, həm də ondan qopmuş olan vilayətlərin geri qaytarılması üçün lazım idi. Gürcüstana göndəriləcək qoşun dəstəsinin xərclərinin ödənməsini də II İrakli öz üzərinə götürürdü (37).

II İrakli Rusiya himayədarlığına götürüləcəyi təqdirdə bir sıra maliyyə öhdəliklərini də ödəyəcəyini vəd edirdi. Rusiya çariçası gürcü çarından alınan xahişə müsbət yanaşdı. Gürcüstanın himayəyə götürülməsi strateji baxımdan Rusiya sarayının maraqlarına cavab verirdi və bu zaman II İraklinin hansı maliyyə öhdəliklərini öz üzərinə götürməsi Rusiya sarayı üçün xüsusi bir əhəmiyyət kəsb etmirdi. Himayəyə götürülmüş Gürcüstan Cənubi Qafqazın işğalına başlanması üçün hərbi-siyasi və coğrafi baza təşkil edə bilərdi. Digər tərəfdən Rusiya Osmanlı dövlətinin Krıma qoşun çıxarmaq ehtimalından çox ehtiyatlanırdı. Belə bir hadisə baş verəcəyi təqdirdə himayəyə götürülmüş Gürcüstanın Osmanlı dövlətinə qarşı ikinci cəbhəni açmaq və Osmanlı qüvvələrinin müəyyən hissəsini bu bölgəyə cəlb etməklə onun ümumi qüvvəsini zəiflətmək olardı (38).

Rusiya çariçası tərəfindən Gürcüstanla müqavilə bağlanması məsələsinin araşdırılması knyaz Potyomkinə tapşırıldı. O isə öz növbəsində praktiki işlərin icrasını rus qoşunları Qafqaz xəttinin komandanı general P.Potyomkinə həvalə etdi. 1783-cü ilin may ayında general P.Potyomkin iki dövlət arasında imzalanması nəzərdə tutulan müqavilənin layihəsini podpolkovnik Tamara vasitəsilə Gürcüstana göndərdi. General eyni zamanda öz xahişini də göndərdi ki, II İrakli müqavilənin layihəsi ilə razılaşacağı təqdirdə öz nümayəndələrini Georgiyeskiyə yollasın. Rusiya və Gürcüstan nümayəndələri arasında müqavilə layihəsinin müzakirəsi elə də uzun sürmədi və 1783-cü il iyul ayının 24-də Georgiyevski traktatı adlanan sənəd imzalandı (39).

Traktata əsasən II İrakli artıq İran ərazisində yaranmış dövlətlərinin valisi yox, müstəqil çar kimi qəbul olunurdu. II İrakli özünün və xələflərinin şah hakimiyyətini deyil, yalnız Rusiya hakimiyyətini tanıdığını və Rusiya sarayının icazəsi olmadan ətraf hakimlərlə münasibətlər yaratmayacağını vəd edirdi. Rusiya Gürcüstanın ərazilərini qorumağı öz öhdəsinə götürürdü. Traktatda çoxlu sayda qarşılıqlı öhdəliklər öz əksini tapmışdı. Bu

öhdəliklərin mahiyyəti ondan ibarət idi ki, Gürcüstan özünün Rusiyadan olan asılılığını qəbul edirdi və bununla da yeni bir geosiyasi durum meydana çıxırdı. Rusiya tərəfi vəd edirdi ki, II İraklinin yalnız mövcud mülklərini deyil, habelə gələcəkdə əldə edə biləcəyi mülklərin qorunmasını da təmin edəcəkdir (40).

Tədqiqatçıların fikrincə, burada Şəki və Şamaxı xanlıqları və digər ərazilər nəzərdə tutulurdu (41). Amma yuxarıda deyilənlərdən məlumdur ki, II İrakli Gəncə və İrəvan xanlıqlarını da "Böyük Gürcüstanın" tərkib hissəsi kimi görürdü.

II İraklinin Rusiyanın himayəsini almağa çalışmaqda başlıca məqsədi rus qoşun dəstəsini Gürcüstan ərazisində görmək idi və bir müddətdən sonra bu məqsədinə nail oldu. General P.Potyomkin Gürcüstana 4 səhra topuna malik olan iki Qafqaz yeger taboru göndərdi. Polkovnik Burnaşevin ümumi komandanlığı altında olan bu qoşun dəstəsi 1783-cü il noyabr ayının 3-də Tiflisə yetişdi və Tiflisdə xüsusi bir təntənə ilə qarşılandı (42).

Georgiyevsk traktatının imzalanması və Gürcüstana rus qoşun dəstəsinin gətirilməsi Osmanlı Türkiyəsi tərəfindən böyük narazılıqla qarşılandı. Bölgədə Rusiyanın mövqeyinin möhkəmləndirilməsinin qarşısını almaq üçün Osmanlı nümayəndələri həm Azərbaycan xanları, həm də Dağıstan hakimləri arasında iş aparmağa başladılar. Georgiyevsk traktatının imzalandığı ildə yuxarıda qeyd edildiyi kimi, Gəncədə üsyan baş verdi və Hacı bəyin rəhbərliyi altında olan bu üsyan onunla nəticələndi ki, o vaxta qədər Gəncəni birlikdə idarə edən İbrahim xanın nümayəndəsi ilə II İraklinin nümayəndəsi şəhərdən qovuldu. Bununla II İraklinin Gəncə üzərindəki təsirinə də son qoyuldu. Eyni zamanda II İraklinin İbrahim xanla münasibətləri də korlandı. Bu bir tərəfdən Gəncə uğrunda tərəflərin daha çox öz maraqlarından çıxış etməsi səbəb olmuşdusa, digər tərəfdən də II İraklinin Qarabağda erməni dövləti yaratmağa çalışan Rusiya sarayının himayəsini qəbul etməsi idi (43).

Yaranmış konkret tarixi şəraitdə İbrahim xan Kartli-Kaxetiya çarı ilə iki tərəfli münasibətlərin qurulması üçün öz maraqlarını da yaddan çıxarmırdı. 1784-cü ildə onun II İrakli vasitəsilə Rusiya ilə münasibətləri bərqərar etməyə çalışdığını görmək mümkündür. II İrakli İbrahim xana göndərdiyi məktubunda nümayəndələrini rus məqamlarının yanına göndərməyi məsləhət bilirdi. İbrahim xan güman edirdi ki, II İraklinin köməyi Rusiya sarayı ilə münasibətləri qurmağa zəmin olacaqdır (44). Lakin bu, baş vermədi.

II İrakli isə rus qoşun dəstəsinin Gürcüstana gəlməsindən sonra Gəncənin əlindən çıxması ilə heç də razılaşmadı. Yenidən Gəncəni öz təsiri altına almaq üçün II İrakli bir daha İbrahim xanla danışıqlara getdi və onlar Gəncədə iki tərəfin nümayəndələrinin hakim təyin edilməsi və Gəncənin

gəlirlərinin birgə bölüşdürülməsi haqqında razılığa gəldilər. Lakin Şəki xanı Əhməd xanın bu məsələyə qarışması tərəflərin vəziyyətini bir qədər mürəkkəbləşdirdi. Əhməd xan Şəki xanlığına sığınan Gəncə xanının oğlu Əli bəyin Gəncə xanı məqamına yüksəldilməsinə cəhd göstərdi və eyni zamanda II İrakliyə də təklif etdi ki, İbrahim xanla münasibətlərini kəssin. Bu şərtin qarşısında Şəki xanı gürcü çarına öz nüfuzunu Gəncə üzərində bərpa etməyə şərait yaradacağına söz verirdi. II İrakli Şəki xanı ilə əməkdaşlığa razı olmadı. Belə olanda Şəki xanı yanına dəvət etdiyi 3 min nəfərlik ləzgi dəstəsi ilə Gəncəyə doğru irəliləməyə başladı. Şəki xanının və onun dəvət etdiyi ləzgilərin qarşısını almaq üçün II İrakli polkovnik Burnaşevdən xahiş etdi ki, onunla bərabər hərbi yürüşdə iştirak etsin (45).

Bu məqsədlə təşkil olunan dəstəyə gürcü qoşunundan əlavə Gürcüstana gəlmiş iki yeger taboru və 4 ədəd top daxil edildi. Həmin vaxt Tiflisdə səfərdə olan general P.Potyomkinin mühafizə dəstəsindən Həştərxan draqunları eskadronu və Don və Ural kazaklarından 100 nəfər də yürüşə çıxan dəstənin tərkibinə verilmişdi. 1784-cü il oktyabr ayının 11-də Alazan çayı ətrafında II İraklinin dəstəsi ləzgilərə yaxınlaşdı. Birləşmiş gürcü və rus dəstəsinin yaxınlaşmasından xəbər tutanda ləzgilər döyüşə girmədən uzaqlaşdılar (46). Birləşmiş rus və gürcü qoşun dəstəsi də geri qayıtdı və Gəncənin yenidən II İraklinin nəzarəti altına gətirilməsi məsələsi də bununla həll edilməmiş qaldı.

II İrakli müəyyən iddialarla yaşasa da rus qoşun dəstəsinin Gürcüstana gəlməsindən sonra Azərbaycan xanlıqları üzərindəki mövqelərini itirməkdə idi. Mövcud olan rus qoşun dəstəsi onun Azərbaycan xanları üzərindəki iddiasını təmin etməyə yetərli deyildi. II İraklinin özünün isə yerli qoşunların sayını artırmağa maliyyə vəsaiti çatmırdı.

Bununla belə, II İrakli Azərbaycan xanlıqları üzərindəki mövqelərini də əldən vermək istəmirdi. Bu məsələnin həlli üçün II İrakli 1785-ci ildə öz qoşun dəstəsini rus qoşun dəstəsinin iştirakı olmadan Gəncə üzərinə göndərdi. Gəncə ətrafındakı bağlarda Gəncənin müdafiəçiləri ilə gürcü qoşun dəstəsi arasında hərbi qarşıdurma baş verdi. Çox da uzun çəkməyən atışmadan sonra gürcü dəstəsi üstün gəldi və gəncəlilər geri çəkilib qalaya sığınmalı oldular. II İrakli hər halda öz planını həyata keçirə bilmədi və anladı ki, təkbaşına Gəncənin müqavimətini qıra bilməyəcəkdir. Əlavə kömək əldə etmək üçün o, İbrahim xana müraciət etdi. Həmin günlərdə Quba xanı Fətəli xanın Qarabağ xanlığı üzərinə hücumu gözlənilirdi. Fətəli xan qoşun dəstəsi ilə hətta hərəkətə başlayaraq Salyana gəlmişdi və burada bəzi təchizat məsələlərini həll etdikdən sonra Qarabağa doğru hərəkətini davam etdirməli idi. Belə bir şəraitdə İbrahim xan öz qoşununu II İraklinin köməyinə göndərib Qarabağı müdafiəsiz buraxa bilmədi. Ona görə II İrakli

Fətəli xana müraciət etdi ki, Qarabağ üzərinə hücum etmək fikrindən daşınsın (47).

II İraklinin nümayəndəsi Mirzə İsmayıl bir neçə gün sonra Fətəli xanın yanına gəldiyi vaxt Axalsıx paşası Süleyman paşanın nümayəndəsi də Fətəli xanın görüşünə gəldi və Rusiya və Gürcüstana qarşı çıxmaq üçün Süleyman paşanın təklifini ona çatdırdı. Fətəli xan isə daha çox Qarabağ xanlığını nəzarət altına almaq marağında idi. İbrahim xana zərbə vurulması üçün Fətəli xan general P.Potyomkinə məktub göndərərək Qarabağ xanını Osmanlı dövləti ilə əlaqələrdə günahlandırdı. Fətəli xan bununla Rusiyanı Qarabağ xanlığı üzərinə təhrik etməyə çalışdı. Lakin o, niyyətinə nail olmadı. Sonra o, Kartli-Kaxetiya çarı ilə İbrahim xanın münasibətlərini pozmağa çalışdı. Fətəli xan gürcü çarının elçisinə çatdırdı ki, II İrakli ilə xoş münasibətlər saxlamaq istəyir. Lakin İbrahim xana qarşı olan mövqeyindən də əl çəkməyəcəkdir. Sonra Fətəli xan gürcü çarına İbrahim xana qarşı ittifaq təklifi etdi. Bunun üçün o, gürcü çarından 500 nəfərlik dəstə göndərməsini xahiş etdi. Onun fikrincə, bu dəstə Şuşa qalasını almağa yetərli idi. Əvəzində, Fətəli xan vəd edirdi ki, gürcü çarının nəzarəti altında olan ərazilərdən Qarabağa köçürülən azərbaycanlı əhali geri qaytarılacaq, Qarabağın müsəlmanlar məskunlaşan hissəsini özünə götürəcək, xristianlar məskunlaşan hissəsini isə II İraklinin nəzarəti altına verəcəkdir. Fətəli xan eyni zamanda onu da vəd edirdi ki, Qarabağ bölüşdürüldükdən sonra Gəncə xanlığının bütünlüklə gürcü çarı tərəfindən tutulmasına etiraz etməyəcəkdir (48).

Gürcü çarının nümayəndəsi bildirdi ki, II İrakli artıq Rusiya himayəsini qəbul edib və general Potyomkinlə məsləhətləşmədən belə bir təklifi qəbul edə bilməz. Belə olanda Fətəli xan təkbaşına Qarabağ xanlığı üzərinə hücum etdi. İbrahim xan müqavimət göstərməyi qərarlaşdıraraq II İraklidən kömək istədi. II İrakli də Gəncə yaxınlığında olan gürcü qoşununa İbrahim xanla birləşməyi tapşırdı. Gəncəlilər gürcü qoşununun uzaqlaşmasından istifadə edib şəhərin gücləndirilməsi haqqında düşünməyə başladılar. Gəncəlilər Şamxor və Şəmşəddil əhalisini II İrakliyə qarşı köməyə çağırdılar. Şəmşəddil və Şamxor əhalisi II İraklidən qopmağa çalışdığı üçün gəncəlilərin çağırışını qəbul etdilər. Bu isə II İraklinin vəziyyətini müəyyən qədər çətinləşdirdi. Gəncəni itirdiyi kimi, Şamxor və Şəmşəddilin də ondan qopmaq təhlükəsi yarandı. Belə olanda gürcü çarı bir daha polkovnik Burnaşevdən kömək istədi. II İrakli xahiş etdi ki, polkovnik Burnaşev onun Gəncə üzərinə yürüşünü dəstəkləsin. II İraklinin vəziyyətinin doğrudan da çətinləşəcəyini görən Burnaşev tabeliyi altında olan taborların birinə Muğanlı kəndinə doğru irəliləməsinə əmr verdi. Bundan başqa o, əlavə qüvvələrin də Tiflisə gəlməsini qərarlaşdırdı (49).

Mövcud olan məlumatlara görə, rusların işə qarışması ilə Fətəli xan geri çəkildi və bununla da bölgədə yaranmış olan mürəkkəb vəziyyət bir qədər səngidi. Amma II İrakli ilə İbrahim xanın münasibətləri korlandı. Rusiyanın Qarabağ xanlığına qarşı izlədiyi məkrlu siyasət və Qarabağ xanlığı ərazisində xristian dövləti yaratmaq üçün Rusiyanın ermənilərlə siyasi oyunlara girişməsi İbrahim xanı həm Rusiyaya, həm də onun himayəsində olan gürcü çarlığına qarşı ciddi mövqe tutmağa sövq etdi (50).

II İraklinin münasibətləri yalnız İbrahim xanla kəskinləşmədi. Axalsıx paşası Süleyman paşa ilə olan münasibətlərin xeyli pisləşməsi də II İraklinin vəziyyətini daha da mürəkkəbləşdirdi. Yuxarıda qeyd edildiyi kimi, Süleyman paşa bir çox Azərbaycan xanlarını və ləzgiləri öz ətrafında Rusiya və Kartli-Kaxetiya çarlığına qarşı səfərbər edə bilmişdi. Xüsusən, ləzgilərin Axalsıxa toplaşması və onların Süleyman paşa tərəfindən maliyyənləşdirilməsi Kartli-Kaxetiya çarlığı üçün ciddi bir təhlükə mənbəyi oldu. Bu təhlükənin qarşısının alınması üçün II İrakli Süleyman paşaya müraciət etdi və ləzgilərin Gürcüstan ərazisinə soxulmasının qarşısını almağa çağırdı. Süleyman paşa öz şərtlərini irəli sürməklə bu müraciəti müzakirə etməyə razı oldu. 1786-cı ildə II İrakli ilə Süleyman paşa arasında danışıqlar aparıldı. Süleyman paşa tələb edirdi ki, rus qoşun dəstəsi Gürcüstandan çıxarılsın və ya heç olmasa, qoşunun artırılmasına yol verməsin, Rusiya ilə ittifaqa son qoyulsun, Osmanlı sultanının Gürcüstan üzərindəki hakimiyyəti tanınsın. Bunun əvəzində isə vəd olunurdu ki, Süleyman paşa II İraklinin Gəncə və İrəvan xanlıqları üzərindəki hakimiyyətini tanınacaq və ətrafdakı Azərbaycan ərazilərinin onun hakimiyyəti altına düşməsinə etiraz etməyəcəkdir (51).

II İrakli bu şərtləri qəbul etmədi və bəyan etdi ki, Süleyman paşanın irəli sürdüyü şərtlər haqqında Rusiya tərəfi ilə məsləhətləşməlidir. Belə olanda Süleyman paşa tərəfindən dəstəklənən ləzgi dəstələri Gürcüstan ərazisinə soxuldular, çoxlu sayda yaşayış məntəqələrini viran hala saldılar. II İraklinin bu yürüşlərin qarşısını almağa gücü çatmırdı. Bu azmış kimi Süleyman paşanın Kartli-Kaxetiya çarlığına qarşı iri miqyaslı hücum planı hazırlanması barədə xəbərlər yayıldı. Guya həmin plana görə Süleyman paşa, avar xanı Ümmə xan və Azərbaycan xanları üç tərəfdən Kartli-Kaxetiya çarlığı üzərinə hücum etməli idilər. Süleyman paşanın bölgədəki fəallığı gürcülərdə bu yayılan xəbərlərin doğru olmasına inandırdı. Bununla bölgədə kifayət qədər gərgin bir durum yarandı. Yaranmış gərginliyin aradan qaldırılması üçün Rusiya sarayı işə qarışdı və İstanbuldakı diplomatları vasitəsilə Osmanlı dövlətini Gürcüstan üzərinə hücumdan çəkindirməyə çalışdı. Xüsusilə, bu iki ölkə arasında müharibə təhlükəsinin reallaşdığı bir vaxtda Rusiya Cənubi Qafqazda da yeni cəbhənin açılmasında maraqlı

deyildi. Əslində, Osmanlı dövləti də Rusiyanın Cənubi Qafqazda fəallaşmasını istəmirdi. Ona görə də 1786-cı ilin avqustunda Süleyman paşa öz nümayəndəsini Tiflisə göndərdi və sülh müqaviləsi imzalanmasını təklif etdi. II İrakli bu təklifi dərhal qəbul etdi və təklif olunan müqavilə imzalandı. Müqaviləyə əsasən tərəflər qarşılıqlı müdaxilələrə və talanlara yol verməməyi öz öhdələrinə götürdülər. Süleyman paşa ona da razı oldu ki, Kartli-Kaxetiya çarı xarici hücumların qarşısının alınması üçün rus qoşunlarından istifadə edə bilər. Amma bu zaman rus qoşununun sayı 3 mini keçməməli və gürcü çarı da onun sayının artırılması haqqında xahiş etməməli idi. Süleyman paşa da söz verirdi ki, öz ərazisinə ləzgiləri dəvət etməsin və Gürcüstanın düşmənləri ilə münasibətlər qurmasın (52).

Hətta bu müqavilə imzalanandan sonra da Osmanlı dövləti, o cümlədən Axalsıx paşası gürcü çarına təzyiqləri davam etdirdilər. Ruslarla əlaqələrin kəsilməsi tələbini özündə əks etdirən bu təzyiqlərin qarşısının alınması günü-gündən çətinləşirdi. II İraklinin yardımına ümid edə biləcəyi Rusiya isə gürcü çarlıqlarının tam təhlükəsizliyinə təminat vermək imkanına malik deyildi. Mürəkkəbləşən beynəlxalq şərait də Rusiyaya gürcü çarlıqlarının maraqlarının tam qorunmasına xüsusi diqqət ayırmağa imkan vermirdi.

Gəncənin və Şamxorun nəzarətdən çıxması, Qazax və Borçalı əhalisinin Gəncə xanlığı ərazisinə köçməyə başlaması II İraklinin vəziyyətini daha da ağırlaşdırırdı. Qarabağ xanı İbrahim xan Gəncə xanlığı məqamına Cavad xanı gətirməsi II İraklinin bu xanlıq üzərindəki nüfuzunun itirilməsi demək idi. II İrakli isə bununla razılaşmaq niyyətində deyildi. Süleyman paşa ilə bağlanmış müqavilənin onun Osmanlı tərəfindən təhlükəsizliyinə müəyyən təminat verməsindən istifadə edərək gürcü çarı rus qoşun dəstəsinin köməyi ilə Gəncə üzərinə hücum etməyə qərar verdi. Bu planı həyata keçirmək üçün II İrakli polkovnik Burnaşevə müraciət etdi və polkovnik Burnaşev də Gəncə xanlığının yenidən II İraklinin nəzarəti altına gətirilməsində iştirak etməyə razı oldu.

Polkovnik Buraşevi razı salmaq üçün II İrakli ona İbrahim xan barədə qızışdırıcı məktub göndərdi. II İraki yazırdı ki, İbrahim xan Axalsıx, Dağıstan və Ərzuruma məktub göndərib, özünə kömək toplayır və qısa zamandan sonra gürcü çarlığı üzərinə hücum edəcəkdir (53). Polkovnik Burnaşev sözsüz ki, gürcü çarlığı üçün hər hansı bir təhlükə yaranmasını istəmirdi. İbrahim xan isə belə bir təhlükəni yarada bilərdi. Digər tərəfdən İbrahim xanın möhkəmlənməsi gürcü çarlığı üçün potensial təhlükə idi. Qarşıdakı yürüşlə Qarabağ xanını zəiflətmək də olardı ki, bu həm də Rusiyanın maraqlarına cavab verə bilərdi.

Gəncə və Qarabağ xanlıqları üzərinə hücum ərəfəsində II İrakli Quba xanı Fətəli xanla münasibətlərini normaya saldı. Fətəli xan Şəki xanı ilə birlikdə II İrakliyə birləşərək İbrahim xana qarşı yürüşdə iştirak etməyə hazır olduğunu bildirdi. Bu təklif II İrakli tərəfindən məmnunluqla qarşılandı. Çünki adları çəkilən xanların onlara qoşulması bütünlükdə Azərbaycan xanlıqlarının gücünü parçalamaqla bərabər, həm də İbrahim xana qarşı əlavə qüvvə idi. Bununla belə, qeyd etmək lazımdır ki, İbrahim xanın qohumu və müttəfiqi olan avar hakimi Ümmə xanın hücum təhlükəsi Fətəli xanı niyyətindən daşınmağa məcbur etdi. Tədqiqatçıların nəzərincə isə, Fətəli xan qəsdən II İrakli ilə müttəfiq olmaq niyyətindən daşındı. Çünki II İraklinin İbrahim xana üstün gələcəyi təqdirdə daha da möhkəmlənməsi bölgədə qüvvələr nisbətinin dəyişməsinə səbəb ola bilərdi ki, bu da Fətəli xanın maraqlarına cavab vermirdi (54).

Polkovnik Burnaşevin tabeçiliyində olan hər iki taborun Gəncə və Qarabağ üzərinə hərbi yürüşdə iştirak etməsinə əmr verdi. Rus tarixçilərinin fikrincə, gürcü çarı isə 5 minlik qoşun dəstəsi toplaya bilmişdi. 1787-ci il sentyabr ayının əvvəllərində birləşmiş hərbi qüvvələr Gəncəyə yaxınlaşdılar. Gürcü çarının böyük qoşun dəstəsi ilə Gəncəyə yaxınlaşdığını eşidən Qarabağ məlikləri qaçıb onun yanına gəldilər və onların adamlarının Qarabağdan çıxarılaraq Gürcüstana köçürülməsi üçün II İraklidən yardım istədilər. II İrakli bu xahişə müsbət cavab verdi, oğlu Yulonun və knyaz Orbelianinin rəhbərliyi altında Qarabağ xanlığına 4 min nəfərlik qoşun dəstəsi göndərdi. Qarabağ məlikləri də bu dəstəyə qoşuldular. İbrahim xanın qoşunları gürcü çarının dəstəsinə müqavimət göstərə bilmədi. II İrakli Qarabağ xanlığı üzərinə yürüşdə uğur qazansa da onun qələbə sevinci uzun sürmədi. Elə həmin günlərdə general P.Potyomkin Rusiya sarayından rus qoşun dəstəsini Gürcüstandan geri çağırmaq haqqında tapşırıq aldı (55). Bununla da II İrakli Qarabağ və Gəncə xanlıqlarını tərk edib geri qayıtdı. 1787-ci ilin sentyabr ayında rus qoşun dəstəsi də Gürcüstandan geri döndü. 1787-ci ildə başlayan və 1791-ci ilə qədər davam edən Osmanlı-Rusiya müharibəsi rus qoşun dəstəsinin Gürcüstan və Cənubi Qafqazı tərk etməsi ilə nəticələndi.

Rus qoşun dəstəsinin Gürcüstandan çıxarılması ilə II İrakli arxasız və dayaqsız qaldı. Bununla belə o, Azərbaycan xanlıqlarının işğalı üçün yeni yollar aramağa başladı. Mövqeyinin yenidən möhkəmləndirilməsi üçün 1787-ci ilin sonlarında II İrakli yenidən Rusiyadan hərbi yardım istədi. Lakin müharibə şəraitində olan Rusiya belə yardımı verməkdən imtina etdi (56).

1787-ci ilin sonlarına yaxın II İrakli Quba xanı Fətəli xanla da qarşılıqlı münasibətlərin qurulmasına çalışdı. Fətəli xan da belə münasibətlərin yaranmasında maraqlı idi. Rusiya qoşunları Qafqaz xəttinin komandanlığı

da II İrakli ilə Fətəli xan arasında ittifaq münasibətlərinin qurulmasına yardımlar göstərməyə çalışdı. II İrakli general Potyomkinə göndərdiyi məktublarında da ondan Fətəli xanla münasibətlərin yaradılmasına kömək göstərməsini xahiş etdi. Rus generalı da Fətəli xana müraciət etdi və II İrakli ilə dostluq münasibətlərinin qurulmasına yardım göstərməyə hazır olduğunu bildirdi. Aparılan danışıqlardan sonra 1787-ci ilin sonlarında II İrakli ilə Fətəli xan arasında ittifaq yaradıldı (57).

1788-ci ildə isə II İrakli Osmanlı dövləti ilə dostluq münasibətləri haqqında müqavilə imzalanmasına cəhd göstərdi. Bununla bağlı tərəflər arasında danışıqlar aparıldı. Bu danışıqların gedişində də gürcü çarı Azərbaycan xanlıqları üzərində hegemonluğunu təsbit etmək istəyirdi. 1788-ci ilin sonlarında II İrakli Osmanlı dövləti ilə müqavilə imzalamağa nail oldu. Rusiya ilə aparılan müharibədə uğursuzluqlarla qarşılaşan Osmanlı dövləti imzaladığı müqavilədə II İraklinin Azərbaycan xanlıqları ilə bağlı iddiaları qarşısında elə bir maneə yaratmadı (58).

Gürcü çarı Quba xanı ilə ittifaqdan istifadə edərək 1788-ci ilin sonlarında Gəncə xanlığının üzərinə hücuma keçdi. Fətəli xan və şəkili Məhəmməd Həsən xan bu hücum zamanı II İrakliyə kömək göstərdilər. Bu köməyin nəticəsində gürcü qoşunları Gəncənin ətrafını tutmağa nail oldu. Bu uğur əslində Gəncə xanının yenidən asılı vəziyyətə salınması idi. 1789-cu ilin əvvəlində isə Şəmkir çayı yaxınlığında II İrakli ilə Fətəli xanın görüşü oldu. Şəkili Məhəmməd Həsən xan da bu görüşdə iştirak edirdi. Danışıqlarda II İrakli ilə Fətəli xan arasında bölgədə nüfuz dairəsi məsələsinə toxunuldu. Fətəli xanın təkidi ilə II İrakli Şəmşəddil mahalını Gəncə xanlığına qaytardı (59).

1789-cu ildə Fətəli xanın dünyasını dəyişməsi ilə yeni yaranan ittifaq da ləğv olundu. XVIII əsrin 90-cı illərində Qacarlar hakimiyyətinin möhkəmlənməsi və bu dövlətin Nadir şah dövlətinin sərhədlərinin bərpası uğrunda mübarizəyə qoşulması Cənubi Qafqazda yeni bir hərbi şərait yaratdı. II İrakli Azərbaycan xanlıqlarına qarşı öz iddialarından əl çəkməsə də, daha çox çarlığın Qacar hücumlarından müdafiə olunması məsələlərinin əsirinə çevrildi.

### *3. Azərbaycan xanlıqları ərazisində erməni dövləti yaradılmasına cəhdlər*

Azərbaycan xanlıqlarının siyasi coğrafiyasını öz xəyali iddialarına uyğun olaraq dəyişmək istəyən qüvvələrdən biri də bölgədə yaşayan ermənilər, erməniləşmiş xristianlar, onların Rusiyada yaşayan nümayəndələri və havadarları idi. Gürcülərdən və azərbaycanlılardan fərqli olaraq Cənubi Qafqazda heç bir dövlət qurumuna malik olmayan ermənilər bu iddiaya daha çox fərdi şəkildə və ya da kilsə birliyi şəklində əl atırdılar. Ona görə də, bu iddianın həyata keçirilməsi, yəni Azərbaycan xanlıqları ərazisində erməni qurumunun yaradılması üçün ermənilər hər hansı dövlət ehtiyatlarına malik deyildilər. Siyasi iddialarının həyata keçirilməsi üçün onların ümid etdikləri yeganə qüvvə Rusiya çarizmi idi. Bölgə xalqlarına xəyanət yolu tutmaqla Rusiya sarayına göstərilən xidmətlərin Rusiyanın özünün də bölgədə siyasi dayağına çevrilə biləcək erməni xristian dövlətinin qurulması ilə nəticələnə biləcəyi ehtimalı ermənilərin Nadir şah dövlətinin süqutundan sonra Cənubi Qafqazda fəallaşmasına yeni bir təkan verdi. Belə bir fəaliyyətin aparılması üçün ermənilərin I Pyotrun dövründən özünəməxsus təcrübəsi var idi. Azərbaycanın xanlıqlara parçalandığı, Rusiyanın Cənubi Qafqaza olan maraqlarının yenidən artdığı bir dövrdə həmin təcrübənin canlandırılması istiqamətində ermənilər üçün yenidən münasib bir fürsət yarandı. Başlıcası isə ermənilərin Azərbaycan xanlıqlarına qarşı cəbhə tutmaq əzmi Rusiya sarayı tərəfindən müsbət qarşılandı və onların ərazi iddialarından Rusiyanın bölgə siyasətinin planlaşdırılmasında istifadə edilməsi qərara alındı. Doğrudur, beynəlxalq münasibətlərdən, xüsusilə də Osmanlı dövləti ilə formalaşan münasibətlərdən asılı olaraq Rusiya Azərbaycan xanlıqlarının işğalı məsələsini tədricən aktuallaşdırmalı oldu. Bununla belə, ermənilərin rus siyasətinin vasitəsi olmaq və rus siyasətinin köməyi ilə Cənubi Qafqazın siyasi coğrafiyasına yeni dəyişiklik gətirmək meylləri diqqət mərkəzində saxlanıldı, hətta vaxtaşırı erməni iddiaları təşviq də edildi.

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda Azərbaycan xanlıqlarının mövcudluğunun özü də erməni başbilənlərini bu və ya digər dərəcədə fəallaşmağa sövq etdi. Çünki Nadir şah dövlətinin süqutundan sonra Arazdan şimalda olan ərazilərdə təbii və obyektiv bir müstəqilləşmə prosesi getdi və Azərbaycan torpaqları üzərində müstəqil Azərbaycan xanlıqları bərqərar oldu. Böyük iddialarla yaşayan erməni kilsəsinə və başbilənlərinə Cənubi Qafqazın coğrafiyasında yer olmaması, hətta müəyyən ümid bəslədikləri Qarabağın xristian məliklərinin dövlətçilik subyektinə çevrilə bilməməsi onları bir müddət iflic vəziyyətinə salsa da, sonradan Rusiya sarayını Cənubi Qafqaza təhrik etmək kartını işə saldılar.

1760-cı ildə erməni katolikosu Akop Rusiya çariçası Yelizavetaya müraciət etdi və ondan erməniləri öz himayəsi altına almağı xahiş etdi (60).

Erməni katolikosu sözsüz ki, ayrı-ayrı ermənilərin himayə altına alınmasına işarə etmirdi. O, Rusiyanın köməyi ilə Cənubi Qafqazda ermənilərə də dövlət qurulmasına və ermənilərin dövlətini himayə altına alınmasına işarə edirdi. Amma çariça Yelizavetanın dövründə də Rusiyanın Cənubi Qafqaz siyasətində gözləmə mövqeyi hiss edilməkdə idi. 1762-ci ildə Yekaterina Rusiyada hakimiyyət başına gəldikdən sonra şərq istiqamətində fəal siyasət yeridilməsinə, Rusiyanın sərhədlərinin cənuba doğru genişləndirilməsinə diqqət artırıldı. Rusiya siyasətindəki fəallaşmanın incəliklə duyan erməni kilsəsi və erməni ideoloqlarının da Azərbaycan xanlıqları ərazisində erməni dövləti yaradılması istiqamətindəki fəaliyyəti hiss olunacaq dərəcədə genişlənməyə başladı.

XVIII əsrin 60-cı illərindən etibarən erməni xalqının "azadlığı" hərəkatının yeni-yeni ideoloqları meydana gəlməyə başladı. Bu ideoloqların da fəaliyyətinin əsas məqsədi Qarabağ və İrəvan xanlıqları ərazisində etnik erməni dövləti yaratmaq idi. Belə ideoloqlardan biri, hindistanlı erməni İosif Emin idi. Onun da ideologiyasının əsasında Azərbaycan torpaqlarında erməni çarlığının təşkili dayanırdı. Ancaq o başa düşürdü ki, istər İrəvan, istərsə də Qarabağ xanlığı ərazisində ermənilər azlıqda olduğu və təşkilatlanmadığı üçün orada erməni dövlətini yalnız xarici təcavüz yolu ilə yaratmaq mümkün idi.

Öz ideologiyasının reallaşması yolunu tapmaq üçün İ.Emin 1763-cü ildə Gürcüstana gəldi. Burada gürcü çarı İrakli ilə görüşdü. Erməni ideoloqu öz planlarını gürcü çarına açıqladı və ondan əməli kömək almağa çalışdı. Lakin İrakli, İ.Eminin planlarına ötəri şəkildə yanaşır, ya da onun üstündən keçməyə çalışırdı. İ.Eminə elə gəlirdi ki, gürcü qoşunlarının köməyi və erməni gənclərinin silahlandırılması yolu ilə bütünlükdə "tarixi Ermənistanı" da azad etmək mümkündür. Lakin İ.Eminlə İrakli arasındakı ilk görüş ermənilərin iddiaları ilə bağlı konkret bir razılaşma olmadan sona çatdı. Ancaq bir neçə gündən sonra gürcü çarının yaxınları İ.Eminin yanına gəldilər və yaranmış vəziyyətlə bağlı onun da köməyini istədilər. Əldə edilmiş məlumata görə, Kərim xan Zənd ən yaxın vaxtlarda 100 minlik qoşun dəstəsi ilə Gürcüstan ərazisinə hücum etməyə hazırlaşırdı. Bu xəbər gürcü çarını ciddi narahat etməyə başladı. Gürcü çarı öz imkanları ilə belə böyük təhlükənin qarşısını saxlamağa qadir deyildi. Onda gürcü çarı İ. Emin də imkanlarından istifadə etməyi qərara aldı. İ.Eminə xəbər verildi ki, əgər erməni gənclərini silah altına cəlb etməyi bacarırsa, onda bu işə başlasın. Təklif İ.Emin tərəfindən son dərəcə böyük həvəslə qarşılandı (61).

İ.Emində belə bir inam yaranmışdı ki, erməni gənclərinin silahlandırılması, onların gürcü qoşunları ilə birlikdə fəaliyyətə başlaması bu birləşmiş qüvvələrin sonradan erməni çarlığı uğrunda mübarizəsinə də gətirib çıxaracaqdır. Belə bir inam və həvəslə işə başlayan İ.Emin 6 gün ərzində 800 erməni gəncini silahlı dəstəyə cəlb edə bildi (62).

Tezliklə daha bir məlumat alındı ki, Kərim xanın qardaşı ona qarşı üsyan qaldırıb. Onda Kərim xan Gürcüstana hücumu təxirə salaraq təcili geri qayıtmaq məcburiyyətində qaldı. Bu vəziyyət İ.Emini son dərəcə kədərləndirdi. Çünki bununla o, həm ermənilərdən ibarət silahlı dəstə düzəltmək imkanını itirdi, həm də birgə qoşun dəstələri ilə Zənd qüvvələrinə zərbə vurmaq və sonra da "tarixi Ermənistan"ın içərilərinə doğru irəliləmək şansını itirdi. Doğrudan da belə oldu. Çar İrakli Kərim xanla döyüşmək zərurətinin aradan qalxması ilə əlaqədar olaraq silahlandırılmış erməni gənclərinin buraxılması haqqında əmr verdi. Bütün silahlı ermənilər evlərinə buraxıldılar. Onlardan yalnız 40 nəfər saxlanıldı. İ.Emin isə öz niyyətlərindən, Gürcüstanı da erməni iddiaları uğrunda "mübarizəyə" qoşmaqdan əl çəkmək istəmirdi. Ona görə o bir də çar İrakli ilə görüşməyə cəhd göstərdi. Növbəti görüşdə yenə xəyali erməni torpaqlarının azad edilməsi müzakirə olundu. İ.Emin xahiş etdi ki, toplanmış silahlılar buraxılmasın, onun ixtiyarına 1000 nəfərlik gürcü süvari dəstəsi verilsin. İ.Emin istəyirdi ki, bu dəstə ilə Kərim xanın geri çəkilməkdə olan qoşunlarının üzərinə getsin. O güman edirdi ki, min nəfərlik dəstə ilə qəfildən geri çəkilməkdə olan güclü qoşunun üzərinə hücum etməklə onlara üstün gələ bilər. Emin vəd edirdi ki, hücum zamanı erməni əhalisi də dəstəyə hər vasitə ilə yardım göstərəcəkdir. O bu yolla gürcü qoşun dəstəsinə rəhbərlik edib həm də erməni torpaqları hesab etdiyi xanlıqların ərazisini də qeyri ermənilərdən təmizləməyi planlaşdırırdı. Ancaq İrakli belə bir təxribata razı olmadı. Çünki o belə bir əməliyyatın uğurla başa çata biləcəyinə inanmırdı (63).

İ.Emindən fərqli olaraq XVIII əsrin 60-70-ci illərində meydana çıxan erməni ideoloqları öz planlarını daha çox çar Rusiyasının Cənubi Qafqaz təcavüzü ilə əlaqələndirməyə çalışırdılar. Çünki onlar yaxşı bilirdilər ki, Azərbaycan xanlıqlarının və Osmanlı Türkiyəsinin müqavimətini yalnız Rusiyanın hərbi gücü ilə sındırmaq olar. Ona görə də bir-birinin ardınca müxtəlif erməni planları hazırlanır və Rusiya sarayına təqdim edilirdi. Belə planlardan birini Rusiyadakı erməni ticarət-sənaye dairələrinin nümayəndələri Movses Sarafov (Sarafyan) 1769-cu ildə hazırlayıb Rusiya Xarici İşlər Nazirliyinin Kollegiyasına təqdim etdi. Planın həmin vaxt üzə çıxması heç də təsadüfi deyildi. 1768-ci ildə Rusiya ilə Türkiyə arasında növbəti müharibə başlamışdı. Həmin müharibə erməniləri çox sevindirmiş

və onların xəyali planlarının həyata keçməsinə böyük bir ümid yaratmışdı. Ermənilər güman edirdilər ki, rus qoşunlarının Türkiyə ərazisinə girməsi "tarixi Ermənistan"ın Türkiyədəki torpaqlarının qoparılıb ermənilərin əlinə verilməsinə zəmin yaradacaqdır. M.Sarafyanın Rusiya Xarici İşlər Nazirliyinə təqdim etdiyi plan da erməni torpağı kimi iddia edilən ərazilərdə Rusiyanın nəzarəti altında olan erməni dövlətinin yaradılmasını nəzərdə tuturdu. Erməni tarixçilərinin fikrincə, Sarafyanın təqdim etdiyi plan təkcə onun öz yaradıcılıq məhsulu deyildi. Rusiya yüksək dairələrində artıq kifayət qədər tanınmış olan ermənilər Q.Kampanyan və O.Lazarevin də bu planın hazırlanmasında iştirak etmələri və ya heç olmasa həmin planın mahiyyətindən xəbərdar olmaları güman edilirdi (64).

Sarafyanın planı son dərəcə təcavüzkar bir plan idi və onun mahiyyətini də Azərbaycan xanlıqlarına və Osmanlı Türkiyəsinə qarşı hərbi təcavüzün həyata keçirilməsi təşkil edirdi. Bu plana görə rus qoşunları, habelə Moskvadan, Həştərxandan, Gizlərdən, Mozdokdan toplanmış erməni könüllüləri, eləcə də Qarabağın və Gürcüstanın hərbi qüvvələri əvvəlcə Gürcüstanı, sonra da "tarixi Ermənistan"ı azad etməli idi (65). Ancaq maraqlıdır ki, Qarabağın hərbi qüvvələri deyəndə müəllif nəyi nəzərdə tuturdu? Ola bilsin müəllifin xəbəri yox idi ki, Qarabağ xanlığı kifayət qədər güclü bir xanlıq idi və Qarabağ xanı İbrahim xan xanlıq ərazisində vəziyyətə ciddi nəzarət edirdi və onun qorxusundan Qarabağda ciddi erməni qüvvələri də formalaşa bilməzdi.

Rusiya-Türkiyə arasında başlanan müharibə 1774-cü ildə Kiçik Qaynarçada bağlanılan sülh müqaviləsi ilə başa çatdı. Həmin müqaviləyə əsasən Rusiya Qara dəniz sahillərində möhkəmləndi. Cənubi Qafqaz və Türkiyə erməniləri ilə bağlı isə ermənilərin ümidində olduğu hər hansı bir irəliləyiş baş vermədi. Ona görə ermənilər bu müharibənin nəticələrindən ümumən narazı qaldılar (66).

Bununla belə ermənilərin iddiaları heç də yaddan çıxmadı. Əksinə, Türkiyə ilə aparılan müharibədə əldə edilən nəticələrdən sonra Rusiya sarayında Cənubi Qafqaza doğru irəliləmək planları yetişməkdə idi. Digər tərəfdən də Rusiya ilə əlaqələri genişlənən ermənilər bir-birinin ardınca ermənilərin "azad edilməsi" ilə bağlı yeni-yeni planlar hazırlayır və Rusiya rəhbərliyinə təqdim edirdilər. XVIII əsrin 70-ci illərinin sonlarında bu sahədə ermənilər xeyli fəallaşdılar. Onların arasında kifayət qədər var-dövlətə malik olan Culfa tacirinin oğlu Ovanes (İvan) Lazarev və erməni katalikosu tərəfindən Rusiyadakı erməni yeparxiyasının başçısı təyin edilmiş Ovsep Arutyan çarıça II Yekaterina ilə şəxsi tanışlıqdan istifadə edərək Rusiya sarayını hər vasitə ilə erməni işinə cəlb etmək istəyirdilər. Onların hazırladıqları planı həm Yekaterinaya, həm də əvvəl Hərbi Kollegiyanın

vitse-prezidenti, sonra prezidenti olmuş, Rusiya siyasətində böyük nüfuza malik olan knyaz Potyomkinə təqdim etmişdilər. Rusiya ermənilərinin hazırladığı planın da əsas mahiyyətini rus silahının gücü ilə "tarixi Ermənistan" ərazisini qeyri-ermənilərdən azad etmək və həmin ərazidə Rusiyanın nəzarəti altında olan erməni dövləti yaratmaq idi. I Pyotrun Qafqazla bağlı işğalçılıq siyasətini yeni səviyyədə davam etdirməyə çalışan Rusiya sarayı üçün ermənilərin tərtib etdiyi planlar heç də maraqdan uzaq deyildi. Çünki I Pyotrun dövründə olduğu kimi ermənilərə diqqət yetirmək və onlara dayaqlanmaq Qafqaz yürüşündə faydalı ola bilərdi. Ona görə də Yekaterinanın tapşırığı ilə knyaz Potyomkin general Suvorovu da bu məsələlərə cəlb etdi. Suvorovun qarşısına belə bir vəzifə qoyuldu ki, Peterburqda Lazarevin və Arqutyanın (Arqutinski) iştirakı ilə iclas çağırılsın, orada ermənilərin azad edilməsi və onların səpələndiyi ərazidə erməni dövlətinin yaradılması üçün fəaliyyət planının hazırlanması müzakirə olunsun (67).

Suvorov Peterburqa çağırılmamışdan qabaq Poltavada xidmət edirdi və onun paytaxta çağırılması yalnız ermənilərin işləri ilə bağlı deyildi. Rus sarayı öz qarşısına daha böyük planlar qoymuşdu – Cənubi Qafqazı ələ keçirmək. Ermənilər isə bu planın həyata keçirilməsində rus siyasətinin və təcavüzünün elementi olmalı idi. Qafqazın tutulması çox böyük və məsuliyyətli plan olduğu üçün Suvorov da onun icrasına cəlb edilmişdi. II Yekaterinanın Suvorovu necə qarşılaması da ona tapşırılacaq vəzifəyə verilən əhəmiyyətin ifadəsi idi. 1799-cu ilin sonlarında Peterburqa qayıdan Suvorovu çariça böyük hörmətlə qarşılamış və Müqəddəs Aleksandr Nevski ordeninin brilyant ulduzunu öz yaxasından çıxarıb onun yaxasına sancmışdı (68).

Suvorov Qafqazın işğalı ilə uzun müddət məşğul ola bilməsə də hər halda cənuba yollanmaq ərəfəsində bir neçə erməni başbilənləri ilə görüşdü, onların “tövsiyələrinə və məsləhətlərinə” qulaq asdı. Bu tanınmış sərkərdə ermənilərin siyasətini lazımınca qiymətləndirə bilmədi və onların uydurmalarının mahiyyətinə vara bilmədi. Görünür, Suvorov yalnız hərb üçün yaranıbmış, siyasət üçün yox.

Erməni başbilənlərinin iştirakı ilə yuxarıda toxunulan iclasdan sonra Rusiyanın köməyi ilə erməni dövləti yaradılmasının yeni-yeni planları ortaya çıxdı. Bu plan-layihələrdən biri A.İ.Lazarev və İ.Arqutinbski (Arqutyan) tərəfindən hazırlanmışdı və erməni dövləti ilə Rusiya arasında münasibətlərin tənzimlənməsinə həsr edilmişdi. Həmin layihə "Şimal proqramı" adlanırdı. Digər layihə isə erməni Şahəmiryan adlı birisi tərəfindən hazırlanmışdı və "Cənub proqramı" adlanırdı.

"Şimal proqramı" Rusiyanın köməyi ilə yaradılacaq gələcək erməni dövlətini monarxiya kimi, "Cənub proqramı" isə burjua respublikası kimi irəli sürürdü (69).

Bəzi erməni tarixçiləri Rusiyanın təcavüzü nəticəsində İrəvan və Qarabağ xanlıqlarının ərazisində erməni dövləti yaradılması və bu dövlətin gələcəkdə Rusiya ilə münasibətlərinin qurulması ilə bağlı İ.Arqutinskinin özünün müstəqil planı olduğunu bildirirdi. 19 maddədən ibarət olan həmin plan "İki millət, rus və ermənilər arasında ittifaq müqaviləsi" adlanırdı (70). Əgər belə bir plan mövcud olmuşdusa da çox güman ki, "Şimal proqramı"nın da əsasını elə həmin plan təşkil edirdi. Bu plan millətçilikləri ilə yaxşı tanınan İ.Lazarevin və İ.Arqutinskinin birgə təklifləri kimi ortaya çıxmışdı. İ.Arqutinski Rusiyadakı erməni yeparxiyasının rəhbəri, yəni, Rusiyadakı ermənilərə birbaşa təsir göstərmək imkanına malik bir şəxs kimi tanınırdısa, İ.Lazarev də var-dövləti ilə ermənilərə, həm də Rusiya sarayına təsir göstərməyi bacaran bir şəxs kimi tanınırdı.

Tarixi fakt və mənbələrdən məlumdur ki, Rusiya imperiyası Cənubi Qafqaz istiqamətində yenidən fəallaşmağa başlayanda bölgədə erməni və alban dövlətlərinin yaradılması və onların Rusiyanın nəzarəti altında idarə edilməsi ideyaları mövcud idi (71). Lakin tezliklə Rusiyada kök salmış və Rusiyanın hakim dairələri ilə sıx əlaqələr qurmuş erməni məlikləri, keşişləri, ticarətçiləri, sənayeçiləri bölgədə alban xristian dövlətinin yaradılması ideyasını rus siyasətçilərinin gündəliyindən çıxarılmasına nail oldular. Çünki Qarabağda alban dövləti yaradılacağı halda erməni dövlətinin yaradılması üçün xristian toplumunun olduğu ərazi qalmırdı. Müxtəlif üsul və vasitələrdən məharətlə istifadə edən ermənilər Rusiya sarayında "tarixi Ermənistan" və "məzlum erməni xalqı" haqqında təbliğat kampaniyalarına rövnəq verməklə bir sıra rus siyasətçilərində ortaya atdıqları ideyaya maraq oyadılmasına cəhd göstərirdilər. Əslində belə bir cəhd Rusiya sarayının da maraqlarına cavab verirdi və Cənubi Qafqazın, o cümlədən də Azərbaycan xanlıqlarının işğalı üçün geniş maliyyə imkanlarına malik ermənilərə müəyyən ümidlər də bağlanılırdı.

Elə İbrahim xanın hakimiyyətinin ilk illərindən etibarən Qarabağda erməni dövləti yaradılması üçün Rusiya sarayına bir sıra planlar təqdim edildi. Belə planlardan biri 1769-cu ildə Rusiya paytaxtında yaşayan ermənilər tərəfindən hazırlandı və Rusiyanın Xarici İşlər Nazirliyinə çatdırıldı. Həmin planın mahiyyətini Azərbaycan xanlıqlarına və Osmanlı Türkiyəsinə qarşı təcavüzkarlığın gücləndirilməsi təşkil edirdi. Plan erməni könüllülərinin də qoşulduğu rus qoşunları tərəfindən Gürcüstanın və "tarixi Ermənistanın" torpaqlarının "azad edilməsini" nəzərdə tuturdu. Güman

edilirdi ki, Azərbaycan xanlıqlarının, o cümlədən də Qarabağ xanlığının işğalı da "tarixi Ermənistanın" bərpası üçün əməli addımdır (72).

XVIII əsrin 70-ci illərinin sonlarında "tarixi Ermənistanın" bərpası ilə bağlı həm çariça Yekaterinaya, həm də Rusiya siyasətində böyük nüfuzu olan knyaz Potyomkinə yeni bir plan təqdim olundu. Bu planın da əsasını Qarabağ xanlığının işğal edilməsi və burada Rusiyanın himayəsi altında erməni-xristian dövlətinin yaradılması təşkil edirdi. Cənubi Qafqaz istiqamətində işğalçılıq siyasətini başlamağa hazırlaşan Rusiya çariçası ermənilərin bu planını maraqla qarşıladı və həmin planın həyata keçirilməsi imkanlarının araşdırılmsına Suvorovun da cəlb olunmasını tapşırdı. Həmin tapşırıq əsasında Suvorov Poltavadan Peterburqa çağırıldı və onun qarşısına belə bir vəzifə qoyuldu ki, Rusiya sarayı ilə sıx bağlı olan ermənilərlə görüşsün və onların hazırladığı planı araşdırsın (73).

General Suvorov bir neçə dəfə ermənilərlə görüşdü və onlardan Qarabağ xanlığı, Qarabağ məlikləri haqqında məlumatlar aldı. Bu məlumatlar heç şübhəsiz ki, erməni planlarına xidmət edən, Qarabağ xanını "məzlum" ermənilərin və xristianlığın düşməni kimi xarakterizə edən məlumatlar idi. Bunu elə Suvorovun 1780-ci ilin fevral ayında yazdığı məktublarından da görmək mümkündür (74).

Qeyd etmək lazımdır ki, Rusiya sarayı və saray məmurları ilə müxtəlif əlaqələri olan ermənilər Qarabağ məliklərini də öz qurduqları planların icrasına təhrik edir və onlar tərəfindən imzalanan məktubları Rusiya sarayına çatdırırdılar. Həmin məktublarda xristian amili, xristianlığın Qarabağ xanı tərəfindən təqibi, Qarabağın xristian əhalisinin Rusiya sarayına sədaqətli olacağı xüsusilə qabardılır və Rusiya sarayından imdad dilənirdi.

Erməni tarixçiləri Suvorovun Həştərxana göndərilməsi məsələsinə toxunarkən, nədənsə ona saray tərəfindən verilən əsas tapşırıqlara toxunulmur və onun ermənilərlə olan əlaqələri xüsusilə qabardılır. Ancaq rus tarixçilərinin Suvorov haqqında olan sanballı araşdırmalarında onun ermənilərin iddiaları ilə bağlı hər hansı bir ciddi addım atdığını görmək mümkün deyil (75). Həştırxandakı fəaliyyəti zamanı da erməni planları ilə bağlı Suvorovun hər hansı bir iş görməsi məlum deyil. Bununla belə, Suvorovun Həştərxana yola düşməsi ərəfəsində Qafqazla bağlı məlumatlar toplayarkən ermənilər haqqında da o, müəyyən təsəvvürlərə malik olmağa çalışdı. Nəticədə o, Qafqaz əvəzinə elə ermənilər haqqında məlumat toplamalı olmuşdu. Çünki bölgə ilə bağlı görüşdüyü adamlar elə ermənilərdən ibarət idi. Onlar isə mövcud imkandan sui-istifadə edərək Suvorovun beynini "erməniləşdirməyə" çalışmışdılar.

Həştərxana yola düşməzdən əvvəl Suvorovun 1780-ci ilin yanvarında Sankt-Peterburqda keçirdiyi görüşlərin birində Q.A.Potyomkin, İvan Qoriç, habelə erməni yepiskopu İosif Arqutinski və erməni dövlətlisi İvan Lazarev iştirak edirdilər. Qafqaz haqqında onun bu şəxslərdən hansı məlumat alacağını təsəvvür etmək isə elə də çətin deyil.

Yepiskop İ.Arqutinski Suvorovla olan görüşlərdən biri haqqında yazırdı ki, o mənim yanıma İvan Lazarevlə gəlmişdi. Onunla iki saata qədər söhbət etdik və bu vaxt ərzində Suvorov bölgə ilə bağlı çoxlu suallar verdi. İ. Arqutinskinin sözlərinə görə, Suvorov onlardan Eşmiədzin katalikosu və ermənilər haqqında çoxlu məlumatlar almağa çalışmışdı. Görüşlərinin sonunda Suvorov guya deyibmiş ki, o, erməni dövlətini bərpa etmək niyyətindədir. İ. Arqutinski onu da əlavə edirdi ki, Suvorov onlardan topladığı məlumatları dərhal Q. Potyomkinə çatdırmaq üçün yola düşdü (76).

İ. Arqutinskinin yazdıqlarından aydın olur ki, onlar Suvoovla dörd dəfə görüşə bilmişdilər. Sonuncu görüş 1780-cı il yanvar ayının 13-də olmuşdu. Həmin görüş Suvorovun təşəbbüsü ilə baş vermişdi. O, İ. Arqutinskini və onun həmfikirlərini yanına çağırtdırmış və onlarla yenidən söhbət etmişdi. Erməni yepiskopunun xatirələrinə görə, Suvorov ermənilərin vəziyyəti ilə, erməni məliklərinin və Qarabağın vəziyyəti ilə maraqlanmışdı. İ. Arqutinski də ona həmin məliklər barədə, həm də Qarabağ və erməni məlikləri arasında olan ixtilaflar, Pənah xanın (bu vaxt Pənah xan artıq vəfat etmişdi) onların üzərində hakim olmalarının səbəbləri, habelə ermənilərin düşdükləri vəziyyət, konkret olaraq erməni məliklərinin hər biri, onların silahlı dəstələrinin miqdarı barədə məlumatlar vermişdilər.

Sonra İ. Arqutinski Qarabağ ermənilərinin mənşəyi barədə maraqlı məlumat verirdi: “Aqvan katalikosu Ovanes də həmin Xaçındandır. Haradan ki, Teymurləng aqvan xalqını köçməyə məcbur etdi. Ermənilər bura gəldilər və burada yerləşdilər. Katalikosluq indiyə kimi davam edir” (77).

Yəni İ. Arqutinski də Qarabağın əsas əhalisinin albanlar olmasını, ermənilərin isə ora sonradan gəlməsini etiraf edirdi.

Beləliklə, Suvorov Rusiyada yaşayan erməni başbilənləri ilə görüşlərində yollanacağı və gələcəkdə vəzifə icra edəcəyi Qafqaz bölgəsi haqqında məlumat toplamağa çalışsa da, onun aldığı məlumatlar yuxarıda qeyd edildiyi kimi, ancaq ermənilər haqqında olmuşdu. Əslində, Suvorovun yəqin ki, başqa bir seçimi də yox idi. Bəlkə də burada rus siyasətçilərinin köməyinə bölgə ilə bağlı olan ruslar, eləcə də bölgədən olan digər ruslar çata bilərdi. Ermənilərdən toplanan məlumatlar isə açıq qərəzli və qeyri-obyektiv idi. Həmin məlumatlar ermənilərin etnik xislətindən və bölgədə Azərbaycan xanlıqları ərazisində erməni dövləti yaratmaq istəyindən irəli gəlirdi və ona

görə də ermənilər rus siyasətçilərinin təsəvvürünü bölgədə Rusiyanan maraqlarına cavab verə biləcək erməni dövlətinin yaradılması fikirləri il formalaşdırmağa çalışırdılar. Erməni tarixçilərinin fikrincə, Suvorov erməni dövlətinin yaradılması məsələsini maraqla qarşılamış və birmənalı şəkildə bildirmişdi ki, Rusiya dövləti bu istiqamətdə ciddi addımlar atmaq niyyətindədir. Erməni tarixçiləri bir məqamı obyektiv olaraq vurğulayırdılar ki, II Yekaterinanın dövründə Rusiya sarayı Qafqazda möhkəmlənmək barədə ciddi fikirləşirdi və Qafqazın işğalı çərçivəsində orada erməni dövlətinin yaradılması Rusiyanın da maraqlarına cavab verirdi (78).

1780-ci il yanvar ayının sonlarında A.V.Suvorov Həştərxana yola düşdü. Burada o, böyük bir fəallıqla ona həvalə olunan vəzifələrin icrasına başladı. Erməni tarixçisi M.Nersesyan A.Suvorovun Həştərxanda olarkən Qarabağ erməniləri ilə əlaqələr yaratdığını və onların arasında yazışma olduğunu iddia edirdi. Bu tarixçinin əsərində Suvorovun təkcə ermənilərlə deyil, Cənubi Qafqazın bir sıra nüfuzlu adamları ilə yazışdığı bildirilir. Qeyd olunduğu kimi, Qarabağ erməniləri həmin yazışmalarda bölgəyə 10 minlik qoşun dəstəsinin gəlməsini arzulamışdılar. Erməni tarixçilərinin iddiasına görə, Suvorov Qarabağ məlikləri arasında böyük nüfuza malik imiş. Qarabağ məliklərindən Adəm, Bəylər, Qarabağın varlı adamlarından Stefan, Sarkis, Babay və Danil 1781-ci il sentyabrın 1-də knyaz Potyomkinə müraciət edərək ondan hərbi yardım istəmiş və həmin hərbi yardımın məhz Suvorovun vasitəsilə həyata keçirilməsini xahiş etmişdilər. Onlar da məktublarında bölgəyə 10 minlik qoşunun gəlməsini istəmişdilər. Erməni məlikləri güman edirdilər ki, bu qədər qoşunla Qarabağ xanının müqavimətini qıraraq erməni dövlətini qurmaq mümkün olacaqdır (79).

Erməni müəlliflərinin və varlılarının Q.Potyomkinə ünvanladığı bu məktub yazılanda Suvorovun Xəzəryanı ərazilərə gəlməsindən iki ilə yaxın bir vaxt keçmişdi. Böyük ümidlər bəsləməsinə baxmayaraq bu vaxt ərzində Suvorov tərəfindən Cənubi Qafqaza qoşun çıxarılması və orada hər hansı bir erməni qurumunun yaradılması barədə ciddi bir cəhd olmamışdı. Görünür, ermənilər Q.Potyomkinə məktub yazmaqla A.Suvorovu tezliklə bu işə cəlb etmək istəyirdilər. Ancaq 1781-ci ilin sonlarında Suvorov Xəzəryanı ərazilərdən geri çağırıldı və ona başqa bir vəzifə tapşırıldı. Bununla da Cənubi Qafqazda rus təcavüzünün qızışdırılması üçün daha bir cəhd uğursuz qaldı.

Bununla ermənilərin etnik dövlət axtarışına heç də son qoyulmadı. Əksinə, Suvorovun Qafqazda mövcudluğu dövründə arzusunda olduqları nəticələri əldə edə bilmədiklərindən ermənilər öz fəallıqlarını bir qədər də artırdılar. Rusiya sarayında da Qafqaza doğru irəliləmək iştahası artmaqda idi. Ona görə ermənilərin dövlət axtarışı işi heç də yaddan çıxmadı.

A.Suvorovun bölgəyə gəlməsi ilə erməni dövləti qurulması istiqamətində hər hansı bir dəyişiklik baş verməyəndə, Qarabağ məlikləri əvvəlcə gürcü çarı II İrakli ilə əlaqə saxlayıb onun müttəfiqliyini qazanmağa çalışdılar. Gürcü çarı ilə əlaqə yaratmağa çalışan məliklərin Dizak, Çiləbörd və Talış məliklərinin olduğu güman edilir. Bu məliklər bilirdilər ki, Qarabağ xanı ilə gürcü çarı arasında münasibətlər heç də yaxşı deyil və Qarabağda nəzarəti ələ almaq üçün gürcü çarını maraqlandırmaq mümkün ola bilər. Erməni müəlliflərinin yazdığına görə, gürcü çarı doğrudan da Qarabağ xanlığına hücum etməyə razı oldu. Lakin bu hücumun baş tutacağı halda Qarabağ məliklərinin nəyə nail olacağı barədə məlumat verilmir. Lakin İbrahim xan bu hazırlıqdan vaxtında xəbər tutdu və qohumu Ümmə xanın vasitəsilə gürcü çarına güclü zərbə endirdi. Ümmə xanın silahlı dəstəsi Gürcüstan ərazisinə hücum etdi, bir sıra yaşayış məntəqələrini talan etdi və bir sıra müdafiə istehkamlarını ələ keçirdi. Bununla da gürcü çarının Qarabağa hücum etmək planı həyata keçməmiş qaldı. Ümmə xan yolunu Qarabağdan da saldı. Qarabağ xanına qarşı müəyyən planlar qurmağa çalışan məliklər Ümmə xanın Qarabağa gəlişimi eşidincə qaçıb dağlara dağılışdılar və bu yolla öz canlarını qurtara bildilər (80).

Amma Qarabağ məlikləri bununla da sakitləşmədilər. Ümmə xan Qarabağı tərk edəndən sonra məliklər gizlicə Rusiyaya nümayəndə heyəti göndərdilər. Nümayəndə heyətinə tapşırıq verilmişdi ki, çarıça ilə görüşsün və yalvararaq ondan Qarabağ xristianlarının dərdinə qalmasını xahiş etsin. Həmin nümayəndə heyəti Rusiya sarayının nüfuzlu şəxsləri tərəfindən qəbul edildi. Xüsusilə, Cənubi Qafqaza rus qoşunlarının çıxarılacağı gün yaxınlaşmaqda olduğundan Qarabağ xristianlarının nümayəndələri diqqətlə dinlənildi, onlardan lazımi məlumatlar alındı və onlara yeni vədlər verildi. Knyaz Q.Potyomkin erməni nümayəndələri ilə görüşlərin, ermənilərdən alınan məktubların onların qaldırdığı problem barədə kifayət qədər müfəssəl təsəvvür yarada bilmədiyi üçün bölgəyə etibarlı adamlar göndərilməsi və onların vasitəsilə obyektiv məlumatlar toplanması və həmin məlumat əsasında gələcək fəaliyyət yollarının müəyyənləşdirilməsi qərarına gəldi. Bu məqsədlə 1782-ci ilin payızında Qafqazdakı rus qoşunlarının komandanı vəzifəsinə Q.Potyomkinin yaxın qohumu Pavel Potyomkin təyin edildi (81).

P.Potyomkin bu vəzifəyə təyin olunandan sonra Rusiya sarayına növbəti nümayəndə heyəti göndərildi. P.Potyomkin isə ermənilər haqqında məlumatları genişləndirmək üçün arxiyepiskop Arqutinski ilə əlaqəyə girdi və xahiş etdi ki, ermənilərin qaldırdığı məsələnin mahiyyəti ilə bağlı ona yazılı məlumat versin. Erməni keşişinə yazdığı məktubunda P.Potyomkin ermənilərin hazırkı vəziyyəti ilə əlaqədar olaraq onların şüurlarının və əqidələrinin dəyişib-dəyişməməsi barəsində də məlumat verilməsini xahiş etdi.

P.Potyomkinə görə, ermənilər uzun əsrlərdən bəri dövlətsiz qalmışdılar, onlar müxtəlif ərazilərə dağılaraq assimlyasiyaya uğrayır və başlıca olaraq ticarətlə məşğul olurdular. Ticarətçilər isə öz xarakteri etibarilə xəsis və tamahkar olurdular. Ona görə də P.Potyomkin maraqlanırdı ki, ermənilər də belə bir xarakterə malik olduqları halda onlar vətən və dövlət haqqında düşünürlərmi? Belə fikirlər onlara yad deyil ki? P.Potyomkin daha sonra yazırdı: "Ticarətə üz tutan bütün insanlarda xəsislik və tamahdan başqa digər hisslər məhv olur. İnam erməni xalqına güclü təsir göstərirmi və mömünlük xalq oyanışına səbəb ola bilərmi? Məliklər öz müqəddəs dinlərinə lazımi hörmət, xalq isə öz məliklərinə itaətkarlıq saxlayırlarmı? Və nəhayət hansı vasitələrlə xalqa təsir etmək, məliklərin inamını birləşdirmək və ruhanilərini bir-birinə yaxınlaşdırmaq olar?" (82)

P.Potyomkin Rusiya sarayına gələn nümayəndələrin bütün ermənilərin iradəsini ifadə etdiklərinə, daha çox ticarətlə məşğul olan ermənilərin etnik dövlətçilik uğrunda mübarizəyə hazır olduqlarına şübhə ilə yanaşırdı. Ona görə də bu məsələləri İ.Arqutinskidən öyrənməyə çalışırdı. Onu bir sıra başqa məqamlar da maraqlandırırdı və onlara da cavab tapmaq istəyirdi. P.Potyomkin ermənilərin gürcü çarı ilə, habelə gürcü çarının qonşu müsəlman xalqları ilə olan münasibətləri, ermənilərin öz adlarına çıxdıqları ərazilərin hakimlərinin kim olması, Qarabağda neçə məliyin və nə qədər əhalinin olması, Tiflisdən və Dərbənddən Qarabağa gedən yol üzərində hansı məntəqələrin mövcudluğu, qoşunlar Qarabağa doğru hərəkət etmiş olduqları təqdirdə yerli hakimlər və əhalidən hansı yardımların alınmasının mümkünlüyü barədə məlumat almaq istəyirdi. Bir sözlə, onu Cənubi Qafqaza təşkil edilməsi planlaşdırılan hərbi yürüş üçün faydalı ola biləcək hər cür məlumatlar maraqlandırırdı. P.Potyomkin İ.Arqutinskidən xahiş edirdi ki, Tiflis-İrəvan, Dərbənd-Şamaxı-Naxçıvan marşrutu üzərində hansı möhkəmləndirilmiş məntəqələrin, Cənubi Qafqazda hansı təbii sərvətlərin, həmin bölgədə gəmiçilik üçün yararlı olan çayların mövcudluğu barəsində ona yazsın. P.Potyomkin bu çaylar vasitəsilə qoşunların, habelə təchizat yüklərinin daşınmasının mümkünlüyü ilə maraqlanırdı. Onun üçün bölgədə taxılın, atlar üçün yemin tapılması da əhəmiyyət kəsb edirdi. Ona görə də P.Potyomkin hansı vilayətdə, hansı ərzaq növünün olması, bütünlükdə qoşunların təchizat problemlərinin ödənilməsi imkanlarını araşdırmağı və bu barədə də məlumatların ona çatdırılmasını xahiş edirdi.

P.Potyomkin İ.Arqutinskinin nəzərinə çatdırırdı ki, rus qoşunlarının bölgədə uğurlu fəaliyyətinin başlıca şərti onların ərzaqla tam şəkildə təmin edilməsi idi. Onun bu məktubu ermənilər tərəfindən çox böyük sevinc və məmnunluqla qarşılandı. Ermənilər güman edirdilər ki, əgər Rusiya sarayı İ.Arqutinski qarşısında konkret suallara cavab verilməsi tələbini qoyursa, de-

məli, əməli işlərə keçilməsi və rus ordusunun Qarabağ xanlığı ərazisində erməni vilayəti yaradacağı gün uzaqda deyil.

İ.Arqutinski dərhal bu məktuba cavab verdi, Rusiya sarayını Qarabağa cəlb etmək üçün bu xanlıqdakı "ermənilərə" zülm edilməsi, Azərbaycan xanlarının zülmkarlığı barədə səxavətlə söz açdı. Erməni keşişi qeyd etdi ki, Qarabağ məlikləri xristianlığa bağlılığı ilə fərqlənirlər, onların tabeliyində olanlar isə ağalarına itaətdən heç vaxt boyun qaçırmırlar. Yerli əhali nəinki məlikləri, hətta öz mömünlərini hörmət və ehtiram içərisində saxlayırlar və heç vaxt onların sözlərindən çıxmırlar. Başqa sözlə, İ.Arqutinski demək istəyirdi ki, Qarabağın xristian əhalisi Qarabağ məliklərinin və ruhanilərinin arxasınca bölgədə Rusiya maraqlarının qorunmaslna sədaqətli olacaqlar (83).

Bir müddət sonra xristian ruhanilərinin imzası ilə Rusiya sarayına yeni bir məktub göndərildi. Həmin məktubda Rusiya sarayından bir daha iltimas olundu ki, rus qoşunları tezliklə bölgəyə gəlsin. Rus qoşunlarının dolandırılması məsələsinə gəlincə isə ermənilər bildirirdilər ki, 30 minlik rus qoşununu beş il ərzində təmin etməyə imkanları vardır (84).

P.Potyomkinin yeni erməni katolikosu seçilmiş Qukasla da əlaqə saxladığı iddia olunurdu. Erməni tarixçilərinin yazdığına görə, katolikos bölgəyə rus təcavüzünün gətirilmsəi üçün xeyli fəallıq göstərdi. Elə bu fəallığın nəticəsi kimi 1782-ci ilin dekabrında Eçmiədzin kilsəsində gizli yığıncaq təşkil edildi. Həmin iclasda Qarabağ məliklərinin və ruhanilərinin nümayəndələri iştirak edirdilər. Mövcud olan məlumatlara görə, bu iclasda knyaz Potyomkinin xüsusi nümayəndəsi də iştirak edirdi. Çox güman ki, elə iclas da onun gəlişi münasibətilə çağırılmışdı. Knyaz Potyomkin qaldırılan məsələlərin həllinə ermənilərin özlərinin nə dərəcədə meylli olduğunu müəyyənləşdirmək istəyirdi. Eçmiədzinə gəlmiş nümayəndə də sözsüz ki, bu barədə ona dəqiq və müfəssəl məlumat verməli idi. Rusiya sarayının nümayəndəsinin yanında iclas iştirakçıları Rusiya taxt-tacına sədaqətli qalacaqları barədə and içdilər. Eyni zamanda Qarabağa rus qoşunlarının göndərilməsi barədə Rusiya sarayına yeni bir müraciət qəbul olundu. Ermənilər bildirirdilər ki, başlıcası rus qoşunlarının Qarabağa gəlməsidir. Onların burada döyüşə girməsinə heç bir ehtiyac yoxdur. Onların fikrincə, rus qoşunlarının gəlməsi ilə hər şey qaydaya düşəcəkdi. Zərurət yarandıqda isə Qarabağ məliklərinin qoşunları onlara arxalanaraq əməli fəaliyyət göstərə bilərdilər (85).

Yəni ermənilər belə güman edirdilər ki, rus qoşunlarının bölgəyə gəlməsi ilə Azərbaycan xanları hər şeyi atıb qaçacaqlar və ermənilər də çətinlik çəkmədən onların ərazisində öz dövlətini quracaqlar. Ancaq rus qoşunlarının Cənubi Qafqaza yürüşü, xüsusilə də İrəvan xanlığı üzərinə

hücum göstərdi ki, Azərbaycan xanları onların təsəvvür etdikləri qədər də iradəsiz deyilmişlər.

Erməni tarixçilərinin yazdıqlarına görə, Rusiyadakı erməni yeparxiyasının arxiyepiskopu İ.Arqutinski 1783-cü ildə erməni dövlətinin yaradılması və onun Rusiya ilə gələcək münasibətləri haqqında yeni bir proqram hazırlayıb Rusiya sarayına təqdim etdi. Yeni proqram hazırlanması 1782-ci ilin sonlarından ermənilərin iddiaları il bağlı fəallaşmadan irəli gəldiyi güman edilirdi. Proqramın hazırlanmasında İ.Lazarev də iştirak etmişdi və o, Rusiyanın erməni koloniyasının erməni dövlətinin necə qurulması ilə bağlı görüşlərini əks etdirirdi. Proqram "Rus və erməni xalqları arasında ittifaq müqaviləsinin forması" adlanırdı. Saraya təqdim edilmiş həmin layihəyə görə, Rusiya müstəqil erməni çarlığını bərpa etməli idi. Bu çarlığın paytaxtı Vaqarşapatda və ya Anidə olmalı idi Rusiya çariçasına belə bir səlahiyyət verilirdi ki, erməni çarını təyin etsin. Bu çar ermənilər arasından da, Rusiya çariçasının yaxınları arasından da seçilə bilərdi. Erməni dövlətinin təhlükəsizliyinin təmin edilməsi üçün bu dövlətlə Rusiya dövləti arasında hərbi ittifaq yaradılması nəzərdə tutulurdu. Müttəfiqlik şərtlərinə görə, Rusiya erməni dövləti ərazisində daimi olaraq qoşun saxlamalı idi. Bundan başqa, erməni dövləti ilə Rusiya arasında ticarət müqaviləsinin bağlanması da lazım bilinirdi.

1783-cü ilin əvvəllərində Rusiya sarayında artıq açıq şəkildə Qarabağ xanlığı ərazisində müstəqil erməni dövləti yaradılması haqqında danışılırdı. Rusiya siyasətini müəyyənləşdirənlər belə bir qənaətə gəldilər ki, rus silahı gücünə İbrahim xan devrilməli və ermənilərin Qarabağda hökmranlığı təmin edilməlidir. 1783-cü ilin aprelində knyaz Potyomkin Rusiyanın Gürcüstanda olan yeni komissioneri S.Barnaşova yazırdı ki, İbrahim xan Şuşalı devrilməlidir ki, ondan sonra Qarabağda erməni vilayəti yaradılsın (86).

Q.Potyomkin oxşar məktubu Pavel Potyomkinə də göndərmişdi. Həmin məktubda da deyilirdi ki, İbrahim xan devrilməli və Rusiyanın tabeçiyilində olan müstəqil Qarabağ vilayəti yaradılmalıdır. Bu müstəqilləşmə Qarabağ xristianları üçün nəzərdə tutulurdu. P.Potyomkindən tələb olunurdu ki, bu yolda o bütün gücünü sərf etsin və ermənilər üçün hər sahədə əlverişli olan bir qurum yaradılsın. Q.Potyomkinə görə, Qarabağda güclü erməni qurumu yaradılsaydı, bu, ermənilər yaşayan digər vilayətlərə də dərs olardı (87).

1783-cü ilin iyul ayında Şimali Qafqazın Georgi qalasında Şərqi Gürcüstanın Rusiyanın himayəsi altına keçməsi haqqında müqavilə imzalandı. Bu müqavilə Georgi traktatı kimi tanınmaqdadır. Onun imzalanması ilə Kartli-Kaxetiya çarı Rusiya himayəsini qəbul etdi. Erməni tarixçilərinin yazdığına görə, Georgi traktatı həm də Şərqi Ermənistanda

(İrəvan və Qarabağ xanlıqları nəzərdə tutulur) müstəqil erməni dövlətinin qurulmasını nəzərdə tuturdu (88).

Hətta ermənilər arasında erməni-gürcü dövlətinin yaradılması proqramını hazırlayanlar da tapılmışdı. Belə proqram hazırlayanlardan biri Mədrəsə şəhərində yaşamış Şaamir Şaamiryan idi. Kartli çarlığının Rusiyanın himayəsinə keçməsi ermənilərdə Rusiyanın himayəsi altında erməni dövlətinin və ya heç olmasa birgə erməni-gürcü dövlətinin yaradılması ümidini artırırdı. Kartli-Kaxetiya çarı II İrakli onsuz da Cənubi Qafqazda kifayət qədər güclü və nüfuzlu bir çar idi. Rusiya ilə siyasi yaxınlaşma isə onu daha da gücləndirirdi. Ona görə də ermənilər etnik dövlət axtarışında ilkin mərhələ kimi erməni-gürcü dövlətinin yaradılmasına razılıq verə bilərdilər. Çünki bu yolla ən başlıcası Qarabağ xanlığının siyasi statusu dəyişdirilmiş olurdu. Qarabağ xanlığının ərazisini İbrahim xanın əlindən çıxardıqdan sonra ermənilər gələcəkdə yəqin ki, gürcü-erməni birgə dövlətindən də ayrıla bilərdilər. Hindistan ermənisi Ş.Şaamiryanın II İrakliyə çoxlu sayda qiymətli hədiyyə, gürcü erməni dövlətinin gerbini və müştərək dövlətin proqramını göndərmişdi. Həmin proqrama əsasən II İrakli müştərək dövlətin rəhbəri olmalı idi (89).

Qeyd etmək lazımdır ki, Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi bölgədəki vəziyyəti müəyyən qədər mürəkkəbləşdirdi. Georgi traktatı imzalandıqdan sonra knyaz Potyomkin bütün Azərbaycan xanlarına Gürcüstanın himayəsi altına keçməsi barədə müqavilə imzalandığını bildirdi. Bununla Rusiya bir növ Azərbaycan xanlarına psixoloji təsiri gücləndirdi. Qısa müddət ərzində Krımın, Kubanın və nəhayət Gürcüstanın Rusiyaya birləşdirilməsi Rusiyanın cənuba doğru sürətlə irəliləmək əzmində olduğunu nümayiş etdirir və bu, istər-istəməz Azərbaycan xanlarında da haqlı narahatçılıq doğururdu.

Axalsıx paşası Süleyman paşa da belə bir narahatlıqla İbrahim xana məktub yazaraq rus qoşunlarının artıq Gürcüstana yeridildiyini, Gürcüstan ərazisində yollar çəkildiyini, ora toplar gətirildiyini, ərzaq və digər təminat əşyalarının daşındığını bildirdi. Süleyman paşanın qənaətinə görə, Gürcüstan ərazisində lazımi hazırlıq işləri görüldükdən sonra Rusiya yayın sonunda Azərbaycan xanlıqları və Türkiyə üzərinə hücuma keçəcəkdir. Süleyman paşa məktubunun sonunda İbrahim xanı ehtiyatlı olmağa çağırırdı (60).

Əslində də İbrahim xanın ehtiyatlanmasına bir ehtiyac var idi. Çünki Rusiyanın öz təcavüzünü pərdələmək üçün əl atdığı ən yaxşı bəhanələrdən biri xanlığın xristian əhalisinin "müsəlman asılılığından azad edilməsi" ola bilərdi. Qarabağ xanlığının ərazisində yaşayan və erməni kilsəsi tərəfindən qızışdırılan məliklərin və Gəncəsər kilsəsinin Rusiya sarayı ilə əlaqəsi isə

günü-gündən genişlənməkdə və həmin əlaqələr Azərbaycan xanlıqlarına qarşı təcavüzkarlıq müstəvisi üzərinə keçməkdə idi.

Erməni xofu ilə İbrahim xana təzyiq göstərməklə Rusiya sarayı sadəcə olaraq onun devrilməsini qarşıya məqsəd qoymamışdı. Rusiyanın qarşınıda dayanan başlıca məqsəd Azərbaycan xanlıqlarını Rusiyanın asılılığına salmaq idi. Bu məqsədə nail olunacağı təqdirdə erməni iddiaları kənara da qoyula bilərdi. Yəni məqsəd ermənilərin etnik dövlətini yaratmaq deyil, məqsəd xanlıqları ələ keçirmək idi. Ona görə İbrahim xanın Rusiyaya meyliliyi barədə çar sarayında məktub alınanda bundan rus siyasətçiləri məmnun qaldılar. Hətta P.Potyomkin İbrahim xana bildirdi ki, Rusiya himayəsi altına girməsi onun hakimiyyətini daha da möhkəmləndirəcəkdir.

Məlumdur ki, XVIII əsrin sonlarında Azərbaycan xanlıqları çox mürəkkəb tarixi şəraitə düşmüşdülər. Bölgə bir tərəfdən Qacarlar dövlətinin, digər tərəfdən də Rusiyanın müharibələr meydanına çevrilməkdə idi. Hər iki dövlət bu əraziləri öz tərkibinə qatmaq istəyirdi. Osmanlı Türkiyəsi də bölgəyə olan marağını gizlətmirdi. Yaranmış bu tarixi şəraitin təfərrüatına varmadan qeyd etmək lazımdır ki, belə vəziyyətdən baş çıxarmaq kifayət qədər bacarıq və çevik siyasət tələb edirdi. Hər hansı tərəfə meyllənmək yalnız tarixi məcburiyyət üzündən ola bilərdi. İbrahim xanın Rusiyaya tərəf meyllənməsi bu dövlətin siyasətinə bağlılığından və ya ruspərəstliyindən irəli gəlmirdi. Bu meyllilik konkret tarixi şəraitdə siyasi ziddiyyətlərin təhlilindən çıxarılan daha münasib bir qənaət idi. Bu yolla mürəkkəb şərait-də xanlığı viran olmaqdan qorumaq İbrahim xanı həmin addımları atmağa vadar edən amil idi. Baxmayaraq li, Rusiya sarayında da ermənipərəst mövqedə dayanan və İbrahim xanı nə yolla olursa-olsun devirərək hakimiyyətə Qarabağ məliklərindən birini gətirmək istəyən qüvvələr var idi. Knyaz Q.Potyomkin belə qüvvələrin təmsilçisi idi. O, İbrahim xanın Rusiya sarı meyllənməsindən heç də xoşlanmırdı. Əksinə, arzulayırdı ki, İbrahim xan Rusiyaya əks getsin və bunu bəhanə edərək xanlığın ərazisinə rus qoşunlarını yeritsin, İbrahim xanı devirsin və xanlığın yerində erməni qurumu yaratsın. Bununla bağlı knyaz Q.Potyomkin çariça Yekaterinaya belə yazırdı: "Onun (erməni dövlətinin-red.) vasitəsi ilə Rusiyada siz əlahəz-rətin mənim vasitəmlə erməni məliklərinə verdiyiniz vədlərə uyğun xristian dövləti bərpa olunacaqdır" (91).

II Yekaterina isə knyaz Q.Potyomkindən fərqli olaraq İbrahim xanın Rusiyaya tərəf meyllənməsini maraqla qarşıladı və onun xahişinə müsbət cavab verilməsinə tərəfdar olduğunu bildirdi. Bununla bağlı o, knyaz Potyomkinə belə yazırdı: "İbrahim xana gəldikdə isə onun Rusiya himayəsi altına alınmasında heç bir çətinlik və ya şübhə olmasa ehtimal ki, İrakli haqqında qəbul edilən qərarı ona da tətbiq etmək olar. Belə olanda siz

general Potyomkinə onun Rusiya taxt-tacına tabe olması barədə və onun mənim və mənim vərəsələrimin onun və onun vərəsələri üzərindəki hakimiyyətini tanıyan müqavilə imzalamağı tapşırmağı unutmayın" (92).

Rusiya çariçasının qənaətinə görə, İbrahim xanın tezliklə Rusiya himayəsi altına alınması Cənubi Qafqaz hakimlərinin İrakli və İbrahim xanın hərəkətlərindən nümunə götürməyə sövq edə bilərdi. Problemin bu cür həll olunacağı təqdirdə ermənilərin göstərdiyi bütün səylər, onların Rusiyaya bağladığı ümidlər mənasız bir işə çevrilə bilərdi. Rusiya sarayı ermənilərin ümidlərinin qırılmasını və onların Rusiya sarayından uzaqlaşmasını istəmirdi. Çünki bu xristian elementi Rusiya sarayı üçün hələ gərək ola bilərdi. Ona görə knyaz Potyomkin ermənilərin Rusiya siyasətinin bir aləti kimi həmişə istifadəyə hazır saxlanmasını təkidlə Pavel Potyomkindən tələb edirdi. O yazırdı: "Əlahəzrət, erməniləri əzizləyin, onlarda Rusiyaya qarşı mehriban yaxınlıq yaradın ki, şəraitin tələbi və bizim işlərin faydası üçün işlərin görülməsinə həmişə təkidli və hazır olsunlar" (93).

Ermənilər tezliklə Qarabağa rus qoşunlarının gəlməsi ümidində olsalar da, 1783-cü il ərzində bunun şahidi olmadılar. Səbrləri tükənəndə bir də Rusiya sarayına özlərinin mövcudluğunu xatırlatmaq qərarına gəldilər. Onlar arxiyepiskop İ.Arqutinskiyə növbəti məktub yazdılar. Ermənilər məktubda yenə də bədbəxt vəziyyətlərindən söhbət açır, müsəlmanların ağalığından qurtarmaq istədiklərini bildirirdilər. Onlar İ. Arqutinskidən ermənilərin vəziyyətini Rusiya sarayına çatdırmağı və sarayın onlarla bağlı konkret tədbirlər həyata keçirilməsinə nail olunmasını xahiş edirdilər. Qarabağ erməniləri İ.Arqutinskiyə məktub yollamaqla bərabər, həm də general P.Potyomkinin yanına öz nümayəndələrini göndərdilər. Erməni nümayəndələri xahiş etdilər ki, Qarabağda xan asılılığından qurtarmaq üçün onlara iki alay kifayət edər. Gürcüstanda olan iki taborun da alayda birləşdirilməsi, habelə Qarabağda olan erməni silahlılarının ayağa qaldırılması ilə qarşıya qoyulan məqsədə çatmaq olardı. P.Potyomkinin yanına gəlmiş Qarabağ xristianlarının nümayəndəsi onu əmin edirdi ki, rus qoşunlarının Qarabağa doğru hərəkəti xəbərini alan kimi Qarabağ məlikləri ən azı beş min döyüşçünü toplaya bilər. Onların arasında həm piyadalar, həm də atlılar olacaqdı. Məliklərin nümayəndəsi Danil Avanesov onu da əlavə edirdi ki, bölgəyə toplaşan bu hərbi qüvvələr İbrahim xanın devrilməsi üçün kifayətdir. P.Potyomkinə o da çatdırılırdı ki, Rusiya tərəfi Qarabağa göndəriləcək qoşunların dolandırılması məsələsinə görə narahat olmaya bilər. Danilin sözlərinə görə, bir tərəfdən Qarabağ torpağı bərəkətli torpaqdır, digər tərəfdən isə ermənilər ruslar üçün zirzəmilərdə çoxlu miqdarda taxıl və xüsusi hazırlanmış balıq saxlamışlar. Qarabağ ermənilərinin zirzəmilərdə rus qoşunları üçün çoxlu ərzaq tədarükü görmələrini

arxiyepiskop İ.Arqutinski də təsdiq edirdi. Erməni yepiskopu İbrahim xanın Rusiyaya meyl etməsinin onun iştirakı və müəllifliyi ilə hazırlanmış müxtəlif proqramların həyata keçməmiş qalmasına səbəb olduğundan kifayət qədər narahatçılıq keçirirdi və bu narahatçılığı aradan qaldırmaq üçün erməni yeparxiyasının yerləşdiyi Həştərxandan Qafqaz qoşunlarınını yerləşdiyi düşərgəyə gəldi. Sonra bir-birinin ardınca P.Potyomkinə bir neçə məktub göndərdi və arzusunda olduğu dəyişiklik baş vermədikdə generaldan xahiş etdi ki, onun Eşmiədzinə yollanmasına, əvvəlcə erməni katalikosu ilə, sonra isə Qarabağ məlikləri ilə görüşməsinə və onlardan lazımi məlumatlar toplanmasına icazə versin. İ.Arqutinski az qala P.Potyomkinə yalvarırdı ki, ermənilərin dadına yetsin, onları Azərbaycan xanlarının hakimiyyəti altından çıxarsın. P.Potyomkinə göndərdiyi məktubların birində İ.Arqutinski yazırdı ki, siz erməni xalqının qurtuluşunun, ermənilərin minnətdarlığının əlaməti kimi çariça II Yekaterinanın Ararat dağının fonunda portretinin çəkilməsinə səbəbkar olun. İ.Arqutinski bildirirdi ki, ermənilər öz niyyətlərinə çatdıqları halda P.Poryomkin nicat verən bir şəxs kimi ermənilər tərəfindən həmişə şərəfə və şana layiq görüləcəkdir (94).

İ.Arqutinski İbrahim xanın Rusiyanın himayəsini qəbul etmək istəyindən də çox narahat idi və bunun qarşısının alınması üçün əlindən gələni edirdi. Ancaq buna gücü çatmayanda İ.Arqutinski Rusiya sarayı qarşısında belə bir məsələ qaldırdı ki, əgər İbrahim xan Rusiyanın himayədarlığını qəbul edərsə, onda heç olmasa Qarabağ məlikləri Qarabağ xanının tabeçiliyindən şıxarılsın. Rusiya sarayı yaxşı bilirdi ki, İbrahim xan məliklərin onun tabeliyindən çıxarılması ilə razılaşmayacaqdır. Belə olduğu təqdirdə İbrahim xan ümumiyyətlə, Rusiyaya yaxınlıq göstərməzdi. Ona görə də İ.Arqutinskinin bu təklifi Rusiya sarayı tərəfindən ciddiliklə qarşılanmadı. Rus tarixçisi N.Dubrovinin yazdığına görə, əslində İ.Arqutinski də məliklərin İbrahim xanın tabeliyindən çıxarılmasının mümkün olmadığını bilirdi. Bununla belə, İ.Arqutinski və onun dindaşları sakitləşmək də bilmirdilər. Qarşıya qoyulan niyyətlərə çatmaq üçün Rusiyanın Cənubi Qafqazı işğal siyasətini əlverişli an kimi qəbul edən erməni kilsəsi və onun tərəfindən təhrik edilən alban katolikosluğu İbrahim xana qarşı məkrli fəaliyyəti daha da gücləndirdilər. Bir-birinin ardınca Rusiya sarayına göndərilən məktublarda İbrahim xan Rusiya sarayına sədaqətsizlikdə, Osmanlı dövləti ilə antirus münasibətləri yaratmaqda ittihamlandırılır və İbrahim xan bölgədə xristian əhalinin və rus siyasətinin başlıca düşməni kimi qiymətləndirilirdi. Rusiyanın işğalçılıq siyasətinin konkret olaraq İbrahim xana qarşı qızışdırılması üçün 1785-ci ilin aprelində Talış, Çiləbörd və Dizak məlikləri, bir sıra digər şəxslər, habelə alban katolikosu Avanes Gəncəsər məbədində gizli görüş keçirdilər və onlar bir daha Rusiya sarayına müraciət etməyi

qərara aldılar. Növbəti məkrlərinin İbrahim xan tərəfindən faş olunacağından qorxan məliklər heç kəsin diqqətini cəlb etməmək üçün kasıb geyimli birisini hazırladıqları məktubla Rusiya sarayına göndərməyi qərarlaşdırdılar. Cır-cındır geyimli bu şəxs məliklərin imzaladığı məktubu əlindəki əsanın içində gizlətməli idi. Bununla belə, İbrahim xan məliklərin bu hiyləsindən xəbər tutdu. Qandzasar katolikosunun qardaşı erməni kilsəsinin təhriki ilə Qarabağda ruspərəst siyasətə zəmin hazırlayanların fəaliyyətini təqdir etmədiyi üçün Gəncəsər kilsəsində keçirilən görüş və göndərilən məktub haqqında vaxtında İbrahim xana xəbər çatdırdı. İbrahim xan dərhal Gəncə katolikosu İsrailə məktub göndərdi və Gəncədən Tiflisə yollanmalı olan qasidin tutulmasını xahiş etdi. Alban katolikosluğunun erməni kilsəsinin təhriki və təzyiqi ilə separatçılıq siyasətinə qoşulmasını dəstəkləməyən Gəncə katalikosu İsrail İbrahim xanın xahişinə əməl etdi və Qarabağdan səfərə çıxan qasidi həbs edərək İbrahim xana təhvil verdi. Qasidin apardığı məktubun məzmunu ilə tanış olandan sonra İbrahim xan ona qarşı satqınlıq və separatçılıq yolu tutan Talış, Çiləbörd və Dizak məliklərini, habelə Qandzasar katolikosunu həbs etdirdi (95).

Erməni arxiyepiskopu İ.Arqutinskinin general P.Potyomkinə göndərdiyi məktubundan aydın olur ki, baş verən hadisədən sonra İbrahim xan Qarabağın xristian əhalisinin sayılanları ilə söhbətlər aparmış və onları çirkin əməllərindən çəkindirməyə çalışmışdı. Xristian əhali də bu çağırışı qəbul edərək xana qulluq etməyə hazır olduqlarını bildirmişdilər. Erməni arxiyepiskopunun məktubunun əsasını isə Qarabağın xristian əhalisinin İbrahim xana xidmət etməyə hazır olmalarını çatdırmaq deyil, Rusiya qoşunlarını yenidən Qarabağa çağırmaq təşkil edirdi. İ.Arqutinski Qarabağ məlikləri adından P.Potyomkini əmin etmək istəyirdi ki, əgər onun rəhbərliyi altında rus qüvvələri heç olmasa Gəncəyə qədər irəliləyə bilsəydi, Qarabağ məlikləri bu qüvvələrlə birləşəcək, sonra da bu birləşmiş qüvvələr Qarabağ xanlığını da, möhkəmləndirilmiş Şuşa qalasını da ələ keçirə biləcək (96).

1787-ci ildə Osmanlı dövləti ilə Rusiya arasında yenidən müharibə başlanması Rusiyanın Cənubi Qafqazdakı mövqeyini kifayət qədər zəiflətdi. Qarabağ məlikləri isə Rusiyadan ümidində olduğu hərbi yardımdan məhrum oldular. Qarabağın Rusiya tərəfindən işğalını səbirsizliklə gözləyən və İbrahim xana qarşı Rusiya ilə birləşməyə hazır olan bəzi məliklər çirkin oyunlarının haqlı cəzasına çatacaqlarından qorxaraq xanlıq ərazisin tərk etdilər və Tiflisə pənah gətirdilər. İbrahim xan məliklər üzərində nəzarəti ciddiləşdirməklə xanlıq daxilindəki hakimiyyətini kifayət qədər möhkəmləndirməyə nail oldu (97).

Tiflisə qaçmış olan keçmiş Çiləbörd məliyi məlik Məjlum və Talış məliyi məlik Abov öz mülklərini itirsələr də, Rusiyanın Qarabağa qoşun

çıxaracağına ümidlərini kəsməmişdilər. Bu məliklər Rusiyanın Qarabağa marağını yenidən qızışdırmaq, İbrahim xanın Rusiyaya sədaqətsizliyinə inandırmaq üçün əllərinə düşən hər imkandan istifadə etməyə çalışırdılar. Onlar yenidən rus qoşunları komandanlığına məktubla müraciət etdilər, Rusiyaya göstərdikləri sədaqətə görə İbrahim xan tərəfindən cəzalandırıldıqlarını yazdılar və yenidən rus qüvvələrinin Qarabağa göndərilməsi barədə məsələ qaldırdılar. Keçmiş məliklər rus komandanlığını inandırmağa çalışırdılar ki, Qarabağda Rusiyanın möhkəmlənməsi Qarabağdakı məliklərlə iş birliyindən asılıdır. Keçmiş məliklər eyni zamanda gürcü çarı İrakliyə müraciət etdilər, ona kömək göstərəcəklərini vəd etməklə onu da İbrahim xana qarşı qızışdırmağa çalışdılar. Amma İrakli keçmiş məliklərin məkrlərinə inanmadı. Əksinə, İbrahim xanın keçmiş məliklərlə bağlı xahişinə müsbət cavab verməyi daha düzgün saydı. Belə ki, İbrahim xan keçmiş məliklərin Tiflisdə Qarabağ xanlığına qarşı təxribatlarını davam etdirmələrini eşidincə İrakliyə məktub göndərdi və həmin məliklərin tutularaq təhvil verilməsini xahiş etdi. Gürcü çarı bu xahişi qəbul etdi. Lakin onun erməni xidmətçiləri keçmiş məlikləri vaxtında məsələdən xəbərdar etdilər. Onlar da həbs edilməzdən əvvəl qaçıb canlarını qurtardılar (98).

Keçmiş məliklər Gəncə xanlığı ərazisinə qaçdılar və onlar Cavad xanla İbrahim xan arasında gərgin münasibətlərin olmasından istifadə edərək Gəncə xanının himayəsini qazana bildilər. Başlıca vəzifələrini Qarabağ xanlığı ərazisinə talançı yürüşlər etməkdə görən bu məliklər arasında bir müddətdən sonra qarşıdurma yarandı. Həmin qarşıdurmanın nəticəsi kimi Bolnisiyə qaçan məlik Abov sonradan İbrahim xandan aman dilədi və onun razılığı ilə yenidən Qarabağa qayıtdı (99).

1795-ci ildə V.Zubovun rəhbərliyi altında rus qoşunlarının Azərbaycan xanlıqları üzərinə hücumu başlayanda ifrat erməni ideoloqlarında və erməni kilsəsində yeni bir ümid baş qaldırdı. Rusiya qoşun hissə və bölmələrinin Azərbaycan xanlıqları üzərinə hücuma başlaması bölgənin erməni və xristian elementlərini daha da fəaııaşdırdı. Onlar Azərbaycan xanlıqlarının siyasi coğrafiyasının dəyişdirilməsi üçün təhrikçilik fəaliyyətinə daha bir cəhd göstərmək qərarına gəldilər.

### *4.Rusiya və Azərbaycan xanlıqları*

1735-ci ildə Gəncədə Nadir Əfşarla Rusiya sarayının nümayəndələri arasında imzalanmış müqaviləyə əsasən Xəzəryanı ərazilərdən rus qoşunları geri çağırılaraq Terek çayı ətrafında yerləşdirildi. Bu bölgədə yeni qalalar və hərbi mövqelər quruldu. Rus qoşunları Xəzər dənizindən başlayaraq Moz-

doka kimi 150 kilometrlik bir xətt üzrə döyüş mövqelər yarardılar ki, sonradan bu xətt Qafqaz xətti adlandırıldı (100).

Rus qoşunları məcburiyyət üzündən geri çağırılsa da, əslində Rusiya sarayı özünün şərq siyasətindən və o cümlədən Azərbaycan torpaqlarının işğalından heç də üz döndərmədi. Nadir şahın hakimiyyətdə olduğu illərdə Cənubi Qafqaza girmək Rusiya üçün heç də mümkün deyildi. Nadir şahın mərkəzləşdirilmiş hakimiyyətinin və möhkəm ordusunun gücü qarşısında Cənubi Qafqaza işğalçı qoşunların çıxarılması Rusiya üçün ağır nəticələr verə bilərdi. Görünür, elə bunun nəticəsi idi ki, Cənubi Qafqazla bağlı siyasətində Rusiya sarayı gözləmə mövqelərində dayanmalı oldu.

Nadir şahın ölümündən sonra XVIII əsrin 50-60-cı illərində də Rusiyanın Cənubi Qafqazla bağlı siyasətində elə bir fəallıq hiss olunmadı. Rusiyanın belə ehtiyatlı siyasət yeritməsinin əsas səbəblərindən biri heç şübhəsiz ki, Osmanlı dövlətinin Cənubi Qafqazla bağlı fəal mövqe tutması idi. Bütünlükdə, XVIII əsrin 60-70-ci illərində Rusiyanın xarici siyasəti üçün prioritet təşkil edən məsələlər bu dövlətin Cənubi Qafqazla bağlı siyasətinin fəallaşmasını müəyyən dərəcədə kölgə altına almışdı. Həmin prioritet məsələlər arasında sağ sahil Ukraynasının və Belorusiyanın Rusiyanın tərkibinə qatılması, Baltik dənizi ətrafındakı ərazilərin ələ keçirilməsi və Qara dəniz sahillərinin işğal edilməsi idi (101).

Bu məsələlərin həlli zəruriliyi ilə əlaqədar olaraq Rusiya XVIII əsrin 50-60-cı illərində Cənubi Qafqazda vəziyyətin olduğu kimi saxlanılmasına üstünlük verirdi. Rusiya dövləti Osmanlı Türkiyəsinin Cənubi Qafqazda möhkəmlənməsini istəmədiyi kimi, Osmanlı dövlətini qıcıqlandıracaq addımların atılmasına, Cənubi Qafqaza, o cümlədən də Azərbaycan xanlıqlarının ərazisinə açıq müdaxilə etməyə tələsmirdi. Rusiya sarayında bu dövlətin İstanbuldakı səfiri A.M.Obreskova göndərilən təlimatda da bildirilirdi ki, Rusiya Persiyanın işlərinə qarışmır və Osmanlı dövlətinə də belə bir siyasət izləməyi təklif edir. Səfirdən tələb olunurdu ki, farsların Osmanlı sərhədinə hər hansı təhlükə yaratmadığı saray əyanlarına çatdırılsın. Çünki İran ərazisindəki qurumlar kifayət qədər zəiflədiyi üçün Osmanlı dövləti üçün hər hansı bir təhlükə yarada bilməzdi (102).

Belə bir siyasət izləməklə Rusiya hələlik Osmanlı dövlətini də Cənubi Qafqazdan uzaq saxlamaq istəyirdi. Çünki İran ərazisində qurulan dövlətlərin və Azərbaycan xanlıqlarının zəif olduğu bir vaxtda Rusiyanın bölgədəki siyasətinə ciddi müqavimət göstərə biləcək dövlət Osmanlı dövləti idi. Ona görə də 1762-ci ildə hakimiyyətə gəlmiş olan çarıça II Yekaterina bildirirdi ki, biz öz sərhədlərimizi Gizlərdən Persiya sərhədinə qədər genişləndirib orada möhkəmlənmək istəsək, Persiya ilə bir başa sərhəd

olan Osmanlı dövləti özünə yaxın olan Persiya ərazilərini tutmağa başlayacaqdır (103).

Rusiya çariçası Osmanlı dövlətinə yaxın olan Persiya əraziləri dedikdə heç şübhəsiz ki, İmeretiyanı, Kartli-Kaxetiyanı və Azərbaycan xanlıqlarını da nəzərdə tuturdu. Rusiyanın Osmanlı dövləti ilə maraqları yalnız Cənubi Qafqazda toqquşmurdu. Qara dənizə çıxışın əldə edilməsi, Qara dəniz ətrafındakı ərazilərin möhkəmlənməsi və Dunay ətrafı ərazilərdə möhkəmlənmək siyasəti Osmanlı dövlətinin nigarançılığı və narahatçılığı ilə qarşılanırdı. Bu iki dövlət arasında mövqe toqquşması 1768-ci ildə növbəti müharibə ilə nəticələndi. Bu müharibəni başlamaqla Rusiya Osmanlı dövlətinə ciddi zərbə vurmaq, Osmanlı dövlətini zəiflədərək Qara dəniz ətrafındakı ərazilərlə birlikdə Gürcüstanı da nəzarət altına almaq istəyirdi. Bu məqsədlə Rusiya sarayı hətta Kartli-Kaxetiya və İmeretiya hakimləri ilə əlaqə saxladı və Osmanlı Türkiyəsinə qarşı müharibəyə səfərbər olmağa səslədi. Eyni zamanda II Yekaterina Gürcüstan ərazisinə qoşun çıxarmaqla Gürcüstanın Osmanlı təzyiqlərindən bir dəfəlik qoparılması ideyasını ortaya atdı. Bununla bağlı, Rusiya sarayında xüsusi iclas çağırıldı, saray əyanlarının Gürcüstana qoşun çıxarılması haqqındakı fikirləri müzakirə olundu. Etiraz edənlər olsa da Rusiya qoşunlarının Gürcüstana çıxarılması qərarına səs verənlər üstünlük təşkil etdi (104).

Rus tarixçiləri Rusiyanın Osmanlı dövləti ilə müharibə dövründə, XVIII əsrin 70-ci illərində Gürcüstan ərazisinə qoşun çıxarılmasını müsəlmanların zülmündən və soyğunçuluqlarından xristian gürcülərə nicat verilməsi motivləri ilə bağlayırlarsa, rus qoşunlarının qarşıya qoyulan məqsədə çatmasını isə qoşunların rəhbəri Totlebanın bacarığı ilə əlaqələndirirlər (105).

Əslində isə Gürcüstana qoşun çıxarılması bütünlükdə Cənubi Qafqazın işğalı planının tərkib hissəsi idi. Rusiya Osmanlı dövlətini ciddi şəkildə zəiflədib Gürcüstanı tam nəzarətə ala bilmədi. Bununla, Azərbaycan xanlıqlarının da Rusiya tərəfindən işğalı sürətlənmiş olardı.

1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi dövründə bu dövlətlərin hər biri Azərbaycan xanlıqları ilə əlaqələr qurmağa və Azərbaycan xanlıqları arasında etibarlı dayaq tapmağa çalışdılar. Rusiya sarayını daha çox Azərbaycan xanlıqlarının Rusiyaya münasibəti maraqlandırırdı. Osmanlı dövlətinin nümayəndələri isə Gəncə, Dərbənd, Dağıstan hakimləri yanında olaraq onlarla Rusiyaya qarşı ittifaq imkanlarını aradılar. Amma Rusiyanın kifayət qədər möhkəm olan mövqeyi ona qarşı mövqe tutulmasında ehtiyatlı olmağa sövq etdi (106).

1774-cü ildə indiki Bolqarıstan ərazisində yerləşən Kiçik Qaynarça kəndində Rusiya ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı və

bununla da iki dövlət arasındakı müharibəyə son qoyuldu. Kiçik Qaynarça sülh müqaviləsi müharibənin gedişində Rusiya tərəfinin əldə etdiyi bir sıra üstünlükləri rəsmiləşdirdi. O cümlədən, Krım və onun ətrafındakı tatar əraziləri Osmanlı nəzarətindən çıxarıldı və müstəqil elan edildi. Qara dəniz ətrafında, Dnepr və Buq çayları ətrafındakı bir sıra əraziləri, o cümlədən Böyük və Kiçik Kabardanı Rusiyaya birləşdirdi. Qara dənizdə rus ticarət gəmilərinin maneəsiz üzməsinə icazə verildi. Gürcüstan ərazilərinə gəldikdə isə Rusiya buradakı qoşunlarını çıxarmağı öz öhdəsinə götürdü. Osmanlı dövləti isə əvəzində Gürcüstan və Minqreliyadan bac-xərac almağa son qoymağa razı oldu. Gürcüstan ərazisindəki qalalardakı Osmanlı qoşunları da oradan çıxarılmalı idi (107).

Rusiya sarayı Gürcüstan ərazilərinin daha ciddi nəzarət altına alınması üçün qarşıya qoyduğu məqsədə tam nail ola bilmədi. Bunun əvəzində, müqaviləyə əsasən Osmanlı dövləti Gürcüstanda öz mövqelərini xeyli itirmiş oldu. Bununla da Cənubi Qafqaz siyasətində Rusiyanın başlıca rəqibi olan Osmanlı dövlətinin bölgədən tamamilə sıxışdırılmasına yeni bir cəhd göstərildi. Amma Osmanlı dövlətinin gücü və Cənubi Qafqazla bağlı maraqları Rusiyaya imkan vermirdi ki, bölgəyə açıq müdaxilə etsin və bölgənin işğalını həyata keçirsin. Buna görə Rusiya Cənubi Qafqazla, o cümlədən Azərbaycan xanlıqları ilə münasibətdə ehtiyatlı addımlar atmaqda, Azərbaycan xanlıqlarına qarşı təcavüzkar məqsədini pərdələməkdə davam edirdi. Çünki Rusiyanın açıq təcavüzkar-işğalçı siyasətinin Osmanlı dövlətinin mənafeyi və maraqları ilə toqquşması bu dövlətin Kiçik Qaynarça müqaviləsinin şərtlərindən geri çəkilməyə sövq edə bilərdi. Rusiya isə Osmanlı dövlətinin Kiçik Qaynarça müqaviləsindən geri çəkilməsini və Rusiya üçün əlverişli müqavilə şərtlərinin itirilməsini istəmirdi. Belə ehtiyatlı siyasət XVIII əsrin sonlarında Rusiyanın Azərbaycan xanlıqları üzərinə açıq hücumuna qədər davam etdi.

Mütəxəssislərin də yazdığı kimi, Rusiya bölgədə vəziyyətin irimiqyaslı hərbi əməliyyatlara gətirilib çıxarılmasına razı deyildi və buna hələlik hazır deyildi. Amma Rusiya Cənubi Qafqaz siyasətindən əl çəkmək fikrində də deyildi. Rusiya Azərbaycan xanlıqları və gürcü çarlıqları ilə incə oyun oynayır, bölgədə qüvvələrin balansını saxlamağa çalışır, nifaq yayır və kiminsə qüvvətlənməsinə yol vermək istəmirdi. Rusiya eyni zamanda özünün bölgədə söz sahibi olduğunu da nümayiş etdirir və bunun üçün yaranmış fürsətdən dərhal istifadə edirdi. 1775-ci ildə Dərbənd şəhərinə rus qoşun dəstələrinin gətirilməsi də Rusiyanın əzələ nümayişi və Azərbaycan xanlıqları ilə bağlı izlədiyi siyasətin göstəricisi idi (108).

Yuxarıda qeyd edildiyi kimi, 1774-cü ildə Qavduşan döyüşündən sonra Fətəli xana müxalif olan Dağıstan hakimləri Qaraqaytaq usmisi Əmir

Həmzənin rəhbərliyi altında Dərbənd qalasını mühasirəyə aldılar. Dərbənd şəhərinin süqutu Fətəli xanın başladığı birləşdirmə fəaliyyətinə son qoya, xanlıqlar daxilində parçalanmanı şiddətləndirə bilərdi. Yaranmış hərbi-siyasi böhranın qarşısının alınması üçün Fətəli xanın ətrafındakı qüvvələr kifayət deyildi. Yetərli qüvvələrin formalaşdırılması isə kifayət qədər uzun müddət tələb edirdi. Ona görə də Fətəli xan qərara aldı ki, Rusiya sarayından kömək istəsin və Şimali Qafqazda dayanan rus qoşun hissələrinin köməyi ilə ona qarşı mövqe tutan Dağıstan hakimlərinin qüvvələrinə zərbə endirsin. Bununla bağlı o, hələ Qavduşan döyüşünün uğursuzluğundan sonra pənah apardığı Salyandan Mirzə Bayat adlı birisini Rusiya çariçası II Yekaterinanın yanına göndərdi (109).

Tarixi məlumatlardan məlumdur ki, Fətəli xan kömək göstərilməsi ilə bağlı Rusiya sarayına məktub da yazdı. Həmin məktubda Fətəli xan Qavduşan döyüşünün nəticələri haqqında məlumat verərək bildirirdi ki, Dərbənd, Salyan və Muğandan başqa xanlığın digər əraziləri, Kür çayına qədər olan torpaqlar onun nəzarətindən çıxarılmışdır (110). Bununla Fətəli xan vəziyyətin çıxılmaz olduğunu və Rusiyanın köməyinə ümid etdiyini bildirirdi.

Fətəli xanı himayəyə almaq xahişi ilə Quba xanlığının müttəfiqi Tərki şamxalı da Rusiya sarayına müraciət etdi. O bildirirdi ki, dağlı xalqları tərəfindən sıxışdırılan Fətəli xanın Rusiya himayəsinə ehtiyacı vardır. Şamxal belə hesab edirdi ki, Fətəli xana Rusiya köməyi göstərilməlidir. Çünki Fətəli xan Rusiyanın dostudur (111).

Fətəli xanın yardım müraciəti Rusiyanın Kiçik Qaynarça sülh müqaviləsini imzaladığı ilə təsadüf edir. Ona görə açıq şəkildə Dərbəndə qoşun göndərilməsi Osmanlı Türkiyəsinin ciddi narazılığına səbəb ola bilərdi. Qoşunun göndərilməsi isə Rusiya maraqlarına cavab verirdi. Çünki həmin qoşun Dağıstan xalqlarında, o cümlədən də Azərbaycan xanlıqlarında rus silahından qorxu aşılaya bilərdi. Amma tezliklə rus silahından qorxunun aşılanması üçün münasib olan bir bəhanə də tapıldı. Bu da Rusiyanın təbiətşünas alimi professor Qmelinin bölgəyə səfəri zamanı 1774-cü ildə Qaraqaytaq usmisi Əmir Həmzə tərəfindən həbs edilməsi və elə həbsdə ikən onun dünyasını dəyişməsi oldu. Əmir Həmzə onun idarəçiliyi altında olan ərazilərdən qaçmış 300-ə yaxın adamın geri qaytarılması haqqında Şimali Qafqazdakı rus komandanlığından müsbət cavab almayanda professor Qmelini və onun heyətini həbs etdi. Sonradan rus məqamlarının səylərinə və xahişlərinə baxmayaraq professor Qmelin həbsdən azad edilmədi.

Rusiya çariçası II Yekaterina Rusiya qoşunları Qafqaz xəttinin komandanı general İ.F.de Medemə göstəriş verdi ki, Əmir Həmzəni cəzalandırsın və onda rus silahına hörmət yaratsın. Bu zaman Fətəli xanın

Rusiya sarayına yardım müraciəti də nəzərə alınmalı idi. Əmir Həmzəyə zərbə vurulması formal olaraq professor Qmelinin qisasının alınması kimi təqdim olunurdu. Həqiqətdə isə Rusiya sarayı Fətəli xana qarşı səfərbər olunmuş qüvvələrin rəhbəri kimi Əmir Həmzəyə zərbə vurulmasını və bunu ilə Fətəli xana da kömək göstərilməsini başlıca məqsəd kimi qarşıya qoyurdu. General de Medem Fətəli xanla əlaqə saxladı və sonra da 1775-ci ilin martında rəhbərliyi altında olan qoşun dəstəsi ilə Əmir Həmzənin üstünə hərəkət etdi (112).

Məlumatlara görə, general de Medemin qoşun dəstəsi 2800 nəfərdən ibarət idi (113). Fətəli xanın müttəfiqi Tərki şamxalı da öz dəstəsi ilə ruslara qoşuldu və bu qüvvələr Dərbəndə doğru istiqamət götürdülər. Bu vaxt Əmir Həmzə hələ də Dərbəndi mühasirədə saxlayırdı və rus qoşun dəstəsinin yaxınlaşması onun tərəfindən təmkinlə qarşılandı. Uğur qazanacağına əmin olan Əmir Həmzə atlıları ilə birlikdə rus qoşun dəstəsinin üzərinə atıldı. Lakin yuxarıda qeyd edildiyi kimi, Əmir Həmzənin dəstəsi ağır zərbə alaraq geri çəkilməli oldu (114).

Fətəli xan rus qoşun dəstəsini Dərbəndin 12 verstliyində qarşıladı. O, general de Medemə təklif etdi ki, Dərbəndə daxil olsun və onu Rusiya himayəsinə qəbul etsin. Şəhər qalasının açarları da general Medemə təqdim olundu. Əmir Həmzənin cəzalandırılması ilə general de Medemin vəzifəsi başa çatmalı idi. Amma Fətəli xanın təklifindən sonra general de Medem qoşun dəstəsi ilə Dərbəndə daxil oldu. Fətəli xan eyni zamanda rus qoşun dəstəsinin əməli köməyindən istifadə etməklə Dərbənd xanlığını tamamilə ona qarşı olan qüvvələrdən azad etdi, Dağıstanın dağlıq vilayətlərinə, onunla düşmənçilik edən hakimlərin mülklərinə yürüş etdi (115).

Rus qoşunları vasitəsilə dağıstanlı hakimlərə ağır zərbə vurulduğu əsnada Fətəli xan məktubla yenidən Rusiya çariçasına himayədarlıq üçün müraciət etdi və Dərbənd şəhərinin açarlarını da ona göndərdi. Fətəli xan bəyan etdi ki, əvvəldən də Rusiyaya meylli olub və Rusiya-Osmanlı müharibəsi zamanı Osmanlı tərəfindən edilən müraciətlərə baxmayaraq Rusiyaya qarşı müharibəyə qoşulmayıb. Fətəli xan xahiş etdi ki, general Medemin rəhbərliyi altında olan qoşun dəstəsi Şamaxının, Şabranın və Kür çayına qədər olan ərazilərin geri qaytarılmasında ona kömək etsin. Fətəli xan Rusiyanın himayəsini xahiş etməklə bərabər, əlavə edirdi ki, həmin himayə qəbul edildiyi təqdirdə xanlığın müstəqill qalmasını və bütün idarəetmə işlərində səlahiyyətli olmasını arzu edir (116).

Quba naziri vəzifəsini daşıyan Dərbənd hakiminin rəhbərlik etdiyi elçilik tərəfindən Rusiya sarayına aparılan məktubda Fətəli xan Krım xanı səlahiyyətlərində Rusiya himayəsini qəbul etməyə hazır olduğunu bildirirdi. Lakin Quba xanı tərəfindən Rusiya sarayına göndərilən elçilik missiyası

gözlənilən nəticələri əldə edə bilmədi. Rusiya sarayında Fətəli xanın elçisinə bildirildi ki, Rusiya öz qonşuları ilə imzaladığı müqavilələrin əksinə gedə bilməz. Başqa sözlə Rusiya sarayı Osmanlı dövləti ilə imzaladığı müqavilənin şərtlərini pozmağı hələlik məqbul saymırdı(117).

Rusiya cənub sərhədi boyu yeni və güclü bir dövlətin formalaşmağını istəmədiyi kimi, belə bir dövlətin formalaşacağı təqdirdə onun nəzarətdən kənarda qalmağını da istəmirdi. II Yekaterina tərəfindən general de Medemə göndərilmiş təlimatda da açıq şəkildə bildirilirdi ki, Rusiyanın cənubunda bir-biri ilə nifaq və intriqada olan qurumların mövcudluğu Rusiyanın hazırkı maraqlarına daha çox cavab verir. Ona görə general de Medemin Dərbənd şəhərinə daxil olması Fətəli xanın düşmənlərinə qarşı döyüşə girmiş Rusiya sarayının rəğbətini qazanmadı. Hətta general de Medemin bu icazəsiz hərəkətləri Rusiya çarıçası tərəfindən "axmaqlıq" adlandırıldı (118).

Rusiya sarayı bilirdi ki, Dərbəndə qoşun çıxarılması bölgənin güclü dövlətlərinin də narazılığına səbəb olacaqdır. Buna görə qərara alındı ki, general de Medemin rəhbərliyi altında olan qoşun dəstəsi Dərbənddən geri çağırılsın. General Medemin dəstəsinin Dərbənddə uzun müddət qalması Şimali Qafqazın müdafiə xəttinin zəifləməsinə də səbəb ola bilərdi. Rusiya sarayı ehtiyat edirdi ki, Şimali Qafqazdakı hərbi qüvvələrin Dərbənd ətrafında olmasından Osmanlı dövləti istifadə edib bu bölgəyə qoşun çıxara bilər. Ona görə 1775-ci ilin yayında general de Medemin rəhbərliyi altında Dərbənd ətrafında olan qoşun dəstəsi Gizlərə çəkildi. Dərbənddə isə 500 nəfərlik kiçik bir dəstə saxlanıldı. Həmin dəstəyə qusar eskadronunun atlıları, Don və Ural kazakları və 4 ədəd top daxil idi (119).

Dərbənddə rus qoşun dəstəsinin saxlanmasının qonşu dövlətlərin narazılığı ilə qarşılanmasına yol verilməməsi üçün belə bir addımın Quba xanının xahişi əsasında atıldığı bildirildi. Bu dəfə də bəhanə kimi professor Qmelinin itmiş əşyalarının axtarılıb tapılması göstərilirdi. Eyni zamanda bildirilirdi ki, Dərbənddə saxlanılmış dəstə həmin vaxtlarda Dərbənd yaxınlığında qəzaya uğramış rus ticarət gəmisinin yüklərinin axtarılması ilə də məşğul olacaqdır. O da qeyd olunurdu ki, Dərbənddə saxlanılan rus dəstəsi bölgədə nizamın yaradılmasına, ticarət yollarının təhlükəsizliyinin təmin edilməsinə, Azərbaycan və Dağıstan hakimlərinin durumunun yaxşılaşmasına kömək edəcəkdir. Rusiya çariçasının İstanbuldakı rus səfirinə göndərdiyi təlimatda da rus qoşun dəstəsinin Dərbənddə müvəqqəti saxlanıldığı qeyd olunur və Osmanlı əyanlarına da məsələnin belə çatdırılması tövsiyə olunurdu (120).

Bununla belə, Dərbənddə Rusiya qoşunlarının saxlanılması Osmanlı Türkiyəsi tərəfindən çox ciddi narahatçılıqla qarşılandı. Türkiyə tərəfindən bildirildi ki, Rusiya imzaladığı müqaviləni pozub və Rusiya tərəfindən

əslində Osmanlı dövlətinə qarşı müharibə elan olunub. Rus qoşun dəstəsinin Dərbənddə saxlanması da Osmanlı dövlətinə qarşı müharibənin başlanması kimi qəbul edilirdi. Hətta Osmanlı dövləti tərəfindən məsələnin aydınlaşdırılması üçün Dərbəndə nümayəndələr göndərildi. Bu nümayəndələr Dərbənddəki rus zabitləri ilə görüşüb məsələ haqqında daha geniş məlumat almağa çalışdılar. Rusiya sarayı Osmanlı dövləti ilə münasibətlərin gərginləşməsinə yol verilməməsi üçün imzalanan müqaviləyə sədaqətli qaldığı bəyan etdi. Bildirildi ki, imzalanmış olan müqavilə Rusiya tərəfindən pozulmayacaqdır. Dərbəndə gəlmiş Osmanlı nümayəndələrinə isə çatdırıldı ki, Rusiya Osmanlı Türkiyəsi ilə müharibə aparmaq istəyində deyil. Bunun ardınca Osmanlı dövləti rəsmi olaraq Rusiyanın Cənubi Dağıstanla bağlı siyasəti haqqında və Dərbəndə qoşun dəstəsi göndərməsi haqqında izahat istədi. Osmanlı dövlətinin bu müraciətinə cavab olaraq Rusiya çariçası İstanbuldakı Rusiya səfiri Repinə təlimat göndərdi. Təlimatda Rusiya çarıçası Osmanlı dövlətindən xeyli uzaqda olan Dərbənddə baş verənlərə Osmanlı sarayının belə ciddi münasibət göstərməsinə təəccübləndiyini gizlətmirdi. Osmanlı sarayının narahatçılığının daha ciddi siyasi nəticələrə yol açmasına imkan verməmək üçün II Yekaterina bildirirdi ki, Rusiya Dərbəndi işğal etmək fikrində deyil. Rusiya çarıçasının yazdıqlarına görə, Dərbəndə qoşun göndərilməsinin Türkiyə ilə münasibətlərə heç bir aidiyyatı yox idi. Rusiya çarıçası sonra əlavə edirdi ki, general de Medem geri qayıdarkən yerli xanın xahişi ilə Dərbəndin müdafiəsi üçün bu şəhərdə kiçik bir dəstə saxlamışdır. Osmanlı dövlətindən bununla bağlı rəsmi izahat istənəndə isə həmin dəstənin geri çəkilməsi üçün göstəriş verilmişdir (121).

Qeyd etmək lazımdır ki, Dərbəndə rus qoşunu çıxarılması Qacarlar sarayının da açıq narazılığına səbəb oldu. Qonşu dövlətlərin narahatçılıqlarının aradan qaldırılması üçün Rusiya sarayı dərhal Dərbənddən geri çəkilməyi məqsədəuyğun bildi. II Yekaterina təlimatlarından birində bəyan edirdi ki, əgər Dərbənddən geri çəkilməsək onda Osmanlı dövləti buna cavab olaraq özünə yaxın olan əraziləri ələ keçirməyə başlayacaqdır. Ona görə general Medemə göstəriş verildi ki, Osmanlı Türkiyəsini qıcıqlandırmamaq üçün Dərbənddə qalan kiçik rus dəstəsi də geri çağırılsın. Mövcud olan məlumatlara görə, Dərbənddəki rus dəstəsinin geri çəkilməsi 1776-cı ilin yazında baş verdi (122).

Rus qoşun dəstəsinin geri çağırılması ilə Osmanlı Türkiyəsinin bölgəyə qoşun çıxarması və Kiçik Qaynarça sülh müqaviləsindən çıxması ehtimalı da azaldıldı. Belə ehtiyatlı siyasət XVIII əsrin 70-ci illərinin sonuna qədər davam etdi. Lakin Cənubi Qafqazda və Dağıstan ərazisində cərəyan edən proseslər Rusiyanın Cənubi Qafqaza olan diqqətini xeyli fəallaşdırdı. Rusiya sarayında formalaşdırılan siyasət kursuna görə Xəzəryanı

ərazilərdə yerləşən xanlıqların hakimlərinin ötkəmliyinin aradan qaldırılması və onların Rusiya maraqlarına uyğun olaraq islahlaşdırılması üçün daha qəti tədbirlər həyata keçirilməli idi. Belə qəti tədbirlər isə cənub hakimlərinə qarşı hərbi yürüşlərin həyata keçirilməsi ola bilərdi.

Rusiyanın Dağıstan və Cənubi Qafqazdakı maraqlarının silah gücünə təmin edilməsi general A.Suvorova həvalə edildi. Kifayət qədər qaynar olan bu bölgədə yerli hakimlərin islahlaşdırılması və Rusiya maraqlarının təmin olunması üçün Rusiya sarayı təcrübəli bir hərbçinin bölgəyə göndərilməsi barədə qərar qəbul edəndə seçim general A.Suvorovun üzərində dayandı. Rusiya çarıçası özü də A.Suvorovun bölgəyə göndərilməsini məsləhət bildi və bununla bağlı imzaladığı təlimatda bildirilirdi ki, A.Suvorov dərhal Həştərxana yola düşməli, orada hərbi qüvvələrə komandanlığı öz üzərinə götürməli, sonra da Gürcüstan, Ermənistan və Fars haqqında zəruri məlumatları toplayıb Peterburqa göndərməlidir (123). Burada "fars" deyəndə həm də Azərbaycan xanlıqları nəzərdə tutulurdu.

Cənubi Qafqaz bölgəsi haqqında məlumatların toplanması gələcəkdə Rusiyanın bölgəyə hərbi müdaxiləsinin həyata keçirilməsi üçün nəzərdə tutulurdu.

Knyaz Potyomkindən Suvorova təqdim edilən təlimatda isə təyinat aldığı bölgədə görməli olacağı işlərin müfəssəl şərhi verilmişdi. Suvorov da öz fəaliyyətini həmin vəzifələr üzərində qurmalı və onların icrasını təşkil etməli idi. Təlimatda aşağıdakı vəzifələr irəli sürülürdü:

1. Bölgədə olan piyada və dəniz qüvvələrinin ümumi komandanlığını Suvorov öz əlində cəmləşdirməli idi. Bundan sonra o, qoşunların ümumi vəziyyəti ilə tanış olmalı və müəyyənləşdirməli idi ki, qarşıya qoyulan vəzifələrin həlli üçün nə qədər piyada, nə qədər dəniz qüvvələrinə, nə qədər toplara, nə qədər təchizata, nə qədər ərzağa və digər əşyalara ehtiyacı var. Bu ehtiyaclar ümumiləşdirildikdən sonra Rusiya sarayına məlumat verilməli idi. Suvorov döyüş səfərlərinin vaxtını, qüvvələrin müvəqqəti yerləşmə məntəqələrini müəyyənləşdirməli idi.

2. Suvorova tapşırıq verilirdi ki, yerlərdə itaətsizlik göstərən xanlara qarşı qətiyyətli və amansız olsun, itaət göstərənlərə qarşı isə mərhəmət nümayiş etdirsin. Təlimata görə itaət göstərməyənlər Rusiya çariçasının qəzəbinə gəlməli idilər. Ona görə də onlara dərs verilməli və onların fəaliyyəti Rusiya dövlətinin mənafelərinə uyğunlaşdırılmalı idi. Belə xanların Rusiya mənafelərinə uyğun gəlməyən bütün fəaliyyətinin qarşısı alınmalı idi. Bunun üçün Suvorova hər cür səlahiyyət verilirdi. Suvorovun nəzərinə çatdırılırdı ki, zərurət yarananda həmin xanlarla əlaqələr qursun, yazışmalar aparsın və bu yolla da qarşısına qoyulan vəzifələrin həllinə nail olmağa çalışsın.

3. Suvorova tapşırılırdı ki, dəniz gəmilərinin sayı artırılsın. Çünki Xəzəryanı əraziləri nəzarət altına almaq üçün dəniz qüvvələrinin möhkəmləndirilməsi tələb olunurdu. Bunsuz bölgədə Rusiyanın maraqlarını təmin etmək də asan deyildi. Məsləhət görülürdü ki, zərurət yaranarsa gəmilərin sayı kirayə alınmış gəmilərin hesabına artırılsın. Gəmilərin sayı artırıldığı üçün onun şəxsi heyəti də artırılmalı idi. Bu vəzifə də Suvorovun diqqətinə çatdırılmışdı. Gəmilərə piyada qüvvələri də alına bilərdi. Bu qüvvələr zərurət yarananda quruya çıxarılmalı idi. Dəniz qüvvələrinin artırılmasında məqsəd isə Xəzər dənizində üzən Rusiya ticarət gəmilərinə vaxtaşırı hücum edən düşmən və pirat gəmilərin üzə çıxarılması və məhv edilməsi idi. Bununla Rusiyanın Xəzər dənizindəki ticarət gəmiçiliyi etibarlı mühafizə olunmalı idi.

4. Bütün bu işləri görməkdə Suvorovun fəaliyyətinin əsas məqsədini Xəzər dənizində, dəniz ətrafı ərazidə, limanlarda Rusiyanın ticarətinin təhlükəsizliyinə nail olunması təşkil etməli idi. Suvorova məsləhət görülürdü ki, bölgədə öz fəaliyyətini düzgün qurmaq üçün mükəmməl bir xəritəyə də malik olsun (124).

General Suvorova belə ciddi tapşırıqlar verilməsi də Cənubi Qafqaza hərbi müdaxilənin hazırlıq mərhələsi kimi qiymətləndirilə bilər. Məlumdur ki, Rusiya sarayı 1782-83-cü illərdə Cənubi Qafqaza hərbi müdaxilə planlaşdırırdı (125). Bu təhlükəni hiss etdiyi üçün hətta Fətəli xan da qiymətli əşyalarını daha etibarlı yerlərdə gizlətmişdi ki, rusların əlinə keçməsin.

Rusiyanın Cənubi Qafqaza yenidən qoşun çıxarmaq üçün hazırlıqlara başlaması Osmanlı Türkiyəsi tərəfindən də narahatlıqla qarşılanırdı. Rusiyanın bu hazırlıqlarının qarşısının alınması və rus qoşunlarının Cənubi Qafqaza buraxılmaması üçün Osmanlı əyanları Fətəli xanla təmasa girdilər. Ona çoxlu hədiyyələr göndərdilər və onun da Rusiyaya qarşı cəbhə tutmasına çalışdılar. Fətəli xan isə müəyyən təhlükəni duymasına baxmayaraq Rusiyaya qarşı çıxmağı məqsədəuyğun bilmədi. Ola bilsin ki, onun belə mövqe nümayiş etdirməsi həm də Rusiyanın Cənubi Qafqaza hərbi müdaxilə etmək niyyətindən yayınması idi. Bununla belə, 1781-ci ildə qraf Voynoviçin rəhbərliyi altında olan kiçik bir eskadra Həştərxandan Astrabada doğru istiqamət götürdü. Ona belə bir tapşırıq verilmişdi ki, Astrabad yaxınlığında mövcud ola biləcək adalardan birində lövbər salsın, ya da sahilə çıxaraq Rusiyanın ticarət əlaqələrinin genişləndirilməsi üçün bir baza yaratsın. Lakin rus eskadrilyası bu planın icrasına nail olmadı. 1782-ci ilin iyulunda bu eskadrilya geri qayıdarkən Bakı buxtasına girdi, qraf Voynoviç Bakıda görüşlər keçirdi. Rus eskadrilyasının Bakıda və Şirvanın şəhərlərində ticarət aparması məsələlərini müzakirə etdi. Görünür, Fətəli xan

rus hərbçilərinin Bakıya gəlməsindən hələ də razı deyildi. Qraf Voynoviç öz gəlişinin məqsədinin çatdırılması üçün öz adamlarından birini Qubada olan Fətəli xanın yanına göndərdi. Bir neçə gündən sonra Fətəli xan özü də Bakıya gəldi. Avqust ayının 9-dan başlayaraq həmin ayın sonuna qədər Fətəli xanla qraf Voynoviç arasında rus tacirlərinin fəaliyyətinin təmin edilməsi haqqında müzakirələr aparıldı və Rusiya tərəfinə rus tacirlərinin fəaliyyətinin daha yaxşı təmin edilməsi haqqında vədlər verildi (126). Bundan sonra rus hərbçiləri xanlıq ərazilərini tərk etdilər.

General A.Suvorovun Qafqaz ətrafında olduğu iki il ərzində rus qoşunlarının Cənubi Qafqaza çıxarılması baş vermədi. Məlumdur ki, A.Suvorov 1782-ci ildə P.Potyomkinlə əvəzləndi. Bununla belə, Rusiya sarayı Cənubi Qafqazda elə bir siyasi vəziyyətin yaranmasına səbəb oldu ki, yerli hakimlər özləri Rusiyanın himayəsini əldə etmək üçün müraciətlər etdilər. Çünki bölgə daxilində və xaricində formalaşdırılmış hərbi-siyasi şərait yerli hakimləri buna məcbur edirdi. Məsələn, 1782-ci ildə Qarabağ xanı İbrahimxəlil xan Peterburqa nümayəndə göndərərək Rusiya himayəsinin təmin olunmasını xahiş etdi (127). 1782-ci ildə Kartli-Kaxetiya çarı II İrakli də Rusiya himayəsinin qəbul olunması üçün müraciət etdi (128). Quba xanı Fətəli xan isə öz müstəqilliyini qorumağa çalışdığı üçün ona qarşı müxtəlif məkrli planlar qurulurdu.

1783-cü ildə Rusiya Krımı özünə birləşdirməyə müvəffəq oldu. Bununla da Rusiya bütün diqqətini Cənubi Qafqaza yönəltmək imkanı əldə etdi. Doğrudur, Osmanlı Türkiyəsinin Rusiyanın Cənubi Qafqaz siyasətinə qarşı müqavimət göstərmək təhlükəsi qalmaqda idi. Bununla belə, vaxt ötdükcə Rusiya Cənubi Qafqaza etdiyi müdaxilələri daha da fəallaşdırmağa çalışdı. Yerli hakimlərin Rusiya himayədarlığı ilə bağlı müraciətləri isə Rusiyanın bölgəyə müdaxiləsinə əlavə imkanlar yaradırdı. Bu məsələlər Rusiya Xarici İşlər Kollegiyasının 1783-cü il martın 28-də Peterburqda keçirilən iclasının müzakirəsinə də çıxarıldı. İclasda bildirildi ki, Xəzər dənizinin nəzarət altına alınması bölgə ilə bağlı aparılan siyasətin əsas məqsədidir. Bu məqsədə nail olunmasının yollarında biri gürcülərlə və ermənilərlə ittifaq yaradılmasında görülürdü. Knyaz Q.Potyomkinin yazışmalarından aydın olur ki, mövcud tarixi şəraitdə Rusiya hələ ki Bakıya qədər olan Xəzəryanı əraziləri işğal etmək niyyətindədir. Qarabağ xanlığının ərazisinin isə gürcü çarlığına birləşdirilməsi planlaşdırılırdı (129). Gürcü çarlığının Rusiyanın vassalı elan edilməsi ilə əslində Qarabağ xanlığının ərazisi də Rusiyadan asılı bir vəziyyət düşmüş olurdu.

Belə bir siyasət izlənməsi mövcud şərait üçün Rusiyanın əl atdığı taktiki gediş idi. Rusiya sarayı bütün Azərbaycan xanlıqlarının nəzarət altına alınması üçün Kartli-Kaxetiya çarı II İraklidən istifadə olunmasına xüsusi

önəm verirdi. II İrakli özü də Azərbaycan xanlıqlarını nəzarət altına almaq istəyirdi və onun bu istəyi Rusiyanın Azərbaycan xanlıqlarını işğal etmək planlarına cavab verdiyi üçün Rusiya sarayı tərəfindən dəstəklənirdi.

Bölgədə erməni dövləti yaradılması üçün Qarabağ məliklərinin və erməni kilsəsinin lazımi gücü, nüfuzu və demoqrafik bazası olmadığı üçün İbrahim xanın himayədarlıq xahişi də Rusiya sarayı tərəfindən müəyyən maraqla qarşılandı. Ona görə də knyaz Q.Potyomkin əgər 1783-cü il aprelin 6-da şuşalı İbrahim xanın devrilməli olduğunu, Qarabağda yalnız Rusiyaya tabe olacaq erməni vilayətini təşkil ediləcəyini, Rusiyanın Şimali Qafqazdakı hərbi komandanlığının bu siyasətin həyata keçirilməsinə çalışmalı olduğunu yazırdısa, elə həmin ilin mayında Rusiyanın Qafqazdakı qoşunlarının komandanı P.Potyomkin İbrahimxəlil xana onun Rusiya himayəsini qəbul etmək arzusunu məmnunluqla qəbul etdiyini və Qarabağ xanının da belə bir mövqedə olduğunu yazırdı (130).

İbrahim xanın Rusiya himayəsinə qəbul edilməsi haqqındakı müraciətinə çarıça II Yekaterina 1783-cü ilin mayında knyaz Q.Potyomkinə göndərdiyi sərəncamında öz münasibətini bildirdi. Çarıça bəyan edirdi ki, İbrahim xanın müraciətində hər hansı bir şübhə yeri yoxdursa, onu Rusiya himayəsi altına almaq olar. Rusiya çariçası bu məsələnin həllinin general P.Potyomkinə tapşırılmasını mümkün sayırdı. İbrahim xanın öz mövqeyində qalacağı təqdirdə general P.Potyomkin Rusiya imperator taxt-tacına sədaqətli olacağı barədə onunla müqavilə imzalamalı idi. İbrahim xan və onun varisləri rus çarının və onun varislərinin ali hakimiyyətini tanımalı idilər. II Yekaterinaya görə, II İrakli ilə birlikdə İbrahim xanın da Rusiya himayəsinə alınması ətraf xanlar üçün təşviq edici nümunə ola bilərdi (131).

Qeyd etmək lazımdır ki, İbrahim xana münasibətdə Rusiya çariçası ilə Rusiyanın xarici siyasətinin formalaşdırılmasında xüsusi rolu və nüfuzu olan knyaz Q.Potyomkinin mövqelərində fərqli məqamlar var idi. Ermənilər tərəfindən qızışdırılan knyaz Q.Potyomkin nəyin bahasına olursa olsun İbrahim xanın devrilməsini və Qarabağ xanlığı ərazisində Rusiya üçün daha etibarlı ola biləcək xristian dövlətinin qurulmasını istəyirdi. Q.Potyomkin İbrahim xanın könüllü şəkildə Rusiyaya tərəf meyl etməsinə inanmırdı və əslində İbrahim xanın mövqeyi elə bu cür idi. İbrahim xan da müstəqilliyinin qorunması üçün Rusiyaya müraciət edilməsinin yaxşı seçim olduğunu qəbul etmirdi. Lakin Qarabağın xristian məlikləri ətrafında qurulan oyunlar onu müvafiq addımlar atmağa sövq edirdi.

Rusiya ilə qarşılıqlı münasibətlərin qurulması məsələsində Fətəli xan da İbrahim xanın mövqeyinə oxşar mövqe tuturdu. Baxmayaraq ki, bu xanların öz aralarındakı münasibətlər heç də yaxşı deyildi. Rusiyanın işğalçılıq niyyətləri istər-istəməz Fətəli xanı da narahat edirdi. Bu narahatçılığın

nəticəsi kimi Fətəli xanın Osmanlı hakimləri ilə məktublaşması haqqında da məlumatlar mövcuddur. Axalsıx paşası ilə məktublaşan Fətəli xan tövsiyə edirdi ki, Rusiyanın cənuba doğru irəliləməsi haqqında narahatedici xəbərlər yayıldığı bir vaxtda Azərbaycan xanları arasındakı çəkişmələrə son qoyulsun, Rusiyaya qarşı ümumi müqavimət təşkil edilsin (132).

Fətəli xanın Osmanlı hakimləri ilə məktublaşması Rusiya tərəfini heç də razı salmadı. Fətəli xanın Rusiyanın himayədarlığa qəbul etməyə çalışdığı Kartli-Kaxetiya çarı ilə müttəfiqlik əlaqələrində olan Qarabağ xanlığı üzərinə qoşun yeritmək, Gəncə xanlığını, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarını birləşdirmək planları da Rusiya əyanları tərəfindən ciddi təşvişlə qarşılandı. Kartli-Kaxetiya çarlığına güclü zərbə endirilməsi də Fətəli xanın planlarına daxil idi.

Fətəli xanın siyasətində Rusiya maraqlarına əks olan meyllərin güclənməsinin qarşısının alınması üçün rus əyanları hərbi müdaxilənin başlanmasını məsləhət bilirdilər. Bununla belə, knyaz Q.Potyomkin Dərbəndin işğal edilməsi üçün 1783-cü il aprelin 6-da general P.Potyomkinə göstəriş verdi. Həmin ilin mayında Dərbəndin işğal edilməsinin zəruriliyi general P.Potyomkinin alınan növbəti əmrdə bir daha təsdiq edildi (133). Amma göstərilən vaxtda Dərbəndin Rusiya qoşunları tərəfindən işğalı baş tutmadı. Hər halda güman etmək olar ki, Cənubi Qafqaz ətrafında formalaşan beynəlxalq vəziyyət Rusiyanın işğalçılığının başlanmasına mane oldu. Eyni zamanda o da məlumdur ki, Rusiya sarayı Azərbaycan xanlıqları arasındakı çəkişmə və nifaqları da qızışdırmaqda davam edirdi. Bu siyasətin Fətəli xana qarşı mübarizədə də faydalı ola biləcəyi güman edilirdi.

General Potyomkin 1783-cü ilin mayında knyaz Potyomkinə göndərdiyi məktubunda Fətəli xana qarşı mübarizədə ləzgilərin və dağlıların imkanlarından istifadə olunmasını da məqsədəuyğun sayırdı. Məktubda deyilirdi ki, Fətəli xan türklərin köməyinə arxalanmaq fikrinə düşsə ləzgiləri və dağlıları onun əleyhinə qaldırmaqla diqqətini yerli problemlərə cəlb etmək olar. Oxşar məzmunlu məktubu general P.Potyomkin digər Azərbaycan xanları arasında da yaymağa müvəffəq oldu. Mövcud olan kəsad məlumatlara əsasən belə bir qənaətə gəlmək mümkündür ki, general P.Potyomkin bu məktubu ilə Azərbaycan xanlarını onları gözləyən təhlükələrlə qorxudur və onların xilas yolunun Rusiya himayəsinin qəbul edilməsində görürdü (134).

1783-cü il iyun ayının 24-də Gürcüstan tərəfindən Rusiya himayədarlığının qəbul edilməsi üçün Georgiyevsk traktatının imzalanması Cənubi Qafqazın işğal edilməsi siyasətinin yeni bir dönüş nöqtəsi sayıla bilər. Bu traktatın imzalanması ilə Rusiya Cənubi Qafqaza qoşun yeridilməsi səlahiyyətini əldə etdi. Adı çəkilən traktatın imzalanması haqqında

Azərbaycan xanları general P.Potyomkin tərəfindən məlumatlandırıldılar. Azərbaycan xanlarına eyni zamanda Gürcüstanın Rusiya himayədarlığını qəbul etməsinin hansı nəticələrlə müşayiət olunacağı haqqında məlumat verildi. Bu məlumat əslində Azərbaycan xanlarına Rusiya ilə bağlı münasibətlərin müəyyənləşdirilməsi haqqında edilmiş xəbərdarlıq idi. Ona görə bu məlumat Azərbaycan xanlarını təşvişə salmaya bilməzdi. Rusiyanın himayəsini qəbul etmiş II İraklinin Qarabağ xanı ilə müttəfiqlik əlaqələrində olması isə Fətəli xanın nigarançılığına səbəb olurdu. Fətəli xan bu ittifaqa zərbə vuraraq öz planlarının icrası yollarını axtarırdı. O, Qarabağ xanlığını ələ keçirmək niyyətindən hələ də əl çəkməmişdi. Fətəli xan öz planlarını həyata keçirəcəyi təqdirdə II İraklinin də zərbə ala biləcəyindən ehtiyatlanırdı. Rusiya generalları vəziyyəti qabaqlamağı qərarlaşdırdılar. Rusiya qoşunları Qafqaz xəttinin komandanı 1783-cü ilin payızında iki qoşun dəstəsinin hazırlanması barəsində göstəriş verdi. Fətəli xan öz planlarının həyata keçirilməsi üçün II İrakliyə və İbrahim xana qarşı hərbi yürüşə əl atsaydı, onda rus qoşun dəstələrindən biri Sulak çayı hövzəsindən Dərbəndə doğru, ikincisi isə Dəryal dərəsindən Gürcüstana doğru hücuma başlamalı idi. Rusiyanın belə ciddi qərar qəbul etdiyini görüncə Fətəli xan öz niyyətlərindən əl çəkməli oldu (135) və bununla rus qoşunlarının Quba xanlığı üzərinə hücumu üçün mövcud olan bəhanə də aradan qalxdı.

Rusiyanın Gürcüstanla Georgiyevsk traktatını imzalaması və bu traktata əsasən Gürcüstana qoşun çıxarmaq səlahiyyəti əldə etməsi Osmanlı dövlətinin ciddi narazılığı ilə qarşılandı. Osmanlı dövləti Rusiyanın bu siyasətinə qarşı biganə qalmadı və Cənubi Qafqazda mövqelərinin daha da möhkəmləndirilməsi üçün müvafiq addımlar atmağa başladı. Əvvəla, Rusiya ilə sərhəddə yerləşən qoşunlar gücləndirildi və həmin qoşunlar döyüşə hazırlıq vəziyyətinə gətirildi. Bundan başqa Osmanlı dövlətinin Azərbaycan xanlıqları ilə təmasları quruldu. Osmanlı sarayı Azərbaycan xanlıqlarına və Dağıstan hakimlərinə müraciət edərək onları Rusiyaya və onun himayəsini aldığı Kartli-Kaxetiya çarlığına qarşı mübarizə aparmağa səslədi. Azərbaycan xanları və Dağıstan hakimləri ilə təmaslara əməli xarakter verilməsi üçün Osmanlı sarayı 1783-cü ilin sonlarına yaxın Xəlil əfəndinin rəhbərliyi altında nümayəndə heyətini Cənubi Qafqaza göndərdi. Nümayəndə heyəti Qarabağda, İrəvanda, Şamaxıda, Dağıstanda danışıqlar apardı və Rusiyaya qarşı bölgədə bir ittifaqın yaradılması üçün yollar aradı. Qarabağ xanı bu danışıqlardan sonra hətta Osmanlı sultanına müraciət edib onun himayədarlığını qazanmağa çalışdı. Doğrudur, Osmanlı sultanı İbrahim xana müsbət cavab vermədi. Lakin onun Osmanlı sarayına müraciət etməsi Rusiyanın Qarabağla bağlı siyasətinə yenidən baxılmasına səbəb oldu. Qarabağ xanlığı üzərinə qoşun yeridilməsi üçün ciddi hazırlıqlar

aparan Rusiya generalları və əyanları İbrahim xanın bu dövlətə qarşı münasibətinin dəyişməsi üçün yeni fəallıq nümayiş etdirdilər.

General P.Potyomkin Kartli-Kaxetiya çarı vasitəsilə İbrahim xana Rusiya himayədarlığının əldə etmək üçün yenidən müraciət etməsini tövsiyə etdi. Reallaşmaqda olan təhlükənin aradan qaldırılması üçün İbrahim xan bir daha belə bir addım atdı və 1784-cü ilin fevralında İbrahim xanın II Yekaterinanın adına yazdığı müraciət məktubunu xanın elçisi Mirzə Vəli əvvəlcə Tiflisə, oradan da rus nümayəndələri ilə birlikdə Mozdoka – general P.Potyomkinə apardı. İbrahim xan Rusiyanın himayədarlığını elə bir şərtlə qəbul etməyə hazır olduğunu bildirirdi ki, xanlıq işlərinə qarışılmasın, xanlığın müstəqilliyi qorunub saxlansın. Məktubda soruşulurdu: " Əgər xan Rusiya təbəəliyini qəbul edərsə, onun daxili işlərinə və mülklərinin idarə edilməsinə heç kimin qarışmayacağına, düşmənlərə qarşı mübarizədə ona yardım göstəriləcəyinə təminat veriləcəkmi?" (136).

Elə bu sətirlərdən də görmək mümkündür ki, İbrahim xan Rusiyanın himayəçiliyinə kifayət qədər ehtiyatla yanaşırdı. Qeyd etmək lazımdır ki, general P.Potyomkin də vədlərinə baxmayaraq İbrahim xanın yeni müraciətinə elə də xüsusi bir maraqla yanaşmadı. İbrahim xanın məktubunu aparmış Mirzə Vəli qarşılaşdığı soyuq münasibəti Qarabağın xristian məliklərinin xana qarşı apardığı təbliğatın nəticəsi kimi qiymətləndirilirdi. Bir müddətdən sonra İbrahim xan yenidən öz nümayəndəsini Tiflisə göndərdi və II İrakli vasitəsilə belə bir sualı aydınlaşdırmağa çalışdı ki, əgər Rusiyanın təbəəliyini qəbul edərsə, onun ərazilərinin parçalanmayacağına və başqalarına verilməyəcəyinə zəmanət veriləbilərmi? II İrakli isə bu sualı Tiflisdə olan Rusiya nümayəndəsi S.Burnaşevə ünvanladı. İbrahim xan bu sualın qarşısında da aydın cavab ala bilmədi. Onun nəzərinə çatdırıldı ki, imperatriçanın himayəsini arzulayan xan onun səxavətinə sığınmalıdır, daha onun qarşısında belə tələblər qoyulmamalıdır (137).

Rusiyanın qeyri-müəyyən münasibəti və eyni zamanda bu dövlətdən gözlənilən işğal təhlükəsindən sovuşmaq üçün XVIII əsrin 80-ci illərinin ortalarında İbrahim xanın Osmanlı dövləti ilə münasibətlərində fəallıq artmağa başladı. Belə bir fəallığı Osmanlı dövləti özü də nümayiş etdirməkdə davam edirdi. Osmanlı dövləti Rusiyanın bölgədəki vassalına çevrilən II İrakliyə qarşı koalisiya yaradılmasında maraqlı idi. Bu istiqamətdə aparılan işlər davam edirdi və Axalsıx paşası Süleyman paşa da bu koalisiyanın yaradılmasına təşkilatçılıq edirdi. Gürcüstan və Rusiyaya qarşı təşkil olunmasına çalışılan koalisiyaya Osmanlı dövləti İran ərazisində yaranan dövlətləri də cəlb etmək istəyir və bu zaman islam təəssübkeşlərinə istinad edirdi. Amma cənubda formalaşan hakimiyyət nümayəndələri bu koalisiyaya qoşulmaqdan imtina etdilər. Bununla belə, yaradılması

planlaşdırılan bu koalisiyanın II İrakli üzərinə hücumu baş tutmadı və ona görə tezliklə koalisiya da dağıldı. Rusiyanın Gürcüstana yeni qoşun bölmələri gətirəcəyi haqqındakı söz-söhbətlər koalisiya üzvlərini tərəddüd qarşısında qoydu (138) və ona görə də onların niyyətləri nəticəsiz qaldı.

Rusiya Gürcüstan ərazisinə yeni qoşun bölmələrini çıxarmaq istəyində olsa da danışılan dövrdə bunu etməkdən çəkindi. Çünki Gürcüstan ərazisinə yeni qoşun bölmələrinin gətirilməsi Osmanlı dövləti ilə müharibəni qaçılmaz edərdi. Buna isə Rusiya hələ hazır deyildi. Bununla belə, bu iki dövlət arasında münasibətlər mürəkkəb olaraq qalmaqda idi.

Rusiyanın Azərbaycan xanlıqlarına qarşı açıq təcavüzkar siyasəti İbrahim xanı Rusiyanın himayəsində olan və müttəfiq münasibətlərində olduğu Kartli-Kaxetiya çarı II İrakli ilə münasibətlərə də yenidən baxmağa sövq etdi. II İrakli Rusiya himayəsini qazanmasından sonra Azərbaycan xanlıqlarına hegemon münasibətdə olmasını heç də gizlətmirdi. Öz çarlığının sərhədlərini genişləndirmək istəyi Azərbaycan xanlarında gürcü çarına qarşı şübhə və qorxunu genişləndirməkdə idi. 1784-cü ildə Gəncədə hakimiyyətə kimin gətirilməsi üzərində II İrakli ilə İbrahimxəlil xan arasında baş verən ixtilaf isə onların münasibətlərinin mürəkkəbləşməsinə yol açdı. II İrakli Gəncə xanı məqamına Rusiyanın köməyi ilə öz adamını gətirmək istəsə də, Rusiya açıq şəkildə bu məsələyə müdaxilə edə bilmədi.

1784-cü ildə İbrahim xan bir daha öz elçisini Rusiya sarayına göndərdi. Xan elçisi Musa Soltan Peterburqda yüksək səviyyədə qarşılansa da İbrahim xanın himayə təklifinə yenə aydın cavab verilmədi. Çünki İbrahim xanın öz müstəqilliyini qoruyub saxlamaq üzərində təkid etməsi Rusiyanın işğalçılıq planları ilə səsləşmirdi və ona görə də İbrahim xan da gözləmə mövqeyində saxlanılırdı. Elə bu dövrdə İran ərazisində öz hakimiyyətini möhkəmləndirməyə çalışan Əlimərdan xan kömək üçün Rusiyaya müraciət etdi. Həmin köməyin əvəzində Azərbaycan xanlıqları, o cümlədən də Qarabağ xanlığının Rusiyanın nəzarəti altına verilməsinə kömək göstəriləcəyi bəyan edilirdi (139).

Əlimərdan xanın göstərəcəyi köməyin əvəzində Rusiya Azərbaycan xanlıqlarını ələ keçirə biləcəyi kimi, eyni zamanda Cənubi Qafqaz siyasətində Əlimərdan xanın şəxsində Osmanlı dövlətinə qarşı müttəfiq də əldə etmiş olardı. Rusiya bu şansdan bəhrələnməyə çalışsa da tezliklə Əlimərdan xanın vəfatı bütün ümidlərin üstündən xətt çəkdi.

1787-1791-ci illərdə baş verən Rusiya-Osmanlı müharibəsi ərəfəsində Rusiya Cənubi Qafqaza qoşun çıxarmaq niyyətini müəyyən qədər dondurmalı oldu. Rusiya sarayı beynəlxalq vəziyyətinin kəskinləşdiyi bir vaxtda Cənubi Qafqazda Osmanlı dövlətinə qarşı yeni bir cəbhənin açılmasını istəmirdi. Ona görə hətta Georgiyesk traktatına görə Gürcüstana

yeridilmiş iki tabor da Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsinə səbəb olmaması üçün geri çağırıldı. Bölgədəki nüfuzunun və mövqeyinin qorunması üçün isə Rusiya sarayı güclü Azərbaycan xanları olan İbrahim xanla Fətəli xanın müəyyən təsir altında saxlamasına diqqət yetirirdi. İbrahim xanın himayədarlıq müraciətinə aydın cavabın verilməsi gecikdirildiyi kimi, Fətəli xana qarşı da barışdırıcılıq siyasəti izlənilir və xüsusilə də Fətəli xan Kartli-Kaxetiya çarı ilə əlaqələr yaradılmasına cəhd göstərilirdi (140).

Görünür, bölgədə cərəyan edən hərbi-siyasi proseslərin məzmunu Fətəli xanda yenidən Rusiya himayəçiliyini qəbul etmək qənaətini yaratmışdı. Bunun nəticəsi idi ki, 1786 və 1787-ci illərdə Fətəli xan yenidən bu məqsədlə Rusiya sarayına müraciət etdi. Fətəli xan qarşısına qoyduğu planların icrası üçün Rusiyanın yardımından bəhrələnə biləcəyinə şübhə etmirdi. Rusiya ilə bağlı niyyətinin ciddi olduğunu nümayiş etdirmək üçün Fətəli xan 1787-ci ildə Rusiyaya vassallığı qəbul etmiş II İrakli ilə anlaşma yaratmağa da qərar verdi. II İrakli ilə ittifaq yaradandan sonra Fətəli xan Rusiya himayəsinə qəbul edilməsi üzərində israrını daha da gücləndirdi. Fətəli xan eyni zamanda knyaz Q.Potyomkindən xahiş edirdi ki, onun bütün Azərbaycan üzərində hakimliyinin tanınması üçün Rusiya çariçası qarşısında vəsatət qaldırsın (141).

1789-cu ildə Fətəli xanın dünyasını dəyişməsi ilə Rusiya himayəsinin qəbul edilməsi məsələsi də aradan qalxdı. Fətəli xanın birləşdirmə fəaliyyəti süquta uğradı. Quba xanlığına birləşdirilmiş xanlıqlar qopub ayrıldılar. Fətəli xanın Kartli-Kaxetiya çarlığı ilə ittifaqına da son qoyuldu. Azərbaycan xanlıqları ərazisində yeni bir tarixi şərait yarandı.

Amma bu illər ərzində Rusiya hakimiyyətini daha çox Osmanlı dövləti ilə aparılan müharibə məşğul edirdi. Yuxarıda qeyd edildiyi kimi, Osmanlı dövləti ilə Cənubi Qafqazda da müharibənin başlanmaması üçün Rusiya bu bölgədə hərbi-siyasi fəallığı qabartmağa çalışmırdı. 1787-ci ildən başlanan müharibə 1791-ci ilin sonlarında Yassıda sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Müharibə Rusiyanın hərbi üstünlüyü ilə başa çatsa da Cənubi Qafqazla bağlı arzu edilən şərtlərin sülh müqaviləsinə salınması mümkün olmadı. Qeyd etmək lazımdır ki, 1788-1790-cı illərdə Rusiya-İsveç müharibəsi aparılırdı. Bu müharibənin gedişi Avropada Rusiyaya qarşı koalisiyanın formalaşmasına yol açdı. Həmin koalisiyaya İngiltərə, Türkiyə və Hollandiya daxil idilər. Bu koalisiya tərəfindən təcrid olmaq təhlükəsi Rusiya dövlətini Osmanlı dövlətinin Cənubi Qafqaz maraqlarında güzəştə getməyə sövq etdi. Osmanlı Türkiyəsinin qərbi Gürcüstan üzərindəki hakimiyyəti yenə də saxlanılırdı. Amma Osmanlı tərəfi öz öhdəsinə götürürdü ki, Kartli-Kaxetiya çarlığının daxili işlərinə qarışmasın (142).

Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda mürəkkəb hərbi-siyasi vəziyyət qalmaqda davam edirdi. Xüsusilə, XVIII əsrin 90-cı illərində mərkəzləşdirilmiş Qacarlar dövlətinin bərqərar olması və bu dövlətin də Cənubi Qafqaz iddialarını gücləndirməsi vəziyyətin mürəkkəbliyini daha da qabarıqlaşdırırdı. Rusiya dövləti bölgə ilə bağlı siyasətində daha çox Osmanlı dövləti ilə hesablaşmalı olurdusa, XVIII əsrin 90-cı illərindən Qacarlar dövləti də Azərbaycan xanlıqlarına qarşı ciddi iddialarla bölgənin hərbi-siyasi proseslərinə qatıldı.

Qacarlar hakimiyyətinin möhkəmlənməsi və Cənubi Qafqaz uğrunda iddialara qatılması bölgədəki qüvvələr nisbətinə güclü təsir göstərdi və Azərbaycan xanlıqlarının işğal tarixində yeni bir mərhələ açdı. Azərbaycan xanlıqlarını işğal edəndən son ra bu xanlıqların qorunub saxlanması üçün Rusiya da Qacar dövlətinin iddiaları ilə ciddi şəkildə qarşılaşmalı oldu.

### *5.Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaz siyasəti*

Zənd hakimiyyətinin yerində Ağa Məhəmməd xan tərəfindən qurulan Qacarlar dövləti XVIII əsrin 90-cı illərində kifayət qədər möhkəmlənib bölgənin güclü dövlətlərindən birinə çevrildi. Nadir şahdan sonra Ağa Məhəmməd xan da Səfəvilər dövlətinin sərhədlərini bərpasını qarşısına məqsəd qoymuş və bu istiqamətdə ciddi addımlar atmışdı. Onun qarşısında dayanan əsas məsələlərdən biri də Araz çayının hər iki tayında olan Azərbaycan xanlıqlarını və gürcü çarlığını işğal etmək, Rusiyanın Cənubi Qafqaza gəlməsinə yol verməmək idi. Ona görə Ağa Məhəmməd xanın möhkəmlənməsi, Azərbaycan xanlıqlarına və Cənubi Qafqaza ciddi iddialar irəli sürməsi Azərbaycan xanları kimi, Rusiyanın da ciddi narahatçılığına səbəb olurdu. Ağa Məhəmməd xanın son bir neçə il ərzindəki fəaliyyəti onun kifayət qədər böyük potensiala malik olduğunu və malik olduğu imkanları ilə Cənubi Qafqazın işğal altına alınması üçün real addımlar atmağa qadir olduğunu nümayiş etdirirdi. Bu isə Rusiyanın narahatlığını daha da artırırdı. Çünki Ağa Məhəmməd xanın Cənubi Qafqaza olan iddiaları Rusiyanın bu bölgəni işğal etmək planları ilə üst-üstə düşmürdü. Rusiyanın XVIII əsrin 90-cı illərinin əvvəllərində Cənubi Qafqazda yeni bir cəbhə açmaq imkanının olmaması isə bölgə ilə bağlı daha ehtiyatlı siyasət yeritməyə sövq edirdi.

Rusiyanın Şimali Qafqazdakı qoşunlarının yeni komandanı general İ.Qudoviçə göndərilən təlimatda Rusiya sarayı Rusiyaya düşmən mövqedə olanlara qarşı ehtiyatlı siyasət həyata keçirmək və bu düşmənləri başqalarının əli ilə cəzalandırmaq təklif olunurdu. Ağa Məhəmməd xan da

Rusiyanın düşmənlərindən hesab olunurdu. Hətta o, müstəqilləşməyə çalışan Azərbaycan xanlarından da qorxulu bir təhlükə kimi dəyərləndirilirdi (143).

Bununla belə, XVIII əsrin 90-cı illərinin əvvəllərində Ağa Məhəmməd xan Rusiyaya qarşı açıq düşmənçilik mövqeyi nümayiş etdirmək istəmirdi. Yaranmış vəziyyət onu daha təmkinli olmağa sövq edirdi. Mövcud olan məlumatlara görə, hakimiyyət uğrunda fəal mübarizəyə başladığı illərdə Ağa Məhəmməd xan hətta II İrakli vasitəsilə Rusiya ilə münasibətlər yaratmaq istəyirdi. Knyaz Q.Potyomkin hələ 1787-ci ildə bildirirdi ki, Ağa Məhəmməd xan elə də inam aşılamır və məsləhət görürdü ki, Ağa Məhəmməd xanın qardaşı Murtuzqulu xana daha çox qayğı göstərilsin (144).

Ağa Məhəmməd xan Rusiyanın rəğbətini qazanmaq və onunla sülh anlaşmasına gəlmək üçün rus tacirlərinə qarşı da loyal münasibət nümayiş etdirir və onlara qarşı hər hansı bir maneə yaratmırdı. Rusiya qoşunlarının Qafqazdakı komandanı general İ.V.Qudoviç Rusiya çariçasına göndərdiyi raportda da bildirirdi ki, Ağa Məhəmməd xan Ənzəlidəki rus tacirlərinin fəaliyyətinə problemlər yaratmır (145).

Rusiyanın daha çox qayğı göstərməyə çalışdığı Murtuzqulu xan Rəşt və Gilan hakimi idi və o əslində daha geniş hakimiyyətə sahib olmaq istəyirdi. Ağa Məhəmməd xan onun bu iddialarının həyata keçməsinə imkan vermədi və onu Rəşt və Gilandan uzaqlaşdırdı. Murtuzqulu xan isə öz xanlığını geri qaytarmağa cəhd göstərdi və bunun üçün Rusiyadan da kömək istədi. Rusiya tərəfindən isə belə bir kömək göstərilmədi. Rus tarixçilərinin yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Rusiya sarayı Murtuzqulu xana kömək göstərmək xahişindən heç də imtina etmədi. Sadəcə olaraq məsafə uzaqlığı buna imkan vermədi. Əvəzində Şirvan (Şamaxı) və Lənkəran xanlarından kömək alan Murtuzqulu xan Rəşt və Gilanda öz hakimiyyətini bərpa edə bildi. Amma bu hakimiyyət də uzun sürmədi. Murtuzqulu xan qardaşının göndərdiyi böyük qoşun dəstəsinə əvvəlcə üstün gəlsə də, sonra Ağa Məhəmməd xanın qoşunları üstün gəldi. Qardaşların qoşun dəstələri arasındakı döyüşlər bir daha təkrarlansa da Murtuzqulu xan 1792-ci ildə Gilanı tərk edib Həştərxana qaçdı (146). O qalan ömrünü də Rusiyada başa çatdırmalı oldu. Baxmayaraq ki, qardaşı Murtuzqulu xan Rusiyaya qaçmışdı və Rusiyaya sığınmışdı, bununla belə Ağa Məhəmməd xan özü də Rusiyadan hələ nəzərlərini çəkməmişdi. O, 1792-ci ildə öz nümayəndələrini general Qudoviçin yanına göndərdi.

General Qudoviç Ağa Məhəmməd xanın nümayəndələrini qəbul etmədi və bununla da Ağa Məhəmməd xana qarşı Rusiya sarayının laqeydliyini və hörmətsizliyini nümayiş etdirdi (147).



***Ağa Məhəmməd xanın qardaşı Murtuzqulu xan***

Ağa Məhəmməd xan Qacar Rusiya ilə dil tapmağa çalışsa belə Azərbaycan xanlıqlarını və bütünlükdə Cənubi Qafqazı işğal etmək planlarından əl çəkməmişdi. Ona görə də, XVIII əsrin 90-cı illərinin əvvəllərindən bu istiqamətdəki siyasətini daha da qətiləşdirməyə çalışdı.

Xorasan ətrafının nəzarət altına alınması üçün onu qarşıda digər döyüşlər gözləsə də, Lütfəli xana qalib gəldikdən sonra Ağa Məhəmməd xan nəzərlərini Qafqaza yönəltməyə qərarlaşdırdı və Qafqaz siyasətini xeyli fəallaşdırdı. İran ərazisində yaradılacaq dövlətin şahının tac qoyma mərasimində Qafqaz hakimlərinə də xüsusi yer ayrılırdı. Ona görə tac qoyma mərasiminin keçirilməsindən əvvəl Ağa Məhəmməd xan Qafqazı da öz nəzarəti altına salmaq və Nadir şah Əfşarın malik olduğu dövlətin sərhədlərini bərpa etmək istəyirdi.

Ağa Məhəmməd xanın başı Kərim xan Zəndin davamçıları ilə müharibəyə qarışdığı vaxt o, Tehrandan Təbrizə Süleyman xanın rəhbərliyi altında 20 minlik qoşun dəstəsi göndərdi və ona belə bir tapşırıq verdi ki, Təbrizə gələn kimi ətrafda yerləşən Ərdəbil, Xoy, Naxçıvan, İrəvan, Qarabağ, Gəncə, Marağa, Urmiya və başqa xanlıqların xanlarını dəvət edib onlara Ağa Məhəmməd xanın hakimiyyətini tanımağı təklif etsin. Buna razı olan xanlar zəmanət kimi ailə üzvlərindən birini Tehrana, Ağa Məhəmməd xanın sarayına göndərməli idi (148).

Ağa Məhəmməd xan həmin xanlara çox sərt və hədələyici məktublar göndərdi. Onun gürcü çarı II İrakliyə göndərdiyi məktubda yazılmışdı: " Siz yüz illərlə İran şahına tabe idiniz və indi çox təəccüb etdim ki, siz ruslarla birləşmişsiniz. Onların İranda ticarətdən başqa ayrı işi yoxdur. Bizim sizinlə dinlərimiz eyni deyil. Amma siz çoxdan bizə bağlı olmuşsunuz. İranda gürcü, erməni, tatar və digər dinlərin davamçıları yaşayırlar. Siz onların qarşısında utanmalısınız. Bu gün hakimiyyət tamamilə bizim əlimizdədir və ona görə xəbərdar edirəm ki, əlaqələrinizi Rusiya ilə kəsin. Yoxsa bu yaxınlarda Gürcüstana qoşun çəkdiyim vaxt o qədər rus və gürcü qanı axıdacağam ki, Kür çayı kimi axıb gedəcək. İndiki durumdan və özünüzün əsil vəziyyətinizdən xəbər tutmağım üçün mənim tərəfdən bu fərman sadir oldu " (149).

Belə hədələyici məktubu alandan sonra da Şimali Azərbaycan xanlarından Cavad xandan başqa kimsə Ağa Məhəmməd xanın yanına gəlmədi. Gəncə xanı Cavad xan isə Ağa Məhəmməd xanın yanına gəlməklə öz çətinliklərinin həllinə nail olmaq istəyirdi. Yuxarıda yazılanlardan məlum idi ki, XVIII əsrin 90-cı illərində II İrakli Gəncə xanlığı üzərində öz təsirlərini saxlayırdı. Cavad xan isə bu təsirlərdən qurtulmaq istəyirdi. Hətta gürcü çarı Rəhim xanı yenidən Gəncə xanı etmək planlarından da əl

çəkməmişdi. Cavad xan mövcud təhlükənin qarşısının alınması üçün Ağa Məhəmməd xanın Gürcüstana hücum etməsini istəyirdi və bu hücum zamanı ona öz köməyini vəd edirdi (150).

Cavad xanın Ağa Məhəmməd xanla görüşməsi II İraklinin narahatçılığına səbəb oldu və o ehtimal olunan təhlükədən sığortalanmaq üçün yenidən Rusiya sarayına müraciət etdi. Rusiya sarayı Ağa Məhəmməd xan təhlükəsinin kifayət qədər ciddi olduğunu qəbul etdi və general Qudoviçə tapşırıq verildi ki, təhlükənin sovuşdurulması üçün Ağa Məhəmməd xanla təmaslar qursun. General Qudoviç Qacar xanına çatdırmalı idi ki, Rusiya hökuməti öz himayəsi altına aldığı vilayətlərin taleyinə biganə qalmayacaqdır (151).

Qeyd etmək lazımdır ki, Rusiya yalnız himayəsi altına aldığı Gürcüstanın deyil, bütünlükdə Cənubi Qafqazın, o cümlədən də Azərbaycan xanlıqlarının Ağa Məhəmməd xan tərəfindən işğal edilməsinə razı deyildi. Bu işğal Rusiyanın Azərbaycan xanlıqları ilə bağlı işğalçılıq planlarını alt-üst edə bilərdi. Rusiyanın Cənubi Qafqaza can atması isə öz növbəsində Osmanlı Türkiyəsini, habelə İngiltərə və Fransa kimi dövlətləri də razı salmırdı. Çünki bu Avropa dövlətləri Cənubi Qafqazın işğalı ilə Rusiya dövlətinin daha da güclənməsini istəmirdilər. Buna görə də həmin dövlətlər Ağa Məhəmməd xana müxtəlif yardımlar göstərməklə onu Rusiyaya qarşı möhkəmləndirmək istəyirdilər. Mövcud olan tarixi məlumatlara görə, 1793-cü ildə İngiltərənin bölgədəki böyük şirkəti olan Ost-İndiya şirkəti vasitəsilə Ağa Məhəmməd xan hakimiyyətinə 60 dəvə və 40 qatırdan ibarət olan karvanla silah göndərdi (152).

Fransa isə daha çox Osmanlı dövlət vasitəsilə Ağa Məhəmməd xana müəyyən yardımlar göstərməyə çalışırdı. Fransa Osmanlı Türkiyəsinin özünü də Rusiya ilə müharibəyə təhrik edirdi. Ağa Məhəmməd xanın güclənməyə başlaması ilə onun imkanlarının da Rusiyaya qarşı səfərbər edilməsi xətti götürüldü. XVIII əsrin sonlarında hətta Fransa tərəfindən Osmanlı Türkiyəsi ilə Qacar hökuməti arasında Rusiyaya qarşı ittifaq qurulması istiqamətində iş aparılırdı. O da vəd olunurdu ki, Rusiyaya qarşı müharibədə Fransa, İsveçrə və Danimarka da lazımi yardım göstərəcəkdir. Bu məsələlərlə bağlı XVIII əsrin 90-cı illərində artıq Fransa nümayəndələri müxtəlif adlar altında Qacarlar dövləti ərazisinə göndərilmişdilər (153).

1787-1791-ci il müharibəsində Rusiyaya uduzmaqla Osmanlı Türkiyəsi revanş planlarını gündəlikdə saxlamaqda idi. Baxmayaraq ki, Cənubi Qafqazla bağlı Osmanlı Türkiyəsinin maraqları ilə Qacarlar hakimiyyətinin maraqları toqquşurdu, bununla belə Osmanlı dövləti Rusiyaya qarşı hazırlanan planlara diqqətlə yanaşırdı. Rusiya ilə müharibə başa çatandan sonra Ağa Məhəmməd xan öz elçilərini Osmanlı sarayına

göndərdi. Ağa Məhəmməd xan bir tərəfdən sübut etmək istəyirdi ki, Cənubi Qafqaz uzun illərdən bəri İran ərazisində təşkil olunmuş dövlətlərin şahlarına tabe olmuşdur və buna görə də onun Cənubi Qafqaza qoşun çıxarmaq üçün Osmanlı sarayına nəzərən daha çox haqqı vardır. Digər tərəfdən də Ağa Məhəmməd xan Cənubi Qafqaz uğrunda mübarizədə Rusiyaya qarşı Osmanlı dövlətindən yardım almaq istəyirdi. Qeyd etmək lazımdır ki, Ağa Məhəmməd xan bu niyyətlərinə müəyyən dərəcədə nail ola bildi. Əvvəla, Ağa Məhəmməd xanın fəallaşması ilə Osmanlı dövlətinin Cənubi Qafqazla bağlı siyasətində loyallığı artmağa başladı. İkincisi isə Osmanlı dövləti Ağa Məhəmməd xana Rusiya ilə mübarizədə yardım göstərdi. Yassı sülh müqaviləsinə əsasən Osmanlı dövləti Rusiyaya qarşı Ağa Məhəmməd xanın yardımına qoşun dəstəsi göndərə bilməsə də, silah və sursatla yardım etdi. Bundan başqa, Osmanlı sarayı kabardinlərə və dağıstanlılara da məsləhət görmüşdü ki, Rusiyaya qarşı mübarizədə Ağa Məhəmməd xana yardım etsinlər (154).

Bununla belə, Ağa Məhəmməd xanın Rusiya ilə dostluq əlaqələrini saxlamaq qənaəti XVIII əsrin 90-cı illərində aktual olaraq qalırdı. Amma Cənubi Qafqazın uzun illərdən bəri İran ərazisindəki dövlətlərin tərkibində olmasını heç şübhəsiz ki, Ağa Məhəmməd xan Rusiya ilə münasibətlərdə əsas tutmağa çalışırdı. Rusiya ilə dostluq münasibətləri deyəndə Ağa Məhəmməd xan cənub sərhədi Şimali Qafqazla məhdudlaşan Rusiyanı, Cənubi Qafqaza iddia irəli sürməyəcək Rusiyanı nəzərdə tuturdu. Başqa sözlə, Ağa Məhəmməd xan qoşun dəstəsi ilə Təbrizdən geri qayıtmalı olsa da, onun yarada biləcəyi təhlükənin reallığı bütün Şimali Azərbaycan xanları tərəfindən qəbul edilirdi və ona görə də bu təhlükədən sovuşmaq və xanlığın müstəqilliyini qoruyub saxlamaq üçün yollar axtarılırdı. Bir sıra xanlar Ağa Məhəmməd xanın dağıdıcı yürüşlərindən qorunmağın yolunu Rusiyadan kömək almaqda, Rusiyanın himayəsini qəbul etməkdə görürdülər. Əslində Azərbaycan xanlıqlarının başqa bir seçimi də yox idi. Osmanlı Türkiyəsinin Cənubi Qafqazdan çəkilmək üzrə olduğu bir vaxtda müraciət olunacaq yeganə dövlət Rusiya idi. Ağa Məhəmməd şah Qacarın dağıdıcı yürüşləri qarşısında birləşməyi və ya ittifaqda müdafiə olunmağı bacarmayan Azərbaycan xanları Cənubi Qafqaza qarşı münasibətdə işğalçı siyasət izləyən Rusiyaya sığınmağı çıxış yolu kimi qəbul edirdilər. Bunun üçündür ki, 1792-ci ildə, Ağa Məhəmməd xanın gücləndiyi bir vaxtda Quba xanı Şeyxəli xan, Bakı xanı Hüseynqulu xan, Lənkəran xanı Mir Mustafa xan Georgiyevskdə qərargah quran general Qudoviçin yayına nümayəndələrini göndərdilər, Rusiya himayəçiliyi üçün yazdıqları məktubun Rusiya sarayına göndərilməsini xahiş etdilər (155).

Qacarlar hakimiyyətini qəbul etməsi haqqında Ağa Məhəmməd xanın məktubunu alanda İrəvan xanı Məhəmməd xan xəbər göndərdi ki, o, gürcü çarının himayəsi altındadır və onun icazəsi olmadan Ağa Məhəmməd xanın tələblərini qəbul edə bilməz. İrəvan xanı Məhəmməd xan yaxşı anlayırdı ki, ona göndərilmiş dəvət Ağa Məhəmməd xanın xəbərdarlığıdır və günü-gündən möhkəmlənməkdə olan Ağa Məhəmməd xan nə vaxtsa qoşunları ilə Qafqaza da yürüş edəcəkdir. Məhəmməd xan əmin idi ki, Ağa Məhəmməd xanın şərtlərini qəbul etmək onun üçün ağır nəticələrə gətirib çıxara bilər. Ancaq gürcü çarlığı ilə olan qarşılıqlı münasibətləri bəhanə edərək Ağa Məhəmməd xanın təklifinə qarşı çıxması da onun müstəqilliyinin təmin edilməsi üçün zəmanət ola bilməzdi. Çünki nəinki Ağa Məhəmməd xanın, heç Azərbaycan xanlarının II İrakliyə olan münasibəti birmənalı deyildi. Xüsusilə, gürcü çarının təcavüzkar planları yuxarıda deyildiyi kimi, Gəncə xanı Cavad xanın II İrakliyə münasibətini kəskinləşdirmişdi. Öz qüvvələri ilə Ağa Məhəmməd xanın Qafqaza hücumunun qarşısının alınmasının qeyri-mümkünlüyünü görən Məhəmməd xan hərbi yardım üçün Osmanlı sarayına müraciət etdi. Belə bir məktubla Qarabağın hakimi İbrahim xan da Osmanlı dövlətinə müraciət etdi (156). Ancaq bu müraciət bir nəticə vermədi. Osmanlı rəhbərliyi İran dövləti ilə müqavilə bağladığını iddia edərək ona qarşı hərbi ittifaqa girməkdən imtina etdi.

Belə olanda, Azərbaycan xanları reallaşmaqda olan təhlükə qarşısında öz qüvvələrini birləşdirməyi qərara aldılar. İrəvan, Qarabağ, Talış xanlığı, habelə Kartli-Kaxetiya çarlığı hərbi ittifaq yaratdılar və onlar Ağa Məhəmməd xana qarşı birgə müdafiə olunmağı razılaşdırdılar (157).

İttifaqa girən xanlar Ağa Məhəmməd xanın qoşunlarına qarşı birgə çıxış etmək razılığına gəlsələr də, gizli deyildi ki, onların qüvvələri cənubdan gələ biləcək qoşunların qarşısını almağa kifayət deyildi. Ölkənin mərkəzləşdirilməsinin genişləndirilməsi ilə Ağa Məhəmməd xanın hərbi potensialı da artırdı. Digər tərəfdən Ağa Məhəmməd xanın qoşunlarında xarici təlimatçıların varlığı haqqında da məlumatlar mövcuddur. Bu amil də Ağa Məhəmməd xanın qoşunlarının möhkəmləndirilməsi imkanlarından xəbər verirdi.

Qarabağ xanı İbrahimxəlil xana gəlincə isə Ağa Məhəmməd xan əvvəlcə onu danışıqlar yolu ilə nəzarət altına almaq istədi. Bu məqsədlə o, İbrahim xana xələt, qılınc, qızıl təchizatlı at və başqa hədiyyələr göndərərək onu itaətə dəvət etdi. İbrahim xan isə yeni Qacar hakimi ilə xoş münasibətlər yaratmağı məqsədəuyğun saydı. Bu məqsədlə əmisi Əbdülsəmid bəyi və təcrübəli bir şəxs olan Mirzə Vəli Baharlını Ağa Məhəmməd xanın yanına göndərdi. Onlar əslində Ağa Məhəmməd xanın girovuna çevrildilər. Bir müddətdən sonra İbrahim xan anladı ki, Ağa Məhəmməd xan ona öz təbəəsi kimi baxır. Ona görə də onun əmr və hökmlərinə artıq məhəl qoymadı və

Ağa Məhəmməd xanın tabeçiliyi altında olmaq istəmədiyini nümayiş etdirdi. Belə vəziyyət böyük iddialarla yaşayan Ağa Məhəmməd xanı qane etmədi. Ona görə də o, İbrahim xanı və digər Cənubi Qafqaz hakimlərini cəzalandırmaq qərarına gəldi və Cənubi Qafqaz üzərinə hücum hazırlığına başladı. Bundan əvvəl isə o, İbrahim xanın göndərdiyi elçiləri işgəncə ilə qətlə yetirdi (158).

Ağa Məhəmməd xan öz qoşunları ilə Təbriz yaxınlığından geri çəkiləndən sonra da İbrahim xan yaxşı anlayırdı ki, Ağa Məhəmməd xanla ciddi qarşıdurmaya məruz qalacaqdır. Ona görə o, bir sıra qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə əl atdı. İbrahim xan əvvəlcə yuxarıda haqqında danışılan ittifaqa qoşuldu. Güclü düşməndən müdafiə olunmaq zərurəti gərgin münasibətlərdə olan İbrahim xanla gürcü hakimi İrakli arasında anlaşmanın əldə edilməsinə gətirdi(159).

İbrahim xan kənar yardım mənbələrini aramaqla bərabər, daxili imkanları da səfərbərliyə aldı, müdafiə mövqelərini möhkəmlətdi, silahlı dəstələrini qalada və dağlarda yerləşdirdi, Qarabağ ərazisində yeni səfərbərlik keçirdi, əlavə qoşun dəstələri topladı, Şuşa qalasının mühafizəsinə lazım olan bütün vəsaiti tədarük etdi, kiçik və böyük topları döyüş vəziyyətinə gətirdi. Qala daxilində ərzaq ehtiyatları artırıldı, Qacar qoşunları üzərinə qəfil hücumlar etmək üçün mobil dəstələr təşkil edildi. Mövcud olan məlumatlara görə, Qarabağda və Şuşada aparılan hazırlıq işlərinə başda İbrahim xan olmaqla Qarabağ xanlığının divanı rəhbərlik edirdi. Divan üzvləri əsasən İbrahim xanın qohumlarından ibarət idi (160).

Bildirildiyinə görə, hələ 1794-cü ildə Ağa Məhəmməd xan İbrahim xana daha bir məktub göndərib ondan itaətə gəlməyi və oğlunu girov kimi onun yanına göndərməyi tələb etdi. İbrahim xan ona rədd cavabı verəndə Ağa Məhəmməd xan Qarabağ üzərinə 8 minlik qoşun dəstəsi göndərdi. Lakin gürcü çarı tərəfindən göndərilən silahlı dəstənin köməyi ilə Qacar qoşun dəstəsi Əsgəranda ağır zərbə aldı və geri çəkildi (161).

Mənbələrin məlumatına görə, Qacar təhlükəsinin real xarakter aldığını görəndə İbrahim xan Rusiyaya öz elçilərini göndərdi və həmin elçilər vasitəsilə Qarabağın da Gürcüstan kimi Rusiya himayəsinə götürülməsini xahiş etdi. Rusiya sarayı tərəfindən bu xahişə müsbət cavab verildi (162).

Ağa Məhəmməd xan təhlükəsinin yaxınlaşması və himayəçilik üçün Azərbaycan xanlarının müraciəti haqqında general Qudoviçin göndərdiyi məlumatlar Rusiyanın Dövlət Şurasında müzakirə edildi və Rusiyanın işğalçı maraqlarının qorunmasına xidmət edən müvafiq qərar qəbul edildi. Qərarda deyilirdi ki, Rusiya imperatorunun himayəsini qazanan və Rusiyaya meylli olan hakimlərə qayğı göstərilsin ki, onlar səmərəli şəkildə Ağa Məhəmməd xanın fəaliyyəti qarşısında davam gətirə bilsinlər və bir də onun

vədlərinə inanmasınlar. Bununla bağlı, Dövlət Şurası Lənkəran xanı Mir Mustafa xanın xahişinə müsbət cavab verilməsini və onun Rusiya himayəsinə qəbul edilməsini mümkün sayırdı. Ona görə general Qudoviç Mir Mustafa xanı və digər xanları Ağa Məhəmməd xana qarşı birgə mübarizəyə həvəsləndirməli, onlara faydalı məsləhətlərini çatdırmalı və onlarda Rusiya imperatorunun himayəsinə qəbul olunacaqları barədə ümidlər yaratmalı idi. Zərurət yarandığı halda isə general Qudoviç həm gürcü çarına, həm də Azərbaycan xanlarına artilleriya və digər hərbi təchizat verməli, canlı qüvvə ilə kömək göstərməli idi (163).

Ağa Məhəmməd xanın 1795-ci ildə çoxsaylı qoşunlarla Azərbaycan xanlıqları üzərinə hücumu ərəfəsində Rusiya sarayının Cənubi Qafqazla bağlı siyasəti də sərtləşməyə başladı. Rusiya yeni şəraitdə daha açıq şəkildə Xəzəryanı əraziləri, gürcü çarlığını Ağa Məhəmməd xanın hücumundan qorumaq üçün Rusiyanın himayəsini almaq istəyən xanlıqları özünün maraq dairəsi elan etdi və bu maraq dairəsinə Ağa Məhəmməd xanın hərbi müdaxiləsi ilə barışmayacağını bəyan etdi. Ağa Məhəmməd xan 1794-cü ildə özünü şah elan etsə də Rusiya sarayı onu şah kimi tanımırdı. Ancaq Ağa Məhəmməd şaha çatdırıldı ki, əgər o, Xəzəryanı ərazilərə və Rusiyanın himayəsində olan hakimlərin ərazilərinə hücum etməkdən əl çəkərsə, onda onun şahlığının tanınması məsələsinə də baxa bilər. Maraq dairəsindəki ərazilərə isə Rusiya sarayı gürcü çarlığını, Quba, Bakı, Talış, Qarabağ xanlıqlarını aid edirdi (164).

Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, Ağa Məhəmməd şahın yaxınlaşmaqda olan dağıdıcı hücumları ərəfəsində Azərbaycan xanları arasında güclü tərəddüd mövcud idi. Onların bir çoxu Ağa Məhəmməd şahın hücumu qarşısında gücsüz olduqları kimi, Rusiyanın xanlıqlara qarşı münasibətində də səmimi olacağına inanmırdılar. Başlıca olaraq Rusiya tərəfindən xanlıq hakimiyyətinin saxlanılıb-saxlanılmaması aydın deyildi (165). Siyasi mövqelərin müəyyənləşdirilməsi istiqamətində düşünmək üçün vaxt da yox idi. Ağa Məhəmməd şahın hücum təhlükəsi yaxınlaşdığından 1794-95-ci illərdə Azərbaycan xanlıqlarının çoxu bir-birinin ardınca öz siyasi mövqelərini müəyyənləşdirmək məcburiyyətində qaldılar ki, Rusiya da bu vəziyyətdən öz mənafeləri üçün istifadə etdi.

1795-ci ildə Bakı və Quba xanlığının Rusiya himayəsinə alınması elan olundu, Talış xanlığı isə fəal diplomatik danışıqlara başladı. Quba xanı Şeyxəli xan 1793-cü ildə yenidən Rusiyanın himayəsini əldə etmək üçün müraciət etsə də, onun istər Ağa Məhəmməd şahla, istərsə də Osmanlı sarayı ilə əlaqələri qalmaqda idi. Şeyxəli xan Rusiya, Osmanlı və Qacarlar arasında manevr etməklə xanlığın müstəqilliyini qorumaq üçün daha münasib seçim axtarırdı. Görünür, Şeyxəli xan Osmanlı sarayından və Ağa Məhəmməd

şahdan ümidində olduğu cavabı almadığı üçün Rusiya himayəsini qəbul etmək məcburiyyətində qaldı. Rusiya sarayından ümidverici cavab isə 1795-ci ilin sonlarında, Ağa Məhəmməd şahın bölgəyə yürüşündən sonra gəldi. Şeyxəli xanın səfiri Mirzə Həsənə təqdim olunan məktubda bildirilirdi ki, Rusiya sarayı Quba xanlığını diqqətdən kənarda saxlamayacaqdır (166).

Bununla belə, Şeyxəli xanda Rusiya himayəsi ilə bağlı tərəddüd uzun müddət davam etdi. Şeyxəli xana görə, Quba xanlığı ilə həmsərhəd olan Rusiya təhlükəsi Ağa Məhəmməd şahın təhlükəsindən daha yaxın və daha real idi. Belə bir tərəddüdü Bakı xanının Ağa Məhəmməd şaha qarşı münasibətində də görmək mümkündür. Baxmayaraq ki, Bakı xanı Hüseynqulu xan hələ 1792-ci ildə Rusiya himayəsinin qəbul olunmasına cəhd göstərmişdi. 1795-ci ilin martında Hüseynqulu xanın səfiri Manaf bəy Georgiyevskə gedib general Qudoviçlə danışıqlar apardı. 1795-ci ilin sentyabrında isə Rusiya sarayı Bakı xanlığını himayə altına almağa razılıq verdi (167).

Lənkəran xanının 1795-ci ildə Rusiyaya etdiyi müraciətlərə isə rəsmi cavab verilmədi. Yuxarıda deyildiyi kimi, Lənkəran xanının Rusiyaya müraciətləri əvvəldən başlasa da, 1795-ci ildə tərəflər arasında diplomatik fəallıq xeyli artdı. Lənkəran xanlığının Qacarlar dövləti ilə həmsərhəd olması Mir Mustafa xanın nigarançılığını daha da artırırdı. Lənkəran sahillərinə yaxın olan Sara adasına rus qoşun dəstəsinin çıxarılması Mir Mustafa xanda rusların köməyini almaq ümidini xeyli artırdı. Sara adasına çıxarılmış olan rus qoşun dəstəsi Gilan və Mazandarandakı rus ticarət maraqlarının qorunmasına, Xəzəryanı ərazilərin Ağa Məhəmməd şah təhlükəsindən qorunmasına xidmət edirdi. Mir Mustafa xanın müraciəti qəbul olunsaydı bu adadakı qüvvənin köməyinə istədiyi vaxt arxalana bilərdi. Bununla belə, 1795-ci ildə Rusiya sarayına göndərilmiş olan iki nümayəndə heyəti Lənkəran xanlığının himayəyə götürülməsi barəsində rəsmi cavab ala bilmədi (168).

1795-ci ilin ortalarında Ağa Məhəmməd şah özü də bir daha elçilərini Rusiyaya göndərdi. Elçilər Həştərxana gələrək Gizlərə, general Qudoviçin yanına yola salınmalarını xahiş etdilər. Onlar özləri ilə Gilan hakiminin və Ağa Məhəmməd şahın vəziri Hacı İbrahimin məktubunu gətirmişdilər. General Qudoviçə təqdim olunan həmin məktublarda Ağa Məhəmməd şahın Rusiyaya qarşı xoş münasibətdə olması, dostluq münasibətlərinin davam etdirilməsinə marağı, Qacarlar dövləti ərazisində rus tacirlərinə hörmətlə yanaşılması açıqlanırdı. Eyni zamanda ümid ifadə olunurdu ki, Rusiya dövləti də hər zaman Qacarlar hakimiyyətinə qarşı oxşar siyasəti davam etdirəcəkdir. Məktubda həm də Ağa Məhəmməd şahın Həştərxanda sığınacaq tapmış qardaşı Murtuzqulu xanın əsirliyində olan Əhməd xanın

azad edilməsi və geri qaytarılması xahiş olunurdu. Şah elçiləri sonda xahiş edirdilər ki, onların Rusiya sarayına göndərilməsinə şərait yaradılsın və onlar da şahdan aldıqları tapşırıqları Rusiya sarayına çatdıra bilsinlər (169).

General Qudoviç şah elçilərini kifayət qədər kobud şəkildə qarşıladı. O bildirdi ki, Ağa Məhəmməd xanı şah kimi tanımır və əlavə etdi ki, əgər o, şah kimi tanınmırsa, onun vəziri də tanına bilməz. Ona görə rus generalı onun görüşünə gəlmiş elçiləri də heç bir səlahiyyəti olmayan adi adamlar kimi qəbul etdi. Elçilərə təklif olundu ki, səlahiyyəti olmadığı üçün onlar Rusiya sarayına göndərilə bilməzlər, istədikləri halda adi qonaq kimi Rusiya ərazisində qala bilərlər. Eyni zamanda onların nəzərinə çatdırıldı ki, Əhməd xanın azad olunması və geri göndərilməsi yalnız Rusiya imperatriçasının göstərişi əsasında ola bilər (170).

Başqa sözlə, general Qudoviç Əhməd xanın azad olunmasından imtina etdi. Bu isə Ağa Məhəmməd şahın qəzəbi ilə qarşılaşdı. Bundan sonra Ağa Məhəmməd şah Rusiya sarayından kömək istəyən Azərbaycan xanlarının yanına bir daha öz elçilərini göndərdi, onlardan Qacarlar hakimiyyətinə tabe olmalarını tələb etdi. Onlara çatdırıldı ki, əks təqdirdə xanlıqların ərazisi viran qoyulacaq, xanlar qovulacaq, xanlıq əhalisi isə qılıncdan keçiriləcək. Gürcü çarı İrakliyə göndərilən məktubda gürcü çarlarının etibarsızlığına toxunulurdu və qeyd olunurdu ki, Səfəvilər dövlətinin son illərində gürcülərin günahı üzündən əfqan qiyamı baş verdi. Ağa Məhəmməd şah daha sonra gürcü çarının nəzərinə çatdırırdı ki, əgər Rusiya himayəsində qalmaqda davam etsə, Rusiya ilə əlaqələrini kəsməsə və Qacarlar hakimiyyətinə tabe olmasa Gürcüstan üzərinə qoşun çəkəcək və gürcü çarından ciddi qisas alacaqdır. II İrakli ona ünvanlanan təklif və hədələri qəbul etmədi. O bildirdi ki, Qacarlar dövlətini tanımır və Rusiya çariçasını öz padşahı sayır (171).

Oxşar məzmunlu məktublar Azərbaycan xanlarına da göndərildi, xanlardan tabe olmaqla bərabər, ailə üzvlərindən kiminsə girov göndərilməsi tələb olundu. İbrahim xan qacar şahının tələbini qəbul etmədi. Baxmayaraq ki, Ağa Məhəmməd şahın yürüşü ərəfəsində Qarabağ xanlığında ağır iqtisadi şərait yaranmışdı. Son bir neçə il ərzində baş verən quraqlıq nəticəsində xanlıq ərazisində qıtlıq özünü göstərirdi. Əhalinin durumu xeyli mürəkkəbləşmişdi. Bununla belə, İbrahim xan Qacar qoşunlarına qarşı müqavimət göstərməyi qərara aldı. Müqavimət gücünün artırılması üçün isə Qarabağ xanı II İrakliyə müraciət etdi. II İrakli də oğlu Aleksandrın rəhbərliyi altında Qarabağ xanının köməyiə qoşun dəstəsi göndərdi (172).

İrəvan xanı Məhəmməd xan da birmənalı şəkildə Ağa Məhəmməd şahın tələbindən boyun qaçırdı. Rus tarixçilərinin yazdığına görə, İrəvan xanı cavab verdi ki, bu xanlıq əvvəllər İran hakimlərinə tabe olubdur.

Sonradan gürcü çarı İran hakimlərinə güclü zərbə vurdu və İrəvan xanlığını özünə tabe etdi. İrəvan xanı təklif etdi ki, Ağa Məhəmməd şah gürcü çarı ilə müharibə etsin, gürcü qoşununa qalib gələrsə İrəvan xanlığı da onun tabeliyinə keçəcək (173).

Lənkəran xanı Mir Mustafa xan da Ağa Məhəmməd şahın tələblərinə qarşı barışmaz mövqe tutdu. Şəki və Şamaxı xanları isə tərəddüdlü mövqe nümayiş etdirdilər. Onlar Ağa Məhəmməd şahın elçilərini hörmətlə qarşıladılar və Ağa Məhəmməd şaha sədaqətli olacaqlarından söz açdılar. Amma rəsmi cavab verilməsini ləngitdilər. Quba xanı Şeyxəli xan isə daha açıq şəkildə Ağa Məhəmməd şahın təklifinə münasibət bildirdi. Şahın elçilərini hörmətlə və hədiyyələrlə qarşılayan Şeyxəli xan Ağa Məhəmməd şahın hakimiyyətini qəbul etməyə hazır olduğunu bildirdi. Rus tarixçiləri bunu, Ağa Məhəmməd şah tərəfindən Şeyxəli xanın şirnikləndirilməsi və onun bütün Şirvanın nayibi təyin olunacağını bildirməsi ilə əlaqələndirirlər (174).

Mövcud olan məlumatlara görə, əsas yürüşünü həyata keçirməzdən əvvəl Ağa Məhəmməd şah Qarabağ üzərinə daha az saylı dəstə göndərdi. İbrahim xan və onun köməyinə göndərilmiş gürcü şahzadəsi Aleksandrın birləşmiş qüvvələri Süleyman xanın rəhbərliyi altında olan şah qoşunlarına üstün gəldilər və şah qoşunları geri çəkilmək məcburiyyətində qaldı. Elə bu vaxtlar şah qüvvələri Xəzəryanı ərazilərdə fəallaşmağa başladılar, Lənkəran xanlığı üzərinə hücuma keçdilər. Sara adasında olan rus hərbçiləri şah qüvvələrinin fəallığının qarşısını almağa çalışsalar da xanlıq ərazisində dağıntılar baş verdi. Vəziyyətdən ciddi narahatçılıq keçirən bir sıra yerli bəylər Ağa Məhəmməd şahın hakimiyyətini qəbul etməyə hazır olduqlarını bildirdilər. Mir Mustafa xan isə Sara adasına qaçmalı oldu. Tarixi məlumatlara görə, Lənkəran ətrafında möhkəmlənə bilməsələr də şah qüvvələri Salyanı ələ keçirməyə müvəffəq oldular ki, sonradan bu məntəqə Ağa Məhəmməd şahın Azərbaycan xanlıqları üzərinə hücumuna hazırlıq bazalarından birinə çevrildi (175).

Çox güman ki, Qarabağ və Lənkəran xanlıqlarına kiçik qüvvələr göndərməklə Ağa Məhəmməd şah Azərbaycan xanlıqlarının hərbi potensialını və onların Qacar hakimlərinə münasibətini yoxlamaq istəyirdi. Amma məlum oldu ki, kiçik qüvvələrlə xanlıqları itaətə gətirmək çətindir. Ona görə də Ağa Məhəmməd şah Cənubi Qafqazla bağlı niyyətlərinin əsaslı şəkildə həyata keçirilməsi üçün qətiyyətli yürüşün həyata keçirilməsinə qərar verdi.

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1.Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX в. Москва, 1969, c.49
2. Azərbaycan tarixi. Bakı, 1994, s.532
3. Левиатов В.Н. Очерки истории Азербайджана в XVIII в. Баку, 1948, c.126
4. Azərbaycan tarixi. Bakı, 1994, s.535
5. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, s.14
6. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Bax: Qarabağnamələr. I kitab, Bakı, 1989, s.35-36
7. Mirzə Camal Cavanşir. Qarabağnamə... s.19
8. İsmayılov M. Şəki. Bakı, 1982, s.22
9. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010, s.32
10. Bayramova N. Şamaxı xanlığı. Bakı, 2009, s.68
11. Yenə orada, s.68
12. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı, 1996; Ebooks.preslib.az/pdfbooks/azbooks/fdal.pdf
13. Bayramova N. ... s.71
14. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, s.19
15. Azərbaycan tarixi. Bakı, 1994, s.537
16. Mustafazadə T. Azərbaycan xanlıqlarının ... s.161, 163, 167
17. Mustafazadə T. Qarabağ xanlığı ... s.137
18. Yenə orada, s.172
19. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения с Россией. Баку, 1965, c. 281
20. Бабаев Э. Из истории Гянджтнского ханства. Баку,    c.12
21. Авалов З. Присоединение Грузии к России. Петербург, 1901, c.89
22. Бабаев Э. ... c.14-15
23. Mustafazadə T. Azərbaycan xanlıqlarının ... s.168
24. İsmayılov M. ... s.22
25. Yenə orada
26. Бакиханов А. Гюлтстани Ирам. Баку, 1991,  c.157
27. Бабаев Э ... c.17
28. Бабаев Э. ... c.17; Azərbaycan tarixi. Bakı, 1994, c.526
29. Бабаев Э. ... c. 18
30. Агаян Ц.П. Роль России в исторических судьбах армянского народа. Москва, 1978, c.103
31. Авалов З. ... c.97
32. Агаян З. ... c.105
33. Авалов З. ... c.127
34.Дегоев В. Борьба за господства в Закавказье (вторая половина XVIII в.)

http://www.abkhaziya.org/books/degoev_biggame/borbukavkaz.html
35. Yenə orada
36. Yenə orada
37. Дубровин. Н. История воин и владычества русских на Кавказе. Т. II, Санкт-Петербург, 1886, с.1
38. Дегоев В. ...
39. Дубровин. Н. История воин и владычества ... Т. II, с.4,5,9
40. Yenə orada
41.Джабагиев В.Г. Поход графа Валериана Зубова на Кавказ. http://ghalgay.com/2010/04/03/%Do...
42. Потто. Кавказская война. Т.1, Занятие Тифлиса русским в 1783 года. http://www.vehi.net/istoriya/potto/kavkaz/23.html
43. Мачарадзе Г.В. Политическия отношения картли-кахетинского цартва с Азербайджанскими ханствами во второй половине XVIII в. http://www.dissercat.com/content/politioloskie....
44. Дубровин. Н. История воин и владычества ... Т. II, с.37
45. Yenə orada, s.52
46. Потто. Кавказская война. Т.1...
47. Дубровин. Н. История воин и владычества ... Т. II, с.77
48. Yenə orada, s. 78-79
49. Yenə orada, s.80
50. Mustafazadə T. Azərbaycan xanlıqlarının ... s.171
51. Дегоев В. ...
52. Дубровин. Н. История воин и владычества ... Т. II, с.211-213
53. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007, s.181
54. Дегоев.В. ...
55. Дубровин. Н. История воин и владычества ... Т. II, с.222
56. Дегоев В. ...
57. Агаая Ц.П. ... с.112-113
58. Дегоев В....
59. Mustafazadə T. Azərbaycan xanlıqlarının ... s.172
60. Агаян Ц.П. Роль Росии в исторических судьбах армянского народа. Москва, 1978, с.101
61. Ионнисян А. Иосиф Эмин. Ереван, 1989, с.111-113
62. Yenə orada, c.113
63. Yenə orada
64. Бархударян В.Б. Армянские колонии в России и их роль в армяно-русских отношениях, с.133. См: Из истории вековой дружбы. Ереван, 1963, с.124-135
65. Yenə orada, c.134
66. Галоян Г.А. Россия и народы Закавказье. Москва, 1976, с. 97
67. Из истории армянского народа. Ереван, 1844, с.234; История армянского народа. Ереван, 1980, с.171

68. Нерсисян М. Из истории русско-армянских отношений. Кн. II, Ереван, 1956, с.45
69. История армянского народа. Ереван, 1944, с.234
70. Григорян З.Т. Вековая борьба армянского народа за свою независимость и свободу. Москва, 1946, с.234
71. Имранлы К. Черная судьба черного сада. Мсква, 2006, с.19020
72. Бархударян В.Б. Армянские колонии в России и их роль в армяно-русских отношениях, с.127. См: Из истории вековой дружбы. Ереван, 1963, с.124-135
73.История армянского народа. Ереван, 1944, с.23
74. Нагорный Карабах в международной праве мировой политике. Т.II. Комментарии к документам. www.seribd.com/doc/26838063/Barsegov-Nagorny-Karabakh-p1
75. Ростунов И.И. Генералиссимус Суворов
76.Нерсисян М. Из истории ... с.47-48
77. Yenə orada, c.50-51
78. Yenə orada, c.52
79. Yenə orada, c.59
80. Раффи. Меликства Хамса. II fəsil
http://armenianhouse.org/raffi/novels-r5u/khamsa/meliks/_14.html
81. Дубровин. Н. История воин и владычества русских на Кавказе. Т. II, Санкт-Петербург, 1886, с.26; История армянского народа. Т.I, Ереван, 1956, с. 266
82. Дубровин Н. ... Т. II, с.27
83. Нагорный Карабах в международной праве мировой политике. Т.I, Москва, 2008, с.85
84. Дубровин. Н. ... т.II, с. 28
85. Галоян Г.А. Россия и народы Закавказье. Москва, 1976, с.99
86. Yenə orada, s.100
87. Дубровин Н. .. т. II, с.29
88. Мартиросян В.М. Георгиевский договор 1783 года и армяне, с.87; См: Из истории вековой дружбы. Ереван, 1963, с.87-94
89. Пайчадзе Г.Г. Историческое значение Георгиевского трактата, с. 79; См: Из истории вековой дружбы. Ереван, 1963, с.74-86
90. Дубровин Н. ... т.II, с.25
91. Yenə orada, s.31
92. Yenə orada, s.30
93. Yenə orada, s.31
94. Yenə orada, s.33
95. Раффи... гл. XX, XXI
96. Нагорный Карабах в международной праве мировой политике. Т.I, ... с.108
97. Раффи... гл. XXI, XXII
98. Раффи... гл. XXII
99. Раффи... гл. XXIV, XXV
100. Дубровин Н. Закавказье от 1803-1806. Петербург, 1866, с.8

101. Mustafayev T. Ümumi tarix. Bakı, 2009, s.914
102. Рагимов Р. Из истории Азербайджано-русских отношений во второй половине XVII, в начале XIX веков. Баку, 1997, с.50
103. Yenə orada, s.52
104. Авалов З. Присоединение Грузии к России. Петербург, 1901, с.94
105. Ковалевский ... с.26-27
106. Рагимов Р. ... с. 55
107. Кучук – Кайнарджинский договор. Историческая справка. Ria.ru/politics/20090721/178081840-print.html
108. Дегоев В. ...
109. Mustafazadə T. Quba xanlığı ... s.127
110. Абдуллаев Г. Азербайджан в XVIII веке и взаимоотношения с Россией. Баку, 1965, с. 524
111. Yenə orada, s.525
112. Левиатов В.Н. ... с.137
113. Валуев П.Н. Фатфли хан Кубинский. Баку, 1942, с.17
114. Бакиханов А. ... с.162
115. Левиатов В.Н. ... с.137; Валуев П.Н. ... с.17,19
116. Yenə orada, s.137
117. Mustafazadə T. Quba xanlığı ... s.129; Рагимов Р. ... с.58
118. Левиатов В.Н. ... с.137
119. Абдуллаев Г. Азербайджан в XVIII веке... с.529
120. Абдуллаев Г. Азербайджан в XVIII веке ... с.529
121. Абдуллаев Г. Азербайджан в XVIII веке ... с.532
122. Абдуллаев Г. Азербайджан в XVIII веке ... с.533; Левиатов В.Н. ... с.139
123. Нерсисян М. Из истории русско-армянских отношений. Кн. II. Ереван, 1956, с.61
124. Yenə orada, s.46
125. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010, s.144
126. Левиатов В. ... с.141
127. Azərbaycan tarixi. Bakı, 1994, s.553
128. Дегоев В. ...
129. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində ... с.154-155
130. Yenə orada, s.155
131. Левиатов В.Н. ... с.146
132. Mustafazadə T. Quba xanlığı ... s.149
133. Nəcəfli G. ... s.159
134. Yenə orada, s.158-159
135. Левиатов В.Н. ...с.143
136. Nəcəfli G. ... s.169
137. Yenə orada
138. Дегоев В. ...
139. Mustafazadə T. Qarabağ xanlığı ... s.147
140. Рагимов Р. ... с.66

141. Рагимов Р. ... с.66
142. Дегоев В. Борьба за независимость...
143. Мустафаев Дж. Северные ханства Азербайджана и России.
144. Мустафазаде Дж. ... с.73
145. Дубровин. Н. История воин и владычества русских на Кавказе. Т. III, Санкт-Петербург, 1886, с.6
147. Дегоев В. Борьба за независимость...
148. Дубровин Н. ... т.III, с.8
149. نوایی. ایران و جهان. از قاجاریه تا پایان عهد ناصری. تهران، ۱۳۶۹، ص.۱۹
150. Дубровин Н. ... т.III, с.8
151. Дубровин Н. ... т.III, с.9
152. Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995, s.62
153. Yenə orada, s.62
154. Yenə orada, s.63
155. Левиатов В.Н. ... с.163
156. آبادیان. روایت جنگهای ایران و روس. تهران، ۱۳۴۶، ص.۲۳
157. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX в. Москва, 1969, с.52
158. Xəzani M.M. ... s.127-128; Rzaqulu bəy Mirzə Camal oğlu .. s.220
159. Rzaqulu bəy Mirzə Camal oğlu .. s.221
160. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.85
161. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.87; Бутков П.Г. ... с.353
162. Mustafazadə T. Azərbaycan xanlıqlarının ... s.157
163. Левиатов В.Н. ... с.164
164. Yenə orada, s.164
165. Yenə orada, s.165
166. Рагимов Р. ... с.73
167. Рагимов Р. ... с.74-75
168. Рагимов Р. ... с.75; Левиатов В.Н. ... с.166
169. Дубровин Н. ... т.III, с.16
170. Дубровин Н. ... т.III, с.16-17
171. Abadian H. ... s.23
172. Левиатов В.Н. .. с.166
173. Дубровин Н. ... т.III, с.18-19
174. Дубровин Н. ... т.III, с. 19
175. Дубровин Н. ... т.III, с.20-21; Mustafazadə T. Azərbaycan xanlıqlarının.. s.157; Левиатов В.Н. ... с.167

# IV FƏSİL

## QACARLAR HAKİMİYYƏTİNİN BƏRQƏRAR OLMASI

### *1.Qacar tayfası haqqında*

Qacarlar tayfasının tarix səhnəsinə çıxması haqqında istər mənbələrdə, istərsə də tarixi araşdırmalarda bir-birindən fərqlənən çoxlu məlumatlar vardır. Həmin məlumatlarda qacarların kökünün araşdırılmasına bu və ya digər şəkildə cəhd göstərilmişdir. Baxmayaraq ki, mövcud olan məlumatlar içərisində Qacar tayfasının tarixi ilə bağlı maraqlı məqamlar vardır, bununla belə qeyd etmək lazımdır ki, tayfanın yaranma və formalaşma tarixi mükəmməl şəkildə öz tədqiqini tapmamışdır.

Qacar tayfası haqqında olan məlumatların bir çoxu rəvayət xarakterlidir. Mənbələrdə öz əksini tapmış məlumatların demək olar ki, hamısında qacarların tarixinin monqollarla əlaqələndirilməsinə cəhd göstərilmişdir. Bu iddianın əsaslandırılması üçün isə mötəbər sayıla biləcək sənədlərdən və faktlardan istifadə edilməmişdir. Tarixçilərin fikrincə, bu heç də təsadüfi deyildi. Çünki monqol padşahları və Çingiz xan öz şücaətləri ilə dünya tarixində iz qoyduqları üçün bir sıra türk tayfaları da öz əcdadlarının tarixini onların adı ilə bağlamağı iftixar sayırdılar. Əslində belə bir ənənə Şərqə məxsus olan ənənə kimi dəyərləndirilməlidir və tarixi məlumatlardan bəllidir ki, hətta Teymurləng də öz əcdadlarının tarixinin Çingiz xanla bağlanmasını fəxrlə qarşılayırdı. Tarixçilər qeyd edirlər ki, qacarlar tayfası özünü Çingiz xanın cahangirliyinə, fatehliyinə şərik çıxmağa çalışsa da, əslində bu məlumatlar qacarlar tayfasının tarixi haqqında tam təsəvvür yaratmır (1).

Mənbələrdən biri qacarlar tayfasının türkmanların bir qolu hesab edir və əlavə edir ki, tarix yazanların çoxunun fikrinə görə bu tayfa Türküstan tayfasına aiddir. Qacarların başlanğıcının Qəracar noyandan götürüldüyü bildirilir. "Noyan" sözü qədim türk dilində şahzadə və sərkərdə mənası verirmiş. Qəracar noyanın Əmir Teymurun 4-cü babasının olması güman edilir. Məlumatlara görə, Qəracar noyan Çingiz xan dövründə əmirülömərа (əmirlər əmiri) məqamına təyin olunubmuş. Qəracar noyan kifayət qədər igid, şücaətli və mənsəbli olduğu üçün varisləri onun nəslinin davamçıları

kimi tanınmış və Qəracar sözü də sonralar "qacar" formasını almışdı. Mənbədə qacarların tarixi ilə bağlı başqa bir rəvayətdən də söz açılır. Qeyd olunur ki, qacarlar Türküstanda bir kənddə yaşayırlarmış və onlar beş qardaş olublar. Qardaşların böyüyü Qacar imiş və tayfanın adı da onun adından götürülmüşdür (2).

"Əksir-üt-təvarix"də qacar sözünün etimalogiyası haqqında həqiqətdən uzaq olan bir versiya vardır. Adları çəkilməyən bəzi tarixçilərə istinadən bildirilir ki, Əmir Teymurun hakimiyyəti dövründə Qacarlara ikiçayarasına doğru hərəkət etmək tapşırığı verilmişdi. Qacarlar həmin məntəqəyə getməyə meylli olmadıqlarından onlar xüsusi mühafizə altında yola salındılar. Damğan yaxınlığında qacarlar mühafizəçilərlə savaşa girdilər və onların nəzarətindən xilas olaraq Təbəristana doğru qaçdılar. Mühafizəçilər də Əmir Teymura məktub göndərirlər və məktubda türk sözləri ilə yazırlar ki, "onlar qaçdılar". Guya qaçdılar sözü sonradan çevrilərək "qacar" olmuşdu. Bu əsərin müəllifinə görə də bu versiya ciddi və inandırıcı versiya kimi qəbul edilə bilməz (3).

Qacarlar sülaləsinin hakimiyyəti dövrünə aid mötəbər mənbələrdən sayılan "Məssər-e Soltaniyyə" əsərində müəllif Ə.Dünbəli yazır ki, Qacarın atası Sərtağ noyandır və onun da atası Saba noyandır. Müəllif ümumi türk soyları arasında üç qacar tayfasının olduğunu göstərir. Birincisi Suldus, ikincisi Təngəqut və üçüncüsü Cəlayirdir. Suldus tayfası İran istiqamətinə gəlmişdi. Təngəqut tayfası isə əsasən monqollara qarışmış və onların arasında ərimişdi. Cəlayirlər isə inkişaf etmiş, yayılmış, dövlət sahibi olmuş, Ceyhun çayından başlayaraq Reyə qədər olan ərazilərdə hökmranlıq etmiş və Sərtağın hakimiyyəti altında olmuşdular. Əsərdə Sərtağın varislərindən və onların qəhrəmanlıqlarından da söz açılır. Cəlayirlərin varisləri Çingiz xanın yürüşlərində də iştirak etmişdi və yüksək məqamlara layiq görülmüşdülər. Qeyd olunur ki, Sərtağ xanın Xorasan və Mazandaranda əmirülömərа olduğu vaxt Qacar adlı oğlu doğuldu. Qacarın övladları və soydaşları da çoxaldı, adları çəkilən vilayətlərdə, habelə Astrabadda məskunlaşdılar. Tayfa bütünlükdə döyüşgənliyi və igidliyi ilə şöhrət tapdığından sonradan Səfəvi dövlətinin əsasını təşkil edən tayfalardan birinə çevrildi (4).

"Tarix-e Zülqərneyn" əsərində qacarların kökünün Nuh peyğəmbərin nəslinə bağlandığını da görmək mümkündür. Burada yazılanlara görə Qacar xanın atası Surtağ noyan, onun atası Saba noyan və onun da atası Cəlayirdir və s. Cəlayirlər öz başlanğıcını Cəlayir xandan götürür. Qacar tayfasının başlanğıcı isə Qacar xandan başlayır. Əsərdə bildirilir ki, Cəlayir və Qacar tayfası digər türk tayfaları kimi öz başlanğıcını Nuh peyğəmbərin oğlu olan Yafəsdən götürürlər. Adı çəkilən əsərdə qeyd edilir ki, Qacar xanın atası Surtağ xan Abağaxan Moğolun fərmanına əsasən Arğun xanın atabəyi

vəzifəsinə təyin edildi və onun hakimiyyəti dövründə padşahlığı altında olan ərazilər Ceyhun çayından Reyə qədər uzanırdı. Atabəy vəzifəsi qazanan şəxsin böyük səlahiyyətləri olması üzündən Surtağ xan da kifayət qədər nüfuzlu bir şəxsə çevrildi. Yalnız onun özünə məxsus olan ərazilər isə Muğan Qızılağacından Nişapura qədər uzanırdı. Surtağ xan Qorqanda məskunlaşdığından onun nəsli də Astrabad və Mazandarana yayıldılar. Surtağ xanın dünyasını dəyişməsindən sonra ona məxsus olan ərazilər Qazan xan tərəfindən onun oğluna verildi. Qacarların sonrakı tarixinə Ağqoyunlular və Səfəvilər dövlətində oynadığı rola qısaca nəzər salır və bildirilir ki, Şah Abbas bu tayfanın döyüşgənliyindən daha çox bəhrələnməyə çalışdı. Bunun üçün Şah Abbas tayfanı bir neçə yerə parçaladı və onun bir hissəsi ərəblərin yürüşlərinin qarşısının alınması üçün Mərvi Şahicana köçürüldü. Digər bir hissəsi osmanlılara müqavimət göstərmək üçün Gəncə və İrəvana köçürüldü, igidlik və şücaətində daha bacarıqlı olan üçüncü dəstə isə Astrabadda yerləşdirildi və onlar burada yerləşməklə türkmanların yürüşlərinin qarşısını almalı idilər (5).

"Tarix-e Qacariyyə" əsərində qacarların tarixi Hülaki xanla bağlanmışdır. Bu əsərdə bildirilir ki, Hülaki xan hakimiyyət başında olanda Türküstandan başlayaraq Şam və Misirə qədər olan ərazilərin mühafizə olunması üçün lazım olan qüvvələrin toplanmasına əmr verdi. Onun bu əmri əsasında xeyli qüvvə toplandı və Qacar xanın atası olan Surtağ noyan da Hülaki xanın sərkərdələrindən biri idi. Müəllifə görə, ərazilərin mühafizəsi üçün toplanan qüvvələrin müxtəlif bölgələrdə məskunlaşdırılması 1265-ci ildə baş verdi. Hülaki xandan sonra hakimiyyətə sahib olan oğlu Abağa xan oğlu Ərğun xanın atabəyliyini Surtağ xana tapşırdı. Arğun xana verilmiş olan Ceyhun çayından başlayaraq Muğan Qızılağacına qədər ərazilərin idarəçiliyini isə əslində Surtağ noyan aparırdı. Surtağ xanın ad-sanı, nüfuzu, əməlləri oğlu Qacar xan tərəfindən davam etdirildi və daha çox şöhrət qazandı. Mənbə məhz buna görə də Qacar xandan sonra gələnlərin Qacara mənsub olanlar kimi tanındığını bildirir. Əmir Teymur Dəməşqə və Misirə yürüşləri zamanı göstəriş verdi ki, vaxtilə orada müsəlmanlaşdırılmış olan qacarlar qürbət ellərdən əvvəlcə indiki İran ərazisinə, oradan da Türkistana, yəni öz vətənlərinə köçürülsünlər. Həmin göstərişə əsasən qacarlar Türküstan yaxınlıqlarına gəldilər, buradan isə onların bir hissəsi Türküstana, bir hissəsi də Azərbaycana, Gəncə və İrəvan ətrafına doğru hərəkət etdilər. Ağqoyunlular sülaləsinin də öz başlanğıcını qacarlardan götürməsi mənbədə öz əksini tapmışdır. Şah Abbas dövründə qacarlar növbəti köçürməyə məruz qaldılar. Bu dəfə onlar Gəncə və İrəvan ətrafından Astrabada köçürüldülər. Şah Abbas Qacar tayfasının şücaətini və döyüşgənliyini nəzərə alaraq onların bir hissəsini Astrabada köçürdü. Burada onlar Mübarəkabad qa-

lasında yerləşdilrildilər. Qalanın yuxarı hissəsində məskunlaşdırılan qacarlar Yuxarıbaş qacarları, qalanın aşağı hissəsində məskunlaşanlar isə Aşağıbaş qacarları adlandırıldılar (6).

A.Bakıxanov da "Gülüstani İrəm" əsərində qısaca olaraq qacarların tarixinə toxunmuşdur. Onun yazdığına görə, qacarlar Cəlayir türkləri tayfasıdır və Hülaki xanın hakimiyyəti dövründə 200 min qacar ailəsi İran ərazisinə köçürüldü. Surtağ qacarların əcdadlarından biri kimi qələmə alınmışdır. Bildirilir ki, qacarların başlanğıcı əslində Surtağın qolu Qacardan götürülür. Sonra yuxarıda adı çəkilənlərin təkrarı olaraq A.Bakıxanov da qacarların Suriya və Anatoliyaya köçürüldüklərini, sonra onların Əmir Teymur tərəfindən geri qaytarıldığını və 80 min qacar ailəsinin İrəvan, Gəncə və Qarabağda yerləşdirildiyini yazır (7).

Farsdilli tarixi ədəbiyyatda, habelə bəzi xarici iranşünasların əsərlərində də qacarların tarixinə bu və ya digər dərəcədə toxunulmuşdur. Onların hamısında dərin təhlilə rast gəlmək mümkün olmasa da, qacarların tarixinin öyrənilməsi baxımından müəyyən əhəmiyyət kəsb edə bilər.

Kərim xan Zənd haqqında böyük araşdırma müəllifi olan Con Perri öz kitabının mövzu kontekstində qacarların tarixinə də toxunmuşdur. Onun qeydlərində yuxarıdakı məlumatların təkrarına da rast gəlmək olar, onlardan fərqli olan məlumatlara da. C. Perriyə görə, qacarlar türk tayfası olmaqla Mərkəzi Asiyada məskunlaşmış tayfaların yürüşlərinin nəticəsi kimi bölgəyə axışmış və burada məskunlaşmışdılar. Qacarların monqollarla bağlılığı fərziyyəsi də kitabda irəli sürülür. Müəllif qacarların böyük bir hissəsinin Əmir Teymur tərəfindən Suriyadan geri gətirildiyinə işarə edərək bildirir ki, həmin qacarların bir hissəsi Türkiyəyə, bir hissəsi isə Qafqaza və Azərbaycana köçürüldü. Eyni zamanda belə bir ehtimal da irəli sürülür ki, köçürülən qacarlar Şeyx Səfiəddinin oğlu Sultan Əli tərəfindən Əmir Teymurla aparılan müharibədən sonra azad edilmiş əsirlər idi. Guya Sultan Əlinin bu əməlinə cavab olaraq qacarlar da Şah İsmayıl hakimiyyətinin qurulmasına kömək etdilər və yeddi qızılbaş tayfasından birinə çevrildilər. Müəllif daha sonra yazır ki, Şah Abbas qacarlardan Gəncənin, Mərvin və Astrabadın mühafizəsində istifadə etdi. Birinci Şah Təhmasib zamanında Qorqan çayının cənub hissəsində tikilmiş Mübarəkabad qalası yeniləşdirilərək qacarların ixtiyarına verildi. Heyvandarlıqla məşğul olan qacarların Qorqan çayının yuxarı hissəsinin otlaqlarından yararlananlar Yuxarıbaş qacarları, çayın aşağı hövzəsinin otlaqlarından istifadə edənlər isə Aşağıbaş qacarları adlandırıldılar. Bu iki qacar dəstəsinə kimin rəhbərlik etməsi barəsində daimi rəqabət mövcud idi. Səfəvi dövlətinin böhranı illərində tayfaya Yuxarıbaş qacarları rəhbərlik edirdilər. Şah Sultan Hüseyn dövründə isə tayfaya rəhbərlik Ağaşıbaş qacarlarından olan Fətəli xana həvalə olundu.

Təhmasib Mirzə Səfəvi hakimiyyətinin dirçəldilməsi üçün fəaliyyət aparanda Fətəli xanın da ona yardım göstərdiyi kitabda öz əksini tapmışdır. Fətəli xanın öldürülməsində əli olduğu iddia olunan Nadir Əfşar qacarların düşməni kimi tanındı və qacarlarla Nadir şah arasında gərginlik sonralar da davam etdi (8).

Başqa bir qərb tədqiqatçısı qacarlar tayfasının beş dəstədən ibarət olduğunu yazır, Aşağıbaş, Yuxarıbaş, Dəvəli, Şambayatı və Qəzvin qacarları. Müəllif bildirir ki, Yuxarıbaş dəstəsinin rəhbəri adətən bütün qacar tayfasının rəhbəri olardı (9).

Qacarlar dövrünün tədqiqatçılarından olan Nasir Nəcmi də qacarların tarixinə dair müəyyən fərqli fikirləri öz araşdırmasında ortaya qoymuşdur. Onun yazdıqlarına görə, monqollar Rusiya ərazilərini tərk edib öz vətənlərinə qayıdandan sonra slav tayfaları şimaldan cənuba doğru irəliləməyə başladılar. Onların irəliləməsi qərb türklərinin sıxışdırılması ilə nəticələndi. Müəllifə görə, bu zaman qacarlar da məskunlaşdıqları Qafqazdan çıxmalı oldular. Onların bir qrupu Qafqaz keçidindən adlayaraq Aran və Azərbaycana axışdılar. Bildirilir ki, qacarların başqa bir hissəsi Kərimə (Krım) yarımadasına, bir hissəsi də Türkiyə ərazisinə getdilər (10).

N.Nəcmi qeyd edir ki, qacarlar uzun müddət Muğan düzündə çadırlarda yaşamışdılar. Sonradan qacarların rəhbəri onları köçürərək Şam istiqamətinə aparmışdı. Müəllif qacarların əcdadlarının tarixinə toxunur, onların monqollarla bağlılığına işarə edir. Hülaki xan dövründə qacarlara rəhbərliyi Surtağ xan edirdi. Qacarların Azərbaycanla bağlılığı, onların Gəncə ətrafında yaşamaları əsasında müəllif belə bir qənaətə gəlir ki, qacarlar qərb türklərinə aiddirlər (11).

Müəllif qacarların tarixi ilə bağlı belə bir versiyaya da toxunmuşdur. O, bildirir ki, bəzi müəlliflər qacarların çərkəs torpaqlarından köç etdiyini iddia edirlər. Guya monqollar Uzaq Asiyaya, Orta Şərqə hücum edəndə qacarlar çərkəs torpaqlarında məskunlaşmışdılar. Amma müəllif bu fikirlərin doğru olub-olmadığına öz münasibətini bildirməmişdir (12).

N.Nəcmi qeyd edir ki, Şam istiqamətində hərəkət edən qacarlar Şam ətrafında və Aralıq dənizi sahillərində məskunlaşdılar və uzun illər həmin ərazilərdə yaşadılar. Burada onlar öz həyatlarını və yaşayışlarını qurduqdan sonra kənar ərazilərin nəzarət altına alınması barəsində də düşünməyə başladılar. Müəllifin yazdığına görə, elə bu zamanlar İsmayıl Səfəvi öz hakimiyyətini bərqərar etmək üçün mübarizəyə başlamışdı. İsmayıl Səfəvi qacarların yardımından istifadə etməyə başladı və qacarlar da Şah İsmayılın qəhrəmanlıq tarixində xüsusi yer tutdular. Sonra bildirilir ki, Şah İsmayılın ölümündən sonra qacarlar Səfəvi dövləti ərazisinə axışmağa başladılar. Şah Abbas dövründə isə qacarlar ölkənin daha münasib bölgələrinə mühacirət

etdilər və onlar yerli tayfalardan biri hesab olunurdu. Müəllifin yazdığına görə, bu vaxt Şah Abbas özü qacarlardan çəkinməyə başladı. Çünki onların sayı artmış və müəyyən təhlükəyə çevrilmişdilər. Guya onda Şah Abbas onları üç dəstəyə böldü ki, onların qüvvələrini parçalamaqla yarada biləcəkləri təhlükə də zəiflədilsin. Eyni zamanda onlardan ölkənin düşmənlərinə qarşı istifadə edilməsi qərara alındı (13).

Sonra bildirilir ki, qacarların bir dəstəsi Mərvə köçürüldü, bir dəstəsi Gəncə və İrəvan ətrafına və bir dəstəsi də Astrabadın Mübarəkabad qalasına köçürüldü. Yuxarıdakı müəlliflərdən fərqli olaraq N.Nəcmi iddia edir ki, Gəncə və İrəvan ətrafına köçürülən qacarlar ləzgilərin hücumlarının qarşısını saxlamalı idi. Şah Abbasdan sonra Astrabaddakı qacarlar dağılmağa başladılar. Onlar yaşayış üçün daha müsaid olan məntəqələrdə məskunlaşdılar və öz coğrafiyalarını xeyli genişləndirdilər. Mazandaranda onların sayı xeyli artdı. Vaxt ötdükcə Astrabadda məskunlaşmış olan qacarların öz aralarında da ixtilaflar yer aldı. N.Nəcmi də bildirir ki, onların bir hissəsi "qoyunlu" və "Aşağıbaş qacarları" adlandırıldılar (14). Başqa sözlə, müəllif Astrabad qacarlarının aşağı və yuxarıbaş adlandırılmasını yaşadıqları coğrafi məkanla deyil, aralarında mövcud olan ixtilafdan doğan parçalanma ilə əlaqələndirirdi.

Başqa bir müəllif də qacarların Qafqaza axışdığını və orada məskunlaşdığını vurğulayır. Müəllif Yuxarıbaş qacarlarını həm də Dəvəli qacarları adlandırır. Qeyd olunur ki, Ağa Məhəmməd xan qacarlara rəhbərliyi ələ keçirəndən sonra ciddi təhlükəni özündə gizlədən tayfalararası parçalanmanın aradan qaldırılmasına cəhd göstərdi. Bu məqsədlə Ağa Məhəmməd xan Yuxarıbaş qacarlarından olan Fətəli xan Dəvəlinin qızını qardaşı oğlu Baba xana nikah etdi Eyni zamanda Baba xana tövsiyə etdi ki, Fətəli xan Dəvəlinin övladlarını Qacarlar hakimiyyətinin idarəçiliyinə cəlb etsin ki, bununla Yuxarıbaş qacarları arasında hakimiyyətə qarşı olan kəskin mövqe aradan qalxsın. Qeyd olunur ki, istər Baba xan (Fətəli şah), istərsə də Abbas Mirzə Yuxarıbaş qacarları ilə bağlı Ağa Məhəmməd xan Qacarın məsləhətlərinə əməl etdilər və bununla Aşağıbaş və Yuxarıbaş qacarları arasında ixtilafları zəiflətmək mümkün oldu (15).

Bir sıra digər əsərlərdə də mövzu daxilində bu və ya digər dərəcədə qacarların tarixindən söz açılmışdır. Belə əsərlərdən birində bildirilir ki, qacarlar qədimdə Gəncə və Bərdədə məskunlaşmışdılar və bir hissəsi də Şamdan gəlmişdi. Başqa bir əsərdə qeyd olunur ki, Şah İsmayıl öz mübarizəsini başlayanda qacarların başçıları ona birləşdilər və bu qacarlar qızılbaş sufiləri sırasına qoşuldular. Müəlliflərdən birinin fikrincə isə Şah Təhmasibin hakimiyyəti illərində qacarların sayılıb-seçilən əmirləri yüksək məqamlara sahib olmuşdular (16).

Qacarların tarixi haqqında yazan müəlliflərin çoxu üçün bu tayfanın monqollarla bağlanması xarakterik haldır. Amma qacarların kökünün monqolarla heç bir əlaqəsi olmadığına təkid edən müəlliflər də vardır. Məsələn, Əbdül Hüseyn Nəvai adlı tədqiqatçı bildirir ki, qacarların kökünün monqollarla bağlanması ilk növbədə elə qacarların özlərinin təşəbbüsüdür. Hətta hakimiyyətdə olan qacarlar sülaləsinin nümayəndələri özləri də köklərini monqollarla bağlamağa çalışmışlar. Ümumiyyətlə, müəllif qacarlar haqqında söylədiklərinin çoxunun həqiqətdən uzaq olduğunu yazır. Onun fikrincə, qacarların tarixi haqqında yazılanlardan doğru olan məqam onların Şam ətrafında məskunlaşmasıdır ki, Şambayati qacarları ifadəsi də onların məskunlaşdıqları yerin adı ilə bağlıdır (17).

Aparılmış daha ciddi tədqiqatlara əsaslanan müəllif qacarların monqollarla heç bir bağlılığı olmadığını qeyd edir və təkid edir ki, qacarlar türk tayfasıdır. Onun fikrincə, qacarlar bir sıra türk soylarının davamçıları və ya onların qohumları ola bilərdi. Bu türk soylarına aşağıdakılar daxil idilər – səlcuqlar Xəzər dənizinin şərqində yaşayan türklər, xəzərlər, qıpçaqlar, bolğarlar, peçeneqlər və s. Sonra bildirilir ki, qacarlar Cənubi Qafqazın sakinləri olmuş və təxminən VIII əsrdə digər türk tayfaları ilə birlikdə mühacirət etmiş və cənub tərəfə gəlmişdilər. Onların bir qismi də Şamda yerləşmişdi. Qacarların indiki İran ərazisinə gəlməsi monqol istilasından iki əsr sonraya aid edilir. Səfəvilər dövründə isə qacarlar Azərbaycan ərazilərindən Mazandarana, Qorqana, Qəzvinə və dövlətin sərhəd bölgəsinə köçürüldülər. Müəllif bildirir ki, qacar tayfası əfşar, bayat, bayandur tayfaları kimi Xəzər dənizinin qərbində yaşamış və həmin tayfalarla çox yaxın dildə danışmışdılar (18).

Ə.Nəvai eyni zamanda Şah Abbasın da qacarlardan istifadə etdiyini, onları köçürülmələrə məruz qoyduğunu yazır. Amma o, qacarların Astrabada köçürülməsini Şah Abbasdan sonrakı dövrlə bağlayır. Bununla bağlı, müəllif Abbas Mirzənin oğlu Fərhad Mirzənin sözlərinə istinad edərək yazır ki, Astrabada ilk qədəm basan qacar Şahqulu xan olmuşdu. Şahqulu xan II Şah Səfinin dövründə Gəncədən köçüb Astrabada gəlmişdi (19).

Qacarlar tayfasının tarixi ilə bağlı daha ciddi və əsaslandırılmış fikirlər Səid Nəfisi tərəfindən Qacarların hakimiyyət dövrü haqqında yazdığı kitabında söyləmişdir. Mövzu kontekstində müəllif istər türklərin, istərsə də qacarların tarixi haqqında bir sıra yanlış və mübahisəli fikirlərə aydınlıq gətirmiş və müəyyən mühakimələr irəli sürmüşdür. Müəllif qacarların kökünün monqollarla bağlanılmasını birmənalı olaraq qəbul etmir. O da belə bir fikri əsas götürür ki, qacarlar tayfanın şərəfli tarixə malik olduğunu nümayiş etdirmək üçün heç bir əsas olmadan özlərini monqollarla bağlamağa cəhd göstərmişlər. Əslində isə belə deyil və müəllif bir daha

qeyd edir ki, qacarların kökünün monqollarla bağlanması üçün elmi dövriyyəyə heç bir sənəd gətirilməmişdir. O, qacarların tarixinin bu və ya digər səviyyədə Hülaki xanla bağlanmasını, qacarların Ceyhun çayından başlayaraq Muğana kimi yayılması haqqında yazılanları da qeyri-real hesab edir. Onun fikrincə, belə iddiaların özləri də qacarların monqollarla deyil, qərbi türklərlə bağlı olduğunu göstərir (20).

S.Nəfisi bütünlükdə türklərin Cənubi Qafqaza, bugünkü Türkiyə ərazisinə, bu günkü İranın şimal-qərbinə gəlməsinin bir səbəbini monqol istilalarından sonra slavların öz ərazilərini genişləndirməsi və türklərin sıxışdırılması ilə bağlayır. Bildirilir ki, slavlar cənuba doğru irəlilədikcə türklər öz yerlərini tərk etməli oldular və onlar Qafqaz dağlarını adlayaraq Cənubi Qafqaza, Qara dəniz sahillərinə, indiki Türkiyə ərazisinə, Balkan və Kərimə yarmadasına yayıldılar. Mühacirət etmək məcburiyyətində qalan türk tayfaları arasında Cəlayir türklərinin də adları çəkilir. Qacarların Şam ətrafında məskunlaşmasının monqollarla bağlanması da düzgün hesab edilmir. Əksinə, qacarların Şam istiqamətinə irəliləməsi onların slavlar tərəfindən sıxışdırılmasının və bunun nəticəsi kimi cənuba mühacirətin başlanmasının nəticəsi kimi qəbul olunur. Müəllif onu da qeyd edir ki, qacarlar Cənubi Qafqazdan Şam istiqamətinə getməli olmuşdular (21).

Müəllif qacarların monqollarla bağlılığının olmadığı kimi, onların şərq türkləri ilə də bağlılığının olmadığı fikrindədir. Bir sıra müəlliflərin qacarları şərq türklərinə, o cümlədən salur tayfalarına bağlamaq cəhdində də bir qarışıqlıq olduğu ortaya çıxır. Müəllifə görə, salurlar da əslində Cənubi Qafqaz türklərindəndir və qacarların bir sıra digər türk tayfaları ilə qarışıq salınması doğru sayıla bilməz. Onun fikrincə, qızılbaşların formalaşdırılmasında qacarların iştirakı da qacarların şərq türklərinə deyil, qərb türklərinə aid olmasının göstəricisi kimi qəbul edilməlidir. Qacarların əcdadlarının adının qarşısına "noyan" sözünün artırılmasını da müəllif düzgün hesab etmir. Çünki "noyan" sözü şərq türklərinin və cığatayların dilində işlənilən sözdür. Qacarlar isə qərb türklərinə aid olduqlarından bu sözdən heç vaxt istifadə etməmişdilər. Müəllifə görə, qacarlar əgər cığatay dilində danışmış olsaydılar, onda adlarının qacarlar çağırılmasına razı olmazdılar. Belə ki, "qacar" cığatay dilində "qaçan" mənasını verir ki, qacarlar da belə bir adı öz üzərlərinə götürməzdilər. Qacarların qərb türklərinə məxsusluğunun linqivistik baxımdan əsaslandırılması üçün "li" şəkilçisinin mövcudluğuna da toxunulur. Qərb türklərinə aid çoxlu soylar, boylar var ki, onların adları bu şəkilçi ilə bitir. Məsələn, qoyunlu, dəvəli, şamlı, ağqoyunlu, qaraqoyunlu, əzadanlı və s. Şərq türklərinin dilində isə bu şəkilçi yoxdur.

Bunları söylədikdən sonra S.Nəfisi qacarların tarixi ilə bağlı aşağıdakı qənaətə gəlmişdir: qacarlar monqol deyil, türkdürlər, qacarların türkmanlara

və səlcuqlara da aidliyi yoxdur, onlar qərb türklərinə aid olmaqla, xəzərlərə, qıpçaqlara, bolğarlara və peçeneqlərə qohum tayfadır, etnik baxımdan salur tayfasına gedib çıxırlar. Salurlar isə Qafqazın türk tayfalarından olmuşdur, qacarlar Cənubi Qafqazdan digər türk tayfaları ilə birlikdə Şam ətrafına mühacirət etmişlər, Şamda məskunlaşdıqdan sonra qacarlar infiki İran ərazisinə gəlmişlər. Qacarların Şamdan köçürülməsi monqollarla bağlı deyil. Qacarlar monqolların bölgədə mövcudluğundan 200 il sonra Şamdan köç etməyə başlamışdılar, qacarların dili qərbi türk dilidir. Səfəvilər qacarları Azərbaycandan Mazandarana, Qorqana və ölkənin mərkəzinə köçürdülər, qacarlar əfşarlarla, bayatlarla, bayandurlarla çox yaxın olmuş və oxşar tarixi bölüşmüşlər (22).

Səid Nəfisi belə bir fikirlə razılaşır ki, qacarlar əsasən Cənubi Qafqazda, Gəncə və İrəvan ətrafında, habelə Muğan düzündə yaşayırdılar. Şah Abbas Səfəvinin dövrünə qədər onlar adları çəkilən məntəqələrdə məskunlaşmışdılar. Şah Abbas dövründən etibarən qacarlar yavaş-yavaş Astrabada köçürüldülər. Sonrakı dövlərdə isə qacarlar, Tehran ətrafına, Xorasana və Mazandarana axışdılar. Qacarların aşağıbaş və yuxarıbaş qacarlarına bölünməsini də müəllif qacarların Mazandaran ərazisinə gəlməsindən sonra baş verdiyini yazır. Elə Səfəvilər dövründən etibarən də qacarların tarix səhnəsində daha fəal mövqe tutmalarını, dövlət işlərinə daha fəal cəlb olunduqlarını və mənbələrdə də daha tez-tez xatırlandıqlarını görmək mümkündür. Qacarlar sülaləsinin hakimiyyət uğrunda fəal mübarizəyə qoşulmaları da məhz Səfəvilər dövrünə təsadüf edir.

### *2.Ağa Məhəmməd xan Qacarın əcdadları*

XVIII əsrin 80-90-cı illərində Səfəvilər və Əfşarlar dövlətinin sərhədləri çərçivəsində mərkəzləşdirilmiş Qacarlar dövlətinin əsasını qoymuş Ağa Məhəmməd xanın əcdadlarından Məhəmməd Həsən xan Qacar və babası Fətəli xan Qacar haqqında istər mənbələrdə, istərsə də tarixi ədəbiyyatda az-çox məlumat vardır. Bu iki şəxsin hər biri dövrünün tanınmış hərbi-siyasi xadimi olmaqla Ağa Məhəmməd xanın bir sərkərdə, hakimiyyət uğrunda mübarizə aparan nəslin davamçısı, mərkəzləşdirilmiş hakimiyyətə iddialı bir insan kimi yetişməsinin ictimai-obyektiv bazası kimi də qəbul edilə bilər. Başqa sözlə, Ağa Məhəmməd xan Qacarın tarix meydanına çıxması adi bir hadisə deyildi. O, gözünü açandan özünü, həyatını at belində quran insanların, tarixini qılıncı ilə yazan əcdadlarının əhatəsində görmüşdü. Onun ilkin dünyagörüşü, təfəkkür tərzi də belə bir mühitdən qaynaqlanmışdı.

Ağa Məhəmməd xan Qacarın babası Fətəli xanın atasının adının Şahqulu xan olduğu məlumdur. Amma Şahqulu haqqında mənbələrdə hər hansı bir məlumatla rastlaşmaq mümkün deyildir. Şahqulu xanın atası da xan kimi təqdim olunur. Buradan belə güman etmək olar ki, Ağa Məhəmməd xan Qacarın ulu babaları da sayılıb-seçilən insanlar olmuş və cəmiyyət daxilində mənsəb sahibi olmuşlar. Fətəli xanın iki qardaşı olmuşdur – Fəzləli bəy və Mehralı bəy. Onların analarının adı isə Şəhrəbanu olmuşdur (23).

Mənbələrdə Fəzləli xan Qacar haqqında olan məlumat ondan başlayır ki, Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti illərində Qəzvin türkmanlarından olan Məhəmməd xan adlı birisi Mübarəkabad qalasına hücum edib oranı ələ keçirdi. Məhəmməd xanın əsir götürdüyü şəxslər arasında Fətəli xan və onun qardaşları da var imiş. Bir müddət sonra Fətəli xan əsirlikdən qacmağa nail olur, qardaşları isə Məhəmməd xan Türkman tərəfindən qətlə yetirilir. Bunu eşidən Fətəli xan yəmut tayfalarının köməyi ilə Mübarəkabad qalası üzərinə hücum etməyi qərara alır. Hücumdan qabaq isə o qalanın mühafizə xidmətinin rəhbəri ilə qala qapılarının açılması üçün razılığa gəlir. Mühafizə xidmətinin rəisinin köməyi ilə Fətəli xan gecə vaxtı qalaya daxil olur və Astrabad bəylərbəyi kimi tanınan Məhəmməd xan Türkman və onun köməkçisi Mirzə Əhməd Qəzvinini qətlə yetirir. Bununla da Fətəli xan Astrabadda hakimiyyəti ələ keçirir. Amma Fətəli xan bununla da kifayətlənmir. O, Ramiyən və Fenderskə hakim olan kürd Şəkər bəyin üstünə qoşun çəkir və onun hakimlik etdiyi əraziləri də nəzarət altına alır. Bundan sonra qacarlar tayfasının nüfuzlu mənsəb sahibləri Fətəli xanın hakimiyyətini qəbul edirlər (24).

Bu hadisələrin nə vaxt baş verməsinin tarixi göstərilməmişdir. Mənbələr bu hadisələri yalnız Şah Sultan Hüseyn dövründə baş verdiyini yazırlar. Fətəli xanın nə vaxt doğulması haqqında da mənbələr heç nə yazmırlar. Bəzi tarixi ədəbiyyatda onun 1684-cü ildə doğula biləcəyi haqqında ehtimallar vardır. Bəlli olan odur ki, Fətəli xan sonradan hakimiyyəti altında olan ərazilərin genişləndirilməsinə çalışdı. Şəkər bəy qətlə yetiriləndən sonra Fətəli xan bütün Mazandaranı ələ keçirmək niyyətinə düşdü. Amma bu niyyətini həyata keçirməyə başlamazdan qabaq o xəbər tutdu ki, Qacar tayfasının bir sıra nüfuzlu şəxsləri, o cümlədən Məhəmməd Hüseyn xan, Fəzləli xan, Məhəmməd Tağı bəy və digərləri Fətəli xana qarşı sui-qəsd hazırlayıblar. Bu sui-qəsdi hazırlayanlara divan tutmaq üçün Fətəli xan müəyyən bəhanə altında onları qonaqlığa dəvət etdi. Məhəmməd Hüseyn xan vəziyyətin nə yerdə olduğunu anlayıb qonaqlığa gəlmədi. Digər şəxslər isə Fətəli xanın dəvətini qəbul etdilər və iştirak

etdikləri qonaqlıqda həyatlarını itirməli oldular (25). Ona qarşı çıxa biləcək şəxsləri aradan qaldırdıqdan sonra Fətəli xanın nüfuzu daha da artdı.

Məlumdur ki, Səfəvilər dövlətinə qarşı qiyam qaldırmış əfqanlar 1722-ci ildə İsfahan şəhərini mühasirəyə aldılar. Dövlətin süqut və böhranlı tarixi yaşansa da bir-biri ilə çəkişmələrdə olan saray əyanları mövcud olan imkanlardan da istifadə etmədilər. Ölkə üçün son dərəcə böhranlı vaxtlarda qətiyyətli fəaliyyəti ilə mövcud gərginliyi aradan qaldırmaq istiqamətində fəaliyyət göstərən hər hansı bir şəxs sarayın köməyinə arxalanmalı olduğu halda, əksinə öz mövqelərini qorumaq haqqında düşünən saray əyanlarının daxili intriqalarının qurbanı olur və bununla dövlətin vəziyyəti daha da mürəkkəbləşirdi. Belə bir zamanda Astrabadda hakim olan Fətəli xan Qacar Səfəvilər dövlətini süqutdan xilas etmək üçün yardım göstərməyi qərara aldı. Qacarların tarixinə aid olan mənbələrdə onun min nəfərlik dəstə ilə İsfahana yollandığı bildirilir (26).

Nadir şah haqqında mötəbər mənbələrdən biri olan "Aləm Ara-ye Naderi"də isə Fətəli xanın dəstəsinin sayının 2-3 min nəfər olduğu göstərilir. Fətəli xan İsfahanın köməyinə o zaman yetişdi ki, şəhər mühasirə olunmuşdu və bu mühasirəni yarıb şəhərə daxil olmaq özü də bir məharət tələb edirdi. Fətəli xan bu mühasirəni yarıb şəhərə daxil olmağa müvəffəq oldu. Fətəli xan hətta şah sarayında qarşılandı da. Gəldiyi gündən də Fətəli xan əfqanlara qarşı vuruşmağa başladı. "Aləm Ara-ye Naderi" müəllifinin şəhadətinə görə, Fətəli xan bütün günü əfqanlarla döyüşdü, elə birinci gün ərzində onlardan min nəfərini məhv etdi və şəhərə böyük uğurla qayıtdı. Bu döyüşdə Fətəli xanın dəstəsində olan Qacar döyüşçüləri də öz şücaətlərini və döyüşgənliyini nümayiş etdirdilər. Qacar döyüşçülərinin bu uğuru şəhər əhalisində də mühasirənin qurtarılması üçün bir ümid yaratdı. Amma saray əyanları Fətəli xanın əldə etdiyi uğurlarla, əfqanların məğlub edilməsi üçün yaranan imkanlara heç də sevinmədilər. Çünki Fətəli xanın bu uğurunu onlar öz gələcəkləri üçün təhlükə kimi qəbul etdilər. Onlar güman edirdilər ki, Fətəli xan İsfahanın azad edilməsində xüsusi xidmət göstərmiş olarsa şah tərəfindən onun saray vəzifələrinə gətirilməsi ehtimalı mövcuddur. Belə olduqda isə kimsə öz vəzifəsi ilə vidalaşmalı olacaqdı. Ona görə də saray əyanları Fətəli xana qarşı saray intriqalarını işə saldılar. Şah Sultan Hüseynə çatdırıldı ki, Fətəli xan döyüşə özündən çox arxayın şəkildə gedir, özünü gələcək şah kimi hiss edir, əfqanları İsfahan ətrafından qovmağa müvəffəq olarsa sonradan silahını şaha qarşı çevirəcək və hakimiyyəti əlinə alacaqdır. Ona görə saray əyanları təklif etdilər ki, Fətəli xan həbs edilsin. Şah Sultan Hüseyn əyanların bu məkrlərinə inandı və Fətəli xanın həbs edilməsi barədə əmr verdi. Şah sarayında xidmət edən qacarlardan biri məsələ haqqında Fətəli xana məlumat çatdırdı. Belə olanda Fətəli xan şəhəri tərk etməyi

qərara aldı və sağ qalmış 1500 döyüşçü ilə şəhərdən çıxıb şimala doğru üz tutdu (27).

Mənbələrdə bildirilir ki, Fətəli xan saray əyanlarının fitnələrindən incik və narazı halda İsfahanı tərk etdi və Astrabada geri qayıtdı. İsfahanın müdafiəsiz qalmasından istifadə edən əfqanlar isə şəhəri ələ keçirməyə və bununla da Səfəvilər dövlətinin süquta uğramasına nail oldular. Mahmudun tapşırığı ilə əfqanlar sonradan Tehran istiqamətində hücumlarını davam etdirdilər. İbrahimabad və Vəramin ətrafında Fətəli xan yenidən əfqanlarla vuruşmalı oldu. Əfqanlar irəliləyərək bu məntəqələrə gəlib çıxmışdılar. Gün ərzində davam edən döyüşdə tərəflər arasında qalib müəyyənləşmədi. Həmin axşam Fətəli xan xəbər aldı ki, Şah Sultan Hüseynin oğlu və taxt-tac vəliəhdi Təhmasib Mirzə Mazandarana gəlmişdir. Fətəli xan da həmin gecə Təhmasib Mirzənin yanına yollandı (28).

Qeyd etmək lazımdır ki, qacarlarla bağlı mənbələrdə və tarixi ədəbiyyatda Fətəli xanın Təhmasib Mirzə ilə görüşü və sonrakı taleyi haqqında çox müxtəsər və dolaşıq məlumat mövcuddur. Həmin məlumatların məzmunu bundan ibarətdir ki, Fətəli xanın Təhmasib Mirzə ilə görüşündən sonra onu Astrabada gətirdi, burada onlar yeni qoşun dəstəsi formalaşdıraraq Məşhədin azad edilməsi üçün Xorasana yürüş etdilər. Məşhəd yaxınlığındakı Xacə Rəbi məntəqəsində olarkən Fətəli xan sui-qəsd nəticəsində qətlə yetirildi və orada da dəfn edildi. Bu qətlin həyata keçirilməsində Nadir Əfşarın da müəyyən rol oynadığı bildirilir (29).

Nadir şah haqqında mövcud olan mötəbər mənbələrin və tarixi araşdırmaların ortaya qoyduğu məlumatlar isə Fətəli xanın qətlində Nadir Əfşarın günahının olmadığını nümayiş etdirir. Qacarlar haqqında mötəbər mənbələrdən biri sayılan "Məssər-e Soltaniyyə" əsərinə yazılan şərhində Qulamhüseyn Zərgərinejad da Fətəli xanın qətlinin Nadir Əfşarın üzərinə atılmasını doğru saymır. Onun qənaəti belədir ki, qacarların tarixini yazan mənbə müəllifləri Səfəvi xanədanına xalq arasında olan hörmət və ehtiramın əleyhinə gedərək Fətəli xanın qətlinin Təhmasib Mirzə ilə bağlanmasına ehtiyat etmişlər. Bu müəlliflər Fətəli xanın ölümü zamanında onunla Nadir Əfşar arasında müəyyən fikir ayrılılığının olduğuna əsaslanaraq qətlin təşkilində də onu günahkar saymışlar. Q.Zərgərinejad konkret tarixi sənədə istinad etməklə Fətəli xanın qətlinin Təhmasib Mirzə tərəfindən təşkil edildiyini açıqlamışdır (30).

Nadir şah haqqında olan tarixi mənbələr və araşdırmalar göstərir ki, Fətəli xanla Təhmasib Mirzə arasında sonradan uzunmüddətli və səmərəli münasibətlər olmuş və müəyyən vaxtlarda Fətəli xanın istedadı və xidmətləri Təhmasib Mirzə tərəfindən layiqincə qiymətləndirilmişdi. Mövcud olan məlumatlara görə, Təhmasib Mirzənin istəyi əsasında Fətəli

xan Qacar əfqanlarla yenidən döyüşə girdi. Bu döyüş Tehran yaxınlığındakı İbrahimabadda baş verdi və Fətəli xan bu döyüşdə üstünlük əldə edə bilmədi. Bu isə Fətəli xanla Təhmasib Mirzə arasında münasibətləri bir qədər mürəkkəbləşdirdi. Fətəli xan Mazandarana və oradan da Damğana geri çəkildi. Burada olarkən Fətəli xan məlumat aldı ki, həmin ərazilərdə Təhmasib Mirzənin sərkərdələrindən olan Zülfüqar adlı birisi qoşun toplamaqdadır. Səbəbi məlum olmasa da Fətəli xan orada qoşun toplanmasını öz maraqlarına uyğun saymadı və ona görə də Zülfüqarın dəstəsi üzərinə hücum etdi. Zülfüqar isə Fətəli xanın güclü zərbəsi qarşısında geri çəkilməli oldu (31).

Bundan sonra Fətəli xan qoşun dəstəsi ilə Damğan üzərinə hərəkət etdi və bu məntəqəni öz nəzarəti altına aldı. Fətəli xan bununla da kifayətlənmədi. Yaranmış əlverişli fürsətdən istifadə edərək qoşunu ilə Mazandaran istiqamətinə hərəkətini davam etdirdi. Bu bölgənin nəzarət altına alınması üçün Fətəli xan bir də Təhmasib Mirzəyə sədaqətli olan qoşun dəstəsi ilə üzləşməli oldu. Həmin qarşıdurma 1726-cı ilin may ayında Əşrəf adlı məntəqə yaxınlığında baş verdi. Fətəli xan bu qarşıdurmada üstün olsa da Təhmasib Mirzə dərhal vəziyyətin düzəldilməsi üçün tədbirlər görməyə başladı. O öz sərkərdələrinin bir neçəsini Astrabadın şimal-şərqində məskunlaşmış türkmən tayfalarından kömək almağa göndərdi. Türkmən tayfalarından kömək gəlmək ehtimalı Fətəli xanı ehtiyatlı olmağa sövq etdi və Təhmasib Mirzə ilə barışıq yolunu tutdu. Tezliklə o, Təhmasib Mirzə ilə görüşüb bağışlanmasını xahiş etdi. Təhmasib Mirzə də Fətəli xan və onun ətrafındakıları əfv etdiyini bildirdi (32).

Barışıqdan sonra Fətəli xan yenə kifayət qədər fəallıq nümayiş etdirdi. Səfəvilər dövlətinin əfqanların cəngindən xilas edilməsi üçün Fətəli xan tək mənsub olduğu qacarlar arasında deyil, eyni zamanda qəraylılar, hacılılar, kətüllülər arasından da qoşun topladı, onlarım sayını 18 min nəfərə çatdırdı. Təhmasib Mirzə tərəfindən ona "Vəküllüdövlə" ləqəbi verildi. Bu ləqəbə görə, Fətəli xan şahın vəkili, dövlətin ikinci şəxsi hesab olunurdu (33). Bununla bərabər, Fətəli xan həm də Təhmasib Mirzə qoşunlarının sipəhsaları (baş komandanı) təyin edildi.

Səfəvi dövləti qiyamçı əfqanlar tərəfindən süquta uğradılmışdı, Fətəli xanda Səfəvi hakimiyyətinə qarşı sədaqət, hörmət və ehtiram var idi. Məhz Səfəvi taxt-tacına olan sədaqət üzündən o, İsfahanın müdafiəsinə yollanmışdı. Şimala döndükdən sonra Səfəvi hakimiyyətinin varisi Təhmasib Mirzə ilə olan müəyyən narazılıqlara baxmayaraq o, yenə də Səfəvi hakimiyyətinin dirçəldilməsi üçün mübarizəyə qoşuldu. Fətəli xan eyni zamanda onu da yaxşı bilirdi ki, əhali arasında da Səfəvi xanədanının nüfuzu qalmaqdadır və Səfəvi hakimiyyətinin dirçəldilməsi əhali tərəfindən

də fəal dəstəklə qarşılaşacaqdır. Ona görə də Fətəli xan öz qüvvələrinin Təhmasib Mirzənin qüvvələri ilə birləşdirməklə ümumi gücü artırmağa nail oldu. O şübhə etmirdi ki, Səfəvi hakimiyyətinin bərpasına nail olunsa o da Təhmasib Mirzənin ətrafında ikinci şəxs kimi böyük nüfuz və mənsəb sahibi ola bilər (34).

Malik olduğu qabiliyyəti və bacarığı sayəsində Fətəli xan tezliklə Təhmasib Mirzəni öz təsiri altına ala bildi. Tarixçilər də bildirirlər ki, Təhmasib Mirzə atasının qətlə yetirilməsindən sonra özünü şah elan etsə də zəif iradəyə malik idi və sanki Fətəli xanın yanında məhbus idi. Fətəli xanın belə qüdrətə və nüfuza malik olması isə Təhmasib Mirzənin ətrafında olan əyanlar tərəfindən heç də rəğbətlə qarşılanmadı. Həmin əyanlar Fətəli xanın nüfuzunu öz mövqelərinə və mənsəblərinə bir təhlükə kimi qəbul etdilər. Ona görə, Təhmasib Mirzənin əyanları ilə Fətəli xan arasında gizli bir qarşıdurma yarandı və bu qarşıdurma da Fətəli xanın qətlini şərtləndirən səbəblərdən birinə çevrildi.

Təhmasib Mirzənin Nadir Əfşarla birləşməsi onun Fətəli xanla olan münasibətlərinin yaxşı dövrünə təsadüf edir. "Aləm Ara-ye Naderi"yə görə, Təhmasib Mirzə Fətəli xanla birlikdə Mazandaranda qoşun topladığı vaxtlarda Nadirin şücaətləri haqqında xəbərlər şimal əyalətlərinə də yayılmışdı. Xorasan vilayətini yad qüvvələrdən azad etməyə çalışan Təhmasib Mirzə öz nümayəndələrini Nadirin yanına göndərdi və onu birgə fəaliyyətə çağırdı. Nadir yanına gələn elçiləri yaxşı hədiyyələrlə geri qaytardı və Təhmasib Mirzə ilə birləşməyə meylli olduğunu nümayiş etdirdi (35).

Nadir dəstəsinin Təhmasib Mirzə qoşunlarına qoşulması 1726-cı il sentyabr ayının 2-nə təsadüf edir. Sentyabr ayının 29-da isə onlar birləşmiş qoşun dəstəsi ilə Xəbuşandan Məşhədə doğru hərəkət etdilər. Fətəli xan da bu qoşun dəstəsinin tərkibində idi. Hücumda məqsəd Məşhədin yad qüvvələrdən təmizlənməsi və sonradan bu şəhərin Səfəvi dövlətinin mərkəzi elan olunması idi. Çünki İsfahan hələlik əfqanların əlində idi.

Yuxarıda qeyd edildiyi kimi, Məşhədin alınması ərəfəsində Xacə Rəbi adlı məntəqədə Fətəli xan gecə ikən öz çadırında qətlə yetirildi. Fətəli xanın burada necə qətlə yetirilməsinin təfərrüatları haqqında məlumat yoxdur. "Tarix-e cahanqoşa-ye Naderi"nin məlumatına görə, özünü artıq şah elan etmiş Şah Təhmasib və Fətəli xan qoşun dəstəsi ilə Xorasana doğru hərəkət edəndə yolun uzunluğu, havaların soyumağa başlaması qoşunları əldən saldı. Fətəli xan bu vəziyyəti görəndə Şah Təhmasibdən Astrabada qayıtmağa və qoşun üçün zəruri təchizatın tədarükü ilə məşğul olmağa icazə istədi. Fətəli xanın qoşunlardan ayrılıb geri qayıtmaq istəməsi Şah Təhmasib və onun ətrafındakı əyanlar üçün şübhəli göründü. Onda Fətəli xanın qətlə yetirilməsi məsələsi ortaya çıxdı. Nadir isə bu xəbəri eşidəndə Fətəli xanın

qətl edilməsi ilə razılaşmadı. O, Şah Təhmasibə təklif etdi ki, Fətəli xan Qacar sadəcə olaraq həbs edilsin və bir də Məşhəd şəhəri azad ediləndən sonra azadlığa buraxılsın. Şah Təhmasib bu təkliflə razılaşmadı. Amma özünü həmin təkliflə razılaşmış kimi göstərdi. Gecə ikən isə Fətəli xanın çadırına öz adamlarını göndərdi və onu qətlə yetirdi. "Tarix-e cahanqoşa-ye Naderi"dəki məlumata görə, Təhmasibin əyanları arasında Fətəli xanla düşmənçilik edənlər var idi və Fətəli xanın qətli də onların vasitəsilə həyata keçirildi (16).

Bir daha qeyd edilməlidir ki, Fətəli xanın qətlinin Şah Təhmasib tərəfindən təşkil edildiyini sübut edən tarixi sənədlər və məlumatlar elmi dövriyyədə yoxdur.

Fətəli xanın iki oğlan övladı var idi – Məhəmməd Həsən xan və Məhəmməd Hüseyn xan. Məhəmməd Hüseyn xan hələ uşaqlığında ikən vəfat etmişdi. Atasının yolunu davam etdirmək Məhəmməd Həsən xanın üzərinə düşdü. O, Ağa Məhəmməd şah Qacarın atasıdır və onun fəal mübarizəyə qoşulması artıq Nadirin nayibliyi və şahlığı dövrünə təsadüf edir. Məhəmməd Həsən xan 1713-cü ildə anadan olmuşdu və 1725-ci ildə Fətəli xan qətlə yetiriləndə onun 12 yaşı var idi. Məhəmməd Həsən xan atasının tutduğu yolu davam etdirirdi və qacarlar arasında rəhbərliyin yenidən geri qaytarılması üçün konkret planların həyata keçirilməsinə başladı. Bir neçə ildən sonra o, türkmən tayfaları ilə əlbir oldu, bu tayfanın içində yaşadı, türkmən tayfaları daxilində öz ətrafına dəstə topladı və sonra da doğma şəhəri olan Astrabadın üzərinə qoşun çəkdi. Məqsədi bu şəhəri ələ keçirib orada öz hakimiyyətini qurmaq idi. Məhəmməd Həsən xan şəhər hakiminin nayibi Məhəmməd Zaman bəylə döyüşə girdi və onu şəhərdən qaçmağa məcbur etdi. Astrabadın və Mazandaranın hakimi isə Nadir şah tərəfindən təyin olunmuş Behbud xan idi. Məhəmməd Zaman bəy onun yanına gələrək Astrabadın Məhəmməd Həsən xan tərəfindən ələ keçirilməsini xəbər verdi (37).

Qeyd etmək lazımdır ki, Məhəmməd Həsən xanın Astrabadı ələ keçlirmək planı Astrabad qacarları arasında da dəstək tapdı. Çünki Səfəvi dövründə dövlətin yuxarı eşelonlarında geniş təmsil olunan qacarlar, əfşarlar dövründə öz nüfuzlarını itirmişdilər. Nadir şah qacarların nümayəndələrini yüksək dövlət vəzifələrinə fəal şəkildə cəlb etmirdi. Bu da qacarların Nadir şah hakimiyyətinə ehtiramını azaldırdı. Qacar kəndxudalarından biri olan Məhəmməd bəy Əzadanlı və digərləri Astrabad üzərinə hücumdan qabaq Məhəmməd Həsən xanla görüşdülər, 4-5 minlik qoşun dəstəsini də onun ixtiyarına verdilər. Bundan başqa qacar əyanları Astrabad şəhərinin darvazalarının asanlıqla açılmasına da kömək etdilər. Bunun nəticəsi idi ki, Məhəmməd Həsən xan ciddi bir müqavimətlə rastlaşmadan Astrabadı ələ keçirə bildi (38).

Məhəmməd Həsən xan Astrabadı ələ keçirməklə kifayətlənmədi. Onun qoşun dəstəsi şəhərdə talan və soyğunçuluqlar etdi, orada yerləşən ingilis və rus ticarət mərkəzlərinə ciddi ziyan yetirildi. Həmin şirkətlər Astrabaddan keçməklə Xəzər dənizindən Məşhədə ticarət marşrutu yaratmaq istəyirdilər. Məhəmməd Həsən xanın qoşun dəstəsinin şəhərdə yaratdığı qeyri-sabitlik həmin planın icrasını dayandırdı. Məhəmməd Həsən xan isə yalnız Astrabadın tutulması ilə kifayətlənmədi. Onun Nadir şaha qarşı qiyam qaldırdığı il, yəni 1744-cü ildə ölkədə çoxsaylı itaətsizlik və dövlət əleyhinə iğtişaşlar yayılmaqda idi. Ölkə daxilində yer tapan qeyri-sabitlikdən istifadə edən Məhəmməd Həsən xan daha geniş əraziləri nəzarət altına almaq istəyirdi. Bunun üçün o, ikinci Sam Mirzə ilə əlaqə yaratdı. Taxt-taca iddialı olan ikinci Sam Mirzənin bu iddiasını qəbul etməklə Məhəmməd Həsən xan onun da qüvvələrindən nəzarəti altında olan ərazilərin genişləndirilməsində istifadə etmək istəyirdi. Məhəmməd Həsən xan onu Xəzərin cənub sahillərinə gəlməyə dəvət etdi və özü də söz verdi ki, Xəzərin cənub ərazilərinin Nadir şahın nəzarəti altından çıxarılmasında ona kömək edəcəkdir. Cam Mirzə qiyamı tezliklə yatırıldığı üçün Məhəmməd Həsən xan təklikdə Nadir şaha qarşı mübarizəsini davam etdirməyi qərara aldı (39).

Məhəmməd Həsən xan Astrabadı tutanda Nadir şah Mosul ətrafında idi. Astrabad qacarlarının iğtişaş qaldırması Nadir şah tərəfindən kifayət qədər narahatçılıqla qarşılandı və bu iğtişaşın yatırılması üçün dərhal göstəriş verdi. Nadir şah tərəfindən Astrabad və Mazandarana hakim təyin edilmiş Behbud xan və Sarı xan Qırxlı Xorasandakı qoşun dəstəsinə rəhbər təyin edilərək Astrabad istiqamətinə göndərildilər. Bu vaxt Sarı xan Kermanda idi. Nadir şahın tapşırığından sonra o, hərəkətə başlayaraq Behbud xanla birləşməli və sonra onlar Məhəmməd Həsən xan üzərinə hücum etməli idilər. Behbud xan Astrabad ətrafına daha tez yetişdi və Məhəmməd Həsən xan qiyamının geniş miqyas aldığını görəndə dərhal döyüşə girməyi lazım bildi. O daha Sarı xanın gəlib çatmasını gözləmədi. Behbud xanın tabeliyində Əbivərd, Nəsayi, Dəruni, Kukəlan döyüşçülərindən təşkil edilmiş 10 min nəfərlik bir dəstə var idi. Məhəmməd Həsən xanın qoşun dəstəsi isə sayca daha çox idi. Yəmutlardan və yerli əhalidən təşkil olunmuş dəstənin tərkibi 20 min nəfərə çatırdı. Məhəmməd Həsən xanın üstünlüyə malik olmasına baxmayaraq Behbud xan hücuma keçməkdə israrlı idi. Hacılar adlanan məntəqədə tərəflər arasında döyüş baş verdi. Behbud xanın dəstəsinin döyüşü daha yaxşı təşkil etməsi təşəbbüsün ələ alınması ilə nəticələndi. Məhəmməd Həsən xan ciddi zərbə aldı. O, Astrabadı tərk edərək Qorqana, oradan da Manqışlağa yollandı (40).

Astrabadın ələ keçirilməsindən sonra Sarı xan da gəlib ora yetişdi. Asrabad daxilində Məhəmməd Həsən xanla əlaqəsi olan adamlar axtarılıb tapıldı və cəzalandırıldı. Məhəmməd Həsən xan Qacarın yaxınları Nişapura köçürüldü. Qacarların tarixinə aid olan mənbələrdə göstərilir ki, şəhər əhalisinə ciddi divan tutuldu, öldürülmüş insanların kəllələrindən minarələr quruldu (41).

Məhəmməd Həsən xan sonradan da bir neçə dəfə Astrabad üzərinə yürüşlər həyata keçirməyə cəhd göstərdi. Lakin bu cəhdlər ciddi bir uğurla nəticələnmədi. Türkmən tayfaları arasında Məhəmməd Həsən xan günlərini ovda keçirir, Astrabad üzərinə növbəti yürüş üçün münasib anı gözləyirdi. Mövcud olan məlumata görə, onun yarada biləcəyi təhlükənin qarşısının alınması üçün Nadir şah türkmən tayfalarından Məhəmməd Həsən xanın tutulub təhvil verilməsini tələb etdi. Türkmən sərkərdələri toplaşaraq məsələni müzakirə etdilər və belə bir qərara gəldilər ki, Məhəmməd Həsən xan tutulub Nadir şaha təhvil verilsin. Deyilənə görə, Məhəmməd Həsən xanın sığındığı tayfanın sərkərdəsinin xanımı onun tutulub təhvil verilməsi ilə razı olmadı və onu gizlətdi. Sonra tayfa kişilərini də məcbur etdi ki, Məhəmməd Həsən xanın mühafizəsinə kömək göstərsinlər. Bundan sonra tayfa əhli Məhəmməd Həsən xanı at və qulluqçu ilə təmin edərək onun qaçmasına şərait yaratdılar və Nadir şahın nümayəndələrinə də onun qaçması haqqında məlumat verdilər. Məhəmməd Həsən xan isə bir müddət çöllərdə, səhralarda gizlənməli oldu. Hətta aclığın qarşısını almaq üçün atlarını kəsməli oldu. Nəhayət çətin günlərinin birində ona xəbər gətirdilər ki, Nadir şah qətlə yetirilmişdir (42).

Qacarların tarixi haqqında olan mənbələrdə Nadir şahın Məhəmməd Həsən xan haqqında söylədiyi güman olunan bir fikri saxlanmaqdadır. Nadir şah bir gün məirülmümalik Həsənəli xandan soruşur ki, sən 14 misqallıq yaqut görmüşsənmi? "Yox" cavabı eşidəndə Nadir şah söyləyir ki, həmin 14 misqallıq yaqut Məhəmməd Həsən xandır ki, bizim əlimizdən çıxıb (43).

Nadir şahın qətlindən dərhal sonra Məhəmməd Həsən xan ətrafına topladığı dəstəsi ilə yenidən Astrabad üzərinə yürüş etdi, Astrabadı və Mazandaranı ələ keçirdi. Nadir şahın qətlindən sonra ölkə daxilində yaranmış olan qeyri-sabit vəziyyətdən istifadə edən Məhəmməd Həsən xan bölgədə xeyli möhkəmlənə bildi.

Nadir şahın ölümündən sonra onun qardaşı oğlu Əliqulu xan "Adil şah" adı ilə taxt-taca sahib olsa da ölkənin idarəçiliyini təşkil və təmin edə bilmədi. Tezliklə İsfahan hakimi təyin etdiyi qardaşı İbrahim xan itaətsizlik yolu tutdu və Adil şaha tabe olmaqdan imtina etdi. Onun ardınca Məhəmməd Həsən xan Qacar da Adil şaha tabe olmayacağını bəyan etdi. Adil şah qoşun toplayıb ona qarşı itaətsizlik yolu tutanları cəzalandırmağı

qərara aldı. O göstəriş verdi ki, əvvəlcə Mazandarana qoşun çəksin və oranı itaət altına aldıqdan sonra qardaşı İbrahim xanın üzərinə yürüş etsin. Nadir şahın şəxsi həkimi olmuş keşiş Bazenin yazdığına görə, Adil şah qoşunları ilə 5 ay Mazandaranda qaldı (44).

Mazandaranda olduğu vaxt Adil şah ciddi bir uğur qazana bilmədi. Əksinə, 5 ay Mazandaranda qalması onun qoşununu da əldən saldı. Buna görə 5 aydan sonra Adil şah məcburiyyət qarşısında qalıb Mazandarandan uzaqlaşmalı oldu. Məhəmməd Həsən xan Mazandaran üzərində hakimiyyəti əlində saxlaya bildi.

Tarixi məlumatlara görə, Adil şah Mazandarandan geri qayıdarkən Simurğ çayının kənarında Məhəmməd Həsən xanın oğlu Ağa Məhəmməd xanı əsir aldı və onun axta edilməsinə göstəriş verdi. Bu hadisənin 1748-ci ildə baş verməsi ehtimal olunur (45).

İstər Adil şah, istərsə də əfşarların digər nümayəndələri hakimiyyətdə möhkəmlənə bilmədilər. Əksinə, onların hakimiyyəti dövründə ölkə daxilində parçalanma və separatizm kütləvi hal aldı.

Yerlərdə öz hakimiyyətlərini elan etmiş yerli hakimlər içərisində Kərim xan Zənd nisbətən daha geniş əraziləri öz idarəçiliyi altına ala bildi. 1750-ci ildə İsfahanı işğal edəndən sonra Kərim xan Zənd öz hakimiyyətinə və fəaliyyətinə qanuni forma vermək üçün Şah Sultan Hüseynin qız nəvəsi olan 17 yaşlı Mirzə Əbuturabı II Şah İsmayıl adı ilə ölkənin şahı, özünü isə rəiyyət vəkili elan etdi (46).

Nadir şahın ölümündən Ağa Məhəmməd xanın hakimiyyətinin bərqərar olduğu vaxta qədərki müddət ərzində, ölkə ərazisində hakimlik iddiasına düşənlər arasında Kərim xan Zənd mərkəzləşdirilmiş dövlət yaradılmasına daha yaxın idi. Qabiliyyəti, istedadı və təşkilatçılığı nəticəsində o, Səfəvilərin və sonra da Əfşarların sərhədlərinin bərpasına çox yaxın idi. Ölkənin idarəçiliyinin tam nəzarət altına alınması yolunda 1752-ci ildə Kərim xan Zənd Mazandarana, Məhəmməd Həsən xanın üstünə qoşun çəkdi. Mənbələrin verdiyi məlumata görə, Kərim xan lur və bəxtiyarilər arasından 40 minlik qoşun toplaya bildi. Kərim xan Astrabadı 40 gün mühasirədə saxladı (46).

Tədqiqatçıların verdiyi məlumatdan belə bir qənaətə gəlmək mümkündür ki, Məhəmməd Həsən xan özü də sərhədlərin genişləndirilməsinə çalışırdı. Kərim xan Zənd Kermanşah ətrafında olan Məhəmməd Həsən xanın qoşun dəstəsinin ona xeyli yaxınlaşması barədə məlumat aldı. Məhəmməd Həsən xanın Astrabadı tərk etməsinin konkret olaraq hansı məqsəd daşıdığını söyləmək çətindir. Görünür Kərim xan Zənd Məhəmməd Həsən xandan ehtiyatlandı və onun üzərinə qoşun çəkdi. Məhəmməd Həsən xan isə geri çəkilib Astrabadda müdafiə mövqeləri tutdu. Kərim xan Zənd onun geri

çəkilməyini gücsüzlük əlaməti kimi qəbul etdi, onun təqibinə başladı və sonra da Astrabadı mühasirəyə aldı. Məlumatlardan o da aydın olur ki, baş verən bu qarşılaşma Kərim xan tərəfindən əvvəldən planlaşdırılmamışdı. Lakin o mövcud vəziyyətdən daha çox bəhrələnməyi və Mazandaranı da nəzarət altına almağı qənimət bildi. Astrabad şəhəri üç tərəfdən mühasirəyə alındı. Şəhərin dördüncü tərəfindən isə çay axırdı. Məhəmməd Həsən xan Kərim xan Zəndlə döyüşə girmək istəmirdi. Hətta təklif etdi ki, qarşıdurmanın dayandırılacağı və sülh əldə olunacağı təqdirdə 100 baş cins at hədiyyə etməyə və girov kimi isə oğlu Ağa Məhəmməd xanla 300 döyüşçünü Kərim xan Zəndin sarayına göndərməyə hazırdır. Kərim xan Zənd tezliklə qələbə çalacağı ümidi ilə verilən təklifləri qəbul etmədi və bununla da əslində özünü bir sıra çətinliklərlə üzbəüz qoydu (47).

Belə olanda Məhəmməd Həsən xan onu mühasirəyə alan qüvvələrə qarşı fəal mövqe tutdu. Astrabad əhalisi və Məhəmməd Həsən xanın dəstələri şəhər daxilindən, türkmən dəstələri isə kənardan Kərim xanın üstünə basqınlar etdilər. Kərim xan qoşunlarının arxa ilə əlaqəsi türkmən dəstələrinin hücumları üzündən xeyli mürəkkəbləşdi. Xüsusilə, türkmənlərin amansız hücumları nəticəsində Kərim xan xeyli qüvvə itkisi ilə üzləşdi. Bunların nəticəsi kimi Kərim xanın qoşunlarında ərzaq ehtiyatları xeyli azaldı. Nəhayət xeyli itki verəndən sonra Kərim xan Zənd mühasirə mövqeyini tərk edib sürətlə Tehrana çəkildi. Bu döyüş zamanı Kərim xan Zəndin öz qoşunlarının yarısını itirdiyi bildirilir. Kərim xan qoşunları elə bir vəziyyətə düşdü ki, Məhəmməd Həsən xan onları təqib etmək fikrinə düşsəydi Kərim xan bütün qoşunlarını itirə bilərdi. Məhəmməd Həsən xan isə bunu etmədi. Hətta Kərim xan qoşunlarından ələ keçirdiyi əsirlərlə mehriban davrandı və müəyyən vaxtdan sonra onların geri qaytarılmasına icazə verdi. Bu döyüşün davamı kimi Məhəmməd Həsən xan Rəşt şəhərini də ələ keçirdi (48).

Mənbələrin məlumatına görə, Məhəmməd Həsən xanın sonrakı döyüşü əfqan sərkərdəsi Şahpəsənd xanla baş verdi. Əfqanıstanın yeni padşahı Əhməd şah Əbdali Heratı, Kabulu və Qəndəharı tutandan sonra Məşhəd üzərinə qoşun göndərdi. Xorasan vilayəti də işğal olunandan sonra əfqan sərkərdəsi Şahpəsənd xan 15 minlik qoşun dəstəsi ilə Astrabad üzərinə hücum etdi. Məhəmməd Həsən xan yaxınlarından olan Məhəmməd Hüseyn xanın və yuxarıbaşlı Məhəmmədvəli xan Qacarın rəhbərliyi altında qoşun dəstəsi təşkil edib əfqanlara qarşı göndərdi. Qacarların qoşunu 14 min nəfərdən ibarət idi. Səbzəvar yaxınlığında baş verən döyüşdə əfqanlar ağır məğlubiyyətə uğrayıb geri çəkildilər (49).

Məhəmməd Həsən xanın əfqanlarla döyüşü 1755-ci ildə oldu. Həmin qələbədən sonra Məhəmməd Həsən xan öz uğurlarını genişləndirmək

yolunu tutdu və İsfahanı ələ keçirməyə qərar verdi. Qoşun dəstəsi ilə İsfahana doğru istiqamət götürən Məhəmməd Həsən xan şəhərə yaxınlaşanda Kərim xan Zəndin qoşunu ilə qarşılaşdı. Bu döyüş Məhəmməd Həsən xanın əsaslı üstünlüyü ilə başa çatdı və qələbə ilə bərabər Kərim xan Zəndin 20-yə yaxın tanınmış sərkərdəsi də Məhəmməd Həsən xan tərəfindən əsir götürüldü. Bir müddət sonra İsfahanın Gəlnabad kəndi yaxınlığında Məhəmməd Həsən xanla Kərim xan Zənd qarşı-qarşıya gəldilər. Bu döyüşdə də qacarlar qələbə əldə etdilər və İsfahan Məhəmməd Həsən xanın əlinə keçdi. İsfahan nəzarət altına alındıqdan sonra Məhəmməd Həsən xanın qoşunları Gilan və Qəzvinin ələ keçirilməsi üçün yürüş etdi (50).

1756-cı ildə Məhəmməd Həsən xan dəstəsi ilə Azərbaycana doğru istiqamət götürdü. Urmiyə hakimi Azad xan 20 min nəfərlik qoşun dəstəsi ilə Urmiyanın 6 fərsəngliyində Məhəmməd Həsən xanın qoşunu ilə üzbəüz gəldi. Azad xan bu döyüşdə məğlub olub Tiflisə qaçdı. Məhəmməd Həsən xan Arazdan cənubdakı əraziləri ələ keçirməklə kifayətlənmədi və Qarabağ xanlığı üzərinə yürüşə qərar verdi. Qarabağın alınması ilə Məhəmməd Həsən xan Arazın şimalında son dərəcə əlverişli mövqelər əldə etmiş olardı. Hücumun uğurla başa çatması üçün o, ətraf xanlıqları öz ətrafında səfərbər etməyə cəhd göstərdi. Başqa xanlıqları öz ətrafında birləşdirmək həmin xanlıqların Məhəmməd Həsən xana tabe olması demək idi. Ona görə Azərbaycan xanlarından yalnız Gəncə xanı Şahverdi xan Qarabağ xanlığı ilə formalaşan mürəkkəb münasibətlərə görə Qarabağ xanlığı üzərinə hücumda iştirak etməyə razı oldu. Digər Azərbaycan xanları isə qiymətli hədiyyələr göndərməklə kifayətləndilər və Məhəmməd Həsən xanla ittifaqa girməkdən imtina etdilər (51).

1757-ci ildə Məhəmməd Həsən xan Qarabağ xanı Pənah xanı özünə tabe etmək məqsədilə Arazı keçib Şuşa qalasının dörd ağaclığında düşərgə saldı. Şuşa qalası mühasirəyə alındı və bir ay qala mühasirədə saxlandı. Həmin müddət ərzində qalanın mühasirəsini yarmaq Məhəmməd Həsən xana nəsib olmadı. Əksinə, çoxlu atəşlərə məruz qaldı. Pənah xan döyüşçülərinin vaxtaşırı basqınları qacar qoşunlarını ağır vəziyyətə saldı. Qarabağ xanlığını ələ keçirə bilməyən Məhəmməd Həsən xan geri çəkilməli oldu. Bununla belə o, Arazdan cənubdakı əraziləri nəzarət altına ala bildi və mövcud olan bəzi məlumatlara görə hətta 18 yaşında olan oğlu Ağa Məhəmməd xanı Azərbaycana hakim təyin etdi (52).

Məhəmməd Həsən xan Azərbaycan torpaqlarından Fars vilayətinə doğru istiqamət götürdü, Kaşan və İsfahandan keçməklə Məhəmməd Həsən xan Şiraza üz tutdu və burada Kərim xan Zənd qüvvələrini mühasirəyə aldı. Mühasirə dövründə Şirazın bir sıra əyanları da şəhərdən çıxaraq Məhəmməd Həsən xana qoşuldular. Şiraz qalası 40 gün mühasirədə qaldı Bu günlər ər-

zində şəhərdə vəziyyət mürəkkəbləşdiyi kimi, Məhəmməd Həsən xanın qoşunları daxilində də vəziyyət mürəkkəbləşdi. Qoşun daxilində itaətsizlik, fərarilik halları artdı, intizamsızlıq gücləndi. Vəziyyət elə bir hal aldı ki, Məhəmməd Həsən xan Şiraz ətrafında uğursuzluğa düçar olduğunu anladı və məğlub kimi İsfahana döndü. Orada da çox dayanmayıb Mazandarana doğru hərəkət etdi (53).

Məhəmməd Həsən xan Şiraz ətrafında olduğu vaxtlarda onun öz yaxınları arasında itaətsizlik halları baş verdi. İsfahana hakim təyin etdiyi əmisi oğlu Məhəmməd Hüseyn xan Dəvəli Məhəmməd Həsən xanın çətin vəziyyətdə olduğunu bildiyindən Mazandaranı öz nəzarəti altına almaq niyyətinə düşdü. Məhəmməd Hüseyn xan əvvəllər də Məhəmməd Həsən xanla nifaqda idi. Amma Məhəmməd Həsən xan yaranmış anlaşılmazlığı dinc yolla aradan qaldırmağa üstünlük vermişdi. Hazırkı şəraitdə isə Məhəmməd Hüseyn xan daha kəskin mövqe tutdu və ətrafına xeyli qüvvə toplanmasına görə şübhə etmirdi ki, Astrabadı asanlıqla ələ keçirə biləcəkdir. Məhəmməd Həsən xan onun ardınca İsfahanı tərk edib Astrabada doğru hərəkətə başladı. Mazandaran hakiminin yanına isə çapar göndərdi ki, yaranmış vəziyyətdən xəbərdar olsun və lazımi hazırlığa malik olsun. Lakin Məhəmməd Hüseyn xan Astrabadı ələ keçirə bilmədi. Gücü yalnız ona çatdı ki, Məhəmməd Həsən xanın əmlakının bir hissəsini ələ keçirib Damğana tərəf qaçsın (54).

Bir müddət keçəndən sonra isə Məhəmməd Həsən xan daha təhlükəli bir məlumat aldı. Kərim xan Zəndin göstərişinə əsasən Şeyxəli xan böyük bir dəstə ilə Mazandarana doğru istiqamət götürmüşdü. Məhəmməd Hüseyn xan Qacarın ətrafında olan qoşun dəstəsi də Şeyxəli xana birləşdi və bununla Məhəmməd Həsən xana qarşı kifayət qədər güclü bir qoşun dəstəsi təşkil olundu. Ona görə də Şeyxəli xanın dəstəsi tez bir zamanda Mazandaranı ələ keçirdi. Sonra da Astrabada doğru istiqamət götürdü. Kərim xan Zənd döyüşün nəticəsinə böyük əhəmiyyət verirdi. Döyüşü daha yaxından izləmək üçün o, Şirazdan Tehrana gəldi. Şeyxəli xanın dəstəsi Astrabada yaxınlaşdı və Məhəmməd Həsən xanın dəstəsi ilə üzbəüz gəldi. Zənd qüvvələri əvvəlcə topları işə saldılar. Bununla belə topların fəaliyyəti elə bir ciddi nəticə vermədi. Hava qaralanda Zənd qüvvələri qacar səngərlərinə yaxınlaşdılar və Məhəmməd Həsən xan qüvvələrinin müəyyən hissəsi mühasirə altına alındı. Döyüşün sonrakı gedişi xeyli gərgin oldu. Yaranmış ağır vəziyyətdən çıxmaq üçün Məhəmməd Həsən xan Xorasandan və qıpçaq çöllərindən yardım istədi. Təxminən 15 minə yaxın əlavə qüvvə Məhəmməd Həsən xana yardıma gəldi. Bununla belə, Məhəmməd Həsən xan Zənd qoşunlarının qarşısını saxlaya bilmədi. Onun ətrafındakı qoşun daxilində fərarilik və itaətsizlik artdı. 1759-cu ilin fevralında Astrabad ətrafında baş

verən döyüş Məhəmməd Həsən xan üçün son döyüş oldu. Vaxtilə Məhəmməd Həsən xanın qulamlarından olan Səbzəli adlı birisi və Məhəmmədəli ağa ətrafındakılarla özlərini Məhəmməd Həsən ağaya yetirib onu öldürdülər və sonra da başını bədənindən ayırdılar (55).

Məhəmməd Həsən xanın kəsilmiş başı bir neçə gündən sonra Tehranda Kərim xan Zəndə çatdırıldı. Bununla Kərim xan Zənd mərkəzləşdirilmiş hakimiyyət uğrunda apardığı mübarizədə əsas rəqibini aradan qaldırmış oldu. Məhəmməd Həsən xan onun üçün çox ciddi maneə idi və bu ciddi maneə ilə qarşılaşmaq Kərim xan Zənd üçün həmişə arzuolunmaz nəticələrlə başa çatırdı. Məhəmməd Həsən xana üstün gəlmək müəyyən mənada Kərim xan Zənd üçün gözlənilməz oldu. Məhəmməd Həsən xanın yaxın qohumlarının və ətrafının satqınlıq və xəyanətləri olmasaydı qələbənin əldə edilməsi də asanlıqla baş verməzdi. Amma Məhəmməd Həsən xan rəqibi olsa da Kərim xan Zənd onun şücaətini və sərkərdəliyini yüksək qiymətləndirirdi və ona görə də onun öldürülməsini dərin təəssüflə qarşıladı. Mövcud məlumatlara görə, Kərim xan Zənd rəqibi Məhəmməd Həsən xanın kəsilmiş başını özü yuyub təmizlədi, gülabladı və sonra da böyük ehtiramla Astrabada yola saldı ki, orada onun bədəni ilə birlikdə dəfn edilsin (56).

Başqa bir məlumata görə isə, Məhəmməd Həsən xanın kəsilmiş başı Tehranın cənubunda torpağa tapşırıldı (57). Məhəmməd Həsən xanın özündən sonra 3 övladı qalmışdı. Ağa Məhəmməd xan və Hüseynqulu xan Cahansuzi onun əmisi qızı Ceyran xanımla nikahından dünyaya gəlmişdi. Məhəmməd Həsən xanın nikahda olduğu ikinci xanımı Dəvəli boyunun nümayəndəsi idi və onunla nikahdan da Murtuzaqulu xanla Mustafaqulu xan doğulmuşdu. Bundan başqa Məhəmməd Həsən xan üç xanımla siğə kəsdirmişdi. Onların birincisindən Cəfərqulu, Mehdiqulu və Abbasqulu, ikincisindən Rzaqulu və üçüncüsündən Əliqulu dünyaya gəlmişdi. Astrabadın Zənd qoşunların tərəfindən tutulmasından sonra canlarını xilas etmək üçün Ağa Məhəmməd xan və qardaşları Məhəmməd Həsən xanın əmisi Məhəmməd xanın müşayiəti ilə türkmənlərin şimal otlaqları olan qıpçaq çöllərinə pənah apardılar. Kərim xan Zəndin sərkərdəsi Şeyxəli xan qısa müddət Astrabad hakimi olduqdan sonra onun yerini Qacar tayfasının Dəvəli boyundan olan Məhəmməd Hüseyn xan tutdu. Onun hakimliyi dövründə Ağa Məhəmməd xanın ətrafında toplanmış olan dəstələr bir neçə dəfə Astrabad üzərinə basqın etdilər.

1761-ci ildə Məhəmməd Hüseyn xan Dəvəli onların tutulması üçün plan hazırladı. O, təxminən 1000 nəfərlik dəstə təşkil edib pusquda yerləşdirdi. Ağa Məhəmməd xanın da olduğu dəstə Astrabad ətrafındakı məntəqələrin birinin üzərinə etdiyi basqından geri gələrkən onların qarşısı kəsildi. Ağa Məhəmməd xanın ətrafındakılardan bir çoxu qətlə yetirilsə də

onun özü qaçmağa müvəffəq oldu. Canını salamat qurtaran Ağa Məhəmməd xan Əşrəf adlı məntəqəyə sığınmağı qərara aldı. Amma Əşrəfin hakimi onu tutub Kərim xan Zəndə təhvil verdi. Tehrana gətirilən Ağa Məhəmməd xan burada yaxşı qarşılansa da, daha geri buraxılmadı və Kərim xan Zəndin girovluğunda saxlandı (58).

Ağa Məhəmməd xanın digər qardaşları da əsir götürüldü. Kərim xan Zənd onların yarada biləcəyi narahatçılıqların qarşısının alınması üçün Ağa Məhəmməd xanı Şiraza, öz sarayına göndərdi, onun digər qardaşlarının isə ikisi Astrabadda saxlandı, bəziləri isə Qəzvinə göndərildi. Məhəmməd Həsən xanın bacısı Xədicə bəyimi Kərim xan özünə nikah etdi. Məhəmməd Həsən xanın Bibişah Cahan adlı qızı isə Kərim xan Zəndin oğlu Məhəmməd Rəhim xana nişanlandı. Kərim xan Zənd girov götürdüyü xanların, o cümlədən də Ağa Məhəmməd xanın Mazandaran və Astrabadı onun hakimiyyəti altından çıxara biləcəyindən ehtiyatlanırdı. Ona görə də onu yanında saxladı və ona qarşı kifayət qədər xoş münasibət göstərdi (59).

Başqa bir məlumata görə isə Məhəmməd Həsən xanın qətlindən sonra Ağa Məhəmməd xan və qardaşları yaxınlarının müşayiəti ilə Qorqana yollandılar və bir müddət türkmən yəmutlarının arasında yaşadılar. Sonradan onlar öz aralarında məsləhətləşərək Kərim xan Zəndin xidmətinə girməyi qərara aldılar və ona birləşdilər. Ağa Məhəmməd xan Şiraza, digər qardaşlar isə Qəzvinə göndərildilər (60).

Amma bu variant heç də həqiqətə yaxın görünmür. Tarixdən də məlumdur ki, Kərim xan Zəndin yaxşı münasibət göstərməsinə baxmayaraq Ağa Məhəmməd xan onun yanında girov idi və heç də onun azad xidmətində deyildi.

Başqa bir müəllif bildirir ki, Kərim xan Zənd qətlə yetirilmiş Məhəmməd Həsən xanın övladlarının Damğanda olan torpaqlar üzərindəki hüququnu tanımış və onları azad buraxmışdı. Amma bir müddətdən sonra Ağa Məhəmməd xan doğma qardaşı Hüseynqulu xanla Damğanda Kərim xan Zəndin əleyhinə iğtişaş yaratdı. Ona görə Kərim xan Zənd bütün ailəni Qəzvinə göndərdi və Ağa Məhəmməd xan isə Qacar ailəsinin əməllərinə zəmanət kimi Şirazda girov saxlandı (61).

Bu məlumatı verən müəllifin əsərinin başqa bir yerində isə bildirilir ki, Ağa Məhəmməd xan atasının qətlindən sonra türkmən yəmutlarının yanında olduğu vaxtlar qardaşları ilə birlikdə partizanlıq edir, Astrabad üzərinə hücum edib toplanan vergiləri qarət edirdilər. Belə olanda Kərim xan onun həbs edilməsi barəsində göstəriş verdi. Bu məlumat başqa bir tarixi araşdırmada da təsdiq olunur (62). Hər halda aydındır ki, Məhəmməd Həsən xan kimi bir sərkərdənin ailəsində tərbiyə almış Ağa Məhəmməd xan atasının qətlini, onun hakimiyyətinin əlindən alınmasını laqeydliklə qarşılamazdı. Ona görə onun Astrabad üzərinə hücumlar etməsi və Kərim xan Zəndin bundan narahatçılıq keçirməsi təbii görünməlidir. Bu narahatçılığı aradan qaldırmaq üçün Kərim xan Zənd onu girov götürüb həyatı boyu nəzarət altında saxladı. Bununla,

Kərim xan Zənd doğrudan da özünü Ağa Məhəmməd xanın yaratmağa qadir olduğu çətinliklərdən sığortalamış oldu.

### *3.Ağa Məhəmməd xan Qacar*

Ağa Məhəmməd xan yuxarıda qeyd edildiyi kimi, Məhəmməd Həsən xanın böyük oğlu və Qacarlar sülaləsinin banisidir. Nadir şahdan sonra İran ərazisində böyük mərkəzləşdirilmiş dövlətin yaradılması da onun adı və hərbi-siyasi fəaliyyəti ilə bağlıdır.

Qacarların tarixi ilə bağlı olan mənbələr əsasən, Ağa Məhəmməd xanın dövründən sonra yazıldığı üçün bu əsərlərdə onun həyatı, xüsusilə uşaqlıq və gənclik illəri ilə bağlı kifayət qədər məlumatla rastlaşmaq mümkün deyil. Mövcud olan məlumatlar da daha çox şifahi danışıqlara əsaslandığı üçün onlara tənqidi yanaşılmasına ehtiyac vardır. Görünür, elə buna görədir ki, Ağa Məhəmməd xan Qacarın həyatı lazımi səviyyədə öyrənilməmiş qalmışdır. Tarixi ədəbiyyatda Ağa Məhəmməd xanın 1741-ci ildə anadan olduğu bildirilir. Bəzi araşdırmalarda isə onun doğum tarixi kimi 1742-ci il təsbit olunmuşdur. Bildirilir ki, o, həmin ilin iyun ayının 17-də Sari ilə Qorqan arasında yerləşən Əşrəfi səhrasında anadan olmuşdur (63). Ağa Məhəmməd xanın anadan olma tarixindəki qeyri-dəqiqlik onun həyatındakı bəzi hadisələrin baş vermə tarixinin dəqiq müəyyən edilməsinə də təsir göstərib. Məsələn, Ağa Məhəmməd xanın axtalanma tarixi haqqında məlumatlarda belə bir qeyri-müəyyənlik vardır. Bəzi tarixçilər Ağa Məhəmməd xanın axtalandığı vaxt 4 yaşında olduğunu (64), bəziləri onun bu zaman 5 və ya 6 yaşında olduğunu (65), bəzi müəlliflər də sadəcə Məhəmməd Həsən xanın Adil şahla qarşılaşması zamanı Ağa Məhəmməd xanın Adil şaha əsir düşməsindən yazırlar (66) ki, bu zaman onun 5 ya 6 yaşı olmalı idi.

Ağa Məhəmməd xanın uşaqlıq illəri ilə bağlı mənbə və ədəbiyyatda göz önündə olan məlumatlardan biri onun axtalanmasıdır. Yuxarıda qeyd edildiyi kimi, Nadir şahın qardaşı oğlu Adil şah hakimiyyətinin möhkəmləndirilməsi üçün atdığı addımlardan biri də Astrabad və Mazandaranda öz hakimiyyətini qurmuş Məhəmməd Həsən xanın zərərsizləşdirilməsi üçün göstərilən silahlı cəhd idi. Adil şah rəqibi Məhəmməd Həsən xana qalib gələ bilməsə də onun böyük oğlu Ağa Məhəmməd xanı əsir götürdü. Adil şah nəzarəti altına ala bilmədiyi Məhəmməd Həsən xanın qisasını oğlu Ağa Məhəmməd xandan çıxdı və onun əmri əsasında Ağa Məhəmməd xan axta edildi. Eyni zamanda Ağa Məhəmməd xan əsir götürülərək Xorasana aparıldı və bir də Adil şah dünyasını dəyişəndən sonra o öz ailəsinin yanına qayıtdı.



*Ağa Məhəmməd xanın uşaqlığı*

Ağa Məhəmməd xanın hansı şəraitdə, hansı səbəblərə görə belə bir cəzaya məruz qalması barədə mənbələrdə müfəssəl məlumat yoxdur. Ona görə də bu məsələ ətrafında da tarixi ədəbiyyatda xeyli ehtimallar və hətta rəvayətlər yer almışdır.

Tədqiqatçılar bir qayda olaraq belə bir versiyanın üzərində dayanırlar ki, Məhəmməd Həsən xan döyüşlərə gedərkən kiçik yaşlı oğlanlarını da özü ilə aparırmış. Adil şahla döyüşündə də Məhəmməd Həsən xan oğlanları Ağa Məhəmməd xanla Hüseynqulu xanı özü ilə aparmışdı və onların hər ikisi əsir götürülmüşdü. Qardaşlardan da yalnız Ağa Məhəmməd xan cismani cəzalandırılmışdı (67). Məhəmməd Həsən xanın nə üçün öz kiçik yaşlı uşaqlarını özü ilə döyüşlərə aparması və qardaşlar arasından da Ağa Məhəmməd xanın cismani cəzalandırılması haqlı suallar doğura bilər. Məhəmməd xan 5-6 yaşlarında olduğu halda, onun qardaşı 2-3 yaşlarında ola bilərdi ki, bu yaşlı uşaqların döyüş meydanına aparılması təəccüblü görünə bilər. Bir daha qeyd edilməlidir ki, tarixçilərin məlumatına görə bu uşaqlar döyüş meydanından əsir götürülmüşdülər.

Ağa Məhəmməd xanın cismani cəzalandırılması ilə bağlı mövcud rəvayətlərdən biri aşağıdakı kimidir və həmin rəvayət bir sıra tarixçilər tərəfindən təkrarlanmışdır. Ağa Məhəmməd xan Adil şahın sarayında uşaqları başına toplayıb tez-tez onlarla oynayarmış. Saray lələsi də onlara nəzarət edərmiş. Uşaqlar bu lələbaşının hökmündən qorxarlarmış. Bir dəfə qəzəblənmiş lələbaşının gəlmək xəbərini eşidib uşaqlar qaçıb-dağılırlar. Bircə Ağa Məhəmməd xan qaçıb getmir. Lələbaşı bu işə təəccüb edir və onun nə üçün qaçıb getmədiyini soruşanda Ağa Məhəmməd xan bildirir ki, mən qacarların böyüyü Məhəmməd Həsən xanın oğluyam və padşahlar gərək qorxuya görə qaçıb getməsinlər. Guya bu hadisə Adil şaha xəbər verilir və Adil şah da gələcək təhlükənin qarşısının alınması üçün Ağa Məhəmməd xanın cismani cəzalandırılmasına göstəriş verir (68).

Jan Gevr də özünün böyük həcmli əsərində Ağa Məhəmməd xanın cismani cəzalandırılması məsələsinə toxunmuşdur. Müəllif ingilis polkovniki Qold Smitə istinad edərək bildirir ki, atasının ölümündən sonra Əşrəfi səhrasına pənah gətirmiş Ağa Məhəmməd xan onun həbsi üçün Mazandaran hakimi tərəfindən göndərilən qoşun dəstəsi ilə döyüş zamanı yaralanmış və aldığı yara onun axtalanmasına səbəb olmuşdu (69). Müəllif özü də bu rəvayətin doğruluğuna şübhə ilə yanaşır. Bildirir ki, Məhəmməd Həsən xan qətlə yetiriləndə Ağa Məhəmməd xanın yaşı 20-yə yaxın idi və bu yaşda olan gəncin həmin vaxta qədər ailə qurmaması mümkün deyildi. Ağa Məhəmməd xanın cavanlığında evlənməsi haqqında isə hər hansı bir məlumat mövcud deyil.



*Ağa Məhəmməd xanın gəncliyi*

Jan Gevrin qələmə aldığı başqa bir versiya isə ingilis polkovniki Teylor Tomsona istinad edilir. Bu versiyaya görə, Ağa Məhəmməd xan atasının qətlindən əvvəl Zənd nəslinin əyanlarından olan Şeyxəli xanın qızına aşiq olubmuş. Guya onların tanışlığı qeyri-rəsmi cinsi əlaqələrə gətirib çıxarır. Məhəmməd Həsən xan son döyüşdə qətlə yetiriləndən sonra xanımı Ceyran və oğlu Ağa Məhəmməd xan əsir düşürlər. Şeyxəli xan Zənd dərhal Ağa Məhəmməd xanın qətlinə göstəriş verir. Bununla o həm də Ağa Məhəmməd xanı bütün əxlaq və məzhəb normalarına zidd olaraq qızı ilə qeyri-rəsmi əlaqədə olmasına görə cəzalandırmaq istəyirmiş. Guya Ceyran xanımın yalvarışlarından sonra Şeyxəli xan fikrini dəyişir və Ağa Məhəmməd xan cismani cəzalandırılmaqla kifayətlənir. Müəllifin istinad etdiyi ingilis hərbçisinə görə, Ağa Məhəmməd xan cismani cəzalandırıldıqdan sonra anası Ceyran xanım ona and verdirir ki, gələcəkdə Zənd nəslini və Zənd nəslinə xidmət edənlərin hamısını qılıncdan keçirsin (70).

Jan Gevr bu versiyanı daha real saysa da, bütünlükdə ona da ehtiyatla yanaşır və Ağa Məhəmməd xanın Adil şah tərəfindən cəzalandırılmasını isə o qədər də real saymır. O da bildirir ki, Ağa Məhəmməd xan hakimiyyətə gəldikdən sonra Zənd nəslinə, bu nəslə xidmət edənlərə, yaxınlara amansız divan tutdu və nəslin kökünü kəsdi. Ağa Məhəmməd xanın Kərim xan Zəndin sümüklərini də sarayının giriş kandarında torpağa basdırması və onun hər gün bu sümükləri tapdalaması haqqında məlumat vardır. Jan Gevrə görə Ağa Məhəmməd xan hətta hakimiyyətə gələndən sonra da Nadir şahın nəslinə qarşı belə amansızlıq nümayiş etdirmədi. Əksinə, öz hakimiyyəti illərində Nadir şahın varislərinin Xorasandakı hakimiyyəti davam etdi. Yalnız sonralar onun qardaşı oğlu Fətəli şahın dövründə Xorasanda Nadir şahın varislərinin hakimiyyətinə bir dəfəlik son qoyuldu.

Hər halda Jan Gevrin söylədiyi versiyalar da öz təsdiqini tapmamış versiyadır. Bir daha qeyd edilməlidir ki, "Rözsət-üs səfa" əsərində Ağa Məhəmməd xanın Adil şah tərəfindən cismani cəzalandırıldığı bildirildiyi üçün xüsusilə farsdilli tarixi ədəbiyyatda bu versiya daha çox yayılmışdır. Məsələ ilə bağlı maraq kəsb edən məqamlardan biri Ağa Məhəmməd xanın adının qarşısındakı "Ağa" sözüdür. Bu söz Azərbaycan türkcəsində geniş yayılıb və onun mənası "cənab" sözünün mənasına yaxındır. Fars dilində bu söz iki nöqtəli "qaf" hərfi ilə yazılır. Bir çox farsdilli ədəbiyyatda Ağa Məhəmməd xan sözü elə bu hərflə yazılır və bununla da onun ağalığına, böyüklüyünə işarə olunur. Ağa Məhəmməd xanın əsil adı Məhəmməddir. Ağa və xan söz-ləri bu ada onun ictimai vəziyyətinə görə əlavə edilmişdir. Bir çox hallarda Ağa Məhəmməd xanın adındakı "ağa" sözü bir nöqtəli "ğəyn" hərfi ilə yazılır. Azərbaycan və fars dillərində bu hərflərin hər ikisinin

səslənməsi oxşar olsa da, onların mənalarında ciddi fərqlər vardır. "Ğəyn" hərfi ilə yazılan "ağa" sözü "xədim" və "axta" mənasını verir.

Məhəmməd Həsən xanın qətlindən əvvəl Ağa Məhəmməd xanın onun yürüşlərində iştirakı istisna deyil. Amma bu barədə mənbələrdə və tarixi ədəbiyyatda məlumatlara rast gəlmək çətindir. Ağa Məhəmməd xanın qoşulduğu və haqqında kəsad məlumatların mövcud olduğu döyüş isə atasının qətlindən sonra əsir götürülməsi üçün aparılan döyüşdür. Yuxarıda qeyd edildiyi kimi, bəzi tarixi məlumatlara görə Ağa Məhəmməd xanın çöllərdə türkmən tayfalarına sığınması, habelə Astrabad üzərinə onun yürüşləri sözsüz ki, Kərim xan Zəndin narahatçılığına səbəb oldu və onun həbsi üçün göstəriş verdi. Ağa Məhəmməd xanın azadlıqda olması Qacarların yenidən güclənərək hakimiyyət iddialarına düşməsi ehtimalı baxımından da Kərim xan Zəndin narahatçılığına səbəb olurdu. Bu narahatçılığın aradan qaldırılması üçün Kərim xan Astrabad və Mazandaran hakimi Məhəmməd xana tapşırıq verdi (71).

Jan Gevrin əsərində bu barədə geniş məlumat vardır. Astrabad və Mazandaran hakimi Ağa Məhəmməd xanın tutulması üçün Məhəmməd xan Qacar Dəvəli 20 minlik qoşun dəstəsinin verilməsini istədi (72). Bu məlumatın doğru olması da şübhə doğurur. Çünki Ağa Məhəmməd xanın ətrafında bu qədər qüvvə yox idi ki, onlarla mübarizə aparmaq üçün çoxsaylı qoşunlara ehtiyac olsun. Bununla belə Jan Gevrin təsvirinə görə, Kərim xan Zənd bu qüvvəni ona verməyə razı oldu. Bildirilir ki, Astrabad hakimi özü isə əlavə olaraq 10 min nəfərlik qoşun dəstəsi topladı və cəmi 30 min qoşun dəstəsi ilə türkmən tayfalarının yaşadığı səhraya yürüş etdi. Ağa Məhəmməd xanın qaçmaq ehtimallarını aradan qaldırmaq üçün onun əvvəlcə mühasirə olunması qərara alındı. O da bildirilir ki, Kərim xan qoşunları ilə Ağa Məhəmməd xanın dəstəsi arasında 4 həftə döyüş oldu və bu döyüşlərdən sonra Ağa Məhəmməd xan qərara aldı ki, 500 nəfərlik bir dəstə ilə mühasirənin zəif olduğu istiqamətdən hücuma keçsin. Ağa Məhəmməd xan ciddi maneələrlə qarşılaşmasına baxmayaraq mühasirədən çıxmağa müvəffəq oldu və Gilana yollanmağa cəhd göstərdi. Bununla belə, bu niyyətinə nail olmadı və Təngsər adlı kənddə istirahətə dayanarkən ələ keçdi (73).

Jan Gevr yenə ingilis hərbçilərinə istinadən Ağa Məhəmməd xanın əsir götürülməsi haqqında məlumatlar vermişdir. Foster adlı ingilis səyahətçisinə istinadən bildirilir ki, Ağa Məhəmməd xan ətrafındakı 10 nəfərlə birlikdə ağır yorğunluqdan sonra istirahət edərkən ələ keçmişdir. Polkovnik Qold Smitə istinadən isə qeyd edilir ki, Ağa Məhəmməd xan istirahət edəndə olduqları yerin ətrafına mühafizə təyin etmişdi. Astrabad hakiminin qüvvələri yaxınlaşanda mühafizəçilərin xəbərdarlığına əsasən yuxudan ayıldı, yaralı olmasına baxmayaraq yenidən döyüşə atıldı və o yenidən bir də

yaralandı. Ağa Məhəmməd xan taqətini itirəndən sonra onu əsir götürmək mümkün oldu (74).

Əsir götürüləndən sonra Ağa Məhəmməd xan Tehrana göndərildi və orada zindana salındı. Kərim xan Zənd də həmin vaxtlar Tehran ətrafında imiş və Ağa Məhəmməd xanla onun görüşü Tehran ətrafında baş vermişdi. Polkovnik Qold Smitin məlumatıpna görə, Ağa Məhəmməd xan əsir götürüldükdən sonra öldürüləcəyini və ya kor ediləcəyini gözləyirdi. Lakin onun əvvəldən cismani cəzaya məruz qalması Kərim xan Zəndi öz qərarından döndərməli oldu. Polkovnik Qold Smit də Kerman hakimiVəkül-ül Mülkdən eşitdiklərinə əsasən bildirir ki, Kərim xan qoşunlarının mühasirəsindən qaçıb Təngsər kəndinə gələnə kimi Ağa Məhəmməd xan heç bir cismani cəzaya malik deyildi. Təngsər məntəqəsində yaralı olduğu halda döyüşə girməsi və yenidən yaralanması ilə Ağa Məhəmməd xan cismani naqisliyə məruz qaldı. Ehtimala görə, Kərim xan Zənd də bundan xəbər tutandan sonra Ağa Məhəmməd xana əlavə cəza verilməsinə ehtiyac görmədi. Jan Gevr öz kitabında bu görüş zamanı Kərim xan Zəndin dediklərini də qələmə almışdır. Kərim xan bildirirdi ki, sən indiki vəziyyətində gərək dünyəvi həyatdan əl çəkib ömrünü axirət dünyasına həsr edəsən. Sonra da əlavə edib ki, əgər mən sənin yerinə olsaydım bundan sonrakı ömrümü ibadətə həsr edərdim, bu dünyada gördüyün məhrumiyyətlərin əvəzində axirət səadətinə yetişmək mümkün olsun (75).

Bundan sonra Kərim xan Zənd onun Şiraza göndərilməsinə göstəriş verdi. Bir daha qeyd edilməlidir ki, Ağa Məhəmməd xanın necə əsir götürülməsi ilə bağlı yuxarıda söylənilənlər təsdiq olunmamış məlumatlardır və onun doğruluğuna şübhə doğuran məqamlar da mövcuddur. Dəqiq məlumdur ki, Ağa Məhəmməd xanın anası Ceyran xanım, Ağa Məhəmməd xanın qardaşı oğlu Babaxan (Fətəli şah) və digər yaxınları da Şirazda Kərim xan Zəndin əsirliyində olmuşlar. Onların Ağa Məhəmməd xanla birlikdə türkmən çöllərində olması və Kərim xan qoşunlarının mühasirəsinə düşməsi də məlum deyil. İstənilən halda belə bir qənaətə gəlmək mümkündür ki, Kərim xan Zənd rəqibi olmuş Məhəmməd Həsən xanın ailəsini və yaxınlarının azadlıqda qalmasından ehtiyatlanmış və onları nəzarət altına almışdı.

Ağa Məhəmməd xanın kiçik qardaşı Hüseynqulu xanın da onunla birlikdə əsirlikdə olması haqqında məlumat mövcuddur. Hüseynqulu xanın iki oğlu var idi. Birincisinin adı Fətəli xan idi. Fətəli xan atasının və həm də əmisi Ağa Məhəmməd xanın babası Fətəli xan Qacarın adını daşıyırdı. Ona görə atası da, Ağa Məhəmməd xan da onu Baba xan deyə çağırardılar. Ağa Məhəmməd şahın qətlindən sonra o, hakimiyyətə gəldi və Fətəli şah kimi tanındı. Buna baxmayaraq, onun şahlığı dövrünə aid olan mənbələrdə Fətəli şah həm də Baba xan kimi xatırlanır.

Tarixi ədəbiyyatda Ağa Məhəmməd xanın Şirazdakı əsirliyi dövründə Hüseynqulu xanın Damğan və Astrabad hakimi olması haqqında da məlumat vardır. Bu məsələ ilə bağlı tarixi məlumatlarda bir aydınlıq yoxdur. Bir müəllif yazır ki, Ağa Məhəmməd xanla Hüseynqulu xan əsirlikdə olarkən Kərim xan Zənd onlara qarşı hüsnü-niyyət nümayiş etdirdi və Hüseynqulu xanı Astrabad hakimi təyin etdi (76). Digər bir müəllifin əsərində isə bildirilir ki, Ağa Məhəmməd xandan fərqli olaraq onun qardaşı əsir götürülməmüş və hətta ona Kərim xan Zənd tərəfindən Qəzvində yaşamaq izni verilmişdi. Bir müddətdən sonra Hüseynqulu xan Qəzvindən Şiraza Ağa Məhəmməd xanın görüşünə gəlir. Bu görüşdən Kərim xan Zənd xəbər tutur və o, Hüseynqulu xanı Damğan hakimi təyin etdi (77).

Bu tarixi ədəbiyyatın heç birində mənbəyə istinad yoxdur. Ona görə verilən məlumatların hansının daha doğru olması haqqında fikir söyləmək çətindir. İstər bu tarixi araşdırmalarda, istərsə də digər tarixi araşdırmalarda Hüseynqulu xanın Damğana gəldikdən sonra ailəsinin düşmənlərinə, müxalifətdə olduqları Yuxarıbaş qacarlarına qarşı mübarizəyə başlaması, hakimliyi altında olan ərazilərin genişləndirilməsinə çalışması haqqında məlumat vardır. Onun qiyamçılıq fəaliyyəti Kərim xan Zəndin sarayında da ciddi narahatçılıqla qarşılandı. Kərim xan hətta qardaşının islah edilməsi üçün Ağa Məhəmməd xanı Damğana göndərmək fikrinə də düşdü. Lakin Kərim xanın ətrafındakılar bunu məsləhət görmədilər (78). Çox güman ki, Kərim xanın ətrafındakılar Ağa Məhəmməd xanın da Hüseynqulu xan tərəfindən başlanan iğtişaşlara qoşulacağından və vəziyyətin daha da təhlükəli xarakter alacağından ehtiyat edirdilər.

Hüseynqulu xanın qiyamı çox da uzun sürmədi. Tezliklə, Kərim xan Zənd tərəfindən göndərilən qüvvələr tərəfindən ona ciddi zərbə vuruldu. Hüseynqulu xan özü isə öldürüldü. Bir qədər irəliyə gedərək bildirmək lazımdır ki, Kərim xan Zəndin ölümündən sonra Mazandarana qayıdan Ağa Məhəmməd xan qardaşı Hüseynqulu xanın dul qalmış xanımını özünə nikah etdirdi (79). Yəni, Ağa Məhəmməd şahın qətlindən sonra hakimiyyəti əldə etmiş Baba xan (Fətəli xan) onun qardaşı oğlu olmaqdan əlavə həm də oğulluğu idi.

Ağa Məhəmməd xan Kərim xan Zəndin vəfat etdiyi günə qədər Şirazda əsir qaldı. Kərim xan Zəndin vəfat etməsi 1779-cu ilə təsadüf edir. Ağa Məhəmməd xanın əsirlik dövrü haqqında da tarixi ədəbiyyatda ziddiyyətli fikirlər vardır. Onun Şirazda xoş gün keçirdiyini, Kərim xan Zəndin hörmətini qazandığını yazanlar da vardır. Amma Ağa Məhəmməd xanın Şirazda öz günlərini heç də xoş keçirmədiyi haqqında məlumatlar daha çoxdur.



*Kərim xan Zənd*

Bəzi məlumatlara görə, Ağa Məhəmməd xan Şirazda kiçik bir daxmada yaşayırdı və ona qarşı bir sıra məhdudiyyətlər müəyyənləşdirilmişdi. Sonradan Ağa Məhəmməd xanın hakimiyyəti illərində Kərim xan Zəndin sümüklərinin onun sarayının kandarında basdırılması da bunun təsdiqi ola bilər. Bu məsələ də ondan xəbər verir ki, Ağa Məhəmməd xan Şirazda Kərim xandan müəyyən sıxıntılar görmüşdü (80).

Hər halda o da məlumdur ki, Ağa Məhəmməd xan Şirazda müəyyən nisbi azadlığa da malik olmuşdu. Bu əsirlik zamanı yaşına uyğun olmayan müdriklik nümayiş etdirmiş, hərəkətlərini kifayət qədər ölçüb-biçmiş, yersiz səbirsizliyə yol verməmişdi. Tarixçilərə görə, Ağa Məhəmməd xan əsirlikdə olduğu müddətdə özünə qarşı çox tələbkar idi və vaxtının boş yerə ötməsini xoşlamırdı. O hər səhər tezdən yuxusundan durub namazını qılar, sonra bir neçə idman hərəkəti edər, üzməklə, piyada gəzməklə məşğul olar, idman hərəkətlərini qurtarandan sonra səhər yeməyini yeyərdi. Onun səhər yeməyi pendir, çörək və sudan ibarət idi. Sonra mədrəsəyə yollanardı. Nahar yeməyindən sonra yenidən kitab mütaliəsi ilə məşğul olardı. Axşam tərəfi isə at sürməklə vaxt keçirər, şəhərdən kənara çıxar, bəzi vaxtlar da şahin quşları ilə ov edərdi. Mənbə məlumatlarına görə, Kərim xan tərəfindən Ağa Məhəmməd xan üçün gündəlik xərclər də ayrılmışdı. O, başqa şəxslərlə birlikdə Kərim xan Zəndin məşvərət iclaslarında iştirak edir və müəyyən hallarda onun da fikri öyrənilirdi (81).

Jan Gevr öz əsərində Ağa Məhəmməd xanın əsirlikdə olduğu vaxt elm və bilik əldə etmək üçün çalışdığından yazır. Kərim xan Zənd əsir götürdüyü Ağa Məhəmməd xanın öz əcdadlarının hakimiyyətinin geri qaytarılması haqqında deyil, elm və bilik haqqında düşünməsini rəğbətlə qarşılayır və buna imkan da yaradırdı. Müəllif Ağa Məhəmməd xanın Şeyx Əli Təcrişi adlı fazil bir insandan təhsil aldığını qeyd edir. Şeyx Əli Təcrişi dövrünün alim şəxslərindən biri idi və ondan elm öyrənməyi Ağa Məhəmməd xan da özü üçün faydalı sayırdı. Ağa Məhəmməd xan hətta xarici alimlərin və müəlliflərin əsərlərinə də xeyli maraq göstərirdi. Jan Gevr yazırdı ki, Ağa Məhəmməd xan Qacar şahları içərisində yeganə şah idi ki, fəlsəfi biliklərə malik idi. Onun fikrincə, Ağa Məhəmməd xanın elmi və fəlsəfi səviyyəsi Qacar şahları içərisində daha məlumatlı hesab edilən Nəsrəddin şahın səviyyəsindən yuxarı idi (82).

Ağa Məhəmməd xan ova böyük maraq göstərirdi. Yuxarıda qeyd edildiyi kimi, o, şahin quşları ilə ov etməyi çox xoşlayırdı. Bəzən günlərlə vaxtını ovda keçirirdi (83). Bu zaman əsirlikdən qaçmaq barədə düşünməzdi. Çünki o bilirdi ki, əsirlikdən qaçmaq vaxtı hələ yetişməyib.

Özünə qarşı Kərim xan Zənd sarayında müəyyən etimad yarada bildiyi üçün günlərlə ovda olsa daonun qaça biləcəyindən şübhələnmirdilər.

Əsirlikdə olduğu vaxt Ağa Məhəmməd xanın qaçmağa cəhd göstərməsi haqqında mənbələrdə və tarixi ədəbiyyatda hər hansı bir fakta rast gəlmək mümkün deyil. Həmin müddət ərzində Ağa Məhəmməd xan qarşılaşdığı məcburi fürsətdən həm fiziki, həm də mənəvi təkmilləşməsi üçün səmərəli istifadə etdi, dünya görüşünü xeyli zənginləşdirdi. Eyni zamanda o, ətrafında baş verənləri yaxından izləyirdi və buna görədir ki, Kərim xan Zənd dünyasını dəyişən kimi Ağa Məhəmməd xan dərhal əsirlikdən qaçmağa müvəffəq oldu.

Jan Gevrin yazdığına görə, Ağa Məhəmməd xan hər zaman Kərim xan Zəndin səhhətini və vəziyyətini izləyirdi. Xüsusilə, Kərim xan Zəndin həyatının son günlərini Ağa Məhəmməd xan şəhərin kənarında olmağa çalışırdı. Müəllifin yazdığına görə, Kərim xan Zəndin dünyasını dəyişəcəyi təqdirdə xəbərin sürətlə ətrafa yayılmaması üçün şəhər darvazalarının bağlanması ehtimalı var idi. Belə olan təqdirdə Ağa Məhəmməd xan əsirlikdən qaçmaq imkanını əldən verə bilərdi. Ona görə Ağa Məhəmməd xan hər gün ov bəhanəsi ilə şəhərdən çıxır və nökərləri vasitəsilə şəhərdə nə baş verdiyini izləyirdi. Nəhayət günlərin birində Ağa Məhəmməd xan ovdan geri qayıdarkən şəhər darvazalarının bağlı olduğunu, kimsənin şəhərə və dışarı buraxılmadığını gördü və anladı ki, Kərim xan Zənd dünyasını dəyişmişdir. Bunu görən kimi Ağa Məhəmməd xan yanındakı iki nəfər nökərlə İsfahana doğru istiqamət götürdü ki, oradan da Tehrana yollansın (84).

Başqa bir tarixi məlumat isə ondan xəbər verir ki, Kərim xan Zəndin ölümü xəbərini Ağa Məhəmməd xan bibisi Xədicə bəyimdən aldı. Xədicə bəyim Kərim xan Zəndə nikah edilmişdi və ona görə onun vəziyyətindən yaxşı xəbərdar idi. Kərim xan dünyasını dəyişən kimi saray məmuru olan Süleyman xan vasitəsilə Xədicə bəyim vəziyyəti Ağa Məhəmməd xana çatdırdı. Ağa Məhəmməd xan da dərhal Şirazdan qaçdı. İsfahan və Tehrandan keçməklə Mazandarana yola düşdü (85).

Mənbələrin birində isə göstərilir ki, Kərim xan Zəndin ölümündən sonra Ağa Məhəmməd xan qardaşları Cəfərquqlu xan, Mehdiqulu xan və bəzi digər qohumları ilə birlikdə Şirazdan qaçdılar. Üç gün ərzində İsfahana və oradan da Mazandarana gəlib çatdılar. Yolüstü Tehranda olarkən bir sıra kürd oymaqlarının rəhbərləri də öz dəstələri ilə birlikdə ona qoşuldular. Ona qoşulmuş kürdlərin köməyi ilə Ağa Məhəmməd xan İraq ( İran İraqı – M.S.) və Mazandaranda Kərim xan xəzinəsi üçün toplanmış vergiləri ələ keçirdi və bu vəsait hesabına ətrafına toplaşmaqda olan dəstəsinin ehtiyacını müəyyən qədər ödəyə bildi (86).

Ağa Məhəmməd xanın əsirlikdən qaçması tək Kərim xan Zəndin ətrafı üçün deyil, elə onun öz qardaşları tərəfindən də birmənalı qarşılanmadı. Onun Mazandaranda yaşayan Mustafaqulu və Murtuzqulu adlı qardaşları Ağa Məhəmməd xanın gəlişinə heç də razı qalmadılar və ona qarşı müxalifət təşkil etdilər. Onlar ətrafına müəyyən adamlar da toplayaraq Ağa Məhəmməd xanın Savadkuhda yolunu kəsdilər. Ağa Məhəmməd xanın yanında olan qardaşı Rzaqulu da müxalifətçi qardaşlarına qoşuldu. Bu müxalifətin mövcudluğunu istəməyən Ağa Məhəmməd xan digər qardaşı Cəfərqulu xanı müxalifətdə olan qardaşlarının yanına göndərdi, onları ittifaqa və iş birliyinə çağırdı. Amma onun bu barışdırıcılıq cəhdi bir nəticə vermədi. Mövcud məlumatlara görə, belə bir qənaətə gəlmək olar ki, müxalifət silahlı qarşıdurma ilə başa çatdı və Ağa Məhəmməd xan bu qarşıdurmadan üstün çıxdı (87).

Ağa Məhəmməd xan əsirikdən qaçıb Mazandarana gələn kimi öz ətrafında qüvvələr səfərbər etməklə iddiasında olduğu hakimiyyət uğrunda mübarizəyə başladı. Bölgədə hakimiyyətə olan iddiasını əcdadlarından qalma hüquq kimi qəbul edən Ağa Məhəmməd xan ölkədə yaranmış hərcmərclikdən istifadə etməklə planlarını daha asan həyata keçirə biləcəyinə ümid edirdi. Bu sahədə Ağa Məhəmməd xanın yalnız iddiaları deyil, həm də onun təşkilatçılıq qabiliyyəti özünü nümayiş etdirdi. Bunun nəticəsi idi ki, çox qısa müddətdən sonra Ağa Məhəmməd xan çox güclü bir hərbi-siyasi qüvvəyə çevrildi.

Mübarizəsinin ilk illərində Ağa Məhəmməd xan öz qardaşları ilə münasibətlərinin sahmanlanması üçün xeyli əziyyət çəkməli oldu. Baxmayaraq ki, ilk müxalifətçilikdən sonra Ağa Məhəmməd xan qardaşlarının günahlarından keçdi və onları ittifaqa çağırdı, bununla belə qardaşların müxalifətçiliyinə son qoyulmadı. Ağa Məhəmməd xan İsfahan üzərinə qoşun çəkməyi planlaşdırdığı bir vaxtda Rzaqulu xan bir daha müxalifətçilik yolunu tutdu və Ağa Məhəmməd xana qarşı çıxdı. Ağa Məhəmməd xan yenidən səbir və təmkin nümayiş etdirdi, ona qarşı mövqe tutan qardaşlarını bu dəfə də ciddi cəzalandırmaqdan çəkindi və digər qardaşı Cəfərqulu xanı barışıq təklifi ilə Rzaqulu xanın yanına göndərdi. Rzaqulu xan tutduğu yolun onun üçün yaxşı qurtarmayacağını anlayıb Ağa Məhəmməd xanın barışıq təklifini qəbul etdi və o vəd etdi ki, bir daha müxalifətçilik yolunu tutmayacaqdır. Ağa Məhəmməd xan qardaşının əfv xahişini qəbul etdi və yenidən İsfahanın ələ keçirilməsi işlərinə girişdi. Bunun üçün Tehran ətrafına gəldi. Buradan Cəfərqulu xanı qoşun dəstəsi ilə Qəzvinin ələ keçirilməsinə və kiçik qardaşı Mehdiqulu xanı isə Larican əhalisinin itaət altına gətirilməsinə göndərdi. Bu arada Rzaqulu xan yenidən Ağa Məhəmməd xana qarşı müxalifətə keçdi, onun qoşunlarından qaçaraq Ağa Məhəmməd xana tabe

olmaq istəməyən Larican əhalisinə qoşuldu. Mövcud məlumatlara görə, Rzaqulu xan sonra da Murtuzqulu xanla birləşdi və onlar birlikdə Ağa Məhəmməd xanın tapşırığını icra edib Qəzvindən qayıdan Cəfərqulu xanın qoşun dəstəsinin qarşısını kəsdilər. Tərəflər arasında baş verən döyüş zamanı Cəfərqulu xanın dəstəsinə ciddi zərbə vuruldu, Cəfərqulu xan özü isə çətinliklə həyatını qurtarıb Astrabadda Ağa Məhəmməd xanla birləşdi (88).

Cəfərqulu xan Astrabadda Ağa Məhəmməd xandan tapşırıq alaraq qardaşları Rzaqulu xanın islah edilməsi üçün onun üzərinə hücum çəkdi. Rzaqulu xan bu qarşıdurmada məğlub oldu və Cəfərqulu xan onu Ağa Məhəmməd xanın hüzuruna gətirdi. Ağa Məhəmməd xan bu dəfə də onu bağışladı və həyatına toxunmadı. Amma Rzaqulu xan yenə islah olmadı və münasib fürsət tapan kimi yenidən Ağa Məhəmməd xana qarşı düşmənçiliyini ortaya qoydu. Təxminən, 1780-ci ildə Ağa Məhəmməd xan qardaşları Cəfərqulu xanla Mustafaqulu xanı Gilanın ələ keçirilməsinə göndərdi. Yenicə barışıq əldə etdiyi Rzaqulu xana isə Larican əhalisini itaət altına gətirməyi tapşırdı. Rzaqulu xan ona tapşırılan vəzifənin icrasına yollanmaqdansa Ağa Məhəmməd xanın divanxanasının yerləşdiyi məntəqəyə daxil olub orada Ağa Məhəmməd xanı mühasirə etdi, Ağa Məhəmməd xanı əsir götürərək onu Mazandaranın Bəndney məntəqəsinə göndərdi. Burada bir müddət onu meşəlik ərazidə həbsdə saxladılar. Ağa Məhəmməd xanın digər qardaşları bu xəbəri eşidən kimi qoşun topladılar və Rzaqulu xanın üzərinə hücum çəkdilər. Rzaqulu xan qardaşlarının birləşmiş qoşunu qarşısında müqavimət göstərə bilməyib qaçmaqla canını qurtardı. Bundan sonra Ağa Məhəmməd xan da həbsdən azad oldu (89).

Məlumdur ki, Rzaqulu xan sonradan Ağa Məhəmməd xana düşmənçilik edən Zənd qoşunlarına qoşuldu, amma Zənd sərkərdəsi yanında da qərar tuta bilmədi və nəhayət Xorasana gələrək orada yaşadı və orada da dünyasını başa vurdu.

"Məssər-e Soltaniyye" əsərinin müəllifi bildirir ki, Ağa Məhəmməd xan bir daha digər qardaşlarına nəvaziş göstərdi. Bununla belə, Murtuzqulu xan daha böyük iddialara düşdü və həmin iddiaların həyata keçirilməsi üçün fürsət yarandığını ehtimal edəndə yenidən sədaqətsizlik və düşmənçilik yolunu tutdu. Ağa Məhəmməd xan yenə də ona nəsihətlərini çatdırdı və onu ittifaqa çağırdı, biri-birilərinə arxa-dayaq durmağın vacibliyini xatırlatdı. Murtuzqulu xan bu nəsihət və təklifləri qəbul etmədi, Əliabad adlı məntəqə yaxınlığında Ağa Məhəmməd xana qarşı səngər qurdu. Qardaşlarının düşmənçiliyi və müxalifətçiliyi Ağa Məhəmməd xana planlarının həyata keçirilməsinə mane olurdu. Ona görə nəsihət və barışıq yolundan imtina edən Murtuzqulu xana qarşı da silah işlədilməsi qərara alındı. Murtuzqulu

xanın üzərinə qacar sərkərdələrindən olan Rza xanın rəhbərliyi altında qoşun dəstəsi göndərildi və elə ilk həmlə nəticəsində Murtuzqulu xanın səngərləri ələ keçirildi. Murtuzqulu xanın təslim olmaqdan başqa çarəsi qalmadı. Ağa Məhəmməd xan bu dəfə də ona qarşı silah qaldırmış qardaşı Murtuzqulunu bağışladı və hətta onu Astrabad hakimi təyin etdi (90).

Sonra Ağa Məhəmməd xan öz fəaliyyətinin genişləndirilməsini davam etdirdi. O, Damğan və Bestama doğru irəlilədi. Bu məntəqələrin hakimi müqavimət göstərməyin mənasız olduğuna görə, Ağa Məhəmməd xanın tələblərini qəbul etdi. Murtuzqulu xan isə Rəşt və Gilan istiqamətinə göndərildi. Murtuzqulu xan bu bölgəni ələ keçirərək oranı Ağa Məhəmməd xanın hakimiyyəti altına gətirməli idi. Bunun üçün onun ixtiyarına böyük qoşun dəstəsi verilmişdi. Murtuzqulu xan bölgənin hakimi Hidayət xanla 45 günlük döyüş apardı. Həmin vaxtdan sonra Hidayət xan müqavimət göstərməkdən əl çəkdi və Şirvana qaçdı. Mövcud məlumata görə, 1782-ci ildə Gilan Ağa Məhəmməd xanın hakimiyyəti altına düşdü. Sonrakı il isə Tehran şəhəri mühasirəyə alındı. Ağa Məhəmməd xanın diqqətinin Tehrandan yayındırılması üçün Mazandaran və Astrabad üzərinə Zənd hakimlərinin qoşun dəstəsi göndərildi. Hərbi şəraitin çətinləşməsinə baxmayaraq, Ağa Məhəmməd xan Tehranın mühasirəsindən əl çəkmədi. Belə bir şəraitdə Murtuzqulu xanla Mustafaqulu xan birdə Ağa Məhəmməd xana qarşı düşmənçilik yolunu tutdular və Zənd qoşunlarına qoşularaq Astrabad üzərinə hücumda iştirak etdilər (91).

Astrabad və Mazandaran üzərinə hücuma Zənd hakimiyyətinə iddialı olan və zəndlərin mərkəzi sayılan Şirazı ələ keçirmiş Əli Murad xanın oğlu Şeyx Veys xan rəhbərlik edirdi. Əli Murad xan bölgəyə çox böyük qoşun dəstəsi göndərmişdi. Ağa Məhəmməd xanın qardaşları çox güman ki, onun basılacağını güman edirdilər və bölgə üçün çətin şəraitdə onlar qardaşlarına deyil, onun düşməninə kömək etdilər. Bununla belə, Ağa Məhəmməd xanın müqavimətini qırmaq mümkün olmadı. Onun mühasirə edilməsi uzandıqca Zənd qoşunları arasında aclıq və qıtlıq artdı, fərarilik çoxaldı. Şeyx Veys xan qoşunların dağıldığını gördükdə özü də qaçmağı qərara aldı, Tehrana gəlib atası Əli Murad xana birləşdi. Qardaşına düşmənçilik yolu tutan Murtuzqulu xan da bölgədən uzaqlaşmaq məcburiyyətində qaldı. O da Əli Murad xanla birləşmək istəsə də tezliklə onun dünyasını dəyişməsi xəbərini aldı. Belə olanda, Ağa Məhəmməd xanın yanına qayıtmağa da cəsarət etməyən Murtuzqulu xan Rəştə çəkilməli oldu (92).

Mənbələrdə Murtuzqulu xanın sonrakı həyatı haqqında geniş məlumat yoxdur. Amma Məlumdur ki, Murtuzqulu xan Rəştə qayıtdıqdan sonra buranın hakimiyyətini ələ keçirdi və Ağa Məhəmməd xana qarşı müxalifət və düşmənçilik yolunu davam etdirdi. Murtuzqulu xan Gilanı öz hakimiyyəti

altında saxlamaqla bu bölgəni Ağa Məhəmməd xanın ərazilərinə qatılmasına imkan vermək istəmirdi. XVIII əsrin 80-ci illərinin sonlarında Ağa Məhəmməd xan Gilanın hakimiyyət altına gətirilməsi üçün cəhdlər göstərdi. Onun bu cəhdləri Murtuzqulu xanın müqaviməti ilə qarşılaşdı. 1787-88-ci illərdə Ağa Məhəmməd xanın qoşunları ilə Murtuzqulu xan arasında döyüş oldu. Bu döyüş haqqında geniş məlumat olmasa da belə bir qənaətə gəlmək olar ki, Ağa Məhəmməd xanın göndərdiyi qoşun dəstəsi üstün gəldi. Çünki Murtuzqulu xan öz hakimiyyətinin qorunub saxlanması üçün Quba xanı Fətəli xandan və Lənkəran xanı Mir Mustafa xandan kömək istədi. Quba xanlığından 230 nəfər, Lənkəran xanlığından isə 600 nəfər Murtuzqulu xanın köməyinə göndərildi. Bununla belə, Murtuzqulu xan qarşısına qoyduğu niyyətinə nail ola bilmədi (93).

1790-cə ildə Murtuzqulu xan Gilanın ələ keçirilməsi üçün yeni bir cəhd göstərdi. Bu dəfə də ona Lənkəran xanlığı kömək edirdi. Murtuzqulu xan yenidən Rəşti ələ keçirməyə müvəffəq oldu. Bu vəziyyətlə barışa bilməyən Ağa Məhəmməd xan 1791-ci ildə 12 minlik qoşun dəstəsi göndərdi. Murtuzqulu xanın və Mir Mustafa xanın birləşmiş qoşunları Talış istiqamətində Ağa Məhəmməd xanın qoşunlarına ağır zərbə vurdu və bu qoşunları geri çəkilməyə məcbur etdi (94).

Başqa bir məlumata görə, Ağa Məhəmməd xanın qoşunlarına 5 xan rəhbərlik edirdi. Qoşunlar uğursuzluğa düçar olanda bu xanlar, o cümlədən Ağa Məhəmməd xana yaxın olan Rza xan və Abbas xan əsir götürüldülər (95). Məlumdur ki, sonradan Murtuzqulu xan 1792-ci ildə Gilanı tərk edərək Həştərxana getdi və orada ruslara sığındı. Ağa Məhəmməd xan isə istər onun, istərsə də onun əsirliyində olan xanların geri qaytarılması üçün bir neçə dəfə Rusiya tərəfinə müraciət etdi. Murtuzqulu xan geri qaytarılmadı və elə Həştərxanda da dünyasını dəyişdi.

Mazandaranda Zənd qoşunlarının müqavimətini qırandan sonra Ağa Məhəmməd xan yenidən öz hakimiyyətini genişləndirmək üçün fürsət əldə etdi. Qısa müddət ərzində Qum, Kaşan ələ keçirildi, İsfahana doğru istiqamət götürüldü. İsfahan hakimi olan Cəfər xan Zənd qacar qoşunları qarşısında müqavimət göstərməyə gücü çatmadı. Bu uğurdan sonra Ağa Məhəmməd xan nəhayət Şirazın ələ keçirilməsi üçün hazırlığa başladı. Bu şəhərin ələ keçirilməsi ilə Zənd nəslinin hakimiyyətdə qalmaq iddialarına güclü zərbə vurulmuş olardı.

XVIII əsrin 90-cı illərinin əvvəlləri Ağa Məhəmməd xan üçün əsasən iki cəbhədə mübarizə aparılması xarakterikdir. Bu cəbhələrdən biri Azərbaycan cəbhəsi idi, digəri isə Zənd cəbhəsi idi. Hər iki istiqamət Ağa Məhəmməd xan üçün strateji əhəmiyyət kəsb edirdi. Azərbaycan istiqamətinə aid olan planlar eyni zamanda Cənubi Qafqazın bütünlüklə ələ

keçirilməsini nəzərdə tuturdu. Bu böyük planın həyata keçirilməsi üçün ölkənin cənubunun hakimiyyət altına gətirilməsi əhəmiyyət kəsb edirdi. Buna görə də XVIII əsrdə Zənd hakimiyyətinin nümayəndəsi olan Lütfəli xanla bir neçə qarşıdurma baş verdi. Nəhayət, 1794-cü ildə Lütfəli xan ələ keçirilərək qətlə yetirildi. Bununla Ağa Məhəmməd xan zəndlər hakimiyyətinə son qoydu və mərkəzləşdirilmiş hakimiyyətin bərqərar edilməsinə nail oldu.

Özünü yeni dövlətin şahı elan etmək üçün Ağa Məhəmməd xan gürcü çarlığını və Azərbaycan xanlıqlarını ələ keçirməyə qərar verdi. Bununla, Ağa Məhəmməd xan Səfəvi dövlətinin və Əfşarlar dövlətinin sərhədləri çərçivəsində Qacarlar dövlətini qurmağa müvəffəq olardı.

Qacarlar dövrünün tarixinə müraciət edən az müəllif tapmaq olar ki, bu və ya digər dərəcədə Ağa Məhəmməd xanın şəxsi keyfiyyətlərinə toxunmasın. Doğrudur, bu zaman daha çox Ağa Məhəmməd xan Qacarla bağlı ənənəvi münasibət qabardılır və onun qəddarlığı və zalımlığı göz önünə gətirilir. Ağa Məhəmməd xan Qacar tarixi ədəbiyyatda az qala qəddarlıq simvolu kimi təqdim olunur və Ağa Məhəmməd xanın həyatı haqqında geniş mütaliəsi olmayan müəlliflər çox zaman bu ənənəvi çərçivədən kənara çıxmağa cürət etmirlər. Sözsüz ki, Ağa Məhəmməd xan öz dövrünün yetirməsi idi, gücün və qüvvətin hökmran olduğu bir dünyanın yetirməsi idi. Dövrün hakimiyyət uğrunda mübarizəsinin və əldə edilmiş hakimiyyətin qorunmasının öz tələbləri var idi. Bu hakimiyyət uğrunda qardaşın qardaşa barışmaz mövqe tutması özünəməxsus mübarizə və mövcudluq yolunun tapılmasını tələb edirdi. Ağa Məhəmməd xan özünə elə bir həyat yolu seçmişdi ki, hakimiyyət uğrunda mübarizəyə qoşulan hakimlərin hər biri o yolu keçmişdi. Ağa Məhəmməd xanla birlikdə hakimiyyət mübarizəsinə qoşulanlar da oxşar yolu keçmək məcburiyyətində idilər.

Ağa Məhəmməd xan Qacarın həyatına və xarakterinə yəqin ki, birmənalı şəkildə yanaşmaq mümkün deyil. Onun qarşısına qoyduğu böyük və mərkəzləşdirilmiş dövlətin yaradılması həm despotluqla və qəddarlıqla müşayiət olunub, həm də siyasi diplomatiya ilə, həm də şəxsi münasibətlərin önə çıxarılması ilə. Bu istiqamətdə onun səbəb ola biləcəyi itkilər, qırğınlar yəqin ki, yalnız onun xarakterinin qəddarlığı ilə deyil, qoşulduğu prosesin mahiyyəti və tələbləri ilə şərtlənməlidir. Onun əcdadlarının bu prosesin qurbanı olduğu kimi, özünün də bu prosesin qurbanı olmayacağına kimsə zəmanət verə bilməzdi və elə bu proseslərin də qurbanı oldu. Bununla belə, dövrünün və tutduğu yolun bütün tələblərini və xüsusiyyətlərini özündə cəmləşdirən Ağa Məhəmməd xan Qacar həm də istedadlı dövlət xadimi idi.

Ağa Məhəmməd xan Qacar qərar tutduğu bölgənin son böyük sərkərdələrindən biridir. Heç bir bazaya malik olmadan bu şəxs böyük bir

dövlətin qurulmasına və özündən sonra da bu dövlətin uzun müddətli mövcudluğuna nail oldu.Ardıcıllıq, məqsədyönlülük, təşəbbüskarlıq kimi keyfiyyətlər, öz ideyası ətrafında yüz minlərlə adamı səfərbər etmək və onları öz ardınca aparmaq bacarığı Ağa Məhəmməd xanı son nəhayətdə böyük bir dövlətin şahına çevirdi. O, Azərbaycan xanlıqları üzərinə hücum edən, Azərbaycan xanlıqları uğrunda Rusiya imperiyası ilə üz-üzə gələn, qəddarlığı və amansızlığı daha çox qabardılan diletatant hakimiyyət həvəskarı yox, uzun müddətli qanlı mübarizələri arxada qoyan ayrı-ayrı hakimlərin at oynatdığı bir ölkədə mərkəzləşdirilmiş dövlət qurmağa nail olan təcrübəli sərkərdə və bacarıqlı dövlət xadimi idi.

Tarixi ədəbiyyatda Ağa Məhəmməd xanın xarakterinin amansızlığı və insanlara qarşı küskünlüyü onun uşaq yaşlarından cismani cəzaya məruz qalması ilə əlaqələndirilir. Onun qəddarlığından söz açanda isə qardaşlarına qarşı kəskin münasibəti, Zəndlərin son hakimi Lütfəli xanı işgəncə ilə qətlə yetirməsi, Kerman əhalisinə və Tiflis sakinlərinə divan tutması nümunə göstərilir. Əlbətdə ki, bu hadisələrdə insan itkilərinin, qırğınların, insan talelərinin sındırılmasının, onun apardığı müharibələrin fəlakətlərinin mövcudluğunu inkar etmək olmaz. Lakin yalnız bu sadalananları da Ağa Məhəmməd xanın xarakterinin əsas göstəricisi kimi qəbul etmək doğru olmazdı.

Uşaqlıq yaşlarından cismani cəzaya məruz qalmış Ağa Məhəmməd xan həyatının qaynar çağlarında, enerjisinin aşıb-daşdığı, hakimiyyət uğrunda mübarizəyə qoşulduğu illərdə onun hansısa son dərəcə amansız qərarlara əl atması haqqında mənbələrdə və tarixi ədəbiyyatda təsdiqləyici məlumatlarla rastlaşmaq mümkün deyil. Onun öz qardaşlarına qarşı qəddarlığını da mütləq şəkildə qəbul etmək doğru olmazdı. Yuxarıda söylənilənlərdən də görmək mümkündür ki, Ağa Məhəmməd xan Qacar dəfələrlə öz qardaşlarının ortaya qoyduğu nifaq və düşmənçilik əməllərinə qarşı barış və sülh nümayiş etdirmişdi. Öz mübarizəsində daha çox qardaşlarına arxalanmaq istəyən Ağa Məhəmməd xanın qardaşları ilə münasibətləri adi ailə münasibətləri deyildi. Bu münasibətlər hakimiyyət uğrunda mübarizə çərçivəsində qiymətləndirilməlidir. Hakimiyyət uğrunda mübarizənin isə öz qanunları var idi. Hakimiyyət uğrunda silahlı iddialara düşən qardaşlar Ağa Məhəmməd xan üçün artıq siyasi rəqiblərə çevrildilər. Dövrün sərt tələbləri şəraitində isə belə münasibətlər döyüş meydanında müəyyənləşdirilə bilərdi.

Ağa Məhəmməd xanla Lütfəli xan Zəndin münasibətləri də siyasi rəqib münasibətləri idi. Bu münasibətlər dövrün mübarizəsinin sərt tələbləri çərçivəsində həll edilməli idi. Necə ki, Kərim xan Zəndin vaxtilə hakimiyyət uğrunda mübarizəsində siyasi rəqib olan Ağa Məhəmməd xanın atası Məhəmməd Həsən xanla siyasi münasibətlərinin aydınlaşdırılması Məhəmməd Həsən xanın qətli ilə başa çatmışdı. Ağa Məhəmməd xanla Lütfəli xan

Zəndin qarşıdurması onların birinin yenilməsi ilə başa çatmalı idi. Bunu Lütfəli xan da yaxşı bilirdi. Ağa Məhəmməd xan tərəfindən bir neçə dəfə yenilməsinə baxmayaraq, yenidən silaha əl atması və Ağa Məhəmməd xan hakimiyyətinə meydan oxuması onun özünün seçdiyi tale yolu idi ki, bu da nəhayətdə onun məhvinə gətirib çıxardı.

Ağa Məhəmməd xanın qəddarlığı ilə əlaqələndirilən Kerman hadisələri də əslində Lütfəli xan Zəndlə aparılan hərbi-siyasi mübarizənin məntiqi nəticəsi sayılmalıdır. Bu məntəqənin Ağa Məhəmməd xanın hakimiyyəti altına düşməsi ilə razılaşmaq istəməyən Lütfəli xan bir neçə dəfə bu şəhərin üzərinə hücum etdi, şəhəri nəzarət altın aldı. Kermanın Ağa Məhəmməd xan tərəfindən ələ keçirilməsi ilə nəticələnən son döyüşdə isə Lütfəli xanın məğlub edilməsi ilə bərabər, böyük dağıntılar da baş verdi. Ağa Məhəmməd xanın Kerman əhalisinə xüsusi qəddarlıq göstərməsi ilə bağlı bir sıra kitablarda çox sayda insanın kor edilməsi fakt kimi ortaya qoyulur. Bu zaman isə həmin kitablarda farsdilli mənbələrə və tarixi ədəbiyyata deyil, əsasən xarici ədəbiyyata istinad edilir. (96).

Mənbələrdə və tarixi ədəbiyyatda Ağa Məhəmməd xan Qacarın xarakterinin müsbət məqamları haqqında da çoxlu fikirlər söylənilmişdir. Həmin məqamları nəzərə almadan yəqin ki, Ağa Məhəmməd xanın xarakteri haqqında tam təsəvvürə malik olmaq çətindir.

Ağa Məhəmməd xanın xarakterindən nisbətən daha geniş danışan Fətəli şahın 49-cu oğlu olan və İzzədüddövlə kimi tanınan Soltan Mahmud Mirzənin "Tarix-e İzzədi" əsəridir. Əsər Ağa Məhəmməd xan ailəsinin üzvlərindən biri tərəfindən qələmə alındığı üçün burada Ağa Məhəmməd xanın xarakterinin bütün tərəflərinin açılmadığı və Ağa Məhəmməd xana hüsnü-rəğbət bəsləndiyi aydındır. Bununla belə, onun təsvir etdiyi məqamlar Ağa Məhəmməd xanın xarakterinin və şəxsiyyətinin dəyərləndirilməsi baxımından maraqlıdır.

Soltan Əhməd Mirzə yazırdı ki, axşamlar Ağa Məhəmməd xan "Şahnamə" əsərini oxutdurar və ona qulaq asarmış (97). Yuxarıda qeyd edildiyi kimi, Ağa Məhəmməd xan hələ Kərim xan Zəndin əsirliyində olarkən elmə və kitab mütaliəsinə xüsusi maraq göstərirdi. Onun "Şahnamə"yə olan marağı da Ağa Məhəmməd xanın elm və bilik səviyyəsi ilə bağlı idi. Tarixi ədəbiyyatda da Ağa Məhəmməd xan elm və biliyə, elm və düşüncə adamlarına olan maraq və ehtiramı öz əksini tapmışdı. Məsələn, bildirilir ki, o, türk (azəri), fars və ərəb dillərini təmiz bilirdi, rus və fransız dilləri ilə tanışlığı var idi. Özü mömin bir şəxs idi, din xadimləri ilə səmimi münasibətdə olardı, bütün yorğunluqlarına baxmayaraq gecə namazlarını yaddan çıxarmazdı (98).

Soltan Əhməd Mirzənin yazdıqlarına görə, bir gün Ağa Məhəmməd xan ova gedirmiş. Yolda bir kəndli onun qarşısına çıxır və deyir ki, Ağa Məhəmməd xanın qardaşı oğlu Hüseynqulu xan ovdan geri qayıdarkən onun ev quşlarından birini zorla alıb özü ilə apardı. Bunu eşidən kimi Ağa Məhəmməd xan saraya qayıdır, Hüseynqulu xanı yanına çağırıb onu tənbeh edir. Ona tapşırır ki, rəiyyət əhlindən aldığı quşu geri qaytarsın və bununla hamı bilsin ki, ölkənin rəiyyəti sahibsiz deyil (99).

Var-dövlətə müəyyən maraq göstərməsinə baxmayaraq öz işi ilə gün-güzəran quranların zəhmətinə Ağa Məhəmməd xan tərəfindən ehtiram göstərilməsi barədə digər faktlar da mövcuddur. Kərim xanın əsirliyindən qaçandan sonra Ağa Məhəmməd xan İsfahana gəlir və burada ac qalmış atı üçün birindən xahişlə bir qədər ot əldə edir. Ağa Məhəmməd xan hakimiyyət sahibi olandan sonra ona İsfahanda ot verən şəxsə hörmətini artıqlığı ilə ödəyir və hətta onu sonralar sarayına gətirib böyük bir vəzifə sahibi edir (100).

Tarixçilər və müəlliflər qeyd edirlər ki, qarşısına qoyduğu məqsədə dinc yolla, siyasətlə çatmaq mümkün olduğu təqdirdə Ağa Məhəmməd xan heç vaxt silaha əl atmazdı. Hətta onu tanıyan şəxslər də şahidlik edirlər ki, Ağa Məhəmməd xanın apardığı siyasət qarşıya qoyulan məqsədə çatmaq üçün yollar açırdı və belə olanda silah gücünə şücaət göstərməyə belə ehtiyac qalmazdı. Qarşısına həmişə real məqsədlər qoyar və onun əldə edilməsi üçün də heç bir maneə və çətinlikdən çəkinməzdi (101).

Dövlət daxili işlərin nizamlanmasında, qoşunların təşkilatlanmasında, onların verilən tapşırıqların icrasına səfərbər edilməsində Ağa Məhəmməd xanın xüsusi məharəti və istedadı var idi ki, bu da onun xarakterinin mühüm cəhətlərindən idi. Qısa müddət ərzində çox böyük əraziləri öz nəzarəti altına ala bilməsi, hərc-mərcliyin baş alıb getdiyi vilayətlərin daxilində əmin-amanlığın, sabitliyin bərpa edilməsi, oğurluq və quldurluğun qarşısının alınması onun dövlət rəhbəri kimi fəaliyyətinin inkaredilməz nəticələridir. O, şahın qarşılanması üçün yerlərdə saysız-hesabsız adamların küçələrə çıxarılmasına, şah qarşılanması üçün əhalinin iş-gücündən ayrı salınmasına son qoydu, daha sadə təşrifat normalarını gündəmə gətirdi. Bu sadəliyi saray yazışmalarında da tətbiq etdi. Əgər əvvəllər şahların dövründə saray tərəfindən hazırlanan məktublarda şahın ləqəbləri, titulları sadalanırdısa və onun vəsfinə çox böyük yer ayrılırdısa, Ağa Məhəmməd xan buna ehtiyac görmədi. O göstəriş verdi ki, şah fərmanları, hökmləri sadə dildə və anlaşıqlı yazılsın. Hətta onun imzalanması üçün gətirilən məktubları, fərmanları əvvəlcə oxutdurar və tələb etdiyi sadə dil normalarına əməl edildiyi təqdirdə onu imzalayardı (102).

Ağa Məhəmməd xanın Əfqanıstan padşahının səfirinin qarşılanmasına göstərdiyi münasibətə görə tarixçilər onun digər dövlət rəhbərlərinə hörmət və ehtiramla yanaşdığını qeyd edirlər. Bildirilir ki, saray əyanları Əfqanıstan səfirinin gəlişi barədə verdikləri məlumatı Ağa Məhəmməd xan qərəzlə qarşılamışdı. Ona məlumat verilmişdi ki, Əfqanıstan padşahının səfiri şah qulamlarının ayaqlarını öpmək üçün süzün hüzurunuza müntəzirdir. Şah da bildirmişdi ki, digər bir ölkə padşahının səfirini bizim qulamlarımızın ayaqlarını öpmək səviyyəsinə endirmək həmin dövlətə qarşı hörmətsizlikdir. Buna görə şah öz əyanını cəzalandırmışdı (103).

Dövlətçilik işindəki məharəti Ağa Məhəmməd xana qarşı xüsusi bir münasibət formalaşdırdı. Ağa Məhəmməd xanın həyatının araşdırıcıları yazırlar ki, ölkənin cənub ərazilərində Ağa Məhəmməd xanın qəddarlığı haqqında bir ümumi baxış mövcud idi. Lakin həmin ərazilərin əhalisi Ağa Məhəmməd xanın şahlığına şübhə etmirdilər. Çünki ölkə daxilində dövlət nizamı hər yerdə hiss edilirdi. Onun yoxsullara qayğı göstərməsi də müəlliflər tərəfindən təsdiq olunur. Ağa Məhəmməd xan dövlət və ölkə həyatından uzaq düşmüş tayfaları da öz siyasətinə cəlb edə bildi, onların daxilində bir fəallaşma yaratmağa nail oldu və buna görə tayfalar daxilində Ağa Məhəmməd xana ehtiram artdı və Ağa Məhəmməd xanın qoşunları bu tayfaların hesabına daha da gücləndi. Buna görədir ki, qısa bir zamanda böyük hərbi uğurların əldə edilməsinə yol açan güclü qoşun dəstələri yaradıldı. Tarixçilər haqlı olaraq qeyd edilər ki, Ağa Məhəmməd xanın qoşunları maddi-texniki təchizat baxımından Nadir şah qoşunlarından və Səfəvi qoşunlarından çox da fərqlənmirdilər. Baxmayaraq ki, bəzi qonşu dövlətlərdə və qərb ölkələrində bu istiqamətdə böyük irəliləyişlər əldə edilmişdi. Ağa Məhəmməd xanın bir sərkərdə kimi istedadı onda idi ki, o öz qoşunlarındakı daxili enerjinin və insan potensialının üzə çıxmasına yol açırdı (104).

Ağa Məhəmməd xan hər zaman qoşunlarının, döyüşçülərinin haqqını qoruyur, onların qayğısına qalırdı. Qoşunların maliyyəsi və haqqları vaxtında çatdırılırdı. Qacarlar dövrünün tarixçiləri qeyd edirlər ki, qələbədən sonra qarətlə məşğul olmaq o dövrün müharibələrinin xarakterik əlaməti idi. Amma Ağa Məhəmməd xan bir qayda olaraq qoşunlarına icazə vermirdi ki, işğal olunmuş ərazilərin yağmalanması ilə məşğul olsun. Məlumdur ki, bu məsələdə istisnalar da mövcuddur. Məsələn, Lütfəli xan Zəndin zərərsizləşdirilməsi üçün Kerman üzərinə edilmiş hücum zamanı. Görünür, Lütfəli xanın sakitləşməməsi, onun təkrar-təkrar Kermanı döyüş meydanına çevirməsi cəhdi Ağa Məhəmməd xanı hövsələdən çıxarmışdı. Ona görə də Ağa Məhəmməd xan qoşunlarına icazə verdi ki, Lütfəli xan tutulub təhvil verilən kimi şəhər əhalisi də cəzalandırılsın, əhali var-yoxdan çıxarılsın. Hətta şah silahlıları yerli əhalinin müəyyən hissəsini əsir götürərək Tehrana

gətirmişdilər. Bir müddətdən sonra Kermanın hörmətli adamlarından bir neçəsi Qacar xanının yanına gəldilər və ondan xahiş etdilər ki, əsir götürülmüş kermanlılar geri qaytarılsın. Ağa Məhəmməd xan belə cavab verdi ki, mən qoşunlarımın əlində olan şeylərin onlardan geri alınmasına heç vaxt razı olmaram. Amma kermanlıların öz əsir düşmüş həmyerlilərini döyüşçülərdən pulla alınmasına isə etiraz etmirəm(105). Yəni, Ağa Məhəmməd xan verdiyi icazə əsasında döyüşçülərini tutduqları əməllərə görə peşman etmədi, əksinə onları narazı salmamağa çalışdı. Bu isə öz növbəsində qoşunlar tərəfindən lazımınca qiymətləndirilir və qoşunların Ağa Məhəmməd xana bağlılığını artırırdı. Ağa Məhəmməd xanın hərbi-siyasi uğurlarının başlıca səbəblərindən biri də sözsüz ki, onun güclü qoşun yarada bilməsi idi. O, Azərbaycan xanlıqlarını itaət altına gətirməyi və Cənubi Qafqazı öz dövlətinin sərhədləri daxilinə salmağı da məhz bu qoşunlara arxalanaraq planlaşdırırdı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. ج.اول. تهران،۱۳۸۳، ص.۳
2. اعتضاد السلتنه، علی قلی میرزا. اکسیر ات تواریخ. تهران، ۱۳۷۰، ص. ۷
3. Yenə orada, s.8
4. دنبلی ا. ماثر سلطانیه. تهران، ۱۳۸۴، ص.۳۱-۳۲
5. خاوری شیرازی .تاریخ ذلقرنین.ج.اول،تهران، ۱۳۸۰، ص.۱۹-۲۰
6. لسانالملک سپر . تاریخ قاخاریه.خ.اول، تهران، ۱۳۷۷، ص.۸۰۹
7. Бакиханов А, Гюлистани-Ирам. Баку, 1991, с.172
8. پری ج. کریم خان زند. تهران، ۱۳۶۵، ص. ۵۳
9. ملکلم کلمنت. تاریخ ایران در دوره قاجار. تهران، ۱۳۶۴، ص. ۲۰
10. نخمی ناصر . عباس میرزه. تهران، ۱۳۷۴، ص.۱۳
11. نخمی ناصر،ص.۱۴
12. نخمی ناصر،ص.۱۵
13. نخمی ناصر،ص.۱۷
14. نخمی ناصر،ص.۱۷
15. موسوی تبری. عباس میرزا قاجار. تهران، ۱۳۵۳، ص.۱۲
16. میر هاشم مهدس. تاریخ قزلباشی. تهران، ۱۳۶۱، ص.۵۹
    تهرانی شفق. ایران دربار.تهران، ۱۳۸۵، ص.۱۲۸
17. نوایی ا. ایران و جهان. از قاجاریه تا پایان عهد ناصری. تهران، ۱۳۶۹، ص.۱۴
18. نوایی ا. ایران و جهان. از قاجاریه... ص.۱۴
19. نوایی ا. ایران و جهان. از قاجاریه... ص.۱۴
20. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران... ص.۳۲
21. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران... ص.۳۵
22. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران... ص.۳۷-۳۸
23. ،نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران..س ۵۳ دنبلی . ماثر سلطانیه.. ص.۳۵
24. .تاریخ ذلقرنین.ج.اول ...س.۲۱-۲۲
25. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران... ص.۵۳
26. دنبلی ، ص.۳۶
27. محمد کاظم مروی.عالم ارای نادری. جلد اول، تهران، ۱۳۵۸، س.۲۷-۲۸
28. دنبلی س.۳۸، تاریخ ذلقرنین ص.۲۲
29. دنبلی س.۳۸-۳۹، نفیسی ص.۵۵
30. دنبلی ص.۳۹
31. تهرانی محمد شفی. تاریخ نادر شاه. ـهران، ۱۳۴۹، ص.۲۸۰
    لکارت. انقراز سلسله صفوی.تهران، ۱۳۸۳، ص.۳۲۷
32. حانوی ج. زندگی نادر شاه. تهران، ۱۳۸۳، س.۲۲، تهرانی م. ص.۲۸۸
33. تهرانی م. ،۲۸۸
34. لکارت . انقراز، ۳۹۳-۳۹۴

35. مروی م.ک. جلد اول ، ۵۴
36. دنبلی س.۴۱، نفیسی س. .37استرابادی م. تاریخ جهانگشای نادری. تهران،۱۳۶۸، ۸۱
۵۴
38. مروی م. جلد سوم، ۹۶۰ Локкарт Л. Надир шах. Баку,2004, c.291
39. حانوی. زندگی، ۲۹۴
40. مروی م. جلد سوم، ص.۹۶۳
41. تاریخ ذلقرنین
42. نفیسی س. ص.۵۴-۵۵
43. تاریخ ذلقرنین، جلد اول، ص.۲۵
44. افراسیابی ب. عقاب کلات. تهران، ۱۳۷۰، ص.۸۳۹
45. پری ج، ص.۶
46. پری .، ص.۳۲ج
46a. دنبلی ا. س.۲۳، تاریخ ذلقرنین ، جلد اول، ص.۲۵
47. پری ج. س.۵۵-۵۶
48. پری ج. س.۵۶-۵۷
49. دنبلی ، .۴۳، تاریخ ذلقرنین، ص.۲۶
50. دنبلی، .۴۴، تاریخ ذلقرنین،ص. ۲۶
51. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010, s.41
52. نفیسی، ۵۶-۵۷
53. نفیسی، ۵۷
54. پری، ۱۰۸-۱۰۹
55. نفیسی، ۶۰
56. پری، ۱۱۴
57. نفیسی، ۶
58. پری، ۲۰۲
59. پری، ۲۰۳
60. نفیسی، ۶۲
61. پناهی سمنانی. اغا محند خان قاجار/ تهراتریال ۱۳۶۶، ص.۱۰۸
62. زندگینامه .www.tebyan.net/MainComponents/printpage.htm
63. Yenə orada
64. پری، ۶
65. نفیسی، ۷۰
66. پاکروان ا. اقا محمد خان قاجار. تهران، ۱۳۶۸، ص.۴۸، مالکلم ک. ۲۰
67. پناحی سمنانی، ۱۰۳
68. پناحی سمنانی، ۱۰۴
69. ژان گءور. خاجه تاجدار.تهران، ۱۳۶۶، ص.۲۶۰
70. ژان گ،۲۶۲،
71. پری، ۱۱۵
72. ژان گ،۲۵۴
73. ژان گ، ۲۵۴-۲۵۸

74. ژان گ، ۲۵۹
75. ژان گ، ۲۶۷
76. نوایی، ۱۶
77. نفیسی،
78. پری، ۲۱۶
79. نفیسی، ۶۵
80. پناحی سمنانی، ۱۱۱
81. پناحی سمنانی، ۱۱۲-۱۱۳
82. ژان گ، ۲۷۲
83. پری، ۲۱۷
84. ژان گ، ۳۵۸-۳۶۱
85. پری، ۲۱۹
86. دنبلی، ۴۹-۵۰
87. دنبلی، ۴۹-۵۰
88. دنبلی، ۵۱
89. تاریخ ذلقرنین، ۳۴
90. دنبلی، ۵۳
91. دنبلی، ۵۵
92. دنبلی، ۵۶
93. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, s.191
94. Yenə orada, s.192
95. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, СпБ, 1886, с.5
96. پناحی سمنانی، ۱۷۷
97. شاهزاده ایزد الدوله. تاریخ ایزدی. تهران، ۲۵۳۵، ۱۴۰
98. زندگینامه....
99. شاهزاده ایزدالدوله، ۱۴۱
100. نفیسی، ۷۰
101. نفیسی، ۷۹
102. نفیسی، ۷۹-۸۰
103. نفیسی، ۸۰
104. پاکروان ا، ۱۵-۱۸
105. نفیسی، ۸۰

# V FƏSİL

## AZƏRBAYCAN XANLIQLARI ŞİMALDAN VƏ CƏNUBDAN DOĞAN TƏHLÜKƏLƏRİN KƏSİŞMƏSİNDƏ

### *1.Ağa Məhəmməd xan Qacarın Azərbaycan xanlıqları üzərinə yürüşü*

1795-ci ilin əvvəllərində Ağa Məhəmməd xan Tehranda idi və növbəti hərbi yürüşlərin həyata keçirilməsi üçün havaların istiləşməsini gözləyirdi. Tehranda olduğu zaman Ağa Məhəmməd xan qarşısına qoyduğu planların həyata keçirilməsi üçün diplomatik vasitələrə əl atdı və yuxarıda yazılanlardan məlum olduğu kimi o, Azərbaycan xanlarına məktub göndərib onları Qacar hakimiyyətini qəbul etməyə çağırdı, Rusiya sarayı ilə müəyyən təmaslar qurmağa çalışdı. Kənar cəhdlərinə baxmayaraq, Ağa Məhəmməd xan yaxşı anlayırdı ki, Azərbaycan xanlıqlarını Qacar hakimiyyəti altına gətirmək üçün hərbi vasitəyə əl atmalı olacaqdır.

1795-ci ilin baharının başlanğıcında Ağa Məhəmməd xan qoşun vəziri Mirzə Əsədulla xan Nuriyə qoşun toplamaq haqqında göstəriş verdi (1). Tehranın kənarında düşərgə quruldu və qoşunların toplanması da həmin düşərgədə aparıldı. Tarixi ədəbiyyatda olan məlumata görə, qoşun toplanışına başlananda Ağa Məhəmməd xan öz niyyətini gizli saxlayırdı. Hətta onun ən yaxın adamları və əyanları belə qoşunların nə məqsədlə toplanmasından xəbərsiz idilər (2).

Novruz bayramından bir müddət sonra toplanmış qoşunların Ərdəbilə doğru hərəkət etməsi barəsində göstəriş verildi. Ağa Məhəmməd xan növbəti hərbi yürüşü başlamazdan əvvəl öz hakimiyyətinin möhkəmləndirilməsi üçün bəzi təyinatlar həyata keçirdi. Hacı İbrahim Şirazi vəzir vəzifəsinə gətirildi, Qəzvin bəylərbəyi Mirzə Məhəmməd xan isə Tehran hakimi təyin edildi (3). Qəzvin bəylərbəyi vəzifəsi də Ağa Məhəmməd xanın etibar etdiyi adamlardan birinə həvalə olundu.

1795-ci ilin novruz bayramından 40 gün sonra Ağa Məhəmməd xanın qoşunları hərəkətə başladı və bir müddətdən sonra Ərdəbil yaxınlığına yetişdi (4). Qacar qoşunlarının sayı haqqında tarixi ədəbiyyatda müxtəlif məlumatlar mövcuddur. Bir əsərdə onların sayı 50 min (5), birində 85 min,

başqa birində isə 50-100 min (7), digərində 100 min (8) göstərilir. Qacar qoşunlarının sayı barədə digər rəqəmlərə də rast gəlmək mümkündür. Farsdilli mənbələrə əsaslanan tarixi ədəbiyyatda isə Ağa Məhəmməd xanın 60 min nəfərlik qoşunla Ərdəbil ətrafına gəldiyi bildirilir (9). Qoşunların əsasını atlılar təşkil edirdi.

Azərbaycan xanlıqları üzərinə hücum ərəfəsində bölgədə Ağa Məhəmməd xan üçün qismən əlverişli olan hərbi-siyasi şərait mövcud idi ki, o da bu şəraitdən bəhrələndi. Əvvəla, Cənubi Qafqazda rus qoşun bölmələri yox idi və Ağa Məhəmməd xan rus qoşunları tərəfindən heç bir müqavimətlə rastlaşmayacaqdı. Digər tərəfdən isə Azərbaycan xanlıqları arasında birlik və yekdillik yox idi. Başqa sözlə, Cənubi Qafqazda Ağa Məhəmməd xana qarşı cəbhə formalaşmamışdı. Baxmayaraq ki, həm Azərbaycan xanlıqları, həm də gürcü çarlığı öz müstəqilliklərini qoruyub saxlamaq istəyirdilər.

Azərbaycan xanlıqlarından bəziləri Ağa Məhəmməd xana qarşı fəal cəbhə tutmuşdular. İlk növbədə Qarabağ xanlığı Qacar qoşunlarının hücumuna ciddi müqavimət göstərməyi qərara aldı. Bu xanlıq Azərbaycan xanlıqları içərisində güclü xanlıqlardan olduğu üçün Ağa Məhəmməd xan qoşunlarının əsas zərbələrindən biri bu xanlığa qarşı istiqamətlənmişdi. Qarabağ xanlığını işğal etmədən Arazın şimalında möhkəmlənmək elə də asan olmazdı. Ağa Məhəmməd xanın bu niyyəti Qarabağ xanlığı üçün də aydın idi. Ona görə İbrahim xan Ağa Məhəmməd xan hücumunun təhlükəsini gözləyən qonşu xanlıqları öz ətrafında birləşdirməyə cəhd göstərdi. Bu baxımdan İbrahimxəlil xan tarixi ədəbiyyatda Qacar qoşunlarına qarşı mübarizənin təşkilatçısı kimi xarakterizə olunur. İbrahim xanın gürcü çarı II İrakli ilə ittifaqı var idi və Ağa Məhəmməd xan təhlükəsi onları birlikdə müqavimət göstərməyə sövq edirdi. Əslində elə bu təhlükə onları yenidən ittifaq münasibətlərinə gətirib çıxardı. Gürcü çarı oğlu şahzadə Aleksandrın rəhbərliyi altında Qarabağ xanlığının yardımına silahlı dəstə də göndərdi (10).

Qarabağ xanı Qacar qoşunlarına qarşı Xoy və Urmiya xanları tərəfindən dəstəklənirdi. Səmərəli müqavimətin artırılması üçün Qarabağ xanlığı ərazisində avar hakimi Ümmə xan tərəfindən göndərilmiş silahlı dəstə də var idi. İbrahim xan Qacar qoşunlarına qarşı fəal müdafiə tədbirləri həyata keçirməsi Şimalı Qafqazdakı ruslar tərəfindən də izlənilirdi və görünür onlar İbrahim xanın imkanlarının Rusiya maraqları üçün təhlükə yarada biləcək Ağa Məhəmməd xana qarşı daha səmərəli istiqamətlənməsinə çalışırdılar. Amma İbrahim xanda ruslara qarşı etibar və etimad qalmamışdı (11). Yəqin ki, İbrahim xan ruslar tərəfindən hər hansı bir köməyin gələ biləcəyini də gözləmirdi.

Şamaxı xanı Mustafa xanla Lənkəran xanı Mir Mustafa xan da Ağa Məhəmməd xana qarşı cəbhə tutmağa üstünlük verdilər. Mustafa xan Qacar qoşunlarına müqavimət göstərilməsi üçün Fitdağ qalasına çəkildi və qalanın möhkəmləndirilməsi üçün lazımi tədbirlər həyata keçirməyə başladı. Tədqiqatçılar müqavimətin gücləndirilməsi üçün Mustafa xanın Qarabağ xanı və digər xanlarla birgə fəaliyyətə meylli olmasından da yazırlar (12). Tarixdən məlumdur ki, Mustafa xan sonradan da öz antiqacar mövqeyindən əl çəkmədi və buna görə Qacar qoşunlarının hücumuna da məruz qaldı. Həmin dövrdə Mustafa xan müstəqilliyini qorumaq üçün bir daha Rusiya hakimiyyət dairələri ilə əlaqə saxlamağa və Rusiya yardımını almağa cəhd göstərdi.

Lənkəran xanı Mir Mustafa xan isə Ağa Məhəmməd xanla köhnə ədavətə malik idi. Xüsusilə, Mir Mustafa xanın qardaşı Murtuzqulu xanla əməkdaşlıq etməsi, Mir Mustafa xanla Murtuzqulu xanın qoşunlarının birlikdə Ağa Məhəmməd xanın qoşunlarına qarşı mövqe tutması onların hər ikisinin Ağa Məhəmməd xana qarşı Rusiyadan kömək almağa çalışması Ağa Məhəmməd xanın qəzəbinə səbəb olmuşdu. Mir Mustafa xan birmənalı şəkildə Qacar xanına qarşı idi və Qacar təhlükəsindən nicat tapmaq üçün Sara adasında olan azsaylı rus silahlı dəstəsinin himayəsinə ümid edirdi.

Bakı xanı Hüseynqulu xan Rusiyanın himayəsini qəbul etməyə çalışsa da, Ağa Məhəmməd xanın hücumu ərəfəsində buna nail ola bilmədi və ona görə də o, xanlığın talan olunmasının qarşısını almaq üçün Ağa Məhəmməd xanın şərtlərini qəbul etməli oldu (13).

Irəvan xanlığı ilə Naxçıvan xanlığı da Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etmək istəməyənlər sırasında idilər. Onların bu qərarı son nəticədə Qacar qoşunları ilə hərbi qarşıdurmaya gətirib çıxardı.

Gəncə, Şəki və Quba xanlıqları isə Ağa Məhəmməd xanla əməkdaşlıq yoluna meyllilik nümayiş etdirdilər. Bu isə əslində onların taktiki manevri, hakimiyyətin qorunub saxlanması üçün qəbul edilmiş qərar idi. Gəncə xanı Cavad xan Ağa Məhəmməd xana tabeçiliyi qəbul etməklə xanlığın gürcü çarlığı ilə Qarabağ xanlığı arasında bölüşdürülməsinin qarşısını almağa çalışırdı. Çünki gürcü çarı ilə Qarabağ xanı İbrahim xan artıq Gəncə xanlığının yenidən bölüşdürülməsi haqqında ittifaqa girməsi Gəncə xanlığı üçün real təhlükə təşkil edirdi. Cavad xan da ümid edirdi ki, Ağa Məhəmməd xanla əməkdaşlığa getməklə ona qarşı cəbhə tutan hakimlərin zərərsizləşdirilməsinə nail olacaqdır.

Mövcud olan məlumatlara görə, Şəki xanı Məhəmməd Həsən xan da öncə Qacar qoşunlarına qarşı müqavimət göstərmək niyyətində idi (14). Lakin sonradan Şəki xanı Qacar xanı ilə əməkdaşlığı öz maraqlarına uyğun saydı və belə də etdi. Quba xanının Rusiya himayəsinə olan meylinə

baxmayaraq, Ağa Məhəmməd xanın tələblərini qəbul etməsi də konkret şəraitdə Şeyxəli xan tərəfindən məqsədəuyğun sayılırdı və yuxarıda deyildiyi kimi, Şeyxəli xan bu qərarı ilə daha geniş ərazilərin hakiminə çevriləcəyinə ümid edirdi. Çox güman ki, Rusiya hakimiyyəti Şeyxəli xanın arzusunda olduğu şərtlər daxilində Quba xanlığına yardım göstərsəydi, Şeyxəli xan da Qacar qoşunlarının hücumu ərəfəsində Rusiyaya qarşı etimadsızlıq nümayiş etdirməzdi.

Ağa Məhəmməd xan öz planlarını həmişə gizli saxlamağa çalışsa da çoxsaylı qoşunların Ərdəbil ətrafına gəlməsinin məqsədinin nə olduğu heç şübhəsiz ki, Azərbaycan xanlarına və gürcü sarayına aydın idi. Ağa Məhəmməd xanın Ərdəbil ətrafına gəlməsi ilə Azərbaycan xanlıqları üzərinə hücuma keçməsi vaxtı arasında bir neçə aylıq fasilə vardır. Həmin fasilə ərzində Ağa Məhəmməd xan öz nümayəndələrini Şimali Qafqazda dayanan general Qudoviçin yanına göndərdi və Rusiya ilə qarşılıqlı münasibətlər qurulmasına cəhd göstərdi (15).

Ağa Məhəmməd xanın bu cəhdi tarixi baxımdan maraq doğura bilər. Çünki Qacar qoşunlarının Cənubi Qafqaza hücuma əməli hazırlıq dövründə general Qudoviçin Ağa Məhəmməd xanın elçilərini təhqir edib geri göndərməsi anlaşılan deyil. Cənubi Qafqazı öz maraq dairəsi hesab edən Rusiya məmurları belə münasibət nümayiş etdirməklə Ağa Məhəmməd xana əlavə bəhanə vermiş oldular.

Ağa Məhəmməd xan 1795-ci ilin yayında qoşunlarla Araz çayını adlamağı qərara aldı. Xan, ümumi hərəkətə başlamazdan əvvəl bəzi təhlükəsizlik tədbirlərinin icrasına diqqət yetirdi. O, Məhəmməd Hüseyn xan Qovanlıya göstəriş verdi ki, bir silahlı dəstə ilə qoşunların keçidi üçün nəzərdə tutulan Xudafərin körpüsünün ətrafında mühafizə postu qursun və bu körpünün İbrahim xan tərəfindən dağıdılması təhlükəsinin qarşısını alsın. Məhəmməd Hüseyn xan göstəriş alan kimi Xudafərin körpüsünə doğru hərəkətə başladı. Lakin o yetişəndə körpü artıq dağıdılmışdı. Qarabağ xanı İbrahim xan xanlığın müdafiəsi planları daxilində Xudafərin körpüsünün bir hissəsini dağıtmaqla onun üzərindən keçidi mümkünsüz vəziyyətə saldı. Bu xəbəri eşidəndə Ağa Məhəmməd xan qoşun sərkərdələrindən olan Süleyman xana göstəriş verdi ki, qoşun daxilində olan bənnaları və ustaları toplayıb Xudafərin körpüsünün təmirinə yollansın. Süleyman xan da bu tapşırığı icra etdi və Xudafərin körpüsünün təmiri qısa zamanda həyata keçirildi. Təmir işləri gedişində Xudafərin körpüsünə dörd yeni aşırım əlavə edildi (16).

Xudafərin körpüsünün təmiri başa çatandan sonra Ağa Məhəmməd xanın qoşunları Azərbaycan xanlıqları üzərinə hücuma başladı. Qacar qoşunlarının hücumu üç istiqamətdən təşkil olundu. Mustafa xan Qacarın rəhbərliyi altında olan qoşun dəstəsi Lənkəran xanlığının işğalına və

Lənkəran xanı Mir Mustafa xanın cəzalandırılmasına göndərildi. Sonradan Ağa Məhəmməd xan göndərdiyi qüvvənin Lənkəran xanlığının nəzarət altına alınması üçün kifayət etməyəcəyi qənaətinə gəldi və əlavə olaraq Süleyman xanın rəhbərliyi altında olan 5 min tüfəngdarı və Məhəmməd Hüseyn xanın rəhbərliyi altında olan 3 minlik dəstəni Mustafa xan Qacarın köməyinə göndərdi (17).

Ağa Məhəmməd xan Lənkəran xanının ona qarşı barışmaz mövqe tutmasından və hakimiyyətinə müxalifətdə olan qardaşı Murtuzqulu xanla əməkdaşlıq etməsindən çox qəzəbli idi. Buna görə, Qacar qoşunları tərəfindən Lənkəran xanlığı əhalisinə güclü zərbə vurulacağı, xanlıq ərazisində amansızlıq göstəriləcəyi gözlənilən idi. Mənbələr və tarixi ədəbiyyatda olan məlumatlar da Qacar qoşunlarının belə amansızlıqla hücuma keçdiklərini nümayiş etdirir (18).

Ağa Məhəmməd xan qoşun rəhbərliyinə göstəriş vermişdi ki, Mir Mustafa xan tabe olmağı qəbul edərsə, hücum dayandırılsın və qoşunlar geri qayıtsın. Əks təqdirdə isə düzənlik istiqamətindən xanlıq üzərinə hücum edilsin və xanlığın müqaviməti qırılsın. Tarixi ədəbiyyatda Lənkəran xanlığı üzərinə təşkil edilən hücumun istiqamətləndirilməsi üçün Ağa Məhəmməd xanın Talışla Muğan arasında yerləşən Adınabazar adlı məntəqəyə gəldiyi də bildirilir. Qacar qoşunlarının Lənkəran qalası üzərinə hücumu zamanı yerli əhalidən onlara kömək göstərənlər də oldu və qarşılıqlı səylər nəticəsində tezliklə Lənkəran qalası süqut etdi. Qalaya od vuruldu və Qacar qoşunları Lənkəran şəhərində yerləşdilər. Vəziyyət mürəkkəbləşdiyi üçün Mir Mustafa xan əmlakını və ailəsini gəmilər vasitəsilə Salyana göndərdi. Görünür, Ağa Məhəmməd xan bunu əvvəldən hiss edirmiş. Ona görə Salyan hakiminə və əhalisinə xəbər göndərdi ki, Mir Mustafa xanın yaxınlarının Salyana çıxmasına icazə verilərsə, Salyan əhalisi də qılıncdan keçiriləcək. Bundan ehtiyatlanan Salyan əhalisi Mir Mustafa xanın yaxınlarının Salyana daxil olmasına icazə vermədilər. Belə olanda, gəmilər geri dönüb Sara adasına doğru istiqamət götürdülər (19).

Qacar qoşunlarının rəhbəri Mustafa xan Qacar Gilandan olan tüfəngdarlara gəmiləri izləməyi tapşırdı. Gilan tüfəngdarları Mir Mustafa xanın yaxınlarını aparan gəmiləri izləməklə onların bir hissəsini ələ keçirməyə müvəffəq oldular. Tarixi ədəbiyyatda Mir Mustafa xanın əmlakının müəyyən hissəsinin Qacar silahlılarının əlinə düşdüyü bildirilir. Sara adasında olan rus toplarından açılan atəşlər bütün gəmilərin ələ keçirilməsinə imkan vermədi. Sonradan Lənkəran daxilində talanlar davam etdirildi. Təhlükədən nicat tapmaq üçün dağlara və meşəliklərə üz tutan əhali də qoşunların təqibindən qurtara bilmədi. Yerli əhalidən çoxlu sayda

əsir götürüldü və onlar ailələri ilə birlikdə Ərdəbil ətrafındakı Tənkabinə və Əşrəfə köçürüldü (20).

Mənbələrdə olan məlumatlar bunu deməyə əsas verir ki, Lənkəran xanlığı üzərinə hücum başa çatandan sonra Ağa Məhəmməd xan Xudafərin körpüsü üzərindən Araz çayını adladı və bundan sonra Mustafa xanın rəhbərliyi altında olan qoşun dəstəsini Qafanda olan ermənilərin zərərsizləşdirilməsinə göndərdi. Mustafa xanın dəstəsi Qafan istiqamətində olan ermənilərə də güclü zərbə vurdu. Onlardan çoxlu əsir götürüldü və 116 nəfərinin isə edam edildiyi bildirilir. Gətirilmiş əsirlər qoşun arasında bölüşdürüldü. Sonra Rzaqulu xanın rəhbərliyi altında olan dəstə ətraf məntəqələrin birinə göndərildi. Bunun hansı məntəqə olması isə mənbələrdə açıqlanmamışdır (21).

Qacar qoşunlarının başqa bir dəstəsi Ağa Məhəmməd xanın qardaşı Əliqulu xanın rəhbərliyi altında İrəvana doğru istiqamət götürdü. Mənbələrdən aydın olur ki, Qacar qoşunları İrəvana doğru hərəkətə başlayanda da Ağa Məhəmməd xanın Şuşa qalası üzərinə hücumu hələ başlamamışdı və o hələ Qaratəpə adlı məntəqədəki düşərgəsində idi (22).

Həmin il iyulun axırı Ağa Məhəmməd xanın qardaşlarının rəhbərliyi altında olan qoşun dəstəsi İrəvan qalasını mühasirəyə aldı. Ağa Məhəmməd xanın hakimiyyəti altına düşmək istəməyən Məhəmməd xan ona müqavimət göstərmək qərarına gəldi. Lakin o, açıq döyüşə girməkdən çəkinərək qalaya sığındı. Qala daxilində müdafiəyə çəkilmək üçün müəyyən hazırlıq işləri də görülmüşdü. Qalaya toplanan ərzaq ehtiyatı 7 il mühasirədə dayanmağa imkan verirdi. Qala qarnizonun sayı da artırılmışdı. Mühasirənin uzun çəkə biləcəyini güman etdiyi üçün Məhəmməd xan qalaya toplaşan döyüşçülərə özləri ilə ailələrini də gətirməyə icazə vermişdi. Arvadı çox olan döyüşçülər onlardan yalnız birini qalaya gətirə bilərdilər (23).

Bəzi tarixi araşdırmalarda Ağa Məhəmməd xanın Qafqaza yürüş etməsi ilə Qarabağ, İrəvan və digər xanlıqların dərhal ona təslim olduğunu bildirirlər (24). Əslində isə belə deyildi. İrəvan xanı Məhəmməd xan qalada müdafiə olunmağa başladı və uzun müddət Ağa Məhəmməd xanın qoşunlarına uğurlu müqavimət göstərdi. Bu da Ağa Məhəmməd xanın qəzəbinə səbəb oldu. Çünki elə də çox olmayan xanlıq qoşunlarının çoxsaylı qoşunlara müqavimət göstərməsi Ağa Məhəmməd xanı heç də qane etmirdi.

Qacar qoşunları İrəvan xanlığı ərazisində olanda Şuşa qalası üzərinə də qoşun dəstəsi göndərildi. Arxa yolların təhlükəsizliyinin təmin edilməsi üçün Ağa Məhəmməd xanın tapşırığı əsasında Əbdülrəhim xan Şirazi və Çıraq xan Bəxtiyari Xudafərin körpüsünün mühafizəsi və onun ətrafında səngərlər qazılması üçün saxlanıldı. Sonra isə Süleyman xanın və Mustafa xanın rəhbərliyi altında 10 min nəfərlik qoşun dəstəsi Şuşa qalası üzərinə

göndərildi. Bu dəstə Şuşaya doğru irəliləyərək yolda İbrahim xanın qarovul dəstəsi ilə qarşılaşdı. İbrahim xanın azsaylı dəstəsi Qacar qoşunları qarşısında müqavimət göstərə bilməyib geri çəkilmək məcburiyyətində qaldı. Qacar qoşunları Şuşa qalasına yetişərək onu mühasirəyə aldı. Bundan sonra Ağa Məhəmməd xan Qacar da qoşunların əsas hissəsi ilə Şuşa ətrafına yetişdi. Onun göstərişi əsasında qala vuran toplar döyüş mövqeyinə çıxarıldı. Ağa Məhəmməd xan eyni zamanda Mustafa xanın rəhbərliyi altında 500 nəfərlik bir dəstəni Əsgəran istiqamətinə göndərdi ki, orada Qarabağ xanına kömək gələ biləcək yolları kəssin. Rzaqulu xanın rəhbərliyi altında başqa bir dəstə isə Təxti-tavus adlanan məntəqəyə göndərildi ki, Şuşa qalasına gözlənilmədən gələ biləcək kömək yollarını nəzarət altına alsın (25).

İbrahim xan anlayırdı ki, ciddi sınaqla qarşılaşmaqdadır və ona görə müdafiə üçün müəyyən hazırlıq işlərinə başladı. İbrahim xan kənar yardım mənbələrini aramaqla bərabər, daxili imkanları da səfərbərliyə aldı. Müdafiə mövqelərini möhkəmlətdi, silahlı dəstələrini qalada və dağlarda yerləşdirdi, Qarabağ ərazisində yeni səfərbərlik keçirdi, əlavə qoşun dəstələri topladı, Şuşa qalasının mühafizəsinə lazım olan bütün vəsaiti tədarük etdi, kiçik və böyük topları döyüş vəziyyətinə gətirdi. Qala daxilində ərzaq ehtiyatları artırıldı, Qacar qoşunları üzərinə gözlənilməz hücumlar etmək üçün mobil dəstələr təşkil edildi (26).

Yuxarıda deyildiyi kimi, Qarabağda və Şuşada aparılan hazırlıq işlərinə başda İbrahim xan olmaqla Qarabağ xanlığının divanı rəhbərlik edirdi. Divan üzvləri əsasən İbrahim xanın qohumlarından ibarət idi (27).

Baxmayaraq ki, 1795-ci ildə Qarabağ ərazisində baş verən quraqlıq xanlıq əhalisinin güzəranına pis təsir göstərmişdi, bununla belə müdafiə tədbirlərinin yüksək səviyyədə olmasına xüsusi diqqət yetirilirdi. Qacar qoşunları tərəfindən Şuşa qalası mühasirəyə alınanda İbrahim xan fəal müdafiə taktikası seçdi, Şuşa qalasının imkanlarından istifadə etməklə Qarabağ qoşunları burada etibarlı şəkildə qoruna bilərdi. Eyni zamanda çevik süvari dəstələrinin mütəmadi və qəfil zərbələri isə az itkilərlə Qacar qoşunlarına ciddi tələfat verə bilərdi.

Ağa Məhəmməd xanın Şuşa ətrafında gözləmədiyi bir şəraitlə üzləşdi. Bu da Şuşa qalasının böyük müdafiə imkanlarına malik olması ilə bağlı idi. Tədqiqatçılar Şuşa qalasını Kerman qalası ilə müqayisə edirlər. Kerman qalasının möhkəmliyinə baxmayaraq, Ağa Məhəmməd xan onu mühasirədə saxlamaqla ələ keçirə bilmişdi. O güman edirdi ki, Şuşa qalasını da uzun müddət mühasirədə saxlamaqla niyyətinə nail olacaqdır. Lakin Ağa Məhəmməd xanın topları Şuşa divarlarını dağıtmağa qadir deyildi. Qalanın daxilində isə kifayət qədər ərzaq ehtiyatı var idi. Qala ərazisində mövcud olan bulaqlar əhalinin suya olan ehtiyacını ödəyirdi. İbrahim xanın

döyüşçüləri qala divarları üzərində elə mövqe tutmuşdular ki, onları kənardan izləmək mümkün deyildi. Ağa Məhəmməd xanın döyüşçüləri divara yaxınlaşanda dərhal yuxarıda mövqe tutanların atəşi altına düşürdülər. Ağa Məhəmməd xan hətta qala divarları altına lağım atıb onun partladılmasına da cəhd göstərdi. Amma məlum oldu ki, bu da gözlənilən nəticəni verməyəcəkdir (28).

Mənbələdə və tədqiqat əsərlərində İbrahimxəlil xanın özünün rəhbərliyi ilə, onun qoşun başçılarının rəhbərliyi ilə, habelə ətraf məntəqələrin əhalisinin Qacar qoşunları üzərinə qəfil basqınları haqqında məlumatlar vardır. Qacar qoşunları qalanı mühasirə etsələr də, özləri də mühasirə olunan qüvvələr tərəfindən ciddi həmlələrə məruz qalırdılar. İbrahim xan həm qala daxilindəki silahlı qüvvələrin, həm də qaladan kənardakı qarabağlıların fəaliyyətini səmərəli şəkildə əlaqələndirə bilirdi. Bunun nəticəsi isə Qacar qoşunlarına verilən itkilərin artması ilə nəticələnirdi.

Məhərrəm ayının 13-cü günü İbrahim xanın özünün rəhbərliyi altında qala qoşunlarının Qacar qoşunlarına qarşı hücuma keçməsi haqqında da məlumat vardır. Bildirilir ki, İbrahim xanın qoşun dəstəsinin hücumu elə sürətli və təsirli oldu ki, Qacar qoşunları ağır vəziyyətə düşdülər. Ağa Məhəmməd xan Qacarın tədbirliliyi, təcrübəsi Qacar qoşunlarını yenidən səfərbər etməyə və qala qüvvələri qarşısında güclü müdafiə yaratmağa imkan verdi. Ağa Məhəmməd xan Qacar qala qüvvələrinin qəfil və sürətli hücumunun qarşısını saxlayandan sonra Fars və Mazandaran tüfəngdarlarına irəli çıxmağı əmr etdi. Ardınca isə topların döyüşə gətirilməsinə tapşırıq verildi. Topların və tüfəngdarların aramsız atəşləri qala qüvvələrinin hücumunun qarşısını aldı. İbrahim xan hətta ona da diqqət yetirdi ki, Qacar qoşunlarının toplarının və tüfəngdarlarının sərrast atəşləri onun qüvvələrinə yetirilən itkilərin sayını xeyli artıra bilər. Ona görə də İbrahim xan yenidən qalaya çəkilməyi qərara aldı (29).

Qacarların tarixi haqqında olan mənbələrdə də İbrahim xanın Qacar qoşunları üzərinə hücum etməsi cəhdi haqqında xatırlanır. Bildirilir ki, İbrahim xan 10 min nəfərlik dəstəsi ilə qaladan çıxıb Qacar qoşunlarının üzərinə hücum çəkdi. İbrahim xan 1000 nəfər itirərək geri çəkilməli oldu (30). Yəni, İbrahim xanın cəhd göstərdiyi bu hücum uğursuzluğa düçar oldu.

Əslində isə bu məlumatın özü müəyyən şübhə doğurur. Bir tərəfdən Şuşa qalasının daxilində 10 minlik qoşun olduğu şübhəli görünür. Digər tərəfdən İbrahim xan mühasirəsində olduğu Qacar qoşunlarına kiçik dəstələrlə çevik zərbələr endirə bilərdi. 10 minlik dəstə ilə isə çeviklik göstərilməsi mümkün deyildi. Bütünlükdə Qacarlar dövrünün mənbələrində Qacar hakimlərinin fəaliyyətinin qabardılması üçün səxavətli təriflərə rast gəlmək elə də çətin deyildir.

Dövrün müasirləri isə İbrahim xanın fəaliyyəti haqqında belə fikir söyləyirdilər: "Qarabağ hakimi yalnız qalasının müdafiəsi ilə kifayətlənmədi. Əksinə, düşmənə hissedici zərbə endirmək üçün bütün tədbirləri qəbul etdi. Tirana qarşı nifrətinin bütün təbəələri tərəfindən qəbul ediləcəyinə inandığı üçün o, xalq müharibəsi elan etdi ki, yalnız bu yolla farsları öz ərazisindən qova bilərdi. Sevimli xanın çağırışı əsasında bütün əhali ayağa qalxdı və yerli bəylərin rəhbərliyi altında qurumlanan könüllülər Ağa Məhəmməd xanın arxa ilə əlaqələri üçün qorxuya çevrildilər " (31).

"Rövzət-üs səfa-ye Naseri" əsərində də İbrahim xanın bir neçə dəfə böyük şücaətlə Qacar qoşunları üzərinə hücum etməsi, Qacar qoşunlarına itki yetirilməsi haqqında məlumat vardır. Bu mənbədə Qarabağ döyüşçüləri igidlər kimi xarakterizə edilir, Qarabağ atlılarının qaraquş kimi öz ovu üzərinə şığımasından söz açılır, Qacar qoşunları ovda olarkən İbrahim qüvvələri tərəfindən onların tələyə salınmasından danışılır. Qarabağ qüvvələrinin qorxusuz hücumları bir çox hallarda Şuşa qalası divarları üzərində olan əhali tərəfindən də heyranlıqla izlənilirdi (32).

Hadisələrin şahidlərinin xatirələrində yerli əhalinin özünün də Qacar qoşunlarına qarşı kifayət qədər fəal şəkildə vuruşduqları haqqında məlumatlar mövcuddur. Bu xatirələrə görə, Şuşa qalasının Qacar qoşunları tərəfindən mühasirəsi haqqında xəbər alınanda qalanın bütün kişiləri silahlandılar, tüfəng və qılınclarla şəhərin şərq tərəfinə atıldılar. Çünki qalanın bu hissəsi daha zəif müdafiə olunurdu. Adamlar qaya üstünə qalxaraq böyük daş parçaları qopardılar və sonra da bu böyük daş parçalarını Qacar qoşunlarının üzərinə yuvarladılar. Qadınlar da qalanın müdafiəsi işinə qoşuldular. Onlar yaxınlıqda toplanmış ağac tirləri yuvarlayaraq divardan aşağı göndərir və Qacar qoşunlarına bu yolla ziyan yetirirdilər. Şahidlərin xatirələrində Şuşa qalasında olan 30 ədəd topdan Qacar qüvvələri üzərinə atəş açılması haqqında qeydlər vardır (33).

Hər halda bu döyüşdə Qacar qüvvələri müəyyən teləfatla üzləşdi. Qaladan kənarda yaşayan əhali tərəfindən vurulan zərbələr də Qacar qoşunları üçün ciddi bir təhlükəyə çevrildi. Mənbələrdə bildirilir ki, Qarabağ müsəlmanlarının atlı və piyadaları Qacar qoşunlarının təchizat yolları boyu səpələnərək azuqə və təchizat karvanları üzərinə hücumlar edir, Qacar qoşunlarına aparılan azuqəni ələ keçirirdilər. Azuqə karvanlarını müşayiət edən çoxlu sayda sərbazlar əsir götürüldü. Bu zaman ələ keçirilən azuqə və təchizat qaladakı ehtiyatların daha da artmasına yönəldilirdi. Qarabağın atlıları gecələr hətta Qacar qoşunlarının düşərgəsinə də hücumlar edir, qoşunların çadırlarını qarət edir, at və qatırlarını özləri ilə aparırdılar. Nəticədə Qarabağda at və ulaqların sayı o dərəcədə artdı ki, onlar çox ucuz qiymətə təklif olunurdular.

Şuşa qalasını mühasirədə saxladığı 33 gün ərzində Qacar qoşunları mürəkkəb bir vəziyyətlə qarşılaşdılar. Mühasirənin uzanması Qacar qoşunlarının itkilərini artırırdı. Şuşa qalasının təslim olacağı isə inandırıcı görünmürdü. Böyük iddialarla Cənubi Qafqaza hücum edən Ağa Məhəmməd xan isə niyyətinə nail olmadan geri qayıtmağı qəbul etmək istəmirdi. Mənbələrin yazdığına görə, belə bir durumda Gəncə xanı Cavad xanla Çiləbörd məliyi Məcnun, Ağa Məhəmməd xana Şuşanın mühasirəsindən əl çəkməyi və Tiflis üzərinə hücum etməyi məsləhət gördülər.

Məlumdur ki, həm İbrahim xan, həm də gürcü çarı İrakli mütəmadi olaraq Gəncə xanlığını öz təsir dairəsində saxlamaq üçün əməli tədbirlərə əl atırdılar. Bu da Gəncə xanlığının müstəqilliyini məhdudlaşdırırdı. Xüsusilə, Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüşü ərəfəsində Cavad xanla İrakli arasındakı münasibətlər daha da kəskinləşmişdi. Gürcü çarı Cavad xandan öncə Gəncə hakimi olmuş Rəhim bəyi himayə edirdi. Onun bu himayədarlığı Cavad xan üçün ciddi təhlükəyə çevrilməkdə idi. Gürcü çarı xəbərdarlıq da edirdi ki, əgər vaxtilə Rəhim bəyə məxsus olan əmlak sahibinə qaytarılmasa, onda bunu silah gücünə edəcəkdir. Bu məqsədlə gürcü çarı İrakli Qacar qoşunlarının hücumu ərəfəsində əlavə qoşunların toplanmasına da başlamışdı. Ona görə Cavad xan bu təhlükənin aradan qaldırılmasında maraqlı idi və şübhə etmirdi ki, Ağa Məhəmməd xan Qacar Tiflisə hücum planını həyata keçirsə, onda İrakli xeyli zəifləyəcəkdir (34).

Ağa Məhəmməd xan Qacar Şuşanın mühasirəsinin dayandırılması təklifini qəbul etdi və Şuşa ətrafından Ağdam istiqamətinə hərəkət edərək Qaratəpə adlı məntəqədə düşərgə saldı. O burada bir ay dayandı və həmin müddət ərzində qoşunların sıralarının və qüvvələrinin bərpası ilə məşğul oldu. Başqa sözlə, qoşunlara istirahət verməklə Gürcüstan üzərinə hücum üçün hazırlıq işləri aparıldı. İbrahim xan gürcü çarı İrakliyə məktub göndərərək Qacar qoşunlarının Tiflis üzərinə hücuma hazırlaşdığını ona xəbər verdi. İbrahim xan bildirdi ki, Ağa Məhəmməd xan Şuşa qalasını tuta bilmədi və burada verdiyi itkilərin əvəzini Tiflis üzərinə hücum zamanı çıxmaq istəyir. Ona görə ona təklif etdi ki, Ağa Məhəmməd xanın qoşunlarının qarşılanmasına lazımi hazırlıq görsün (35).

Şuşa qalası mühasirədə olduğu zaman İrəvan qalasının işğalı da başa çatdırılmamışdı. Tiflis üzərinə hücumun icra edilməsi üçün Ağa Məhəmməd xan İrəvan üzərinə göndərilmiş olan qoşun dəstəsinin bu hücuma cəlb edilməsinə ehtiyac duyulurdu.

Bəzi tarixi məlumatlara görə, hələ Gürcüstana hücumun hazırlığı dövründə Ağa Məhəmməd xan İrəvan qalasını öz nəzarəti altına almaq üçün müəyyən diplomatik vasitələrə əl atdı. Mövcud məlumata görə, Ağa Məhəmməd xanın qardaşı gürcü çarının təhdidlərinin aradan qaldırılması

üçün Ağa Məhəmməd xanla qarşılıqlı münasibət yaratmağa hazır olan Cavad xanın yaxınlarından sayılan Yaqub xanın vasitəçiliyi ilə İrəvan xanı Məhəmməd xanla danışıqlar apardı və onu inandıra bildi ki, Ağa Məhəmməd xanın gücü qarşısında onun müqaviməti uzun sürə bilməz və onun təslim olmaqdan başqa çarəsi yoxdur. Məhəmməd xan qalanı təslim etmək tələbi ilə razılaşmasa da, Ağa Məhəmməd xanın xəzinəsinə vergi verməyə razı oldu. Məhəmməd xan qarşılıqlı razılaşmaya əsasən mərkəzi hakimiyyətə öz qoşunları ilə də kömək etməli idi. Ehtimal olunur ki, Ağa Məhəmməd xanın Gürcüstan üzərinə yürüşündə İrəvan xanlığının qoşun dəstələri iştirak etmiş və mərkəzi hakimiyyətə sədaqətini nümayiş etdirmək üçün Məhəmməd xan arvadını və kiçik yaşlı oğlunu xan sarayına girov göndərmişdi (36).

Tarixi ədəbiyyatda olan məlumata görə, Qacar qoşunları İrəvan qalasını 35 gün mühasirədə saxladılar. Məhəmməd xanın təkbaşına müqavimət göstərmək niyyəti lazımi nəticəni vermədi. Məhəmməd xan Qacarlar hakimiyyətini qəbul etmək məcburiyyətində qaldı. İrəli sürülən tələbə əsasən, Məhəmməd xan şah xəzinəsinə böyük miqdarda maliyyə vəsaiti verməli, tələb olunan vaxt isə Ağa Məhəmməd xanın ixtiyarına qoşun dəstəsi göndərməli idi (37).

Rus tarixşünaslığında olan məlumatlardan belə güman etmək olar ki, İrəvan xanı Şuşa qalasının mühasirəsinin sona çatdırılması ərəfəsində təslim olmuşdu. Çünki Ağa Məhəmməd xan Qacar İrəvan ətrafında olan digər qardaşı Rzaqulu xana yazırdı ki, Şuşa qalasının mühasirəsini dayandırmaq və Gürcüstana hücum etmək niyyətindədir. Məktubda bildirilirdi ki, Şuşa ətrafında Süleyman xanın rəhbərliyi altında bir qoşun dəstəsi saxlanılacaqdır. Qoşunların 20 min nəfərlik əsas hissəsi isə Gürcüstan üzərinə göndərilməli idi. Ağa Məhəmməd xan tələb edirdi ki, İrəvan qalası ətrafında 4 minlik qoşun dəstəsi saxlanılsın, digər qoşunlar isə Gürcüstan üzərinə hücuma qoşulmağa hazır olsun (38).

Yerli mənbələrdə olan məlumatlar, habelə Azərbaycan tarixşünaslığında aparılan tədqiqatlarda bir mənalı şəkildə bildirilir ki, Şuşanın mühasirəsinin uzun sürməsi Qacar qoşunlarına kifayət qədər itkilər yetirdi. Ağa Məhəmməd xan bu itkilərin miqyasının genişlənməsini istəmədiyi üçün qoşunların əsas hissəsini Tiflis üzərinə göndərməyi qərara aldı (39). Başqa bir tarixi məlumata görə isə Ağa Məhəmməd xan Dəryal keçidindəki rus qoşunlarının gürcü çarının köməyinə gələ biləcəyindən ehtiyatlanırdı. Ona görə də, bu kömək gəlməmiş Tiflis üzərinə hücum etməyi lazım bilirdi (40). Bu məsələdə ləngiməyə yol verilməsi havaların soyumasına və bununla hücumun da təxirə salınmasına səbəb ola bilərdi.

Farsdilli mənbələrdə isə bu məsələ fərqli şəkildə təqdim olunur. Başlıcası isə bu mənbələrdə Qacar qoşunlarının şücaəti vəsf olunur. Məsələn bildirilir ki, İbrahim xanın qardaşı oğlanları Məhəmməd bəylə Əsəd bəy Qacar qoşunlarına zərbə vurmaq üçün qoşun dəstəsi ilə qaladan çıxdılar. Ağa Məhəmməd xanın tapşırığı əsasında Pirqulu xanla Abdulla xan adları çəkilən bəylərin üstünə getdilər, döyüşdə qalib çıxaraq onları ələ keçirdilər və Ağa Məhəmməd xanın hüzuruna gətirdilər. Qeyd olunur ki, bu xəbər İbrahim xana ciddi təsir göstərdi və yaxınlarından birini Ağa Məhəmməd xanın yanına göndərdi. Onun vasitəsi ilə İbrahim xan öz halını Ağa Məhəmməd xana çatdırdı, yaşını nəzərə alaraq bağışlanmasını, Ağa Məhəmməd xanın hüzuruna gəlməsinin bir başqa vaxta təxirə salınmasını xahiş etdi. Qarabağ xanı Ağa Məhəmməd xan tərəfindən bağışlanmasının əvəzində ailə üzvlərindən birini onun girovluğuna göndərməyə və müəyyənləşdirilmiş maliyyə vergisini ödəməyə razı olduğunu bildirdi. Mənbəyə görə, bu təkliflər Ağa Məhəmməd xan tərəfindən qəbul olundu (41).

"Rövzət-üs səfa-ye Naseri"də də təxminən oxşar vəziyyət təsvir olunur və yazılanlardan belə bir qənaət hasil olur ki, İbrahim xan çarəsiz qaldığı üçün Ağa Məhəmməd xandan bağışlanmasını xahiş etdi, ona çoxlu bəxşişlər göndərdi, maliyyə ödəncləri verməyə razı oldu (42).

Mənbələrin məlumatına görə, İbrahim xanın bu qərarından sonra İrəvan xanı Məhəmməd xan Qacar, Gəncə xanı Cavad xan, habelə Məlik Məcnun, Məlik Qulu, Məlik İsmayıl çoxlu hədiyyələrlə Ağa Məhəmməd xanın yanına gəldilər. Quba xanı Şeyxəli xan yaxın adamlarından birinin vasitəsilə Ağa Məhəmməd xana nağd olaraq 5 min tümən yolladı. Bakı xanı Hüseynəli xan öz məktubu ilə birlikdə çoxlu hədiyyə göndərdi. Bütün bu hədiyyələr Ağa Məhəmməd xan tərəfindən məmnunluqla qarşılandı (43).

Ağa Məhəmməd xan 33 gündən sonra Şuşanın mühasirəsinin dayandırmağı qərara aldı. Bununla o, Tiflis üzərinə hücuma hazırlığa başlamağı planlaşdırırdı. Mənbələrdə olan məlumatlara görə, Ağa Məhəmməd xan Şuşa qalasının mühasirəsindən sonra hansı qərarın qəbul edilməsi barədə məsləhətləşmə apardı. Bunun üçün o, qoşun rəhbərlərini hüzuruna topladı və əmr etdi ki, 30 yaşına qədər olan qoşun rəhbərləri ayrı toplansınlar və 30 yaşından yuxarı olanlar da ayrı toplansınlar. Ağa Məhəmməd xan əvvəlcə cavanlarla məsləhətləşdi və onlara müraciətlə dedi ki, Pənahabad qalasını tutmaq üçün İraqdan (İran) bura gəldim, qalanı mühasirə etdim, amma heç nə edə bilmədim. Artıq havalar soyumağa doğru gedir, azuqə və ot qıtlaşmaqdadır. Qacar xanı onlardan soruşdu ki, sizin fikriniz necədir, qalıb döyüşü davam etdirək, yoxsa geri qayıdaq? (44).

Ağa Məhəmməd xanın adından mənbədə söylənilən bu fikir doğrudursa, onda İbrahim xanın Qacar qoşunlar qarşısında aciz qalmadığını

görmək mümkündür. Cavan qoşun rəhbərlərinə gəlincə isə onlar Qacar xanına cavab verdilər ki, biz sənin nökərlərinik, bizim bir rəyimiz yoxdur və sənin göstərişlərinə müntəzirik. Başqa sözlə, cavan sərkərdələr fikir söyləməkdən imtina etdilər. Ağa Məhəmməd xan onların cavabından razı qaldı və bildirdi ki, cavanlar verdikləri cavabla onu özlərinə vəkil seçdilər. Yəni, onların yerinə qərar qəbul etmək səlahiyyəti cavanlar tərəfindən Ağa Məhəmməd xana həvalə olundu. Bundan sonra Ağa Məhəmməd xan yaşlı qoşun rəhbərlərinə yaxınlaşdı və nə etmək lazım olduğu barədə onların da fikrini soruşdu. Yaşlı qoşun rəhbərlərinin cavabı da belə oldu ki, qarşıdan qış yaxınlaşmaqdadır, ot və azuqə əldə edilməsi getdikcə çətinləşməkdədir. Onlar təklif etdilər ki, qoşunlar Tehrana qayıtsın və qışı orada keçirsinlər. Yürüş üçün yeni hazırlıqlar görülsün və yazda bir də bu yerlərə yürüş edilsin. Azərbaycandan olan yaşlılar bildirdilər ki, Tehrana qayıtmaq və düşməndən uzaq düşmək heç də yaxşı deyil. Onlar təklif etdilər ki, qışı Azərbaycanda (Cənubi) keçirsinlər və yaz yetişəndə yenidən yürüşə başlasınlar (45).

Ağa Məhəmməd xanın bu təkliflərdən xoşu gəlmədi. Onun fikrincə, yaşlı qoşun başçıları verdikləri təkliflərlə yalnız öz maraqlarını düşünürdülər. Qacar xanı söylədi ki, sərkərdələr Tehrana qayıtmaqla vaxtlarını arvadlarının yanında keçirmək barəsində düşünürlər. Amma onlar fikirləşmirlər ki, arvadlarına nə cavab verəcəklər. Çünki bu qoşun rəhbərləri bu yürüş zamanı bir carçı ilə bacara bilmədilər. Carçı deyəndə Ağa Məhəmməd xan Qarabağ xanını nəzərdə tuturdu. Mənbədə olan məlumata görə, İbrahim xanın əcdadlarından biri carçı olubmuş və Ağa Məhəmməd xanın da bundan xəbəri var idi. Ağa Məhəmməd xan dedi ki, cavan qoşun rəhbərlərinin vəkili kimi onun qərarı hücumun davam etdirilməsidir. Bununla bağlı o, göstəriş verdi ki, səhəri gün üçün köç etməyə hazır olsunlar (46).

Şuşa qalasından geri çəkilməzdən əvvəl Ağa Məhəmməd xanın öz sərkərdələri ilə məşvərət keçirməsi haqqında Qarabağnamələrdə də bəzi məlumatlar mövcuddur. Bu məlumatlarda bildirilir ki, Qacar xanı dövlətin əmirləri ilə, məmləkətin böyük adamları və vəzirlərlə məşvərət etdi. Bu məşvərətlərdən sonra o qərara gəldi ki, zərərin yarısından dönmək də qazancdır. Əks təqdirdə, Ağa Məhəmməd xana görə Şuşa qalası ətrafındakı Qacar qoşunlarından sağ qalan tapmaq çətin olacaqdı (47).

Bir başqa tarixi məlumata görə isə, Gəncə xanı Cavad xan öz fikirləri ilə Ağa Məhəmməd xanı Tiflis üzərinə hücuma sövq etdi. Guya o bildirirmiş ki, Ağa Məhəmməd xan Şuşa qalasını almadan əliboş geri qayıtsa əhali ona qarşı itaətdən çıxacaq və onların idarə edilməsi daha da çətinləşəcəkdir (48).

Hər halda Şuşa qalası üzərinə hücumdan gözlədiyi nəticəni əldə edə bilməyən Ağa Məhəmməd xan mühasirəni dayandırıb Tiflis üzərinə hücuma keçməyə qərar verdi. Tarixi faktların tutuşdurulması belə bir qənaətə

gəlməyə əsas verir ki, Ağa Məhəmməd xan 1795-ci il avqust ayının ortalarına yaxın Şuşa qalasını tərk etdi. "Rövzət-üs səfa"dakı məlumata əsasən, Qacar qoşunları Şuşa qalasının 6 fərsəngliyindəki məntəqədə düşərgə saldılar və 27 gün həmin məntəqədə keçirdilər (49).

İstirahətə dayanmaq heç şübhəsiz ki, qoşunların ehtiyaclarının təmin edilməsi ilə bağlı idi. Qoşunlara istirahət verməklə Gürcüstan üzərinə hücum üçün hazırlıq işləri aparıldı. Bu günlərdə İbrahim xan gürcü çarı İrakliyə məktub göndərərək Qacar qoşunlarının Tiflis üzərinə hücuma hazırlaşdığını çatdırdı. İbrahim xan bildirdi ki, Ağa Məhəmməd xan Şuşa qalasını tuta bilmədi və burada verdiyi itkilərin əvəzini Tiflis üzərinə hücum zamanı çıxmaq istəyir. Ona görə təklif etdi ki, Ağa Məhəmməd xanın qoşunlarının qarşılanması üçün lazımi hazırlıq görsün (50).

Mənbədəki məlumatlara görə, Qacar qoşunları Qaraçay adlı məntəqədə istirahətə dayandılar. Ağa Məhəmməd xan Qacar vəziri İbrahim xan Kələntərə göstəriş verdi ki, qoşunları adı çəkilən məntəqədə istirahətə dayandırsın. Buradan o, gürcü çarı İrakliyə məktub göndərdi. Bu məktubunda Ağa Məhəmməd xan Qarabağ xanlığı üzərinə hücum etdiyini xatırlamaqla İbrahim xanın xahişi əsasında Şuşanın mühasirəsini dayandırdığını və saysız-hesabsız qoşunlarla Tiflis üzərinə hərəkətə başlayacağını bildirdi. Gürcü çarının nəzərinə çatdırıldı ki, onun səltənəti Şah İsmayıl Səfəvi dövründən İran hakimlərinə mənsub olub və indi də gürcü çarlığı Qacar hakimiyyətini qəbul etməlidir (51).

Rus tarixi ədəbiyyatında olan məlumatlara görə, Ağa Məhəmməd xan öz qoşunları ilə Şuşadan çəkiləndən sonra Xatun arxı adlanan məntəqədə düşərgə saldı. Bu məntəqədə olarkən Ağa Məhəmməd xan Car-Balakən əhalisinə müraciət göndərdi, onları Qacar qoşunları tərkibində vuruşmağa çağırdı. Qoşunlarda xidmət üçün könüllülərin hər birinə 100 rubl vəsait vəd olundu (52).

Tarixi ədəbiyyatda olan məlumata görə, Gəncə xanı Cavad xan Şuşanın mühasirəsi zamanı Ağa Məhəmməd xanın düşərgəsində idi. Qacar qoşunları Gəncəyə doğru irəliləyəndə isə Cavad xanın və Şəki xanı Məhəmməd Həsən xanın qoşun dəstələri də Qacar qoşunlarına birləşdilər. Gəncə və Şəki xanları Qacar qoşunlarının ərzaq və yemlə təmin olunmasına da köməklik göstərdilər. Adları çəkilən xanlardan başqa Qarabağ məlikləri – Məlik Məcnun və Məlik Abov da Qacar qoşunlarına qoşuldular. Qarabağ məlikləri daha çox qoşunların Tiflisə doğru hərəkətinə bələdçilik etməklə Qacar xanına yarınmağa çalışırdılar (53).

Tiflis istiqamətində irəliləyən Qacar qoşunlarının Gəncəyə yetişməsi 1795-ci ilin sentyabr ayının ilk günlərinə təsadüf edir. Gəncəyə doğru irəliləmək isti hava şəraitində müəyyən çətinliklərlə müşayiət olunurdu.

Xristian məliklər öz bələdçilik fəaliyyətinə belə bir şəraitdə başladılar. Gəncəyə yetişəndə Ağa Məhəmməd xan bir daha carlıları öz qoşunlarında xidmətə cəlb etməyə çalışdı. Lakin carlılar Qacar qoşunlarında xidmətdən imtina etdilər (54).

Baxmayaraq ki, Ağa Məhəmməd xanın Tiflis üzərinə qoşun çəkəcəyi şübhə doğurmurdu, gürcü çarı ona qarşı müqavimət göstərilməsi üçün lazımi hazırlıq görə bilmədi. Əslində onun belə bir hazırlıq görməyə heç geniş imkanları da yox idi. Qonşu Azərbaycan xanlıqları ilə düşmənçilik və nifaqı kənara qoyaraq ittifaq yaratmaq barədə düşünməyən gürcü çarı ümidini Rusiya sarayına bağladı ki, bu ümidlər də özünü doğrultmadı.

Ağa Məhəmməd xan Gəncədə olarkən öz nümayəndəsini gürcü çarının yanına göndərdi və ondan tabe olmasını tələb etdi. Rusiyanın himayəsinə ümidini kəsməyən gürcü çarı bu tələbi rədd etdi. Eyni zamanda gürcü çarı və xanımı hərbi yardım üçün bir daha general Qudoviçə müraciət etdilər. Bu müraciətdə Ağa Məhəmməd xan qoşunlarının yaxınlaşması, bu qoşunların gətirə biləcəyi fəlakət haqqında söz açıldı. Gürcü çarı ölkəsinin müdafiəsinin təmin olunması üçün 3 min nəfərlik rus qoşun dəstəsi istədi. General Qudoviç isə gürcü çarına konkret cavab vermək əvəzinə məsləhətlərini çatdırdı və ona Qacar qoşunlarına qarşı ehtiyatlı olmağı tövsiyə etdi (55).

Cənubi Qafqazda, o cümlədən Rusiyanın vassallığını qəbul etmiş Gürcüstanda vəziyyətin mürəkkəbləşməkdə olduğunu general Qudoviç və onun vasitəsilə məlumatlandırılan Rusiya sarayı da hiss edirdi. Qacar qoşunlarının Gürcüstan ərazisində möhkəmlənməsi ilə Rusiyanın Cənubi Qafqazdakı maraqları ciddi təhlükə altına düşə bilərdi. Ona görə 1795-ci il sentyabr ayının 4-də Rusiya sarayı 2 rus taboru ilə gürcü çarına yardım göstərilməsi haqqında qərar qəbul etdi. Amma bu qərar yalnız oktyabrın 4-də general Qudoviçə çatdı. Bunun da bir faydası olmadı. Çünki sentyabr ayının 12-də Ağa Məhəmməd xan Qacar artıq Tiflisi işğal etmişdi (56).

II İrakli kənardan hərbi yardım ala bilmədiyi kimi, gürcü çarı daxili qüvvələri də öz ətrafında səfərbər edə bilmədi. Onun övladları arasında nifaq olduğu üçün onlar II İrakliyə kömək göstərmədilər. Onun çağırışına İmeretiya valisi olan Solomon cavab verdi və o, 4 min nəfərlik qoşun dəstəsini Qazax rayonu istiqamətinə göndərdi. Bu dəstə İncə çayı kənarında Ağa Məhəmməd xan qüvvələrinə qarşı mövqe tutdu. Amma bu dəstə də tezliklə öz mövqelərini tərk edib geri çəkildi. Çünki Ağa Məhəmməd xanın qoşununun sayı bu dəstəni qorxuya saldı (57). Bununla, əslində gürcü çarının Qacar qoşunlarının Qazax sərhədində qarşılamaq niyyətləri puça çıxdı.

Rus tarixçisi P.Butkovun yazdığına görə isə II İrakli özü də 5 min nəfərlik qoşun dəstəsi toplaya bilmişdi. Ağa Məhəmməd xanın Tiflisə doğru fəallaşması başlayanda sərhədə toplanmış qoşun rəhbərləri arasında döyüşə girmək, yoxsa geri çəkilmək haqqında məsləhətləşmələr başladı. Bir çoxları Ağa Məhəmməd xanı qoşunlarla sərhəddə qarşılamağa razı olsa da, gürcü çarı geri çəkilməyə üstünlük verdi. Bildirilir ki, bu qərar qoşunlarda və əhali arasında yaxşı qarşılanmadı və İmeretiya qoşunu bu qərara etiraz əlaməti olaraq geri qayıtdı. Lazımi şəkildə müdafiə olunduğunu görməyən əhali isə dağlara və meşələrə pənah aparmaqla nicat tapmağa çalışdılar (58).

Sentyabr ayının 9-da Qacar qoşunları Tiflis şəhərinin 7 verstliyində düşərgə saldılar. Tədqiqatçıların yazdığına görə, Ağa Məhəmməd xan gürcülərin qəfil basqınlarının qarşısını almaq üçün düşərgə ətrafında xəndəklər qazılmasına əmr verdi. Sentyabr ayının 10-da Qacar qoşunları Tiflisə daha da yaxınlaşdılar. Bu zaman Gəncə xanının və İrəvan xanının da silahlı dəstələrinin Qacar qoşunları tərkibində olduğu bildirilir. Gürcü çarı II İrakli ilə İmeretiya çarı Solomon bu zaman öz qoşun dəstələri ilə Tiflis yaxınlığında əlverişli müdafiə mövqeləri tutmuşdular. Lakin onların qüvvəsi az idi. Gürcü şahzadəsi Qriqori öz dəstəsi ilə Siqnaxda idi. O, Tiflis ətrafına silahlı dəstə göndərsə də, bu dəstənin üzvlərinin əksəriyyəti qaçıb dağıldılar (59).

Sentyabr ayının 10-da gürcü qoşun dəstələri Qacar qoşunlarının irəli çıxarılmış dəstəsinə zərbə vurub onu məğlub etdi. Bu xəbər tez bir zamanda ətrafa yayıldı. Gürcü əhalisində Qacar qoşunlarına müqavimət göstərmək üçün bir ümid yarandı. Lakin bu ümid uzun sürmədi. 30-a qədər topu olan Tiflisin gürcülər tərəfindən müdafiə olunması üçün mövcud olan imkandan istifadə olunmadı (60).

Sentyabr ayının 11-də şəhər ətrafında döyüş davam etdirildi. Baxmayaraq ki, rus tarixçiləri həmin gün gürcü qoşunlarından ehtiyatlanan Ağa Məhəmməd xanın geri çəkilmək niyyətində olduğunu və onu bu niyyətindən Gəncə xanı Cavad xanın döndərdiyini yazırlar. Ağa Məhəmməd xanın gürcü qoşunlarından ehtiyatlanaraq geri çəkilmək istəməsi barədə farsdilli mənbə və tarixi ədəbiyyatda hər hansı bir məlumat yoxdur. Rus tarixçiləri onu da yazırlar ki, bu zaman gürcü qoşunlarının 27 min nəfərdən, onların qarşısında dayanan Qacar qoşunlarının isə 70 min nəfərdən ibarət idi. Mütləq say üstünlüyünə malik olan Ağa Məhəmməd xanın gürcü qoşunlarından ehtiyatlanması barəsində yazılanlar heç də inandırıcı görünmür. Hər halda Tiflis ətrafında tərəflər arasında növbəti döyüş baş verdi. Qeyd olunur ki, səhər dumanının olmasından istifadə edən gürcü dəstələri qarşılarına çıxan Qacar dəstələrini geri çəkilməyə məcbur etdilər. Amma gürcülər bütünlükdə təşəbbüsü ələ ala bilmədilər və qoşunları 14

dəstəyə bölmüş olan Ağa Məhəmməd xan Tiflis üzərinə həlledici hücuma keçdi (61).

Farsdilli mənbələrdə də Tiflis ətrafında baş verən döyüşün bəzi səhnələri öz əksini tapmışdır. Bildirilir ki, İrakli tabe olmaq təklifini qəbul etmədikdən sonra qoşunları ilə Tiflis ətrafında döyüşə girdi. Mənbə məlumatına görə, döyüş əsnasında güclü külək əsməyə başladı. Göyə sovrulan toz-duman İrakli qoşunlarının işini xeyli çətinləşdirdi və onlar döyüş meydanını tərk etmək məcburiyyətində qaldılar. Sonra mənbədə çərkəz atlılarının döyüşə qoşulması haqqında məlumat verilir. 400 nəfərdən ibarət olan çərkəz atlılarının məqsədi Ağa Məhəmməd xana sui-qəsd etmək imiş. Qeyd olunur ki, bu çərkəz atlıları Ağa Məhəmməd xanın çadırına yaxınlaşa bildilər və hətta bu çadırın bəzi kəndirlərini də kəsməyə müvəffəq oldular. Amma Ağa Məhəmməd xan bundan qorxmadı və hətta oturduğu yerdən də qalxmadı. O yanındakı Mazandaran tüfəngdarlarına atəş açmaq əmri verdi. Çərkəz atlılarının bəziləri öldürüldü, digərləri isə qaçıb dağıldılar (62).

Bu hadisə barədə rus mənbələrində və tarixi ədəbiyyatında hər hansı bir xatırlama yoxdur. Rus tarixi ədəbiyyatında təsvir olunan aşağıdakı vəziyyət haqqında isə istinad olunan farsdilli mənbə və tarixi ədəbiyyatda hər hansı bir məlumata rast gəlmək mümkün deyil. Rus tarixi ədəbiyyatının təsvirinə əsasən, belə bir qənaətə gəlmək mümkündür ki, 70 minlik Qacar qoşunları 2700 nəfərlik gürcü qoşun dəstəsinə üstün gəlməkdə çətinlik çəkirdi. Hətta guya Qacar qoşunlarının qaçıb dağılmaq təhlükəsi yaranmışdı. Guya belə bir vaxtda Ağa Məhəmməd xan yanındakı 6 minlik türkmən atlılarını qoşunların arxasında yerləşdirdi ki, geri qaçmaq istəyənlərin qarşısını alsınlar və onları məhv etsinlər. Yazılana görə, bundan sonra Qacar qoşunları döyüşmək məcburiyyətində qaldılar və gürcü qoşunlarının üstünə yeridilər (63).

Rus tarixi ədəbiyyatında döyüşün səhərdən axşama qədər davam etməsi, gürcü şahzadələri Vaxtanqın və İoanın döyüşə qoşulması, təhlükəli vəziyyətə düşmüş olan İraklinin şahzadə İoan tərəfindən xilas edilməsi haqqında məlumatlar vardır. Hər halda gürcü çarı İrakli döyüş meydanından geri çəkilməyə, sonra da Tiflisi tərk etməyə məcbur oldu. Ağa Məhəmməd xanın çoxsaylı qoşunları sentyabr ayının 12-də Tiflisə daxil oldular.

Şəhərdə geniş miqyaslı talanlar başladı. Hər zaman qoşunların talançılığa meylinin qarşısını almağa çalışan Ağa Məhəmməd xan bu dəfə Tiflisin qarət və talan edilməsinə sərbəstlik verdi. Çox güman ki, bununla Ağa Məhəmməd xan ona tabe olmamağın çox baha başa gəldiyini nümayiş etdirmək istəyirdi. Bu qarət və talanların miqyasının böyük olmasını farsdilli mənbələr də etiraf etməli olmuşlar. Məsələn, mənbələrdən biri yazır ki,

sonsuz sərvət, gözəl qızlar, oğlanlar və xanımlar qoşunların əlinə keçdi, bütün əsirlər Qacar xanı tərəfindən qoşunlar arasında bölüşdürüldü, xanın əmrinə əsasən gürcü kişiləri əlləri bağlı halda Kür çayına atıldı, kilsələrə isə od vuruldu (64). Başqa bir mənbədə isə deyilir ki, əsir götürülənlərin sayı 15 min nəfər idi, qoşunlar tərəfindən şəhər əhalisinin bütün var-dövləti qarət olundu. Mənbədə Qacar qoşunlarının 9 gündən sonra Tiflisi tərk etməsi bildirilir (65).

Qacar qoşunları hələ Tiflis ətrafında olanda Ananur monastrında gizlənmiş olan II İrakli Qacar xanına məktub yazdı və həmin məktubu nümayəndəsi vasitəsilə Ağa Məhəmməd xana göndərdi. Bu fakt tarixi ədəbiyyatda da öz təsdiqini tapır (65a). Bu məktubunda o, Qacar qoşunları tərəfindən əsir götürülmüş əhalinin qaytarılmasını tələb etdi. Eyni zamanda xəbərdar etdi ki, Gürcüstan ərazisini tərk etməsə Rusiya ona cavab verməli olacaqdır. Ağa Məhəmməd xan gürcü çarının məktubunu cavabsız qoymadı. Bəzi məlumatlara görə, Ağa Məhəmməd xan bütün əsirlərin geri qaytarılmasına və hətta Azərbaycan xanlıqları üzərində nəzarəti də ona verməyə razı oldu. Bir şərtlə ki, gürcü çarı özünün Qacar hakimiyyətindən asılı olduğunu qəbul etsin və övladlarından birini də girov kimi onun yanına göndərsin (66). Bu təklif gürcü çarı tərəfindən müəyyən tərəddüdlə qarşılandı. Gürcü çarı Ağa Məhəmməd xanın təklifini qəbul etmək barədə düşünməyə başladı. Çünki əldə edilmiş məlumatlara görə, Ağa Məhəmməd xan öz qoşunu ilə Kaxetiya istiqamətində irəliləməyi planlaşdırırdı (67). Qacar qoşunlarının hücumlarının davam etməsinin qarşısının alınması üçün gürcü çarı irəli sürülən təklifin qəbulunu mümkün saydı. Hətta nəvəsi şahzadə Davudun Qacar xanının girovluğuna verilməsini də qəbul etdi. Amma sonradan bu fikrindən imtina etməli oldu.

Bir müəllifə görə, gürcü çarı Rusiya təbəəliyini qəbul etməsini və bir də Ağa Məhəmməd xana etibar edilməsinin qeyri-mümkünlüyünü nəzərə alaraq irəli sürülən təklifləri qəbul etmədi (68). Digər bir müəllifə görə isə Gəncə xanı Cavad xan özünün çətin vəziyyətə düşə biləcəyini ehtimal edərək Ağa Məhəmməd xanla İrakli arasında hər hansı bir razılaşmanın əldə edilməsinə imkan vermədi. Bildirilir ki, Cavad xan gürcü çarının hansısa gizli planlara malik olmasını Qacar xanına çatdırdı və buna görə də Ağa Məhəmməd xanın gürcü çarına etdiyi təkliflər həyata keçməmiş qaldı (69).

Gürcü çarı çıxış yolunu yenə Rusiyaya müraciət etməkdə gördü. O öz nümayəndəsini bir daha general Qudoviçun yanına göndərdi və ondan hərbi yardım istədi. İrakli onu da xahiş etdi ki, Rusiyanın köməyi ən qısa zamanda Gürcüstana yetişsin. Yalnız bu halda Qacar qoşunlarının yeni hücumunun qarşısını almaq mümkün ola bilərdi. Baxmayaraq ki, general Qudoviç gürcü çarına hərbi yardım göstərmək barədə Rusiya sarayının göstərişini almışdı,

lakin bu göstərişi qısa müddət ərzində icra etmək mümkün deyildi. General Qudoviç bunun səbəbini yolların yaxşı olmaması ilə bağlayırdı (70).

Amma tezliklə Qacar qoşunlarının Gürcüstanı tərk etməsi haqqında məlumat alındı. Qacar qoşunlarının Gəncəyə doğru geri çəkilməsi gürcü çarlığına rus yardımının təcililiyini aradan qaldırsa da, Gürcüstanın müdafiəsinin möhkəmləndirilməsi aktual olaraq qalırdı. Ona görə İraklinin general Qudoviçlə olan təmasları ara verilmədən davam etdirilirdi.

General Qudoviç özü də Gürcüstana hərbi yardımın göndərilməsinin tərəfdarı idi. Bununla o, Azərbaycan xanlarına da işarə etmək istəyirdi ki, Qacar qoşunlarının hücumlarından qorunmağın daha yaxşı yolu Rusiyaya sığınmaqdır. Bu məqsədlə general Qudoviç 6 topla bərabər 2 min nəfərllik bir dəstənin Gürcüstana göndərilməsini məqsədəuyğun bildi. Bu dəstənrin keçəcəyi yolların təmizlənməsi və yararlı hala salınması üçün irəliyə xüsusi bir tabor göndərildi. Bu taborun gördüyü işlərin nəticəsində noyabr ayının əvvəlində yollar artıq rus qüvvələrinin keçməsinə hazır idi. Noyabr ayının sonunda isə polkovnik Sıroxnevin rəhbərliyi altında iki tabor Gürcüstan ərazisinə daxil oldu. Şəxsi heyəti 1480 nəfər olan iki tabordan başqa 30 nəfər kazak və 6 ədəd top da polkovnik Sıroxnevin rəhbərliyi altına verilmişdi (71).

Ağa Məhəmməd xanın Gəncəyə çəkilməsindən sonra nə edəcəyi Rusiya sarayının nəzarəti altında idi. Çariça II Yekaterinanın general Qudoviçə ünvanladığı məktubunda Ağa Məhəmməd xanın Osmanlı sərhədlərinə doğru irəliləməsi arzu olunurdu. Bununla, Qacar təhlükəsi Rusiya sərhədlərindən və o cümlədən Rusiyanın vassalı olan Gürcüstandan uzaqlaşmış olardı. Rusiya çariçası general Qudoviçə tapşırırdı ki, Qacar qoşunlarının Gürcüstana qayıdacağı təqdirdə Gürcüstanda olan rus taborları rus silahının şərəfini qorusun. Rusiya çariçası Qacar qoşunlarının Xəzər dənizi sahillərinə çıxmasını arzu edilməz sayırdı. Qacar qoşunları Şirvana gəlib Şamaxı və Bakını tutsaydı və şimala doğru hərəkətini davam etdirsəydi general Qudoviç bu irəliləyişin qarşısının alınması üçün ciddi əməli tədbirlər görməli idi (72).

1795-ci ilin noyabr ayında Ağa Məhəmməd xan hətta Gəncədən də geri çəkilərək Muğan düzünə gəldi və burada düşərgə saldı. Ağa Məhəmməd xanın qoşunlarla birlikdə qışı burada keçirəcəyi güman edilirdi. Gəncədə olarkən Ağa Məhəmməd xan Gəncə xanı Cavad xanla və İrəvan xanı Məhəmməd xanla münasibətləri aydınlaşdırdı. Həm Cavad xan, həm də Məhəmməd xan Qacar xanına bildirdilər ki, hələ Səfəvilər dövründən hakim olduqları xanlıqları onların əcdadları idarə edirdilər və həmişə də bu xanlıqlar mərkəzi hakimiyyətə qarşı sədaqət nümayiş etdirirdilər. Ona görə Ağa Məhəmməd xan onlara toxunmadı və onları xan vəzifəsində saxladı (73).

Ağa Məhəmməd xan bu xanlara qarşı müəyyən səxavətlilik də göstərdi. O bir tərəfdən Gəncə və İrəvan xanlıqlarını gürcü çarlığına olan bütün asılılıqlardan azad etdi. Bundan əlavə gürcü çarlığının nəzarəti altında olan Pəmbək, Borçalı və Qazax mahalları da İrəvan xanlığının tabeliyinə verildi. İrəvan xanı bu qərardan çox məmnun oldu və dərhal da həmin mahalların əhalisinə məktub göndərdi və onları təbəəliyə çağırdı.

Ağa Məhəmməd xan Muğan düzündə sadəcə istirahət və qışlamaq üçün düşərgə salmadı. O buradan Azərbaycan xanlıqlarının nəzarət altına alınması işini istiqamətləndirməyi düşünürdü. Bu məqsədlə Ağa Məhəmməd xan ona tabe olmaqdan imtina etmiş Şamaxı xanı Mustafa xanın üzərinə qoşun dəstəsi göndərdi. Rus tarixçisi P.Butkov Qacar qoşunlarının Süleyman xanın rəhbərliyi altında Şamaxı üzərinə göndərildiyini qeyd edir (74). Bu fakt Azərbaycan tarixşünaslığında da təkrar olunmuşdur. Farsdilli mənbə və ədəbiyyatda isə Süleyman xanın adı bu yürüşlə bağlı xatırlanmır. Rus və Azərbaycan tarixi ədəbiyyatına əsasən, Mustafa xanın itaət altına gətirilməsi üçün Ağa Məhəmməd xan Qacar tərəfindən Süleyman xanın ixtiyarına 20 min lik qoşun dəstəsi verildi. Ağa Məhəmməd xanın hakimiyyətini qəbul etmiş Şəki xanı Məhəmməd Həsən xan da Süleyman xanın dəstəsinə qoşularaq ona bələdçilik edirdi. Şamaxı xanı Ağa Məhəmməd xan tərəfindən belə bir hücuma məruz qala biləcəyini əvvəlcədən ehtimal edirdi. Onun qoşunları qarşısında daha etibarlı şəkildə müdafiə olunmaq üçün Mustafa xan Şamaxı şəhərini tərk edərək Fitdağa sığındı və burada daha etibarlı müdafiə təşkil edə bildi. Fitdağ qalasına aparan yol da kifayət qədər çətin dağ yolları idi. Ona görə Qacar qoşunları manevr imkanlarını da əldən verməli oldular. Bildirilir ki, Mustafa xan Şirvanlı 1796-cı ilin fevral ayına qədər Fitdağ qalasında qaldı və Qacar hakimiyyətinə tabe olmadı. Şamaxılı Mustafa xanı ələ keçirə bilməyən Qacar qoşunları isə yalnız Şamaxı və ətraf məntəqələri talamaqla məşğul oldular (75).

Qacar qoşunlarının Şamaxı xanlığı üzərinə hücumu haqqında yazılanların başqa bir məqamı da Şəki xanı Məhəmməd Həsən xanın taleyi ilə bağlıdır. Məhəmməd Həsən xan bu hücumda iştirak etdiyi vaxt, 1795-ci ilin dekabrında onun qardaşı Səlim xan Carda öz ətrafına dəstə toplayıb Şəki üzərinə hücum etdi və Məhəmməd Həsən xanın hakimiyyətinin bitdiyini elan etdi. Səlim xan tərəfindən xanlığın ələ keçirildiyi xəbərini eşidəndə Məhəmməd Həsən xan geri qayıtdı, hakimiyyəti yenidən özünə qaytarmaq istədi. Lakin buna gücü çatmadı və oradan Xaçmaz mahalına çəkildi (76).

Butkov tərəfindən də bu hadisənin oxşar təsviri verilmişdir. Azərbaycan tarixi ədəbiyyatında Məhəmməd Həsən xan etibarsızlığına görə Ağa Məhəmməd xanın göstərişinə əsasən, kor edilərək Təbrizə göndərilməsi

haqqında danışılır (77). İstinad olunan farsdilli ədəbiyyat və mənbələrdə bu barədə də lazımi məlumata rast gəlmək çətindir.

Hadisələrin nisbətən daha geniş təsvirini vermiş "Nasex ət-təvarix-e Qacariyye" əsərinə görə, Kür və Araz çaylarının qovşağında düşərgə salandan sonra Ağa Məhəmməd xan sərkərdəsi Mustafa xan Dəvəlini 12 minlik bir qoşun dəstəsi ilə Şirvan hakimi Mustafa xanın üzərinə göndərdi. Mustafa xan Şirvanlının bu qoşun dəstəsinə müqavimət göstərmək imkanı olmadığı üçün Fitdağı qalasına çəkilməli oldu. Mustafa xan Dəvəli Şirvana nəzarəti öz əlinə keçirdi. Onu müşayiət edən Şəki xanı Məhəmməd Həsən xan həmin günlərdə qardaşı Səlim xan tərəfindən carlıların köməyi ilə xanlıqdan kənarlaşdırıldı. Məhəmməd Həsən xan qardaşına müqavimət göstərəcək qədər qüvvəyə malik olmadığı üçün Ağdaşa qaçdı və oradan başına gələnləri Ağa Məhəmməd xana çatdırdı. Ağa Məhəmməd xan da Mustafa xan Dəvəliyə tapşırdı ki, Məhəmməd Həsən xana kömək etsin. Mustafa xan Dəvəli bir alayla Ağdaşa, Məhəmməd Həsən xanın yanına yollandı ki, ona lazım olan köməyi göstərsin. Amma Hacı Səid və Hacı Nağı adlı bölgə əyanları Ağa Məhəmməd xanın yanına yollanaraq ona Məhəmməd Həsən xanın etibarsızlığı haqqında məlumat çatdırdılar. Ağa Məhəmməd xan bu məlumata inandı və Mustafa xan Dəvəliyə tapşırdı ki, Məhəmməd Həsən xanı saxlasın, onun var-dövlətini ələ keçirib xəzinəyə köçürsün, Səlim xanı isə Şəki xanı kimi təsdiq edərək yenidən Şirvana dönsün (78).

Mustafa xan Dəvəli tezliklə Ağa Məhəmməd xanın dediklərini həyata keçirdi. Tək Məhəmməd Həsən xan deyil, bölgənin çoxlu sayda varlı və imkanlı adamları işgəncələrə məruz qaldılar. Məhəmməd Həsən xan kimi digərlərinin də var-dövlətləri əllərindən alındı. Bildirilir ki, Məhəmməd Həsən xanın varidatının yarısını Mustafa xan Dəvəli özü mənimsədi. Mustafa xan Dəvəlinin bu acgözlüyü haqqında məlumat Ağa Məhəmməd xana çatdırıldı. Ağa Məhəmməd xan da onu geri çağırdı və Əliqulu xanı onun yerinə təyin etdi. Mustafa xan geri qayıdarkən var-dövlətini əllərindən aldığı insanların hücumlarına məruz qaldı. Mustafa xan Dəvəlinin ətrafındakılarla yerli əhali nümayəndələri arasında qarşıdurma baş verdi. Mustafa xan Dəvəli və onun ətrafında olan bir neçə şəxs bu hücumun qurbanı oldular və həyatlarını itirdilər (79).

Mənbə məlumatlarına görə, Mustafa xan Dəvəlinin başı bədənindən ayrıldı. Ağa Məhəmməd xan Qacar onun öldürülməsi xəbərinə xeyli qəmgin oldu və iki gün çadırından bayıra çıxmadı. Ağa Məhəmməd xanın qardaşı Əliqulu xan şirvanlılara dərs vermək üçün Fitdağı qalasını mühasirəyə aldı və Şamaxı xanı Mustafa xana qarşı təzyiqləri gücləndirdi. Farsdilli mənbə-

lərə görə, Mustafa xan bu təzyiqlər qarşısında geri çəkilməli oldu və Qacar xanına bac-xərac verməyi öz öhdəsinə götürdü (80).

Tədqiqatçılar isə Şamaxı xanı Mustafa xanın Ağa Məhəmməd xanın tələblərinin qəbul etməsi və Qacar xanını vergi verməyə razı salması fikrini qəbul etmirlər (81). Çünki məlumdur ki, Ağa Məhəmməd xan burada möhkəmlənə bilmədi və tezliklə bütün Azərbaycanı tərk edərək Tehrana geri qayıtdı. "Rövzət-üs səfa" əsərində Ağa Məhəmməd xanın Azərbaycan xanlıqlarının işğalını başa çatdırmamış geri dönməsini havaların soyuması ilə əlaqələndirir (82).

Beləliklə, Ağa Məhəmməd xan Azərbaycan xanlıqlarını öz hakimiyyəti altına ala bilmədən geri qayıtmalı oldu. Muğan düzündə olarkən Ağa Məhəmməd xan Bakı, Quba xanlarına və Dağıstan hakimlərinə məktub göndərdi və onları itaətə dəvət etdi. Mənbəyi göstərilməyən və rus tarixçiləri tərəfindən elmi dövriyyəyə gətirilən həmin məktubda deyilirdi ki, Azərbaycan xanları artıq bizə tabe olmuşlar və bura gəlməkdə məqsəd düşmənlərin cəzalandırılmasıdır. Məktubda tələb olunurdu ki, xanlar və Dağıstan hakimləri öz nümayəndələrini Qacar xanının yanına göndərsinlər və itaət etmələrini ona bildirsinlər. Ağa Məhəmməd xanın adından vəd olunurdu ki, xanların və hakimlərin öz itaətlərini bildirməsi əvəzsiz qalmayacaqdır (83).

Tarixi ədəbiyyatda Quba xanı Şeyxəli xanın Qacar xanının çağırışına meyllilik nümayiş etdirməsindən danışılır. Bütünlükdə isə, Cənubi Qafqaza ilk yürüşü zamanı Ağa Məhəmməd xan özünün Azərbaycan xanlıqları üzərində sabit hakimiyyətini təmin edə bilmədi. Əksinə, özünün və qoşunlarının yerli əhaliyə qarşı müəyyən talançı münasibəti Azərbaycan xanlarını himayədar axtarışına sövq etdi. Ona görə Ağa Məhəmməd xan hələ Azərbaycanda ikən Azərbaycan xanlarının Rusiyadan kömək istəmək meyli daha da artdı.

1795-ci ildə Lənkəran xanı Mir Mustafa xan Rusiya sarayına müraciət etdi və hətta xanlığa göndərilə biləcək rus hərbi qüvvəsinin azuqə təminatını öz üzərinə götürdüyünü bəyan etdi (84). Ağa Məhəmməd xan öz qoşunlarını Şuşa qalasından aralayan kimi İbrahim xan da rus qoşunları Qafqaz xəttinin komandanı general Qudoviçin yanına öz nümayəndələrini göndərdi və Qarabağ xanlığının Rusiya himayəsi altına alınmasını xahiş etdi (85). Uzun tərəddüddən sonra Bakı xanı Hüseynqulu xan da yenidən Rusiyanın himayəsini əldə etməyi qərarlaşdırdı. Aparılan danışıqlardan sonra, 1795-ci ilin dekabrında Rusiya himayəsinin əldə edilməsi üçün Bakı xanlığı öz üzərinə bir sıra öhdəliklər götürməli oldu. Həmin öhdəliklər aşağıdakılar idi: 1) Xan və onun varisləri xanlıq vəzifəsinə Rusiya imperatoru tərəfindən təyin olunmalı idilər; 2) Bakı xanı Rusiya himayəsini qəbul etməmiş digər

xanlarla Rusiya nümayəndələrinin razılığı olmadan təmaslar qurmamalı idi; 3) Bakıya üz tutan rus tacirlərinə ticarət işlərində üstünlük verilməli idi; 4) Bakılılar dənizdə qəzaya uğramış rus gəmilərindəki mallara toxunmamalı və onları sahiblərinə qaytarmalı idilər; 5) Bakı limanında rus hərbi gəmiləri dayanmalı və Bakıda rus konsulu olmalı idi; 6) Rus və İran tacirləri arasında mübahisələrin həll olunmasında rus konsulu da iştirak etməli idi; 7) Bakı xanı Quba xanı Şeyxəli xana müəyyənləşdirilmiş həcmdə vergi verməli idi. Bununla, Şeyxəli xan da Bakı xanının Rusiya himayəsində olmasına etiraz etməməli idi (86).

Mövcud olan məlumatlara görə, Hüseynqulu xan öz nümayəndəsini Peterburqa göndərdi və Rusiya himayəsini qəbul etməyə razı olması haqqında xahişlərini Rusiya imperatoruna da çatdırdı (87).

Belə bir tarixi şəraitin yaranmasını Rusiya sarayı məmnunluqla qarşıladı. Baxmayaraq ki, Osmanlı dövləti qarşısında götürülən öhdəliklərin pozulmasına Rusiya sarayı hələ də ehtiyatla yanaşırdı. Amma Ağa Məhəmməd xanın Tiflis üzərinə hücumundan sonra Rusiyanın işğalçılıq planlarının reallaşması daha açıq xarakter aldı.

Ağa Məhəmməd xanın qoşunlarının dağıdıcı hücumlarından sonra Şamaxı xanı Mustafa xan da növbəti talanlardan qorunmaq üçün Rusiya himayəsinə müraciət etmək məcburiyyətində qaldı. Rusiya qoşunları Qafqaz xəttinin komandanı general Qudoviçin şamaxılı Mustafa xana göndərdiyi məktubundan da görmək mümkündür ki, Azərbaycan xanlarının Rusiya himayəsinə müraciət etməkdə əsas məqsədi Ağa Məhəmməd xanın növbəti hücum təhlükəsindən sığortalanmaq idi. Əslində, bu xanların başqa bir seçimi də yox idi. General Qudoviç Şamaxı xanı Mustafa xana göndərdiyi məktubunda yazırdı ki, bir sıra xanlar Rusiya imperatrişasına müraciət edərək onun təbəəliyini qəbul etməyə hazır olduqlarını bildirmişlər. Generalın sözünə görə, Rusiya çariçası da bu xanların müraciətini qəbul etmiş və onları qorumağı öz üzərinə götürmüşdü. Bununla, Rusiya sarayının Azərbaycan xanlarının taleyinə daha yaxın olması görüntüsü yaratmağa çalışan rus generalı Mustafa xanı Bakı, Dərbənd, Quba və Lənkəran xanlıqları ilə birləşərək Ağa Məhəmməd xana qarşı ittifaq yaratmağa çağırdı (88). Belə bir ittifaqın yaradılması sözsüz ki, rus maraqlarına da cavab verərdi və ona görə də, general Qudoviç belə bir imkanı əldən vermək istəmirdi.

Tehrana qayıdandan sonra Ağa Məhəmməd xan əvvəlcə özünün şahlığını rəsmiləşdirməyə qərar verdi. Doğrudur, o şahlıq məqamına olan marağını açıq şəkildə bildirməkdən çəkinirdi. Ona görə də o sərkərdələrini ətrafına topladı. Əvvəlcədən hazırlanmış olan şahlıq tacını toplantı iştirakçılarının qarısına gətizdirdi. Sonra bu tacı başına qoyması, başqa sözlə

özünü şah elan etməsi üçün qoşun sərkərdələrinin razı olub-olmadığını soruşdu. Ağa Məhəmməd xan mərkəzləşdirilmiş bir dövlət yaratmağa və Nadir şah dövlətinin ərazilərinin böyük bir hissəsini nəzarət altına almağa müvəffəq olandan sonra özünün şah elan edilməsinə elə bir maneə görmürdü. Qoşun sərkərdələrinin toplantısını keçirmək isə onun üçün formal bir tədbir idi. Sözsüz ki, qoşun sərkərdələri də onun istəyinin əleyhinə çıxmadılar. Belə olanda Ağa Məhəmməd xan bəyan etdi ki, əgər qoşun sərkərdələri and içib ona sədaqətli olacaqlarına söz versələr onda şahlıq taxtına çıxmağa razıdır. Qoşun sərkərdələri Ağa Məhəmməd xanın bu istəyinə əməl etdilər. Bundan sonra Ağa Məhəmməd xan şahlıq tacını başına qoydu və Şah İsmayıl Səfəvinin məqbərəsindən gətirilmiş qılıncı belinə bağladı (89). Bununla da, 1796-cı ildə Ağa Məhəmməd xan özünü şah elan edərək Ağa Məhəmməd şah oldu.

## *2.V.Zubovun rəhbərliyi altında olan rus qoşunlarının Azərbaycan üzərinə hücumu*

Ağa Məhəmməd xanın Cənubi Qafqaza hücumu bölgədə ağır vəziyyət yaratmaqla bərabər, Rusiya sarayını ciddi təşvişə saldı. Çünki bu hücumla Rusiyanın bölgədəki mənafeləri təhlükə altına alınmış olurdu. Bir tərəfdən Rusiya bölgədə öz nüfuzunu əldən verməkdə idi. Digər tərəfdən isə Rusiya himayəsi altında olan Gürcüstana lazımi yardım göstərməməklə Azərbaycan xanlarında da Rusiyaya arxalanmağın mənasızlığı təsəvvürünü yarada bilərdi. Bir neçə Azərbaycan xanının Qacar hakimiyyətini tanıması özü də Rusiya sarayını narahat edirdi. Çünki Qacarların möhkəmlənəcəyi təqdirdə Azərbaycan xanlıqları arasında antirus əhval-ruhiyyəsi də güclənə bilərdi. Bu da Rusiyanın Cənubi Qafqaza olan yolunu çətinləşdirmiş olardı. Ona görə Rusiya sarayı Cənubi Qafqaz maraqlarının qorunması üçün bölgəyə hərbi qüvvə çıxarmaq qərarına gəldi. Fəslin və hava şəraitinin əlverişsizliyinə baxmayaraq Sıroxnevin komandirliyi altında olan iki tabor yenidən hərbi Gürcüstan yolu ilə Gürcüstana göndərildi. Bu dəstə 1795-ci il noyabr ayının sonlarında Tiflisə gəlib çıxdı. Məlumdur ki, Ağa Məhəmməd xan o zaman artıq Muğan düzündə idi. Əgər Ağa Məhəmməd xan geri çəkilməsəydi belə 1500 nəfərlik rus dəstəsinin Qacar qoşunlarına üstün gələ biləcəyi elə də real görünmür.

Ağa Məhəmməd xan Muğan düzündə olarkən onun şimala doğru Xəzərboyu ərazilərə irəliləmək ehtimalı barədə xəbər yayıldı. Bu xəbər də Rusiya sarayı tərəfindən narahatlıqla qarşılandı və Qacar qoşunlarının Xəzəryanı ərazilərə buraxılmaması üçün Dağıstan istiqamətində də rus qoşun dəstəsinin göndərilməsi qərara alındı. Rus tarixçilərinin yazdığına

görə, belə bir dəstənin göndərilməsini Dağıstan hakimləri də xahiş etmişdilər. General Qudoviç də Rusiya çariçasının müvafiq göstərişini əlin-də əsas tutaraq Dağıstan istiqamətinə dəstə göndərdi. Bu dəstə eyni zamanda Quba xanlığının ərazilərini də Qacar qoşunlarının müdaxiləsindən qorumalı idi. General Qudoviçin əmri əsasında üç tabordan ibarət bir dəstə formalaşdırıldı və general-mayor Savelyev bu dəstənin komandiri təyin edildi. Dəstəyə əlavə olaraq 6 ədəd top, bir kazak nizami eskadronu, 400 nəfərlik kalmık dəstəsi verilmişdi. General Qudoviçun sərəncamı əsasında Savelyev Tərkidən keçməklə Buynakska doğru irəliləməlli, Dağıstan hakimlərini yanına dəvət etməli və onları Qacar qoşunlarına qarşı birgə müdafiənin təşkilinə dəvət etməli idi. General Savelyev xanları dilə tutmalı idi ki, Ağa Məhəmməd xana bel bağlamağın mənası yoxdur və Qacar qoşunları Rusiyanın gücü qarşısında heç bir iş görə bilməz (90).

Dağıstan hakimləri ilə ümumi dil tapdıqdan sonra general Savelyev Dərbəndə doğru irəliləməli, bu şəhəri ələ keçirməli, Şeyxəli xanı yanına çağırmalı və əvvəllər Rusiya himayəsini qəbul etməyə hazır olan bu xanı məcbur etməli idi ki, o da Dağıstan hakimləri ilə əlaqəyə girsin və onlarla birlikdə Qacar qoşunlarına qarşı ümumi mövqe tutsun. Bu tapşırıqların icrası üçün general Savelyev rus qoşunları düşərgəsindən yalnız 1795-ci il dekabr ayının 19-da hərəkətə başlaya bildi. Çünki soyuq hava şəraiti dəstənin hərəkətinə imkan vermirdi. Marşrutu üzərində general Savelyev bir sıra Dağıstan hakimləri ilə görüşə bildi. Rus qoşun dəstəsini görən Dağıstan hakimləri Qacar qoşunlarına qarşı birgə müdafiə olunmağa söz verdilər. Dağıstan hakimlərinin Qacar qoşunlarına qarşı ciddi mövqe tutmalarına nail olunması üçün general Savelyev onların bəzilərinə maliyyə vəsaiti də ayırdı. Amma general Savelyevin Şeyxəli xanı Rusiya mövqeyinə çəkmək cəhdi baş tutmadı. Rus qoşun dəstəsinin yaxınlaşması xəbərini eşidəndə Şeyxəli xan Dərbəndə yollandı və general Savelyevlə təmasa girməkdən imtina etdi. General Savelyev ona Rusiya himayəsini qəbul etmək arzusunda olduğunu xatırladaraq tələb etdi ki, onun yanına öz nümayəndələrini göndərsin və bu nümayəndələrlə birgə rus qoşun dəstəsinin Dağıstan hakimləri və Şeyxəli xanla birlikdə Qacar qoşunlarına qarşı birgə mübarizə planları müəyyənləşdirilsin. Şeyxəli xan bu tələbə rədd cavabı verdi (91).

General Savelyev öz tələbini Şeyxəli xana çatdırmaq üçün mayor Axverdov adlı birisini onun yanına göndərdi. Şeyxəli xan bu zabitlə görüşməkdən imtina etdi. Hətta onu həbs etdirərək Ağa Məhəmməd şahın hüzuruna göndərmək istədi. Sonra Şeyxəli xan bu fikrindən daşındı və Axverdovu azad buraxdı. Öz mövqeyindən isə Şeyxəli xan əl çəkmədi və hətta Bakı xanı Hüseynqulu xan da ruslara qarşı mövqe tutaraq Şeyxəli xanın mövqeyini müdafiə etdi. Baxmayaraq ki, Rusiya himayəsinin əldə

edilməsi üçün Hüseynqulu xanın nümayəndələri Rusiya sarayından hələ geri qayıtmamışdılar. Nümayəndələrinin Rusiyadan geri qayıtmamış Hüseynqulu xanın yenidən ruslara qarşı mövqe tutması Bakı xanının bütünlükdə Rusiyaya etibar etməməsinin nümayişi idi. Hüseynqulu xan Dərbəndə topçuları ilə bərabər, 2 ədəd top da göndərdi (92).

Şeyxəli xan rus qoşun dəstəsini Dərbəndə buraxmadı və bəyan etdi ki, bu rus dəstəsi şəhərə buraxılsa gələcəkdə Ağa Məhəmməd şah bunun qisasını alar və Dərbəndu viranə hala salar. Şeyxəli xanın ruslara qarşı mövqe tutması general Qudoviçi də təşvişləndirdi və çox güman ki, Şeyxəii xanda qorxu hissi yaradılması üçün general Savelyevin dəstəsini daha da gücləndirdi və onun ixtiyarına əlavə atlı tabor göndərdi. Bundan sonra general Savelyevin dəstəsinin tərkibi belə idi: Qafqaz yeger korpusunun 3-cü və 4-cü taborları, Moskva muşketyor alayının və Qafqaz muşketyor alayının taborları, Mozdok kazaklarından ibarət 100 atlı, 100 nəfər Qreben atlısı, 200 nəfər Terek atlısı, 250 nəfər kalmık atlısı və legion komandasından 116 nəfər atlı. Yeni taborları qəbul edəndən sonra general Savelyev birbaşa Dərbəndə doğru irəliləməli və Şeyxəli xana Rusiyanın şərtlərini qəbul etdirməyə çalışmalı idi (93).

General Savelyev də aldığı tapşırığa əsasən, qoşun dəstəsi ilə 1796-cı il fevral ayının 15-də Dərbəndə yaxınlaşdı. Onun dəstəsini Dağıstan hakimlərinin bəzilərinin dəstələri də müşayiət edirdilər. Şeyxəli xan bu təzyiqə fəal müdafiə ilə cavab verdi. Quba xanlığının atlı dəstələri rus kazak atlılarını atəşə tutdular. Kazak atlılarının hücumunun qarşısını almağa gücü çatmadıqda onların köməyinə 100 nəfərlik yeger dəstəsi göndərildi. Bundan sonra Dərbənd atlıları geri çəkildilər və rus qoşunları irəli hərəkət edərək Dərbəndin iki verstliyində düşərgə saldılar. Sonrakı gün Dərbənd ətrafındakı hakim yüksəkliklər ruslar tərəfindən ələ keçirildi, Dərbənd ətrafında rus topları yerləşdirildi və onlardan qalaya atəş açılmasına başlandı. Qala daxilindən də bu atəşlərə top atəşləri ilə cavab verildi. Rus qoşun dəstəsinin təzyiqinin güclənməsini görüncə Şeyxəli xan həm Ağa Məhəmməd şah Qacarın yanına, həm də general Savelyevin yanına nümayəndələrini göndərdi. Ağa Məhəmməd şah Qacardan Dərbəndin müdafiəsi üçün kömək istənildi. General Savelyevin yanına göndərilən nümayəndələr isə Quba xanlığının Rusiya himayəsini qəbul etməyə meylli olduğunu bəyan etdilər. Amma eyni zamanda onu da bildirdilər ki, Rusiya himayəsinin qəbul olunmasına görə, Ağa Məhəmməd şahın qisasından ehtiyat edilir. General Savelyev Quba xanının tərəddüdlü mövqeyindən razı olmasa da, danışıqların uzanmasına etiraz etmədi. Çünki bununla o, kifayət qədər yorulmuş qoşun dəstəsinə istirahət imkanı verdi. Amma bu istirahət günlərində rus qoşunları tərəfindən yeni səngərlər tikildi, artilleriya mövqeləri möhkəmləndirildi. 1796-cı il

fevral ayının 26-da rus qoşunları Dərbənd qalası üzərinə yenidən hücuma başladılar. Bu hücum xeyli uzanmalı oldu. Lakin rus qoşunlarının Dərbənd qalasını almağa gücü çatmadı. Təxminən bir aylıq döyüşdən sonra rus qoşunları Dərbənd üzərinə hücumu dayandırmalı oldu (94).

Qeyd etmək lazımdır ki, Ağa Məhəmməd şah Qacardan Şeyxəli xana kömək gəlmədi. Rus tarixçilərinin yazdığına görə, Ağa Məhəmməd şah Qacar qoşunlarına istirahət verdiyi üçün Quba xanına hərbi yardım göndərmədi və ona xəbəri də bu cür çatdırdı (95). Farsdilli mənbələrdə də tac qoyma mərasimindən sonra Ağa Məhəmməd şahın qoşunlara istirahət verdiyi bildirilir (96). Ümumiyyətlə, Qacar qoşunları da mövsümi müharibəyə üstünlük verirdi. Yəni, döyüşlər əsasən yaz-yay aylarında aparılır və havalar soyuqlaşanda isə döyüşlərə ara verilirdi. Şeyxəli xanın Ağa Məhəmməd şaha müraciətinin doğruluğu qəbul edilərsə, Qacar qoşunlarının şimala yollanmamasını hava şəraiti ilə əlaqələndirmək olar. Digər tərəfdən Ağa Məhəmməd şah 1796-cı ilin yaz-yayında Mazandaran və Xorasan istiqamətində yürüş planlaşdırırdı. Ağa Məhəmməd şahın öz qoşununu parçalamaması bu planla da bağlı ola bilərdi.

Rusiya qoşunları Qafqaz xəttinin komandanı general Qudoviç şimal-qərbdən Sıroxnevin, şimal-şərqdən Savelyevin komandirliyi altında qoşun dəstələrinin Cənubi Qafqaza göndərilməsi ilə bu bölgədə rus maraqlarının təmin ediləcəyinə əmin deyildi. Ona görə, general Qudoviç bir neçə dəfə Rusiya sarayına müraciət etdi və Cənubi Qafqaz məsələsinin həlli üçün qoşun dəstələri ayrılması haqqında məsələ qaldırdı. Ümumiyyətlə, Ağa Məhəmməd xanın Tiflisə daxil olmasından sonra general Qudoviçlə Rusiya sarayı arasında yazışmalar xeyli fəallaşdı.

1796-cı il yanvarın 8-də gürcü çarı İrakli də növbəti dəfə Rusiya çarıçasına məktub göndərdi və bildirdi ki, Rusiyanın köməyinə çox ümid etsələr də bu köməyi ala bilmədilər və nəticədə Ağa Məhəmməd xanla döyüşdə məğlub oldular. İrakli yazırdı ki, Tiflisə 1795-ci ilin sentyabrında yetişmiş olan 2 min nəfərlik rus qoşun dəstəsi kifayət deyil və Qacar qoşunlarının hücumunun dəf edilməsi üçün ən azı 8 min nəfərlik rus qoşunu lazımdır. Ona görə gürcü çarı Rusiya sarayından daha böyük qoşun dəstəsinin göndərilməsini xahiş edirdi (96).

Eyni zamanda gürcü çarlığının Peterburqdakı elçisi knyaz Çavçavadze Cənubi Qafqaza əlavə rus qoşun dəstələrinin göndərilməsi üçün fəal yazışmalar aparırdı. Knyaz Çavçavadzenin bütün yazışmalarında Ağa Məhəmməd şahın yeni hücumlarından bir narahatçılıq mövcud idi və Rusiyanın himayəsini qəbul etmiş və bununla Rusiya maraqlarının Cənubi Qafqazdakı təmsilçisinə çevrilmiş gürcü çarlığının qorunmasında rus köməyi əsas variant kimi müzakirələrə çıxarıldı. İstər II İraklinin, istərsə də

knyaz Çavçavadzenin yazışmalarında İrəvan və Gəncə xanlıqları gürcü çarına tabe olmuş ərazilər kimi təqdim edilir və bununla rus qoşunlarının Cənubi Qafqaza çıxarılması üçün Rusiya sarayında maraq yaradılırdı. Yəni, Rusiya sarayında belə bir təsəvvür yaradılırdı ki, rus qoşunlarının köməyi ilə möhkəmləndirilmiş gürcü çarlığı İrəvan və Gəncə xanlıqlarını öz nəzarəti altına alacaq və bununla rus himayəsi həmin xanlıqları üzərinə də yayılacaqdır. Rusiya sarayı Cənubi Qafqazda nüfuz dairəsinin belə genişlənməsini sözsüz ki maraqla qarşılayırdı. Bununla belə, İrəvan xanlığının Osmanlı dövləti ilə həmsərhəd olmasından və bu bölgədə Osmanlı dövləti ilə gərginlik yaşanmasından ehtiyat edirdi və general Qudoviçə göndərilən məktublarda bu məqama diqqət yetirilməsi tələb olunurdu (97).

Ağa Məhəmməd xan Qacarın maneəsiz olaraq Cənubi Qafqaza qoşun çıxarması, habelə Quba xanı Şeyxəli xanın kifayət qədər güclü rus qoşun dəstəsinə müqavimət göstərməsi Rusiya sarayını heç də qane etmirdi. Mövcud olan məlumatlara görə, general Qudoviç Rusiya sarayına çağırıldı, orada məsələ ilə bağlı onun məruzələri dinlənildi və general Qudoviç Sankt-Peterburqdan geri qayıtdıqdan sonra Azərbaycan xanlıqları üzərinə yürüş üçün hazırlaşmağa başladı (98).

Rusiya sarayı tərəfindən də 1796-cı ilin əvvəlində artıq belə bir yürüşün həyata keçirilməsi barədə qərar qəbul edilmişdi. General Qudoviç bu yürüşün icrasının ona tapşırılacağını güman edirdi. Çünki həmin yürüş general Qudoviçin rəhbərliyi altında olan Qafqazdakı rus qoşunları tərəfindən həyata keçirilməli idi. Nəzərdə tutulmuşdu ki, Azərbaycan xanlıqları üzərinə yürüşdə iştirak edəcək qüvvələr aşağıdakılardan ibarət olmalıdır: Qafqaz qrenadyor alayı, iki muşketyor alayı, bir yeger korpusu, draqunlardan ibarət 30 eskadron, yüngül qoşunlardan təşkil edilmiş 3 min nəfərlik dəstə, 33 səhra topu. Qoşun dəstəsinin ərzaqla təmin olunması üçün Həştərxanda ehtiyat anbar yaradılmalı və 1796-cı ilin yazına kimi 70 min çetvert un və 40 min çetvert yarma toplanmalı idi. Həştərxanda toplanmış olan bu ərzağı sonradan istər quru yolla, istərsə də dəniz yolu ilə Bakıya və digər Xəzəryanı ərazilərə çatdırmaq mümkün idi. Azərbaycan xanlıqları üzərinə hücuma hazırlaşan rus qoşun dəstəsi üçün cari ərzaq ehtiyatları da yaradılmalı və qoşunla birlikdə hərəkət etdirilməli idi. Üç ay üçün nəzərdə tutulmuş bu ərzaq ehtiyatının daşınması üçün 1200 baş dəvə alınmalı idi (99).

Rus qoşunlarının Azərbaycan xanlıqları üzərinə göndərilməsinə Rusiyada yaşayan ermənilər, o cümlədən də Rusiyada yaşayan ermənilərin arxiyepiskopu İosif Arqutinski də xüsusi canfəşanlıq göstərirdi. Onlar ümid edirdilər ki, bu yürüşdən sonra İrəvan və Qarabağ xanlıqları ərazisində ermənilərin rəhbərliyi altında yeni bir qurum yarada biləcəklər və bunun üçün onlar havadarları ilə birlikdə Rusiya sarayı ilə əlaqə yaradıb rus qoşun-

larının Azərbaycan xanlıqlarının ərazilərini işğal etməkdə və Ağa Məhəmməd şahın bölgədən sıxışdırılmasında kömək etməyə hazır olduqlarını bildirdilər. Rusiya sarayı bu təklifdən istifadə edilməsin mümkün saydı və hətta Qafqaza doğru hərəkət edəcək rus qoşunları tərkibinə erməni keşişlərinin cəlb edilməsi haqqında göstəriş verdi. Rusiyanın Cənubi Qafqaza qoşun çıxarmaq xəbərini eşidən kimi İ.Arqutinski dərhal Rusiya sarayının nüfuzlu əyanlarından olan qraf Platon Zubova ermənilər və Azərbaycan xanlıqları haqqında yazılı məlumatlar göndərdi və ondan xahiş etdi ki, Azərbaycan xanlıqları üzərinə hücuma A.Suvorov rəhbərlik etsin (100).

Arxiyepiskop İ.Arqutinski məktubunda A.Suvorova üstünlük verməsini Azərbaycan xanlıqları üzərinə hücumun qısa bir zamanda həyata keçirilməsinin vacibliyi ilə əlaqələndirirdi. O, qoşunların Tiflis istiqamətində deyil, Dərbənd istiqamətindən Azərbaycan xanlıqları üzərinə göndərilməsini məqsədəuyğun bilirdi. Bu zaman rus qoşunları Dərbənd və Bakı istiqamətinə hərəkət etsəydilər, Şəki və Şamaxını işğal etmək də asan olardı. Bundan sonra isə Gəncə asanlıqla işğal edilərdi. Bütün bunlardan sonra erməni arxiyepiskopu Cənubi Qafqazda Gürcüstan və Ermənistan yaradılması zəruriliyinə toxunur və bu dövlətlərin yaradılması üçün öz planını da Rusiya sarayına təklif edirdi. Məktubunun sonunda İ.Arqutinski bildirirdi ki, Cənubi Qafqaza qraf Suvorov göndərilərdisə qarşıya qoyulan vəzifə bir dəfəlik həll edilərdi (101).

Rusiya sarayında Azərbaycan xanlıqları üzərinə hücum edəcək qoşunlara rəhbərliyin doğrudan da A.Suvorova tapşırılması gündəliyə gətirildi. Bu qərarın ermənilərin təklifi əsasında qəbul edildiyini və ya hücumun uğurunun təmin edilməsi üçün qəbul edildiyini söyləmək çətindir. Bununla belə, sonradan bu vəzifəyə Rusiya sarayında nüfuza malik olan qraf Platon Zubovun 24 yaşlı qardaşı Valerian Zubov təyin edildi.

Kifayət qədər gənc yaşında olan Valerian Zubovun Azərbaycan xanlıqları üzərinə yürüşə komandan təyin edilməsi rus tarixşünaslığında da birmənalı qarşılanmamışdır. Məsələn, rus tarixçisi Potto öz əsərində Valerian Zubovu cəsurluğuna, imperiya qarşısında göstərdiyi xidmətlərə görə səxavətlə tərifləyir, Platon Zubov tərəfindən ona müəyyən dəstək verilsə belə, onun özünün də belə yüksək məsuliyyətli vəifəyə təyin edilməyə layiq olduğunu bildirirdi.

Elə Pottonun yazdıqlarından aydın olur ki, Valerian Zubov 1785-ci ildə zabit rütbəsi almış və cəmi 4 illik xidmətdən sonra podpolkovnik rütbəsinə sahib olmuşdu. Podpolkovnik rütbəsində o, Türkiyə ilə müharibədə iştirak etdi. Bender şəhərinin alınmasına görə Rusiya çariçası onu polkovnik rütbəsi ilə təltif etdi. İsmayıl şəhəri üzərinə həyata keçirilən hücumdan sonra V. Zubov 4-cü dərəcəli Georgi xaçı ilə mükafatlandırıldı.

Qısa müddətdən sonra V. Zubov general rütbəsi almaqla növbəti ordenlə təltif edildi. Sonra A.Suvorovla birlikdə Polşaya göndərildi və burada A.Suvorovun rəhbərliyi altında əldə edilən bütün qələbələrdə V.Zubov da iştirak etdi. 23 yaşında olarkən V.Zubov general-poruçik rütbəsini, boyundan asılan Georgi xaçını, Müqəddəs Andrey Pervozvannı ordenlərini qazandı. Varşavanın 20 kilometrliyində Buq çayını keçərkən düşmən topunun gülləsi V.Zubovun bir ayağını apardı. Tarixçinin yazdığına görə, əsgərlər gənc V.Zubova çox böyük ehtiramla yanaşırdılar və onun ardınca oda və suya getməyə hazır idilər (102).

V.Zubovun bir ayağı protez olduğu üçün o, farsdilli mənbələrdə və ədəbiyyatda "Qızılayaq" kimi də məşhurdur. Başqa bir müəllif isə V.Zubovun Azərbaycan xanlıqları üzərinə hücum edəcək qoşunlara komandan təyin edilməsini və bu gənc generala adlı-sanlı rus generallarının tabe etdirilməsini təəccüblə qarşılayırdı. Məsələn, bildirilir ki, 1791-ci ildə Anapada Osmanlı qoşunlarına qarşı qraf Qudoviç, general Platov, sonralar Qafqazdakı rus qoşunlarının baş komandanı olmuş general Sisianov, general Yermolov və bir neçə digər generallar V.Zubovun tabeliyi altına verilmişdi (103).

Rusiya sarayı tərəfindən V.Zubovun qarşısına çox ciddi vəzifələr qoyulmuşdu və o tabeliyində olan qoşun dəstəsi ilə Rusiyanın böyük şərq siyasətinin həyata keçirilməsində iştirak etməli idi. Başqa sözlə, Cənubi Qafqazı ələ keçirdikdən sonra rus qoşunları Osmanlı Anadolusunu işğal etməli və İstanbul istiqamətində hərəkət etməli idi. A.Suvorov isə Rusiya qoşunları ilə Balkanlardan və Ədirnədən keçməklə Osmanlı paytaxtına yaxınlaşmalı idi. II Yekaterinanın və Platon Zubovun olduğu rus donanması isə dənizdən Osmanlı paytaxtını mühasirə etməli idi (104). Amma məlumdur ki, Rusiya sarayının bu planı həyata keçməmiş qaldı.

General-poruçik Valerian Aleksandroviç Zubov 1796-cı ilin fevralında Azərbaycan xanlıqları üzərinə hücum edəcək qoşun dəstəsinin rəhbəri təyin edildi. Yeni formalaşdırılacaq dəstədən əlavə, Xəzər hərbi donanması, Gürcüstanda polkovnik Sıroxnevin və general-mayor Savelyevin dəstələri də onun tabeliyinə verildi. Elə 1796-cı ilin fevralında Rusiya çariçası II Yekaterina tərəfindən V.Zubovun adına təlimat imzalandı.

Bu təlimat kifayət qədər müfəssəl bir təlimat idi və orada Rusiya dövlətinin Cənubi Qafqazla bağlı siyasətinin əsasları, V.Zubovun Cənubi Qafqaz üzərinə hücumu ilə bağlı qarşısında dayanan vəzifələr və digər məsələlər öz əksini tapmışdı (105).

Rusiya çariçası öz təlimatında Səfəvilər hakimiyyətinin sonlarında bu ölkə daxilində yaranmış çətinliklər dövründə Rusiya dövlətinin cənuba doğru irəliləmək şansı əldə etdiyinə, bu şansın Rusiya dövləti üçün böyük sərvətlər vəd etdiyinə toxunaraq Nadir şah dövründə həmin şansların itirildiyini qeyd edirdi.



*Valerian Zubov*

Çarıça böyük ümidlə bəyan edirdi ki, Xəzəryanı ərazilərin yenidən nəzarət altına alınması fars dövlətinin vilayətlərində ticarət etmək imkanı verəcək və Hindistana aparan yollar açılacaqdır. Bu imkanların əldə edilməsi üçün II Yekaterina ilk növbədə Rusiyanın həmsərhəd olduğu ərazilərin, yəni Cənubi Qafqazın Qacar qoşunlarının hücum təhlükəsindən xilas edilməsinin vacibliyini vurğulayırdı. Onun fikrincə, Qacar qoşunlarının çəkinmədən Cənubi Qafqaza hücum etməsi bu bölgədə Rusiyaya meylli olan hakimlərin Rusiyaya olan etibarını itirməklə yanaşı, digər yerli hakimlərin də Rusiyaya olan münasibətinin dəyişməsinə yol aça bilərdi. Digər tərəfdən Qacar qoşunlarının Rusiya sərhədlərinə yaxınlaşması Dağıstan xalqlarının antirus üsyanlarının qalxmasına təkan verə bilərdi. Rusiya çarıçası təlimatının sonunda qeyd edirdi ki, Ağa Məhəmməd xan Qacar tərəfindən Cənubi Qafqaza yarana biləcək təhlükənin qarşısının alınması üçün bölgəyə göndəriləcək hərbi qüvvələrə V.Zubovun komandir təyin edilməsi məqsədəuyğun bilinmişdir.

V.Zubovdan tələb olunurdu ki, dərhal Qafqaz quberniyasına yollansın, orada olan rus qoşunlarının komandanı general Qudoviçlə görüşsün və Cənubi Qafqaza göndəriləcək qoşun hissələrinə komandanlığı öz əlinə alsın. V.Zubova məsləhət bilinirdi ki, yaz açılan kimi bölgəyə yollansın və havalar qızmamış Cənubi Qafqaza qoşun çıxarmaq imkanlarını nəzərdən keçirsin.

V.Zubova göndərdiyi əmrlərindən birində Rusiya çarıçası Cənubi Qafqazda aparılacaq əməliyyatların ümumi konturlarını da müəyyənləşdirmişdi. V.Zubovun özünün də daxil olduğu qoşun dəstəsi Dağıstandan keçməklə Xəzər boyunca cənuba doğru irəliləməli, Bakını ələ keçirməklə orada mərkəzi təchizat anbarı yaratmalı idi. Rus qüvvələrinin Xəzərboyu hücumu zamanı Xəzər donanması Zubovun tabeliyində olan piyada qüvvələrini dəstəkləməli və bu iki qüvvə Bakıda birləşməli idi. Eyni zamanda Gürcüstanda olan rus qüvvələri əlavə qoşunlarla gücləndirilərək Qafqaz korpusu adını almalı və bu korpus Kür-Araz çaylarının qovşağına doğru irəliləməli idi. Burada Qafqaz korpusu V.Zubovun rəhbərliyi altında olan əsas qüvvələrlə əlaqə yaradaraq Qacar qoşunlarına qarşı birgə fəaliyyəti tənzimləməli idi. V.Zubova verilən əmrdə bildirilirdi ki, onun qarşısında dayanan başlıca vəzifə Qarabağ xanına və Qarabağ məliklərinə yardım göstərilməsidir .

Təlimatda bildirilirdi ki, Ağa Məhəmməd xana qarşı mövqe tutmuş İbrahim xanın möhkəmləndirilməsindən sonra rus qoşunlarının Araz çayının sağına keçə bilməsi yaxşı olardı. Arzu olunurdu ki, rus qoşunları Arazdan cənuba olan Azərbaycan xanlıqlarının qoşunları ilə birləşsin və onlar birlikdə Ağa Məhəmməd şah Qacara güclü zərbə endirsinlər. V.Zubovun rəhbərliyi altında olan qüvvələr Gəncəyə doğru da irəliləməli, bu xanlığı

nəzarət altına almaqla bərabər, burada Gürcüstandan gələn rus qoşunlar ilə birləşməli idi. İrəvan xanlığında və Araz çayının yuxarılarında rus maraqlarının qorunması isə gürcü çarı İrakliyə həvalə olunmalı idi. Rusiya çariçası rus qoşunlarının hələlik İrəvan xanlığı ərazisinə daxil olmasını və bununla da Osmanlı dövlətinin narazılığına səbəb olunmasını istəmirdi.

Bütünlükdə, Rusiyanın İrəvan xanlığına qarşı xüsusi və ehtiyatlı bir yanaşması mövcud idi. Güman edilirdi ki, rus qoşunlarının Cənubi Qafqaza gəlməsi ilə İrəvan xanlığı Ağa Məhəmməd şahın nəzarətindən çıxmağa çalışacaq və bundan sonra bu xanlığa gürcü himayəsini qəbul etdirmək daha asan olacaqdır.

İrəvan xanı Məhəmməd xan çalışırdı ki, Qacarlar hakimiyyətinin nəzarətindən çıxmağa müvəffəq olsun. Ancaq rusların güman etdiyi kimi, Məhəmməd xan təkcə Ağa Məhəmməd şah Qacarın nəzarətindən çıxmağa çalışmırdı. O eyni zamanda Rusiyanın da himayəsini (o cümlədən də gürcü çarlığının himayəsini) qəbul etmək istəmirdi. Bu məsələdən Ağa Məhəmməd şah da xəbər tutdu və İrəvan xanlığını daha ciddi nəzarət altına almaq üçün tədbirlər gördü. İrəvan qalasına yerləşdirilən Qacar qoşun dəstəsinə Ağa Məhəmməd şahın yaxınlarından olan Təvəkkül xan rəhbərlik edirdi. Mövcud olan məlumatlara görə, qalada yerləşdirilmiş şah qoşunlarının güclü nəzarətinə baxmayaraq Məhəmməd xan qala əhalisinin Qacar hakimiyyətinə qarşı üsyana qaldıra bildi. İrəvan qalasında Qacar hakimiyyətinə qarşı üsyan xəbərini eşidən kimi Ağa Məhəmməd şah qardaşı Əliqulu xanın rəhbərliyi altında ora əlavə qoşun dəstəsi göndərdi. Məhəmməd xanın Qacar hakimiyyətinə qarşı mövqe tutması Rusiya sarayında onunla əməkdaşlıq ümidini artırdı. Və ya ən azı II İraklinin qoşunlarının İrəvan xanlığına doğru irəliləməsi ilə İrəvan xanlığının asanlıqla nəzarət altına alınacağı güman edilirdi.

Qraf V.Zubovun məsləkdaşlarından biri olan mayor Serebrov da İrəvan qalası üzərinə hücumun II İrakliyə tapşırılmasını təklif edirdi (106). Çünki İrəvan qalasının müdafiə imkanları rus zabitlərini qorxuya salmışdı. Serebrovun məsləhətinə görə, neçə illər ərzində gürcü çarlığı öz yürüşləri nəticəsində İrəvanı asılı vəziyyətə sala bilmişdisə, deməli onda gürcülər İrəvan qalasına yol tapmağı daha yaxşı bilirdilər.

Heç şübhəsiz ki, gürcü çarı II İrakli əvvəlki kimi yenə də İrəvan xanlığını öz nəzarəti altına almaq istəyirdi. Lakin onu da başa düşürdü ki, artıq təkcə öz qüvvələri ilə İrəvan xanlığını nəzarət altına ala bilməz. Ona görə də açıqca etiraf edirdi ki, Rusiyanın hərbi yardımı olmadan bu vəzifənin öhdəsindən gəlmək mümkün deyil. İrəvan xanlığı ərazisində yaşayan bəzi ermənilər də gürcü çarına məktub yazaraq onu İrəvan üzərinə

hücuma şirnikləndirməyə çalışırdılar. Belə bir məktubla ermənilər V.Zubova da müraciət etmişdilər.

Rus qoşunları komandanlığı yaxşı anlayırdı ki, Cənubi Qafqazda aparılacaq döyüşlərin taleyi Ağa Məhəmməd xanın qoşunlarının hansı istiqqamətdə irəliləməsindən çox asılıdır. Rus generallarına görə, xan qoşunlarının Xəzərsahili boyunca şimala doğru irəliləməsi onlar üçün daha əlverişli şərait yarada bilərdi. Belə olanda, Gürcüstanda yerləşən Qafqaz korpusu Gəncə və Qarabağ xanlıqlarının ərazisindən keçməklə sürətlə şərqə doğru irəliləyərək xan qoşunlarının geri çəkilmək yollarını bağlamalı idi. Zubovun rəhbərliyi altında olan əsas qüvvələrin ağır zərbəsi mühasirə vəziyyətinə düşmüş xan qoşunlarına ciddi itkilər yetirməli idi. Güman edilirdi ki, rus qoşunlarının uğuru Azərbaycan xanlarını da ayağa qaldıra və rus qoşunlarının müttəfiqinə çevirə bilərdi. Lakin o da nəzərə alınırdı ki, Ağa Məhəmməd xan Cənubi Qafqaza ilk hücumu zamanı seçdiyi marşrut üzrə hərəkət edə bilər. Buna əslində səbəb də var idi. Ağa Məhəmməd xan Qarabağ xanlığının fəthinə nail ola bilməmişdi və bunu heç də yaddan çıxarmamışdı. Xan qoşunları Qarabağdan keçməklə yenidən Gürcüstana doğru hərəkət etmək istəsəydi, bu zaman Qafqaz korpusu ağır vəziyyətlə qarşılaşa bilərdi. Nəzərdə tutulmuşdu ki, Ağa Məhəmməd xan Gürcüstana doğru irəliləməli olsa, onda Qafqaz korpusu əlverişli mövqelərdə müdafiədə dayanmalı və Xəzər korpusunun fəal döyüşlərə qatılmasını gözləməli idi. Xəzər korpusu da öz növbəsində Ağa Məhəmməd xanın Gürcüstana doğru irəliləməsi xəbərini alınca Bakı və Şirvan xanlıqlarını ələ keçirib Qarabağ və Gəncə xanlıqlarına doğru irəliləməli, xan qoşunlarının arxasına keçib onların geri çəkilmək yollarını bağlamalı idi (107).

Hər iki halda Rusiya sarayı döyüşlərin uğurlu aparılması üçün V.Zubova tövsiyə edirdi ki, yerli əhalinin dəstəyini qazanmağa çalışsın. Yerli əhalinin etibarı əldə edilmədən rus qoşunları bölgədə çoxsaylı təhlükələrlə qarşılaşa bilərdi. Bu məqsədlə Rusiya sarayı ilk növbədə bölgənin xristian əhalisinə, yəni gürcülərə və Qarabağ məliklərinə arxalanmağı məsləhət bilirdi. Bu kontingent Rusiya hakimiyyətinin Cənubi Qafqazdakı dayağı kimi qəbul edilirdi. Ağa Məhəmməd xanın Tiflisə dağıdıcı yürüşündən sonra gürcü çarlığının Rusiyaya meyli gücləndiyi kimi, Qarabağ məlikləri də İbrahim xanla mübarizədə Rusiyanın yardımlarına ümid bəsləyirdilər. Bölgənin xristian əhalisi, xüsusilə də Qarabağ məlikləri ilə qarşılıqlı münasibətlərin genişləndirilməsi üçün Rusiya ermənilərinin arxiyepiskopu İosif Arqutinski də V.Zubovun düşərgəsinə göndərildi.

Eyni zamanda V.Zubova tapşırıldı ki, bölgənin müsəlman əhalisi ilə son dərəcə ehtiyatla davransın. Bunun üçün bölgəyə daxil olan qoşun dəstələrinin qanunsuz hərəkətlərinin qarşısı alınmalı və əhaliyə mümkün

olan qayğı göstərilməli idi. Rus qoşunları öz əməlləri ilə sübut etməyə çalışmalı idilər ki, Rusiya bölgəyə əmin-amanlıq gətirir, onların gəlişi ilə yerli əhali xan qoşunlarının talançı yürüşlərindən müdafiə olunacaqlar. Bildirilirdi ki, əks təqdirdə rus qoşunları tərəfindən incidilən və talanlara məruz qalan yerli əhali rus qoşunlarına qarşı ciddi müqavimətə əl ata bilər (108).

Ağa Məhəmməd şah Qacar rus qoşunları ilə döyüşə girməyəcəyi və Arazdan cənuba çəkiləcəyi təqdirdə Valerian Zubov bütün qoşunları bir yerə toplayaraq Araz çayına qədər olan bütün əraziləri öz nəzarəti altına almalı, Ağa Məhəmməd şahın cəzalandırdığı Azərbaycan xanlarını öz yerlərinə bərpa etməli, Gürcüstanda gürcü çarlığının hakimiyyətinə arxa durmalı və sonradan da bütün qoşunları üçün Araz çayı sahillərində düşərgə salaraq güclü istilərin keçməsini gözləməli və payız gələndə öz planlarının icrasını davam etdirməli idi. Rus qoşunları Araz çayı sahillərində düşərgədə olduğu vaxtlarda kontr-admiral Fyodorovun rəhbərliyi altında olan Xəzər donanması Gilan sahillərinə desant çıxarmalı və Ağa Məhəmməd şahın qardaşı Murtuzqulu xanın Gilanda xanlıq məqamına bərpa olunmasına kömək göstərməli idi. Gilana desant çıxarılacağı halda piyada qoşun hissələrinin Arazı adlayaraq cənuba doğru irəliləməsi və hətta Ağa Məhəmməd şahın hakimiyyətdən salınması imkanları da nəzərdən keçirilməli idi. Bu planın icrası Rusiya sarayı üçün o zaman real görünürdü ki, onun icrasına rəhbərlik edəcək V.Zubov kifayət qədər çeviklik və sürət nümayiş etdirmiş olsun. Yerli əhali ilə xoş rəftara çağırış da bu böyük planın icrasına münasib şəraitin yaradılması zərurəti ilə bağlı idi (109).

Rusiya çarıçasının təlimatını alandan sonra qraf V.Zubov Qafqaza yollanmaq üçün hazırlığa başladı və mart ayında təyinat yerinə yola düşdü. Mart ayının 25-də qraf V.Zubov artıq Gizlərdə idi. Onun Gizlərə yetişməsi havaların soyuq dövrünə təsadüf etsə də, dərhal qoşunlara hərbi yürüş üçün hazırlaşmaq əmri verdi. Aprel ayının əvvəlində Qafqazın müxtəlif məntəqələrində yerləşən və Cənubi Qafqaza yürüşdə iştirak etməli olan qoşun dəstələri Gizlərdə toplaşmalı idilər. Stavropol ətrafında yerləşmiş olan Nijqorod və Həştərxan draqun və kazak xopyor alayları Mozdoka gəldilər. Aprel ayının 12-də qraf V.Zubov qoşunların əsas toplanış məntəqəsinə gəldi və düşərgədə olan bütün qoşunlara baxış keçirdi (116).

Cənubi Qafqaza göndəriləcək dəstələrin tərkibinə əsasən Qafqazda olan hissələr daxil edildilər. Onların əvəz olunması və ehtiyatların təşkil olunması üçün isə Dondan, Tavridadan, Yekaterinoslav və Voronej quberniyalarından qoşun hissələri gətirildi. Qoşunların toplanmasına və hazırlaşdırılmasına general Qudoviç rəhbərlik edirdi (111).

V.Zubovun qarşısına qoyulan böyük vəzifələrin miqyasına uyğun olan qoşun dəstəsi onun ixtiyarına verildi. Rus tarixi ədəbiyyatında bu qoşun dəstəsinin tərkibi haqqında geniş məlumat mövcuddur. Həmin məlumatlara əsasən, general V.Zubovun dəstəsinin tərkibi aşağıdakı kimi idi (112):

Piyadalar: Tiflis muşketyor alayının 2 taboru – 1491 nəfər, 1-ci Voronej taboru – 985 nəfər, Qafqaz qrenadyor alayının 2 taboru – 1737 nəfər, qrenadyor taboru -656 nəfər, Kuban yeger korpusunun 2 taboru – 1321 nəfər. Cəmi 8 tabor – 6190 nəfər.

Süvari qüvvələr : Nijeqorod draqun alayının 7 eskadronu – 1109 nəfər, Həştərxan draqun alayının 7 eskadronu – 1079 nəfər, Vladimir draqun alayının 7 eskadronu – 1049 nəfər, Taqanroq draqun alayının 7 eskadronu – 1068 nəfər. Cəmi – 28 eskadron, 4302 nəfər.

Səhra artilleriyası: 21 ədəd top – 653 nəfər topçu.

Kazaklar: Qreben qoşunları – 300 nəfər; Ter və Semeyn kazakları – 75 nəfər, Xopyor kazakları – 379 nəfər, Volqa kazakları – 120 nəfər, Don alayı kazakları – 346 nəfər. Cəmi – 1831 nəfər.

Formalaşmanın ilkin mərhələsində bütünlükdə V.Zubovun dəstəsi 8 tabordan, 28 eskadrondan, 21 ədəd top və kazak komandalarından ibarət idi ki, onların şəxsi heyətinin ümumi sayı 12323 nəfər idi. Dəstənin tərkibində əlavə olaraq alay artilleriyası və qala vuran toplar var idi. Həştərxanda admiral Fyodorovun sərəncamına isə Vladimir muşketyor alayının 652 nəfərlik bir taboru, kabardin alayının 656 nəfərlik bir taboru, Qara dəniz qoşun kazakları – 166 nəfər göndərilmişdi. Bütünlükdə, admiral Fyodorovun sərəncamına 1474 nəfər və 122 topçusu olan səhra artilleriya bölüyü göndərilmişdi.

Qraf V.Zubov tərəfindən qoşunlara baxış keçirilərkən dəstə tamamilə formalaşmamışdı. Xəzər korpusu üçün nəzərdə tutulan qüvvələrin yalnız bir hissəsi mövcud idi. Qafqaz korpusunun heyəti də bütünlüklə hələ toplanılmamışdı və onların nə vaxt gəlib çıxacağı isə məlum deyildi. Valerian Zubov Azərbaycan xanlıqları üzərinə yürüşün dərhal başlanmasını istəyir və qüvvələrin nə vaxt düşərgəyə toplanmasını gözləmək istəmirdi. Dəstənin tam komplektləşdirilməsi işinə nəzarəti general-mayor A.D.Sisianova tapşıraraq V.Zubov mövcud qüvvələri 4 briqadada qruplaşdırdı. Bu briqadaların ikisi piyada və ikisi süvari briqadası idi. Birinci piyada briqadasına Kuban yeger alayının və Qafqaz qrenadyor alayının hər birindən 2 tabor daxil edildi və bu briqadaya general-mayor Bulqakov komandir təyin edildi. İkinci piyada briqadasına Tiflis muşketyor alayının 2 taboru, Voronej muşketyor alayının bir taboru və bir birləşmiş qrenadyor taboru daxil edildi. General-mayor Rimcki-Korsakov briqadaya komandir təyin olundu (113).

Süvari qüvvələrə gəlincə isə birinci süvari briqadasının komandiri general-mayor baron Beninqsen təyin edildi və briqadanın tərkibinə Vladimir və Nijqorod draqun alayları verildi. İkinci süvari briqadası isə Həştərxan və Taqanroq draqun alaylarından təşkil edildi və qraf Apraksin bu briqadanın komandiri təyin edildi. Bütün qeyri-nizami atlı qoşunlar isə general-mayor Platovun komandirliyi altında dəstənin ehtiyatını təşkil edirdi (114).

P.Butkovun əsərində V.Zubovun dəstəsinin say tərkibi haqqında daha geniş məlumatlar vardır. Bu məlumatlarda dəstənin ümumi tərkibi göstərilir. Həmin məlumatlara görə V.Zubovun dəstəsinin tərkibinə aşağıdakı vahidlər daxil idi: Qafqaz qrenadyor alayının üç taboru, 3 qrenadyor taboru, 12 muşketyor taboru, 7 yeger taboru, 3360 nəfərdən ibarət olan 28 draqun eskadrası, 240 nəfərdən ibarət olan Moskva legion komandasının 2 eskadronu, Pavloqrad və Ostroqoj alaylarının 12 yüngül eskadronu, 1775 atlıdan ibarət olan xətt kazakları, 1700 atlıdan ibarət olan Don kazakları, 1000 nəfərdən ibarət olan Qara dəniz piyada kazakları, 500 nəfərdən ibarət olan kalmıklar, 1000 nəfərdən ibarət malorus rekrutları. Qoşunlarn ixtiyarında Xəzər donanması da daxil olmaqla 120 ədəd topun olduğu bildirilir. Müəllif general Qudoviçun imzaladığı rəsmi sənədlərə istinad edərək qoşunların ümumi sayının 37 min, hərbi gəmilərin şəxsi heyəti ilə birlikdə 40 minə yaxın olduğunu qeyd edir (115).

P.Butkov da qeyd edir ki, dəstənin tərkibinə verilmiş olan qüvvələr və vahidlər heç də hamısı eyni zamanda toplanmadı. Onların bəziləri 1796-cı ilin yayında, bəziləri isə hətta həmin ilin payızında bölgəyə gəlib çıxdılar. Dəstənin tərkibində xeyli sayda istedadlı və yüksək rütbəli hərbçilər var idi ki, onların mövcudluğu da Azərbaycan xanlıqları üzərinə yürüşə böyük əhəmiyyət verildiyini nümayiş etdirir.

Qraf V.Zubov dəstəsi ilə Azərbaycan xanlıqları üzərinə hücuma başlamazdan əvvəl Gizlərdə Rusiyada yaşayan ermənilərin arxiyepiskopu İosif Arqutinski ilə görüşdü. Erməni keşişləri və bütünlükdə ermənilərlə iş birliyinin qurulması da V.Zubovun Azərbaycan xanlıqları üzərinə hücuma hazırlıq işlərinə daxil idi. Əslində, Cənubi Qafqazın xristianlaşdırılması və xristian qurumlarının gücləndirilməsi də Rusiyanın Qafqaz siyasətinin əsas elementlərindən biri idi. Bunu qraf Platon Zubovun 1796-cı il aprel ayının sonlarında V.Zubovun yürüşü ilə bağlı gürcü çarı II İrakliyə yazdığı məktubunda da görmək mümkündür. Platon Zubov öz məktubunda yazırdı ki, Araz çayına və Osmanlı sərhədlərinə qədər olan ərazilərdə xristian ağalığının bərqərar olunması Rusiyanın qalib qoşunlarının fəaliyyəti sayəsində mümkün olacaqdır. Onun fikrincə, xristian çarının bu ərazilərdəki hakimiyyəti dinsizlərin hakimiyyəti altında olan xristianları ruhlandıracaq və bolluq yaradacaqdır (116).

Rusiya sarayı İrəvan və Qarabağ xanlıqları ərazisində yaşayan ermənilərdən də işğalçılıq siyasətinin həyata keçirilməsində istifadə olunmasına biganə deyildi. Ermənilər özləri də Rusiyanın Azərbaycan xanlıqlarına qarşı apardığı siyasətin vasitəsinə çevrilməsində xüsusi canfəşanlıq edirdilər. İ.Arqutinskinin V.Zubovun dəstəsinə qoşulması da bu canfəşanlıqdan irəli gəlirdi. Onun bu dəstəyə qəbul olunmasını qraf Platon Zubov da alqışladı. Valerian Zubov Azərbaycan xanlıqları üzərinə yürüşə rəhbərlik etmək üçün təyinat alandan sonra Platon Zubov dərhal İ.Arqutinskiyə məktub yazdı və ondan xahiş etdi ki, Valerian Zubova həm ermənilər, həm də Azərbaycan xanlıqları haqqında məlumat versin, qoşunların Azərbaycan xanlıqları üzərinə hücumuna kömək göstərilməsi üçün onun yanına getsin və onunla görüşsün. İ.Arqutinski bu dəvətdən dərhal bəhrələndi və ifrat-millətçi niyyətlərinin həyata keçməsinə şans əldə etməsindən çox sevindi. Azərbaycan xanlıqları üzərinə hücum edən V.Zubovun azərbaycanlılara düşmən ruhunda köklənməsi üçün İ.Arqutinski yaranmış imkandan imtina etmədi və Gizlərə yola düşdü. V.Zubovla olan görüşündə də İ.Arqutinski erməni məsələsini ortaya gətirdi və ermənilərə etibar edilməsini Rusiya maraqlarının təminatı kimi qələmə verdi. İ.Arqutinski hər vasitə ilə V.Zubovu da ermənipərəst bir mövqeyə çəkmək istəyirdi. Gördüyü işin nəticələri isə onu razı salmaqda idi. Bunu onun dostu İvan Lazarevə göndərdiyi məktubundan da görmək mümkündür (117). Həmin məktubunda o, əmin edirdi ki, Valerian Zubov da qardaşı kimi erməni probleminə canıyananlıqla yanaşacaqdır və ermənilərin xeyrinə işlər görəcəkdir. İ.Arqutinski V.Zubovdan Azərbaycan xanlıqları üzərinə yürüş zamanı da dəstədə olmaq təklifini aldı. Bu təklifi o, çox böyük həvəslə qəbul etdi. İ.Arqutinski elə Dərbənd torpaqlarından başlayaraq rus silahı ilə azərbaycanlılara divan tutmaq imkanını əldən buraxmaq istəmirdi.

Tarixçilərin yazdığına görə, Gizlərdə V.Zubov erməni keşişlərindən başqa gürcü keşişləri ilə də görüşdü. V.Zubov onları da diqqətlə dinlədi, maraqlandığı məlumatları onların vasitəsilə bir daha dəqiqləşdirdi. Azərbaycan xanlıqlarının işğal planının hazırlanması və icrası üçün V.Zubov Tiflisə dəvət olundu. Lakin V.Zubov Azərbaycan xanlıqlarının işğalı üçün I Pyotrun istifadə etdiyi marşruta, yəni Dərbənd marşrutuna üstünlük verdi (118).

İ.Arqutinski V.Zubovun rəhbərliyi altında olan dəstənin hücuma hazır olmasını çox böyük sevinclə qarşıladı. O əmin olurdu ki, V.Zubovun Azərbaycan xanlıqları üzərinə yürüşləri həm azərbaycanlıları ciddi şəkildə əzəcək, həm də onların torpaqlarında erməni qurumu yaratmaq üçün şans əldə ediləcəkdir. Azərbaycanlılara qarşı onun nifrəti sonsuz idi və onun azərbaycanlılara bəslədiyi sonsuz qəzəbi və nifrəti soydaşı və dindaşı olan

Stepan Davıdova yazdığı məktubundan da görmək mümkündür. Həmin məktub Dərbənd üzərinə hərbi yürüş başlamazdan bir qədər əvvəl Həştərxanda yazılmışdı: "Bütün Farsa yayılmış ermənilər rusları daha tez görmək və azadlıq əldə etmək istəyirlər. Mən qrafa yazılı və şifahi şəkildə məsləhət vermişəm ki, əgər Dərbəndi könüllü təslim etsələr belə razılaşmasın, onu güc tətbiq etməklə alsın. Bu, iki səbəblə bağlıdır: 1. Dərbəndin heç kim tərəfindən alına bilməyəcəyi haqqında farsların özünə arxayınçılığının boş bir şey olduğunu təsdiq etmək; 2. Digər şəhərləri də qorxutmaq ki, Dərbənd alınandan sonra onlar daha müqavimət göstərməsinlər " (119).

Fars deyəndə erməni arxiyepiskopu azərbaycanlıları nəzərdə tuturdu. Məlumdur ki, Dərbənddə etnik azərbaycanlılar yaşayırdılar və Dərbənd heç də fars xanlığı deyildi.

Azərbaycan xanlıqları üzərinə hücuma başlamazdan əvvəl Rusiya çariçası II Yekaterina bu xanlıqların əhalisinə müraciət imzaladı. Müraciət türk, fars, gürcü və erməni dillərinə tərcümə olundu və çoxaldılıb əhali arasında yayılmaq üçün Qafqaza göndərildi. Rusiya çariçası Cənubi Qafqaza qoşun çıxarmaqda əsas məqsədin burada əmin-amanlığa nail olunması, Qacarlar dövlətinin əhalisi ilə ticarət əlaqələrinin yaradılması istəyinin olduğunu bildirirdi. Onun sözlərinə görə, Rusiya sarayı həmişə ikitərəfli münasibətlərin yaxşılaşdırılmasına cəhd göstərmişdi, amma qarşı tərəfdən düşmən münasibətin şahidi olmuşdu. Sübut kimi Ağa Məhəmməd xanın bölgəyə yürüşü göstərilirdi. Rusiya çariçası Astrabadda Ağa Məhəmməd xanın əmrinə əsasən rus gəmisinin saxlanılmasını da Rusiya sarayına qarşı düşmən münasibətin ifadəsi kimi dəyərləndirirdi. Müraciətdə qeyd olunurdu ki, hakimiyyət hərisi olan Ağa Məhəmməd xan Rusiya sarayına açıq meydan oxuyaraq Tiflisə hücum etmiş, bölgənin xristian əhalisini təqiblərə məruz qoyaraq Xəzər sahillərinə doğru irəliləmiş, yerli əhaliyə və xanlara fəlakətlər gətirmişdi. Ağa Məhəmməd xanın Rusiya ilə sərhəd bölgənin hakimlərinə və hətta Rusiyanın nüfuz dairəsində olan bəzi hakimlərə tabe olmaq barədə fərmanlar göndərməsi müraciətdə bölgənin və Rusiyanın cənub sərhədlərinin təhlükəsizliyinə təhdid kimi qiymətləndirilirdi. Rusiya çariçası bəyan edirdi ki, Rusiyanın cənub sərhədlərinə yaranan təhlükənin aradan qaldırılması, kömək üçün dəfələrlə müraciət etmiş gürcü çarına, xanlara, Dağıstan hakimlərinə yardım göstərmək məqsədilə Valerian Zubovun rəhbərliyi altında bölgəyə hərbi qüvvə göndərilməsini qərara almışdır. O bildirirdi ki, rus qoşunlarının bölgəyə göndərilməsi yalnız Ağa Məhəmməd xanın hücumlarının qarşısının alınması və onun cəzalandırılması məqsədilə edilir. Yerli əhali bundan narahat olmamalı, gündəlik

fəaliyyətini davam etdirməli və rus qoşunları tərəfindən hər hansı təzyiqə və təqibə məruz qalmayacağına əmin olmalıdır (120).

Rusiya çarıçasının müraciətində Ağa Məhəmməd şah Qacar ən təhqirli ifadələrlə xatırlanır və onun ölkə daxilində qeyri-qanuni hakimiyyətə sahib olduğu bildirilirdi. Müraciətdə deyilirdi ki, o, Astarabad xanı olduğu zaman xoş iradənin əksinə olaraq Gilan sahillərinə gəlmiş rus freqatını dayandırmış və gəmi kapitanı qraf Voynoviçi incidərək onu təhqir etmişdi. Rusiya çariçası Ağa Məhəmməd xanı hələ gürcü çarlığı ərazisinə hücum etməzdən əvvəl Rusiya imperiyasına qarşı hörmətsizlik etdiyini vurğulayır, hakimiyyət hərisliyi ilə imperiyanın şərəfini və hüquqlarını aşağıladığını qeyd edirdi. Bununla, Rusiya çariçası Ağa Məhəmməd şahın cəzalandırılmaya layiq olduğunu əsaslandırmağa çalışırdı. Gürcüstan üzərinə Ağa Məhəmməd xanın hücumu da Rusiya qoşunlarının Dərbəndə hücum etməsinin səbəbi kimi təqdim olunurdu. Xüsusilə, Rusiyanın himayəsində olan Kartli-Kaxetiyanın Qacar qoşunlarının hücumuna məruz qalması Rusiya çariçasının qəzəbli ifadələri ilə müşayiət olunurdu. Rusiya çarıçası Qacar qoşunları tərəfindən gürcü çarlığının xristian əhalisinin əsir götürülməsini, sonra Qacar qoşunlarının Xəzər dənizi sahillərinə üz tutmasını, əhalinin talan edilməsini və xanların təqib edilməsini bağışlanmaz əməl hesab edirdi.

Rusiya çariçası ona da əmin olduğunu bildirirdi ki, bölgənin xanları və hakimləri nəinki rus qoşunlarının yürüşünə qarşı çıxmayacaq, əksinə, silaha sarılaraq rus qoşunları ilə birgə fars qüvvələrinə qarşı mövqe tutacaqdır. II Yekaterina hətta vaxtilə antirus mövqeyində olan hakimləri də rus qoşunlarına birləşməyə çağırırdı və vəd edirdi ki, belələrinin yanlış mövqeyi bağışlanmaqla yanaşı, rus qoşunlarına olan köməkləri layiqincə qiymətləndiriləcəkdir. Müraciətin mətni rus qoşunlarına çatan kimi V.Zubov onun dərhal Dağıstan hakimlərinə və Azərbaycan xanlarına, o cümlədən Qarabağ xanı İbrahim xana göndərilməsi barədə əmr verdi.

Lazımi hazırlıq işləri görülüb başa çatandan sonra Valerian Zubovun dəstəsi 1796-cı il aprel ayının 18-də Dərbənd şəhəri istiqamətində hərəkətə başladı. Azərbaycan xanlıqlarının işğalı üçün başlanan bu yürüşün ilk günündə 40 verst yol qət edildi. Hava şəraitinin münasib olması uzun bir məsafənin keçilməsinə yaxşı imkan yaratdı. Ayın 19-da isə dəstə hərəkətinə davam etdi və Sulak çayına çatdı (121).

Valerian Zubovun rəhbərliyi altında olan dəstənin Dərbəndə doğru irəliləməsi arxiv materilları əsasında rus tarixi ədəbiyyatında geniş işıqlandırılmışdır. Bu məlumatlar da göstərir ki, rus qoşun dəstəsi kifayət qədər sürətlə Dərbəndə doğru irəliləyirdi. Rus qoşun dəstəsinin Dərbəndə doğru irəliləməsi Şeyxəli xan tərəfindən diqqətlə izlənilirdi və gizli deyildi ki, rus dəstəsinin ilk zərbəsi də məhz Şeyxəli xana qarşı istiqamətlənmişdi.

General-mayor Savelyevin rəhbərliyi altında olan dəstə də Dərbənd ətrafından elə də çox uzaqlaşmamışdı. General Savelyevin əsas qoşun dəstəsinə birləşməsi Şeyxəli xan üçün çox ciddi bir təhlükəni təşkil edə bilərdi. Əsas qüvvələrin yetişməsindən əvvəl Şeyxəli xan general Savelyevin dəstəsinə zərbə vurmaq qərarına gəldi. General Savelyevin dəstəsinə güclü zərbə endirilməsi rus qoşunlarının ümumi gücünün zəifləndilməsi üçün nəzərdə tutulmuşdu. Bu məqsədlə Şeyxəli xan Qazıqumıq hakimi ilə görüşdü, rus qüvvələrinə qarşı birgə mübarizə aparmaq və bunun üçün 3 min nəfərlik qoşun dəstəsi yaratmaq qərara alındı. Bu birləşmiş qoşun dəstəsi Tabasaran və Qaraqaytaq dərəsindən keçməklə arxadan general Savelyevin dəstəsinin üzərinə hücum etməli idilər (122).

Şeyxəli xanın bu planı haqqında general Savelyev da xəbər tuta bildi. Şeyxəli xanın güclənməsinə və cənubdan Azərbaycan xanlarından əlavə kömək almasına mane olmaq üçün general Savelyev Quba xanı ilə gərgin münasibətlərdə olan Azərbaycan xanları ilə əlaqə qurmağı qərarlaşdırdı. Bu məqsədlə general Savelyev Şamaxı xanı Mustafa xana məktub göndərdi, ondan xahiş etdi ki, qoşunu ilə Dərbəndə aparan yolu kəssin və Bakı xanı tərəfindən Dərbəndə kömək göstərilməsinin qarşısını alsın (123).

Şeyxəli xanın general Savelyevin dəstəsinə arxadan zərbə vurmaq niyyəti general-poruçik Valerian Zubova da çatdırıldı. Ona görə də qraf V.Zubov qoşunların Dərbəndə doğru hərəkətini sürətləndirdi ki, general Savelyevə lazımi köməkliyi göstərə bilsin.

Aprel ayının 29-da Dərbənd qalasının cənub tərəfdən mühasirəyə alınması üçün dəstə göndərilməsi qərara alındı. General-mayor Bulqakov tərəfindən rəhbərlik edilən həmin dəstəyə 2 tabor yarım qrenadyor, 2 tabor yeger, 4 draqun eskadronu, 625 kazak və 6 ədəd səhra topu daxil idi. Bu bölmələr Həştərxan və Taqanroq draqun alaylarından, Xopyor və Semey kazak alaylarından, Qafqaz qrenadyor alayından və yeger korpusundan götürülmüşdü (124).

Belə bir qərarın qəbul edilməsində general Savelyevin Dərbənd üzərinə hücumunun təcrübəsi əsas götürülmüşdü. General-mayor Savelyev Dərbəndi yalnız şimaldan mühasirəyə aldığı üçün qarşısına qoyduğu məqsədə nail ola bilmədi. Dərbəndin qala divarları qərbdə dənizin içərilərinə doğru, şərqdə isə keçilməz dağlara doğru uzandığından bu divarları adlayıb keçmək mümkün deyildi. Ona görə general Savelyevin qüvvələri ya şərqdən, ya da qərbdən qala divarlarını adlaya bilmədilər. Dağlar arasından qoşun dəstəsinin cənuba ötürülməsi yollarının öyrənilməsi üçün kapitan Simonoviçin rəhbərliyi altında xüsusi kəşfiyyat qrupu təşkil edildi və Tabasaran hakiminin köməkliyi ilə bu qrup lazım olan marşrutun kəşfiyyatını apardı. Kapitan Simanoviçin rəhbərliyi altında aparılan

kəşfiyyat işlərindən sonra dağlar arasından hərbi qüvvələrin Dərbəndin cənubuna çıxarılması imkanlarının mövcudluğu müəyyənləşdirildi. Kapitan Simanoviç bildirirdi ki, dağ keçidləri ilə irəliləmək çox çətindir, lakin irəliləmək mümkündür. Onda qərara alındı ki, yuxarıda tərkibi göstərilən dəstə dağ yolları ilə Dərbəndin cənubuna göndərilsin. Verilmiş tapşırığa əsasən general Bulqakovun dəstəsi may ayının 2-də Dərbəndin cənubunda döyüş mövqeyi tutmalı idi (125).

Bu plan kifayət qədər ciddi bir plan idi və onun həyata keçirilməsi ilə Dərbəndin nəzarət altına alınmasını xeyli sürətləndirmək olardı. Kapitan Simanoviç aprelin 29-da yola düşən dəstənin bələdçiliyini öz üzərinə götürdü. Rus dəstəsinin bu manevrinə Tabasaran hakimi də yardım göstərirdi. Tapşırıq verilmişdi ki, bu dəstə özünə 20 günlük ehtiyat ərzaq və yem götürsün. Dəstənin tərkibinə mühəndis və istehkamçılar da daxil edilmişdilər. Seçilmiş olan marşrut xeyli çətin marşrut idi və bu marşrutun keçilməsinə istehkamçılar kömək etməli idilər. Topların qeyri-münasib dağlıq ərazidən keçirilməsi çətin olsa da Dərbəndin mühasirəsi üçün onların mövcudluğu zəruri idi.

P.Butkovun əsərində general Bulqakovun dəstəsinin getdiyi yollar kifayət qədər müfəssəl şəkildə təsvir olunmuşdur. Dağlıq ərazilərin keçilməz olması bəzi əşyaların və təchizatın yolda tərk edilməsi ilə nəticələnirdi. Lakin bu keçidin Dərbəndin alınması üçün böyük əhəmiyyət kəsb etdiyini rus dəstəsi yaxşı anlayırdı. Buna görə də mövcud çətinliklərə baxmayaraq Bulqakovun dəstəsi təyin olunan vaxtdan bir gün gecikməklə, yəni may ayının 3-də Dərbəndin cənub divarları ətəyinə gəlib çıxa bildi. Görünür, Şeyxəli xan rus dəstəsinin bu manevrini gözləyirmiş. Çünki Bulqakovun dəstəsi Dərbənd divarlarına yaxınlaşanda Şeyxəli xanın atlılarının müqaviməti ilə rastlaşdı. Dərbənddən təxminən 1,5 verst aralı Şeyxəli xanın atlıları ruslara ciddi müqavimət göstərdilər. Bu müqavimətin qarşısını almaq üçün rus süvariləri qala döyüşçülərini cinahdan əhatə etməyə çalışdılar. Qarşılıqlı itkilər verəndən sonra qala döyüşçüləri geri çəkilmək məcburiyyətində qaldı. May ayının 4-də isə Dərbənd qalası cənubdan da rusların əhatəsinə alındı.

V.Zubovun rəhbərliyi altında olan əsas qüvvələr aprel ayının 29-da general Savelyevin dəstəsini də özünə birləşdirərək yoluna davam etdi. Rus tarixi ədəbiyyatında olan məlumata görə, Şeyxəli xan Dağıstan hakimlərindən kömək almağa çalışmaqla bərabər, eyni zamanda Osmanlı sarayına müraciət etdi. Onun məktubunun mətni də tarixi ədəbiyyatda çap edilmişdir. Həmin məktubda deyilir ki, Ağa Məhəmməd xanın Gürcüstana hücum etməsinin və gürcülərin əsir götürülməsinin əvəzini çıxmaq üçün Rusiya öz qüvvələrini Dərbənd üzərinə göndərmişdir. Məktubda Dərbəndin

İsgəndər Zülqərneyn tərəfindən tikildiyinə işarə olunmaqla, bu şəhərin dindarlarla dinsizlər arasında dayandığı qeyd edilirdi. Şeyxəli xana görə, ruslar bu şəhəri tutandan sonra onun əhalisinin əsir götürcək və onlar rusların əsirliyinə göndəriləcəklər. Şeyxəli xan onu da yazırdı ki, rusların hücumu haqqında eşidəndə kömək üçün Ağa Məhəmməd şahın yanına adam göndərdi. Lakin o, qoşunları ilə ölkənin içərilərinə çəkildi. Onun sözlərinə görə, Dərbəndin müdafiəsini zəiflətmək üçün ruslar bir sıra Dağıstan hakimlərini satın alaraq öz tərəfinə çəkə bilmişdi. Bundan sonra o qeyd edirdi ki, Dağıstan hakimləri islama etiqadı zəiflədərək dinsizlərə birləşdilər. Şeyxəli xan onlar kimi hərəkət etməyəcəyini, ruhu bədənindən ayrılana kimi məğlub olmayacağını bəyan edirdi. Xanlığın sərhədinin qorunması üçün isə o, Osmanlı sarayından kömək göndərilməsini xahiş edirdi (126).

Məlum olduğu kimi, Osmanlı sarayından da Dərbəndə heç bir yardım göstərilmədi. Belə olanda Şeyxəli xan təklikdə rus qoşunlarına qarşı müqavimət göstərməyi qərarlaşdırdı. May ayının 1-də rus qoşunları Dərbənd qalasına xeyli yaxınlaşdılar. Şəhərdən 4 verst aralıda divar boyunca dağlardan dənizə qədər uzanan ərazidə rus qoşunları düşərgə saldılar. Mayın 2-də şəhər ətrafının şəraitinin öyrənilməsi üçün atlı dəstə göndərildi. Elə həmin gün də Şeyxəli xanın döyüşçüləri ilə ruslar arasında qarşıdurma baş verdi. Şeyxəli xanın dağlarda və yarğanlarda mövqe tutan döyüşçüləri ruslara mümkün müqaviməti göstərsə də onların Dərbənd qalasını mühasirəyə almasına mane ola bilmədilər (127). May ayının 2-də Dərbənd qalası şimal tərəfdən də rus qoşunlarının mühasirəsinə alındı.

Dərbəndə çatdıqdan sonra V.Zubov Rusiya çariçasının yuxarıda haqqında danışılan müraciətini öz məktubu ilə birlikdə Azərbaycan xanlarına və Dağıstan hakimlərinə göndərdi. O öz məktubunda yazırdı ki, rus qoşunlarının bu yürüşündə yeganə məqsəd Ağa Məhəmməd şahı hakimiyyətdən devrilməkdir. V.Zubov məktubunda onu da qeyd edirdi ki, rus qoşunları xalqların zülmətdən qurtarılması üçün bölgəyə gəlmişdir və inanmır ki, yerli xalqlar Rusiya qoşunlarının uğuruna mane olmağa çalışacaqdır. Əks təqdirdə həmin xalqların bədbəxtliklərlə qarşılaşa biləcəkləri istisna edilmirdi (128).

V.Zubov eyni zamanda Şeyxəli xana məktub yazdı və onu öz nümayəndəsi ilə qala daxilinə göndərdi. Məktubunda V.Zubov bəyan edirdi ki, Ağa Məhəmməd şahın devrilməsi üçün o Rusiya çariçası tərəfindən çoxlu sayda qoşunla bölgəyə göndərilmişdir və imperator qoşunlarına qarşı silah qaldırmayana toxunulmayacaqdır. Əksinə, ruslara müqavimət göstərməyənlərə Rusiya çariçasının himayəsi vəd olunurdu. Ona görə, V.Zubov Dərbənd əhalisinə təklif edirdi ki, Rusiya qoşunları tərəfindən hər

hansı bir təhlükə olmadığı üçün ruslara qarşı mənasız yerə öz qanlarını axıtmasınlar. Məktubunun sonunda isə V.Zubov vəd edirdi ki, Dərbənd qalasının qapıları açılarsa Dərbənd əhalisi əmin-amanlıq içərisində qalacaqdır (129).

May ayını 3-də Dərbənd qalasının qabağa çıxarılmış bürclərindən birinin üzərinə hücum təşkil edildi. Dərbəndin şimalda olan qala divarlarının iki bürcü və iki döyüş mazğalı var idi. General Savelyevin Dərbənd qalası üzərinə hücumundan sonra Şeyxəli xan qərara aldı ki, üçüncü bürc də tikilsin. Bu bürc mühüm yüksəkliklərdən birinin üzərində adi çay daşlarından tikildi. Onun hündürlüyü 3 sajen, qalınlığı isə 2 arşın idi. Bu bürc rus qoşunlarının yerdəyişmələrini izləməyə imkan verir və rus batareyalarının yerləşdirilməsinə mane olurdu. Ona görə rus qoşunları komandanlığı qərara aldı ki, bu bürc ələ keçirilsin və Şeyxəli xanın bu bürcdəki mövqe üstünlüyü aradan qaldırılsın.

Qala müdafiəçilərinin müqaviməti ilə rastlaşan bu hücum Dərbəndin dinc şəkildə təslim olmayacağını nümayiş etdirdi. Qala bürcü üzərinə hücum etmək Voronej piyada taboruna tapşırıldı. V.Zubovun göstərişi ilə bu alayın bir taboru əlavə iki qrenadyor bölüyü ilə birlikdə gecə ikən bürcə tərəf irəlilədi. Tabora polkovnik Kravsov rəhbərlik edirdi. Bu tabora səhra topları da verilmişdi və münasib şərait yaranacağı halda topların atəşi ilə bürcün uçurulması nəzərdə tutulurdu. Bu hücum haqqında tarixi ədəbiyyatda fərqli məlumatlar vardır. Bəzi tarixçilər rusların nərdivana malik olmaması üzündən onların hücumunun baş tutmamasını yazırlar. Amma bu tarixçilər dərbəndlilərin hücum edən ruslara qarşı ciddi müqavimət göstərdiyini də qeyd edirlər. Bildirilir ki, bu hücum alınmayanda döyüşə ümumi rəhbərlik edən general-mayor Rimski-Korsakov atəşin dayandırılması və rusların geri çəkilməsi haqqında göstəriş verdi (130).

Bəzi tarixi əsərlərdə isə rusların bürcə qalxmaq üçün lazım olan nərdivanlara malik olduğunu bildirirlər. Qeyd olunur ki, ruslar çox sakit şəkildə bürcə yaxınlaşdılar, nərdivanlarla yuxarı dırmaşmağa başladılar, hətta bürcün daxilinə girməyə cəhd göstərdilər. Bu zaman qala müdafiəçiləri duyuq düşdülər, ruslara qarşı müqavimət göstərməyə başladılar. Bürcdən ruslara qarşı güclü güllə və daş yağışı başladı. Nəticədə hücum edənlərin çoxları güllə qurbanı oldular. Hətta taborun komandiri olan polkovnik Kravsov da başından üç güllə yarası aldı (134).

Bu hücum zamanı rusların verdiyi itkilər haqqında da müxtəlif məlumatlar vardır. Bir tarixi mənbədə 6 rus hərbçisinin öldürüldüyü və 20 nəfərin yaralandığı qeyd olunur (132). Tarixi ədəbiyyatdakı rəqəmlər də bir-birinə uyğunluq təşkil etmir. N.Dubrovinin yazdığına görə, Dərbənd bürcünə gecə hücumu zamanı 25 nəfər öldürülmüş, 72 nəfər də yaralanmışdı

(133). P.Butkovun araşdırmasına görə 1 zabit və 40 nəfər sıravi öldürülmüşdü. Yaralananların sayı isə müəllifə görə çox deyildi (134).

Bu hücumdan sonra hər iki tərəf mövqelərini möhkəmləndirməyə çalışdı. Şeyxəli xan Dərbəndin və xüsusilə də hücum olunan bürcün möhkəmləndirilməsi üçün ora əlavə qüvvə cəlb etdi. Ruslar isə mühasirə xətti boyunca mövqeləri möhkəmləndirdilər, bürclərin qarşısında toplar yerləşdirdilər və bürclərin dağıdılması üçün topların fəaliyyətinə diqqət artırıldı. Sonradan bir neçə gün ərzində Dərbəndin şimal hissəsində nisbətən sakit keçdi. Həmin günlər ərzində Dərbəndin cənub divarları ətəyində fəallaşma baş verdi. Dərbəndin cənubuna çıxan Bulqakovun rəhbərliyi altında olan dəstə cənub tərəfdən şəhərin mühasirəsini başa çatdırdı. Cənub divarlarının dənizə yaxın olan hissəsi qalanın zəif müdafiə olunan hissəsi sayılırdı. Bu hissəsinin möhkəmləndirilməsinə dərbəndlilər özləri də diqqət yetirirdilər. Hər iki tərəfdən şəhərin mühasirəsi elə həyata keçirildi ki, Dərbəndin kənar aləmlə bütün əlaqələri kəsildi. Yəni divarları aşmaqla dərbəndlilər qonşu xanlıqlarla əlaqə saxlaya bilmədikləri kimi, qonşu xanlıqlar da bu mühasirəni yarıb dərbəndlilərə kömək çatdıra bilməzdilər. Yalnız dənizdən kənar aləmlə əlaqə saxlamaq mümkün ola bilərdi. Cənub divarlarının mühasirəsini başa çatdırılması zamanı dərbəndlilər ruslara müqavimət göstərmək istədilər. Ancaq qaladan kənara çıxmış olan qala atlıları rusların müqavimətinə dözməyib geri qayıtmalı oldular.

May ayının 7-də cənub divarları ətəklərində, qala divarlarından 200 sajen məsafədə 5 ağır top yerləşdirildi. Qalanın şimal tərəfində də 4 belə top yerləşdirilmişdi (135). Bu toplar həm qala divarları üzərində yerləşdirilmiş yerli topları neytrallaşdırmalı, həm də qala divarlarının uçurulması üçün işləməli idilər. Qala divarlarının uçurulması üçün onun müdafiəsinin həssas oduğu yerlərə də rus topları yerləşdirildi.

Mayın 7-də rus qüvvələri şimaldan Dərbənd qalasının bürcləri üzərinə yeni bir hücum təşkil etdilər. P.Butkovun yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, ruslar əvvəlcə topları işə saldılar və top atəşlərindən divarlarda yaranmış uçuqdan keçməklə bürclərdən birinin üzərinə hücum etdilər (136). N.Dubrovin isə yazır ki, ruslar səhər saat 7-dən 12 funtluq toplarla qala bürclərini atəşə tutsalar da bir nəticə hasil olmadı. Rusların 80 top atəşindən sonra qala divarlarının birinə azacıq xətər yetirilmişdi. Qala divarları isə əslində salamat qalmışdı. Onda ruslar qala divarları altına lağım atıb onu partlatmaq istədilər. Bu da nəticə vermədi. Çünki qala divarları qaya parçaları üzərində tikilmişdi, onları parçalamaq isə asan deyildi. Belə olanda ruslar qala bürclərini hücumla almağı qərarlaşdırdılar (137).

Voronej alayının iki qrenadyor taboruna və Qafqaz yeger korpusunun 3-cü taboruna göstəriş verildi ki, qala bürclərinə hücum etsinlər. V.Zubov bu

hücumu müşahidə etməli idi. Qala müdafiəçilərinin atəşlərinə baxmayaraq rus döyüşçüləri irəli atıldılar. Onlar saat yarım ərzində bürcün ələ keçirilməsi üçün səy göstərdilər və qala müdafiəçilərinin əzmkarlığı nəticəsində niyyətlərinə nail ola bilmədilər. Rus tarixçiləri qala müdafiəçilərinin şücaətini qeyd etsələr də, bu uzum sürmədi və qala müdafiəçiləri nəhayət ki, qarşı tərəfin güclü hücumları qarşısında geri çəkildilər. Ruslar ilkin olaraq bürcün yuxarı mərtəbəsini ələ keçirə bildilər. Bürcün aşağı mərtəbələrini ələ keçirmək isə onlara ciddi itkilər bahasına başa gəldi. Yalnız günorta üstü qala divarlarının əsas bürclərindən biri rusların əlinə keçdi. Tarixi ədəbiyyatda olan məlumatlara görə, ruslar bu hücumda 15 nəfər itirdilər, 3 nəfər isə yaralandı (138).

May ayının 7-də Dərbəndin cənub ətəklərində dayanan general Bulqakovun yanına Samur çayının həndəvərindəki ermənilər gəldilər və onlar Rusiya təbəəliyinə qəbul olunmalarını xahiş etdilər. Rusiya hakimiyyətinə sədaqətli olduqlarını nümayiş etdirmək üçün bu ermənilər gecə ikən tutduqları Dərbənd nümayəndələrini general Bulqakova təhvil verdilər. Bu nümayəndələr qayıqla dənizin mühasirə olunan hissəsini keçib Şeyxəli xanın məktubunu Qazıqumıq və ləzgi hakimlərinə çatdırmalı idilər. Şeyxəli xan onlardan şəhərin müdafiəsi üçün kömək istəyirdi. Lakin məlum olmayam səbəblərə görə, bu qayıq yerli ermənilər tərəfindən müəyyən edilmiş və sonra da onu ələ keçirmişdilər (139). Ola bilsin ki, dənizə çıxmış dərbəndlilər silahsız olmuşdular və ona görə də ələ keçmişdilər.

General Bulqakov əsir götürülmüş dərbəndlilərdən Şeyxəli xanın qüvvəsi, qalanın müdafiəsi haqqında lazım olan məlumatları aldı ki, bu da qala üzərinə hücumun canlandırılmasında onlar üçün faydalı oldu.

Qalanın on bürcünün ruslar tərəfindən ələ keçirilməsi qala müdafiəçilərinin əzmini heç də qırmadı. Tarixi ədəbiyyatda olan məlumatlardan aydındır ki, Dağıstan hakimlərinin də çoxu rus işğalına qarşı idilər və onlar hətta bu işğalın qarşısında möhkəm dayanan Şeyxəli xana öz köməklərini də çatdırmaq istəyirdilər. Lakin mühasirədə olması Şeyxəli xana kömək çatdırmağa imkan vermirdi. Dağıstan hakimlərinin birinin topladığı silahlı dəstə şəhərin cənubunda mövqe tutan Bulqakovun dəstəsinin nəqliyyat və təchizat parkına hücum etdi. May ayının 8-də general Bulqakov cənub divarları ətəklərində mövqe tutmuş taborlara göstəriş verdi ki, dəstənin geridə qalmış müvəqqəti anbarından ərzaq əşyaları gətirsinlər. Həmin ərzağın gətirilməsi üçün göndərilmiş olan arabalar və onları müşayiət edən hərbçilər qazıqumıqların hücumuna məruz qaldılar. Ruslar müəyyən itkilərlə rastlaşsalar da Dərbəndin taleyi Dərbənd ətrafında həll olunurdu. Ona görə ərzaq ardınca gedən qrupun üzərinə hücum edilməsi Dərbənd ətrafında cərəyan edən hadisələrə elə bir ciddi təsir etmədi.

Ayın 7-də qalanın bir neçə bürcünün ələ keçirilməsi rus dəstəsinin şəhəri ələ keçirmək ruhunu bir qədər də artırdı. Gecəliklə onlar qala divarlarına daha yaxın olan səngərlərin qazılmasına başladılar. Bu işlər qala müdafiəçilərinin atəşləri altında aparılsa da, ruslar üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki həm də toplar üçün yeni atəş mövqeləri yaradılırdı. Qala divarlarına yaxın olan bu atəş mövqelərindən şəhərin daxilini daha asanlıqla atəşə tutmaq olardı. Səhərə yaxın toplar üçün iki yeni atəş mövqeyi yaradıldı. Bu mövqelərin birində 5 ədəd, digərində isə 6 ədəd 12 funtluq toplar yerləşdirildi və dərhal da Dərbəndin top atəşinə tutulmasına başlandı. Lakin rus topçularının bütün cəhdləri uğursuz oldu. Açılan top atəşləri şəhər daxilində ciddi dağıntılar yarada bilmədiyi kimi, güclü yanğınlara da səbəb olmadı. Çünki həm qala divarları çox qalın idi, həm də qala daxilindəki evlər əsasən daşdan tikilmişdi. Belə olanda əsas diqqət bir daha qoşun dəstələrinin qala hücumuna yönəldildi. Saat 10-da qalanın yuxarı bürcü rusların hücumlarına məruz qaldı. Qala döyüşçüləri onların bütün cəhdlərinin qarşısını aldılar. Yalnız bürcün yuxarı hissəsinin top atəşləri ilə dağıdılması qala müdafiəçilərini çaşqın hala saldı. Ruslar da bu çaşqınlıqdan dərhal istifadə etdilər və bürcün yuxarı hissəsini ələ keçirdilər. Bürcün bütünlüklə ələ keçirilməsi isə xeyli vaxt apardı və ruslar nəhayət ki, növbəti bir müdafiə bürcünü ələ keçirməyə nail oldular (140).

May ayının 9-da həm şimaldan, həm də cənubdan ruslar şəhərin top atəşinə tutulmasını davam etdirdilər. Bu top atəşləri günortaya kimi davam etdi və şəhərin müdafiəçilərini çətin vəziyyətə saldı. Çox güman ki, Şeyxəli xan və onun ətrafındakılar təklikdə qalanın müdafiə edilməsinin çox çətin olduğunu anlayırdılar. Kənardan kömək gəlməsi ümidi olmadığı halda qala daxilində ötən hər gün yeni-yeni dağıntılar və itkilər gətirə bilərdi. Ona görə mayın 9-da qala nümayəndəsi olan bir ruhani cənub tərəfdə mövqe tutmuş general Bulqakovun yanına gəldi və şəhərin təhvil verilməsi üçün danışıqlar apara biləcək bir nümayəndənin göndərilməsini xahiş etdi. Qraf V.Zubov bu xəbəri eşidəndə qala daxilinə nümayəndə göndərilməsinə razı olmadı. O istəyirdi ki, Şeyxəli xan özü onun yanına gəlsin və Rusiya himayəsini qəbul etdiyini bəyan etsin. Ona görə şəhərin atəşə tutulması yenə davam etdirildi (141).

Qraf V.Zubov qələbənin yaxında olduğunu hiss etdiyi üçün ayın 10-da qalanı yenidən top atəşinə tutdu. Hətta piyada qüvvələrinə tapşırıq verildi ki, şəhərin üzərinə basqın etmək üçün hazırlaşsınlar. Bulqakovun yanına gəlmiş olan yerli ruhani ayın 10-da qalaya geri qayıtdı və həmin ruhani rus generalının təslim olmaq tələbini qala əhlinə çatdırdı. Az müddət keçəndən sonra qaladan 6 nəfərlik nümayəndə heyəti gəldi və qalanın artıq təhvil verilməsinə razılıq olduğu bildirildi. Belə olanda qalanın toplardan atəşə

tutulması dayandırıldı. Dəstə komandirinin əmrinə əsasən, general-mayor Savelyev Moskva piyada alayından, Kazan alayının bir taborundan və Qafqaz yeger korpusunun bir taborundan ibarət dəstə ilə şəhəri tutmaq tapşırığı aldı (142).

V.Zubovun Rusiya çarıçasına yazdığından isə aydın olur ki, top atəşləri qala bürclərini yararsız hala salandan sonra müdafiəçilərin müqaviməti qırıldı. Onun yazdıqlarına görə, bürclərin uçurulmasından sonra qala daxilində çaşqınlıq yarandığı və bir müddətdən sonra qala darvazalarını açan şəhər nümayəndələri rus qoşunlarının qarşısına çıxdılar (143).

General Savelyevin rəhbərliyi altındakı qoşun dəstəsi qalanı nəzarət altına almaq üçün yaxınlaşanda Şeyxəli xan və onun əyanları da şəhəri tərk etdilər. Onları rus zabitləri qarşılayıb qraf V.Zubovun yanına müşayiət etdilər. Rus mənbələrindəki məlumata görə, sonra qaladan bayıra əlində qala darvazasının açarları olan yüz yaşlı bir qoca çıxdı və o da adətə uyğun olaraq qala ətrafında toplanmış əhaliyə müraciət edərək açarların təhvil verilib-verilməməsini soruşdu. Camaatın seçim imkanı olmadığı üçün qocaya öz razılıqlarını bildirdilər. Qoca da qala darvazasının açarlarını bir qabın içinə qoyub general Savelyevə təqdim etdi. May ayının 10-da günortadan sonra saat 4-də general Savelyev Dərbənd qalasının açarlarını təhvil aldı. Başqa sözlə, Dərbənd qalası rus qoşunları qarşısında süqut etdi. Bundan sonra rus qoşun bölmələri musiqi sədaları altında qalaya daxil oldular, qala darvazaları, xüsusi əhəmiyyət kəsb edən obyektlər mühafizə altına götürüldü. General Savelyev şəhər komendantı təyin edildi (144).

General Savelyevin rəhbərliyi altında olan taborlardan biri xan sarayının yerləşdiyi Narınqalanı nəzarət altına aldı. Daha iki tabor şəhərin mərkəzi hissəsində, bir tabor isə qalanın Dübari hissəsində yerləşdirildi. Narınqalada ağ bayraq qaldırıldı, şəhərdə axtarış aparıldı və qala anbarlarında, habelə əhalidə olan silah və sursat toplandı. Bütünlükdə 15 ədəd mis və çuqun top, 1 ədəd bomba partlamasından xarab olmuş top, 13 ədəd adi top, çoxlu sayda bomba, 5 ədəd bayraq və 11 ədəd silah tapıldı. Dərbəndin alınması zamanı rusların 3 zabiti, 47 sıravisi öldürüldü, 8 zabiti və 160 sıravisi isə yaralandı (145).

Qala ələ keçiriləndən sonra Şeyxəli xan ciddi nəzarət altına götürüldü. Ruslar onu ayrıca bir çadırda yerləşdirdilər və ətrafına güclü mühafizə qoydular. Xanın öz yaxınları ilə ola biləcək əlaqələri tam məhdudlaşdırıldı. Qalanın alınması qraf V.Zubovun şübhəsiz ki, çox böyük sevincinə səbəb oldu. Dərbəndin alınması sadəcə bir hərbi uğur deyildi. Bu şəhərin ələ keçirilməsi Cənubi Qafqaza, Azərbaycan xanlıqlarına açılan qapının ələ keçirilməsi idi. Bu şəhərin ələ keçirilməsi ilə Rusiya Azərbaycan xanlıqlarının işğalına istiqamətlənmiş siyasətində yeni bir səhifəni açırdı.

Qraf V.Zubov Dərbəndin alınması ilə bağlı dərhal Rusiya çariçasına raport göndərdi. II Yekaterina da Dərbəndin işğalından böyük məmnunluq keçirdi və öz məmnunluğunu qraf V.Zubova göndərdiyi məktubunda da ifadə etdi. Rusiya çariçası bəyan edirdi ki, Dərbəndin ələ keçirilməsi çılğın Dağıstan xanlarının nəzarət altına almağa imkan verdiyi kimi, həm də Farsa doğru qapılar açılmışdır. II Yekaterina bununla Azərbaycan xanlıqlarının işğalına yaranmış imkanlara işarə edirdi. Belə bir uğurun əldə edilməsinə görə, Rusiya çariçası qraf V.Zubovun fəaliyyətini təqdir edirdi. Dərbəndin alınmasına görə qraf V.Zubov, habelə şəhər üzərinə hücumda iştirak edən digər rus generalları bir sıra mükafatlara layiq görüldülər (146).

Qraf V.Zubov Rusiya çariçasına yazdığı məktublarda Quba xanı Şeyxəli xanın əsir edildiyini bildirməklə, onun gələcək taleyinin necə müəyyənləşdirilməsi haqqında məsələ qaldırdı. Şeyxəli xanın Rusiya himayəsini qəbul etməyə meylli olmaması və onun rəhbərliyi altında Dərbənd qarnizonunun rus qoşunlarına müqavimət göstərməsi V.Zubovun ona olan münasibətində ciddi bir tərəddüd yaratmışdı. Amma Rusiya sarayından gələn cavabda Şeyxəli xanın Rusiya xidmətinə cəlb edilməsi fikri öz ifadəsini tapdı. V.Zubovun nəzərinə çatdırılırdı ki, Şeyxəli xanın ətrafında Rusiya əleyhinə mövqe tutan şəxslər varsa onlar aralaşdırılıb Həştərxana sürgün edilsin və bununla Şeyxəli xanın ətrafı antirus mövqeli şəxslərdən təmizlənsin. Tövsiyə olunurdu ki, Şeyxəli xanın ətrafına Rusiyaya rəğbət bəsləyən şəxslər gətirilsin və onların vasitəsilə Şeyxəli xana da müəyyən təsir göstərilsin (147).

V.Zubov özü də məktublarında qeyd edirdi ki, Şeyxəli xan Rusiya qarşı olan bir şəxsdir. Bununla belə o özü də razılaşırdı ki, istər Şeyxəli xanın, istərsə də şəhər əhalisini yalnız təqiblərə məruz qoymaqla lazımi nəticə əldə edilə bilməz. Xüsusilə, Dərbənddə Rusiyaya qarşı gərginliyin olması rus qoşunlarının arxasında ciddi problemlər yarada bilər. Ona görə V.Zubov özü də belə bir fikirdə idi ki, qala əhalisi ilə ehtiyatlı davranılsın və qalanın etibarlı şəkildə qorunması üçün onun divarları daxilində üç tabor yerləşdirilsin (148).

Hadisələrin şahidi olan ruslar Şeyxəli xanın Dərbənd əyanları arasında hörmət və nüfuza malik olmasını təsdiq edirdilər (149). Xanlıq əhalisi arasında da Şeyxəli xan hörmət və ehtirama malik idi. Ona görə Şeyxəli xana qarşı sərt tədbirlərin həyata keçirilməsi əhali arasında ruslara qarşı müqavimətin güclənməsinə təkan verə bilərdi. Belə bir şəraitdə Şeyxəli xanın Dərbənddən uzaqlaşdırılması məqsədəuyğun bilinmədi. Çünki Şeyxəli xanın Dağıstandan keçməklə Həştərxana göndərilməsi üçün çox böyük bir mühafizə dəstəsi gərək idi. Yoxsa, Dağıstan hakimləri hücum edib onu azad edə bilərdilər. Buna görə, V.Zubov qərara aldı ki, Şeyxəli xan sürgünə

göndərilməsin və Dərbənddə nəzarət altında saxlansın. Dərbəndin idarə edilməsi isə Şeyxəli xanın bacısı Pəricahan xanıma tapşırıldı. Eyni zamanda Rusiyaya rəğbəti olan Xıdır bəy ona köməkçi təyin edildi. Pəricahan xanım özü də Rusiyaya meylli bir insan kimi tanınırdı. Dərbəndin mühasirəsi zamanı o öz nümayəndəsini qraf V.Zubovun yanına göndərərək Rusiyaya olan rəğbətini ona çatdırdı. Lakin ruslar yalnız Pəricahan xanımın və Xıdır bəyin rusmeylli olması ilə kifayətlənmədilər və onların da üzərinə rus nəzarəti qoyuldu. Şəhərin idarəçiliyi tapşırılan Pəricahan xanımla Xıdır bəy öz fəaliyyətlərini rus qarnizonu rəisinin nəzarəti altında qurmalı idi (150).

Başqa sözlə, əslində Dərbəndi işğal etmiş rus qoşunlarının komandanı tərəfindən şəhər idarəçiliyinin Pəricahan xanıma tapşırılması formal xarakter daşımaqla yerli əhalinin sakitləşdirilməsi məqsədi güdürdü. Həqiqətdə isə Dərbənd işğal olunmuş bir şəhər idi və onun idarəçiliyi də rus zabitləri tərəfindən həyata keçirilirdi. Şəhər əhalisinin sakitləşdirilməsi üçün Şeyxəli xanın rus meylli olması haqqında da müəyyən şayiələr yayıldı və bildirildi ki, guya Şeyxəli xan ruslara qarşı vuruşmaqdan peşmandır. Guya o öz səhvini düzəltmək üçün qraf V.Zubovla əməkdaşlığa və digər Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalına kömək göstərməyə hazırdır (151).

May ayının 14-də Şeyxəli xan qalaya qaytarıldı və ona qarşı olan nəzarət müəyyən qədər yumşaldıldı. Ondan bir gün qabaq, may ayının 13-də isə qraf V.Zubov Dərbənd şəhərinə daxil oldu. Rus tarixçilərinin yazdığına görə, V.Zubov Dərbənd əhalisi tərəfindən təntənə ilə qarşılandı. Ətrafındakıların müşayiəti ilə V.Zubov şəhərlə tanış oldu və sonra şəhərin az məskunlaşmış hissəsində yerləşmiş general-mayor Savelyevin qərargahına gəldi. Burada müvəqqəti kilsə də quraşdırılmışdı. V.Zubov və digər rus hərbçiləri bu kilsədə dua mərasimi keçirdilər. Bundan sonra V.Zubov yenidən öz qərargahına qayıtdı (152).

Dərbəndin mühafizəsi General-mayor Savelyevə tapşırıldı. Bunun üçün o, şəhər daxilində düşərgə qurdu. Şəhərin mühafizəsi üçün onun ixtiyarına 3 piyada taboru, bir kazak alayı və 4 səhra topu verildi (153).

Dərbənd şəhərinin işğalından sonra qraf V.Zubov qoşunlara uzun istirahət vermədən dərhal cənuba doğru irəliləmək üçün hazırlıq tapşırığı verdi. İlk növbədə qoşunların ərzaq və yem təchizatı üçün zəruri işlər görüldü. Gizlərdə qalmış general Qudovuç başlıca olaraq bu məsələlərin həlli ilə məşğul olurdu. V.Zubov Bakı və Şamaxı xanlıqları istiqamətində hərəkətə başlamazdan əvvəl ərzaq və yemlə təmin olunmasına əmin olmaq istəyirdi. Xüsusilə, Ağa Məhəmməd şahın Cənubi Qafqaza yeni hücumunun başlanacağı təqdirdə rus qoşunlarının ərzaq çətinlikləri ilə qarşılaşması arzu edilən deyildi. May ayının 15-də yazdığı məktubda V.Zubov ərzaq təminatının kifayət qədər ciddi olduğunu bir daha xatırladırdı. General

Qudoviçlə olan yazışmalarından görünür ki, V.Zubovun dəstəsinin ərzaqla təmin edilməsi üçün konkret işlər görülürdü. Lakin toplanmış və göndərilmiş olan ərzaq V.Zubovun uzun müddətli təminatı üçün yetərli deyildi (154).

V.Zubov Azərbaycan xanlıqları üzərinə yürüşün davam etdirilməsi üçün eyni zamanda canlı qüvvənin təkmilləşdirilməsinə ehtiyac duyurdu. Çünki bir tərəfdən Dərbənddə rastlaşdığı müqavimətin digər Azərbaycan xanlıqları ərazisində təkrarlanması istisna olunmurdu. O biri tərəfdən Dərbənd əhalisinin döyüşgənliyi və silaha bağlılığı ruslarda haqlı bir narahatçılıq yaradırdı. V.Zubov əlavə qüvvələr əldə etməklə yürüşü davam etdirərkən arxada qalmış Dərbəndin təhlükəsizliyinin təmin edilməsini istəyirdi. Və nəhayət, Xəzər boyu Azərbaycan xanlıqları üzərinə hərəkət edərkən sağ cinahda qalan dağlıq ərazidən yerli xanların və hakimlərin silahlı dəstələrinin həyata keçirə biləcəyi basqınlar da V.Zubovun narahatlıq mənbəyinə çevrilmişdi. Bu basqınların qarşısının alınması üçün də əlavə qüvvələrə ehtiyac var idi.

V.Zubovun dəstəsinin gücləndirilməsi Rusiya sarayı tərəfindən də qəbul edilirdi və bunun üçün hətta bir neçə alay da Gizlərə yola salınmışdı. Lakin V.Zubovun Dərbənddən cənuba doğru yürüşü davam etdirmək ərəfəsində yalnız Pavloqrad yüngül atlı alayı Georgiyevskə gəlib çata bilmişdi. General Qudoviçin ixtiyarında isə çox az saylı, yəni, cəmi 140 nəfərlik bir sıravi bölməsi var idi. Bu bölmə də V.Zubovun dəstəsinə göndərilən ərzaq və təchizat karvanının mühafizəsini təmin etməli idi. Bir müddətdən sonra Pavloqrad alayı, Kuban yeger korpusunun 2-ci taboru, Don alayı və 6 ədəd səhra topu Gizlərə gəlib çıxdılar. Bu qüvvələr general-mayor Sisianovun rəhbərliyi altında V.Zubovun sərəncamına göndərildilər. Həmin qüvvələrin yola düşməsi xəbərini alandan sonra V.Zubov da irəliyə doğru yürüşü davam etdirmək qərarına gəldi. General Sisianovun rəhbərliyi altında olan qüvvələr də bu yürüş zamanı gəlib ona yetişməli idilər (155).

Azərbaycan xanlıqları üzərinə yürüşü başlamazdan əvvəl V.Zubovun həll etməli olduğu məsələlərdən biri də Şeyxəli xanın taleyi məsələsi oldu. V.Zubov belə bir qərara gəldi ki, yaranmış şəraitdə Şeyxəli xanın da rus qərargahı ilə birlikdə hərəkət etməsi daha məqsədəuyğun olar. Bu qərar Şeyxəli xan tərəfindən də razılıqla qarşılandı. Rus tarixçilərinin yazdığına görə, Şeyxəli xan hətta xanlıq əhalisinə məktubla da müraciət etdi. Müraciətində Şeyxəli xan Rusiya çariçasına və V.Zubova təriflər yazdı, xanlıq ərazisində sakitlik yaranmasından məmnun olduğunu bildirdi. Şeyxəli xan Dərbəndin idarəçiliyinin onun bacısı Pəricahan xanıma tapşırılması haqqında da məlumat verirdi. O öz müraciətini Rusiya çariçası şərəfinə dualarla bitirirdi (156).

Dərbəndin işğal edilməsi həm şəhərdə, həm də şəhərdən kənarda yaşayan ermənilərin xüsusi sevincinə səbəb oldu. V.Zubov Dərbənd şəhərinə daxil olarkən onu qarşılayanlar arasında erməni arximandiriti də var idi. Şəhər daxilində V.Zubovun gördüyü işlərdən biri də ermənilərə qayğı göstərilməsi oldu. Məlum idi ki, Dərbənddə cəmi 60 erməni evi var idi (157). Erməni himayədarları tərəfindən qızışdırılan V.Zubovun fikrincə, Dərbənd erməniləri də bütün Qafqaz erməniləri kimi, müsəlmanların zülmü altında idi və onların məzhəb azadlığına nail olmaq lazım idi. V.Zubov bütün Qafqaz xristianlarının birləşdirilməsini qarşısında dayanan vəzifələrdən biri bilirdi (158) ki, bu birləşmədə ermənilərə xüsusi yer ayrılırdı.

Dərbənd şəhəri alınanda erməni arxiyepiskopu İ.Arqutinski rus qoşunlarının tərkibində deyildi. O sonradan gəlib Dərbəndə çıxdı və Dərbəndin alınmasına görə hədsiz sevinc keçirdi. Onun nəzərincə, Dərbəndin alınmasından sonra Azərbaycan torpaqlarında xristian dövləti yaratmaq şansı daha da artmışdı. Həmin xristian dövlətinin böyük bir hissəsi ermənilər üçün nəzərdə tutua bilərdi. Ermənilərin də bu planın icrasına səfərbər edilməsi üçün İ.Arqutinski Dərbənd ermənilərinə yazılı şəkildə müraciət etdi və onları rus qoşunlarının tərkibinə qatılmağa çağırdı. Bu müraciətdən sonra ermənilərin rus qoşunlarının sıralarına qoşulması xeyli genişləndi (159).

İ.Arqutinski müraciətində erməniləri "allahın məzlum xalqı " adlandırırdı və bildirirdi ki, başqaları kimi o da ermənilərin halına ürəkdən acıyır. Lakin onun da, xalqın da allaha dua etməkdən başqa çarəsi yoxdur. İ.Arqutinski sonra öz müraciətini belə davam etdirirdi: "İndi qüdrətli allah sizin dualarınızı eşitmişdir, sizi öz nəcib himayəsindən məhrum etməmişdir. Sıxışdırılmaqdan qurtarmaq və gözlərinizin yaşını qurutmaq üçün səlahiyyətli çarıça öz analıq himayəsi və hakimiyyəti altına qəbul etməklə sizi arzuladığınız sülh və əmin-amanlıq içərisində saxlayacaqdır.

Beləliklə qaranlıq çəkildi, sizi sıxışdıranlar uzaqlaşdılar. Onların gücləri və vəhşi hakimiyyətləri bizim xalqın əsil himayədarı, özünüzün də şahidi olduğunuz kimi cəsur və sədaqətli qraf Valerian Zubov tərəfindənn sona çatdırılmışdır. Buna görə də, sizi qurtuluşunuz münasibətilə təbrik edirəm və allaha şükür edirəm ki, buna qan tökülmədən və sizin içərinizdən itki vermədən nail olduq. Ümumən bütün vətəndaşların və sakinlərin, din xadimlərinin və adi insanların nəzərinə çatdırıram ki, ehtiyatlı olsunlar və bütün rastlaşdığımız zülmləri yaddan çıxararaq imperator taxt-tacına sədaqət göstərməklə sizə nicat vermiş əlahəzrət qrafın göstərişlərini yerinə yetirməkdə səylərinizi nümayiş etdirin.

Vətəndaşlar, öz işlərinizlə sübut edin ki, ləyaqətli vətəndaşlar ola bilərsiniz. Siz isə kənd əhli, xeyirxah zəhmətinizlə, əkinçiliyinizlə məşğul

olun. Cəsur və döyüşgən ruha malik olanlar isə öz şücaətinizlə qrafa olan sədaqətinizi və bağlılığınızı sübut edin, bununla da onun ehtiramını qazanın ki, o da sizin əməllərinizdən razı qalsın və bu barədə əlahəzrət imperatora məlumat versin. Beləliklə, bütün erməni millətinin arasında siz ilkin olaraq qurtuluş gördünüz və ondan bəhrələndiniz. Çalışın ki, yekdil olasınız və əməllərinizlə ilk sərkərdələrinizə sədaqətinizi sübut edə biləsiniz. Qoy sizin sədaqətiniz qurtuluşlarını gözləyən bütün millətimizin sədaqətinə çevrilsin “ (160).

Erməni arxiyepiskopu müraciətini belə bitirirdi ki, Dərbəndin qapıları açıldığı kimi, qoy “Böyük Ermənistanın” da qapıları açılsın. Yəni, belə bir dövlət yaransın. O, Azərbaycan xanlıqları ərazisində “Böyük Ermənistan”ın qurulmasına müəyyən ümidlər bağlayırdı və əmin idi ki, ermənipərəstliyi ilə ermənilərin dərin rəğbətini qazanan V.Zubovun rəhbərliyi altında tezliklə bu tarixi hadisənin də şahidi ola biləcəkdir.

İ.Arqutinskinin əməllərindən və yazışmalarından belə bir qənaətə gəlmək olar ki, o özünü yaradılmasına ümidlə yanaşdığı erməni dövlətinin rəhbəri kimi görürdü. Dərbənd şəhərinə gəlib çatandan sonra erməni arxiyepiskopunun özünə arxayınlığı və özbaşınalığı geniş xarakter aldı. Bu vaxt V.Zubov Dərbənddə deyildi və o, şəhəri tərk edərək Azərbaycan xanlıqları üzərinə yürüşü davam etdirirdi. Dərbənddə olarkən İ.Arqutinskinin özbaşınalıqları elə bir hal aldı ki, bunlar rus tarixçilərinin diqqətindən də kənar qalmadı. Dərbəndə gəldiyi gündən İ.Arqutinski azərbaycanlılara və müsəlmanlara qarşı fəal düşmənçilik mövqeyi tutdu. O yeri gəldi-gəlmədi müsəlmanların işlərinə qarışır, onları ermənilərin qarşısında kobud şəkildə gözdən salır, şəhərin idarəçilik işlərinə müdaxilə edirdi. Rus tarixçisi N. Dubrovin də yazırdı ki, İ.Arqutinski müsəlmanları incitməklə onlara sataşmağa bir bəhanə axtarırdı. Dərbənddə olduğu az müddətdə o, yerli müsəlman əhalisini özünə qarşı qaldıra bilmişdi. Onun özbaşınalığı o dərəcəyə çatdı ki, hətta Dərbənddəki rus qarnizonunun rəhbəri general-mayor Savelyev də V.Zubova şikayət etdi, erməni arxiyepiskopunun özbaşınalığından, ona aid olmayan işlərə müdaxilə etməsindən narahat olduğunu bildirdi. Dərbəndin yeni nayibi olan Xıdır bəy isə V.Zubovun yanına yollandı, şəhərdə özbaşınalıqlar edən İ.Arqutinski barəsində ciddi tədbirlər görülməsini xahiş etdi. V.Zubov nəhayət ki, bu məsələ ilə məşğul olmaq məcburiyyətində qaldı. O, general Savelyevə göndərdiyi məktubunda bildirdi ki, qarnizon rəisi kimi yalnız dəstə komandanına (yəni V.Zubova) tabedir və öz fəaliyyətində yalnız onun göstərişlərini əsas tutmalıdır. V.Zubov general Savelyevdən tələb edirdi ki, şəhərin idarəçiliyinə kənar təsirlərin olmasına imkan verməsin, şəhərin asayişinə təsir göstərə biləcək hər şeyə qadağa qoysun (161).

İ.Arqutinskinin Dərbənddəki özbaşınalıqlarına son qoyulması üçün V.Zubov onu yürüşü davam etdirən rus qoşunları düşərgəsinə göndərməyi tələb etdi. Bu yolla erməni arxiyepiskopu Dərbənddən uzaqlaşdırıldı. Bununla belə, o öz iddialarına, özbaşınalıqlarına son qoymadı. V.Zubovun düşərgəsində olarkən İ.Arqutinski Eçmiədzin patriarxı ilə əlaqəyə girdi, Qarabağda və bütün Qafqazda yaşayan ermənilərə müraciət etdi və onları Azərbaycan ərazilərində rus qoşunlarının köməyi ilə erməni dövlətinin qurulması uğrunda mübarizəyə səslədi (162).

Rus qoşunlarınən Dərbəndi tərk edərək Azərbaycan xanlıqları üzərinə hərəkətə başlaması 1796-cı il may ayının sonlarına təsadüf edir. Bundan əvvəl isə bəzi hazırlıq işləri başa çatdırıldı. Əvvəla, kəşfiyyat işləri genişləndirildi, Azərbaycan xanlıqlarının hərbi qüvvələri haqqında, rus qoşunlarının keçəcəyi ərazilər haqqında lazımi məlumatlar toplandı, yolların öyrənilməsi haqqında irəli zabitlər göndərildi (163).

Rus qoşunları yürüşün davam etdirilməsi üçün qruplaşdırıldı. General-mayor Platovun rəhbərliyi altında dəstənin avanqardı təşkil olundu. Avanqarda Çuquyev yüngül atlı alayı, Xopyor, Volqa, Semey və Qreben kazak alayları, legion komandası daxil idi. May ayının 24-də dəstənin avanqardı Dərbənddən hərəkətə başladı. Avanqard dəstəsi ona qoşuldu. Bu birləşmiş dəstə 20 verst hərəkət edərək irəlidə düşərgə saldı (164).

Mövcud olan məlumatlara görə, avanqardın bu düşərgəsinə Bakı xanlığının nümayəndələri gəldilər və general Platova Bakı xanının Rusiya təbəəliyini qəbul etməyə hazır olduğunu çatdırdılar. Tarixçilərin qənaətinə görə, belə bir addımı atmaqla Bakı xanı Hüseynqulu xan rus qoşunlarının əsas diqqətini Bakıdan yayındırmaq və Bakının müdafiəsi üçün vaxt qazanmaq istəyirdi(165).

Bakı xanının müraciəti rus qoşunlarının cənuba doğru yürüşünü heç də dayandırmadı. May ayının 30-da rus qoşunlarının cənuba doğru hərəkəti davam etdirildi. İlkin olaraq yenə də general Platovun rəhbərliyi altında olan avanqard dəstə Samur çayına doğru irəliləməyə başladı (166).

May ayının 31-də rus qoşunlarının üç dəstəyə bölünməsi və bu dəstələrin bir gün fərqi ilə hərəkətə başlaması məqsədəuyğun sayılırdı. Güman edilirdi ki, qarnizonların dəstələrə bölünərək ayrı-ayrılıqda hərəkət etməsi yürüşün daha asanlıqla icrasına zəmin yarada bilər (167).

Həmin gün rus qoşunlarının əsas hissəsi Samur çayına yetişdilər. Cənuba doğru yürüş zamanı rus qoşunlarının adlamalı olduğu ən böuük çay Samur çayı idi. Bu çay həm geniş idi və həm də çox sürətlə axırdı. Bu baxımdan çayı adlamaq çox çətin görünürdü. Hətta Bakı xanı Hüseynqulu xan güman edirdi ki, piyada rus qoşunları Samur çayını adlaya bilməyəcəklər. Bu çayın adlanması üçün rus qoşunları üç gün vaxt itirməli

oldular. Arabalarda olan yüklər dəvələrə yüklənməklə o biri taya daşındı. Piyadalar çayın ortasında düzülərək axar suyun sürətini azaltmağa çalışırdılar. Bununla belə, arabaların və heyvanların keçməsi üçün yaradılmış şərait daimi və təhlükəsiz deyildi. İti axan çay çoxlu sayda təchizat əşyalarını özü ilə apardı. Hətta insan itkisindən də qaçmaq mümkün olmadı (168).

Samur çayı adlanandan sonra rus qoşunları istirahətə dayanmadan Qubaya doğru hərəkəti davam etdirdilər. Yenə də öndə general Platovun rəhbərliyi altında olan avanqard hərəkət edirdi. Onun ardınca general Bulqakovun rəhbərliyi altında olan dəstə hərəkətə başladı. Qoşunların əsas korpusu bir qədər ləngiməklə hərəkətə qoşuldu. Ləngiməkdə məqsəd Samur çayını adlayarkən zədələnmiş olan arabaların təmir edilməsi və Həştərxandan göndərilmiş olan gəmilərin qarşılanması idi. Bu gəmilərdə rus qoşunlarına əlavə təchizat yükləri göndərilmişdi. Ayın 5-6-da rus qoşunlarının hərəkəti davam etdirildi. Yalnız ayın 6-da qoşunlar Quba yaxınlığına yetişə bildilər. Qoşunların belə ləng hərəkət etməsinə səbəb Samur çayının marşrut üzərində olan bir sıra qollarının keçilməsi üçün vaxt qazanılması idi (169).

Rus qoşunları Quba yaxınlığında, Təpələr adlı məntəqədə düşərgə saldı. Bu məntəqə Qubadan beş verst Xəzər dənizinə tərəf idi. Bildirilir ki, rus qoşunları bu məntəqədə üç gün dayandılar. V.Zubov burada dayanarkən Quba şəhərinin nayibi Vəli bəy onun yanına gəldi, Rusiya təbəəliyini qəbul etdiyini bildirdi və zəmanət olaraq 12 yaşlı oğlunu onun yanında girov qoydu. Qubanın ağsaqqalları və əyanları da Rusiya generalına sadiqliyini ifadə etdilər və Rusiya təbəəliyini qəbul etməyə hazır olduqlarını çatdırdılar. V.Zubov Quba nayibinin və əyanlarının Rusiyaya sədaqətini qəbul etdi və Qubaya qoşun dəstəsi göndərilməsini lazım bilmədi Eyni zamanda şəhər nümayəndələrini əmin etdi ki, onların özlərinin və əmlaklarının təhlükəsizliyi təmin ediləcəkdir. Quba ətrafında olarkən V.Zubov özü ilə apardığı Şeyxəli xana anası və ona yaxın olan Quba əyanları ilə görüşməyə icazə verdi (170).

Quba xanlığının müqavimətsiz işğalından sonra qarşıda Bakı şəhərinin işğalı dayanırdı. Xəzər dənizində əlverişli limana malik olmaq baxımından Bakı şəhərinin işğalına xüsusi diqqət yetirilirdi. Amma general V.Zubova bəlli idi ki, Bakı xanı Hüseynqulu xan rus qoşunlarına təslim olmaq niyyətində deyil. Böyük hərbi potensiala malik olmayan Hüseynqulu xan rus qoşunlarına qarşı güclü müqavimətin təşkili üçün heç də yaxşı münasibətlərdə olmadığı Şamaxı xanı Mustafa xana məktub yazdı və onu da rus işğalına qarşı cəbhə tutmağa çağırdı. Mustafa xan bu çağırışa müsbət cavab verdi və rus qoşunlarına müqavimət göstərilməsi üçün Şamaxı xanlığı daxilində də müəyyən fəallaşma başladı. Bu fəallaşmanın genişlənməsinə

yol verməmək və Bakı xanı ilə Şamaxı xanının rus qoşunlarına qarşı birgə müdafiə təşkil etməsinin qarşısını almaq üçün iyun ayının 8-də rus zabitləri V.Zubovun məktubları ilə Bakı və Şamaxı xanlarının yanına göndərildilər. Göndərilən məktublarda hər iki xana Rusiya təbəəliyini qəbul etmələri tövsiyə olunurdu (171).

Həmin günlərdə rus qoşunları Quba xanlığındakı düşərgədən hərəkətə başladılar və iyun ayının 12-də rus qoşunları Gilgil çayı yaxınlığında düşərgə saldılar. Bu düşərgə Xəzər dənizinin 10 kilometrliyində idi və 6 gün ərzində qoşunlar burada istirahətə dayandılar. Həmin düşərgədə dayanan zaman, yəni iyun ayının 13-də Bakı xanı Hüseynqulu xan V.Zubovun yanına gəldi. Çox güman ki, Hüseynqulu xan çox saylı rus qoşunlarının qarşısında müqavimət göstərməyin mənasızlığını qəbul etdi və hücum nəticəsində Bakının dağıdılmasına yol verməmək üçün təslim olmağı qərara aldı. Bu qərarını Hüseynqulu xan rus qoşunları komandanına çatdırmaqla şəhərin açarlarını da ona təhvil verdi. Bakı xanlığının müqavimətsiz təslim olmasını V.Zubov çox böyük məmnunluqla qarşıladı və bu məmnunluğunun ifadəsi kimi Hüseynqulu xana 1200 rubl qiymətində bahalı xəncər bağışladı. Bununla belə, Bakının Rusiya imperiyasına sədaqətinə əmin olmaq üçün general-mayor Raximovun rəhbərliyi altında şəhərə rus qarnizonu göndərildi. Bu qarnizona 3 piyada taboru, 2 atlı eskadronu və 3 səhra topu daxil idi. Nəzərdə tutulmuşdu ki, Bakıya hərbi gəmilər gətirilsin. İyun ayının 15-də Xəzər dənizi ilə bir freqat, 3 ədəd şxuna Bakıya doğru hərəkət etməkdə idi. Bu gəmilərdə polkovnik Qolovatinin rəhbərliyi altında 700 nəfərlik desant və kabardin piyada alayının iki bölüyü var idi (172).

V.Zubovun göstərişinə əsasən, general Raxmanov Bakıda çox da ləngiməli deyildi. O əvvəlcə Bakıda təchizat anbarı yaratmalı idi. Dəniz vasitəsilə Həştərxana qoşunlar üçün daşınan yüklər də bu anbarda toplanmalı idi. Sonra da general Raxmanov Həştərxandan hərəkətə başlamış hərbi gəmilərin gəlib çıxmasını gözləməli idi. Dənizlə göndərilən qüvvələr Bakıya yetişəndən sonra general Raxmanov şəhərə nəzarəti həmin qüvvələrə təhvil verməli və öz dəstəsi ilə Şamaxıya doğru irəliləyən V.Zubova birləşməli idi (173).

Mövcud olan faktlara görə, iyun ayının 15-də Şamaxı xanı Mustafa xanın nümayəndələri də V.Zubovun düşərgəsinə gəldi və Mustafa xan rus qoşunlarını qarşılamağa hazır olduğunu bildirdi. Mustafa xana məktub aparmış rus zabitləri də Şamaxıda təm-təraqla qarşılandı. Mustafa xan bu zabitlərin yorulmuş atlarını yenisi ilə əvəzlədi, onlara hədiyyə verdi və bununla ruslara qarşı xoş münasibətdə dayandığını nümayiş etdirdi. V.Zubovun yanına gəlmiş xan nümayəndəsi isə Mustafa xanın Ağa Məhəmməd xanın qoşunlarına tabe olmadığını, xanın Fit dağına çəkilərək Qacar

xanına qarşı müqavimət göstərdiyini açıqladı. V.Zubovun nəzərinə çatdırıldı ki, Mustafa xan qacarların qoşunlarının Dərbəndə doğru irəliləməsinə imkan vermədi, Qacar qoşunlarına 3 minlik itki yetirdi və özü də 1000 nəfər itki verdi. Verilən itkilərin qisasının alınması üçün Qacar qoşunları tərəfindən Şamaxının yandırılıb talan edilməsi haqqında da V.Zubova məlumat verildi. V.Zubov bu məlumatları razılıqla qarşıladı və xanın nümayəndəsi vasitəsilə Mustafa xana qayğı göstəriləcəyi çatdırıldı (174).

V.Zubov qərara aldı ki, əsas qüvvələr Bakıya daxil olmadan birbaşa Şamaxıya doğru istiqamət götürsün. Belə bir qərar qəbul edilməsinə səbəb bir tərəfdən Bakının artıq təslim olması və ora rus qarnizonunun göndərilməsi ilə bağlı idisə, digər tərəfdən də Bakının ətrafının təbii şəraiti ilə bağlı idi. Bakı ətrafı otsuz, ələfsiz olduğu üçün orada atlar və heyvanlar üçün yem tapmaq mümkün deyildi. Bu isə qoşunlara əlavə çətinliklər yarada bilərdi. İyun ayının 19-da rusların əsas qüvvələri Bakı istiqamətində irəliləməyə başlasalar da, onlar 12 verstdən sonra çay hövzəsi ilə Şamaxıya doğru istiqamət götürdülər və 9 verst irəlilədikdən sonra düşərgəyə dayandılar (175).

İyun ayının 19-da həyata keçirilən yürüş zamanı yadda qalan əsas hadisə Şeyxəli xanın qaçıb ruslardan uzaqlaşması oldu. Rusların yanında olduğu vaxt Şeyxəli xan daim at belində idi və şübhə törətməyən hərəkətləri ilə rusların müəyyən etimadını qazanmışdı. Hətta at çapmaqda nümayiş etdirdiyi məharətinə görə, rusların marağına da səbəb olmuşdu. Baxmayaraq ki, onun yanına mühafizəçi və tərcüməçi verilmişdi, bununla belə Şeyxəli xan müəyyən sərbəstliyə malik idi və onun nə vaxtsa rusları aldadaraq qaçacağı kimsədə şübhə doğurmurdu. Ayın 19-da da qoşunlar yürüşü davam etdirərkən Şeyxəli xan rusların gözü qarşısında at çapmaqla məşğul olurdu. Onun növbəti məharəti ruslar tərəfindən də müşahidə olunurdu. Şeyxəli xan öz işini elə qurdu ki, rusların şübhəsini doğurmadan üzünü yaxınlıqdakı təpəliklərə tərəf çevirdi və bununla da rusların nəzarətindən azad olmağa nail oldu. Şeyxəli xanın geri qayıtmayacağı aydınlaşanda onun arxasınca atlılar göndərildi. Lakin onlar Şeyxəli xanı geri döndərməyə müvəffəq olmadılar (176).

Bəzi rus müəlliflərinin fikrincə, Şeyxəli xanın qaçması onun ruslara qarşı olan barışmazlığından irəli gəlmirdi. Guya o, rəqibi olan Mustafa xanın əlinin altına düşəcəyindən ehtiyatlanaraq qaçmağa üstünlük verdi (177).

Rus tarixçilərinin yazdığına görə, Şeyxəli xan rus əsirliyindən qaçmağı əvvəldən planlaşdırırdı və bunun üçün qubalılarla, xüsusilə Hacı Səfərəli bəylə gizli əlaqələrə girmişdi. Hacı Səfərəli bəy Qubanın Şabran və Bərmək məntəqələrinin hakimi idi. Şeyxəli xanın qaçmasına yardımçı olmaqda axund Həsənin də adı çəkilir. Bildirilir ki, onun vasitəsilə müəyyən olunmuş

yerlərə at gətirilmişdi. Şeyxəli xan onu izləyən rusların nəzarətindən itəndən sonra yorulan atını həmin atlarla dəyişdirmiş və yolunu davam etdirmişdi (178).

N.Dubrovin Şeyxəli xanın qaçması ilə bağlı başqa bir hadisəni təsvir edib. Şeyxəli xanın gözdən itdiyi istiqamətdə, rus qoşunlarından çox uzaq olan ərazidə, dağların başında bir kənd görünürdü. Şeyxəli xanın təqibi üçün göndərilən kazaklar bir müddətdən sonra həmin kəndə yaxınlaşanda, oradan üç dəstə atlı müxtəlif istiqamətə qaçmağa başladı. Kazaklar güman etdilər ki, Şeyxəli xan bu dəstələrdən birinin içindədir. Onlar dəstələrdən ikisini yaxalaya bildilər. Lakin Şeyxəli xan bu dəstələrin tərkibində deyildi (179).

Şübhə yoxdur ki, Şeyxəli xan rusların əsirliyindən nicat tapmasını əvvəldən planlaşdırmış və bu planını müəyyən adamlarla əlaqələndirmişdi. Bu qaçış rus işğalına olan barışmazlıqdan irəli gəlirdi. Ona görə Şeyxəli xan rus əsirliyindən qaçandan sonra Quba xanlığı ərazisində rus işğalına qarşı müqavimət təşkil etməyə çalışdı. Sonradan rus qoşunları rəhbərliyi də bu müqavimətin miqyasının genişlənməsini müşahidə edirdi və bundan müəyyən təlaş da keçirirdi. Şeyxəli xanın qaçmasından sonra rus qoşunlarının marşrutu həndəvərində olan kəndlərin əhalisi ev-eşiklərini tərk edib dağlara çəkildilər. Qısa müddət ərzində ruslara müqavimət göstərilməsi məqsədilə dağlara çəkilənlərin sayı xeyli artdı (180).

Şeyxəli xan Qubaya yetişdikdən sonra xanımını, anasını və bacısını özü ilə apardı, Quba əhalisi arasında müqavimət əhval-ruhiyyəsini genişləndirdi. Anasını Şeyxəli xan ana babasının yanına, İlisuya göndərdi. Şeyxəli xanın dağlara çəkilməsi ilə bir çox Dağıstan hakimləri də ruslara qarşı müqavimətlərini gücləndirdilər. Onların arasında avar xanı Ömər xanla Qazıqumıq xanı Surxay xan da var idi. Adları çəkilən bu xanlar Rusiyaya qarşı sədaqət nümayiş etdirən Tabasaran hakimini də öz tərəflərinə çəkə bildilər. Qubanın dağlıq ərazisində yerləşən Qırız və Alpan kəndləri rus işğalına qarşı mübarizənin mərkəzinə çevrildilər. Şeyxəli xan özü də tez-tez bu kəndlərdə olurdu və işğala qarşı mübarizəni istiqamətləndirirdi. Mövcud olan məlumatlara görə, adları çəkilən kəndlərdə müqavimət hərəkatına 15 minə qədər silahlı toplanmışdı (181).

Rus mənbələri də təsdiq edirlər ki, əsirlikdən qaçmış olan Şeyxəli xan sonradan rus qoşunlarının öz vəzifələrini yerinə yetirməsinə çox mane olmuşdu (182). Şeyxəli xanın rus qoşunlarına belə narahatçılıqlar yaşatması qoşun rəhbərləri tərəfindən birmənalı qarşılanmırdı. Ona görə də, Şeyxəli xanın tutulması və zərərsizləşdirilməsi üçün konkret tədbirlər həyata keçirildi. Amma Şeyxəli xanın ələ keçirilməsi ruslar üçün elə də asan olmadı. Ona görə bu iş digər işlırin icrası ilə həmzaman aparılırdı. Yəni,

qoşunların Şamaxıya doğru hərəkəti dayandırılmadan Şeyxəli xanın tutulması üçün də müəyyən işlər görülürdü.

Məlumatlara görə, iyun ayının 24-də V.Zubov onun planlarının icrasına mane olan Şeyxəli xanın zərərsizləşdirilməsi üçün xüsusi dəstə göndərilməsini qərara aldı. Şamaxıya doğru irəliləyən qoşunların aryerqardını təşkil edən general-mayor Bulqakovun dəstəsi bu məqsədlə Qubaya göndərildi. General Bulqakovun dəstəsinin tərkibinə 3 piyada taboru, 2 draqun eskadronu, iki kazak alayı və 4 səhra topu daxil idi. İyul ayının 26-da bu dəstə Qubaya yetişdi. General Bulqakov şəhərin kənarında düşərgə saldı. Bir bölük qüvvə şəhərdəki xan sarayının tutulması üçün göndərildi. Şəhər nayibi olan Vəli bəyin ruslarla əməkdaşlıq etməsi bildirilir. Əslində, general Bulqakovun dəstəsinin qarşısında onun başqa bir seçimi yox idi. Ruslara qarşı münasibətin yumşaldılması üçün əhali arasında təbliğat işlərinə rəvac verildi və əhalinin rus qoşunları tərəfindən təhlükəsizliyi haqqında vədlər səsləndi. Aparılan işlər nəticəsində ruslar evlərini tərk etmiş əhalinin xeyli hissəsinin geri qayıtmasına müvəffəq oldular. Əhalinin evlərinə qayıtmasına nail olmaqla ruslar Şeyxəli xanı arxalandığı sosial bazadan da məhrum etmək istəyirdilər. Ruslara qarşı mövcud müqavimətin tamamilə aradan qaldırılması üçün isə Şeyxəli xanın axtarışına başlandı. İyul ayının əvvəllərində general Bulqakov axtarışında olduğu Şeyxəli xanın Qırız kəndində, axşamlar isə Çərəkə yaylağında olması haqqında məlumat aldı. Bu yaylaq rus qoşunlarının Quba ətrafındakı düşərgəsindən 8 saatlıq məsafədə idi. General Bulqakov qoşunların baş komandanı V.Zubovla razılaşdırdıqdan sonra yaylağa gizli hücum etməyi planlaşdırırdı. Baş komandan bu planı razılıqla qarşıladı və onun həyata keçirilməsi üçün Çərəkə istiqamətinə əlavə qüvvələr də göndərdi. Əlavə qüvvələrə general Platov rəhbərlik edirdi və onun sərəncamına 1 draqun eskadronu, Çuquyev kazak alayının 2 eskadronu və çoxlu sayda əlavə kazaklar verilmişdi. Bu qüvvələrin şəxsi heyətinin sayı 1000 nəfər idi. General Platov general Bulqakovla razılaşdırılmış şəkildə Çərəkə istiqamətinə hərəkət etməli və Bulqakovun dəstəsi ilə eyni vaxtda Çərəkəyə çataraq arxadan yaylağı mühasirəyə almalı idi (183).

General Bulqakov təyin olunan gün gecə ikən 300 yeger, 120 draqun və 300 kazakla birlikdə Çərəkə yaylasına doğru hərəkətə başladı. Quba nayibi olan Vəli bəy general Bulqakovun dəstəsinə bələdçilik edirdi. Ağır dağ yolları və meşəliklə irəliləmək xeyli çətinlik yaratsa da səhərə yaxın dəstə Çərəkə yaylağına çata bildi. Yegerlər oradakı yaşayış sahələrini mühasirəyə aldılar. General Platovun dəstəsi isə general Bulqakovdan bir qədər gec gəlib yaylağa çatdı. Lakin onların bu yürüşü heç bir nəticə vermədi, axtarışlar zamanı məlum oldu ki, rus qüvvələrinin yetişməsindən

bir neçə saat əvvəl Şeyxəli xan Qırızdan keçməklə Şəki xanlığı ərazisinə adlayıbdır. V.Zubovun Azərbaycan xanlıqları üzərinə yürüşünün iştirakçısı olan P.Butkov həyata keçirilən əməliyyatın baş tutmamasında və Şeyxəli xanın vaxtında oradan çıxmasında Quba nayibi Vəli bəyi günahlandırırdı (184).

Şeyxəli xanın yoxa çıxdığı məlum olanda general-mayor Bulqakov Qırız və Xınalıq kəndlərinə, onun ailəsinin arxasınca adamlar göndərdi. O ümid edirdi ki, Şeyxəli xan ailəsi ilə birlikdə bu kəndlərdə ilişib ləngimiş olar və bununla da onların ələ keçirilməsi mümkün ola bilərdi. P.Butkovun yazdıqlarından belə bir qənaətə gəlmək olar ki, Xınalıq kəndində Şeyxəli xana kömək göstərənlər olmuşdu və həmin şəxslər də bu əməllərinə görə Quba nayibi Vəli bəy tərəfindən cismani cəzalandırılmışdılar. Əlavə olaraq Xınalıq əhalisindən 8 nəfər amanat götürülmüş və əhali rus hərbçilərinin ərzağının təmin edilməsi üçün 150 baş iridırnaqlı heyvan və 100 baş qoyun verməyə məcbur edilmişdilər. P.Butkov yazırdı ki, bu hadisənin ruslar üçün bir faydası oldu ki, ev-eşiklərini tərk edib dağlara çəkilən əhali ruslar tərəfindən qorunacaqlarına inandılar və buna görə də dönüb evlərinə qayıtdılar (185).

P.Butkovun bu fikri müəyyən şübhə doğurmaya bilməz. Şeyxəli xanı təqib edən, Şeyxəli xanla bağlı olanları ittihamlandıran və Şeyxəli xanın keçdiyi yerlərin əhalisini cəzalandıran ruslara dağlara qaçan yerli əhalidə birdən-birə etimadın yaranması real görünmür. Hətta P.Butkov özü də yazırdı ki, Şeyxəli xan tutulub ruslara verilməsi üçün böyük mükafat təyin edilsə də, əhali bu mükafata aldanmadı və Şeyxəli xan sonra da əhali arasında ruslara qarşı müqavimətini davam etdirdi. Ona görə güman etmək olar ki, dağlara sığınan əhali könüllü şəkildə deyil, rus hərbçilərinin təzyiqi ilə geri qayıtmalı olmuşdular. Şeyxəli xana gəlincə isə o, bir müddət Şəki xanlığı ərazisində qaldı. Lakin burada uzun müddət yaşamadı və anası ilə birlikdə ləzgilərin yanına yığışdı, oradan isə Samur çayının yuxarılarında yaşayan dağlı xalqlarına qoşuldu. Onun izlənilməsi başa çatandan sonra rus qoşunlarının əsas dəstəsi Qurdbulaq adlı məntəqəyə toplandı. General Bulqakovun və general Platovun dəstələri də geri qayıtdılar.

İyul ayının 7-də Şəki xanı Səlim xanın nümayəndəsi rus qoşunlarının dayandığı düşərgəyə gələrək xanlığın Rusiya tabeçiliyini qəbul etməyə hazır olduğunu bildirdi. Doğrudur, Səlim xan da digər Azərbaycan xanları kimi müstəqilliyinin itirilməsinə razı deyildi və rus qoşunlarına müqavimət göstərilməsi üçün Dağıstan hakimləri ilə dil tapmağa da çalışırdı. Lakin onun bu cəhdləri bir nəticə vermədi, çoxsaylı rus qoşunlarının qarşısında müqavimət göstərilməsinin qeyri-mümkünlüyünü gördükdə o da öz nümayəndəsini rus qoşunları düşərgəsinə göndərdi. Məsələnin rəsmiləşdirilməsi

isə iyul ayının sonlarında baş verdi və Rusiya təbəəliyinin qəbul edilməsi üçün Səlim xan tərəfindən lazımi sənədlər imzalandı (186).

İyul ayının 24-də Bakıya göndərilmiş olan general Raxmanovun dəstəsi geri qayıdıb Qurdbulaq yaxınlığında əsas qüvvələrə qoşuldu. Əsas qüvvələrin düşərgəsi bu zaman Pirsaat çayı yaxınlığında idi və bu əsas qüvvələrin də bir kəşfiyyat qrupu Köhnə Şamaxı yaxınlıqlarına göndərilmişdi. İyul ayının ortalarından rus qoşunları komandanlığı ilə Şamaxı xanı Mustafa xan arasında danışıqlar başladı. Ağa Məhəmməd xan Qacar tərəfindən təqib edildiyinə görə, Mustafa xanda Rusiyaya qarşı meyl-liliyin güclü olacağı ehtimal edilsə də, əslində belə olmadı. Çoxsaylı rus qoşunları Mustafa xan üçün geniş seçim yeri qoymasa da o da ruslarla danışıqlarda xüsusi bir fəallıq göstərmirdi. İyul ayının ortalarında V.Zubovun nümayəndəsi ilə görüşündən sonra Mustafa xan yenidən Rusiya təbəəliyini qəbul etməyə hazır olduğunu bildirdi. Amma o özünün ruslarla bağlılığının rəsmiləşdirilməsi üçün elə də tələsmirdi. Təkid göstərilməsinə baxmayaraq Mustafa xan rus qoşunları düşərgəsinə gələrək Rusiyaya sədaqət andı qəbul etməyə ehtiyatlanırdı. Mustafa xan ehtiyat edirdi ki, rus qoşunları düşərgəsinə gələrsə ona qarşı hər hansı bir təxribat baş verə bilər (187).

Mustafa xanın nigarançılığının aradan qaldırılması və onun arxayınçılıqla rus qoşunları düşərgəsinə gəlməsi üçün erməni arxiyepiskopu İosif Arqutinski Şamaxıya göndərildi. Erməni arxiyepiskopu Mustafa xanı əmin etdi ki, rus qoşunları düşərgəsində onun təhlükəsizliyi təmin olunacaqdır. Mustafa xan bu vədlə də kifayətlənmədi və təhlükəsizliyinə zəmanət kimi erməni arxiyepiskopunun Şamaxıda qalmasını istədi. İ.Arqutinski bu şərtlə razılaşdıqdan sonra Mustafa xan Köhnə Şamaxıda V.Zubovla görüşdü. Mustafa xanın gəlişi şərəfinə burada yeger taborunun keçidi təşkil edildi. General V.Zubov bu görüşdə Mustafa xana Rusiyanın himayəçiliyini, Mustafa xan isə Rusiyaya sədaqətli olacağını vəd etdi. V.Zubov bu görüş zamanı Mustafa xana qiymətli hədiyyələr də bağışladı. Bu görüşdən geri qayıdandan sonra Mustafa xan erməni arxiyepiskopunun rus qoşunları düşərgəsinə qayıtmasına icazə verdi (188).

V.Zubovun rəhbərliyi altında rus qoşunlarının Dərbəndi işğal etməsi Cənubi Qafqazın Azərbaycan xanlıqları ərazisində yeni bir hərbi-siyasi şərait yaratdı. Zəif qüvvələrlə təmsil olunmuş Azərbaycan xanlıqları Rusiyanın güclü qoşunlarının qarşısını almağa qadir deyildi və bu xanlıqların arxalana biləcəkləri etibarlı bir qüvvə mövcud deyildi. Belə bir şəraitdə Azərbaycan xanlıqları biri-digərinin ardınca Rusiyaya sədaqətli olmağı öz üzərlərinə götürdülər.

Qarabağ xanı İbrahim xan isə daha ciddi bir vəziyyətlə qarşılaşmalı oldu. Bir tərəfdən xanlığa daxil olan məliklərin Rusiya himayəsinə meylli olması, bir tərəfdən gürcü çarı İrakli ilə münasibətlərin kəskinləşməsi, digər tərəfdən də Qacar hakimiyyətini qəbul etmək niyyətində olmaması İbrahim xanı da Rusiya ilə yeni münasibətlər qurmağa məcbur etdi. Xüsusilə, Qarabağ məlikləri ilə arxiyepiskop İ.Arqutinski arasında yazışmaların başlanması Qarabağ xanından daha çevik siyasət yeritməsini tələb edirdi.

1796-cı ilin yayında V.Zubovun rəhbərliyi altında olan rus qoşunlarının düşərgəsi Şirvan xanlığında olanda İbrahim xan oğlu Əbülfət xanı bir neçə bəyzadə və əyanla V.Zubovun yanına göndərdi. Əbülfət xan çoxlu qiymətli hədiyyələrlə bərabər, İbrahim xanın məktubunu da V.Zubova çatdırdı. İbrahim xan bu məktubunda Rusiya təbəəliyini qəbul etdiyini və Rusiyaya sadiq qalacağını açıqladı. V.Zubov İbrahim xanın bu qərarından çox məmnun oldu və dərhal da onun məktubunu Rusiya sarayına göndərdi. Mənbələrin məlumatına görə, Rusiya çarıçası II Yekaterina da İbrahim xanın Rusiya təbəəliyini qəbul etməsinə çox sevindi və razılıq əlaməti olaraq İbrahim xana çoxlu qiymətli hədiyyə göndərdi. II Yekaterina eyni zamanda İbrahim xanın vəziri Molla Pənah Vaqifə də hədiyyə olaraq qiymətli daş-qaşlarla bəzədilmiş bir əsa göndərdi (189).

V.Zubov da öz nümayəndəsini İbrahim xanın yanına göndərdi. Bu nümayəndə mayor Kiçkaçov idi. Mayor Kiçkaçov İbrahim xanın doğrudan da Rusiya təbəəliyini qəbul etməsinə münasibətini müəyyənləşdirməli və onun Rusiya ilə qarşılıqlı münasibətlərinin necə qurulacağını müzakirə etməli idi.Mayor Kiçkaçov Qarabağa gələrək İbrahim xanla görüşdü və onun Rusiya təbəəliyinə olan münasibətini aydınlaşdırdı. Bundan sonra mayor Kiçkaçov rus qoşunları komandanının tapşırığına əsasən Qarabağ məliklərinin nümayəndələri, o cümlədən məlik Cəmşidlə görüşüb Rusiya taxtına sədaqət barəsində onların da andını qəbul etməli idi. Məlik Cəmşid mayor Kiçkaçovun təklifini qəbul etdi, İncil və xaç qarşısında Rusiya taxtına sədaqətli olacağı barəsində and içdi. Həmin andiçmə zamanı məlik Cəmşid onu da vəd etdi ki, V.Zubov Qarabağa doğru yürüşə başlayanda bütün qüvvələrini toplayaraq Kür çayının sahilində onu qarşılayacaq və öz silahlı dəstəsi ilə rus qoşunlarına qoşulacaq. O eyni zamanda rus qoşunlarının ərzaq və heyvan yemi ilə təmin edilməsinə kömək göstərəcəyini də öz öhdəsinə götürdü. Məlik Cəmşidin öhdəlikləri o biri məliklər üçün nümunə olmalı və onlar da Qarabağ xanlığının bir dəfəlik işğalı üçün rus qoşunlarının xidmətində dayanmalı idilər (190).

Rusiyanın ermənilərlə açıq münasibətləri, Rusiya sarayının Cənubi Qafqazda xristian dövləti yaratmaq planları, erməni arxiyepiskopunun Qarabağ ermənilərinin xan əleyhinə təhrik edilməsi istiqamətində fəaliyyəti

İbrahim xanı ehtiyatlı olmağa, Qarabağ xristianlarının təxribatlarının qarşısını almağa sövq edirdi. Rusiya qoşunlarının Azərbaycan xanlıqları ərazisinə çıxarılması və qoşun komandanlığının açıq ermənipərəst mövqeyi digər Azərbaycan xanları kimi, İbrahim xanın da narahatçılığının artmasına səbəb olurdu. Ehtimal olunan təhlükənin aradan qaldırılması və xanlıq hakimiyyətinin qorunması Azərbaycan xanlıqları arasında bir fikir birliyi yaratdı. Qarabağ, Şamaxı və Şəki xanları Rusiyaya sədaqətli olacaqlarını bəyan etsələr də bu dövlətdən gələ biləcək təhlükənin qarşısının alınması üçün onlar əlbir fəaliyyətə meyllilik göstərdilər. Şamaxı xanlığı ərazisində olarkən rus qoşunları baş komandanı V.Zubova sui-qəsdin təşkil edilməsi cəhdi də tarixi ədəbiyyatda bu xanların adı ilə bağlanılır.

Sui-qəsdin icraçısı kimi rus qoşunları düşərgəsində vaxtını keçirən Nurəli xan adlı birisi seçilmişdi. Bildirilir ki, İbrahim xanın nümayəndələri V.Zubovla görüş üçün rus qoşunları düşərgəsinə gələrkən fürsət tapıb Nurəli xanla görüşmüş və İbrahim xanın planını, Qarabağ, Şamaxı və Şəki xanlarının səylərinin birləşdirilməsi üçün kömək göstərilməsi xahişini ona çatdırmış və ona üç min rubl pul da verilmişdi. Məlumatlara görə, Nurəli xan rus generalına sui-qəsd təşkil edə bilsəydi İbrahim xan qızını ona verəcəkdi (191).

Nurəli xan əslən Kərim xan Zəndin nəslindən idi və o, Ağa Məhəmməd xan Qacar tərəfindən təqib olunduğu üçün Rusiyaya qaçmışdı. V.Zubovun Azərbaycan xanlıqları üzərinə hücumu başlananda Nurəli xan da Rusiya sarayı tərəfindən rus qoşunları tərkibinə göndərildi. Görünür, Nurəli xanın bu yürüş zamanı rus qoşunları komandanlığına faydalı ola biləcəyi güman edilirdi. Nurəli xan rus qoşunları baş komandanının düşərgəsində idi. Xüsusi bir tapşırığın icrası ilə məşğul olmasa da ona qarşı etibar və etimad mövcud idi. Eyni zamanda Nurəli xan da Rusiya sarayına sədaqət nümayiş etdirir və onun bu sədaqəti ruslar arasında da şübhə doğurmurdu (192).

Tarixi ədəbiyyatdakı məlumata görə, guya Nurəli xan V.Zubovun qətlində iştirak etməyə razılıq verdi və rus qoşunlarının əsas qüvvələrinin vəziyyəti haqqında İbrahim xana lazımi məlumatlar da çatdırdı. Nurəli xanla İbrahim xan arasında yaranan anlaşma nəticəsində belə bir plan razılaşdırıldı ki, əvvəlcə rus qoşunları ilxılarına zərbə vurulsun və sonra da rus qoşunları düşərgəsi hədəf götürülsün. Burada başlıca zərbə də rus qoşunları baş komandanı V.Zubovun qətlinə istiqamətləndirilməli idi (193).

Başqa bir məlumata görə, Nurəli xanın şübhəli hərəkətləri, rus qoşunları düşərgəsində İbrahim xanın nümayəndələri ilə tez-tez görüşməsi ruslar tərəfindən diqqətsiz qalmadı və V.Zubovun göstərişinə əsasən, onun davranışı nəzarət altına alındı. Bunlara baxmayaraq, Nurəli xan həm Şəki

xanı Səlim xanla, həm də Şamaxı xanı Mustafa xanla əlaqəyə girərək V.Zubovun onlara etibar etmədiyini, onları hakimiyyətdən uzaqlaşdırmaq niyyətində olduğunu çatdırdı. Rus tarixçilərinin fikrincə, Nurəli xanın bu xəbəri Rusiyaya lazımınca etibar etməyən Şamaxı və Şəki xanlarının narahatlıqlarını daha da artırdı və onlar gizli şəraitdə xanlıq əhalisini silahlandıraraq rus qoşunlarına qarşı mübarizəyə hazırlamağa başladılar. Bildirilir ki, xanlar rus qoşunlarına qarşı hazırlıqlarının gizlədilməsi və şübhə doğurmaması üçün V.Zubov qarşısında da məsələ qaldırdılar və rus generalının nəzərinə çatdırdılar ki, xanlar bir-biri ilə həmişə gərgin münasibətdə olublar. Xanlar bildirdilər ki, öz aralarında təhlükəsizliyin qorunması üçün onlar 5 min nəfərlik qədər qoşun dəstəsi saxlanılmasına ehtiyac duyurlar və bu sayda qoşun dəstəsinin saxlanması üçün V.Zubovdan icazə istədilər. V.Zubov isə bu təkliflə razılaşmadı və bildirdi ki, xanlar öz aralarında təhlükəsizliyin təmin edilməsi üçün 500 nəfərdən artıq olmayan qoşun dəstəsi saxlaya bilərlər (194).

Bir daha qeyd edilməlidir ki, bu məsələ rus tarixşünaslığında daha çox qabardılır və sui-qəsdin üstünün açılması ilə bağlı rəvayəti xatırladan hadisələr təsvir edilir. Bildirilir ki, bir dəfə Nurəli xan at çapanda başındakı papaq yerə düşür və onun içindən bir məktub çıxır. Nurəli xan papağını götürsə də, onun içindən məktubun düşdüyündən xəbər tutmur və bu məktub da rusların əlinə keçir. Qeyd olunur ki, Nurəli xanın rus qoşunları baş komandanına sui-qəsdin təşkili barədə Şamaxı xanı Mustafa xanın yazdığı məktub imiş. Məktubda Mustafa xanın nə vaxt və hansı saatda rus qoşunları düşərgəsinə hücum edəcəyi və V.Zubovun qətli üçün Mustafa xanın qüvvələri ilə Nurəli xanın arasında hansı işlər görüləcəyi barəsində məlumat var idi. Ruslar bu məlumatı əldə etdikdən sonra gecə ikən Nurəli xanın çadırını mühasirə edirlər və onu həbsə alırlar. Eyni zamanda onun əhatəsində olan adamlar da əsir götürülürlər. Nəticədə, Nurəli xan Bakıya və oradan da gəmilərlə Həştərxana göndərilir. Eyni zamanda o da bildirilir ki, bu sui-qəsdin üstü açılandan sonra Mustafa xan Yeni Şamaxını tərk edib dağlara çəkildi (195).

Baş vermiş hadisə Azərbaycan xanlıqlarında Rusiya hakimiyyətinə qarşı narahatçılığı bir qədər də artırdı. V.Zubov xüsusilə ondan ehtiyatlanırdı ki, Qarabağ, Şamaxı və Şəki xanlıqlarının Rusiya dövlətinə və rus qoşunlarının xanlıq ərazilərinə yürüşünə münasibəti Quba xanı Şeyxəli xanın münasibəti kimi barışmaz səviyyəyə qalxsın. Belə olduğu təqdirdə adları çəkilən xanlıqların ərazisində rus qoşunlarına qarşı açıq hərəkatlar və qarşıdurma qalxa bilərdi ki, bunu da V.Zubov istəmirdi. Ona görə sui-qəsdlə bağlı söhbətlərin yayılmasından bir müddət sonra V.Zubov Azərbaycan xanlıqlarına qarşı ehtiyatlı siyasət həyata keçirdi. Ağa Məhəmməd şahın

yenidən Cənubi Qafqaza hücuma hazırlaşması xəbərinin yayılması isə, V.Zubovu daha da ehtiyatlı olmağa sövq etdi.

Mövcud olan faktlara görə, 1796-cı ilin avqustunda Ağa Məhəmməd şah Qacar öz yaxınlarından birini Şamaxı, Şəki, Gəncə və xanlarının yanına göndərdi, həmin xanları rus qoşunlarına müqavimət göstərməyə çağırdı. Ağa Məhəmməd xan Azərbaycan xanlarına məsləhət bilirdi ki, döyüşə atılmaqla rus qoşunlarını Arazın cənubuna çəkməyə cəhd göstərsinlər. Burada onları Qacar qoşunları qarşılamalı, İrəvana göndərilmiş Qacar dəstəsi isə rus qoşunlarına arxadan zərbə endirməli idi. Həmin vaxtlarda hətta Qacar qoşunlarının Salyan üzərinə hücuma hazırlaşması haqqında da xəbər yayılmağa başladı (196).

Bu xəbərin yayılmasından sonra Lənkəran xanı Mir Mustafa xanla Salyan nayibi V.Zubova məktub göndərdilər və ondan kömək göstərilməsini xahiş etdilər. Mövcud olan məlumatlara görə, hələ bu müraciətdən əvvəl də Mir Mustafa xan öz nümayəndəsini V.Zubovun yanına göndərmişdi. Mir Mustafa xan rus qoşunları baş komandanından xahiş edirdi ki, xanlığın şimal hissəsinə rus qoşun dəstəsi göndərilsin. Belə bir qoşun dəstəsinin göndəriləcəyi təqdirdə onun təminat məsələlərinin xanlıq tərəfindən həll ediləcəyi  də vəd edilirdi (197).

Ağa Məhəmməd şah Qacarın hücum təhlükəsinın mümkünlüyü V.Zubovu məcbur etdi ki, müvafiq addımlar atsın. Bununla bağlı o, kontr-admiral Fyodorova göstəriş verdi ki, göyərtəsində desant yerləşdirilmiş bir neçə gəmi ilə Xəzər sahili boyunca cənuba, Salyan və Lənkəran istiqamətinə hərəkət etsin və Lənkəran xanlığı üçün ehtimal olunan təhlükənin sovuş-durulmasına nail olsun.

Bir müddətdən sonra admiral Fyodorov belə bir dəstəni hazırladı. Bu dəstəyə Vladimir alayının bir bölüyü, Qara dəniz kazaklarından 200 nəfər və 2 ədəd top daxil idi Dəstəyə briqadir Qolovatıy rəhbərlik etməli idi. Lakin bu vaxt admiral Fyodorovun sərəncamında yetərincə gəmi yox idi ki, bu dəstəni Lənkərana göndərsin. Belə olanda o, Mir Mustafa xana xəbər göndə-rildi ki, sərəncamında olan üzən vasitələri dəstəni aparmaq üçün Bakıya göndərsin. Admiral Fyodorov Lənkəran xanından eyni zamanda tələb etdi ki, rus qoşun dəstəsinin təhlükəsizliyinin zəmanəti kimi öz yaxın adamlarından birini girov yollasın. Mir Mustafa xan əvvəlcə bu təkliflə razılaşdı, sonra isə girov göndərməkdən imtina etdi. Bunun ardınca da ümumiyyətlə, Bakıya üzən vasitələr göndərməkdən, rus qoşun dəstəsinin köməyindən yararlanmaqdan imtina etdi. Görünür, Mir Mustafa xanın belə qərar qəbul etməsi Qacar qoşunlarının Azərbaycana gəlməsinin ləngiməsi ilə bağlı idi. Sonradan Qacar qoşunlarının Azərbaycan xanlıqları üzərinə

hücumu barəsində söz-söhbətlər artanda Mir Mustafa xan yenidən ruslardan kömək istədi (198).

Bütün Azərbaycan xanlarını Ağa Məhəmməd şah Qacarın növbəti hücumuna qarşı birləşdirmək və səfərbər etmək Rusiya sarayı üçün əhəmiyyət kəsb edirdi. Bununla, Ağa Məhəmməd şah Qacarın hücumunun qarşısını almaq üçün təsirli bir addım atmaq olardı. Elə buna görə idi ki, V.Zubova qarşı sui-qəsd təşkil etməkdə şübhəli bilinən Şamaxı xanlı Mustafa xana qarşı sərt tədbirlər həyata keçirilmirdi. Əksinə, V.Zubov Mustafa xana məktub göndərdi və onu yenidən Rusiyaya tərəf çəkməyə çalışdı. Rus qoşunları baş komandanı yaranmış münasibətlərin pozulmasını xan üçün faydalı saymır və onu Rusiya çariçasına sədaqətli qalmağa çağırırdı. Tarixçilərin qeydinə görə, Mustafa xanın rus qoşunları tərəfindən xatircəm edilməsi üçün mayor Kaçkayev onun yanına göndərildi və xandan xahiş olundu ki, mayor Kaçkayevin tövsiyələrinə əməl etsin. Mayor Kaçkayev Şamaxıya gələndə rus qoşunları baş komandanının tapşırığı əsasında Mustafa xana kiçik qardaşını girov kimi rus qoşunlarının düşərgəsinə göndərməli olduğunu dedi. Mustafa xan bu tələbi yerinə yetirmədi. Çünki onun artıq rus generallarına etibarı qalmamışdı. Ona görə də Mustafa xan bildirdi ki, digər rus generallarından biri ilə və ya erməni arxiyepiskopu ilə Şamaxıdan kənar bir yerdə görüşməyə hazırdır. V.Zubov bu təklifi qəbul etməli oldu və erməni arxiyepiskopu İ.Arqutinskinin yenidən Mustafa xanla görüşməsinə razı oldu. Həmin görüş zamanı erməni arxiyepiskopu V.Zubovun Mustafa xanla görüşmək və onunla əvvəlki dostluq münasibətlərini bərpa etmək arzusunda olduğunu söylədi. Eyni zamanda Mustafa xana çatdırıldı ki, o əvvəlki kimi Rusiya himayəsində olduğunu bilməlidir və V.Zubovun yardımlarına yenə də bel bağlaya bilər. Mustafa xan isə bu deyilənlərə cavab olaraq bir daha Rusiya taxt-tacına sədaqətli olduğunu bəyan etdi. Bununla belə, o, rus qoşunları düşərgəsinə getməkdən imtina etdi (199).

Amma eyni zamanda Mustafa xan rus qoşunları baş komandanı V.Zubovla əlaqələrini də kəsmədi. İki tərəfdən mövcud olan ciddi təhlükənin kəsişməsində qalması Mustafa xandan da müvafiq məcburi siyasət yeridilməsini tələb edirdi. Mustafa xan rus qoşunları baş komandanının tələblərini qəbul etmirdi. Eyni zamanda rus qoşunlarını yaxınlaşmaqda olan Ağa Məhəmməd şah təhlükəsinin aradan qaldırılması üçün real qüvvə kimi dəyərləndirirdi. O, xanlığın müstəqilliyini Rusiya siyasətinə qurban vermək istəmirdi. Amma Qacar hücumunun qarşısının alınması üçün də rus qoşunlarının köməyinə ümid etməkdən başqa seçimi yox idi. Ona görə Mustafa xan 1796-cı il sentyabr ayının sonlarında V.Zubova məktub göndərdi və Qacar qoşunlarının hücuma hazırlaşması

barəsində onu xəbərdar etdi. V.Zubov cavab məktubunda Mustafa xanın bu xəbərdarlığını onun Rusiya taxt-tacına qarşı səmimi münasibətinin nişanəsi kimi dəyərləndirsə də, əslində bu xəbərdarlıq Şamaxı xanlığının müstəqilliyinin qorunması, yaranan narahatçılığın sovuşdurulması, Qacar təhlükəsinin aradan qaldırılması üçün səmərəli vasitə tapılması istəyinin ifadəsi idi.

Valerian Zubov Şamaxı xanına göndərdiyi məktubunu pafoslu sözlərlə davam etdirir və bəyan edirdi ki, Ağa Məhəmməd şah Qacarın qoşunlarının yaxınlaşması xəbəri onun sevincinə səbəb olmuşdur. Çünki Qacar qoşunlarının yaxınlaşması onu Qacar qoşunlarını axtarmaq kimi bir əziyyətdən xilas edə bilərdi. V.Zubov hətta onu da yazırdı ki, Qacar qoşunlarının yaxınlaşması onun da missiyasının sona yaxınlaşmasıdır. O, arxayınçılıqla bildirirdi ki, Qacar qoşunlarına qəlbə çalması ilə onun da işləri başa çatacaqdır. Rus qoşunları baş komandanı qoşunların Kür çayını adlamaq vaxtının çatdığını söyləyir və Azərbaycan xanlarını da onun ətrafında birləşməyə çağırırdı. O, Azərbaycan xanlarının qoşunları ilə birləşərək Qacar ərazilərinə keçməyi və orada ümumi düşmən adlandırdığı Ağa Məhəmməd şahı zərərsizləşdirməyi arzulayırdı. Ağa Məhəmməd xan tərəfindən Şamaxının dağıdılmasını, Şamaxı əhalisinə divan tutulmasını xatırladaraq V.Zubov öz əminliyini bildirirdi ki, Mustafa xan da qisas almağa qalxacaq və öz gücünü rusların gücü ilə birləşdirəcəkdir. Onun fikrincə, Azərbaycan xanlarının hamısı zalım və hiyləgər Qacar şahının əleyhinə qalxmalı idilər. V.Zubov öz məktubunda Mustafa xanı Rusiyanın himayəsinə sığınmağa çağırmağı da yaddan çıxarmırdı. Bununla bağlı qeyd edirdi ki, Rusiya himayəsinə sığınmaq təhlükəsizlik və qayğısız həyat üçün ən yaxşı zəmindir. Sözlərinin təsdiqi kimi o, Ağa Məhəmməd şahın qardaşı Murtuzqulu xanı nümunə gətirirdi. Onun sözlərinə görə, Murtuzqulu xan qardaşı Ağa Məhəmmməd xanln yanında tapa bilmədiyi arxayın həyatı Rusiyada tapmışdı. Bu həyatı ona təmin edən Rusiya çariçasının ünvanına da xeyli tərifli sözlər yazılmışdı. V.Zubov rus qoşunları ilə Şamaxı xanlığı ərazisində olarkən xanlığın əhalisinə narahatçılıq yaradılmamasına çalışdığını söyləyirdi. Məktubunun sonunda V.Zubov Şamaxı xanını da qoşunları ilə birlikdə ona qoşulmağa çağırırdı (200).

Ağa Məhəmməd xanın Cənubi Qafqaz üzərinə yeni yürüşə hazırlaşması xəbəri İbrahim xanın da nigarançılığına səbəb oldu. Ona gizli deyildi ki, Qacar xanının Şuşa qalası ilə xüsusi haqq-hesabı var idi və növbəti yürüşü zamanı Ağa Məhəmməd xan Şuşa qalasının işğalına bir daha cəhd göstərəcəkdir. Bu nigarançılığı aradan qaldırmaq üçün İbrahim xan V.Zubova məktub yazdı. Qarabağ xanı xahiş edirdi ki, V.Zubov Şuşa qalasının möhkəmləndirilməsinə diqqət yetirsin və Ağa Məhəmməd xanın

yürüşlərinin qarşısının alınması üçün Arazın cənubuna qoşun yeridilsin. İbrahim xana görə, rus qüvvələri Mazandarana və Astrabada çıxarılsaydı Ağa Məhəmməd xanın toplanmaqda olan qoşunlarına güclü zərbə endirmək mümkün olardı (201).

İstər Azərbaycan xanları, istərsə də rus qoşunları komandanlığı Ağa Məhəmməd şahın növbəti hücum təhlükəsinin nigarançılıqlarını yaşadıqları bir vaxtda rus qoşunları başqa bir təhlükə ilə rastlaşmalı oldular. Bu da Quba xanı Şeyxəli xanın rus qoşunları üçün yaratdığı təhlükə idi. Şeyxəli xan azadlıqda olduğu dövr ərzində rus qoşunları üçün təhlükə törədir və onun zərərsizləşdirilməsi üçün göstərilən cəhdlər də bir nəticə vermirdi. Sentyabr ayının 22-də Şeyxəli xanın Qazıqumıq xanı Surxay xanla birlikdə Qubadakı rus qarnizonuna zərbə endirəcəyi haqqında məlumat alındı. Şeyxəli xan tərəfindən ehtimal olunan təhlükənin qarşısının alınması üçün Qubada olan rus qarnizonunun möhkəmləndirilməsi qərara alındı. General-mayor Sisianovun gətirdiyi qüvvələrdən Pavloqrad yüngül atlı alayı, Don kazak alayı, yeger taboru, Kazan alayının iki bölüyü Quba qarnizonunun gücləndirilməsinə göndərildi (202).

Yuxarıda qeyd edildiyi kimi, Şəki xanlığından ayrılandan sonra Şeyxəli xan Samur çayının yuxarılarında məskunlaşdı. Burada olarkən Şeyxəli xan Qazıqumıq xanı Surxay xanı da rus qoşunlarına qarşı mübarizə aparmaq üçün öz tərəfinə çəkə bildi. Rus tarixçisi N.Dubrovin Şeyxəli xanın fəallaşmasını onun qardaşı Həsən xanın V.Zubov tərəfindən Quba xanlığına gətirilməsinə narazı olması ilə bağlayırdı. Məlumdur ki, Şeyxəli xanın uzaqlaşmasından sonra xanlığın idarəçiliyində bir boşluq yarandı və bu boşluğun aradan qaldırılması üçün V.Zubov Həsən xanı Quba xanı etməyi qərara aldı. Bununla V.Zubov bir tərəfdən xanlıq daxili idarəçiliyin nizamlanmasına çalışırdısa, bir tərəfdən də Şeyxəli xanın tərəfdarlarını sakitləşdirərək onun qardaşının ətrafında birləşdirmək istəyirdi(203).

Şeyxəli xanın rus qoşunlarına qarşı mübarizəsinə Quba və Qazıqumıq əhalisindən əlavə car-balakənlilər və tabasaranlılar, akuşalılar, rutullar və başqaları da qoşuldular. Tarixi ədəbiyyatda Şeyxəli xanın rəhbərliyi altında 10 min, 15 min silahlı toplanması haqqında məlumatlar vardır (204). Bu onu göstərir ki, rus işğalına qarşı mübarizə geniş ictimai miqyas almışdı. Doğrudur, rus qoşunlarına Dağıstan xalqları və Quba əhalisi arasında mübarizənin genişlənməsində Osmanlı Türkiyəsinin də müəyyən rol oynaması haqqında tarixi ədəbiyyatda çoxlu məlumatlar mövcuddur. Məlumdur ki, Osmanlı dövləti Rusiyanın Qafqazdakı işğalçılıq siyasətinə qarşı biganə deyildi və bu işğala qarşı mübarizə aparırdı. Bununla belə, yerli xalqların işğala qarşı təşkilatlanmasında Şeyxəli xanın rolu da inkaredilməzdir. Rus tarixçiləri də etiraf edirlər ki, Şamaxı xanı Mustafa xanla Şəki xanı Səlim

xanın da rus işğalına qarşı mübarizəyə cəlb olunmasında Şeyxəli xanın rolu var idi. Quba xanı Surxay xan vasitəsilə Şəki və Şamaxı xanları ilə əlaqəyə girmiş və onlardan ruslara qarşı yardım istəmişdi. Mustafa xan vəd etmişdi ki, əgər Surxay xan ruslara qarşı çıxarsa o da bu mübarizədən kənarda qalmayacaqdır. Səlim xan da Surxay xana eyni vədi vermişdi (210).

Mövcud olan məlumatlara görə, Şeyxəli xanın və Surxay xanın rəhbərliyi altında rus işğalına qarşı qoşun toplanması rus komandanlığına da məlum idi. Bu hücumun qarşısının alınması üçün müəyyən hazırlıq işləri aparılırdı. Çox güman ki, V.Zubov qoşunların əsas hissəsini geri qaytarmaq istəmirdi. Belə bir manevrin edilməsi üçün yetərincə vaxt yox idi. Digər tərəfdən də Zubov yəqin ki, qoşunları əsas vəzifənin icrasından ayırmaq istəmirdi.

Bununla belə, qrav V.Zubov general Bulqakova göstəriş verdi ki, 2 min nəfərdən ibarət olan Quba atlılarını özünə birləşdirsin və Samur çayı sahillərində mövqe tutsun. Dağlarda toplanmış olan qoşunların hücum edəcəyi təqdirdə onların qarşısının alınması üçün ilkin olaraq qubalılar irəli çıxarılmalı idi (211).

Tədqiqatçıların fikrincə, rus qoşunlarına qarşı döyüşün Alpan kəndi yaxınlığında planlaşdırılması da təsadüfi deyildi. Bu kənd Qusar və Qudyal çayları arasında yerləşirdi. Sıx meşəlik, dar dağ keçidləri burada əlverişli döyüş mövqelərinin seçilməsinə kömək edə bilərdi. Rus qoşunlarını coğrafi şəraiti müdafiə üçün əlverişli olan əraziyə cəlb etməklə onların üzərinə təsirli hücum təşkil etmək olardı.

Sentyabr ayının 26-da artıq Qubadakı rus hərbçilərinin üzərinə hücumla bağlı məlumat alındı. Həmin gün Quba yaxınlığındakı dəyirmanlardan birində olan 4 rus əsgərinin üzərinə hücum oldu və onlardan biri yaralandı (212).

Sentyabr ayının 29-da rus hərbçilərinin üzərinə hücum təkrar oldu. Həmin gün bir qrup rus hərbçisi Samur çayı ətrafındakı kəndlərdə qoşunlar üçün ərzaq tədarükü ilə məşğul idi. Ruslar lazım olan ərzağı toplayıb arabalara yüklədilər. Şeyxəli xanın və Surxay xanın dəstəsinin hücum xəbəri alınanda yüklənmiş arabalar Xudat kəndinə yola salındı. Rus dəstəsinin rəhbəri bir neçə kazakla kənddə qalmaq istədi. Amma bu onlara müyəssər olmadı. Onlar hücum edənlər tərəfindən əsir götürüldülər. Şeyxəli xanın və Surxay xanın silahlıları sonra ruslar üçün ərzaq daşıyan arabaların üzərinə hücum etdilər. Bu hücum zamanı iki rus hərbçisi öldürüldü və 40 cüt heyvan ələ keçirildi (213).

Başqa bir tarixi ədəbiyyatda ələ keçirilən yük heyvanlarının sayının daha çox olduğu bildirilir. Şeyxəlli xan və Surxay xanın silahlıları yalnız bu qənimətlərlə kifayətlənmədilər və sonrakı gün xanların silahlıları yenidən

rus hərbçiləri üzərinə hücum etdilər. Xan silahlıları əvvəlcə ruslara məxsus olan yük heyvanlarının yeni bir dəstəsini qovub apardılar. Bu heyvanlar olmadan rusların təchizat və daşıma məsələləri xeyli çətinləşə bilərdi. Ruslara məxsus olan yük heyvanlarının aparıldığı yeri nəzərdən keçirmək üçün bir kapitanın rəhbərliyi altında həmin məntəqəyə 100 nəfərlik yeger göndərildi. Göndərilən dəstə təyinat yerinə çatanda qarşı tərəfin güclü atəşləri ilə qarşılaşdı. Rus dəstəsi geri çəkildi və güclü müqavimətin olması haqqında general Bulqakova məlumat çatdırıldı. General Bulqakov da pod-polkovnik Bakuninin rəhbərliyi altında hücuma məruz qalmış rusların köməyinə 110 nəfərlik dəstə göndərdi. Sonradan həmin məntəqəyə bir topun müşayiəti ilə 100 nəfərlik əlavə bir qrenadyor dəstəsi göndərildi (214).

Tarixi ədəbiyyatda bu hadisə ilə bağlı fərqli məlumatlar da mövcuddur. Bildirilir ki, dağlıların hücum edəcəyi haqqında ruslar məlumat almışdılar və bununla bağlı general Savelyev general Bulqakova xəbər göndərmişdi. Güman edilirdi ki, dağlılar Dərbənddə olan rus qarnizonunun üstünə hücum edəcəklər. Bu təhlükənin aradan qaldırılması üçün general Bulqakov kapitan Semyonovun rəhbərliyi altında 100 nəfərlik bir yeger dəs-təsini dağlıların gələ biləcəyi istiqamətə göndərdi. Yegerlər dəstəsi o zaman irəli göndərildi ki, Şeyxəli xanın silahlıları da Alpan kəndinə doğru irəliləyərək Quba düzənliyinə aparan yolun ensiz dağ keçidini ələ keçirdilər. Kapitan Semyonov Alpan kəndinə yaxınlaşanda ora dağlı qoşunlarının toplanmasından xəbər tutdu. O, ixtiyarında olan dəstə ilə dağlılara qarşı ciddi müqavimət göstərə bilməyəcəyini anlayıb əlavə kömək üçün general Bulqakovun yanına adam göndərdi. General Bulqakov da podpolkovnik Ba-kuninin rəhbərliyi altında Alpan kəndinə əlavə hərbi qüvvə göndərdi. Bu hərbi qüvvəyə 200 nəfər yeger, 100 nəfər qrenadyor, 100 nəfər kazak və 2 ədəd top daxil idi (215).

Oktyabr ayının 1-də podpolkovnik Bakuninin dəstəsi Alpan kəndinə yaxınlaşdı. Mövcud məlumatlara görə, Şeyxəli xan əvvəlcə ruslara qarşı kiçik bir dəstə göndərdi və döyüşə başlamaqla rus hərbçilərinin diqqətini özünə cəlb etdi. Rus tarixçilərinin verdiyi məlumata görə, bu zaman Şeyxəli xanın ətrafında olan dəstə dağ ətəklərində olan çökəklikdə gizlənmişdi. Onların sayının 10-15 min arasında olduğu göstərilir. Rus qoşunları bu çökəkliyə yaxınlaşanda Şeyxəli xanın qoşunları böyük bir sürətlə onların üstünə şığıdılar. Ruslar gözləmədikləri bir atəşin əhatəsində qaldılar. Dağlıların hücumu elə bir sürətlə baş verdi ki, ruslar toplardan atəş açmağa macal tapmadılar və onlar Şeyxəli xanın silahlıları tərəfindən ələ keçirildilər. Bununla da ruslar özlərinin əsas zərbə vasitəsini itirmiş oldular. Mühasirəyə düşmüş ruslar Şeyxəli xanın silahlılarının zərbəsi altında qaldılar. Xopyor alayından poruçik Mironovun rəhbərliyi altında irəliyə göndərilmiş dəstə

atışma səsini eşidəndə geri qayıtdı. Amma Şeyxəli xan silahlılarının ruslara qarşı yaratdığı sıx mühasirə poruçik Mironovun gözünü qorxutdu və o yaxınlaşmağa cürət etmədi. O, ətrafındakı kazaklarla kolluqlarda gözləməli oldu. Mühasirəyə düşmüş ruslar isə Şeyxəli xanın silahlılarına qarşı ciddi müqavimət göstərə bilmədilər və onlar kütləvi şəkildə Şeyxəli xanın silahlılarının güllələrinin qurbanı oldular. Podpolkovnik Bakunin, kapitan Semyonov və rus zabitlərinin əksəriyyəti həyatlarını itirməli oldular. Qalanları isə az-çox münasib müdafiə mövqeləri seçərək canlarını qorumağa çalışdılar. Podpolkovnik Bakunin həyatını itirəndən əvvəl bir neçə kazak kömək üçün general Bulqakovun yanına göndərildi. General Bulqakov da dərhal polkovnik Stoyanovun rəhbərliyi altında Uqliç piyada alayını və 4 ədəd topu Alpan kəndinə doğru göndərdi. Polkovnik Stoyanov isə hələ Alpan kəndinə çatmamış toplardan atəş açmağa başladı. Şeyxəli xanın qüvvələri rus toplarının işə düşməsini və əlavə rus alayının yaxınlaşmasını görüncə döyüş meydanını tərk etdi və geri çəkildi. Bununla belə, ruslar ağır məğlubiyyətə uğradılar və Azərbaycan xanlıqları üzərinə hücum dövründə ilk dəfə belə ciddi itkilərlə rastlaşdılar. Tarixi mənbədə öldürülən rus zabitlərinin sayının 20-yə yaxın olduğu göstərilir. P.Butkovun və N.Dubrovinin əsərində isə öldürülən rus zabitlərinin sayı xeyli az göstərilir. N.Dubrovin öldürülən rus əsgərlərinin sayını da çox az göstərir. Digər məlumatlarda isə öldürülən rus əsgərlərinin sayının 240-245 arasında olduğu bildirilir (216).

Şeyxəli xanın və xanbutay Surxay xanın birləşmiş qoşun dəstəsi geri çəkiləndən sonra Alpan əhalisi də rusların toplarından qorxaraq kəndi tərk etdilər. Ruslar kəndə daxil olub talamağa başladılar, əllərinə keçən yem və azuqəni də özləri ilə apardılar. Kənd ətrafında baş verən hadisələr haqqında məlumatlar poruçik Mironov vasitəsilə general Zubova çatdırıldı. Bu məlumat general Zubovda ağır təəssürat yaratdı. Bunun nəticəsi idi ki, rus qoşunlarının əsas qüvvəsi Şamaxı ətrafında daha 6 həftə gözləməli oldu. Şeyxəli xan və Surxay xanın cəzalandırılması üçün isə V.Zubov onların ardınca qoşun göndərməyə cəsarət etmədi. O şübhə etmirdi ki, göndərdiyi qoşun dəstəsi də dağlarda toplanan silahlılar tərəfindən məhv ediləcəkdir. Ona görə V.Zubov Rusiya təbəəliyini qəbul etdiklərini deyən Tərki şamxalına, Tabasaran hakiminə və Qaraqaytaq hakiminə məktub göndərdi və onları birlikdə Surxay xana qarşı hücum etməyə çağırdı. Onların bu hücumu general Bulqakovun dəstəsi tərəfindən dəstəklənməli idi. Lakin V.Zubovun bu niyyəti baş tutmadı. Adları çəkilən hakimlər Şeyxəlli xanla birlikdə ruslar üzərinə hücum edən Surxay xana qarşı çıxmaqdan imtina etdilər (217).

Əksinə, rus tarixçilərinin yazdığı kimi, Surxay xanın bölgədə nüfuzu daha da artdı. Rus qoşunlarına qarşı mübarizəni davam etdirmək üçün o,

avar, akuşin və digər xalqların hakimləri ilə məsləhətləşmələri artırdı. Bu xalqların nümayəndələri gələcək mübarizələrini əlaqələndirmək üçün öz nümayəndələrini Surxay xanın yanına göndərdilər. Bununla da Surxay xan öz ətrafına yeni silahlı dəstələr toplamağa müvəffəq oldu. Yeni təhlükənin qarşısının alınması üçün V.Zubov arxada qalan qüvvələrin möhkəmləndirilməsinə diqqəti artırdı. Dərbənd qalasının Narınqala hissəsi rusların nəzarəti altına alındı, qalanın müdafiəsi möhkəmləndirildi, general Bulqakovun sərəncamına polkovnik Drusovun rəhbərliyi altında Ostroqona yüngül atlı alayı verildi (218).

Digər tərəfdən də Quba xanlığının idarəçiliyini daha etibarlı adamlarla gücləndirilməsi məsələsi ortaya gətirildi. Ruslara qarşı barışmaz mövqe tutan Şeyxəli xanın yerinə qardaşı Həsən xanın gətirilməsi məqsədəuyğun bilindi. Həsən xanın Qubaya dəvət olunması üçün İlisuya xüsusi nümayəndə heyəti göndərildi. Bu heyətin tərkibində Dərbəndin və Qubanın hörmətli adamları var idi (219). Başqa bir məlumata görə isə, Şeyxəli xanın Dərbənddə olan bacısı Pəricahan xanım V.Zubovun dəvəti əsasında Qubaya gəldi və buradan qardaşı Həsən xana məktub göndərərərk onu Qubaya dəvət etdi. Oktyabr ayının 17-də Həsən xan bu dəvəti qəbul edərək Qubaya gəldi. Onun qarşılanması üçün Ostroqona alayı şəhər kənarına göndərildi. Həsən xanın gəlişi şəhər əhalisinin nümayəndələri tərəfindən də sevinclə qarşılandı. Həsən xan general Bulqakov tərəfindən qəbul edildi və onun şərəfinə musiqi səsləndirilməklə bərabər, 16 top atəşi açıldı (220).

Tarixi mənbələrdə olan məlumatlara görə oktyabr ayının 27-də Həsən xan Quba xanı elan edildi. Bununla bağlı xüsusi mərasim oldu. Bu mərasimin əsas elementləri rus qoşun dəstələri idi. Kazak alaylarının hər birindən 500 kazak mərasim meydanına gətirildi. Uqliç alayından 500 nəfər, 50 nəfər yeger, 120 nəfər draqun da mərasim meydanına gətirildi. Rus qoşun dəstələri yaxınları tərəfindən müşayiət olunan Həsən xanın sağ tərəfi ilə hərəkət edirdilər. General Bulqakov və onun nizami süvari dəstəsi isə bir sıra qərargah zabitləri ilə birlikdə Həsən xanın sol tərəfi ilə hərəkət edirdilər. Bütün mərasim iştirakçıları şəhərin girəcəyində dayanaraq dördbucaqlı dəstələrdə sıralandılar. Kazaklar isə ətrafda mühafizə zolağı yaratdılar. Şəhər əyanları, kəndlərdən toplanmış bəylər, yasovullar şəhərdən çıxıb mərasim iştirakçıları qarşısında dairə şəklində toplaşdılar. Bu dairənin ortasında dayanana ruhani şəxs xalqı Həsən xana sadiq olmağa and içdirdi. Bunun üçün onun oxuduqlarını ətrafına toplaşanlar təkrar etdilər. Bununla onlar Rusiyanın himayəsi altında Həsən xanın hakimiyyətini tanıdıqlarını bəyan etdilər və Həsən xan Quba xanı elan edildi. Bu mərasim şərəfinə rus hərbçiləri öz silahlarından yaylım atəşləri açdılar. Sonra da general

Bulqakov mühafizə dəstəsinin müşayiəti ilə onu V.Zubovun yanına yola saldı (221).

Bəzi tarixi ədəbiyyatda Həsən xanın noyabr ayının 3-də Quba xanı elan edildiyi bildirilir. Həsən xanın Qubaya gətirilməsi rusların gözlədiyi nəticəni vermədi. Quba xanlığında və ətrafında Həsən xanın xanlıq məqamına qaldırılması ilə rus işğalına qarşı narazılıqlar heç də səngimədi. Əksinə, Şeyxəli xan və Surxay xan ətrafında fəallaşma bir qədər də artdı. Quba xanlığının və ətraf mahalların əhalisi də Şeyxəli xana və Surxay xana öz dəstəklərini kəsmədilər. Bu narahatçılığın aradan qaldırılması üçün V.Zubov əməliyyat keçirmək, Şeyxəli xanla Surxay xanın dəstələrini Quba xanlığı ərazisindən uzaqlaşdırmaq qərarına gəldi (222).

V.Zubovun təşəbbüsü ilə planlaşdırılan bu əməliyyata kifayət qədər çar hərbi qüvvələri cəlb edildi. Əvvəlcə Həsən xana təklif edildi ki, silahlı dəstə toplasın və bu əməliyyatda iştirak etsin. Həsən xanın dəstəsi Dərbənddəki rus qarnizonu ilə birlikdə hərəkət etməli idi. General-mayor Savelyevə tapşırıldı ki, Dərbənddən Şeyxəli xanın və Surxay xanın dəstələrinin toplaşdığı istiqamətə irəliləsin. Onun dəstəsinin gücləndirilməsi üçün Qubada dayanan rus qarnizonundan Qafqaz qrenadyor alayının 2 alayı və 4 ədəd top Dərbəndə göndərildi. V.Zubov eyni zamanda Quba ətrafında dayanan rus qoşun dəstəsinin rəhbəri general Bulqakova tapşırıq göndərdi ki, 4 piyada taboru, 9 süvari eskadronu, 2 kazak alayı və bütün artilleriyası ilə Samur çayına doğru irəliləsin. Çayın sağ sahilində dayanmaqla general Bulqakov döyüşə girməyə hazır olduğunu nümayiş etdirməli, amma bu dəstə döyüşə girməməli idi. Əməliyyatı başlamaq ərəfəsində general Bulqakov Axtı kəndinin əhalisinə müraciət göndərdi, onları Şeyxəli xana yer verməməyə çağırdı. Əks təqdirdə, general Bulqakov kənd əhlinə divan tutacağını bəyan etdi (225).

Bir qədər irəliyə gedərək qeyd etmək lazımdır ki, Şeyxəli xanın zərərsizləşdirilməsi ilə bağlı keçirilən əməliyyat 1796-cı il dekabr ayının əvvəllərinə təsadüf edirdi. Tarixi mənbələrdə bildirilirdi ki, bu əməliyyat ərəfəsində Şeyxəli xanın ətrafında onun kifayət qədər tərəfdarları var idi. Mövcud məlumatlara görə, general Bulqakov bu əməliyyat zamanı yalnız müşahidə rolunda qalmadı. O, xopyor kazak alayını, bir yeger taborunu alıb Xudat kəndinə doğru irəlilədi. Həsən xanın topladığı 2 min nəfərlik dəstə də ona qoşuldu. General-mayor Savelyev isə sərəncamında olan dəstə ilə Dərbəndə hərəkətə başladı. Rus dəstələrinin iki istiqamətdən böyük qüvvə ilə irəliləməsi Surxay xanı müqavimət fikrindən daşınmağa sövq etdi və sülh bağlanması üçün öz nümayəndəsini rus generallarının yanına göndərdi. Rus generalları isə onun qarşısına öz tələblərini qoydular. Bu tələblərə əsasən, Surxay xan daha Şeyxəli xanı Dərbənd xanı kimi tanımamalı, ona yardım

göstərməməli və sığınacaq verməməli, Həsən xanı Quba xanı kimi tanımalı, rus əsirlərini geri qaytarmalı, Qazıqumıq ərazisindən keçən ticarət yollarının təhlükəsizliyini təmin etməli və vədlərinə sədaqətli olacağı barədə qurana and içməli idi. Surxay xan bu tələbləri qəbul etdi və bundan sonra rus qoşunları öz düşərgələrinə geri qayıtdılar (224).

1796-cı il oktyabr ayının sonları və noyabr ayının əvvəlləri rus qoşunlarının əsas hissələri Pirsaat çayı yaxınlığındakı düşərgədə idi. Quba xanlığı ətrafında baş verən hadisələr V.Zubovun digər Azərbaycan xanlıqları üzərinə hücumunu bir müddət ləngitməli oldu. Bununla belə, Quba xanlığı ətrafında baş verənlər V. Zubova digər Azərbaycan xanlıqları üzərinə hücumdan çəkindirmədi. Azərbaycan xanlıqları üzərinə hücumun davam etdirilməsi iki istiqamətdə planlaşdırılırdı: Gəncə və Şamaxı istiqamətində. V.Zubov özü hərəkətə başlamazdan əvvəl Gəncə istiqamətində hərəkət edəcək dəstəsni formalaşdırdı və onu Gəncəyə doğru yola saldı. Gəncə istiqamətinə yollanan dəstəyə aşağıdakı hissə və bölmələr daxil idi: Kuban yeger korpusunun 2-ci taboru, qrenadyor taboru, Taqanroq draqun alayının 7 eskadronu, Pavloqrad yüngül atlı alayı, Kiryev kazak alayı, Orlov kazak alayı, 6 ədəd səhra topu. Say tərkibi 3 min nəfərdən artıq olan bu dəstənin komandiri general-mayor Rimski Korsakov təyin edildi. Bu dəstə əslində Gürcüstan istiqamətində hərəkət etməli və Gürcüstanda olan iki taboru da özünə birləşdirməli idi. Amma dəstənin marşrutu elə seçilmişdi ki, Mingəçevir yaxınlığında Kür çayını keçməklə Gəncə xanlığı Rusiya təbəəliyi altına gətirilməli və sonra da bu dəstə yoluna davam etməli idi (225).

General Rimski-Korsakovun rəhbərliyi altında olan dəstə Gəncə istiqamətində hərəkətə başlamazdan əvvəl V.Zubov tərəfindən xüsusi bir təlimat hazırlandı. Rimski-Korsakovun adına ünvanlanan həmin təlimatda Rusiya sarayının Azərbaycan xanlıqları ilə bağlı siyasətinin mahiyyəti bir daha açıqlanmışdı. V.Zubov bildirirdi ki, bizim xristian məzhəbimizin şərəfi tezliklə xristianların müsəlman zülmündən azad edilməsini tələb edir. Rus generalı etiraf edirdi ki, ona verilən tapşırıqların məqsədi xristianların möhkəm hakimiyyətinin bərpa edilməsi idi. Rimski-Korsakovun dəstəsinin vəzifələndirilməsi də həmin məqsəddən irəli gəlirdi. V.Zubov onu da bildirirdi ki, bölgədəki xristianlara soyuq münasibət göstərilməsi onlarda ruslara bağlanılan ümidi qıra bilər. Ona görə V.Zubov general Rimski-Korsakova da şəraitə uyğun siyasət qurmağı məsləhət görürdü. Bu siyasət rus işğalının mahiyyəti barədə müsəlmanlarda şübhə yaratmamalı və onları ruslara qarşı qaldırmamalı idisə, xristianlarda da ruslara bağlanan ümidləri gücləndirməli idi. Başqa sözlə, V.Zubov Azərbaycan xanlıqlarına qarşı istilaçı məqsədlə yanaşdığını etiraf edir, amma çalışırdı ki, azərbaycanlılar bu məsələdən duyuq düşməsinlər və ruslara qarşı kütləvi etiraz çıxışları

başlamasın. V.Zubovun nəzərincə müsəlmanlara və xristianlara qarşı müvafiq siyasətin həyata keçirilməsində erməni arxiyepiskopu İosif Arqutinski yardımçı ola bilərdi. Ona görə İ.Arqutinski də Rimcki-Korsakovun dəstəsinə verilirdi. Rus generalı əmin idi ki, erməni arxiyepiskopu Rusiya siyasətinin mahiyyətini Qarabağ ermənilərinə çatdıracaq, Qarabağ ermənilərinin Qarabağ qarşısında sakitləşməsinə imkan verməyəcək. R.Korsakovdan da tələb olunurdu ki, Qarabağ xristianları ilə təmasda olsun, münasib vaxt yetişdiyi zaman onların "azadlığa" çıxarılacağı haqqında əminlik yaratsın və bu ümidlərlə yaşayan xristianlar da Rusiya işi yolunda xidmət göstərməyə çalışsınlar (226).

V.Zubov gürcü çarlığı ilə münasibətlərin necə qurulması haqqında da general Rimski-Korsakova öz təlimatlarını verdi. Burada da Azərbaycan xanlıqları yaddan çıxarılmadı. Gürcü çarlığı ilə bağlı V.Zubov gürcülər arasında dağınıqlığa son qoyulmasını istəyirdi. Gürcü çarlığının möhkəmləndirilməsini isə V.Zubov İrəvan və Gəncə xanlıqlarının birləşdirilməsində görürdü. Xristian dövləti kimi gürcü çarlığının etibarına Rusiya sarayı daha çox güvənirdi. Bu xristian dövlətinin gücləndirilməsi və onun Rusiyanın daha möhkəm dayağına çevrilməsi üçün İrəvan və Gəncə xanlıqlarının gürcü çarlığına birləşdirilməsi Rusiyanın bölgədəki işğalçılıq siyasətinin tərkib hissəsi idi. Rus qoşunları baş komandanı V.Zubov dəstə rəhbəri Rimski-Korsakova bu planın icrası istiqamətində çalışmağı tapşırmaqla bərabər, həmin planın çox gizli saxlanılmasını da ondan tələb edirdi. Verilən tapşırığın lazımınca həyata keçirilməsi üçün Rimski-Korsakova məsləhət görülürdü ki, ətraf Azərbaycan xanlarından, habelə gürcü çarının özündən girov götürsün (227).

Müvafiq hazırlıq işləri görüləndən sonra general Rimski-Korsakovun dəstəsi oktyabr ayının 21-də Gəncəyə doğru istiqamət götürdü. Dəstənin marşrutu Şəki xanlığından keçməklə davam etməli, Mingəçevir yaxınlığında Kür çayı üzərindən keçid həyata keçirilməli və Gəncəyə doğru hərəkət davam etdirilməli idi (228).

General Rimski-Korsakovun dəstəsi yola salınandan sonra V.Zubovun rəhbərliyi altında olan əsas qüvvələr də 1796-cı il oktyabrın 20-də Yeni Şamaxıya doğru hərəkətə başladı. Kazak hissə və bölmələri qoşunların önündə irəliləyirdi. Bu hissələrə general-mayor Platov rəhbərlik edirdi. Rus qoşunlarının yaxınlaşması Şamaxı xanı Mustafa xanın vəziyyətini xeyli mürəkkəbləşdirdi. Müdafiə olunmaq imkanı zəif olan Mustafa xan Şamaxını tərk etmək məcburiyyətində qaldı. Şamaxı xanlığının əvvəlki xanı Qasım xan bu vəziyyətdən dərhal bəhrələndi. Mövcud məlumatlara görə, o dərhal V.Zubovla danışıqlara girdi və Rusiyaya sədaqətli qalacağını bəyan etdi.

V.Zubov da Şəki xanlığı ərazisində sığınacaq tapan Qasım xanı yanına dəvət etdi və onun xan elan olunmasına razılıq verdi.

Qasım xan noyabr ayının 2-də Şamaxı xanı elan edildi və bu hadisəyə təntənəli görüntü vermək üçün V.Zubov xüsusi bir mərasim də təşkil etdi. Mərasimdə bir neçə hərbi hissə iştirak edirdi. General V. Zubovun, Qasım xanın və mərasim iştirakçılarının qarşısında Mustafa xanın guya doğru olmayan hərəkətlərindən söz açıldı və onun yerinə Qasım xan təyin olunduğu bildirildi. Bundan sonra Qasım xan Qurana and içərək Rusiya imperiyasına sədaqətli olacağını bəyan etdi. Mərasimdə V.Zubov da çıxış etdi və bundan sonra Qasım xan V.Zubov tərəfindən bağışlanmış ata minərək Şamaxıya yollandı. Qasım xanın Şamaxıya doğru irəliləməsi top atəşləri ilə müşayiət olundu (229).

Bununla Şamaxı xanlığı Rusiya işğalı altına düşdü. Ona görə də V.Zubov Şamaxı ətrafında dayanmağa daha ehtiyac duymadı. Baş komandan qoşunların düşərgəsinin Kür çayı yaxınlığına köçürülməsini münasib bildi. Burada həm yem və azuqə ehtiyatları çox idi, həm də Həştərxandan, Bakı və Salyandan göndərilən yükləri burada asanlıqla qəbul etmək mümkün idi. Noyabr ayının 17-də Şamaxı ətrafında hərəkət edən Xəzər korpusu (əsas qüvvələr) noyabr ayının 21-də Kür çayının sol sahilinə çatdı və Cavad yaxınlığında düşərgə saldı. Qoşunların bir hissəsi isə general-mayor Platovun rəhbərliyi altında Kürün sağ sahilinə keçirildi (230).

Rus qoşunları Cavad istiqamətinə hərəkətə başlamazdan əvvəl, yəni 1796-cı il noyabr ayının 6-da Rusiya çariçası II Yekaterina dünyasını dəyişdi. Sabahısı gün Rusiya sarayından I Pavelin Rusiya imperatoru elan edilməsi, hərbi əməliyyatların dayandırılması və qoşunların münasib düşərgələrdə toplanması haqqında göstəriş göndərildi. Bu göstəriş V.Zubova bir aydan sonra, dekabr ayının əvvəllərində gəlib çatdı. Həmin göstərişə görə, V.Zubov da dəstəsi ilə geri qayıtmalı oldu. O öz vəzifəsindən azad edildiyi üçün general Qudoviç yenidən Qafqaz korpusunun komandiri təyin edildi. V.Zubovun sərəncamında olan hissələr geri qayıtdıqca general Qudoviçin tabeliyinə keçməli idilər (231).

Dekabr ayının əvvəllərində Rimski-Korsakovun rəhbərliyi altında olan qüvvələr isə Gəncəyə yaxınlaşmaqda idi. Çox güman ki, bu dəstənin II Yekaterinanın dünyasını dəyişməsindən və hərbi əməliyyatların dayandırılmasından xəbəri yox idi. Dekabr ayının 13-də Gəncə qalası rus qoşunlarının nəzarəti altına düşdü. Cavad xan qala darvazasının açarlarını general Rimski-Korsakova təqdim etdi və Rusiyaya sədaqətli olduğunu bəyan etdi (232).

Gürcü çarlığının möhkəmləndirilməsi üçün Rusiya İrəvan xanlığını da nəzarət altına almağı planlaşdırırdı. Ancaq rus qoşunlarının Azərbaycan

ərazilərində irəliləməsi Gəncə xanlığı ilə məhdudlandı. Əslində, rus qoşunlarının İrəvan xanlığı üzərinə hücumu Osmanlı dövlətinin qıcıqlandırılmaması üçün o qədər də mümkün hesab edilmirdi. V.Zubov çalışırdı ki, İrəvan xanlığı üzərində nəzarəti gürcü çarlığı vasitəsilə təmin etsin. Ona görə də V.Zubov gürcü çarını inandırmaq istəyirdi ki, İrəvan xanlığı üzərinə hücum etsin. Onun fikrincə, polkovnik Sıroxnevin rəhbərliyi altında olan rus qoşun dəstəsi Gürcüstanda olduğu vaxt II İrakli öz çarlığının təhlükəsizliyindən narahat olmadan İrəvan üzərinə hücum edə bilərdi. V.Zubov eyni zamanda əmin idi ki, gürcü qoşunlarının İrəvan xanlığı üzərinə hücumu zamanı Məhəmməd xan gürcü çarlığı ilə əvvəlki münasibətlərinin bərpasını Qacar hakimiyyəti altına düşməkdən üstün tutacaq ki, bu da çar İraklinin işini xeyli yaxşılaşdıracaqdır. Lakin Rusiyadakı hakimiyyət dəyişikliyi V.Zubova verilən tapşırıqların icrasını yarımçıq qoydu.

İmperator I Paveldən alınan sərəncama görə, V.Zubov öz xahişinə əsasən komandanlıqdan azad edildi və Azərbaycan ərazisindəki rus qoşunlarına müvəqqəti rəhbərlik general-leytenant Bulqakova tapşırıldı. V.Zubov Bakıdan gəmi ilə Həştərxana yollandı, qoşunların isə iki marşrutla Azərbaycan ərazisindən çıxarılması qərara alındı. Bir hissə general-mayor Raximovun rəhbərliyi altında Bakıdan başlamaqla quru yolla hərəkətini davam etdirməli idi. Digər hissə isə general Sisianovun rəhbərliyi altında Bakıdakı gəmilərlə yola düşməli idi (233).

Qafqaz korpusunun komandanı general Qudoviçin tapşırığı əsasında 1797-ci mart ayının 17-də Azərbaycan ərazisində olan yüksək rütbəli zabitlərin Hərbi Şurası təşkil edildi. Hərbi Şurada rus qoşunlarının Azərbaycan ərazisindən çıxarılması məsələsi müzakirə olundu. Burada qərara alındı ki, bütün qüvvələr Şabran ətrafında toplansın. Orada bir neçə günlük istirahətdən sonra Terekə doğru hərəkət başlansın. Mart ayının 19-da yenidən Hərbi Şura çağırıldı. Bu iclasda qoşunların Dərbəndə doğru hərəkəti zamanı təhlükəsizliyinin təmin edilməsi və bəzi təchizat məsələləri müzakirə edildi. İkinci Hərbi Şura çağırılan zaman qoşunların bir hissəsi artıq Şabran ətrafındakı düşərgəyə yetişmişdilər. Qalan hərbi hissələr də Kür çayı ətrafından hərəkətə başlamışdılar. Amma havaların soyuq keçməsi qoşunların hərəkətinə lənglik gətirirdi (234).

Tarixi mənbələrdə olan məlumatlara görə, rus qoşunlarının Azərbaycan ərazisini tərk etməsi may ayının sonlarına kimi davam etdi. V.Zubovun səlahiyyətlərini öz üzərinə götürmüş olan general-leytenant Bulqakovun əmrinə əsasən, quru ilə hərəkət edən qüvvələr üç dəstəyə bölündülər. General Platovun rəhbərliyi altında olan birinci dəstəyə Çuquyev alayı, iki yüngül eskadron, Don qoşunları komandası, kalmık

komandası, Voronej piyada alayının taboru daxil idi. İkinci dəstəyə general Raxmanov rəhbərlik edirdi. Dəstənin tərkibində Ostroqoj yüngül atlı alayı, kazak alayının taboru, kabardin taboru, 2 yeger taboru və birləşmiş qrenadyor taboru, Volqa kazak alayı, Yanov kazak alayının 200 kazakı, Qaradəniz kazak alayının 400 nəfəri və digər bir kazak alayı var idi. Üçüncü dəstə polkovnik Oleufyevin rəhbərliyi altında olmalı idi. Bu dəstənin tərkibində isə Həştərxan draqun alayı, Vladimir draqun alayı, Tiflis piyada alayı, qoşunların bütün artilleriyası, araba parkı. Qoşunların mühafizə hissə və bölmələri də üçüncü dəstənin tərkibində idi. Bura piyada taboru, Taqanroq alayının eskadronu, Qreben qoşunları, Xopyor kazak qoşunları, Don qoşun mühafizə komandası daxil idi (235).

May ayının 6-da bütün qoşunlar şimala doğru hərəkətə başladılar. May ayının 10-da rus qoşunları Samur çayını adladılar və mayın 15-də Dərbəndə yaxınlaşdılar. Bildirilir ki, yol boyu hərəkət zamanı rus qoşunları üzərinə hər hansı bir hücum baş vermədi. Amma Quba xanı elan edilən Həsən xan rus qoşunlarının xanlıq ərazisini tərk etməsindən sonra hakimiyyəti öz əlində saxlaya bilməyəcəyini və Şeyxəli xana müqavimət göstərilməsinin çətin olacağını hiss edib xanlıq ərazisini tərk etdi və anası ilə birlikdə Tərkiyə yollandı. Dərbənd nayibi Xıdır bəy də onun hərəkətini təkrar etdi. O da şəhəri tərk edib Tabasaran hakiminə pənah apardı. Yuxarıda qeyd edildiyi kimi, rus qoşunlarının Azərbaycan ərazisini tərk etməsi 1797-ci il may ayının sonlarına təsadüf edir. Rus qoşunları Quba xanlığı sərhədlərini tərk etmək üzrə olarkən artıq Ağa Məhəmməd şahın Azərbaycan xanlıqları üzərinə növbəti yürüşü başlamışdı.

Bununla da Azərbaycan xanlıqlarının işğal edilməsi üçün Rusiya sarayı tərəfindən başlanmış növbəti kampaniya başa çatdırıldı. Rus qoşunlarının çıxarılması ilə işğal olunmuş Azərbaycan xanlıqları yenidən azad oldular və öz müstəqilliklərinə qovuşdular. Amma işğalçı qoşunların Azərbaycan xanlıqları ərazisindən çıxarılması heç də Rusiyanın işğalçılıq siyasətindən əl çəkməsi demək deyildi. Hakimiyyətdə baş verən dəyişiklik dövlətin xarici siyasətindəki bəzi məsələlərə yenidən baxmağa sövq etsə də, Cənubi Qafqaz Rusiya üçün strateji bölgə olaraq qalmaqda idi. Ona görə də çox qısa zamandan sonra Cənubi Qafqazın işğal edilməsi Rusiya sarayının diqqət mərkəzinə gətirildi və bölgənin işğalının birdəfəlik başa çatdırılması üçün daha kəskin və təcavüzkar siyasətin həyata keçirilməsinə başlandı.

### *3. Ağa Məhəmməd şah Qacarın Azərbaycan xanlıqları üzərinə ikinci yürüşü*

Rus qoşunlarının geri çəkilməsi ilə Azərbaycan xanlıqları ərazisində sakitlik və dinclik heç də bərpa olunmadı, rus hərbi təhlükəsi sovuşmamış Azərbaycan xanlıqları üzərini yeni bir təhlükə, Qacar qoşunlarının hücum təhlükəsi aldı. Bu hücum ərəfəsində də Azərbaycan xanlıqları ayrı-ayrılıqda və nizamlanmamış şəkildə yeni təhlükə ilə üzbəüz gəldilər. İstər Qacar qoşunlarının ilk yürüşü, istərsə də rus qoşunlarının işğalçı yürüşü Azərbaycan xanlarında ümumi müqavimət dünyagörüşünü formalaşdıra bilmədi. Fərqli iddia və niyyətlər Azərbaycan xanlarına vahid cəbhədə birləşməyə imkan vermədi ki, nəticədə Azərbaycan xanlıqlarının işğalı üçün münasib şərait yarandı.

Ağa Məhəmməd şahın Azərbaycan xanlıqları üzərinə ikinci hücumunun motivləri barədə tarixi ədəbiyyatda və mənbələrdə bir-biri ilə uyğunlaşmayan nəzərlər öz əksini tapmışdır. Rus və sovet tarixi ədəbiyyatında bir qayda olaraq təkrarlanır ki, rus qoşunlarının Azərbaycanı tərk etməsi ilə Ağa Məhəmməd şah Qacarın əlinə Cənubi Qafqazın işğalı ilə bağlı yeni bir fürsət düşdü və bu fürsətdən də faydalandı. Farsdilli mənbələrdə isə əks mövqe öz ifadəsini tapmışdır. Farsdilli mənbələrə görə, rus qoşunlarının Azərbaycan xanlıqları ərazisinə çıxarılması Ağa Məhəmməd şahda sonsuz qəzəb hissləri yaratdı və dərhal da Azərbaycan xanlıqları üzərinə yürüşü həyata keçirmək üçün hazırlığa başladı.

Qeyd etmək lazımdır ki, bəzi farsdilli tarixi ədəbiyyatda İrəvan xanı Məhəmməd xanın Ağa Məhəmməd şah Qacara sədaqətli qaldığı bildirilir. Qeyd olunur ki, V.Zubovun rəhbərliyi altında rus qoşunları Qafqaza hücum edəndə Məhəmməd xan Təbriz xanı və bəzi digər xanlarla Ağa Məhəmməd şaha məktub göndərdilər və baş verənlər haqqında ona məlumat çatdırdılar (236). Həmin məktubda deyilirdi ki, Ağa Məhəmməd şah Tiflisə hücumu zamanı öldürülən rusların qisasının alınması üçün Rusiya sarayı Qafqaza böyük qoşun dəstəsi göndərib. Bu qoşun hissəsi də Qafqazın böyük hissəsini ələ keçirib.

Azərbaycan xanlıqlarının məktubu Ağa Məhəmməd şaha Xorasanda çatdırıldı. Xorasanı öz nəzarəti altına almaq üçün Ağa Məhəmməd şah ora qoşun çəkmişdi. O, tacqoyma mərasimindən sonra İmam Rzanın məqbərəsini ziyarət etmək adı ilə ora yollansa da, məqsədi bütün Xorasan vilayətini öz hakimiyyəti altına gətirmək idi. Mərkəzləşdirilmiş hakimiyyət yaratmağa başladığı anlardan Ağa Məhəmməd şah Xorasana üz tutmamışdı və bu vilayət Nadir şahın nəvəsi Şahrux Mirzə tərəfindən idarə olunurdu. Hətta Kərim xan Zənd də bir çox vilayətləri öz hakimiyyəti altına alsa da,

Xorasana qoşun çəkməmişdi (237). Mövcud olan məlumatları görə Nadir şahın əzəmətinə hörmət əlaməti olaraq Kərim xan Zənd onun sülaləsinin sonuncu nümayəndəsinin hakimiyyətinə xətər toxundurmaq istəmirdi.

Ağa Məhəmməd şah isə Nadir şahın nəslinə tamam başqa bir münasibət bəsləyirdi. O, Nadir şahın varislərinin hakimiyyətinə son qoymaqla bərabər, ondan qalan sərvətə də sahib çıxmaq istəyirdi. Bunun üçün də böyük qoşun dəstəsi ilə Xorasana yollandı. Nadir şahın varisləri arasındakı çəkişmələrdə kor edilmiş Şahrux Mirzə heç bir müqavimətə əl atmadan Ağa Məhəmməd şahın hüzuruna yollandı. Ağa Məhəmməd şah İmam Rza astanasında, çoxlarının qarşısında söz verdi ki, Şahrux Mirzənin həyatına toxunmayacaqdır. Amma Ağa Məhəmməd şah Nadir şahın sərvətinə yiyələnmək niyyətindən də əl çəkmədi. Şahrux Mirzə könüllü şəkildə buna razı olmadıqda onu incitməyə başladılar. Onu o qədər incitdilər ki, Nadir şahın qalan sərvətini də təhvil verməli oldu və sonra Mazandarana göndərilərkən yolda vəfat etdi (238).

Ağa Məhəmməd şah Xorasanı ələ keçirəndən sonra hələ Buxaraya da qoşun çəkmək istəyirdi. Amma rus qoşunlarının Qafqaza gəlməsi xəbəri onu bu plandan çəkindirdi. Cənubi Qafqazın əldən getməsinə son qoymaq üçün Ağa Məhəmməd şah dərhal ora qoşun çəkmək haqqında əmr verdi.

Mənbədə deyilirdi ki, Qızılayağın (V.Zubov nəzərdə tutulur – M.S.) Dərbəndə qoşun çıxarması xəbərini eşidən kimi Ağa Məhəmməd şah Qacar Tehrana gəldi və Azərbaycan üzərinə hücum hazırlığına başladı. Özünün vəliəhdi elan etdiyi Fətəli xanı yanına çağırdı, ölkənin idarə edilməsi ilə bağlı ona nəsihətlərini və vəsiyyətini etdi və bundan sonra Azərbaycana doğru üz tutdu (239).

Digər bir mənbədə isə deyilir ki, rus qoşunlarının hücum xəbərini eşidincə Ağa Məhəmməd şahın gözləri qaraldı, baxışlarındakı qığılcım atəşə çevrildi. Məhəmməd Vəli xan Qacarı Xorasan hakimi təyin etdi və onun sərəncamına 10 min nəfərlik qoşun dəstəsi verdi. Fətəli xan adlı digər bir sərkərdəsinə isə Məşhəd qalasının mühafizəsini və bərpasını tapşırdı. Sonra da Azərbaycan xanlıqları üzərinə yürüş həyata keçirmək məqsədi ilə Tehrana döndü. Həmin mənbə Ağa Məhəmməd şah Qacarın yaxınlarından birinə istinadən nəql edir ki, rus qoşunlarının hücumu ona çox təsir etmişdi. 1797-ci ilin qışının sonu, ya yazının əvvəlinin soyuq günlərinin birində Ağa Məhəmməd şah axşam üstü manqalının kənarında oturubmuş. O, fikirli halda manqal içində yanıb qızaran kömürləri o tərəf, bu tərəfə çevirirmiş. Bu vəziyyətdə xeyli vaxt keçirir. Birdən azan səsi eşidilir və bu vaxt Ağa Məhəmməd şah uca səslə deyir ki, ey qahir və qalib Allah, ya onu öldür, ya da məni. Ağa Məhəmməd şah "onu öldür " deyəndə Rusiya çariçasını

nəzərdə tuturmuş. Bu hadisədən bir neçə gün sonra Rusiya çariçasının dünyasını dəyişməsi haqqında məlumat alındı (240).

Lazımi hazırlıq işləri görüləndən sonra Ağa Məhəmməd şah Qacar 1797-ci ilin may ayında Tehrandan Azərbaycana doğru istiqamət götürdü. Qardaşı nəvəsi Abbas Mirzədən əlavə Məhəmmədqulu Mirzə, Hüseynqulu xan, Süleyman xan kimi sərkərdələr də şahla birlikdə yürüşdə iştirak edirdi (241). Ərdəbil istiqamətindən Qacar qoşunları Araz çayı yaxınlığına toplaşdılar.

Rus tarixçiləri mövzu ilə bağlı öz əsərlərində Ağa Məhəmməd şahın Cənubi Qafqaza yürüşü ərəfəsində Dağıstan hakimlərinə, gürcü çarına və Azərbaycan xanlarına məktub göndərməsini yazır və heç bir mənbəyə istinad etmədən həmin məktubların mətnini də çap ediblər. Ağa Məhəmməd şahın Dağıstan hakimlərinə göndərdiyi güman edilən məktubunda deyilirdi ki, Qacar qoşunları Xorasanda böyük uğurlar qazanmışdır və Qacar qoşunlarının bu uğurlarından çəkindiyi üçün ruslar tələm-tələsik geri dönməli olmuşlar. Ağa Məhəmməd şah öz məktubunda daha sonra əmin edirdi ki, ən yaxın zamanlarda Azərbaycanda olacaq və ona sadiq olanlara qayğı göstərməklə, düşmənlərini də ciddi cəzalandıracaqdır. Tələb olunurdu ki, şaha sadiq olanlar vəziyyət barədə onu məlumatlandırsınlar və belələri şahın qayğısına əmin olaraq dinc həyatlarını davam etdirsinlər (242).

Bildirilir ki, Ağa Məhəmməd şah qardaşı Əliqulu xanı İrəvan xanlığına yolladı. Buradan o, Ağa Məhəmməd şahın təhdid və xəbərdarlıq dolu məktubunu gürcü çarı İrakliyə göndərdi. Bu zaman güman edilirdi ki, Gürcüstanda artıq rus qoşun bölmələri qalmamışdır. Lakin ruslar hələ Gürcüstan ərazisini tərk etməmişdilər. Ağa Məhəmməd şahın göndərdiyi məktubda deyilirdi ki, ruslar heç vaxt döyüşgən xalq olmayıb, onların işi ticarətlə məşğul olmaq olmuşdur. Qeyd olunurdu ki, ruslar Fars sərhədini keçməyə cəhdlər göstərmişdilər. Lakin onlar ciddi zərbə alaraq geri qayıtmalı olmuşdular. Sonra da məktubda bildirilirdi ki, ruslarla əlbir olanların cəzalandırılması qərara alınmışdır. Ağa Məhəmməd şah gürcü çarına bu cəzadan nicat tapmaq üçün yenidən itaət göstərməyi təklif edirdi. Bunun üçün ya gürcü çarı Qacar şahının yanına gəlib itaətini bəyan etməli, ya da oğlanlarının birini girov kimi onun yanına göndərməli idi. Gürcü çarı bu məktuba cavab vermədi (243).

Ağa Məhəmməd şah öz fərmanları ilə Pəmbək və Borçalı əhalisinə yenidən İrəvan xanına tabe olmaları haqqında əmr verdi. Rus qoşunlarının gəlişindən sonra II İrakli bir daha bu mahallara qarşı iddia qaldırdı. Ağa Məhəmməd şah İrəvan xanı Məhəmməd xandan tələb etdi ki, 500 min manat xərc versin. Əks təqdirdə onu asılacağı ilə hədələdi. Məhəmməd xan tələb olunan məbləğin 200 min manatını dərhal verdi, qalan hissəsinin veril-

məsi üçün isə xəzinəsindəki qiymətli əşyaları satmalı oldu. Naxçıvan xanına qarşı isə Qacar şahı daha sərt qərar qəbul etdi və onun gözləri çıxarıldı.

Ağa Məhəmməd şahın yenidən Cənubi Qafqaz üzərinə yürüşə hazırlaşması Azərbaycan xanlarının, o cümlədən də Qarabağ xanı İbrahim xanın böyük təşvişinə səbəb oldu. Yürüşə ciddi hazırlıq görən və şahlıq daxilində kifayət qədər möhkəmlənən Ağa Məhəmməd şahın hücumunun qarşısını almağa kifayət qədər qüvvə Cənubi Qafqazda yox idi və Qacar qoşunlarının növbəti hücumu ağır nəticələrə yol aça bilərdi. Hücumu ərəfəsində Ağa Məhəmməd şah Azərbaycan xanlarına məktub göndərdi və onları tabe olmağa çağırdı. İbrahim xana isə Ağa Məhəmməd şah açıq hədələr göndərdi. Qacar şahı bildirirdi ki, İbrahim xan sağ qalmağını istəyirsə yaxşı olar ki, yerinə oğlunu təyin etsin və özü isə Məkkəyə ziyarətə yollansın (244).

Cənubi Qafqaza ilk yürüşü zamanı Şuşanı işğal edə bilmədiyi üçün Ağa Məhəmməd şahın İbrahim xana qarşı xüsusi qəzəbi var idi. V.Zubovun rəhbərliyi altında rus qoşunlarının Cənubi Qafqaza yürüşü zamanı İbrahim xanın könüllü şəkildə Rusiyanın himayəsini qəbul etməsi Ağa Məhəmməd şahın qəzəbini daha da artırmışdı və İbrahim xan yaxşı bilirdi ki, bu dəfəki yürüşü zamanı Ağa Məhəmməd şah onu cəzalandırmaq üçün bütün imkanlardan istifadə etməyə çalışacaqdır.

İbrahim xanı narahat edən yalnız Ağa Məhəmməd şahın böyük qoşun ilə onun üstünə gəlməsi deyildi. Xanlığın iqtisadi durumu əhalinin müdafiə imkanlarının səfərbərliyə alınmasına çətinlik yaradırdı. Mənbələrin veridi məlumatlara görə, Ağa Məhəmməd şahın ilk hücumu zamanı bölgəyə gətirdiyi talanlara üç il davam edən quraqlıq da əlavə olundu. Məhsul qıtlığına gətirən bu quraqlıq əhalinin dolanışıq vəziyyətini xeyli çətinləşdirdi, xanlıq ərazisində aclıq və səfaləti gücləndirdi. Buğdanın, arpanın və digər dənli bitkilərin qiyməti xeyli artdı. Həyatlarını xilas etmək üçün insanlar at, qatır və hətta uzunqulaq əti də yeməyə məcbur olurdu. Meşələrdəki palıd ağaclarının toxumu üyüdülərək ərzaq kimi istifadə edilirdi. Aclıqdan ölənlərin sayı artdı. Bu çətinlikdən yaxa qurtarmaq üçün insanlar digər xanlıqların ərazisində məskunlaşmağa çalışırdılar. Bu da öz növbəsində xanlığın müdafiə potensialını zəiflədirdi (245).

Mövcud olan bir məlumata görə, İbrahimxəlil xan 1797-ci ilin yazında böyük qoşunla Araz çayına yaxınlaşan Ağa Məhəmməd şaha müqavimət göstərməyə çalışdı. Əvvəlcə, İbrahim xan yenidən Xudafərin körpüsünün dağıdılmasına göstəriş verdi. Digər tərəfdən isə o, Araz çayı üzərində süni sədd yaradaraq çayın suyunu Ağa Məhəmməd şahın düşərgəsinə yönəltməyə nail oldu. Bunun nəticəsində Qacar qoşunlarının təchizatının xeyli hissəsini su apardı (246).

Bu yolla Qacar qoşunlarına bəzi itkilər yetirilsə də Ağa Məhəmməd şahın Cənubi Qafqaza hücum planlarının qarşısı alınmadı. Qacar təhlükəsinin qaçılmaz və real olduğunu görəndə İbrahim xan ailəsini, yaxınlarını, nökər və qulluqçularını, bir çox bəylərin ailələrini götürüb silahlı dəstənin müşayiəti ilə Car-Balakən istiqamətinə yollanmağı qərara aldı. İbrahim xanın kürəkənləri Nəsir xan və şəkili Səlim xan, Şahsevən və Şəki bəyləri onunla birlikdə hərəkət edirdilər. İbrahim xanın Şuşa qalasını tərk etmək xəbəri Ağa Məhəmməd şahın yenidən qəzəbinə səbəb oldu. Hələ Araz çayı kənarında olarkən şah iki min atlıdan ibarət bir dəstəni İbrahim xanın arxasınca göndərdi ki, onu tutub şahın yanına gətirsinlər. Görünür, Ağa Məhəmməd şah İbrahim xanın qalanı tərk etməsindən dərhal xəbər tutdu. Çünki İbrahim xan Şuşadan çox da uzaqlaşmamış, Tərtər çayının sahilində Ağa Məhəmməd şahın göndərdiyi dəstə tərəfindən haqlandı. Bu iki dəstə arasında döyüş baş verdi. Qacar dəstəsi İbrahim xanın dəstəsinin müqavimətini qıra bilməsə də, bu dəstəyə aid olan bir sıra əşyaları ələ keçirə bildi (247).

İbrahim xanın şimala çəkilməsindən sonra Ağa Məhəmməd şah güclü müqavimətə rast gəlmədən Şuşa qalasına daxil oldu. Mənbələrdə mövcud olan məlumatlara görə, Ağa Məhəmməd şah böyük bir dəbdəbə və təmtəraqla Şuşa qalasına daxil oldu, qalanın aşağı darvazasının yaxınlığında olan İbrahim xanın böyük oğlu Məhəmməd Həsən ağanın evində yerləşdi. Sonra da İbrahim xanla gedə bilməyən əyanların, xan qohumlarının və yaxınlarının tapılması və həbs olunması barəsində əmr verdi. Həbs olunanlar içərisində İbrahim xanın vəziri Molla Pənah Vaqif də var idi. Ağa Məhəmməd şah həbs etdirdiyi əyanların var-yoxunu əlindən alandan sonra hamısını edam etməyi planlaşdırırdı (248).

Ağa Məhəmməd şah hələ Şuşa qalasına çatmazdan əvvəl Naxçıvan xanlığını da nəzarət altına aldı. Onun göndərdiyi qoşun dəstələri Naxçıvan kəndlərini talan etdilər, Naxçıvan əhalisinin müəyyən hissəsini isə Arazdan cənuba köçürdülər. Qacar qoşunlarının Azərbaycana hücumu başlanan kimi Şeyxəli xan özünü yenidən Quba xanı elan etdi. Şamaxıda da rus qoşunları tərəfindən kənarlaşdırılmış olan Mustafa xan xanlığa bərpa olundu. Həm Şamaxı xanı, həm də Şəki xanı öz nümayəndələrini göndərməklə Ağa Məhəmməd şahın hakimiyyətini qəbul etdiklərini bildirdilər. Şeyxəli xanın isə əvvəldən də Qacarla əməkdaşlıq etmək meyli var idi. Qacar qoşunlarının birinci yürüşü zamanı Gəncə xanı Cavad xan Ağa Məhəmməd xanla yaxınlaşa bilsə də, ikinci yürüş zamanı o, Ağa Məhəmməd şahın qəzəbinə gəldi. Rus qoşunlarının hücumu zamanı Cavad xan tərəfindən Gəncə qapılarının rusların üzünə açılması Ağa Məhəmməd şahın qəzəbi ilə

qarşılaşmışdı. Buna görə də o, Cavad xanı həbs etdirdi (249). Cavad xan bir də Ağa Məhəmməd şah qətlə yetiriləndən sonra həbsdən azad edildi.

Ağa Məhəmməd şah Bakı xanı Hüseynqulu xana qarşı da sərt münasibət göstərdi. Şuşa şəhərinə çatandan sonra şah onu yanına dəvət etdi. Hüseynqulu xan şahın ilk dəvətindən imtina etdi. Sonradan qasid və qoşun dəstəsi göndəriləndə Hüseynqulu xan Şuşaya gəlməyə məcbur oldu. Hüseynqulu xan da həbs olundu, onun ailəsi isə əsir götürülərək Tehrana göndərildi (250).

Ruslarla əməkdaşlıq niyyətində olduğu üçün Lənkəran xanı Mir Mustafa xan da Qacar şahının qəzəbinə tuş gəldi. Hələ Şuşaya daxil olmamışdan əvvəl Ağa Məhəmməd şah Lənkəran istiqamətinə qoşun dəstəsi göndərdi. Bu qoşun dəstəsinə Süleyman xanla Hüseyn xanın rəhbərliyi altında Lənkəran xanlığı ərazisində talanlar apardı. Təhlükədən nicat tapmaq üçün Mir Mustafa xan əvvəlcə 200 nəfərlik ailə və yaxınlarını Sara adasına köçürdü. Bir müddət sonra isə özü də Sara adasına gəldi (251).

Mənbələrdə olan bəzi məlumatlara görə, Ağa Məhəmməd şah Qacar müqavimətlə rastlaşmadan Şuşa qalasına daxil olmasından çox sevindi və bununla bağlı bir sıra insanlara xan rütbəsi, bəzilərinə də qiymətli xələtlər bağışladı (252). Çünki Şuşanın alınması ona İbrahim xandan qisas almağa imkan verdiyi kimi, həm də Azərbaycan xanları üstünə uğurlu hücumun davam etdirilməsinə qapı açırdı. Bununla belə, Ağa Məhəmməd şah ona qarşı olanları cəzalandırmağı da yaddan çıxarmadı. Qarabağ xanlığının möhkəmləndirilməsi üçün İbrahim xanla əlbir olanlar, Rusiya və Osmanlıdan kömək almağa göndərilənlər, Ağa Məhəmməd şah qoşunlarına müqavimət göstərmək istəyənlər həbsxanalara dolduruldular. Şahın ifrat sərtliyi, qəzəbi Şuşada da davam etdi və əslində bu sərtlik Ağa Məhəmməd şahın özünün qətlə yetirilməsi ilə nəticələndi.

Mənbələrdə Ağa Məhəmməd şahın öldürülməsinin təfərrüatı barəsində müxtəlif məlumatlar mövcuddur. Bu məlumatlarda daha çox şahın mühafizə xidmətinin rəhbərlərindən biri olan Sadıq xan Şəqqaqinin (o, şahın baş sərkərdələrindən biri kimi də təqdim olunur), İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşirin, şahın qulluqçularından olan Abbas bəylə, Səfərəli bəyin adları daha çox çəkilir. Əslində bu adları çəkilən şəxslərin hamısı Ağa Məhəmməd şahın qətlində maraqlı idi və onların bu marağı şahı öldürməklə onun Azərbaycan xanlarının üstünə hücum çəkməsinin dayandırılması ilə deyil, şəxsi cəzadan can qurtarmaq niyyəti ilə bağlı idi.

Şahın öldürülməsi tarixi kimi 1797-ci il iyun ayının 5-i göstərilir (253). Qətlin birbaşa iştirakçısı kimi isə Abbas bəylə Səfərəli bəyin adları çəkilir.



*Ağa Məhəmməd şah Qacar*

Verilən məlumatlara görə, Şuşa qalasına daxil olandan cəmi bir həftə sonra Ağa Məhəmməd şah qətlə yetirildi. Qətlə yetirildiyi gecənin axşamı Ağa Məhəmməd şah verdiyi tapşırıqların icrasına diqqətsiz yanaşdıqları üçün Abbas bəylə Səfərəli bəyi hüzuruna çağırıb sübh açılan kimi onları qətlə yetirəcəyini bəyan etdi. Adı çəkilən bəylərin hər ikisi bundan ciddi təşvişə düşdülər. Onlar Ağa Məhəmməd şahın xarakterini yaxşı bildikləri üçün şübhə etmirdilər ki, həyatları təhlükə qarşısındadır. Belə olanda bu bəylər sübh açılana qədər bir yol tapmağı, onların qətlinə hökm verən şəxsin özünü qətlə yetirməklə canlarını xilas etməyi qərarlaşdırdılar. Əslində bu şəxslərin hər ikisi Ağa Məhəmməd şahın etibar etdiyi şəxslərdən idilər onlar da bu münasibətdən istifadə edib gecə ikən şahın yataq otağına yol tapa bildilər və xəncərlə onu qətlə yetirdilər, sonra da şahın tacını, həmayilini və bazubəndini götürüb Məhəmməd bəy Cavanşirin evində yaşayan Sadıq xan Şəqqaqinin yanına yollandılar (254).

Mövcud olan məlumatlara görə, Səfərəli bəy xəncərini Ağa Məhəmməd şahın sinəsinə sancanda o, yatağından dik atıldı və yalnız bunu deməyə imkan tapdı: "Xanə xərab, sən İranı viran etdin" (255).

Ağa Məhəmməd şahı qətlə yetirəndən sonra Məhəmməd bəy Cavanşirin evinə gələn qatillər məsələni Sadıq xana danışdılar və özləri ilə gətirdikləri şah əşyalarını ona göstərdilər. Sadıq xan şahın qorxusundan əvvəlcə deyilənlərə inanmadı, söylənilənləri şahın hiyləsi kimi qəbul etdi. Sonra deyilənlərin ciddi olduğunu görərək şahın qaldığı evə gəldi, ehtiyatla onun yataq otağına girdi. Səfərəli bəy qarşıya keçib şahın qətlə yetirildiyini ona göstərdi. Sadıq xan bəylərin gətirmiş olduğu şaha məxsus əşyaları götürüb yenidən Məhəmməd bəy Cavanşirin evinə qayıtdı, Abbas bəyi yanına alaraq Gəncəyə tərəf üz tutdu və ətrafındakılara belə bir məlumat verdi ki, şahın tapşırığına əsasən Gəncə və Gürcüstana getməlidir (256).

Bununla da ağlı və fərasəti ilə böyük bir imperiya yaratmağa nail olmuş Ağa Məhəmməd şah da bir vaxtlar Nadir şahın yol verdiyi adi bir diqqətsizliyinin faciəli qurbanına çevrildi. Onun ölüm xəbəri rəhbərlik etdiyi qoşunlarda çaxnaşma yaratdı. Şahını itirən qoşunlar rəhbərlikdən məhrum oldu, ilkin çaşqınlıqdan və həyata keçirilən talanlardan sonra qaçıb-dağılmağa üz qoydular.

Qacar qoşunlarının dağılmasından istifadə edən şəhər əhalisi də talanlara başladı. Ağa Məhəmməd şah Qacarın yaşadığı imarətdə olan qiymətli əşyaların hamısı qarət edildi. Şəhərdə nə baş verdiyindən xəbər tutan Məhəmməd bəy Cavanşir dərhal özünü imarətə çatdırdı, orada rastlaşdığı insanların əllərindən qarət olunmuş əşyaları geri aldı və onları öz evinə daşıtdırdı. O, Şuşa qalası daxilində hökumət işlərini öz üzərinə götürdü, Ağa Məhəmməd şahın kəsilmiş başını isə öz məktubu ilə birlikdə

Balakəndə olan İbrahim xana göndərdi. İbrahim xan Ağa Məhəmməd şahın doğrudan da qətlə yetirildiyinə və Qacar qoşunlarının Şuşa qalasından geri çəkildiyinə əmin oldu. Onun həyatını qorxuya salan Ağa Məhəmməd şahın başını şah adına layiq şəkildə Carda dəfn etdirdi (257).

Qarabağnamə müəlliflərinin əksəriyyəti Ağa Məhəmməd şahın qətlindən sonra baş verənləri təxminən bu söylənilənlərə uyğun şəkildə təsvir edirlər. Əhməd bəy Cavanşirin yazdığına görə isə Məhəmməd bəy Cavanşir şahın qətlindən sonra şəhərdə sakitliyin bərqərar edilməsi üçün ciddi addımlar atdı. Onun məlumatlarına görə, Məhəmməd bəy gecəliklə qətiyyətli işlər gördü, öz tərəfdarlarını dəstələrə böldü, bəzilərinə Qacar qoşunlarının sərkərdələrini həbsə almağı, başqalarına məhbusları azad etməyi, üçüncülərə ən yaxşı mövqeləri ələ keçirməyi tapşırdı. Bu məlumatdan aydın olur ki, Ağa Məhəmməd şahın yaşadığı evə yiyələnmək üçün Məhəmməd bəy Cavanşir, Qacar qüvvələrinin müqavimətini qırmalı olmuşdu. O, Ağa Məhəmməd şahdan qalan xəzinəni və qiymətli əşyaları evinə dapardı, səhəri gün isə Qacar qüvvələrini Araza qədər geri çəkilməyə məcbur etdi (258).

Mənbələrdə olan məlumatlara görə, Ağa Məhəmməd şaha sədaqətli olan yaxınlarından keşikçibaşı Məhəmməd Hüseyn Qacar və münşirülməmalik Mirzə Rzaqulu ilkin olaraq şahın yataq otağına girərək onun qətlə yetirildiyini gördülər. Ağa Məhəmməd şahın cənazəsi səfər üçün hazırlanaraq Naxçıvan-Marağa yolu ilə Tehrana yola salındı. Cənazəni qoşun dəstələri, tanınmış sərkərdələr müşayiət edirdilər. Bəzi sərkərdələr isə Tehrana daha tez çatmaq üçün Ərdəbil-Zəncan yolunu seçdilər. Bir müddətdən sonra şahın cənazəsi Tehrana gətirildi. Orada da hüzn tədbirləri keçiriləndən sonra Ağa Məhəmməd şahın cənazəsi hörmətli və nüfuzlu şəxslərin müşayiəti ilə dəfn olunmaq üçün Nəcəfə göndərildi (259).

Ağa Məhəmməd şahın qətli hakimiyyətin ələ keçirilməsi üçün mövcud olan iddiaları daha da kəskinləşdirdi. Belə iddiaçılardan biri Ağa Məhəmməd şahın İrəvanda olan qardaşı Əliqulu xan idi. Qardaşının ölümü Əliqulu xan üçün də hakimiyyəti ələ keçirməyə bir şans yaratdı. Ona görə, Ağa Məhəmməd şah Qacarın ölüsü hələ Şuşadan çıxarılmamış Əliqulu xan Tehrana yollandı. Amma Ağa Məhəmməd şahın əmri ilə Tehranda qalmış Mirzə Şəfi Mazandarani və Mirzə Məhəmməd xan Qacar Tehran qapılarını nə Əliqulu xanın, nə də digərlərinin üzünə açdılar. Ağa Məhəmməd şah onlara göstəriş vermişdi ki, əgər Qafqaz yürüşündən salamat geri qayıtmasa Tehran qapılarını yalnız Fars vilayətinin hakimi olan qardaşı oğlu Baba xanın üzünə açsınlar. Mirzə Şəfi şahın sədr-əzəmi, Mirzə Məhəmməd xan isə Tehran hakimi idi. Onlar Ağa Məhəmməd şahın tapşırığını yerinə yetirdilər və Ağa Məhəmməd şahın sağlığında vəliəhdliyə təyin edilmiş

Hüseynqulu adlı qardaşının oğlu Baba xanın Therana daxil olmasına şərait yaratdılar (260).

Ağa Məhəmməd şah qətlə yetiriləndə onun qardaşı oğlu Fətəli xan Fars vilayətinin hakimi idi. Mənbələrin yazdığına görə, Qacar şahının qətlini eşidəndə Fətəli xan üç gün, üç gecə yas saxladı. Tehrana yollanmazdan əvvəl əyanları arasında söz verdi ki, Ağa Məhəmməd şahın qatillərini tapıb cəzlandırmayınca eyş-işrət məclislərindən kənar duracaq, qisas paltarını əynindən çıxarmayacaq və sakitləşməyəcəkdir. O, böyük oğlu Məhəmmədəli Mirzəni öz yerinə təyin etdikdən sonra Tehrana yola düşdü. Verilən məlumatlara görə, Fətəli xan şair Hafizin məqbərəsi yaxınlığından ötəndə onun əmrinə əsasən yaxınlarından olan Nəcəfqulu xan Hafizin qəzəl divanı ilə fal açdı. Fal açılan qəzəlin ilk beytlərinin mənası Fətəli xanın işlərinin və səfərinin uğuruna işarə kimi yozuldu və bu da Fətəli xan tərəfindən razılıqla qarşılandı. Onun dəstəsi dayanmadan Tehrana doğru hərəkət etdi və heç bir maneə ilə rastlaşmadan Fətəli xan Tehrana daxil oldu (261).

Ailə daxili ixtilaflara üstün gələrək Fətəli xan 27 yaşında Qacar taxt-tacına yiyələndi və 37 il ərzində Qacarlar dövlətinin şahı oldu. Onun şahlığı kifayət qədər mürəkkəb ictimai-siyasi dövrə təsadüf edir. Ağa Məhəmməd şah bütün hərbi keyfiyyətlərinə baxmayaraq, şahlıq daxilində əmin-amanlığı tam təmin edə bilməmişdi. Ona görə Fətəli şah hakimiyyəti illərində ölkə daxilindəki müxalifətçiliyin, hərbi separatizmin aradan qaldırılması ilə məşğul olmaq məcburiyyətində qaldı.

Digər tərəfdən Ağa Məhəmməd şahın Cənubi Qafqaz iddiaları həyata keçməmiş qalmışdı. Bu iddiaların həyata keçirilməsi üçün Fətəli şah günügündən güclənməkdə olan Rusiya dövləti ilə qarşı-qarşıya gəlməli idi. Ağa Məhəmməd şah hakimiyyətinin bütün illərini hərbi yürüşlərdə keçirdiyindən qoşunların təkmilləşdirilməsinə, möhkəmləndirilməsinə, dövrün tələbləri səviyyəsində təchiz edilməsinə vaxt və imkan qalmamışdı. Onun qətli isə qoşunların pərakəndəliyinə təkan verdi. Fətəli şaha belə bir qoşun miras qaldı və müqayisə üçün bir daha qeyd edilməlidir ki, bu qoşunlar öz döyüş keyfiyyətlərinə görə rus qoşunlarından çox geridə idi. Təşkilatçılıq və sərkərdəlik keyfiyyətlərinə görə isə Fətəli şah əmisi Ağa Məhəmməd şah Qacardan heç də üstün deyildi. Bu da Qacar qoşunlarının və bütünlükdə dövlətçiliyinin qurulmasına əks-təsir göstərdi.

Mövcud məlumatlara görə, Fətəli şah təvəkkülə, qəzavü-qədərə, nücuma, tilsimə, caduya inanan bir şəxs idi. Qərar qəbul edərkən Fətəli şah bu məsələlərə diqqət yetirirdi və ona görə də onun əmrlərinin də kəsərliliyi aşağı idi.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. میرزا تقی لسان الملک سپهر. تاریخ قاجاریه. جلد اول، تهران، ۱۳۷۷،ص.۷۲
2. دایوش س. ابراهیم کلنتر. ص.۱۲۰
3. علی قلی میرزا اتضادالسلطنه. اکسیر التواریخ. تهرانریا، ۱۳۷۰، ص.۴۷
4. علی قلی میرزا اتضادالسلطنه ،۴۷
5. Дубровин Н. История войны и владычества русских на Кавказе. T.III , С-Петербург, 1886, с.16-17
6. Qarayev E. Azərbaycan XVIII əsr rus və qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2005, s.120
7. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. С-Петербург, 1869, т. II , с.331
8. Azərbaycan tarixi. C.III, Bakı, 2007, s.391
9. پرسی سایکس. تاریخ ایران جلد دوم، تهران، ۱۳۶۳، ص.۴۲۴، دایوش س.، ۱۲۰
10. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века. Баку, 1948, с.165
11. Qarayev E. Azərbaycan XVIII əsr rus və qərbi Avropa..., s.120
12. Bayramova N. Şamaxı xanlığı. Bakı, 2009, s.93, 95
13. Мамедова Г. О походе В.Зубова в Азербайджан. Баку, 2003, с.8 (електронный вариант)
14. Бутков П.Г. Материалы для новой истории Кавказа..., с.332
15. Дубровин Н. История войны и владычества русских на Кавказе. T.III, с.16-17
16. میرزا تقی لسان الملک سپهر،تاریخ قاجاریه، ۷۲
17. رضاقلی خان هدایت. روضتالصفا ناصری. جلد نهم، تهران، ص.۷۳۷۵
18. احمدی ح. تالشان. تهران، ۱۳۸۴، ص.۱۱۰، . اکسیر التواریخ، ۴۷
19. احمدی، ۱۱۰
20. احمدی، ۱۱۱
21. تاریخ قاجاریه، ۷۳، اکسیرالتواریج، ۴۷
22. روضتالصفا ناصری ،۷۳۷۵
23. Дубровин Н. История войны и владычества русских на Кавказе. T.III, с.18
24. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر.جلد اول، تهران، ۱۳۸۳، ص.۷۴
25. تاریخ قاجاریه، ۷۳
26. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xanın və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, s.221. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.203-248;
27. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.85
28. ژان گور. خاجه تاجدار. تهران، ۱۳۶۶، ص.۲۷۴
29. ژان گور، ۲۷۶-۲۷۷
30. تاریخ قاجاریه، ۷۳
31. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века..., с.168
32. روضتالصفا ناصری ، ۸ ۷۳۷
33. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века..., с.169

34. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.8
35. Xəzani, Mir Mehdi “Kitabi tarixi Qarabağ”, s.130. Bax: Qarabağnamələr. İkinci kitab, Bakı 1991 s.94-204
36. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.35
37. İrəvan xanlığı. Bakı, 2010, s.271
38. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.35
39. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010, s.161-162
40. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века..., с.170
41. ميرزا محمد تقى لسانالملک سپهر. ناسخ التواريخ. تهران، ۱۳۱۱، ص.۷۴
42. روضتالصفا ناصرى، ۷۳۸۰
43. روضتالصفا ناصرى، ۷۳۸۱، ناسخ التواريخ قاجاريه، ۷۴
44. ناسخ التواريخ قاجاريه، ۷۴
45. ناسخ التواريخ قاجاريه، ۷ ۵
46. ناسخ التواريخ قاجاريه، ۷ ۵
47. Mirzə Adlgözəl bəy. Qarabağnamə, s.52; Bax: Qarabağnamələr. I kitab, Bakı, 1989, s.5-102
48. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII века..., с.171
49. روضتالصفا ناصرى، ۷۳۸۱
50. Xəzani M.M, ... s.130
51. ناسخ التواريخ قاجاريه، ۷۶
52. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.35
53. Левиатов В.Н. ..., с.171; Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003, с.59
54. Левиатов В.Н. ..., с.171
55. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.35-36
56. Авалов З. Присоединение Грузии к России. С-Петербург, 1901, с.156-157
57. Mustafazadə T. Qarabağ xanlığı..., s.163
58. Бутков П.Г. Материалы для новой..., с.338
59. Бутков П.Г. Материалы для новой..., с.339; Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.38
60. Потто В. Кавказская война. Т.I. От древнейших времен до Ермолова www.vehi.net/istoriya/potto/kavkaz/25.html
61. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.39
62. ناسخ التواريخ قاجاريه، ۷۶
63. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III, с.39-40
64. اكسيرالتواريج، ۴۱
65. ناسخ التواريخ قاجاريه، ۷۷
65a. Авалов З...., с.158; Дубровин Н. История войны ..., Т.III, с.39-40
66. Авалов З...., с.158
67. Бутков П.Г. Материалы для новой..., с.341
68. Авалов З...., с.158
69. Дубровин Н. История войны ..., Т.III, с.51
70. Дубровин Н. История войны ..., Т.III, с.54
71. Дубровин Н. История войны ..., Т.III, с.60-61

72. Дубровин Н. История войны ..., T.III, с.60
73. آبادیان ن. روایت جنگهای ایران و روس.تهران، ۱۳۸۰، ص.۱۰۹
74. Бутков П.Г. Материалы для новой..., с.347
75. Бутков П.Г. Материалы для новой..., с.347; Левиатов В.Н. ..., с.171
76. Левиатов В.Н. ..., с.173;
77. Левиатов В.Н. ..., с.173; Mustafazadə T. Azərbaycan xanlıqlarının ..., s.147
78. ناسخ التواریخ قاجاریه، ۷۸
79. ناسخ التواریخ قاجاریه، ۷۸
80. ناسخ التواریخ قاجاریه، ۷۸
81. Bayramova N, ... s.97
82. روضتالصفا ناصری،۷۳۸۶
83. Дубровин Н. История войны ..., T.III, с.60; Бутков П.Г. Материалы для новой..., с.351
84. احمدی، ۱۱۲
85. Левиатов В.Н. ..., с.174
86. Искендеров А. Завоевание Бакинского ханства Россией. Journal.qu.edu.az/article_pdf/1004_33.pdf
87. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı, 1988, s.73
88. Yenə orada
89. نفیسی، ۷۵، پرسی سایکس، ۴۲۵
90. Дубровин Н. История войны ..., T.III, с.63
91. Дубровин Н. История войны ..., T.III, с.64
92. Бутков П.Г. Материалы для новой..., с.351; Мамедова Г. О походе В.Зубова..., с.14
93. Бутков П.Г. Материалы для новой..., с.351; Дубровин Н. История войны ..., T.III, с.64-65
94. Бутков П.Г. Материалы для новой..., с.352-353
95. Бутков П.Г. Материалы для новой..., с.354
96. Предисловие.
Предисловие. http://www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/XVIII/1760-1780/Cagateli_11/pred.htm
97. Дубровин Н. История войны ..., T.III, с.66-67
98. Войны Российской имерии. Русско-персидская война (1796). www.oldmikk.ru/Pages_let_rekrut_war_pers1796/html
99. Дубровин Н. История войны ..., T.III, с.69
100. Дубровин Н. История войны ..., T.III, с.58
101. Дубровин Н. История войны ..., T.III, с.58
102. Потто В. Кавказская война. T.I. От древнейших времен до Ермолова www.vehi.net/istoriya/potto/kavkaz/25.html
103. Джабагиев В.Г. Поход графа Валериана Зубова на Кавказ. http://ghalghay.com/2010/041/03/%DO…
104. Потто В. Кавказская война. T.I. От древнейших времен до Ермолова www.vehi.net/istoriya/potto/kavkaz/25.html
105. Дубровин Н. История войны ..., T.III, с.75-83

106. Григорян З.Т. Присоединение Восточной Армении к России в начале XIX века. Москва, 1959, с.65
107. Дубровин Н. История войны ..., Т.III, с.81
108. Дубровин Н. История войны ..., Т.III, с.83
109. Дубровин Н. История войны ..., Т.III, с.83
110. Войны Российской империи. Русско-персидская война (1796)...
111. Дубровин Н. История войны ..., Т.III, с.86
112. Дубровин Н. История войны ..., Т.III, с.94
113. Войны Российской империи. Русско-персидская война (1796)...
114. Войны Российской империи. Русско-персидская война (1796)...
115. Бутков П.Г. Материалы для новой..., с.358-359
116. Предисдовие...
117. Армянские колонии в России и их роль в армяно-русских отношениях, с.134; См: Из истории вековой дружбы. Ереван, 1963, с.124-135
118. Kərimoiva S. Çarizmin Azərbaycann işğalında və müstəmləkəçiliyində erməni siyasətinin rolu. Tarix elmləri namizədi alimlikdərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın əl yazması. Bakı, 1995, c.73 (Azərbaycan Milli Kitab-xanasının dissertasiya fondu)
119. Дубровин Н. История войны ..., Т.III, с.86
120. Дубровин Н. История войны ..., Т.III, с.126-127
121. Войны Российской империи. Русско-персидская война (1796)...
122. Дубровин Н. История войны ..., Т.III, с.101-102
123. Мамедова Г. О походе В.Зубова..., с.14 (электроный вариант)
124. Бутков П.Г. Материалы для новой..., с.358-359; Войны Российской империи. Русско-персидская война (1796)...
125. Бутков П.Г. Материалы для новой..., с.358-359; Дубровин Н. История войны ..., Т.III, с.102
126. Дубровин Н. История войны ..., Т.III, с.106
127. Войны Российской империи. Русско-персидская война (1796)... ; Seyidova A. XVIII yüzilliyin sonlarında Azərbaycan xanlıqlarının siyasi müstəqilliyini qorumaq uğrunda mübarizəsi. Tarix elmləri namizədi alimlik dərəcəi almaq üçün təqdim olunmuç dissertasiya. Bakı, 2008, c.107 (Azərbaycan Milli Kitabxanasının dissertasiya fondu).
128. Дубровин Н. История войны ..., Т.III, с.129
129. Дубровин Н. История войны ..., Т.III, с.106
130. Дубровин Н. История войны ..., Т.III, с.108; Бутков П.Г. Материалы для новой..., с.381
131. Войны Российской империи. Русско-персидская война (1796)...; Мамедова Г. О походе В.Зубова..., с.14 (электроный вариант)
132. Войны Российской империи. Русско-персидская война (1796)..
133. Дубровин Н. История войны ..., Т.III, с.129
134. Бутков П.Г. Материалы для новой..., с.358-359
135. Войны Российской империи. Русско-персидская война (1796)..
136. Бутков П.Г. Материалы для новой..., с.358-359

137. Дубровин Н. История войны ..., Т.III, с.111
138. Дубровин Н. История войны ..., Т.III, с.111
139. Войны Российской имерии. Русско-персидская война (1796)...; Дубровин Н. История войны ..., Т.III, с.112
140. Войны Российской имерии. Русско-персидская война (1796)..
141. Войны Российской имерии. Русско-персидская война (1796)..
142. Войны Российской имерии. Русско-персидская война (1796)..
143. Дубровин Н. История войны ..., Т.III, с.115
144. Войны Российской имерии. Русско-персидская война (1796)..
145. Бутков П.Г. Материалы для новой..., с.386; Дубровин Н. История войны ..., Т.III, с.115-116
146. Дубровин Н. История войны ..., Т.III, с.116-117
147. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.179
148. Yenə orada, s.179-180
149. Левиатов В.Н. ..., с.174
150. Mustafazadə T. Quba xanlığı .. s.180-181
151. Seyidova A. .. , s.109
152. Дубровин Н. История войны ..., Т.III, с.117
153. Бутков П.Г. Материалы для новой..., с.387
154. Дубровин Н. История войны ..., Т.III, с.120
155. Дубровин Н. История войны ..., Т.III, с.120-121
156. Дубровин Н. История войны ..., Т.III, с.123-124
157. Мамедова Г. О походе В.Зубова..., с.20 (электроный вариант)
158. Дубровин Н. История войны ..., Т.III, с.116
159. Kərimova S. ..., s, 74
160. Дубровин Н. История войны ..., Т.III, с.146-147
161. Дубровин Н. История войны ..., Т.III, с.147
162. Дубровин Н. История войны ..., Т.III, с.147
163. Войны Российской имерии. Русско-персидская война (1796)..
164. Войны Российской имерии. Русско-персидская война (1796)...; Бутков П.Г. Материалы для новой..., с.387
165. Искендерова М. Бакинское ханство. Баку, 1999, с.124
166. Войны Российской имерии. Русско-персидская война (1796)..
167. Войны Российской имерии. Русско-персидская война (1796)..
168. Войны Российской имерии. Русско-персидская война (1796)...; Бутков П.Г. Материалы для новой..., с.388
169. Войны Российской имерии. Русско-персидская война (1796)..
170. Войны Российской имерии. Русско-персидская война (1796)...; Mustafazadə T. Quba xanlığı..., s.185
171. Мамедова Г. О походе В.Зубова..., с.26; Искендерова М. ..., с.124-125
172. Войны Российской имерии. Русско-персидская война (1796)...; Левиатов В.Н. ..., с.180
173. Дубровин Н. История войны ..., Т.III, с.134
174. Войны Российской имерии. Русско-персидская война (1796)..

175. Войны Российской империи. Русско-персидская война (1796)...; Бутков П.Г. Материалы для новой..., с.389
176. Бутков П.Г. Материалы для новой..., с.388; Seyidova A., ..., s.112
177. Seyidova A. ..., s.112
178. Бутков П.Г. Материалы для новой..., с.390
179. Дубровин Н. История войны ..., Т.III, с.136-137
180. Бутков П.Г. Материалы для новой..., с.390
181. Seyidova A. ..., s.113
182. Войны Российской империи. Русско-персидская война (1796)..
183. Бутков П.Г. Материалы для новой..., с.392-393
184. Бутков П.Г. Материалы для новой..., с.394
185. Бутков П.Г. Материалы для новой..., с.395
186. Дубровин Н. История войны ..., Т.III, с.145
187. Бутков П.Г. Материалы для новой..., с.396
188. Дубровин Н. История войны ..., Т.III, с.148
189. Əlizadə, Həsən İxfa. Şuşa şəhərinin tarixi, s.327. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.310-350
190. Акты собранные Кавказской Археологической Комиссией (АКАК). Т. V, Тифлис, 1886, с.634-635
191. Левиатов В.Н. ..., с.183
192. Левиатов В.Н. ..., с.183
193. Бутков П.Г. Материалы для новой..., с.398
194. Дубровин Н. История войны ..., Т.III, с.150-151
195. Бутков П.Г. Материалы для новой..., с.398
196. Дубровин Н. История войны ..., Т.III, с.140
197. احمدی ح. تالشان. تهران، ۱۳۸۴، ص.۱۱۳
198. Дубровин Н. История войны ..., Т.III, с.171
199. Дубровин Н. История войны ..., Т.III, с.153-154
200. Дубровин Н. История войны ..., Т.III, с.172-173
201. Бутков П.Г. Материалы для новой..., с.405
202. Войны Российской империи. Русско-персидская война (1796)..
203. Дубровин Н. История войны ..., Т.III, с.158-159
204. Seyidova A. ..., s.116
210. Дубровин Н. История войны ..., Т.III, с.159
211. Дубровин Н. История войны ..., Т.III, с.160
212. Войны Российской империи. Русско-персидская война (1796)..
213. Войны Российской империи. Русско-персидская война (1796)..
214. Войны Российской империи. Русско-персидская война (1796)..
215. Бутков П.Г. Материалы для новой..., с.405; Дубровин Н. История войны ..., Т.III, с.164; Потто В. Кавказская война. Т.I. От древнейших времен до Ермолова www.vehi.net/istoriya/potto/kavkaz/25.html

216. Бутков П.Г. Материалы для новой..., с.402; Дубровин Н. История войны ..., Т.III, с.164; Потто В. Кавказская война. Т.I. От древнейших времен до Ермолова www.vehi.net/istoriya/potto/kavkaz/25.html

217. Дубровин Н. История войны ..., Т.III, с.165; Потто В. Кавказская война. Т.I. От древнейших времен до .. www.vehi.net/istoriya/potto/kavkaz/25.html

218. Войны Российской имрерии...; Дубровин Н. История войны ..., Т.III, с.167; Mustafazadə T. Quba xanlığı..., s.191

219. Seyidova A. ..., s.118

220. Войны Российской имрерии...

221. Войны Российской имрерии...

222. Seyidova A. ..., s.119

223. Дубровин Н. История войны ..., Т.III, с.168

224. Дубровин Н. История войны ..., Т.III, с.169; Seyidova A. .., s.119

225. Бабаев Э...., с.67

226. Дубровин Н. История войны ..., Т.III, с.181-182

227. Дубровин Н. История войны ..., Т.III, с.182-183

228. Бабаев Э...., с.67

229. Бутков П.Г. Материалы для новой..., с.413

230. Бутков П.Г. Материалы для новой..., с.415

231. Дубровин Н. История войны ..., Т.III, с.196

232. Дубровин Н. История войны ..., Т.III, с.184

233. Дубровин Н. История войны ..., Т.III, с.202

234. Войны Российской имрерии...

235. Войны Российской имрерии...

236. ناسخ التواريخ قاجاريه، ٨٢

237. نفيسى، ٧۶

238. نفيسى، ٧۶

239. روضتالصفا ناصرى، ٧۵٢۵

240. ناسخ التواريخ قاجاريه، ٧۴

241. ناسخ التواريخ قاجاريه، ٨٣، ماثر سلطانيه، ٧١

242. Дубровин Н. История войны ..., Т.III, с.205

243. Бутков П.Г. Материалы для новой..., с.426

244. Мустафаев Дж. Северные ханства Азербайджана и России. Баку, 1989, с.99

245. Xəzani M.M. ... s.136

246. ژان گور. خاجه تاجدار. تهران، ١٣۶۶،قسمت دوم، ص. ٣٢٧

247. Rzaqulu bəy Mirzə Camal oğlu.., s.224-225

248. Mirzə Yusif Qarabaği. Tarixi Safi, s.35. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.6-94

249. Бабаев Э. .., с.71

250. Mustafazadə T. Qarabağ xanlığı ..., s.173

251. Бутков П.Г. Материалы для новой..., с.429
252. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 17047-1805-ci illərdə siyasi vəziyyətinə dair, s.167. Bax: Qarabağnamələr. Birinci kitab. Bakı, 1989, s.150-183
253. Мустафаев Дж. Северные ханства Азербайджана..., с.100
254. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, s.31
255. Дубровин Н. История войны ..., Т.III, с.212
256. Mirzə Camal Cavanşir Qarabaği, s.31
257. Yenə orada, s.32
258. Əhməd bəy Cavanşir, s.174
259. ماثر سلطانیه، ۸۰
260. ماثر سلطانیه، ۷۳
261. فضل اله شیرازی خاوری. تاریخ ذولقرنین، ص.۵۲

# VI FƏSİL

## TƏRƏFLƏRİN HƏRBİ POTENSİALI

XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının müstəqilliyinə əsasən iki istiqamətdən real təhlükə mövcud idi. Şimaldan Rusiya, cənubdan isə Qacarlar dövləti tərəfindən. İstər Rusiya, istərsə də Qacarlar dövləti Azərbaycan xanlıqlarının işğalı üçün eyni yolu, yəni hərbi müdaxilə yolunu seçsələr də, hərbi potensial baxımından onlar eyni səviyyədə deyildilər. İqtisadiyyatın və ticarətin sürətlə inkişafına nail olan Rusiya Avropanın ən güclü dövlətlərindən birinə çevrilmişdisə, Qacarlar dövləti hərbi-texniki baxımdan Rusiyadan çox geri qalırdı. XVIII əsrin Qacar qoşunları Səfəvi və Əfşar qoşunlarından elə də ciddi şəkildə fərqlənmirdi. Yalnız XIX əsrin əvvəllərində Fransanın və İngiltərənin müəyyən yardımları ilə Qacar qoşunlarında keyfiyyət dəyişikliklərinin yaranmasına başlandı. Bununla belə, baş verən dəyişikliklərə baxmayaraq Qacar qoşunları təşkilati, döyüş hazırlığının və maddi-texniki təchizatın səviyyəsi, hərbi təlimin keyfiyyəti baxımından Rusiya qoşunlarından aşağı səviyyədə qalmaqda idi.

Bu iki böyük dövlətin maraq kəsişməsində qalan Azərbaycan xanlıqlarının hərbi gücü və onu müasirləşdirmək imkanları isə daha zəif idi. Əslində, Azərbaycan xanlıqlarının qoşunları Əfşarlar qoşunları səviyyəsində və çərçivəsində mövcud olan qoşunlar idi. Azərbaycan xanlıqları istər iqtisadi imkanlar, istər səfərbərlik imkanları, istər təlim-tərbiyə və təchizat potensialı baxımından həm Rusiyadan, həm də Qacarlar dövlətindən geri qalırdı. Bu da heç şübhəsiz ki, hərbi gücün miqyasında özünü nümayiş etdirirdi.

### *1.Azərbaycan xanlıqlarının hərbi potensialı*

Konkret tarixi şəraitdə Azərbaycan xanlıqlarının yaranmasının, mövcudluğunun və bölgədə nüfuzunun müəyyənləşdirilməsinin başlıca səbəblərdən biri onun hərbi potensialı idi. Hərbi qüvvələr xanlıqlar dövrünün dövlətçilik atributları içərisində xüsusi əhəmiyyət kəsb edirdi. Çünki xanlıqların hər birinin müstəqilliyi onun hərbi gücünə dayaqlanırdı və həmin müstəqilliyin davamlılığı da hərbi potensialla bir başa bağlı idi. Daha böyük hərbi potensiala malik olan xanlıqlar istər xanlıqlararası, istərsə də kənar müdaxilələrin qarşısının alınmasında daha böyük uğurlar əldə edirdilər. Əksinə,

hərbi potensialın zəifliyi üzündən bəzi xanlıqlar hərbi baxımdan güclü olanların asılılığını qəbul etməyə məcbur olurdular.

Xanlıqlar dövrünün hərbi potensialının formalaşdırılmasına bir neçə amil aparıcı təsir göstərirdi: iqtisadi potensial, xanlığın demoqrafik potensialı, istehkam-müdafiə qurğularının mövcudluğu. Hər bir xanlıq çalışırdı ki, yetərli miqdarda hərbi qüvvələrə malik olsun. Bu qüvvələrin miqdarı isə sözsüz ki, xanlığın demoqrafik imkanları ilə müəyyənləşirdi. Onların təminat səviyyəsi xanlığın iqtisadi durumu ilə bağlı idi. Müdafiə-istehkam qurğuları isə bütünlüklə xanlığın ümumi müdafiə imkanlarını artırırdı. Bütün bu məsələlər ümumi şəkildə xanların nəzarəti altında idi. Hətta demoqrafik vəziyyətin sabit saxlanması və inkişaf etdirilməsi özü də xanlıqlaırn diqqət dairəsində olan məsələlərdən idi. Məsələn, əvvəlki fəsillərdə toxunulduğu kimi, Qarabağ, Gəncə xanlıqları və Kartli-Kaxetiya çarlığı arasında demoqrafik yerdəyişmələrlə bağlı vaxtaşırı anlaşılmazlıqlar yaranırdı.

Şəki xanı Məhəmməd Həsən xan xanlıq əhalisinin artırılması məqsədilə başqa yerlərdən mühacirləri cəlb edirdi. Bunun üçün konkret tədbirlər də görürdü. O, xanlıq ərazisində boş qalmış olan yerləri əkdirdi və həmin yerlərin əkdirilməsi üçün digər xanlıqlardan canlı qüvvə cəlb etdi (1).

Azərbaycan xanları hərbi-siyasi hakimiyyəti öz əllərində birləşdirməklə xanlığın hərbi qüvvələrinin ali baş komandanı idilər. Xanların hər birinin bayrağı var idi (2). Onlar əslində qoşunların yaradıcısı və istiqamət verici qüvvəsi idi. Xanlıqlarda irsi hakimiyyət mövcud olsa da bu irsiliyin tez-tez dəyişməsi hallarına da təsadüf edilirdi. Buna isə əsasən ətrafında yeni qüvvələr formalaşdıra bilən və xanlıq iddiasında olan şəxslər nail ola bilirdilər. Məsələn, Qarabağ xanlığında xanlıq qoşunlarının yaradılması bir başa Pənah xanın adı ilə bağlı idi. Bu xanlıq digər xanlıqlarla müqayisədə fərqli şəraitdə yaradıldığı üçün onun qoşun dəstəsi də yox idi. Ona görə Pənah xan Qarabağ xanlığının yaradılmasını hər şeydən əvvəl ətrafına sədaqətli qüvvələrin səfərbər edilməsi ilə başladı. Onun dayağı olacaq qüvvə formalaşdırmadan Pənah xan ətarfını bürümüş iddialı qüvvələrin təzyiqləri qarşısında duruş gətirə bilməzdi.

Bu baxımdan Azərbaycan xanlıqlarının demək olar ki, hamısının sərkərdəlik keyfiyyətləri və məharətləri var idi. Onların şəxsi fiziki keyfiyyətləri qoşun dəstələrinin formalaşmasında ciddi meyara çevrilirdi. Başqa sözlə, Azərbaycan xanları at çapmaq, qılınc tutmaq məharətləri ilə döyüşlərdə iştirak edir və döyüşçüləri üçün bir nümunəyə çevrilirdilər.

Hərbi məsələlərin həllində, müharibələrin elan olunmasında, sülh bağlanmasında xanların iradəsi aparıcı rola malik idi. Xanlıqlar bu və ya digər qurumların asılılığı altına düşəndə, xüsusilə Rusiya ilə müqavilələr imzalayandan sonra xanların bu səlahiyyətlərində müəyyən məhdudiyyətlər

yarandı. İrəvan xanlığının mövcudluğunun son illərində isə İrəvan xanı Hüseyn xanın hərbi fəaliyyət sahəsindəki rəhbərliyi müəyyən formal xarakter aldı, əməli şəkildə isə xanlığın hərbi məsələlərinin həlli Hüseyn xanın qardaşı Həsən xanın üstünə düşdü. Qoşunların sayının müəyyənləşdirilməsi, hərbi ittifaqların yaradılması, hərbi tələblər və ya sülh şərtləri, hərbi işlərə maliyyənin ayrılması xan tərəfindən müəyyənləşdirilirdi. Mövcud olan faktlar onu deməyə əsas verir ki, silahlı dəstələr arasında ideoloji işlərin müəyyənləşdirilməsi və tənzimlənməsində də xanlar əsas rol oynayırdılar. Məsələn, Şəki xanı Məhəmməd Həsən xanla Quba xanı Fətəli xan arasında 1785-ci ildə baş verən döyüş zamanı əvvəlcə Şəki xanının qoşunları üstün gəldilər. Belə olanda Fətəli xan qoşun sərkərdələrini öz başına topladı, onların arasında nitq söylədi, onları döyüşə ruhlandırdı. Döyüşün sonrakı mərhələsində Fətəli xanın qoşun dəstəsi üstün gəldi (3).

Xanlıq qoşunlarını bir qayda olaraq xanlıq daxilində yaşayan əhali təşkil edirdi. Qoşunların səfərbərlik bazasını təmin etmək üçün maaf adlanan xüsusi bir təbəqə yaradılmışdı. Maaf - öhdəlikdən azad edilmiş mənasını verir. Bu təbəqəyə daxil olan şəxslər doğrudan da hər cürə vergidən azad edilmişdilər və bunun əvəzində onlar xanlıq qoşunlarında xidmət etməli idilər. Maafların strukturu haqqında mənbələrdə geniş məlumat yoxdur. Bununla belə, ehtimal etmək olar ki, maaflar üçün bir yaş həddi də var idi və sözsüz ki, qoşunlarda xidmət etmək üçün yaşı münasib olan şəxslər maaf təbəqəsinə daxil edilə bilərdi. Mövcud məlumatlara görə, maaf olmaq üçün əhali arasında bir seçim də aparılırdı. Maaflar ya xan qarşısındakı xidmətlərinə görə seçilirdilər, ya da onların namizədliyi bəylər tərəfindən irəli sürülürdü. Bəylər də adətən yaxın olduqları insanların maaflar sırasına daxil edilməsinə çalışırdılar. Məlumdur ki, şücaəti ilə ad çıxaran tayfalar bütünlüklə maaflar sırasına daxil edilirdilər. Məsələn, Naxçıvan xanlığı ərazisində yaşamış Kəngərli nəsli bütün vergilərdən azad edilərək maaflar sırasına daxil edilmişdi (4).

Buradan belə bir qənaətə gəlmək olar ki, əhalinin müəyyən dairələri arasında xanlıq qoşunlarına yazılmaq üçün xüsusi meyl var idi. Mənbələrdə bildirilir ki, Şəki xanlığında Məhəmməd Həsən xan xanlıq əhalisini özü xüsusi siniflərə (təbəqələrə) böldü və bu siniflərdən biri də maaflar idi. Hər bir sinif üçün vergi təyin edildiyi halda, maaflar torpaqlarla təmin edildilər (5). Bu torpaq sahibləri maafların qoşunlardakı xidmət zamanı dolanışıqlarını təmin etməli idilər.

Dövrün tarixinə aid olan sənədlərdə göstərilir ki, bütün xanlıqlarda vergilərdən azad edilmiş olan maaflar təbəqəsi mövcuddur. Onlar şəxsən xidmətdə olmaqla şah qoşunlarına qoşulurdular. Xanın göstərişinə əsasən,

maaflar xan qoşunlarına qatılmaqdan əlavə yerli hakimlərin də tapşırıqlarını yerinə yetirir, qarovul vəzifələrini icra edirdilər (6).

Maaf təbəqəsini yaratmaqla xanlar bütün növ qoşunların təşkili üçün daimi baza formalaşdırırdılar. Zərurət yarananda bu təbəqə qısa zaman ərzində qoşun dəstələrində birləşdirilirdi. Döyüşlər arası fasilələr yarananda isə maaflar sərbəst buraxılırdılar və bu zaman onlar xan tərəfindən ayrılmış torpaq sahələrinin becərilməsi ilə məşğul ola bilirdilər.

Yuxarıda qeyd edildiyi kimi, Məhəmməd Həsən xan Qarabağa hücumu zamanı Qarabağ xanlığının qoşununun əsasını təşkil edən maafların çoxu evə buraxılmışdı.

Maaflar maliyyə baxımından yalnız onlara ayrılmış torpaqdan gələn gəlirlə təmin olunmalı idilər. Onlar eyni zamanda xan tərəfindən mükafatlandırılırdılar, onlara at və silah ayrılırdı, hərbi yürüşlər zamanı toplanmış olan qənimətdən onlara da pay düşürdü (7).

Azərbaycan xanlıqlarında maafların irsi keçməsi də ehtimal olunur. Eyni zamanda vaxt keçdikcə onların arasında bir təbəqələşmə yaranırdı. Bəzi maaflar kəndlərin, icmaların idarə edilməsi işlərinə təyin edilirdilər. Məsələn, kəndxuda, darğa və s. kimi kiçik vəzifələrə onlar təyin edilə bilərdilər. Maafların bəziləri isə maaf-nökərlər adlandırılırdı. Onlar daha çox xan sarayında fəaliyyət göstərirdilər, müəyyən mühafizə işlərinə cəlb edilə bilirdilər. Belə maaf-nökərlər xanlar tərəfindən adətən atla, silahla təmin edilirdilər(8).

Xanın qoşunları yalnız maaflardan təşkil edilmirdilər. Hərbi şəraitin mürəkkəbləşdiyi vaxtlar daha çoxsaylı qoşunlara ehtiyac duyulurdu ki, bu vaxtlar yerlərdə yeni qoşun dəstələrinin formalaşdırılması aparılırdı. İlk növbədə mahal nayibləri və bəyləri öz dəstələri ilə xan qoşunlarına qoşulurdular. Bundan başqa icma əhalisi arasında da qoşunlara toplanış aparılırdı. Bəzi məlumatlara görə, əhali arasında aparılan səfərbərliyə düşənlər elə icma əhalisi tərəfindən də təmin və təchiz edilirdi (9). Yerlərdə toplanan yeni dəstələrə adətən yerli hakimlər rəhbərlik edirdi.

Məlumatlara görə, yerlərdə qoşun toplanışı Səfəvilər dövründən mövcud olan tiyul münasibətləri əsasında nizamlanırdı. Bu münasibətlərə görə, müəyyən bəylər tiyul mülkiyyətinə malik olurdular. Belə torpaq mülkiyyətinə malik olan bəylər zərurət yarandığı halda öhdəsində olan dəstə ilə xanın çağırışı əsasında xan qoşunlarına qoşulurdular (10).

Mənbələrdəki məlumatlara görə, Qarabağ xanlığı ərazisindəki elatlar bütünlüklə dəftər-siyahıya alınır və onlar zərurət yarananda bütünlüklə qoşunlara çağırılırdılar. Bildirilir ki, İbrahim xanın 12 minədək dəftərə məxsus qoşunu var idi ki, adları siyahı və dəftərə yazılmış qoşun idi (11).

Quba xanlığında böyük yürüşlərin həyata keçirilməsi zamanı köçəri elatlardan qoşun toplanırdı. Köçəri elatlar da zərurət yarandığı anlarda xanlıq qoşunlarının səfərbərlik ehtiyatlarını təşkil edirdilər. Eyni zamanda çoxlu sayda böyük torpaq sahibləri könüllü şəkildə xan qoşunlarına qoşulurdular. Fətəli xanın xanlıq ərazilərinin genişləndirilməsi uğrundakı mübarizəsi bu torpaq sahiblərini qoşunlara qatılmağa şirnikləndirirdi. Məlumdur ki, Fətəli xan qonşu xanlıqları, o cümlədən də Şamaxı xanlığını nəzarət altına almaqla böyük torpaq sahələri ələ keçirmişdi. Həmin torpaq sahələrinin böyük hissəsi xana xidmət edən torpaq sahiblərinin arasında bölüşdürülürdü (12).

Quba xanlığı ümumiyyətlə səfərbərlik ehtiyatı olan xanlıqlardan biri sayılırdı. Tarixi araşdırmalara görə, Quba xanlığının yaşlı əhalisi hamılıqla silahlara malik idi. Məlum olduğu kimi, 1795-ci ildə rus işğalından sonra Dərbənd əhalisi tərksilah ediləndə orada 11 min ədəd silah toplandı ki, onların böyük əksəriyyəti yerli əhaliyə məxsus idi (13). Silaha malik olmaq bir tərəfdən əhalinin silah işlətmək vərdişlərindən, digər tərəfdən də onların qoşunlarda xidmət etmək üçün müəyyən hazırlığa malik olmalarından xəbər verirdi. Bu təbəqə qoşunlara cəlb edilmək üçün daha hazırlıqlı və təchiz edilmiş təbəqə sayılırdı.

Azərbaycan xanlıqlarının səfərbərlik ehtiyatlarından birini də muzdlular təşkil edirdilər. Muzdlular müəyyən maliyyə ödəncləri əsasında kənardan qoşun sıralarına dəvət edilən silahlılar idi. Bu kontingent əsasən Dağıstan xalqları arasından dəvət olunurdu. Muzdlular xanlıq qoşunlarının gözlənilən təhlükənin dəf edilməsi və ya yürüşün həyata keçirilməsi üçün yetərli olmadığı hallarda dəvət olunurdu. Eyni zamanda muzdluların döyüş keyfiyyətləri nəzərə alınırdı. Dağıstan xalqları qərar tutduğu coğrafi şəraitin tələblərinə uyğun olaraq həyatlarının çoxunu at belində keçirirdilər. Bu baxımdan onlar kifayət qədər çevik olmaqla bərabər, həm də silah işlətmək təcrübəsinə malik idilər. Qeyd etmək lazımdır ki, Dağıstan xalqları özləri də muzdlu dəstələrə dəvət olunmağa maraq göstərirdilər. Çünki bu fəaliyyət onların başlıca qazanc mənbələrindən biri idi. Azərbaycan xanlıqları arasında Qarabağ, Şəki və Quba xanlıqlarının muzdlu qüvvələrdən istifadə etmələri haqqında mənbələrdə və tarixi ədəbiyyatda daha çox məlumat vardır. Dağıstan xalqları arasından isə avarlar, carlar və ləzgilər daha çox muzdlu kimi cəlb olunurdular

Məlumdur ki, Qarabağ xanı İbrahim xan avar xanı Ümmə xanla nikah qohumluğuna girmişdi. Ona görə İbrahim xan tez-tez avarların köməyinə arxalanır və onların dəstəkləri ilə öz qoşunlarının sıralarını tamamlayırdı. Bir çox hallarda avarlar müttəfiq kimi dəvət olunurdular. Lakin onların hərbi yürüşlərdəki iştirakı müəyyən maliyyə ödəncləri hesabına başa gəlirdi.

Tarixi məlumatlardan məlumdur ki, 1784-cü ildə Gürcüstana qarşı hücum hazırlananda Şuşada xeyli qüvvə toplanmışdı ki, onların da bir hissəsi Dağıstandan idi. İbrahim xanla avar qoşunlarının ayrıca Gürcüstan üzərinə hücuma hazırlaşmaları haqqında da məlumat mövcuddur. Ağa Məhəmməd xanın Qarabağ xanlığı üzərinə ikinci yürüşündən sonra Car-Balakənə gedən İbrahim xan Qacar şahının qətlindən sonra Qarabağda öz hakimiyyətinin bərpası üçün car və şahsevən dəstələrindən istifadə etdi (14).

Azərbaycanlılardan muzdlu döyüşçü kimi istifadə edilməsinə Quba xanlığının tarixində rastlaşmaq mümkündür. Dövrün rus səyyahlarının verdiyi məlumata görə, Fətəli xanın qoşunlarında muzdlu tatarlar ( azərbaycanlılar) və ləzgilər var idi. Yerli mənbələrdə Fətəli xanın qoşunlarında çoxlu sayda muzdlu ləzgilərin olduğu təsdiqlənir. Fətəli xanın Şəki xanı Məhəmməd Həsən xanla yuxarıda xatırlanan döyüşü zamanı qoşununun çoxunu ləzgilər təşkil edirdi (15).

Fətəli xanla döyüşdə iştirak edən Şəki xanı Məhəmməd Həsən xanın qoşununun çox hissəsi də ləzgilərdən ibarət idi ki, onlar da müəyyən şəkildə qoşunlara cəlb edilmişdilər. Mənbələrdəki məlumatlara görə, Məhəmməd Həsən xandan sonra Şəki xanı olan Səlim xan da muzdlu döyüşçü kimi həm carlılardan, həm də avarlardan istifadə etmişdi (16).

Muzdlu dəstələrin hansı miqdarda cəlb edilməsi xanlıqların maliyyə imkanlarından asılı idi. Onların dəvət edilməsi kifayət qədər maliyyə ehtiyatı tələb edirdi. Dövrün şahidlərinin də ifadələrindən aydın olur ki, muzdlu dəstələrin saxlanılması xanlıqların çox böyük maliyyə xərcləri hesabına başa gəlirdi. Hətta xanlığın topladığı vergilərin əsasən muzdlu dəstələr üçün xərcləndiyi bildirilirdi (17).

Muzdlu dəstələr ilk baxışdan xanların tabeçiliyində olsalar da, əslində onlar kifayət qədər çətin idarə olunan kontingent idilər. Xüsusilə, vəd olunan maliyyə ödənci verilməyəndə və ya döyüşlərdən qalib çıxanda onların nəzarət altında saxlanılması xeyli çətinləşirdi. Məsələn, 1780-cı ildə Qarabağa yürüş zamanı Fətəli xanın Dağıstandan dəvət etdiyi muzdlular vəd olunan maliyyə vəsaitini almadıqları üçün geri qayıdarkən Quba xanlığına məxsus əraziləri talanlara məruz qoydular (18).

Fətəli xanla Məhəmməd Həsən xan arasındakı döyüşdən sonra Quba xanının üstün qoşunlarındakı ləzgi muzdluları da talanlara rəvac verdilər. Onlar Şəki xanının muzdlu ləzgilərini əsir edərək sursatlarını və hətta paltarlarını da əllərindən aldılar. Onların atları və təchizatları qənimət kimi götürüldü. Şəki xanlığının yerli döyüşçülərini də onlar əsir götürdülər və onları satmaq istədilər. Əhalinin mal-qarasını toplamaq da ləzgi muzdlular üçün adi bir hala çevrildi. Bu muzdlular elə bir idarə olunmaz hala düşdülər ki, onlar Fətəli xanın göstərişlərini də qəbul etmədilər. O cümlədən satılması

planlaşdırılan əsir götürülmüş yerli döyüşçülərin azad edilməsi haqqında Fətəli xanın tələbi qəbul olunmadı. Muzdlular yalnız onunla razılaşdılar ki, götürdükləri əsirləri müəyyən ödənc əvəzində onların öz sahiblərinə satsınlar (19).

Pul əldə etmək muzdlu döyüşçülərin fəaliyyətinin əsas motivi idi. Ona görə ilkin razılaşmaya baxmayaraq muzdlu döyüşçülər hansı xandan çox pul alsaydılar, dərhal mövqelərini dəyişə bilərdilər. Məsələn, məlumdur ki, Quba xanı Əhməd xanla Şəki xanı Məhəmməd Həsən xan Şamaxı xanlığı üzərinə hücum edəndə Şamaxı xanı Əsgər xan fəndə əl atdı. O, Şəki xanlığı qoşunları tərkibinə cəlb edilmiş ləzgi muzdlularının rəhbərliyinə 5 min tümən pul və digər hədiyyələr göndərdi və Şəki qoşunlarından çıxmalarını istədi. Görünür, bu vəsait Şəki xanının təklif etdiyi vəsaitdən çox imiş. Ona görə, ləzgilər bu təklifi qəbul edib Şəki qoşunlarından ayrıldılar. Bununla, Şamaxı xanlığı üzərinə planlaşdırılan hücum da pozulmuş oldu (20).

Bəzi tarixi mənbələrdə 1770-ci ildə Quba xanının ixtiyarında 10 min muzdlu döyüşçünün olması haqqında məlumat vardır (21). Lakin bu rəqəm real görünmür. Çünki, yuxarıda qeyd olunduğu kimi, həm maliyyə baxımından, həm də idarəetmə baxımından bu sayda muzdlunun saxlanılmasının öz çətinlikləri var idi.

Gəncə xanı Cavad xanın da muzdlu döyüşçülər toplaması haqqında məlumatlar mövcuddur. O, Qazax, Car və Balakəndən toplamaq istədiyi döyüşçülərin hər birinə 50 gümüş rubl verməyi vəd etmişdi (22). Qazaxdan toplanan döyüşçülərə də 50 gümüş rubl vəd olunmasından güman etmək olar ki, xanlığın qoşun üzvlərinin hər birinə orta hesabla bu miqdarda aylıq maaş verilə bilərdi. Bu məlumat başqa mənbələr tərəfindən də təsdiqlənir. Rus səyyahı Qmelinin verdiyi məlumata görə, Fətəli xanın qoşunlarında hər bir döyüşçüyə 50 rubl maaş verilirdi. Döyüşçülərə rəhbərlik edən yüzbaşılara isə ayda 200 rubl maaş verilirdi (23).

Qoşun üzvlərinin haqqı yalnız nağd şəkildə deyil, digər müxtəlif ödənclərlə də ödənilirdi. Yuxarıda qeyd edildiyi kimi, onlar müxtəlif vergilərdən azad idilər, müxtəlif qiymətli hədiyyələrə layiq görülürdülər. Onlara torpaq sahəsi verilir və müharibə qənimətlərindən pay ayrılırdı. Qoşunların bütün xərci xan tərəfindən ödənilirdi. Döyüş zamanı baş vermiş maddi itkilər də xan hesabına ödənilirdi. Xüsusilə, atlı döyüşçülərin atları döyüşdə öldürülsəydi onlar xəzinə hesabına yeniləri ilə əvəzlənirdi. Qarabağ xanı hətta muzdlu döyüşçülərin öldürülmüş atlarını da xəzinə hesabına yenisi ilə əvəz edirdi (24).

Hərbi yürüşlər zamanı və ya yürüşə hazırlıq zamanı qoşun döyüşçülərinin hər biri xan tərəfindən bir evə təhkim olunurdu. O ev də qoşun nəfə-

rinin ehtiyacının ödənməsinə çalışırdı. Qoşunların ümumi xərci isə mahallardan xanlıq xəzinəsinə daxil olan vergilər hesabına ödənilirdi (25).

Mənbələrdə olan məlumatlara görə, Qarabağ xanı İbrahim xan hər il Novruz bayramında qoşunun bütün sərkərdələrinə və minbaşılarına qiymətli hədiyyə, at, qılınc və s. bağışlayırdı. İbrahim xanın hərbi yürüşləri zamanı onun yanında olan minbaşıların, yüzbaşıların, bəylərin, ağaların səhər, nahar və şam yeməkləri, həmçinin adı çəkilən şəxslərin atlarının yem və arpası xanın hesabına təmin edilirdi. Qoşunların bir hissəsi, o cümlədən mirzələr, eşikağaları, keşikçilər və yasovullar da xanın xəzinəsi hesabına dolanırdılar (26).

Məlumdur ki, hərbi yürüşlər, döyüşlər zamanı çox böyük sayda qoşun dəstələri istifadə olunurdu. Qoşun dəstələrindən əlavə, yardımçı xidmət dəstələri də yürüşlərə cəlb olunurdular ki, bütünlükdə bu şəxsi heyətin iaşəsinin təşkil edilməsi çox böyük vəsaitlər tələb edirdi. Xanın xəzinəsi bütün bu xərcləri öz üzərinə götürməli idi.

Mənbələrdə qeyd olunmasa da çox ehtimal ki, qoşunların maliyyə məsələlərini tənzimləyən xüsusi şəxslər mövcud idi və onlar yəqin ki, xanların nəzarəti altında bu işləri icra edirdilər. Hərbi xərclər isə əsasən qeyd edildiyi kimi, əhalidən toplanan vergilər hesabına ödənirdi. Mənbələrdə qeyd olunurdu ki, Quba xanı hərbi xərclərin ödənməsi üçün şəhər və kəndlərdə yaşayan əhalidən ailə başına 20-30 rubl və əlavə olaraq taxıl toplayırdı. Bundan əlavə Quba xanı nəzarəti altına aldığı xanlıqlardan da maliyyə vəsaitləri alırdı ki, bu vəsaitlər də əsasən hərbi qüvvələrin saxlanmasına xərclənirdi. Məsələn, məlumdur ki, Şamaxı xanı Quba xanlığına müəyyən maliyyə ödəncləri verirdi. Bildirilirdi ki, Şamaxı xanı həmin vəsaiti Quba xanı tərəfindən ləzgilərin və tatarların hücumlarının qarşısını almasına görə ödəyirdi. Mənbələrdə qeyd olunur ki, Quba xanı Şamaxı xanından zorla aldığı həmin vəsait hesabına muzdlu qoşun dəstələri saxlayırdı (27).

Ərazisindən, iqtisadi və demoqrafik imkanlarından asılı olaraq Azərbaycan xanlarının toplaya bildiyi qoşunların sayı da müxtəlif idi. Onların sayı haqqında mənbələrdə və tarixi ədəbiyyatda bir-birindən fərqlənən məlumatlar mövcuddur. Bu bir tərəfdən mötəbər statistikanın olmaması ilə bağlı idi. Digər tərəfdən də qoşunlar adətən qarşıda dayanan vəzifələrin miqyasına görə müəyyənləşdirilirdi. Ona görə də müxtəlif yürüşlər zamanı xanlıq ərazisində fərqli sayda qoşun toplana bilirdi.

Bəzi tarixi ədəbiyyatda Şimali Azərbaycan xanlıqlarının qoşunlarının say tərkibi aşağıdakı kimi göstərilir: Quba xanlığı – 12 min nəfər, Şamaxı xanlığı – 8-10 min nəfər, Qarabağ xanlığı – 10-15 min nəfər, Şəki xanlığı – 12 min nəfər, Gəncə xanlığı – 8 min nəfər, Bakı xanlığı – 1000 nəfər (28).

Ayrı-ayrı tarixi əsərlərdə xanlıqların qoşunlarının sayı haqqında fərqli rəqəmlərə də rast gəlmək mümkündür. Məsələn, İrəvan xanlığı qoşunlarının

sayı haqqında tarixi ədəbiyyatda müxtəlif rəqəmlər var. Lakin onların ümumi sayı 7 mini keçmir (29).

Çox saylı qoşuna malik xanlıqlardan biri Quba xanlığı idi. Quba xanlığının qoşunlarının sayı haqqında tarixi ədəbiyyatda bir-birindən xeyli fərqlənən rəqəmlərə rast gəlmək mümkündür. Tədqiqatçılar tarixi mənbələrə əsasən öz əsərlərində Quba xanlığı qoşunlarının 24 min olmasını da bildirirlər. Mənbələrə görə, Quba xanı Fətəli xan Qarabağ xanına və Kartli-Kaxetiya çarlığına qarşı 25 min nəfərlik qoşun çıxara bilmişdi (30).

Rus mənbələrinə istinadən başqa bir müəllif isə Quba xanlığının qoşununun 40 min olmasından söhbət açır (31). Bu rəqəm reallıqdan uzaq da ola bilər. Rus mənbələrinin birində isə bildirilir ki, Quba xanının ixtiyarında 3 min daimi qoşun var idi. Lakin Quba xanı ətraf xanlıqlar üzərinə hücum edəndə Dağıstan hakimlərini və ləzgiləri köməyə çağırırdı (32). Sonuncu rəqəm Dağıstan muzdlularının əlavə edilməsi ilə daha real görünə bilər. Məlumdur ki, Bakı, Şamaxı, Dərbənd və Cavad xanlıqları müəyyən vaxt ərzində Quba xanlığına birləşdirilmişdi. Həmin xanlıqların da qoşunlarının Quba xanlığına birləşməsi ilə qoşunların ümumi sayı müəyyən qədər arta bilərdi. Bununla belə, qoşunların 40 min olması haqqında məlumat elə də inandırıcı görünmür.

Tədqiqat əsərlərində Şamaxı xanlığının qoşununun 2 min nəfər olduğu göstərilir. Yenə rus diplomat mənbələri əsasında ehtimal edilirdi ki, Şamaxı xanlığı 8 minə qədər qoşun toplaya bilərdi. Başqa bir rus mənbəsinə görə isə Şamaxı xanlığının qoşunlarının sayı hətta 12 min nəfərə də çatdırıla bilərdi. Tarixi mənbələrə əsasən Şamaxı xanlığının qoşunlarının sayı haqqında başqa rəqəmlər də göstərilir. Məsələn, 5-6 min nəfər, habelə onların sayının 10 min nəfərə çatdırılmasının mümkünlüyü (33).

Tarixi ədəbiyyatda Şamaxı xanlığının qoşunlarının 2 min, 10 min olması, Qarabağ xanlığı qoşunlarının 15 min, Bakı xanlığı qoşunlarının 500 nəfər olması haqqında məlumatlar öz əksini tapmışdır (34).

Toplanmış olan qoşunların daha yaxşı idarə edilməsi üçün onlar struktur vahidlərinə bölünürdülər. Mənbələrdə və tarixi ədəbiyyatda xanlıq qoşunlarının onluq, yüzlük və minlik struktur vahidlərdə birləşdirildiyi göstərilmişdir. Bu struktur vahidlərinə də müvafiq olaraq onbaşı, yüzbaşı və minbaşılar rəhbərlik edirdilər (35).

Rus mənbələrində olan məlumatlara görə, Quba xanlığında yüz nəfər yüzbaşı var idi və qoşun bölmələrinə onlar rəhbərlik edirdilər. Qoşunların əsasını təşkil edən döyüşçülər nökər adlanırdılar (36). Nökər sözü burada məişətdə qulluqçu mənasını verən nökər sözündən fərqli mənaya malik idi.

Xanlıq daxilində ümumi səfərbərlik elan ediləndə mahal bəyləri öz qoşun dəstələri ilə xan qoşunlarına qoşulur və elə bir qayda olaraq özləri də

mahal qoşunlarına rəhbərlik edirdilər. Bu həm də onu göstərirdi ki, xanın mərkəzləşdirilmiş qoşun dəstəsi ilə bərabər, həm də yerlərdə təşkil olunmuş qoşun dəstələri var idi. Bu dəstələr xanlıqlara daxil olan mahalların hakimlərinin təşkil etdiyi dəstələr idi. Bu dəstələr tərkibinə görə azsaylı olmaqla mahal başçısının mühafizəsini, mahal daxilində asayişin qorunmasını təmin edirdi. Mənbələrdə göstərilir ki, Qarabağ xanlığının tərkibində olan Cavanşir, Otuz iki, Kəbirli, Dəmirçi, Həsənli, Bərgüşad, Qaraçorlu, Hacı Samlı, Kolanı və digər mahalların hakimləri vilayət xanları kimi əzəmət sahibi idilər (37).

Qoşunların idarə edilməsində xan yanında təşkil olunmuş orqanlar və xüsusi vəzifəli şəxslər iştirak edirdilər. Xanlıqların divanxanası xan ilə qoşunlar arasında əsas əlaqələndirici qurum sayılırdı. İrəvan xanının divanxanası bir neçə şöbədən ibarət idi və bu şöbələrdən biri də hərbi şöbə idi. Divanxananın rəhbərliyinə, o cümlədən də hər bir şöbənin rəhbərliyinə xanın yaxın və etibar etdiyi adamlar təyin olunurdu. İrəvan xanlığının divanxanasında hərbi məsələlərə xanın qardaşı Həsən xan rəhbərlik edirdi.

Mənbələrdə qoşunların idarəçiliyini öz üzərinə götürən soltan, yasovul, qoruyucubaşı, qalabəyi, keşikçi, mirzə və s. kimi vəzifə adlarına rast gəlmək mümkündür. Bu vəzifə sahiblərinin hər biri öz üzərinə düşən vəzifələri yerinə yetirirdilər. Xanlıq qoşunları daimi və qeyri-daimi hissədən ibarət idi. Qeyri-daimi kontingent irimiqyaslı döyüşlər və yürüşlər zamanı xanın tapşırığı əsasında toplanırdı. Döyüş başa çatdıqdan sonra isə onlar azad buraxılırdılar. Muzdlu dəstələri də qeyri-daimi qoşunlar sırasına daxil etmək olar. Muzdlular daimi deyildilər və onlar konkret tapşırığın icrası üçün xanlıq qoşunlarına dəvət edilirdilər. Döyüşün başa çatması ilə onlar da azad buraxılırdılar.

Eyni zamanda xanlıqların daimi qoşunu da var idi. Daimi qoşun başlıca olaraq şəhərin, qalanın, sarayın, xanın və ailəsinin mühafizəsini, qala və ya şəhər daxilində asayişin qorunmasını təmin edir, xanın tapşırıqlarını yerinə yetirirdi. Daimi qoşunun müəyyən kiçik miqyaslı hərbi tapşırıqların icrasına cəlb edilməsi də istisna təşkil etmir. Daimi qoşunun müəyyən hissəsi xanla birlikdə hərbi yürüşlərdə iştirak edirdi.

Yuxarıda qeyd edildiyi kimi, rus mənbələri Quba xanının 3 minlik daimi qoşununun, habelə güclü mühafizə dəstəsinin olmasından xəbər verirlər (38). Digər xanlıqlarda bu sayda daimi qoşunun ola biləcəyi az inandırıcıdır. Quba xanlığı kifayət qədər böyük xanlıq idi və Fətəli xan dövründə hərbi yürüşlərin keçirilməsi də çox fəallaşmışdı. Buna görə, xanlığın daimi qoşunu da çox ola bilərdi.

Tarixi ədəbiyyatda xanlıq qoşunlarının döyüşçülərinin hərbi təcrübəsinin artırılması üçün təlimlər keçməsinə də işarə olunur (39). Amma qoşun-

ların peşəkar səviyyədə təlim keçmələri haqqında mənbələrdə ciddi məlumatla rastlaşmaq çətindir. Burada şəxsi təcrübə və vərdişlər əsas yer tuturdu. Xanlıq qoşunlarının bir çox sərkərdələri Nadir şah qoşunlarının yürüşlərinin təcrübəsini keçmişdi. Belə təcrübə həm onların təcrübəli döyüşçü kimi formalaşması, həm də onların müəyyən təcrübələrini öz həmkarları ilə bölüşməsi baxımından maraqlı ola bilərdi. Qarabağ, Gəncə və Şəki xanları Nadir şah dövrünün yetişdirmələrindən sayıla bilərdi.

Köçəri həyat tərzi sürən boyların, nəsillərin üzvlərinin daimi at belində olması baxımından onların at sürmək, atı idarə etmək vərdişləri daha güclü idi. Ona görə də belələrinin şəxsi vərdişləri onların atlı döyüşçü kimi məharətlərinin formalaşmasında müsbət rol oynayırdı. İrəvan xanlığında xeyli sayda kürd yaşayırdı və onlar yaxşı atlı döyüşçü sayılırdılar. Kürd atlıları xüsusi fəallıq və döyüşgənlikdə ad çıxarmışdılar. Onların böyük sürəti, at belində silahdan istifadə etmək bacarığı dəfələrlə rus qoşunlarını ağır vəziyyətə salmışdı. İrəvan xanlığının gücünü zəiflətmək üçün rus generalları dəfələrlə kürd atlı dəstələrini öz tərəfinə çəkməyə çalışsalar da buna nail ola bilmədilər.

Döyüş təcrübəsinin əldə edilməsinin münasib yollarından biri ovda iştirak edilməsi idi. Ovda iştirak etməklə insanlar həm at sürmək vərdişlərini, həm də sərrast atmaq vərdişlərini inkişaf etdirirdilər.

Məlumdur ki, xanlıq qoşunlarında toplar var idi, döyüşlərdə müəyyən istehkam işləri həyata keçirilirdi. Topçuluq və istehkamçılıq vərdişlərinin əldə edilməsi isə bu işlərlə professional şəkildə təlim keçməyi tələb edirdi. Çox güman ki, yeni topçular və istehkamçılar fərdi qaydada və ya qrup şəklində təcrübəli topçuların və istehkamçıların yanında təcrübə keçirdilər.

Azərbaycan xanlıqlarının qoşunları atlı və piyada qoşun növündən ibarət idi. Atlı qoşun növü qoşunların əsas zərbə qüvvəsi idi. Xüsusən, dağlıq şəraitdə xırda dəstələrlə fəaliyyət göstərmək üçün atlı qoşunların daha yaxşı imkanları var idi. Onlar böyük sürətlə və gözlənilmədən qarşı tərəfin qoşunlarına qəfil zərbə vurur və sonra da döyüş meydanını tərk edirdilər. Xanlığın qoşun dəstəsinin qısa zaman ərzində bir məkandan başqa bir məkana atılması üçün atlı dəstələr daha əlverişli idi.

Atlı qoşun dəstələri bütünlükdə xanın qoşunlarının özəyini təşkil edirdi. Çünki bu qoşun növü yerli şəraitin tələblərinə daha çox cavab verirdi. Xüsusilə hücum xarakterli döyüşlərdə atlı dəstələrin istifadəsinə daha geniş imkan açılırdı. Xanlıqlar daxilində atların saxlanılmasına, yetişdirilməsinə və qoşunların atla təmin edilməsinə xüsusi diqqət yetirilirdi. Mənbələrdə bildirilir ki, Qarabağ xanı İbrahim xanın yaxşı atları və çoxlu ilxısı var idi. Onun ilxısı haqqında xəbərlər xanlıqdan xeyli uzaqlara belə yayılmışdı. İbrahim xanın ilxısında saxlanılan atların çoxu Nadir şahın atlarının

cinsindən idi. Xan onları Azərbaycan vilayətlərindən, Şahsevən, Şəqqaqi və Xorasan xanlarından alıb gətirmişdi. Qiymətli cins atların çoxaldılması üçün xanın 3-4 minə yaxın cins ayqırları və çoxbalalayan madyanları var idi (40).

Atlı dəstələrə cəlb olunanların atları var idisə, onlar adətən atları ilə birlikdə cəlb olunurdular. Qoşunlarda atlıların atı xan tərəfindən təmin olunurdu. Atlı qoşun dəstələrinin əsasını elatlar, xüsusilə dağlıq ərazilərdə yaşayan elatlar təşkil edirdilər. Atlı qoşun dəstələrinin fərqli struktur vahidlərinə malik olub-olmaması haqqında məlumat yoxdur. Çox güman ki, onlar da yuxarıda xatırlanan ümumqoşun vahidləri üzrə komplektləşdirilirdilər.

Qoşunların digər növünü isə piyadalar təşkil edirdilər. Piyadalar atlılar kimi çevik deyildilər. Lakin onlarsız güclü qoşun formalaşdırmaq da çətin olurdu. Xüsusilə, qalaların, düşərgələrin mühasirəsi daha çox piyadaların səmərəli fəaliyyəti hesabına həyata keçirilirdi.

Bütünlükdə isə, qoşunların zərbə gücü onların istifadəsində olan silahların xarakteri ilə bağlı idi. Doğrudur, Azərbaycan xanlıqlarının qoşunları müəyyən zərbə gücünə malik idilər. Lakin Azərbaycan xanlıqlarının dövrünün müasir silahları ilə silahlandığını da iddia etmək olmaz. Bu baxımdan Azərbaycan xanlıqlarının qoşunları zərbə potensialı baxımından Qacar qoşunlarından da, Rusiya qoşunlarından da geri qalırdı.

Azərbaycan xanlıqlarının qoşunları dövrünün xarakterik silahları ilə silahlanmışdılar. Bura həm odlu, həm soyuq, həm də müdafiə silahları daxil idi. İrəvan, Quba, Şəki xanlıqları qoşunları bu silahların hamısından istifadə edirdilər. Ümumiyyətlə qərar tutduqları şəraitə görə, Azərbaycan xanlıqla-rının hamısı qoşunların maddi-texniki təchizatına xüsusi diqqət yetirirdilər.

Xanlıqların həm atlı, həm də piyada qoşunları qılınc, xəncər, nizə, toppuz, tüfəng, tapança kimi silahlarla, qalxan, dəbilqə, metal mühafizə geyimləri kimi təchizat vasitələri ilə silahlanmışdılar. Xanlıqların bəzilərinin ərazisində bu silah və sursatın istehsalı təşkil edilmişdi, bəzilərində isə yox. Məsələn, Qarabağ xanlığında silah və sursat istehsalı xanlıq qoşunlarının bütün ehtiyaclarını ödəyəcək dərəcədə təşkil olunmamışdı. Bunun bir səbəbi də xanlığın formalaşma xüsusiyyəti ilə bağlı ola bilərdi. Ona görə xanlıq qoşunlarının silahlandırılması üçün gərək olan silah və sursatın qonşu xanlıqlardan gətirildiyi şübhəsizdir.

Məlumdur ki, Gəncə, Şamaxı, Naxçıvan, Təbriz, Urmiya və digər xanlıqlar odlu silah istehsalının mərkəzi idi. Təbrizdə xüsusilə böyük və güclü silah emalatxanaları var idi. Mövcud olan məlumatlara görə, Təbrizdə olan emalatxanalardan birində soyuq və odlu silah, digərində isə barıt istehsal olunurdu (41).

Tədqiqatların nəticələrinə görə, xanlıqlar dövründə Azərbaycan ərazisində silah istehsalı mərkəzlərindən biri də Lahıc idi. Burada 8 silah

emalatxanası fəaliyyət göstərirdi. Rusiyadan və Türkiydən gətirilən dəmir əsasında Lahıc emalatxanalarında tapança, tüfəng və hətta zənburək toplar da istehsal edilirdi. Burada istehsal olunan silahlar kifayət qədər keyfiyyətli silahlar idi və ətraf xanlıqlarda bu silahlardan çox istifadə edilirdi (42).

Bir sıra xanlıqların qoşunlarında toplar da var idi. Bölgədə top tökmə mərkəzlərindən biri Təbriz idi. Sonradan fransalı mütəxəssislərin cəlb edilməsi nəticəsində Təbrizdə top istehsalı kifayət qədər təkmilləşdi. İrəvanda da toptökmə sexinin olması haqqında məlumatlar mövcuddur. İrəvanda həm də barıt sexi mövcud idi. Çox mürəkkəb istehsal texnologiyasına malik olan topların tökülməsi və barıt hazırlanması qalada müvəffəqiyyətlə mənimsənilmişdi. Qərb səyyahlarının verdiyi məlumata görə, İrəvan qalasındakı məsciddə top tökmə üçün xüsusi yer ayrılmışdı (43). İrəvan qoşunlarının ixtiyarında həm səhra topları, həm də zənburəklər var idi.

Azərbaycanın başqa xanlıqları ərazisində top istehsal edilməsini ehtimal edən məlumatlar mövcuddur. Tarixi məlumatlara görə, 1757-ci ildə Məhəmməd Həsən xan Qacar Azərbaycan xanlıqları üzərinə hücuma hazırlaşanda Şəki xanı Mirzə Məhəmməd xan Gəncə xanı Şahverdi xana müraciət etdi ki, Gəncədəki top ustaları onun üçün top töksünlər (44). Bu da belə bir qənaətə gəlməyə əsas verir ki, Gəncədə də top istehsalı mənimsənilmişdi.

Mənbələrin və tarixi ədəbiyyatın məlumatına görə, xanlıqlar dövründə Şuşa qalasında böyüklü-kiçikli 50 ədəd, Gəncədə 40 ədədə qədər, Şamaxıda 40-a qədər, Dərbənddə 50-yə qədər, Bakıda 30-a qədər top var idi (45). Şəki xan sarayının divarüstü rəsmlərinə əsasən güman etmək olar ki, bu xanlığın ixtiyarında da xeyli sayda top var idi.

Azərbaycan xanlıqlarının hərbi potensialını müəyyənləşdirən mühüm elementlərdən biri də şübhəsiz ki, mühəndis-istehkam tikililəri, qalalar, bürclər və s. idi. Xanlıqlar ərazisində müdafiə-istehkam tikililərinin aparılmasına xüsusi əhəmiyyət verilirdi. Güclü istehkam qurğularının yaradılması xanlıq qoşunlarının vaxtaşırı hücumlardan qorunmasının ən etibarlı vasitələrindən biri idi.

Dövrün hərb sənətinin inkişaf səviyyəsinə görə, aparılan döyüşlər bir qayda olaraq qalalar üzərində və ətrafında qurulurdu. Qalalar üzərində və ətrafında döyüşlərin təşkil edilməsi dövrün taktikasının da əsasını təşkil edirdi. Açıq meydanlarda döyüşlərin təşkili təcrübəsi olsa da, qala döyüşləri daha çox əməli əhəmiyyət kəsb edirdi. Ona görə də Azərbaycan xanlıqlarının mərkəzi şəhərləri güclü şəhər-qalalara çevrilmişdi. Bununla bərabər, xanlıq ərazisində möhkəm qalaların tikilməsinə də lazımi diqqət yetirilirdi.

Azərbaycan xanlıqları ərazisində mövcud olan qalaların, qala şəhərlərin əksəriyyəti hələ xanlıqlar dövründən əvvəl tikilmişdi. Xanlıqların çoxu da əvvəldən mövcud olan qala-şəhərlərin ətrafında formalaşmışdı.

Şəki xanlığı ərazisində olan "Gələsən-Görəsən" qalası əvvəlki fəsillərdə qeyd edildiyi kimi, hələ Nadir şah dövründən ciddi proseslərin mərkəzinə çevrilmişdi. Yerləşdiyi coğrafi şərait, tikinti-memarlıq xüsusiyyətləri üzündən bu qalanın alınması elə də asan deyildi. Ona görə də hələ Nadir şah dövründən başlayaraq "Gələsən-Görəsən" qalasında etibarlı şəkildə müdafiə olunmaq mümkün idi. Şəki şəhəri özü də qala-şəhər nümunəsi idi və dövrün ənənəvi qala-şəhər arxitekturası bu şəhər üçün də xarakterik idi.

Araşdırmalardan bəlli olur ki, 1765-ci ilə qədər Şəki şəhəri qala divarları ilə əhatə olunmamışdı. Kənar hücumlar zamanı şəhər əhalisi daha yaxşı müdafiə olunmaq üçün "Gələsən-Görəsən" qalasına pənah aparmalı olurdu. Burada müdafiə imkanları olsa da, uzun müddətli yaşayış üçün müəyyən çətinliklər mövcud idi. Ona görə Şəki hakimləri şəhərin qala divarları ilə əhatə olunmasına qərar verdilər. Bu iş 1765-ci ildə başa çatdı. 1772-ci ildə Kiş çayının daşması nəticəsində Şəki şəhəri tamamilə viran oldu. Hadisənin təkrarı ilə rastlaşmamaq üçün şəhər yeni yerdə salındı və yenidən qala divarları ilə əhatə olundu. Bundan başqa iki qala da tikildi. Onlardan biri şəhərdən kənarda idi. Digəri isə şəhər daxilindəki Məhəmməd Həsən qalası idi. Şəhərdən bir qədər aralıda, hündür yerdə bürclər tikildi. Bu bürclərdən müşahidələr aparılır, yad qüvvələr yaxınlaşanda tonqal qalanmaqla şəhərə xəbər verilirdi (45a).

Quba xanlığı ərazisində Şəhirçə və Çıraqqala kimi qalalar mövcud idi. Şəhirçə qalası qədim qala olmaqla əsas yollardan birinin yaxınlığında yerləşirdi. Dərin çuxurla əhatələnməsi qalanın müdafiə imkanlarını daha da artırırdı. Çıraqqala isə sərt qayalar üzərində tikilmişdi. Bu qalanın tikintisində də məntəqənin coğrafi xüsusiyyəti nəzərə alınmışdı və dağın hündürlüyündə tikilmiş bu qalaya çoxsaylı qoşunların yaxınlaşmaq imkanı yox idi. Tarixi məlumatlara görə, bu qala daha çox müdafiə üçün nəzərdə tutulduğu üçün dinc dövrdə onun daxilində qaynar yaşayış yox idi. Quba-Şamaxı yolunun üstündə tikilmiş olan qədim Beşbarmaq qalasından da müdafiə üçün istifadə edilməsi mümkün idi. Bu qalada 500-ə qədər ailənin sığınması imkanı var idi (46).

Dərbəndin birləşdirilməsindən sonra Quba xanlığının ən etibarlı qalalarından biri şübhəsiz ki, Dərbənd qalası idi. Qədim tarixə malik olmasına baxmayaraq, Xəzər dənizinin içərilərinə uzanan möhkəm divarlar şəhəri şimaldan və cənubdan əhatə edirdi. Divarların uzunluğu 6,4 verst, qalınlığı 5-7 fut, hündürlüyü isə 28-40 fut arasında idi. Divarlar boyu bir-birindən müəyyən məsafədə olan çoxlu sayda bürclər var idi. Bu bürclərdə

döyüşçülər etibarlı şəkildə müdafiə olunur və eyni zamanda onlar buradan qalanı mühasirə edən qüvvələrə qarşı hücumlar da qura bilirdilər. Divarların yuxarı hissəsində xüsusi mazqallar var idi ki, həmin mazqallardan da bomba, od və s. atılması üçün istifadə oluna bilərdi. Qala divarları o dərəcədə möhkəm idi ki, dövrün topları bu divarların təxrib edilməsində gücsüz idilər (47).

Dərbənd qala-şəhəri dörd hissədən ibarət idi – yuxarı qala, iki orta hissə və aşağı hissə. Qala şəhərin yuxarı hissəsi Narınqala adlanırdı və bu hissədən şəhər-qalanın aşağı hissələrini rahatca müşahidə etmək mümkün idi. Xan sarayı, xanlıq qoşunları burada yerləşirdi. Narınqalanın yeraltı yolları da var idi. Xanlıq qoşunlarının silah, sursat anbarları da Narınqalada yerləşirdi. Mühasirə zamanı əhalinin təmin edilməsi üçün Narınqalada iki böyük su quyusu qazılmışdı (48).

Yuxarıda qeyd edildiyi kimi, Dərbənddə 50-yə kimi top var idi və əhalinin əksəriyyəti də silahlanmışdı. Topların bürclərə yerləşdirilməsi ilə qalanın müdafiəsini daha da gücləndirmək mümkün idi.

Möhkəmliyi və müdafiə etibarlılığı ilə seçilən iki qala İrəvan xanlığı ərazisində mövcud idi. Bunlardan biri daha əvvəldən mövcud olan İrəvan qalası idi. Digəri isə İrəvan xanı sərdar Hüseyn xanın göstərişi ilə tikilmiş Sərdarabad qalası idi. Qala onu tikdirən İrəvan sərdarının adı ilə adlandırılmışdı. Hər iki qala Azərbaycan ustalarının zəhmətinin məhsulu idi.

Sərdarabad qalası İran və Türkiyə sərhədinin yaxınlığında tikilmişdi. Qalanın burada tikilməsində məqsəd bu dövlətlər ərazisindən başlanan hərbi yürüşlərin ilk zərbəsini öz üzərinə götürmək idi. Bunun üçün qalanın böyük imkanları var idi. Sərdarabad qalası Eçmiədzin monastırından 25 verst aralı, Alagöz dağı istiqamətindəki böyük düzənlikdə tikilmişdi. Onun düzənlikdə tikilməsi düşmən mühasirəsi zamanı ətrafı yaxşı müşahidə etməyə imkan verirdi. Qala dördbucaq şəklində tikilmişdi. Onun iki hündür divarı var idi. Qalanın qoşa divara malik olması onun müdafiə qabiliyyətini artırırdı. Divarların hündür bürcləri var idi. Giriş üçün böyük darvazalar düzəldilmişdi. Qalanın divarları üstündə toplar yerləşdirilmişdi. Qala qarnizonunun sayı 2 minə çatırdı. Qalada 14 ədəd topun olması da güman edilir (49).

İrəvan qalası Sərdarabad qalası ilə müqayisədə daha qədim tarixə və böyük ölçülərə malik idi. Bu qala əlverişli təbii mövqedə yerləşmişdi. Onun tikintisi üçün iti axan Zəngi çayının sağ tərəfindəki sərt sahildə yerləşən hündürlük seçilmişdi. Bu sahil qalanın qərb tərəfini təşkil edirdi. Ona görə həm iti axan çay, həm də onun sərt sahili üzərindəki hündür divarlar bu istiqamətdə onun müdafiə imkanlarını xeyli artırırdı.

Qala demək olar ki, dördbucaqlı şəklində tikilmişdi. Yalnız onun qərb divarı Zəngi çayının sahili boyu salındığından qövsvari formada idi. Qalanın

divarları daşdan və çiy kərpicdən hörülmüşdü. Bayırdan tikilən divarın hündürlüyü beş sajen yarım idi. Bəzi məlumatlara görə həmin divarda 17 bürc olmuşdu. Daxili divar isə birinci divardan daha hündür idi və onların arasında təxminən 50-60 metr məsafə var idi (50). Qalanın bu plan əsasında tikilməsinin səbəbi o idi ki, düşmənlər birinci divarı keçə bilsəydi daha hündür olan ikinci divarla üzbəüz gəlməli və bu divarlar arasındakı kiçik sahədə onların fəaliyyət azadlığı xeyli çətinləşməli idi. İkinci divarda da çoxlu bürclər var idi. Bu bürclər əsasən yarım dairə şəklində tikilmişdi.

Qalanın iki böyük darvazası var idi. Biri şimalda, o biri isə cənubda. Onlar Təbriz və Şirvan darvazaları adlandırılırdılar. Darvazalar qalın taxtadan düzəldilmişdi və onların üzərinə dəmir lövhələr vurulmuşdu. Darvaza keçidləri elə düzəldilmişdi ki, buradan arabaların gəlib keçməsi xeyli çətin idi. Qalanın darvazalarını xüsusi qarovul dəstələri qoruyurdu. Həmin qarovul dəstələri birinci divarın darvazasının üzərində tikilmiş xüsusi otaqlarda yerləşdirilmişdi (51).

Hər iki darvazanın yaxınlığında, birinci divarla ikinci divarı birləşdirən aralıq divarlar tikilmişdi. Qala divarlarının qalınlığı isə çox böyük idi. Onların ölçüləri hətta top mərmilərinə davam gətirirdi.

Uzunmüddətli mühasirəyə davam gətirmək üçün gizli yolla qalanın daxilinə su xətti çəkilmişdi. Rus qoşunlarının ikinci hücumu zamanı bu xətt tapılıb dağıdılmışdı.

Qalanın müdafiə qüdrətini artırmaq üçün onun ətrafında su saxlancları yaradılmışdı. Bu su saxlancları qurudan birbaşa qala üzərinə hücumu qeyri-mümkün edirdi. Onları keçməyə cəhd göstərənləri isə qala divarları üzərində asanlıqla vurmaq olardı.

Su saxlancları xüsusi plan üzrə pilləli şəkildə tikilmişdi. Qırxbulaq çayından gil borularla gələn su şimal darvazası yanında yuxarı su saxlancına tökülürdü. Su qalanın şərqinə və cənubuna uzanan su saxlancını doldurduqdan sonra gil borularla aşağı saxlanca tökülüb onu doldururdu. Yuxarı su saxlancı bəndinin aşmaması üçün o, iti ucluqları yerə basdırılmış tirlərlə möhkəmləndirilmişdi. Su saxlanclarının nəzərdə tutulan müdafiə tələblərinə cavab verməsi üçün onlar həmişə nəzarət altında saxlanılırdılar (52).

Fransız səyyahı J.Şarden şahidi olduğu İrəvan qalasını təsvir edərkən göstərirdi ki, onu müstəqil bir şəhər kimi də qəbul etmək olar. Qala divarlarının uzunluğu dörd min addım olan bu şəhərcikdə 800 ev var idi. Fransalı səyyahın şəhadətinə görə qalada yalnız azərbaycanlılar yaşayırdılar. Ermənilər isə bura yalnız ticarətə gəlirdilər. Qalanın daxilində bir neçə erməni dükanı mövcud idi. Ermənilər gündüz burada sövdəgərliklə məşğul olur, axşam isə qaladan çıxıb yaxınlıqda yerləşən şəhərə yollanırdılar (53).





*İrəvan xanının sarayının daxili görünüşü. Aşağıdakı şəkildə saray divarına solda Fətəli şahın, sağda isə İrəvan xanı sərdar Hüseynqulu xanın rəsmi təsvir eilmişdir.*

Qala daxilində şəhərsalma qərb üslubunda idi. Küçələr xeyli dar, evlərin divarları isə hündür idi. Küçədən evin həyətini müşahidə etmək çətin olurdu. Rusların İrəvan qalası üzərinə sonuncu hücumunda iştirak etmiş keçmiş dekabrist E.Laçinovun qeydlərinə görə qala daxilində iki məscid var idi (54). Bəzi ədəbiyyatda mövcud olan məlumata görə isə qala daxilində dörd məscid var idi və onlardan ən qədimi qalanın əsası qoyulduğu illərdə, 1510-cu ildə Şah İsmayıl Səfəvinin göstərişi ilə tikilmişdi. Sərdar sarayının yaxınlığında olan Cümə məscidinin əsasını isə Şah Abbas qoymuşdu. Bu məsciddə mədrəsə, kitabxana və qonaq otaqları var idi.

Qalanın daxilindəki ən möhtəşəm tikili Sərdar sarayı idi. Burada İrəvan xanlığının həm dəftərxanası, həm də hərəmxanası yerləşirdi. Verilən məlumatlara görə Sərdar sarayının əsası elə qala tikildiyi vaxtdan qoyulmuşdu. Lakin sonrakı illərdə bu tikili əsaslı şəkildə təkmilləşdirilmiş və böyük bir memarlıq incisinə çevrilmişdi. Xüsusən, XVIII əsrin sonlarında Hüseynəli xanın və onun oğlu Məhəmməd xanın dövründə memar Mirzə Cəfər tərəfindən görülən təkmilləşdirmə işləri və aparılan yeni tikinti işləri sarayı daha baxımlı və bütöv etmişdi.

Dekabrist Laçinov öz qeydlərində ermənilər tərəfindən artıq dağıdılmış olan Sərdar sarayının da mükəmməl təsvirini vermişdi. Azərbaycan memarlıq məktəbinin incilərindən olan bu sarayın ən gözəl otaqlarından biri xanın otağı idi. E.Laçinova görə sonsuz zövq və ustalıqla bəzədilmiş bu otaqda maraqlı rəsmlər və portretlər asılmışdı. Salonun qarşısında sərdarın yay qəbul zalı yerləşirdi. Yay qəbul zalı da böyük zövqlə bəzədilmişdi. Yay qəbul zalının bir divarında Fətəli şahın taxtda oturduğu vəziyyətdə və Abbas Mirzənin rəsmləri, başqa bir divarda isə sonuncu İrəvan xanı sərdar Hüseyn xanla qardaşı Həsən xanın və iki kürd döyüşçüsünün rəsmləri çəkilmişdi (55).

İrəvan şəhəri qalanın şimal ətrafında tikilmişdi. Qala ilə şəhər arasında müəyyən qədər məsafə var idi. Bu da müdafiə işinə xidmət edirdi. Bütün məziyyətlərinə görə, İrəvan qalasının böyük müdafiə imkanları var idi. Onun möhtəşəmliyini rus generalları da dəfələrlə öz raportlarında qeyd etmişdilər.

Qarabağ xanlığı ərazisində mövcud olan işlək qalalar əsasən bu xanlığın təşkilindən sonra qurulmuşdu və xanlığın müstəqilliyinin qorunmasında onların böyük əhəmiyyəti var idi. Pənah xan Qarabağ xanlığını qurmağa başlayarkən özünün müdafiəsinin etibarlı təmin edilməsi üçün hər hansı bir qalanın tikilməsinə ehtiyac duydu. O, ilkin olaraq Bayat qalasını tikməyi qərara aldı. Bu qalanın 1747-ci ildə və 1748-ci ildə tikilməsi haqqında məlumarlar var.

Qala divarları tikilib başa çatandan sonra ətrafda xəndəklər qazıldı və su ilə dolduruldu. Su ilə doldurulmuş xəndəklər qalanın müdafiəsini daha da gücləndirə bilərdi. Qalanın tikintisi başa çatan kimi Pənah xan ailəsini, qoşunlarını və yaxınlarını qalaya köçürdü. Az sonra Pənah xan Bayat qalasının etibarlılığını əməli şəkildə yoxlamalı oldu. Onun Hacı Çələbi xanla döyüşü məhz bu qala ətrafında baş verdi. Məlumdur ki, Hacı Çələbi xanın birləşmiş qoşun dəstəsi Pənah xanın müqavimətini qıra bilmədən geri qayıtdı. Bununla belə, Hacı Çələbi xanın qoşunu ilə keçirilən döyüş Bayat qalasının müəyyən çatışmazlıqlarını da üzə çıxardı. Əvvəla Bayat qalası aranda, düzlük ərazidə tikilmişdi və buna görə də istənilən istiqamətdən kənar qüvvələrin hücumlarına məruz qala bilərdi. Digər tərəfdən də yay vaxtları qala ətrafındakı əhali yaylaqlara köçdüyündən qala ətrafında əhali qalmırdı ki, bu da qalanın müdafiəsini həssas edirdi (56).

Ona görə Pənah xan qərara aldı ki, yeni bir qalanın əsasını qoysun. Nəzərdə tutulmuşdu ki, bu qala aran və dağlıq ərazilərin qovşağında yerləşsin. Bununla bağlı Pənah xan ətrafındakılarla məsləhətləşmələr apardı və sonda qəbul olundu ki, yeni qala Ağdamın 5-6 kilometrliyində yerləşən Şahbulağı adlanan yerdə tikilsin. Qalanın tikildiyi ərazi həm müdafiə işlərinin təşkili baxımından əlverişli idi, həm də qala üçün seçilmiş yerdə bulaq mövcud idi. Mövcud olan məlumatları görə, Şahbulaq qalası iç və xarici qaladan ibarət idi. Qala divarları daş və əhəngdən tikildi və onun ikiqat olması qalanın müdafiəsini daha da gücləndirdi. Qalanın ilk divarlarını aşmağa müvəffəq olan yad silahlılar ikinci divar qarşısında daha ciddi müqavimətlə rastlaşmalı olurdu. İç qala dördbucaq şəklində idi. Qalanın hər küncündə bir bürc tikilmişdi. Bundan başqa giriş qapısı olmayan divarların mərkəzi hissəsində yarımdairə şəklində bir bürc tikilmişdi. Xarici bürclərin və divarların yuxarı hissəsi diş-diş şəklində idi. Divarların yuxarısında olan girintilər müdafiəçilərin qorunması üçün əhəmiyyət kəsb edirdi. Bundan başqa divarlar boyu döyüş mazğalları da tikilmişdi. Qala divarlarının hündürlüyü 7 metr, bürclərin hündürlüyü isə 8,5 metr idi. Qala daxilində daşdan məscid, hamam, xan iqamətgahı, bazar və digər obyektlər tikilmişdi (57).

Şahbulağı qalasının tikintisi gedərkən Pənah xanla Xaçın məliyi arasında münasibətlər kəskinləşdi. Xaçın məliyi 2 min nəfərlik dəstə toplayıb Pənah xana qarşı mövqe tutdu. Doğrudur, Pənah xan qətiyyətli hücumu ilə Xaçın məliyini yenidən itaət altına gətirə bildi. Amma eyni zamanda ona bir daha aydın oldu ki, etibarlı müdafiə olunması üçün Şahbulaq qalası kimi bir qalaya da ehtiyac vardır və bundan sonra qalanın tikintisinə diqqət daha da artırıldı (58).

Şahbulaq qalası 1751-1752-ci illərdə tikilib başa çatdırıldı. Pənah xan dərhal öz ailəsini, qoşununu, əyanlarını və s. Şahbulaq qalasının daxilinə köçürdü. Nəhayət, Qarabağ xanlığı ərazisində inşa olunan ən mühüm müdafiə tikililərindən biri də Şuşa qalasıdır. Bu qalanın tikilişi heç şübhəsiz ki, Pənah xanın əvvəlki tikdirdiyi qalalar ətrafında apardığı döyüşlərdə əldə edilmiş təcrübənin nəzərə alınmasının nəticəsi idi. Pənah xan özü gücləndikcə, bölgədə söz sahibinə çevrildikcə ona qarşı istiqamətlənən xarici təzyiqlər artmaqda idi. Ona görə Pənah xan müdafiə işlərində daha etibarlı olacaq bir qalanın tikintisini məqsədəuyğun saydı.

Şuşa qalasının tikintisi üçün elə bir yer seçildi ki, onun yerləşdiyi təbii-coğrafi şərait müdafiə imkanlarını daha da artırdı. Özü də mənbə müəllifləri qeyd edirlər ki, Şuşa qalası yaşayış olmayan bir ərazidə tikildi. Həmin ərazi Pənah xana məsləhət bilinəndən sonra, xan özü oranı nəzərdən keçirdi, müdafiə və yaşayış üçün yararlı olub-olmadığını yoxladı. Bildirilir ki, qala üçün nəzərdə tutulan ərazinin böyük bir hissəsi meşəlik idi. Burada yalnız otlaq üçün kiçik bir sahə var idi. Qala üçün nəzərdə tutulan ərazilər cənub-qərbdən şimal-şərqdən, qərb və cənub tərəfdən piyadaların gedib-gəlməsi mümkün olmayan sıldırım qayalarla əhatə olunmuşdu. Dövrün hərbi texnikası ilə həmin istiqamətlərdən tikiləcək qalaya yaxınlaşmaq mümkün deyildi. Ona görə həmin sıldırım qayalar ərazinin müdafiə imkanlarını xeyli artırırdı. Elə bu cəhət də ərazinin yeni qala tikintisi üçün əhəmiyyətini artırırdı. Pənah xan və onun ətrafındakıların nigarançılığına səbəb olacaq bir məsələ var idi ki, o da tikiləcək qalanın su ilə təmin edilməsi zəruriliyi idi. Məsələnin həllinin öyrənilməsi üçün ərazidə bir neçə su quyusu qazıldı və həmin quyulardan su çıxması orada Şuşa qalasının tikintisinə qərar verilməsini qətiləşdirdi.

Qala inşa olunacaq ərazinin açıq tərəflərinin mühafizəsi üçün qala divarlarının tikintisinə başlandı. Həmin tikinti işlərinin aparılmasına xanlıq əhalisi cəlb olundu. Təxminən 2,5 km uzunluğunda qala divarları tikildi. Mənbələrdə qala divarlarının tikintisinə və Şuşanın əsasının qoyulmasına 1750-ci ildə başlandığı bildirilir. Qala divarları daşdan və əhəngdən quruldu. Tikintisi başa çatandan sonra qala divarları kifayət qədər möhkəm qala səddinə çevrildi. Bu divarı hətta top gülləsi ilə də zədələmək mümkün deyildi (59).

Mənbələrin məlumatına görə, Şuşa qalasının divarlarının hündürlüyü beş arşın, eni isə iki arşın idi. Divarlarda dörd darvaza var idi. Mirzə Yusif Qarabağinin yazdığına görə, bu darvazalardan biri Şuş kəndi istiqamətində açılırdı. O biri darvazalardan biri İrəvan istiqamətinə açıldığı üçün ona "İrəvan qapısı", üçüncü qapı isə Gəncə və ya Çiləbörd qapısı adlanırdı. Çünki bu darvaza Gəncə və Çiləbörd istiqamətinə açılırdı. Mövcud olan məlu-

matlara görə, Şuşakənd qapısı bəzən Ağoğlan qapısı və ya Muxtar qapısı və bəzən də Topxana qapısı adlandırılırdı. Şuşaya açılan dördüncü darvaza isə sonradan sökülüb dağılmış və onun yerinə divar tikilmişdi (60).

Şuşa qalasının tikintisi başa çatandan sonra Pənah xan Şahbulaq qalasının əhalisini bura köçürdü. Xanlığın ərazisindən də bura köçürülənlər oldu, şəhərdə məhəllələr, məscid və hamamlar tikildi. Qala daxilində ermənilərdən məskunlaşanlar olsalar da, əhalinin əsasını elat camaatı təşkil edirdilər. Mirzə Yusif Qarabağinin yazdıqlarından da aydın olur ki, qala daxilində formalaşan məhəllərlər də türk-elat məhəllələr idilər: Mehrili, Qazançılı, Əylisli, Çiləbörd, Aşağı Məhəllə, Qurdlar, Culfa, Quyuluq, Çuxur Məhlə, Hacı Yusifli, Merdinli, Cuhudlar, Saatlı, Mamayı, Xoca Mərcanlı, Çölqala və Hamamarası (61).

Heç şübhəsiz ki, Şuşa qalasının inşası başa çatandan sonra onun müdafiə sistemi də quruldu və çox keçmədi ki, qala ətrafında Pənah xan ilk ciddi sınaqla üzləşməli oldu. Həmin sınaq Məhəmməd Həsən xan Qacarın Şuşa qalası üzərinə hücumu oldu. Məhəmməd Həsən xan hətta divarvuran toplara malik olsa da, Şuşa qalasını ələ keçirməyə nail olmadı. Onun öz niyyətinə nail olmadan geri qayıtması Şuşa qalasının etibarlılığını bir daha nümayiş etdirdi.

Pənah xanın xanlığı dövründə Fətəli xan Əfşarın Qarabağ xanlığı üzərinə, İbrahim xanın dövründə, 1795-ci ildə Ağa Məhəmməd xanın Şuşa üzərinə hücumunun uğursuzluğa düçar olmasında da Şuşa qalasının müdafiə imkanları öz sözünü dedi.

Mövcud olan məlumatlara görə, Pənah xan tərəfindən tikilən qala divarları üzərində 1799-cu ildə təkmilləşdirilmə işləri aparıldı. Mənbələr məlumat verirlər ki, bu işə rus mühəndisləri cəlb edildilər. Nəticədə qala divarları həm əlavə bir verst uzadıldı, həm də divarlar möhkəmləndirildi (62).

Qarabağ xanlığı ərazisində öz möhkəmliyi ilə əhəmiyyət kəsb edən digər iki qala Əsgəran qalalarıdır. Bu qalalar İbrahimxəlil xanın dövründə, 1783-84-cü illərdə tikilmişdi. Həmin qalalar Şuşadan 25 km aralı Qarqar çayı sahilində inşa edilmişdi. Qalaların divarlarının hündürlüyü 8 metr, qalınlığı isə 2 metr ətrafında idi (63).

Mənbələrdə mövcud olan məlumata görə, həmin qalaların tikilməsi Pənah xan tərəfindən vəsiyyət olunmuşdu və onların tikintisi ərazinin müdafiə əhəmiyyəti ilə şərtlənirdi. Qalalar dağ sıralarının kəsişdiyi və təbii keçid təşkil etdiyi yerdə qurulmuşdu. Şimaldan gələ biləcək yad qüvvələr buradan, Qarqar çayının sahilindən keçməklə Xocalı-Şuşa istiqamətində irəliləyə bildilər. Ətraf sıx meşələrlə və qayalı dağlarla əhatə olunmuşdu ki, onlardan adlamaq elə də asan deyildi. Əsgəran qalalarının tikintisi və həmin qalalarda az saylı qoşun dəstəsinin yerləşdirilməsi ilə oradan keçmək istəyən

yad qüvvələrin qarşısını saxlamaq asanlıqla mümkün idi. İbrahim xan bu qalaların müdafiə işinin təşkilindəki yerini qiymətləndirib onların inşasına əmr verdi. Nəticədə iki qala tikildi, biri şərqdə, o biri qərbdə. Orada müəyyən miqdar silahlılar da yerləşdirildi. Mənbələrdəki məlumatlara görə, Ağa Məhəmməd xan 1795-ci ildə Şuşa ətrafından Tiflisə doğru hərəkət edəndə Əsgəran qalasındakı xan qüvvələrinin müqaviməti ilə rastlaşmalı oldu. Qacar toplarının atəşləri də burada müdafiəni yarıb irəliləməyə imkan vermədi. Təxminən 20 günlük müdafiədən sonra İbrahım xanın göstərişi ilə Əsgərandakı qüvvələr müqaviməti dayandırıb geri çəkildilər və Qacar qoşunları da bundan sonra irəliləməyə davam etdilər (64).

### *2.Qacar qoşunlarının vəziyyəti*

Qacarlar dövrünün tədqiqatçıları mövzuya toxunarkən birmənalı şəkildə bildirirlər ki, XVIII əsrin sonlarında və XIX əsrin ilk bir neçə ilində şah sarayının malik olduğu qoşunlar Avropa dövlətlərinin qoşunları ilə müqayisədə son dərəcə geri qalmışdı. Qacar qoşunlarının nə ciddi bir hərbi təşkili var idi, nə də bu qoşunlarla müqayisə oluna biləcək bir quruluşu. Tədqiqatçılar hətta Qacar süvari qoşunlarının orta əsr Avropa dövlətlərinin süvari qoşunları səviyyəsində olmadığını belə iddia edirlər (65).

Səfəvilər dövründən sonra bölgənin hərbi quruculuq işlərində ciddi bir inkişaf və dəyişiklik baş verməmişdi. Doğrudur, Nadir şah ətrafına böyük qoşun toplayıb böyük bir imperiya yarada bilmişdi. Amma Nadirin hərbi uğurları da daha çox fiziki keyfiyyətlərin daha səmərəli istifadəsi, taktiki vərdişlərə yaradıcı yanaşılması, qoşunların mənəvi-psixoloji potensialının daha geniş səfərbər edilməsi, hərb ilə siyasətin daha dəqiqliklə tənzimlənməsi hesabına baş verdi. Cəmiyyətin iqtisadi inkişafında, xüsusilə də hərbin maddi-texniki bazasında elə bir ciddi inkişaf və sıçrayış baş verməmişdi ki, döyüş taktikasını və hərbi strategiyanı da öz arxasınca apara bilsin. Əslində mövcud olan tarixi şərait də buna imkan vermirdi. Son Səfəvilər dövründə başlanan separatçılığa, parçalanma meyllərinə Nadir şah dövründə nisbi bir sabitlik gətirilsə də bu meyl tamamilə aradan qalxmadı. Nadir şahın ölümündən sonra isə bu parçalanma sürətləndi, siyasi və iqtisadi həyatı öz ağuşuna aldı. Dövrün hərbi mənzərəsi də bu cəhətləri ilə xarakterizə olunurdu.

Nadir şahın ölümündən sonra Qacarların mərkəzləşdirilmiş hakimiyyətinin bərqərar olduğu vaxta qədər olan dövr ölkə daxilində parçalanma, məhəlli separatizm, nüfuz dairələri uğrunda mübarizə və s. kimi xarakterizə olunur. İqtisadiyyatın da tənəzzüldə olduğu belə bir dövrdə hərbi təfəkkürün, hərbin maddi-texniki bazasının sürətli inkişafından da danışmaq olmaz. Ona görə də, Qacarlar dövrünün hərb işinin səviyyəsi, əslində Nadir şahın

ölümündən sonra ölkə ərazisində mövcud olmuş hərbi işinin inkişafa məruz qalmayan davamı idi.

Ağa Məhəmməd xanın Zənd əsirliyindən qaçaraq hakimiyyət uğrunda mübarizəyə başladığı ilk illərdə ətrafına topladığı dəstələrin fəaliyyətinin təşkilində xüsusi bir nizamlılıq və təşkilatçılıq mövcud idi. Hərb işinə olan ehtiyac adətən şahın iradəsi ilə müəyyənləşir və daha çox özfəaliyyət qaydasında həyata keçirilirdi. Çünki hərb işinin nizamlayacaq sabit normativ tələblər və ya kök salmış ənənə yox idi. Hətta döyüşlər zamanı qoşun dəstələrinin fəaliyyətini nizamlayacaq və hərbi qərargahı əvəz edə biləcək bir struktur yox idi.

Qoşunların sayı artdıqca Ağa Məhəmməd xan bu məsələyə müəyyən nizamlılıq gətirməyə cəhd göstərirdi. Hələ Mazandaranda olarkən Ağa Məhəmməd xan qoşunları təşkilati və maliyyə işləri ilə məşğul olacaq vəzifələr təsis etdi. Qoşunların təşkili və onların sayına nəzarət üçün qulamnevis vəzifəsi yaradıldı və Mirzə Əsədulla Nuri bu vəzifəyə təyin edildi. Bu vəzifəyə təyin olunmuş şəxslər "ləşgərnevis" də adlandırılırdılar. Bu söz "qoşun mirzəsi" mənasındadır. Ləşgərnevislər qoşunların kargüzarlığını aparırdılar. Qoşunların sayının artması ilə ləşgərnevislərin sayı da artırdı. Sonradan bu vəzifəni icra edənlər hətta "qoşun vəziri" də adlandırılırdılar (68).

Bununla belə, Ağa Məhəmməd xan qoşunların idarəçiliyi işinin təkmilləşdirilməsini davam etdirmədi. Onun sarayında qullarağası, keşikçibaşı, tüfəngçibaşı kimi vəzifə sahibləri var idi. Lakin onların vəzifəsi sarayın formal bir əlavəsinə çevrilmişdi. Səfəvilər dövründə Səfəvi qoşunlarına qoşulmuş olan gürcü, xristian, çərkəz və digər etniklər qullar adlandırılırdı və onların idarə edilməsinə qullarağası rəhbərlik edirdi. Qullarağası kifayət qədər nüfuzlu vəzifə sayılırdı və şah sarayında adətən şahın sol tərəfində qorçubaşıdan sonra dayanırdı. Keşikçibaşı və tüfəngçibaşı isə adlarından da göründüyü kimi, birincisi mühafizə dəstələrinə, ikincisi isə tüfənglərlə silahlanmış piyada dəstələrinə rəhbərlik edirdilər. Ağa Məhəmməd xanın dövründə bu vəzifə sahiblərini görmək mümkün deyil.

Qoşunlarda hər şeyi şahın iradəsi həll etsə də, məşvərət orqanlarının yaradılması dövr üçün bir yenilik kimi qəbul edilə bilər. Bu məşvərət şuralarından biri ölkənin idarəetmə məsələləri ilə bağlı təşkil edilmişdi. Bu məşvərət şurasına ağsaqqallar, kələntərlər, kəndxudalar daxil edilmişdi. Digər məşvərət şurasına isə sərdarlar, sərkərdələr, cəngavərlər və digərləri daxil edilmişdilər. Bildirilir ki, Ağa Məhəmməd xan onların hər biri ilə müzakirə aparır, söhbət edir və məsləhətləşirdi (69). Amma bu məşvərətçi orqan heç də kollegial bir orqan deyildi və hərbi məsələlərlə bağlı bütün məsələlər Ağa Məhəmməd xanın iradəsi ilə müəyyənləşirdi.

Qoşunların təşkili və idarə edilməsində Ağa Məhəmməd xanın yalnız iradəsi yox, həm də istedadı və məharəti xüsusi əhəmiyyət kəsb edirdi. Ağır cismani çatışmazlığa malik olmaqla
uzun müddətli əsirlikdən sonra ətrafına böyük miqdarda qoşun toplaması Ağa Məhəmməd xanın hərbi sahədəki təşkilatçılıq işinin nəticəsi idi. Bu sahədə də Ağa Məhəmməd xan kifayət qədər qeyri-adi yollara əl atmalı oldu. Öz qoşunlarının əsasını qurmaq üçün Ağa Məhəmməd xan ilk növbədə kütləvi şəkildə silahlanmış kürd tayfasına və dağınıq halda yaşayan ərəb qəbilələrinə müraciət etdi və onları bir toplum halında öz qoşununa dəvət etdi.

Bütünlükdə isə Qacar qoşunlarının toplanmasında həm qəbilə, həm ərazi, həm də könüllülük prinsipindən istifadə olunurdu. Qəbilə prinsipi ilə adətən süvarilər toplanırdı (70). Şahın göstərişinə əsasən müxtəlif tayfalar, səhranişin obalar öz aralarında dəstə təşkil edib ümumi qoşunun tərkibinə qatırdılar. Bu zaman tayfa dəstəsinin tərkibi dəyişilməz saxlanılır və dəstənin rəhbəri də elə tayfa başçısı təyin edilirdi. Bu prinsiplə səfərbərlik aparmaq təşkilati baxımdan daha asan idi. Çünki sərt və köçəri həyat sürən tayfalar və obaların sakinləri adətən at belində həyat keçirirdilər və döyüşməyin müəyyən vərdişlərinə də malik olurdular. Tayfa başçılarının rəhbərliyi altında onlar çox tezliklə toplanır və çox qısa zaman ərzində səfərə hazır olurdular. Dəstənin tərkibinin dəyişilməz saxlanılması isə döyüş zamanı dəstə üzvləri arasında fikir və əməl birliyinin saxlanmasına imkan verirdi.

Müharibə səfərləri zamanı tayfa və qəbilə başçısı mənsub olduğu toplum əhalisinin mütənasib nisbətində dəstə toplayıb toplanış məkanına yola düşürdü. Bu zaman hər bir atlı özü və atı üçün bir neçə günlük azuqəni də gətirməli idi. Atlıların özü ilə götürdüyü yem və azuqənin pulu adətən sonradan xəzinədən ödənilirdi (71).

Ərazi prinsipi üzrə səfərbərlik aparılması vilayət və mahal hakimləri tərəfindən həyata keçirilirdi. Bu zaman şah tərəfindən vilayət və mahal hakimlərinə müəyyən sayda qoşun toplayıb mərkəzin tabeçiliyinə verilməsi tapşırılırdı. Yerli hakimlər üçün yalnız say və müvafiq olaraq təchizat məsələləri tapşırılırdı. Hakimlər də bu zaman səfərbərliyi öz istəklərinə uyğun aparırdılar. Yəni, onların rəhbər tuta biləcəyi normativ tələblər yox idi. Hakim istədiyi halda bir ailədən bir neçə döyüşçü götürə bilərdi. Lazım bilmədiyi ailədən isə heç kim qoşunlara cəlb edilməyə bilərdi. Yerli hakimlər çox hallarda seçim etmək imkanına malik olurdular və bu imkanlardan da istifadə edilirdi. Onlar adətən tacirləri, sənətkarları və onların adamlarını xidmətdən azad edirdilər. Başqa sözlə xidmətinə ehtiyac duyduğu adamları hakimlər xidmətdən azad edirdilər. Bundan başqa imkanlı

adamların yerli hakimlərə rüşvət və ya bahalı hədiyyələr verərək xidmətdən azad olmaları da mümkün idi. Ona görə də geniş səfərbərliyin ağırlığı adətən zəhmətkeş təbəqənin üzərinə düşürdü (72).

Könüllülük əsasında da şah qoşunlarına qoşulanlar var idi. Bu kontingentə həm dolanışıq üçün silahlananlar, həm də bacarığını nümayiş etdirmək üçün silahlananlar, cihad və digər ideoloji dəyərlər əsasında silahlananlar daxil idi. Müsəlmanlığı qəbul etmiş gürcülər və digər millətlərdən də qoşunların sırasına daxil olanlar var idi. Məlumdur ki, İran ərazisinə mühacirət etmiş gürcülər arasından xüsusi bir silahlı dəstə təşkil edilmişdi və həmin dəstəyə "bahadırlar" dəstəsi adı verilmişdi (73).

Şah sarayının əyanlarının nüfuzlu və vəzifəli şəxslərinin övladları da çox zaman könüllü şəkildə hərbi qüvvələrə qoşulurdular. Bu dəstə adətən şahın qulamları adlandırılırdı. İrana mühacirət etmiş gürcülərdən də bu dəstəyə qoşulanlar var idi (74).

Səfərbərlik aparılanda bəzi müəyyən tələblər gözlənilirdi. Xüsusilə, sağlamlıq və yaş həddi ilə bağlı tələblər nəzərə alınırdı. Amma bu məsələdə də təsdiqlənmiş tələb yox idi. Ona görə qoşunlarda həm 60 yaşlı kişiyə, həm də 15 yaşlı uşağa rast gəlmək mümkün idi (75).

Səfərbərliyin davamlılığı və ya əhatə dairəsi konkret tarixi şəraitlə bağlı idi. Güclü düşmənə qarşı adətən say üstünlüyü yaradılmasına cəhd göstərilirdi. Ona görə də qoşunların sayı döyüşdən asılı olaraq çox və ya az ola bilərdi. Yəqin elə buna görədir ki, tarixi ədəbiyyatda Qacarların qoşunlarının sayı barədə müxtəlif rəqəmlər göstərilir.

Ağa Məhəmməd xan Qacar mübarizə yolunu tutduğu ilk vaxtlar onun qoşunlarının sayı şübhəsiz ki, az idi. Məsələn, Lütfəli xan Zəndlə döyüş apardığı zaman onun qoşununun sayı 20 min nəfər idi. Lütfəli xanla sonrakı döyüşünə qədər isə Ağa Məhəmməd xan qoşunlarının sayını 40 minə çatdıra bildi. Onun Qafqaza ilk hücumu zamanı isə Qacar qoşunlarının artıq 60 min nəfərdən ibarət olduğu göstərilir (76).

Şahidlərdən birinin yazdığına görə, Qacar qoşunlarının sayı haqqında fərqli rəqəmlər də göstərilir. Məsələn, bir araşdırmada Qacar qoşunlarının 180 min nəfər olmasından söz açılır. Müəllifə görə, bu qoşun da iki hissədən ibarət idi: paytaxt qüvvələrindən və vilayət qüvvələrindən. Paytaxt qüvvələrinin 70-75 min nəfərdən ibarət olması iddia olunur. Qeyd olunur ki, paytaxt qüvvələri həmişə paytaxtda olurdular və onlar xəzinə hesabına maliyyələşirdilər. Vilayət qüvvələrinin miqdarı daha çox idi. Onların sayının 105-110 min olduğu ehtimal edilirdi. Bildirilir ki, vilayət qüvvələri vilayətlərin və sərhədin asayişinin və mühafizəsinin təmin olunması üçün toplanırdı. Bu qüvvələr şahzadələrin, hakimlərin, tiyul sahiblərinin hesabına maliyyələşirdi (77).

Fransalı general Qardan Qacar qoşunlarında islahatların aparılması üçün fəaliyyətə başlayanda, yəni XIX əsrin əvvəllərində bu qoşunların aşağıdakı tərkibdə olduğunu yazırdı: piyadalar – 60 min nəfər, atlılar – 14 min nəfər və topçular – 2500 nəfər (78).

Başqa müəlliflərə görə isə Qacar qoşunlarının sayı 210 min, 206 min və s. sayında göstərilmişdir (79). Bir daha qeyd edilməlidir ki, qoşunların sayı həm zaman, həm də şəraitə görə dəyişə bilərdi.

Qoşunlarda döyüş hazırlığı ən adi tələblərə cavab vermirdi, dəstələrin yekdil fəaliyyətdə olması vərdişləri tənzimlənmirdi. Səfərbərlikdən əvvəl ovda, təsərrüfat həyatında əldə edilmiş vərdişlər döyüşçülər üçün döyüş hazırlığının vacib elementinə çevrildi. Çox vaxt dəstələr toplanana kimi bir başa döyüşə atılırdılar. Bu döyüşün necə aparılması çox zaman silahlıların öz vərdişlərindən və düşdükləri şəraitə görə qəbul etdikləri qərarlardan asılı olurdu. Süvarilər at çapmaqda, at belində silah tutmaqda məharətə malik olsalar da çox zaman bu vərdişlərini hərbi tələbləri ilə əlaqələndirə bilmədikləri üçün gözlədikləri nəticəni ala bilmirdilər. Bəzən bir-biri ilə tanışlığı olmayan dəstələr arasında əlaqələrin tənzimlənməsi dəstə başçılarının şəxsi təşəbbüsündən asılı olurdu. Geri çəkilmək anında da çox zaman lazımi tələblər gözlənilmirdi və kim necə bacarırdısa, elə də canını qurtarmağa çalışırdı.

Fransalı general Qardan yazırdı ki, atlıların heç bir döyüş tərtibi və hazırlığı yox idi. Onların hər biri özləri bildiyi kimi, dördnala düşmən üzərinə çapırdılar. Düşmən onların həmləsi qarşısında duruş gətirirdisə, onda atlılar həmin sürətlə də geri çəkilirdilər (80).

Tədqiqatçılar göstərirlər ki, qoşunların lazımi döyüş hazırlığına və vərdişlərinə malik olmaması onların döyüş məntəqələrinə necə hərəkət etməsindən də görünürdü. Topçular istisna olmaqla atlılar və piyadalar sabit nizamnamə tələblərinə malik deyildilər. Qoşunların təşkilində qoşun növlərinin və qisimlərinin nisbəti düzgün müəyyənləşdirilmirdi(81).

Şahidlərin xatirələrində və tarixi araşdırmalarda Ağa Məhəmməd xan dövründə Qacar qoşunlarının döyüş hazırlığının artırılması üçün rus zabitlərinin təcrübəsindən istifadə edilməsinə cəhd göstərilməsi haqqında məlumatlar vardır. Məsələn, fransalı polkovnik Qaspard Druvil yazırdı ki, Ağa Məhəmməd xanın qətlindən bir müddət əvvəl bir neçə rus mühaciri İrana gəldi və Təbriz bəylərbəyi Əhməd xanın təşəbbüsü ilə bu rus mühacirləri yerli qoşun dəstələrinin Avropa hərbi üslubunda təliminə başladılar. Bildirilir ki, onlar bir neçə tabor da təşkil etdilər, lakin öz işlərini başa çatdıra bilmədilər (82).

Hərbi tədqiqatçı Cəmil Quzanlının fikrincə, rus zabitlərinin köməyi ilə Qacar qoşunlarına təlim verilməsinə başlanması XVIII əsrin 80-ci illərində

baş vermişdi. Onun yazdığına görə, yeni üsulla qoşunların təşkili üçün Qəzvin şəhərində böyük düşərgə yaradıldı. Rus ordusundan yenicə kənarlaşdırılmış olan 16 nəfər naxçıvanlı və qarabağlı zabit bu təlimlərə cəlb edildi. Belə məlum olur ki, onlar mühacirət edib İrana keçdikdən sonra qacarların diqqətini cəlb etmişdilər. Rus ordusu zabitlərinin sonrakı fəaliyyəti haqqında məlumat verilmir. Hər halda güman etmək olar ki, onlar öz işlərini başa çatdıra bilmişdilər.

Qacar qoşunlarının yenidən təşkil edilməsi üçün rus hərbçilərinin köməyindən istifadə edilməsi barədə başqa bir tarixi araşdırmada da məlumat vardır. Amma bu araşdırmada həmin hadisənin XVIII əsrin sonlarında, Abbas Mirzənin Qacar qoşunlarına komandanlığı dövründə baş verdiyi bildirilir. Bildirilir ki, təsadüfən Azərbaycana (cənubi) gəlib çıxmış rus zabitlərindən qoşunların hazırlaşmasında istifadə olunması qərara alındı. Lakin müharibənin başlanması bu işi yarımçıq qoydu (84).

Döyüşlərin planlaşdırılması məsələsində də qeyd edildiyi kimi, ən adi tələblər gözlənilmirdi. Xarici müşahidəçilər də bildirirdilər ki, müharibə planlarının hazırlanmasında məxfilik gözlənilmirdi. Hərbi məsələlərin müzakirəsi zamanı nökər və qulluqçuların öz ağalarının yanında olması üzündən müzakirə olunan məsələlər çox qısa zamandan sonra bütün qoşunlara yayılırdı. Tədqiqatçılar döyüşlərin və müharibələrin lazımi səviyyədə planlaşdırılmamasının bir səbəbini də qoşunlara rəhbərlik edən şəxslərin hərbi təfəkkürünün olmaması ilə bağlayırdılar. Məhəlli və tayfa dəstələrinin rəhbərləri eyni zamanda yerlərdə təşkil olunmuş qoşun dəstələrinin rəhbərləri təyin edilirdilər. Onlar isə təcrübəsizlik üzündən ən adi taktikanı icra etməyə qadir deyildilər və döyüşü ilk baxışdan onlar üçün münasib olan üsulla aparırdılar (85).

Döyüş başa çatandan sonra qoşunlar adətən buraxılırdı. Buraxılmayan qoşun dəstələrində də döyüş hazırlığı lazımi səviyyədə aparılmırdı. Sözsüz ki, müəyyən vərdişlər məşq olunurdu. Bu zaman da fərdi təmrinlər daha geniş yer tuturdu. Yayda havaların isti keçməsinə görə qoşunlar döyüş hazırlığından ayrılırdılar. Sənətkarlıqdan gəlmiş döyüşçülər yenidən öz sənətləri ilə məşğul olur, bundan hətta müəyyən vəsait əldə edir, bəzən də bu vəsaitdən dəstə rəhbərlərinə də pay ayrılırdı (86).

Döyüş hazırlığı məsələsində dəstə başçılarının, qoşun sərkərdəsinin döyüş keyfiyyətləri, ustalığı və məharəti nümunə təsirinə malik idi. Xüsusi məharət göstərənlər nüfuz və hörmət sahibi olduqlarından, təşviq edildiyindən tabelikdə olanlar da onun nümunəsində döyüş vərdişlərini təkmilləşdirməyə çalışırdılar. Tarixi ədəbiyyatda qacar süvarilərinin xüsusilə yüksək döyüş vərdişlərinə malik olduğu haqqında çoxlu faktlar vardır.

Süvarilər əslində, qoşunların əsas növünü təşkil edirdilər. Qacar dövləti hərbi dəniz qüvvələrinə malik deyildi. Ona görə də qoşunlar süvari və piyada növündən ibarət idi. Malik olduğu çevikliyə və sürətə görə süvari qoşun növünün təşkilinə böyük diqqət yetirilirdi. Nəqliyyat texnikasının primitiv səviyyədə olduğu bir vaxtda süvari dəstələr böyük məsafələri daha qısa zaman ərzində qət edə bilirdilər. Eyni zamanda süvari dəstələri ilə qarşı tərəfə qəfil zərbə vurub qısa zaman ərzində də döyüş meydanını tərk edə bilirdi. Say baxımından da süvarilər qoşunların tərkibində üstünlük təşkil edirdilər. Qacarlar sarayı ilə Napoleon arasında imzalanmış müqavilə əsasında İrana gəlmiş fransalı general Qardan Qacarlar süvarilərinin sayının 144 min nəfər olduğunu göstərirdi (87).

Atlı dəstələrinin təşkili üçün səhranişin elat əhalisi daha çox cəlb edilirdi və məlum olduğu kimi belə dəstələrə elat hakimləri tərəfindən də rəhbərlik edilirdi

Qacarların hərbi qüvvələri ilə əyani şəkildə tanış olan general Qardan piyadaların sayının 60 min nəfər olduğunu yazırdı. Piyada qoşunları da hərbi qüvvələrin böyük bir hissəsini təşkil edirdi. Onların da formalaşdırılması xüsusi diqqət altında idi. Piyada qüvvələri daha çox müdafiə xarakterli döyüşlərdə, süvarilər tərəfindən başlanan hücumun davam etdirilməsində, qarnizon mühafizə xidmətinin təşkilində istifadə olunurdu. Piyada qüvvələrinə əsasən kasıb təbəqələrin nümayəndələri, atı olmayan şəxslər daxil idi. Amma bir yerdən başqa yerə hərəkət etmək və təchizatını daşımaq üçün piyadaların müəyyən hissələrinin atı da var idi.

Piyada qoşun növünün bəzi qisimlərinin və xidmət sahələrinin mövcudluğu haqqında da tarixi ədəbiyyatda məlumatlar vardır. Bu qoşun qisim və xidmətləri içərisində topçular xüsusi əhəmiyyət kəsb edirdilər. Say etibarilə də topçular böyük bir struktur idi. Şahidlər Qacar qoşunlarında onların sayının 2500 nəfər olduğunu göstərirlər (88). Bura şübhəsiz ki, həm topçular, həm də onların xidmət personalı daxil idi. Dövrün qala döyüşlərində, o cümlədən də qala müdafiəsində, qarşı tərəfin hərbi qüvvələrinə əhatəli atəş zərbəsi endirilməsində topçular özünəməxsus rola malik idilər. Qoşunların ümumi zərbə qüvvəsinin artırılmasında onların imkanları böyük idi. Doğrudur, piyada qoşunlarında topçuluq dövrün hərb sənətinin tələbləri səviyyəsində deyildi. Amma onun qoşunlardakı yeri şah sarayına tamamilə aydın idi. Birinci Qafqaz yürüşündən sonra Ağa Məhəmməd şahın Xorasana yollanmasında əsas məqsədlərdən biri də orada Nadir şah dövründən qalmış olan topların ələ keçirilməsi idi və o buna nail də oldu (89).

Qacarlar dövründə bir çox şəhərlərdə top tökürdülər. Amma onların sayı çox deyildi və qoşunların ehtiyacını ödəməyə kifayət etmirdi.

Bəzi tarixi araşdırmalarda Qacar qoşunlarındakı topçuların ümumi sayının 850 nəfər olduğu göstərilir (90). O da bildirilir ki, onların heç birinin topçu hazırlığı yox idi və topçuluğu elə döyüşdə öyrənməli olurdular.

Topçular da iki dəstəyə bölünürdülər. Bir dəstə ənənəvi uzun lüləli ağır topların xidmət personalı idi, digəri isə adətən dəvələrin üstündə daşınan yüngül zənburək toplarının xidmət personalı idi.

Qacar qoşunlarında mühəndis-istehkam xidməti yox idi (91). Qoşunların səngərlənməsi, mühəndis-istehkam qurğularının yaradılması fərdi fəaliyyətə çevrilmişdi. Amma qoşunlarda istehkam imkanlarından istifadə edilməsi təfəkkürü var idi. Qacarlar dövründə hələ də müdafiə qalalarının yaradılmasına və müdafiə işində onlardan geniş istifadə edilməsinə böyük diqqət yetirilirdi. Bəzi hallarda isə müdafiə məqsədilə şəhərlərin ətrafında xəndəklər çəkilir və su saxlancları yaradılırdı. Bu işlər daha çox əldə edilmiş təcrübə əsasında aparılır və onların icrasına da şəhər sənətkarları cəlb olunurdu.

Qoşunlarda rabitə xidməti də dövrün tələbləri səviyyəsində deyildi. Rabitə vasitəsi kimi yalnız çaparlardan istifadə olunurdu. Süvari çaparlar şahın və ya hakimlərin göstərişlərini yaxın və uzaq ünvanlara çatdırırdılar. Döyüş əməliyyatları zamanı çapar vasitəsilə bu və ya digər məntəqədə olan rəhbərliyə məlumat çatdırılmasında baş verən gecikmə döyüşün taleyinə də təsir göstərirdi.

Şahidlər və araşdırmaçılar uzun-uzadı döyüşlərdə olan şah qüvvələrində tibb xidmətinin də təşkil edilmədiyini yazırlar. Yaralanan və ya xəstələnən şəxslər çox çətinliklər çəkməli olurdular. Yaxşı halda qoşunlarda olan dəllək həkimliyi də boynuna götürür, ənənəvi qan alma və başqa vasitələrlə xəstəliyin müalicəsinə çalışırdı (92).

Qacarlar qoşunlarının tərkibinə daxil olmayan müvəqqəti könüllü dəstələr də mövcud idi ki, onları çərik adlandırırdılar (93). Bu dəstələri ehtiyat könüllü dəstələr də adlandırmaq olardı. Onlar yerli hakimlər tərəfindən toplanırdı və ya kimlərin bu dəstəyə daxil olacağını da elan edirdi. Bu dəstənin toplanmasına zərurət yarananda göstəriş verilirdi. Çəriklər adətən yerlərdə mühafizə işləri ilə məşğul olurdular. Əgər mərkəzdən yeni qoşun dəstəsinin göndərilməsi tapşırığı alınardısa, çəriklər mərkəzi qoşunların tərkibinə qatıla bilərdilər. Yerlərdə çəriklər əllərinə keçən silahlarla silahlandırılırdılar. Daha çox soyuq silahlar bu strukturun təchizatını təşkil edirdi.

Çəriklərin süvari və ya piyada olması tarixi ədəbiyyatda göstərilmir. Çox ehtimal ki, onlar əsasən piyadalar idi. Çünki atları olan şəxslərin qoşunların tərkibinə cəlb edilməsi ehtimalı daha çox idi.



*Zənburəkdən istifadə edilməsi*

Çəriklər şübhəsiz ki, əhalinin sağlam hissəsindən toplanır və onların saxlanması, habelə təchizi yerli hakimlərə tapşırılırdı. Çəriklərin döyüşlərə cəlb edilməsi halları da baş verirdi. Şahidlərin şəhadətinə görə Qacarlar dövründə çəriklərin sayı 150 min nəfər idi və Ağa Məhəmməd xanın qələbələrinin qazanılmasında çəriklərin böyük xidmətləri var idi (94).

Tarixi ədəbiyyatda Qacar qoşunlarında həm daimi qoşun dəstələrinin olduğu (95), həm də daimi qoşunların olmadığı iddia olunur (96).

Araşdırmaçılar haqlı olaraq qeyd edirlər ki, qoşunlar adətən müharibə ərəfəsində və ya da müharibə planlarının həyata keçirilməsi məqsədilə toplanırdı. Müharibə bitəndən sonra qoşunlar evlərinə buraxılırdı. Yəni, səfərbərlik əsasən ehtiyac yarananda aparılırdı. Buna əsasən araşdırmaçılar qoşunların daimi olmadığını əsas gətirirlər. Bu meyar əsas götürülərsə qoşunların əksər hissəsinin daimi olmadığı qənaətinə gəlmək olar. Baxmayaraq ki, müəyyən vaxtlarda qoşunların xidmətinin nə qədər uzanacağını müəyyənləşdirmək çətin olurdu. Bununla belə, müddətindən asılı olmayaraq konkret vəzifənin icrası üçün toplanan, sonra da buraxılan qoşunu daimi qoşun saymaq olmaz.

Amma yuxarıda qeyd edildiyi kimi, şahın tabeliyində olan xüsusi qulam dəstələri də mövcud idi. Onlar etibarlı şəxslərdən təşkil edilirdi və

həmişə şahın yanında olurdular. Nəzərə alınsa ki, bu qulam dəstələri həm şahın mühafizəsini təşkil etməli idilər, həm müəyyən təşrifat mərasimlərini icra etməli idilər, deməli onların həmişə mövcud olmasına ehtiyac var idi. Buna oxşar dəstələrin Fətəli şahın vəliəhdi Abbas Mirzənin, vilayət hakimlərinin ətrafında olduğunu istisna etmək olmaz. Heç şübhəsiz ki, bu struktur daimi struktur idi və onun tərkibinə xüsusi seçim aparılırdı.

Mənbələrdə və tarixi ədəbiyyatda ətraflı məlumata rast gəlinməsə də, topçuların da daimi personal olduğunu ehtimal etmək olar.

Qacar qoşunlarının formalaşma səviyyəsini, taktiki imkanlarını müəyyənləşdirən məqamlardan biri də onun təchizat məsələləri idi. Bu məsələdə istər mənbələr, istərsə də tarixi ədəbiyyat bir mənalı olaraq Qacar qoşunlarının dövrün tələbləri ilə müqayisədə çox primitiv şəkildə təchiz olunduğunu təsdiq edirlər. Yuxarıda qeyd edildiyi kimi, qoşunların inkişaf dövrünü yaşadığı Səfəvi dövründən sonra istər Nadir şah Əfşarın, istərsə də Qacarlar dövrünün hərbi-texniki parkında ciddi yeniliklə qarşılaşmaq çətindir. Hətta Nadir şah dövründə hərbi-dəniz texnikasının yaradılması, artilleriyanın istehsalının təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində göstərilən cəhdlər Qacarlar dövründə öz inkişafını tapmadı. Ağa Məhəmməd şahın hakimiyyətinin uzun sürməməsi, Fətəli şahın isə hərbi təfəkkürdən uzaq olması Qacarlar qoşunlarının hərbi-texniki mənzərəsinin təkmilləşdirilməsinə şərait yaratmadı.

Tədqiqatçıların fikrincə, həm Ağa Məhəmməd xanın hakimiyyət uğrunda mübarizə apardığı dövrdə, həm də Fətəli şah hakimiyyətinin ilk illərində başları daxili müharibələrə qarışmışdı və ona görə də qoşunların maddi-texniki təchizatının yaxşılaşdırılması üçün elə də fürsət yox idi (97).

Qoşunlar adətən köhnə və ənənəvi silahlarla təchiz olunurdular. Piyadaların təchizatında dayandoldurum tüfənglər var idi. Bu tüfənglər həm uzun, həm də ağır idilər və lüləsinin ağzından doldurulurdular. Belə tüfənglərin doldurulması xeyli vaxt aparırdı və çətin döyüş şəraitində çevik hərəkətləri mümkünsüz edirdi. Dayandoldurum tüfənglərinin ikiayaqlı dayaqları var idi. Atəş zamanı tüfəngin lüləsi bu ayaqlara dayaqlanırdı və bu zaman daha sərrast atəş açmaq mümkün olurdu. Yaxşı halda bu tüfənglərdən dəqiqədə bir dəfə atəş açmaq mümkün idi. Döyüş zamanı tüfəngçilər adətən öndə, bir xətt boyunca irəliləyirdilər. Bununla belə, qoşunlarda hətta bu tip tüfənglər belə kifayət qədər deyildi. Bəzi hallarda yalnız dəstə başçıları tüfəngə malik olurdular. Süvarilərin də belə tüfənglərə malik olması faktları mövcuddur. Tarixi ədəbiyyatda olan məlumatlara görə süvarilər hərəkətdə olarkən çox dəqiqliklə atəş açmağı bacarırdılar. Qacar qoşunlarında olan dayandoldurum tüfənglərin lülələri keyfiyyətli materialdan olmadığı üçün onlar atəş zamanı çatlayıb sıradan çıxırdılar (98).




***Qacar qoşunlarının tüfəngçi (rəssam Q.Druvil)***

Dayandoldurum tüfənglər ayaqları və təchizatı ilə birlikdə çox ağır idilər. Ona görə onların daşınması üçün adətən iki döyüşçüyə bir at verilirdi.

Qacar qoşunlarında toplar da var idi. Ağa Məhəmməd xan fəaliyyətinin ilk dövründə toplara elə ciddi bir əhəmiyyət vermirdi. Amma döyüşdə onun atəş gücünü gördükdən sonra hətta Nadir şahdan qalma topları da ələ keçirməyi qərara aldı. Yuxarıda qeyd edildiyi kimi, Xorasan yürüşü zamanı həmin toplar ələ keçirildi və bundan sonra Qacar qoşunlarında topların sayı 50-yə çatdı (99).

Qacarlar dövründə İsfahanda, Şirazda, Təbrizdə və Məşhəddə top və onun detallarını istehsal edən zavodlar var idi. Qacar qoşunlarında topların sayının az olmasına görə güman etmək olar ki, bu zavodlarda istehsal lazımi səviyyədə tənzimlənməmişdi. Toplar adətən öküzlər vasitəsilə arabalarda daşınırdı. Bu arabalarda həm də top gülləları yığılmış sandıqlar yerləşdirilirdi. Sandıqların içində 20-30 güllə olurdu. Top gülləları istehsalı üçün Mazandaranda zavod qurulmuşdu. Amma bu zavodda istehsal edilən güllələr keyfiyyətli deyildi. Güllələr çox zaman lazımi ölçülərə cavab vermirdi. Digər tərəfdən də güllələrin səthinin hamar olmaması tezliklə top lülələrini sıradan çıxarırdı. Bəzi hallarda isə atəş zamanı topların lüləsi partlayırdı (100).

Dövrün mütəxəssisləri Rusiyada istehsal olunmuş top güllələrindən istifadə olunmasına üstünlük verirdilər. Bunu rus qoşunları ilə ilk döyüşlərdən sonra əldə edilmiş qənimətlər də təsdiq edirdi. Qeyd etmək lazımdır ki, rus qoşunları ilə ilk döyüşlərdən sonra Qacar qoşunlarının əlinə xeyli sayda rus topları da düşmüşdü. Lakin onların çoxu xarab idi və bu xarab topları təmir etmək üçün lazımi baza da yox idi (101).

Qacar qoşunlarında zənburəklər də istifadə olunurdu. Zənburəklər gödək lüləli və kiçik çaplı mini toplar idi və adətən dəvələr üzərində daşınırdı. Zənburəyin lüləsi dəvənin donqarının qarşısında yerləşdirilmiş qurğunun üzərində yerləşdirilirdi. Zənburəkdən atan şəxs isə dəvənin donqarının arxasındakı yəhərin üzərində özünə yer edirdi. Atəş açmaq zərurəti yarananda zənburəkçinin işarəsi ilə dəvə ayaqlarını qatlayıb yerə çökürdü. Atəş açıldıqdan sonra dəvə öz yoluna davam edirdi. Bəzi hallarda dəvə zənburəkin atəş səsindən qorxuya düşürdü və bu zaman onu idarə etmək çətinləşirdi. Zənburək gülləları tüfəng güllələrindən bir az irəli gedirdi və yaxşı istifadə edilmədiyindən onların sərrastlığı da böyük olmurdu. Dəvənin sağ tərəfindən asılan çantada barıt və güllə daşınırdı. Ölkə daxilində barıt da istehsal olunurdu. Lakin onun keyfiyyəti yaxşı olmadığı üçün Avropadan gətirilmiş barıta üstünlük verilirdi (102).

Yuxarıda qeyd edildiyi kimi, süvarilər həm tüfənglərlə, həm də qılıncla silahlanırdılar. Qılınc və qalxan onların təchizatında üstünlük təşkil edirdi.

Tarixi ədəbiyyatda Qacar qoşunlarında yaxşı qılınclardan istifadə olunduğu bildirilir. Silah və təchizat yetərincə olmadığı üçün türkmən süvariləri hətta ox və kamanla silahlanmalı olurdular (103).

Qacar qoşunlarında vahid geyim forması yox idi. Qoşunlara cəlb olunan adamların nəyi var idisə onu da geyinirdi. Hər hansı bir tayfadan və ya eldən toplanan qoşun dəstəsinin geyimində etnik və ya ərazi mənsubiyyətdən doğan oxşarlıq ola bilərdi. Amma bütünlükdə vahid geyim formasının tətbiqinə cəhd fransalı hərbi müşavirlərin ölkəyə gəlməsindən sonra başladı. Piyadalar abi və ya qırmızı rəngli mahuddan, topçular isə abi rəngli mahuddan paltar geyinirdilər. Döyüşçülərin şalvarları ağ rəngdə olub xeyli geniş idilər. Başa quzu dərisindən tikilmiş papaq, ayaqlara isə çarıxlar geyilirdi (104).

Qoşunlara səfərbər olunan şəxslərə müəyyən miqdar məvacib də verilirdi. Bu, elə də çox deyildi. Tarixi ədəbiyyatda olan məlumata görə süvarilər ildə 5-6 tümən miqdarında məvacib alırdılar. Piyadaların məvacibləri isə 5-7 tümən ətrafında olurdu (105). Göstərilən miqdarda olan məvacibin hansı alıcılıq qabiliyyətinə malik olduğunu söyləmək çətindir. Fransalı general Qardan bildirirdi ki, döyüşçülərə ildə 600 frank məvacib verilir (106). Bir çox hallarda verilən məvacib döyüşçünün xərclərini ödəmirdi. Məvacibdən başqa süvarilərə iki uzunqulaq yükü həcmində buğda da verilirdi. Dəstə komandiri döyüşçülərə nisbətən həm çox məvacib, həm də çox buğda alırdı. Zabitlərin illik məvacibi 15-20 tümən arasında olurdu. Onlara verilən buğda isə 4-5 uzunqulaq yükü həcmində idi. Süvarilər atları üçün də müəyyən miqdarda yem ala bilirdilər (107).

Qeyd etmək lazımdır ki, tarixi ədəbiyyatda döyüşçülərə və dəstə başçılarına verilən məvacibin fərqli olduğu bildirilir. Məsələn, döyüşçünün məvacibi 30 tümən, dəstə başçısınınkı isə 40-500 tümən miqdarında göstərilir (108).

Mərkəzi xəzinədən qoşunların toplanmasına və saxlanmasına müəyyən xərclər ayrılırdı. Amma mərkəzi hakimiyyət çalışırdı ki, qoşunların toplanması və təchizi xərcləri daha çox yerli hakimlərin üzərinə düşsün.

Etnik və ərazi prinsipi üzrə toplanan qoşunların bütün xərci yerli hakimlərin üzərinə düşürdü. Tayfa başçıları tərəfindən döyüşçülərə at tapılır və onların azuqəsi təmin edilirdi. Süvari dəstələrinə əsasən atı olanlar cəlb olunurdular. Dəstənin xərcləri isə tayfa tərəfindən toplanılırdı. Rusiya ilə müharibənin başlanmasına görə səfərbərlik əmri veriləndə şah yerli əyanlardan tələb edirdi ki, qoşun toplansın, bu qoşun silahlarla təmin edilsin, yeməkləri geyəcəkləri, dava və dərman və digər ləvazimat təmin edilsin. Şahın əmrində bildirilirdi ki, qoşun dəstələrində üç aylıq yemək ehtiyatı, 6 aylıq silah və geyim ehtiyatı olsun (109).

Qoşunlarda mərkəzləşdirilmiş şəkildə təchizat sistemi olmadığından müəyyən çətinliklər də ortaya çıxırdı. Xüsusən, döyüşlərin gedişində təminat və təchizat məsələlərində çətinliklər özünü göstərirdi. Doğrudur, bəzi qoşun dəstələrində olan ordubazardan müəyyən əşyaları almaq olurdu. Lakin ordubazarın imkanlarından da əsasən döyüşdən kənar vaxtlarda istifadə olunurdu.

Süvarilərin atlarına yem toplanması da yarıtmaz vəziyyətdə idi. Süvarilər döyüşlər zamanı bununla məşğul ola bilmirdi. Ona görə də mövsümi döyüşlərə üstünlük verilirdi ki, qış vaxtı süvari döyüşə cəlb olunmasın və o öz atını yemlə təmin etmək imkanına malik olsun (110).

Qoşunların ümumi sayından göründüyü kimi, süvarilər ümumi sayda çoxluq təşkil edirdilər. İdarəetməni tənzimləmək üçün istər süvarilər, istərsə də piyadalar struktur vahidlərində birləşdirilirdi. Ən işlək struktur vahidi "alay" idi. Alaylar adətən 1000 nəfərdən təşkil olunurdu. Bir çox ədəbiyyatda bu struktur "fövc" kimi də göstərilmişdir. Alaylar da öz növbəsində hər biri yüz nəfərdən olan 10 struktur vahidinə bölünürdü. Əslində bu struktur vahidi bir bölüyü təşkil edirdi. 100 nəfərlik bölüklər də öz növbəsində hər biri 10 nəfər olmaqla 10 dəstəyə bölünürdü. Bu struktur vahidlərinin hər birində bir nəfər rəhbər seçilirdi (111).

Bəzi tarixi ədəbiyyatda daha böyük struktur vahidi kimi tümənin də adı çəkilmişdir. Onun sayı barədə dəqiq məlumat göstərilməsə də çox güman ki, tümən 10 alaydan ibarət idi. Rusiyaya qarşı müharibə başlanan ərəfədə Qacarların iki tüməninin olduğu göstərilir. Onların biri Naxçıvanda, o biri isə Təbrizdə idi. Bəzi məlumatlara görə bu tümənin tərkibində beş piyada alayı, dörd süvari alayı, bir topçu alayı və kiçik xidmət qrupları var idi (112).

Məlumdur ki, İrəvan qalası üzərinə Rusiya qoşunlarının ilk hücumundan sonra Qacarlar sarayı tərəfindən fransalı hərbçilər dəvət olundular və onlar Qacar qoşunlarının yenidən qurulması və təkmilləşdirilməsi üçün fəaliyyətə başladılar. Yenidən qurulan qoşunlarda şəxsi heyət yenidən qruplaşdırıldı. Yeni şəraitdə piyada qüvvələri iki qrupa bölündülər. Onlardan biri "sərbaz", o biri "canbaz" adlandırıldı. Sərbazlar Abbas Mirzənin rəhbərliyi altında olan piyada qüvvələri idi. Canbazlar isə birbaşa şaha tabe idilər və onun tapşırıqlarını yerinə yetirirdilər (113). Çox güman ki canbazlar şahın şəxsi qvardiyası idi.

Fransalı hərbçilərin təlimatçılığı ilə Abbas Mirzənin rəhbərliyi altında 12 alay təşkil edildi. Bu alayların hamısı azəri türklərindən təşkil edilmiş alaylar idi. Bütünlükdə Abbas Mirzənin rəhbərliyi altında Rusiyaya qarşı mübarizə aparan qoşunları əsasən azəri türkləri təşkil edirdilər.



***Q.Druvilin Qacar qoşunları ilə bağlı rəsmləri***

Abbas Mirzə xüsusi bir süvari alayını təşkil etmişdi ki, onun sayı 1200 nəfər idi. Bundan başqa onun tərəfdən 20 topa malik olan süvari-topçu alayı da yaradılmışdı (114).

Struktur vahidlərinin rəhbərlərinə verilməsi üçün çox sadə rütbə sistemi mövcud idi. On nəfərlik dəstəyə onbaşı, yüz nəfərlik dəstəyə yüzbaşı, min nəfərlik dəstəyə isə minbaşı rəhbərlik edirdi. Tayfalardan toplanan hərbi qüvvələrin rəhbərlərinə hərbi rütbə verilməsində ciddi bir normativ yox idi. Bir vaxt on nəfərə rəhbərlik edib onbaşı rütbəsində olan şəxs müəyyən müddətdən sonra ətrafına yüz nəfər toplaya bilsəydi onda yüzbaşı rütbəsinə yüksəlirdi (115). Başqa sözlə rütbə ilə vəzifə anlamı çox vaxt bir-birinin üstünə düşürdü.

Qoşun sıravisi mənasını verən "sərbaz" sözünün dövriyyəyə gətirilməsi də Qacarlar dövrünə təsadüf edir. Rusiya ilə müharibə ərəfəsində və ilk illərində sıravi döyüşçü Qacar qoşunlarında rus dilindən təqlidi olaraq "soldat" adlanırdı. Sonradan bu söz dəyişdirildi və sıravi döyüşçü - başından keçməyə hazır olan mənasında "sərbaz" adlandırıldı (117).

### *3. Rusiya ordusu*

XVIII əsrin əvvəllərindən başlayaraq Rusiyanın ordu quruculuğunda sürətli bir inkişaf xətti müşahidə edilməkdə idi. Ordu quruculuğundakı bu inkişaf bütünlükdə ölkə daxilindəki dəyişikliklərin və inkişafın tərkib hissəsi idi. Ona görə də bu inkişaf sabit və davamlı xarakter daşıyırdı.

XVIII əsrin əvvəllərində I Pyotr tərəfindən ölkə daxilində aparılan siyasi və iqtisadi islahatlar ordunun möhkəmləndirilməsi üçün də obyektiv baza yaradırdı. Azərbaycan xanlıqlarının işğalını həyata keçirən Rusiya ordusunun modernləşməsinin və inkişafının əsası əslində elə I Pyotrun hakimiyyəti illərində qoyulmuşdu.

I Pyotrun ölkə daxilində həyata keçirdiyi siyasi islahatlardan biri də kollegiyaların yaradılması idi. Bu orqanlar keçmiş dövlət idarələrinin yerində yaradılmışdı. Təşkil olunmuş 12 kollegiyadan biri Hərbi kollegiya idi. Bu kollegiya ordunun qurulması, idarə olunması, ölkənin hərbi təhlükəsizliyi məsələlərinin həlli ilə məşğul olmalı idi. Donanma işləri ilə Admiral kollegiyası məşğul olmalı idi. Xarici işlər kollegiyası xarici siyasətin həyata keçirilməsi ilə məşğul olmalı idi və s. (118).

Aparılan islahatlar nəticəsində Rusiya Avropanın inkişaf etmiş dövlətləri səviyyəsinə çata bildi. Ölkənin artmaqda olan imkanları I Pyotrun böyük iddialarının ortaya çıxmasına yol açdı. I Pyotr Rusiyanın sərhədlərinin genişləndirilməsi və Rusiyanın böyük imperiyaya çevrilməsi üçün çox ciddi planlar qurdu. Bu planların həyata keçirilməsi üçün isə Rusiyanın ordusunun yenidən qurulmasını və onun müasir ordu kimi formalaşdırılmasının əsas istiqamətlərindən birinə çevirdi.

Güclü ordunun yaradılması daxili hakimiyyətin möhkəmləndirilməsi baxımından da aktuallıq kəsb edirdi. Tarixi məlumatlar göstərir ki, XVII əsrin sonlarında Rusiya daxilində hakimiyyətə iddialı olan qüvvələr var idi və bu qüvvələrin başlamış olduğu qiyamların qarşısını yenicə toplanmış olan atlı vahidlərin və digər qüvvələrin hesabına almaq mümkün oldu. Dövlət əleyhinə başlanan qiyamların aparıcı qüvvəsi təşkilati baxımdan müasirliyini itirmiş olan hərbi vahidlər idi. I Pyotr özü də sonralar yazırdı ki, etibarı itirmiş olan atıcı alayları buraxıldı və onların yerinə nizami qoşunların yaradılmasına başlandı (119).

Yeni qurulan ordu dövlətin və hakimiyyətin dayağına çevrilməli idi. Rusiyanın Baltik və Qara dənizə çıxmaq kimi böyük planlarının həlli də yeni ordunun yaradılması ilə həyata keçə bilərdi. Köhnə tipli atıcı alayları və zəif hazırlıqlı əsgər alayları Baltik dənizinə çıxış yolunda dayanan İsveçin zərərsizləşdirilməsi vəzifəsinin öhdəsindən gələ bilmədi. Çünki İsveç güclü ordusu və hərbi donanması ilə Avropanın şimalında üstün vəziyyətə malik idi. Qarşısına qoyduğu niyyətə nail olmaq üçün I Pyotr geniş miqyaslı hərbi islahatlara təkan verdi. Yeni təşkilati sistem, yeni alayların quruluşu, onların döyüş hazırlığı metodları, komplektləşdirmə prinsipləri I Pyotr tərəfindən geniş araşdırıldı, yeni təşkil olunacaq hissələrin silahlandırılması və təchiz edilməsi üçün lazımi göstərişlər verdi. Hərbi islahatların uğurla həyata keçirilməsi üçün tanınmış zadəgan ailələrindən 150 nəfər seçib hərb elmini öyrənmək üçün xaricə göndərdi (120).

Müəyyənləşdirilmiş olan islahatların aparılması ilə XVII əsin sonu və XVIII əsrin əvvəllərində Rusiyada nizami ordunun formalaşdırılması başa çatdı. 1716-cı ildə Rusiya ordusunun hərbi nizamnaməsi qəbul edildi və həmin nizamnamədə Rusiya ordusunun üç növdən təşkil olunduğu bildirildi: piyada, kavaleriya və artilleriya. Piyada qüvvələri əsas qoşun növü sayılırdı. XVIII əsrin 30-cu illərində Rusiya nizami ordusunun səhra piyadaları iki qvardiya, beş qrenadyor, 33 ordu alaylarından və əlahiddə atıcı korpusun 9 alayından ibarət idi. Kavaleriyaya 38 min nəfərdən ibarət olan 3 qrenadyor və 30 draqun səhra alayları daxil idi. Artilleriya və mühəndis qoşunlarında 4 min nəfər, məhəlli qoşunlarda 78 min nəfər, digər qeyri-nizami vahidlərdə 30-35 min nəfər adam var idi. Rusiya ordusunun bütün şəxsi heyətinin sayı 220 min nəfərə çatırdı (121).

Ordunun möhkəmləndirilməsi üçün yeni və daha səmərəli normativlərin tətbiqinə başlandı. 1699-cu ilin sonlarında çar tərəfindən "Bütün azad insanlardan xidmətə əsgər qəbulu haqqında" fərman imzaladı. Bu fərmana əsasən tətbiq edilən komplektləşdirmə sistemi kimi daha çox rekrut sistemi məlumdur. Bu fərmanın icrası ilə bağlı yeni qaydaların və normaların tətbiqi isə XVIII əsrin ilk illərində həyata keçirildi. 1705-ci il fevral ayının 20-də imzalanmış fərmanla rekrut sisteminin tətbiqinin ilkin mərhələsi başa çatdı. Bu sistemin mahiyyəti ondan ibarət idi ki, yaşayış məntəqələrində hər 20 həyət bir nəfər 20 yaşında əsgər verməli, həmin əsgəri yeməklə, geyimlə,

pulla, ərzaq ehtiyatı ilə təmin etməli idi. Atlı əsgərlərə gəlincə isə, hər 80 həyət bir nəfəri təqdim etməli idi. Qanuna əsasən konkret tarixi şəraitdə əsgər təqdim edən ailələrin sayına dəyişiklik edilə bilərdi. Məsələn, məlumdur ki, I Pyotrun hakimiyyəti illərində bəzi vaxtlar 25 ailəyə bir əsgər, bəzi vaxtlarda isə 50 ailəyə bir əsgər təqdim olunmuşdu (122).

Sonrakı illərdə rus ordusunun komplektləşdirilməsində müəyyən yeniliklər də əlavə olundu. 1726-cı ildə rekrutların ailə başına deyil, adambaşına çağırılması qərara alındı. Əvvəlcə 250 nəfərə bir rekrut-əsgərin, sonradan isə hər 200 nəfərdən bir rekrut-əsgərin çağırılması qərarlaşdırıldı. Rekrutlar ömürlük hərbi xidmətə çağırılır və bu zaman onlar təhkimçilik asılılığından azad olunurdular. Rekrutlar kəndlilər arasından, zabitlər isə zadəganlar arasından toplanırdı. Sonrakı illərdə bir rekrutu təqdim etmiş adamların sayında müəyyən dəyişikliklər oldu (123).

I Pyotr tərəfindən ordunun bütün sahələrində başlamış islahatlar qısa zaman ərzində onu Avropanın ən güclü ordularından birinə çevirdi. Həmin islahatların müsbət təsiri XVIII əsrin sonlarına kimi rus ordusunun inkişaf etməkdə olan bir orduya çevirdi. Hətta I Pyotrun ölümündən sonra belə, rus ordusunda müsbət inkişaf xətti davam etməkdə idi. XVIII əsrin ikinci yarısında isə rus ordusunun taktikasında əhəmiyyətli irəliləyiş və dəyişikliklər baş verdi. Bu dövrdə Rusiya ordusunda P.A.Rumyantsev, A.V.Suvorov, M.İ. Kutuzov kimi sərkərdələr yetişmişdi onların da rus döyüş taktikasının inkişafında olan xidmətləri inkaredilməzdir.

XVIII əsrin birinci və ikinci yarısında Rusiyanın hərb sənətinin inkişafının obyektiv bazası da formalaşmaqda idi ki, bu da Rusiyanın inkişaf edən iqtisadiyyatı idi. Bu əsrdə Rusiyaya kapitalist münasibətlərinin bərqərar olması daha da genişləndi. Doğrudur, bu münasibətlərin bərqərar olması qərbə nisbətən daha aşağı səviyyədə idi. Lakin bütünlükdə bu münasibətlər Rusiyada yüksələn xətlə inkişaf edirdi və Rusiyanın ümumi iqtisadi vəziyyəti Avropa ölkələrindən heç də geri qalmırdı. Ölkə daxilindəki iqtisadi inkişaf tendensiyası dövlətin idarə edilməsi sahəsində aparılan islahatlarla tamamlanırdı. II Yekaterina dövründə dövlət idarəçiliyi sahəsində xeyli ciddi islahatlar həyata keçirildi. Mahiyyət etibarilə bu islahatlar imperiya maraqlarına xidmət etsə də, hakimiyyətin mərkəzləşdirilməsi və gücləndirilməsinə istiqamətlənməklə ordu quruculuğunun inkişafına səmərəli təsir göstərirdi.

XVIII əsrin ikinci yarısında da Rusiya kifayət qədər fəal xarici siyasətə malik idi. Bu xarici siyasət də imperiya maraqlarının həyata keçirilməsinə xidmət edirdi. Bu maraqların həyata keçirilməsi güclü ordunun mövcudluğunu tələb edirdi. Heç şübhəsiz ki, Qacarlar da öz planlarının həyata keçirilməsi üçün güclü qoşunların mövcudluğunun zəruriliyini anlayırdılar. Ancaq Qacarlardan fərqli olaraq Rusiya sarayı əvvəlcə güclü ordunun obyektiv bazasını formalaşdırdı, qabaqcıl hərbi təcrübənin tətbiqini əsas tutdu və bir çox hallarda Rusiya özü qabaqcıl hərbi təcrübə yaratdı.

XVIII əsrin son 30 ilində Rusiya 8 müharibə apardı və bu müharibə zamanı 22 hərbi kampaniya həyata keçirildi. Tədqiqatçıların fikrincə, müharibələrin aparılmasındakı bu fəallıq bir tərəfdən Rusiyanın xarici siyasətinin fəallığından irəli gəlirdi, digər tərəfdən bu müharibələrin aparılması Rusiya ordusunun peşəkarlıq səviyyəsini xeyli artırırdı. O da qeyd olunur ki, hər müharibədə əldə olunan təcrübə sonradan daha da təkmilləşirdi, hərbi biliklərin inkişafına yeni bir təkan verirdi (124).

XVIII əsrin ikinci yarısında da ordunun komplektləşdirmə sistemində elə bir fərq baş vermədi. Rekrut sistemi yenə də həmin komplektləşdirmənin əsasını təşkil edirdi. Rekrut toplanışının aparılması xüsusi hərbi komissiyalara həvalə edilmişdi. Həmin dövrdə orduda xidmət müddətinin ömürlük deyil, 25 il olması haqqında qərar qəbul edildi. 1762-ci ildə rus çarı III Pyotr tərəfindən qoşunların ən yaxşı vəziyyətə gətirilməsini təmin edəcək komissiya yaradıldı. Bu komissiya qoşunların strukturunun, ştatlarının, nizamnamələrinin, geyim formasının təkmilləşdirilməsi ilə məşğul olmalı idi. Bu qərarın əsasında piyada alaylarının ştatları dəyişdirildi və strukturları təkmilləşdirildi. Yeni struktur və ştat dəyişikliklərindən sonra kirasir alayının şəxsi heyətinin sayı 945 nəfərə, draqun alayının şəxsi heyətinin sayı 1140 nəfərə, qrenadyor taborunun şəxsi heyəti 117 nəfərə, muşketyor alayının şəxsi heyəti 2005 nəfərə, qusar alayının şəxsi heyəti 1204 nəfərə çatdırıldı (125).

II Yekaterinanın hakimiyyəti illərində rus ordusunun ştat və struktur islahatları davam etdirildi. Özü də III Pyotrun dövründə qəbul edilmiş qərarların bəziləri ləğv edildi. Əvəzində ya III Pyotrdan əvvəlki qərarlar qüvvəsində saxlanıldı, ya da yeni qərarlar qəbul edildi. Xüsusilə, aparılan müharibələrin təcrübəsinin öyrənilməsinə və inkişaf etdirilməsinə, döyüş hazırlığının və intizamın gücləndirilməsinə diqqət artırıldı. II Yekaterinanın sərəncamı əsasında 1762-ci ilin iyul ayında ordu ştatlarına baxılması üçün komissiya yaradıldı. Bu komissiyanın tərkibinə Rusiya ordusunun tanınmış və təcrübəli sərkərdələri daxil edildilər və onların iştirakı ilə bir sıra ciddi hərbi məsələlər həll edildi, qoşunların say tərkibi ilə bağlı keyfiyyət məsələsinə fikir verilməsini önə çəkildi, döyüş hazırlığının və intizamın, qoşunların təminat və təchizatının böyük əhəmiyyət kəsb etdiyi təsdiqləndi. Komissiya qoşun növlərinin nisbəti ilə bağlı təkliflər irəli sürdü. Müəyyən olundu ki, iki piyada alayına qarşı bir atlı alayının təşkili lazımdır. Bu nisbət döyüşlərdə tətbiq olunan taktika ilə əlaqələndirildi. Piyadalar ordunun əsas atəş qüvvəsi hesab olunurdu. Atlı qüvvələr isə bir qayda olaraq piyadaların cinahlarını müdafiə etməklə bərabər düşmən qüvvələrinin təqibi vəzifəsini öz üzərinə götürməli idi. Komissiya eyni zamanda ordunun hərbi kazarmalarda yerləşdirilməsini də məqsədəuyğun saydı. Adı çəkilən komissiya ordunun əsgər heyətinin toplanması haqqında da yeni təkliflər irəli sürdü. Bu təkliflər əsasında şəxsi heyətin toplanması sisteminə aktuallıq təşkil edən bir sıra yeniliklər daxil edildi (126).

Ordunun təkmilləşdirilməsində zabit kadrlarının hazırlanmasına böyük əhəmiyyət yetirilirdi. 1762-ci ildə yaradılmış olan komissiya bu məsələni də ciddi şəkildə araşdırdı. Zabitlərin hazırlanmasında Şlyaxet kadet korpusunun özünəməxsus rolu var idi. Bu kadet korpusunun əsası 1731-ci ildə qoyulsa da 1766-cı ildə yenidən quruldu. Bu kadet korpusu təkmilləşməkdə olan ordunun formalaşmasına xidmət göstərə biləcək zabitlər hazırlayırdı. İxtisaslı zabitlərin hazırlanması üçün 1762-ci ildə topçu və mühəndis zabit korpusları da yaradıldı. XVIII əsrin ikinci yarısında rus ordusunda xarici zabitlərin sayı xeyli artdı. Rus tədqiqatçıları orduda xarici zabitlərin sayının artmasına haqq qazandırmasalar da onların vasitəsilə qərb hərbi təcrübəsinin Rusiya ordusuna gətirilməsini heç də inkar etmək olmaz (127).

Rusiya ordusunun idarəedilməsinin yaxşılaşdırılması üçün 1762-ci ildə Baş Qərargah təşkil olundu. Rusiyanın tanınmış sərkərdələri tərəfindən rus ordusunun döyüş hazırlığının və təşkilinin nəzəri əsasları hazırlandı. P.A.Rumyantsevin "Xidmət qaydaları" və A.V.Suvorovun "Qələbə çalmaq elmi " əsərləri rus milli döyüş təlimi sisteminin bərqərar edilməsində uzun müddət nəzəri baza kimi istifadə edildi (128).

Yuxarıda qeyd edildiyi kimi, 1763-cü ildə piyada alaylarının yeni ştatları təsdiq edildi. Həmin ştatlara əsasən piyada qüvvələrinin 3 qvardiya alayı və 50 ordu səhra alayı var idi ki, onların da 4-ü qrenadyor və 46-sı piyada alayı idi. Piyadaların şəxsi heyətinin ümumi sayı 104654 nəfər idi. 1768-74-cü illər rus-türk müharibəsi ərəfəsində səhra alaylarının sayı 63-ə çatdırıldı ki, onlardan da 4-ü qrenadyor və 59-u piyada alayı idi. Bununla piyadaların ümumi sayı da artırıldı və 135403 nəfərə çatdırıldı. Hər piyada alayı isə 12 bölükdən təşkil olunmuşdu ki, onların 2-si qrenadyor və 10-u muşketyor bölüyü idi. Bölüklər də öz növbəsində taborlara daxil edilmişdi. Piyada alayında hər biri 6 bölükdən ibarət olan iki tabor var idi. Bölükdə 154 hərbçi, taborda 900 nəfər var idi. Qrenadyor alayının şəxsi heyətinin sayı isə 1970 nəfər idi (129).

XVIII əsrin 70-ci illərində Rusiya piyada qüvvələrinin tərkibində yeni struktur vahidləri yaradıldı. Bunlara legionları və yeger bölmələrini göstərmək mümkündür. Legionlar əsasən xarici vətəndaşlar hesabına komplektləşdirilirdi. Nəticədə piyadaların sayı daha da artdı. 1774-cü ildə Rusiyanın piyada qüvvələri 4 qvardiya və 63 piyada alayından, 2 legiondan və 25 səhra komandasından ibarət idi və piyadaların ümumi sayı 180879 nəfərə çatdırıldı. Bununla belə piyada qüvvələrinin gücləndirilməsi davam etdirilirdi. 1786-cı ildə isə piyada qüvvələrinin ümumi mənzərəsi aşağıdakı kimi idi (130):

Piyada alayları – 4
Piyada alayları (4 taborlu) -2
Qrenadyor alayı (4 taborlu) – 10
Piyada alayları (2 taborlu) – 57
Yeger korpusları( 4 bölüklü) – 7

Yeger taborları – 2
Səhra taborları – 12
Qaradəniz taborları -2

Yeger taborlarının yaradılması piyadaların gücləndirilməsi istiqamətində atılan ciddi addımlardan biri idi. Rusiya ordusunda onların təşkilatlanması 1763-cü ilə təsadüf edir. Həmin il Finlandiya diviziyasına komandirlik edən Panin öz diviziyasının hər bölüyündən beş nəfər seçib 300 nəfərlik yeger dəstəsi təşkil etdi. Yegerlər yüngül piyadalar idilər və onlar dağınıq sırada döyüş aparılması üçün tutulmuşdu. 1769-cu ildə bütün piyada alaylarında yeger dəstələri təşkil edildi. 1777-ci ildə isə bu dəstələr piyada alaylarının tərkibindən çıxarılaraq ayrıca taborlarda birləşdirdilər. Sonradan isə 4 taborlu yeger qüvvələrinin bazasında yeger korpusları yaradıldı. Yeger bölmələri ən yaxşı silahlarla silahlandırıldılar və bu vahidlərin döyüş hazırlığına xüsusi diqqət yetirildi (131).

Adı çəkilən qrenadyor strukturları Rusiya ordusunda ilk dəfə I Pyotr dövründə meydana gəldilər. Bu strukturların adı qranat (qumbara) sözündən götürülmüşdür. Qrenadyorlar yalnız qranatla (fitilli) silahlanırdılar və düşmən atlılarının hücumu zamanı onlar irəli çıxaraq əllərindəki qranatı düşmənə tərəf atırdılar. Sonradan qranatlar öz əhəmiyyətini itirəndə qrenadyorlar süngü döyüşü üçün hazırlandılar. Bu hissələrə daha hazırlıqlı döyüşçülər daxil edilirdilər. Onlar digər piyadalardan öz geyimi və papaqlarının rənginə görə seçilirdilər. Daha sonra isə qrenadyorlar öz ilkin mənalarını tamamilə ititrdilər və xüsusi döyüş xidmətləri olan alaylar qrenadyor alayları adlandırılmağa başladılar (132).

Piyada qüvvələrinin tərkibində muşketyor alayları da var idi. Bu alayların döyüşçüləri muşket adlanan tüfənglərlə silahlanmışdılar və muşketyor adlanırdılar. Alayın adı da bu sözdən götürülmüşdü. Muşketyor qüvvələri rus piyadasının əsasını təşkil edirdi. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində də muşketyorlar Rusiya piyadasının əsasını təşkil etməkdə idilər. Onlar əsasən odlu silahla silahlanırdılar (133).

XVIII əsrin sonlarında hakimiyyətə gələn I Pavelin həyata keçirdiyi hərbi islahatlar Rusiya ordusunun inkişaf xəttinə mənfi təsir göstərsə də bütünlükdə Rusiya piyada qüvvələri kifayət qədər güclü bir qüvvə idi və XVIII əsrin sonlarında onun ümumi mənzərəsi aşağıdakı kimi idi (134):

| Hissələrin adı | 1796 | 1797 | 1798 | 1800 |
|---|---|---|---|---|
| Qvardiya alayları | 3 | 3 | 3 | 3alay və 2 tabor<br>1 |
| Leyb-qvardiya alayları | 1 | 1 | 1 | 1 |
| Qrenadyor alayı(2 taborlu) | 15 | 12 | 12 | 69 |
| Muşketyor alayı ( 2 taborlu) | 57 | 62 | 62 | - |
| Yeger korpusu (2 taborlu) | 10 | - | - | - |
| Yeger taborları | 3 | 20 | - | 19 |
| Yeger alayları | - | - | 20 | - |
| Səhra taborları | 25 | - | - | |

1800-cü ildə piyadaların ümumi sayı 203228 nəfər idi

Azərbaycan xanlıqlarının işğalında sözsüz ki, bütün bu piyada qüvvələri iştirak etməmişdir. Lakin Rusiya dövləti belə güclü piyada qüvvələrinə malik idi və Qafqaz cəbhəsinin lazım olan anda möhkəmləndirilməsi üçün böyük potensialı var idi.

XVIII əsrin ikinci yarısında Rusiya ordusu süvari qüvvələrin inkişafında və möhkəmləndirilməsində də ciddi addımlar atıldı. 1762-ci ildə yaradılmış olan Hərbi Komissiya bu istiqamətdə də lazımi qərarları qəbul etdi. Bu zaman ötən illərin müharibələrinin təcrübəsinə, gələcək müharibələrdə süvari qüvvələrinin səmərəliliyinin artırılmasına xüsusi diqqət yetirildi. Hərbi komissiya nizami süvari qüvvələrin ümumi mənzərəsində ciddi dəyişikliklər etdi. 19 draqun və atlı-qrenadyor alayı karabiner alayına çevrildi. Karabiner alayları karabin tüfənglərlə silahlandırıldı. Bu alaylar atlı sırada fəaliyyət göstərməli idilər. Dəyişikliyə məruz qalmamış bir neçə draqun alayı isə qarnizon qoşunları kimi xidməti davam etdirirdi (134).

Bütünlükdə, 1765-ci ildə Rusiya süvari qüvvələrinin ümumi tərkibi belə idi: atlı qvardiya kirasir alayı -1, kirasir alayı -5, karabiner alayı -19, draqun alayı -7, qusar alayı -9. Süvari qüvvələrinin şəxsi heyətinin ümumi sayı 40612 nəfər idi (135).

II Yekaterinanın hakimiyyətinin sonuna, yəni 1796-cı ilə qədər süvari qüvvələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, təkmilləşdirilməsi sahəsində xeyli işlər görüldü. I Pavelin hakimiyyəti illərində isə bu sahədəki islahatlar süvari qüvvələrinin sayının azalmasına, təyinatlarının dəyişməsinə səbəb oldu. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür:

| Hissələrin adı | 1796 | 1797 | 1798 | 1800 |
|---|---|---|---|---|
| Qvardiya alayları və kazak yüzlükləri ........ | 1 alay və 1 yüzlük | 3 | 3 | 3 |
| Kirasir alayları......... | 5 | 16 | 16 | 13 |
| Karabiner alayları..... | 17 | - | - | - |
| Draqun alayları......... | 11 | 16 | 16 | 15 |
| Qusar alayları.......... | 2 | 8 | 8 | 8 |
| Atlı-yeger alayları | 3 | - | - | - |
| Atlı-qrenadyor alayları | 1 | - | - | - |
| Yüngül atlı alayları | 11 | - | - | - |




*XVIII əsrin sonlarında rus ordusunun geyim forması*
*1.Qvardiya piyadalarının qrenadyoru. 2.Muşketyor alayının Muşketyoru. 3. Qusar. 4.Leyb-kompanens. 5. Atlı qrenad-yor alayının ober-zabiti. 6. Mişketyor ober-zabiti*

Bu struktura uyğun olaraq 1796-cı ildə süvari qüvvələrinin ümumi sayı 66896 nəfər idisə, 1800-cü ildə onların sayı 41737 nəfər idi (136). Bundan başqa Rusiya dövlətinin ixtiyarında qeyri-nizami kazak atlı qüvvələri var idi ki, onların da sayı xeyli çox idi.

Rusiya ordusunun döyüş qüdrətinin artırılması üçün artilleriyanın və istehkam xidmətinin təkmilləşdirilməsinə də ciddi diqqət yetirilirdi. XVIII əsrin sonlarında Rusiya qoşunları istər artilleriyanın kəmiyyətinə, istər müasirliyinə və atəş gücünə, istərsə də artilleriyanın şəxsi heyətinin peşəkarlı-ğına və döyüş hazırlığına görə Azərbaycan xanlıqlarının və Qacarların qoşunlarını xeyli üstələyirdi.

1801-ci ilin mart ayında Rusiya taxt-tacına I Aleksandr sahib oldu. Rusiyanın imperiya qüdrətinin saxlanması və genişləndirilməsi üçün orduya xüsusi diqqət onun hakimiyyəti illərində də saxlanıldı. I Aleksandrın həyata keçirdiyi islahatlar nəticəsində qoşunların xarici görkəmi dəyişildi. Hərbçilərin istifadə etdiyi üçkünc papaqlar yeni dəri papaqlarla əvəz olundu. Bütünlükdə yeni geyim formasının tətbiqinə başlandı. Eyni zamanda hərbi qüvvələrin mərkəzi idarəetmə orqanlarında yeniliklər baş verdi. 1802-ci ildə Hərbi kollegiyanın yerinə Hərbi Quru Qüvvələri Nazirliyi yaradıldı (137).

XIX əsrin əvvəllərində də Rusiya ordusu həm də rekrut mükəlləfiyyəti əsasında komplektləşdirilirdi. Rusiya imperiyasına daxil olan ruslar ukraynalılar və beloruslar bu sistem üzrə xidmətə cəlb edilirdilər. İmperiya ərazisindəki qeyri-slavyan xalqlar qeyri-nizami qüvvələrin təşkilində iştirak edirdilər. Sibir və Qafqazda yaşayan xalqlar isə ümumiyyətlə hərbi mükəlləfiyyətdən azad edilmişdilər. XX əsrin əvvəllərində Rusiya qoşunlarında diviziya sistemi, bir neçə il sonra isə korpus sistemi tətbiq olundu. Hərbi hissələr əsasən lülənin yuxarısından doldurulan yivsiz və yivli-çaxmaqlı tüfənglərlə, yivsiz toplarla təchiz olunmuşdu. Qoşunların ehtiyaclarının ödənməsi üçün ölkə daxilində silah və sursat istehsalı da təşkil olunmuşdu. Quru qoşunları kimi, dəniz donanmaları da xeyli möhkəmləndirildi. XIX əsrin əvvəllərində Xəzər hərbi donanmasının ixtiyarında 3 freqat və 24 kiçik gəmi var idi (138).

Rusiya ordusunun daha da inkiuşaf etdirilməsi və möhkəmləndirilməsi üçün 1801-ci ilin iyununda "Qoşunların vəziyyətinin öyrənilməsi və onun nizamlanması üçün Hərbi Komissiya" yaradıldı. Bu Komissiya qoşunların sayını, qurumlanmasını, onların komplektləşdirilməsini müəyyənləşdirməli, qoşunların silahlandırılması və təchizatı ilə məşğul olmalı idi. Təşkilat və təsərrüfat məsələləri də Hərbi Komissiyanın fəaliyyət sahəsinə daxil olmalı idi. Mürəkkəbləşməkdə olan hərbi şərait və beynəlxalq vəziyyət Hərbi Komissiyanın qarşısında dayanan vəzifələrin icrasını daha da aktuallaşdırdı (139).

Bu komissiya qarşıya qoyulan bir sıra ciddi məsələlərin həllinə nail oldu. Bir sıra məsələlərin həllinə isə nail olunmadı. Lakin bu Komissiyanın fəaliyyətinin əhəmiyyəti tamam başqa bir məqamla qiymətləndirilə bilər. Bu da ondan ibarətdir ki, Rusiyada müasir ordu quruculuğuna, bu ordu quruculuğunun nəzəri-praktiki, maddi-mənəvi və təşkilati bazasının təmin edilməsinə peşəkar səviyyədə yanaşıldı.

1801-ci ilin əvvəlində, başqa sözlə Azərbaycan xanlıqlarının işğalına başlaması ərəfəsində Rusiya ordusu 446059 nəfərdən ibarət idi. Onların 201280 nəfəri piyada, 42685 nəfəri süvari, 36500 nəfəri topçu, 96594 nəfəri qarnizon qoşunları və 70 min nəfəri xüsusi təyinatlı qoşunlar idi. Bütün piyada qüvvələri 215 taborda, süvarilər isə 41 alayda birləşdirilmişdi. Ölkə ərazisində 14 inspeksiya təşkil edilmişdi ki, onlardan biri də Qafqaz inspeksiyası idi. İnspeksiya hərbi dairələri təmsil edirdi. Bu mənada Qafqaz da Rusiya qoşunlarının ayrıca hərbi dairəsini təşkil edirdi (140).

XIX əsrin əvvəllərində Rusiya hərbi qüvvələrinin mərkəzi idarəetmə orqanlarında ciddi təkmilləşmə işləri aparıldı və Rusiyanın Hərbi Nazirliyi o dövr üçün mükəmməl bir hərbi idarəetmə orqanına çevrildi. Qoşunların təlim-tərbiyəsinin təkmilləşdirilməsi və döyüş hazırlığının yüksək səviyyəyə qaldırılması üçün yeni hərbi və xidmət nizamnamələri hazırlandı. Məsələn, 1809-cu ildə "Rekrut və ya əsgər məktəbi", 1811-ci ildə "Bölük təlimi" işıq üzü gördü və bölmələrin döyüş xidmətinin təşkilində bütünlükdə böyük rol oynadı. 1811-ci ildə "Piyada xidməti haqqında hərbi nizamnamə" qoşunların istifadəsinə verildi (141).

XIX əsrin ilk rübündə Rusiya ordusunda çox zəngin döyüş təfəkkürünə və təcrübəsinə malik olan sərkərdələr və generallar nəsli yetişdi. Rusiya Azərbaycan xanlıqlarının işğalının həyata keçirilməsini, Azərbaycan xanlıqlarına iddialı olan Qacar hakimiyyətinin hərbi iddialarının qarşısının alınmasını da belə sərkərdələrə və generallara həvalə etdi. Çünki mövcud dağınıqlıq və parçalanmalarına baxmayaraq Azərbaycan xanlıqlarının qoşunlarının döyüş ruhu Rusiya sarayında təşvişlə qarşılanırdı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Амирбекова Н. Вопросы военной истории Азербайджана в период ханства. Баку, 2004, с.17
2. Mirbağırzadə M. Şəki qəzasında hökmranlıq tarixi haqqında müxtəsər məlumat, s.158. Bax: Tahirzadə Ə. Şəkiniun tarixi qaynaqlarda. Bakı, 2005, s.137-170
3. Yenə orada, s.157
4. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, с.42
5. Mirbağırzadə M..., s.157
6. Ибрагимбейли Х.М. ...,с.42-43
7. Ибрагимбейли Х.М. ...,с.43; Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.98
8. Амирбекова Н...., с.22
9. Ибрагимбейли Х.М. ...,с.43
10. Мамедова Э. Админстративное устройство и управление Азербайджанских ханств во второй половине XVIII веке (диссертация на соискание ученой степени кандидата исторических наук). Баку, 1999, с.140
11. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, 2007, s.203
12. Абдуллаев Г. Азербайджан в XIX веке и взаимоотношения его с Россией. Баку, 1963, с.249-250
13. Mustafazadə T. Quba xanlığı ... s.100
14. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2010, s.146, 148, 177
15. Mirbağırzadə M..., s.158
16. Mirbağırzadə M..., s.158; Şəki xanlığının qısa tarixindən. Bakı, 1993, s.18
17. Валуев П.Н. Фатали хан Кубинский. Баку, 1993, с.10
18. Mustafazadə T. Quba xanlığı... , s.99
19. Mirbağırzadə M. ... , s.158
20. Yenə orada, s.159
21.Bax: Mustafazadə T. Quba xanlığı ..., s.90
22. Бабаев Э. Из истории Гянджинского хансева. Баку, 2003, с.84
23. Мамедова Э. Админстративное устройство ... 141
24. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, s.50
25. Yenə orada, s.49
26. Hacıyeva Z. .. , s.203
27. Абдуллаев Г. Азербайджан в XIX веке..., с.216, 237
28. Амирбекова Н...., с.26
29. Григорян З.Т. Присоединение Восточной Армении к Росии в начале XIX века. Москва, 1959, с.18
30. Мамедова Э. Админстративное устройство ... 131
31. Валуев П.Н. Фатали хан Кубинский. Баку, 1993, с.9
32. Qarayev Ə. Azərbaycan XVIII əsr rus və qərbi Avropa səyyahlarının təsvirində. Bakı, 2005, s.102

33. Абдуллаев Г. Азербайджан в XIX веке..., с.213; Мамедова Э. Админстративное устройство ... 133; Qarayev E. Azərbaycan XVIII əsr ..., s.107
34. Qarayev E. Azərbaycan XVIII əsr ... , s. 110
35. Mustafazadə T. Quba xanlığı .., s. 99; Hacıyeva Z. ... , s.203
36. Мамедова Э. Админстративное устройство ... 139, 141
37. Mirzə Camal Cavanşir Qarabaği..., s.51
38. Qarayev E. Azərbaycan XVIII əsr .., s.51
39. Mustafazadə T. Quba xanlığı ..., s.98
40. Mirzə Camal Cavanşir Qarabaği ..., s.50
41. Амирбекова Н...., с.46
42. Yenə orada, s. 46
43. Акорян Т.Х. Очерки истории Еревана. Ереван, 1977, с. 113
44. Искендерова М. Вакинское ханство. Баку, 1999, с.98
45. Абдуллаев Г. Азербайджан в XIX веке..., с.109;
45a. İsmayılov M. Şəki. Bakı, 1982, s.33
46. Абдуллаев Г. Азербайджан в XIX веке..., с.189-190
47. Yenə orada, s.197
48. Yenə orada, s.199
49. Амирбекова Н...., с.84-85
50. Григорян З.Т. Присоединение..., с.18
51. Из истории Русско-армансkих отношений. Т.I, Ереван, 1956, с.355
52. Yenə orada
53. Акорян Т.Х. Очерки истории..., с.86
54. Из истории Русско-армансkих отношений..., с.314
55. Yenə orada, s.356
56. Əlizadə, Həsən İxfa. Şuşa şəhərinin tarixi, s.315. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.310-350
57. Hacıyeva Z. ..., s.204
58. Əlizadə H. Şuşa şəhərinin tarixi..., s.315
59. Mirzə Yusif Qarabaği. Tarixi Safi, s.18. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.6-94
60. Mirzə Yusif Qarabaği ..., s.18; Hacıyedf Z. ..., s.208
61. Mirzə Camal Cavanşir Qarabaği..., s.19
62. Yenə orada
63. Mirzə Camal Cavanşir Qarabaği...,s.48; Hacıyeva Z. ..., s.209
64. Xəzani, Mir Mehdi "Kitabi tarixi Qarabağ", s.20. Bax: Qarabağnamələr. İkinci kitab, Bakı 1991 s.94-204
67. بینا علی اکبر. تاریخ سیاسی و دیپلوماسی ایرنا. جلد اول، تهران، ۱۳۴۸، ص.۷۴
قازیها ف. اسناد روند اجرای معاهده ترکمنچای. تهران، ۱۳۷۴، ص.۷
68. همایون ن. تحولات قوشون در تاریخ معاصر ایران.تهرانریال ۱۳۷۶، ص.۱۱۳
69. Yenə orada
70. بینا علی اکبر، ۷۵
71. تبری سید موصتفی مویوی. عباس میرزا. تهران، ۱۳۵۳، ص.۷۹
72. مدنی ج. تاریخ تحولات سیاسی و روابت خارجی ایران. جلد اول، تهران، ۱۳۷۸، ص.۹۰

73. تبری سید مصتفی موسوی، ۵۶
74. ناصر نجمی.عباس میرزا. تهران، ۱۳۷۴، ص.۷۸
75. مدنی، ۹۰
76. همایون، ۱۱۱
77. ماموریت ژنرال گاردان در ایران. تهران، ۱۳۶۲، ص.۸۴
78. ماموریت ژنرال گاردان، ۷۱، تبری ۵۷،۵۹، ناصر نجمی، ۷۶
79. ماموریت ژنرال گاردان، ۷۲
80. ماموریت ژنرال گاردان، ۷۲
81. قوزانلو ج. تاریخ نظامی ایران. جلد دوم، تهران، ۱۳۱۰، ص.۲۹۳-۲۹۴
82. قایمقامی ج. تحولات سیاسی نظامی ایران. تهران، ۱۳۲۶، ص.۱۲
83. قوزانلو ج. جلد دوم، ص.۶۸۰
84. شهابی س. کارنامه سیاسی قایم مقام فراهانی. تهران، ۱۳۲۶، ص.۴۹
85. بینا علی اکبر، ۸۴۰۸۵
86. مدنی، ۹۱
87. ماموریت ژنرال گاردان، ۷۱
88. ماموریت ژنرال گاردان، ۷۱
89. همایون، ۱۱۵
90. مدنی، ۹۲
91. بینا علی اکبر، ۸۴
92. ماموریت ژنرال "اردان، ۷۴، بینا علی اکبر، ۸۳
93. Dəlili H.Ə. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1979, s.76
94. مدنی، ۸۹
95. Dəlili H. ..., s. 74
96. مدنی، ۸۹
97. علی بابایی. تاریخ ارتش ایران. تهران، ۱۳۸۲، ص.۵۲-۵۳
98. قوزانلو ج. جلد دوم. ۶۹۴، تبری، ۵۹
99. همایون، ۱۱۵
100. ماموریت ژنرال گاردان، ۷۳
101. Yenə orada
102. Yenə orada, s.73
103. ماموریت ژنرال گاردان، ۷۳، ناصر نجمی، ۷۸
104. تبری، ۸۶
105. بینا علی اکبر، ۷۵
106. ماموریت ژنرال گاردان، ۷۱
107. بینا علی اکبر، ۷۵
108. تبری، ۵۸-۵۹
109. قوزانلو ج. جلد دوم، ۶۹۵
110. مدنی، ۹۱
111. بینا علی اکبر، ۷۳
112. همایون، ۱۱۳
113. تبری، ۸۱-۸۲
114. ناصر نجمی، ۷۷
115. بینا علی اکبر، ۷۳
116. همایون، ۱۱۳

117. مدنی، ۸۹
118. Mustafazadə T. Ümumi tarix. I kitab, Bakı, 2009, s.910
119. Бескровный Л.Г. Русская армия и флот XVIII века. Москва, 1958, с.20
120. Yenə orada, s.21
121. Развитие тактики русской армии XVIII века – начале XX в. Москва, 1957, с.5
122. Бескровный Л.Г. Русская армия и флот XVIII века. Москва, 1958, с.24-26
123. Yenə orada, s.34-35
124. Золотарев В.И., Межевич М.Н., Скородумов Д.Е. Во славу отечества Российского. Москва, 1984, с.22-23
125. Бескровный Л.Г. Русская армия и флот XVIII века. Москва, 1958, с.298, 303-304
126. Yenə orada, s.304, 306-308
127. Золотарев В.И., Межевич М.Н., Скородумов Д.Е..., с.49
128. Развитие тактики русской армии XVIII века – начале XX..., с.10
129. Бескровный Л.Г. Русская армия и флот XVIII века..., с.311-312
130. Yenə orada, s.314
131. Энциклопедия военных и морских наук. Т. III, С.Петербург, 1888, с.130-
131 Золотарев В.И., Межевич М.Н., Скородумов Д.Е..., с.53
132. Энциклопедия военных и морских наук. Т. II, С.Петербург, 1888, с.583
Рода войск русской армии начале 19-го века. www.kishar.ru/around/-1812.php
133. Рода войск русской армии начале 19-го века
134. Золотарев В.И., Межевич М.Н., Скородумов Д.Е..., с.55
135. Бескровный Л.Г. Русская армия и флот XVIII века..., с.317
136. Yenə orada, s.320-321
137. Керсновский А.А. История русской армии. http://militera.lib.ru/h/kersnovski1/06.html
138. Бескровный Л.Г. Русское военное исскуство XIX в. Москва, 1974, с.6-7
139. Бескровный Л.Г. Русская армия и флот XIX века. Москва, 1973, с.11
140. Yenə orada, s.12-13
141. Развитие тактики русской армии XVIII века – начале..., с.15

# VII FƏSİL

## XVIII ƏSRİN SONLARINDA CƏNUBİ QAFQAZDA HƏRBİ-SİYASİ ŞƏRAİT

### *1. Ağa Məhəmməd şahın qətlindən sonra Azərbaycan xanlıqlarının vəziyyəti*

Ağa Məhəmməd şah Qacarın qətlə yetirilməsi ilə Azərbaycan xanlıqları ərazisində yeni bir tarixi şərait yarandı. Bu şərait həm Qacarlar dövləti tərəfindən, həm də Rusiya dövləti tərəfindən Azərbaycan xanlıqları üzərinə işğalçı yürüşlərə ara verilməsi ilə bağlı idi. Adları çəkilən dövlətlərdə baş verən hakimiyyət dəyişiklikləri ilə yaranan qısa fasilədən istifadə edərək Azərbaycan xanları da yaranan tarixi şəraitdən bəhrələnməyə çalışdılar. Onlar xanlıqların müstəqilliyinin möhkəmləndirilməsi üçün mümkün yollar axtarmağa başladılar.

Qacar şahının qətlə yetirilməsi və Qacar qoşunlarının geri çəkilməsi Azərbaycan xanlarının Qacar hakimiyyətindən olan asılılığına son qoyulması üçün bir fürsət yaratdı. İrəvan xanı Məhəmməd xan bu fürsətdən dərhal yararlandı və İrəvan qalasında olan şah qarnizonunu oradan uzaqlaşdırmağa nail oldu. Qacarlar dövlətinin və Rusiyanın Qafqaz planlarının məngənəsində qalmasına baxmayaraq Məhəmməd xan soyuqqanlı siyasət yeridib xanlığın müstəqilliyinin möhkəmləndirilməsinə cəhd göstərdi. Xanımının və kiçik yaşlı oğlunun girov olmasına baxmayaraq, Məhəmməd xan yeritdiyi siyasəti ilə həm Rusiyanın, həm də Qacarlar dövlətinin ağalığını uzaqlaşdırmağa çalışdı.

İrəvan xanı Məhəmməd xan ehtimal edirdi ki, Arazın cənubunda olan ərazilərdə Qacarlar hakimiyyəti möhkəmləndirildikdən sonra Qacarların Qafqaza olan iddialarına da növbə çatacaq. Buna görə müəyyən bir vaxt onun mövqeyində bir tərəddüd yarandı və Qacarlara müqavimət göstərməyin mümkün olmayacağı qənaətinə gəldi. Hətta o, gürcü çarına da məktub yazıb onu da Qacarlar sarayına tabe olmağa çağırdı.

Lakin Məhəmməd xan tezliklə bu fikrindən daşındı. Xüsusən, Ağa Məhəmməd şahın Qarabağa ikinci yürüşü zamanı taxtdan düşürülmüş və kor edilmiş Naxçıvan xanı Kəlbəli xanın məsləhəti və qətiyyəti Məhəmməd xanı daha möhkəm mövqe tutmağa sövq etdi. Xoy xanı Cəfərqulu xanın da son nəfəsədək Qacar qoşunlarına müqavimət göstərmək qərarı Məhəmməd xanı daha da ruhlandırdı və qərarında doğru olduğuna əmin oldu. Kifayət

qədər çevik olan, ağlını və fəhmini itirməyən, tədbirliliyi və şücaəti ilə fərqlənən Kəlbəli xanla fikir və əməl birliyi Məhəmməd xanın fəaliyyətini tamamladı, onların ümumi düşmənə qarşı müqavimətini daha da artırdı.

Ağa Məhəmməd şahın qətlindən sonra Qarabağ xanlığı daxilində də ciddi proseslər baş verdi. İbrahim xan həm xanlıq daxilində hakimiyyətin möhkəmləndirilməsi, həm də xanlığın xarici müdaxilələrə qarşı müqavimətinin gücləndirilməsi istiqamətində bir sıra addımlar atmalı oldu.

Məlumdur ki, Ağa Məhəmməd şah Şuşaya daxil olanda İbrahim xan xanlıq ərazisini tərk etmişdi. Xanlıq daxilində baş verən bir sıra hadisələri də o kənardan izləməli oldu. Ağa Məhəmməd şahın ölüm xəbəri alınandan sonra İbrahim xan dərhal Qarabağa qayıtmadı. Bunun nə ilə bağlı olduğu mənbələrdə göstərilmir. Bildirilir ki, İbrahim xan daha üç ay Balakəndə qaldı. Bu müddət ərzində Gəncə və Şirvan xanlıqlarının nümayəndələri onun yanına gəldilər, ona gözaydınlığı verməklə qiymətli hədiyyələr də təqdim etdilər. Ağa Məhəmməd şahın qətlə yetirilməsi İbrahim xanın mövqelərinin möhkəmlənməsi demək idi və qonşu xanlar da çalışırdılar ki, onunla dostluq münasibətlərinin möhkəmlənməsinə nail olsunlar. İbrahim xanın xəbəri var idi ki, Qarabağda idarəçilik işlərini qardaşı oğlu Məhəmməd bəy öz üzərinə götürmüşdür. Ola bilsin ki, İbrahim xan artıq Qarabağda ciddi bir təhlükənin mövcud olmadığına əmin idi. Amma mövcud məlumatlardan belə bir qənaətə də gəlmək mümkündür ki, İbrahim xan Məhəmməd bəyin sədaqətinə elə də bel bağlamırdı və onda hətta Məhəmməd bəyin separatçılığı barəsində də şübhə yaranmışdı. Elə buna görə də İbrahim xan Qarabağa qayıtmazdan əvvəl oğlu Mehdiqulu ağanı bir sıra adamlarla birlikdə Qarabağa göndərdi. Mehdiqulu ağa əslində Qarabağa gələrək vəziyyətin nə yerdə olduğunu, Məhəmməd bəyin hakimiyyət xəyallarına düşüb-düşməməsini və bunun nə dərəcədə təhlükəli olduğunu araşdırmalı idi. Zahirdə Mehdiqulu ağa Məhəmməd bəy tərəfindən səmimiyyətlə qarşılandı. Məhəmməd bəy İbrahim xanın hakimiyyətinə sədaqətli olduğunu bəyan etdi. Amma Mehdiqulu ağa çox tezliklə anladı ki, Məhəmməd bəy öz sözlərində heç də səmimi deyil. Gizlində o, hakimiyyət ehtirası ilə yaşayır. Bununla bağlı o, ətrafına hətta müəyyən adamlar da toplaya bilmişdi. Mehdiqulu ağa ona ciddi müqavimət göstərmək gücündə olmadığı üçün vəziyyətlə bağlı atası İbrahim xana məktub göndərdi, ondan kömək istədi. Məktub İbrahim xana o vaxt yetişdi ki, o artıq Qarabağa doğru hərəkətə başlamışdı. Bununla belə vəziyyətin dərhal nəzarət altına alınması üçün İbrahim xan böyük oğlu Məhəmməd Həsən ağanı beş yüz nəfərlik ləzgi dəstəsi və Qarabağın döyüşgən bəyləri ilə birlikdə Qarabağa göndərdi (1).

Qoşun dəstəsi ilə Məhəmməd Həsən ağanın Şuşaya yaxınlaşması Məhəmməd bəyin ciddi təşvişinə səbəb oldu. Məlumata görə Məhəmməd bəy topladığı var-dövləti Kirs dağının ətəklərindəki meşələrdə gizlətdi. Hətta əhalinin müəyyən hissəsini Araz kənarına köçürüb İbrahim xana qarşı açıq müxalifətə keçmək fikrinə düşdü. Məhəmməd Həsən ağa onun bu müxalifətçiliyinin qarşısını almaq üçün Məhəmməd bəyin qərar tutduğu məntəqəyə yollandı. Çox güman ki, Məhəmməd bəy müəyyən bəhanələrlə əhalini İbrahim xana qarşı müxalifətçiliyə sövq etməyə çalışırdı. Lakin onun ətrafındakılar Məhəmməd Həsən ağanın yaxınlaşmasını eşidən kimi müxalifətçilikdən çəkindilər. Belə olanda Məhəmməd bəy özü də Məhəmməd Həsən ağanın görüşünə gəlmək, İbrahim xanın hakimiyyətini tanımaq məcburiyyətində qaldı. Məhəmməd Həsən ağa ona toxunmasa da, onunla həmfikir olanlardan bir çoxunu ciddi cəzalandırdı, Şuşa qalasında şübhə doğuran adamlar vəzifələrindən kənarlaşdırıldılar və qala daxilində əmin-amanlıq yaradıldı. Yalnız bundan sonra İbrahim xan Şuşa qalasına gəldi (2).

Əhməd bəy Cavanşir isə Məhəmməd bəylə bağlı hadisəni bir qədər fərqli şəkildə təsvir edib və hətta İbrahim xanın Balakəndə üç ay ləngiməsinin səbəbinə də öz münasibətini bildirib. Müəllifə görə, İbrahim xan öz xanlığında qalıb-qalmamaq haqqında Ağa Məhəmməd şahın yerinə taxta çıxmış Fətəli şahın razılığını almaq istəyirdi. Guya Fətəli şahdan razılıq alından sonra İbrahim xan Qarabağa qayıtdı (3).

Mənbədə olan bu məlumat müəyyən suallar doğurur. İbrahim xan doğrudan da Qacar şahlarından özünün xanlıqda qalıb-qalmamsı ilə bağlı razılığını almaq istəyirdisə, onda nə üçün Qacar qoşunlarına qarşı mübarizə aparırdı? Tarixi mənbələrdən məlumdur ki, İbrahim xan hətta V.Zubova da Arazdan cənuba qoşun çıxarmağa təkid edirdi ki, bununla Qacarlar hakimiyyətinə zərbə endirilmiş olsun.

Əhməd bəy Cavanşirin yazdıqlarına görə, ətrafdakılar və eləcə də öz əhatəsi Məhəmməd bəy Cavanşirə Qarabağ xanlığını ələ almağı və İbrahim xanı öldürməyi təklif edirdilər. Ola bilsin ki, bu barədə olan xəbərlər İbrahim xana da çatdırılmışdı. Müəllifə görə Məhəmməd bəy ona edilən təklifləri nəinki qəbul etmədi, hətta əmisi İbrahim xanın yanına elçilər göndərib onu tezliklə Qarabağa qayıtmağa çağırdı. Əslində, Məhəmməd bəyin İbrahim xana qarşı şübhəli mövqe tuta biləcəyi haqqında müəyyən əsaslar da var idi. İbrahim xan onun atasını öldürərək arvadını (Məhəmməd bəyin anasını) özünə kəbin etmək istəyəndə Məhəmməd bəy buna imkan verməmişdi. Əhməd bəy Cavanşir əsərində yazır ki, İbrahim xanın böyük oğlu Məhəmməd Həsən ağa Məhəmməd bəyin Ağa Məhəmməd şahın öldürülməsində və bununla da Qarabağ xanlığının xilas edilməsində xüsusi

rolu var. Bununla müəllif onun İbrahim xana qarşı müxalifətçilik fikrinə düşmədiyini ifadə etməyə çalışırdı. Bildirilir ki, Məhəmməd bəy Məhəmməd Həsən ağanı səmimiyyətlə qarşıladı və İbrahim xanın geri qayıtmasına sevincini ifadə etdi (4).

Mənbələrdə olan məlumatlara görə, Məhəmməd bəy öz fəaliyyətində Şəki hakimi Məhəmməd Həsən xana arxalanırdı və İbrahim xan tərəfindən təhlükə hiss edəndə də məhz Şəki xanlığına üz tutdu. Qarabağnamə müəlliflərinin yazdığına görə, İbrahim xan hələ Qarabağa dönməzdən əvvəl Fətəli şahla əlaqələr yaratmış və onunla münasibətlərin sahmana salınmasına çalışmışdı. Bildirilir ki, Fətəli şah da İbrahim xanın qarşısında tələb qoymuşdu ki, Ağa Məhəmməd şahın qətlində əli olan Məhəmməd bəyi tutub şah sarayına təhvil versin. Məhəmməd bəy də bu təhlükəni hiss edərək Şuşanı tərk etdi. İbrahim xanın oğlu Məhəmməd Həsən ağa Tuğ kəndində ona çatdı və onun hər hansı bir təhlükədən ehtiyatlanmağa əsas olmadığını bildirdi. Ondan xahiş olundu ki, geri qayıtsın və dinc həyatını davam etdirsin. Görünür, Məhəmməd bəy hər halda onun üçün təhlükə mövcud olduğundan ehtiyatlanırdı. Ona görə də, təklifi qəbul etmədi, Tərtər çayı sahilindəki malikanəsinə və oradan da Şəki xanı Məhəmməd Həsən xanın yanına yollandı (5).

Digər bir məlumata görə, Şəkidə hakimiyyəti əlinə almış Məhəmməd Həsən xan Məhəmməd bəyə xəbər göndərdi ki, onun yanına gəlsin, onun qızı ilə evlənsin və bundan sonra Şəki xanlığının idarə edilməsini öz üzərinə götürsün. Ola bilsin ki, Məhəmməd bəy bu təklifi ciddi qəbul etdi. Çünki şəkili Məhəmməd Həsən xan kor edildiyindən idarəçilik işlərində müəyyən çətinliklər çəkə bilərdi. İgidliyi və şücaəti ilə ad çıxarmış Məhəmməd bəy isə bu işin öhdəsindən bacarıqla gələ bilərdi. Ona görə Məhəmməd bəy təklifi qəbul etdi və bu da sonradan ona həyatı bahasına başa gəldi.

Məhəmməd bəy Şəkiyə yetişən kimi Məhəmməd Həsən xan onu həbs etdirib Şirvan xanı Mustafa xana təhvil verdi. Baxmayaraq ki, şəkili Məhəmməd Həsən xan Şirvan xanı ilə xoş münasibətlərdə deyildi, bununla belə bu addımı atdı. Onun bu hərəkəti müəyyən təəccüb doğururdu. Mənbələrdə olan məlumatlardan əldə edilən nəticə isə budur ki, Məhəmməd Həsən xan Məhəmməd bəyin malik olduğu var-dövlətini əlindən almaq üçün onu Mustafa xana təhvil verdi. Çünki bilirdi ki, Mustafa xan onu sağ buraxmayacaq və bununla da Məhəmməd bəyin var-dövlətinə iddia qaldıran da olmayacaq. Mustafa xanla Məhəmməd bəy isə düşmən münasibətində idilər. Mustafa xan Məhəmməd bəyin atasını öldürmüş, Məhəmməd bəy isə əvəzində Mustafa xanın atasını və qardaşını öldürmüşdü. Mövcud olan məlumatlara görə, şəkili Məhəmməd Həsən xanın qızı ilə toya hazırlıq zamanı Məhəmməd bəy həbs edildi, onun var-dövləti əlindən alındıqdan

sonra Mustafa xana təhvil verildi. Mustafa xan da öz yaxınlarının qısasını almaq üçün dərhal onu qətlə yetirdi (197).

Mənbələrdə o da bildirilir ki, Məhəmməd bəyi öldürdükdən sonra Şirvan xanı Mustafa xan, Şəki xanı Məhəmməd Həsən xan və Gəncə xanı Cavad xan İbrahim xanın qardaşı oğlunun öldürülməsində iştirak etdikləri üçün İbrahim xandan ehtiyatlanmağa başladılar. Cavad xan isə çox güman ki, daha çox müstəqilliyə malik olmaq üçün İbrahim xanla olan münasibətlərini ciddiləşdirdi.

Əvəzində isə İbrahim xanın Ağa Məhəmməd şahın yerinə taxta çıxmış Fətəli şahla münasibətlərində istiləşmə başladı. Bir tərəfdən müharibədən yenicə çıxması, digər tərəfdən də bir neçə il davam edən quraqlıq Qarabağın müqavimət gücünü xeyli zəiflətmişdi. Belə bir şəraitdə Qacar qoşunlarının yeni hücumuna məruz qalmaq Qarabağ xanlığı üçün ağır nəticələrlə başa çata bilərdi. Ona görə də İbrahim xan tədbirlilik göstərərək Fətəli şahla münasibətlərin normallaşdırılması və bununla da Qarabağa qarşı istiqamətlənə biləcək təhlükənin sovuşdurulması imkanından istifadə etdi.

Qarşılıqlı münasibətlərin yaxşılaşdırılması üçün İbrahim xanın öz qızı Ağabəyim ağanı Fətəli şahın hərəmxanasına göndərməsi və Ağa Məhəmməd şahın cənazəsinin hörmətlə geri qaytarılması haqqında tarixi ədəbiyyatda məlumatlar vardır. Yuxarıda qeyd edildiyi kimi, farsdilli mənbələr Ağa Məhəmməd şahın cənazəsinin onun qətlindən dərhal sonra qacar sərkərdələri tərəfindən geri qaytarıldığını yazırlar. Bu məlumatın həqiqətə daha yaxın olduğu qəbul ediləndir. Məlumdur ki, İbrahim xan Balakəndən Qacar şahının qətlindən 2-3 ay sonra geri qayıtmışdı. Bu müddət ərzində şah cənazəsinin Qarabağda qalması inandırıcı deyil. İbrahim xan qızı Ağabəyim ağanı Fətəli şahın hərəmxanasına göndərməsinə gəlincə isə bu məlumat farsdilli mənbələrdə də təsdiq edilir.

Mövcud məlumatlara görə, İbrahim xanın qızı Ağabəyim xanımı əvvəlcə Fətəli şaha vermək istəmirdi. Yeddi ay bu məsələ ətrafında fikirləşdikdən sonra o belə bir qərar qəbul etməli oldu. Çox güman ki, bölgədə baş verə biləcək siyasi dəyişikliklər onu belə bir addım atmağa sövq etdi. İbrahim xan Rusiyanın yardımlarına arxayınlaşmağın mümkün olacağına ümid edirdi. Bununla bağlı o, Rusiyanın Gürcüstan sarayındakı naziri Kovalenskiyə məktub göndərdi və Rusiyaya sədaqətli olmaq qərarını açıqladı. Amma Rusiyanın Gürcüstandakı nümayəndəsindən cavab alınmadı. Çünki Gürcüstan daxilində siyasi münasibətlər kifayət qədər stabilləşməmiş, Rusiyanın Cənubi Qafqaz siyasətinə tam aydınlıq gətirilməmişdi. Belə olanda, İbrahim xan Qacar şahının tələbini yerinə yetirməli oldu. O, qızını Fətəli şahın hərəmxanasına, oğlu Əbülfət bəyi isə girov kimi Qacar sarayına göndərdi (7).

Fətəli şah onun yanına girov kimi göndərilmiş Əbülfət ağaya ehtiram göstərdi, onu sarayın hörmətli şəxslərindən biri səviyyəsinə qaldırdı. Əbülfət ağa Qacar qoşunlarının sərkərdələrindən biri kimi, hərbi yürüşlərdə iştirak etdi. Sonrakı bir neçə il ərzində İbrahim xanla Fətəli şah arasında xoş münasibətlər davam etdi və hər il Fətəli şah həm İbrahim xana, həm də onun oğlu Məhəmməd Həsən ağaya qiymətli hədiyyələr göndərdi (8).

Fətəli şahın oğlanlarından olan Ezədüddövlə Soltan Əhməd Mirzənin "Tarix-e Ezədi" xatirələr kitabında İbrahim xanın qızı Ağabəyim ağa haqqında maraqlı məlumatlar mövcuddur. Həmin məlumatlar Ağabəyim ağanın Fətəli şah hərəmxanasındakı həyatı ilə bağlıdır. Soltan Hüseyn Mirzə yazır ki, şahın hərəmləri arasında Tacüddövlə xanım xüsusi hörmət və ehtirama malik idi. Tacüddövlə xanım otağa daxil olanda oradakı digər hərəmlər ayağa qalxar və ona ehtiram nümayiş etdirərdilər. Tacüddövlə xanım isə Ağabəyim ağaya qarşı belə ehtiram nümayiş etdirirdi. Ağabəyim xanımın daxil olduğunu görəndə Tacüddövlə xanım dərhal ayağa qalxar və ona ehtiram edərdi. Ağabəyim xanımın nədən belə bir ehtiramla qarşılandığını Soltan Hüseyn Mirzə yazmır. O, Ağabəyim ağanı təkəbbürlü, yanında kimsənin ədəbdən kənar hərəkət etməyə cəsarət etmədiyini qeyd edirdi. Ağabəyim ağa əvvəlcə Tehranda, İmamzadə Qasım adlı məntəqədə tikilmiş malikanədə yaşayırdı. Sonradan Ağabəyim ağa Quma köçdü. Qarabağdan onun xidmətinə 200 nəfərdən artıq xidmətçi verilmişdi. Onlar da müəllif tərəfindən igid və bacaraqlı insanlar kimi xarakterizə edilir. Qumda toplanan verginin bir hissəsi Ağabəyim xanıma çatırdı (9).

Əslən Qarabağdan olan və Ağabəyim ağa ilə gələn Məlik bəy adlı birisi xan qızının həyatına və yaşayışına təşkilatçılıq edirdi. Ağa Bəhram xacə adlı birisi isə xan qızının xacəsi idi. Sultan Əhməd Mirzənin yazdığına görə, Fətəli şahla Ağabəyim ağa arasında heç vaxt ər-arvad münasibətləri olmamışdı. Bunun nə ilə bağlı olduğunu Soltan Əhməd Mirzə xatirələrində açıqlamır. Uşaqları olmadığı üçün Ağabəyim xanımın övladlığına uşaqlar da verilmişdi. Keykavus Mirzə onun oğulluğuna, Mürəssə xanım isə onun qızlığına verilmişdi. Ağabəyim ağa da öz bacısı qızını Keykavus Mirzəyə kəbin etdirdi. Mürəssə xanım isə Fətəli şahın oğlanlarından birinə ərə verildi (10).

Soltan Əhməd Mirzə öz əsərində Ağabəyim ağaya olan hörmət və ehtiramını da gizlətmir. Ailə daxili anlaşılmazlığın olmasına baxmayaraq Fətəli şah Ağabəyim ağaya böyük hörmətlə yanaşırdı. Şahzadə Soltan Əhməd Mirzənin fikrincə, Fətəli şah Ağabəyim ağanı özünün ən yaxınlarından biri hesab edir və onunla olan münasibətlərinə görə özünü xoşbəxt sayırdı. Şahzadə xatirələrində Ağabəyim ağanı "Şahbəyim ağa" kimi də təqdim edir. Müəllif Ağabəyim ağanın bacısı Gövhər ağa haqqında

da xoş sözlər yazmışdır. Onun qeydlərinə görə, Gövhər ağa bacısı Ağabəyim ağanı çox istəyirdi və Ağabəyim ağaya görə Fətəli şahın bütün övladlarını öz bacısı uşaqları hesab edirdi. Qarşılıqlı qohumluğun möhkəmləndirilməsi üçün İbrahim xanın övladları ilə Fətəli şahın övladları arasında bir sıra nikahlar da kəsildi.

Soltan Əhməd Mirzə xatirələrində Ağabəyim ağanın digər ölkələrin saray xanımları ilə yazışmalardan da xəbər verir. Bu yazışmaların nəticəsi kimi İngiltərə imperatriçası ona çox qiymətli hədiyyə göndərmişdi. Bu hədiyyə böyük zümrüd daşdan ibarət idi. Zümrüdün ətrafında bir sıra yüksək əyarlı almaz daşlar və iki zərif qızıl zəncir var idi (11).

İbrahim xanın Qacar şahı ilə münasibətləri normallaşdırmaq istəyi yaranmış vəziyyətdən irəli gələn bir tələb idi və mövcud olan məlumatların araşdırılması göstərir ki, İbrahim xan Rusiya ilə olan münasibətlərini də qorumağa çalışırdı.

Qacar şahı ilə normal münasibətlərin qurulmasını bir sıra digər Azərbaycan xanları da istəyirdilər. Bunun üçün idi ki, Qarabağ xanından başqa Gəncə, Bakı və Quba xanları da Fətəli şahın yanına öz nümayəndələrini və heyətlərini göndərdilər. Eyni zamanda Fətəli şahın diqqətinə çatdırıldı ki, adları çəkilən xanlıqlar Qacarların hakimiyyətini qəbul etməyə meyllidirlər (12).

Görünür, Azərbaycan xanları Qacar qoşunlarının yaxın zamanlarda Arazın şimalına hücum edəcəyindən ehtiyatlanırdılar. Xüsusilə, Ağa Məhəmməd şahın qətlinin qisasının alınacağına cəhd göstəriləcəyi Azərbaycan xanlarını Qacar şahına qarşı dözümlü mövqe tutmağa sövq edə bilərdi. Fətəli şahın himayəsinə sığınmaq yaranmış tarixi şəraitdə Qacarlar dövlətinə qarşı ehtiyatlı siyasətin nümunəsi idi.

Ağa Məhəmməd şahın yürüşləri dövründə qacarlara meyllilik göstərən Qubalı Şeyxəli xan Fətəli şaha Qacarların himayəsinə ehtiyac duyulduğunu bildirsə də, Rusiya ilə münasibətlərə də yeni bir fəallıq gətirdi. Öz hakimiyyətini bərpa edəndən sonra Şeyxəli xan Rusiya ilə münasibətlərə yenidən baxılmasını vacib saydı və bununla bağlı 1798-ci ilin əvvəllərində Mədət bəyin başçılığı ilə Rusiya sarayına nümayəndə heyəti göndərdi (13).

V.Zubovun rəhbərliyi altında rus qoşunlarının Azərbaycan xanlıqları üzərinə yürüşü zamanı ruslara qarşı barışmaz mövqe tutan və ruslar tərəfindən hakimiyyətdən uzaqlaşdırılan Şeyxəli xanın yeni şəraitdə Rusiya sarayına nümayəndə heyəti göndərməsi Rusiya sarayının özündə də təəccüblə qarşılandı. Hətta Şeyxəli xanın nümayəndə heyətinin Qafqazdan Rusiya mərkəzinə buraxılıb-buraxılmaması da gündəliyə gəldi. Bununla belə, Qafqazdakı rus qoşunları komandanı Şeyxəli xanın nümayəndə heyətinin Rusiya paytaxtına buraxılmasına icazə verdi.

Rusiya sarayının göndərdiyi məktublarında Şeyxəli xan tərəfindən rus qoşunlarına qarşı çıxmasının səbəblərini açıqlayırdı. Bir tərəfdən də hərbi yürüş zamanı rusların xanlığın əhalisinə vurduğu ziyanlar haqqında məlumat verirdi. Şeyxəli xanın nümayəndəsi Rusiya sarayında çar I Pavel tərəfindən qəbul olundu. Mədət bəy Quba xanı adından aşağıdakı məsələləri Rusiya çarı qarşısında qaldırdı: 1) V.Zubovun rəhbərliyi altında rus qoşunlarının yürüşü zamanı əsir götürülmüş xanlıq təbəələrinin geri qaytarılması; 2) İstifadə edilməsi üçün təmənnasız olaraq Şeyxəli xana 4000 pud, xanlıq əhalisi üçün isə 2000 pud dəmir verilməsi; 3) Quba xanlığının Rusiya təbəəliyinə qəbul edilməsi.

Quba xanının məktublarında qaldırılan məsələlər Rusiya sarayında uzun müddət araşdırılmalı oldu. Bir də 1799-cu il sentyabr ayının 1-də I Pavelin imzaladığı fərmanda bildirilirdi ki, Quba xanlığı Rusiya himayəsinə qəbul olunur (14). Rusiya sarayı belə bir qərarı açıqlasa da Quba xanının köməyinə hər hansı bir hərbi yardım göndərmədi. Ona görə Şeyxəli xan hakimiyyətini öz imkanları daxilində möhkəmləndirməli idi ki, bu da müəyyən çətinliklərlə qarşılaşırdı. Bir tərəfdən Şamaxı xanı Mustafa xan Salyana iddialar irəli sürürdü və bu iddiaların həyata keçməsinə nail oldu. Salyan Mustafa xanın nəzarəti altına düşdü. Bir tərəfdən Dağıstan hakimləri Şeyxəli xanla gərgin münasibətlərdə idi və Qazıqumıqlı Surxay xan bir müddər hətta Qubanı da öz nəzarəti altında saxlamağa müvəffəq oldu. Bir tərəfdən Şeyxəli xanın qardaşı Həsən xan yenidən hakimiyyətə iddialar irəli sürdü. Dərbənd əhalisi mövcud tarixi şəraitdə Şeyxəli xandan narazı olmasından Həsən xan öz iddialarını həyata keçirmək üçün istifadə etdi.

Surxay xanın nəzarəti altında olan Qubanın yenidən geri qaytarılması üçün Şeyxəli xan ləzgilərdən kömək istədi. Ləzgilərin köməyi ilə Quba şəhəri azad edildi. Şeyxəli xan ləzgilərin köməyinin əvəzində Quba və Dərbənd əhalisini onlara kömək göstərməyə məcbur etmək istədi. Bu isə əhalinin narazılığı ilə qarşılandı. Dərbənd əhalisi Şeyxəli xana qarşı öz ciddi narazılığını bildirdi. Bu narazılıqları sakitləşdirmək mümkün olsa da Şeyxəli xan Dərbəndi tərk edib Qubaya getdi. Qazıqumıq xanı Surxay xan bu vəziyyətdən istifadə edərək Həsən xana Dərbənd hakimiyyətini ələ keçirməyə kömək etdi. Surxay xan bununla da kifayətlənmədi. O, Həsən xanın köməyinə arxalanaraq Quba xanlığının digər ərazilərini də ələ keçirməyə cəhd göstərdi (15).

Həsən xan Dərbənddə möhkəmlənmək və şəhəri Şeyxəli xanın hücumlarından qorumaq üçün Rusiya sarayına müraciət etdi. Həsən xanın Hacı Tahir adlı nümayəndəsi Rusiya məqamlarından Dərbəndin ayrıca xanlıq kimi qəbul olunmasını və Rusiya himayəsinə alınmasını xahiş etdi. Yaranmış vəziyyətdən çıxmaq üçün Şeyxəli xan da yenidən Rusiyadan

kömək istədi və onun köməyinə 6 minlik rus qoşun dəstəsinin göndərilməsini xahiş etdi. Bu yardımla Şeyxəli xan Dərbəndi geri qaytarmaqla Bakı xanlığını və Salyanı da öz nəzarəti altına almaq istəyirdi. Amma Rusiya istər Həsən xana, istərsə də Şeyxəli xana hərbi yardım göndərmədi. Əvəzində Şeyxəli xanla Həsən xan bu arada barışdılar və bundan sonra onların rus hərbi yardımına ehtiyacı da aradan qalxdı (16).

Quba xanlığı ərazisində bir müddət ikihakimiyyətlilik mövcud idi. Bir də XIX əsrin ilk illərində (1803) Həsən xan dünyasını dəyişəndən sonra Şeyxəli xan yenidən Dərbəndi öz nəzarəti altına ala bildi (17).

Quba xanlığı ilə həmsərhəd olan Bakı xanlığı ərazisində də Ağa Məhəmməd şahın qətlindən sonra yeni proseslər özünü göstərdi. Yaranmış tarixi şəraitə uyğun olaraq bu xanlıq daxilində də müstəqilliyin qorunması xatirinə Qacarlar hakimiyyətinə və Rusiya dövlətinə meyllilik özünü göstərməkdə idi. Yuxarıda qeyd edildiyi kimi, Ağa Məhəmməd şahın Şuşaya yürüşü zamanı Bakı xanı Hüseynqulu xan Qacarlar tərəfindən həbs edilmişdi. Bakı xanlığına iddialı olan II Mirzə Məhəmməd xan isə bu zaman Qubada idi. Ağa Məhəmməd şahın qətlindən sonra həm Hüseynqulu xan, həm də Mirzə Məhəmməd xan hakimiyyətin ələ keçirilməsi üçün Bakıya tələsdilər. Hüseynqulu xan Bakıya daha tez çatdı və burada xanlığa yiyələnməklə həm də II Mirzə Məhəmmədin şəhərə buraxılmaması üçün lazımi tədbirlər həyata keçirdi. Lakin görünür ki, Hüseynqulu xanın xanlıq daxilində tam hakimiyyətə yiyələnməsi üçün kifayət qədər qüvvəsi yox idi. Buna görə də, ortaya çıxan problemin çözülməsi üçün tərəflər arasında danışıqlar aparıldı. Bu danışıqların nəticəsi kimi Bakı xanlığı və onun kəndləri onlar arasında bölündü. II Mirzə Məhəmməd xan Maştağa kəndində yerləşməli oldu (18).

Bununla Bakı xanlığı daxilində də ikihakimiyyətlilik yarandı və bu vəziyyət 1802-ci ilə kimi davam etdi. Həmin il Hüseynqulu xan Şamaxı xanı Mustafa xanın köməyi ilə xanlıq ərazisində bütün hakimiyyəti öz əlinə aldı. II Mirzə Məhəmməd isə yenidən Qubaya çəkilməli oldu (19).

Ağa Məhəmməd şah tərəfindən həbsə məruz qalmış Hüseynqulu xanda Rusiya himayəsinə meylliliyin daha güclü olacağı ehtimal edilsə də, bu heç də belə olmadı. Əksinə, Hüseynqulu xanın Rusiya dövlətinə qarşı münasibəti xeyli ciddiləşdi. Tarixçilər bunu Bakı xanlığının tərk edilməsi, rus hərbçilərinin Bakı xanına və əyanlarına böyük maddi zərərin vurması ilə əlaqələndirirlər. Hüseynqulu xan rus hərbçilərinin qanunsuz əməllərinə qarşı narazı mövqedə olması Rusiya sarayı tərəfindən qəbul olunmadı və əslində bu narazılıqların qarşılığı kimi Bakı tacirlərinin sıxışdırılmasına başlandı. Tarixi ədəbiyyatda bu qarşılıqlı narazılıq və təzyiqlərin hətta hərbi qarşıdurmaya gətirib çıxarması haqqında da məlumat vardır (20). Lakin bu

hərbi qarşıdurmanın özünü nədə göstərdiyi tarixi ədəbiyyatda açıqlanmır. Rusiya çarı I Pavel hətta lazım gələrsə Bakının bombardman edilməsi haqqında da göstəriş verdi (21). Amma hər halda vəziyyət Bakının bombalanmasına gətirib çıxarmadı.

Mövcud olan məlumatlara görə, 1800-cü ildə Hüseynqulu xan arxalanmaq və xanlığın müstəqilliyini qorumaq üçün Fətəli şaha müraciət etdi. Fətəli şah bu müraciətə müsbət cavab vermədi. Çünki Fətəli şah Bakı xanlığını himayə altına almaq yox, Bakı xanlığını işğal etməyi planlaşdırırdı. Belə olanda Hüseynqulu xan yenidən Rusiya sarayına müraciət etdi və Qacar təhlükəsindən qorunmaq üçün nümayəndəsi Mirzə Hadı bəyi Rusiya sarayına göndərdi. Hüseynqulu xanın Rusiya himayəsini almaq xahişinə Rusiya sarayı tərəfindən 1800-cü ildə müsbət cavab verildi (22).

Bununla belə, məlumdur ki, Hüseynqulu xanın Rusiya himayəsinə münasibəti heç də birmənalı olmadı. Rusiyanın işğalçı siyasəti Bakı xanlığının müstəqilliyinə heç bir şans vermirdi və ona görə Rusiya üçün Cənubi Qafqazda strateji əhəmiyyət kəsb edən Bakı xanlığının nəzarət altına alınması rus silahının gücünə baş verdi.

XVIII əsrin sonlarında Şəki xanı Məhəmməd Həsən xan, Şamaxı xanı Mustafa xan və Naxçıvan xanı Kəlbəli xan da himayəçilik üçün Rusiya dövlətinə müraciət etdilər (23). Ancaq onların bu müraciəti seçim imkanının olmamasından irəli gəlirdi. Əslində bu xanlıqlar Qacar hakimiyyəti altına düşmək istəmədikləri kimi, həm də rus işğalına qarşı idilər və rus işğalına qarşı ciddi mübarizə yolundan da çəkinmədilər.

Lənkəran xanlığı da Qacar hakimiyyətinin təzyiqlərindən kənarda qalmaq üçün müstəqilliyin qorunması yolunu Rusiya dövlət ilə əməkdaşlıqda görürdü. Rusiyanın yardımı olmadan Mir Mustafa xan üçün Qacar qoşunlarının hücumları qarşısında müqavimət imkanı yox idi. Bu xanlığın nəzarət altına alınması isə Rusiya kimi Qacarlar üçün də xüsusi əhəmiyyət kəsb edirdi. Yerləşdiyi məkan etibarilə Lənkəran xanlığı Xəzərin cənubunun nəzarət altında saxlanması və digər Azərbaycan xanlıqları üzərinə hücum üçün əlverişli mövqenin ələ keçirilməsi baxımından Qacarlar üçün mühüm əhəmiyyət kəsb edirdi. Ona görə də Fətəli şah hakimiyyətə gələn kimi Lənkəran xanlığının nəzarət altına alınmasına diqqət yetirdi. Məsələnin dinc yolla həllinə nail olunması üçün Fətəli şah Mir Mustafa xana da məktub göndərdi, ondan Qacarlar hakimiyyətini qəbul etməyi və bunun nəticəsi kimi böyük miqdarda pul ödəməklə yaxınlarından kiminsə girov göndərilməsini tələb etdi. Mir Mustafa xan əvvəlcə bu tələbləri yerinə yetirdi, qardaşını və bacısını Qacarlar sarayına girov göndərdi. Bir müddətdən sonra Mir Mustafa xanın girov olan yaxınları Tehranda naməlum şəraitdə dünyasını dəyişdilər. Fətəli şah vəziri Mirzə Bozorgu

Lənkərana göndərib Mir Mustafa xanın qızı Bəyim ağanı oğlu Məhəmmədəli Mirzə üçün istədi. Eyni zamanda Bəyim ağanın dərhal Tehrana göndərilməsi tələbi irəli sürüldü. Mir Mustafa xan bu tələblə razılaşmadı və bu da Fətəli şahla Mir Mustafa xan arasında münasibətlərin korlanmasına səbəb oldu (23).

Bundan sonra Qacar təhlükəsi Mir Mustafa xan üçün daha real xarakter aldı. Həmin təhlükədən nicat tapmağın başlıca yolu isə Rusiya yardımına arxalanmaq idi. Ona görə də, 1800-cü ildə Mir Mustafa xan nümayəndəsi Mirzə Məhəmmədi Rusiya himayəsinin əldə edilməsi xahişi ilə Rusiya sarayına göndərdi.

Himayədarlıq məsələsi Azərbaycan xanları ilə Rusiya sarayı tərəfindən fərqli şəkildə qəbul edilirdi. Azərbaycan xanları Rusiya himayəsi altında öz müstəqilliyini qorumağa çalışırdılarsa, Rusiya sarayı da himayədarlıq adı altında Azərbaycan xanlarının işğalının həyata keçirilməsini planlaşdırırdılar. Ona görə Azərbaycan xanlıqlarına Rusiyanın himayədarlığı XVIII əsrin sonlarında xüsusilə də 1801-ci ildə Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra başladı. Tezliklə də bu təşəbbüs işğalla əvəzləndi.

## *2. XVIII əsrin sonunda Rusiyanın və Qacarlar dövlətinin Cənubi Qafqaz siyasəti*

Qacarlar dövlətində hakimiyyət dəyişikliyi baş versə də, bu dövlətin Cənubi Qafqazla bağlı siyasətində mahiyyət etibarilə ciddi dəyişikliklər baş vermədi. Cənubi Qafqaz hüdudlarındakı Azərbaycan xanlıqlarının müstəqilliyini yeni Qacar şahı qəbul etmək istəmədiyi kimi, Rusiyanın bu bölgədəki hərbi müdaxiləsi ilə də barışmaq istəmirdi. Amma Fətəli şahın Azərbaycan xanlıqlarına qarşı fəal müdaxiləyə başlaması üçün müəyyən vaxt lazım oldu. Çünki Azərbaycan xanlıqları üzərinə qoşun çıxarmazdan əvvəl Fətəli şah ölkə daxilində sabitliyin yaradılması, hakimiyyətə iddialı ayrı-ayrı qüvvələrin hərbi separatizminin aradan qaldırılması ilə məşğul oldu.

Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, çox da uzun sürməyən bir müddət ərzində Fətəli şah daxili qiyamları asanlıqla yatıra bildi (24). Baxmayaraq ki, Fətəli şah kifayət qədər gənc idi və hakimiyyətə gələndə onun 27 yaşı var idi, o çox tezliklə ölkə daxilində baş qaldıran silahlı qarşıdurmanı aradan qaldırdı və bütünlükdə Fətəli şah dövründə ölkə daxilində kütləvi qiyamçılıq təcrübəsinə son qoyuldu. Fətəli şahın ölkə daxilində qarşılaşmalı olduğu rəqiblərindən biri Sadıq xan Şəqqaqi idi. Ağa Məhəmməd şah Qacarın qətlindən sonra çoxsaylı şah sərvətlərinə yiyələnən

bu şəxs Şuşa qalasını tərk edib Arazdan cənuba üz tutdu. Mənbələrdə olan məlumatlara görə, Şəqqaqi kürdləri ona qoşuldular, Qacar qoşunlarının müəyyən qüvvələri, həyatlarına olan təhlükədən ehtiyatlanan bölgə əhalisi Sadıq xan ətrafında birləşdilər. Dövrəsində hərbi qüvvələrin birləşməsi Sadıq xanı siyasi iddialarında daha da cəsarətləndirdi, qardaşlarından birini Təbrizə, o birini isə Qaracadağa hakim təyin etdi. Bundan sonra siyasi iddialarının ardınca Qəzvin üzərinə hücum çəkdi. Sadıq xan Şəqqaqi Qəzvindən Tehrana yollanmağı və orada mərkəzləşdirilmiş hakimiyyətə sahib olmağı planlaşdırırdı. Amma Qəzvin əhalisi ona ciddi müqavimət göstərdi. Sadıq xan Qəzvin ətrafında tək yerli əhalinin deyil, həm də Fətəli şah qoşunlarının müqaviməti ilə rastlaşdı. Sadıq xan tərəfindən qiyam qaldırıldığını eşidəndə Fətəli şah qoşunu ilə Qəzvin ətrafına yollandı. Onun qoşunları qarşısında Sadıq xan davam gətirə bilmədi və Təbrizə qaçdı. Fətəli şah qoşunlarının zərbəsindən onun qoşun dəstəsi də qaçıb dağıldı. Fətəli şah Qəzvin yaxınlığından ona məktub yazdı və onu təslim olmağa çağırdı. Sadıq xan çarəsiz qalıb Ağa Məhəmməd şahdan oğurladığı qiymətli əşyaları Fətəli şaha göndərdi və şahdan bağışlanmasını xahiş etdi. Bununla da o, şah qəzəbindən nicat tapdı (25).

Fətəli şah qardaşı Hüseynqulu xanın da şahlıq iddiasına heç bir şans vermədi. Hüseynqulu xan Fars vilayətində hakim olanda taxt-tac uğrunda qiyam qaldırdı və hətta Fətəli şahın nümayəndəsini də həbs etdi. Fətəli şah ona qarşı qoşun göndərmək istədi. Lakin anaları Hüseynqulu xanın cəzalandırılmasına razı olmadı və onları barışdırdı. Fətəli şah bu barışığa getdi və Hüseynqulu xanı Fars hakimliyindən azad edib Kermanşah hakimi təyin etdi. Bir müddət sonra Hüseynqulu xan yenidən taxt-tac iddiası ilə qiyam qaldırdı və Fətəli şahla silahlı qarşıdurmaya getdi. Fətəli şah qüvvələri üstün gəldilər. Hüseynqulu xan həbs edildi, bir müddət sonra isə onun gözləri çıxarıldı. Bununla Hüseynqulu xanın taxt-tac iddialarına da son qoyuldu (26).

Ölkə daxilində hakimiyyət iddiası ilə qiyam qaldıranlardan biri də Zəki xan Zənd idi. Ətrafına topladığı qüvvələrlə Zəki xan hətta İsfahanı da ələ keçirə bilmişdi. Lakin çox uzun müddət bu şəhəri öz nəzarəti altında saxlaya bilmədi. Zəki xan Bəxtiyari dağlarına qaçmalı oldu. Amma burada da sakit dayanmadı, qoşun toplayıb Fətəli şah qüvvələrinin üzərinə hücum çəkdi. Bununla belə, Zəki xan müvəffəqiyyət qazanmadı. O da ələ keçirilib kor edildi (27).

Azərbaycan hakimi Süleyman xan və Nadir şahın nəticəsi Nadir Mirzə tərəfindən qaldırılan qiyamlar da yatırıldı. Bununla ölkə daxilində hərbi-siyasi baxımdan bir sakitlik yarandı. Tarixi ədəbiyyatın və mənbələrin

məlumatına görə, XVIII əsrin sonlarına qədər Fətəli şah ölkə daxilindəki rəqiblərinin demək olar ki, hamısını neytrallaşdırdı.

Hakimiyyətə gəlməsindən iki il sonra Fətəli şah xüsusi mərasim keçirib 14 yaşlı oğlu Abbas Mirzəni vəliəhd və Azərbaycan (Cənubi) hakimi elan etdi. Abbas Mirzə şahın böyük oğlu deyildi. Lakin Abbas Mirzə şah övladları içərisində bacarığı, təşəbbüskarlığı, mübarizliyi ilə seçilirdi. Ona görə də Fətəli şah özündən sonra taxt-tacın Abbas Mirzəyə etibar edilməsi haqqında qərar qəbul etdi. Abbas Mirzə səltənət nayibi adlandırıldı. Kiçik yaşlı olduğu üçün onun yanına qoşun naziri olan Mirzə Əsədulla xan və Qacar qoşunlarının tanınmış sərkərdələrindən olan Süleyman xan (Etizadüddövlə) verildi. Bu şəxslər qoşunların nizamlanmasında, idarəçiliyində, hazırlanmasında Abbas Mirzəyə yardımçı olmalı idilər. Siyasi idarəçilik işlərində isə kifayət qədər təcrübəli saray xadimi kimi tanınan Mirzə İsa Fərahani Abbas Mirzəyə məşvərətçi olmalı idi. Mirzə İsa Fərahani mənbə və tarixi ədəbiyyatda həm də Mirzə Bozorg kimi tanınır (28).

Kifayət qədər cavan olmasına baxmayaraq Abbas Mirzənin Azərbaycan hakimi təyin edilməsi Fətəli şahın uğurlu seçimlərindən biri idi. Çünki onun Azərbaycan hakimi təyin edilməsi ilə Azərbaycan daxilində siyasi sabitliyə və mərkəzi hakimiyyətin etibarlı şəkildə bərqərar olmasına nail olundu. Baxmayaraq ki, Abbas Mirzə hakim kimi Azərbaycana yollananda Azərbaycan daxilində dövlət əleyhinə qiyamlar davam edirdi. Bu qiyamlardan birinin mərkəzi Xoyda idi Xoy hakimi Cəfərqulu xan müstəqilləşməyə çalışırdı. Amma Cəfərqulu xan ixtiyarında olan qüvvələrlə müstəqilliyini qoruya bilmədi və Xoy Qacarlar hakimiyyətinin nəzarəti altına düşdü.

Fətəli şah sarayının Cənubi Qafqazla bağlı iddialarının həyata keçirilməsi üçün də Abbas Mirzənin Azərbaycan hakimi edilməsinə böyük ümidlər bağlanılırdı. Azərbaycan xanlıqlarının müstəqilləşməsi, onların Qacarlar hakimiyyətinə tabe olmaq istəməmələri Ağa Məhəmməd şah kimi Fətəli şah tərəfindən də qəzəblə qarşılanırdı. Digər tərəfdən Rusiyanın Cənubi Qafqaza iddialar irəli sürməsi Qacarlar hakimiyyətinin Azərbaycan xanlıqları ilə bağlı iddialarının qarşısında ciddi maneəyə çevrilməkdə idi. Fətəli şah ümid edirdi ki, Abbas Mirzə Təbriz ətrafına toplayacağı çoxsaylı qoşunlarla Azərbaycan xanlıqlarının müstəqilliyinə son qoyacaq, Qacarlar hakimiyyətini Cənubi Qafqaza da yayacaq və bununla Rusiyanın da Cənubi Qafqaza doğru irəliləməsinin qarşısını alacaq. Tarixi ədəbiyyatda olan məlumata görə, Abbas Mirzə özü də tezliklə Cənubi Qafqaza qoşun çıxarmaq və bu bölgəni Qacarlar hakimiyyəti altına gətirmək niyyətində idi. Bununla bağlı o, dəfələrlə Fətəli şah qarşısında məsələ qaldırdı və ona Arazın şimalındakı ərazilər üzərinə hücum üçün yetərli sayda qoşun

verilməsi barəsində məsələ qaldırmışdı. Bunun nəticəsi kimi Fətəli şah da müvafiq mübaşirlərə, müstövfilərə və əyanlara tapşırdı ki, Abbas Mirzənin nəzarəti altında qoşunların və onların təchizatının toplanması ilə məşğul olsunlar. Bu yolla Abbas Mirzə hələ Təbrizə yollanmazdan əvvəl 30 min nəfərlik qoşun topladı və Abbas Mirzə də bu qoşunların müşayiəti ilə Təbrizə yola düşdü (29).

Abbas Mirzə qoşunlarının tərkibində Süleyman xan Qovanlı, Mehdiqulu xan Dəvəli, Rzaqulu xan, Pirqulu xan, Əli xan, Nəcəf xan, Allahverdi xan Qacar və digərləri də Təbrizə yola düşdülər. Fətəli şahın göstərişinə əsasən adları çəkilən sərkərdələr Abbas Mirzənin hərbi-siyasi planlarının həyata keçirilməsinə yardımçı olmalı idilər. Araz çayının şimalına qoşun çıxarılmasında da bu sərkərdələr iştirak etməli idilər. Onların rəhbərliyi altında olan qoşunlar Təbriz istiqamətində hərəkətə başlamazdan bir gün əvvəl Tehran ətrafında sıra baxışına toplandılar. Piyadalar, atlılar, toplar, o cümlədən də qoşunların təchizatı və təminatı ilə məşğul olan qruplar sıra baxışında ayrıca dayandılar. Fətəli şah sıra baxışında iştirak etdikdən sonra qoşunların hazırlığından və qoşun dəstələrinin tənzimlənməsində Abbas Mirzənin fəaliyyətindən razı qaldı və özlüyündə əminlik yəqin etdi ki, bu qoşunlarla Azərbaycan xanlıqlarını Qacarlar hakimiyyəti altına gətirmək olar (30).

Bir müddətdən sonra Abbas Mirzə qoşunları ilə Təbrizə gəldi. O burada istər idarəçilik işlərində, istərsə də qoşunların təşkilində bir sıra islahatlar həyata keçirməyə çalışdı. Qoşunların toplanması Təbrizdə də davam etdirildi və nəticədə XVIII əsrin sonlarına yaxın Azərbaycanın cənubunda böyük sayda Qacar qoşunları cəmləşdirildi. Araz çayı yaxınlığında bu qoşunların toplanması Azərbaycan xanları tərəfindən heç də birmənalı qarşılanmadı. Həmin qoşunların Arazın şimalına doğru hərəkət etmək ehtimalı Azərbaycan xanlarını təşvişə salırdı və XVIII əsrin sonlarına yaxın Azərbaycan xanlarının çoxunun Rusiya himayəçiliyinə müraciət etməsində bu amilin də öz rolu var idi.

Qacar qoşunlarının Araz kənarına toplanması eyni zamanda gürcü çarını ciddi təşvişə saldı. Buna görə rus qoşunlarının Cənubi Qafqaza cəlb edilməsi üçün gürcü çarının fəallığı da genişləndi. Eyni təşviş Rusiya sarayında da ciddiliklə özünə yer tapmağa başladı.

Cənubi Qafqaza olan iddialarını Fətəli şah əvvəlcə diplomatik yolla Rusiya sarayına çatdırdı. Bununla bağlı idi o, 1797-ci ildə nümayəndəsi Ağa Mirseyid Həsəni Rusiya sarayına göndərdi və Rusiya ağalarına Cənubi Qafqaza olan iddialarının haqsızlığını əsaslandırmağa çalışdı. Rusiya sarayı Cənubi Qafqaz siyasətini ön plandan geri çəksə də bu bölgəyə olan niyyətlərindən əl çəkmədi. Ona görə Rusiya da Cənubi Qafqaza olan iddialarını

ortaya qoydu və şah nümayəndəsinə və bu iddiada qərarlı olunduğu çatdırıldı (31).

Rusiyanı Cənubi Qafqaza olan iddialarından əl çəkməyə məcbur edə bilmədikdə Fətəli şah Azərbaycan xanlarına və dünyasını dəyişmiş II İraklinin yerinə gürcü çarı elan edilmiş XII Georgiyə məktub göndərdi və onları Qacar hakimiyyətini tanımağa çağırdı. Yeni gürcü çarı təbiəti etibarilə sakit adam idi və Qafqazda gedən proseslərin toqquşmaya çevrilməsini istəmirdi. Ona görə o, Fətəli şaha məktub göndərərək Qacarlar dövləti ilə münasibətlərin qurulmasına, Qacarlar sarayının himayəsinin qəbul edilməsinə hazır olduğunu bildirdi (32).

Fətəli şahın həmin il Qafqaza hücum çəkmək imkanı yox idi. Ona görə o da gürcü çarlığını dinc şəkildə qacarlar himayəsini qəbul etməsini istəyirdi. Həmin il Fətəli şah öz nümayəndəsini gürcü çarının yanına göndərdi və ona çatdırdı ki, daxili vəziyyət sabitləşdikdən sonra Miyanəyə gəlib Azərbaycanda öz hakimiyyətini möhkəmləndirmək niyyətindədir. Gürcüstan isə Azərbaycanın ən yaxşı ərazilərindən olduğu üçün o da Qacarlar dövlətinin tabeliyini qəbul etməlidir. Fətəli şah gürcü çarından tələb etdi ki, Qacarlar dövlətinə meylliliyini nümayiş etdirmək üçün oğlanlarından birini onun yanına göndərsin. Qacarlar dövlətinin himayəsini qəbul edəcəyi təqdirdə Fətəli şah bəzi Azərbaycan xanlıqlarını, o cümlədən də İrəvan xanlığını onun idarəçiliyi altına verəcəyini bildirirdi. Fətəli şah eyni zamanda Məhəmməd xana da xəbər göndərdi ki, o, Qacarlar xəzinəsinə 300 min tümən ödəsin və ən yaxın adamlarından 12 nəfəri Qacarlar sarayına girov göndərsin. Əks təqdirdə Fətəli şah İrəvan xanlığını da digər xanlıqlar kimi viran edəcəyini bildirirdi (33).

Gürcü çarı Fətəli şahın girov tələb etməsi ilə razı olmadı və bununla gürcü çarlığı ilə Fətəli şah arasında mümkün ola biləcək yaxınlaşma meyllərinə də son qoyuldu. Bu sərt təbiəti ilə Fətəli şah gürcü çarını nicat yolunu Rusiya himayəsində axtarmağa sövq etdi.

Yuxarıda qeyd edildiyi kimi, I Pavelin hakimiyyət başına gəlməsindən sonra Rusiyanın Cənubi Qafqazla bağlı siyasəti müəyyən qədər fəallığını itirdi ki, bu da özünəməxsus şəkildə bölgədə cərəyan edən hadisələrə öz təsirini göstərdi. General Qudoviçə göndərdiyi təlimatında Rusiya çarı Cənubi Qafqazla bağlı siyasətdə aşağıdakı məqamların əsas tutulmasını lazım bildi. Dövlət sərhədinin və əhalinin təhlükəsizliyinin təmin edilməsini göz önünə çəkən rus çarı aşağıdakıların əsas tutulmasını vacib sayırdı:

1.Kuban və Terek çayından keçməklə Gizlərə qədər olan xəttin Rusiya üçün münasib sərhəd xətti olması bildirilir və general Qudoviçdən də tələb olunurdu ki, bu xətlər üzrə keçən sərhədin qorunması və yerli xalqların hücumlarının qarşısının alınması üçün tədbirlər görülsün;

2.Sərhəd xəttinin təhlükəsizliyinin təmin edilməsi üçün rus çarı yerli xalqlarla dinc münasibətdə olmağa, onların nəzarət altında saxlanılmasını, onların sıxışdırılmasına yol verilməməsini və onların sədaqətinə əminlik hasil etmək üçün ailə üzvlərindən girov götürülməsini vacib sayırdı;

3.Gürcülərin məzhəb eyniliyini, gürcü çarlığı ilə Rusiya dövləti arasında əvvəlcə imzalanmış anlaşmanın mövcudluğunu, gürcü hakimlərinin Rusiya imperatoruna münasibətini nəzərə alaraq Rusiya çarı gürcü hakimi II İrakli ilə layiqli münasibətlərdə olunmasını tələb edirdi. Rusiya çarının fikrincə, gürcülərlə elə bir münasibət yaradılmalı idi ki, lazım olan anda onlar səfərbər olaraq ümumi düşmənə qarşı cəbhə tutsunlar. Rusiya çarı bəyan edirdi ki, gürcü çarlığının daxili işlərinə qarışmaq doğru deyil. Onun nəzərincə gürcü çarlığından yalnız Rusiya dövlətinə sədaqətli olmaq tələb oluna bilərdi. Rus çarı yaxşı münasibətlərin mövcud olduğu halda Gürcüstanla federativ dövlət qurulması mümkünlüyünü də qəbul edirdi;

4.Rusiya çarı tövsiyə edirdi ki, Dağıstan hakimləri, Xəzərin qərbində yerləşən Dərbənd, Bakı və digər xanlıqlar Rusiyadan asılı vəziyyətdə saxlanılsın. Eyni zamanda onlardan da Qacar qoşunlarına qarşı istifadə olunması lazım bilinirdi;

5. Sonra rus çarı rus tacirlərinin bölgədəki fəaliyyətinə toxunur və rus tacirlərinin azad ticarətinin təşkilinə diqqət yönəldirdi;

6. General Qudoviç çalışmalı idi ki, Ağa Məhəmməd şah Qacar Rusiya ilə xoş münasibətlərdə olmağa inandırılsın. Əks təqdirdə, vəziyyət Ağa Məhəmməd şahın özü üçün təhlükəli xarakter ala bilərdi. Ona görə Ağa Məhəmməd şah həm Gürcüstana, həm də Xəzərin qərbindəki ərazilərə toxunmalı deyildi. Ağa Məhəmməd şaha qarşılıqlı ticarətin davam etdirilməsinin məqsədəuyğunluğu da çatdırılmalı idi. Rusiya çarı əlavə edirdi ki, Ağa Məhəmməd şahdan elçi gələrsə hörmətlə qarşılansın və onun gətirdiyi məktub mərkəzə göndərilsin ki, sonrakı hərəkətlər barəsində müvafiq göstərişlər müəyyənləşdirilsin. Bu elçilər vasitəsilə Ağa Məhəmməd şaha duyurulmalı idi ki, Rusiyaya qarşı düşmən münasibətlə o özünə təhlükə yaradır.

7. Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsi üçün bəhanə verilməməli, bu dövlətə qarşı ehtiyatlı siyasət davam etdirilməli idi (34).

1797-ci ilin mart ayının 7-də Rusiya çarı Qafqaz siyasəti ilə bağlı general Qudoviçə yeni bir təlimat imzaladı. Bu təlimat da müfəssəl bir təlimat idi və orada da Qafqazla bağlı ehtiyatlı siyasətin aparılmasının lüzumluluğu vurğulanırdı. Məsələn, çar qeyd edirdi ki, Talış sahillərinə qoşun göndərilməsinə, Sara adasının möhkəmləndirilməsinə ehtiyac yoxdur. Sara adası ətrafında bir və ya iki gəminin dayanması kifayət hesab olunurdu. Qacar gəmilərinin sakit qalacağı halda onların Xəzər dənizinə buraxılması

da mümkün sayılırdı. Ticarət gəmilərinin himayə edilməsi üçün Xəzər dənizinə bir neçə rus gəmisinin çıxarılması da mümkün sayılırdı. Bu gəmilərlə general Qudoviç arasında əlaqə saxlanılmalı idi. Sonra Rusiya çarı Rusiyanın sərhədlərinin etibarlı şəkildə qorunması haqqında öz göstərişlərini verirdi (35).

Təlimatlarının hər ikisində rus çarı əsas diqqəti Rusiyanın sərhədlərinin qorunmasına, Qacar şahı ilə anlaşıqlı münasibətlərin qurulmasına, Cənubi Qafqaz ərazisində hərbi əməliyyatlardan kənar qalınmasına yönəldirdi. Amma Cənubi Qafqaz ətrafındakı proseslər heç də Rusiya çarının təsəvvür etdiyi kimi deyildi. Ağa Məhəmməd şahın qətlə yetirilməsi də Cənubi Qafqazda vəziyyətin uzun müddətli sabitləşməsinə zəmin yaratmadı. Yuxarıda yazılanlardan göründüyü kimi, yeni Qacar şahı və onun vəliəhdi Abbas Mirzənin Cənubi Qafqazla bağlı kifayət qədər ciddi niyyətləri var idi və həmin niyyətlərin həyata keçirilməsi üçün aparılan hazırlıq işləri də Azərbaycan xanları tərəfindən diqqətlə izlənilirdi. Xüsusilə, gürcü çarlığı Rusiyanın hərbi köməyinə arxalanmaq üçün bir daha çox fəallıq göstərdi. Bununla bağlı gürcü səfiri Rusiyadan etibarlı zəmanət almağa çalışdığı bir vaxtda Rusiya çarı başqa qərar qəbul etdi və hətta Gürcüstandakı rus qüvvələrini də geri çağırdı. 1797-ci ilin sonuna kimi gürcü tərəfinin bütün xahişlərinə baxmayaraq, Rusiyadan hərbi kömək alınması mümkün olmadı. Rusiya sarayı bu məsələyə baxılmasını məqsədəuyğun saymırdı.

1798-ci il ərzində də Rusiya Cənubi Qafqaz siyasətində hərbi addımlara üstünlük verməkdən kənar qaldı. Gürcüstanda Georginin hakimiyyət başına gəlməsindən sonra Rusiyanın Cənubi Qafqaza yenidən cəlb edilməsi üçün göstərilən cəhdlər nəticəsiz qaldı. Çox güman ki, Rusiya çarı Qacar sarayının Cənubi Qafqaza qoşun çıxaracağına və Rusiyanın sərhədlərinə yaxınlaşacağına inanmırdı. Amma Qacar qoşunlarının Araz çayı sahillərinə toplanması və Fətəli şah adından gürcü çarına təslim olmaq haqqında tələbnamə göndərilməsi Rusiya sarayını silkələdi. Rusiya çarı anladı ki, Cənubi Qafqazla bağlı hərbi siyasətin dondurulması bu bölgənin Qacarların hakimiyyəti altına düşməsinə yol aça bilər.

1799-cu ildə çar Rusiyasının Cənubi Qafqazla bağlı siyasəti yeni bir xarakter aldı. Bölgənin əldən gedə biləcəyini hiss edən Rusiya sarayı Cənubi Qafqazla bağlı siyasətinin istiqamətləndirilməsi üçün gürcü çarı yanında Rusiyanın nazir-nümayəndəsi vəzifəsini təsis etdi və Kovalenski bu vəzifəyə təyin edildi. Rusiya qoşunları Qafqaz xəttinin komandanı vəzifəsi general-leytenant Knorrinqə həvalə olundu. Eyni zamanda Gürcüstana rus qoşunlarının göndərilməsi barəsində qərar qəbul olundu. Qəbul olunmuş həmin qərara görə Gürcüstana general Lazarevin rəhbərliyi altında 46-cı

yeger alayı yollanmalı idi. Kovalenski eyni zamanda Fars üzrə səlahiyyətli nümayəndə təyin edildi və ona tapşırıldı ki, həm Azərbaycan xanlıqları ilə, həm də Qacarlar sarayı ilə əlaqələr yaratsın. Rusiya çarı bu məsələ ilə bağlı ona xüsusi bir təlimat da imzaladı. Həmin təlimatda Qacarlar sarayı tərəfindən Rusiya sarayına elçi göndərilməsi, qarşılıqlı dostluq münasibətlərinə meylin elan edilməsi xatırlanırdı. Rusiya çarının göstərişinə əsasən Kovalenski çalışmalı idi ki, Fətəli şahı Cənubi Qafqaza hücum etməməyə inandırsın. Bu zaman rus çarı daha çox gürcü çarlığının Qacar qoşunlarının hücumundan qorunması haqqında düşünürdü. Hücum planından çəkindirilməsi üçün Fətəli şahın Rusiya ilə ticarət əlaqələrinin genişləndirilməsi, Qacar tacirlərinin Rusiya ərazisində himayə olunması vədlərinin verilməsi lazım bilinirdi (36).

Kovalenskinin və eləcə də general-mayor Lazarevin rəhbərliyi altında olan 46-cı yeger alayının Gürcüstana gəlib çıxması 1799-cu ilin sonlarına təsadüf edir (37). Kovalenski Tiflisə yetişən kimi ciddi siyasi fəaliyyətə başladı. O əvvəlcə Fars işləri üzrə xüsusi nümayəndə kimi Tiflisə gəlməsi haqqında Fətəli şahı məlumatlandırdı. Ona göndərdiyi məktubunda Kovalenski gürcü çarlığı ilə Rusiya arasında 1783-cü ildə imzalanmış traktata əsasən Gürcüstanın Rusiya himayəsi altına alındığını bir daha bəyan etdi və Fətəli şahın gələcəkdə həm Gürcüstan üzərinə, həm də Rusiya himayəsini qəbul etmiş dağlı xalqları üzərinə hücum etməyəcəyinə ümid ifadə etdi. Kovalenski Qacar şahının vəziri İbrahim xana göndərdiyi məktubunda da qarşılıqlı dostluq münasibətlərinin qorunmasına toxundu və bu istiqamətdə yardım göstərilməsi xahiş olundu (38).

Kovalenski eyni zamanda Gəncə və Qarabağ xanlarına da məktub göndərdi, onların Rusiyaya münasibətinin aydınlaşdırılmasına cəhd göstərildi. Rusiyanın səlahiyyətli nümayəndəsi bu xanlar vasitəsilə İrəvan, Şamaxı və Şəki xanlarını da Rusiyaya tərəf meylləndirməyə çalışdı. Bununla belə, Qacar qoşunlarının Araz sahilinə toplanması və onların şimala doğru hərəkət edəcəkləri barədə söhbətlər də Rusiyanın səlahiyyətli nümayəndəsinin diqqətini özünə cəlb edirdi. Məsələnin aydınlaşdırılması və Qacar təhlükəsinin doğruluğunun müəyyənləşdirilməsi üçün Kovalenski poruçik Merabovu məktubla Qacarlar sarayına göndərdi. Merabov Qacar qoşunlarının Gürcüstan üzərinə hücum ehtimalı haqqında yayılan məlumatların nə dərəcədə doğru olduğunu araşdırmalı idi. Gürcüstan üzərinə hücum xəbərinin doğru olduğu təqdirdə isə Merabov Qacarlar sarayını bu plandan çəkindirməyə çalışmalı, Rusiya ilə münaqişəyə girməyin Qacarlar sarayına heç bir fayda gətirməyəcəyini çatdırmağa çalışmalı idi (39).

Merabov 1800-cü il aprel ayında Tehrana gəldi və burada saray əyanları və vəzir İbrahim xan Kələntərlə görüşdü. Qacar qoşunlarının Gürcüstan üzərinə hücum ehtimalı İbrahim xan tərəfindən təsdiqləndi və onun imzası ilə Merabova verilən məktubda bildirilirdi ki, Gürcüstan əraziləri əvvəldən də İranın tərkibində olmuşdur, gürcü əhalisi də şahların xidmətində dayanırdılar. İbrahim xanın məktubunda II İraklinin müstəqilləşmək cəhdinə, bunun üçün Ağa Məhəmməd xan tərəfindən cəzalandırılmasına toxunulurdu və gürcü çarlığının Rusiya himayəsini qəbul etməsi ilə Qacarlar sarayının barışmayacağına işarə edilirdi. Məktubda daha sonra qeyd olunurdu ki, mərkəzləşdirilmiş hakimiyyətin zəiflədiyi bir vaxtda gürcü çarlığı Rusiya himayəsinə keçməyə çalışırdısa, indi Fətəli şahın hakimiyyətə gəlməsi ilə Qacarlar hakimiyyəti xeyli möhkəmlənmişdir. İbrahim xan məktubunun sonunda Rusiya ilə Qacarlar dövləti arasında əvvəlki sərhəd xəttinin saxlanılmasını və bu sərhəd xətti əsasında qan tökülməsinin qarşısının alınmasını, sülhün qorunub saxlanmasını təklif edirdi (40).

Qacar vəzirinin Gürcüstan üzərinə hücum niyyətlərinin təsdiqlənməsi Rusiyanın bölgədəki nümayəndələrini Rusiya maraqlarının Qafqazda qorunması üçün ciddi və təcili addımların atılmasına sövq edirdi. 1800-cü ilin ortalarına yaxın alınan məlumatlar isə Qacarlar sarayının Azərbaycan xanlarını və gürcü çarlığını ələ keçirmək niyyətlərinin kifayət qədər yüksək olduğunu nümayiş etdirirdi. Bu məlumatlar Qacarlar sarayının konkret addımları ilə də təsdiqləndi.

1800-cü il may ayının 1-də Fətəli şahın elçisi İrəvana gəldi və İrəvan xanına Fətəli şahın bir neçə hədiyyəsini çatdırdı. Eyni zamanda İrəvan xanı Məhəmməd xana Qacarlar dövlətinə tabe olmaq təklifi çatdırıldı. Lakin İrəvan xanı qətiyyətlə bu təklifdən imtina etdi və bununla Fətəli şah qəzəbinin onun üzərinə istiqamətlənməsinə səbəb oldu.

İrəvan xanlığının ələ keçirilməsinə Qacar qoşunlarına rəhbərlik edən Abbas Mirzə və onun məsləhətçiləri xüsusi fikir verirdilər. Çünki bu xanlıq ərazisində möhkəmlənmədən gürcü çarlığı və Azərbaycan xanlıqları üzərinə hücumu uğurla davam etdirmək çox çətin ola bilərdi.

Mövcud məlumatlara görə, Naxçıvan xanlığı yaxınlığında Araz çayını keçməli olan Qacar qoşunları İrəvana doğru hərəkət etməli idi. Burada qoşunlar dəstələrə bölünməli və bu dəstələrin hər birinə də ayrıca tapşırıq verilməli idi. Nəzərdə tutulmuşdu ki, Gəncə və Qarabağ xanlıqlarının köməyinə dəstələr göndərilsin. Çünki bu xanlar formal olaraq Qacar hakimiyyəti ilə birgə olmağa razılıq bildirmişdilər. Qacar qoşunlarının bir dəstəsi Şamaxı xanlığına yollanaraq bu xanlığı nəzarət altına almalı idi. Digər bir dəstə də Lənkəran xanlığı üzərinə göndərilməli idi. Bakı xanlığının nəzarət altına alınması da Qacar qoşunlarının yürüş planlarına daxil idi. (41).

Nəhayət, Cənubi Qafqaz üzərinə yürüşün qarşısında dayanan niyyətlərdən biri də Gürcüstanın Qacar hakimiyyəti altına gətirilməsi idi. Qacar qoşunlarının ümumi yürüşü başlamazdan əvvəl Fətəli şahın, Abbas Mirzənin və Araz kənarında dayanan qoşunların rəhbəri Süleyman xanın adından gürcü çarı Georgiyə məktub göndərildi. Bu məktub həm gürcü çarını, həm də Rusiya sarayını ciddi təşvişə saldı. Çünki bu məktub əslində müharibə xəbərdarlığı idi ki, gürcülər də, ruslar da hələlik bu müharibədən qaçmağa çalışırdılar.

Adları çəkilən şəxslərin məktubu 1800-cü il iyun ayının 14-də Abbas Mirzənin elçisi vasitəsilə gürcü çarına çatdırıldı. Gürcü çarı Georgi Abbas Mirzənin elçisini təklikdə qəbul etməkdən çəkindi və Qacarların nümayəndəsi Kovalenskinin iştirakı ilə qəbul edildi. Qacar şahı bu məktubunda sərt şəkildə gürcü çarını itaətə çağırırdı və tələb edirdi ki, Qacar hakimiyyətinə sədaqətinin zəmanəti kimi böyük oğlu şahzadə Davidi girov kimi Qacar sarayına göndərsin (42).

Gürcü çarı bu tələbi qəbul etməyə razı deyildi və öz münasibətini də Abbas Mirzənin nümayəndəsinə çatdırdı. Qacar elçisinin diqqətinə çatdırıldı ki, hələ çar İraklinin zamanında, yəni 1783-cü ildə imzalanmış traktata əsasən gürcü çarlığı Rusiyanın himayəsinə keçmişdir. Ona görə Rusiya sarayının razılığı olmadan gürcü çarlığı heç bir dövlətin tələbini qəbul edə bilməz. Gürcü çarı bəyan etdi ki, Qacar hakimiyyəti ilə istənilən münasibət də yalnız Rusiya hakimiyyətinin razılığı ilə qurula bilər. Şahın elçisinə o da çatdıdıldı ki, Qacar hakimiyyəti ilə təmasların qurulması üçün Kovalenski səlahiyyətli şəxsdir və qarşılıqlı münasibət qurulması üçün Kovalenskiyə müraciət edilə bilər. Görüşdə iştirak edən Kovalenski də gürcü çarının bəyanatını təsdiq etdi və Fətəli şahın tələblərinin qəbul edilməz olduğunu bildirdi (43).

Bir tərəfdən Qacar qoşunlarının Araz çayı yaxınlığında toplaşması, digər tərəfdən Qacar şahının sərt tələblərlə dolu olan məktubunun elçi vasitəsilə Tiflisə çatdırılması tək gürcü sarayı daxilində deyil, gürcü əhalisi arasında da böyük narahatçılığa səbəb oldu. Qacar elçilərinin Tiflisə gəlməsi və onun məktubunun məzmunu barədə dərhal Rusiya qoşunları Qafqaz xəttinin komandanı general-leytenant Knorrinqə məruzə olundu. O da öz növbəsində baş verənlər barəsində Rusiya çarına məktub göndərdi. Qacar sarayının Cənubi Qafqaz iddiaları və bu iddiaların həyata keçirilməsi üçün ciddi addımlar atması Rusiya çarı tərəfindən təşvişlə qarşılandı. Qacar qoşunlarının Cənubi Qafqaza çıxarılmasının qarşısının alınması üçün Rusiya çarı general-leytenant Knorrinqə konkret tapşırıqlar da verdi. Rusiya çarı göstərirdi ki, hər biri beş eskadrondan ibarət olan iki draqun alayı, 2 piyada alayı, iki yığma qrenadyor taboru, bir yeger taboru, 10 süvari eskadronu, 9

piyada taboru, artilleriya qrupu Gürcüstana göndərilmək üçün hazırlansın. Rusiya çarı bildirirdi ki, Qacar qoşunları gürcü çarlığı üzərinə hücum etmiş olsa, onda general-leytenant Knorrinq özü qoşun hissələrinə rəhbərlik edərək Gürcüstana yollansın. Rusiya çarı general Knorrinqə göstəriş verirdi ki, Gürcüstana getməli olan qoşunların təminat-təchizat məsələləri ilə məşğul olsun, gürcü çarını Rusiya himayəsindən məhrum olmayacağına əmin etsin. Rusiya çarı eyni zamanda onu da məsləhət görürdü ki, gürcü çarı Abbas Mirzə ilə danışıqları davam etdirsin, Abbas Mirzənin və Qacar sarayının bütün niyyətlərindən xəbər tutsun (44).

Rusiya çarı eyni zamanda Kovalenskiyə də məktub göndərdi, ona rus qoşunlarının Gürcüstana gəlməsi üçün yolların sahmana salınması, Gürcüstanda müdafiə işlərinin təşkili ilə məşğul olmağı tapşırdı.

Gürcüstana göndərdiyi elçisi vasitəsilə tələblərinə ümidində olduğu cavabı ala bilməyən Abbas Mirzə isə iddialarının ciddi olduğunu nümayiş etdirdi və Qacar qoşunlarının Arazın şimalına adlaması haqqında əmr verdi. Mövcud olan məlumatlara əsasən, Qacar qoşunlarının 1800-cü il iyul ayının əvvəllərində Araz çayını adladığını güman etmək olar.

Şah qoşunlarının Arazı adlaması ərəfəsində gürcü çarının qardaşı vəliəhd Aleksandr qaçıb Qacar qoşunlarına qoşuldu. Vəliəhd Aleksandr da gürcü taxt-tacına iddia ilə yaşayırdı. Rus qoşun dəstələrinin Gürcüstana daxil olduğu vaxt onun taxt-taca yiyələnmək şansı heç də nikbin görünmürdü. Qacar qoşunlarının böyük sayda Araz kənarına toplanması və Fətəli şahın Tiflis üzərinə qoşun çəkmək planları Aleksandrda taxt-tac ümidlərini artırdı və bunun üçün də Qacar qoşunlarına qoşulmağa qərar verdi. Cənubi Qafqaz üzərinə Qacar qoşunlarının yürüşü ərəfəsində ruslar Abbas Mirzə ilə vəliəhd Aleksandrın arasında aparılan yazışmaların bəzi nümunələrini əldə edə bildilər. Həmin yazışmalarda Abbas Mirzə bəyan edirdi ki, qoşunlar Gürcüstan üzərinə gəlir və Aleksandr gürcü taxt-tacına çıxarılacaqdır (45).

Şah qoşunlarının hansı qüvvələrinin hücuma keçməsi haqqında fars dilli və rusdilli mənbə və tarixi ədəbiyyatda müxtəlif məlumatlar mövcuddur. Yuxarıda qeyd edildiyi kimi, farsdilli ədəbiyyatda qısa müddət ərzində Abbas Mirzə ətrafında böyük miqdarda qoşun toplandığı bildirilir. Rusdilli mənbələrdə isə Qacar qoşunlarının 3-4 min arasında olduğu, Naxçıvan ətrafında dayanan əsas qüvvələrin isə 12 min nəfərdən ibarət olduğu göstərilir (46).

Qacar qoşunları əsasən köhnə və ənənəvi silahlarla silahlanmışdılar. Onların silahları əsasən qılınclardan ibarət idi. Tüfəng çox az miqdarda mövcud idi. Onlar da əsasən köhnə fitilli tüfənglər idi. Bütün qoşunlarda cəmi 4 ədəd zənburək topun olduğu bildirilirdi (47).

Beləliklə, 1800-cü ilin iyul ayında uzun hazırlıqdan sonra Abbas Mirzənin və Süleyman xanın rəhbərliyi altında olan qoşunlar Araz çayını adlayıb Naxçıvan yaxınlığında düşərgə saldılar. Son nöqtəsi Gürcüstan olan bu yürüş zamanı qoşunların İrəvan xanlığı ərazisindən keçməsi nəzərdə tutulmuşdu. İrəvan xanlığı üzərinə hücum başlamazdan əvvəl Qacar sərkərdələri Məhəmməd xana xəbər göndərdilər ki, qalanı təslim etsin. Lakin Məhəmməd xan qətiyyətlə bu tələbi rədd etdi. Belə olanda İrəvan qalası üzərinə hücum etmək qərara alındı. Qacar qoşunlarının 4 min nəfərlik (bəzi mənbələrdə 3 min nəfərlik) avanqard dəstəsi İrəvan qalasının mühasirəsinə göndərildi. İrəvan ətrafında olarkən qoşun rəhbərliyi bir daha Məhəmməd xana təklif etdi ki, təslim olsun. Məhəmməd xan da əvəzində bildirdi ki, hər şey etməyə hazırdır, yalnız qalanın Qacar qoşunlarına təslim edilməsinə razı deyil. 1800-cü ilin avqustunda şah qoşunları İrəvan qalasını mühasirəyə aldılar. Məhəmməd xan bu mühasirəyə nəinki davam gətirdi, hətta öz qoşunları ilə hücuma keçib şah qoşunlarını geri atdı (48).

Ancaq Gəncə və Qarabağ xanlarının, habelə son nəfəsinədək müqavimət göstərməyə söz vermiş Xoy xanı Cəfərqulu xanın Fətəli şahın tələblərini qəbul etməsi Məhəmməd xanın güclü düşmən qarşısında tək qalmasına səbəb oldu. Qacar qoşunlarının Naxçıvanın yaxınlığında olan əsas korpusunun hücuma qoşulacağı təqdirdə isə İrəvan xanlığının vəziyyəti daha da mürəkkəbləşə bilərdi. Çünki şah qoşunlarına rəhbərlik edən Abbas Mirzə və onun hamiləri Azərbaycan ərazisində yeni qoşun dəstəsinin toplanmasına başladılar. Nəzərdə tutulmuşdu ki, bölgədəki qoşunların sayı 15 minə çatdırılsın. Hələ Qacarlar dövlətinin digər vilayətlərindən də qoşun dəstələrinin gəlməsi gözlənilirdi. Belə böyük bir qüvvəyə müqavimət göstərmək Məhəmməd xan üçün çox çətin ola bilərdi. Ona görə Məhəmməd xan da Qacarlar sarayının tələbi ilə razılaşıb bu ölkənin xəzinəsinə vergi verməyi boynuna götürdü (49).

Tarixi faktların araşdırılması belə deməyə əsas verir ki, 1800-cü il iyul ayının sonu, avqust ayının əvvəllərinə kimi Qacar qoşunlarının əsas hissəsi Naxçıvan yaxınlığında, avanqard dəstəsi isə İrəvan ətrafında idi. İrəvan xanı qacarların tələbini qəbul etdiyi üçün Qacar qoşunlarına öz dəstəsini verməli və Qacar qoşunlarının təchizat məsələlərinə yardım etməli idi.

1800-cü il avqustun 3-də Rusiya çarı Qacar qoşunlarına müqavimət göstərmək üçün İrəvan xanı Məhəmməd xana məktub göndərdi. Çox güman ki, rus çarının İrəvan xanının Qacar tələblərini qəbul etmək məcburiyyətində qalmasından xəbəri yox idi. Rusiya çarı Qacar şahının gürcü çarına göndərdiyi məktubunun məzmununu xatırladaraq Həştərxanın hərbi quber-natoru, Qafqazdakı rus qoşunlarının baş komandanı general-leytenant Knorrinqə Gürcüstan və Dağıstanın müdafiəsi üçün lazım olan qədər qoşun göndərməyi tapşırdığını bildirirdi. Rus çarı İrəvan xanını gürcü çarını

mühriban qonşusu kimi xarakterizə edir və Qacar qoşunlarının Gürcüstan üzərinə hücum edəcəyi təqdirdə Məhəmməd xanın da ümumi təhlükəsizlik üçün qacarlara qarşı silah qaldırmalı olduğunu tövsiyə edirdi. Rusiya çarı oxşar çağırışla bir sıra Dağıstan hakimlərinə və Dərbənd xanı Şeyxəli xana da müraciət etdi (50).

Diqqəti çəkən bir məqam da Məhəmməd xanın gürcü çarı Georgiyə məktub yazması və onu Qacar hakimiyyətini tanımağa çağırmasıdır. Rus tarixi ədəbiyyatında xatırlanan bu faktın doğruluğu qəbul edilərsə, Məhəmməd xan çox güman ki, qacarların şərtlərini qəbul etdikdən sonra bu məktubu yazmalı olmuşdu. Bildirilir ki, İrəvan xanı öz məktubunda hakimi olduğu xanlığın və gürcü çarlığının Fətəli şah tərəfindən xilas ola biləcəyini yazırdı. O, nicat yolunun Qacar şahına tabe olmaqda və qacarlar tərəfindən irəli sürülən tələblərin qəbul edilməsində görürdü. Guya İrəvan xanı məktubunda xatırladırdı ki, Gürcüstan əvvəllər də Fars şahına tabe olmuş və ona görə də hər hansı müqavimət göstərilməsi əbəsdir. Rus tarixçilərinin məlumatına görə, İrəvan xanı məktubunun sonunda gürcü çarına qardaşı və ya oğlu vasitəsilə Fətəli şaha qiymətli hədiyyələr göndərməyi və bununla da sonradan peşman olmamağı məsləhət görürdü (51).

Hər halda Qacar qoşunlarının İrəvan ətrafında dayanması və Gürcüstan üzərinə hücuma hazırlaşması qarşı tərəfin də fəallığını xeyli artırdı. Doğrudur, Gürcüstan ərazisində olan rus zabitləri gürcü qoşunlarının çox pis silahlandığını, gürcülərlə ermənilərə ümid etməyin əhəmiyyətsiz olduğunu yazırdılar (52). Bununla belə, gürcü çarı rus qoşunlarının qarşılanması və onların təchizat və təminatına kömək göstəriləcəyini general Knorrinqə bildirdi. Gürcü çarı ümid edirdi ki, general Knorrinq ona çar tərəfindən verilmiş tapşırıq əsasında böyük qoşun dəstəsi ilə Gürcüstana gələcəkdir. Ona görə gürcü çarı rus qoşunlarının irəliləyəcəyi yolların sahmana salınacağını, onların təhlükəsizliyinin təmin ediləcəyini, qoşunlar üçün lazım olan ərzaq və yemin toplanacağını vəd edirdi. Gürcü çarı general Knorrinqi Gürcüstana doğru hərəkətə həvəsləndirməyə çalışırdı. O qeyd edirdi ki, əgər general Knorrinq nəzərdə tutulan qüvvələrlə Gürcüstana gələrsə, Abbas Mirzə mövcud qüvvələri ilə Gürcüstan üzərinə hücum edə bilməz. Onun fikrincə, əgər Abbas Mirzə əlavə qoşun qüvvələri alsaydı, bəlkə onda Gürcüstan üzərinə hücuma başlardı (53).

Rusiyanın Gürcüstandakı nümayəndəsi Kovalenski də oxşar mövqedə idi. Yuxarıda qeyd edildiyi kimi, general Knorrinq Qacar qoşunlarının hücum xəbərini Rusiya çarına məruzə edərkən, gözlənilən təhlükənin qarşısının alınması üçün ondan böyük hərbi yardım istədi. Kovalenski isə general Knorrinqə yazırdı ki, Qacar qoşunlarının sayı elə də çox deyil və ona görə onların qarşısının alınması üçün çoxlu sayda rus qoşunlarının olmasına da ehtiyac yoxdur. Kovalenski əlavə edirdi ki, Gürcüstanın müdafiəsi yaxşı qurulub. Gürcülərdən təşkil edilmiş 3 min nəfərlik dəstə də bu müdafiə işinə cəlb edilib. Onların həm də yaxşı silahlandığı bildirilirdi. Əlavə olaraq, daha

2 min nəfərlik gürcü dəstəsinin müdafiə işlərinə cəlb ediləcəyi qeyd olunurdu. Kovalenski eyni zamanda Gürcüstanın sərhəd kəndlərində yaşayan azərbaycanlıların da qacarlara qarşı mövqe tutacağına ümid edirdi (54).

Kovalenskinin yazdığına görə, Abbas Mirzə Araz çayını keçdikdən sonra Gəncə, Qarabağ və Şəki xanlıqlarının qoşunlarının köməyinə də ümid edirdi. Qacar qoşunlarının ötən hücumları zamanı Gürcüstanın qarşılaşdığı fəlakətlərlə qarşılaşmamaq üçün bu xanlar Abbas Mirzə ilə əməkdaşlığa razılıq vermişdilər. Lakin onlar tərəfindən Abbas Mirzəyə ciddi kömək göstərilmədi. Qarabağ xanı Şamaxı xanının təşkil etdiyi hücumların qarşısının alınması ilə məşğul olduğu üçün Abbas Mirzənin ixtiyarına əlavə qüvvə ayıra bilmədi. Qacar hakimiyyətinin tanınması üçün Şamaxı xanına da xəbər göndərilmişdi. Şamaxı xanı qacarların şərtlərini nəinki tanımadı, əksinə Qacar qoşunları ilə əməkdaşlıq etmək məcburiyyətində qalan Qarabağ xanlığına da silahlı hücum etdi. Gəncə xanlığının silahlı qüvvəsinin sayı elə də çox deyildi ki, Abbas Mirzəyə də əlavə qoşun dəstəsi ayırsın. Şəki xanı isə hərbi gərginliyin davam etdiyi məntəqədən uzaq olduğu üçün təmkin nümayiş etdirməyi üstün tutdu (55).

Elə həmin günlərdə Şamaxı xanı ilə birlikdə Şəki xanı da Rusiya himayəsinin qəbul edilməsi üçün Rusiya rəsmilərinə müraciət etdi və Rusiya çarı da bu müraciətə müsbət cavab verdi (56).

Əldə olunan məlumatlara görə, Abbas Mirzə 1800-cü ilin avqust ayının əvvəllərində gürcü çarlığı üzərinə hücum etmək planlarından hələ də əl çəkməmişdi. Nəzərdə tutulmuşdu ki, Qacar qoşunlarının sonrakı düşərgəsi kimi Göyçə gölünün yaxınlığında, Tiflisdən cəmi 70 verst aralı olan ərazi seçilsin. Qoşunların ümumi sayının artırılması üçün Naxçıvan, Xoy, Ərzrum, Təbriz, Mərənd hakimlərinə köçəri şəqqaqi və şahsevən tayfalarından dəstələr təşkil edilməsi tapşırılmışdı. Bu məntəqələrdə toplanan əlavə qüvvələrlə gürcü çarlığı üzərinə hücum edəcək qoşunların ümumi sayının 15 min nəfərə çatdırılması planlaşdırılırdı. Abbas Mirzə avqust ayının 15-də Tiflisdə olacağını da güman edirdi (57).

Amma Abbas Mirzə öz qoşunları ilə Naxçıvan ətrafındakı düşərgədən heç də irəli hərəkət etmədi. Bunun nə ilə bağlı olduğunu söyləmək çətindir. Rus hərbçiləri bunu Rusiya qoşunlarının Qacar qoşunlarına qarşı ciddi hazırlaşması ilə əlaqələndirirlər. Guya Abbas Mirzə Gürcüstanın köməyinə gəlmiş rus qoşunlarının müqavimətini qırmaq şansının olmadığını anladığı üçün geri çəkilməli olmuşdu. Bu iddianın doğruluğu heç bir ciddi məlumatla təsdiq olunmur. Rus qoşunlarına üstün gələ bilməsə də Abbas Mirzənin Azərbaycan xanlıqlarını tamamilə nəzarət altına almaq şansı var idi və o bu fürsətdən də nədənsə bəhrələnmədi. Rus qoşunlarının güclülüyü ilə bağlı deyilənlərdə isə həqiqət vardır. Rusiyanın müasir tipli və yaxşı silahlanmış ordusunun qarşısında Abbas Mirzənin tələm-tələsik və bəzən də kortəbii şəkildə toplanmış və primitiv silahla silahlanmış qoşunları dayanmalı idi. Abbas Mirzə və onun himayədarları sözsüz ki, bu fərqi görməmiş deyildilər.

1800-cü il avqust ayının 10-na aid olan bir məktubda general Knorrinq general-mayor Lazarevə Qacar qoşunlarının gürcü çarlığı üzərinə hücum edəcəyi təqdirdə görülməli olan işlərdən danışırdı. General Knorrinq bir daha təkrar edirdi ki, Qacar qoşunları Gürcüstana doğru istiqamət götürəcəyi halda o özü qoşunlarla Gürcüstana yollanmalı olacaqdır (58).

Həmin tarixə aid olan başqa bir məktubunda Knorrinq Qacar qoşunlarının İrəvan ətrafından geri çəkildiyini bildirirdi. Məktubdan anlaşılır ki, Qacar qoşunları hələ də Naxçıvan ətrafındakı düşərgədə dayanmaqda idi. General Knorrinqin qeydlərinə görə, bir aylıq fasilədən sonra Qacar qoşunları geri çəkilməli olmuşdular. Rus generalı bir daha Qacar qoşunlarının geri çəkilməsini yenə də rus qoşunlarının güclü olması ilə əlaqələndirirdi. Bununla yanaşı, general Knorrinq Qacar qoşunlarının hətta Naxçıvandan da geri çəkilməsinin mümkünlüyünü vurğulayırdı. Onun fikrincə, bunun üçün rus qoşun hissələrinin İrəvana doğru irəliləməsinə göstəriş vermək lazım idi. Rus qoşunlarının yaxınlaşdığını gördükdə Qacar qoşunları yəqin ki, yenidən Arazın o tayına qayıdacaqdır. General Knorrinqə görə, bunun üçün muşketyor alayının və bir yeger taborunun İrəvan istiqamətinə göndərilməsi kifayət idi (59).

Lakin bunun edilməsinə ehtiyac qalmadı. Çünki bir neçə gündən sonra Qacar qoşunları Araz çayından geri çəkilməli oldular. Bununla da Qacar qoşunları qarşıya qoyulan məqsədə nail olmadan geri qayıtdılar. Bununla belə, Qacar qoşunlarının Cənubi Qafqaza yürüş etməsi bir sıra məqamlara aydınlıq gətirdi. Bu yürüşün gedişində bir daha aydın oldu ki, Cənubi Qafqaz iki böyük dövlətin geosiyasi iddialarının toqquşma mərkəzinə çevrilməkdədir. Qacar sarayının dinc yolla Azərbaycan xanlıqlarını və gürcü çarlığını özünə cəlb etmək istəyinin baş tutmaması hərbi yolu qaçılmaz edirdi. Azərbaycan xanlıqları bir daha nümayiş etdirdilər ki, onlar müstəqilliklərini Qacar sarayına güzəştə getmək fikrində deyildirlər. Doğrudur, bunun üçün onların seçdiyi yol, yəni Rusiya himayəsinə sığınmaq da müstəqilliyin qorunması üçün etibarlı yol deyildi. Lakin Azərbaycan xanları Rusiyanın səxavətli ola biləcəyinə hələ də ümidlərini kəsməmişdilər. Rusiyanın isə Cənubi Qafqazla bağlı ehtiyatlı siyasətinə son qoyuldu. Gürcü çarlığının Qacar qoşunlarından qorunması üçün Rusiyanın əl atdığı əməli addımlar eyni zamanda Rusiyanın Cənubi Qafqazda fəal işğalçılıq siyasətinin icrasının başlanğıcı oldu. Rusiya bütün qüvvəsi ilə Cənubi Qafqaza doğru çevrildi və Avropa səhnəsində kifayət qədər fəallıq nümayiş etdirməklə bərabər, Cənubi Qafqazın işğalı Rusiyanın xarici siyasətinin prioritetləri sırasından çıxarılmadı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1.Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xanın və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, s.226. Bax: Qarabağnamələr. İkinci kitab. Bakı, 1991, s.203-248;
2. 1.Xəzani, Mir Mehdi "Kitabi tarixi Qarabağ", s.144. Bax: Qarabağnamələr. İkinci kitab, Bakı 1991 s.94-204
3. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 17047-1805-ci illərdə siyasi vəziyyətinə dair, s.175. Bax: Qarabağnamələr. Birinci kitab. Bakı, 1989, s.150-183
4. Yenə orada, s.176
5. Mustafazadə T. Qarabağ xanlığı. Bakı, 2010, s.178
6. Əhməd bəy Cavanşir, s.179; Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, s.34
7. Mustafazadə T. Qarabağ xanlığı, s.180
8. Rzaqulu bəy Mirzə Camal oğlu, s.129
9. ازدالدو له سلطان احمد میرزا. تاریخ ازادی.تهرا ن ،۱۳۵۵،ص.۱۴
10. تاریخ ازادی، ۱۶
11. تاریخ ازادی، ۱۷
12. Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003, с.73
13. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.196
14. Мустафаев Дж. Северные ханства Азербайджана и Россия. Баку, 1989, с.105
15. Бакиханов А. Гюлистани-Ирам. Баку, 1991, с.183
16. Мустафаев Дж. Северные ханства Азербайджана..., с.106
17. Левиатов В.Н. Очерки истории Азербайджана вXVIII веке. Баку, 1948, с.196
18. Искендерова М. Бакинское ханство. Баку, 1999, с.127
19. Yenə orada, s.141
20. Мустафаев Дж. Северные ханства Азербайджана..., с.106
21. Искендерова М. Бакинское ханство..., с.131
22. Искендерова М. Бакинское ханство ..., с.131
23. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi, s.194
24. بینا علی اکبر. تاریخ سیاسی و دیپلوماسی ایران. جلد الو، تهران، ۱۳۴۸، ص.۸۸
25. دنبلی. ماثر سلطانیه. تهران، ۱۳۸۳، ص.۷۶-۷۸
26. مدنی. تاریخ تحولات سیاسی و روابت خارجی ایران. تهران، ۱۳۷۸، ص.۸۰
27. پرسی سایکس. تاریخ ایران. جلد دوم، تهران، ۱۳۶۳، ص.۴۳۰
28. ناصر نجمی. عباس میرزا. تهران، ۱۳۷۴، ص.۲۹
29. ناصر نجمی، ۶۲-۶۳
30. ناصر نجمی، ۶۳
31. Azərbaycan tarixi. III cild, Bakı, 2007, s.401
32. آبادیان ج. روایت ایرانی جنگهای ایران و روس. تهران، ۱۳۸۰، ص.۲۹

33. Дубровин Н. История войн и валадычества русских на Кавказе. Т. III, С.Петербург, с.289
34. Дубровин Н. История войн и валадычества русских..., с.199-201
35. Дубровин Н. История войн и валадычества русских..., с.203
36. Дубровин Н. История войн и валадычества русских..., с. 290
37. Бабаев Э. Из истории Гянджинского ханства..., с.75
38. Дубровин Н. История войн и валадычества русских..., с.290-291
39. Дубровин Н. История войн и валадычества русских..., с.291
40. Дубровин Н. История войн и валадычества русских..., с.306
41. Дубровин Н. История войн и валадычества русских..., с.294
42. Акты собранные Кавказской Археологической Комиссией (АКАК), т. I, Тифлис, 1866, с.106
43. АКАК, т. I, с.106
44. АКАК, т. I, с.106
45. АКАК, т. I, с. 127
46. АКАК, т. I, с. 124, 127
47. АКАК, т. I, с. 128
48. АКАК, т. I, с. 123? 127
49. АКАК, т. I, с.127, 131-132
50. АКАК, т. I, с.110
51. Дубровин Н. История войн и валадычества русских..., с. 299-301
52. АКАК, т. I, с.124-125
53. АКАК, т. I, с.130-131
54. АКАК, т. I, с. 110
55. АКАК, т. I, с. 115-116
56. АКАК, т. I, с.134
57. АКАК, т. I, с. 127, 131
58. АКАК, т. I, с.132
59. АКАК, т. I, с.133-134

# VIII FƏSİL

## İŞĞALIN BAŞLANMASI

### 1. Gürcüstanın Rusiyaya birləşdirilməsi

Qacar qoşunlarının 1800-cü ilin yayında Cənubi Qafqazın ələ keçirilməsi məqsədilə həyata keçirdiyi cəhd bu bölgəni işğal altına almaq istəyən Rusiyanı hərəkətə gətirdi. Bu dövrdən Rusiyanın Cənubi Qafqaz siyasətinin yeni bir səhifəsi açılır. Qacar qoşunları geri dönsə də, istər Rusiya, istərsə də gürcü çarlığı mənsublarına gizli deyildi ki, bu yürüş yenidən təkrarlana bilər. Onun qarşısının etibarlı şəkildə alınması üçün isə ciddi addımların atılmasına ehtiyac var idi. Qacar qoşunlarından qorunmağın etibarlı yolunu gürcü çarlığı Rusiyanın hakimiyyəti altına düşməkdə görürdü. Ona görə, Qacar qoşunlarının bölgəni tərk etməsindən sonra da gürcü çarlığı ilə Rusiya sarayı arasında diplomatik təmaslar daha da genişləndi.

Gürcü çarı Georginin çox da uzun sürməyən hakimiyyəti illərində taxt-tac uğrunda daxili çəkişmə kifayət qədər qızışdı. Gürcü çarı bu daxili çəkişmələrin qarşısının alınmasının yolunu da Rusiyaya birləşməkdə görürdü. Onun bu niyyətinin daxildə müqavimətlə rastlaşa biləcəyindən Georgi gizli şəkildə Rusiya sarayı ilə danışıqlar apardı. Bunun üçün Rusiya sarayına xüsusi elçilik göndərdi. Rusiyaya gizli şəkildə yola salınan həmin elçiliyə Gersevan Çavçavadze, Georgi Avalov və Yeleazar Palavandov daxil idilər. Bu elçilik 1800-cü il yanvarın 18-də Tiflisi tərk etsə də general Knorrinq tərəfindən ləngidildi və həmin elçilik Mozdokdan öz yoluna həmin ilin aprel ayında davam etdi. Elçilik üzvlərinə səlahiyyət verilmişdi ki, Gürcüstanın Rusiyaya birləşdirilməsini nəzərdə tutan lazımi sənədlərə qol çəksinlər (1).

Qeyd etmək lazımdır ki, gürcü elçilərinin Peterburqa çatması və burada diplomat fəaliyyətinə başlaması Abbas Mirzənin rəhbərliyi altında olan Qacar qoşunlarının Cənubi Qafqazdan geri çəkilməsindən sonrakı dövrə təsadüf edir. Gürcü elçilərinin Rusiyanın Xarici İşlər Nazirliyinə təqdim etdiyi notanın təklifləri isə Qacar qoşunlarının hücumundan əvvəl çar Georginin özünün iştirakı ilə hazırlanmışdı. Həmin notada bildirilirdi ki, Gürcüstanın Rusiyaya meylliliyi hələ çar II İraklinin dövründə başlamış və

yeni çarın dövründə də bu istək qalmışdır və gürcü çarlığı özünü Rusiyanın daimi təbəəliyinə verməyə hazırdır. Sonra Gürcüstanın Rusiyaya birləşdirilməsi üçün gürcü tərəfinin təklifləri sadalanırdı. Bu rəsmi təkliflərin sayı 13-ə çatırdı. Onların hamısının mahiyyəti gürcü çarlığının Rusiyaya birləşdirilməsinə nail olunması və bu birləşdirilmədən irəli gələn öhdəliklərin icrasına vəd verilməsi idi. Elə ilk təklifdə deyilirdi ki, gürcü çarı, gürcü əyanları, ruhaniyyəti və xalqı Rusiya imperiyasının təbəəliyini qəbul etmək istəyir və Rusiya vətəndaşlarına aid olan bütün tələblərin icra edilməsinə söz verir. Sonrakı təklifdə gürcü çarı xahiş edirdi ki, Rusiyaya birləşmədən sonra da o, çar kimi saxlanılsın, onun varislərinin taxt-tac hüququ qorunsun. Bunun əvəzində gürcü çarı vəd edirdi ki, Gürcüstanın idarə edilməsində yalnız Rusiya sarayının iradəsi əsas tutulacaq. Gürcü çarı eyni zamanda bəyan edirdi ki, Gürcüstanın bütün gəlirlərinin Rusiyanın ixtiyarına verilməsinə hazırdır. Öz dolanışığının təmin edilməsi üçün isə ona Rusiya xəzinəsindən maaş ayrılmasına, ona Rusiyada kənd verilməsinə razı idi. Notanın 4-cü maddəsində gürcü çarı çarlığın etibarlı şəkildə qorunması üçün ilk vaxtlar Gürcüstana 8 minlik rus qoşun dəstəsinin və müvafiq sayda topların göndərilməsini lazım bilirdi. Onun fikrincə, Gürcüstan ərazisində olan bütün qalalar, istehkamlar rus qoşunları tərəfindən tutulmalıdır. Gürcü çarı əlavə edirdi ki, məqsədəuyğun bilmədiyi halda rus qoşunlarına yerli gürcüləri də qoşmaq olardı. Çarlığın müdafiəsinin möhkəmləndirilməsi üçün rus mühəndislərinin ezam olunması da xahiş olunurdu. Bu mühəndislərin məsləhəti əsasında yeni istehkam qurğuları tikilə və köhnələri bərpa oluna bilərdi. Gürcü çarı öz ərazilərindən ləzgilərin Gürcüstan üzərinə hücum etməsinə imkan verən Osmanlı və Axalsıx paşalarına xəbərdarlıq edilməsini də lazım bilirdi (2).

Gürcü tərəfinin Rusiyaya təqdim etdiyi notanın tələblərindən göründüyü kimi, konkret tarixi şəraitdə Qacar sarayının siyasətini qəbul etməyərək Rusiyaya birləşməyə üstünlük verən Georgi bu zaman öz maraqlarını qorumağa çalışırdı. Bir tərəfdən o, özünü və varislərinin taxt-tac haqqını qorumağa, bir tərəfdən də Gürcüstanın müdafiəsinin əsasən rus qoşunları tərəfindən təmin edilməsinə çalışırdı. Bu isə rus hərbçiləri tərəfindən müəyyən nigarançılıqla qarşılanırdı. Gürcü çarı hələ Qacar qoşunlarının Cənubi Qafqaz ərazilərini tərk etməmiş Gürcüstanın müdafiəsinin təşkili üçün 6 min nəfərlik qoşun dəstəsi göndərilməsi haqqında məsələ qaldırdı. Gürcü çarı bu qoşunların birdəfəlik Gürcüstan ərazisində saxlanılmasını istəyirdi. Gürcü çarının xahişi Rusiya sarayı tərəfindən nəzərə alındı və Gürcüstana əlavə hərbi qüvvə göndərilməsinə göstəriş verildi. Abbas Mirzə qoşunlarının hücum təhlükəsinin qalması da sözsüz ki, belə bir qərarın verilməsinə təsir göstərdi. 1800-cü il avqust ayında general-mayor

Qulyakovun rəhbərliyi altında bir alay və bu alaya verilmiş kazak bölüyü toplarla bərabər Gürcüstana doğru hərəkətə başladı. Bu alayın Tiflisə gəlib çatması artıq sentyabr ayının sonlarına təsadüf edir (3).

General Knorrinq Gürcüstana 6 minlik qoşun dəstəsinin yerləşdirilməsi ilə isə razı deyildi. Gürcü çarı Georgiyə sentyabr ayında göndərdiyi məktubunda Knorrinq bildirirdi ki, Qacar qoşunları artıq Cənubi Qafqaz ərazisini tərk edib. Ona görə Gürcüstana 6 min nəfərlik qoşun ver-ilməsinə ehtiyac duymurdu. Rus generalı bildirirdi ki, Gürcüstanda artıq 7 topu olan 3 min nəfərlik qoşun dəstəsi vardır. Onun nəzərincə bu qoşun dəstəsi Gürcüstan üçün kifayətdir. General Knorrinq bildirirdi ki, Gürcüstanın qorunmasını yalnız rus qoşunlarına həvalə etmək olmaz və bununla o, gürcü əhalisinin də Gürcüstanın müdafiəsinə cəlb olunmasına işarə edirdi (4).

Gürcü çarı Georgi rus generalının bu şərti ilə razılaşmırdı. O qeyd edirdi ki, gürcü çarlığının düşmənləri güclü olduğu, çarlığın özünü daxilində də düşmənlərin çox olduğu üçün 3 minlik qoşun dəstəsinin kifayət etmədiyini və 6 min nəfərlik qoşun dəstəsinin göndərilməsinin zəruriliyini vurğulayırdı. Bu baxımdan general Qulyakovun rəhbərliyi altında olan hərbi qüvvənin Tiflisə gəlməsi gürcü çarının böyük sevincinə səbəb oldu və hərbi qüvvənin qarşılanmasında özü də iştirak etdi (5).

Gürcü elçiliyinin Rusiyaya birləşmək üçün Rusiya Xarici İşlər Nazirliyinə təqdim etdiyi notada gürcü tərəfi əslində 8 min nəfərlik qoşun dəstəsinin göndərilməsini təkid edirdi. Rusiya çarı və sarayı tərəfindən gürcü çarlığına göndərilən nota müsbət qarşılandı. Çünki gürcü çarlığının notası əslində Rusiyanın Cənubi Qafqaz siyasətinin həyata keçirilməsinə münasib zəmin yaradırdı. 1800-cü ilin noyabrında artıq Rusiya çarının da Gürcüstanın birləşdirilməsinə razılıq verdiyi məlum oldu. Lakin qərara alındı ki, gürcü elçiləri yenidən geri göndərilsin, Rusiya çarının razılıq xəbəri gürcü çarına və gürcü xalqına çatdırılsın, gürcü çarından bir daha onun Rusiyaya birləşmək niyyətində olub-olmadığı soruşulsun. Gürcü çarı Georgi bu istəyində qaldığı təqdirdə Rusiya çarına təşəkkür məktubu yazmalı və Gürcüstanın Rusiyaya birləşdirilməsi üçün sənədi imzalayacaq səlahiyyətli şəxsin adını açıqlamalı idi. Rusiya sarayı tərəfindən eyni zamanda general-leytenant Knorrinqə sorğu göndərildi ki, Gürcüstana əlavə olaraq daha nə qədər hərbi qüvvə göndərmək olar. Bu zaman general Knorrinq elə etməli idi ki, Şimali Qafqazın müdafiəsi zəifləməsin (6).

Rusiya sarayı gürcü çarının səhhətinin ümidverici olmadığı üçün birləşmə prosesinin tezliklə başa çatdırılmasına çalışırdı. Bunun üçün general-leytenant Knorrinqə göndərilən məktublarda vurğulandı ki, gürcü çarı gözlənildiyindən qabaq dünyasını dəyişməli olarsa taxt-tacın yeni sahiblərinin Rusiyanın razılığı olmadan təyin edilməsinə icazə verilməsin.

Gürcüstanda Rusiya hakimiyyətinin əsaslı şəkildə bərqərar olması üçün isə Rusiya çarı general Knorrinqə əlavə olaraq ora bir draqun alayının və 3 piyada alayının göndərilməsi haqqında göstəriş verdi. General Knorrinq yeni hərbi hissələrlə ya özü Gürcüstana getməli, ya da onun təyin etdiyi generallardan biri bu hissələrə ümumi rəhbərlik etməli idi. General Knorrinq də Rusiya çarından aldığı göstərişin icrası istiqamətində Gürcüstana əlavə hərbi qüvvələrin göndərilməsinə əmr verdi. Həmin əmrə əsasən, Portnyaginin rəhbərliyi altında olan draqun alayı, Tuçkovun rəhbərliyi altında olan qrenadyor alayı, bir muşketyor alayı öz topları ilə, 5-ci topçu alayının 4 ədəd topu, Gürcüstana yollanmalı idi. Bu qüvvələrin təyinat yerinə çatmasından sonra Gürcüstanda 8 piyada taboru, 10 süvari eskadronu, 4 ədəd batareya topu, 15 ədəd səhra topu və bir bölük kazak olmalı idi (7).

Görünür, gürcü çarı Georginin səhhəti ilə bağlı alınan həyəcanlı xəbərlər Rusiya çarını gürcü elçiliyinin geri gəlib çatmasını gözləmədən birləşmə haqqında manifesti imzalamağa sövq etdi. Gürcü çarı Georginin ölümündən sonra taxt-tac uğrunda başlana biləcək daxili çəkişmələr Gürcüstanla bağlı prosesləri başqa istiqamətə yönəldə bilərdi. Belə bir arzu olunmaz vəziyyətlə qarşılaşmamaq üçün Rusiya çarı II Pavel 1800-cü il dekabr ayının 18-də Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzaladı. Manifest dərhal general Knorrinqə göndərildi və ona çatdırıldı ki, gürcü çarı dünyasını dəyişərsə həmin manifest ictimaiyyətə çatdırılsın. Georginin ömrünün uzanacağı təqdirdə isə manifestin açıqlanması gürcü elçiliyinin Peterburqan qayıtmasına kimi təxirə salınmalı idi (8).

Gürcü çarı dünyasını Rusiya sarayında ehtimal ediləndən daha tez, yəni 1800-cü il dekabr ayının 28-də dəyişdi. Həmin vaxt birləşmə haqqında manifest hələ general Knorrinqin əlinə çatmamışdı. Bu manifest yetişəndə isə onun ictimailəşdirilməsi ilə bağlı general Knorrinq yenidən Rusiya çarına müraciət etməyi qərara aldı. Əslində Rusiya sarayı belə planlaşdırırdı ki, birləşmə barəsindəki manifest gürcü çarının özü tərəfindən səsləndirilsin. Gürcü çarının ölümü isə Rusiya sarayını yeni qərar qəbul etməyə vadar edirdi. Gürcü çarının dünyasını dəyişməsi barədə xəbər alınan kimi 1801-ci il yanvar ayının 18-də Rusiya çarının Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifesti elan olundu. Bu manifest 18 dekabr 1800-cü ildə imzalanmış manifest idi. Onun rəsmi elan edilməsi 1801-ci il yanvar ayının 18-də baş verdiyi üçün həmin tarixli manifest kimi tanındı (9).

18 yanvar 1801-ci il tarixli manifestdə də deyilirdi ki, uzun illərdən bəri gürcü çarı başqa dinə mənsub qonşuları tərəfindən incidilirdi, çarlığın müdafiəsi bütün qüvvələri özünə cəlb edirdi. Çar evi daxilində baş verən çəkişmələr də çarlıq üçün təhlükə yaradır və daxili müharibəyə yaxınlaşdırırdı. Gürcü çarı Georgi ömrünün az qaldığını hiss edərək tanın-

mış əyanlarla və gürcü xalqı ilə birlikdə bizim himayədarlığımızı almağa üz tutdular. Manifestdə yazılana görə, məhv olmaqdan və düşmən yürüşlərindən qorunmaq üçün Rusiya himayəsi gürcü çarlığı üçün yeganə çıxış yolu idi və gürcü çarlığının göndərdiyi elçilik vasitəsilə Rusiya taxt-tacına təbəəliyi qəbul etmək üçün müraciət edildi. Rusiya çarı bəyan edirdi ki, bu müraciəti və gürcü xalqına daimi qayğı göstərilməsini nəzərə alaraq çar Georginin və gürcü xalqının xahişini qəbul etməyi qərarlaşdırdıq, gürcü çarlığını qorumaq və onu xarici düşmənlərdən mühafizə etmək üçün qoşunlarımızın Gürcüstana yeridilməsini qəbul etdik. Sonra Rusiya çarı bu birləşmənin əbədi olacağını, gürcülərin haqlarının qorunacağını vəd edirdi. Manifestdə gürcü çarının təyin edilməsi səlahiyyəti Rusiya imperatoruna verildiyi bildirilirdi. Onun təyin etdiyi gürcü hakimi Gürcüstan çarı adını daşımaqla Rusiya imperatorunun canişini olmalı idi (10).

1801-ci il yanvar ayının 18-də, Gürcüstanın Rusiyaya birləşdirilməsi manifestinin elan edildiyi gün həmin manifestin icrası ilə bağlı Rusiya çarı general Knorrinqə də xüsusi təlimat imzaladı. Rusiya çarı tələb edirdi ki, Gürcüstanın daxilindəki vəziyyətin nəzarət altında saxlanmasına çalışsın və gürcü elçiliyinin yenidən Peterburqa göndərilməsini tezləşdirsin. Bu elçilik Gürcüstanın Rusiya tərkibinə girməsi üçün gürcü xalqı adından rus çarı qarşısında formal da olsa and qəbul etməli idi. General Knorrinq də bu tapşırığın icrası ilə bağlı Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifestin təntənəli şəkildə elan edilməsinin təşkilini general Lazarevə həvalə etmişdi. Qacar qoşunlarının Cənubi Qafqazı tərk etməsindən sonra Rusiyanın Gürcüstandakı səlahiyyətli nümayəndəsi Kovalenski də geri çağırıldı. Onun getməsindən sonra general-mayor Lazarev Rusiyanın Gürcüstandakı ən yüksək vəzifəli nümayəndəsi idi. Ona görə də nəzərdə tutulmuşdu ki, yeni şəraitdə Gürcüstanı yeni gürcü çarı general Lazarevlə birlikdə idarə edəcəkdir (11).

General Lazarev tərəfindən Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında çar manifestinin təntənəli şəkildə elan olunması fevral ayının 16-17-nə təyin olundu. Mərasimin təyin olunduğu Sion kilsəsinə gürcü taxt-tacının varisi David, şahzadələr, şahzadələrin uşaqları, gürcü əyanları, gürcü ictimaiyyətinin nümayəndələri və digərləri dəvət olunmuşdular. Mərasim mitropolit Arseninin duaları ilə başladı. Sonra Manifest həm rus dilində, həm də gürcü dilində oxundu. Bundan sonra mərasimdə general Lazarev çıxış etdi və bildirdi ki, bu Manifestin imzalanması Rusiya monarxının gürcülərə olan böyük səxavətinin nəticəsidir və buna görə də gürcülər ona minnətdar olmalı və onun sağlığına dua etməlidirlər. General Lazarevin ardınca isə gürcü patriarxı Antoni Rusiya imperatorunun şərəfinə dualar etdi.

Fevral ayının 17-də Manifestin elan olunması Tiflisdəki erməni kilsəsində davam etdirildi. Bunu rus tarixçiləri Tiflisdə ermənilərin sayının çoxluğu ilə bağlasalar da, onu həm də rusların Cənubi Qafqaz siyasətində ermənilərin əməllərinə verdikləri dəyər kimi də qiymətləndirmək olar. Gürcüstanın Rusiyaya birləşdirilməsini ermənilər gürcülərdən də artıq sevinclə qarşıladılar. Çünki bu Manifest Rusiyanı rəsmən Cənubi Qafqaza bağlayırdı. Rusiya sarayı Cənubi Qafqaz siyasətində xristian elementlərinə istinad edəcəyini heç də gizlətmirdi. Ermənilər ona sevinirdilər ki, Rusiya artıq birdəfəlik bölgəyə gəlmişdir və bu gəlişlə erməniləri ümidlərinin çin olması üçün real fürsət yaranmaqdadır.

Fevral ayının 17-də Tiflisin qədim hissəsində yerləşən erməni kilsəsində Manifestin erməni dilində oxunması icra edildi. Mərasimdə İosif Arqutinski də iştirak edirdi. Kilsədə dua mərasimi keçirildikdən sonra ermənilər bütün şəhəri keçməklə Tiflisin kənarında yerləşən Vəng erməni kilsəsinə doğru xaç yürüşü etdilər. Mərasimin önündə əllərində yandırılmış şamlar olan 74 nəfər ruhani iki sırada irəliləyirdilər. Onların arxasınca 8 arximandrit, onların arxasınca isə 3 dyakon gedirdi. Dyakonların biri böyük gümüş xaç, digər ikisi isə iki yandırılmış şam aparırdılar. Onlardan sonra sırada iki tanınmış erməni dayanmışdı. Onlar əllərində çar Pavelin portretini tutmuşdular. Sonra geyinib-bəzənmiş mitropolit addımlayırdı. Onun başında tutduğu gümüş podnosun içində Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında Manifest qoyulmuşdu. Erməni keşişi və ruhanilərinin sırasını Tiflis ermənilərinin arxiyepiskopu Sergey qapayırdı. O da əlində xaç tutmuşdu. Şəhər erməniləri isə onun ardınca addımlayırdılar. Qala darvazalarından çıxanda gürcü şahzadəsi David, general-mayor Lazarev, general-mayor Qulyakov və rus zabitləri bu mərasimə qoşuldular. İosif Arqutinski ətrafındakı dörd arxiyepiskop və dörd arxireylə birlikdə mərasim iştirakçılarını Vank kilsəsinin girəcəyində qarşıladı. O, Rusiya imperatorunun portreti qarşısına gəlib xaç çevirdi, sonra da portreti və Manifesti öpdü, çarın şərəfinə şüarlar səsləndirdi. Vank kilsəsi daxilində dua mərasimi keçirildi. Dua mərasimindən sonra İ.Arqutinski toplananlar qarşısında çıxış etdi, Rusiya çarının şərəfinə çoxlu təriflər söylədi, əhalini Rusiya çarına sədaqətli olmağa çağırdı. Erməni patriarxının çıxışından sonra Manifest bir daha rus, gürcü və erməni dillərində oxundu. Mərasimdən sonra kilsənin həyətində erməni patriarxı toplananlar üçün ziyafət verdi (12).

Erməni kilsəsindəki mərasimdən sonra da şəhər daxilində Manifestin oxunması davam etdirildi. Bu iş kapitan Taqanov adlı birisinə tapşırılmışdı. Onu müşayiət edən 21 kazakla birlikdə kapitan Taqanov Tiflisin küçələrini gəzir və Manifesti rus, gürcü, Azərbaycan və erməni dillərində səsləndirirdi. Bundan əlavə Manifestin gürcü dilindəki tərcüməsi səsləndirilmək üçün di-

gər yaşayış məntəqələrinə də göndərildi. Manifestin elan edilməsi münasibətilə şəhər kilsəsinin zəngləri bütün gün səsləndirildi, axşam küçələr xüsusi olaraq işıqlandırıldı, bazar və dükanlar gözəgəlimli mallarla bəzədildi (13).

Bununla, Gürcüstanın Rusiyaya birləşdirilməsi istiqamətində ciddi əməli addım atılmalı oldu. Rusiya sarayının nümayəndələrinin fikrincə, Gürcüstanın birləşdirilməsi Rusiyaya Osmanlı Türkiyəsini təhdid etmək imkanı yaradırdı. Bundan əlavə ümid edilirdi ki, Gürcüstanın Rusiyaya birləşdirilməsi Xəzərsahili Azərbaycan xanlıqlarının da Rusiyaya birləşdirilməsinə yol açacaqdır (14). Başqa sözlə, Gürcüstanın ərazisi Azərbaycan xanlıqlarının işğalı üçün ilkin addım və gərəkli baza kimi qəbul edilirdi.

Rusiyaya birləşdiriləndən sonra Gürcüstan bu dövlətin qubernatorluqlarından birini təşkil etməli idi. Bu quberniyanın şimal sərhədi Qafqaz dağlarından keçirdi. Qərbdə Gürcüstan İmeretiya və Axalsıx paşalığı ilə ayrılırdı və sərhəd Ağbabaya kimi uzanırdı. Eyni zamanda qərbdə Gürcüstan Qars paşalığı və İrəvan xanlığı ilə həmsərhəd idi. Qars paşalığından onu Arpaçay, İrəvan xanlığından isə Göyçə mahalı ayırırdı. Şərq tərəfdən isə Gürcüstan Gəncə xanlığı ilə və Car-Balakənlə həmsərhəd idi. Rusiyaya birləşdirilmiş Gürcüstanın tərkibində aşağıdakı vilayətlər var idi: Kartli, Kaxetiya, Samxetiya, Qazax, Şəmşəddil, Pəmbək, Şuragöl (15).

Başqa sözlə, Gürcüstanın birləşdirilməsi ilə Qazax, Şəmşəddil, Pəmbək və Şuragölün Azərbaycan torpaqları da Rusiyanın işğalı altına düşdü. Bununla eyni zamanda Azərbaycan torpaqlarının da Rusiya tərəfindən uzun müddətli işğalının başlanğıcını qoydu.

Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında Manifest çox böyük dəbdəbə ilə səsləndirilsə də və bunun gürcü xalqının istəyinin nəticəsi kimi təqdim olunmasına cəhd göstərilsə də, tezliklə gürcü şahzadəsi və əyanları bu birləşmənin işğaldan başqa bir şey olmadığını anladılar. Xüsusən, gürcü şahzadəsi David xüsusilə onun fəaliyyətinin tamamilə nəzarət altında saxlanması və hər bir qərarın rus generalı ilə razılaşdırılmalı olması ilə barışmadı. Rusların tələbinə əsasən gürcü çarı adi əmlak bölgüsü aparmaqdan belə məhrum edilmişdi. Rus generalları şahzadə Davidin Gürcüstanın taxt-tacına buraxılıb-buraxılmaması haqqında da uzun müddət düşünməli oldular. Çünki Davidin müstəqil olmaq, müstəqil fəaliyyət göstərmək meylləri rus generallarının təşvişinə səbəb olurdu. Davidin tərəfdarlarını öz ətrafına toplamağa çalışması, onları müxtəlif əmlak hədiyyələri ilə şirnikləndirməsi də rus generallarının ürəyincə deyildi. Bu isə şahzadə Davidlə general Lazarev və general Knorrinq arasındakı narazılıqların yaranmasına yol açdı.

Rusiya taxt-tacına sahib olan I Aleksandrın hakimiyyətinin ilk illərində Gürcüstanın Rusiyaya birləşdirilməsi məsələsinə bir daha müraciət

edildi. Birləşmə aktının imzalanması üçün Tiflisdən göndərilən gürcü elçiliyi də Rusiya paytaxtına artıq I Aleksandrın taxt-taca çıxmasından sonra yetişdi. Gürcü elçiliyi Peterburqa yetişəndən sonra gürcü xalqı adından könüllü surətdə Rusiyaya birləşmək üçün Rusiya Xarici İşlər Nazirliyinə nota təqdim olundu. Notada xahiş olunurdu ki, Rusiya çarı gürcü vəliəhdlərindən birini çar hüququnda Rusiyanın Gürcüstan canişini təyin etsin. Rusiyanın yeni imperatoru Gürcüstanın birləşdirilməsi ilə bağlı məsələ haqqında qərar çıxarılmasını yenicə yaradılmaqda olan Dövlət Şurasına həvalə etdi. Məsələ Rusiya Dövlət Şurasında da baxıldı və Gürcüstanın Rusiya tərkibində saxlanılmasını məqsədəuyğun saydı. I Aleksandr bu qərarla razılaşdı və məsələni baxılması üçün yenidən Dövlət Şurasına qaytardı (16).

I Aleksandrın Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə bağlı bu ilkin mövqeyinin əsas səbəbinin nədən ibarət olmasını söyləmək çətindir. Bu heç də yəqin ki, gürcü xalqının hüquqlarının tapdalanmasının, Gürcüstan ərazilərinin işğal altına düşməsinin qarşısının alınması istəyi ilə bağlı deyildi. Çünki Cənubi Qafqazın işğalının uzun bir dövrü I Aleksandrın hakimiyyət illər ilə bağlıdır. I Aleksandrın belə bir mövqedə dayanması çox güman ki, hakimiyyətinin ilk günlərində özündən əvvəlki rus çarının fəaliyyətinin təftiş edilməsi istəyi ilə bağlı idi. Belə bir mövqe eyni zamanda bölgə dövlətlərinin Rusiyanın işğalçılıq siyasətinə göstərə biləcəyi reaksiyaya qarşı ehtiyatdan doğa bilərdi. İstənilən halda Rusiya Dövlət Şurası ikinci dəfə də Gürcüstanın Rusiyaya birləşdirilməsini məqsədəuyğun saydı.

Rusiya Dövlət Şurasının Gürcüstanla bağlı qəbul etdiyi qərarda deyilirdi: 1) Gürcüstanda olan bütün rus hərbi qüvvələri orada saxlanılsın; 2) Gürcüstanda müvəqqəti rus idarəçiliyi yaradılsın, Gürcüstan ərazisi 7 qəzaya bölünsün və Gürcüstanın idarə olunması üçün ora qubernator göndərilsin (17).

Dövlət Şurasının bu qərarından sonra I Aleksandr 1801-ci il aprel ayının 19-da general-leytenant Knorrinqə məktub göndərdi. Bu məktubda Rusiya sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi baxımından Gürcüstanın Rusiyaya birləşdirilməsini faydalı sayırdı. Bununla belə, rus çarı bu məsələyə ehtiyatla yanaşacağını yazır və general Knorrinqə tapşırırdı ki, özü şəxsən Gürcüstana yollansın, gürcü əhalisinin Rusiyaya birləşməyə münasibətini və gürcü çarlığının vəziyyətini öyrənsin. General Knorrinqin birləşdirməyə münasibəti müsbət olacağı təqdirdə o, Gürcüstanın idarəçiliyinin əsaslarını hazırlamalı idi (18).

General Knorrinq Gürcüstandakı vəziyyətlə tanışlıqdan sonra Peterburqa yollanmalı, lazım olan məlumatları rus çarına məruzə etməli və bundan sonra Rusiya sarayı Gürcüstanın Rusiyaya birləşdirilməsi üçün

rəsmi qərar qəbul etməli idi. Gürcü taxt-tacına kimin gətiriləcəyi də bundan sonra bəlli ola bilərdi.

Baxmayaraq ki, general Knorrinqin Gürcüstana gəldiyi zaman orada daxili vəziyyət kifayət qədər sabit deyildi, bununla belə rus generalı gürcü xalqının Rusiyaya birləşməsi qənaətinə gəldi. Çar Georginin ölümündən sonra gürcü taxt-tacının taleyinin qeyri-müəyyən qalması, rus generallarının isə diqtə etmək niyyətləri gürcü çar ailəsi və çoxsaylı kütlələr tərəfindən narazılıqla qarşılandı. Gürcü şahzadəsinin iradə nümayiş etdirməsi isə rus hərbçilərini və o cümlədən də Knorrinqi qane etmirdi. General Knorrinq öz əvvəlki mövqeyinin doğruluğunu yeni müşahidələri əsasında təzələdikdən sonra Peterburqa yollandı və öz qənaətini Rusiya sarayına çatdırdı. O, Gürcüstanın Rusiyaya birləşdirilməsində israr etdi. General Knorrinqin təqdim etdiyi məruzədən sonra Rusiyanın Dövlət Şurası 1801-ci il avqust ayının 8-də Gürcüstan məsələsini yenidən müzakirəyə çıxardı. Müəyyən müzakirələrdən sonra Dövlət Şurası bu dəfə də Gürcüstanın Rusiyaya birləşdirilməsinə tərəfdar çıxdı. Dövlət Şurası gürcü çarlığına iddialı olan çar ailəsinin üzvləri haqqında da qərar çıxardı. Qərarda deyilirdi ki, çar ailəsi üzvlərindən hansılarının ki, fəaliyyəti şübhə doğurmur, onlar Gürcüstanda saxlanılsınlar. Qalanları isə Rusiya ərazisinə köçürülsünlər.

Başqa sözlə, Gürcüstanın işğalına etiraz edə biləcək çar ailə üzvləri Rusiyaya sürgün edilməli və Rusiya işğalına etiraz etməyənlər Gürcüstan ərazisində saxlanılmalı idilər. Rusiya çarı I Aleksandr Dövlət Şurasının bu qərarına etiraz etmədi. Çarın əmri ilə general-leytenant Knorrinq Rusiya qoşunlarının Qafqaz xəttinin komandanı saxlanılmaqla bərabər, həm də Gürcüstandakı rus qoşunlarının baş komandanı vəzifəsinə təyin edildi. Knorrinqin şəxsində həm mülki, həm də hərbi hakimiyyət birləşdirilirdi. Rusiya imperatorunun tapşırığına əsasən, general Knorrinq Gürcüstanı kənar hücumlardan qorumaqla yanaşı İrəvan, Gəncə, Şəki, Şamaxı, Bakı xanlıqlarını da Rusiyaya tərəf meyllәndirməyə çalışmalı idi.

1801-ci il sentyabr ayının 12-də Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə bağlı növbəti çar Manifesti imzalandı. Bu Manifestlə yeni Rusiya çarı I Aleksandr Gürcüstanın Rusiyaya birləşdirilməsini təsdiqlədi. Manifestin əvvəlində ötəri də olsa Rusiyanın Cənubi Qafqazla bağlı siyasətinə, çariça II Yekaterinanın hakimiyyəti illərində rus qoşunlarının Cənubi Qafqaza çıxarılmasına, Xəzər dənizi sahillərindən başlayaraq Kür və Araz çayları sahillərinə kimi ərazilərin rusların əlinə keçməsinə və guya bununla yerli xalqların təhlükədən nicat tapmasına toxunulurdu. Bundan sonra rus qoşunlarının geri çəkilməsi ilə yerli xalqların ümidlərinin puça çıxarıldığı bildirilirdi. Guya sonradan xalq yenidən çətinliklərə məruz qaldı, xarici düşmənlərin yürüşləri şəhərləri və kəndləri viran qoydu, insanlar əsir götü-

rüldülər. Manifestdə eyni zamanda gürcü çarlığının çar ailəsi arasında çəkişmələrin olması da xatırlanır. Manifestdə yazılana görə, belə bir şəraitdə ətrafda yaşayan vəhşi xalqlar hücum edərək gürcü çarlığını parçalamağa hazır idilər. Belə vəziyyətə düşdüyü üçün də gürcü xalqı dəfələrlə nicat üçün Rusiyaya müraciət etdi. O da bildirilirdi ki, rus qoşunlarının gəlməsi gürcülərin qırılmasının qarşısını aldı. Rusiya çarı bəyan edirdi ki, taxt-taca çıxanda Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında 18 yanvar 1801-ci il tarixli Manifest mövcud idi. Bununla belə, Rusiya himayəsi altında gürcü çarlığının qorunub saxlanması məsələsi araşdırıldı. Rusiya çarı bəyan edirdi ki, Gürcüstanın daxili və xarici təhdidlərdən qorunması yolu Gürcüstanın Rusiyaya birləşdirilməsidir. Rusiya çarı Gürcüstanda ədalətli hakimiyyətin qurulacağını vəd edir və gürcü xalqından da Rusiyaya sədaqətli qalmaq barəsində and içilməsi tələb olunurdu (20).

Manifestin ardınca Rusiya çarı I Aleksandr Gürcüstandakı rus qoşunlarının baş komandanı Knorrinqə təlimat da imzaladı. 12 sentyabr 1801-ci il tarixli həmin təlimatda Gürcüstanda idarəçiliyin qurulması ilə bağlı rus çarı öz göstərişlərini verdi. Gürcüstanın idarəçiliyi ilə bağlı 1801-ci il sentyabrın 12-də imzalanan başqa bir sənəddə bildirlirdi ki, Gürcüstan beş qəzaya bölünsün. Qazax, Pəmbək və Borçalıda yaşayan azərbaycanlıların idarəsinin təşkili ilə bağlı bildirilirdi ki, bu məntəqələrin hər birinə pristav və ya kovxa gürcü knyazları arasından təyin edilsin (21).

Manifest və çar təlimatlarının ardınca da Gürcüstanın idarəçiliyinin yenidən qurulmasına və Rusiya hakimiyyətinin Gürcüstanda möhkəmləndirilməsinə başlandı.

### *2.Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra bölgədə hərbi-siyasi şərait*

Gürcüstanın Rusiyaya birləşdirilməsi adı altında uzun müzakirələrə səbəb olan və gürcü xalqına yüksək qayğının nişanəsi kimi təqdim edilən Manifest Gürcüstanın Rusiya tərəfindən işğalının hüquqi-siyasi əsasını qoydu. Gürcüstanda milli hakimiyyət aradan qaldırıldı, Gürcüstanda ruslaşdırılmış idarəçilik sistemi quruldu, hakimiyyət rus hərbçilərinin əlinə keçdi, Qacarlar təhlükəsindən sığortalanmaq üçün Rusiyanın yardımına arxalanmaq yolunu tutan gürcü çarlığı sonda milli hakimiyyətdən məhrum oldu. Hakimiyyətin ruslara verilməsi isə Gürcüstanın daxilində birmənalı qarşılanmadı. Gürcü çar ailəsi gürcü çarlığının tərəfində olan dairələrin narazılıqları kifayət qədər genişləndi və rus hərbçiləri bu narazılıqların qarşısının alınması üçün ciddi fəaliyyət göstərmək məcburiyyətində qaldılar.

Gürcüstanın tərkibində işğal edilmiş Azərbaycan ərazilərində də rus ağalığı birmənalı şəkildə qarşılanmadı. İstər Pəmbəkdə, istərsə də Şəmşəddildə yerli xalq narazılıqları o həddə çatdı ki, onların qarşısının alınması üçün rus hərbi komandanlığı adları çəkilən məntəqələrə hərbi qüvvə yeritmək məcburiyyətində belə qaldı.

Pəmbək mahalının əhalisi Rusiya tərəfindən işğal olunmaları ilə barışmayaraq İrəvan xanı Məhəmməd xana müraciət edib ondan kömək istədilər. Bölgənin işğal altına düşməsi Məhəmməd xanı da razı salmamışdı. Lakin Məhəmməd xanın hərbi gücü o səviyyədə deyildi ki, Gürcüstandakı rus qoşunlarına qarşı çıxa bilsin. Rusiyanın Gürcüstandakı hakimiyyət orqanlarının təyin etdiyi yerli hakimlərin özbaşınalıqlarından narazılıqları daha da artan Pəmbək əhalisinə kömək göstərilməsi üçün İrəvan xanı Məhəmməd xan mahala 400 nəfərlik bir silahlı dəstə göndərdi. Bu dəstənin köməyi ilə İrəvan xanlığı ərazisində yaşamağa razı olan 6 min Pəmbək əhalisi xanlıq ərazisinə köçürüldü (22).

Tarixi mənbələrdə olan məlumatlara görə Rusiya qoşunları Qafqaz xəttinin komandanı K.F.Knorrinq və onun ətrafındakılar Məhəmməd xana da Rusiya təbəəliyini qəbul etdirmək üçün çox cəhd göstərdilər. Amma onların bu cəhdləri heç bir nəticə vermədi. Mənbələrin şəhadətinə görə həm Məhəmməd xan, həm də Naxçıvan xanı Kəlbəli xan bütünlüklə müsəlmanların xristian ağalığı altında olmasını qəbul edilməz sayırdılar. Onlar bu istiqamətdə də fəaliyyətlərini qurmaq üçün gürcü vəliəhdi Aleksandrla (İsgəndər Mirzə) əlaqə yaratdılar və onun vasitəsi ilə Pəmbək mahalının rus ağalığı altından çıxarılmasına çalışdılar (23).

Rus generalı Lazarev rus qoşunları Qafqaz xəttinin komandanı general-leytenant K.F.Knorrinqə yazdığı raportunda Pəmbək ağalarının və əhalisinin Məhəmməd xanla Kəlbəli xana pənah aparmalarını çarizmin Gürcüstanda möhkəmlənməsinə qarşı yönəldilmiş hərəkəti kimi qiymətləndirir və bu meylin qarşısının alınmasını təklif edirdi (24).

General Lazarev bu hadisələrlə bağlı Məhəmməd xana da hədələyici bir məktub göndərərək onu Rusiyanın mənafeyi ilə səsləşməyən əməllərindən əl çəkməyə çağırdı, Pəmbək əhalisinə əl uzatmaqdan imtina etməyi tələb etdi. Ancaq bu tələblərin Məhəmməd xana təsir etməyəcəyini əvvəlcədən bilən Lazarev 1801-ci il iyun ayının 30-da yeger alayının bir taboru, muşketyor alayının bir taboru, 100 kazak və 500-ə qədər gürcü silahlısı və 18 ədəd topla Pəmbək vilayətinə istiqamət götürdü (25).

Rus qoşunlarının Tiflisdən hərəkət etməsi xəbəri Pəmbəyin azərbaycanlı əhalisini daha ciddi təşvişə saldı. Onların İrəvan xanlığı ərazisinə köçməsi gücləndi. Camaat, hətta ruslara qarşı köməyin artırılması üçün hədiyyə olaraq Kəlbəli xana iki cins at da göndərdi. (26).

Məhəmməd xan Pəmbək vilayətinin rus təcavüzündən qorunması üçün xüsusi bir müşavirə çağırtdırdı. Həmin müşavirədə Kəlbəli xanla bərabər İrəvan xanlığının nüfuzlu əyanları iştirak edirdilər. Müşavirənin qərarı belə oldu ki, xristianların Pəmbək vilayətində müsəlmanların üzərində ağalığına dözmək olmaz və ona görə də bu vilayətin yad məzhəb üzvlərinin hakimiyyəti altına düşməməsi üçün lazımi və təcili tədbirlər həyata keçirilməlidir. Müşavirədə o da qərara alındı ki, xanlıq ərazisində əlavə qoşun hissələri toplansın və Pəmbək vilayətinə göndərilsin (27).

Qoşun yığmaqla bərabər, Məhəmməd xan eyni zamanda danışıqlar yolu ilə də rus zabitlərini təcavüzkar planlarını həyata keçirməkdən çəkindirməyə çalışırdı. O öz nümayəndələrini Lazarevin yanına göndərib nəzərinə çatdırdı ki, Pəmbək vilayəti Ağa Məhəmməd şah tərəfindən 1795-ci ildə İrəvan xanına bağışlanmışdır. İrəvan xanlığının Rusiyanın təbəəliyini qəbul etməyə hazırlaşdığı halda onun tərkibinə daxil olan vilayətin zorla ondan qoparılmasına cəhd göstərilməsi heç də İrəvan xanlığı ilə Rusiya arasındakı münasibətlərin yaxşılaşmasına xidmət etmir, Pəmbək vilayətindənsə bütün İrəvan xanlığı ilə münasibətlər yaratmaq Rusiya üçün daha xeyirlidir və ona görə də təklif edirdi ki, Pəmbək vilayəti üzərinə planlaşdırılan hücumdan əl çəksin (28).

Lazarev çox güman ki, Məhəmməd xanın bu təklifinə inanmadı və ona görə də Pəmbək çayı yaxınlığında düşərgə salaraq bir neçə dəfə vilayəti tərk etmiş Pəmbək əhalisinə geri qayıtmaq təklifi ilə müraciət etdi. 1801-ci il iyul ayının 26-da Pəmbək ağalarına göndərdiyi məktubda Lazarev bildirirdi ki, əgər onlar xoşluqla geri qayıtmasalar, onda qoşunla İrəvan xanlığı ərazisinə keçib onları zorla geri qaytaracaqlar (29).

Lazarev İrəvan sərhədinə qədər hərəkət etməklə Məhəmməd xanın yanına da öz nümayəndəsini göndərdi və ondan Pəmbək əhalisinin geri qaytarılması üçün şərait yaradılmasını tələb etdi. Çıxılmaz vəziyyətdə qalan Pəmbək əhalisi geri qayıtmaq məcburiyyətində qaldı (30). Lakin rus generalları Pəmbək əhalisinin narazılıqlarının heç də bitmədiyini yaxşı bilirdilər. Bu narazılıqların müəyyən vaxtdan sonra yenidən güclənməsinə yol verməmək üçün general-leytenant K.F.Knorrinq çar I Aleksandra raport yazaraq rus qoşunlarının bir dəstəsinin Pəmbək mahalında saxlanmasına icazə verilməsini xahiş etdi.

Şəmşəddil əhalisi də rus işğalına qarşı eyni narazılıqla etiraz etdi. Bu mahalın yenidən Gəncə xanlığının tərkibinə verilməsi üçün Cavad xan Gürcüstanın Rusiyaya birləşdirilməsindən əvvəl də ciddi-cəhdlə çalışırdı. Gürcü çarı XI Georgi bu mahalı geri qaytarmağa söz versə də (31) rus işğalına qədər buna nail olunmadı.

XII Georginin ölümündən sonra Şəmşəddilin dinc yolla geri alınması mümkün olmadıqda Cavad xan silaha əl atmalı oldu. Çünki yeni şəraitdə rusların Gürcüstanda hakim qüvvəyə çevrildiyi bir vaxtda Şəmşəddilin geri alınması xüsusilə çətinləşdi. Mənbələrdə olan məlumatlara görə, Cavad xan XII Georginin ölümündən dərhal sonra Şəmşəddilin geri qaytarılması üçün qətiyyətli addımlar atmağa başladı. Bununla bağlı, 1800-cü ilin ilk günlərində general Lazarev general Knorrinqə yazdığı raportunda məlumat verirdi. Raportdan görünür ki, Cavad xan Şəmşəddil əhalisi ilə sıx əlaqə saxlayırdı (32).

Mövcud faktlar onu deməyə əsas verir ki, Cavad xanın Şəmşəddillə bağlı fəaliyyəti yerli əhali tərəfindən də dəstəklənirdi. Çünki çoxlu sayda Şəmşəddil əhalisi mahalda baş verən özbaşınalıqlara və qanunsuzluqlara dözməyərək Gəncə xanlığı ərazisinə köçmüşdülər (33).

1801-ci ilin əvvəllərindən Cavad xanın Şəmşəddillə bağlı fəaliyyətində fəallıq genişlənməkdə idi. Bu fəallıq rus generallarının yazışmalarında da duyulmaqdadır. Cavad xanın ara bir baş verən yürüşləri ilə sözsüz ki, Şəmşəddilin artıq rusların əlinə keçmiş olan Gürcüstandan qoparılması mümkün deyildi. Rus generallarının yazışmalarından görünür ki, bu yürüşlər zamanı bəzi şəxslərə əmlak itkiləri yetirilirdi. Çox güman ki, bu şəxslər öz mövqelərini qoruyub saxlamaq naminə rus hərbi komandanlığı ilə əməkdaşlığa gedən şəxslər idi. Bununla bağlı, general-mayor Lazarev general-leytenant Knorrinqə yazırdı ki, Cavad xan Şəmşəddilə yürüşlərini davam etdirməkdədir. Bu yürüşlər rus hərbi komandanlığını ciddi təşvişə salmışdı və ona görə general Knorrinqdən kömək istənilirdi (34).

Bu köməyin əvəzi kimi general Knorrinq də Cavad xana məktub göndərdi. Rus generalı Cavad xanın nəzərinə çatdırırdı ki, ümumxalq istəyinə əsasən, Gürcüstan Rusiyaya birləşdirilmişdir və o özü isə Rusiyanın bölgədəki yüksək rütbəli nümayəndəsidir. Knorrinqə görə, Şəmşəddil mahalından aparılmış olan əmlak Rusiya imperatoruna məxsus olan əmlakdır. Ona görə Knorrinq xahiş edirdi ki, həmin əmlakın qaytarılması üçün Cavad xan müvafiq şəxslərə göstəriş versin. Məsələ ilə bağlı yenidən Gürcüstana qaytarılmış olan Rusiyanın səlahiyyətli nümayəndəsi Kovalenski də Cavad xana oxşar məktub göndərdi (35).

Cavad xan onların hər ikisinə cavab yazdı və öz mövqeyini bir daha onlara aydınlaşdırmağa çalışdı. Cavad xanı qətiyyətli mövqeyindən çəkindirməyin çətin olacağını görəndə general Knorrinq bölgədə rus qoşunlarının yerləşdirilməsinə əl atdı. Gürcüstandakı rus qoşunları rəhbəri general-mayor Lazarevə göndərdiyi məktubunda general Knorrinq yazırdı ki, Borçalı və Şəmşəddildə lazımi sayda hərbi qüvvə yerləşdirilsin və bu hərbi qüvvənin köməyi ilə Cavad xanın təzyiqlərinin qarşısı alınsın. General

Knorrinqə görə, bu ölgədə iki ədəd topla birlikdə 4 muşketyor bölüyünün və 4 qrenadyor bölüyünün yerləşdirilməsi yaxşı olardı. General Knorrinq onu da əlavə edirdi ki, Gürcüstana əlavə hərbi qüvvələr gəldikdən sonra Gəncə istiqamətinin və ləzgilərin yürüşlərinin baş verdiyi istiqamətin hərbi müdafiəsi daha yaxşı təşkil edilməlidir (36).

Rusiya imperatoru I Aleksandrın tapşırığı əsasında general-leytenant Knorrinq 1801-ci ilin mayında Tiflisə gələndə Cavad xan öz nümayəndəsini onun yanına göndərdi, Şəmşəddil mahalının Gəncəyə məxsus olması, Şəmşəddil mahalı ilə bağlı planları haqqında ona məlumat çatdırdı (37). Cavad xan bölgəyə gəlmiş olan rus generalının Şəmşəddillə bağlı məsələnin həllinə cəhd göstərəcəyinə ümid etsə də bu baş vermədi. Əksinə, general Knorrinq bölgədən getməyə macal tapmamış Şəmşəddilə rus qoşun dəstəsi yeridildi. Kazaklardan ibarət olan bu qoşun dəstəsinə knyaz Solomon Avalov başçılıq edirdi (38).

Görünür, Şəmşəddilə rus qolun dəstəsinin yerləşdirilməsi rus işğalına qarşı burada baş verən prosesləri bir qədər ləngitdi. Çünki mövcud olan tarixi faktlar Şəmşəddil ətrafındakı proseslərin yenidən fəallaşmasının 1802-ci ilin yaz-yayına təsadüf etdiyini göstərir. Gürcüstanın işğalının möhkəmləndirilməsi üçün rus generalları Şəmşəddildəki narazılıqların qarşısının alınmasına yeni bir cəhd göstərdilər. 1802-ci ilin mart ayının əvvəlində general-leytenant Knorrinq özü bölgə əhalisi ilə təmaslar qurmağa çalışdı. Lakin onun bu cəhdi uğurlu alınmadı və Borçalı və Qazax ağaları ilə aparılan danışıqlar gözlənilən nəticəni vermədi. Rus generalının bölgəyə səfərinin ardınca Cavad xan Şəmşəddilə silahlı dəstə göndərdi. Bu dəstəyə Cavad xanın oğlu Hüseynqulu xan rəhbərlik edirdi. Bu yürüş 1802-ci ilin aprel-may aylarında baş verdi. Yürüşdə məqsəd rus generalı ilə əməkdaşlıq edən yerli əyanları cəzalandırmaq və onların əmlakını əllərindən almaq idi. Yürüş zamanı xeyli sayda at və heyvan, habelə bir miqdar əhali Şəmşəddil mahalından çıxarıldı (39).

Cavad xanın yenidən Şəmşəddilə silahlı dəstə göndərməsini general Lazarev dərhal general Knorrinqə məruzə etdi. General Knorrinq məsələdən xəbərdar olandan sonra Cavad xana yenə məktub göndərdi. General Knorrinq yazırdı ki, Gəncə xanı ruslarla münasibətləri sahmana salınması mövqeyində olduğu halda onun oğlunun silahlı dəstə ilə Şəmşəddilə gəlməsindən təəccüblənmişdir. Ona görə general Knorrinq Şəmşəddil mahalına edilən yürüşlərə son qoyulmasına və Şəmşəddildən gətirilənlərin geri qaytarılmasına çağırırdı. O bildirirdi ki, tələbləri yerinə yetirilməsə, onda onları silah gücünə əldə etmək məcburiyyətində qalacaqdır (40).

General Knorrinqin məktubu Cavad xan tərəfindən çox ciddi şəkildə qarşılandı və həmin ciddiyətlə də ona cavab verdi. Gəncə xanı hər şeydən

əvvəl rus generalının tələbləri və iradları ilə razılaşmadı. Cavad xan bəyan edirdi ki, ərazilərin tutulması iki yolla baş verir – hüquqi yolla və güc tətbiq edilməsi yolu ilə. Hüquqi yolla Rusiyanın Şəmşəddil mahalına heç bir haqqı olmadığı bildirilirdi. Güc tətbiq olunmasına gəlincə isə Cavad xan son beş yüz il ərzində bu mahalın Gəncə xanlığına aid olduğunu, mahal ərazisində yaşayan əhalinin Gəncə xanına xidmət etdiyini söyləyirdi. Cavad xan həyatı boyu Şəmşəddil mahalından imtina etməyəcəyini bəyan edirdi. Şəmşəddilin Gəncə xanlığına məxsus olduğu halda rusların onun geri qaytarmaq istəməmələrinin düzgün olmadığını Cavad xan rus generalının diqqətinə çatdırırdı və onu da əlavə edirdi ki, əgər ruslar Şəmşəddilin mənsub olduğu bütün Gəncə xanlığına qarşı iddiadadırsa onda rusların məqsədinin mahiyyəti aydınlaşır (41).

Gəncə xanı Cavad xanın belə sərt mövqeyi general Knorrinqin istəklərinə uyğun deyildi və onu öz mövqeyindən daşındırmaq üçün 1802-ci il may ayının ikinci yarısında Cavad xanla fəal yazışmada oldu. Gəncə xanının nümayəndəsi Qurgin xan vasitəsilə general Knorrinq Şəmşəddil mahalının Ağa Məhəmməd şah tərəfindən Gəncə xanlığına hədiyyə edilməsinin mümkünlüyünü etiraf etdi. Lakin o, Qacar şahı tərəfindən belə bir qərar verilməsini qanuni hesab etmirdi. General Knorrinq Gürcüstanın Rusiyaya birləşdirildiyi zaman Şəmşəddilin Gürcüstan daxilində olmasına təkid edərək bildirirdi ki, Gürcüstanın sərhədləri Rusiya imperatorunun qayğısı altındadır və ona da sərhədlərin qorunması tapşırılmışdı. Rus generalı onu da bildirirdi ki, Gəncə xanının Şəmşəddilə olan iddiaları Rusiya imperatoruna məruzə olunacaqdır. Ona qədər isə Gəncə xanından xahiş olunurdu ki, Şəmşəddil ərazisində yürüşlər dayandırılsın. General Knorrinq söz verirdi ki, rus qoşunları tərəfindən Gəncə xanlığı ərazisində heç bir narahatçılıq yaradılmayacaqdır. Rus generalı Cavad xana rus çarının qəzəbindən uzaq olmağı arzulayırdı (32).

Görünür ki, general Knorrinq Gəncə xanının Şəmşəddil mahalına olan iddialarından əl çəkəcəyinə əmin deyildi. Ona görə də Cavad xanla yazışmaların davam etdiyi vaxtda, yəni 1802-ci il may ayının ortalarında o, general Lazarevə Şəmşəddil mahalına əlavə hərbi qüvvələrin göndərilməsini əmr etdi. General Lazarev 17-ci yeger alayının bir hissəsini və 2 ədəd topu dərhal Şəmşəddilə göndərməli idi. General Lazarev bu qüvvəni və Şəmşəddildə olan dəstəni mahal ərazisində yerləşdirməklə Gəncə xanlığından həyata keçirilən silahlı yürüşlərin qarşısını almalı idi. Bu əmrin icrası dərhal yerinə yetirildi və 1802-ci il may ayının 23-də yeni qüvvələr Şəmşəddilə yetişdi. Bu yeni qüvvə Şəmşəddilə yetişəndən sonra oradakı hərbi qüvvənin tərkibi belə oldu – general Lazarevin komandiri olduğu 17-ci yeger alayının 4 bölüyü, podpolkovnik Lyaxovun rəhbərliyi altında olan 3 bölük, Tiflis

muşketyor alayının bir bölüyü, 70 nəfər kazak və 3 ədəd top. Dəstənin tərkibində 24 nəfər zabit, 59 nəfər unter-zabit, 18 musiqiçi, 530 sıravi, 52 qeyri-nizami və 31 nəfər rekrut var idi (43).

Şəmşəddilə yetişən general Lazarev Gəncəyə aparan yolun üzərindəki Həsənsu çayının yaxınlığında, Göyçəli kəndi istiqamətində düşərgə saldı. Lakin burada düşərgədə dayanmaq təhlükəsiz deyildi. Ona görə mayın 25-də general Lazarev öz düşərgəsini Kür çayının sol sahilinə, Gəncəyə aparan yolun 15 verstliyində yerləşdirdi. Həmin düşərgə Şamxorun sərhədindən 36 verst aralı, Gəncədən isə 50-60 verst məsafədə idi. Gəncə xanlığı ərazisindən silahlı yürüş baş verəcəyi təqdirdə rus hərbi qüvvələri Şamxor yaxınlığında müqavimət təşkil edib gəncəlilərin Şəmşəddilə daxil olmasının qarşısını ala bilərdilər. General Lazarev general Knorrinqə göndərdiyi məktubunda bildirirdi ki, havaların istiləşməsi ilə əlaqədar olaraq Şəmşəddil və Qazax əhalisi yaylaqlara köçdüyündən kəndlər boşalmışdır. Ona görə də o, Gəncə xanlığından Şəmşəddil mahalına hər hansı bir yürüşün baş verəcəyini ehtimal etmirdi (44).

General Lazarev bir müddət bu düşərgədə dayandı və həmin müddət ərzində Gəncə xanlığı ərazisində hər hansı bir silahlı yürüşün olmadığını görəndə Borçalıya çəkilməyi qərara aldı. Buradan da general Tiflisə qayıtmalı idi. Bununla da Şəmşəddil mahalı ətrafında yenidən nisbi bir sakitlik yarandı.

Lakin bu nisbi sakitlik uzun sürmədi. 1802-ci ilin payızında Şəmşəddil mahalında və ətrafında vəziyyət yenidən gərginləşdi. Şəmşəddil mahalının əhalisinin ruslara qarşı barışmaz münasibəti rus hərbçilərinin təcavüzkarlığını daha da artırdı. 1802-ci ilin noyabrında Şəmşəddildəki rus hərbi qüvvələrinin yenidən möhkəmləndirilməsinə qərar verildi. General Knorrinqin əmrinə əsasən, 17-ci yeger alayının daha iki bölüyü bir top və 4 nəfər kazak Şəmnşədilə göndərildi. 1802-ci il dekabrın əvvəlində isə Tarxanov adlı birisi Şəmşəddilin yeni hakimi təyin edildi. Mahala yeni rus hakiminin təyin edilməsi isə yerli əhalinin qəzəbini daha da artırdı (45).

Güclənməkdə olan gərginliyin yaradacağı təhlükənin qarşısının alınması üzün general Lazarev yenidən Gəncə xanı ilə təmas qurmağa çalışdı. Əvəzində, Gəncə xanı Cavad xan öz nümayəndəsini general Lazarevin yanına göndərdi.

Cavad xan onun nəzərinə çatdırdı ki, ruslarla dinc qonşuluq münasibətində olmağa hazırdır. Lakin bu dinc münasibətləri ruslar pozmuşdur. Onlar Gəncə xanlığına məxsus olan Şəmşəddil mahalına gəlməklə buna səbəb olmuşlar. Cavad xan rusların tələbi ilə razılaşmadığını bildirir və Şəmşəddil mahalına haqlı iddiada olduğunu bir daha ortaya qoyurdu (46).

Belə bir gərginlik İrəvan xanlığı ilə sərhəddə də davam etməkdə idi. İrəvanla sərhəd bölgələrdə baş verə biləcək həyəcanların qarşısının alınması üçün Qarakilsədə bir muşketyor taboru, bir yeger bölüyü, artilleriya və bir dəstə kazak saxlanıldı. Bununla bərabər, Rusiya tərəfi bütünlükdə Qafqazda möhkəmlənmək üçün İrəvan xanlığını və digər xanlıqları özünə tərəf çəkməyə çalışırdı. Çar I Aleksandr K.F.Knorrinqə yolladığı göstərişində qeyd edirdi ki, bu məqsədlə ermənilərdən xüsusilə istifadə edilsin, Rusiyanın mənafelərinin qorunması naminə onlara hər cür nəvaziş göstərilsin, bölgədə daha fəal siyasət yeridilsin və Azərbaycan xanlıqları tezliklə nəzarətə alınsın (47).

Abbas Mirzənin İrəvandan Gürcüstan üzərinə baş tutmayan ilk hücumundan sonra Qacar sarayının bu istiqamətdəki fəallığı bir qədər zəifləsə də Cənubi Qafqazda möhkəmlənmək heç də Baba xanın diqqətindən qaçmamışdı və elə 1802-ci ilin əvvəllərində şah qoşunlarının hücuma hazırlaşması barədə xəbərlər yayılmağa başladı. İrəvan xanının aldığı dürüst məlumatları görə Gürcüstana hücum edəcək şah qoşunlarının bir hissəsi İrəvan qalasını mühasirəyə alıb orada şah sarayının nəzarəti altında olan hakimiyyətin yaranmasını təmin etməli idi.

İrəvan qalası üzərinə gedən qoşunlara Abbasqulu xan sərkərdəlik edirdi. O, hücumdan əvvəl İrəvan xanına şah sarayının tələblərinə tabe olmağı təklif etməli idi. Məhəmməd xan razılaşmadıqda Abbasqulu xan hücum edib qalanı tutmalı və bundan sonra Fətəli şah da ora gəlməli idi.

Bu xəbəri eşidən kimi Məhəmməd xan müdafiə hazırlığı görməyə başladı. O, ərzaq və sursat ehtiyatını artırdı. Qalanı işğaldan qorumaq üçün Məhəmməd xan rus generallarına müraciət edib onlardan kömək istədi. O özünü Rusiyaya meylli göstərməyə çalışsa da, əslində xanlığın müstəqilliyini heç də Rusiyaya qurban vermək fikrində deyildi. Rusiyanı şirnikləndirib İrəvan xanlığı ilə qarşılıqlı münasibətlərə cəlb etməklə Məhəmməd xan Qacar hakimlərini qorxutmaq və beləliklə də onların təhlükəsindən sovuşmaq istəyirdi. Sonradan da aydın oldu ki, Qacar təhlükəsi sovuşandan sonra Məhəmməd xan Rusiyanın asılılığını qəbul etmək təklifini rədd etdi. İrəvan ərazisində Rusiyanın xeyrinə casusluq edən erməni arxiyepiskopu Qriqori də təsdiq edirdi ki, Məhəmməd xan üzdə özünü Rusiya meylli saysa da, həqiqətdə isə Rusiyaya düşmən gözü ilə baxır. Arxiyepiskopun sözlərinə görə Kəlbəli xan tərəfindən dəstəklənən Məhəmməd xan Pəmbək mahalını da birdəfəlik Rusiya asılılığından çıxarmaq istəyirdi (48).

Məhəmməd xanın nümayəndəsi Tiflisdə Lazarevlə görüşüb xanın müraciətini ona açıqladı. Lazarev general-leytenant Knorrinqə müraciət edib Məhəmməd xanın təkliflərini ona çatdırdı. İrəvan xanının Rusiyaya tərəf meyl etməsi Knorrinqi hədsiz dərəcədə sevindirdi və bu barədə o,

imperatora məktub yazıb İrəvan xanının rus təbəəliyinə qəbul olunmasına icazə istədi.

Ancaq Knorrinq Fətəli şahın hücuma hazırlaşması xəbərindən böyük narahatçılıq keçirirdi. Böyük sayda şah qoşununun Gürcüstan üzərinə hücum etməsi buradakı rus qoşunlarını məhv etməklə bərabər, Rusiyanın Gürcüstandan sıxışdırılması ilə nəticələnə bilərdi. Ona görə də Knorrinq ixtiyarında olan qoşun hissələrinin döyüşə hazırlaşmasına göstəriş verdi. Eyni zamanda o, imperatora yazdığı məktubunda rus qoşun dəstələrinin İrəvan xanlığı ərazisinə yeridilməsinə icazə istədi. Rus generallarının fikrincə, İrəvan xanlığı Gürcüstan üçün təhlükəsizlik zolağı təşkil edirdi və şah qoşunları ilə müharibənin İrəvan xanlığı ərazisində aparılması Gürcüstanı həm dağılmaqdan qoruyar, həm də Rusiyanın buradakı nüfuzunu möhkəmləndirə bilərdi.

Bir müddətdən sonra məlum oldu ki, Baba xan İrəvana və Gürcüstana hücum etmək fikrindən əl çəkib. Mövcud olan məlumatlara görə, Baba xanın anası hələlik ruslarla müharibəni məsləhət görməyibmiş. Baba xan da anasının məsləhəti ilə razılaşaraq qoşunları geri çağırmaq barəsində əmr verib.

Şah qoşunlarının hücum təhlükəsi aradan qalxsa da rus generalları Məhəmməd xanın Rusiyaya meylliliyindən istifadə etməyə çalışırdılar. Onlar tezliklə saziş bağlanmasına cəhd göstərirdilər. Ancaq Məhəmməd xan heç də rus generallarının güman etdiyi mövqedə deyildi və şah sarayı tərəfindən təhlükə sovuşduqdan sonra onun ruslarla əlaqəsi də kəsildi. Belə olan təqdirdə general-leytenant Knorrinq özü Məhəmməd xana məktub yazdı və onu Rusiya himayəsini qəbul etməyə çağırdı (49).

Bir neçə gündən sonra Knorrinq imperatordan da məktub aldı. O da öz məktubunda İrəvanın Rusiyaya birləşdirilməsinə böyük əhəmiyyət verirdi. Ona görə də imperator Knorrinqə göstəriş verirdi ki, İrəvan xanlığını Rusiya himayəsinə gətirmək üçün təsirli yollar axtarsın və tezliklə buna nail olsun. İmperatorun fikrincə, İrəvan və Gəncə xanlıqlarının Rusiyaya birləşdirilməsi Gürcüstanın təhlükəsizliyini təmin edər və imperiyanın ərazilərinin genişlənməsinə səbəb ola bilərdi (50).

Məhəmməd xan isə nəinki bu təkliflərlə razılaşmadı, əksinə, Rusiyanın nəzarəti altında olan ərazilərə hücum etmək üçün hazırlıq görməyə başladı. Müəyyən hazırlıqdan sonra Şuragöl və Qars vilayətlərinə hücum etmək planlaşdırılmışdı. Qoşunlara Kəlbəli xan rəhbərlik edirdi. Hücumun uğurlu keçməsi üçün qoşunların tərkibinə ləzgi muzdluları da daxil edilmişdi. Gürcü vəliəhdi Aleksandr əlində olan vəsaitlə qoşunların təmin edilməsinə kömək edir və Şuragöllə Qarsın tutulmasından sonra Tiflis üzərinə hücum etmək barədə planlar qururdu.

İrəvan xanının qoşunları Pəmbək vilayəti sərhədinə çatandan sonra K.F.Knorrinq 1802-ci il may ayının 17-də Məhəmməd xana məktub yazaraq onu öz planlarından əl çəkməyə çağırdı. Knorrinqə görə, yaxın keçmişdə Rusiyanın himayəsini arzulayan Məhəmməd xanın Rusiyanın nəzarəti altında olan ərazilərə hücum etmək fikri imperatorun təhqir edilməsi, xanın özünün isə faciəsinin yaxınlaşdırılması demək idi.

İrəvan xanı bu hədələyici məktubdan nəinki çəkinmədi, əksinə, Kəlbəli xan Axalsıx mahalının paşası ilə əlaqə yaratdı və Qars vilayəti üzərinə birgə hücum etmək barədə razılığa gəlindi. Onların birləşmiş qoşunlarının sayı 12 min süvari, 2500 piyada və iki ədəd topdan ibarət idi.

Bu hücum hazırlığının Rusiyanın mövqelərinə ciddi zərbə vura biləcəyini və Qars paşasının kömək xahişlərini nəzərə alaraq Knorrinq Pəmbək vilayətində olan qoşun dəstələrinə sərhədə doğru irəliləmək və Kəlbəli xanın qoşunlarının hərəkətini nəzarət altında saxlamaq əmri verdi. Eyni zamanda Qars paşası Məhəmməd paşaya məktub göndərərək hücumu dəf etmək üçün hazırlıq görməyə və qüvvələrini rus qoşunlarına birləşdirməyə çağırdı (51).

General Knorrinq Kəlbəli xana da məktub göndərdi və onun hərbi hazırlığının məqsədini bilmək istədi. Kəlbəli xan isə cavab verdi ki, o, Gürcüstan sərhədinə yaxınlaşmır və ona görə də onun nə etdiyinin Rusiyaya heç bir dəxli yoxdur.

Kəlbəli xanın komandanlığı altında olan qoşunlar 1802-ci il may ayının 28-də Rusiyanın və Qars paşalığının birləşmiş qoşunları üzərinə hücum etdilər. İrəvan xanının süvariləri hərbi təşəbbüsü ələ alaraq Qars süvarilərini geri çəkilməyə məcbur etdilər. Lakin rus qoşunlarının ixtiyarında olan 6 ədəd topun aramsız atəşləri İrəvan qoşunlarının hərəkətlərini dayandırdı və onları geri çəkilməyə məcbur etdi. Döyüş elə həmin gün də başa çatdı.

Qars paşası Məhəmməd paşa 31 may 1802-ci il tarixli məktubunda böyük sevinclə general Knorrinqə bildirirdi ki, onların birgə qoşunu İrəvan xanının qoşununu məğlub edibdir. Bununla bərabər, Məhəmməd paşa İrəvan xanlığı tərəfindən yarana biləcək təhlükəni də rus generallarının nəzərinə çatdırdı. Gələcəkdə həmin təhlükənin qarşısının alınması üçün Məhəmməd paşa təklif etdi ki, İrəvan şəhəri işğal edilərək Rusiyanın tərkibinə qatılsın. Onun fikrincə, indiki vəziyyətdə İrəvan xanlığı zəifləmişdir və ona görə də Knorrinqə müraciətlə yazırdı ki, siz bizə azacıq qoşun verin və sonra da İrəvanı bizdən tələb edin (52).

Başqa bir məktubunda isə Məhəmməd paşa təkcə İrəvanı deyil, həm də Axalsıx paşalığının tutulmasını məqsədəuyğun bilirdi və məsləhət görürdü ki, fürsətdən istifadə edib İrəvan üzərinə hücuma keçsin. Özünə də

1000 kazak verilməsini istəyirdi ki, onlarla birlikdə özü Axalsıx paşalığını tuta bilsin (53).

Qars vilayəti üzərinə uğursuz hücumdan sonra həm Məhəmməd xan, həm də Kəlbəli xan general-leytenant Knorrinqə məktub yazdılar və Rusiya ilə xoşməramlı əlaqələrin kəsilməsinə tərəfdar olmadıqlarını bildirdilər (54).

Məhəmməd xan eyni zamanda Qars paşası Məhəmməd paşaya da məktub yazdı və onu barışığa çağırdı. Məhəmməd paşa isə Məhəmməd xanın məktubunu gətirmiş Mirzə Şəfi bəyi bir müddət ləngitdi və Məhəmməd xana cavab verməzdən əvvəl Kovalenskiyə məktub göndərdi.

Bu məktubunda o, Kovalenskidən soruşdu ki, əgər rus qoşunları İrəvan üzərinə hücum edəcəklərsə, onda Məhəmməd xanla barışığa getməsin: "Sizin qərarınızdan asılıdır, İrəvanla müharibə aparılsın, ya yox. Hər şeydə mən sizin iradənizə əməl edəcəyəm "-deyə Məhəmməd paşa Kovalenskiyə öz fikirlərini çatdırırdı (55).

Məhəmməd paşanın bu təkidli təkliflərinə general-leytenant Knorrinq təxminən bir aydan sonra öz münasibətini bildirdi və İrəvan üzərinə hücum etməyin hələ məqsədəuyğun olmadığını açıqladı. Axalsıx üzərinə hücuma keçməyi isə Knorrinq hələlik lazım bilmirdi. (56).

Gürcüstanın Rusiyaya birləşdirilməsi Qarabağ xanı İbrahim xanı bölgədə mürəkkəbləşən yeni bir hərbi-siyasi şəraitlə üzbəüz qoydu. Yeni şəraitdə xanlığın müstəqilliyinə qarşı istiqamətlənən Qacar təhdidlərinə Rusiya təhlükəsi də əlavə olundu. Bu təhlükələrin bir hissəsinin qarşısının alınması İbrahim xandan yeni yolların aranmasını tələb edirdi. Qacar sarayı ilə qurulan münasibətləri İbrahim xan xanlığın müsətqilliyinin qorunması üçün etibarlı zəmanət saymırdı. Rusiyanın bölgədəki siyasətinin mahiyyəti də heç də Azərbaycan xanlıqlarının cənub təhlükəsindən qorunması üzərində qurulmamışdı. Bununla belə, Rusiyanın Gürcüstanı işğal etməsi Azərbaycan xanlıqlarının Qacar təhlükəsindən qorunması kimi təqdim olunurdu və bir sıra xanlar, o cümlədən də İbrahim xan bu pərdə altında gizlənən Rusiya siyasətinə müəyyən meyllilik göstərirdilər. Məhz buna görə də, mövcud olan məlumatlara görə, İbrahim xan qızı Ağabəyim ağanı Fətəli şahın hərəmxanasına göndərməmişdən əvvəl Gürcüstandakı Rusiya nümayəndəsi Kovalevskinin yanına öz nümayəndələrini göndərdi, ona öz dost münasibətini açıqladı və Qacar təhlükəsindən nicat tapmaq üçün ondan kömək istədi. Kovalenski Qarabağ xanlığının nümayəndələrini böyük hörmətlə qarşıladı və geri qayıdarkən onlara qiymətli hədiyyələr də verdi. Bununla belə, Qarabağ xanlığına hərbi kömək göstərmək barədə Kovalenski Rusiya sarayından hər hansı göstəriş olmadığı üçün İbrahim xana da konkret cavab verə bilmədi (57).

Belə olanda İbrahim xan Qacar sarayının tələblərini ödəməyə və Qacar sarayı ilə ehtiyatlı münasibət yaratmağa başladı.

İbrahim xanı Rusiya ilə yaxşı münasibətlər yaratmağa sövq edən başqa bir səbəb isə Qarabağ məliklərinin separatizmi, hər vasitə ilə olursa-olsun yalnız xristianların Rusiyanın etibarlı dayağı olmasını göstərməyə çalışmaları idi. XVIII əsrin sonlarında Qarabağ məliklərinin Rusiya sarayı ilə olan yazışmaları xeyli artdı. Öz məktublarında Qarabağ məlikləri həm də V.Zubovun yürüşü dövründə rus qoşunlarının Qarabağa yetişəcəyi anı səbirsizliklə gözlədiklərini, müsəlmanların təzyiqlərindən yaxa qurtararaq Rusiyanın təbəəliyini qəbul etməyə hazır olduqlarını bildirirdilər. Qarabağ məlikləri Rusiya qoşunlarını Qarabağa çağırırdılar və Qarabağın İbrahim xanın hakimiyyətindən qopararaq Rusiyaya birləşdirilməsinə kömək edəcəklərini bildirirdilər. Məliklər onlara rus qoşun dəstələrinin verilməsini də xahiş edirdilər və vəd edirdilər ki, bu hərbi qüvvənin köməyi ilə erməniləri bir yerə toplayıb Rusiyanın maraqlarını daha yaxşı qoruyacaqlar. Amma görünür Qarabağ məlikləri özləri də Rusiya sarayına göndərdikləri xahişlərinin yerinə yetiriləcəyinə inanmırdılar. Ona görə Rusiya sarayından xahiş olunurdu ki, Qarabağın İbrahim xanın əlindən alınmayacağı təqdirdə heç olmasa xristianların Gürcüstan ərazisinə köçməsinə icazə verilsin (58).

Rusiya sarayı bölgədə nüfuzun möhkəmləndirilməsi üçün xristian-erməni elementinə arxalanmağın əhəmiyyətini anlayırdı. Amma Rusiya sarayı Qarabağ məliklərinin təxribatına uyaraq Qarabağ xanlığını ləğv etməyə, xanlığı silah gücünə xristian vilayətinə çevirməyə cəsarət etmirdi. İbrahim xanın yeritdiyi siyasət də buna imkan vermirdi. Çünki Qarabağ məliklərinin fitnələri qarşısında İbrahim xan vəziyyətə uyğun çevik siyasət yeritməyə və xanlığın müxtəlif təcavüzlərdən qorunmasına çalışırdı. Ona görə Rusiya sarayı Qarabağ məliklərinə Gürcüstan ərazisinə köçməsinə icazə verdi (59).

Başqa sözlə, Qarabağ məliklərinin satqınlığı da İbrahim xanı Rusiyaya qarşı müvafiq siyasət formalaşdırmağa məcbur edirdi. İbrahim xanın siyasətinin loyallığını və gücünü görəndə isə Rusiya sarayı xanlığın idarəsində söz sahibi olmayan Qarabağ məlikləri ilə deyil, xanlığın hakimi ilə münasibətlər yaratmaq məcburiyyətində qaldı.

Qacar şahı ilə normal münasibətlər olduğu zaman İbrahim xan Rusiyanın da himayədarlığını qazanmağı məqsədəuyğun saydı və bu barədə xahişini Rusiya sarayına çatdırdı. 1800-cü ildə Rusiya sarayı Qarabağ xanlığını öz himayəsinə aldığını bəyan etdi (60).

Qarabağ xanlığı üzərindəki himayədarlığını Rusiya sarayı xüsusi fərmanla təsdiqlədi. Qarşılıqlı öhdəliyə əsasən Rusiya tərəfi Qarabağ xanlığının daxili işlərinə qarışmalı deyil və yalnız kənardan xanlığa təhlükə

olduğu zaman öz yardımını göstərməli idi. Qarabağ xanlığı isə digər Azərbaycan xanları kimi Rusiya tacirlərinin azad ticarətinə mane olmamalı idi (61).

Konkret tarixi şəraitdə Rusiyanın Azərbaycan xanlıqlarının və o cümlədən də Qarabağ xanlığının daxili işlərinə fəal müdaxilə etmək imkanı yox idi. Rusiya üçün mühüm olan o idi ki, Azərbaycan xanlıqlarını özünə tərəf çəkə bilsin və Azərbaycan xanlıqlarının Qacar hakimiyyəti təsirindən kənar qalmasına nail olsun. Rusiya çalışırdı ki, Şimali Azərbaycan xanlıqlarını Qacar təhlükəsi ilə qorxudaraq silah işlətmədən onları nəzarət altına alsın. Amma bunun əksi baş verdiyi təqdirdə silaha əl atılması Rusiyanın Cənubi Qafqaz siyasətinin əsas vasitəsinə çevriləcəyi şübhə doğurmurdu. Bu məqamı 1801-ci ilin ortalarında hakimiyyətə gəlmiş Rusiya çarı I Aleksandr Qafqazdakı rus qoşunları komandanı general Knorrinqə göndərdiyi fərmanda da vurğulayırdı. Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra Cənubi Qafqazda işğal altına alınmalı olan yalnız Azərbaycan xanlıqları idi. Bu xanlıqları da Rusiyanın sərhədləri daxilinə salmaq üçün I Aleksandr general Knorrinqdən İrəvan, Qarabağ, Gəncə və digər Azərbaycan xanlıqları ilə mümkün qədər mülayim dolanmağı və dincliklə onların Rusiyaya birləşdirilməsini tələb etdi. Rusiya çarı qarşıya qoyulan məqsədə nail olmaq üçün Qarabağ və İrəvan xanlıqları ərazisindəki erməni elementlərindən istifadə olunmasının məqsədəuyğunluğunu da qeyd edirdi. Rusiya çarı tələb edirdi ki, ermənilərin Rusiya tərəfinə cəlb edilməsi üçün onlara nəvaziş göstərilsin (62).

1801-ci ilin sonunda Rusiya çarı, general Knorrinqə göndərdiyi fərmanında Azərbaycan xanlıqlarının və Dağıstan hakimlərinin Rusiya nəzarəti altına salınması üçün görülən işlərin fəallaşdırılmasını tələb etdi. Bu fərmana əsasən Rusiya generalı dağlı hakimləri və Azərbaycan xanlarına məktublar göndərdi və onlara təklif olundu ki, qarşılıqlı münasibətlərin aydınlaşdırılması üçün danışıqlara da öz nümayəndələrini göndərsinlər. Nəzərdə tutulmuşdu ki, belə danışıqlar Georgiyevskdə, 1802-ci ilin sentyabrında aparılsın (63).

Elə 1802-ci ildə də şah qoşunlarının Şimali Azərbaycan xanlıqları və Gürcüstan üzərinə hücuma hazırlaşmaları haqqında məlumat yayıldı. Əldə olunan xəbərlərə görə, böyük sayda olan şah qoşunlarının bir hissəsi İrəvanı nəzarət altına alandan sonra Gürcüstan üzərinə irəliləməli idi. Qoşunların digər bir hissəsi isə Qarabağa gəlməli və buradan Şamaxı-Şəki istiqamətində hücumu davam etdirməli idi. Sonrakı məlumatlar göstərdi ki, Qarabağ xanlığına gələcək şah qoşunlarına Pirqulu xan rəhbərlik edirdi və bu qoşun dəstəsi hətta Naxçıvan xanlığının ərazisinə keçibmiş. Mövcud olan məlumatlara görə, İbrahim xan oğlanlarından birini və Şəki xanlığına iddia

edən kürəkəni Səlim xanı Pirqulu xanın yanına göndərdi. İbrahim xan onların vasitəsilə Pirqulu xana əlavə hərbi qüvvə verməyi və Car ləzgilərini də bu işə cəlb etməyi vəd etdi. Güman edilirdi ki, Pirqulu xan Qarabağ döyüşçüləri ilə möhkəmləndiriləndən sonra Şəki və Şamaxı üzərinə hücum etsin və Şəki xanlığını yenidən Səlim xana versin (64).

Çox güman ki, çoxsaylı şah qoşunlarının İrəvan xanlığını öz nəzarəti altına alacağı, Qarabağdan keçməklə Şəkidə hakimiyyətə yenidən Səlim xanın gətiriləcəyi, İbrahim xanın Şəki-Şamaxı xanlıqlarında nüfuzunun möhkəmlənəcəyi ehtimalı yenidən İbrahim xanı şah sarayı ilə əməkdaşlığa sövq etdi. Əslində İbrahim xanın başqa bir seçim yolu da yox idi. Rusiya hələ Qafqazda o dərəcədə möhkəmlənməmişdi ki, onlara arxalanaraq şah qoşunları ilə əməkdaşlıqdan imtina etsin. Lakin bütün söz-söhbətlərə baxmayaraq şah qoşunları Cənubi Qafqazın dərinliklərinə doğru irəliləməkdən imtina etdilər və Pirqulu xanın rəhbərliyi altında olan qoşun dəstəsi də Şuşaya gəlib çıxmadı.

Rusiya tərəfi isə belə bir şəraitdə bəzi Azərbaycan xanlarının və dağlı hakimlərinin nümayəndələrini danışıqlara cəlb edə bildi. Məqsəd onların hərbi-siyasi ittifaqa gətirilməsi və Qacar təhlükəsinə qarşı müqavimətin birləşdirilməsi idi. Bununla bağlı, I Aleksandrın taxta çıxmasını təbrik etmək üçün Peterburqa yollanmış Bakı, Quba, Dərbənd və Talış xanlarının nümayəndələri qarşısında məsələ qaldırıldı. Rusiya çarı da öz növbəsində Qacar təhlükəsinə qarşı təşkil edilmiş müqavimətə öz dəstəyini verəcəyini vəd etdi. Rusiya sarayı Azərbaycan xanları ilə Dağıstan hakimlərinin federasiyasının yaradılması məsələsini də müzakirələrə çıxardı. Azərbaycan xanlarının və dağlı hakimlərinin nəzərinə Rusiya sarayı tərəfindən belə bir təklif çatdırıldı ki, onlar əmin-amanlıqda yaşamaq istəyirlərsə, bir yerə toplaşsınlar və öz aralarında dostluq münasibətlərinin qurulmasını müzakirə etsinlər. Bununla, Rusiya bir tərəfdən Qacar təhlükəsinə qarşı həm yeni bir müvəffəqiyyət qazanmış olardı, həm də Rusiya öz dövlət maraqlarından irəli gələn bölgə ticarətinin genişləndirilməsi üçün daha münasib şərait əldə etmiş olardı. Rusiya çarı general Knorrinqə göndərdiyi məktubunda yazırdı ki, Asiyada ticarətin genişləndirilməsi üçün Azərbaycan xanları ilə dağlı hakimlərinin arasında dostluq əlaqələri yaradılmasını lazım bilir. Onun nəzərində xanların və hakimlərin dostluğu və onlar arasındakı ittifaq Rusiya imperatorluğu altında olmalı idi (65).

Rus tarixçilərinin yazdıqlarından aydın olur ki, bu dövrdə bölgədə Rusiya ticarətinin gücləndirilməsi istəyi Rusiya sarayını çox maraqlandırırdı və bunun üçün səmərəli yollar aramağa çalışırdı. Rusiyanın narahatçılığının səbəbi o idi ki, bir tərəfdən bölgədə rus ticarət karvanlarının təhlükəsizliyi təmin edilməmişdi, bu karvanlar dağlı hakimlərin ərazilərində basqınlara

məruz qalırdı və onlar təyinat yerinə gedib çıxa bilmirdilər. Digər tərəfdən də dağlı hakimlərinin ərazisində və Azərbaycan xanlıqları ərazisində müxtəlif vergilər verməli olurdular. Bu da rus ticarətinin ziyanına başa gəlirdi. Ona görə nəzərdə tutulmuşdu ki, ticarət məsələləri də Azərbaycan xanları və dağlı hakimləri arasında aparılan danışıqların əsas məzmununa çevrilsin (66).

Qarşılıqlı müzakirələrin aparılması üçün Azərbaycan xanlıqlarının və dağlı hakimlərinin nümayəndələrinin toplantısı 1802-ci ilin sentyabrında Georgiyevskdə baş tutdu. Azərbaycan xanlarından Quba və Lənkəran xanlarının nümayəndələri bu toplantıda iştirak edirdilər. Bu danışıqlar xeyli müddət davam etməli oldu. Çünki bu müzakirələrdə Rusiya öz maraqlarından çıxış etdiyi kimi, Azərbaycan xanları və dağlı hakimləri də öz maraqlarından çıxış edirdilər. 1802-ci il dekabr ayının 26-da nəhayət ki, müzakirələrə toplananlar arasında "Georgiyesk müqaviləsini" imzalamaq mümkün oldu. Rusiyanın xüsusi səylərinin nəticəsi kimi ortaya çıxan bu müqaviləyə əsasən, xanlar və dağlı hakimləri arasında düşmənçiliyə və çəkişmələrə son qoyulmalı, ortaya çıxan mübahisələr dinc yolla həll edilməli, Qacar təhlükəsinə qarşı birgə müqavimət təşkil edilməli idi. Qacar təhlükəsinin reallaşacağı təqdirdə xanlar və hakimlər Qafqazdakı rus qoşunları baş komandanın rəhbərliyi altında öz qüvvələrini birləşdirməli idilər. Bundan başqa müqavilədə rus ticarətinə əlverişli şəraitin yaradılması haqqında bəzi öhdəliklər öz əksini tapmışdı (67).

Lakin belə bir ittifaqa daxil olunması Quba xanlığını, istərsə də Lənkəran xanlığını işğal təhlükəsindən azad etmirdi. Azərbaycan xanlarının işğalının başa çatdırılması üçün 1803-cü ilin əvvəllərindən Rusiya sarayı daha sərt və təcavüzkar siyasət həyata keçirməyə başladı. Həmin sərt siyasətin həyata keçirilməsi isə Qafqazdakı Rusiya qoşunlarının yeni baş komandanı general-leytenant P.D.Sisianova həvalə edildi.

### *3. P.D.Sisianovun Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilməsi*

Gürcüstanın Rusiyaya birləşdirilməsi bölgədə tamamilə yeni bir hərbi-siyasi şəraitin başlanğıcını qoydu ki, bu şəraitin yerli əhaliyə qəbul etdirilməsi bir sıra çətinliklərlə qarşılaşırdı. Bir tərəfdən Rusiya sarayının ümidlərinin əksinə olaraq gürcü çar ailəsi bu işğalı birmənalı şəkildə qarşılamadı. Gürcü şahzadəsi Aleksandr qacarlara sığınaraq rus işğalına qarşı mövqeyini açıq silahlı müxalifət yolu ilə bildirdi. Digər şahzadələr bu yolu tutmasalar da, Rusiya işğalını heç də sakitliklə qarşılamadılar. Yad idarəçilik sistemi, rus generallarının və məmurlarının hökmranlıq təfəkkürü

yalnız çar ailəsi tərəfindən deyil, xalq tərəfindən də ciddi təşviş və həyəcanlarla qarşılaşırdı. Bu isə öz növbəsində Gürcüstan daxilində narazılıqların artmasına və sabitliyin bərqərar edilməsinin çətinləşməsinə yol açırdı. Rusiya sarayına olan etimadsızlığın dairəsi günü-gündən genişlənir və bunun siyasi partlayışa yol açacağı Rusiya məmurları tərəfindən nigarançılıqla qarşılanırdı.

İşğaldan sonra Gürcüstanla qonşuları arasında yaranmış vəziyyət də Rusiya sarayının istəyincə deyildi. Pəmbək mahalı üzərində İrəvan xanlığı ilə rus qoşunları arasında, Şəmşəddil mahalı üzərində isə Gəncə xanlığı ilə yaranmış qarşıdurma Rusiyanın bölgədəki mövqeyini daha da zəiflədirdi. Car-Balakən əhalisinin Gürcüstan üzərinə silahlı yürüşlərinin qarşısını almaq isə Gürcüstandakı rus qoşunları üçün ciddi vəzifələrdən birinə çevrilmişdi.

Nəhayət, rus məmurlarının və hərbçilərinin özbaşınalıqları, qanunsuz əməlləri Gürcüstan daxilində antirus mövqeyinin daha da güclənməsinə təkan verirdi. Rus tarixçiləri bu özbaşınalıqların mövcudluğunu Gürcüstanın mülki hakimi Kovalenskinin şəxsi keyfiyyətləri ilə əlaqələndirirdilər (68). Əslində, bu qanunsuzluqlar Rusiyanın işğalçı siyasətinin mahiyyətindən irəli gəlirdi. Rus məmurlarının səbatsız fəaliyyəti isə bu işğalçılığın mahiyyətini daha açıq şəkildə ortaya qoyurdu. Bildirilir ki, Kovalenskinin və general Knorrinqin fəaliyyəti ilə bağlı şikayətlər hətta Rusiya çarına da çatdırıldı. Bundan sonra isə Rusiya çarı general Knorrinqin əvəzlənməsi haqqında qərar qəbul etdi.

Həqiqətdə isə Rusiya çarını belə bir qərar qəbul etməyə sövq edən heç də general Knorrinqlə Kovalenskinin xalqa qarşı özbaşınalıqları deyildi. Sonradan Rusiyanın Cənubi Qafqaza təyin etdiyi hakimlər də yerli xalqlara qarşı humanistliyi ilə seçilmədilər. Rusiya sarayını narahat edən rus general və məmurlarının rus işğalının möhkəmləndirilməsi üçün ifrat kəskin mövqe nümayiş etdirə bilməmələri idi.

Bunları nəzərə alaraq Rusiya çarı 1802-ci il sentyabr ayının 8-də general-leytenant P.D.Sisianovun Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilməsi haqqında fərman imzaladı. Həmin fərman kifayət qədər geniş bir fərman idi. Burada P.D.Sisianovun bu vəzifəyə təyin olunmasının səbəbləri, habelə P.D.Sisianovun qarşısında dayanan vəzifələr açıqlanırdı. Rusiya çarı ona general Knorrinqdən və Kovalenskidən şikayətlər gəlməsini xatırladaraq, onların hər ikisinin geri çağırılması haqqında qərar verildiyini bildirirdi. General Knorrinq geri qayıtdıqdan sonra hərbi xidmətini davam etdirməli, Kovalenski isə başqa işə göndərilməli idi. Əvəzində P.D.Sisianov rus qoşunları Qafqaz xəttinin inspektoru, Həştərxanın hərbi qubernatoru, Gürcüstandakı qoşunların komandanı

vəzifələrini öz üzərinə götürməli idi. Rusiya çarı şübhə etmirdi ki, P.D.Sisianov inspektor və Həştərxanın hərbi qubernatoru vəzifələrini uğurla yerinə yetirəcəkdir. P.D.Sisianovun diqqəti xüsusi olaraq sonuncu vəzifəyə yönəldilirdi ki, Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra onun idarəçiliyində nəzərə alınmalı idi.

Rusiya çarı general-leytenant Knorrinqə verimiş səlahiyyətləri general Sisianova da verdi. O öz fərmanında bildirirdi ki, general Sisianov general Knorrinqə verilmiş təlimatla tanış olmalıdır. Onun fikrincə, guya Gürcüstanın Rusiyaya birləşdirilməsinin yeganə məqsədi ərazilərin genişləndirilməsi deyil, gürcü xalqını daxili və xarici təhlükələrdən qorumaq idi. Rusiya çarı tələb edirdi ki, Gürcüstan daxilindəki vəziyyət nəzarət altına alınmalı və burada vəziyyət təsadüfi hadisələr üzündən dəyişilməli deyildi. Sisianovun bu vəzifəyə təyinatının əsas məqsədi də məhz Gürcüstandakı vəziyyətin nəzarət altında saxlanılmasına nail olmaq idi. Bunun üçün Sisianova səlahiyyət verilirdi ki, idarəçiliyi öz bildiyi kimi qursun və bu zaman yerli əhaliyə rus idarəçiliyinin mövcudluğunu nümayiş etdirsin. Rusiya çarı Sisianova gürcü çar ailəsinə ciddi diqqət yetirməyi də tapşırırdı. Rusiya çarı gürcü çar ailəsi ilə işin elə qurulmasını istəyirdi ki, Gürcüstan daxilində Rusiyaya qarşı narazılıqlar genişlənməsin, daxili intriqalara son qoyulsun. Bunun üçün gürcü çar ailəsinin üzvlərinin Rusiyaya sürgün edilməsi də istisna olunmurdu. Fərmanda Gürcüstanda yerli əyanların şikayətlərinə baxılması, Gürcüstanda toplanan gəlirlərə nəzarət təşkil edilməsi haqqında da göstərişlər var idi (69).

1802-ci il sentyabr ayının 26-da Rusiya çarı general Sisianovun adına yeni bir fərman imzaladı və bu fərmanda general Sisianov üçün əlavə tapşırıqlar müəyyənləşdirildi. Rusiya çarı bu fərmanda bəyan edirdi ki, Sisianov üçün başlıca vəzifə Gürcüstan daxilindəki qarışıqlığa aydınlıq gətirilməsi, qətiyyətli fəaliyyət nəticəsində Gürcüstan daxilində ruspərəst əhval-ruhiyyənin yaradılması, Qacar sarayının zalım hakimiyyəti ilə qarşılaşmalı olan qonşu ərazilərdə Rusiyaya tərəf bir meylliliyin əldə edilməsi olmalı idi. Sonra Rusiya çarı təkidlə tövsiyə edirdi ki, baş verənlərin mahiyyətinə görə gürcü çar ailəsinin üzvləri Gürcüstandan kənarlaşdırılsın və bu zaman gürcü çar ailəsinin Rusiyaya göndərilməsi razılaşdırılsın, onların narazılıqlarının qabarmasına yol verilməsin, gürcü çar ailəsinin Gürcüstandan uzaqlaşdırılmasından, Gürcüstan daxilində antirus əhval-ruhiyyənin aradan qaldırılmasından sonra xarici təhlükə mənbələrinə diqqət gücləndirilməli idi. Rusiya çarı Gürcüstandakı rus işğalına qarşı yönəlmiş xarici təhlükədən danışanda daha çox Qacar hakimiyyətinə işarə edilirdi. O özü də qeyd edirdi ki, Fətəli şah ona qarşı çıxanları zərərsizləşdirərək hakimiyyətini kifayət qədər möhkəmləndirmişdir. Lakin ondan qopmaq

arzusunda olanlar da var idi. Ona görə Rusiya çarı Sisianova tövsiyə edirdi ki, Fətəli şah Gürcüstan üzərinə qoşun çəkmək niyyətinə düşsə, onda Fətəli şaha qarşı meyyli olmayan hakimlərlə əlaqə saxlansın və bu hakimlərin gücləndirilməsi üçün yardım göstərsin. Buna görə Sisianov Tiflisə yetişəndən sonra bütün qonşu hakimlərlə əlaqə saxlamalı və onların Rusiyaya meyllənməsinə cəhd göstərməli idi. Rusiya çarı bölgə ilə bağlı lazımi məlumatların toplanmasında erməni patriarxı Danil ilə əlaqə saxlanmasını da lazım bilirdi (70).

Rusiya çarı öz fərmanında erməni patriarxlığı vəzifəsi üzərində Danil və David arasında intriqa və ziddiyətin olduğunu da xatırladırdı. Lakin onu da gizlətmirdi ki, Rusiya sarayı Danilin erməni patriarxı olmasına üstünlük verir. Bununla bağlı, general Sisianova tapşırılırdı ki, Rusiya sarayı tərəfindən erməni patriarxı kimi tanınan Danilin Eçmiədzin taxtına oturdulmasına və Davidin isə oradan uzaqlaşdırılmasına nail olsun. Rusiya çarı bütünlükdə ermənilərə qayğı göstərilməsini, onlardan Rusiya maraqları naminə istifadə edilməsini ciddi vəzifə kimi Sisianova tapşırırdı (71).

General-leytenant Pavel Dimitriyevin Sisianovun Qafqazdakı rus qoşunlarının baş komandanı və Gürcüstanın hakimi vəzifəsinə təyinatı heç də təsadüfi deyildi. P.D.Sisianov bir tərəfdən nəsil baxımından bölgə ilə bağlı idisə, digər tərəfdən də V.Zubovun rəhbərliyi altında Qafqaza yürüş edən qoşunların tərkibində bölgə ilə bağlı müəyyən təcrübə əldə etmişdi. Başlıcası isə P.D.Sisianov imperiya nökəri idi və diktat xarakteri ilə seçilirdi. Rusiya hakimlərinin fikrincə, onun bu xarakter cəhətləri Gürcüstanda Rusiya mövqeyinin və işğalının möhkəmlənməsinə və ətrafa yayılmasına yol aça bilərdi.

P.D.Sisianovun mənsub olduğu gürcü knyaz nəsli öz başlanğıcını XIV əsrdən götürürdü. Bu nəsil gürcü çar ailəsi ilə nikah əlaqələrinə malik idi. P.D.Sisianovun babası Paata Sisianov I Pyotrun vaxtında Rusiyaya yollanmış və sonradan Rusiya qoşunlarında xidmətə yazılmışdı. Rusiya qoşunları sırasında iştirak etdiyi döyüşlərin birində dünyasını dəyişəndən sonra onun vərəsələri həyatlarını birdəfəlik Rusiya ilə bağladılar. 1754-cü il sentyabr ayının 8-də Moskvada doğulan P.D.Sisianov da babası kimi rus qoşunları sırasında xidmətə qoşuldu. O, Pereobrajenski alayında kapral kimi xidmətə başladı. 1772-ci ildə P.D.Sisianov qvardiya praporşiki rütbəsini aldı. 1777-ci ildə kapitan-poruçik rütbəsi alan P.D.Sisianov bir il sonra podpolkovnik rütbəsində Tobol piyada alayına dəyişdirildi. 1786-cı ildə isə Sisianov polkovnik rütbəsini qazandı və elə həmin il o, Sankt-Peterburqdakı qrenadyor alayının komandiri təyin edildi (72).

1788-ci ildə P.D.Sisianov ilk dəfə döyüş əməliyyatında iştirak etdi. Həmin il Rusiya ilə Osmanlı Türkiyəsi arasında gərginlik yarandı və bu

dövlətlər arasında müharibə başladı. P.D.Sisianovun alayı qraf Rumyansevin rəhbərliyi altında olan 4-cü Ukrayna ordusunun tərkibinə verildi. 1788-ci il iyul ayının ilk günlərində P.D.Sisianovun alayı Xotın qalası ətrafında döyüşə girdi. Rus tarixi ədəbiyyatında olan məlumata görə, elə ilk döyüşdə P.D.Sisianov özünü bacarıqlı bir komandir kimi nümayiş etdirə bildi. Bir müddətdən sonra P.D.Sisianov alayı ilə birlikdə Moldaviyaya göndərildi. Təxminən bir il onun alayı döyüş əməliyyatlarından kənarda saxlanıldı. 1789-cu ilin payızında P.D.Sisianov Salçe çayı yaxınlığında Osmanlı qoşunlarına qarşı döyüşə girdi. Az sonra P.D.Sisianovun alayı yenidən döyüşdən çıxarıldı. Çox güman ki, bu döyüş zamanı P.D.Sisianovun alayı dağıdılaraq onun şəxsi heyəti digər hissələr arasında bölüşdürüldü. P.Sisianov üçün isə yeni bir alay formalaşdırıldı. 1790-cı il fevral ayının 5-də Sisianova briqadir rütbəsi verildi. Sonradan Sisianov Polşa ərazisində döyüşlərdə iştirak etdi və 1973-cü ildə Osmanlı Türkiyəsi ilə müharibənin bitməsi şərəfinə Sisianova general-mayor rütbəsi verildi. Polşa ərazisində olarkən Sisianov özünün diktat xarakterini də nümayiş etdirməyə fürsət tapdı. 1794-cü ildə Varşavada və Vilnada Rusiya əleyhinə kütləvi üsyanlar qalxdı. Bu üsyanların yatırılmasına P.D.Sisianov da cəlb edilmişdi. Xüsusən, Qrodno şəhərində baş qaldıran kütləvi üsyanın amansızcasına yatırılması Sisianovun imperiyaya sədaqətinin nümayişinə çevrilən bir akt oldu. Sisianov qoşunları yeritməklə üsyanı nəinki yatırdı, hətta şəhər əhalisindən gümüş pulla 100 minlik maliyyə vəsaiti topladı da. Bu üsyanın yatırılmasına görə Sisianov 3-cü dərəcəli Müqəddəs Vladimir ordeni də ala bildi (73).

Sonrakı ildə Sisianov Polşada Rusiya işğalına qarşı üsyan qaldırmış yerli əhaliyə qarşı daha bir neçə döyüşdə iştirak etdi. 1796-cı ildə isə o, rus qoşunlarının V.Zubovun rəhbərliyi altında Azərbaycan xanlıqları üzərinə hücumunda iştirak etdi. Bu yürüş zamanı xüsusi bir fəallıq nümayiş etdirə bilmədi, əsasən köməkçi qüvvələrin əsas dəstəyə çatdırılması ilə məşğul oldu və bir müddət də Bakı şəhərinin komendantı oldu. Azərbaycan xanlıqları üzərinə yürüşün təşəbbüskarı olan II Yekaterinanın ölümündən sonra V.Zubovun dəstəsi buraxıldı. V.Zubov kimi onun ətrafında olan bəzi generallar, o cümlədən P.D.Sisianov da xidmətdən kənarlaşdırıldı.

P.D.Sisianov hərbi xidmətdən azad olduqdan sonra çarıça tərəfindən ona bağışlanmış kəndə yollandı. Amma görünür onun diktat xarakteri unudulmamışdı. Cənubi Qafqazda rus işğalının möhkəmləndirilməsi üçün belə xarakterli hərbçilərə Rusiya sarayı ehtiyac duyurdu. Ona görə də I Aleksandr onu yenidən xidmətə dəvət etdi. 1801-ci ilin mayında P.D.Sisianova Rusiya Dövlət Şurasında hərbi məsələlər üzrə vəzifə verildi. I

Aleksandrın tacqoyma günündə P.D.Sisianova general-leytenant rütbəsi verildi (74).

1802-ci ilin sentyabr ayında yuxarıda qeyd edildiyi kimi, P.D.Sisianov Rusiya çarı tərəfindən rus qoşunlarının Qafqazdakı baş komandanı təyin edildi. Onun missiyasının Rusiya sarayını qane edəcək səviyyədə həyata keçməsi üçün Qafqazdakı rus qoşunlarının gücləndirilməsi qərara alındı. Bu qərara əsasən, Saratov muşketyor alayı və 9-cu yeger alayı Qafqaza yollanmalı idilər (75).

Rusiya çarından aldığı tapşırıqların icrası üçün yola düşən P.D.Sisianov 1802-ci il dekabr ayının 4-də Georgiyevskə çatdı (176) və dərhal da Rusiya sarayının ona bağladığı "etimadın" doğruldulmasına başladı. Qardaşı Həsən xanın ölümündən sonra Dərbəndi yenidən nəzarəti altına alan Quba xanı Şeyxəli xan, Lənkəran xanı Mir Mustafa xan və bir neçə dağlı hakiminin nümayəndələrinin iştirakı ilə 1802-ci ilin sentyabrında Georgiyevskdə başlanan müzakirələr P.D.Sisianovun gəlişindən sonra başa çatdı və onun iştirakı ilə yuxarıda haqqında danışılan Georgiyevsk müqaviləsi imzalandı. Bu müqavilənin adları çəkilən Azərbaycan xanlarının və dağlı hakimlərinin gələcək taleyində ciddi bir əhəmiyyəti olmasa da hər halda onun imzalanması general Sisianovun adı ilə bağlıdır. General Sisianov bu müqavilənin bağlanması ilə rus qoşunlarının Qafqaz xəttinin sol cinahının təhlükəsizliyini təmin etməyə və Xəzər dənizinin Qafqaz sahillərində rus hərbi-dəniz bazasının bərpasına əlverişli şəraitin yaranmasına çalışırdı (77).

Hələ Georgiyevskdə olarkən general Sisianov Azərbaycan xanlarının nümayəndələri ilə görüşləri və müzakirələri, Azərbaycan xanlıqları ilə bağlı mövqeyi haqqında Rusiya sarayı ilə yazışmağa başladı. Elə bölgədən göndərdiyi ilk məktublarında general Sisianov Azərbaycan xanlıqlarına qarşı təcavüzkar və imperiyapərəst mahiyyətini ortaya qoydu. Rus tarixçiləri özləri də general Sisianovun öz sələfləri ilə müqayisədə Qafqazda daha qəddar siyasət yeritdiyini etiraf edir və belə bir siyasətin Rusiyanın maraqlarının qorunması naminə daha təsirli olacağını güman edirdilər (78).

Georgiyevsk toplantısının müzakirələri zamanı Rusiyanın federasiya və ya ittifaq yaratmaq təklifinə inamsız yanaşanlardan biri Quba xanı Şeyxəli xanın nümayəndəsi Mədət bəy Rusiya ilə Quba xanlığı arasında ayrıca müqavilə imzalanması və bu müqaviləyə əsasən Quba xanına Rusiyanın hərbi və maliyyə yardımının göstərilməsi üzərində təkid edirdi. General Sisianov Quba xanlığının bu təklifi ilə razılaşmadı. Onun fikrincə, Quba xanı tələb etdiyi rus qoşunlarınınköməyi ilə Şamaxı xanlığını ələ keçirmək və Qasım xanı Mustafa xanın yerinə Şamaxı xanı elan etmək istəyir. Bunun əvəzində Qasım xan da Salyanı Şeyxəli xanın nəzarəti altına

verməli idi. Çünki Salyanın balıq vətəgələrindən böyük gəlir götürmək mümkün idi. P.D.Sisianov Quba xanının tələbi əsasında onun ixtiyarına rus hərbi qüvvəsinin verilməsinə ehtiyac görmürdü. Dərbəndi də özünə birləşdirəndən sonra güclənmiş Quba xanının Salyanı ələ keçirməsi və Şamaxı xanlığını da nəzarət altında saxlaması onun imkanlarını xeyli artıra bilərdi. Şeyxəli xanın Bakı şəhərinə iddia irəli sürməsi də P.D.Sisianovun narahatçılığına səbəb olurdu (79). Çünki Şeyxəli xanın güclənməsi Rusiyanın işğalçılıq planlarının həyata keçməsini çətinləşdirə bilərdi.

Ümumiyyətlə, P.D.Sisianov Şamaxı xanı Mustafa xanın devrilməsini və onun yerinə Qasım xanın gətirilməsini məqsədəuyğun sayırdı. P.D.Sisianova yaxşı məlum idi ki, V.Zubovun yürüşü zamanı Mustafa xan hər vasitə ilə rus işğalına qarşı çıxırdı. Amma bunun Şeyxəli xan vasitəsilə edilməsinə razı deyildi. Bu halda Şeyxəli xan daha da güclənə bilərdi. P.D.Sisianiv Şamaxı xanının dəyişdirilməsi üçün avar xanının köməyindən istifadə edilməsini daha münasib sayırdı. Onun yazdığına görə, avar xanı Rusiyaya öz sədaqətini nümayiş etdirmiş və veriləcək tapşırıqların icrasına hazır olduğunu bildirmişdi. P.D.Sisianovun fikrincə, Şamaxı xanlığının nəzarət altına alınmasından sonra ruslar üçün azsaylı rus qoşunları ilə Salyanın tutulması çətin olmayacaqdı. Bu şəhərin tutulması Kür çayının mənsəbinin nəzarət altına alınması baxımından Rusiya maraqlarına cavab verirdi (80).

Elə ilk yazışmalarından görünür ki, general Sisianov Quba xanının şəxsiyyətinə birmənalı yanaşmırdı. Cavan yaşlarında olmasına baxmayaraq Şeyxəli xanın Quba və Dərbənd xanlıqlarını birləşdirməsi, Bakı və Şamaxı xanlıqlarının nəzarət altına almağa çalışması və bunun onun imkanları daxilində olması Sisianovu heç də qane etmirdi. Onun məktublarında Şeyxəli xan çevikliyi, təşkilatçılığı və təşəbbüskarlığı tam əks ifadələrlə xarakterizə olunurdu. Sisianov onu hakimiyyət hərisi, intriqaçı, şöhrətpərəst, təkəbbürlü şəxs adlandırmaqla bəzi müsbət fikirlərini də etiraf edirdi. Onun fikrincə, Şeyxəli xan həm də cəsur insan idi. Sisianova görə hakimiyyət və yeni ərazilər əldə etmək üçün Şeyxəli xan böyük səylər göstərməyə hazır idi (81).

P.D.Sisianov müxtəlif vədlər verməklə Georgiyevskə toplanan nümayəndələri Rusiya sarayı tərəfindən təklif olunan müqaviləni imzalamağa sövq edə bildi. Müqavilənin imzalanmasından sonra Şeyxəli xanın nümayəndəsi Mədət bəy Quba xanının tapşırığı əsasında Rusiya sarayına yollanmalı olduğunu açıqladı və P.D.Sisianovdan icazə istədi. Mədət bəy Peterburqa Şeyxəli xanın məktubunu və ismarıclarını çatdırmalı idi. Amma onların məzmununu general Sisianova açıqlamadı. General Sisianovun fikrincə, Şeyxəli xan Rusiya sarayından hərbi və maliyyə yardımı almaq fikrində israrlı idi. Ona görə Sisianov Quba xanının nümayən-

dəsinə bildirdi ki, Georgiyevsk müqaviləsinin imzalanmasından sonra Şeyxəli xana artıq rus hərbi yardımı lazım deyil. Bununla belə, Sisianov onu da əlavə etdi ki, Şeyxəli xana hərbi və maliyyə yardımı göstərilə bilər. Bu vədlərlə Mədət xanı inadından döndərməyin mümkün olmadığını gördükdə general Sisianov onun Peterburqa yollanmasına icazə verdi. Amma onun yazışmalarından görünür ki, Sisianov Quba xanının nümayəndəsinin ümidlərini qırmamaq üçün onun Həştərxana doğru hərəkətə başlamasına icazə vermişdi. Əslində isə o, Mədət bəyin Rusiya sarayına getməsinə razı deyildi (82).

General Sisianov Georgiyevskdən Rusiya sarayı ilə apardığı yazışmalarında Şeyxəli xanın zəiflədilməsi üçün öz təklifini irəli sürdü. O, Dərbəndin rus qoşunları tərəfindən tutulmasını istəyirdi. Bu məsələ ilə bağlı yazışmalar və müzakirələr artıq general Sisianovun 1803-cü ilin yanvarında Tiflisə yetişməsindən sonra aparıldı. Rus generalının fikrincə, Dərbəndin Şeyxəli xandan qoparılması onun yalnız zəiflədilməsi deyil, həm də onun aşağılanması demək idi. Bu planın həyata keçirilməsi üçün P.D.Sisianov Dərbəndə rus qarnizonunun yeridilməsini, Dərbəndə iddialı olan Əli bəy adlı birisinin hakimiyyətə gətirilməsini və bununla da daha zəif iradəli olan Əli bəyin vasitəsilə Dərbəndin nəzarət altında saxlanmasının mümkünlüyünü bildirirdi (83).

Azərbaycan xanlıqlarının işğalının Gürcüstan ərazisindən həyata keçirilməsi nəzərdə tutulmuşdu. Rusiya çarı tərəfindən general Sisianova verilən tapşırıqlarda da müəyyənləşdirilmişdi ki, əvvəlcə Gürüsatan daxilində Rusiya işğalı möhkəmləndirilsin və sonra bu işğal Gürcüstanla qonşu ərazilərə yayılsın. P.D.Sisianovun verdiyi təklif isə Rusiyanın işğalçılıq fəaliyyətində yeni bir istiqamətin açılmasını, Qafqazın şimalından Xəzər boyunca rus qoşunlarının yürüşünün təşkilini nəzərdə tuturdu. Dərbəndin işğal edilməsinə Rusiya sarayı strateji əhəmiyyət verirdi. Ancaq işğalın yeni istiqamətinin açılması Rusiya sarayında bir narahatlıq da yaradırdı. Çox güman ki, bu narahatlığa bir səbəb də əvvəlki yürüşlərin təcrübəsi idi. İstər I Pyotrun dövründə, istərsə də II Yekaterinanın dövründə Xəzər boyunca həyata keçirilən yürüşlər zamanı rus qoşunları irəliləməyə müvəffəq olsalar da, son nəticədə qarşıya qoyulan məqsədə nail olunmamışdı.

Məsələyə aydınlıq gətirilməsi üçün Rusiya çarı I Aleksandr rus qoşunlarının Azərbaycan xanlıqları üzərinə ikinci yürüşünün rəhbəri olan qraf Valerian Zubovun fikirlərini dinləməli oldu. V.Zubov təqdim etdiyi mülahizələrində işğalın ikinci istiqamətinin açılmasını məsləhət bilmədi. Onun fikrincə, Dərbəndə qoşun çıxarılması üçün ciddi hazırlıq işləri aparılmalı idi. Yəni, müəyyənləşdirilməli idi ki, Dərbəndə nə qədər qoşun çıxarılacaq, bu

qoşunların Dərbəndə çıxarılması üçün dənizdə yetərli sayda gəmi mövcud idimi, qoşunların ərzaq təminatı necə aparılacaq, Dərbənd şəhəri tutulandan sonra qoşunların idarə edilməsi necə qurulacaq və s. V.Zubovun mülahizələrinə görə, bu hazırlıq işlərinin aparılmasına xeyli vaxt lazım idi və ona görə də o, 1804-cü ilin may ayından tez olaraq Dərbəndə qoşun çıxarılmasını düzgün saymırdı. Xüsusilə, ərzaq təminatı məsələsinin çətin olduğunu V.Zubov qabartmağa çalışırdı. Həştərxanın özündə taxıl çatışmadığından onun qoşunlar üçün tədarükü Volqa boyu rayonlarda ola bilərdi. Bu məsələ də Dərbəndə qoşun çıxarılmasını çətinləşdirə bilərdi. Təhlilinin sonunda qraf V.Zubov belə bir qənaətə gəlirdi ki, hazırkı şəraitdə daha mühüm məsələ Gürcüstanda möhkəmlənmək məsələsidir. Gürcüstanda möhkəmlənmək məsələsini V.Zubov rus qoşunlarının sonrakı uğurunun da əsası sayırdı (84).

General Sisianovun təkid etməsinə baxmayaraq, Rusiya çarı Dərbəndin işğalı ilə bağlı qraf Valerinan Zubovun mülahizələrini qəbul etməli oldu. İşğalın yeni bir istiqamətinin açılmasına lüzum görünmədi. Belə bir qərarın qəbul edilməsi zəruri hazırlıq işlərinə yetərincə vaxt lazım olması ilə bağlı idisə, digər tərəfdən də Dərbəndə qoşun çıxarılması ilə Rusiya rəhbərliyi Azərbaycan xanlarını vaxtından qabaq narazı salmaq istəmirdi. Bu narazılıq isə Rusiyaya qarşı müqavimətin genişlənməsinə yol aça bilərdi. Buna görə Rusiya çarı da Dərbəndə rus qoşunları çıxarılmasının 1804-cü ilin yazından tez mümkün olmayacağını bildirdi (85).

Lakin Rusiya çarı öz qərarı üzərində çox dayanmadı. Əvvəlki məktubunun ardınca Rusiya çarı general Sisianova əlavə bir məktub da göndərdi və həmin məktubda Dərbənd şəhərinin tez bir zamanda tutulması məqsədəuyğun sayıldı. Rusiya əvvəlki qərarının dəyişməyin səbəbini Sisianovun yüksək istedada və sədaqətə malik olması ilə əlaqələndirirdi. Rusiya çarı Sisianova yazırdı ki, xidmətə can yandırmağınız və şəxsi qabiliyyətiniz sizə sərbəst qərar qəbul etmək fürsəti verməyə sövq edir. I Aleksandr general Sisianova icazə verirdi ki, nəzərdə tutduğu planların həyata keçməsinə başlasın. Bunun üçün Sisianov özü qərar qəbul etməli idi ki, sərəncamda olan qüvvələrlə hücuma keçsin, ya əlavə qüvvələrin gəlməsini gözləsin. Sisianovun planlarının icrası ilə bağlı Rusiya çarı Xəzər dəniz donanmasının da onun sərəncamına verilməsini tapşırdı. Rusiyanın Qafqaz sərhədinin müdafiəsinin zəifləməməsiə şərti ilə Rusiya çarı Sisianova bölgə məsələləri ilə bağlı sərbəst qərar qəbul etmək səlahiyyəti verirdi (86).

General Sisianovun Tiflisə yetişməsindən sonra fəaliyyətinin ilk aylarında Bakı şəhərinin nəzarət altına alınmasına da geniş diqqət ayrıldı. Xəzər dənizinin əsas liman şəhəri olmaqla Bakı bölgənin işğalının başa çatdırılmasında mühüm rol oynaya bilərdi. Rusiya sarayı Bakı şəhərini

Cənubi Qafqaza çıxarılmış rus qoşunlarının başlıca təchizat yolu kimi görürdü. Mövcud şəraitdə quru yolla yüklərin daşınması xeyli təhlükəli olduğu üçün Xəzər dənizi və Bakı marşrutu üzrə bu problemi daha asanlıqla həll etmək olardı (87). Digər tərəfdən Bakı şəhəri ticarət gəmiçiliyi baxımından da Rusiya üçün əhəmiyyət kəsb edirdi. General Sisianov da yazışmalarında təkid edirdi ki, Bakı limanı Rusiya ticarət gəmiçiliyi üçün lazımdır və ona görə də münasib şərait yaranan kimi Bakı şəhəri rus qoşunları tərəfindən tutulmalıdır (88).

Bakı şəhəri heç şübhəsiz ki, həm də Rusiyanın hərbi-dəniz bazasının yaradılması baxımından əhəmiyyət kəsb edirdi. Burada yaradılan hərbi-dəniz bazası ilə Rusiya Xəzəryanı Azərbaycan ərazilərini, Qacarlara mənsub olan Xəzəryanı əraziləri nəzarət altında saxlaya bilərdi. Bu niyyətin həyata keçməsi üçün Sisianov daha münasib yollar aramağa başladı. Çünki rus generalının istəyindən asılı olmayaraq 1803-cü ilin əvvəlində Bakıya rus qoşunlarının çıxarılması imkan daxilində deyildi.

General Sisianov Bakı xanı Hüseynqulu xanı Rusiyaya tərəf meylləndirməyə cəhd göstərdi. Bunun üçün o, Bakı xanlığının düşmüş olduğu mürəkkəb hərbi-siyasi şəraitdən bəhrələnməyə çalışdı. General Sisianov yaxşı bilirdi ki, Bakı xanı ilə Şamaxı xanı və Quba xanı arasında qarşıdurma mövcuddur. Bu xanların hər iksi Bakı xanlığına iddia ilə yaşayırdılar. Quba xanı Şeyxəli xan Georgiyevsk müqaviləsinin imzalanmasına getməklə Rusiyadan hərbi qüvvə istədi və bu hərbi qüvvənin Bakı xanlığına geri qaytarılması, Şamaxıda isə Mustafa xanın yerinə Rəhim xanın xanlıq məqamına çatdırılması üçün istifadə olunacağı şübhə doğurmurdu. Bu isə Bakı xanını mürəkkəb vəziyyətə sala bilərdi. Rus qoşunları ilə möhkəmləndirilmiş Şeyxəli xanın müqavimətini qırmaq Hüseynqulu xanın imkanı xaricində idi. Hüseynqulu xanın eyni zamanda Mustafa xana müqavimət göstərmək imkanı yox idi. Bakı xanı Şamaxı xanının müəyyən tələblərini qəbul etməklə xanlığın müstəqilliyini saxlaya bilmişdi. Lakin Mustafa xanın Bakıya qarşı daha sərt mövqeyinin nümayiş etdirilməsi də istisna deyildi.

General Sisianov ümid edirdi ki, Quba və Şamaxı xanlıqlarının təzyiqləri arasında qalan Bakı xanı Rusiyanın himayəçilik imkanlarına maraqla yanaşacaqdır. Buna görə də 1803-cü ilin yanvar ayında, hələ Georgiyevskdən Tiflisə yola düşməmiş general Sisianov Bakıda olan rus konsulu Skibnevskiyə yazırdı ki, Bakı xanının Rusiyaya tərəf meylləndirilməsinə çalışsın. Konsul Skibnevski general Sisianovun tövsiyələri əsasında Hüseynqulu xanı inandırmalı idi ki, Rusiyanın köməyinə və himayəsinə sığınmaq onun üçün daha etibarlı yoldur. Sisianov istəyirdi ki, Quba və Şamaxı xanlarının hərbi yürüşlərindən qorunmaq üçün Hüseynqulu xan özü

Rusiya imperatoruna müraciət etsin. Onun belə bir qərar qəbul etməsinə isə konsul Skibnevskinin apardığı təbliğatla nail olunmalı idi. Təhlükəsizliyinin təmin edilməsi üçün lazım olduğu halda Sisianov Bakıya Gürcüstandan iki rus taborunun gətirilməsinə də söz verirdi. Bu istiqamətdə aparılan işlərin məxfi saxlanılmasını məsləhət bilməklə general Sisianov Bakı xanını Rusiyaya meyilləndirməyə nail olacağı təqdirdə konsul Skibnevskiyə ciddi mükafat da vəd edirdi (89).

Görünür, konsul Skibnevski Bakı xanının Rusiya himayəsinə meylləndirilməsi üçün müəyyən işlər görmüşdü. Çünki bir müddətdən sonra Hüseynqulu xan etibarlı və səlahiyyətli nümayəndəsi olan Allahverdi bəyi Sisianovla görüşə göndərdi. Tiflisə gəlmək üçün Allahverdi bəy Həştərxandan, Gizlərdən və Qafqaz dağlarından keçməklə Şimali Qafqaz marşrutunu seçməli oldu. Onun belə uzun bir marşrut seçməsi çox güman ki, təhlükəsizlik məsələləri ilə bağlı ola bilərdi. Allahverdi bəy Bakı xanının məktubunu və onun şifahi sözlərini general Sisianova çatdırdı. Allahverdi bəy general Sisianova Bakı xanının Rusiya himayəsini qəbul etməyə hazır olduğunu bildirdi və Hüseynqulu xanın məktubunu Rusiya sarayına çatdırmalı olduğunu bəyan etdi. Bakı xanının səlahiyyətli nümayəndəsi ilə ilk danışıqlardan konkret nəticə əldə edə bilmədiyi üçün general Sisianov onun Peterburqa yollanmasına razı olmadı. Sisianov bildirdi ki, Bakı xanının nümayəndələrinin səlahiyyətli olub-olmadığı bəlli deyil və ona görə bu nümayəndəliyin Sankt-Peterburqa getməsinə icazə verə bilməz. Belə olanda Allahverdi bəy Heseynqulu xanın şəxsi məktubunu tərcüməsi ilə birlikdə Sisianova göstərdi. Məktubda Hüseynqulu xan Rusiya çarının himayədarlığını qəbul etməyə hazır olduğunu bildirir və xahiş edirdi ki, Rusiya imperatoru onu və Bakını əbədi olaraq Rusiya təbəəliyinə qəbul etsin, onu düşmən xanlardan mühafizə etsin və bunun üçün Bakıda yetərli sayda qarnizon yerləşdirsin (90).

Əlinə düşən fürsətin rəsmiləşdirilməsi üçün P.D.Sisianov Bakıdan gələn nümayəndənin qarşısında məsələ qaldırdı ki, əgər o doğrudan da Bakı xanı tərəfindən Bakı xanlığının və onun xanının Rusiya təbəəliyini qəbul etməsi ilə bağlı anlaşma imzalanması üçün məhdudiyyətsiz səlahiyyətlərə malikdirsə, onda general Sisianova yazılı öhdəlik təqdim etsin. Bu yazılı öhdəlik gələcək münasibətlərin qurulması üçün baza ola bilərdi General Sisianov bu öhdəliyin məzmunu və orada əksini tapmalı olan maddələr haqqında öz mülahizələrini Allahverdi bəyə çatdırdı. Allahverdi bəy bu təklifi qəbul etdi və Bakı xanının Rusiya təbəəliyini qəbul etməsi haqqında hazırlanmış notanı imzaladı və möhürlədi. Mövcud olan materiallar bunu deməyə əsas verir ki, təqdim olunan notanın layihəsi P.D.Sisianov və ya onun ətrafındakılar tərəfindən hazırlanmışdı. Çünki mənbələrdə Bakı xa-

nının nümayəndəsinin irəli sürülən təkliflərlə bağlı öz mülahizələrini və münasibətini açıqlaması haqqında məlumat yoxdur (91).

Allahverdi bəy tərəfindən imzalanmış nota-öhdəlik 9 maddədən ibarət idi. Hər maddənin sonunda, habelə öhdəliyin giriş cümlələrinin sonunda Allahverdi bəy imzasını atmaqla həm də möhürünü vurmuşdu.

Öhdəliyin giriş hissəsində bildirilirdi ki, Bakı xanı Hüseynqulu xanın səlahiyyətli nümayəndəsi və vəkili Allahverdi bəy Sankt-Peterburqa gedə bilməyəcəyi və Bakı xanının məktubunun Rusiya imperatoruna kuryerlər vasitəsilə çatdırılacağı haqqında general Sisianov tərəfindən məlumatlandırıldı və Sisianov tərəfindən çatdırıldı ki, Bakı xanı Hüseynqulu xanın Rusiya imperatoruna xahişini onun adından Allahverdi bəy bəyan etsin (92).

Öhdəliyin birinci maddəsində bildirilirdi ki, bakılı Hüseynqulu xan bütün ailəsi ilə Bakı şəhəri və orada yaşayanlar ömürlük olaraq Rusiya imperatorunun təbəəliyinə daxil olurlar.

İkinci maddədə deyilirdi ki, Rusiya təbəəliyinə daxil olandan sonra Bakı şəhərinin idarəsi, təminatı, ticarətin təşkili üçün Hüseynqulu xan Qafqazdakı rus qoşunlarının baş komandanının və ya onun səlahiyyətlisinin iradəsi əsasında göstərişlər verir.

Üçüncü maddədə dini ayinlərin və inancın sərbəst qalacağı öz əksini tapmışdı.

Dördüncü maddədə Rusiya imperatorundan xahiş olunurdu ki, Bakı xanını düşmənlərdən mühafizə etmək üçün Bakı qalasına rus qoşunları yeridilsin. Bakı qalasında yalnız 1000 nəfərlik qoşun dəstəsinin yerləşdirilməsi mümkün olduğu üçün həmin sayda qoşunların Bakı xanı tərəfindən mənzillə təmin olunacağı vəd edilirdi.

Beşinci maddədə Bakı xanının və onun varislərinin Bakı xanlığına olan hüquqlarının tanınması üçün Rusiya imperatoru qarşısında vəsatət qaldırılırdı.

Altıncı maddədə Bakı şəhər əhalisinin əvvəlki kimi Bakı xanı tərəfindən idarə edilməsi qaydasının saxlanması haqqında xahiş olunurdu.

Yeddinci maddəyə əsasən, Bakı xanı Həştərxanda istədiyi qədər gəmi düzəltdirə bilərdi. Eyni zamanda Rusiya imperatorundan xahiş olunurdu ki, Bakı xanına 2 ədəd təchiz olunmuş nəqliyyat gəmisi verilsin. Bu gəmilər Bakı xanının mülkiyyəti olmalı idilər.

Səkkizinci maddədə bildirilirdi ki, öhdəlikdə öz əksini tapan məsələlər Bakı xanı tərəfindən birmənalı şəkildə icra olunacaq.

Doqquzuncu maddəyə əsasən imzalanan öhdəliyin bir surəti general Sisianov tərəfindən Rusiya imperatoruna çatdırılmalı idi.

Bakı xanının adından hazırlanmış öhdəlik onun nümayəndəsi tərəfindən 1803-cü il mart ayının 31-də imzalandı. Elə həmin gün də general

Sisianov bu barədə Rusiya çarına məruzə göndərdi və həmin məruzədə onun nəzərinə çatdırıldı ki, Hüseynqulu xanın nümayəndəsi öhdəlikdə nəzərdə tutulan 2 ədəd nəqliyyat gəmisinin dərhal verilməsini xahiş edir. General Sisianov öz adından haqqında danışılan gəmilərin Bakı xanına verilməsini məqsədəuyğun sayırdı. Onun fikrincə, belə bir addımın atılması Rusiyaya qarşı inamın ilk vaxtlardan itməsinin qarşısını alardı (93).

Rusiya imperatoru cavab məktubunda Azərbaycan xanlarının Rusiya təbəəliyinə gətirilməsi üçün Sisianovun fəaliyyətini təqdir etdi və hətta onun əldə etdiyi nəticəni alqışladı da. Bakı xanının nümayəndəsi Allahverdi bəylə aparılan danışıqlar və imzalanan sənəd də Rusiya çarı tərəfindən razılıqla qarşılandı. Allahverdi bəyin imzaladığı öhdəlikdəki bəzi maddələrə aid rus çarı öz münasibətini də açıqladı. Öhdəliyin 6-cı maddəsinə əsasən, Bakı xanlığının idarəçiliyinin Bakı xanının əlində saxlanması şərtini rus çarı qəbul edirdi. Bir şərtlə ki, ölüm cəzası hökmü Bakı xanının əlindən alınsın. Bu məsələni general Sisianov öz nəzarəti altında saxlamalı idi. Hüseynqulu xana 2 ədəd nəqliyyat gəmisinin verilməsinə gəlincə, rus çarı onların Həştərxanda quraşdırılması imkanının araşdırılmasını lazım bilirdi. O bəyan edirdi ki, digər rus təbəələri kimi Bakı xanı da bu hüquqdan istifadə edə bilər. Çünki rus çarı Bakı xanının xahişinə əməl edilməsini mümkün sayırdı (94).

Bu təlimatı alan kimi, general Sisianov Bakı xanına məktub göndərdi, onun və Bakı şəhərinin Rusiya təbəəliyinə qəbul edilməsi haqqında ona xəbər çatdırdı. Bakı xanının bu təbəəliyə sadiq qalacağına ümidlərini bildirdi. General Sisianov 1803-cü ilin payızında xahiş olunan rus qoşunlarının Bakıda olacağını çatdırdı. Eyni zamanda Bakı xanının nəzərinə o da çatdırıldı ki, xahiş etdiyi gəmilər Həştərxanda hazırdır və xanın səlahiyyətli nümayəndələri gedib həmin gəmiləri təhvil ala bilərlər (95).

Lakin general Sisianovun Bakı xanının Rusiya təbəəliyini qəbul etməsi ilə bağlı sevinci uzun sürmədi. 1803-cü ilin iyul ayının 19-da general Sisianova təqdim olunan məktubunda Bakı xanı Hüseynqulu xan Allahverdi bəy tərəfindən imzalanan öhdəliyi tanımadığını və bununla Rusiya təbəəliyini qəbul etmədiyi bəyan etdi. Hüseynqulu xanın yazdığına görə, Allahverdi bəy ona verilmiş səlahiyyətlərdən kənara çıxmışdı və onun belə bir sənədi imzalamaq hüququ yox idi. Aldığı bu xəbərdən son dərəcə əsəbiləşən Sisianovun fikrincə, Bakı xanını belə bir addım atmağa Şamaxı xanı Mustafa xandan ehtiyatlanması məcbur etmişdi. Mövcud məlumatlardan aydın olur ki, Hüseynqulu xanın nümayəndəsi Allahverdi bəy geri qayıdarkən Şamaxı xanının adamları tərəfindən tutulmuşdu. Mustafa xan onun apardığı sənədləri ələ keçirməklə bərabər, Allahverdi bəyin Hüseynqulu xana çatdıra biləcəyi şifahi ismarıcları da öyrənməyə cəhd göstərdi. Görünür, Allahverdi bəyə ciddi təzyiqlər göstərildi. General

Sisianovun sözlərinə görə, bu hadisədən sonra Hüseynqulu xan ehtiyatlanmağa başladı və Mustafa xanın qəzəbinə rast gəlməmək üçün geri addım atmalı oldu. Rusiya çarına göndərdiyi məktubunda general Sisianov Bakı xanının bu qərarını təhqiramiz ifadələrlə xatırlayırdı. General Sisianov Bakı xanını öz marağına uyğun qərara gəlməsini qəbul edə bilmirdi və onun bu qərarına görə cəzalandırılması üçün yol arayırdı. Sisianovun qənaətinə görə, Bakı xanına imzalanmış öhdəliyin qəbul edilməsi yolu silahlı təzyiq idi. O, Rusiya çarına da bəyan edirdi ki, Xəzər dənizindəki hərbi qüvvələr lazımi hazırlığa malik olsaydılar, Bakı şəhərini top atəşinə tutar və rus təbəəliyini silah gücünə Hüseynqulu xana qəbul etdirərdi. Bununla əlaqədar, Sisianov eyni zamanda Krımdan onun sərəncamına 2 alayın göndərilməsi barəsində vəsatət qaldırırdı (96).

Azərbaycan xanlıqlarının Rusiyanın nəzarəti altına gətirilməsi üçün ilk ciddi cəhdinin onun fərasətsizliyi kimi qiymətləndirilməməsi üçün general Sisianov baş verən hadisənin günahını rus konsulu Skibnevskinin üstünə atmaqdan da çəkinmirdi. Rusiyanın xarici işlər naziri qraf Voronsova yazdığı məktubunda general Sisianov konsul Skibnevskinin üstünə xeyli böhtanlar yağdırdı. Sisianova görə, Bakının Rusiya himayəsinə keçməsi ilə orada artıq konsul saxlanılmasına ehtiyac qalmırdı. İranla və Xəzəryanı ərazilərlə kommersiya əlaqələri qurmuş Skibnevski isə belə bir vəzifənin itirilməsini arzulamırdı və ona görə də Bakı xanlığının Rusiya himayəsinə keçməsində maraqlı deyildi. Sisianov yazırdı ki, Skibnevskinin bu mövqeyindən xəbərdar idi və vəzifəsini itirəcəyi halda onun dövlət tərəfindən yaxşıca mükafatlandırılması üçün vəsatət qaldırılacağına da söz vermişdi. Sisianov hətta konsul Skibnevskinin fəaliyyətsizliyini Bakı xanının rus təbəəliyini qəbul etməmək qərarından da ağır və arzu edilməz nəticəyə malik olduğunu bəyan edirdi. Sisianova görə belə bir şəxs onun üzərinə qoyulan vəzifələrin icrasında faydalı ola bilməzdi və ona görə də Rusiya xarici işlər naziri qarşısında konsul Skibnevskinin geri çağırılması haqqında məsələ qaldırdı. Rusiyanın xarici işlər naziri general Sisianovun bu vəsatətini qəbul etdi və Skibnevskinin geri çağırılması haqqında qərar verdi. Rusiya xarici işlər naziri qraf Voronsov ona da ümid etdiyini bildirirdi ki, konsul Skibnevskinin geri çağırılması Bakı xanına da ciddi təsir edə və onu öz qərarına yenidən baxmağa sövq edə bilər (97).

İstər general Sisianovun, istərsə də Rusiya xarici işlər naziri Voronsovun məktublarında Rusiyanın təbəəliyini (işğalını) qəbul etmək istəməyən və xanlığının müstəqilliyinin qorunması üçün mümkün yollar arayan Bakı xanı Hüseynqulu xan Şamaxı xanı Mustafa xan və digər xanlar haqqında çoxlu sayda məkrli, qəddar, ötkəm və s. kimi ifadələr işlədilir, onlar vəhşi təbiətli insanlar adlandırılırdılar və bununla da belə şəxslərə qarşı

yalnız güc tətbiq edilməsinin zəruriliyi əsaslandırılırdı. Rusiyanın xarici işlər naziri general Sisianova göndərdiyi məktubunda belə xarakterə malik olan Bakı xanının Rusiya təbəəliyindən imtina etməsinə görə təəssüflənməməyi, addım-addım öz planlarının icrasına doğru irəliləməyi tövsiyə edirdi. Rusiya xarici işlər naziri Mustafa xanın Rusiyaya tərəf meylləndirilməsi barəsində də iş aparılmasını P.D.Sisianova tapşırırdı. Onun fikrincə, Şamaxı xanlığının Rusiya təbəəliyinə gətirilməsi Bakı xanlığının məsələsinin həllini asanlaşdıra bilərdi (98).

Yuxarıda qeyd edildiyi kimi, general Sisianov Xəzərdə Rusiyanın hərbi-dəniz qüvvələrinin zəif olmasından çox narahat idi və ümumən bölgəyə gəlişinin ilk aylarında onun yazışmalarında Xəzər dənizinin Rusiyanın nəzarəti altında saxlanması məsələsi də əsas yerlərdən birini tutur. Xəzər dənizinin Rusiyaya bağlılığının nəzarət altında saxlanması general Sisianova həvalə olunan tapşırıqlardan idi. Ona görə də 1802-ci ilin sonu və 1803-cü ilin əvvəllərində general Sisianov Xəzər məsələlərinə də müəyyən diqqət ayırmalı olmuşdu. O hələ Tiflisə yetişməmişdən qabaq Rusiya çarının Xəzər dənizi ilə bağlı göstərişini aldı. Həmin göstərişdə bildirilirdi ki, Bakı, Lənkəran və Ənzəli xanları Xəzər dənizinə gəmi çıxarıblar. Rusiya çarı bunu qəbuledilməz sayırdı və çatdırırdı ki, Xəzər dənizində yalnız Rusiya gəmiləri üzə bilər. Ona görə də bu məsələnin araşdırılması general P.D.Sisianova tapşırıldı. General Sisianov adları çəkilən xanlara çatdırmalı idi ki, onlar Xəzər dənizinə gəmi çıxarmaq hüququna malik deyildirlər və gəmilərin dənizə çıxarılmasını dayandırmalı idilər. Eyni zamanda Sisianov adları çəkilən xanlara Xəzərdə gəmilərdən istifadə üçün hər hansı çərçivədə hüquq verilib-verilməməsi ilə maraqlanmalı idi (99).

General Sisianov Tiflisə yetişən kimi bu məsələnin araşdırılmasına başladı. O, həm Xəzər donanmasının və Həştərxan limanının komandanı general-mayor Joxova, həm də Xəzərə gəmi çıxarmış xanlara məktub göndərdi. Sisianov general Joxovun qarşısında tapşırıq qoydu ki, Xəzərə çıxarılan gəmilərlə bağlı araşdırma aparsın. Onun nəzərinə çatdırdı ki, rus gəmilərinin ölçüsündə olan qeyri-rus hərbi və ticarət gəmilərinə Xəzər dənizində yer olmamalıdır. General Joxov Xəzər dənizində müşahidə təşkil etməli və kənar gəmilərin mövcudluğu qeydə alınanda həmin gəmilərə Xəzərdə üzmək hüququnun olmadığı xatırladılmalı idi. Sisianov tərəfindən Bakı, Lənkəran və Ənzəli xanlarına göndərilən məktublarda da onların Xəzər dənizində gəmi saxlamaq hüququ olmadığını və onların gəmilərinin Xəzərdə görünəcəyi halda həbs olunacaqlarını bildirdi (100).

General Sisianovun araşdırmalarında Xəzər dənizində adları çəkilən xanlara məxsus gəmilərin mövcudluğu təsdiq olundu. O da məlum oldu ki, həmin gəmilər Ənzəli ustaları tərəfindən hazırlanıbmış. Rusiya çarına

göndərdiyi məruzəsində Sisianov Xəzər dənizində görünəcəyi təqdirdə həmin gəmilərin saxlanması üçün qəti addımlar atılacağını bəyan etdi. Eyni zamanda general Sisianov Rusiya çarı qarşısında vəsatət qaldırdı ki, yerli əhaliyə məxsus olan kirjimlərin Xəzər dənizində üzməsinə hələlik icazə verilsin. Xəzər dənizində Rusiyaya məxsus nəqliyyat gəmilərinin yetərincə olmadığı vaxtda həmin kirjimlər daşınmaları həyata keçirirdi (101).

Sonrakı araşdırmalar göstərir ki, haqqında danışılan gəmilər heç də rusların təsəvvür etdiyi ölçülərdə deyil və onların şəxsi heyəti çox az idi. Bu gəmilər xanlara deyil, xanlıq ərazisində yaşayan ayrı-ayrı şəxslərə mənsub idi və onlar Xəzər dənizində üzərkən heç bir bayraqdan istifadə etmirdilər. Gəmilərdə rusların təşvişinə səbəb ola biləcək silahlar da yox idi. Hər gəmidə 2-3 zənburək topları var idi ki, onlardan da yalnız sahilə yanaşarkən yaylım atəşləri açılırdı. Bu gəmilərin yük qaldırma qabiliyyəti də böyük deyildi. Rusiyanın Ənzəlidəki baş konsulu Skibnevskinin verdiyi məlumata görə, həmin gəmilərin hazırlanmasında rus gəmiçiliyinin detallarından çoxlu istifadə edilmişdi. Bununla əlaqədar o təklif verirdi ki, Həştərxan tərsanələrində yoxlanış aparılsın və müəyyənləşdirilsin ki, burada hansı detallar satılır (102).

Rusiya özünün cənub siyasəti çərçivəsində Xəzər dənizini tam nəzarət altında saxlamaq və Xəzər dənizinə çıxarılmış hərbi gəmilərdən də Azərbaycan xanlıqlarının işğalında istifadə etmək istəyirdi. Bu məqsədlə Rusiya imperatoru Xəzər hərbi donanmasına rəhbərliyi də P.D.Sisianovun ixtiyarına verdi. General Sisianov Xəzər hərbi donanmasının vəziyyətini öyrəndikdən sonra onun gücləndirilməsi barəsində öz təkliflərini Rusiya çarına göndərməli idi (103).

General P.D.Sisianovun Tiflisə gəldiyi vaxtlarda Xəzəryanı Azər-baycan xanlıqlarından daha çox Lənkəran xanlığı ilə anlaşma mövcud idi. Bu da daha çox Lənkəran xanlığının qərar tutduğu mürəkkəb şəraitlə bağlı idi. Daim Qacar təhlükəsi altında olan Lənkəran xanı Mir Mustafa xan xanlığın qorunmasının daha etibarlı yolunu Rusiya himayəsinə sığınmaqda görürdü. Sara adasında rus ticarət gəmiçiliyinin təhlükəsizliyinin qorunması üçün saxlanılan iki rus hərbi gəmisi Mir Mustafa xanın Rusiya köməyinə olan ümidini daha da artırırdı. General P.D.Sisianovun Azərbaycan xanlıqlarını Rusiya himayəsinə cəlb etmək istəyi isə Mir Mustafa xana əlavə ümidlər verirdi. Rusiya sarayına bağladığı ümidlərin reallaşdırılması üçün Mir Mustafa xan öz nümayəndəsini Georgiyevsk müzakirələrinə göndərdi və Georgiyevsk müqaviləsini imzalayan tərəflərdən biri oldu.

Lənkəran xanı general Sisianovun rus qoşunlarının baş komandanı təyin edilməsini və onun Tiflisə gəlişini də sevinclə qarşıladı. Rusiyanın himayəsində xanlığın müstəqilliyinin qorunmasına bel bağlayan Mir

Mustafa xan hələ Sisianov Tiflisə yetişməmişdən əvvəl onunla məktublaşmağa başladı. Bu məktublarının birində Mir Mustafa xan general Sisianova Rusiya himayəsinə olan meylindən söhbət açır və Rusiya təbəəliyində olduğu üçün dinc yaşaya bilməsini qeyd edirdi. Mir Mustafa xan rus generalına Qacar sarayı ilə onun arasında olan nifaq haqqında da məlumat verməklə özünün təhlükəsizlik ümidlərini Rusiya sarayına və Sara adasındakı rus hərbi gəmilərinə bağladığını bildirirdi. Mir Mustafa xan xanlığın təhlükəsizliyinin daha etibarlı edilməsi üçün general Sisianovdan Sara adasındakı rus qüvvələrinin möhkəmləndirilməsini xahiş edirdi. Məlumdur ki, Mir Mustafa xan xanlıq ərazisinə rus piyada qüvvələrinin gətirilməsini də xahiş etmişdi (104).

Mir Mustafa xanın daha böyük rus hərbi yardımını almaq istəyi həyata keçməmiş qaldı. Amma məktublarının birində general Sisianov bildirdi ki, Sara adasında olan rus hərbi gəmiləri rus ticarətinin qorunması üçün ora göndərilsə də Lənkəran xanının və onun ailəsinin təhlükəsizliyi qayğısına qalacaqdır. Rus hərbçiləri təhlükə yaranan anda Mir Mustafa xanı və onun ailəsinin Sara adasına aparmalı idilər. Bununla belə, general Sisianov Sara adasındakı rus hərbi gəmilərinin əsas vəzifəsinin məhz rus ticarətinin qorunması olduğunu bildirirdi (105).

Məhz rus ticarətinin maraqlarının qorunması istiqamətində Mir Mustafa xan güvəndiyi rus hərbi gəmilərinin komandirləri onunla düşmən münasibətində olan xanlarla əlaqəyə girirdilər. Bu da Mir Mustafa xanın Rusiyaya qarşı olan münasibətinin qəlizləşdirilməsinə yol açırdı. Bu baxımdan onunla ruslara məxsus "Mozdok" gəmisinin kapitanı Moçalov arasında qarşıdurma yarandı. Bu qarşıdurma ilə bağlı tarixi mənbələrdə kapitan Moçalovun izahatı qalmışdır. Bu izahatı tam obyektiv izahat kimi dəyərləndirmək doğru olmasa da, orada Mir Mustafa xanı razı salmayan müəyyən məqamları aydınlaşdırmaq mümkündür. Bu da Mir Mustafa xanın Rusiyaya olan etimadının tənəzzülünü şərtləndirirdi. Kapitan Moçalovun yazdığına görə, Mir Mustafa xan Qacar təhlükəsi mövcud olmadığı halda ondan Qacarlara qarşı müdafiənin təşkilini tələb edirdi. Guya kapitan Moçalov Qacar təhlükəsinin olmadığını iddia etsə də, Mir Mustafa xan ondan hərbi kömək istəyirdi. Lənkəran xanlığının etibarlı müdafiəsi üçün rus hərbçiləri tərəfindən ciddi addım atılmadıqda Mir Mustafa xan öz narazılığını bildirməyə başladı. Kapitan Moçalovun yazdığına görə, Mir Mustafa xanın rus hərbçilərindən incik düşməsinin əsas səbəbi rus hərbçilərinin Ənzəli xanı Mirzə xanla yaxın münasibətdə olması idi. Kapitan Moçalov Ənzəlidə rus ticarətinin genişləndirilməsi üçün özünün və digər rus hərbçilərinin Mirzə xanla yaxşı münasibətlərdə olmasına haqq qazandırırdı ki, bu da Mir Mustafa xanın xoşuna gəlmirdi. Rus hərbçilərinin Rəşt xanı ilə

olan yazışmalarını ələ keçirdikdən sonra Mir Mustafa xan qəzəbi daha da artdı. Mir Mustafa xanın rus hərbçilərinə qarşı etimadsızlığının artması ehtimalı general Sisianovun da müəyyən narahatlığına səbəb oldu. Lənkəran xanının Rusiya himayəsindən uzaqlaşa bilməsinin qarşısını almaq üçün general Sisianov ona məktub göndərdi. P.D.Sisianov xahiş etdi ki, Mir Mustafa xan rus dəniz hərbçilərinə etimadsızlıqla yanaşmasına son qoysun və onlara qarşı hər hansı narazılığı olarsa, məsələni birbaşa Sisianovun özünə çatdırsın (106).

Mir Mustafa xan general Sisianovun bu məktubunu cavabsız qoymadı, onun yazdıqlarına və kapitan Moçalovun iddialarına öz münasibətini bildirdi. Mir Mustafa xan bir daha rus hərbçilərinin Rusiyaya və Lənkəran xanlığına düşmən münasibətdə olan Qacar nümayəndələri ilə, xüsusilə Rəşt xanı Məmmədrza xanla əlaqədə olmasına etirazını bildirdi (107). Bununla əslində rus hərbçilərinin ikiüzlü siyasət yeritmələrini Mir Mustafa xan general Sisianovun nəzərinə çatdırdı. Bu hadisədən sonra Mir Mustafa xan heç də Rusiyaya qarşı çevrilmədi. Lakin onda da Rusiya siyasətinin səmimiliyinə bir şübhə yarandı. O hətta Rusiya himayəçiliyinin Rusiya işğalına çevriləcəyi təqdirdə Rusiyaya qarşı çıxacağını da bildirdi (108).

### *4. Car-Balakənin işğalı*

Tiflisə yetişəndən sonra general Sisianovun gördüyü işlərdən biri gürcü çar ailəsi üzvlərinin Gürcüstandan uzaqlaşdırılması oldu. Gürcü çar ailəsi üzvlərinin sayı 90-a çatırdı (109). Bu şəxslərin Gürcüstanın Rusiya tərəfindən işğalına, Gürcüstan daxilində baş verənlərə öz münasibətləri var idi. Onların malik olduğu mövqe isə Gürcüstan əhalisinin ayrı-ayrı təbəqələrinə özünəməxsus təsir göstərirdi. Bu da cəmiyyət daxilində parçalanmanı, qarşıdurmanı daha da şiddətləndirdi. Belə bir şəraitdə işğalın möhkəmləndirilməsinin mümkün olmadığı aydınlaşanda gürcü çar ailəsi üzvlərinin Rusiyaya sürgün edilməsi qərara alındı. Bu məsələ general Sisianov tərəfindən həyata keçirildi. Doğrudur, bu sürgünlərin həyata keçirilməsi ruslar üçün heç də itkisiz ötüşmədi. Gürcü çarıçası Mariya öz vətənindən uzaqlaşmağa məcbur ediləndə buna etiraz əlaməti olaraq imkan tapıb general Lazarevi qətlə yetirdi (110).

Şahzadə Aleksandr, Yulon və Teymurazdan başqa digər şahzadələr Rusiyaya sürgün edildilər. Şahzadə Aleksandr Gürcüstan ərazisində olmadığı üçün bu sürgündən nicat tapdı. O, Rusiya işğalına qarşı müxalifətdə olmaqla həm Qacarlar sarayı, həm də bəzi Azərbaycan xanları ilə əlaqə saxlayırdı. 1803-cü ilin əvvəlində o, Car-Balakəndə idi və burada yerli əhali ilə birlikdə Rusiya işğalına qarşı mübarizə planları hazırlayırdı.

Car-Balakən əhalisinin Gürcüstan daxilinə silahlı yürüşləri Gürcüstanda Rusiya işğalının möhkəmləndirilməsinə mane alan ciddi maneələrdən biri idi. Bu bölgənin döyüşgən əhalisi rus tarixi ədəbiyyatında və mənbələrdə əsasən ləzgi kimi təqdim olunur və bu əhalidən təşkil olunan silahlı dəstələrin çevik yürüşləri Gürcüstan ərazisindəki rus qoşunlarına xeyli narahat günlər yaşadırdı. Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra bu yürüşlərin sayı daha da artdı. Rus generalı Lazarevin yazdığından aydın olur ki, Gürcüstanın Rusiyaya birləşdirilməsinin elan olunmasından az sonra 1801-ci il martın sonlarında silahlı ləzgi dəstələri Sıqnax yaxınlığında, Alazan çayını keçərək Saqurama qalasına doğru irəlilədilər və burada düşərgə saldılar. Sonra da bu düşərgədən ətraf məntəqələrə silahlı dəstələr göndərdilər. Ləzgi dəstələrinin bu yürüşlərinin qarşısının alınması üçün general Lazarev Alazan çayının Sıqnaxdan aşağı axarı boyunca Qaraağac qalasından Kür çayına qədər olan ərazidə bir muşketyor taboru və kazak atlılarını yerləşdirmək istəyirdi. O, ləzgi dəstələrinin yürüşlərinə qarşı müdafiənin gücləndirilməsi üçün başqa bir muşketyor taborunu da Martkopi və Kikabeti məntəqələri arasında yerləşdirmək istəyirdi. Bu müdafiə xəttinin qurulduğu təqdirdə general Lazarevin fikrincə, ləzgi dəstələri birbaşa Gürcüstan ərazisinə girmək imkanından məhrum olaraq marşrutlarını dəyişməli olacaqdılar. Güman edilirdi ki, bu halda ləzgi dəstələri Gəncə və İrəvan xanlıqlarının ərazisindən keçməklə Axalsıxa, oradan da Kartaleniya və Somxetiyə yürüşlər edə biləcəklər. Burada isə yürüşlərin qarşısının alınması üçün başqa bir muşketyor taborunun kazaklarla birlikdə Pəmbəkdə yerləşdirilməsi təklif olunurdu (111).

General Lazarevin bu təklifi qismən nəzərə alındı və ləzgi hücumlarının qarşısının alınması üçün Alazan çayı boyunca rus hərbçilərindən ibarət piyada postları quruldu. Atlı ləzgi dəstələrinin qarşısının saxlanması üçün isə bu piyada postları yetərli deyildi. Çünki bu postlarda dayananlar atlı silahlıların sürətli hərəkətlərini izləyə bilmirdilər. Ona görə general Lazarev əlavə təklif irəli sürdü ki, Alazan çayı boyunca heç olmasa kazak atlı dəstələri yerləşdirilsin (112).

Gürcüstan ərazisində rus qoşunlarının sayı bütün sərhəd xətti boyunca silahlı yürüşlərin qarşısının alınmasına kifayət deyildi. Mövcud qüvvələrlə isə Car-Balakən bölgəsindəki və ətraf məntəqələrdən həyata keçirilən silahlı yürüşlərin qarşısını saxlamaq mümkün deyildi. Nəticədə rusların özlərinə də xeyli ziyanlar dəyirdi. Buna görə idi ki, 1801-ci ilin avqustunda mayor Alekseyev adlı bir rus hərbçisi Alazan kəndi yaxınlığında yerləşən ləzgi kəndlərinin və ləzgilərə kömək edən gürcülərin cəzalandırılmasını təklif edirdi. Mayor Alekseyev onu da çatdırırdı ki, bölgənin ləzgi və digər xalqları Gürcüstan ərazisindəki bütün rusların məhv edilməsini planlaşdırırlar və

bunun üçün silahlı dəstələr toplanmasına başlamışlar. Ləzgi silahlılarının rus hərbçilərinə çoxlu tələfat yetirməsini general Lazarev də təsdiq edirdi. Onlar rus dəstələri üzərinə hücum edərək onları qətlə yetirirdilər. General Lazarev bu yürüşlərin qarşısının birdəfəlik alınması üçün hələ 1801-ci ilin avqus-tunda Car-Balakən üzərinə hücum təşkil edilməsini və bu məntəqələrin var-yoxdan çıxarılmasını təklif edirdi (113).

Car-Balakən dəstələrinin Gürcüstan üzərinə yürüşlər etməsi və Gürcüstan daxilindəki rus qoşunlarına narahatlıq yaratması general Sisianovun Cənubi Qafqaza təyin edildiyi vaxtlarda da davam edirdi. Tiflisə yetişəndən sonra isə car-balakənlilərin yürüşlərinin qarşısının alınması general Sisinovun diqqətini çəkən ilk məsələlərdən biri oldu. Bu yürüşlərdən mühafizə olunmağın ilk addımı kimi general Sisianov yürüşlərin baş verdiyi əsas istiqamətlərdə mühəndis-istehkam işlərinin aparılmasına göstəriş verdi (114).

1802-ci il dekabr ayının ortalarında rus hərbçiləri erməni casusları vasitəsilə Car-Balakən silahlı dəstələrinin Gürcüstan üzərinə, konkret olaraq Sıqnax qalası üzərinə 7 minlik dəstə ilə hücum edəcəkləri barədə məlumat aldılar. Erməni casuslarının verdiyi xəbərə görə, gürcü şahzadəsi Aleksandr da bu yürüşdə iştirak etməli idi. Ruslar erməni casusunun verdiyi bu məlumatı doğru qəbul etdilər və gözlənilən yürüşlərdən müdafiə olunmaq üçün Sıqnaxa bir bölük rus dəstəsi, bir ədəd top və kazaklar yerləşdirildi (115).

Bir müddət sonra Sıqnaxda yerləşdirilmiş rus dəstəsinin komandiri mayor Olxovski erməni casusunun verdiyi məlumata əks olan məlumat göndərdi. Mayor Olxovski bildirirdi ki, Car-Balakən əhalisi Gürcüstandakı rus qoşunlarına dostcasına yanaşırlar və hətta oraya sığınmış olan gürcü şahzadəsi Aleksandrın tutulub təhvil verilməsinə də hazırlaşırlar. Məsələnin aydınlaşdırılmasını general Sisianov general Qulyakova tapşırdı. Sisianov onun qarşısına belə bir tapşırıq qoydu ki, özü Sıqnaxa yollansın və orada yerləşmiş olan bölüyə yürüşə hazırlıq komandası versin. Bundan sonra general Qulyakov Car-Balakən üzərinə hücuma hazırlaşması barəsində şayiə buraxmalı idi. General Sisianovun fikrincə, əgər Car və Balakən əhalisi Rusiyaya qarşı qeyri-düşmən münasibətdə idilərsə, onda onlar general Qulyakovla əlaqə qurmağa çalışacaqdılar. Car-Balakən əhalisi yaxın münasibətlər nümayiş etdirəcəkləri təqdirdə general Qulyakov onlardan gürcü şahzadəsi Aleksandrın tutulub rus hərbçilərinə verilməsini tələb etməli idilər. Gürcü şahzadəsi təhvil veriləndən sonra isə general Qulyakov onun təhlükəsiz şəkildə göndərilməsinə çalışmalı idi (116).

General Sisianovdan alınan bu tapşırıqdan bir neçə gün keçəndən sonra general Qulyakovun ona göndərdiyi raportunda şahzadə Aleksandrın öz adamlarının Kaxetiyaya göndərməsi, gürcü əhalisinin Car-Balakən dəs-

tələrinə kömək göstərməyə çağırması, Kaxetiyadan olan bir çox knyazların şahzadə Aleksandrın yanına qaçması haqqında məlumat vardı (117).

Bu məlumatın Sisianovun araşdırma aparmaq tapşırığı ilə bağlı olub-olmadığını söyləmək çətindir. Hər halda 1803-cü il mart ayının əvvəlində general Qulyakov böyük bir dəstə ilə Cara doğru hərəkətə başladı. P.D.Sisianovun tapşırığı əsasında general Qulyakov ixtiyarında olan dəstə ilə Alazan çayı üzərindəki Urdo keçidinə tərəf irəliləməli və burada Car-Balakən dəstələrinin yürüşünün qarşısının alınması üçün müdafiə mövqelərinin yerlərini müəyyənləşdirməli, Alazan çayının ətrafının kəşfiyyatını aparmalı idi. Bu işlərin görülməsi ona tapşırılmış əlavə işlər idi. Əsas tapşırıq isə ondan ibarət idi ki, güc nümayiş etdirməklə Car-Balakən əhalisindən şahzadə Aleksandr təhvil alınsın və Car-Balakən istiqamətindəki hərbi yürüşlərin baş verməyəcəyinə əmin olmaq üçün bu bölgəyə qoşun dəstəsi yeridilsin (118).

Car-Balakənə qoşun çıxarmaqla general Sisianov bir neçə məsələni həll etməyə çalışırdı. Əvvəla, bununla Gürcüstan daxilində həyata keçirilən yürüşlərin qarşısının alınması ilə Gürcüstandakı rus işğalını möhkəmləndirə bilərdi. İkincisi, Car-Balakənin nəzarət altına alınması ilə rus işğalının coğrafiyası genişləndirilə bilərdi. Nəhayət, bu yürüşün P.D.Sisianovun gözlədiyi nəticə ilə başa çatacağı təqdirdə general Sisianov ona bağlanılan ümidlərin əbəs olmadığını doğrultmuş olardı. Ona görə bu yürüş zamanı general Sisianov işğalçı qəddarlığının nümayiş etdirilməsini istisna etmirdi. General Qulyakova verdiyi tapşırığında da general Sisianov tələb edirdi ki, müqavimətlə rastlaşacağı təqdirdə topları işə salsın, Rusiya imperatorunun silahının şərəfini əldə etdiyi nəticələrlə sübut etsin (119).

Car-Balakən üzərinə yürüşdə rus qoşun dəstələrindən başqa gürcü könüllüləri də iştirak edirdilər. Onlar knyaz Orbelianinin təşəbbüsü və general Sisianovun göstərişi əsasında toplanmışdılar. Bu könüllülərin sayı rus qoşun dəstəsinin sayından üç dəfə artıq idi (120).

Car-Balakən üzərinə yürüşdə general-mayor Qulyakovun rəhbərliyi altında aşağıdakı qüvvələr iştirak edirdilər: kabardin muşketyor alayının 2 taboru, Tiflis muşketyor alayının qrenadyor taboru, 9-cu topçu taboru, kazak bölmələri və gürcü könüllüləri. Say tərkibinə gəldikdə isə dəstədə1482 rus hərbçisi, 210 kazak, 113 qeyri-nizami, 500 gürcü atlısı və 4000 gürcü piyadası var idi (121).

Mart ayının 2-də general Qulyakovun rəhbərliyi altında olan dəstə Cara doğru hərəkətə başladı. Mövcud olan məlumatlara görə, dəstənin hərəkəti güclü yağmurla müşayiət olunan mürəkkəb hava şəraitində keçirdi. General Sisianov isə öz yazışmalarında bölgənin xəritəsinə malik

olmadığından və bunun üçün də hərəkətin qeyri-müəyyən şəraitdə keçdiyindən şikayətlənirdi (121).

Mart ayının 4-də günortaya yaxın Qulyakovun dəstəsi Urdo keçidi yaxınlığında istirahətə dayandı. Rus qoşun dəstəsinin hərbi yürüşə başlaması Car-Balakən əhalisi tərəfindən izlənilirdi və rusların hücumunun dəf edilməsi üçün hazırlıq işləri də görülürdü. İlkin tədbir kimi yerli əhalinin silahlı dəstələri Urdo keçidi yaxınlığında, Alazan çayının əks istiqamtində müdafiə mövqeləri tutdular. Rusların verdiyi məlumatlara görə, carlılar hətta səngərlənmişdilər də. Urdo keçidi ətrafında şəraitin kəşfiyyatının aparılması üçün polkovnik Drenyakinin rəhbərliyi altında dəstə göndərildi. Bu dəstə kazaklardan və gürcülərdən təşkil olunmuşdu. Ruslar Alazan çayına yaxınlaşanda carlılar müdafiə olunduqları mövqelərdən onlara atəş açdılar. Polkovnik Drenyakinin dəstəsi irəli hərəkətini dayandırmalı oldu. General-mayor Qulyakov bundan xəbər tutan kimi üç toplu bir taborla, gürcü atlıları və piyadası ilə Urdo keçidinə tərəf istiqamət götürdü. Şəxsi heyəti döyüşə atmaqdan ehtiyatlanan general Qulyakov carlıları top atəşinə tutdu və bununla onları Urdo keçidindən uzaqlaşdırmağa müvəffəq oldu (122).

Rus tarixi ədəbiyyatının verdiyi məlumata görə, Urdo keçidi ətrafında Alazan çayının yatağının eni 40 sajen idi. Həm də bu yerdə çayın sahili sərt qayalıq idi. Ona görə də, general Qulyakov çayı başqa məntəqədə keçməyi qərarlaşdırırdı. Qərara alındı ki, Anaqa kəndi yaxınlığında Alazan çayının keçilməsi daha münasibdir. Lakin seçilmiş yeni marşrut da general Qulyakovun ürəyincə olmadı. Çünki Balakən istiqamətində aparan yol həm sıx meşəlikdən, həm də bataqlıqdan keçməli idi. Bu isə çoxsaylı rus dəstəsinin hərəkətini xeyli çətinləşdirirdi. Balakənə yaxınlaşanda isə ruslar yerli silahlı dəstələrin müqaviməti ilə rastlaşdılar. Yerli silahlı dəstələr çoxsaylı rus dəstəsinin qarşısının saxlanması üçün meşəlik və bataqlıq nöqtələr ətrafında müdafiə mövqeləri qurmuşdular. Yenə rus tarixi ədəbiyyatının verdiyi məlumata görə, guya burada 10 minə qədər ləzgi müdafiə olunurdu (123) ki, bu məlumatın düzgünlüyü şübhə doğururdu. Əvvəlla, məlumdur ki, Car-Balakən silahlıları daha çox kiçik dəstələrlə fəaliyyət göstərirdilər. O biri tərəfdən isə bataqlıq və keçilməz meşəlik ərazilərdə 10 min atlının yerləşdirilməsi elə də asan olmazdı.

Qaçqın düşmüş gürcü şahzadələri Aleksandr və Teymurazın da Car-Balakın silahlı dəstələri ilə bir yerdə olduğu bildirilir. General-mayor Qulyakov yerli silahlı dəstələrin müqavimətinin qırılması üçün onların yerləşdikləri ərazilərin kəşfiyyatını özü apardı. General Qulyakov dəstənin parkını və təchizatını dayandıqları yerdə cəmləşdirib onların mühafizəsini gürcü atlılarına tapşırdı. Gürcü atlılarına kömək üçün əlavə qruplar da verildi ki, bu qruplar gürcü atlılarını cinahlardan müdafiə etməli idilər.

General Qulyakov özü rəhbərlik etdiyi silahlılarla müstəqim şəkildə yerli silahlıların müdafiə mövqeləri üzərinə hərəkətə keçdi. Başqa bir dəstəyə isə yerli silahlıları cinahdan əhatə etmək əmri verdi. Yerli silahlı dəstələr general Qulyakovun dəstəsinin təzyiqinin qarşısını saxlaya bilməyərək geri çəkilmək məcburiyyətində qaldı. Don kazakları və gürcü atlıları onları Balakənə qədər təqib etdilər (124).

Rus tarixi ədəbiyyatında general Qulyakovun Balakən səfəri xüsusi hərbi qələbə kimi böyük səxavətlə vəsf olunsa da, əslində həmin yürüşün nəticəsinin əvvəlcədən görmək mümkün idi. Bir tərəfdən general Qulyakovun dəstəsi say üstünlüyünə malik idi. Ləzgilərin 10 min olması haqqında verilən məlumat, yuxarıda deyildiyi kimi, həqiqətdən uzaq idi. Rus tarixçilər sonra yazırdılar ki, Alekseyev adlı bir mayor taboru ilə ləzgiləri çox uzun məsafəyə təqib etdi (125). Məlumdur ki, bir taborla 10 minlik qoşunu təqib etmək olmazdı. Digər tərəfdən general Qulyakovun dəstəsinin əsasını nizami rus qoşun dəstəsi və 8 ədəd top təşkil edirdi. Car-Balakənin yerli dəstəsi isə kortəbii şəkildə toplanmış və hətta döyüş düzülüşünün nə demək olduğundan xəbərsiz olan könüllülər idi. Bu könüllülərin toplarla möhkəmləndirilmiş rus nizami qoşun dəstələrinə ciddi müqavimət göstərəcəyi mümkün olmazdı.

Car-Balakən silahlılarının geri çəkilməsindən son dərəcə sevinən Sisianov müdafiəsiz qalmış yerli əhaliyə Rusiya təbəəliyini sıramaq üçün öz qətiyyətini nümayiş etdirdi. O, general Qulyakov qarşısında tapşırıq qoydu ki, yerli əhalini Rusiya təbəəliyinə qəbul etməyə məcbur etsin. General Sisianov Rusiya təbəəliyinin qəbul edildiyi təqdirdə yerli idarəçiliyi saxlamağa söz verirdi. Bir şərtlə ki, Car-Balakın camaatı Rusiyaya vergi ödəsin və bir də gürcü şahzadəsi Aleksandrı ruslara təhvil versinlər. General Sisianovun təbirincə, silahın şərəfi onda idi ki, onun vasitəsilə əldə edilən geri qaytarılmasın və məğlub olana öz qanunlarını qəbul etdirsin. Sisianov onu da əlavə edirdi ki, biz öz hökmümüzü göstərməsək onlar yenidən orada toplaşacaqlar və o zaman rus dəstəsinin fəaliyyətinin heç bir nəticəsi olmayacaqdır (126).

Car-Balakən ərazisində rus qoşunlarının fəaliyyətinin bir çox başqa xanlıqlarda olduğu kimi, yalnız general Sisianovun və digər rus generallarının yazışmalarından izləmək mümkündür. Bu hadisələr haqqında müstəqil və qarşı tərəfin fikrini əsas tutan mənbələr yox dərəcəsindədir. Ona görə də rus silahının şərəfinin və rusların hökmünün necə nümayiş etdirilməsi haqqında məlumat yoxdur. Hər halda Car-Balakən əhalisinin də öz ev-eşiklərini tərk edib dağlara və meşələrə qaçması rus silahının bölgəyə gətirdiyi nəticələrdən idi. Görünür, Car-Balakən əhalisi rus qoşunlarının yü-

rüşü nəticəsində ağır vəziyyətə düşmüşdü ki, Şəki xanı Məhəmməd Həsən xan vasitəçilik etməsi ilə onların vəziyyətini yüngülləşdirməyə çalışmışdı.

Bununla bağlı, Məhəmməd Həsən xan general Sisianova məktub yazdı, car-balakənliləri öz müttəfiqi saymaqla onları general Sisianovla barışdırmağa çalışdı. Başqa sözlə, Məhəmməd Həsən xan ruslar tərəfindən car-balakənlilərə divan tutulmasının dayandırılmasına cəhd göstərdi. Car-balakənlilərə divan tutulduğunu general Sisianov da öz məktublarında inkar etmirdi. O, Şəki xanına yazdığı məktubunda bildirirdi ki, Car-Balakən üzərinə hücum Rusiyanın Gürcüstandakı işğalının möhkəmləndirilməsi üçün həyata keçirilmişdir. O bəyan edirdi ki, Gürcüstanın əldə saxlanması üçün qonşu xanlara yaxşı dərs verilməli və onlar Gürcüstana hörmətlə yanaşmağa məcbur edilməlidirlər. Car-Balakənə hücumla bağlı isə general Sisianov yazırdı ki, məqsəd ya onları itaətə gətirmək, ya da onları yer üzündən silməkdir. Məktubunda yazdığı bir neçə cümlə də Sisianovun xarakterinin və bölgədə həyata keçirdiyi rus işğalının mahiyyətini aydınlaşdırmaq üçün tutarlı tarixi materialdır. General Sisianov Car-Balakən əhalisinə qarşı güc tətbiqinin dayandırılması üçün öz şərtlərini irəli sürürdü və Məhəmməd Həsən xana çatdırırdı ki, car və balakənlilər gecikdirilmədən həmin şərtləri qəbul etməlidirlər. Bir neçə gün ərzində bu şərtlərin qəbulu baş verməsəydi onda general Sisianov rus qoşunlarını yerli əhaliyə qarşı hər şeyi etmək tapşırığı verməli idi. Məktubunun sonunda general Sisianov bir daha bəyan edirdi ki, Rusiya imperatorunun düşmənləri rus silahının gücü ilə məhv edilməlidir (127).

General Sisianovun Car-Balakən əhalisi ilə ilk barışıq şərti gürcü şahzadəsi Aleksandrla bağlı idi. Rus qoşunları Car-Balakənə gələndən sonra gürcü şahzadəsi Aleksandr bu bölgəni tərk edərək Qarabağa yollanmışdı. General Sisianov tələb edirdi ki, gürcü şahzadəsi Aleksandr yenidən bu bölgəyə gəlməli olsa ona heç kim yer və sığınacaq verməsin.

General Sisianovun ikinci tələbi belə idi ki, Car-Balakəndə rus qarnizonunun saxlanmasına razılıq verilsin. Bu qarnizonun saxlanması Rusiyanın xərcləri hesabına olmalı idi.

Üçüncü şərtə görə, Car-Balakən əhalisi Rusiyaya vergini ipəklə verməli idi. Bu verginin miqdarı bir vaxtlar gürcü çarlığına verilən vergi miqdarında olmalı idi.

Dördüncü şərtə görə, Car və Balakənin hər birinin hörmətli adamlarından 5 nəfər Sisianovun yanına girov göndərilməli idi.

Beşinci şərt isə general Sisianovun öhdəliyi ilə bağlı idi. Yuxarıdakı şərtlərin qəbul ediləcəyi təqdirdə general Sisianov Car və Balakənin daxili idarəçiliyinə müdaxilə etməyəcəyini vəd edirdi.

Sadalanan şərtlər qəbul olunardısa, onda Car-Balakəndən bir neçə nümayəndə general Sisianovun yanına gəlməklə müqavilə imzalamalı və Rusiyaya sədaqət andı qəbul etməli idilər (128).

Belə olanda general Sisianovun tapşırığına əsasən, general Qulyakov Car əhalisini irəli sürülən təkliflərin qəbul olunmasına məcbur etmək üçün Cara doğru hərəkəti davam etdirdi. Rus mənbələrinə görə, Şəki xanı Məhəmməd Həsən xan da carlılara kömək üçün qoşun dəstəsi göndərdi. Mart ayının 27-də rus dəstəsi Katex kəndinə yetişdi. Rus qoşun dəstəsinin gəlməsi xəbərini eşidən adamlar Katexi tərk edərək dağlara və meşələrə çəkilmişdilər. Ruslar müqavimətsiz şəkildə Katexi tutdular. Carlıların köməyinə gəlmiş Şəki xanının silahlı dəstəsi də çoxsaylı rus dəstəsinə müqavimət göstərmədən geri çəkildi (130). Yaranmış vəziyyət Car əhalisinin vəziyyətini xeyli ağırlaşdırmış oldu.

General Sisianovun sonrakı yazışmalarından aydın olur ki, rus qoşunları tərəfindən tutulan Balakən tamamilə talan edilmiş və yandırılmışdı (129). Buna görə də carlılar rus generalının sözlərinə və rus talanlarının dayandırılmasına inanmadılar və ona görə də onlar əvvəlcə ruslarla hər hansı anlaşma imzalanmasına razı olmadılar

Mövcud olan məlumatlara görə, məsələ car əhalisinin toplantısında da müzakirə olundu. Camaat müdafiə olunmaq, yoxsa rusların təkliflərinin qəbul etmək seçimləri üzərində öz fikirlərini bildirdilər. Toplaşanlar arasında ruslara qarşı mübarizə aparmaq əzmini ifadə edənlər də oldu. Lakin ağsaqqallar məsələyə daha səbirlə və təmkinlə yanaşmağı təklif etdilər. Onlar bildirdilər ki, rusların şərti qəbul olunmasa yerli əhalinin mülkləri yandırılacaq, var-yoxu məhv ediləcəkdir. Bu toplantıda Balakəndə yaradılmış acınacaqlı vəziyyət bir daha xatırlandı. Ağsaqqallar bildirdilər ki, rusların hücumunun qarşısını almaq mümkün olmayacaq və ona görə də rusların tələbi qəbul olunmalıdır (131).

Bundan sonra carlılar öz nümayəndələrini general Sisianovun yanına göndərdilər və rusların tələblərini qəbul etməyə hazır olduqlarını bildirdilər. Car nümayəndələri ümumən rus təbəəliyini qəbul etməyə razılıqlarını bildirsələr də, bəzi yerli silahlı dəstələr müqavimətdən əl çəkmədilər. Nəticədə, rus dəstəsindən bir kazak və 4 nəfər gürcü öldürüldü. Mart ayının 29-da Qulyakovun dəstəsi güclü müqavimətlə rastlaşmadan Cara daxil oldu. Car nümayəndələri yazılı və şifahi şəkildə Rusiya təbəəliyini qəbul etməyə hazır olduqlarını təsdiq etdilər. Carlıların Rusiya təbəəliyinə inamlarının artması üçün general Qulyakovun dəstəsi mart ayının 31-də Urdo keçidinə döndü. Başlanan danışıqların sona çatdırılması üçün Car camaatının ağsaqqallarından seçilmiş 9 nəfərlik nümayəndə heyəti general Qulyakovun görüşünə gəldi və aprel ayının 12-də isə onlar Tiflisdə general Sisianovla

görüşdülər. Tiflisdə general Sisianovla Car nümayəndələri arasında sülh anlaşması imzalandı (132).

Anlaşma Carın azad camaatının 9 nümayəndəsi tərəfindən imzalanmışdı və imza edənlərin adlarına rus mənbələrində rast gəlmək mümkündür. Anlaşmanın mətninin ruslar tərəfindən hazırlandığı şübhəsizdir. Çünki onun elə ilk cümləsində Sisianov tiranlığının nişanəsini görmək mümkündür. Anlaşmanı imzalayanlar bəyan edirdilər ki, onlar Rusiya imperatorunun məğlubedilməz silahı ilə fəth edildilər, öz dinc həyatlarını hər şeyə qadir olan Rusiya dövlətinin hakimiyyəti altında görürlər və Car camaatı adından, xüsusilə də təmsil etdikləri kəndlərin adından Gürcüstanın baş hakimi general-leytenant P.D.Sisianovun hüzurunda qərara alındı, təsdiqləndi və könüllü şəkildə yeni təbəəliyin aşağıdakı öhdəlikləri imzalandır ki, bu öhdəliklər əbədi, müqəddəs və dəyişilməzdir (133).

Anlaşmanın birinci maddəsində bildirilirdi ki, Car vilayətinin bütün azad camaatları Rusiya imperatoru Aleksandr Pavloviçin və onun varislərinin əbədilik təbəəliyinə daxil olur. Əhali adından xahiş olunurdu ki, Rusiya imperatoru carlıları onların düşmənlərindən qorusun. Nümayəndələr bildirirdilər ki, Rusiya təbəəliyinə sadiq olacaqlarını müqəddəs Qurana istinadən qəbul etdikləri andla təsdiq edirlər. Nümayəndələr onu da bəyan edirdilər ki, geri qayıtdıqdan sonra Carın bütün kəndlərinin əhalisi general Qulyakovun qarşısında Rusiya təbəəliyinə sadiq qalacaqlarını bildirəcəklər.

İkinci maddədə Car əhalisinin Rusiya dövlətinə verməli olduğu vergi haqqında məlumat öz əksini tapmışdı. Carlılar öz öhdələrinə götürürdülər ki, hər il 1100 litr ipək vergi kimi Rusiya dövlətinə təhvil veriləcəkdir. Həmin ipək ildə iki dəfəyə bölünməklə avqustun 1-də və noyabrın 1-də Gürcüstandakı rus qoşunları baş komandanının təyin edəcəyi şəxsə təhvil verilməli idi.

Üçüncü maddədə Carda rus qoşunlarının yerləşdirilməsi təsbit olunmuşdu. Carlılar etiraf edirdilər ki, rus komandanlığı qoşunların harada yerləşdirilməsi barədə qərar qəbul etmək hüququna malikdir. Bununla belə, onlar xahiş edirdilər ki, rus qoşunları Urdo keçidi ətrafında yerləşdirilsin. General Sisianov da bu xahişlə razılaşdığını bildirdi.

Dördüncü maddəyə əsasən, carlılar vəd edirdilər ki, Rusiya təbəəliyinə sədaqət haqqında and içmə mərasimi başa çatandan sonra Balakən, Katex, Car, Tala, Muxa və Cinni məntəqələrinin hər birinin hörmətli ailələrindən bir nəfər girov verilsin. Beşinci maddəyə əsasən, carlılar söz verirdilər ki, Rusiya imperiyasına müxalif olan, arzuolunmaz etibarsız adamların açıq və ya gizli şəkildə vilayətdə olmasına yol verməyəcəklər. Carlılar gürcü şahzadəsi Aleksandrın Car kəndlərinə buraxılmaması haqqında da ayrıca öhdəlik götürdülər.



***General P.D.Sisianov***

Bu öhdəliyə əməl olunmayacağı təqdirdə onlar qanunla cavab verməli olacaqlarını qəbul edirdilər. Carlılar eyni zamanda Gürcüstan üzərinə hərbi yürüş etmək istəyən dağıstanlılara və carlılara da öz aralarında yer verməyəcəklərini öhdələrinə götürürdülər. Carlılar onların Gürcüstan üzərinə yürüşünə də imkan verməməli idilər. Bu öhdəliyi pozanlar yaxınlıqda olan böyük rus hərbi komandanının razılığı və onun nümayəndələrinin iştirakı ilə yerli adətlərə uyğun olaraq cəzalandırılmalı idilər.

Altıncı maddəyə görə Gürcüstanın baş komandanı carlıların Rusiya imperiyasına sədaqətini və davamlı xahişlərini nəzərə alaraq təntənəli şəkildə vəd edirdi ki, carlıların əvvəlki yaşayış tərzi saxlanılsın və onların daxili idarəetmə işlərinə müdaxilə edilməsin.

Yeddinci maddədə qeyd olunurdu ki, Cara qonşu, müttəfiq və həmişə dost münasibətində olan İlisu sultanı Əli sultan və onun hakimiyyəti altında olan bütün əhali də Rusiya imperatoruna təbəəliyi qəbul edir. Rusiya təbəəliyini qəbul etmək üçün İlisu sultanının nümayəndələri də general Sisianovun görüşündə carlılarla birlikdə anlaşma imzaladılar. Anlaşmanın rus mətnində bu nümayəndələrin adları mövcuddur. Lakin bu adlar təhrif olunmuş şəkildədirlər. İlisu sultanının nümayəndələri də həm and qəbul etdilər, həm də anlaşmaya öz möhürlərini vurdular.

Səkkizinci maddədə göstərilirdi ki, Balakənin, Kaxetin və Metsexin nümayəndələri anlaşmanın imzalanmasında iştirak etmirlər. Bunun səbəbi də göstərilirdi. Çünki onların əhalisi öz evlərini tərk edib dağlara qaçmışdılar. Amma carlılar vəd edirdilər ki, adları çəkilən məntəqələrin əhalisi də Rusiya imperatorunun təbəəliyini qəbul edəcəklər. Əgər onlar Rusiya təbəəliyinə razı olmasaydılar, onda carlılar silah gücünə onlara Rusiya təbəəliyinin qəbul etdiriləcəyinə söz verirdilər.

Doqquzuncu maddədə qeyd olunurdu ki, Gürcüstanın baş komandanı əvvəllər Car camaatına mənsub olan Gürcüstanın Əliabad kəndini carlıların idarəsinə versin. Carlılar xristianların öz ibadətlərini azad şəkildə davam etdirmələrinə təminat verirdilər. Eyni zamanda belə bir hüququn müsəlmanlara verilməsi də maddədə öz əksini tapmışdı.

Onuncu maddəyə əsasən, carlılar tərəfindən əsir götürülmüş rusların və gürcülərin və ruslar tərəfindən əsir götürülmüş yerlilərin azad edilməsi qərarlaşdırıldı. Anlaşmanın sonunda əsirlərin dəyişdirilməsi haqqında əlavə maddələr öz əksini tapmışdı.

General Sisianov yalnız anlaşmanı imzalatdırmaqla kifayətlənmədi. Car və İlisu nümayəndələri eyni zamanda Rusiya təbəəliyinə sədaqətli qalmaq haqqında and imzaladılar. Andın mətni onunla başlayırdı ki, Car və İlisu nümayəndələri Gürcüstanın baş komandanı Sisianovun yanında qadir Allahın, böyük peyğəmbər Məhəmmədin, islam xəlifələrinin və müqəddəs

Quranın qarşısında Car camaatı adından Rusiya imperatoruna sədaqətli olacaqları haqqında and içirlər. Sonra bildirilirdi ki, Car camaatı Rusiya imperatorunun vərəsələrinə də sədaqtli olacaq, açıq və ya gizli şəkildə heç bir düşmənçilik göstərməyəcək, dağıstanlılara, ləzgilərə və digər xalqlara sığınacaq verməyəcək, dağıstanlıların və ləzgilərin planları haqqında bir xəbər eşitsələr dərhal rus hərbi komandanlığına xəbər veriləcək və s. Andın sonunda Car və İlisu nümayəndələri aşağıdakı cümlə ilə razılaşmaq məcburiyyətində qalmışdılar: "Əgər biz andımızı pozsaq, öz arvadlarımızdan üz döndərəcəyik (134).

General Sisianov zorla qəbul etdirdiyi anlaşma ilə kifayətlənməyərək Alazan çayı üzərindəki Urdo keçidi yaxınlığında bir tabor üçün düşərgə salmağı da əmr etdi. Bu düşərgədə Qafqaz qrenadyor alayının taboru yerləşdirildi və ona Car camaatlarını nəzarət altında saxlamaq tapşırıldı. Carlıların mümkün yürüşlərinin qarşısının alınması üçün Alazan çayı boyunca başqa bir neçə müdafiə-müşahidə postları da yaradıldı və o postlardan birinə rəhbərlik Tiflis muşketyor alayının komandanı general Leontyevə tapşırıldı. General Sisianova görə, Car istiqamətindən baş verən yürüşlərin qarşısının alından sonra, Nuxa və Şamaxıdan keçməklə Gürcüstanla Bakı arasında yük daşınması marşrutu yaratmaq olardı (135).

Qeyd etmək lazımdır ki, Carın işğal altına alınması xəbəri Rusiya imperatoru I Aleksandrın da xüsusi sevincinə səbəb oldu. O öz təbrikində həm general Sisianovun fəaliyyətini təqdir etdi, həm də general Qulyakova təşəkkür elan etdi (136).

İmzalanmış anlaşmaya əsasən, əsirlərin qarşılıqlı şəkildə geri qaytarılması nəzərdə tutulmuşdu. General Sisianov öz tabeçiliyində olanlara tapşırdı ki, carlılar və balakənlilər öz əsirlərini geri almaq üçün 60-100 rubl arasında pul ödəsinlər. O hətta hesablamışdı ki, 100 nəfər əsir üçün hər biri 100 rubl olmaqla 10 min rubl vəsait toplayacaqdır. Amma tezliklə məlum oldu ki, balakənlilərin öz əsirlərini pulla almaq imkanları yoxdur. Bu isə general Sisianovun sonsuz qəzəbinə səbəb oldu. O əvvəlcə general Qulyakova məktub yazdı ki, car-balakənliləri əsirlərinin pulla alınmasına məcbur etmək lazımdır. Sonra da Car camaatlarına və onların ağsaqqallarına son dərəcə təhqiramiz və ədəbsiz bir bəyanat göndərdi. Sisianovun müraciətində aşağıdakı təhqiramiz ifadələr özünə yer tapmışdı: "Yalançı xalq, abırsız insanlar!... Yəni siz fikirləşirsiniz ki, bizim böyük imperatora verdiyiniz vədi əməl etməmək üçün qəbul etmişdiniz? Siz öz əsirlərinizi pulla almalısınız. Onları almayınca hər şey təxirə salınır... Qısaca deyilsə, əgər bir aydan sonra onları almasanız, onda görəcəksiniz ki, həmin əsirlərlə və sizinlə nə edəcəyəm... Kimin əlində güc varsa, o güc sizlərlə alver etmir, o əmr verir " (137).

Car-Balakən camaatının çətinlikləri bununla bitmədi. Bir müddətdən sonra məlum oldu ki, Car-Balakən camaatı imzaladıqları anlaşma ilə üzərlərinə götürdükləri vergini vermək imkanında da deyildirlər. Vergilərin ödənməsi üçün əhaliyə güzəşt edilməsi xahişi ilə carlılar və balakənlilər öz nümayəndələrini general Sisianovun yanına göndərdilər. Balakənin ağsaqqalları Sisianova yazırdılar ki, vergini ödəmək imkanı yoxdur. Buna görə də əhali öz ev-eşiklərini tərk edib başqa yerlərə getmişdir. Onların yazdığına görə, əhali quru çörək tapmağa çətinlik çəkirdi. Ona görə də xahiş edilirdi ki, Balakən əhalisindən vergi alınmasına 2 illik möhlət verilsin. Balakən ağsaqqalları eyni zamanda onların əsirlərinin geri qaytarılmasını xahiş etdilər və bildirdilər ki, onlar əsir götürdükləri gürcüləri artıq azad etmişlər. Sonda Balakən ağsaqqalları Gürcüstandan gətirilən taxılın da Balakənə buraxılmasını xahiş etdilər (138).

Car nümayəndələri isə ipək yerinə pul vermək imkanına malik olduqlarını bildirməklə Sisianovdan girov verilmiş şəxslərin dəyişdirilməsini xahiş etdilər. General Sisianov həm carlılara, həm də balakənlilərə məktubla cavab verdi. Bu məktub da rus generalının əvvəlki məktubları kimi həqarət və təhqiramiz ifadələrlə dolu idi. Həm də Sisianovun məktubundan belə bir qənaətə gəlmək olar ki, balakənlilər yuxarıda haqqında danışılan məktublardan əlavə başqa bir məktub da göndəribmişlər. Bu da Sisianovun sonsuz qəzəbinə səbəb olmuşdu. Sisianov onlara çox kobud şəkildə cavab verərək özünü qartala, şirə bənzədirdi. O bildirirdi ki, onun dedikləri ilə durub-oturmayanları məhv edəcəkdir. Eyni zamanda xəbərdar edirdi ki, ruslar düşmənlərini atəş və qılıncla cəzalandırır, yaxşıları isə qayğı altına alır. General Sisianovun gümanında yaxşılar Rusiya işğalını müqavimətsiz qəbul edənlər idi. Sisianov balakənlilərdən tələb edirdi ki, Rusiya təbəəliyində qalmaq üçün vergilərini ödəsinlər. Əks təqdirdə Sisianov vergi verməyənləri cəzalandırmağa gələcəkdi. Sisianov balakənliləri qorxudurdu ki, sizin güllələriniz 5 nəfəri öldürə bilməyəcək. Rus topunun bir atəşi isə 30 nəfəri məhv etməyə kifayətdir. Carlılara məktubunda da Sisianov onları hədələyir və qorxudurdu. Onlardan tələb edirdi ki, kaslıbsınızsa onda ipək yerinə pul göndərin. General bildirirdi ki, tələb olunan pul verilməzsə onda carlılar qışı dağların arasında, şaxtada donmalı olacaqlar. Tələbin ödənməyəcəyi təqdirdə general Sisianov daha carlıların vədlərinə aldanmayacağını, onların kəndlərini yer üzündən siləcəyini çatdırırdı. Sisianov onu da bildirirdi ki, deyilənlərə əməl etməyəcəyi təqdirdə Cara qoşun yeridəcək və dağıstanlıların köməyi də rus qoşunlarına qarşı mübarizədə carlılar üçün yetərli olmayacaqdır. Öz qəzəbini ifadə edərək Sisianov yazırdı ki, qanı qaynar qazan kimi qaynayır, qəzəbdən bütün bədəni titrəyir. Ona görə carlıları cəzalandırmağa hansısa general yox, o özü gələcək, Car torpaqlarını qana

bürüyəcəkdir. Sisianov bildirirdi ki, carlılar dərələrə sığınmaqla da onun əlindən nicat tapa bilməyəcəklər. Məktubdan məlum olur ki, carlıların vergisinin toplanmasına başlanması üçün onlar general Qulyakovdan məktub alacaqlar. General Qulyakovun məktubunun alınmasından sonra carlılar ipəyi və ya onun qarşılığı olan pulu verməsəydilər, onda Sisianov əvvəlcə carlıların göndərdiyi girovları cəzalandıracağını, sonra da Car üzərinə hücum edəcəyini bildirirdi. Məktubunun sonunda Sisianov bildirirdi ki, Rusiya imperatoru da ona vergi verməyən carlıların cəzalandırılmasını tapşırmışdır (139).

General Sisianovun bütün hədə-qorxularına baxmayaraq onun 1804-cü ilin əvvəlinə olan yazışmalarından da görmək mümkündür ki, carlılar və balakənlilər Rusiya işğalı ilə barışmadılar və fürsət yaranan kimi onlar öz barışmazlıqlarını əməli şəkildə nümayiş etdirirdilər. Sisianovun carlılara və balakənlilərə hədə-qorxu dolu məktubu 1803-cü il oktyabrın 3-də yazılmışdı. Həmin vaxtlarda İlisu sultanına göndərilmiş məktub da rus generalının vəhşi və yırtıcı xarakterinin əlavə bir göstəricisi idi. Bütün məktublarında general Sisianov açıq şəkildə bildirirdi ki, Rusiyanın işğalı silah gücünə bölgəyə yeridiləcəkdir. Buna əks gedənləri isə qətl və qarət gözləyir. Çox güman ki, rus generalının bu hədə-qorxuları yerli əhali arasında müzakirə olundu və rus qoşunlarına zərbə vurulması qərara alındı. Ona görə 1803-cü il oktyabrın 21-də bölgədə toplanmış olan silahlı dəstənin rus qoşunları üzərinə hücumu oldu. Rus tarixi ədəbiyyatında bu hücumun ləzgilər tərəfindən təşkil edildiyi və avarların da bu hücumda iştirak etdikləri bildirilir. Heç şübhəsiz ki, bu hücum bölgənin bütün əhalisi tərəfindən hazırlanmışdı və bu hücumla yerli əhali rus işğalına qarşı öz münasibətini bildirirdi. Oktyabr ayının 22-də yerli əhalinin silahlı dəstəsi general Qulyakovun dəstəsi üzərinə hücum etdi. Rusların malik olduğu topların işə salınması onlara döyüş üstünlüyü yaratdı. Göstərilən cəhdlərə baxmayaraq, yerli dəstə rusların müqavimətini qıra bilmədi. Rus tarixi ədəbiyyatında olan məlumata görə, bu döyüş zamanı ruslar 11 nəfər itki verdi və bununla da yerli silahlı dəstənin rus qoşun dəstəsini bölgədən sıxışdırmaq cəhdi baş tutmadı. Yerli əhalinin Sisianovun hədələrindən qorxmayaraq belə bir hücuma əl atması isə rus komandanının qəzəbini daha da artırdı.

### *5. Gəncənin işğalı*

XIX əsrin əvvəllərində Rusiya işğalına məruz qalan ilk Azərbaycan xanlığı Gəncə xanlığı oldu. Bu xanlığın işğal edilməsi Cənubi Qafqazda Rusiya işğalının genişləndirilməsi, möhkəmləndirilməsi və digər Azərbaycan xanlıqları üzərinə hücum üçün əlverişli məkan yaradılması baxımından xü-

susi əhəmiyyət kəsb edirdi. Bu xanlığın işğalı ilə Gürcüstandakı rus işğalına qarşı istiqamətlənmiş risqlərin aradan qaldırılması baxımından da rusların diqqətini cəlb edirdi. Ona görə də Gəncə üzərinə hücum təşkil edilməsi general Sisianovun yaxın fəaliyyət planına daxil idi.

General Sisianov Qafqaza təyinat alından sonra Gəncə xanlığının işğalı üçün planlar qurmağa başladı. Çünki Gəncə xanlığı işğal edilmədən Gürcüstandakı rus işğalını qorumaq və onu ətrafa genişləndirmək kifayət qədər çətinlik yarada bilərdi Hələ Tiflisə yetişməzdən əvvəl onun Gürcüstanın mülki hakimi Kovalenskidən aldığı məktubun məzmunu da Gəncə xanlığının müstəqilliyinin Rusiyanın işğalçılıq planlarına cavab vermədiyini açıqlayırdı. 1802-ci ilin dekabr ayının 17-də yazılmış həmin məktubda Cavad xan Gürcüstana qarşı qeyri-xoş münasibətdə olan, Şəmşəddil mahalının əhalisini Gəncə xanlığı ərazisinə cəlb edən, gürcü çar ailəsi üzvlərinə düşmən münasibət bəsləyən şəxs kimi xarakterizə olunurdu. Məktubda Cavad xanın Rusiya işğalına etiraz edən gürcü şahzadəsi Aleksandrı himayə etməsi, erməniləri incitməsi, ticarət karvanlarına problemlər yaratması haqqında da məlumat verilirdi (140).

Sisianovun ilk növbədə diqqətini Gürcüstan daxilində olan vəziyyətin Rusiyanın maraqlarına uyğun olan hala gətirilməsinə və Car-Balakən istiqamətindən baş verən yürüşlərin qarşısının alınmasına yönəltdiyi üçün Gəncə üzərinə hücum bir müddət təxirə salındı. Amma Car-Balakən üzərinə yürüşün təşkilindən əvvəl general Sisianov Gəncə xanı Cavad xana göndərdi və onun tərəfindən rus təbəəliyinin qəbul edilməsinə maraqlı olduğunu anlatdı. 1803-cü il fevral ayının 25-də yazılmış məktubun məzmununa əsasən demək olar ki, əvvəlcə Cavad xan Sisianova məktub göndərmiş və bu məktubda həm Gürcüstanla, həm də Rusiya ilə xoş münasibətlərdə olduğunu bildirmişdi. Sisianov güman edirdi ki, Cavad xanın Rusiyanın işğalı altında olan Gürcüstanla xoş münasibətlərə meyl etməsi, onun Rusiyaya təbəəliyi altına alınmasının başlanğıcı ola bilər. Ona görə general Sisianov bir tərəfdən tövsiyə edirdi ki, Cavad xanın Gürcüstanla bağlı işləri və planları haqqında onu məlumatlandırsınlar, digər tərəfdən də Cavad xan Gürcüstana bəslədiyi xoş münasibətin ifadəsi kimi oğlu Uğurlu xanı girov olaraq Tiflisə göndərsin (141).

Cavad xan oğlu Uğurlu xanı girov kimi Sisianovun yanına göndərmədi. Əksinə, Sisianovun rəhbərlik etdiyi rus qoşunlarının təcavüzündən qorunmaq üçün yollar aramağa başladı. Mövcud olan məlumatlara görə, Cavad xan Qarabağ xanı İbrahim xanla münasibətlərini normallaşdırdı və ondan kömək üçün hətta 2 ədəd top da aldı. Bundan əlavə Gəncə qalasının möhkəmləndirilməsi işləri də aparıldı (142).

Car və Balakənin ələ keçirilməsi rus generallarını Gəncə üzərinə hücum etməyə daha da ilhamlandırdı. Yaranmış konkret tarixi şəraitdə ilkin olaraq Car və Balakən üzərinə hücum edilməsi daha vacib sayıldı və ona görə də Gəncə üzərinə hücum təxirə salındı. Car ələ keçiriləndən az sonra, 1803-cü il aprel ayının 5-də Sisianova yazdığı məktubunda general Qulyakov bildirirdi ki, Gəncənin bizim əlimizdə olacağına şübhə yeri yoxdur. Lakin o bu sevinci bir qədər təxirə salmağı təklif edirdi. Çünki Gəncə ətrafında mövcud olan isti havalar hücuma mane ola bilərdi. İçməli suyun azlığı, otlaqların olmaması da rus generallarının fikrincə, həm döyüşçülərə, həm də atlara çətinlik yarada bilərdi. General Qulyakov təklif edirdi ki, Gəncə üzərinə hücum avqust ayında başlansın. Onun fikrincə, bu hücum zamanı qısa müddət ərzində Nuxanı, Şuşanı və sonra da Gəncəni almaq mümkün olacaqdı. Bu hücumun başlamasından əvvəl o, Kür çayı üzərindən Gəncəyə keçid yerinin kəşfiyyatının aparılmasını da lazım bilirdi (143).

General Qulyakovun bu təklifi ilə Sisianov razılaşdı. Sisianova görə, Car və Balakən kimi alınmaz məntəqələrin fəth edilməsindən sonra vaxt keçirmədən Gəncə və İrəvan üzərinə hücum təşkil edilməsi yaxşı olardı. Lakin havaların qızması ilə bağlı narahatçılığı o da qəbul etdi və ona görə də Gəncə üzərinə hücum təxirə salındı.

Məlumdur ki, Car və Balakənin nəzarət altına alınması Sisianovu 1803-cü ilin payızına kimi məşğul etdi. Digər tərəfdən Gürcüstanda hərbi qüvvələrin azlığı Gəncə üzərinə hücumla bağlı onda tərəddüdlər yaratdı. Bununla belə, 1803-cü ilin payızında Gəncə üzərinə hücum edilməsi qərara alındı.

Gəncə üzərinə hücum başlamazdan əvvəl general-mayor Qulyakov rəhbərlik etdiyi kabardin muşketyor alayının üç taboru ilə birlikdə Cara qonşu olan Samur ərazisinə göndərildi. General Qulyakov əvvəlcə Samur əhalisini Rusiya dövlətinə tabe etdirməli, onlara vergi müəyyənləşdirməli, sonra da Samur ərazisində Kürü adlamaq üçün keçid müəyyənləşdirilməli idi (144). Tarixi ədəbiyyatda Fətəli şah Qacarın Samur hakimi Şirin bəyə məktubu mövcuddur. Məktubun məzmunundan aydın olur ki, onun yazılması rusların Gəncə üzərinə hücumu başlamasından əvvələ aiddir. Güman etmək olar ki, Şirin bəy rus qoşunlarının Car və Balakəndə törətdikləri ilə qarşılaşmamaq üçün Qacar sarayından kömək istəmişdi. Xorasan yürüşünü başa vuran Fətəli şah Abbas Mirzənin rəhbərliyi altında olan Qacar qoşunlarının artıq sərhədə doğru hərəkətə başladığını bildirirdi. Şirin bəyi itaətə çağıran Fətəli şah Qacar qoşunları ilə rus gavurlarının Gürcüstan ərazisindən çıxarılacağını vəd edirdi. Oxşar məktubu Fətəli şah Zəyəm və Şəmşəddil hakimlərinə də göndərdi və onlara tövsiyə etdi ki,

silahlı dəstələri ilə birlikdə Cavad xana qoşularaq rusların talançılığına qarşı mövqe tutsunlar (145).

Qeyd etmək lazımdır ki, istər Samur hakiminin, istərsə də Zəyəm və Şəmşəddil hakimlərinin kifayət qədər böyük silahlı dəstələri yox idi. Ona görə də Gəncə xanının və adları çəkilən hakimlərin birləşmiş dəstəsi ilə rus qoşunlarının qarşısını almaq elə də asan deyildi. Bununla belə, Cavad xan quduz iddiaları olan Sisianova qarşı mövqe tutmaq qərarına gəldi. Doğrudur, mənbə və tarixi ədəbiyyatda Cavad xanın kömək üçün Fətəli şaha da müraciət etməsi haqqında məlumatlar mövcuddur. Farsdilli mənbələrdə bildirilir ki, xəbər alınan kimi Qacar sarayındakı şah əyanlarından olan Səid bəy Gəncəyə göndərildi və Gəncə üzərinə hücum ərəfəsində o özünü Gəncə qalasına çatdırdı. Şah qoşunları isə Gəncəyə vaxtında gəlib yetişə bilmədilər (146).

Bəzi tarixi məlumatlara görə, Sisianov rus qoşunlarının nəzarəti altında olan Qazax və Şəmşəddildən 300 nəfərlik atlı dəstəsini toplamasını və bu dəstənin Gəncə üzərinə hücum edən rus qoşunlarına qoşulmasını tələb etdi (147). Amma rus tarixçilərinin Gəncə üzərinə hücum edən rus qoşunlarının tərkibi haqqında verdiyi siyahıda azərbaycanlı atlılar haqqında məlumat yoxdur (148).

1803-cü il noyabr ayının birinci yarısında general Sisianovun sərəncamına yeni hərbi qüvvələr gəldi. Noyabr ayının 11-də Sevastopol alayı bölgəyə yetişdi və bu alay Tiflisdən 10 verst aralıda yerləşdirildi. O biri gün isə 15-ci yeger alayı Gürcüstan ərazisinə yetişdi. Tarixi məlumatlara görə, bu alaylar bütün heyəti ilə Gəncə üzərinə hücumda iştirak etmədilər və onlar Gürcüstanda saxlandılar (149). Bununla belə, bu alayların yetişməsi rus qoşunlarının bölgədəki nisbətinə təsir etdi və bundan sonra Gəncə üzərinə hücum qətiləşdi. İstənilən halda, general Sisianovun ixtiyarında Gəncə üzərinə hücum üçün yetərli sayda qoşun var idi. Nəzərə alınsa ki, bu qoşunlar əsasən nizami və hazırlıqlı qüvvələrdən ibarət idi, onda Sisianovun əlində qüvvə üstünlüyü mövcud idi.

Fatehliyə iddialı olduğunu nümayiş etdirmək üçün general Sisianov Gəncə üzərinə yürüşə özü rəhbərlik etməyi qərara aldı. Onun tabeliyi altında olan qüvvənin tərkibi belə idi: Sevastpol alayının 2 taboru, Qafqaz qrenadyor alayının bir taboru, 17-ci yeger alayının 2 bölüyü, sonradan Sisinova birləşməli olan bu alayın daha iki bölüyü, Narv draqun alayının üç eskadronu. 1803-cü il noyabr ayının 20-də bu qüvvələr Tiflis yaxınlığındakı Soğanlı kəndinə toplaşdılar və noyabr ayının 22-də rus qüvvələri Gəncəyə doğru hərəkətə başladılar (150).

Cavad xanın rus qoşunlarından müdafiə olunmağa necə hazırlaşdığını söyləmək çətindir. Çünki bununla bağlı tarixi məlumatlar yetərli deyil.

Bununla belə, kifayət qədər təcrübəli, dünyagörüşlü bir şəxs olan Cavad xan güclü düşmənlə qarşılaşdığını yəqin ki, yaxşı bilirdi. Bu isə bütün mümkün qüvvələrin səfərbərliyə alınmasını tələb edirdi.

Sisianovun qoşun dəstəsi ilə 1803-cü il noyabr ayının 29-da Şamxora yetişdi və orada düşərgə saldı. Burada dayanarkən Sisianov Gəncənin döyüşsüz alınması üçün cəhdlər göstərdi və bununla bağlı Cavad xana məktub göndərdi. Həmin məktubunda general Sisianov əvvəlcə Gəncə üzərinə qoşun çəkməsinin səbəbləri haqqında öz baxışlarını açıqladı. Sisianov bildirirdi ki, bir vaxtlar Gəncə xanlığı Gürcüstana daxil idi və gürcü çarlığının zəifliyi üzündən Gəncə ondan ayrı düşmüşdü. Onun fikrincə, Gürcüstan Rusiyaya birləşdiriləndən sonra Gəncənin Gürcüstandan kənarda qalması Rusiya üçün qeyri mümkündür. Ona görə Sisianov da Gəncənin Gürcüstan tərkibində deyil, yad əllərdə qalması ilə razılaşmırdı. Sisianov öncəki məktubunda Cavad xanın oğlunu girov istəməsinə cavab veilməməsindən də razı deyildi. Həmin tələb qarşısında Cavad xan bildirirdi ki, Fars dövlətindən qorxduğu üçün bunu edə bilmir. Sisianov isə bildirirdi ki, 6 il əvvəl o, Rusiya təbəəsi idi və o zaman Gəncədə rus qoşunları dayanmışdı. Sonra Sisianov Tiflis tacirlərinin Gəncə ərazisində qarət olunması məsələsinə toxunurdu. Sisianov əlavə edirdi ki, qarət olunmuş tacirlərin ziyanı ödənməmişdir. Bu sadalananları Sisianov Gəncə üzərinə qoşun çəkməsinin səbəbi sayırdı və yazırdı ki, mənsub olduğu məzhəb ona qan tökülməzdən əvvəl Gəncənin dinc yolla təhvil verilməsi haqqında təklif göndərməyi tələb edir. Özünəməxsus hədələrlə general Sisianov tələb edirdi ki, ona cavab verilsin - şəhərin təslim edilməsinə razıdır, ya yox. Rus generalı heç bir şərtin qəbul olunmayacağını bəyan edirdi. Sisianova görə, şəhərin təslim ediləcəyi təqdirdə Cavad xan Rusiya imperatorunun nəhayətsiz xeyirxahlığı ilə qarşılaşacaqdı. Əks təqdirdə, Sisianov Gəncənin bir vaxtlar İzmayil və Varşava şəhərlərinin rastlaşdığı tale ilə qarşılaşacağını söyləyirdi. General Sisianov noyabrın 30-da günortaya kimi ona cavab verilməsini tələb edirdi. Cavab alınmayacağı halda Sisianov Gəncəyə od və qılıncla gələcəyini və sözünün üstündə dayanacağını bəyan edirdi (151).

Gəncə qalasına hücum həm də Sisianovla Cavad xanın iradəsinin qarşıdurması idi. Birincisi imperiyanın sədaqətli nökəri idisə və Gəncəni almaqla imperiya ağalarının təqdirini qazanmaq istəyirdisə, Cavad xan müstəqil bir dövlətin rəhbəri idi və bütün gücü ilə bu dövlətin müstəqilliyini Rusiya işğalından qorumağa çalışırdı. Birincisi, təcavüz və qırğınların təmsilçisi idisə, Cavad xan müdafiəsində dayandığı xanlıq əhalisinin təmsilçisi idi. Onların bu keyfiyyətləri aralarında apardıqları yazışmalarda da əz əksini tapmışdı.

Cavad xan cavab məktubunda Sisianova "sən" deyə müraciət edirdi və onun təkəbbürlü iddialarına cavab verirdi. Cavad xan yazırdı ki, çariça Tamara vaxtında Gəncənin Gürcüstana mənsubluğuna heç kim inanmaz. Cavad xan qeyd edirdi ki, əksinə, onun əcdadlarından olan Abbasqulu xan Gürcüstanı idarə edirdi. Onun yazdığına görə, indiyə kimi Gürcüstanda Abbasqulu xanın məscidləri və dükanları qalmaqdadır. Çar İraklinin vaxtında Gürcüstanla Gəncə arasında sərhəd xətti müəyyənləşdi. Cavad xan bildirirdi ki, əgər mən indi iddia etsəm ki, bir vaxtlar Gürcüstanin valisi mənim əcdadlarım olub, heç kəs Gürcüstanı mənə qaytarmaz. 6 il əvvəl Gəncənin Rusiya imperatoru tabeliyində olması iddiası ilə bağlı Cavad xan yazırdı ki, o zaman rus padşahı mənə fərman göndərdi, onun təklifini qəbul edərək qalanı təslim etdim. Cavad xan əlavə edirdi ki, əgər Rusiya imperatoru indi də fərman göndəribsə, Sisianov həmin fərmanı ona göstərsin və onda nə isə edilə bilər. Sisianovun məktubunda Cavad xanın Gürcüstanın tabeliyində olması iddiasını da Gəncə xanı qəbul etmirdi. O yazırdı ki, indi də onda Rusiya imperatorunun fərmanı qalmaqdadır. Həmin fərmanda Cavad xan Gəncə bəylərbəyi adlandırılıb, Gürcüstanın vassalı yox. Bütün bunlara görə, Cavad xan Sisianovun söylədiklərini yalan adlandırırdı. Cavad xan məktubunun davamında yazırdı ki, ötənlərdə Gəncə Rusiya padşahına təslim edilən zaman Qacar şahı Xorasanda idi. İndi isə Qacar şahı yaxındadır, onun nümayəndələri isə artıq buradadır (152).

Cavad xan məktubunda Sisianovun digər iddialarına da cavab verdi. Sisianov məktubunda qeyd etmişdi ki, Gürcüstanın Rusiyaya mənsub olduğu üçün Cavad xanın gürcü tacirlərinin yüklərini müsadirə etmək ixtiyarı yox idi. Cavad xan buna cavab olaraq yazırdı ki, Sisianov yenicə Tiflisə gələndə ona məktub yazdı, ondan Nəsib bəy tərəfindən yerli tacirlərdən alınmış yüklərin geri qaytarılmasını xahiş etdi. Cavad xan xahişinə əməl ediləcəyinə inandığını yazırdı və ümid edirdi ki, xəyanət etmiş şəmşəddillilər və Şəmşəddil hakimi Nəsib bəy də geri qaytarılacaqdır. Amma Sisianov bu xahişləri nəzərə almadı və Cavad xanın istəyi cavabsız qaldı. Cavad xan qorxmadan Sisianova bildirirdi ki, müharibə istəyirsənsə, mən də müharibəyə hazıram. Sonra da əlavə edirdi ki, arşınlıq topları ilə qürrələnməsin. Onun topları isə 3-4 arşınlıqdır. O, Sisianovu rus qoşunları ilə öyünməməyə çağırırdı və öz qoşunlarını daha cəsur hesab edirdi. Cavad xan məktubunu belə bitirirdi: " Sən mənə mübarizəyə hazır olmağı təklif edirsən. Sən Şəmşəddilə gəldiyin və onun əhalisini öz asılılığına gətirdiyin gündən mən hazırlaşıram. Əgər vuruşmaq istəyirsənsə, vuruşaq. Təklifini qəbul etmədiyim halda bədbəxtliklə qarşılaşacağımı deyirsən. Mən isə güman edirəm ki, bədbəxtlik sənin özünü izləyir, hansı ki səni Peterburqdan

sürüyüb buraya gətirib. Hadisələr göstərəcək ki, bizim hansımız bədbəxt olacaq" (152).

General Sisianov aldığı cavabdan qarşısında əzmkar və iradəli bir insanın dayandığını anladı. Çox güman ki, Cavad xandan aldığı sərt cavab onun Gəncə üzərinə hücumunun müəyyən qədər təxirə salınmasına səbəb oldu. Şamxor ətrafına yetişməsindən sonra Sisianov bir ay Gəncəyə hücum üzərində düşünməli oldu. Cavad xanın iradəsinin qırılması üçün Sisianov şəhərdə yaşayan ermənilərin xidmətindən də bəhrələnməyi lazım bildi. 1803-cü il noyabr ayının 30-da general Sisianov Gəncədə yaşayan ermənilərə müraciət etdi, onları rus qoşunlarına kömək etməyə çağırdı. Sisianov qeyd edirdi ki, Rusiya taxt-tacının müdafiəsinə qalxanlar bütün şəxsi və əmlak təhlükələrindən müdafiə olunacaq, müsəlmanlar tərəfindən törədilən talan və təzyiqlərdən nicat tapacaq və Gürcüstanın istənilən məntəqəsində yaşamaq hüququ əldə edəcəkdir (153).

Qeyd etmək lazımdır ki, Sisianov Gəncədə yaşayan ermənilərin xidmətindən Gəncənin işğalında lazımınca bəhrələnə bildi və Cavad xan tərəfindən Gəncə ermənilərinin xəyanətlərinin və satqınlıqlarının nəzarətdən kənarda saxlaması şəhərin müdafiəsinə müəyyən əks-təsir göstərdi. Bu məsələ xüsusilə farsdilli mənbələrdə öz əksini tapmışdır.

Gəncə qalasının müdafiəsinin təşkili haqqında şərq mənbələrində yetərli məlumat mövcud deyil. Bununla bağlı, müəyyən mülahizələri rus mənbələri əsasında yürütmək olar ki, onlar da daha çox rus hərbçilərinin və generallarının mövqeyini əks etdirirlər. Həmin mənbələrin məlumatlarından belə bir qənaətə gəlmək mümkündür ki, Gəncənin müdafiəsinin ilk xətti onun divarlarından kənarda idi. Xüsusilə, şəhər ərafındakı bağların müdafiə imkanlarından istifadə etməklə burada ilk müdafiə xətti qurulmuşdu. Rus qoşunları qalaya yaxınlaşmaq üçün bu bağlarda qurulan müdafiə xəttini keçməli idi. Cavad xan öz məktubunda toplarının rus toplarından daha güclü olmasını qabartmağa çalışsa da, hər halda ruslar daha müasir toplarla silahlanmışdılar və bu toplar onların əsas zərbə qüvvəsini təşkil edirdi.

1803-cü il dekabr ayının 2-də şəhər ətrafındakı bağlarda rus qoşun dəstəsi ilə Gəncə müdafiəçiləri üzbəüz gəldilər. Rus mənbələrinin məlumatına görə, general Sisianov sadəcə olaraq şəhərin müşahidəsinin aparılması üçün bağlara yaxınlaşmalı oldu və burada şəhər müdafiəçilərinin atəşləri ilə qarşılaşdı. Çox güman ki, general Sisianov şəhər ətrafındakı bağlarda müdafiə xəttinin qurulmasından xəbərdar idi və ora yollanmaqda da məqsədi Gəncə müdafiəçilərini qala daxilinə sıxışdırmaq idi. Çünki onu böyük bir dəstə müşayiət edirdi. Bu dəstəyə Narv draqun alayının bir eskadronu, polkovnik Karyaginin rəhbərliyi altında 17-ci yeger alayının 2 taboru, podpolkovnik Simanoviçin rəhbərliyi altında olan tabor, yüngül

bölmələr və 7 ədəd top daxil idi. Süvarilərə isə general-mayor Portnyagin rəhbərlik edirdi. Bağlara yaxınlaşanda general Sisianov rus qüvvələrini iki dəstəyə böldü. Birinci dəstəyə podpolkovnik Simanoviç rəhbərlik edirdi. Onun tabeliyində Qafqaz qrenadyor taboru, yüngül bölmələr və 2 ədəd top var idi. İkinci dəstəyə isə general Sisianov özü rəhbərlik edirdi Bu dəstədə 2 yeger taboru, bir draqun eskadronu, yüngül bölmələr və 5 ədəd top var idi. Simanoviçin rəhbərliyi altında olan dəstə Tiflis yolu ilə Gəncəyə doğru irəliləməyə başladı. Sisianov isə bu yolun sağ tərəfi ilə bağlara doğru istiqamət götürdü. General Sisianovun yazışmalarından görmək mümkündür ki, o, şəhər müdafiəçiləri ilə ilk döyüşün aparılmasına xüsusi əhəmiyyət verirdi. O, bağlarda müdafiə olunan qüvvələrə elə güclü zərbə vurmaq istəyirdi ki, bununla Cavad xanın və şəhər əhalisinin gözlərini qorxutsun və bununla onları qalanı döyüşsüz təslim etməyə məcbur etsin (154).

Amma rus qoşunları Gəncə ətrafındakı bağlarda gözləmədikləri bir müqavimətlə rastlaşdılar. Rusların malik olduqları toplar Gəncə müdafiəçilərinin müqavimətinin qırılmasında daha güclü atəş qüvvəsinə malik oldu. Göstərilən səylərə baxmayaraq, iki saat müddətində Gəncə müdafiəçiləri rusların qarşısını saxlamağa müvəffəq oldular. Onlar ruslara kifayət qədər itki də yetirə bildilər. Rus tarixçiləri rus qoşunlarının Gəncə müdafiəçiləri ilə ilk qarşıdurmada 70 nəfər itirdiklərini, 30 nəfərin isə yaralandığını yazırlar (155). Elə bu rəqəmlərin doğruluğu nəzərə alınarsa Gəncə müdafiəçilərinin kifayət qədər əzmkarlıqla döyüşdüyünü görmək olar. Bununla belə, döyüşün sonunda Gəncə müdafiəçiləri qalaya çəkilməli oldular. Ruslar öz toplarını bağlar ətrafında yerləşdirdilər. Qoşun bölmələri isə topların ətrafında mövqe tutdular. Dekabr ayının 3-də geridə qalmış rus qüvvələri də yetişdilər və onların vasitəsilə Gəncə şəhəri mühasirəyə alındı (156).

Gəncə ətrafındakı müdafiə xəttinin ələ keçirilməsi rus qoşunlarına mövqe üstünlüyü verdi ki, bu da Sisianovu daha da cəsarətləndirdi. Şəhərin döyüşsüz ələ keçirilməsi üçün dekabr ayının 9-da general Sisianov yenidən Cavad xana məktub göndərdi. Maraqlıdır ki, bu məktubunda general Sisianov digər məktublarından fərqli olaraq bütün vəzifələrini sadalayırdı. Görünür, bununla da müraciət etdiyi şəxsdə təəssürat yaratmaq istəyirdi. O yenə də Cavad xandan şəhəri təslim etməyi tələb etdi və bunun üçün ona dekabrın 10-u günortaya kimi vaxt verdi. Sisianov tələb etdi ki, Cavad xanın göndərdiyi adam başı üzərinə ağ bayraq qaldırsın (157).

Cavad xan Sisianova göndərdiyi növbəti məktubunda da rus generalına öz dönməzliyini nümayiş etdirdi. O, Sisianovun bu təklifini də qəbul etmədi və mövqeyini bir daha məktubunda ifadə etdi. O bildirdi ki, Sisianovun yanına adam göndəməyəcək. Sonra da əlavə etdi ki, iki gündən

sonra onun yanına bir nəfər göndərəcək və əgər onun vasitəsilə Sisianovdan yaxşı təklif alsa, ona yaxşı cavab verəcəkdir (158).

Dekabrın 11-də Sisianov növbəti məktubunu Cavad xana göndərdi. Bu məktubunda Sisianov bildirirdi ki, Cavad xana qarşı şərt irəli sürmür, əksinə onun qarşısına tələb qoyur ki, şəhəri təslim etsin. Rus generalı bir daha tələb edirdi ki, şəhər darvazalarının açarlarını və bir də girov kimi oğlu Hüseynqulu ağanı onun yanına göndərsin. Bunun əvəzində Cavad xana Rusiya imperatorunun himayəsi vəd olunurdu. Tələbin yerinə yetirilməyəcəyi təqdirdə Sisianov qala üzərinə hücum başlanacağını və bu hücum zamanı günahsız insanların axan qanından çay yaranacağını bildirirdi (159).

Gəncə qalası üzərinə hücum təşkil edilənə qədər general Sisianov daha bir neçə dəfə Cavad xana məktub göndərdi, ona öz təhdidlərini çatdırdı və onu işğalçı rus qoşunlarına qarşı müqavimət göstərməkdən çəkindirmək istədi. Yuxarıda qeyd edildiyi kimi, farsdilli mənbələrdə göstərilir ki, Qacar sarayı Cavad xanın köməyinə qoşun göndərmək istəyirdi. Amma bu qoşunlar vaxtında gəlib çıxmadı. Cavad xanın rus qoşunlarına əzmkarlıqla müqavimət göstərməsi heç də Qacar sarayından kömək almaq ümidi ilə bağlı deyildi. Belə olsaydı Cavad xan Qacar qoşunlarının harada olmasını müəyyənləşdirib, ona uyğun müdafiə qurardı. Cavad xan rus təkəbbürlülüyünü qəbul edə bilmirdi, rus işğalı altında qalmağı özünə sığışdıra bilmirdi, Sisianov kimilərinin iddialı mövqeyi ilə barışmırdı. Ona görə də o, Gəncə əhalisini rus işğalına qarşı müqavimətə səfərbər edə bildi.

Cavad xan cavab məktublarının birində qazaxlı Məhəmmədin onun yanına göndərilməsini və fikirlərinin də Məhəmməd vasitəsilə çatdırılmasını istədi. Dekabrın 26-na aid olan məktubunda Sisianov bu təklifi istehza ilə qarşıladı və Cavad xandan cavabı yazılı şəkildə istədi. Həmin məktubda Sisianov bildirdi ki, rus qoşunları bir qalanı mühasirəyə alandan sonra heç vaxt onu buraxıb getmirlər. Qala ya təslim olub, ya da həmin qala hücumla alınıb. Sonra da Sisianov yenə özünəməxsus istehza ilə əlavə edirdi ki, baxıb görərik, Gəncə kimin əlində qalacaqdır (160).

Dekabr ayının 28-nə aid olan məktubunda Sisianov yenidən Məhəmməd adlı birisini Cavad xanın yanına göndərməyəcəyini bildirdi. O yenə bəyan etdi ki,Cavad xanın sözlərinin ona çatdırılmasına ehtiyac yoxdur. Sisianov ancaq qalanın təslim edilməsi üzərində təkid edirdi. Cavad xanın belə bir addım atmasını isə o, Asiya inadkarlığı kimi qiymətləndirirdi və əlavə edirdi ki, Asiya inadkarlığına nifrət edir. Sisianov yazırdı ki, Avropa adəti mühasirəyə alınmış qalaya əvvəlcə döyüşsüz təslim olmaq təklifini irəli sürür. Guya bununla o, günahsız insanların qanının axıdılmasının qarşısını almaq istəyirdi. Qərar qəbul olunması üçün vaxt ayrılmasının mümkünlüyü də bildirilirdi. Sisianov onu da əlavə edirdi ki,

həmin vaxt ərzində heç bir tərəfdən atəş açılmamalı idi. Vaxt başa çatandan sonra ya qala təslim edilir, ya da döyüş yenidən başlanırdı. Sisianov öz həyat yolunu xatırlamaqdan da çəkinmirdi və qeyd edirdi ki, onun iştirakı ilə dörd qala ətrafında belə təcrübədən istifadə olunub. Sisianov elə həmin gün cavab verilməsini tələb etdi. Əks təqdirdə, axan qanlar üçün özünü təqsirkar görmürdü (161).

Sisianov məktubunda işarə edirdi ki, danışıqlar aparılan zaman hər iki tərəfdən atəşkəsə əməl olunur. Onun bu məqama toxunması ondan irəli gəlir ki, Gəncə müdafiəçiləri qalaya yaxınlaşan rus hərbçilərinə atəş açırdılar. Bu da ruslar üçün ciddi problemlər yaradırdı. Cavad xan cavab məktubunda bu məqama da toxundu və bildirdi ki, rus qoşunları qalaya o dərəcədə yaxın mövqe tutublar ki, belələrinə qarşı həmişə atəş açılmalıdır. Başqa sözlə, Cavad xan anlatmaq istəyirdi ki, ruslar atəş altına düşmək istəmirlərsə heç olmasa atəş məsafəsindən geri çəkilsinlər. Cavad xan qala üzərinə hücum ediləcəyindən də qorxmadığını bildirirdi. Eyni zamanda onu da bildirirdi ki, mühasirədə qalanlar düşmənə müqavimət göstərmək üçün yollar axtarırlar (162).

Cavad xan bir daha məktubunda çatdırırdı ki, o, Məhəmməd Mirzə oğlunun onun yanına göndərilməsini istəmişdir. Sisianovun tələblərinə cavab olaraq isə bildirirdi ki, kim kimə sərt yazırsa sərt də cavab almalıdır. Bununla Sisianovun diqqətinə çatdırılırdı ki, onun sərtliyi qarşı tərəfin iradəsinin sındırılması üçün təsirli deyildir. Qala üzərinə hücum başlanmasının günahsız insan qanına səbəb ola biləcəyi haqqında Sisianovun yazdıqlarına Cavad xan belə münasibət bildirirdi ki, qala üzərinə gəlməyin, onda sizin qanınız da axıdılmayacaq. Cavad xana görə, ruslar Gəncə qalası üzərinə hücum etsələr, sözsüz ki, onların qanı axıdılacaq və bu zaman bunun günahı da rusların üzərinə düşəcəkdir. Sisianov öz məktubunda yazmışdı ki, xristian qanunlarına əsasən, qan axıdılması günahdır. Cavad xan isə bildirirdi ki, islam qanunlarına görə, kimsə kimin üstünə gücla gedirsə və bu zaman onun qanı tökülürsə, bu, günah hesab edilmir. Sisianovun gün ərzində məktubuna cavab verilməsi tələbinə isə Cavad xan belə cavab verdi: "Belə sözləri ağa öz nökərinə deyə bilər. Mən isə heç kimdən qorxmuram, nə vaxt istəsəm, onda da cavab verirəm" (163).

Rus tarixçisi N.Dubrovin öz əsərində Sisianov-Cavad xan yazışmasının bir fraqmentini vermişdir. Həmin fraqment belədir:

" – Mən şəhəri alacağam, knyaz Sisianov xana çatdırırdı, və səni də şərəfsiz ölümə yetirəcəyəm.

- Sən məni divar üzərində ölmüş tapacaqsan - Cavad xan ona cavab verdi" (165).

Bu cümlələr Cavad xan – Sisianov yazışmasının və qarşıdurmasının mahiyyətini əks etdirirdi. Sisianov şübhə etmirdi ki, Cavad xan qalanı təslim etməyəcəkdir. Bununla belə, Sisianov qala üzərinə hücum üçün də qətiyyət nümayiş etdirə bilmirdi. Heç şübhəsiz ki, Sisianov qələbə çalacağına əmin deyildi. Geri çəkilməyi isə öz təkəbbürünə sığışdırmırdı. Özü də bildirirdi ki, şəhəri almamış geri çəkilməklə Rusiya silahının şərəfini başqalarının gözündə yerə sala bilərdi (166). General Sisianov nümayiş etdirdiyi iddialarından sona geri çəkilmək xəcaləti ilə qarşılaşmaq istəmirdi. Farsdilli mənbələrə görə, onu bu xəcalətdən ermənilərlə iş birliyi xilas etdi. Bütünlükdə, erməni xəyanətkarlığı farsdilli mənbələrdə Gəncənin süqutunun səbəblərindən biri kimi dəyərləndirilir.

Azərbaycan xanlıqları ərazisində gedən müharibənin şahidi və iştirakçısı olan Mirzə Məhəmməd Sadıq Vəqayeneqar "Rus-İran müharibələri tarixi " adlı əsərində yazırdı ki, Gəncə daxilində yaşayan ermənilər, onların keşişi Aram hamılıqla Cavad xanın əleyhinə xəyanət etdilər və onlar Gəncə sakinlərində də rus qoşunları qorxusu yaratmağa çalışdılar. Müəllifə görə, Sisianov onlarla əlaqə saxlamaqla bərabər, onların mühafizəsinin təmin edilməsinə də çalışırdı. Bildirilir ki, bir gecə Gəncənin erməni keşişi Sisianova məktub yazdı və ona çatdırdı ki, Gəncə erməniləri rus bayrağı altında yaşamağa hazırdırlar. Keşiş onu da bildirirdi ki, ermənilər hamısı şəhərdən çıxaraq rus qoşunlarına qoşulacaqlar (167).

1803-cü il dekabr ayının 29-da Sisianov Cavad xana son məktubunu göndərdi. O özü də bu məktubunun sonuncu olduğunu və məktuba Gəncə qalasının təslim edilməsi şərtlərini əlavə edildiyini bildirirdi. Sisianov yenə də insan qanı axıdılmasının istəmədiyini, bunun bütün Avropa qanunlarına uyğun olmadığını, qazaxlı Məhəmmədin heç vaxt onun yanına göndərilməyəcəyini söyləyir və cavabın Cavad xanın yanına gələn rus məmuru vasitəsilə göndərilməsinin zəruriliyini bəyan edirdi. Sisianov yazırdı ki, Cavad xan məktubuna dərhal cavab verdiyindən, indi də Cavad xandan dərhal cavab verilməsini gözləyir. Bundan sonra da məktubda Sisianovun irəli sürdüyü şərtlər sadalanırdı. Bu şərtlər mahiyyət etibarilə Gəncə xanlığının Rusiya işğalı altına düşməsini təsbit edirdi. Cavad xan tərəfindən qəbul edilməyən həmin şərtlər aşağıdakılar idi:

1. Cavad xan Rusiya imperatoruna təbəəliyə and içməli və onun xanlığının əhalisi də bu təbəəliyi qəbul etməli idi;
2. Gəncə qalası yerli qüvvələrdən təmizlənməli və onun daxilinə Rusiya qoşunlarının topları və sursatı yerləşdirilməli idi;
3. Cavad xan Rusiya imperatorunun təbəəsi olaraq əvvəlki səlahiyyətlərdə öz xanlığını idarə edir və Rusiyaya ildə 20 min rubl vergi

verir. 1804-cü il üçün olan bütün vergi təslim şərtinin imzalanması zamanı verilməli idi;

4. Qala daxilində və Şəmşəddil yolu üzərində yerləşən rus qoşunları xan tərəfindən ərzaq və yemlə təmin edilməli idi. Nə qədər ərzaq ödənməsi konkret rəqəmlərlə müəyyənləşdirilmişdi. Atlara yem tədarükü üçün otlaq sahələr ayrılmalı idi;

5. Şəmşəddil və onun əhalisi Gürcüstan hakiminin idarəsi altında qalmalı idi. Cavad xan bu mahala qarşı iddia qaldırmamalı idi;

6. Bu şərtlərə sadiqliyin zəmanəti kimi Cavad xan oğlu Hüseynqulu ağanı girov kimi Gürcüstanın baş hakiminin yanına göndərilməli idi. Vəd edilirdi ki, onun dolanışığı üçün gündə 10 rubl vəsait ayrılacaqdır (168).

Beləliklə, general Sisianov tərəfindən irəli sürülən konkret şərtlər Cavad xan tərəfindən qəbul edilmədi və rus generalı bir daha anladı ki, Cavad xanın iradəsini qırmaq mümkün olmayacaqdır. Gəncənin alınması yalnız silahlı yolla ola bilərdi ki, Sisianov da bu yola əl atmalı oldu.

1804-cü ilin ilk günündən Ramazan ayı daxil olmuşdu. Cavad xan və Gəncə müdafiəçilərinin rus qoşunlarına qarşı son döyüş günü Ramazan ayının 3-cü gününə təsadüf edirdi. Cavad xan və onun ətrafındakılar yəqin ki, rus qoşunlarının fəaliyyətini izləyirdilər. Soyuq hava şəraitində atlara yem çatmadığı kimi, qoşunların şəxsi heyəti arasında da xəstələnənlərin sayı çoxalırdı. Buna görə də Sisianovun seçim imkanları daralırdı və qala üzərinə hücum etmək zərurəti ortaya çıxırdı. Geri çəkilməyi isə yuxarıda qeyd edildiyi kimi, Sisianov öz təkəbbürünə sığışdıra bilmirdi. Bütün bunlarla bərabər, görünür Sisianovda Cavad xan üzərinə gedib-getməmək barədə bir tərəddüd yaranmışdı. Çünki qala üzərinə hücum üçün təkbaşına qərar qəbul etməyə onun cəsarəti çatmadı. Qarşılaşa biləcəyi uğursuzluqdan sığortalanmaq üçün Sisianov qərar qəbul edilməsini Hərbi Şuranın ixtiyarına buraxdı. Hərbi Şuranın üzvlərini dəstədə olan yüksək rütbəli zabitlər təşkil edirdilər. Hərbi Şura isə öz iclasında yanvar ayının 3-nə açılan səhər Gəncə qalası üzərinə hücum etməyi qərara aldı.

Sisianov Gəncə qalası üzərinə hücum qərarının gizli saxlanılmasına çalışılırdı. Bu özü də göstərir ki, Sisianov qala üzərinə hücuma çox ehtiyatla yanaşırdı. Onun göstərişi ilə general-mayor Portnyagin hücumun rəhbəri təyin edildi. Ona da verilən ilk göstəriş bu oldu ki, qala üzərinə hücum xəbəri ətrafa yayılmasın, vaxtından qabaq qoşunların yerdəyişməsi aparılmasın. Bütün qoşun hücumun başlayacağı ərəfəyə qədər öz mövqelərində qalmalı idi. Bayraq və ştandartlar heç bir mərasim həyata keçirilmədən sakitcə gətirilib Sisianovun qarovuluna təhvil verilməli idi. Qala boyunca sıralanmış olan kazaklar da sübhə qədər öz mövqelərində dayanmalı idilər (169).

Qala üzərinə hücum edəcək rus qoşunları 2 sütunda qruplaşdırıldılar. Hər sütun üçün də konkret vəzifələr müəyyənləşdirildi. Birinci sütuna Sevastopol alayının qrenadyor taboru, Qafqaz qrenadyor alayının bir taboru, 200 nəfər draqun (piyada kimi) daxil idi. Bu sütuna general-mayor Portnyagin rəhbərlik edirdi. Birinci sütun qalanın Qarabağ darvazasının sol səmtinə hücum etməli idi. İkinci sütuna polkovnik Karyagin rəhbərlik etməli idi. Bu sütuna polkovnik Karyaginin komandiri olduğu 17-ci yeger alayının 2 taboru daxil idi. Sütun Tiflis darvazasının sol tərəfində hücuma qoşulmalı idi. Polkovnik Karyaginə göstəriş verilmişdi ki, sütunu irəli atsın, hücum görüntüsü yaratsın. Yəni qala daxilindəkilərin diqqətini cəlb etsin və sonra geri çəkilsin. Ümumi hücum başlayanda 2-ci sütun da bu hücuma qoşulmalı idi (170).

17-ci yeger alayının bir taboru rus qüvvələrinin ehtiyatını təşkil etməklə Qarabağ darvazası qarşısındakı meydanda yerləşmişdi. General Sisianov da döyüşün gedişini buradan izləməli idi. Tiflis darvazasının qarşısında isə Sevastopol muşketyor alayının bir taboru yerləşdirilmişdi. Bu tabor qala müdafiəçilərinin bu darvazadan geri çəkilmək yolunu bağlamalı idi. Döyüş qızışandan sonra isə bu tabor da ümumi hücuma qatılmalı idi. Rus qoşunları tabeliyində olan 11 ədəd top da ehtiyat qüvvələrin yerləşdiyi mövqedə idi. Onların mühafizəsi kazakların öhdəsinə qoyulmuşdu. Rus tarixçiləri Gəncə üzərində hücumda rus qoşunları tərəfində azərbaycanlı atlıların olduğunu yazırlar. General Sisianov görünür, azərbaycanlı atlıların Gəncə üzərinə ciddi yanaşacaqlarına inanmırdı. Ona görə də onlara şəhər ətrafındakı bağların kənarında mühafizə xətti yaratmaq tapşırılmışdı (171).

Mövcud tarixi faktlardan aydın olur ki, şəhərin daşdan olan əsas divarı boyunca gildən mühafizə divarı da olmuşdur. Bu gil divarların adlanması ruslar qarşısında dayana ilkin vəzifə idi. Şəhər müdafiəçilərini ayıq salmamaq üçün ruslar yanvarın 3-də, səhər qaranlığında ehtiyatla gil divarlara doğru irəlilədilər. Səhər saat 6-da ruslar gil divarlara yaxınlaşaraq nərdivanları onların üzərinə aşırmalı idilər. Gecənin qaranlığından istifadə etməklə ruslar bu vəzifənin öhdəsindən gələ bildilər. Gil divara yaxınlaşana kimi qaladan ruslara hər hansı bir atəş açılmadı. Yalnız gil divarları aşandan sonra ruslara tərəf qaladan atəş açıldı (172).

Məlumatların olmaması üzündən Gəncə qalasının hansı qüvvə və vəsaitlə müdafiə olunduğunu söyləmək çətindir. Sözsüz ki, Gəncə xanının silahlı dəstəsi bu müdafiənin əsasını təşkil edirdi. Rus mənbələrinə görə, rus qoşunları sonradan Gəncədən 12 ədəd top, 6 ədəd zənburək ələ keçirmişdilər (173). Bu toplar da yəqin ki, qalanın müdafiəsi üçün cəlb edilmişdi. Bundan başqa şəhər əhalisinin də qalanın müdafiəsinə cəlb edildiyini söyləmək olar. Çünki qalanın müdafiəsi üçün daşlardan, yanan şamlardan istifadə olunurdu.

Çox güman ki, onların tədarükündə şəhər əhalisi də iştirak edirdi. Qala divarları üzərində daimi növbətçilik və müşahidə aparılması təşkil edilmişdi. Bunun nəticəsi idi ki, ruslar gil divarı aşandan sonra qala müdafiəçiləri tərəfindən müşahidə edilmişdi.

Rusların hücumu müşahidə edilən kimi qala daxilində həyəcan işarəsi verildi və müdafiəyə hazırlıq elan edildi. Əvvəldən hazırlanmış olan şamlar yandırılaraq daş divarlarla gil divarlar arasındakı əraziyə atıldı və bununla bu ərazi müəyyən qədər işıqlandırıldı. Bununla rusların hücumunu daha yaxşı müşahidə etmək mümkün oldu. Daş divarlara yanaşan ruslara divar üzərindən daş parçaları və oxlar atıldı. Qala müdafiəçilərinin bu fəallığı ruslar üçün gözlənilməz oldu. Bunun nəticəsi idi ki, ruslar ilk həmlədən itkilərlə rastlaşdılar.

Yuxarıda qeyd edildiyi kimi, ilkin olaraq polkovnik Karyaginin rəhbərlik etdiyi 2-ci sütunun döyüşçüləri irəli atılaraq hücum görüntüsü yaratmalı və bununla da qala müdafiəçilərinin diqqətini özünə cəlb etməli idi. Qala divarlarının ətrafını yaxşı işıqlandıran qala müdafiəçiləri rusların irəli atılmasını cavabsız qoymadılar. Hətta polkovnik Karyaginin hücum görüntüsü yaratmaq üçün irəli atılan döyüşçüləri də qala müdafiəçilərinin sərrast atəşləri ilə qarşılaşırdılar. Dəstənin itki verdiyini görəndə polkovnik Karyagin də irəli atıldı. Halbuki o bunu etməli deyildi. Ümumi hücumun başlanması üçün general Portnyaginin sütununda olan böyük təbillərin səsi eşidiləndən sonra polkovnik Karyagin də hücuma qoşulmalı idi. Döyüşçülərinin itki verməsi onu vaxtından əvvəl döyüşə qoşulmağa və sütunu da ardınca aparmağa məcbur etdi. Rus tarixçilərinin verdiyi məlumata görə, polkovnik Karyagin döyüşə uğurla qoşuldu və qısa müddətdən sonra nərdivanlardan istifadə etməklə qala divarları üzərinə dırmaşa bildi. Bildirilir ki, polkovnik Karyagin general Portnyaginin sütunundan daha tez qala divarları üzərinə çıxa bildi. Polkovnik Karyagin hücum istiqamətində olan qala bürcünü və oradakı topları ələ keçirdi. Sonra da mayor Lisaneviçə tapşırıq verdi ki, ixtiyarında olan taborla qala divarları üzərinə hərəkətini davam etdirsin (174).

Qala üzərinə əsas hücumun isə general-mayor Portnyaginin rəhbərliyi altında olan birinci sütun istiqamətində olacağı gözlənilirdi. Hücum ərəfəsində qüvvələrin qalaya daha asanlıqla çatdırılması üçün gil divarlarda keçid yaradılmışdı. Cavad xan da rusların qarşısının alınması üçün əsas diqqəti bu istiqamətə yönəltmişdi. General-mayor Portnyagin biləndə ki, gil divarların uçurulmuş yerlərində yaradılmış keçid qala müdafiəçilərinin ciddi diqqəti altındadır, onda hücumun istiqamətini dəyişdirmək məcburiyyətində qaldı. O, gil divarları nərdivanlarla aşmalı oldu, sonra isə hücum davam etdirildi. Qalanın daş divarları üzərinə hücum da nərdivanların vasitəsilə

həyata keçirildi. Bu istiqamətdə gedən döyüşün təfərrüatı haqqında məlumat olmasa da, hər halda rusların güclü hücumu qala müdafiəçilərini geri çəkilməyə məcbur etdi.

Birinci sütunun həyata keçirdiyi iki hücum uğursuzluqla nəticələndi. Qala müdafiəçiləri onları itki verərək geri çəkilməyə məcbur etdilər. Onların açdığı sərrast atəşlər Qafqaz qrenadyor alayından mayor Bartneyevin və digər hərbçilərin öldürülməsi ilə nəticələndi (175). Bununla belə qeyd edildiyi kimi, ruslar qala divarlarına dırmaşa bildilər. Qala divarlarının ələ keçirilməsi isə şəhərin taleyini həll etmiş oldu.

Cavad xan qala müdafiəçilərinə polkovnik Karyaginin rəhbərliyi altında olan 2-ci sütunun hücum etdiyi tərəfdə qoşulmuşdu. Polkovnik Karyaginin "Yuxarı qala" bürcünü tutmasından sonra qala divarları boyunca irəliləyən mayor Lisaneviç bir sıra bürcləri ələ keçirdi. Qala divarları üzərində vuruşan Cavad xan mayor Lisaneviçin atdığı atəşdən yaralandı və sonra da 17-ci yeger alayının kapitanı Kalovski tərəfindən qətlə yetirildi. Bir tarixi araşdırmada bildirilir ki, Cavad xan qala bürclərindən birində yaralandı. Bunu görən Hüseynqulu ağa onun imdadına çatmaq istədi. Amma Cavad xan onu başqa bir mövqenin müdafiəsinə göndərdi. Cavad xan əlində qılınc top yanında dayanaraq son nəfəsinə qədər mübarizəsini davam etdirdi (176).

Cavad xanın qala divarları üzərində şəhid olması qalanın müdafiəsini başsız qoydu və çox keçmədi ki, Gəncə qalası təslim oldu. Farsdilli mənbələrin bəziləri Gəncə qalasının süqut etməsində Şəmşəddil hakimi Nəsib bəyin və eyni zamanda şəhər ermənilərinin satqınlığının xüsusi yeri olduğunu bildirirlər (177). Gəncə ermənilərinin Cavad xana xəyanət etməsi və rus qoşunlarına casusluq etməsi rus mənbələrində də təsdiqlənir. Amma Nəsib bəyin Gəncəyə hücum zamanı Cavad xana yardım etməsi və sonra da onu tərk edib yenidən ruslara qoşulması haqqında rus mənbələrində və rus tarixi ədəbiyyatında lazımlı məlumatla rastlaşmaq çətindir. Məlumdur ki, Cavad xanla Nəsib bəy arasında gərgin münasibətlər var idi və Nəsib bəy ruslarla əməkdaşlığa üstünlük verirdi. Ona görə Gəncəyə hücum zamanı Nəsib bəyin əvvəlcə ruslara qarşı mövqe tutması haqqında deyilənlər real görünmür.

Ermənilərə gəlincə isə, Mirzə Məhəmməd Sadıq Vəqayeneqar Cavad xanın hətta erməni keşişləri Ruben və Mikael tərəfindən öldürüldüyünü yazır. O eyni zamanda bildirir ki, şəhərin rus qoşunları tərəfindən talanmasında, əhalinin var-yoxdan çıxarılmasına ermənilər təhrikçilik edirdilər (178). "Məəssər-e Soltaniyyə" müəllifi də şəhərin işğal edilməsindən sonra rus hərbçilərinin üç saat ərzində şəhərdə qətl və qarətlə məşğul olduqlarından yazır (179). Rus qoşunlarının qətl və qarətlə məşğul

olmasını rus tarixçiləri də gizlətmirdilər. Onların əsərlərində rusların hətta qala atları üzərində olan qızıl əşyaları talamaları haqqında da məlumat vardır (180).

Sisianovun Gəncə daxilində qətl və qarətlər törədəcəyi gözlənilən idi. Çünki Cavad xan qarşısında qırılmış qürurunun qisasının alınması, onun iradəsini qəbul etməyən qala müdafiəçilərinə dərs verilməsi, ən başlıcası isə ətraf xanların və hakimlərin gözünün qorxudulması üçün Sisianov öz yırtıcılığını ortaya qoymaq imkanı əldə etdi. Rus tarixçilərinin özlərinin istinad etdiyi faktlar Gəncədə hansı qırğınlara və qansızlıqlara rəvac verildiyini nümayiş etdirir. Rus qoşunlarının qırğınlarından nicat tapmaq istəyən 500-ə qədər Gəncə sakini xilas yolunu məscidə sığınmaqda gördülər. Rus tarixçilərinə görə, yerli ermənilər məscidə sığınanlar arasında bir neçə ləzginin olması haqqında rus hərbçilərinə məlumat verdilər. Ruslar isə məlumatın doğruluğunu yoxlamadan məscidə sığınanların hamısını qətlə yetirdilər (181).

Rus mənbələrinin məlumatına görə, öldürülən şəhər əhalisinin sayı 1500 nəfər idi. Başqa bir məlumata görə isə 1750 nəfər öldürülmüşdü (182). Başqa sözlə, ruslar az qala qarşılarına çıxan hər bir sakini qətlə yetirdilər. Qalan əhali isə girov götürüldü. Onlarla necə davranıldığı barəsində isə söyləmək çətindir. Rus mənbələrinin məlumatlarına görə, rusların itkisi cəmi 40 nəfər idi. 200 nəfərə qədər də yaralanmışdı (183).

Qalaya hücum edən rusların müdafiə döyüşündə olan gəncəlilərlə müqayisədə bu qədər az itki verməsi də qala əhli arasında qırğının kütləvi olduğunu göstərir. Sözsüz ki, yerli əhalinin itkisi hərbi itki deyil, başlıca olaraq rus qoşunlarının qırğınlarının qurbanı olanlar idi. Maddi qənimətə gəlincə isə, ruslar yuxarıda göstərilən sayda toplardan başqa, 8 ədəd bayraq və digər əşyalar da ələ keçirdilər.

Mövcud məlumatlara görə, Cavad xanın xanımı Böyükxanım da qala bürclərinin birində rus qoşunlarına qarşı müqavimət göstərilməsində iştirak edirdi. Cavad xan və oğlu şəhid olandan sonra Böyükxanım onların meyitlərini bürcdən yerə endirmiş və xan sarayına gətirmişdi. Cavad xanın qətlinə əmin olmaq üçün Sisianov bura gələndə Böyükxanım Cavad xanın qılıncını götürərək rus generalının üstünə hücum etməyə cəhd göstərmişdi. Deyilənə görə, Sisianovun yavəri onun həyatını Böyükxanımın qəzəbindən qurtara bilmişdi (184).

Gəncə daxilində qətl və qarət aparılmasını general Sisianov Şəki xanı Məhəmməd Həsən xana yazdığı məktubunda özü də etiraf edirdi. Lakin rus generalı bunun günahını Cavad xanın üstünə atırdı. Sisianov bildirirdi ki, şəhərin təhvil verilməsi üçün beş dəfə təklif irəli sürmüş, Cavad xana ən yaxşı təkliflər vermişdi. Şəhəri təslim etmək tələbinin Cavad xan tərəfindən

qəbul edilməməsini Sisianov şəhərə hücum etməsinin və şəhərdə qırğınlar baş verməsinin səbəbi sayırdı. O, Şəki xanına da yazırdı ki, başqa cür ola bilməzdi. Çünki rus qoşunları mühasirə etdikləri şəhəri almadan geri çəkilməyə adət etməyiblər (185).

Gəncə şəhərinin işğal edilməsi haqqında Sisianov yanvar ayının 10-da Rusiya imperatoruna raport göndərdi. Sisianov rus qoşunlarının, rus zabitlərinin qələbəsi haqqında çara məlumat verdikdən sonra ondan Gəncə şəhərinə çariça Yelizavetanın adının verilməsinə icazə istədi. Sisianov Gəncə şəhərinin Yelizavetpol adlandırılmasını təklif edirdi. Rusiya çarı Aleksandr general Sisianovun təklifi ilə razılaşdı və eyni zamanda Yelizavetpol vilayətinin əhalisini bir il vergi verməkdən azad etdi. General Sisianov imperatorun razılığını alandan sonra Gəncə adının çəkilməsini qadağan etdi. Onun sərəncamına əsasən, 1804-cü il aprel ayının 1-dən etibarən Gəncəni öz qədim adı ilə adlandıranlar 1 rubl cərimə verməli idilər. Bütün yazışmalarda da yalnız Yelizavetpol adı işlədilməli idi.

Gəncə şəhərinin işğal edilməsi Rusiya imperatorunun da böyük sevincinə səbəb oldu. Sisianovun bununla bağlı raportunu alandan sonra imperator Aleksandr 1804-cü il fevral ayının əvvəlində general Sisianova məktub göndərdi. Rusiya imperatoru general Sisianovun Cavad xan qarşısındakı inadkarlığını təqdir edir və Cavad xanın inadkarlığı qarşısında rus qoşunlarının geri çəkilməməsini rus döyüşçüsünün qələbəsi sayırdı. Rusiya çarı eyni zamanda general Sisianovu Kür-Araz ovalığındakı ərazilərin tezliklə işğal edilməsinə təşviqləndirirdi. Rusiya çarı tutulmuş ərazilərdə möhkəmlənməyi, Xəzər dənizinin qərb sahillərinin ələ keçirilməsini bir vəzifə kimi general Sisianovun qarşısında qoyurdu və bildirirdi ki, bu vəzifənin həyata keçirilməsi üçün əlavə qoşunlara və maliyyə vəsaitinə ehtiyac olsa ona müraciət etsin (187).

Gəncənin işğal edilməsi şərəfinə Rusiya imperatoru general Sisianova infanteriya üzrə tam general (piyada qoşunları üzrə general-polkovnik) verdi və onu Müqəddəs Aleksandr ordeni ilə təltif etdi. Gəncənin alınması şərəfinə xüsusi medal təsis edildi və Gəncə üzərinə hücumda iştirak etmiş bütün döyüşçülərə bir gümüş rubl mükafat verildi. General Sisianov Gəncənin işğalına görə, 2-ci dərəcəli Müqəddəs Georgi ordeninə iddialı idi. Amma bu orden ona verilmədi və buna görə də Sisianov incik qaldı və hətta bu incikliyin nəticəsi kimi xəstəlik adı ilə vəzifəsindən azad edilməsini xahiş etdi (188).

Cavad xan 1804-cü il yanvar ayının 5-də Şah Abbas məscidinin yanında dəfn edildi. Ölümündən sonra onun ailəsinin taleyi haqqında mənbələrdə bəzi məlumatlar qalmışdır. Rus tarixçilərinin məlumatına görə, Gəncə üzərinə hücumun başlanğıcında Cavad xanın iki oğlu kəndirlərlə qala

divarlarından enərək şəhərdən uzaqlaşa bildilər (189). Sonrakı faktlardan aydın olur ki, Cavad xanın uşaqları Samux hakimi Şirin bəyin yanına pənah aparıblarmış. Bu xəbəri eşidən kimi Sisianov Şirin bəyə məktub göndərdi. Məktubunun əvvəlində Sisianov yenə təkəbbürlülük göstərərək onun Şirin bəyə məktub yazmasını şənindən kənar olduğunu bəyan edirdi. Sisianova görə, Şirin bəy rus generalından qorxmalı idi, onun Gəncə ətrafına gəlməsini eşidən kimi gəlib ona öz itaətini bildirməli idi və Cavad xanın uşaqlarını dərhal gətirib ona təhvil verməli idi. Sonra da Sisianov ondan tələb edirdi ki, gəlib Rusiyaya tabe olduğunu bəyan etsin və Cavad xanın uşaqlarını da özü ilə gətirsin. Sisianov Şirin bəyi qorxudurdu ki, vaxtında gəlib öz təbəəliyini bildirməsə, onu yerdə də, göydə də olsa tapacaqdır. Öz təkəbbürlüyünü nümayiş etdirmək üçün Sisianov Samux hakiminə sonra belə yazırdı: "Yalnız onu xatırlayın ki, mən öz sözümü tutmağı bacarıram. Dedim ki, Car vilayətini çökdürəcəyəm – çökdürdüm də. Dedim ki, Gürcüstanı didib parçalayan çar ailəsini Gürcüstandan çıxaracağam – çıxardım da. Dedim ki, Gəncəni alacağam – aldım da. İndi düşünün, Siz bizimlə eyniləşə bilərsinizmi? " (190)

Samux hakiminin Cavad xanın uşaqlarını geri qaytardığını söyləmək çətindir. Sonrakı məlumatlardan aydın olur ki, Cavad xanın iki oğlu Qarabağ xanı İbrahim xanın yanındadırlar. Çox güman ki, Samux hakimi Şirin bəyin yanında təhlükəsiz olmadıqları üçün onlar İbrahim xanın yanına getməli olmuşdular. Bunlar Uğurlu ağa ilə Əliqulu ağa idilər. General Sisianovun yazışmalarından aydın olur ki, Gəncənin işğalından bir müddət sonra Uğurlu ağa Sisianova məktub yazıbmış. Sisisanovun məktubunun məzmunundan və Uğurlu ağanın digər məktublarının məzmunundan belə qənaətə gəlmək olar ki, Uğurlu ağa Sisianova göndərdiyi ilk məktubunda özünü və ailəsinin onlara məxsus mülklərdə dinc yaşamasına icazə verilməsini xahiş etmişdi. Sisianov buna razı deyildi və çardan aldığı məktubda da ondan tələb olunurdu ki, Cavad xanın oğulları Rusiyaya göndərilsinlər (191). Sisianovun artıq belə bir təcrübəsi var idi. O, Gürcüstanda Rusiyaya qarşı müxalifətçiliyin qarşısının alınması üçün gürcü çar ailəsinin üzvlərini Rusiyaya sürgün etmişdi.

Sisianov Uğurlu ağaya 1804-cü il fevral ayının 4-də göndərdiyi məktubunda onu və qardaşı Əliqulu ağanı Tiflisə çağırdı. Sisianov əmin edirdi ki, Tiflisdə onları ata kimi qəbul edəcək və onlara maliyyə vəsaiti ayrılmasına nail olacaqdır. Rus generalı Gəncə üzərinə hücumda günahkar olmadığını və Cavad xanın təqsirkar olduğunu yazırdı. O tövsiyə edirdi ki, Uğurlu ağa ətrafındakıların məsləhətlərinə qulaq asmasın. Sisianova görə Uğurlu ağanın ətrafındakıların dedikləri ilə durub-oturması onun həyat

yoldaşı Nisə bəyimdən və anasından ömürlük ayrı düşməsinə səbəb olacaqdır (192).

Görünür, Uğurlu ağa Sisianovun məkrlərini hiss etdi və ona görə də onun çağırışlarını qəbul etmədi. Mənbələrdə Uğurlu ağanın Rusiya imperatoruna müraciəti də qalmışdır. Müraciətin tarixi göstərilməsə də, onun Gəncənin işğalından təxminən 3 il sonra yazıldığı qənaətinə gəlmək mümkündür. Bu müraciətin də əsas məzmunu Uğurlu ağanın anası, bacıları, xanımları, onların uşaqları, öz qızı ilə bərabər Gəncədə onlara məxsus mülklərdə yaşamalarına icazə verilməsi istənilirdi. Uğurlu ağa təkidlə bildirirdi ki, o, Gəncədə yaşamaq istəyir. Bu xahişə razılıq verilməsi əvəzində Uğurlu ağa Rusiya imperatoruna xidmət etməyi boynuna götürürdü (193).

Bütünlükdə isə Uğurlu ağanın Rusiya imperatoruna müraciətində bir sıra maraqlı faktlar vardır. Xahişinə müsbət cavab ala bilməsi üçün Uğurlu ağa atası Cavad xanın Rusiyaya qarşı düşmən münasibətdə olmadığını bildirirdi. Uğurlu ağa yazırdı ki, V.Zubovun yürüşü zamanı rus qoşunları Şirvanda dayananda Cavad xan onun görüşünə çıxdı, Gəncə qalasının açarlarını ona təqdim etdi. V.Zubov isə Cavad xanın bu xidmətini lazımınca qiymətləndirməyərək Gəncəni gürcü çarının nəzarəti altına verdi. V.Zubov rus qoşunları ilə geri çəkiləndən sonra Cavad xan yenidən Gəncəyə yiyələnə bildi. Uğurlu ağanın yazdığına görə, Ağa Məhəmməd şah Qacar Qafqaza ikinci yürüşü zamanı Cavad xanı ruslarla əməkdaşlığa görə qətl etdirmək istəyirdi. Lakin onun özünün öldürülməsi Cavad xanı da xilas etdi. Uğurlu ağa sonra yazırdı ki, Sisianov Qafqaza təyin ediləndən sonra da Cavad xan Rusiya sarayı ilə xoş münasibətlər qurmaq istəyirdi və bunun üçün Rusiya sarayına məktub da göndərmişdi. Lakin Sisianov Gəncəyə hücum edəndə bu məktublara cavab alınmamışdı. Uğurlu ağaya görə, Sisianovun hücumu zamanı Cavad xan ona elan edibmiş ki, təkliflərini Rusiya sarayına göndərmək istəyir. Rusiya sarayından cavab gələnə kimi hücumun da dayandırılması təklif olunurdu. Sisianov isə bu təkliflə razılaşmayıb (194).

Uğurlu ağanın ümidlərinə baxmayaraq, onun Rusiya çarına etdiyi müraciəti cavabsız qaldı. Məlumdur ki, o, sonralar Qacar sarayına pənah apardı. Cavad xanın xanımı Mələknisə xanım Şəki xanı Məhəmməd Həsən xanın bacısı idi. Gəncə süqut etdikdən sonra Məhəmməd Həsən xan general Sisianova məktub yazdı və bacısı Mələknisə xanımla qızı Şirin xanımın Şəkiyə buraxılmasına icazə istədi. Sisianov Şəki xanının məktubuna geniş cavab verdi, Məhəmməd Həsən xanın bir sıra fikirləri ilə razılaşmadığını bildirdi. O bu məktubda da yeri gəldi-gəlmədi Cavad xanı ittihamlandırdı, onun ailəsinin başsız qalmasının günahını da onun üstünə atmağa çalışdı. Mələknisə xanımın və qızının Şəkiyə qayıtmasına icazə verməklə yanaşı, Sisianov Şəki xanına hədə-qorxu gəlməyi də unutmadı, onu Rusiya

təbəəliyini qəbul etməyə çağırdı. Sisianov bildirdi ki, Şəki xanlığı da Gəncə xanlığı kimi yer üzündən silinəcəkdir. Rus tarixçiləri yazırdılar ki, Sisianov Cavad xanın ailə üzvlərinin bəzilərinə qarşı xeyirxahlıq göstərməklə yerli əhalinin az da olsa hörmətini qazanmaq istəyirdi (195). Bununla, Sisianov heç şübhəsiz ki, həm də törətdiyi cinayətlərin üstünə bir kölgə salmaq istəyirdi.

Sisianov Cavad xanın ailə üzvlərinin bəzilərinə pensiya kəsilməsi üçün də Rusiya çarı qarşısında vəsatət qaldırdı. Çar tərəfindən bu vəsatət təmin edildi və Cavad xanın ailə üzvlərinə pensiya kəsildi. Bu ailə üzvləri xanımlardan ibarət idi. Cavad xanın Bəyim və Şükufə adlı xanımlarına ildə 1200 rubl, Nisə xanım və Zeynəbə hər birinə 600 rubl, xan qızlarına 300 rubl pensiya kəsildi. Çar sərəncamında bildirilirdi ki, Cavad xanın oğlanları peşman olub geri qayıtsalar, onlar da pensiya ilə təmin oluna bilərlər (196).

Gəncənin işğalı ilə bərabər, Sisianov Gəncə xanının nəzarəti altında olan Samux mahalının da Rusiya tabeliyinə gətirilməsi imkanını əldən vermədi. Yuxarıda qeyd edildiyi kimi, Sisianov Samux hakimi Şirin bəyə hədə-qorxu dolu məktub göndərdi və ondan Rusiya təbəəliyini qəbul etməyi tələb etdi. Şirin bəyin bu tələbi qəbul etməkdən başqa seçimi yox idi. Ona görə 1804-cü il yanvar ayının 9-da Şirin bəy özü Gəncədə olan Sisianovun yanına gəldi, Rusiya təbəəliyini qəbul etməsi və bu təbəəliyə sədaqətli qalacağı haqda and vərəqini imzaladı. Şirin bəy Rusiya dövlətinə vergi olaraq ildə 1000 çervon ödəməli idi (197).

Gəncə xanlığının işğal edilməsi ilə rus qoşunları Cənubi Qafqazın xeyli genişləndirilməsinə nail oldular. Bu işğal bir tərəfdən digər Azərbaycan xanlıqlarının ələ keçirilməsi üçün münasib və əlverişli əməliyyat məkanı yaratdısa, digər tərəfdən də Azərbaycan xanlarının qorxudulması və onların Rusiyaya tərəf meyyləndirilməsi üçün əlverişli təsir fürsəti oldu.

Gəncənin nəzarət altında saxlanılması üçün polkovnik Karyaginin rəhbərliyi altında 17-ci yeger alayının 2-ci taboru orada yerləşdirildi. 1804-cü ilin aprel ayında Sevastopol alayının bir taboru da Gəncəyə göndərildi. Eyni zamanda polkovnik Karyaginə göstəriş verildi ki, yerli əhali arasından da könüllü atlıların toplanışı aparılsın. Bu tədbirlər Gəncə ərazisində də Rusiyanın işğalının möhkəmləndirilməsinə xidmət etməli idi.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1.Большая Кавказская война. Грузия присоединяется к Росии.
http://army.lv/ru/Bolshaya-Kavkfzckaya-voyna-chast-1-chast2/66/4267
2.Ковалевский П.И. Кавказ. История завоевания Кавказа. Т. II, С-Петербург, 1915, с.51-52
3.Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III , С-Петербург, 1886, с.314-315
4. Акты собранные Кавказской Археологической Комиссией (АКАК). Т. I, Тифлис, 1886, с.147
5. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III , с.314-315
6. Большая Кавказская война. Грузия присоединяется к Росии.
7. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т.III , с.340
8. Дубровин Н. Закавказье от 1803-1806 года. Петербург, 1866, с.18
9. Большая Кавказская война. Грузия присоединяется к России...
10. Авалов З. Присоединение Грузии к России. С-Петербург, 1901, с.300-301
11. Большая Кавказская война. Грузия присоединяется к России...
12. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.373-374
13. Большая Кавказская война. Грузия присоединяется к России...
14. Большая Кавказская война. Грузия присоединяется к России...
15. Дубровин Н. Закавказье от 1803-1806 года. Петербург, 1866, с.19
16. Большая Кавказская война. Грузия присоединяется к России...
17. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.391
18. Берже А. Присоединение Грузии к России. Тифлис, 1880, с.18
19. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.418-419
20. АКАК, Т. I, ... с.132-133
21. АКАК, Т. I, ... с.135
22. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.402
23. Присоединение Восточной Армении к России. Т.I, Ереван, 1972, с.10
24. Присоединение Восточной Армении к России. Т.I, ... с.54-55
25. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.403
26. Присоединение Восточной Армении к России. Т.I, ... с.56
27. Присоединение Восточной Армении к России. Т.I, ... с.56-57
28. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.403
29. АКАК, Т. I, ... с.509
30. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.404
31. Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003, с.75
32. АКАК, Т. I, ... с.606
33. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, s.173
34. АКАК, Т. I, ... с.594
35. АКАК, Т. I, ... с.606-607
36. АКАК, Т. I, ... с.594-595

37. АКАК, Т. I, ... с.604
38. АКАК, Т. I, ... с.595
39. Бабаев Э. Из истории Гянджинского ханства., с.81-82
40. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.441
41. АКАК, Т. I, ... с.612
42. АКАК, Т. I, ... с.612
43. Дубровин Н. История войны и владычества русских ... Т.III , с.441
44. АКАК, Т. I, ... с.596
45. Бабаев Э. Из истории Гянджинского ханства., с.87
46. АКАК, Т. I, ... с.614
47. Присоединение Восточной Армении к России. Т.I, ... с.45
48. АКАК, Т. I, ... с.617-618
49. АКАК, Т. I, ... с.618-619
50. Присоединение Восточной Армении к России. Т.I, ... с.88-89
51. АКАК, Т. I, ... с.709
52. Присоединение Восточной Армении к России. Т.I, ... с.94
53. Присоединение Восточной Армении к России. Т.I, ... с.109
54. Присоединение Восточной Армении к России. Т.I, ... с.109
55. Присоединение Восточной Армении к России. Т.I, ... с.111
56. Присоединение Восточной Армении к России. Т.I, ... с.119
57. Мустафаев Дж. Северные ханства Азербайджана и России. Баку, 1989, с.107
58. АКАК, Т. I, ... с.632-633
59. АКАК, Т. I, ... с.632-633
60. Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и културы. Баку, 1956, с.28
61. Мустафаев Дж. Северные ханства Азербайджана и России. ..., с.109
62. АКАК, Т. I, ... с.436
63. Присоединение Азербайджана к России и его ..., с.28
64. АКАК, Т. I, ... с.692
65. Мустафаев Дж. Северные ханства Азербайджана и России. ..., с.108
66. Дубровин Н. История войны и владычества русских ... Т.IV , с.27
67. Mustafazadə T. Quba xanlığı. Bakı, 2005, s.209
68. Большая Кавказская война(3). Время Кнорринга, Цицианова и Гудовича.1801-1809. http://www.vko.ru/DesktopModules/ArticlesView.aspx?tabID=320&ItemID=278...
69. АКАК, Т. II, ... с.3-4
70. АКАК, Т. II, ... с.8
71. АКАК, Т. II, ... с.9
72. Потто А.В. Кавказкая война. Т. I. Князь Цицианов.
www.vehi.net/istoriya/potto/kavkaz/27.html
Цицианов князь Павел Димитриевич. Print.diografiya.ru/?id=133637
73. Дубровин Н. История войны и владычества русских ... Т.IV , с.2
74. Цицианов князь Павел Димитриевич...

75. Дубровин Н. История войны и владычества русских ... T.IV , c.12
76. Время Цицианова.
http://bilib.ru/h/sb_istoriya_russkoy_armii/79.html
77. Фадеев А.В. Россия и Кавказ первой трети XIX в. Москва, 1960, с.109
78. Дубровин Н. История войны и владычества русских ... T.IV , c.28
79. Дубровин Н. Закавказье от 1803-1806 года. Петербург, 1866, с.28
80. Дубровин Н. Закавказье от 1803-1806 года. Петербург, 1866, с.74-75
81. Дубровин Н. История войны и владычества русских ... T.IV , c.13
82. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.74-75
83. Дубровин Н. История войны и владычества русских ... T.IV , c.14
84. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.76
85. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.77
86. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.77-78
87. Ковалевский П.И. Кавказ. История завоевания Кавказа. Т. II,...,с.54
88. АКАК, T. II, ... с.728
89. АКАК, T. II, ... с.729
90. АКАК, T. II, ... с.729
91. АКАК, T. II, ... с.731
92. АКАК, T. II, ... с.730-731
93. АКАК, T. II, ... с.729
94. АКАК, T. II, ... с.732
95. АКАК, T. II, ... с.733
96. АКАК, T. II, ... с.733
97. АКАК, T. II, ... с.734-735
98. АКАК, T. II, ... с.734-735
99. АКАК, T. II, ... с.789
100. АКАК, T. II, ... с.791-792
101. АКАК, T. II, ... с.791
102. АКАК, T. II, ... с.793
103. АКАК, T. II, ... с.794
104. АКАК, T. II, ... с.747-748
105. АКАК, T. II, ... с.746
106. АКАК, T. II, ... с.749-750
107. АКАК, T. II, ... с.750
108. Məmmədova N. Lənkəran xanlığı birinci Rusiya-İran müharibəsi dövründə. Bakı, 2007, s.22
109. Фадеев А.В. Россия и Кавказ первой трети..., с.109
110. Время Цицианова...
111. АКАК, T. I, ... с.337
112. АКАК, T. I, ... с.338
113. АКАК, T. I, ... с.341-342
114. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.91
115. АКАК, T. II, ... с.682
116. АКАК, T. II, ... с.683

117. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.92
118. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.92
119. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.92
120. Большая Кавказская война(3). Время Кнорринга, Цицианова и Гудовича...
121. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.75
122. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.76
123. Потто А.В. Кавказкая война. Т. I. Генерал Гуляков. www.vehi.net/istoriya/potto/kavkaz/28.html
124. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.94
125. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.95
126. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.78
127. АКАК, Т. II, ... с.683
128. АКАК, Т. II, ... с.683-684
129. АКАК, Т. II, ... с.685
130. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.80
131. Большая Кавказская война(3). Время Кнорринга, Цицианова и Гудовича...
132. АКАК, Т. II, ... с.685
133. АКАК, Т. II, ... с.686-687
134. АКАК, Т. II, ... с.687
135. АКАК, Т. II, ... с.686
136. АКАК, Т. II, ... с.688
137. АКАК, Т. II, ... с.688
138. АКАК, Т. II, ... с.691
139. АКАК, Т. II, ... с.690
140. АКАК, Т. II, ... с.586
141. АКАК, Т. II, ... с.587-588
142. АКАК, Т. II, ... с.588
143. АКАК, Т. II, ... с.684
144. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.125-126
145. АКАК, Т. II, ... с.803-804
146. دنبلی. ماثر ساطنیه. تهران، ۱۳۸۳، ص.۱۸۱
147. АКАК, Т. II, ... с.588
148. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.137
149. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.136
150. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.137
151. АКАК, Т. II, ... с.588
152. АКАК, Т. II, ... с.589-590
153. АКАК, Т. II, ... с.590
154. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.139-140
155. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.140
156. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.160 Голобов М. Осада и штурм крепости Ганжа.

http://adjudant.ru/erivan/1804-ganza.htm
157. АКАК, Т. II, ... с.590
158. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.141
159. АКАК, Т. II, ... с.590
160. АКАК, Т. II, ... с.590
161. АКАК, Т. II, ... с.591
162. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.142
163. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.142
165. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.143
166. АКАК, Т. II, ... с.592
167. میرزا محمد صادق (وقایع نگار). تاریخ جنگ های ایران و روس. تهران، ۱۳۶۹، ص.۸۰
168. АКАК, Т. II, ... с.591
169. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.231
170. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.232
171. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.232
172. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.233
173. АКАК, Т. II, ... с.592
174. Дубровин Н. Закавказье от 1803-1806 года. ... с.233
175. Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003, с.103
176. Бабаев Э. Из истории Гянджинского ханства, с.103
منصوری ف. تهاجم روسها و استیلا بر شهر گنجه.
www.iiehs.org/PDF_files/A_tahajom?roosha/pdf
177. خاوری شیرازی . تاریخ ذلقرنین.ج.اول،تهران، ۱۳۸۰، ص.۱۹۳، دنبلی، ۱۸۲
178. آهنگ سروش، ۸۱
179. دنبلی، ۱۸۲
180. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.146
181. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.146
182. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.147
183. АКАК, Т. II, ... с.592
184. Mustafazadə T. Azərbaycan xanlıqlarının qısa tarixi. Bakı, 2011, c.179
185. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.149
186. АКАК, Т. II, ... с.597
187. АКАК, Т. II, ... с.593
188. Бабаев Э. Из истории Гянджинского ханства, с.106
189. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.147
190. АКАК, Т. II, ... с.591
191. АКАК, Т. II, ... с.593
192. АКАК, Т. II, ... с.593
193. АКАК, Т. II, ... с.595
194. АКАК, Т. II, ... с.594
195. Дубровин Н. История войны и владычества русских ... T.IV , с.149-150
196. АКАК, Т. II, ... с.594
197. АКАК, Т. II, ... с.592

# IX FƏSİL

## RUSİYA QOŞUNLARININ İRƏVAN ÜZƏRİNƏ HÜCUMU

### *1.Hücum ərəfəsində Məhəmməd xanla Sisianovun qarşılıqlı münasibətləri*

Gəncə xanlığı ilə bərabər, bölgədə mühüm hərbi-strateji əhəmiyyət kəsb edən İrəvan xanlığının işğal edilməsi üçün Sisianov hələ Tiflisə gəldiyi günlərdən plan qurmağa başladı. 1803-cü il aprel ayının 27-də imperatora göndərdiyi raportunda bu iki xanlığın işğalının Rusiya üçün böyük əhəmiyyət kəsb etdiyini və bunun üçün nələrin planlaşdırıldığını söylədi. Sisianova görə Gəncə işğal edilən kimi rus qoşunlarının bir hissəsi orada saxlanmalı, qalanı isə İrəvan xanlığı üzərinə hərəkət etməli idi (1). Sisianov planlaşdırırdı ki, Şəmşəddildən keçməklə qısa yolla İrəvana doğru irəliləsin. Rus qoşunlarının saynın az olması da Sisianovu narahat etmirdi. Çünki Sisianov əmin idi ki, İrəvan xanlığının qoşunları rus qoşunlarına qarşı ciddi bir müqavimət göstərə bilməyəcəkdir.

İlkin yazışmalardan sonra İrəvan xanı Məhəmməd xanın Sisianovun tələblərinə əməl etməməsi, müstəqil siyasət yeritməkdə davam etməsi rus generalını daha da qəzəbləndirdi. Məhəmməd xanı cəzalandırmaq üçün Sisianov ermənilərin satqınlığından da bəhrələnməyə çalışırdı. Qoluzorlular qarşısında itaət etmək xislətinə görə Sisianov ermənilərin Rusiyanın itaətində duracağına şübhə etmirdi (2).

Bununla bərabər, Sisianov və bütünlükdə Rusiya çarizmi erməniləri itaət altında saxlamaq üçün bütün ermənilərin katalokosu vəzifəsinə də Rusiyapərəst Danil adlı birisinin gətirilməsinə çalışırdı. Ancaq Eçmiədzindəki bu yüksək vəzifəni tutmaq həvəsində olan təkcə Danil deyildi.

David adlı başqa bir erməni keşişi də öz tərəfdarları ilə birlikdə bu vəzifə uğrunda mübarizə aparırdı. Erməni katalikosluğuna kimin seçilməsi Osmanlı soltanının fərmanı ilə rəsmiləşdirilirdi. Katalikosluq uğrunda daxili çəkişmələrin getdiyi bir dövrdə David Osmanlı sultanının təsdiqini almağa nail olmuşdu.

İrəvan xanı Məhəmməd xan adətən Eçmiədzin monastırının işlərinə müdaxilə etmirdi. Erməni-qriqorian məzhəbinə dözümlülüklə yanaşmaqla

bərabər, Məhəmməd xan bütünlükdə özünün erməni təbəələrinə təmkinli münasibəti var idi. Bunu onun P.L.Kovalenskiyə yazmış olduğu məktubundan da görmək mümkündür. Həmin məktubdan aydın olur ki, İrəvan xanlığının ərazisində təhlükəli şərait yarananda Məhəmməd xan yerli əhalini və eyni zamanda erməniləri qismən təhlükəsiz yerlərə, o cümlədən də Gürcüstan ərazisinə köçürərmiş. Təhlükə sovuşduqdan sonra isə onların geri qaytarılmasını təmin edərmiş. Hətta xanlıqda quraqlıq olanda və ərzaq qıtlığı yarananda xan öz vəsaiti hesabına ac qalan erməniləri də çətin vəziyyətdən çıxararmış (3).

Məhəmməd xan erməni katolikosluğunun seçkilərinə o vaxt təsir göstərməyə çalışdı ki, artıq bu məsələ siyasiləşdi və böyük dövlətlərin maraq dairəsinə düşdü. Dini rəhbərlik baxımından Eçmiədzin katolikosluğuna kimin seçilməsinin əslində Məhəmməd xan üçün elə bir fərqi yox idi. Ancaq o istəmirdi ki, katolikos vəzifəsinin seçkisi Rusiyanın təzyiqi və təsiri ilə baş versin və həmin vəzifəyə seçilən adam da İrəvan xanlığı daxilində Rusiya təcavüzünün dayağına çevrilsin. Rus tarixçisi N.Dubrovin Qafqazın Rusiya tərəfindən işğalını vəsf edən iri həcmli əsərində haqlı olaraq qeyd edirdi ki, Məhəmməd xan İrəvan xanlığının müstəqilliyini qorumağa çalışırdı və belə bir anda o istəmirdi ki, Eçmiədzin kilsəsi İrəvan xanlığının müstəqilliyinə zərbə vuracaq açıq təcavüzə cəlb edilsin. Əksinə, o da çalışırdı ki, Eçmiədzin kilsəsi xanlıq ərazisində erməni əhalisinin dinc yaşayışına yardımçı olsun (4).

Rusiya sarayı da erməni katalikosunun seçkiləri ətrafında qalmaqalın davam etməsində maraqlı deyildi. Ona görə Sisianov bölgəyə yolu düşəndə Rusiya çarı ona tapşırdı ki, məsələ ilə yerində tanış olsun və əgər erməni çoxluğu qəbul edilmiş qərarla razıdırsa, onda məsələni uzadılmasına yol verilməsin.

1802-ci il dekabr ayının əvvəllərində general Sisianov məlumat aldı ki, Rusiya imperatorunun fərmanı ilə erməni katalikosluğuna təsdiq edilmiş Danil İrəvan xanı tərəfindən tutdurularaq Eçmiədzinə, erməni katalikosu vəzifəsini icra edən Davidin yanına göndərilmişdir. David də ondan tələb edirdi ki, günahını boynuna alsın və erməni katalikosluğuna olan iddiasından əl çəksin. Rusiyanın himayəsi altında olan Danilə qarşı belə bir hərəkətin edilməsi Sisianovu son dərəcə qəzəbləndirdi və Rusiya imperatorunun tapşırığının yerinə yetirilməsi üçün general Lazarev vasitəsilə İrəvan xanına öz hədələrini də göndərdi. O, İrəvan xanı Məhəmməd xana çatdırdı ki, o, Dailin Eçmiədzində Davidin əlinə verilməsinə, Danilin ələ salınmasına və təhqir edilməsinə görə məsuliyyət daşıyır. Məhəmməd xanın nəzərinə o da çatdırıldı ki, Rusiya imperatorunun İrəvan xanlığı haqqında xüsusi

göstərişləri vardır və Sisianov Gürcüstana yetişən kimi onun icrasına başlayacaqdır (5.)

Bu məktub yazılan vaxt general Sisianov hələ Georgiyevskdə idi və Tiflisə yollanmağa hazırlaşırdı. O güman edirdi ki, Tiflisə yetişən kimi, Rusiya imperatorunun tapşırığını yerinə yetirəcək və Məhəmməd xanı Rusiya imperatorunun iradəsini qəbul etməyə məcbur edəcəkdir.

1802-ci il dekabr ayının son günündə Məhəmməd xanın nümayəndəsi Məhəmmədəli bəy general Lazarevlə görüşdü və Məhəmməd xanın cavab məktubunu ona çatdırdı. Məhəmməd xan bu məktubunda həm general Lazarevə cavab verdi, həm də general Sisianovun hədələrinə öz münasibətini bildirdi. Məhəmməd xan rus generalına öz salamlarını çatdırdı və ruslarla xoş münasibətlərə mailik olmaq niyyətini açıqladı. Onun məktubu ilə tanış olan general Lazarevə görə isə qarşılıqlı xoş niyyətlərin saxlanması İrəvan xanının Rusiya imperatorunun tələblərinə olan münasibətindən asılı idi. Görüş zamanı tərəflər arasında əsasən üç məsələ geniş müzakirəyə səbəb oldu: 1) arxiyepiskop Danilin erməni katalikosu kimi tanınması. Rus generalı bir daha əsaslandırmağa çalışdı ki, Rusiya imperatorunun iradəsi həyata keçməlidir və İrəvan xanı da Danilin katalikosluğunu tanımalıdır. Rus generalının bildirdiyinə görə, Məhəmməd xan nəinki bu tələbi qəbul etmir, hətta İrəvan xanlığı daxilində Rusiya tərəfindən katalikos kimi tanınan Danilə qarşı təqiblər davam edirdi; 2) keçmiş Axalsıx paşası Şərif paşanın İrəvan xanlığı ərazisindən çıxarılması. Çünki Şərif paşa Gürcüstanın Rusiya tərəfindən işğalı ilə barışmayan bir şəxs idi və bunu əməli fəaliyyətində də nümayiş etdirirdi. Bu isə rusların narazılığı və təşvişi ilə qarşılanırdı. Ona görə də İrəvan xanından tələb olunurdu ki, Şərif paşa İrəvan xanlığı ərazisindən uzaqlaşdırılsın. 3) İrəvan xanlığının Qacarlar sarayından üz döndərib Rusiya himayəsini qəbul etməsi. General Lazarev bildirdi ki, birinci dəfədir ki, İrəvan xanından Qacar şahının tabeliyində olması haqqında sözlər eşidir. Onun sözlərinə görə, İrəvan xanı əvvəllər dəfələrlə Rusiyanın himayəsini qəbul etməyə hazır olduğunu bildirmişdi və ona görə də Rusiyanın himayəsini qəbul etməlidir (6).

General Lazarev çox sərt şəkildə Məhəmməd xanın elçisindən tələb etdi ki, keşiş Danil erməni katalikosu kimi tanınsın və İrəvan xanlığı Rusiyanın himayəsinə keçsin.

Danilin katalikos kimi tanınması məsələsində tərəflər arasında mövcud olan fikir ayrılığı aradan qaldırılmadı. Məhəmmədəli bəyin dediyinə görə, ruslar əvvəlcə Davidin katalikos olmağına etiraz etmirdilər. Ermənilər də onu seçərək Türkiyə sultanından onun təsdiq olunması barəsində fərman verilməsinə nail olmuşduar. Onun sözlərinə görə, İrəvan xanı da bu fərmanı tanıyıb və indi ondan imtina etmək heç də doğru olmazdı. General Lazarev

Məhəmmədəli bəyin dedikləri ilə razı olmadı. Doğrudur, o etiraf etdi ki, ruslar əvvəlcə Davidin katalikosluğuna etiraz etməmişlər. Amma general Lazarevə görə, sonradan onun xarakteri məlum olanda ermənilər özlərinə Danili katalikos seçdilər, Rusiya sarayı da bu namizədliyi qəbul etdi və ardınca da Rusiya imperatoru Danilin erməni katalikosu kimi tanınması haqqında fərman imzalamışdı. Ona görə general Lazarev İrəvan xanı tərəfindən də Danilin erməni katalikosu kimi tanınmasına tələb etdi. Məhəmməd xana göndərilən məktubda İrəvan xanlığı ərazisində Danilin təqibinə son qoyulması və ona verilən işgəncələrin dayandırılması tələbi də öz əksini tapmışdı. Məhəmmədəli bəy bu ittihamla da razılaşmadı və bildirdi ki, əksinə Danil İrəvan xanının qayğısı altındadır. O qeyd etdi ki, Danilin həyatının mühafizəsi üçün İrəvan xanı onu Bəyaziddən xanlıq ərazisinə gətirdi, yanına dəvət edərək ona xələt bağışladı və İrəvan monastırlarından birinin arxiyepiskopluğunu ona tapşırdı. Bununla belə general Lazarev öz tələbindən əl çəkmədi və İrəvan xanının Danili katalikos kimi tanımalı olduğunu bildirdi.

Şərif paşa ilə bağlı Məhəmməd xanın nümayəndəsi bəyan etdi ki, bu şəxs İrəvan xanlığında Gürcüstana qarşı fəaliyyət göstərmək üçün yox, adi bir qonaq kimi saxlanılır. Məhəmmədəli bəi onu da bildirdi ki, İrəvan xanı gələcəkdə Şərif paşanın yenidən Axalsıx paşası vəzifəsinə bərpa olunmasına kömək etmək istəyir və bu məqsədlə İrəvan qoşunlarının Gürcüstandan keçməklə Axalsıxa getməsi zəruri ola bilər. Bununla bağlı, rus generalından xahiş olunurdu ki, gələcəkdə İrəvan xanının qoşunları Gürcüstandan keçməklə Axalsıxa getməli olsalar onda ruslar buna mane olmasınlar. General Lazarev bununla da razı olmadı və bildirdi ki, İrəvan xanının qoşun dəstəsinin Gürcüstan ərazisinə daxil olması qonşuluq münasibətlərinə zərər gətirəcək bir addım kimi qiytmətləndiriləcəkdir (7)

Məhəmməd xanın nümayəndəsi xoş münasibətin nişanəsi kimi İrəvan xanından hədiyyə olaraq taxıl və şərab gətirdiyini bildirdi. Amma general Lazarev bu hədiyyələri də qəbul etmədi və bildirdi ki, Məhəmməd xan ruslara qarşı xoş münasibətdə olmadığı üçün həmin hədiyyələri qəbul edə bilməz. Aparılan danışıqların nəticələri barədə general Lazarev general Sisianovu da məlumatlandırdı.

İrəvan xanı Məhəmməd xanın nümayəndəsi ilə aparılan danışıqların nəticəsiz bitməsi Sisianovu heç də razı salmadı. Öz iddialarını silah gücünə Məhəmməd xana qəbul etdirməyə isə Sisianovun hələlik imkanları yox idi. Ona görə niyyətinə danışıqlar və hədə qorxu yolu ilə nail olmaq üçün Sisianov bu dəfə özü Məhəmməd xanın yanına nümayəndə heyəti göndərməyi qərara aldı. Nümayəndə heyətinə rəhbərlik knyaz Tomas Orbelianiyə tapşırıldı. Ondan başqa nümayəndə heyətinə qraf Vorontsov və

kapitan Çuyko da daxil idilər. Sisianov tərəfindən kapitan Çuykoya belə bir tapşırıq da verilmişdi ki, İrəvan istiqamətində keçdiyi yol və əraziləri müşahidə etsin və gələcəkdə aparılacaq döyüşlər üçün faydalı olacaq məlumatlar toplasın. Bu nümayəndə heyəti 1803-cü il fevral ayının 6-da İrəvana doğru hərəkətə başladı. Heyət özü ilə Sisianovun Məhəmməd xana ünvanladığı məktubunu da aparırdı. Məktubda Sisianov əvvəlcə özünün Gürcüstana gəldiyini İrəvan xanına çatdırır və Məhəmməd xanı yenidən əməkdaşlığa səsləyirdi. Bu əməkdaşlığın ilkin əlaməti kimi o, İrəvan xanını Danilin katalikos taxtına əyləşdirilməsinə köməklik göstərilməsinə çağırdı (8).

General Sisianov eyni zamanda Danilin erməni katalikosluğuna təsdiq edilməsi haqqında Rusiya imperatorunun göstərişinə əsasın Rusiyanın xarici işlər naziri qraf Voronsov tərəfindən imzalanmış fərmanı da Danilə göndərdi. Elə həmin gün general Sisianov həm də erməni katalikosluğana iddiaçı olan Danilə məktub yazdı. Sisianov ona yazdı ki, Rusiya imperatorunun göstərişi onun üçün qanundur və bu qanunun həyata keçirilməsi üçün onun qarşısını heç nə kəsə bilməz. Başqa sözlə, Sisianov Danilə ümid verirdi ki, yaxın zamanlarda erməni katalikosluğuna məhz o sahib olacaqdır (9.).

Sisianovun bəslədiyi ümidlərə baxmayaraq, Məhəmməd xanı öz mövqeyindən döndərmək mümkün olmadı. 1803-cü il mart ayının 7-də kapitan Çuyko ilə knyaz T.Orbeliani İrəvan xanlığından geri qayıtdılar. İstər Sisianovun tələblə dolu məktubu, istərsə də Sisianovun nümayəndə heyətinin İrəvana gəlməsi Məhəmməd xanın iradəsini sındıra bilmədi. Əksinə, o nümayəndə heyətinə cəsarətli cavablar verdi: "Mən Siz əlahəzrətin istəklərini yerinə yetirməyi çox arzulasam da, adı çəkilən Danil ilə bağlı böyük bir çətinlik ortaya çıxmışdır. Buna görə də ona kömək göstərmək imkanım yoxdur. Sabiq patriarx İosif Tiflisdə dünyasını dəyişəndə Gürcüstandakı rus rəislərinin xahişi ilə oranın bir neçə nüfuzlu adamı bura gəldi və həmin patriarxın vəsiyyətinə əsasən onun varisi kimi arxiyepiskop Davidin təyin edilməsi məsələsini qaldırdılar. Eyni zamanda Türkiyədə yaşayan ermənilər də arxiyepiskop David haqqında öz xahişlərini yazıb bura göndərdilər. Rus rəislərinin istəyinə və ermənilərin xahişinə uyğun olaraq Osmanlı və fars saraylarına bu barədə məmnunluqla məlumat verdim və xahiş etdim ki, Davidi patriarx vəzifəsinə təsdiq etsinlər. Hər iki saraydan ona barat və fərman gəldi və bundan sonra o öz adətlərinə uyğun olaraq erməni kilsəsinin idarə edilməsinə başladı. Bundan sonra sultandan gələn başqa bir baratda əmr edildi ki, onun vilayətində olan Danil tutulsun, əl-qolu bağlansın və Eçmıədzinə aparılaraq Davidə təhvil verilsin. İndi Siz öz istəklərinizi bildirsəniz də özünüz fikirləşin bu yuxarıda deyilənlərdən sonra adları çəkilən saraylara təkid edə bilərəmmi ki, David vəzifəsindən kənarlaşdırılsın və Danil onun yerinə patriarx seçilsin" (10).

İrəvandakı danışıqları başa çatdırıb geri qayıdan nümayəndə heyəti ilə Məhəmməd xan Sisianova cavab məktubu da göndərdi. O öz məktubunda bildirirdi ki, Rusiya ilə o vaxt əməkdaşlıq etməyə və Danilin kartalikos seçilməsinə razı olar ki, Rusiya da Axalsıxdan qovulmuş Şərif paşanın öz vəzifəsinə bərpa edilməsinə razılıq versin. Məhəmməd xanın belə bir şərt irəli sürməsi Sisianovu bir daha qəzəbləndirdi və Qafqazda hərbi əməliyyatlara məhz İrəvan xanlığından başlamaq qərarına gətirdi. Xüsusilə, ermənilərin satqınlığına arxalanması bu yürüşün uğurlu olacağına inamını artırdı. Sisianov belə fikirləşirdi ki, İrəvana göndəriləcək qoşunların ərzaq və yemlə təmin edilməsini erməni tacirləri öz üzərinə götürsələr, havalar qızanda və İrəvana aparan yolların qarı əriyəndə hücumu başlamaq mümkün olar. Öz qərarını o, Rusiya çarına göndərdiyi raportunda belə açıqlayırdı: "İmperator həzrətlərinə çatdırmağı özümə xoşbəxtlik bilirəm ki, imperator həzrətlərinin fərmanı ilə İrəvana göndərdiyim Baş Qərargah zabiti kapitan Çuyko və knyaz Tomaz Orbeliani bu ayın 7-də oradan qayıtmışdır. Gözlədiyimizin əksinə olaraq onlar mənə Məhəmməd xan İrəvanlıdan təkəbbür dolu bir məktub gətirmişlər.

Orada o, erməni patriarxlığı vəzifəsinə Danilin tanınması barədə imperator həzrətlərinin yüksək iradəsini tanımaqdan imtina edir. Belə açıq itaətsizliyi cəzasız qoymaq imperator həzrətlərinin silah gücünə qazanılmış nüfuzunu zəiflədə bilər. Ona görə də İrəvan istiqamətindəki dağlıq ərazilər qardan təmizlənən kimi altı taborla İrəvana getmək, Danili patriarx kürsüsünə əyləşdirmək və Məhəmməd xanı inadkarlığına görə cəzalandırmaq və habelə erməni tacirləri indi vəd etdiklərinin üstündə dayanıb ərzağı təmin etsələr orada qarnizon saxlamaq niyyətindəyəm" (11).

Məhəmməd xanın cavabı böyük iddialarla bölgəyə gələn general Sisianovu o dərəcədə qəzəbləndirdi ki, İrəvan xanının bu sərt cavabına qarşı yalnız silahla cavab verilməsinin zəruriliyi barədə Rusiya sarayı qarşısında məsələ qaldırdı. O, Rusiya sarayına onu da çatdırdı ki, rus qoşunlarının İrəvan xanlığı üzərinə hücumu zamanı qoşun dəstəsini erməni tacirləri ərzaqla təmin etməyə hazırdırlar. Bu hücuma rəhbərliyi də Sisianov öz üzərinə götürəcəyini bəyan edirdi.

Sisianovun yazdığına görə, bölgədə mövcud olan vəziyyət də rusların qalib gələcəyinə əlverişli şərait yaradırdı. Çünki rus qoşunları tərəfindən sıxışdırılan Dağıstan xalqlarının və başı daxili sabitliyin təmin edilməsinə qarışan Fətəli şahın hücum təhlükəsinin olmaması Sisianova görə onun planının həyata keçəcəyini təmin etməli idi. Sisianov imperatora məlumat verirdi ki, ixtiyarında olan üç piyada alayı və bir nizami süvari alayı ilə İrəvanı tutandan sonra Naxçıvanı və sonra da Şuşanı ələ keçirməyə çalışacaq ki,

bununla da Kür və Araz sahilinədək olan əraziləri işğal altına düşəcəkdir (12).

Sisianov qraf Voronsova yazdığı məktubunda Məhəmməd xanın yola gətirilməsinin yeganə yolunu İrəvan xanlığı üzərinə hücum etməkdə görürdü. Onun fikrincə, İrəvan xanının Danili katalikos kimi tanımaqdan imtina etməsi və keçmiş Axalsış paşasını müdafiə etməsi düşüncəyə sığmayan bir mövqe idi və ona görə də general Sisianov apreldən gec olmayaraq İrəvanın üzərinə hücuma keçəcəyini bildirirdi. Bu niyyətinin həyata keçməsini asanlaşdırmaq üçün Sisianov İrəvana göndərdiyi kapitan Çuykoya keçdiyi yolun, rastlaşdığı müdafiə tikililərinin, İrəvan qalasının xəritə və koordinatlarını yadda saxlamağı və sonra onları kağız üzərinə köçürməyi tapşırmışdı.

İrəvan xanı Məhəmməd xan Sisianova verdiyi cavabın nəticəsiz qalmayacağını və gələn xəbərlərin də rus qoşunlarının İrəvan xanlığı üzərinə hücum qəsdində olduğunu göstərdiyi üçün müdafiəyə hazırlıq görməyə başladı. İlk növbədə İrəvan qalası möhkəmləndirildi, əlavə vəsaitlər toplandı. Danil və David arasında vəzifə davasına son qoymaq üçün Məhəmməd xan Danili Tiflisdən çağırtdırdı və Davidə təhvil verdi. David isə onu hörmətsiz şəkildə at üstünə mindirərək Eçmiədzinə gətirdi və dərin quyuya saldırdı. Məhəmməd xanın, habelə Davidin Rusiya tərəfindən himayə olunan Danilə qarşı sərt hərəkət etməsi Sisianovu daha da qəzəbləndirdi, onun heysiyyətinə toxundu (13). Ötkəm planlarla Qafqaza gələn rus generalına qarşı bu saymamazlığa görə Sisianov dərisinə sığmır və Məhəmməd xanı didib-parçalamaq üçün yollar arayırdı. Bu məqsədə çatmaq üçün o, erməniləri də qızışdırıb ona qarşı qaldırmağa çalışırdı.

Sisianov ermənilərin heysiyyətinə toxunmaqla bərabər, onları hətta təhqir etməkdən də çəkinmir və Rusiyanın mənafelərini qorumayacaqları təqdirdə ciddi cəzalandırılacağı ilə hədələyirdi. Sisianov ermənilərə göndərdiyi bəyanatında bildirirdi: "Mən sizə belə bədbəxt qismət arzulamazdım. Məsləhət bilirəm ki, möhtərəm katalikos Danilin toxunulmazlığının ona layiq səviyyədə qorunması ilə öz xilasınızın qeydinə qalasınız. Əks təqdirdə mən yox, siz özünüz özünüzün məhvinizdə təqsirkar olacaqsınız. Əməllərinizə layiq olan qisasa çatanda peşimançılığınız ağlını və dərrakəsini itirmiş bəzi adamların inadkarlığı üzündən sizə ürcah olan belə faciəli taleyinizə kömək etməyəcəkdir. Ayılın! Mən sizi öz xeyrinizə çağırıram. Sizin rəisiniz olan xan sizin üçün qanun deyil, xristian deyil. Ona görə də təəcüblü deyil ki, o, yalançı patriarx David tərəfindən varlı Eçmiədzin monastırından oğurlanan qiymətli daşların və qızılların gözəlliyinə görə Davidin fitnələrinə meydan verir və ona görə də erməni xristian kilsəsinin yaşlı başçısı ilə kobud rəftar edir. Müsəlman kimi ona öz məzhəbi

xristianları təqib etməyi əmr edir. Bəs Danillə birlikdə eyni Xristosa etiqad edən sizləri buna nə vadar edir? Yalançı patriarx Davidə görə onun həyatını qurban verən Məhəmməd xan öz qanununun tələblərini həyata keçirir, siz isə bu gün xatırlanan İudin kimi dəhşətli məhşər günü satqınlığınıza görə haqq-hesab verməli olacaqsınız" (14).

Sonra Sisianov erməniləri qorxudurdu ki, rus qoşunlarının hücumu başlananda Məhəmməd xan car-balakənlilər kimi var-dövlətini götürüb qaçacaq, siz isə rus silahının qurbanları olacaq, rus əsgərlərinin ayaqları altında inləyəcəksiniz, meyitlərinizi isə ağlayan tapılmayacaq. Ona görə Sisianov bütün erməniləri ayağa qalxmağa, Məhəmməd xanla mübarizə aparmağa çağırırdı.

Məqsədinə çatmaq üçün general Sisianov məzhəblər arasında təfriqə yaratmaqdan belə çəkinmirdi və xristian dini ilə islam dinini qarşı-qarşıya qoyurdu. O, erməniləri nəyin vasitəsilə olursa-olsun Məhəmməd xana qarşı mübarizəyə qaldırmağa və bununla da Rusiya imperatorundan aldığı tapşırığa əsasən Danili erməni katalikosu etməyə çalışırdı. Onun sözlərinə görə, Sisianov özü daxil olmaqla xristianlar müqəddəs Tövratda təsbit olunan normalar əsasında yaşayırlar, müsəlmanlar isə tamam əksinə. General Sisianov erməniləri rusların gücsüzlüyü haqqında söylənənlərə inanmamağa çağırırdı və bildirirdi ki, belələri sizi məhvə sürükləyirlər. Onun fikrincə, ermənilər bu həqiqəti anlayanda artıq gec olacaq və onlar rus qılınclarının altında qalacaq və onların ölülərini ağlamağa da kimsə tapılmayacaq. General Sisianov hikkəli ədası ilə bəyan edirdi ki, Rusiya imperatorunun əmrini qılınc gücünə həyata keçirəcəkdir və ona görə rus generalı erməniləri də Danilə qarşı uyğun münasibət nümayiş etdirməyə çağırırdı .

Rus tarixçilərinin yazdığı kimi, kimin katalikos seçilməsinə elə də əhəmiyyət verməyən erməni əksəriyyəti Sisianovun bu bəyanatına qarşı tam laqeydlik göstərdi. Hətta nüfuzlu şəxslər və ruhanilər də rus generalının hədə qorxusunu və qeyrətə çağırış sədalarını qulaq ardına vuraraq Danilin tərəfdarlarının təqib edilməsini gücləndirdilər.

Katalikos David isə Sisianovun hərəkətlərinin acığına olaraq Danili ermənilər qarşısında yenidən biabırçı vəziyyətə saldı. 1803-cü il may ayının 25-də o, kilsə zənglərini vurduraraq ətraf əhalini yanına topladı. Həbsdə olan Danili yanına gətirdi. Ona bildirdi ki, sənin himayədarın (Sisianov nəzərdə tutulur –M.S.) saqqalsız olduğu üçün sən də gərək saqqalsız olasan. Onun tələbi ilə camaatın gözü qarşısında Danilin saçını-saqqalını qırxıb yenidən məhbəsə göndərdilər.

Bu hərəkətlər Sisianovu yenidən qəzəbləndirdi. 1803-cü ilin iyun ayında o bir daha Məhəmməd xana məktub göndərdi və ondan tələb etdi ki,

Danil katalikos vəzifəsinə gətirilsin, David isə həbs edilərək Tiflisə, onun yanına göndərilsin. Ancaq Məhəmməd xan bu tələbi də yerinə yetirmədi. Buna baxmayaraq, Məhəmməd xan Sisianovla xoş münasibətlər yaratmağa, onu öz təcavüzkarlığından döndərməyə çalışdı. Bu məqsədlə hətta ona məktub da göndərdi. Məhəmməd xan həmin məktubunda Rusiyaya qarşı xoş münasibətin saxlanması arzusunda olduğunu bildirirdi. Güc və zor hesabına hələ də hər şeyə nail olacağını güman edən Sisianov Məhəmməd xanın bu məktubunu da böyük qəzəblə qarşıladı və müəyyən vaxtdan sonra ona yenə hədə-qorxu dolu bir cavab məktubu göndərdi. Sisianov həmin məktubunda əvvəlki tələblərinə bir tələb də artırdı. O, rus generalının tələblərinə nümayişkaranə məhəl qoymayan katalikos Davidi həbs etdirib Tiflisə göndərilməsini tələb etdi. Sisianov Məhəmməd xandan tələb edirdi ki, Rusiya imperatorunun iradəsi yerinə yetirilməli və Danil erməni katalikosu kimi tanınmalıdır: "Münasibətlərimizin kəsilməsi səbəbləri bunlar idi, bunlar da İrəvan vilayətinin məhvinin və ya xilasının səbəbləri olacaqdır-barışıq üçün başqa yol bilmirəm" (15).

Rus generalı onu da qeyd edirdi ki, bu tələblərdən heç vaxt əl çəkməyəcəkdir və əgər Rusiya ilə yaxşı əlaqələr yaratmaq istəyirsə heç bir şərtsiz bu tələbləri yerinə yetirməlidir. Sisianov əlavə edirdi ki, Məhəmməd xanın yanına yeni bir elçi göndərilməsinə ehtiyac duymur. Onun sözlərinə görə, bütün təkliflər və tələblər artıq əvvəlki məktublarda öz ifadəsini tapmışdı və Məhəmməd xan Rusiya dövləti ilə yaxşı münasibətlər yaratmaq istəyirsə həmin tələbləri yerinə yetirməlidir. Onun bundan başqa ayrı bir yolu qalmamışdır (16).

Ancaq Məhəmməd xan öz mövqeyindən geri çəkilmədi. Nə rus generalının hədələri, nə də Qafqazdakı rus hərbi qüvvələrinin üstünlüyü onu qorxuda bildi. Ruspərəst erməni keşişinin Eçmiədzində katalikos vəzifəsinə oturdulması şübhəsiz ki, heç də xanlığın müstəqilliyinin qorunmasına fayda gətirməyəcəkdi. Ona görə də Məhəmməd xan elə bir siyasət yeritməyə çalışırdı ki, Rusiyanın və Qacarlar sarayının İrəvan xanlığına qarşı münasibətlərini nizamlasın və bununla da xanlığa qarşı yönəldilmiş təcavüzü sovuşdura bilsin.

1803-cü ilin iyul ayında Məhəmməd xan yenidən məktubla Sisianova müraciət etdi və xəstələnmiş oğlunun müalicəsi üçün Tiflisdən həkim gətirilməsini xahiş etdi. Görünür, Sisianov xanın bu xahişini onun Rusiya ilə yeni münasibətlər yaratmaq istəyi kimi qəbul etdi və Məhəmməd xanın oğlunun müalicəsi üçün həkim göndərdi (17).

Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, heç bir tərəf öz mövqelərindən əl çəkmək fikrində deyil. Sisianov qarşılıqlı yazışmalara, danışıqlara son qoyaraq hələ 1803-cü ilin yayında öz iradəsini hərbi yolla

Məhəmməd xana qəbul etdirməyi planlaşdırsa da, hadisələrin gedişi buna imkan vermədi. Ola bilsin ki, Məhəmməd xanın müdafiəyə hazırlıq işləri də Sisianovu öz planını təxirə salmağa sövq etdi. Əvəzində, 1803-cü ilin sonlarında, Ramazan ayında Sisianov Gəncə şəhəri üzərinə hücum etdi.

Çox güman ki, Sisianov Gəncə qalasını tutacağına əmin idi. Car və Balakəni işğal etdikdən sonra Gəncə şəhərinin işğal edilməsi həm Sisianovun sərkərdəlik təkəbbürünü gücləndirə, həm də Gəncənin taleyi digər Azərbaycan xanlarına ciddi dərs ola bilərdi. Digər tərəfdən mənbələrdən və tarixi ədəbiyyatdan məlumdur ki, Gəncədə yerləşən ermənilər və onların lideri olan keşiş Aram, habelə Ruben, Mikayıl və digərləri Sisianovla gizli danışıqlar aparır və şəhərin işğal edilməsində Gəncə hakimi Cavad xana qarşı çıxacaqlarını bildirirdilər (18).

Sisianov ermənilərə vəd etdi ki, şəhərin tezliklə işğalına kömək göstərəcəkləri təqdirdə onların xidmətləri layiqincə qiymətləndiriləcəkdir. Ermənilər də rus təcavüzünün xidmətində məmnuniyyətlə dayandılar. Onların göstərdiyi həmin xidmətin nəticəsində şəhərin su kanalları bərbad vəziyyətə salındı və bununla da şəhərin su təchizatı son dərəcə pisləşdi. Bundan başqa, ermənilər qalanın müdafiəsinin təşkilini ətraflı öyrəndilər və qala müdafiəsinin zəif nöqtələri barədə rus zabitlərinə məlumat verdilər (19).

Erməni tarixçiləri Gəncənin işğalını rus qoşunlarının Cənubi Qafqazda parlaq qələbəsi kimi təsvir edirlər. Tarixi ədəbiyyatda mövcud olan məlumata görə bu işğal bölgədə yaşayan ermənilərin çox böyük sevincinə səbəb oldu. İstanbulun keçmiş patriarxı arxiyepiskop Qriqori və Nerses Aşterekasi 1804-cü il fevralın 3-də Minas Lazarevə göndərdikləri məktubda Gəncə xanlığının Rusiya tərəfindən işğalının ermənilər arasında böyük sevinclə qeyd edildiyini yazırdılar. Sonra da təəssüflərini bildirirdilər ki, rusların qələbə bayrağı hələ də İrəvan üzərində dalğalanmır(21).

Ermənilər tərəfindən də həvəsləndirilən və ruhlandırılan Sisianov Gəncənin işğalından bir ay sonra əvvəlcə Qarabağ xanı İbrahim xana hikkə dolu bir məktub göndərdi və Gəncə üzərindəki "qələbəsinə" görə nə üçün onu təbrik etmədiyini soruşdu: "Ona təəccüb edirəm ki, məğlubedilməz rus qoşunları ilə mənim qalanı almağımdan bir ay və altı gün keçməsinə baxmayaraq, kimsəni yanıma, məni salamlamağa göndərməmişsiniz. Cavad xanın qüruru qana boyandı, mənim ona yazığım gəlmir. Çünki qürurluları Allah da sevmir. Güman edirəm ki, siz onun yolunu getmək istəməzsiniz və xatırlayın ki, gücsüz güclülərə tabe olur və onunla çəkişməyi arzulamır (22).

Gəncə xanlığı işğal ediləndən sonra keşiş Aram Qarabağ ermənilərinə məktub göndərdi və onları rus işğalının genişlənməsinə kömək göstərməyə çağırdı. Qarabağ erməniləri buna müsbət cavab verdilər. Ermənilərin bu

cavabı və kömək vədləri isə Sisianovu İrəvan xanlığı üzərinə hücuma daha da həvəsləndirdi (23).

Gəncənin işğalı xəbəri şübhəsiz ki, İrəvan xanı Məhəmməd xanı da narahat etməyə bilməzdi. O yaxşı anlayırdı ki, əgər Gəncə tutulubsa deməli Sisianovun növbəti yürüşü İrəvan xanlığı üzərinə ola bilər. Rusiya mənafelərinin dayağı hesab edilən Danilin katalikos kürsüsünə gətirilməməsi isə Sisianovun bu xanlığa qarşı qəzəbini daha da artırmışdı. Danilin təəssübünü çəkən ermənilər İrəvan qalası üzərində rus bayrağının dalğalanacağı günü səbirsizliklə gözləyirdilər.

Gəncənin işğalından sonra Sisianovun diqqəti əsasən İrəvan xanlığı üzərində cəmləndi. Bu xanlıq həm əlverişli strateji mövqeyi ilə əhəmiyyət kəsb edirdi, həm də cəsarətini xoşlamadığı Məhəmməd xanın cəzalandırılması onun çoxdankı arzusu idi.

Məhəmməd xanın müstəqil siyasət yeritməsi isə Rusiyanın Gürcüstandakı mövqelərinə ciddi təsir göstərə, müstəqillik meyllərinin güclənməsinə səbəb ola bilərdi. Bütün bunlara birdəfəlik son qoyulması üçün Sisianov Gəncənin işğalını başa çatdırandan sonra İrəvan üzərinə hücum üçün ciddi hazırlıq görməyə başladı.

Belə bir hazırlığı Qacarlar dövləti də görürdü. Fətəli şah hakimiyyətə gələndən sonra Cənubi Qafqazda elə bir fəallıq göstərməyən, hətta Gürcüstanın Rusiya işğalı altına düşməsini müşahidəçi mövqeyindən izləyən Qacarlar sarayı Gəncənin işğalından sonra nəhayət bütün gücünü toplayıb Rusiya qoşunlarının qarşısına çıxmağı qərarlaşdırdı. Bunun üçün ölkə daxilində səfərbərlik işləri aparıldı, yeni qoşun dəstələri toplanıb Abbas Mirzənin komandanlığı altına verildi.

Bu iki böyük dövlətin hərbi hazırlığı Məhəmməd xanı sözsüz ki, narahat edirdi. Tərəflərin hər hansı birinin digərinə üstün gəlməsi İrəvan xanlığının müstəqilliyinə son qoyulması ilə nəticələnə bilərdi. O biri tərəfdən heç şübhəsiz ki, baş verən toqquşmalar xanlığın özünü də viran qoyacaq, yaşayış məntəqələrinin var-yoxdan çıxmasına səbəb olacaqdı. Məhəmməd xan yaxşı bilirdi ki, onun müstəqil olmaq istəyi Qacar sarayının da xoşuna gəlmirdi və həmin günədək saray tərəfindən Məhəmməd xanın müstəqilliyinin əlindən alınması üçün ciddi bir tədbir həyata keçirilməmişdisə, bu mövcud tarixi şəraitdə Qacar hakimlərinin başlarının daha çox ölkədaxili məsələlərə qarışması ilə bağlı idi. Yeni hazırlanan hücum isə Qacarlar sarayının çoxdan narahatçılıqla izlədiyi hadisələrə son qoymalı, rusların sıxışdırılması ilə bərabər Arazdan şimalda olan xanlıqların itaət altına gətirilməsi ilə də nəticələnməli idi.

Həm Məhəmməd xan, həm də onun yanında olan keçmiş Naxçıvan xanı Kəlbəli xan şah qoşunlarının İrəvanı tutacağı təqdirdə tək xanlığın

müstəqilliyinin itiriləcəyini deyil, həm də onların özlərinin qətlə yetiriləcəyini istisna etmirdilər. Ona görə də bu xanların hər ikisində kömək üçün Rusiya ilə əlaqələr yaratmaq meyli var idi. Ancaq bu əlaqələrin də sonradan xanlığın müstəqilliyinin ləğvinə gətirə biləcəyi ehtimalı Məhəmməd xanı ciddi narahat edirdi.

İkitərəfli təcavüzün mərkəzində qalan Məhəmməd xan Gəncənin işğalından bir neçə gün sonra Sisianova məktub yazaraq şah tərəfinin də Arazdan şimalda olan xanlıqlara, habelə Gürcüstana güclü hücuma hazırlaşdığını və bu hücumda iştirak etmələri üçün Azərbaycan xanlarına da xəbər göndərildiyini bildirirdi. Məhəmməd xanın fikrincə, bu xəbər Sisianovun diqqətini cəlb etməli və onun nəzərini İrəvan üzərinə hücum hazırlığından yayındırmalı idi. Lakin Sisianov əvvəlki kimi yenə təkəbbür və qeyz dolu bir məktubla Məhəmməd xana cavab verdi. Sisianov bildirirdi ki, ruslar belə mənasız və dikbaş məktublara öz süngüsü ilə cavab verməyə adət edibdir. Sisianov yazırdı ki, Məhəmməd xan məktubunda Babaxanı cəsarət və igidlikdə aslana oxşatsa da o, əməlləri ilə daha çox inək balasını xatırladır. Rus generalı xəbərdar edirdi ki, onu şah qoşunları ilə qorxutmaq lazım deyil. Onun fikrincə, şah qoşunları rus qoşunlarının qarşısında heç nə edə bilməzdilər və rus qoşunlarının nəyə qadir olduğunu Gəncədən qaçmış adamlar da Qacar hakimlərinə çatdıra bilərdilər (24).

Bu cavabdan sonra Sisianov Məhəmməd xanın məktubunu gətirmiş Nəcəfəli bəyə "yaddaş üçün" qeydlər də hazırlayıb verdi. Sisianovun quduz xarakterinin ifadəsi olan həmin yaddaşda deyilirdi: "Mən heç vaxt yalan danışmamışam və burada olduğum bir il müddətində yəqin ki, bunu sübut etmişəm. Deyirdim ki, daxili müharibələrlə Gürcüstanı viranə qoyan çar ailəsini sürgün edəcəyəm-sürgün etdim də. Deyirdim ki, Car vilayətini fəth edəcəyəm-etdim də. Deyirdim ki, Gəncəni fəth edəcəyəm-etdim də. Deyirdim ki, Minqreliyanın hakimlərini öz vəzifələrində saxlamaqla vilayəti Rusiyanın təbəəliyinə gətirəcəyəm-gətirdim də. Deyirdim ki, İmeretiyanı da belə edəcəyəm-hökmən edəcəyəm də. Deyirəm ki, Danili patriarx vəzifəsinə gətirəcəyəm-gətirəcəyəm də. Davidi isə böyük imperatora vəd etdiyim kimi yanıma gətizdirəcəyəm-gətizdirəcəyəm də. Deyirəm ki, İrəvanı xərac verməyə məcbur edəcəyəm-edəcəyəm də. Deyirəm ki, İrəvandan girov götürəcəyəm-götürəcəyəm də. Mən sözlərimlə qorxutmuram, əksinə süngü ilə işləyirəm, əməllərimlə isə sübut edirəm. Mən komandanlıq etdiyim qoşunun farslar kimi saysız-hesabsız ulduzlardan təşkil edildiyini demirəm. Ancaq Pəmbəkə gələndə heç bir şərt qəbul etməyəcəyəm və Gəncədə etdiyimi orada da edəcəyəm. Tələb edirəm ki, sənin ağan imperator həzrətlərinin iradəsinə uyğun olaraq Danili patriarx kürsüsünə gətirib Davidi

Tiflisə göndərsin. Yoxsa danışıqlara başlamayacağam. Allaha and içirəm ki, Tiflisə gətiriləcək Davidə heç bir pislik edilməyəcəkdir " (25).

Sisianov qeydlərində bildirirdi ki, yalnız deyilən şərtlər qəbul ediləndən sonra İrəvan xanı ilə danışıqlara başlayacaq və nümayəndələrini İrəvana göndərəcək. O vəd edirdi ki, danışıqlar "uğurlu" keçsə Məhəmməd xan Rusiyanın təbəəliyini qəbul edərək himayə olunacaq, onun xanlıq səlahiyyəti və bu vəzifənin nəslən keçməsi hüququ təsdiq ediləcəkdir. Rus generalının sözlərinə görə yalnız bundan sonra İrəvanın mühafizəsi üçün nə qədər qoşun lazım olacağı müəyyənləşdiriləcək və ora göndəriləcəkdir. Sisianov onu da əlavə edirdi ki, Fətəli şahdan fərqli olaraq o konkret hərəkət edir və danışıqların baş tutacağı və rus qoşunlarının İrəvanın mühafizəsinə göndəriləcəyi təqdirdə Məhəmməd xan da Tiflisə ailə üzvlərindən girov göndərməli və əvvəllər Gürcüstana verdiyi miqdarda xərac verməli olacaqdı (26).

Çətin vəziyyətlə qarşılaşan Məhəmməd xan bu tələblərlə razılaşmadı və hər iki tərəfdən başlaya biləcək təcavüzün qarşısını almaq üçün qalanın müdafiəsinin gücləndirilməsinə diqqəti daha da artırdı. Xeyli sayda əli silah tutmağı bacaranlar qalaya gətirildi, yem, ərzaq və barıt ehtiyatı görüldü. Etibarlılığı və sədaqəti şübhə doğuran bir sıra adamlar vilayətdən kənara köçürüldü. Rus tarixi ədəbiyyatında mövcud olan məlumatlara görə, Məhəmməd xan bir çox ermənini vilayətdən köçürdü ki, onlar ruslarla əməkdaşlıq etməsin. Fars dilli mənbə və ədəbiyyatın yazdığına görə isə Məhəmməd xan İranpərəst müsəlmanları vilayət ərazisindən çıxarmışdı və onların geri qaytarılması üçün Abbas Mirzənin əmri ilə sərkərdə Mehdiqulu xan xüsusi bir əməliyyat keçirməli olmuşdu (27).

Başqa sözlə, Abbas Mirzənin tapşırığı əsasında Mehdiqulu xan Dəvəli Qacar 6 minlik bir dəstə ilə Qars vilayətinə yollandı və Məhəmməd xan tərəfindən ora köçürülən Kəngərli və Qacar camaatını yenidən İrəvan xanlığı ərazisinə qaytardı. Fars dilli mənbə və ədəbiyyatda Kəngərli və Qacar camaatının İrəvan xanlığı ərazisindən köçürülməsinin səbəbləri barədə aydın məlumat yoxdur. Bununla belə, Kəngərli və Qacar camaatının Məhəmməd xana qarşı çıxması və ona görə də onların köçürülməsi elə də inandırıcı görünmür. Qacarlar dövrünə həsr edilmiş tarixi ədəbiyyatlardan birində isə bildirilir ki, Abbas Mirzə Cənubi Qafqaza qoşun çəkmək istəyəndə Osmanlı dövlətinin bu bölgəyə hərbi müdaxilə edə biləcəyindən ehtiyatlandı və Osmanlı qoşunlarının Qafqaza doğru irəliləməsinə mane olmaq üçün Mehdiqulu xanın rəhbərliyi altında 6 minlik qoşun dəstəsini Qars istiqamətinə göndərdi (27a).

Bu fakt Mehdiqulu xanın Qarsa göndərilməsi ilə bağlı həqiqətə daha yaxın görünür. Lakin həmin müddəa mənbələrdə təsdiqlənmədiyi üçün onun geniş araşdırılmasına ehtiyac vardır.

Məhəmməd xanın Sisianovla məktublaşması xəbəri şah sarayına da çatdı və şah sarayı bu məktublaşmanı Məhəmməd xanın Rusiyaya satılması, onun ruslarla birgə şah qoşunlarına qarşı vuruşmaq meyli kimi qiymətləndirdi. Bu xəbərdən sonra Fətəli şah Məhəmməd xanla Kəlbəli xana qoşun toplayaraq Təbrizə gəlmək tələbi göndərdi. Məhəmməd xanla Kəlbəli xan şübhə etmirdilər ki, bu dəvət onların amansız cəzalandırılması ilə nəticələnəcəkdir.

Alınan xəbərlərə görə, hücuma hazırlaşan şah qoşunlarının sayı 40-60 min arasında idi. Əsas qüvvələrə Fətəli şah, İrəvan üzərinə göndəriləcək qüvvələrə isə Abbas Mirzə rəhbərlik etməli idi. Fətəli şah Azərbaycan xanlıqlarına göndərdiyi nümayəndələri vasitəsilə qarşıdakı döyüşləri və onların uğurla nəticələnəcəyinə əminliyi barədə təbliğat aparır və Azərbaycan xanlarını şah sarayına kömək göstərməyəcəyi təqdirdəı ciddi cəzalandıracağı ilə hədələyirdi. Şah sarayına pənah aparmış gürcü vəliəhdləri də şah qoşunlarının hədsiz çoxluğu, məğlubedilməzliyi və yaxın vaxtlarda Gürcüstanın ruslardan təmizlənəcəyi barədə təbliğat aparır və camaatı qorxudurdular.

Fətəli şahın apardığı müharibə hazırlıqlarından Sisianov da xəbərdar idi və o, Qacar qoşunlarının qəfil hücumunun qarşısını almaq üçün İrəvan xanlığının sərhədində öz qüvvələrini möhkəmləndirməyə başladı.

Yaxınlaşmaqda olan təhlükənin sovuşdurulması üçün Məhəmməd xan növbəti dəfə diplomatik vasitəyə əl atdı. O həm Fətəli şah, həm də Sisianovun yanına öz nümayəndələrini göndərdi. Ancaq Məhəmməd xanın səfirlərinin bu səfəri də gözlənilən nəticəni vermədi. Əksinə, şah qoşunlarının hücumundan ehtiyat edib onun Rusiyaya qısılacağını güman edən Sisianov öz tələblərini daha da sərtləşdirdi. O əvvəlki kimi, Danilin katalikos kürsüsünə gətirilməsini, Davidin həbs edilib Tiflisə göndərilməsini tələb etməklə bərabər, Məhəmməd xandan Rusiyaya sadiq qalacağı barədə yazılı sənəd də istədi. Sisianov Məhəmməd xana göndərdiyi cavab məktubunda belə yazırdı: "...Siz öz möhürünüz vurulmuş məktubu göndərərək aşağıdakı şərtlərə razılığınızı bildirməlisiniz: 1) qalada rus qoşunlarının yerləşdirilməsinə razılıq verməlisiniz. Əvəzində siz qalada və ya onun xaricində yaşaya bilmək hüququ alacaqsınız; 2) Siz Rusiya imperatorunu öz hakiminiz kimi tanımalısınız və ona sadiq qalacağınıza and içməlisiniz; 3) iki dəfəyə ödəmək şərti ilə ildə 80 min rubl təzminat verməlisiniz. Novruzun sabahısı günü təzminatın birinci yarısını, iyul ayında isə ikinci yarısını ödəməlisiniz. Onda mən gəlib sizi and içdirərək təsdiq edəcək və imperator həzrətlərinin qoşunları ilə düşmənlərdən qoruyacağam. Əgər geciksəniz onda məndən əfv gözləməyin" (28).

Sisianov tələblərinə katalikos Davidin həbs edilib Tiflisə göndərilməsini də əlavə edirdi. Məhəmməd xan Sisianovun irəli sürdüyü tələblər ətrafında danışıqlar aparmağın mümkünlüyünü qəbul edə bilərdi. Yalnız bir tələb onu heç vəchlə qane etmirdi. Bu da İrəvan qalasının təslim edilməsi tələbi idi. Sisianov xanlıq üsul-idarəsini saxlamağa söz versə də Məhəmməd xan şübhə etmirdi ki, qalanın təslim edilməsi xanlığın müstəqilliyinin məhv edilməsinin başlanğıcını qoyacaq. Rus qoşunları qalaya girdikdən sonra onları oradan nə vaxtsa çıxarmaq şübhəsiz ki, mümkün olmayacaqdı.

Sisianov vəd edirdi ki, şərtlərinin qəbul ediləcəyi təqdirdə İrəvan qalasına daxil olacaq, İrəvan xanının Rusiya taxt-tacına sədaqət andını qəbul edəcək və bundan sonra onu düşmənlərdən müdafiə edəcəkdir. Deyilənlərin icrasının gecikdiriləcəyi təqdirdə Sisianov ondan aman gözləməyin yersiz olduğunu xəbərdar edirdi. Sisianov bir daha tələb edirdi ki, David Rusiya tərəfinə təhvil verilsin. Onun sözlərinə görə xan bu tələblərə əməl etməsə, onda ölümündə xan özü günahkar olacaqdı (29).

Sisianov Məhəmməd xana göndərdiyi məktubunda onun xanlığının saxlanmasına, xanlığın irsən keçməsinin qorunmasının təmin edilməsinə söz verməklə Fətəli şah yanında girov olan ailə üzvlərinin də geri qaytarılmasına kömək edəcəyini vəd edirdi. Rusiya tərəfinin tələblərinin ağır olmasına baxmayaraq Məhəmməd xan Sisianovla danışıqların davam etdirilməsinə hələ də ümidlə yanaşırdı. Onun ardınca Kəlbəli xan da Sisianova məktub göndərdi. Kəlbəli xan Sisianovu İrəvan xanlığı ilə bağlı irəli sürdüyü şərtlərə, xüsusən İrəvan qalasında rus qoşun dəstəsinin yerləşdirilməsindən imtina etməyə çağırdı (30).

Lakin Sisianov bu təkliflə də razılaşmadı və Kəlbəli xana məktub göndərdi. O məktubunda öz tələbləri üstündə dayandığını bildirdi. Ancaq yazdıqlarının məzmunundan hiss olunurdu ki, xan onun dediklərinə əməl etməyə meylli olduğunu bildirsə, İrəvanın qorunması üçün tədbirlər görməyə hazırdır. Sisianov yazırdı ki, əgər Məhəmməd xan qalanı təslim etmirsə və girov da göndərmək istəmirsə onda onun hansı sözlərinə inanmaq olar? O adəti üzrə yenə də hədələrindən çəkinmir və qeyzlə əlavə edirdi ki, İrəvan qalası ya Məhəmməd xanın əlində olsun, ya da lap elə şah qoşunlarının əlində olsun, onsuz da onu yaxın vaxtlarda rus silahının gücü ilə tutacaqdır. "Allaha and içirəm ki, günəş geri fırlana bilər, Xəzər dənizinin suyu əriyib yox ola bilər, ancaq mənim hücumumun qarşısını heç kəs ala bilməz. Ancaq fərq bir onda olacaq ki, ya qardaş kimi qardaşı xilas etməyə gələcəyəm, ya da Gəncəli Cavad xan kimi aliməqam imperatorun iradəsi qarşısında dikbaşlıq edən düşmənləri cəzalandırmağa gələcəyəm".

Sisianov güman edirdi ki, bu məktubdan sonra Məhəmməd xan onun tələblərini yerinə yetirməyə başlayacaqdır. O bu gümanları o qədər real sayırdı ki, hətta Pəmbəkdə yerləşən rus taborunun komandiri mayor Montrezora tapşırmışdı ki, Məhəmməd xan onun tələblərini yerinə yetirməyə başlayanda İrəvana yollanıb Danilin katalikos təyin edilməsi barədə fərmanı ona çatdırsın. Sonra da rus qoşun hissələri Eçmiədzinə hərəkət edib onun katalikos vəzifəsinə gətirilməsini təmin etməli idi. Bunun ardınca da Sisianov İrəvana gəlib Rusiya təbəəliyinə sadiqliyi barədə Məhəmməd xanın andını qəbul etməli idi.

Lakin Sisianov yenə də öz gümanında yanıldı. Məhəmməd xan heç də öz mövqelərindən əl çəkmək, xanlığın müstəqilliyini təhlükə altında qoya biləcək tələblərə əməl etmək fikrində deyildi. Yalnız Qacar qoşunları hərəkətə gəlib Arazı keçəndən sonra Məhəmməd xan öz nümayəndəsini Montrezorun yanına göndərdi, patriarx Davidin və İrəvan qalasının təslim edilməməsi şərti ilə Rusiya ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. Ancaq bu yazışma da bir nəticə vermədi. Qarşıdakı döyüşdə öz uğurlarına tam əmin olan Sisianov onun yanına gəlmiş şah səfirini də hədələyici cavabla geri qaytardı, onu Rusiya mənafelərini qorumağa hazır olan qoşunların ən yaxın vaxtlarda Qacar dövləti ərazisinə daxil olacağı ilə qorxutdu.

Şah səfiri geriyə üz tutan kimi Sisianov müharibəyə hazırlaşmaq barədə son göstərişini verdi.

### *2.Rusiya qoşunlarının İrəvan üzərinə ilk hücumu və onun nəticələri*

Məhəmməd xanla Sisianovun yazışmaları İrəvan qalasının danışıqlar yolu ilə təslim edilməsi üçün rus generallarının bütün ümidlərini boşa çıxardı. Məhəmməd xan yaranmış reallıqla bağlı olaraq müəyyən siyasi gedişlər etsə də, İrəvan qalasının toxunulmazlığının saxlanması ilə bağlı öz iradəsini nümayiş etdirdi və rus generallarına heç bir şans vermədi.

Belə olanda general Sisianov Rusiya sarayından aldığı tapşırığın yerinə yetirilməsi və özünün iradə üstünlüyünün nümayiş etdirilməsi üçün İrəvan xanının üzərinə qoşun çəkmək qərarını verdi. Tabeçiliyində olan hərbi qüvvələri səfərbər edərək havaların qızması ilə Sisianov İrəvana doğru hərəkətə başladı.

İrəvan qalası ətrafında aparılan döyüşlər Rusiyanın Qafqaza təcavüz tarixində xüsusi bir səhifəni təşkil edir. İrəvan xanlığını işğal etməklə Rusiya Cənubi Qafqazda ciddi strateji əhəmiyyəti olan bir məntəqəni ələ keçirə bilərdi. Rusiya qoşunlarına qarşı müharibənin başlanması İrəvan xanlığının

tarixində də yadda qalan səhifələrdən biridir. Çünki bu müharibənin uğurlu sonluğu İrəvan xanlığının müstəqilləşmə meyllərini daha da gücləndirə bilərdi.

Rusiya qoşunlarının İrəvan xanlığı üzərinə ilk hücumundan danışarkən bir məqama yenidən və daha ətraflı toxunulması İrəvan xanlığı ilə Rusiya qoşunları arasındakı müharibənin xarakterini və mahiyyətini düzgün təsəvvür etməyə kömək edə bilər. Bu da Məhəmməd xanın Rusiya işğalına münasibəti məsələsidir. Bir sıra farsdilli mənbələr və onlara istinad edən farsdilli tarixi ədəbiyyat Məhəmməd xanın Sisianovla gizli sazişə girdiyini, İrəvan qalasını Rusiyaya təhvil verməyə hazır olduğunu yazmaqla Məhəmməd xanı əslində Sisianovla müttəfiqlikdə ittihamlandırırlar. Məsələn, Qacarlar dövrü ilə bağlı kifayət qədər sanballı mənbə müəllifi olan Ə.M.Dünbəli Sisianovun İrəvan üzərinə qoşun çəkməkdə məqsədinin Məhəmməd xana kömək göstərmək olduğunu iddia edir (31). Başqa bir mənbədə isə İrəvan xanlığı üzərinə ilk hücumdan əvvəl Sisianovun nümayəndəsinin gizli şəkildə Məhəmməd xanla görüşməsindən və Məhəmməd xanı rus qoşunlarının köməyinə bel bağlamasına ümidli etməsindən danışılır. Guya bu xəbər elə gizli şəkildə Fətəli şaha çatdırıldı və şah da ilk növbədə öz tövsiyələri ilə Məhəmməd xanı Rusiya ilə sazişdən çəkindirməyə çalışdı. Həmin məsələ şah tərəfindən vəzir Mirzə Məhəmməd Şəfiyə tapşırıldı. Mənbəyə görə, Mirzə Məhəmməd Şəfi də Məhəmməd xana məktub göndərdi və onu Rusiya ilə əlaqələri kəsməyə çağırdı. Eyni zamanda bir müddət sonra Abbas Mirzənin də Məhəmməd xana məktub yazdığı və onu Rusiyanın vədlərinə inanmamağa çağırdığı iddia olunur. Mənbədə hətta o da bildirilir ki, Sisianov İrəvan xanına kömək məqsədilə güllə və təchizat göndərdi, öz qüvvələrini isə İrəvan xanlığı sərhədində yerləşdirdi (32).

Başqa bir mənbədə Məhəmməd xana "nəsihət verilməsinə" təyin edilmiş vəzir Mirzə Məhəmməd Şəfinin Sisianova məktub göndərdiyi qeyd olunur. Bu mənbəyə görə Sisianov Rusiya himayəsini qəbul etmiş olan Cəfərqulu xan Dünbəlini Məhəmməd xanın yanına göndərdi və onun vasitəsilə Məhəmməd xanı Rusiya tərəfinə çəkə bildi. Müəllif hətta Məhəmməd xanı Rusiyaya satıldığına görə "nadan" adlandırmaqdan belə çəkinmir (33).

Mənbələrdə irəli sürülən bu fikirlər araşdırılmadan bu və ya digər dərəcədə tarixi ədəbiyyatda və bir qədər də kəskin şəkildə təkrar olunur. Məsələn, tarixi araşdırmalardan birində bildirilir ki, Məhəmməd xan özü Sisianov qarşısında təşəbbüs qaldırdı və onu Azərbaycan xanlıqlarını, o cümlədən İrəvan xanlığını tutmağa təhrik etdi. Müəllifə görə, Sisianovun

böyük qoşun dəstəsi ilə İrəvan xanlığı üzərinə hücum etməsində məqsəd də Məhəmməd xana kömək göstərmək idi (34).

Bu xarakterli faktların sayını asanlıqla artırmaq mümkündür. Həmin faktların bəzilərində Məhəmməd xanla Sisianov arasında münasibətlərin qurulması barədə fərqli məqamlar olsa da, mahiyyət eynidir ki, bu da Məhəmməd xanın Rusiyaya satılmasının iddia edilməsidir.

Məhəmməd xanın Rusiya sarayına satılması, Rusiyanın himayəsini qəbul etmək niyyəti heç bir həqiqətə uyğun deyildir. Məhəmməd xanla Sisianov arasında olan yazışmalar buna sübut olduğu kimi, Məhəmməd xanın Sisianov qoşunlarına qarşı necə vuruşması da bunu nümayiş etdirir.

Dövrün rus mənbələrində olan məlumatlar da bunu təsdiqləyir. Məsələn, rus qoşunlarının İrəvan üzərinə ilk hücumu haqqında mövcud olan bir anonim yazıda da bildirilir ki, Sisianovun kobudluğu və qabalığı İrəvan xanını danışıqlar yolu ilə İrəvan qalasını təslim etməyə heç də sövq etmədi. Sisianov isə qalanı dinc yolla ələ keçirməyə ümidli olsa da bunun əksi ilə qarşılaşdı (35).

Əslində də belə idi. Məhəmməd xanın Sisianovla ittifaqda və ya Rusiyaya meyllilikdə günahlandırmaq həqiqətə heç də uyğun deyildi. Amma qeyd olunduğu kimi Məhəmməd xan, Qacarlar hakimiyyəti altında da qalmaq istəmirdi. Heç şübhəsiz ki, onun Qacarlar sarayına tabe olmamaq niyyəti şah sarayı tərəfindən onun Rusiyaya meylliliyi kimi qəbul olunurdu. Bir daha qeyd olunmalıdır ki, Məhəmməd xan İrəvan xanlığının müstəqilləşməsi uğrunda mübarizə aparırdı və bütün fəaliyyəti də məhz bu məqsədə xidmət edirdi.

İrəvan xanlığının müstəqilləşmək meylini isə Qacarlar sarayı qəbul etmirdi. Ölkə daxilində mərkəzi hakimiyyətin müəyyən qədər güclənməsi, habelə Gəncənin işğalı və İrəvan xanlığı ətrafında cərəyan edən proseslərin gərginləşməsi Qacarlar sarayını Cənubi Qafqaza qoşun çıxarmağa sövq edirdi. 1804-cü ilin yazında şah sarayı tərəfindən də Cənubi Qafqaza qoşun göndərilməsi üçün ciddi hazırlıq işlərinə başlandı.

Farsdilli mənbə və tarixi ədəbiyyatda rus qoşunları ilə müharibə aparan şah qoşunlarının sayı haqqında doğru-düzgün məlumata rast gəlmək mümkün deyildir. Qoşunların əsasını müharibə başlanması ərəfəsində müxtəlif tayfalardan toplanmış dəstələr təşkil edirdilər və buna görə də qoşunların dəqiq statistikasının olmaması təbiidir.

Azərbaycan hakimi və şah qoşunlarının baş komandanı təyin edilmiş Abbas Mirzə Sisianovun qarşısına hələlik böhran içərisində olan hərbi qüvvələri və tez-tələsik yerlərdə toplanmış olan dəstələri çıxarmalı idi. Amma hər halda rus qoşunlarına qarşı döyüşlərə girmək üçün şah sarayı da müəyyən hazırlıqlar görməyə başladı. Bu hazırlıqlar əvvəlcə Tehrandan

başladı, Abbas Mirzə qüvvələrinin əsası müəyyənləşdirildi və 1804-cü ilin aprelində Abbas Mirzə Rusiyaya qarşı müharibə hazırlığını sona çatdırmaq və əməli fəaliyyətə başlamaq üçün Təbrizə yola düşdü. Təbriz onun hakimiyyətinin mərkəzi olduğu kimi, həm də onun qərargahının yerləşdiyi şəhər idi.

Rus tarixi ədəbiyyatında Abbas Mirzənin 20-30 minlik bir qoşun dəstəsi ilə Təbrizə gəldiyi bildirilir (36). Farsdilli mənbə və ədəbiyyatda isə Abbas Mirzənin tabeliyində olan qoşunların sayının həm 50 min, həm də 20 min olması haqqında məlumatlar vardır. Bildirilir ki, bu vaxt onun ixtiyarında 16 ədəd top da var idi (37).

Nəzərdə tutulmuşdu ki, Abbas Mirzə Təbrizdəki qərargahında yerləşəndən sonra vilayətlərdən toplanmış yerli qoşun dəstələri onun qoşunlarına qatılacaq və bununla da qoşunların sayı və gücü müharibənin uğurunu təmin edəcək bir səviyyəyə çatdırılacaqdır. Tezliklə qacar camaatının el başçıları topladıqları qoşun dəstələri ilə Təbrizə gəldilər və Abbas Mirzənin ümumi qoşununa qatıldılar. Onların arasında aşağıdakılar var idi: Süleyman xan, Mehdiqulu xan, Əlixan Qovanlı, Rzaqulu xan, Mehdiqulu xan Dəvəli, Pirqulu xan Şambayatı, Nəcəfqulu xan Sapanlı, Allahverdi xan Xəzinədar və s. (38). Bunlardan başqa, bir neçə digər vilayət başçıları da topladıqları dəstə ilə Abbas Mirzəyə qoşuldular. Onlar keçmiş gürcü çarının oğulları olan İsgəndər Mirzə ilə Təhmurəs Mirzə, Marağa bəylərbəyi Əhməd xan Müqəddəm, Gəncə hakimi Cavad xanın oğlu Uğurlu xan, Qarabağ xanı İbrahimxəlil xanın oğlu Əbülfət xan və Naxçıvan hakimi Abbasqulu xan idilər. Bir müddətdən sonra isə Əliqulu xan Şahsevən, Nəcəfqulu xan Gorus, Məhəmməd xan Xəmsə və Şahruh xan Kəməreyi özlərinin süvari və piyada dəstələri ilə Abbas Mirzəynin dəstəsinə birləşdilər(39).

Abbas Mirzənin Təbrizə gəlməsi məhərrəm ayına təsadüf edirdi. Məhərrəm ayı bitdikdən sonra şahın əmri ilə Bəxtiyari, Kerman və Fars vilayətlərindən toplanmış qoşun dəstələri də Zəncan yaxınlığındakı Soltaniyyə çəməninə toplandılar. Elə həmin vaxtlarda Abbas Mirzə İrəvan xanı Məhəmməd xana məktub göndərərək onu Qacarlar hakimiyyətinə tabe olmağa çağırdı. Lakin Məhəmməd xan bununla razılaşmadı və belə olanda Abbas Mirzə İrəvan xanlığının nəzarət altına gətirilməsini də özünün müharibə planına daxil etməli oldu .

Bundan əlavə Fətəli şah Cənubi Qafqaz uğrunda aparılan müharibənin uğurla başa çatdırılması üçün ləzgi hakimlərinə, Şəki və Şamaxı xanlarına məktub və hədiyyələr göndərdi, onları da rus qoşunlarına qarşı birgə mübarizəyə hazır olmağa çağırdı. Fətəli şah onlara göndərdiyi məktubda bildirirdi ki, aprel ayının 10-da qoşunlarla Tehrandan hərəkət etmək,

Gəncəni, sonra da Gürcüstanı geri qaytarmaq niyyətindədir. Şah ciddi şəkildə xəbərdar edirdi ki, onun hakimiyyətinə tabe olmayanları cəzalandıracaqdır. Qarabağ xanı İbrahim xan da onun hədələrinə tuş gəldi. Şahın yazdığına görə, İbrahim xan öz qoşunları ilə Cavad xana yardım etmədiyi və Qacarlar hakimiyyətini saya salmadığı üçün cəzalandırılmalı idi (40).

Fətəli şah eyni zamanda İrəvan xanı Məhəmməd xanla, Naxçıvan xanı Kəlbəli xanla da məktublaşdı və onlardan öz qoşun dəstələri ilə birlikdə Təbrizə gəlmələrini tələb etdi. Şah bildirirdi ki, əks təqdirdə bu xanların hər ikisi boyunlarından xaç assınlar və özlərinə yer axtarsınlar (41). Başqa sözlə, şah ona işarə edirdi ki, irəli sürülən tələblər yerinə yetirilməyəcəyi halda bu xanları yalnız xristianlığı qəbul edib ruslara sığınması xilas edə bilər.

Mövcud olan bəzi məlumatlara görə, şah sarayı rus qoşunlarına qarşı hərbi qüvvələr toplanmasında çətinliklərlə də qarşılaşdı. Bu çətinlik ondan ibarət idi ki, bəzi el başçıları öz qoşun dəstəsi ilə Abbas Mirzənin rəhbərliyi altında olmaq istəmirdilər. Bunun nə ilə bağlı olduğunu dəqiq söyləmək çətindir. Hər halda məlum olan odur ki, qoşun toplanmasının sürətləndirilməsi üçün şah sarayı dini təbliğatı da genişləndirdi. Bunun üçün din xadimləri məscidlərdə, küçələrdə camaat arasında söhbətlər aparır, çılğın nitqləri ilə əhalini din yolunda cihada başlamağa, düşmən əleyhinə mübarizədə mücahidlərin sırasına qoşulmağa çağırırdılar. Bu da öz nəticəsini verdi. Rus qoşunlarına qarşı müharibə başlanması ərəfəsində Təbriz və onun ətrafında ciddi müharibə əhval-ruhiyyəsi yarandı, əhali arasında müharibə fəallığı artdı, qoşunlara olan yardımlar çoxaldı (42).

Qoşunların toplanmasında mövcud olan başqa bir çətinlik xəzinədə kifayət qədər maliyyə vəsaitinin olmaması ilə bağlı idi. Çoxsaylı qoşun dəstəsinin təchizat və təminatı üçün böyük miqdarda maliyyə vəsaiti tələb olunurdu. Ölkənin xəzinəsi isə böyük hərbi xərcləri ödəmək imkanında deyildi. Xüsusilə, yerlərdə formalaşdırılan dəstələrin təchizat və təminatı üçün el başçılarının maliyyə imkanları aşağı idi. Bu da dəstələrin sürətli formalaşdırılmasına və toplanış məntəqəsinə göndərilməsinə mane olurdu (43).

Bütün qoşun toplanandan sonra Abbas Mirzə bir dəstəni Süleyman xanın rəhbərliyi altında Şuşa istiqamətinə, digər bir dəstəni isə İrəvan istiqamətinə göndərmək istəyirdi. Özü isə ikinci dəstəyə rəhbərlik etməli idi və bu dəstə qoşunların əsasını təşkil edirdi. Adları çəkilən şəhərlər alınandan sonra Abbas Mirzə Gürcüstana doğru irəliləməyi planlaşdırırdı (44). Başqa bir məlumata görə isə Abbas Mirzə bütün qoşunları iki diviziyada qruplaşdırdı. Şimala doğru hərəkətə başlamazdan əvvəl bir diviziya Naxçıvanda, ikinci diviziya isə Təbrizdə yerləşirdi. Sonradan döyüş qabağı mövqe tutulması üçün birinci diviziya Naxçıvanın şimalında, ikincisi isə Naxçıvanın cənubunda yerləşdirildi (45).

Hər halda Abbas Mirzənin Qafqaz yürüşünün İrəvandan keçəcəyi aydın idi. Bu xanlığı yenidən nəzarət altına gətirməklə bərabər, Abbas Mirzə həm də şimala doğru irəliləyən qoşunların arxa və cinah təhlükəsizliyini təmin etmək istəyirdi. Məhəmməd xan üçün də artıq aydın idi ki, müstəqilləşmə meylinin şah qoşunları ilə hərbi qarşıdurmaya çevriləcəyi vaxt yaxınlaşmaqdadır. Ona görə Məhəmməd xan da iki böyük hərbi qüvvə qarşısında müdafiə olunmaq üçün mümkün hazırlıq işləri aparırdı.

Hər şeydən əvvəl Məhəmməd xanın Kəlbəli xanla möhkəmlənən əlaqələri iki böyük qüvvəyə qarşı mübarizə aparmağın siyasi-ideoloji əsasına çevrildi. Onların hər ikisində şah sarayından və Rusiya təcavüzündən qorunmaq arzusu var idi. Bu iki təcrübəli və səriştəli şəxsin müstəqillik arzularının ictimai mahiyyət daşıması real qüvvəyə çevrilərək İrəvan əhalisini də düşmənə qarşı ümumxalq mübarizəsinə qaldırdı. Məhəmməd xanla Kəlbəli xanın iradəsi həm də İrəvan qoşunlarının ilham mənbəyinə döndü.

Çox təəssüf ki, rus qoşunların hücumları dövründə İrəvan qalasının müdafiəsinin təşkili barədə yetərli mənbə məlumatları yoxdur. Xüsusilə, qala daxilində nələrin baş verdiyini, müdafiənin ağırlığını kimlərin və hansı şəraitdə öz üzərinə götürdüyünü bütöv şəkildə təsəvvür etmək mümkün deyil və İrəvan qalasının məğlubedilməzlik tarixini yaradanlar haqqında məlumatlar yox dərəcəsindədir. Mövcud olan rus və fars mənbələri tərəfkeşlik mövqeyindən yazıldığı üçün İrəvan qalasının müdafiəsinin təşkili ilə bağlı tam olmayan bir təsəvvür verir.

İrəvan qalasının müdafiəsinin təşkili istiqamətində Məhəmməd xan xanlıq qoşunlarının vəziyyətinə diqqəti artırdı, qalanın müdafiəsini gücləndirdi, qala əhalisini bütünlüklə təcavüzdən müdafiəyə səfərbər etməyə çalışdı. Verilən məlumata görə, Məhəmməd xan qala əhalisini toplayıb onları düşmənlə mübarizəyə səslədi, silah tutmağı bacaranları qoşunlara kömək etməyə çağırdı. Bununla əlaqədar o tələb etdi ki, hər adamın yanında iki litr barıt, bir ölçü qurğuşun, habelə yetərli həcmdə yem və azuqə olsun. Bundan əlavə Məhəmməd xan hər ailədən bir nəfər girov götürülməsi haqqında da tapşırıq verdi. Nəzərdə tutulmuşdu ki, müharibə şəraitində kimsə qorxaqlıq edərsə və ya döyüş meydanını tərk edərsə, onda ailənin girov götürülmüş üzvü ciddi cəza ilə qarşılaşmalı olacaqdı. Məhəmməd xan qarşıdakı mürəkkəb dövrdə xanlıq ərazisində müəyyən sabitliyə nail olunması üçün Eçmiədzin katalikosluğu uğrunda mübahisələrini hələ də davam etdirən Danil ilə Davidi İrəvana çağırtdırdı və onların hər ikisini həbs etdirdi (46).

Başqa bir məlumata görə isə döyüşlərin başlanması ərəfəsində Məhəmməd xan İrəvan ətrafındakı kəndlərdə yaşayan ermənilərin xanlıqdan

uzaqlaşdırılması haqqında göstəriş verdi (47). Yuxarıda rus mənbələrinə istinadən Məhəmməd xanın xanlığın erməni əhalisinə dözümlü münasibət göstərməsi qeyd olunmuşdu. Lakin görünür bu dözümlü münasibətin qarşısında xəyanət yolunu tutmaları Məhəmməd xanın ermənilərə olan münasibətində də dəyişiklik yaratdı. Xanlığın etibarlı müdafiəsinin təşkilinə nail olmaq üçün Məhəmməd xan etibarsız element saydığı ermənilərin bir qismini vilayətdən uzaqlaşdırmağı məqsədəuyğun saydı.

Bölgədə aparılan müharibə hazırlığı Sisianovdan da yan keçmədi. Həm strateji əhəmiyyət kəsb edən İrəvan qalasının ələ keçirilməsi istəyi, həm də şah qoşunlarının Cənubi Qafqaz üzərinə yürüşə hazırlaşmaq xəbəri Sisianovu da müəyyən tədbirlər həyata keçirməyə sövq etdi. 1804-cü il may ayının əvvəllərində Sisianovun əmrinə əsasən Qafqaz qrenadyor alayına, Saratov muşketyor alayına, 9-cu yeger alayına, Narv alayına və draqun alayına Tiflisdə toplanmaq əmri verildi (48).

Tiflis alayına Somxetiyə, onun bir taboruna isə Pəmbəkə yollanmaq tapşırıldı. Gəncədə yerləşən 17-ci yeger alayı Sevastopol muşketyor alayının bir taboru ilə möhkəmləndirildi ki, şəhərin nəzarət altında saxlanması gücləndirilsin. Eyni zamanda Gəncədəki alayın komandiri polkovnik Karyaginə tapşırıldı ki, öhdəsində olan qüvvələrin daha da möhkəmləndirilməsi üçün yerli əhali arasından könüllülər toplanmasına nail olsun. O eyni zamanda Gəncə əhalisinin xanımlarını və uşaqlarını girov kimi Şəmşəddilə göndərməli və onlar orada rus zabitlərinin nəzarəti altında saxlanmalı idi. Bununla rus qoşunları komandanlığı Gəncə əhalisinin Rusiya hakimiyyəti əleyhinə hər hansı müqavimət göstərməsinin qarşısını almaq istəyirdi. Bundan başqa rus qoşunlarının təchizatının İrəvana daşınması üçün Gürcüstan ərazisində arabaların toplanmasına başlandı. Eyni zamanda gürcü knyazlarının nəzərinə çatdırıldı ki, istədikləri halda onlar da İrəvan xanlığı üzərinə yürüşdə iştirak edə bilərlər (49).

Yuxarıda qeyd olunmuşdu ki, Fətəli şah danışıqlar yolu ilə Cənubi Qafqazı hakimiyyəti altına gətirməyə cəhd göstərirdi və onun tapşırığı əsasında vəziri Mirzə Məhəmməd Şəfi Sisianova Cənubi Qafqazı tərk etmək barəsində məktub göndərdi. Həmin məktub Mirzə Şəfinin elçisi olan Yusif bəy tərəfindən Sisianova İrəvan xanlığı üzərinə hücuma hazırlaşdığı vaxt çatdırıldı. Bu məktub kəskin hədələrlə dolu olan bir məktub idi. Fətəli şah Cənubi Qafqaza qoşun çıxarmazdan əvvəl öz hədələri ilə Sisianovu qorxudub rus qoşunlarının Cənubi Qafqazı tərk etməsinə nail olmaq istəyirdi. Məktubda Rusiya qoşunlarının Gürcüstanı, Gəncə xanlığını tutması Qacarlar sarayının Rusiyanın siyasətinə səbrlilik göstərməsinin nəticəsi kimi dəyərləndirildi. Mirzə Şəfi yazırdı ki, şah sarayı Sisianovun Cənubi Qafqaza ticarət işlərini sahmana salmağa gəldiyini güman edirdi.

Amma Sisianovun Rusiyanın Qafqaz təcavüzünə rəhbərlik etdiyi, Gəncəyə və Dağıstana əl uzatdığı aydınlaşanda Fətəli şah varisini qoşun rəhbəri təyin edərək Cənubi Qafqaza göndərdi (50).

Sözsüz ki, Mirzə Şəfi bu ifadələrində bir qədər obrazlılığa yol vermişdi. Çünki Rusiyanın siyasətinin işğal üzərində qurulduğu və Rusiya sarayının Qafqazın işğalında təkidli olduğu hələ XVIII əsrin sonlarından aydın idi. Şah sarayı da bunu yaxşı bilirdi. Sadəcə olaraq şah sarayının başı hakimiyyətin möhkəmləndirilməsinə qarışdığından Cənubi Qafqaza qoşun çıxarmaq imkanı yox idi.

Mirzə Şəfi öz məktubunda daha sonra Sisianova yazırdı ki, işğalçılıq niyyətlərinə malikdirsə, yaxşı olar ki, artıq yerindən tərpənməsin. Çünki elə yaxın zamanlarda onları ağır tale gözləyir. Yaxşı da, pis də şahid olacaq ki, kimlərin başsız bədənləri Kür çayında axacaq, kimlərin meyitlərini dəniz suları Xəzərin sahilinə atacaqdır, xristianların idolları məhv ediləcək, yoxsa müsəlmanların məscidləri.

Şahidlərin fikrincə, Sisianov bu məktubu çox qəzəbli şəkildə qarşıladı və sonra da son dərəcə kobud bir cavab göndərdi. O, Fətəli şahın ünvanına olduqca ağır təhqiredici sözlər və söyüşlər işlətdi (51).

Sisianov şah elçisinə bildirdi ki, Fətəli şahın hədələrindən qorxmur və onu qətiyyətsiz və bacarıqsız bir şah kimi tanıyır. Yaxın vaxtlarda isə şah qoşunları rus silahının qüdrəti ilə üzləşməli olacaqlar. General əlavə edirdi ki, Qacar şahları dirsəkdən yuxarı gəzdirdikləri qiymətli bazubənddən özlərinə ibadət libasının arxasında paltar əşyası kimi istifadə edəcəklər. Mirzə Şəfiyə ünvanladığı məktubunda isə Sisianov keçmiş gürcü çarının şah sarayına pənah aparmış övladlarını – İsgəndər (Aleksandr) Mirzə ilə Təhmurəsin təhvil verilməsini tələb etdi. Sisianov Mirzə Şəfinin nəzərinə çatdırırdı ki, onun yazdığı məktub Sisianovun məqamına və rütbəsinə yaraşan məktub deyildi və ona cavab yalnız qılıncla veriləcəkdir. Rus generalı əlavə edirdi ki, dünyanın hər yerində qılıncla qələbə çalan insanlar adi sözlərdən başqa bir şey olmayan hədələrdən qorxmaz. Onun sözlərinə görə, şah qoşunları dəniz qumu kimi saysız-hesabsız olsalar da, qılıncla yox, quş ləleyi ilə vuruşurlar. Rus qoşunlarının ağır zərbəsi ilə qarşılaşmamaq üçün Sisianov adları çəkilən gürcü şahzadələrinin qaytarılmasını tələb edirdi. Məktubunun sonunda Sisianov yazırdı: "Böyük imperator həzrətlərinin məğlubedilməz və qadir silahının gücünü görməyə hazır olun. Mən sizinlə Kür və Göyçə sahilində süngülərlə qarşılaşmağa hazıram" (52).

Sisianov hətta toplaşmaqda olan qoşunlarını da Yusif bəyə göstərdi və ona çatdırdı ki, yaxın günlərdə bu qüvvələr şah qoşunları ilə qarşılaşmaq üçün yola düşəcəklər. Yusif bəyin gəlişi İrəvan xanlığına doğru hərəkətə

başlamaq üçün yeni bir təkan oldu və Sisianovun əmri ilə müharibəyə hazırlıq işləri son mərhələyə qədəm qoydu.

Nəhayət, 1804-cü il may ayının sonlarında Sisianov tərəfindən İrəvana doğru hərəkətə başlamaq əmri verildi. Həmin gün general-mayor Tuçkovun komandanlığı altında olan Qafqaz qrenadyor alayı yerləşdiyi bazadan hərəkətə başladı və 12 verstlik marş həyata keçirdikdən sonra elə həmin gün Kür çayının sağ sahilində olan Soğanlı kəndinə yetişdi. Bu alayın arxasınca Sisianov özü hərəkətə başladı və Soğanlıya gəldi (53).

May ayının sonuna kimi İrəvan xanlığı üzərinə yürüşdə iştirak etməsi nəzərdə tutulan bütün qüvvələr Soğanlıya yetişdilər. General Sisianov onlara baxış keçirdi və bütünlüklə tabeliklərində olan qüvvələrin durumundan razı qaldı. Əslində onun nəzərində böyük qüvvə toplamağa elə bir ehtiyac da yox idi. Çünki Sisianov əmin idi ki, hətta az qüvvə ilə həm İrəvan qalasını ələ keçirəcək, həm də Abbas Mirzənin komandanlığı altında olan qoşunlara güclü zərbə endirəcəkdir.

Farsdilli ədəbiyyatda Sisianovun tabeliyində olan qoşunların sayı haqqında müxtəlif məlumatlar vardır və bu məlumatlar rus mənbələrində olan məlumatlardan kəskin şəkildə fərqlənir. Məsələn, bir araşdırmada Sisianovun qoşunlarının sayı 31 min nəfər və 30 top (54), bir araşdırmada isə 50 min nəfər göstərilir (55).

Rus mənbələrinə görə isə Sisianovun İrəvan xanlığı üzərinə yürüşündə xeyli az qoşun iştirak etmişdi. Döyüş hazırlığı vəziyyətinə gətirilmiş olan bütün şəxsi heyətin sayı 4080 nəfər idi ki, onların da 3413 nəfəri piyada, 667 nəfəri süvari idi. Sisianovun dəstəsinin ixtiyarında 20 ədəd top da var idi (56).

Sisianovun gürcü knyazlarına müraciətindən sonra 370 nəfər gürcünün də Sisianovun dəstəsinə qoşulması haqqında məlumat vardır (57).

Gürcü könüllüləri istisna edilməklə Sisianovun İrəvan xanlığı üzərinə hücumunda aşağıdakı qüvvələr iştirak edirdi (58):

| | Qərargah zabiti | ober zabit | unter zabit | musiqiçi | sıravi | qeyri nizami |
|---|---|---|---|---|---|---|
| Qafqaz qrenadyor alayı | 4 | 42 | 103 | 53 | 1030 | 195 |
| Saratov muşketyor alayı | 3 | 36 | 96 | 46 | 1026 | 153 |
| Tiflis muşketyor alayı | 5 | 31 | 60 | 28 | 565 | 84 |
| 9-cu yeger alayı | 3 | 25 | 52 | 21 | 481 | 82 |
| Narv draqun alayı | 3 | 15 | 38 | 10 | 320 | 40 |
| Xətti kazaklar | - | 5 | 20 | - | 289 | - |
| Topçular | 1 | 9 | 19 | - | 235 | 67 |
| Cəmi | 19 | 163 | 388 | 158 | 3946 | 621 |

Sisianovun əmri ilə general-mayor Tuçkovun komandanlığı altında olan Qafqaz qrenadyor alayı ümumi qüvvələrin avanqard dəstəsini təşkil etməli oldu. Əsas qüvvələrin çətin yollarla irəliləməsinin təhlükəsizliyinin təmin edilməsi üçün general Tuçkova tapşırıq verildi ki, əsas qüvvələrdən 2 gün əvvəl hərəkətə başlasın və Arpaçayla Zəngi çayının kəsişməsindəki Şuragöl düzənliyində düşərgə salsın. General Tuçkovun həmin məntəqədə etibarlı şəkildə səngərlənməsi üçün Tiflis alayının Loridə yerləşən qrenadyor taboru və Pəmbəkdə yerləşən muşketyor taboru general-mayor Leontyevin rəhbərliyi altında onun köməyinə gəlməli idi. General Tuçkov hərəkət tapşırığını alan kimi onun icrasına başlasa da ona lazımi köməyin verilməməsindən narazı qaldı. Onun fikrincə, şah qoşunları tərəfindən gözlənilən təhlükənin sovuşdurulması üçün avanqard dəstəyə süvarilər və kazaklar verilməli idi. Şah qoşunları ilə rastlaşdığı təqdirdə nə etməli olacağı barədə general Tuçkov heç bir göstəriş almadı (59).

General Tuçkovun komandanlıq etdiyi alayın bir hərbçisindən qalmış anonim qeydlərdə avanqard dəstənin gündəlik hərəkətləri barədə müəyyən məlumatlar vardır. Həmin məlumatlardan aydın olur ki, nəzərdə tutulan məntəqəyə qədər dəstə 10 günlük yol getməli oldu və dəstənin hərəkəti kifayət qədər çətinliklərlə müşayiət olunurdu. Bəzi günlər dəstə 32 verst yol qət edə bilmişdisə, bəzi günlər də cəmi 12 verst yol qət edə bilmişdi. General Tuçkov Şuragöl düzənliyinə yetişəndə sol cinahda Pəmbək dağları istiqamətində general-mayor Leontyevin düşərgəsini gördü. Mürəkkəb vəziyyətə düşmüş olan general Leontyev özünü general Tuçkovun dəstəsinə yetirməklə öz dəstəsinin də təhlükəsizliyini təmin etmiş oldu. Şuragöl düzənliyinin sağ cinahında general Tuckovun dəstəsindən 18 verst aralı isə Qacar qoşunları yerləşirdi (60).

Başqa sözlə, 1804-cü il iyun ayının əvvəllərində Rusiya qoşunları ilə Qacarlar qoşunları artıq İrəvan xanlığı ərazisində qarşı-qarşıya gəlmişdilər. Onları bir-birindən çox da böyük olmayan bir məsafə ayırırdı. Qarşı tərəflər bir-birini nəzarət altında saxlayırdı və hər an onların arasında döyüş başlanması təhlükəsi var idi. Bu iki böyük qüvvənin qarşı-qarşıya gəlməsindən heç şübhəsiz ki, Məhəmməd xanın da məlumatı var idi və onların hər hansı birinin qələbəsi İrəvan xanlığının müstəqilliyi üçün real təhlükə idi.

Qacar qoşunlarının yaxınlıqda olması və fəal manevrlər etməsi rus generallarını narahatçılıq içərisində saxlayırdı. Amma Sisianov hələ gəlib çıxmadığı üçün həmin qüvvələrə qarşı hansı addımın atılacağı barədə qərar da qəbul edilmirdi. İyun ayının 9-da Qacar qoşunlarında xidmət edən bir gürcü qaçıb rus düşərgəsinə pənah gətirdi. Onun verdiyi məlumatdan aydın oldu ki, yaxınlıqdakı şah qüvvələri 8 min seçilmiş döyüşçüdən ibarətdir. Şah

sərkərdələri Süleyman xan və Mehdiqulu xan, keçmiş Axalsıx paşası Şərif paşa, gürcü vəliəhdləri İsgəndər (Aleksandr) Mirzə və Təhmurəs (Teymuraz) da bu dəstənin tərkibindədirlər. Bu məlumatı alandan sonra general Tuçkov dərhal şah qüvvələrinə hücum etməyi qərara aldı. Amma havanın qaralması üzündən hücum sabahı günə keçirildi (61).

Bir daha qeyd edilməlidir ki, rus qoşunlarından fərqli olaraq, şah qoşunlarında qoşun yazışmaları və dəftərdarlığı aparılmırdı. Mövcud olan mənbələr isə real statistikadan uzaq olan söhbətlərə, xatirələrə əsaslanırdı. Ona görə şah qoşunlarının fəaliyyətinin daha mükəmməl mənzərəsini yaratmaq da xeyli çətindir. Bunun nəticəsi kimi iyun ayının 10-da qarşı tərəflər arasında baş vermiş döyüşün mənzərəsinin yaradılması üçün farsdilli mənbə və ədəbiyyatdan ətraflı məlumat əldə etmək mümkün deyildir.

Farsdilli ədəbiyyatda mövcud olan məlumata görə, İrəvan istiqamətində irəliləyən şah qoşunları üç cəbhədə mövqe tutdular. Birinci cəbhə Şuragöl cəbhəsi idi ki, orada ilkin olaraq rus qüvvələri ilə qarşıdurma baş verdi. İkinci cəbhəni Üçkilsə və üçüncü cəbhəni Sərdarabad təşkil edirdi. Şah qoşunlarının İrəvan ətrafına yetişəndən bir neçə gün sonra şəhər əhalisinin dəstə-dəstə qaladan çıxıb uzaqlaşması müşahidə olundu. Farsdilli ədəbiyyatın məlumatına görə, bu dəstələr Məhəmməd xanın siyasətindən razı qalmayan insanlar idi. Abbas Mirzə Mehdiqulu xana tapşırıq verdi ki, bu insanların geri qaytarılmasını təmin etsin. Mehdiqulu xan bu tapşırığı yerinə yetirəndə aydın oldu ki, bundan əvvəl də İrəvan xanlığını tərk edərək Osmanlı dövlətinə üz tutanlar olubmuş. Yuxarıda qeyd edildiyi kimi, Mehdiqulu xan həmin əhalini Osmanlı dövləti ərazisindən geri qaytardı və geri qayıdarkən rus qüvvələri ilə qarşılaşmalı oldu (62).

Mənbə məlumatlarına görə, Mehdiqulu xan bu döyüşü qəbul etdi. Həmin məlumatlardan belə bir nəticə çıxarmaq olar ki, rus qüvvələrini Şuragölə Məhəmməd xan çağırıbmış. Guya Məhəmməd xan Sisianovdan xahiş etdi ki, geri qaytarılan əhalinin qarşısının saxlanması üçün kömək göstərsin və Sisianov da bu xahişə cavab olaraq 29 min nəfərlik bir dəstəni sürgünlərin keçəcəyi məntəqəyə yolladı. Bununla da tərəflər arasında baş verən döyüşdə Mehdiqulu xan geri çəkilməli oldu. Mənbə müəllifi bunu həm Mehdiqulu xanın dəstəsinin kiçikliyi, həm də dəstənin texniki təchizatının aşağı səviyyədə olması ilə əlaqələndirir. Mehdiqulu xan rus dəstəsinin təzyiqinə davam gətirməyərək Abbas Mirzənin əsas düşərgəsinə tərəf geri çəkilməli oldu. Mənbədə o da əlavə olunur ki, sürgün edilmiş əhalinin geri qaytarılması Məhəmməd xanın narahatçılığına səbəb oldu. Ona elə gəldi ki, şah qoşunları rus qüvvələrinə üstün gəldiyi üçün sürgün edilmiş əhali geri qaytarılıb. Öz narahatçılığına son qoymaq üçün guya Məhəmməd xan ittifaqda olduğu Sisianovun yanına nümayəndə göndərərək onunla

görüşmək istədiyini bildirdi. Sisianov da buna razılıq verdi və gecəliklə Məhəmməd xanla Sisianov görüşürlər. Hətta Məhəmməd xan Sisianova məsləhət bilir ki, çox tezliklə Üçkilsə üzərinə hücuma keçsin (63).

Amma məlumdur ki, Mehdiqulu xanla general Tuçkovun dəstəsi arasında ilk döyüş baş verəndə Sisianov hələ bölgəyə gəlib çıxmamışdı və yalnız döyüş baş verəndən iki gün sonra ora gəldi. Bütünlükdə isə, Məhəmməd xanın Sisianovla görüşməsi barəsində rus mənbələrində heç bir məlumat mövcud deyil.

Başqa bir tarixi araşdırmaya görə, Mehdiqulu xan şah qoşunlarının süvarilərinə rəhbərlik edirdi. Onun süvarilərinin hamısı könüllülərdən və yığma şəxslərdən ibarət idi. Onların sayının 6 min nəfər olduğu bildirilir. Mehdiqulu xan tapşırıq almışdı ki, Kürdobası-Çaykənarı xəttinə çıxsın və münasib mövqelər tutandan sonra rus qüvvələri üzərinə hücuma keçsin. Bu araşdırmaya görə Mehdiqulu xan təyin olunduğu məntəqəyə çatmamış rus qüvvələri ilə rastlaşdı və hücum qabağı mövqeləri tutmağa nail olmadan döyüşə girmək məcburiyyətində qaldı. Şah süvariləri yaxınlıqda münasib mövqedə yerləşən xarabalığı ələ keçirib orada möhkəmlənməyə çalışsalar da, tezliklə həmin mövqeni əldən verdilər. Günün ikinci yarısı həmin xarabalıq yenidən ələ keçirildi. Amma bundan sonra uğuru genişləndirmək mümkün olmadı. Bu anlarda rus qoşunlarının bir sütunu Kürdobası-Çaykəndi xəttindən keçərək şah süvarilərinin sol cinahını təhlükə altına aldı. Mehdiqulu xan rusların bu manevrinə xüsusi bir diqqət yetirmədi və hücumu başqa bir istiqamətə yönəltdi. Rus qüvvələri bundan istifadə etdilər və onlar sol cinahda xeyli irəliləyə bildilər. Nəticədə şah qüvvələrinin arxasında təhlükəli vəziyyət yarandı. Mehdiqulu xan bu təhlükənin ciddiliyini görüb onu aradan qaldırmağa çalışanda rus qüvvələri hərtərəfli hücuma keçdilər. Bu da bütünlükdə şah süvarilərinin geri çəkilməsi ilə nəticələndi. Bununla ruslar ilk döyüşdə uğur qazandılar və İrəvana aparan yol onların üzünə açılmış oldu (64).

Mehdiqulu xanın qüvvələrinin geri çəkilməsi ilə rus qüvvələri iki sütunda irəli hərəkətlərini davam etdirdilər və iki fərsəng məsafə qət etdikdən sonra yenidən Mehdiqulu xanın süvarilərinin müqaviməti ilə rastlaşdılar. Çətin dağ şəraitində qruplaşmaq imkanının olmaması rus sütunlarının xeyli uzanmasına səbəb olsa da, onlar beş kilometr irəliləməyə müvəffəq oldular. Axşam düşdüyündən ruslar irəliləməyi dayandırdılar və orada gecələməli oldular. Səhəri gün rus qoşunlarının İrəvan istiqamətində hərəkətinin davam etdirilməsi planlaşdırılırdı. Lakin qoşunların yorğunluğu bu planın həyata keçirilməsini şübhə altına qoydu (65).

Rus mənbələrinə görə isə tərəflərin ilk döyüşü aşağıdakı şəkildə baş verdi: 1804-cü il iyun ayının 10-da rus generalı şah qoşunlarını qabaqlamaq

üçün döyüşü özü başladı. Onun əmri ilə qoşun iki dəstəyə bölündü. Rus mənbələrinə görə, birinci dəstə 600 qrenadyor və 4 ədəd topdan ibarət idi. Bu dəstəyə general Tuçkov özü komandirlik edirdi. İkinci dəstədə isə 400 muşketyor və 4 ədəd top var idi. Bu dəstəyə də general Leontyev komandirlik edirdi. Bir dəstəni isə general Tuçkov düşərgənin mühafizəsi üçün saxlamışdı. O, daha asan hərəkət edə bilməsi üçün bütün arabaları, azuqə və sursat ehtiyatını bir yerə toplayıb onların mühafizəsinə 600 əsgər və 3 ədəd top saxladı (66).

Bundan başqa burada özünü xəstə, yorğun hiss edən 200-dək əlavə döyüşçü saxlanmışdı. Dəstəyə mayor Osipov rəhbərlik edirdi.

Birinci və ikinci dəstələr Qarakilsə kəndinin 7 verstilyinə qədər gəlib çıxdılar. Sağ cinahda Arpaçay qalmaqla birinci dəstə bir qədər sola, ikinci dəstə isə bir qədər sağa istiqamət götürdü. Dəstələr arasında məsafə elə də böyük deyildi. Təhlükəli vəziyyət yarananda onlar bir-birinə kömək edə bilərdilər (67).

Rus qoşunlarının yaxınlaşdığını görəndə şah qüvvələri də döyüşqabağı mövqe tutdular. Onlar üç böyük hündürlükdə yerləşərək rus qoşunlarını dairəvi atəşə tutmaq fikrində idilər. Şah qüvvələrinin bu niyyəti rusların da diqqətindən qaçmadı və onlara səmərəli müqavimət göstərmək üçün Tuçkovun əmri ilə qoşunlar iki yerdə dördbucaq (kare) şəklində mövqe tutdular. Bu dəstələrin mövqeləri elə seçildi ki, onlar bir-birinə qarşılıqlı kömək göstərə bilsinlər.

Şah qüvvələri təşəbbüsü ələ almağa çalışsalar da döyüşün gedişi rus qoşunlarının daha yüksək taktikaya və döyüş hazırlığına malik olduğunu göstərdi. Əslində bu təbii idi. Bütün Avropaya meydan oxuyan rus qoşunları ən qabaqcıl hərbi təcrübəni əxz edə bilmişdilər. Qacar qoşunlarının Avropa döyüş təcrübəsi yox idi. Onlar say çoxluğuna daha çox diqqət yetirirdilər ki, bu da çox vaxt gözlənilən nəticəni vermirdi.

Bu döyüş əsasən topçuların fəallığı altında keçdi. Şah qüvvələri əlverişli hündürlüklərdə qərar tutsalar da rusların uzaqvuran toplarının sərrast atəşindən sonra tutduqları mövqeləri tərk etmək məcburiyyətində qaldılar (68).

Belə olanda şah qüvvələri kiçik süvari dəstələrlə qarşı tərəfə zərbə vurmaq taktikasını seçdilər. Bu üsul rus toplarının atəşlərindən daha yaxşı qorunmaq üçün şərait yaratsa da qarşı tərəfin düzgün qurulmuş müdafiəsi ciddi nəticələr əldə etməyə imkan vermirdi. Əksinə, bir neçə hücum cəhdindən sonra şah qüvvələri yenidən geri çəkilməyə məcbur oldular. Onlar elə bir yüksəklikdə qərar tutdular ki, oranı rusların topları çətinliklə vura bilirdi. Şah qüvvələri yenə kiçik süvari dəstələrlə rusların üzərinə hücumu davam etdirirdilər. Bu hücumların qarşısını almaq ruslar üçün heç

də asan deyildi. Bir müddətdən sonra şah qüvvələri dəstələrə bölünərək həmin yüksəklikdən aşağı endilər və hər iki qoşun arasında qalan başqa bir hündürlükdə mövqe tutdular. Həmin hündürlükdən şah qüvvələri böyük bir sürətlə rus qoşunlarının sol cinahını hücuma məruz qoydular. General Tuçkov həmin istiqamətə kazakları və erməni döyüşçülərini göndərdi. Ancaq onlar şah qüvvələrinin qarşısını ala bilmədilər. Onda general Tuçkov ora başqa bir dəstəni göndərdi. Bu da bir nəticə verməyəndə mayor Rebenderin komandanlığı altında iki bölük və bir top sol cinaha göndərildi. Yenə şah qüvvələrinin hücumunu saxlamaq mümkün olmadı. Axırda Tuçkov məcbur olub bütün qüvvələri ilə hücumun qarşısını almağa cəhd göstərdi. Şah qoşunlarının bu dəfə hərbi təşəbbüsü ələ almaq imkanı olsa da yol verilən səhlənkarlıqlar onların geri çəkilməsi ilə nəticələndi. General Tuçkov sürətlə irəliləyən şah qoşunlarının qarşısını almağa üz tutarkən sağ cinahdakı hündürlüklərin arxasında onların düşərgəsinin yerləşdiyini gördü. Onda rus generalı əsas zərbənin bu düşərgəyə vurmağı qərara aldı. Bunu görən şah qoşunları geri qayıtmaq məcburiyyətində qaldılar. Onlar uzaqlaşsalar da təxminən ruslarla bir vaxtda düşərgəyə yetişdilər. Lakin rus toplarının aramsız atəşlərinə davam gətirə bilmədilər və düşərgədən uzaqlaşmalı oldular (69). Bununla da şah süvarilərinin düşərgəsi rusların əlinə keçdi.

Göründüyü kimi, ilk döyüşün təsvirində rusdilli və farsdilli mənbələrin məlumatlarında xeyli fərqli məqamlar vardır. Baxmayaraq ki, burada oxşar cəhətlər də tapmaq mümkündür. Maraqlısı burasıdır ki, rus mənbələrində Mehdiqulu xanın süvari dəstəsi daha fəal və cəsarətli təsvir olunur. Onlar geri çəkilməli olsalar da rus qüvvələrinə ciddi müqavimət göstərdiklərinə şübhə yeri yoxdur.

İlk döyüş itkisiz də ötüşmədi. Fars mənbələrində və tarixi ədəbiyyatda bu barədə məlumat yoxdur. Rus mənbələri isə şah süvarilərindən ən azı 100 nəfərin öldürüldüyü və o qədərin də əsir götürüldüyünü bildirirlər. Rus qüvvələrinin isə itki vermədiyi qeyd olunur.

Rus qüvvələri gecəni şah qoşunlarının düşərgəsində keçirsələr də səhər açılan kimi, yəni ayın 11-də əvvəlki mövqelərinə qayıtdılar.

General Tuçkovun rəhbərliyi altında olan qüvvələr yenidən Arpaçay ətrafında, Şuragöl düzənliyindəki ilkin düşərgəsində qayıtdılar və ayın 11-ni istirahətdə keçirdilər. Ayın 12-də Sisianov da İrəvan üzərinə hücum edəcək əsas qüvvələrlə Şuragöl düzənliyinə yetişdi və general Tuçkovun dəstəsi ilə birləşdi. General Tuçkovun komandiri olduğu Qafqaz qrenadyor alayı ilə birlikdə Sisianovun İrəvan üzərinə hücum edəcək hərbi dəstəsinə aşağıdakı qüvvələr daxil idi: 3 tabordan ibarət Qafqaz qrenadyor alayı- 1100 nəfər, Tiflis muşketyor alayının 2 taboru – 650 nəfər, Saratov muşketyor alayının 2 taboru – 1200 nəfər, 9-cu yeger alayının 2 taboru – 400 nəfər, Narv draqun

süvari alayının 3 eskadronu – 300 nəfər, kazaklar – 350 nəfər, gürcülər – 370 nəfər. Cəmi 4370 nəfər. Şəxsi heyətdən başqa Sisianovun tabeliyində 20 ədəd səhra topu da var idi (70).

Şuragöl düşərgəsində olarkən keçmiş Xoy hakimi, Rusiyanın himayəsini qəbul etmiş Cəfərqulu xanın elçiləri Sisianovun yanına gəldilər. Fətəli şah tərəfindən Xoy xanlığından uzaqlaşdırılmış Cəfərqulu xan elçiləri vasitəsilə Fətəli şaha qarşı vuruşmaq üçün öz köməyini Sisianova təklif etdi. O, Sisianovdan xahiş etdi ki, ətrafında olan atlı dəstəsi ilə Sisianovun rəhbərliyi altında olan rus qüvvələrinə qoşulsun. Sisianov dərhal bu təklifə razı olmasa da sonradan onu öz dəstəsinə qəbul etdi və ondan sədaqətli qalacağı haqda yazılı öhdəlik aldı (71).

Rus qoşunlarının Şuragöl düşərgəsində yerləşdiyi vaxt ərzində İrəvan xanı öz nümayəndəsini məktubla Sisianovun yanına göndərərək onunla əməkdaşlıq etmək istədiyini, ona kömək göstərməyə hazır olduğunu bildirdi. Məhəmməd xan eyni zamanda Sisianovun Gümrü yaxınlığından hansı istiqamətə hərəkət edəcəyini aydınlaşdırmağa çalışdı.

Sisianov həmişəki kimi təkəbbürlülük göstərərək Məhəmməd xanın iki məktubunu cavabsız qoydu. Üçüncü məktubuna isə hirs və hikkə dolu bir cavab yazdı: "Gümrü yaxınlığına gələndən sonra siz aliməqamdan üç məktub almışam. İkisini kəndlilər gətirmişdi, birini isə nökəriniz. Sizin dikbaş məktublarınızdan sonra cavab verilməsinin mənasız olmasına baxmayaraq, mən hələ Tiflisdən yazıb sizə tələblərimi çatdırmışdım və demişdim ki, nə qədər ki, Tiflisdən hərəkət etməmişəm onları qəbul edin... Ancaq siz razı olmadınız. İndi isə ahənginizi dəyişmişsiniz və məktubunuzda soruşursunuz ki, mən Gümrü yaxınlığında qalacağam, yoxsa hərəkətimi davam etdirəcəyəm. Mən ona görə gəlməmişəm ki, Gümrü yaxınlığında dayanım. Gəlmişəm ki, İrəvanı alım. Məktubda yazırsınız ki, bizə nə qulluq göstərə bilərsiniz. Mən sizdən bütün hərbi sursatı ilə birlikdə qalanı tələb edirəm və inandığım allaha and içirəm ki, siz aliməqamın nicatı üçün başqa yol yoxdur. Qalaya yaxınlaşanda məni qarşılayın və açarları təhvil verin, böyük və qayğıkeş imperatorun müqəddəs iradəsinə təslim olun... Budur sizin xoşbəxtlik yolunuz. Hər halda özünüz bilirsiniz... Ya rəhm və aman gözləyin, ya da Cavad xanın taleyini. Hansını ki, mən sizə arzu etməzdim. Ancaq bu gün də inadkarlıq göstərsəniz onda sübut edəcəyəm ki, mən məğlubedilməz qoşunlarla boş yerə hərəkət etməyi sevmirəm" (72).

General Sisianov birmənalı şəkildə İrəvan qalasının təhvil verilməsini tələb etdi. Onun sözlərinə görə, rus dəstəsi Eçmiədzinə çatana kimi Məhəmməd xan da qalanın təhvil verilməsi barəsində öz qərarını qətiləşdirməli və bu barədə general Sisianovun yanına göndərdiyi heyət

vasitəsilə ona xəbər verməli idi. General Sisianov yalnız qalanı deyil, qala daxilindəki silahları və hərbi təchizatın da təhvil verilməsini tələb edirdi.

Bir neçə gün Şuragöl düşərgəsində istirahət etdikdən sonra iyun ayının 15-də Sisianov dəstəsi ilə birlikdə Eçmiədzinə tərəf hərəkətə başladı. Dəstənin təhlükəsizliyinin təmin edilməsi üçün general-mayor Portnyaginin rəhbərliyi altında irəliyə avanqard dəstəsi göndərildi. Avanqarda Qafqaz qrenadyor alayının bir taboru, yegerlərdən ibarət iki tabor, üç draqun eskadronu, habelə bütün kazaklar və gürcülər daxil idi. Dəstənin aryerqardına isə general-mayor Leontyevin komandanlığı altında səhra qarovulu təyin edildi (73).

Eçmiədzinə doğru hərəkəti zamanı Sisianovun dəstəsi ilk gün 28 verst yol gedə bildi. Ağır dağ yolları dəstənin sürətlə irəliləməsinə böyük əngəl oldu. Xüsusilə, təchizat daşıyan arabalar dəstənin hərəkət sürətini xeyli ləngidirdi. Ona görə Sisianov əmr etdi ki, arabaların əsas hissəsi dəstədən ayrılsın və xüsusi bir düşərgədə yerləşdirilsin (74).

Sisianov yolda ikən Məhəmməd xandan yeni bir məktub aldı. Həmin məktub Sisianova Qasım bəy adlı birisi tərəfindən çatdırıldı. Məhəmməd xan yazırdı ki, Qasım xanı Sisianovun yanına xoş niyyətlərlə göndərir və o, rus qoşunlarına bələdçilik edə bilər. Sisianov, Qasım xanın göndərilməsini faydalı saysa da, Məhəmməd xana öz tələblərindən əl çəkməyəcəyini də bildirdi.

Eçmiədzinə doğru hərəkətinin ikinci günü rus qüvvələri 25 verst yol qət edə bildilər. Həmin gün, yəni iyunun 17-də Sisianova xəbər çatdırıldı ki, yaxınlıqdakı ərazilərdə mal-qara otarılır. O dərhal polkovnik Sexanskinin rəhbərliyi altında iki taboru həmin mal-qaranın gətirilməsinə göndərdi. Sonradan məlum oldu ki, bu mal-qara Pəmbək bəyi Nağı bəyə məxsusdur. Bununla belə, ruslar niyyətindən dönmədilər və mal-qaranı zorla ələ keçirdilər. Mal-qara mühafizəçiləri müqavimət göstərməyə çalışsalar da rusların iki taborunun qarşısında dayana bilmədilər. Bir neçə mühafizəçi və çoban öldürüldü və 800 başlıq mal-qara rusların əlinə keçdi (75).

Ayın 18-də Sisianovun dəstəsi 25 verst məsafə keçdi və Aparan ovalığına çıxdı. Günü-gündən Sisianovun dəstəsinin irəliyə doğru hərəkəti çətinləşməkdə idi. Səhəri gün isə Eçmiədzinə doğru son mənzili qət etmək lazım gəldi. Həmin gün əvvəlki günlərə nisbətən daha uzun bir məsafə - 44 verst yol qət edildi. Lakin bu məsafə böyük yorğunluq və məşəqqətlər hesabına başa gəldi. Daşlı dağ yollarının hərəkət çətinliyi, havanın son dərəcə isti olması, dəstədə kifayət qədər su olmaması və nəhayət bir tərəfdən də Abbas Mirzə qüvvələrinin təhlükəsi üzündən daim gərginlik içində olması rus hərbçilərini tamamilə əldən saldı. 30 verstlik yol qət edəndən sonra Sisianovun dəstəsi düzən bir əraziyə çıxdı. Bu düzənliyin sol

cinahında, kifayət qədər aralıda Abbas Mirzənin qüvvələri düşərgə qurmuşdular. Sağ tərəfdə isə Eçmiədzin monastırına tərəf axan çay görünməkdə idi. Suya olan ehtiyacın ödənməsi üçün çay yaxınlığında düşərgə salınması Sisianova təklif olundu. Amma Sisianov müdafiənin daha yaxşı təşkili üçün Eçmiədzin monastırında yerləşməyi məqsədəuyğun saydı və ona görə də irəliyə doğru hərəkəti davam etdirdi. Yolun uzanması isə hərbçiləri tamamilə əldən saldı. Eçmiədzinə hər tabordan 60 nəfər gəlib yetişə bildi. Qalan qüvvələr isə yorulub yol boyu səpələnmişdilər. Yalnız gecə yarı bütün dəstəni Eçmiədzinə toplamaq mümkün oldu. Dəstənin arabaları isə düşərgəyə yalnız o biri gün gəlib yetişdi. Onların da çoxu ara-sıra hücumlar edən Abbas Mirzə süvarilərinin əlinə keçdi. Bütünlükdə, rus tarixçiləri Abbas Mİrzə qüvvələrinin həmin gün fəallıq göstərməməsini təəccüblə qarşılayırlar. Onların fikrincə, Sisianovun yorulub əldən düşmüş dəstəsinin üzərinə ciddi bir hücum təşkil edilsəydi, onda Sisianov ağır nəticələrlə qarşılaşmalı olacaqdı (76).

Rusiya qoşunlarının Eçmiədzinə yaxınlaşması Abbas Mirzə qoşunları tərəfindən diqqətlə izlənilirdi. Mehdiqulu xan Abbas Mirzə tərəfindən tapşırıq aldı ki, Eçmiədzin monastırının divarlarını nəzarət altında saxlasın. Rusiya qüvvələrinin məhz Eçmiədzinə tərəf gəldiyinə əmin olandan sonra Mehdiqulu xanın döyüşçüləri monastırın ətrafında özlərinə mövqe seçib səngərləndilər. Gizli mövqe seçmək üçün monastır ətrafında yaşıllıq mövcud idi. Rusiya qoşunları monastır yaxınlığına çox yorğun gəlib çatsalar da, Sisianov Eçmiədzin monastırını da nəzarət altına almaq qərarına gəldi. Xüsusilə də, Rusiya qoşunlarının yaxınlaşdığı vaxt kilsə zənglərinin səsinin gəlməsi Sisianovda belə bir təəssürat yaratdı ki, din xadimləri də onları qarşılamağa hazırlaşırlar. Bütün dəstənin yetişməsini gözləmədən Sisianov və kazaklar gürcülərlə birlikdə monastıra tərəf irəlilədilər. Elə bu zaman da onlar Mehdiqulu xanın döyüşçülərinin zənburək və tüfəng atəşlərinin altına düşdülər. Göstərdiyi bütün cəhdlərə baxmayaraq, Sisianov Mehdiqulu xanın döyüşçülərinin müqavimətini qıra bilmədi. Rus tarixçilərinin fikrincə, Sisianovun ətrafında olan dəstə Mehdiqulu xanın döyüşçülərini müəyyən qədər geri çəkilməyə və monastıra sığınmağa məcbur etsə də, rus qüvvələri monastır ələ keçirə bilmədilər (77).

Farsdilli mənbə və ədəbiyyata görə isə Eçmiədzin ətrafında baş verən ilk döyüşdə Abbas Mirzə döyüşçüləri üstünlüyə malik olduqlarını nümayiş etdirdilər. Onların düzgün mövqe seçməsi, düşmənə öz gücünü göstərmək cəhdi rus qüvvələrini geri çəkilməyə məcbur etdi. Verilən məlumatlara görə, qəfil haqlanmış olan rus hərbçiləri çoxlu itki ilə üzləşdilər. Elə ilk döyüşdə əldə edilən uğur Abbas Mirzəni də çox sevindirdi. Bu uğurun genişləndirilməsi üçün Abbas Mirzə təcrübəli sərkərdələrindən olan Hüseynqulu xan

Şahsevəni dəstəsi ilə bərabər Mehdiqulu xanın köməyinə göndərdi. Hüseynqulu xan döyüş meydanına girməzdən əvvəl 5 min nəfərlik süvari dəstəsini beş yerə böldü və rus qoşunlarının başı öz qoşunlarını möhkəmləndirməyə qarışanda onlara yeni bir zərbə endirildi. Hüseynqulu xan birinci qrupa başçılıq etməklə pusquda dayandı. Teymur xan adlı digəri tərəfindən rəhbərlik edilən ikinci qrup rus əsgərləri üzərinə qəfil hücuma keçdi. Ruslar müdafiə olunmağa macal tapmadan geri çəkilmək məcburiyyətində qaldı. Bunun nəticəsində onların 6 ədəd topu Teymur xanın əlinə keçdi. Belə bir uğuru əldə edəndən sonra Hüseynqulu xan monastıra çəkilib Mehdiqulu xanın dəstəsi ilə birləşdi (78).

Qeyd etmək lazımdır ki, hadisələrin belə cərəyan etməsi haqqında rus mənbə və araşdırmalarında rastlaşmaq mümkün deyil.

Sisianov monastırın tutulmasını o biri günə saxladı. İyun ayının 20-də qarşı dayanan tərəflər arasında şiddətli döyüş baş verdi. Qəfil hücumla təşəbbüsü ələ almağa çalışan şah qoşunları səhər tezdən saat 4-də, rus qoşunları hələ istirahət edərkən onların üzərinə hücuma keçdilər. Farsdilli tarixçilərin məlumatına görə Abbas Mirzə bu hücumda Şahsevən və Xocavənd tayfalarının süvarilərinə xüsusi ümid bağlayırdı. Həqiqətdə də həmin döyüşdə əsasən həmin tayfalar seçilirdilər.

Şah qoşunlarının hər tərəfdən hücumunu görən Sisianov qorxuya düşdü və irəli gedib monastıra girməyə çalışdı. O bunu elə tələsgənliklə etdi ki, hətta düşərgənin müdafiəsini təşkil etmək və arxada qalan qoşun hissələrinin yerləşdirilməsi üçün göstəriş vermək də yadından çıxdı. Lakin şah qoşunlarının süvari dəstələrinin hücumunu gördükdə Sisianov geri qayıtmalı oldu. O, general-mayor Portnyaginə əmr etdi ki, iki kare (döyüşçülərin kvadrat şəklində düzülüşü) düzəltsin və şah qüvvələrinin hücumunun qarşısını alsın.

General-mayor Tuçkov isə düşərgənin sağ cinahında kare düzəltmək əmri aldı. Düşərgənin sol cinahında mayor Noldenin rəhbərliyi altında mövqelər düzəldildi. General Leontyevə də göstəriş verildi ki, sol tərəfə hərəkət edib monastıra doğru irəliləsin. Sisianov özü isə iki kiçik monastırın arasında mövqe tutdu. Onun dayandığı yer üç tərəfdən şah qüvvələrinin hücumuna məruz qaldı. Hətta Sisianovun əsir düşmək təhlükəsi yarandı. Canını xilas etmək üçün Sisianov general Tuçkovu köməyə çağırdı. General Tuçkov Sisianovun köməyinə yollananda o, baş komandandan yeni bir göstəriş aldı. Həmin göstərişə görə, Tuçkov Eçmiədzin monastırı ilə yaxınlıqdakı dəyirman arasındakı yüksəklikdə mövqe tutmalı idi. Orada isə şah qüvvələri yerləşirdi. General Tuçkov öhdəsində olan topların atəşindən səmərəli istifadə etməyə çalışsa da, şah qüvvələrini həmin mövqedən uzaq-

laşdırmağa müvəffəq olmadı və bu qüvvələr rus qüvvələrinin düşərgəsinə doğru irəliləməkdə davam etdilər (79).

Monastırdan çıxan başqa bir şah qüvvələri dəstəsi də rus qoşunlarının düşərgəsinə doğru hərəkət etdi. Burada müvəffəqiyyəti genişləndirmək üçün yaxşı imkan olduğunu görən üçüncü bir şah dəstəsi də general Leontyevin karesini adlayaraq düşərgəyə zərbə vurdu. Vəziyyətin belə dəyişdiyini görən general Tuçkov tutduğu mövqeni tərk edərək düşərgənin müdafiəsinə yollandı. Onun dəstəsinin yetişməsi ilə birinci və ikinci şah dəstələrinin qarşısını almaq mümkün oldu. Ancaq üçüncü dəstə sol cinahdan düşərgəyə güclü zərbə vurdu. Bu dəstə hətta müəyyən qənimət də ələ keçirə bildi (80).

Aryerqardda qalmış bölmələrin yetişməsi rus qüvvələrinin vəziyyətini bir qədər yaxşılaşdırdı. Buradakı uğurdan ruhlanan şah qoşunları daha üç dəfə rus düşərgəsinə hücum etdi. Ancaq müəyyən yerdəyişmələr aparmış rus karelərinin çarpaz atəşləri altına düşdüyündən onlar düşərgəni ələ keçirə bilmədilər.

General Sisianovun olduğu kare də bu vaxt çox çətin bir vəziyyətə düşdü. O, iki monastır arasında mövqe tutmuşdu. Şah qüvvələri ora əvvəlcə ön tərəfdən hücum etdi, sonra isə hər iki monastırı tutub orada öz toplarını yerləşdirdilər. Şah qüvvələri topların atəşindən kifayət qədər səmərəli istifadə etməklə Sisianovun hər iki cinahına ciddi zərbə vurub arxa ilə bütün əlaqələrini kəsdilər.

Rus tarixçiləri bu vəziyyətin üstündən sükutla keçməyə çalışsalar da həmin anlarda Sisianov özünün ən ağır dəqiqələrini yaşayırdı. Güllə yağışının və hər iki tərəfdən şığıyan şah qüvvələrinin zərbəsindən canını qurtarmaq üçün Sisianov güllə yeşiklərinin arasında gizləndi və altı saat bu vəziyyətdə qaldı. O daha çox canının hayına qaldığından qoşunların idarəsini də öz başına buraxdı və yalnız öz qara günü haqında düşündü. Bu vəziyyətdə çox qalmağın şəksiz ölümlə nəticələnə biləcəyini hiss edən Sisianov geri çəkilməyi qərara aldı. Qacar süvariləri onu düşərgəyə qədər təqib etdilər (81).

Eçmiədzin ətrafında 2-ci döyüşdən sonra da rus qüvvələri monastıra daxil ola bilmədilər. Əksinə, bir qədər geri çəkilib kare düzəltdilər və dəstənin bütün arabalarını da bu karenin mərkəzində yerləşdirdilər. Bu döyüş barədə Sisianovun özünün də qeydləri mövcuddur. Döyüşün gedişi barədə Rusiya çarına göndərdiyi raportunda Sisianov baş verənləri təsvir edərək hücumun genişləndirilməsi üçün süvarilərin kifayət qədər olmadığından şikayətlənirdi. Bütünlükdə bu döyüşü Sisianov rus qüvvələri üçün uğurlu döyüş kimi qiymətləndirirdi. O, yalnız bir hadisəni uğursuz hal hesab edirdi. Sisianov yazırdı ki, Tiflis muşketyor alayından mayor Tokarev Eçmiədzindən 1,5 verst aralı şah qüvvələrinin hücumu altına düşdü. O, yük arabalarını

mühafizə edə bilmədi, maddi və canlı itkilər verərək döyüş meydanından qaçdı.

Farsdilli mənbə və araşdırmalarda iyunun 20-də baş vermiş döyüş fərqli şəkildə təsvir olunur. Bildirilir ki, ayın 19-da baş verən döyüşdə süvarilərin əldə etdiyi nəticəni eşidəndə Abbas Mirzə özü də Eçmiədzinə doğru irəliləməyi qərara aldı. Öz düşərgəsinin mühafizəsini isə onunla gəlmiş vəzir Mirzə Şəfiyə tapşırdı. Farsdilli mənbələrə görə, ayın 20-də səhər Sisianov hücuma başladı və Eçmiədzin yaxınlığındakı üç qalanı ələ keçirməyi qarşıya məqsəd qoydu. Ola bilsin ki, fars mənbələri qala deyəndə kilsələri nəzərdə tuturdu. O da qeyd olunur ki, bu qalalar hərbi baxımdan elə bir əhəmiyyət kəsb etmirdi. Bununla belə, Sisianov onları tutmağa çalışırdı. Rus hərbçiləri tezliklə bu üç qaladan birini tutmağa müyəssər oldu. Abbas Mirzə Süleyman xan Qovanlını və Mehdiqulu xanı yolların mühafizəsinə göndərdi. Qalaların mühafizəsi isə Pirqulu xan Şambayatıya, Əliqulu xan Şahsevənə və Nəcəfqulu xan Şahsevənə tapşırıldı. Abbas Mirzə və gürcü vəliəhdləri İsgəndər Mirzə ilə Təhmurəs Mirzə Sisianova qarşı vuruşan dəstədə idi (82).

Abbas Mirzə Sisianovla döyüşə əsasən Şahsevən və Xocavənd süvarilərini atdı. Bu süvarilərin sürətli manevrlərlə rus hərbçilərinin müəyyən qismini çaş-baş saldı. Bununla belə fars mənbələri qeyd edirlər ki, bütünlükdə Abbas Mirzə süvarilərinin döyüş hazırlığı və taktikası ruslarınkından geri qalırdı. Ona görə şah süvariləri elə döyüşün gedişində rus hərbçilərinin taktikasını öyrənməyə çalışırdılar. Bu da onların fəaliyyətinə öz müsbət təsirini göstərirdi.

Sisianovun dəstəsi hücumu genişləndirərək digər qalaları da ələ keçirdi. Bu vaxt Xocavənd döyüşçülərindən olan Əbdülmalik adlı birisi 500 nəfərlik süvari dəstəsi ilə Abbas Mirzənin dəstəsindən ayrıldı və birinci qala üzərinə hücum etdi. Rus topçularının mütəmadi atəşlərinə baxmayaraq, Əbdülmalikin dəstəsi özünü qalaya yetirdi və onu rus hərbçilərindən təmizlədi. Bunun ardınca Abbas Mirzə qüvvələri digər qalaların da üzərinə hücuma keçdilər və həmin qalaları da ələ keçirdilər. Döyüş zamanı müəyyən sayda rus hərbçiləri əsir götürüldü. Sisianov bu qalaların itirilməsi ilə razılaşmadı və qalalar üzərinə hücumu davam etdirmək əmri verdi. Rus toplarının atəşləri qala divarlarını dağıtsa da, döyüş axşama kimi davam etdi və hava qaralanda döyüş dayandırıldı (83).

İstinad olunan farsdilli mənbə döyüşün üç gün davam etdiyini bildirsə də, rus mənbələrinə görə səhəri gün döyüş olmadı. İstər rus mənbələrindən, istərsə də farsdilli mənbələrdən hansı tərəfin real üstünlüyə malik olduğunu görmək mümkün deyil. Doğrudur, Abbas Mirzə qüvvələri bu döyüşdə kifayət qədər fəallıq nümayiş etdirdilər və rus qüvvələrinin planlarının

həyata keçməsinə imkan vermədilər. Amma Sisianov da özünü məğlub durumda hesab etmədi. Rus tarixi araşdırmaları onu da bildirirlər ki, Abbas Mirzə qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar və bu zaman onlar rusların düşərgəsində bir neçə araba və çadır ələ keçirə bildilər. Mövcud olan rus arxiv materiallarının tutuşdurulması da döyüşün sonunda Sisianovun canlanmış əhval-ruhiyyədə olduğunu güman etməyə əsas verir (84).

İyunun 21-də tərəflər arasında döyüş olmadı. Çox güman ki, Abbas Mirzə də həmin gün risq etməyərək öz qüvvələrinin sıralarının bərpası ilə məşğul oldu. Ayın 22-də tərəflər arasında yeni bir döyüş baş verdi. Döyüşün şahidinin ifadələrinə görə, Sisianov öz mövqelərini dəyişmədi. Abbas Mirzə qüvvələri də həmin mövqelər üzərinə hərəkət etdi. Qeyd olunur ki, bu döyüşdə Abbas Mirzə top atəşlərindən də istifadə edirdi və həmin topun İrəvan qalasından gətirildiyi güman olunurdu. Şahidlər bu döyüşdə elə bir əhəmiyyətli hadisənin baş vermədiyini bildirsələr də, rus qüvvələrindən 3 nəfərin öldürüldüyünü və 9 nəfərin də yaralandığını qeyd edirlər (85).

Ayın 22-də Sisianov hələ də onun yanında olan Məhəmməd xanın nümayəndəsi Qasım bəyi geri yola saldı və Qasım bəyin vasitəsilə Məhəmməd xana növbəti məktub göndərdi. Sisianov bu məktubunda yazırdı ki, Abbas Mirzə qüvvələri ilə keçirdiyi döyüşləri Qasım bəy özü müşahidə edib və gördüklərini də xana danışacaqdır. O əlavə edirdi ki, əgər Məhəmməd xan irəli sürülən şərtləri qəbul etməsə Abbas Mirzə qüvvələrinə verilən dərs onu da gözləyir (86).

İyun ayının 23-də şah qoşunları yenidən ruslar üzərinə hücum etdilər. Rus qoşunları hələ də əvvəlki mövqelərində dayanmışdılar.

Şah və xan qoşunlarının aramsız hücumları onların daha əlverişli mövqelərdə düşərgə salmasına mane olurdu. Şah qoşunları rusların düşərgəsinin qarşısında olan yüksəkliyi ələ keçirdilər. Burada onlar yüngül toplar yerləşdirib düşərgənin sol cinahınmı atəşə tutdular. Sisianov qrenadyor və yeger alaylarına əmr verdi ki, şah qüvvələrini həmin mövqedən uzaqlaşdırsınlar. Uzun sürən döyüşdən sonra ruslar buna nail oldular və gecə ikən orada mövqe tutaraq yüksəkliyin qorunması üçün lazımı tədbirlər gördülər (87).

Şah qüvvələri bu hücumun gedişində həm də yaxınlıqdakı çaydan rus qoşunlarına tərəf gedən kanalın qarşısını kəsdilər. İsti havada susuzluq rus döyüşçülərini əldən saldı. Onlar suyun qarşısının açılması üçün müəyyən təşəbbüs göstərdilər. Bunun böyük itkilərə gətirə biləcəyini görəndə Sisianov suyun açılması üçün iki tabor göndərdi.

İyunun 23-də olan döyüşlərdə ruslardan 10 nəfər öldü, 20 nəfər isə yaralandı (88).

İyun ayının 24-də şah qüvvələri ilə ruslar arasında yeni bir döyüş oldu. Bu döyüş tərəflərin mövqeyində ciddi bir dəyişiklik yaratmasa da ruslar yenə itki verməli oldular. Onlardan 8 nəfər öldü, 15 nəfər isə yaralandı (89).

Açıq sahədə düşərgə salmağın çox təhlükəli olduğunu və günü-gündən itkilərin sayının artdığını görən Sisianov nəhayət ki, başqa bir mövqeyə hərəkət etməli oldu. Şəxsi heyətin su ilə təminatında olan çətinliklər də rus qüvvələrini başqa bir yerə hərəkət etməyə məcbur etdi. Sisianov gündəlik qeydlərində yazırdı ki, artıq o, Eçmiədzin monastırına girməkdən vaz keçdi. Çünki monastırda və onun ətrafındakı bağlarda Abbas Mirzə qoşunlarının mövqe tutması rus qoşunları üçün böyük təhlükədir. Sisianov qeyd edirdi ki, o, monastırı tuta bilərdi. Ancaq hücumun gedişində ən azı 100 nəfər itirə bilərdi ki, bunu da arzulamırdı.

Bütünlükdə, Sisianov döyüşlərdə hərbi təşəbbüsü ələ ala bilmədi. Qarşıya qoyduğu ilkin planlardan birinə, Eçmiədzinin işğal edilməsinə nail ola bilmədi. Bunu o özü də etiraf etməli oldu.

Sisianovun qoşunları ilə Eçmiədzin qalasını tutmadan ondan yan keçməsi İrəvan xanı Məhəmməd xanın siyasi mövqeyində müəyyən dəyişiklik yaranmasına səbəb oldu. Xanlığın müstəqilliyini qoruyub saxlamaq və yenidən Qacarlar hakimiyyəti altına düşməmək üçün Məhəmməd xan İrəvan qalasının təhvil verilməməsi şərti ilə rus qüvvələri ilə əməkdaşlıq etmək meylini Sisianova çatdırdı. Sisianovun isə fərqli şərtlər irəli sürməsi və eyni zamanda Eçmiədzin ətrafında elə ilk ciddi döyüşdə rus qüvvələrinin öz məqsədinə nail olmadan döyüş meydanından uzaqlaşması görünür Məhəmməd xan ıtrafında güclü qüvvə olmadığına əminlik yaratdı. Digər döyüşlərdə də Sisianovun məğlub olacağı təqdirdə Məhəmməd xan Abbas Mirzənin qalib qüvvələri ilə üzbəüz qalmalı olacaqdı. Sisianovun qüvvələrinə qalib gəlmiş Abbas Mirzə qüvvələrinə qarşı isə Məhəmməd xanın təkbaşına müqavimət göstərəcəyi inandırıcı deyildi.

Məhəmməd xan belə bir qənaətə vaxtından əvvəl gəlsə də, hər halda Abbas Mirzə ilə barışmağı və Qacarlar hakimiyyətinin himayəsini qəbul etməyi lazım bildi. Bununla bağlı Məhəmməd xan yaxınlarından sayılan Əliqulu xan adlı birisi ilə yaranmış vəziyyəti müzakirə etdi, hansı addımların atılmasının zəruriliyi ilə bağlı məsləhətləşmə apardı. Ümumi qərar belə oldu ki, Abbas Mirzənin yanına nümayəndə göndərilsin. Əliqulu xan hətta onu da təklif etdi ki, Məhəmməd xanın nümayəndəsi ilkin olaraq vəzir Mirzə Şəfi ilə görüşsün, məsələnin mümkünlüyünü onunla araşdırsın və sonra Abbas Mirzə ilə əlaqə qurulsun. Məhəmməd xan bu fikri qəbul etdi və onun icrasını da elə Əliqulu xana həvalə etdi. Belə bir tapşırığı alan

Əliqulu xan libasını dəyişib kəndçi paltarı geyindi və gecəliklə yola çıxdı. Bu vaxt vəzir Mirzə Şəfi hələ də Abbas Mirzənin əsas düşərgəsinin mühafizəsinə rəhbərlik edirdi. Onun yanında xidmət edən tanışlarının birinin vasitəsilə Əliqulu xan Mirzə Şəfi ilə görüşə bildi. Əliqulu xan ona Məhəmməd xanın Abbas Mirzə ilə barışmağa və Qacarlar hakimiyyətini qəbul etməyə hazır olduğunu bildirdi (90).

Mirzə Şəfi məsələnin doğru olub-olmadığını yoxlamaq üçün saray mirzəsi Mirzə Məhəmməd Sadıq Vəqayeneqarı Əliqulu xanla bilikdə İrəvan qalasına göndərdi. Qeyd etmək lazımdır ki, "Ahəngsürüş" ləqəbli Mirzə Məhəmməd Sadıq yazdığı qeydlərində bu məsələyə də toxunmuşdur. O, İrəvan qalasına gəldikdən sonra Məhəmməd xanın doğrudan da Abbas Mirzə ilə barışmağa hazır olduğuna əmin oldu və Məhəmməd xandan yazılı iltizam alıb geri qayıtdı (91).

Digər bir mənbənin verdiyi məlumata görə isə Məhəmməd xan böyük oğlu olan Hüseynəli xanı Qacarlar sarayına girov verməklə bərabər, Abbas Mirzəyə də çoxlu qiymətli hədiyyələr göndərdi (92).

Mirzə Şəfi vəziyyəti aydınlaşdırandan sonra məsələni Abbas Mirzəyə çatdırdı və onu Məhəmməd xanı əfv etməyə razı saldı. Abbas Mirzə Məhəmməd xanın əfv olunması ilə bağlı sənəd imzaladı və həmin sənəd Mirzə Məhəmməd Sadıq Vəqayeneqar vasitəsilə Məhəmməd xana göndərildi. Mənbələrdə Məhəmməd xanın yanında rusların olmasından da söz açılır. Hətta bu mənbələrə görə, Məhəmməd xan Abbas Mirzə ilə barışıq niyyətini açıqlayanda ortaya belə bir məsələ çıxdı ki, qaladakı ruslar necə olsun? Mirzə Məhəmməd Sadıq hadisələrin şahidi kimi bu rusların olmasını təsdiq edir və Abbas Mirzənin Məhəmməd xana göndərdiyi məktubunda da bu ruslarla qonaq kimi davranmasını istədiyi bildirilir (93).

Mənbələrdə olan məlumatların məzmunundan belə bir qənaətə gəlmək olar ki, həmin ruslar Sisianov tərəfindən göndərilmişdi ki, Məhəmməd xan İrəvan qalasını onlara təslim etsin. Farsdilli mənbələr əslində bu barədə qəti bir fikir söyləmirlər. Rus mənbələrindəki Sisianovun yazışmalarında isə Məhəmməd xanın təslimçiliyə sövq edilməsi ilə bağlı onun yanına rusların göndərilməsi barədə məlumatla rastlaşmaq mümkün deyil. Heç Məhəmməd xan da qalanın ruslara təhvil verilməsi fikrinə düşməmişdi ki, bununla bağlı rusları yanına qəbul etsin. Çox güman ki, İrəvan qalasında olan ruslar rus həkimi və onu müşayiət edən şəxslər idi. Yuxarıda qeyd edildiyi kimi, Məhəmməd xan xəstə oğlunun müalicəsi üçün Sisianovdan kömək istəmişdi. Sisianov da onun yanına həkim göndərmişdi. Mənbələrdə olan məlumatlardan aydındır ki, Məhəmməd xan rus həkimini vaxtında geri buraxmadı. Hətta Sisianov da məktublarının birində artıq neçə ay idi ki, İrəvan qalasında olan rus həkiminin geri qaytarılmasını Məhəmməd xandan xahiş etdi (94).

Ola bilər ki, Mirzə Məhəmməd Sadıq saray vəziri Mirzə Şəfi tərəfindən İrəvan qalasına göndəriləndə qarşılaşdığı ruslar məhz həmin həkim və onu müşayiət edən şəxslər idi.

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın şəhadətinə görə, Abbas Mirzə ilə barışıq İrəvan qalasında xüsusi olaraq qeyd edildi. Əhali şadlıq təbili çaldı və toplardan bir neçə atəş açıldı. Abbas Mirzənin əmrinə əsasən, bu münasibətlə onun düşərgəsində də təbillər çalındı. Müəllifin yazdığına görə, Eçmiədzin döyüşlərindən sonra Abbas Mirzə düşərgəsinin yerini dəyişməklə qoşunlara da istirahət verdi (95).

İyunun 25-də rus qoşunları İrəvana doğru hərəkətə başladılar. Şah və xan qoşunlarının hücumundan qorxaraq Sisianov qüvvələrinə qeyri—adi bir düzülüşdə hərəkət etmək əmri verdi. Karelər istirahət vaxtı necə dayanmışdılarsa elə də hərəkət etməli idilər. Bu karelərə məxsus olan yük arabaları döyüşçülərin əhatəsində hərəkət etməli idi. Sisianovun fikrincə, belə hərəkət sayı 500-ə çatan yük arabalarının da mühafizəsini təmin etməli idi. Ancaq belə hərəkət çox yorucu olduğundan rus qoşunları tamamilə əldən düşdülər. Bir tərəfdən də susuzluq onların nəfəsini kəsdi. 10 saat ərzində qoşunlar cəmi 12 verst hərəkət edə bildilər. Şahidlərin fikrincə bu, tısbağanın hərəkətini andırırdı. Həmin üzücü marşdan sonra ruslar İrəvan qalasından 7 verst aralıda düşərgə saldılar. Şah qoşunlarının düşərgəsi isə onlardan 12 verst aralı idi (96).

Zəngi çayının kənarındakı yaşayış məntəqəsinin azad edilməsi üçün Sisianov polkovnik Sexanskinin komandirliyi altında 9-cu yeger alayını irəli çıxardı. Bu alayın gözlənilməz istiqamətlərdən hücuma keçməsi Abbas Mirzə süvarilərini çətin vəziyyətə saldı. Onlar iki ədəd zənburəki də döyüş meydanında ataraq geri çəkilməli oldular. Güman edilir ki, Abbas Mirzə sürətlə geri çəkilməklə Arazı da adlamaq istəyirmiş. Rus tarixçilərinə görə Məhəmməd xan öz nümayəndəsini Abbas Mirzənin yanına göndərdi və xahiş etdi ki, İrəvan qalasını rus qoşunları qarşısında müdafiəsiz qoymasın. Guya Abbas Mirzə də bu xahişi qəbul etdi və İrəvan qalasından üç mil aralı düşərgə saldı (98).

Sisianovun gündəliyində iyunun 25-də olan marşın və döyüşlərin itkisiz keçdiyini yazsa da həqiqətdə onun qoşunlarından 12 nəfər ölən və 20 nəfər yaralanan var idi (99).

Sonrakı bir neçə gün ərzində Sisianov düşərgənin salınması və onun müdafiəsinin təşkili ilə məşğul oldu. Onun burada mövqe tutmasının əsas məqsədi İrəvan qalasını mühasirəyə almaq idi. Lakin Abbas Mirzənin qoşunlarının yaxınlıqda yerləşməsi onu ciddi narahat edirdi. Həmin qoşunları uzaqlaşdırmadan Sisianov bütün qüvvəsi ilə İrəvana güclü zərbə

vura bilməyəcəkdi. Ona görə də Sisianov düşərgəni qorumaqla bərabər, şah qüvvələrinə hücum etmək planları üzərində düşünürdü.

İyun ayının 26-da Sisianov Məhəmməd xana növbəti məktub göndərdi. Yenə də hədə-qorxu ilə dolu olan bu məktubda rus generalı yazırdı ki, məndən kömək almaq barədə dəfələrlə xahiş etməyinizə baxmayaraq, qaladan rus qoşunlarına atəş açılması məni xeyli qəzəbləndirmişdir, artıq yazışmaya heç bir ehtiyac yoxdur və konkret fəaliyyətin vaxtı çatmışdır: "Ancaq Avropa adətinə görə şəhərə hücum etməzdən əvvəl onun təslim olmasını təklif etməliyəm. Əgər bu gün axşam bu məktuba müsbət və qəti cavab almasam onda Allah və süngülər onu mənə çatdıracaqdır " (100).

Sisianova görə, yüz Babaxan olsa belə artıq heç kəs İrəvanı qoruya bilməyəcəkdi və onun yaxın günlərdə süqut edəcəyi labüd idi.

İyun ayının 28-də bir erməni keşişi xəbər verdi ki, şah qüvvələri Eçmiədzin monastırını tərk ediblər və orada müəyyən qədər azuqə vardır. Bu xəbərdən Sisianov xeyli xoşhal oldu və dərhal iki bölüyə əmr etdi ki, monastırı tutsunlar. Onlar da müqavimətsiz monastıra daxil oldular. Burada müəyyən qədər azuqənin ələ keçirilməsi Sisianovu xüsusilə sevindirdi. Çünki yemin azlığı üzündən atlar əziyyət çəkirdi. Vəziyyətdən çıxmaq üçün rus döyüşçüləri ağacların xəzəllərini yığıb atlara verirdilər. İyun ayının 29-da yem ardınca gedən belə bir dəstə şah qüvvələrinin mühasirəsinə düşüb tamamilə məhv oldu. Sisianovun yazdığına görə 4 nəfər öldürülmüş və iki nəfər də əsir götürülmüşdü. Başqa məlumatlara görə, isə həmin döyüşdə 15 rus əsgəri öldürülmüşdü (101).

İyun ayının 29-da Sisianov hücuma hazırlaşmaq barədə göstəriş verdi. Arabalarla bərabər, xəstələr və zəiflər düşərgədə saxlanıldı və onların mühafizəsi üçün bir tabor ayrıldı.

Elə həmin gün xan qüvvələri podpolkovnik Matveyevin komandirliyi altında olan Narv draqun alayı üzərinə hücuma keçdi. Xan süvariləri kifayət qədər çeviklik nümayiş etdirərək ruslara ağır zərbə vurdular və nəticədə ruslar 6 nəfər itki verdilər (102).

İyunun 30-da həyata keçiriləm hücumla Sisianov, Abbas Mirzənin əsas qüvvələrini İrəvan ətrafından uzaqlaşdırmaq istəyirdi. Yalnız buna nail olduğu təqdirdə Sisianov İrəvan qalası üzərinə səmərəli hücum təşkil edə bilərdi. Əks təqdirdə, yəni, Abbas Mirzə qüvvələrini uzaqlaşdırmadan İrəvan qalası üzərinə hücuma keçmək Sisianovu təhlükəli vəziyyətə sala bilərdi.

İyun ayının 30-na keçən gecə saat 2-yə yaxın Sisianov Zəngi çayını keçmək barədə əmr verdi. Qoşunlar 4 kareyə bölündülər. Qarşıda hücum edən kareni 9-cu yeger alayının iki taboru təşkil edirdi. Bu kareyə polkovnik Sexanski rəhbərlik edirdi. İkinci kare general-mayor Portnyaginə həvalə

olunmuşdu. Bu kareyə Qafqaz qrenadyor alayının bir taboru, Saratov muşketyor alayının bir taboru, draqunlar, kazaklar və gürcülər daxil idi. General-mayor Tuçkovun karesi Qafqaz qrenadyor alayının iki taborundan və nəhayət general-mayor Leontyevin karesi isə Tiflis alayının iki taborundan ibarət idi (103).

Rusların hərəkəti zamanı İrəvan qalası sol tərəfdə qaldı və tarixçilərin yazdığına görə, səhər tezdən qala əhli divarlar üzərinə qalxaraq qoşunların hərəkətini izləyirdi. Sisianovun qeydlərinə görə, qaladan xan süvarilərinin bir dəstəsi də çıxaraq rus qoşunları üzərinə hücuma keçdi. Lakin bu süvarilər rus qüvvələrinə ciddi bir itki verə bilmədən geri qayıtdılar.

Təxminən 5 verst hərəkət etdikdən sonra rus qüvvələri enli bir dərəyə daxil oldular. Şah qüvvələri yaxınlıqda görünməsələr də general Sisianov yeger alayına əmr etdi ki, onlar öz təchizatını arxadan gələnlərə təhvil verib yüksəkliklərə qalxsınlar və əsas dəstənin mühafizəsini təmin etsinlər (104).

Yeger alayı bölünərək hərəkət istiqamətində hər iki tərəfdəki yüksəkliklərə qalxdı və Sisianovun yazdığına görə onlar 5 dəfə şah və xan qüvvələri ilə döyüşə girdilər və hər dəfə onları geri çəkilməyə məcbur etdilər (105).

Xan qüvvələri sağ cinahdakı yüksəkliklərdə yerləşdirdikləri zənburəklərdən atəş açmağa cəhd göstərsələr də bu bir nəticə vermədi. Bununla belə xan süvariləri kifayət qədər fəallıq göstərdilər. Yaranmış təhlükəni sovuşdurmaq üçün Sisianov general Tuçkovun bir taborunu xan atlılarına qarşı göndərdi. Bunu görən xan atlıları ciddi döyüşə girməkdən çəkindilər (106).

Beləliklə, rus qoşunlarının əsas dəstəsi ciddi bir çətinliklə qarşılaşmadan xeyli irəliləyə bildi. Yalnız dərənin son hissəsi müəyyən çətinlik yaratdı. Çünki orada yol xeyli dar, dağlar isə hündür idi.

Sərt qayaların üstündə mövqe tutan şah qüvvələri hər vasitə ilə rusların hərəkətinə maneçilik yaradırdılar. Belə olanda Sisianov polkovnik Kozlovskiyə əmr verdi ki, Qafqaz qrenadyor alayının bir taboru ilə dağa qalxıb oradan şah qüvvələrini uzaqlaşdırsın. Şah qoşunlarının qərar tutduğu qayalar o qədər sərt və hündür idi ki, onlar rusların qalxa biləcəyini güman etmirdilər. Ona görə də çətinliklə ora qalxan rus döyüşçülərinin arxadan zərbə vurduğunu görəndə şah qüvvələri vahiməyə düşüb 3 verst aralıda yerləşən düşərgəyə doğru üz tutdular (107).

Bir sözlə, Abbas Mirzənin qüvvələri Eçmiədzin döyüşündə göstərdikləri fəallıq və çeviklikdən uzaq bir fəaliyyət nümayiş etdirdilər. Onların daha çox coğrafi şəraitdən yararlanmaqla hücumları qurmaq cəhdi bir nəticə vermədi.

Rus qoşunlarını izləyən dəstələrin qaçdığını görən düşərgədəki şah qüvvələri də tələsik geri çəkilməyə başladılar. Düşərgənin müdafiəsinə heç bir cəhd göstərməyən şah qüvvələri hətta silah və əşyalarının da bir hissəsini

orada qoyaraq Araza tərəf geri çəkildilər. Ruslar burada 7 ədəd kiçik çaplı top, 4 ədəd bayraq, 100 pud barıt və s. ələ keçirdilər (108).

Döyüşün gedişində ruslar da itki verdilər. Bir mənbədə rus itkilərin sayının 6 ölüdən və 15 yaralıdan ibarət olduğu göstərilir. Sisianov isə gündəliyində 1 nəfərin öldüyünü, 36 nəfərin də yaralandığını qeyd edir (109).

Başlıcası isə rus qoşunları şah qüvvələrinə güclü mənəvi-psixoloji zərbə vuraraq onları Arazın cənubuna keçməyə məcbur etdilər. Abbas Mirzə bununla anladı ki, malik olduğu qüvvələrlə rus qoşunlarına qarşı bərabər mübarizə aparmaq mümkün deyil. Bununla, Məhəmməd xan da Abbas Mirzədən ala biləcəyi yardımdan məhrum oldu. O, rus qoşunları qarşısında tək qaldı və heç bir yandan kömək almadan rus qoşunları qarşısında İrəvan qalasını qorumalı oldu. Sisianovun ciddi təhlükə törətməsinə baxmayaraq, Məhəmməd xan qalanı ruslara təslim etmək niyyətində deyildi. Baxmayaraq ki, farsdilli mənbələr Məhəmməd xanın İrəvan qalasının təslim edilməsi ilə bağlı Sisianovla sövdələşməyə girdiyini yazırlar, bununla belə Məhəmməd xan döyüş meydanında Sisianovla təkbətək qalanda belə qalanı ona təslim etmədi.

Abbas Mirzə qüvvələrinin rus qüvvələri ilə ciddi bir döyüşə girmədən geri çəkilməsi haqqında da farsdilli mənbələrdə və ədəbiyyatda fərqli məlumatlar vardır. Bu mənbələrdən birində bildirilir ki, Eçmiədzin ətrafında uğur qazana bilməməsi Sisianovu çox qəzəbləndirdi. Abbas Mirzə qüvvələrinə öz gücünü göstərmək, Məhəmməd xanın qalanı təslim etməməsinin əvəzini çıxmaq üçün Sisianov Eçmiədzin yaxınlığındakı düşərgəsindən hərəkət etdi. Bu zaman Abbas Mirzənin öz qoşunlarına istirahət verdiyi iddia olunur. Hətta atlar da yaxınlıqdakı otlaqlara buraxılıbmış. Sisianovun qüvvələrinin gözlənilmədən hücum etməsi Abbas Mirzə qüvvələrini çaş-baş salır. Rus toplarından açılan aramsız atəşlər şah qüvvələrinin vəziyyətini xüsisilə çətinləşdirir. Belə olanda Abbas Mirzə sərkərdələri mümkün olan vasitələrdən istifadə etməklə rusların qarşısını kəsməyə çalışdılar. Lakin heç bir nəticə hasil olmadı. Abbas Mirzənin qüvvələri zərbə aldılar və geri çəkilmək məcburiyyətində qaldılar. Mənbədə rusların bu hücumunun gecə vaxtı həyata keçirildiyi bildirilir (110).

Başqa bir mənbədə Abbas Mirzə qüvvələrinə qoşulmayan Qazax və Şəmşəddil atlılarının rus qüvvələrinin qəfil hücumu zamanı talanlara başlaması və bunun da qoşunlar arasında çaxnaşmaya səbəb olması bildirilir. İddia olunur ki, bu atlıların nizamdan çıxması bütün qüvvələr arasında çaş-başlıq yaranmasına səbəb oldu (111).

Abbas Mirzənin düşərgəsində olan Mirzə Məmməd Sadıq Vəqayeneqar da Abbas Mirzə qüvvələrinin uğursuzluğunu qoşun sərkərdələrinin və

rəhbərlərinin laqeydliyində axtarırdı. Qeyd edildiyi kimi, Eçmiədzin döyüşündən sonra Abbas Mirzə öz düşərgəsini Qırxbulağa dəyişdirdi. Adı çəkilən müəllifin əsərində bildirilir ki, Abbas Mirzənin qoşun rəhbərləri bir neçə günlüyə tam istirahət etməyi qərara aldılar və bu zaman hətta rus qüvvələrinin yerdəyişmələrini izləmək belə yaddan çıxdı. Döyüşçülər silahlarını kənara qoyub sərbəstləşdilər, atları isə otlaqlara buraxdılar. Bir daha qeyd olunmalıdır ki, rus mənbələrinin məlumatları və Sisianovun itkilər verməsi heç də bu məlumatları tam təsdiqləmir. Bununla belə iddia olunur ki, qoşun rəhbərliyi və sərkərdələr qəflətə uydular. Çünki onlar rus qüvvələrinin məğlub olduqlarını və tezliklə özünə gələ bilməyəcəyini güman edirmişlər. Onların laqeydliyi o yerə çatdı ki, tabe dəstələrin daxilində olan vəziyyətdən də bixəbər qaldılar və düşərgənin ətrafına mühafizə qoymaq da yaddan çıxdı. Şadlıq-şadyanalıq qoşunları bürüdü və ehtiyat tədbirləri əldən verildi.

Mirzə Məhəmməd Sadıq Vəqayeneqarın yazdığına görə, Abbas Mirzənin qoşunlarında sayı 2 mindən çox olan erməni və assurlar da var idi ki, onlar Gürcüstan ərazisindən toplanmışdılar. Bu insanlar Abbas Mirzənin qoşunlarına qoşulmağa razı olsalar da onun planlarını bölüşmürdülər və Abbas Mirzə qüvvələrinə gizli zərbə vurmaq üçün məqam gözləyirdilər. Qoşun rəhbərlərinin və sərkərdələrinin laqeydliyi və ehtiyatı əldən vermələri ermənilərin və assurların daha da fəallaşmasına səbəb oldu. Rus qüvvələrinin yaxında olması isə onların xəyanət şansını daha da artırdı. Bu iki qrupun başçıları gizli olaraq Sisianovun yanına qasid göndərdilər və Abbas Mirzə qoşunlarındakı vəziyyət barəsində ona məlumat verdilər. Bundan sonra da Sisianov Abbas Mirzə qüvvələri üzərinə qəfil hücum etmək barəsində əmr verdi. Erməni və assurlar Sisianova söz verdilər ki, bu hücum zamanı ona yaxından kömək göstərəcəklər. Qasidlərin xəbər çatdırmasından bir gün sonra, gecə yarısına qəfil hücum təyin edildi. Rus qüvvələri uzun bir dərə ilə yol keçərək gecə yarı Abbas Mirzənin düşərgəsinə hücum etdilər. Onlar bir istiqamətdə topları yerləşdirdilər, bir istiqamətdən süvariləri, başqa bir istiqamətdən isə piyadaları irəli buraxdılar. Hər hansı müdafiə və mühafizə ilə rastlaşmayan ruslar asanlıqla Abbas Mirzə qüvvələrinə zərbə endirmək imkanı əldə etdilər. Xüsusilə, rusların yaxınlıqdakı yüksəkliklərdən birində yerləşdirdikləri toplar döyüş meydanını nəzarət altına almağa imkan verdi. Mənbənin məlumatına görə, Abbas Mirzə səs-küyə çadırdan çıxıb müdafiə əmri versə də qoşunlar döyüş etmək vəziyyətində deyildi və belə olanda yalnız geri çəkilmək məcburiyyəti yarandı. Nəticədə tərk edilmiş Abbas Mirzə düşərgəsi rus qüvvələrinin əlinə keçdi. Abbas Mirzənin qüvvələri isə geri çəkilərək Sədərək ətrafında düşərgə saldı. Sisianov bu qəfil hücumun uğurundan ilhamlanaraq İrəvan qalasını mühasirəyə aldı (112).

Sisianova elə gəlirdi ki, İrəvana doğru hərəkət zamanı Abbas Mirzə qüvvələrinə ciddi zərbə vurulmuşdur və şah qüvvələri daha ona müqavimət göstərə bilməz. Ona görə də o birbaşa İrəvana doğru irəliləmək və tezliklə İrəvanı ələ keçirmək niyyətində idi. Lakin ağır marşın və döyüşün yorğunluğu qoşunları əldən saldı. Ona görə Sisianov qoşunlara bir günlük istirahət verdi. Həmin gün rus düşərgəsinə ətrafda yaşayan ermənilər gəldilər və onlar rusların uğuruna sevincini ifadə etməklə İrəvan qüvvələri barəsində bildikləri məlumatları da ruslara çatdırdılar (113).

Bir günlük istirahətdən sonra, iyulun 2-də Sisianov Qarabulax çayı ətrafındakı düşərgədən İrəvan qalasına doğru hərəkət əmri verdi. Bütün qüvvələr dörd sıralı sütunda hərəkətə başladı və 6 verst yol qət etdikdən sonra İrəvan ətrafına gəlib çıxdılar. Qoşunların İrəvana yaxınlaşması zamanı qaladan onlara sarı bir neçə top atəşi açıldı. Lakin bu atəşlərin bir səmərəsi olmadı (114).

Qoşunların parkı, təchizatı və Simanoviçin Qafqaz qrenadyor alayının bir taboru şəhərin şimal hissəsində yerləşdirildi. Burada şəhər bazarı, məscid və karvansara var idi. Bir qədər solda, xan bağının qarşısında general Portnyaginlə Saratov alayının bir taboru düşərgə saldı. İrəvanın şərqində isə general Tuçkovla bərabər Qafqaz qrenadyor alayının iki taboru mövqe tutdu. Onların solunda isə general Leontyevlə Tiflis alayı dayanmışdı. İrəvan qalasının sol tərəfi Zəngi çayına sığınırdı. Ona görə burada qalaya müstəqim təmasda qüvvə yerləşdirmək mümkün deyildi. Onda 9-cu yeger alayına tapşırıq verildi ki, çayın qarşı sahilində olan geniş bağ ərazilərində mövqe tutsun və qalanın müşahidəsini aparsın. Qalanın aşağı hissəsinin tam mühasirəsinin qurulması üçün artıq qüvvə yox idi. Ona görə qərara alındı ki, qalanın aşağı hissəsində səngər qurulsun və həmin səngərdən müşahidə aparılsın. Bu səngərə Saratov alayının iki bölüyü yerləşdirildi. Həmin bölüklərə mayor Nolde rəhbərlik edirdi. Bu səngərlə Tiflis alayı arasında əlaqə yaradılması üçün Müxəllət təpəsində 40 nəfərdən ibarət bir qrup yerləşdirildi (115).

Mənbələrdə olan məlumatlara görə, şəhər məscidində, karvansara və məsciddə İrəvan xanının az saylı qüvvələri mövqe tutmuşdular. Onlar müqavimət göstərmək istəsələr də rusların qarşısını saxlaya bilməyib geri çəkilməyə məcbur oldular. Hər halda mövcud olan faktlar İrəvanın mühasirəsinin müqavimətsiz olmadığını göstərir. Sisianovun yazdığına görə, İrəvan qalasının mühasirəsi zamanı ruslardan 3 nəfər öldü və 8 nəfər isə yaralandı. Mühasirəyə başlanandan 3 saat sonra rus qoşunları qaladan top atəşi məsafəsində olan bayır şəhəri tamamilə ələ keçirdilər. Sisianov şəhər kənarında olan xan bağına yollandı. Onun qərargahı isə şəhər məscidində yerləşdirildi (116).

Bununla da Məhəmməd xanla rus qoşunlarının qarşıdurması real hərbi xarakter aldı. Məhəmməd xan hələ də Sisianovla əməkdaşlığa, qalanı təhvil vermədən onunla dil tapmağa ümid edirdi. Başqa sözlə, rus qoşunlarının böyük təhlükəsi qarşısında belə Məhəmməd xan qalanın təhvil verilməsinin mümkünlüyünü qəbul etmirdi.

İyulun 2-də, İrəvan qalasının mühasirə edildiyi gündə Məhəmməd xan yenidən məktubla Sisianova müraciət etdi. Və onu təcavüz yolundan çəkindirməyə çalışdı. O yazırdı ki, sakit və təhlükəsiz həyatın təmin edilməsi naminə hələ çoxdan Rusiyanın himayəsindən bəhrələnməyə çalışmışdı. Bunun üçün 1797-ci ildə öz nümayəndəsini Gürcüstandakı rus qoşunları baş komandanının yanına göndərmiş, amma ondan bir cavab almamışdı. Bundan bərk qəzəblənən Ağa Məhəmməd şah Məhəmməd xanı ciddi cəzalandırmaq istəyirmiş. Lakin şah sarayının əyanlarının təkidli xahişi Məhəmməd xanı ciddi cəzadan xilas etmişdi (117).

Məhəmməd xan yazırdı ki, Kəlbəli xan gözlərini itirib və onların hər ikisinin xanımları və uşaqları, habelə qohumları şahın yanında girovdurlar. Bununla o bildirmək istəyirdi ki, Rusiya himayəsinə tapınmaq istədikləri üçün belə çətinliklərə dözməli olublar. Ona görə Məhəmməd xan Sisianovdan xahiş edirdi ki, şəhərin dağıntılara məruz qalmasına razı olmasın, onun əvvəlki görkəmini özünə qaytarsın. İrəvan xanı yalnız şah qoşunlarından müdafiə olunmaqda kömək göstərilməsini xahiş edirdi. Əvəzində isə Rusiya sarayına xidmət etməyə hazır olduğunu bildirirdi. Məhəmməd xan hətta rus qoşunlarının qalaya buraxılmasına da razı olduğunu bildirirdi. Onun fikrincə, isti havalar rus hərbçilərinə pis təsir göstərə bilərdi. Məhəmməd xan Sisianova xəbərdarlıq edərək onu da qeyd edirdi ki, Fətəli şah böyük sayda qoşunlarla heç şübhəsiz ki, oraya gələcəkdi. Bu zaman az saylı rus qoşunları onların qarşısını saxlaya bilməyəcək və çox saylı itkilərlə qarşılaşmalı olacaqdı.

Məhəmməd xan sonra inandırmağa çalışırdı ki, qaladan rus qoşunlarına atəş açılması anlaşılmazlıqdır. Onun sözlərinə görə bu atəşin açılmasından o özü də narahatçılıq keçirir və ehtiyat edir ki, bu atəşlər rus qoşunları baş komandanın ona qarşı inamına xələl gətirmiş olsun. İrəvan xanı bildirirdi ki, əslində rus qoşunları yaxınlaşanda o, Sisianovu qarşılamağa çıxmalı idi. Lakin bəzi səbəblərə görə bunu etmək mümkün olmadı. Onda Məhəmməd xan ona qarşı göstərilən etimadsızlığın səbəblərinin açıqlanmasını da xahiş edirdi (118).

Görünür, Sisianov bu zaman hələ də İrəvan qalasını müqavimətsiz ala biləcəyinə ümid edirdi və ona görə bir də Məhəmməd xanın məktubuna cavab yazdı. İyulun 3-də yazılmış bu məktubda Sisianov Məhəmməd xana olan inamsızlığının səbəblərini açıqladı. Sisianov qeyd edirdi ki, uğurlu

yürüşlərini təbrik etmək üçün onun yanına nümayəndə heyətinin göndərilməsinə hansısa səbəblərin mane olması əslində Məhəmməd xana heç bir fayda gətirmir. Əksinə, bu laqeydliyin əvəzində ruslar İrəvan xanlığının çoxlu döyüşçüsünü məhv etdilər. Sisianova görə əgər rus qoşunlarına qarşı atəş açılması Məhəmməd xandan xəbərsiz baş vermişdisə, onda öz tabeliyində olanları idarə edə bilməyən bir xanın Rusiya imperatorunun himayəsini axtarması şübhə yaradır. Sisianov yazırdı ki, 1)Məhəmməd xan Rusiya imperatorunun himayəsini axtarsa da, Danilin patriarx kürsüsünə gətirilməsi haqqındakı əmri bir ildir ki, yerinə yetirilməmişdir; 2) Fətəli şahın qoşunlarından qorunması üçün Sisianovdan kömək göstərilməsini xahiş etsə də, Abbas Mirzə qoşunları uğursuzluğa düçar olub geri qaçanda Məhəmməd xan onların ardınca öz nümayəndəsini göndərdi, onlara çoxlu hədiyyələr bağışladı və yenidən geri qayıdaraq rus qoşunları ilə döyüşə girmələrini xahiş etdi. Sisianov da öz növbəsində Məhəmməd xanı xəbərdar edirdi ki, danışmaqdan daha çox konkret iş görməyi sevir. Sonra əlavə edirdi ki, xanın sözlərini başa düşmək mümkün deyil. Çünki bir tərəfdən İrəvan xanı rus qoşunları komandanından aman diləyir, amma digər tərəfdən də onun adamları rus qoşunlarına atəş açırlar. Sisianov məktubunun sonunda Məhəmməd xandan son cavab verilməsini tələb etdi. Sisianov eyni zamanda tələb etdi ki, bir gün ərzində ona aşağıdakı suallara cavab verilsin: Məhəmməd xan İrəvan qalasını təhvil vermək istəyirmi? Məhəmməd xan rus qoşunlarının iradəsini qəbul etmək istəyirmi (119) ?

Elə həmin gün, yəni iyulun 3-də Sisianov 400 nəfərlik bir dəstəni Qırxbulaq çayının yaxınlığında qalmış arabaların arxasınca göndərdi. Qalanın ətrafında qalan qüvvələr isə qoşun dəstələrinin və topların yerləşdirilməsi, mövqelərin möhkəmləndirilməsi ilə məşğul oldular. Müxtəlif istiqamətlərdə yerləşdirilmiş qüvvələrin komandirləri müdafiə mövqelərinin seçilməsini özləri müəyyənləşdirirdilər. Gün ərzində İrəvan qalasının müşahidəsi və öyrənilməsi həyata keçirildi. Elə həmin gün də qalanın top atəşinə tutulmasına başlandı. Mövcud olam məlumatlara görə, hər topdan 10 ədəd bomba qalaya tərəf atıldı. Qalanın bombardman edilməsində 4 ədəd yarımpudluq bomba atan, 4 ədəd dörddə bir pudluq bomba atan, 4 ədəd 3 funtluq bomba atan, habelə 12 funtluq bomba atan toplar iştirak edirdilər. Amma şahidlər İrəvan qalasının divarlarının kifayət qədər möhkəm olduğunu da bildirirdilər. Rus tarixçiləri anlayırdılar ki, adi top atəşləri ilə İrəvan qalasının divarlarını məhv etmək elə də asan deyil. Bu zaman İrəvan qalasının müdafiə topları da ruslara qarşı atəş açırdılar. Rus hərbçiləri qaladan onlara qarşı 20-22 topdan və 2-3 mortirdən atəş açıldığını müşahidə etmişdilər. Qalada zənburəklərdən də istifadə olunurdu. Xan

topları 3 funtdan tutmuş 40 funta qədər olan bombalar atırdılar. Mortirlərin atdığı bombalar isə 2-3 pud arasında idi (120).

İyul ayının 4-də İrəvan qalasının tam mühasirəsi başa çatdırıldı. Mühasirənin səmərəliliyini artırmaq üçün Sisianov qala ətrafında bəzi mövqelərin gücləndirilməsinə göstəriş verdi. Bunun nəticəsi kimi 9-cu yeger alayı Zəngi çayının sağ sahilinə keçərək qala ilə üzbəüz olan Yoncalı bağlarında, başqa bir dəstə isə qalanın ətrafında strateji yüksəklik olan Müxənnət təpəsində mövqe tutdu. Qala ətrafında və mövqelər arasında müstəqim və sərbəst təmasın qurulması üçün ərazi ağaclardan, görüntüyə mane olan tikililərdən təmizləndi. Hər mövqedə toplar yerləşdirildi və onlar döyüş hazırlığı vəziyyətinə gətirildi (121).

Ayın 3-də Məhəmməd xana məktub göndərəndən sonra Sisianov qalanın top atəşinə tutulmasını dayandırmaq barədə göstəriş verdi. Hər halda o, yenə ümid edirdi ki, son hədə-qorxulardan sonra Məhəmməd xan qorxuya düşəcək və qalanı təslim etməyə razı olacaqdır.

İyul ayının 4-də Sisianov Məhəmməd xandan yeni bir məktub aldı. Lakin bu məktub da onun ümidlərini doğrultmadı. Məhəmməd xan məktubunu Məhəmməd bəy adlı birisi ilə göndərmişdi. Abbas Mirzənin adamlarının əlinə keçə biləcəyindən qorxduğu üçün Məhəmməd xan məktubunu çox müxtəsər yazmış və əsas mətləbləri isə şifahi olaraq göndərmişdi. O öz məktubunda yazırdı: "Məlumdur ki, fars hakimlərinin təkrar tələbinə baxmayaraq mən İrəvanı qorudum və təslim etmədim. Borcumdur ki, dostcasına sizə bildirim: qaladan başqa nə əmr etsəniz yerinə yetirərəm" (122).

Məhəmməd xanın şifahi şəkildə göndərdiyi mətləblər isə aşağıdakılardan ibarət idi: 1) Xan bir daha təəssüfünü bildirirdi ki, rus qoşunlarının qarşılanması üçün lazım olanları edə bilmədi; 2) Heç kəs Məhəmməd xan kimi Rusiya imperatorunun himayəsini qazanmağa çalışmır; 3) İrəvan xanı vaxtilə Gürcüstan çarına 40 min gümüş pul xərac verirdi. Altı ildir ki, bu xərac verilmir. İndi xan altı illik xəracı ödəməyə hazır olduğunu bildirirdi; 4) Xan İrəvan qalasının təslim edilməsi ətrafında müzakirə aparılmasına razı idi və nəhayət 5) xan bir daha qaladan rus qoşunlarına atəş açılmasına görə üzr istəyirdi. Xan bildirirdi ki, şərqliləri hələ də sərbəstliyindən çəkindirməyə nail ola bilməmişdir (123).

Bütün bunları eşidəndən sonra Sisianov nəhayət anladı ki, qalanın Məhəmməd xan tərəfindən təhvil verilməsinə məktublarla və hədə-qorxularla nail ola bilməyəcəkdir. Buna görə də, o, Məhəmməd xanın məktubunu gətirən Məhəmməd bəyi söyüş və təhqirlərlə acıladı və eyni zamanda Məhəmməd xana da söyüşlərini göndərdi.

Məhəmməd xanın son məktubundan sonra Sisianov müharibəni İrəvan xanı ilə münasibətlərin müəyyənləşdirilməsinin əsas yolu kimi qəbul etdi. Onda əminlik yarandı ki, İrəvan qalasının ələ keçirilməsinin yeganə yolu hərbi yoldur. Abbas Mirzə qüvvələri üzərində uğur qazanması onda İrəvanı da tezliklə fəth edəcəyinə əminlik yaratmışdı. Qalada az saylı qoşun dəstəsinin olması, habelə Məhəmməd xanın yazışmaların davam etdirilməsinə meylli olması Sisianovda İrəvan xanlığının müdafiəsinin zəif olması gümanını yaratdı. Ona görə Sisianov tamamilə müharibə notlarına kökləndi.

Şahidlərin ifadəsinə görə də Sisianov Məhəmməd xanın son məktubundan sonra yalnız müharibə haqqında düşünməyə başladı. Onun bütün addımları və sözləri də artıq buna xidmət edirdi (124).

Sisianov Məhəmməd bəy vasitəsilə Məhəmməd xandan sonuncu dəfə tələb etdi ki, heç bir danışıqsız Danil və Davidi rus qoşunlarına təhvil versin, Eçmiədzin monastırından aparılmış sərvət geri qaytarılsın. Sisianov qalanın təhvil verilməsi ilə bağlı artıq hər hansı bir müzakirənin aparılmasına lüzum görmədi. Onun fikrincə, geri qaçan Abbas Mirzə qoşunlarına hədiyyələr göndərməklə dayandırmağa çalışan bir şəxslə danışıqlar aparılmasının artıq mənası yox idi. Bununla belə, Sisianov bir daha əlavə edirdi ki, söylədiklərinə İrəvan xanı müsbət cavab versə onda onun həyatına toxunmadan Rusiya imperiyasında asudə yaşamasına şərait yarada bilər. Məhəmməd xanın cavabının müəyyənləşdirilməsi üçün isə Sisianov cəmi iki saat möhlət verdi. Xan elçisi iki saatın az olduğunu, iki saat ərzində onun heç qalaya yetişə bilməyəcəyini söylədi. Ona görə o, Sisianovdan möhlətin uzadılmasını xahiş etdi (125).

Sisianov öz gündəliyində qeyd edirdi ki, İrəvan xanından qəti və təcili cavab tələb etsə də onun nümayəndəsinin bir gün möhlət verilməsi xahişini qəbul etdi. Rus generalı bunu onunla əlaqələndirirdi ki, qoşunların təchizat arabalarının heç də hamısı İrəvan ətrafına gəlib çıxmamışdı. Onların gəlməsi bir gün sonraya gözlənilirdi. Generalın sözlərinə görə bu arabalar yetişmədən İrəvanın tam mühasirəsini də əldə etmək mümkün deyildi. Bununla belə, Sisianov qalanın atəşə tutulmasını davam etdirməkdə israrlı idi. O güman edirdi ki, İrəvan qalasını aramsız top atəşləri altında saxlanması qala əhalisini qorxudacaq və onlar özlərini xilas etmək üçün Məhəmməd xanı tutub Sisianova təhvil verəcəklər. Belə bir gümanı ona qala ilə əlaqəsi olan ermənilər çatdırmışdılar. Ermənilərin söylədiklərinə əsasən, qala əhalisinin narahatçılığı artmışdı. Xüsusən, qalaya gələn su mənbələrinin kəsilməsi əhalinin təşvişini xeyli gücləndirmişdi (126).

Məhəmməd bəyin geri qayıtması ilə Sisianovdan gətirilən ismarıc Məhəmməd xana çatdırıldı. Deyilənlər xan sarayında götür-qoy edildi və aydınlaşdırıldı ki, artıq belə yazışmalarla Sisianovun yola gətirilməsi və ya

vaxt udulmasına çalışılması əbəsdir. Sisianovun təcavüzü qarşısında yaxşı müdafiə olunmaqla İrəvan qalasının toxunulmazlığını təmin etmək olardı.

Məlumatların olmaması üzündən qala daxilində hansı tədbirlərin kimlər tərəfindən həyata keçirildiyi, hansı vasitələrə əl atıldığı barəsində fikir söyləmək çətindir. Məhəmməd xanın qarşısında dayanan başlıca vəzifələrdən biri də heç şübhəsiz ki, qala əhalisinin qalanın müdafiəsinə səfərbər edilməsi idi. O buna da nail oldu və Sisianovun gümanlarının əksinə olaraq, qala əhalisi daxilində parçalanma və ya Məhəmməd xana qarşı cəbhələşmə baş vermədi.

Məhəmməd xan özü üçün fəal müdafiə planını seçdi. O qalaya çəkilib yalnız Sisianovun hücumlarına cavab verməklə kifayətlənməyi qəbul etmirdi. Məhəmməd xan imkan yarandıqca öz dəstələrinin rus qüvvələrinin mövqeləri üzərinə hücumlarını da təşkil edirdi.

Məhəmməd xandan gözlədiyi cavabı almayan Sisianovun əmri ilə iyulun 5-də qala güclü top atəşinə tutuldu. Ancaq bu atəşlər heç də Sisianovun gözlədiyi nəticəni vermədi. Qaladakılar nəinki əl-ayağa düşmədilər, əksinə çətin də olsa əvvəlki yaşayışlarını davam etdirdilər. Sözsüz ki, mühasirə onların narahatçılığını artırmışdı. Qaladan kənara çıxmaq, mal-qara üçün yem hazırlamaq xeyli çətinləşmişdi. İyul ayının 5-dən 6-na keçən gecə bir neçə azərbaycanlı bir sürü mal-qaranı çıxararaq otlaqlara aparmağa cəhd göstərdi. Lakin mayor Montrezorun taborundan olan kazaklar və ermənilər duyuq düşərək onları atəşə tutdular. Bir azərbaycanlı öldürüldü, birisi əsir götürüldü. 169 baş mal qara isə rusların düşərgəsinə gətirildi (127).

Hadisələrin gedişi nə Məhəmməd xanı, nə də Kəlbəli xanı təmin edirdi. Ona görə də onlar rus qoşunlarına qarşı mübarizənin səmərəliliyini artırmaq üçün yollar axtarmağa başladılar. İyulun 6-da xan qoşunlarının bir dəstəsi Zəngi çayının sağ sahilindəki xan bağında yerləşən rus qoşunlarına hücum etdilər. Ancaq onlar rus qoşunlarının müqavimətini qıra bilməyib geri qayıtdılar. Rus komandanlığı xan qüvvələrinin belə hücumlarının qarşısını almaq üçün müdafiə istehkamlarının sayını artırdı (128).

İyulun 7-də yem arxasınca gedən və kapitan Martınovun draqunları tərəfindən mühafizə olunan rus dəstəsi güclü hücuma məruz qaldı. Bu hücum elə sürətlə həyata keçirildi ki, ruslar nəfəs dərməyə macal tapmadılar. Şahidlərin ifadəsinə görə, döyüş zamanı ruslardan 20 nəfər öldürüldü, 4 nəfər isə əsir götürüldü. Sisianov hücum edənlərin naxçıvanlılar olduğunu güman edirdi.


ПЛАНЪ
БЛОКАДЫ
ЭРИВАНСКОЙ КРѢПОСТИ
въ 1804 году
Масштабъ


Описаніе блокады

Onun fikrincə, bu döyüşçülər Kəlbəli xana sadiq olan süvarilər idilər və onlar öz xanlarına yardım etməyə gəlmişdilər. Bəzi məlumatlara görə isə onların şah qoşunlarına məxsus olduğu güman edilirdi. Hər halda kimliyindən asılı olmayaraq həmin döyüşçülərin hücumunun qaladan idarə edildiyi şübhəsiz idi. Çünki həmin döyüşün başlanması ilə qaladakı bütün toplardan rus mövqeləri üzərinə atəş açıldı. Xan döyüşçülərinin bu fəallığı qalada şeypurların çalınması ilə müşayiət olunurdu (129). Elə həmin gün xan qoşunlarının bir dəstəsi Eçmiədzindən qayıdan rus dəstəsinə hücum etdi. Sisianovun yazdığına görə, bu döyüş itkisiz başa çatdı.

İyul ayının 8-də Sisianov əmr etdi ki, qalaya hücum etmək üçün hər bölük yüz ədəd 14 arşınlıq nərdivan düzəltsin. Bu nərdivanların eni eyni vaxtda üç nəfərin dırmaşması üçün imkan verməli idi. Həmin günlər ərzində qalanın atəşə tutulması davam edirdi. Tezliklə rus qoşunlarında azuqə və sursat qıtlığı üzə çıxdı. Yaxın günlərdə İrəvan qalasının tutulması ilə bu qıtlığın aradan qalxacağına ümid edən Sisianovun əmri ilə döyüşçülərə ərzaq normasının yalnız yarısı verilirdi. Bəzi ərzaq növləri isə ümumiyyətlə çatışmırdı. Sisianov güman edirdi ki, İrəvan qalasını işğal edən kimi Naxçıvana yollanacaq və çox çətinlik çəkmədən oranı da işğal edən kimi Gürcüstana qayıdacaqdır (130).

Həm sursat, həm də azuqə sarıdan cari çətinlikləri həll etmək üçün iyulun 8-də kapitan Spıtkovun komandanlığı altında 100 nəfər sıravi və 15 kazakdan ibarət dəstə Pəmbəkə yola salındı (131).

İyulun 8-dən 9-na keçən gecə rus qüvvələri yenidən hücuma məruz qaldılar. Hücum edən döyüşçülərin bir hissəsinin qalaya girməyə çalışmasından güman edilirdi ki, onlar şah qoşunlarından ola bilər. Bu döyüşçülərin kimliyini müəyyənləşdirmək üçün iyulun 9-da səhər tezdən iki topla müşayiət olunan iki bölük həmin istiqamətə göndərildi. Ancaq bu dəstə İrəvandan bir qədər aralandıqdan sonra hərbi postlarla rastlaşıb geri qayıtdılar (132).

Rus qüvvələrinin İrəvan qalası ətrafında fəallaşmağa başlaması şah qüvvələrinin də fəallaşması ilə müşayiət olunurdu. Sisianov güman edirdi ki, Abbas Mirzə qoşunlarının sıraları rastlaşdığı uğursuzluqlardan sonra pozulmuşdur. Əslində isə belə deyildi. Şah qüvvələri yenidən qruplaşdırıldı və bu qüvvələr yenidən rus qoşunları qarşısına çıxarıldı.

Mövcud olan məlumatlara görə, Abbas Mirzə uğursuzluqla qarşılaşandan sonra onun xidmətçilərindən olan İsmayıl Bayat bu xəbəri Sultaniyyə çəmənində düşərgə salmış Fətəli şaha çatdırdı. Fətəli şah da bu xəbəri eşidən kimi yanındakı qoşun dəstəsi ilə Təbrizə doğru hərəkətə başladı. Abbas Mirzənin bu uğursuzluğundan narahatçılıq keçirən Fətəli şah ilkin addım kimi İsmayıl xan Damğaninin rəhbərliyi altında olan qoşun

dəstəsini Abbas Mirzənin köməyinə göndərdi. İsmayıl xan Damğaninin xorasanlılardan təşkil olunmuş dəstəsi Araz çayını adlayaraq İrəvan qalasının üç fərsəngliyində düşərgə saldı (133).

Bir neçə gündən sonra isə Fətəli şah da tabeliyində olan qoşun dəstəsi ilə Araz çayı kənarına gəlib orada çadır qurdu. Onun də məqsədi qoşun dəstəsi ilə birlikdə Araz çayını adlamaq idi. Lakin lazımi vasitələrin olmaması çaydan adlamaq imkanını xeyli çətinləşdirirdi. Belə olanda Fətəli şah at belində çayı adladı və digər atlıları da onun arxasınca çayı keçməsinə həvəsləndirdi. Piyadalara gəlincə isə onlar bir neçə gün ərzində müxtəlif vasitələrlə çayı keçə bildilər (134).

İsmayıl xan Damğaninin qoşun dəstəsinin Abbas Mirzəyə qoşulması onun qüvvəsini daha da artırdı və mənbədə olan məlumatlar da təsdiq edir ki, bundan sonra həm İsmayıl xan Damğaninin, həm də Mehdiqulu xanın qoşun dəstəsi İrəvan qalası ətrafında xeyli fəallaşmağa başladı. İrəvanın mühasirəsi uzandıqca bunu Sisianov da hiss etməyə başladı. O, qaladan kənarda mövcud olan süvari dəstələrinin hücumlarından qorunmaq üçün müəyyən tədbirlər görmək məcburiyyətində qaldı. Həmin süvarilərin sayı isə günü-gündən artır və onlar daha açıq şəkildə qala ətrafında reydlər edirdilər. Sonradan Sisianova aydın oldu ki, bu süvarilər Abbas Mirzənin qüvvələrindən olan süvarilərdir və onların hərəkətinə nizamlılıq verilməsi üçün qala daxilində bəzi işlər görülür.

Bu istiqamətdə Kəlbəli xan xüsusilə böyük fəallıq göstərirdi. Bunu Sisianov da öz gündəlik qeydlərində etiraf edirdi. Onun qənaətinə görə Kəlbəli xanın ardıcıl və təkidli təsiri Məhəmməd xanı qalanı təslim etmək fikrindən daşındırdı.

Həqiqətdə də İrəvan qalasının qorunmasında Kəlbəli xanın böyük xidmətləri var idi. Onun fəaliyyəti Məhəmməd xanın fəaliyyətini tamamlayırdı və bu iki böyük şəxsiyyətin iradəsi, qətiyyəti, müdrikliyi və dəyanəti İrəvan qalasının qüdrətini daha da artırırdı. Qacarlar xanədanının düşməni olan Kəlbəli xan çoxsaylı şah qoşunlarının hücumu zamanı İrəvan qalasının müdafiəsinin möhkəmləndirilməsi üçün Rusiyanın himayəsinə meyl edirdi. Lakin Sisianovun quduzluğunu və dikbaşlığını görəndən sonra Kəlbəli xan yenidən şah sarayı ilə əlaqələr yaratmağa cəhd göstərdi. Kəlbəli xan yaxşı bilirdi ki, o özünü Fətəli şahın qəzəbindən qurtara bilməyəcək və şah sarayına yenidən müraciət edilməsi onun məhvinə gətirib çıxara bilər. Bununla belə, İrəvan qalasının rus qoşunlarının təcavüzündən xilas edilməsi istəyi də onun üçün xüsusi əhəmiyyət kəsb edirdi və buna görə də Kəlbəli xan yenidən şahın diqqətini İrəvan qalasına cəlb etmək istədi. Kəlbəli xanın Sisianova elə bir nifrəti var idi ki, hətta Rusiyanın himayəsini qəbul etmiş

olan Xoyun keçmiş xanı Cəfərqulu xanın arvadının ( Məhəmməd xanın bacısının) İrəvan qalasından buraxılmasına imkan vermirdi.

Mövcud olan məlumatlara görə, Kəlbəli xan Fətəli şaha məktub göndərərək Abbas Mirzənin rus qoşunları ilə döyüşlərdə ağır vəziyyətə düşdüyünü çatdırdı. Bununla, Kəlbəli xan çalışırdı ki, Abbas Mirzənin köməyinə yeni qoşun dəstələri göndərilsin və həmin qüvvələrin vasitəsilə Rusiya qoşunlarını İrəvan xanlığı ərazisindən uzaqlaşdırmaq mümkün olsun.

Bu haqda məlumat Cəfərqulu xan tərəfindən Sisianova da çatdırıldı. Rusiya himayəsini qəbul etdiyi və Rusiyaya sədaqətlə xidmət etməyə razı olduğu üçün çar sarayı tərəfindən bahalı hədiyyələrlə mükafatlandırılan və çar xəzinəsindən illik maaş alan Cəfərqulu xan Sisianovun düşərgəsinə iyulun 10-da gəldi. Qeyd etmək lazımdır ki, Cəfərqulu xan İrəvan qalasının mühasirəsi ərzində Sisianovun düşərgəsində qaldı və İrəvan qalasının işğalı üçün rus qoşunlarına mümkün olan yardımları göstərməyə çalışdı.

Rus mənbələrinə görə, Kəlbəli xanın məktubundan sonra Fətəli şah Təbrizdən və Xoydan 15 min nəfərlik qoşun toplayıb Abbas Mirzənin köməyinə yolladı və iyul ayının 14-də Gərniçay yaxınlığında onların qoşun dəstələri birləşdilər.

Fətəli şahla Abbas Mirzənin qoşun dəstələrinin birləşməsi ərəfəsində xanlıq qoşunlarının fəallığı Sisianova belə bir qənaətə gəlməyə əsas verdi ki, qalanın mühasirəsi heç də onun düşündüyü ssenari üzrə getmir və ötən hər gün qalanın fəthini nəinki yaxınlaşdırmır, əksinə rus qoşunlarını daha da zəiflədir. Xan qoşunlarının aramsız hücumları isə diqqəti xeyli yayındırır və qüvvələrin vahid mərkəz ətrafında səfərbər edilməsinə imkan vermirdi. Sisianov bu hücumlardan elə qorxmuşdu ki, hətta Eçmiədzindən onun düşərgəsinə gələn Cəfərqulu xan Xoylunun mühafizəsi üçün iki bölük və iki topla müşayiət olunan əlavə 100 nəfərlik bir dəstə göndərməli olmuşdu (135).

İyul ayının birinci yarısında İrəvan qalası ətrafında fəallaşan dəstələrdən biri rus dəstələrinin üzərinə hücuma keçdi. Həmin hücumun nəticəsində 20 nəfər rus hərbçisi öldürüldü və 4 əsir götürüldü. Bu dəstənin kimə məxsusluğu ruslar üçün bəlli deyildi. Sisianov güman edirdi ki, onun qüvvələrinə ağır zərbə vuran həmin dəstə Naxçıvan süvariləridir və onlar İrəvan qalasında olan Kəlbəli xana yardım göstərmək istəyirdilər. Naxçıvandan olduğu güman edilən süvarilərin ruslar üzərinə hücum etdiyi vaxt İrəvan qalasından aramsız top və tüfəng atəşləri açıldı. Xan döyüşçülərinin bu fəallığı qalada şeypurların çalınması ilə müşayiət olunurdu (136).

Qarşı tərəfin belə fəallaşması nəhayətdə rus qüvvələri üzərinə böyük bir hücumun təşkili ilə başa çatdı. Bu hücumun təşəbbüskarı Fətəli şah idi. Bölgəyə əbəs yerə gəlmədiyini nümayiş etdirən Fətəli şah rus qoşunlarına

ağır zərbə vurmaqla onları İrəvan qalası ətrafından uzaqlaşdırmaq niyyətində idi. Bunun üçün şah qüvvələri müəyyən hazırlıq işləri həyata keçirdilər. Farsdilli mənbələrə görə, şah qüvvələri döyüşqabağı mövqelərini möhkəmlətmək üçün yeddi səngər qurdular. Onlar həmin səngərlərdən qəfil gecə hücumunu həyata keçirməklə rus mövqelərini ələ keçirməyi planlaşdırırdılar. Qoşun rəhbərliyinin qərarına əsasən rus mövqeləri üzərinə 7 alay hücum etməli idi. Yerdə qalan qüvvələr də hücuma hazır olmaq barəsində tapşırıq aldı. Abbas Mirzənin tapşırığına əsasən, bu hücum iyulun 15-nə keçən gecə, səhərin açılmasına 4 saat qalmış başlamalı idi. Hücumun başlanmasına isə top atəşi işarə olmalı idi. Hücumu piyadalar başlamalı idi və onlara rusların səngərlərinin ələ keçirilməsi tapşırılmışdı (137).

Farsdilli mənbələrə görə, şah qoşunlarının hücumu Şahsevən dəstələri tərəfindən başladı. Bu hücum kifayət qədər sürətlə başladı və ruslar heç özlərinə gəlməmiş qarşılarında şah qüvvələrini gördülər. Adları çəkilən mənbələr bu hücum zamanı ruslar tərəfindən verilən itkilərin sayını çox göstərdilər. İddia olunur ki, təkcə öldürülənlərin sayı 3 min nəfər idi. O da iddia olunur ki, belə çoxlu itki verən rus qüvvələri öz səngərlərini tərk etmək məcburiyyətində qaldılar və onların yerini şahsevən döyüşçüləri tutdular (138). Başqa sözlə rus qüvvələri yenidən ağır vəziyyətə düşdülər.

Rus mənbələrində olan məlumatlar bu döyüş haqqında daha təfsilatlı təsəvvür yaratmağa imkan verir. Bu mənbələrə görə, hələ Cəfərqulu xan Fətəli şahın rus qoşunları üzərinə hücuma hazırlaşdığını xəbər verəndə onu da bildirmişdi ki, şah qüvvələri iki cinahdan hücuma hazırlaşır. Sisianov da müdafiəyə hazırlıq işlərini məhz bu məlumata istinadən qurmağa başladı.

Döyüşün şahidlərinin ifadəsinə görə isə Fətəli şah üç istiqamətdən rus qoşunları üzərinə hücuma keçdi (139).

Sisianovun göstərişi ilə ehtiyatda olan qüvvələrdən iki dəstə yaradıldı. İrəvanın mühasirəsində olan qüvvələrə isə toxunulmadı. Başqa sözlə, Sisianov qarşıdakı döyüşü elə bir ciddi döyüş hesab etmirdi. Xan qoşunlarının və eləcə də bölgəyə gəlmiş şah qoşunlarının ona yetərincə müqavimət göstərəcəyinə inanmırdı. Ehtiyat qüvvələrdən yaradılmış dəstələrdən biri sağ cinaha, İrəvan qalasının şimalına təyin edildi. Bu dəstəyə Saratov qrenadyor alayının 170 döyüşçüsü, Qafqaz qrenadyor alayının 130 döyüşçüsü, 100 piyada draqun daxil idi və ona general-mayor Portnyagin rəhbərlik edirdi. General Portnyagin bütün sağ cinahı nəzarət altında saxlamaqla İrəvana aparan yolların kəsişməsində yerləşməli idi (140).

Cəbhənin sol cinahına təyin olunmuş ikinci dəstəyə isə general Leontyev rəhbərlik edirdi. Bu dəstəyə Tiflis alayının bir taboru, Qafqaz alayının 100 qrenadyoru və Saratov alayının 50 döyüşçüsü, habelə 3 top

daxil idi. Dəstə İrəvan qalasının cənubunda mövqe tutub buradakı rus qüvvələrinə kömək etməklə Fətəli şahın qoşunlarının hücumunun qarşısını almalı idi. Ancaq Sisianovun yazdıqlarından belə məlum olur ki, bu dəstə şah qüvvələrinin qəfil hücumu altına düşdüyü üçün nəzərdə tutulan döyüşqabağı mövqeyə çıxa bilmədi. General Leontyev özü də əslində, Müxəllət təpəsinin qarşısında onun üçün müəyyənləşdirilmiş mövqeləri tutmağa tələsmirdi. Çünki o ehtiyat edirdi ki, əgər şah süvariləri yaxınlıqdakı bağda mövqe tutmuş olarlarsa, onda mayor Neldenin döyüşçülərinin yerləşdiyi istehkama ciddi təhlükə yarana bilərdi (141).

Fətəli şah qoşunlarının hücumu ayın 15-nə keçən gecə saat 2-də başladı. Hücumun sürətlə və çox qısa vaxt ərzində keçirilməsi üçün şah öz qoşunlarını üç dəstəyə böldü. Bunlardan biri qalanın cənubunda yerləşən general Leontyevin dəstəsinin üzərinə hücum etməli idi. Bu dəstənin hücumu doğrudan da sürətlə baş verdi. Rus döyüşçüləri heç döyüş mövqeyini tutmağa macal tapmamış şah süvariləri onların üzərinə hücum etdilər. Burada general Leontyevin karesi, Müxənnət təpəsində qurulan istehkam və mayor Noldenin komandanlığı altında olan istehkam eyni zamanda şah qüvvələrinin hücumuna məruz qaldı. Eyni zamanda qaladakı xan qoşunları da ruslar üzərinə hücum etdilər. Qanlı döyüşlər əsasən elə bu istiqamətdə baş verdi. General Leontyev karenin sol cinahında, təpəliyin üstündə mühafizə postu qurmuşdu. İlk zərbə bu posta endirildi. Həmin postun çox çətin vəziyyətə düşdüyünü görən general Leontyev ora kömək göndərdi. Ancaq bu kömək də şah qüvvələrinin hücumunun qarşısını almağa kifayət etmədi. Leontyevin karesi qalanın cənub-qərbindəki Müxənnət təpəsinin yaxınlığında yerləşirdi. Sol cinahda döyüş güclənəndə Leontyev öz adamlarını xilas etmək üçün bütün dəstəsi ilə ora yollandı. Yüksəklikdə dayanan mühafizə postunun ətrafı daşlıq-qayalıq olduğundan Leontyev ora çox çətinliklə qalxırdı. Şah qüvvələri isə təbii şəraitdən məharətlə istifadə edirdilər. Onlar mühafizə postunu ətraf qüvvələrdən tam təcrid etməklə bərabər, Leontyevin əsas dəstəsinin üzərinə hücuma keçdilər. Leontyev bilmirdi ki, öz dəstəsinin mühafizəsini təşkil etsin, yoxsa sol cinahdakı yüksəklikdə qalan döyüşçülərinə kömək göstərsin. Bu istiqamətdə onlar xeyli itki verdilər. Hətta bütün dəstə məhv olmaq təhlükəsi qarşısında qaldı (143).

Sağ cinahda olan Müxənnət təpəsindəki istehkamdakı hadisələr daha dramatik şəkildə cərəyan edirdi. Burada poruçik Maqdanovun rəhbərliyi altında Tiflis alayının 40 döyüşçüsü mövqe tutmuşdu.

Gecə ikən istehkama yaxınlaşan şah döyüşçüləri onların üstünə hücum etdilər. Əlverişli mövqedə olan ruslar müəyyən müqavimət göstərə bildilər. Lakin bu çox da uzun sürmədi. İstehkamın vəziyyəti getdikcə ağırlaşdı.

General Leontyev ora kömək göstərmək istəsə də bir nəticə hasil olmadı. Çünki şah qüvvələrinin güclənən hücumları qarşısında o özü çətin vəziyyətə düşdü. Hətta kazaklarla Müxənnət təpəsinə göndərdiyi sursat da rus döyüşçülərinə çatmadı. Güclü hücum başlamış şah qüvvələrini yarıb keçmək qeyri-mümkün olanda kazaklar geri qayıtmalı oldular.

Ölüm təhlükəsi qarşısında olan poruçik Maqdanov əmr etdi ki, təbilləri döyəcləyərək ağır vəziyyətdə olmalarını rus zabitlərinə çatdırsınlar. Ancaq bu da onların köməyinə çatmadı. General Leontyev tərəfindən də bu təpənin köməyinə Tiflis alayının iki bölüyü göndərildi. Şah qüvvələri Müxənnət təpəsini ələ keçirib oradakı rus döyüşçülərinin hamısının başını kəsdilər (144).

Şah qüvvələri həm general Leontyevin yerləşdiyi sol cinahdakı yüksəklikdən, həm də Müxənnət təpəsindən rus qoşunlarına güclü zərbə vurdular.

Qəfil şəkildə hücuma məruz qalmış Leontyev Müxənnət təpəsi önündə onun üçün nəzərdə tutulmuş mövqeni ələ keçirə bilmədi. O məcbur oldu ki, sol cinahdakı hündür dağlara sığınsın. Lakin dağ yüksəkliklərindən də onun dəstəsi atəşə tutuldu. Nəticədə, general qısa müddət ərzində 8 zabit və 120 əsgər itirdi. Bütün cəbhə boyu atəşə tutulduğu üçün general Leontyev mövqeyini dəyişə bilmədi. Onda poruçik Lobinsev atıcıları yanına çağırıb dağ yüksəkliklərinə göndərdi ki, oradakı şah döyüşçülərini qovsun. Onlar şah döyüşçülərini geri çəkilməyə məcbur etsələr də, özləri də orada uzun müddət dayana bilmədilər. Şah qüvvələrinin əlavə dəstələrinin gəlişi ilə Lobinsev geri çəkilmək məcburiyyətində qaldı. Sonradan poruçik Lobinsev kapitan Kuşelyovun dəstəsi ilə bir daha dağ yüksəkliklərini ələ keçirməyə cəhd göstərdi. Bu dəfə o istəyinə nail oldu və həmin yüksəklikləri əlində saxlaya bildi (145). Rus qoşunlarının yeganə çarəsi şah qüvvələrini həmin mövqedən sıxışdırıb çıxarmaq idi. Ancaq onların nə birinci, nə də ikinci cəhdi baş tutdu. Nəhayət, general Tuçkovun möhkəmləndirilmiş dəstəsinin üçüncü cəhdi general Leontyevin dəstəsini təzyiq altında saxlayan şah qüvvələrini bir qədər geri çəkilməyə məcbur etdi.

Müxənnət təpəsinə isə mayor Montrezorun taborundan topla müşayiət olunan bir dəstə göndərildi. Bu dəstə uzun döyüşdən sonra nəhayət təpəni yenidən ələ keçirə bildi.

Mayor Noldenin istehkam qurduğu yüksəklikdə də gərgin döyüş getdi. Bu istehkam, qalanın cənubunda, Müxənnət təpəsi ilə Zəngi çayının təxminən ortalığında yerləşirdi. General Leontyevin dəstəsinin nəzərdə tutulmuş döyüşqabağı mövqeni tuta bilməməsi mayor Noldenin əsas qüvvələrdən uzaq düşməsinə səbəb oldu. Bu, şah qüvvələrinə uğurlu hücum üçün əlverişli zəmin yaratdı. İstehkam eyni zamanda qaladakı xan qoşunları-

nın hücumuna məruz qaldı. Ancaq general-mayor Tuçkovun ixtiyarındakı topların uzaqdan atılan sərrast atəşləri xan qoşunlarının hücumunu müəyyən qədər məhdudlaşdırdı. İstehkamdakı ruslar tutduqları əlverişli mövqedən istifadə edərək şah qüvvələrinin bir neçə hücumunu dəf edə bilsələr də onların da gücü tükəndi.

Dörd tərəfdən davam edən hücumun qarşısının alınması xeyli çətinləşdi. Belə böhranlı anlarda Zəngi çayının sol sahilində, xan bağında yerləşən polkovnik Sexanskinin dəstəsinin göstərdiyi kömək istehkamdakıların hamısını labüd ölümdən xilas etdi. Əvvəlcə top atəşləri istehkamdakıları müdafiə etdi. Sonra isə oradan bir dəstə Zəngi çayını adlayıb şah qüvvələrinin arxasından istehkama tərəf yaxınlaşdı. Şah qüvvələri mühasirə olunmaq təhlükəsindən qorxaraq geri çəkildilər. Sisianovun yazdığına görə, ruslar burada cəmi 17 nəfər itki verdilər (146).

Şah qüvvələrinin ikinci dəstəsi Zəngi çayının sağ sahilində, xan bağında yerləşən 9-cu yeger alayı üzərinə hücum etdi.

İlk hücumu dəf etdikdən sonra polkovnik Sexanski toplardan atəş açmağı əmr etdi. Bu atəşlər şah qüvvələrinin hücumunu xeyli zəiflətdi və onlar bir müddətdən sonra bu istiqamətdə ümumiyyətlə hücumu dayandırıb qala ətrafında döyüşən şah qüvvələrinə qoşuldular.

Şah qüvvələrinin üçüncü dəstəsi isə qalanın şimalında, İrəvana gələn yolun üstündə mövqe tutmuş general Portnyaginin dəstəsi üzərinə hücum etdi. Ancaq Portnyagin də ixtiyarında olan toplardan məharətlə istifadə edərək şah qüvvələrini yaxınlaşmağa qoymadı. Beləliklə, şah qüvvələri yalnız qalanın cənubunda bəzi nəticələrə nail olaraq ruslara itki yetirdilər. Lakin bu döyüşlər Sisianovun özünü də qorxuya saldı və döyüşün gedişində o öz qərargahından bayıra çıxmağa cəsarət etmədi. General Leontyev bir neçə dəfə onun yanına adam göndərib ətrafda baş verənlərdən xəbərdar olmağa çağırsa da Sisianov mənzil-qərargahında oturmağa üstünlük verdi. Qalanın şimalında olan döyüşlər onu xüsusilə qorxutdu. Bu istiqamətdə xan qoşunları hücuma keçmişdilər. Sisianov hücum edənlərin 1500 nəfər olduğunu bildirirdi. Bu rəqəm şişirdilmiş də ola bilərdi. Çünki qeyri-dəqiq məlumatlara Sisianovun raportlarında tez-tez rast gəlmək mümkündür. Xan qoşunları qalanın cənubundakı döyüşlərdə də iştirak etdi. Ancaq Məhəmməd xan dəqiqliklə müəyyənləşdirə bildi ki, döyüşlərin taleyi qalanın cənubunda deyil, şimalında həll oluna bilər. Əgər şah qoşunları da öz qüvvələrini parçalamadan əsas zərbəni həmin istiqamətə vursaydı, rus qüvvələri məğlub olar və qalanın mühasirəsinə də son qoyulardı. Bunu Sisianov özü də etiraf edirdi. Onu qorxudan bu idi ki, rus qoşunlarının qərargahı, onun bütün azuqə və sursat ehtiyatı burada toplanmışdı. Pəmbəkdən yenicə gətirilən mərmilər də burada cəmlənmişdi. Onların ələ

keçirilməsi və ya məhv edilməsi rus qoşunlarını ac və əli yalın qoya bilərdi. O biri tərəfdən rus qoşunlarının qərargahının və İrəvan şəhərinin ətrafının ələ keçirilməsi Zəngi çayının sağ sahilindəki rus qoşunları ilə əlaqələrin kəsilməsinə və sonradan onların mühasirəyə alınıb məhv edilməsinə gətirib çıxara bilərdi. Nəhayət qərargahın ələ keçirilməsi Sisianovun özünün məhvi ilə nəticələnə bilərdi (147).

Sisianov ehtiyatda qalan qüvvələri qalanın cənubuna və şimalına göndərdikdən sonra qərargahı qoruyan qüvvələr xeyli zəiflədi. Bununla belə, xan qoşunları ruslarla şəhər daxilində, tikililər arasında döyüşməli olurdular ki, bu da onların işini müəyyən qədər çətinləşdirirdi. Ancaq onlar əlverişli mövqelərdə qərar tutan ruslarla igidliklə vuruşurdular. Onlar hətta rusların müqavimətini qırıb şəhərə daxil ola bilmişdilər. Xan döyüşçülərinin iradəsi, əzmkarlığı, əqidəsinə sədaqəti Sisianovun özünü də heyrətə saldı. O yazırdı ki, bu döyüşün gedişində 30-dək xan döyüşçüsü mühasirəyə düşmüşdü. Onlar podpolkovnik Simanoviçin məğlub olmaq təklifini qəbul etmədilər və son nəfəsədək döyüşərək qəhrəmanlıqla həlak oldular (148).

Sisianov qərargah ətrafında olan bütün qüvvələri podpolkovnik Simanoviçə tabe etdi və onun komandanlığı altında olan rus qoşunları böyük bir çətinliklə xan döyüşçülərini şəhərdən sıxışdıra bildilər. Dörd saatlıq döyüşdən sonra xan qoşunları qalaya çəkildilər. Təhlükənin müəyyən qədər sovuşması Sisianovu o qədər sevindirdi ki, o dərhal podpolkovnik Simanoviçi polkovnik rütbəsinə təqdim etdi .

Bütünlükdə isə gecə saat 2-də başlayan döyüş gündüz saat 1-ə kimi davam etdi. Şah qüvvələri iki dəstədə birləşib qaladan uzaqlaşdılar. Bir dəstə Abbas Mirzənin komandanlığı altında cənuba, Gərni çayına tərəf, ikinci dəstə isə Fətəli şahın komandanlığı altında şimala, Kanaker kəndinə tərəf çəkildilər.

Bu döyüşün gedişində tərəflərin verdiyi itkilər barədə müxtəlif məlumatlar vardır. Rus tərəfi, o cümlədən Sisianov qarşı tərəfin itkilərinin 1000 nəfərdən çox olduğunu göstərsə də, öz itkilərini həddən artıq kiçildirdi. Məsələn, o bütün döyüşün gedişində 62 nəfər rus döyüşçüsünün öldürüldüyünü xəbər verirdi (149).

Rus tarixçisi Pottoya görə isə ruslar bütünlükdə 13 zabit və 173 əsgər itirdilər. O da şah qoşunlarının itkisini isə mindən yuxarı göstərirdi (150).

Döyüşün şahidlərinin birinin qeydində isə 123 nəfərin öldürüldüyü və 200 nəfərin isə yaralandığı göstərilir (151).

Döyüşün gedişində rus qoşunları şah qüvvələrinin iki bayrağını və iki ədəd zənburəkini də ələ keçirdilər.

Rus tarixçilərinin araşdırmalarında göstərilir ki, şah qüvvələrindən öldürülənlərin arasında 3 nəfər xan və 250 nəfər yüksək vəzifəli şəxslər var

idi. İrəvan qalasından hücum edən xan qoşunlarından isə 500 nəfərin öldürüldüyü iddia olunur. Qeyd olunur ki, ərzaq qıtlığı olduğu üçün Sisianov şah qoşunlarından əsir götürülməsini lazım bilmirdi. Bütün bunları general Sisianov özünün şah qüvvələri ilə döyüşünün uğurlu nəticələri bilirdi. Şah qüvvələrinin kütləvi hücumunun qarşısının alınması onu o qədər sevindirdi ki, bir çox zabitləri, o cümlədən mayor Noldeni və podpolkovnik Simanoviçi müxtəlif ordenlərə təqdim etdi. Rusiya çarı onun vəsatətlərini qəbul etməklə, Sisianovun özünü də 1-ci dərəcəli Vladimir ordeni ilə təltif etdi (152).

Sonrakı 10 gün ərzində tərəflər arasında ciddi qarşıdurma baş verməsə də, şah və xan qüvvələri fəaliyyətsiz də dayanmadılar. İyulun 16-da rus qoşunları istiqamətində kəşfiyyat aparmaq istəyən şah adamları tutuldular. Ayın 17-də şah adamlarının rus qoşunlarına qarşı kəşfiyyat işləri aparması müşahidə edildi. Ayın 19-da Məhəmməd xanın nümayəndəsinin Sisianovun düşərgəsinə gəldiyi bildirirlir. Bu barədə yazan Sisianov nümayəndənin nə məqsədlə gəlməsindən xəbər vermir. İyulun 22-dən 23-nə keçən gecə rus döyüşçüləri sağ cinahda yeni top mövqeləri yaratmaq istəyən qala müdafiəçiləri tərəfindən müşahidə olundu və ruslar atəşə tutuldular. Ayın 23-24-də isə şah qüvvələrinin yaxınlıqda manevr etməsi müşahidə olundu və belə bir xəbər yayıldı ki, şah qüvvələri yenidən rus qüvvələrinin üzərinə hücuma hazırlaşır.

Şah qüvvələrinin və xan döyüşçülərinin hücumu Sisianovu qorxutduğundan o, qalanın mühasirəsini daha da gücləndirdi və ixtiyarında olan bütün qüvvələri bu işə cəlb etdi. Bununla, Sisianov qalanın işğalını tezliklə başa çatdırıb geri dönmək barədə fikirləşirdi. Ancaq qüvvələrin fasiləsiz olaraq növbədə və səngərlərdə dayanması rus qüvvələrini getdikcə yorur, xəstələnənlərin sayı çoxalırdı. Sisianov hətta mühasirə xəttindən üç verst aralıda bir neçə müdafiə istehkamı da qurmaq fikrinə düşdü. Lakin qüvvələrin azlığı üzündən bu işi başa çatdıra bilmədi.

Sisianovun qeydlərindən aydın olur ki, şah və xan süvariləri tez-tez mühasirə xəttinə yaxınlaşır və bəzi hallarda onların müdafiə postları ilə döyüşə girirdilər. Doğrudur, bu döyüşlər elə də ciddi deyildi. Amma rus qüvvələrinin müəyyən çətinliklərlə qarşılaşdığı bir şəraitdə qarşı tərəfin fəallaşması Sisianovu narahat edirdi.

Bu narahatçılığa birdəfəlik son qoymaq üçün Sisianov şah qüvvələri üzərinə güclü bir hücum təşkil etməyi də fikirləşirdi. Çünki ayın 15-də baş verən döyüşdən sonra məlumat alınmışdı ki, əsas şah qüvvələri iki dəstəyə bölünərək geri çəkilmişdilər. (153).

Sisianova elə gəlirdi ki, şah qüvvələrinin parçalanması rus qüvvələrinin uğurunu şərtləndirə bilər. Ona görə də o bu imkanını əldən buraxmaq istəmədi və hücum üçün münasib an axtarmağa başladı.

Elə həmin günlərdə kimsə Sisianova çatdırdı ki, şah qoşunları düşərgəsində qəribə hadisələr baş verir. Naməlum səbəbdən şah qüvvələri arasına çaxnaşma düşüb, atışma baş verib və çoxları şah qüvvələrini tərk edərək dağılıblar. Bunu eşidəndə Sisianov şah qüvvələrinə qarşı hücum vaxtının çatdığını güman etdi və belə bir hücuma hazırlıq əmri verdi (154).

Sisianov öz qeydlərində bu hücumun başlanmasının səbəblərinə toxunmur. Yalnız onu qeyd edir ki, İrəvanın mühasirəsinin cənubunda olan qüvvələr oradan çıxarıldı və bu qüvvələrə iyulun 25-nə keçən gecə Abbas Mirzənin dəstəsinin üzərinə hücuma keçmək tapşırığı verildi. Rus qoşun dəstəsinə general-mayor Portnyagin rəhbərlik etməli idi. Bu dəstəyə aşağıdakı qüvvələr daxil edilmişdi: 170 nəfər qrenadyor, Saratov muşketyor alayının 20 muşketyoru, Tiflis alayının 190 muşketyoru, 100 nəfər draqun, 30 nəfər kazak, 100 nəfər gürcü və Cəfərqulu xan Xoyskinin özü ilə bərabər 100 nəfər döyüşçüsü. Dəstəyə 6 ədəd top da verilmişdi. Tiflis muşketyor alayının bir taboru isə Tiflis yolu üzərində yerləşdirildi ki, hücuma gedən dəstənin təhlükəsizliyini arxadan təmin etsin. Bütün bunlar barədə yazan Sisianov iyulun 25-i gecəsi general Portnyaginin dəstəsinin Abbas Mirzənin dəstəsi ilə döyüşü haqqında demək olar ki, məlumat vermir. Bir onu qeyd edir ki, Portnyaginin dəstəsi qarşıya qoyulan məqsədə nail olmadan səhər saat 7-də geri qayıtdı. Sisianov bunun səbəbini onunla izah edir ki, general Portnyagin təyinat yerinə gecə gəlib çatdı. Bu zaman düşərgəni tərk etmiş Abbas Mirzə dəstəsinin yarısı Araza doğru geri çəkilmiş, bir hissəsi də dağlarda mövqe tutmuşdu. General Portnyagin dəstəsi isə geri qayıtmaq istəyəndə Abbas Mirzənin qüvvələri bu dəstəni əhatə etməyə və güclü zərbə endirməyə çalışdı. Fətəli şahın dəstəsi də Abbas Mirzənin köməyinə gəldi və bununla da Portnyaginin dəstəsinə vurulan zərdə daha da gücləndirildi (155).

General-mayor Portnyaginin Abbas Mirzənin düşərgəsinə gecə ikən qəfil hücum etməsi haqqında farsdilli mənbələrdə də bəzi məlumatlara rast gəlmək mümkündür. Amma bu məlumatlar yenə də müxtəlifdir. Rus mənbələrindəki məlumatlar fərqli olduğu kimi, farsdilli mənbələrin məlumatları arasında da fərqlər vardır.

Şah qüvvələrinin bir çox yürüşlərinin şahidi olan Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazır ki, iyulun 15-də tərəflər arasında baş verən döyüşdən sonra Üçkilsə ermənilərindən biri özünü Sisianovun yanına yetirib ona sədaqətlə xidmət etməyə hazır olduğunu bildirdi. Abbas Mirzənin qüvvələri haqqında da məlumatlara malik olan bu ermənini Sisianov

məmnunluqla qarşıladı və ona müəyyən qayğı da göstərdi. Sonra da erməni Cəfərqulu xanı Sisianovun yanına gətirdi və ona təqdim etdi (həqiqətdə isə Cəfərqulu xan o vaxt artıq Sisianovun yanında idi). Cəfərqulu xan da Rusiya sarayına sədaqətlə xidmət edən bir şəxs kimi təqdim olunur. Qeyd olunur ki, həm erməni, həm də Cəfərqulu xan şah qüvvələrinə qarşı vuruşmaqda Sisianova kömək etməyə hazır olduqlarını bəyan etdilər (156).

Belə anlaşılır ki, Abbas Mirzənin düşərgəsi üzərinə gecə hücumunun həyata keçirilməsi Cəfərqulu xanla və erməni ilə məsləhətləşmələrdən sonra baş tutub. Müəllifin yazdığına görə, Sisianov 10 min nəfərlik qoşun dəstəsi hazırladı və onu Cəfərqulu xanın ixtiyarına verdi. Mənbənin məlumatına görə, Cəfərqulu xanın Abbas adlı xidmətçisi məsələdən hali olan kimi şah qoşunlarının düşərgəsinə qaçdı və orada qullarağası Həsən Qacarla görüşdü və bildiklərini ona çatdırdı. Şah qoşunlarının rəhbərliyi rusların hücum planından xəbər tutanda müvafiq taktika üzərində düşünməyə başladı. Belə ki, düşərgəni öz yerində saxlamaqla, qüvvələr çadırları tərk etdilər. Şah qüvvələri ətraf yüksəklərdə mövqe tutub səngərləndilər. Ruslar isə bundan xəbərsiz şah qoşunlarının düşərgəsinə tərəf hərəkətə başladılar. Bir tərəfdən yolların mürəkkəb şəraiti rus dəstəsini əldən saldı, digər tərəfdən isə onlar yüksəkliklərdə mövqe tutmuş şah qüvvələrinin mühasirəsinə düşdülər. Güclü zərbə alan rus qüvvələri zərbə alaraq geri çəkilmək məcburiyyətində qaldılar. Adı çəkilən mənbəyə görə, rusların 2 min nəfəri öldürüldü, 1500 nəfəri əsir götürüldü, 400 nəfəri isə yaralandı. Eyni zamanda bir neçə top şah qüvvələrini əlinə keçdi (157).

Dövr haqqında etibarlı mənbələrdən biri sayılan "Məəssere Soltaniyyə"də olan məlumata görə isə şah qoşunlarının rəhbərliyi tərəfindən Həsən xan yüzbaşı rus qoşunlarının təhlükəsi ehtimal edilən istiqamətə qarovula təyin olunmuşdu. Rus dəstəsi gecə hücumunu həyata keçirmək üçün hərəkətə başlaması Həsən xan tərəfindən də müşahidə edilibmiş. Bir tərəfdən gecə qaranlığı və bir tərəfdən də yollara yaxşı bələd olmaması nəticəsində rus qüvvələri nəzərdə tutulan marşrutdan yayınmalı olurlar. Yalnız səhərə yaxın rus dəstəsi şah qüvvələrinin düşərgəsinə gəlib çıxdı. Bu vaxt şah qüvvələri artıq döyüşə hazır vəziyyətdə rus qüvvələrinin gəlməsini gözləyirdi. Ruslar ixtiyarında olan toplardan istifadə etməyə çalışsalar da şah qoşunları onlara heç bir imkan vermədi. Ruslar çoxlu itki verib geri çəkildilər (158).

Həqiqətdə isə general Portnyaginin dəstəsi iyul ayının 25-nə keçən gecə çox ağır bir döyüşə qatlaşmalı oldu. Özünü qəfil təhlükədən sığortalamaq üçün general qüvvələrinin önünə Cəfərqulu xanın dəstəsini təyin etdi.

Gecə ikən bu dəstə şah qüvvələrinin mühafizə postları ilə qarşılaşdı. Cəfərqulu xanın döyüşçüləri onları aldatmağa, özlərini şah qüvvələrindən olduğunu göstərməyə çalışsalar da, mühafizə postunda dayananlar bu kələyi başa düşdülər və dərhal əsas qüvvələrə xəbər göndərdilər. Abbas Mirzənin çaparları rus qüvvələrinin yaxınlaşdığını Fətəli şaha da çatdırdılar. O da öz qoşunu ilə Abbas Mirzənin köməyinə gəldi (159).

General Portnyagin Abbas Mirzə qüvvələrinin düşərgəsinə çatanda onlar artıq yük arabalarını düşərgədə saxlayıb özləri yaxınlıqlardakı yüksəkliklərdə mövqe tutmuşdular. Gecə ikən Abbas Mirzənin qüvvələrinin bir hissəsi manevr edib rusların arxasına keçdi. Bununla rusların geri çəkilmək yolu da nəzarət altına götürüldü. General Portnyagin geri çəkilməyin də xeyli müşgül olduğunu görəndə sağ cinaha hücuma keçmək əmri verdi. Bu vaxt şah qüvvələri də onların üzərinə hücuma keçdilər. Ruslar topları işə saldılar. Ancaq az vaxtdan sonra rus topçuları hamısı həlak oldular. Ona görə də zabitlər özləri mərmi daşıyaraq topları işlətməyə çalışırdılar (160).

Rus qoşunlarının geri çəkilməkdən başqa çarəsi qalmadı. Çox isti havada susuz qalmaları da rusları tamam əldən saldı. Susuzluq elə bir çətin vəziyyət yaratdı ki, Portnyagin hətta geri çəkilərkən də yolunu su mənbəyinin yaxınlığından salmağa çalışdı. Ancaq ruslar su problemini həll etməyə macal tapmamış birləşmiş şah qüvvələrinin güclü zərbəsi altına düşdülər.

Bu döyüş 14 saatdan çox çəkdi. Rus qüvvələri təxminən 20 verstlik yolu döyüşə-döyüşə geri çəkilməli oldu. Tərəflərin verdiyi itkilər barədə Sisianov öz qeydlərində yenə qeyri-real rəqəmlər göstərmişdir. Sisianovun qeydlərinə görə, ruslar bu ağır döyüşdə cəmi 4 nəfər itirdilər. Halbuki bu döyüşdə ruslara ağır zərbə vurulması xəbəri İrəvan qalasında toplardan yaylım atəşlərinin açılması və şeypurların çalınması ilə qeyd olundu.

Arxiv sənədlərində bu döyüşdə 50 nəfər rus hərbçisinin öldürüldüyü və 100-ə qədərinin yaralandığı bildirilir (161). Rus tarixçisi Potto isə həmin döyüşdə 64 rus döyüşçüsünün öldürüldüyünü qeyd edirdi (162).

General Portnyaginin dəstəsi üzərində əldə edilən uğur İrəvan qalasında sevinclə qarşılandı və xüsusi olaraq bayram edildi (163).

Məhəmməd xanın döyüşçüləri həmin gün qalanın cənubunda rus mühasirəsinin zəifləməsindən istifadə edərək mayor Noldenin istehkamı üzərinə hücum etdi və oranı dağıtdı. Sonra da xan döyüşçüləri həmin istiqamətdə olan rus batareyasını məhv etdi.

Bundan sonra isə xan döyüşçüləri general Portnyaginin dəstəsi ilə vuruşan şah qüvvələrinin köməyinə getdilər. Rus mənbələrinin məlumatına görə, bu döyüş başa çatandan sonra şah qüvvələrinin 800 nəfərlik bir dəstəsi

İrəvan qalasına daxil oldu. Bundan başqa rus hərbçilərinin müşahidəsinə görə, xeyli sayda atlı da qalaya daxil oldu. Lakin sonradan onlar öz atlarını geri göndərdilər (164).

General Portnyaginin dəstəsinə vurulan zərbə general Sisianovun vəziyyətini daha da ağırlaşdırdı. Bir tərəfdən İrəvan qalasının mühasirəsi zəiflədi, digər tərəfdən də rus qüvvələrinin təchizat çətinlikləri artdı. İtkilərdən alınan ağır və psixoloji təsir isə qoşunların ümumi əhval-ruhiyyəsini ağırlaşdırdı. Sisianov özü etiraf etməsə də, şahidlər bildirirdilər ki, yem və ərzaq azlığından, yorğunluq və xəstəlikdən rus hərbçiləri çox əziyyət çəkirdilər. Vəziyyətin ağırlığına görə gündə 10-12 nəfər dünyasını dəyişməli olurdu (165).

Xüsusilə, ərzaq və yem azlığı Sisianovun dəstəsində vəziyyəti günü-gündən çətinləşdirirdi. Vəziyyət elə bir həddə çatdı ki, Sisianov İrəvan qalasının mühasirəsindən daha çox ərzaq və yem ehtiyatlarının təkmilləşdirilməsi barəsində düşünürdü. Bu çətinliyin aradan qaldırılmasına nail olunması üçün göstəriş verildi ki, Tiflis anbarlarından ərzaq və yem Pəmbəkdəki anbarlara daşınsın və oradan da İrəvanın ətrafında dayanmış qüvvələrə göndərilsin.

İrəvanın ətrafında dayanmış qüvvələrin ərzaq və yemlə təmin edilməsi üçün qərara alındı ki, Gürcüstan və Qazax əhalisindən yığılmalı olan pul vergisi əvəzinə ərzaq əşyaları toplansın və Qarakilsəyə göndərilsin. Orada rus qüvvələrinin başqa bir anbarı yerləşirdi. Mayor Xocayevin komandanlığı altında olan bir tabor da bu anbarı müdafiə edirdi. Həmin tabor ora gətirilən ərzağı İrəvana yola salmaqla bərabər, ətraf məntəqələrin mühafizəsini də təmin etməli idi (166).

Amma bu tapşırığı yerinə yetirmək heç də mümkün olmadı. Təsərrüfat işlərinin gərgin vaxtı olduğundan, Gürcüstandan və Qazaxdan toplanması nəzərdə tutulan ərzağı daşımaq üçün lazımi sayda araba mövcud deyildi. Belə olanda Gürcüstan hakimi müvafiq məmurlara göstəriş verdi ki, onlar Pəmbəyə yollansınlar, ehtiyac duyulan ərzağı oranın əhalisindən satın alsınlar və satıcıların arabaları vasitəsilə də Qarakilsəyə çatdırsınlar. Lakin məmurlar bildirirdilər ki, əhali hamısı dağlara köçüb, yem və ərzaq tapmaq çətindir, toplanmış müəyyən miqdar taxılın döyülməsi üçün isə xeyli vaxt tələb olunur. Məmurlar Gürcüstan hakimindən arabalar tapılmasını xahiş etdilər ki, bu məsələ də həll edilməmiş qaldı. Nəticədə isə Sisianovun dəstəsinin ərzaq çətinlikləri daha da artdı (167).

İyul ayının 26-da Pəmbəkdən 6 günlük ərzaq malları gətirmək mümkün oldu. Bu ərzağın gətirilməsi üçün 150 nəfərlik bir dəstə göndərildi. Lakin geri qayıdanda bu dəstə şah qüvvələrinin güclü hücumuna məruz qaldı. Yarıuçuq tikililərə sığınması bu dəstəni tamamilə məhv olmaqdan

xilas etdi. Sisianov məsələdən xəbər tutan kimi general Leontyevin rəhbərliyi altında 400 nəfərlik dəstəni köməyə göndərdi. General Leontyevin öhdəsinə 2 ədəd top da verildi. Onun köməyinin yetişməsindən sonra ərzağı düşərgəyə gətirmək mümkün oldu (168).

İyul ayının son günləri tərəflər arasında ciddi qarşıdurma baş verməsə də şah və xan qüvvələri fəaliyyətlərini dayandırmadılar. Məsələn, iyulun 28-dən 29-na keçən gecə xan döyüşçülərinin bir dəstəsi qaladan çıxaraq general Leontyevin karesi üzərinə hücum etdi. General Leontyevin karesi müdafiəni təşkil edib xan döyüşçülərinin hücumunun qarşısını ala bildi. Ayın 29-u gecəsi xan döyüşçüləri yeger alayına yaxınlaşıb rus hərbçilərindən əsir götürmək istədilər. Yegerlər bundan vaxtında xəbər tutub onlara atəş açdılar və bir nəfər qala sakinini yaralayıb əsir götürdülər. Ayın 30-da xan döyüşçüləri tərəfindən yenidən yegerlərin əsir götürülməsinə cəhd göstərildi. Bütün bunlar haqqında qeydlər edən Sisianov rus döyüşçülərinin itki verməsi haqqında yazmamışdır (169). Ola bilsin ki, Sisianov qəsdən öz itkilərini göstərməmişdir. Çünki o öz qeydlərində bir qayda olaraq öz itkilərini ya göstərmir, ya da mnimal həddə göstərirdi.

İyulun 31-də şah qüvvələrinin fəallaşması və rus mövqelərinə yaxınlaşması müşahidə olundu. Bu qoşunların bir dəstəsi mayor Montrezorun taboru üzərinə hücuma keçdi. Sisianov yenə də qoşunlarının bu hücumu zamanı hansı itkiyə məruz qalması haqqında məlumat vermir.

Avqust ayının əvvəllərində və sonrakı günlərdə də xan və şah qüvvələrinin fəallığı, kiçik dəstələrlə rus mövqeləri üzərinə hücuma keçməsi davam etdi. Bu hücumlar heç şübhəsiz ki, Sisianovu narahat edirdi, rus qoşunlarına az-çox itkilər yetirirdi. Bununla belə, avqust ayında Sisianovu yenə də narahat edən əsas məsələ dəstənin ərzaq çətinliklərinin aradan qaldırılması qayğısı idi. Dəstənin ərzaq çətinliklərini az-çox həll etmək məqsədilə Sisianov avqustun 2-də kapitan Spıtkovu 100 nəfərlik dəstə və bir ədəd topla Pəmbəyə yola saldı. Spıtkovun dəstəsinə çoxlu sayda erməni və gürcülər də qoşuldular. Lakin Spıtkov Pəmbəkdə heç nə edə bilmədi və orada ləngiməli oldu. Onda general Sisianov mayor Montrezoru 150 nəfərlik bir dəstə ilə onun arxasınca göndərdi (170).

Avqustun 7-dən 8-nə keçən gecə Sisianov yenə ərzaq gətirilməsi ilə bağlı 150 nəfərlik gürcü drujinasını Tiflisə yola saldı. Bu dəstəyə erməni məliki Abovun oğlu Rüstəm bələdçilik edirdi. Ruslara xidmətdə kifayət qədər sədaqət nümayiş etdirən Rüstəm iki dəfə uğurlu bələdçilikdən sonra yenidən dəstəni müşayiət etməyi boynuna götürdü. Amma bu dəfə o, arzusuna çata bilmədi. Həmin dəstə İrəvandan 30 verst aralandıqdan sonra şah qüvvələri ilə qarşılaşdı. Şah qoşun dəstəsinə gürcü vəliəhdi Aleksandr rəhbərlik edirdi. Onun 300 nəfərlik dəstəsi rus dəstəsini üzərinə hücuma

keçdi. Rusların çoxu qırıldı və bir çoxu da əsir götürülərək Təbrizə göndərildi (171).

Bir neçə gündən sonra gürcü vəliəhdi Aleksandr rəhbərlik etdiyi şah qoşun dəstəsi ilə Pəmbək vilayətinə gəldi. Gürcü vəliəhdi istəyirdi ki, Pəmbəklə İrəvan arasındakı yolları, o cümlədən Sisianovun Tiflislə olan əlaqələrini kəssin və rus dəstəsinin geri çəkilməsinə imkan verməsin. Bunun üçün Pəmbəkdə və onun ətrafında əlverişli şərait də yaranmışdı. Çünki Pəmbəklə bərabər, Qazaxın, Şəmşəddilin və Borçalının azərbaycanlı əhalisi rus işğalından narazı olduğu üçün üsyan qaldırıb gürcü vəliəhdinin dəstəsinin müdafiəsinə keçdilər. Pəmbək ağaları Nağı bəy də rus işğalından narazı bir şəxs kimi ətrafına azərbaycanlılardan ibarət dəstə topladı. O öz dəstəsi ilə rus qoşunlarına ərzaq və yem daşıyan nəqliyyat vasitələri üzərinə hücum edir və onların yüklərini müsadirə edirdi (172).

Avqustun 7-dən 8-nə keçən gecə gürcü knyazı və əyanları 150 nəfərlik bir dəstə ilə İrəvan yaxınlığından Tiflisə doğru hərəkətə başladılar. Bu dəstə İrəvandan heç 30 verst aralanmamışdı ki, şah qoşunlarının hücumuna məruz qaldı Həmin dəstədən yalnız bir neçə nəfər xilas ola bildi. Avqustun 10-da kapitan Firsovun rəhbərliyi altında 150 nəfərlik bir dəstə Eçmiədzinə göndərildi ki, Cəfərqulu xanın evindən götürülmüş duzu, habelə onun qohumlarını İrəvana müşayiət etsin. Həmin dəstə avqustun 12-də heç bir hadisə ilə qarşılaşmadan geri qayıtdı və tapşırılanları da Sisianovun düşərgəsinə qədər müşayiət etdi (173).

Avqustun 13-də şah qoşunlarının Gərniçay istiqamətində hərəkətə başladığı müşahidə olundu. Sisianova görə qoşunlara Fətəli şah özü komandanlıq edirdi. Onun göstərişi əsasında qoşun 5 sütuna bölündü və ətrafdakı yüksəklikləri nəzarət altına götürdü. Bu zaman rus hərbçiləri silahlarını bir kənara qoyaraq yaxınlıqdakı bağlarda atlarını otarırdılar. Hərbçilərin özləri isə yem və meyvə toplanması ilə məşğul olurdular. Ona görə şah qoşunlarının hücumunun qarşısını saxlamaq çətin oldu. Amma Sisianov yenə də rus hərbçiləri arasında mnimal sayda itki olmasından xəbər verir. Elə həmin gün xan qoşunları da polkovnik Kozlovskinin komandir olduğu taborun üzərinə hücuma keçdi. Sisianovun qeydlərinə görə, yegerlərin top və tüfəng atəşləri xan qoşunlarının 300 nəfərlik dəstəsini geri çəkilməyə məcbur etdi (174).

Avqustun 15-də şah qoşunlarının 300 nəfərlik bir dəstəsi mayor Montrezorun dəstəsinin yaxınlığından adlamaqla qalaya girməyə cəhd göstərdi. Montrezorun dəstəsinin müqaviməti şah atlıları qarşısında ciddi maneəyə çevrilsə də onların bir neçəsi nəhayət ki, qalaya girməyə müvəffəq oldu. Ayın 17-də xan qoşunları qalaya aparan yolun üzərində mövqe tutmuş Montrezorun dəstəsinə zərbə endirməyə cəhd göstərdi. Yenə Sisianovun

məlumatına görə, xan döyüşçüləri istəklərinə nail ola bilmədilər və geri çəkildilər (175).

Avqustun 19-da kapitan Firsov tərəfindən Eçmiədzindən üç arabada taxıl gətirildi. Şah qüvvələrinin və xan dəstələrinin fəallığı Sisianovun gözünü elə qorxutmuşdu ki, Eçmiədzindən gətirilən 13 arabanın müşayiət edilməsi üçün 100 nəfərlik dəstə və 1 ədəd top göndərildi. Firsov geri dönəndən sonra Sisianova məlumat verdi ki, əlavə olaraq Eçmiədzində 150 çetvert taxıl müasdirə olunub və 30 çetvert taxıl isə sahələrdən toplanıb. Həmin taxıl ehtiyatlarının gətirilməsi rus dəstəsinin ərzaq ehtiyacını xeyli vaxt üçün ödəyə bilərdi. Ona görə də Sisianov tərəfindən Eçmiədzinə yenidən 150 nəfərlik bir dəstə göndərildi. 35 yük arabasına malik olan dəstəyə 1 ədəd top da verilmişdi. Elə həmin gün Tiflis alayının mayoru Montrezorun rəhbərliyi altında 100 nəfərlik bir dəstə də Pəmbəyə göndərildi. Sisianov qeyd edirdi ki, mayor Montrezor Pəmbəkdə ərzaq toplanışı və Tiflisdən gələn ərzağın ötürülməsi ilə məşğul olan mayor Xocayevin yerinə göndərilmişdi (176). Çünki mayor Xocayevin bu istiqamətdəki fəaliyyəti onu qane etmirdi. Məhz bunun nəticəsi idi ki, hətta Pəmbəyin özünün vəziyyəti mürəkkəbləşmiş və bu məntəqənin şah qoşunlarının nəzarəti altına düşməsi təhlükəsi artmışdı. Rus qoşunlarının təminatının əsas anbarlarınını burada yerləşməsi Sisianovda müəyyən narahatlıqlar yaratmışdı.

Bundan başqa mayor Montrezorun Pəmbəyə göndərildiyi günlərdə Tiflisdən yola salınan təchizat karvanının həmin məntəqəyə çatması gözlənilirdi. Mayor Staxiyevin rəhbərliyi altında hərəkət edən həmin karvanın salamat Pəmbəyə çatması məsələsi Sisianovun ciddi diqqəti altında idi. Mayor Montrezor də Pəmbəkdə öz fəaliyyətini məhz həmin karvanın mühafizəsinin təmin edilməsi ilə başlamalı idi. Tarixçilərin yazdığına görə, mayor Montrezorun dəstəsi 100 nəfər yox, 350 nəfərdən ibarət idi və bu dəstəni üç ədəd top müşayiət edirdi. Lakin Montrezorun dəstəsinə bağlanılan ümidlər özünü doğrultmadı. Avqustun 21-də Qarakilsədən 10 verstlik məsafədə olan Saralı adlı məntəqədə mayor Montrezorun dəstəsi şahzadə Aleksandrın dəstəsi ilə üzbəüz gəldi və baş verən döyüşdə ruslara heç bir şans verilmədi. Göstərilən bütün müqavimət cəhdlərinə baxmayaraq, mayor Montrezorun dəstəsi demək olar ki, bütünlüklə məhv oldu. Sisianov yenə döyüşçülərindən neçəsinin öldüyünü qeyd etmir. Mövcud olan məlumatlara görə isə mayor Montrezorun öz də daxil olmaqla dəstədən 97 nəfər öldürülərək başları kəsildi (177).

Dəstədən yalnız iki nəfər qaçıb canlarını qurtara bildi. Mayor Montrezorun dəstəsi barəsində eşitdikləri Sisianova elə ağır təsir göstərdi ki, hətta həmin gün bu barədə ətrafındakılara məlumat verməyə belə cəsarət etmədi.

Avqustun 19-da Eçmiədzinə taxıl gətirməyə göndərilmiş mayor Levitskinin dəstəsinin geri qayıtması ləngidiyi üçün avqustun 22-də bu dəstənin ardınca polkovnik Maykovun rəhbərliyi altında başqa bir dəstə göndərildi. Mayor Levitskinin dəstəsi isə doğrudan da ağır vəziyyətə düşübmüş. Geri qayıdarkən bu dəstəni şah qüvvələri mühasirəyə aldılar. Mayor Levitski irəli hərəkət etməyin mümkün olmayacağını görəndə səngərlənməyi qərara aldı və avqustun 23-də polkovnik Maykovun dəstəsinin yetişməsi ilə bu dəstə nicat tapa bildi (178).

Tiflisdən ərzaq və taxıl gətirən mayor Staxiyevin dəstəsi avqustun 24-də rus işğalına qarşı etiraz edən Borçalı azərbaycanlılarının hücumuna məruz qaldı. Bu ərzaq karvanı Sisianovun dəstəsinin aclıqdan xilas edilməsi üçün əsas ümid yerlərindən biri idi. Ona görə də onun mühafizəsinə daha ciddi diqqət yetirilirdi. Mayor Staxiyevin dəstəsi daha yaxşı təchiz olunduğu üçün Borçalı azərbaycanlılarının hücumundan müdafiə oluna bildi. Ancaq dəstə çox da irəli hərəkət etməmiş Pəmbək və Qazaxın azərbaycanlı əhalisinin hücumuna məruz qaldı. Rus döyüşçüləri yenidən ağır döyüşlə qarşılaşdılar. Onlar çox çətinliklə irəliləməyə müvəffəq oldular və bir də avqustun 29-da Qarakilsə ətrafına yetişə bildilər. Qarakilsə ətrafında mayor Staxiyevin dəstəsi gürcü şahzadəsi Aleksandrın dəstəsi ilə üzbəüz gəldi. Mayor Staxiyevin gücü yalnız ona çatdı ki, müdafiə mövqeləri tutub Sisianovun göndərə biləcəyi köməyi gözləsin. Tiflisdən gələn dəstənin düşdüyü vəziyyəti eşidən kimi Sisianov dərhal köməyə dəstə göndərdi. 210 nəfərlik həmin dəstəyə general-mayor Talızin rəhbərlik edirdi. General Talızin sentyabrın 6-da mayor Staxiyevin köməyinə yetişə bildi. Amma bu dəstənin köməyi də ərzaq karvanının İrəvana çatdırılması üçün yetərli olmadı. General Talızinin müşayiəti ilə ərzaq karvanı Qarakilsəyə çatdırıldı və karvan orada dayandı (179).

Gürcü vəliəhdi avqust ayı ərzində keçirilən döyüşlərdə kifayət qədər fəal iştirak etdi və müəyyən nəticələr də əldə etdi. Avqust ayı ərzində ruslarla aparılan döyüşlərin uğurları barədə o, vilayət başçılarına və ətraf məntəqələrə göndərdiyi məktubunda da məlumat yaydı. O bildirirdi ki, aparılan son döyüşlərdə ruslara güclü zərbə endirilib, onların topları və silahları ələ keçirilib və çox yaxın zamanlarda o, Tiflisə daxil olacaqdır. Şahzadə Aleksandr yazırdı: "Bizim haqqımızda soruşursunuzsa, biz bura, Pəmbəyə 12 minlik fars qoşunu ilə gəlmişik. Sərdar Pirquluxan Qacar da bizimlədir. Bundan başqa Kartlidən, Kaxetiyadan çoxlu knyazlar, zadəganlar və sadə insanlar, habelə Qazax, Şəmşəddil və başqa tatarların və köçərilərin qoşunları bizimlədir. Əgər şah haqqında soruşursunuzsa, o, 160 minlik qoşunla İrəvandadır. Şah rus dəstəsini Irəvan yaxınlığında mühasirə edib. İndiyə kimi 3000-dən artıq rus öldürülüb. Bundan başqa, onlardan

kimsə kənara buraxılmır. Heç kim də kənardan onların yanına buraxılmır. Aclıq və xəstəlik isə rusları elə bir günə qoyub ki, gündə 30-40-dan artıq adam ölür. Bir miqdar rus burada, Pəmbəkdə, Qarakilsədə dayanır. Onları da biz elə sıxışdırmışıq ki, bu gün ya sabah onların yarısını aclıq qıracaq, yarıdan çoxunu isə biz qırmışıq. Beş yüz rus Pəmbəyə taxıl gətirməyə getmişdi. Biz bundan xəbər tutduq və dərhal dəstə ilə yola düşdük. Pəmbəkdə Saralı adlı bir kənd vardır. Ayın 21-də biz orada onlarla qarşılaşdıq, onları qırdıq, toplarını ələ keçirdik və bir nəfər də olsa sağ qalmadı" (180).

Şah qoşunlarının ərzaq təminatı üçün vəzifələndirilmiş rus dəstələri ilə döyüşləri barədə farsdilli mənbələrdə də məlumatlar vardır. Lakin bu məlumatlarda da müəyyən qeyri-konkretlik və qarışıqlıq qalmaqdadır. Həmin məlumatlar arasında Pəmbəkdə baş verən döyüş daha geniş müraciət obyekti olubdur. Döyüşün tarixi, detalları aydın verilməsə də, burada söhbət Montrezorun dəstəsinin məhvindən getdiyini anlamaq çətin deyil. "Tarix-e Zülqərneyn"də bu hadisə yığcam şəkildə öz ifadəsini tapmışdır. Mənbədə bildirilir ki, bir rus dəstəsi Tiflisdən rus qoşunları üçün yem gətirən zaman Pirqulu xan Qacarın qoşun dəstəsindən qorxub Pəmbəkdə dayanmış və kömək üçün Sisianova xəbər göndərmişdi. Sisianov da bunu eşidib bir yeger dəstəsini Pəmbəyə göndərdi. Yeger dəstəsinə mayor rütbəsində olan rus zabiti başçılıq edirdi. Məsələdən Fətəli şah xəbər tutan kimi Əliqulu xan Şahsevənin dəstəsini Pirqulu xanın köməyinə göndərdi. Adları çəkilən sərkərdələr birlikdə rusların üzərinə hücum etdilər. Pirqulu xan yüksəkliklərdən, Əliqulu xan isə düzən ərazilərdən rusların üzərinə şığıyırlar. Qısa müddətdən sonra ruslardan qırılan qırılır, qalanı isə toplarla birlikdə əsir düşürlər. Mənbədə o da bildirilir ki, ələ keçirilən əsirlər Xorasana, Farsa və İraqa göndərildi (181).

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar isə hadisələrə daha təfərrüatı ilə yanaşmışdır. Özü də onun təsvirində tək Pəmbək döyüşünün deyil, yem və ərzaq daşıyan rus dəstələri ilə aparılmış müxtəlif döyüşlərin də bəzi elementlərinə rast gəlmək mümkündür. Şah qoşunlarında gündəlik rəsmi yazışma aparılmadığı üçün çox güman ki, Mirzə Məhəmməd Sadıq Vəqayeneqar 1804-cü ilin avqust ayı ərzində eşitdiklərini elə bir döyüşün elementləri kimi qəbul etmişdir. Onun qeydlərində bildirilir ki, Sisianov (bir çox farsdilli mənbələrdə Sisianov "İşpəxdar" kimi təqdim olunur. Bu söz rus dilində olan "inspektor" sözünün təhrif olunmuş formasıdır –M.S.) İrəvan ətrafında ərzaq və yem qıtlığı çəkirdi. Bu qıtlığın aradan qaldırılması üçün Sisianov ermənilərdən daha çox istifadə etməyə çalışırdı. Bunun üçün bəzi yerli erməniləri Tiflisə göndərir və onlar orada Sisianovun rəhbərliyi altında olan rus qoşunlarının qələbələri və uğurları haqqında təbliğat aparırdılar.

Tiflisdə əhali, xüsusilə imkanlı əhali inanırdı ki, daha şah qüvvələri Tiflisə yetişə bilməz və onlar rusların nəzarəti altında qalmağa məhkumdurlar. Ona görə onlar da erməni təbliğatı əsasında rus qoşunları üçün ərzaq və yem toplamağa razı olurdular. Tiflis erməniləri də Sisianovun göndərdiyi ermənilərə dəstək verirdilər. Şəhər erməniləri dəfələrlə bir yerə toplaşıb yem və azuqə toplanması üçün planlar qururdular. Nəhayət, onların gördüyü bu işlər öz nəticəsini verirdi və bir müddət sonra Tiflisdə rus qoşun dəstəsi üçün müəyyən miqdar ərzaq və yem toplandı (182).

Mənbədə olan məlumata görə, Sisianov Tiflisdə toplanmış ərzaq və yemin İrəvan ətrafına gətirilməsi üçün üç marşrut müəyyənləşdirdi və hər marşrutun təhlükəsizliyi üçün 1500 nəfərlik bir dəstə göndərdi. Birinci marşrut Fərəhbulaq seçildi. Fətəli şahın tapşırığı ilə Əli xan Qovanlı və Məhəmməd xan Xəmsei o marşrutun təhlükəsizliyinin təmin edilməsinə göndərildi. İkinci marşrut Üçkilsə yolu olmalı idi. Həmin marşruta şah tərəfindən Rzaqulu xan Dəvəli göndərildi. Nəhayət üçüncü marşrut Pəmbək seçildi ki, oranın da təhlükəsizliyi Pirqulu xan Şambayatıya tapşırıldı. Fərəhbulaq istiqamətinə göndərilən rus dəstəsi Əli xan Qovanlı və Məhəmməd xam Xəmseinin dəstəsi ilə qarşılaşdı. Mirzə Məhəmməd Sadıq yazırdı ki, rus dəstəsi bu qarşıdurmada darmadağın edildi və onlardan 800 nəfəri əsir götürüldü. Fətəli şah da bu əsirləri öz sərkərdələri arasında bölüşdürdü (183).

Rus dəstəsinin belə ağır məğlubiyyətə uğraması və rus döyüşçülərinin əsir götürülməsi barəsində məlumatlara rus mənbələrində rast gəlinmir. Mirzə Məhəmməd Sadıq yazırdı ki, Pəmbəyə göndərilən rus dəstəsi yerli ermənilərin vasitəsilə orada müəyyən miqdar ərzaq və yem toplaya bildi. Rus dəstəsi geri qayıtmağa ehtiyat edirdi. Çünki Pirqulu xan Şambayatının dəstəsi rus hərbçilərinin canına bir vəlvələ salmışdı. Ona görə rus dəstəsinin rəhbəri Sisianova xəbər göndərdi ki, toplanmış ərzaq və yemin xəsarətsiz İrəvan ətrafına çatdırılması üçün əlavə kömək lazımdır. Mənbədə olan məlumatlara görə Sisianov, Pirqulu xanın bacarığına bələd idi və ona görə də Pəmbəyə əlavə bir neçə dəstə və bir neçə top göndərildi. Əlavə rus dəstələrinin köməyə göndərilməsi haqqında məlumat Fətəli şaha çatdırılanda o da müvafiq addım atmağı qərarlaşdırdı və onun tapşırığına əsasən Əliqulu xan Şahsevən bir neçə Şahsevən atlısı ilə Pirqulu xanın yanına yollandı. Pirqulu xan isə azuqə toplamış rus dəstəsinin dağ yüksəklikərinə sığındığını eşitdi və bu dəstənin üzərinə hücum çəkdi. Çox az zaman içərisində rus dəstəsi zərərsizləşdirildi, dəstənin topu və tüfəngləri ələ keçirildi (184).

Mirzə Məhəmməd Sadıq da xəbər verir ki, şah ələ keçirilmiş əsirləri İsfahana, Xorasana və digər yerlərə göndərdi. Şah qoşunlarının yuxarıda adları çəkilən sərkərdələri İrəvan ətrafında rus qoşunlarına qarşı döyüşlərin

iştirakçıları idilər. Bir tərəfdən xan qoşunlarının, digər tərəfdən də həmin sərkərdələrin rəhbərliyi altında olan şah qoşun dəstələri rus qoşunlarına güclü zərbə vurdular və Sisianovun təcavüzkar niyyətlərinin həyata keçirilməsi qarşısında ciddi maneəyə çevrildilər. Ona görə də Sisianovun dəstəsinin vəziyyəti günü-gündən ağırlaşmaqda idi. Azuqə çatışmazlığı və onun daşınmasının qeyri-mümkünlüyü vaxt ötdükcə Sisianovun özündə də ümidsizliyi daha da artırırdı.

Avqust ayının 25-də Eçmiədzindən yem gətirən rus dəstəsi də güclü hücuma məruz qalaraq böyük itki verdi. Xan süvarilərinin rus qoşunları üzərinə hücumları çoxaldı. Xoylu Cəfərqulu xanın arvadı (Məhəmməd xanın bacısı) Cəfərqulu xana və Sisianova xəbər göndərdi ki, ciddi hazırlıq görsünlər. Çünki xan qüvvələri yaxınlarda güclü hücuma keçməyə hazırlaşırdı. Sisianovla Cəfərqulu xan bu xəbərin doğruluğuna inanmasalar da həmin məlumat rus qoşunlarını bir neçə gün gərginlikdə saxladı.

Avqust ayının 25-də Məhəmməd xanın nümayəndəsi Xoylu Cəfərqulu xanın yanına gəldi və Məhəmməd xanın xəstə qohumunun müalicəsi üçün ondan həkim göndərilməsini xahiş etdi. Cəfərqulu xan onu Sisianovun yanına göndərdi. Rus qoşunlarının baş komandanı rədd cavabı verdi. Bu görüş əsnasında xanın nümayəndəsi rusların qalaya atəşi dayandırmasının səbəbi ilə maraqlandı. Onun fikrincə bu, rusların mərmisinin qurtarması ilə bağlı idi. Sisianov isə özünü sındırmamaq üçün bildirdi ki, onların mərmisi hələ çoxdur. Atəşi dayandırmaqda əsas məqsəd isə qala əhlini qırğından qorumaqdır. Çünki qısa müddətdən sonra onların hamısı Rusiya təbəəsi olacaqdı (185).

Deyilənlərin doğru olduğunu sübut etmək üçün Sisianovun əmri ilə Pəmbəkdən gətirilən mərmilər qonağa göstərildi. Məhəmməd xanın nümayəndəsi həmin yeri dəqiqliklə yadında saxladı və qalaya qayıdandan sonra oranı topçulara nişan verdi. Həmin nöqtə qala topçuları tərəfindən iki dəfə atəşə tutuldu. Atılan mərmilər rus anbarlarının yaxınlığında partladı. Bütün mərmilərin məhv olacağından qorxan Sisianov onların başqa yerə köçürülməsi barədə əmr verdi (186).

Gürcüstanla əlaqələr kəsildiyindən Sisianov İrəvan ətrafındakı yaşayış məntəqələrindən və Eçmiədzin monastırından taxıl əldə etməyə çalışdı. Erməni keşişlərinin təəssübkeşliyi nəticəsində Eçmiədzin monastırından bir qədər taxıl əldə edilsə də ətraf yaşayış məntəqələrindən heç nə tapmaq mümkün olmadı. Çünki əhali taxılı toplayıb gizlətmiş, sahələrdə qalmış taxıla isə od vurub yandırmışdı. Dərin ehtiyac içində qalan rus qoşununun ac-yalavac geri qayıtması Sisianovun qarşısında çətin bir məsələ kimi dayanırdı. Bu çətinliyin aradan qaldırılmasının yeganə yolunu Sisianov İrəvan qalasının işğalında görürdü. Onun fikrincə, İrəvan qalasının alınması

ilə qoşunun ərzaq problemi həll olunar və bir neçə günlük istirahətdən sonra geri qayıtmaq da asan olardı. Ancaq Sisianov yaxşı başa düşürdü ki, artıq qala müdafiəçilərinin iradəsini qırmaq mümkün deyil və mənəvi cəhətdən rus qoşunlarından çox-çox yüksəkdə dayanan qala döyüşçüləri bu qalanı heç bir vəchlə ruslara təslim etməyəcəkdir. Məhəmməd xanla üzbəüz döyüşdə Sisianovun uzunillik hərbi təcrübəsi qara qəpiyə də dəymədi. Və tezliklə irəvanlıları rus bayrağını öpməyə məcbur etmək arzusu ürəyində qaldı. Məğlubiyyətin ağrı-acısı bütün ağırlığı ilə onun üzərinə çökməyə başlayanda Sisianov yenə çalışdı ki, təkəbbürünü sındırmasın, müxtəlif yollarla qalanı ələ keçirmək üçün son dəfə cəhd göstərsin. Bunun üçün o, yanındakı Xoylu Cəfərqulu xanın vasitəçiliyindən istifadə etdi, onun köməyi ilə Məhəmməd xanla yenidən yazışmağa başladı. 1804-cü il avqust ayının 25-də yazdığı məktubunda Sisianov Məhəmməd xanı əmin edirdi ki, qalanı təslim etməsindən peşman olmayacaqdır. Əksinə, Rusiya imperatoru onu himayə altına alacaq, həyatının və əmlakının təhlükəsizliyinə təminat veriləcəkdir.

Sisianovun məktubu Məhəmməd xana Cəfərqulu xan tərəfindən çatdırıldı. Çox güman ki, Sisianov Cəfərqulu xanın Məhəmməd xanla qohumluq əlaqəsində olmasına və onun səylərinin qəbul ediləcəyinə ümid bəsləyirdi. Lakin Cəfərqulu xanın vasitəçiliyi bir nəticə vermədi və Məhəmməd xan öz iradəsindən dönmədi.

Məhəmməd xan cavab məktubunda konkret fikir söyləməyərək ustalıqla Sisianovun diqqətini azdırmağa çalışdı. O bir daha təkrar edirdi ki, Rusiya imperatoruna sədaqətlə xidmət etməyə hazırdır. Lakin ondan asılı olmayaraq baş verən hadisələr xanı bu məsələyə səbirlə yanaşmağa məcbur etdi. Məhəmməd xan Sisianova onu da çatdırdı ki, bəzi adamlar onun Rusiya ilə münasibətini başqa şəkildə izah etməyə çalışsalar da belə xəbərlərə inanmasın və xanlığı diqqətdən kənar tutmasın. Xan yazırdı: "Mən həmişə Rusiya imperatoruna sədaqətlə xidmət etmək fikrində olmuşam və İran hakiminə tərəf meyl etmək fikrində deyiləm. Ola bilsin ki, indiyə qədər mənim sizə yaxınlaşmaq cəhdlərimi bəzi adamlar sizə başqa şəkildə çatdırmışlar. Xahiş edirəm gələcəkdə belə şeyləri qəbul etməyin və məni öz qayğınızdan məhrum etməyin. Mənim Rusiya imperatoruna xidmət üçün çalışmağıma inanın. Doğrudur, sizin məndən narazı qalmaq haqqınız vardır, ancaq Allaha and olsun ki, bunun təqsirkarı mən yox, başqalarıdır. Mən isə bunu sonradan görüb qarşısını ala bilməmişdim. Xahiş edirəm məni lütfkarcasına bağışlamaqla himayədən kənar qoymayın" (187).

Sisianov Məhəmməd xana göndərdiyi məktublarında qala əhlinə qayğı ilə yanaşdığını inandırmağa çalışsa da, əməlləri ilə bunun əksini edirdi. Çünki mühasirəyə ara verilmir və hər hansı zərurət üzündən qaladan çıxmağa çalışanlar rus döyüşçülərinin hücumuna məruz qalırdılar.

Sisianov Məhəmməd xandan cavab məktubu alan kimi ona yeni bir məktub göndərdi, onu qəti qərar qəbul etmədiyi üçün sonradan peşman olacağı ilə hədələdi: "Siz özünü etiraf edirsiniz ki, mənim sizdən narazı qalmağıma haqqım var. Əgər siz öz xoşbəxtliyinizi istəsəydiniz onda iki ay ərzində imkan tapıb qala qapılarını mənim üzümə açardınız. O zaman sizin xoşbəxtliyinizə mane olan bütün kənar adamlar öz qüvvəsini itirər və sizə ziyan verə bilməzdilər. Sözlərimi yadda saxlayın ki, mən qaladan uzaqlaşan kimi sizi Fətəli şaha təslim edəcəklər. Onda peşman olacaqsınız. Ancaq gec olacaq. Ona görə də fikirləşin".

Məhəmməd xan isə öz fikrində qəti idi. Bunu Sisianov da yaxşı bilirdi. Vaxtın uzadılması isə rus qoşunlarını tam məhvə doğru sürükləyirdi. Qalanı silah gücünə almaq üçün artıq Sisianovda güc yox idi. Mühasirəyə son qoyub geri çəkilməyi isə o öz şəxsiyyətinə sığışdırmırdı. Əvvəllər rus silahı ilə bütün Asiyaya meydan oxumaq iddiasında olan Sisianov indi İrəvan qalası qarşısında aciz qalmışdı.

Avqust ayının 30-da aldığı bir xəbər Sisianova daha bir zərbə oldu. Qarakiləsədə dayanan mayor Xocayevdən Sisianova gələn məktubda bildirilirdi ki, Qarakilsənin 12 verstliyində onun dəstəsi şah qoşunlarının hücumuna məruz qalıb. Dəstədən yalnız bir erməni qaçıb canını qurtara bilib. Onun dediyinə görə, dəstənin daha 16 üzvü əsir götürülüb. Qalan rus hərbçilərinin hamısının isə başı kəsilibmiş. Məktub alınan gün dini bayramlardan birinə təsadüf etdiyi üçün Sisianov bu xəbəri qoşunlardan gizlətdi. Bayram mərasimindən sonra Sisianov yenidən bir neçə ermənini Məhəmməd xanın yanına göndərdi və bir daha qalanı təslim etməyi təklif etdi. Məhəmməd xan da cavab göndərdi ki, o özü qalanı təslim etməyə hazır olsa da, xalq və mollalar buna razı deyil (188).

Qalanın mühasirəsinə son qoyub geri çəkilmək biabırçılığını öz üzərinə götürmək istəməyən Sisianov 1804-cü il avqust ayının 31-də Hərbi şuranın iclasını keçirdi. İclasda alay komandirləri general-mayor Tuçkov, general-mayor Leontyev, general-mayor Portnyagin, polkovnik Maynov, podpolkovnik Simanoviç və korpusun artilleriya rəisi podpolkovnik Baron Klodt-fon-Yurqensburq iştirak edirdilər. Müzakirə edilən əsas məsələ İrəvan qalasının mühasirəsinin davam etdirilməsi və ya ona son qoyulması idi. Protokolda göstərilirdi ki, Sisianov İrəvan qalası ətrafında yaranmış vəziyyət barədə məlumat verdi, Qazax və Gürcüstanla əlaqələrin kəsilməsi, Pəmbəkdən və Eçmiədzindən gətirilən azuqənin yaxşı halda sentyabrın 6-na kimi çatacağı iclas iştirakçılarının diqqətinə çatdırıldı. Mayor Xocayevin yem toplanması işində səhlənkarlıq göstərməsi, onun yerinə göndərilən mayor Montrezorun dəstəsinin məhv edilməsi, İrəvan xanının qalanın təslim edilməsini uzatması və s. məsələlər də müzakirə edildi (189).

Sonra mayor Xocayevin də düşdüyü vəziyyət haqqında məlumat verildi. Bildirildi ki, mayor Xocayrvin dəstəsi vəliəhd Aleksandrın 6 min nəfərlik dəstəsinin hücumuna məruz qalıb və geriyə çəkilməli olub. Sisianov qeyd etdi ki, Eçmiədzin ətrafında olan taxıl da əhali tərəfindən yandırılıb ki, rusların əlinə keçməsin.

İrəvan xanı Məhəmməd xanla aparılan danışıqlar haqqında iclasda məlumat verildi. Avqust ayının 30-da qalanın təslim edilməsi təklifinə xan bildirib ki, ruslar gərək Fətəli şahın bölgədən getməsini gözləsinlər. Fətəli şah bölgəni tərk etməsə İrəvan qalasının təslim edilməsi mümkün deyildir. Xan bu cavabı gizli şəkildə göndəribmiş. Məktubun başqasının əlinə düşməməsi üçün ona hətta möhür də vurulmayıbmış.

Sisianov onu da bildirirdi ki, geri çəkilməyin özü də təhlükəlidir. Qoşun əldən düşüb, azuqə tükənmək üzrədir. Belə vəziyyətdə Pəmbəkə qədər 6 günlük yol getmək rus qoşunları üçün heç də asan deyildi. Ona görə də Sisianov qərar qəbul etmək məsuliyyətini iclas iştirakçılarının üstünə atdı. Bununla belə, Sisianov yenə də öz təkəbbürünü saxlamağa çalışır, özünü mühasirənin davam etdirilməsinin tərəfdarı kimi göstərirdi. Müzakirələrdən qabaq Sisianov iclası tərk etdi. Bununla guya o öz iradəsini iclas iştirakçılarına qəbul etdirmək istəmir və iclasda sərbəst qərar qəbul edilməsinə şərait yaradırdı. Sisianov otağı tərk etdikdən sonra iclasa yaşça böyük olan general-mayor Tuçkov sədrlik etdi. O tələb etdi ki, hamı öz fikrini açıqlasın.

Söz əvvəlcə artilleriya rəisi, podpolkovnik baron Klodt-fon-Yurqensburqa verildi. Baron Klodt bildirdi ki, qarşımızda bizdən bir neçə dəfə güclü olan qarnizon, arxamızda isə çoxsaylı düşmən qoşunu dayanıbdır Ona görə də qalaya hücum etmək mənasızdır və mühasirəyə son qoyulmalıdır.

Podpolkovnik Simanoviçin fikrincə isə adamlar tamam əldən düşmüş və mühasirənin davam etdiyi müddətdə qoşunların üçdə biri itirilmişdi. Simanoviçə görə hücum üçün hazırlanan nərdivanlar da azlıq təşkil edirdilər. Və buna görə də başlanacaq hər hansı bir hücum səmərəsizliklə nəticələnəcəkdi.

Polkovnik Maynov, general-mayor Leontyev və general-mayor Tuçkov da vəziyyəti reallıqla qiymətləndirərək İrəvan qalasının mühasirəsinə son qoyulmasına tərəfdar çıxdılar. Yalnız general-mayor Portnyagin böhranlı vəziyyətin düzəldilməsinin yeganə yolunu qalaya hücum etməkdə görürdü. Beləliklə, Hərbi şurada iştirak edən yeddi nəfərdən beşi İrəvan qalasının mühasirəsinə son qoyulmasına, iki nəfəri isə mühasirənin davam etdirilməsinə tərəfdar olduğunu bildirdi.

Sisianov Hərbi şuranın qərarını eşidəndən sonra bildirdi ki, qalaya hücum etməyə tərəfdar olsa da çoxluğun qərarını icra etməyə hazırdır. Bununla belə, görünür hələ də özünün sərkərdəlik nüfuzunun xilas ediləcəyinə ümidini kəsməyən Sisianov qalanın könüllü təslim edilməsinə bir də cəhd göstərdi. Sentyabrın 1-də o Məhəmməd xana, Naxçıvanlı Kəlbəli xana, xanlığın axundlarına və mollalarına və bütün İrəvan xalqına məktubla müraciət etdi. Məktubda deyilirdi: "...Knyaz Sisianov bununla aliməqam Məhəmməd xana, Kəlbəli xan Naxçıvanlıya, axundlara, mollalara və bütün xalqa aşağıdakıları təklif edir. Aliməqam xanlar və bütün şəhər aydın şəkildə görür ki, ay yarım ərzində sərdar Fətəli şah çoxsaylı qoşunlarla məğlubedilməz rus qoşunlarını geri çəkilməyə məcbur edə bilməmişdir və ruslar heç də farslar kimi irəvanlıların evlərini, onların son tikəsini oda tutmayıbdır. Ona görə də rus qoşunlarının baş komandanı hər iki xana, axundlara, mollalara və bütün xalqa sonuncu dəfə təklif edir ki, aşağıdakı şərtlərlə qalanı rus qoşunlarına təslim etsinlər: 1) rus qarnizonu İrəvan qalasına buraxılsın və iki alay üçün azuqə verilsin; 2) böyük imperatorun təbəəliyini qəbul etmək üçün and içilsin və bu anda sədaqətlə əməl edilsin; 3) ildə 100 min rubl miqdarında təzminat verilsin.

Əvəzində hər iki xan öz xanlığında, əvvəlki hüquq və səlahiyyətində saxlanılır. Yalnız Rusiyada ləğv edilmiş ölüm cəzası vermək hüququndan başqa. Onun əvəzində cəza qanunu yaradılacaqdır, hər hansı dinə xidmət etmək azadlığı saxlanılacaqdır və bunu üçün heç kim təzyiq və sıxışdırmalara məruz qalmayacaqdır; axundların, bütün ruhanilərin şəhər və kənd əhalisinin toxunulmazlığı təmin ediləcəkdir. Onlar öz əvvəlki hüquq və səlahiyyətlərində qalacaq və mülkiyyətləri qorunacaqdır; şəhərə buraxılmış olan İran qoşunu hər iki xanın əsirinə çevriləcək və onlardan Fətəli şahın yanındakı xan ailələrinin azad edilməsi üçün istifadə ediləcəkdir. Qalaya girən rus döyüşçüləri də buna kömək göstərəcəkdir" (190).

Sisianov məktubunda bu təkliflərinə sentyabrın 2-də cavab verilməsini tələb edirdi.

Məhəmməd xanın isə Sisianova göndərdiyi cavab məktubu məzmununa görə əvvəlki məktublarından elə də fərqlənmirdi. O, rus generalını yenə də səbir etməyə, şah hakimlərinin İrəvan xanlığından geri çəkiləcəyi günə qədər gözləməyə çağırırdı. Məhəmməd xan eyni zamanda yazırdı ki, onların itaət etdikləri dinlərin müxtəlifliyi üzündən xalqın ruslara qarşı meyli yoxdur. Başlıcası isə rus qoşunlarının məsciddə yerləşmələri və orada xristian dininin ayinlərinin icra edilməsi İrəvan əhalisinin qəzəbini xeyli artırmışdır

Məktubun sonunda Məhəmməd xan şahın yanında girov olan ailə üzvlərinin həyatı üçün qorxduğuna görə yaxın vaxtlarda Rusiya təbəəliyinin qəbul edilməsinin qeyri-mümkün olduğunu bildirirdi.

Sisianov Məhəmməd xana göndərdiyi məktubunda yazmışdı ki, onun xanlıq daxilində heç bir hakimiyyəti yoxdur və ona görə də xanlıq daxilində özbaşınalıqlar baş verir. Məhəmməd xan bu iddia ilə razılaşmırdı və qeyd edirdi ki, heç bir vilayətdə təbəələr öz xanına İrəvan xanlığında olduğu qədər sədaqətli deyildir. Məhəmməd xan xüsusi olaraq vurğulayırdı ki, o əsil müstəqilliyə malikdir və xanlığın daxilində heç bir şəxs onun iradəsinə qarşı çıxa bilməz. Məhəmməd xan sonra əlavə edirdi ki, Ağa Məhəmməd şah Qacarın ölümündən sonrakı 7 il ərzində özünü farslardan qoruya bilib, onlara lazımi müqavimət göstərib. Elə bu da onun müstəqilliyini nümayiş etdirirdi. Məktubunun sonunda isə xan bir daha qeyd edirdi ki, Fətəli şah bölgədən çəkiləndən sonra o, Rusiyanın himayəsini qəbul edəcəkdir (191).

Bu məktub Sisianovun bütün ümidlərini puça çıxardı və onun fatehlik arzularına son qoydu. Anladı ki, Məhəmməd xan onun şifahi hədə-qorxusu qarşısında sına biləcək bir şəxs deyildir. Elə həmin gün, yəni sentyabrın 2-də Sisianov bir daha Məhəmməd xana məktub göndərdi və islam dininə qarşı rusların hörmətsizlik etməsi ittihamını qəbul etmədi. Əksinə, Məhəmməd xanı inandırmağa çalışdı ki, Rusiyada bütün dinlərin icrası azaddır. Sübut kimi, Sisianov Gəncədə müsəlmanların azad şəkildə məzhəb ayinlərini icra etməsini göstərdi. General Sisianov yenə Məhəmməd xanı Rusiyanın tələblərini qəbul etməyə çağırdı və yenə məktubuna iki gün ərzində cavab verilməsini istədi ( 191a.).

Sentyabr ayının 4-də Məhəmməd xan bir daha general Sisianova cavab yazdı və bununla da İrəvan qalası ətrafında onların məktublaşmasına son qoyuldu. İrəvan xanı bir daha bildirdi ki, Fətəli şah qoşunları ilə bölgədədir və onun burada olduğu vaxt ruslarla hər hansı bir əməkdaşlığa gedilməsi mümkün deyil.

Rus qoşunları komandanı üçün nə qədər ağır olsa da nəhayət ki, Sisianov dəstəsinə İrəvanın mühasirəsini dayandırmaq və geri çəkilməyə başlamaq haqqında əmr verdi. Təkəbbürlüyünə və ötkəmliyinə vurulan zərbə, Məhəmməd xanın iradəsi qarşısında duruş gətirə bilməməsi Sisianov üçün elə bir xəcalət yükünə çevrildi ki, gecə ikən geri çəkilməyi və qala döyüşçülərinin qalib baxışlarından gizlənməyi qərara aldı. O gizlicə geri çəkilmək istəyirdi ki, qala əhlinin şadlığını və sevincini görməsin, onların bayram atəş-fəşanlığı rus generalının qəlbini didib-parçalamasın. Bu məğlubiyyətin ağrı-acısı Sisianovun 30 illik xidmətinin ən qara səhifələrindən birinə çevrildi və ömrünün sonuna qədər ona rahatlıq vermədi. İrəvan qalası ətrafındakı məğlubiyyətin həyatında hansı iz buraxdığını Sisianov

imperatora yazdığı məktubunda belə təsvir edirdi: " Özümə baxanda ürəyim ağrıyır Mənim 30 illik xidmətim ərzində ilk dəfədir ki, (Rusiya ordusu tarixində isə ikinci generalam ki) mühasirəyə alınmış şəhəri fəth etmədən qoşunları geri çəkdim". Sisianovun fikrincə, rus ordusunun tarixində birinci dəfə 1769-cu ildə knyaz Qolitsın Xotınanın mühasirəsini yarımçıq qoyaraq geri çəkilməyə məcbur olmuşdu. İkinci dəfə isə belə bir tale onun qismətinə çıxmışdı (192). Məhz buna görə də Məhəmməd xanı cəzalandırmaq və onun dərsini vermək istəyi Sisianovu heç vaxt tərk etmədi. 1804-cü il sentyabr ayının 14-də, yəni qaladan uzaqlaşmağa başlamasından cəmi 10 gün sonra o, Rusiya xarici işlər nazirinə yazırdı ki, xanlığına təhlükə yarananda onu köməyə çağıran, sonra da boş sözlərlə canını qurtaran İrəvan xanının məhv edilməsi və İrəvan qalasının alınması, rus silahının şərəfini qorunması danılmaz bir zərurətdir. Sisianov hətta bu planın tez bir zamanda həyata keçirilməsini təkid edir və əlavə edirdi ki, əgər rus qoşunları gücləndirilsə, qışda yenidən İrəvan üzərinə hücum edə bilər. Çünki qışda İrəvanla İran arasındakı əlaqələrin kəsilməsi İrəvanı köməksiz qoyar və bu da rus qoşunlarının uğuruna zəmin yarada bilərdi (193).

Ancaq bir müddətdən sonra imperatora yazdığı məktubunda Sisianov elə özü etiraf edirdi ki, qışda heç bir vəchlə İrəvan qalası üzərinə getmək olmaz. Çünki bu, qoşunların məhv olması ilə nəticələnə bilər. İrəvan üzərinə hücumun uğurla başa çatması üçün Sisianov təklif edirdi ki, əvvəlcə Naxçıvan, Bakı, Şəki və digər xanlıqlar işğal edilsinlər. Bundan sonra İrəvan xanlığı özü təslim olacaqdır (194).

Sisianovun ehtimal etdiyi kimi, rus qoşunlarının İrəvan qalası ətrafından geri çəkilməsi də böyük çətinliklərlə müşayiət olunurdu. 1804-cü il sentyabrın 3-nə açılan səhərə yaxın əvvəlcə topların mövqelərdən çıxarılıb geri daşınması haqqında göstəriş verildi. Sisianovun tapşırığına əsasən əvvəlcə sol cinah hərəkətə başlamalı və onun arxasınca da sağ cinah yola düşməli idi. Cəbhənin mərkəzində yerləşmiş olan general-mayor Tuçkovun dəstəsi qoşunlarn aryerqardını, arxa mühafizə dəstəsini təşkil etməli idi. General Tuçkov hərəkətə başlayanda mühafizə postlarında dayanmış döyüşçüləri də özü ilə gətirməli idi (195).

Səhərin açılmasına bir saat qalmış Sisianovun dəstəsi İrəvan ətrafını tərk etdi. Həmin gün xan və şah qoşunları tərəfindən rus qoşunlarına qarşı hər hansı bir hücum və ya təqib müşahidə edilmədi. Yalnız ayın 10-da şah qoşunları rus dəstəsinin hərəkət marşrutu istiqamətində göründülər. Amma yenə də qarşı tərəflər arasında hər hansı ciddi bir hadisə baş vermədi. Rus qoşunları arasında yayılan xəstəlik əslində bu dəstə üçün şah və xan qoşunlarının təhlükəsindən daha ciddi bir təhlükə idi. Qarakilsəyə qədər 10-12

günlük səfər ərzində rus hərbçilərindən daha 450 nəfər xəstəliyə tutuldu ki, onlardan da 145 nəfəri elə yolda dünyasını dəyişdi (196).

Qarakilsəyə çatandan sonra Sisianov Saratov muşketyor alayını orada saxlamağı qərara aldı. Bu alay Rusiya ilə İrəvan xanlığı sərhədinin mühafizəsini təşkil etməli idi. Eyni zamanda bu alayın nəzdində qospital yaradıldı və dəstədə olan bütün xəstələr həmin qospitala yerləşdirildi. Bundan sonra isə Sisinov Tiflisə doğru hərəkətini davam etdirdi (197).

Farsdilli mənbələrə görə, rus qoşunlarının geri çəkilməsi şah qoşun dəstələri tərəfindən müşayiət olundu. Bununla bağlı şah Pirqulu xan Şambayatıya və Əliqulu xan Şahsevənə, baş keşikçibaşı Məhəmməd Hüseyn xan Qovanlı Qacara göstəriş verdi. Mənbədə o da bildirilir ki, rus qüvvələrinin təqib olunması müəyyən döyüşlərlə yadda qaldı ki, bunların nəticəsində ruslar əlavə çətinliklərlə üzləşdilər. Rusların geri çəkilməsi həyata keçəndən sonra Məhəmməd xan şah qoşunları ilə təkbətək qaldı. Bu qoşunlara müqavimət göstərməyin mənasız olduğunu bildiyi üçün Məhəmməd xan Fətəli şahla barışıq aramağa başladı. Mövcud olan məlumatlara görə, Məhəmməd xan Fətəli şahın düşərgəsinə getdi və ondan bağışlanmasını xahiş etdi. Fətəli şah onun yenidən İrəvan xanı kimi qalmasına razı oldu. Kəlbəli xan Naxçıvanlı də şahın mərhəməti ilə qarşılaşdı və bildirirlir ki, Kəngərli camaatı ona tapşırıldı. Bundan başqa Məhəmməd xanın şah düşərgəsində girov olan oğlu azad edildi və o, İrəvana qayıtdı (198).

Rus qoşunlarına qarşı döyüşlərdə fəallıq göstərən bir sıra şəxslər də şahın mükafatlarına layıq görüldülər. Məsələn, İsmayıl xan Şambayatı yerli əhalinin xahişinə əsasən Xoy xanı təyin edildi. Onun böyük qardaşı olan Məhəmmədəli xan Şambayatı Azərbaycan sərdarı vəzifəsinə təyin edildi. Gürcü vəliəhdi Aleksandra icazə verildi ki, Naxçıvanda qalsın. Bu təyinatları aparandan sonra Fətəli şah qışın başlanğıcında Tehrana qayıtdı (199).

İrəvan ətrafındakı məğlubiyyətin əvəzini qismən çıxmaq üçün Sisianov geri qayıdarkən Şuragöl sultanı Budaq sultana Rusiyanın təbəəliyini qəbul etməyi təklif etdi. İrəvan yaxınlığında ciddi itkilər verib xeyli zəiflədiyinə görə rus qoşunlarının hər hansı qəti tədbirə əl atacağına şübhə edən Budaq sultan Sisianiva cavabı xeyli ləngitdi və bununla da vaxtı uzatmağa çalışdı (200).

1805-ci ilin əvvəlində Məhəmməd xan Şuragölün Rusiya işğalı altına düşə biləcəyindən qorxduğu üçün Budaq sultanı İrəvana çağırtdırdı və onu həbs etdirdi. Budaq sulatının azad edilməsi üçün o, mahal əhalisindən 30 min rubl tələb etdi və hədələdi ki, əks təqdirdə mahala qarşı daha kəskin tədbirlərə əl atacaqdır. Pəmbəkdə dayanan rus qoşunlarının komandanı general-mayor Nesvetayev Şuragöldə yaranan vəziyyətin Rusiynın maraq-

larına cavab vermədiyindən ixtiyarında olan qoşunla ora hərəkət etmək üçün Sisianovdan icazə istədi. Baş komandanın razılığı ilə o, mart ayının 30-da vilayəti tutdu. Onun təkidi və tələbi ilə vilayətə yeni hakim təyin olundu və vilayətin Rusiyanın himayəsi altına keçməsi barədə sənəd imzalandı. Irəvan xanlığını rus təcavüzündən qorumaq üçün Məhəmməd xan Şuragöllə xanlığın sərhəddində qoşun hissələri yerləşdirdi. Bu tədbir ruslar tərəfindən qəzəblə qarşılandı və ona görə də general-mayor Nesvetayev Sisianovun razılığı ilə həmin qoşun hissələrini xanlığın daxilinə doğru sıxışdırmağa başladı. Bir neçə yaşayış məskəni məhv edildikdən sonra rus qoşunları Eçmiədzinə tərəf istiqamət götürdülər. Digər rus zabitləri və generalları kimi Nesvetayev də Eçmiədzin sərvətindən varlanmaq imkanını əldən vermədi və əvvəlki talandan sonra orada qalan bütün qiymətli əşyaları özü ilə apardı. Monastırdakı qiymətli əşyalardan yalnız Nadir şahın bağışladığı və bahalı daş-qaşlarla bəzədilmiş böyük qızıl lampadaya toxunulmadı.

Rus qoşunlarının İrəvan ətrafında uğursuzluğa düçar olmasını Fətəli şah öz qoşunlarının uğuru kimi qiymətləndirirdi. İrəvan qalasının qorunması onu razı salsa da vaxtilə şah saraylarının hakimiyyəti altında olmuş və sonradan müstəqilliyini qazanmış ərazilərin, o cümlədən Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsi onu heç də qane etmirdi. Buna görə də rus qoşunlarınını geri çəkilməsi şahda Azərbaycan xanlıqlarının ələ keçirilməsinə ümidi xeyli artırdı. O biri tərəfdən də şah bilirdi ki, rus qoşunlarının möhkəmləndirilməsi üçün Rusiyadan lazımi qədər qüvvə də göndərilməyib. Bu da şah sarayının planlarının həyata keçməsinə kömək edə bilərdi.

1804-cü ilin sonlarından başlayaraq Fətəli şah öz nümayəndələrini Şimali Azərbaycan xanlıqları ərazsinə göndərdi və onların vasitəsilə yaxın vaxtlarda çoxsaylı qoşunlarla Rusiyaya qarşı müharibəyə başlayacağı barədə xəbərlər yaydı. Bu kampaniya 1805-ci ilin əvvəllərində də davam etdi. Şah belə xəbərlər yayırdı ki, keçən il müharibəyə hazırlaşmadan rus qoşunlarına güclü zərbə vura bilmişdisə, bu il güclü hazırlıqdan sonra daha böyük nəticələrə nail olacaqdır. Şah sarayı inanırdı ki, çoxsaylı qoşunlarla hərəkətə başlayanda Sisianov özü birdəfəlik Cənubi Qafqazla vidalaşmalı olacaqdır.

O biri tərəfdən şah heç şübhəsiz ki, Qafqazdakı rus qoşunlarının sayı artmamış öz uğurlarını genişləndirmək niyyətində idi. Şahın fikrincə, Sisianovun dəstəsinin öz sıralarını bərpa etməmiş növbəti uğursuzluğa düçar olması Qafqazın tamamilə şah sarayının nəzarəti altına düşməsi ilə nəticələnə bilərdi.

Fars mənbələr isə əksinə, İrəvan ətrafındakı döyüşlərdən sonra Fətəli şahın geri çəkilib Tehrana dönməsini və qoşunların Qafqazdan çıxarılmasını səhlənkarlıq kimi qiymətləndirir və bundan sonra rus təcavüzünün Qafqazda

daha da genişləndiyini yazırdılar. Bildirilir ki, bunun nəticəsi kimi Sisianov Tiflisdə və Gəncədə daha da möhkəmləndi və Qarabağ xanlığının Rusiya himayəsi altına gətirilməsi üçün əməli addımlar atdı (201).

Bəzi tarixi araşdırmalara görə isə şah qoşunlarının Qafqazdan geri çəkilməsi, bu qoşunların döyüş səviyyəsinin aşağı olması ilə bağlı idi. Ona görə zərurət yaranmışdı ki, şah qoşunlarının təkmilləşdirilməsi üçün zəruri addımlar atılsın . Başqa sözlə, Abbas Mirzə rus qoşunlarının Qafqazda sərbəst buraxılması təhlükəsini hiss edirdi. Lakin onun ixtiyarında olan qoşunlar da o səviyyədə deyildi ki, rus qoşunlarına ciddi müqavimət göstərə bilsin. Bu istiqamətdə ortaya çıxan məsələlərin həllinə nail olmaq üçün Abbas Mirzə Tehrana üz tutdu. Saray əyanları və məsul şəxslərlə görüşdü, qoşunların təkmilləşdirilməsi üçün maliyyə yardımlarının göstərilməsi zəruriliyini onların nəzərinə çatdırdı. Amma o, saray əyanları arasında lazım olan dəstəyi tapa bilmədi. Abbas Mirzə şübhə etmirdi ki, qoşunların təkmilləşdirilməsi üçün təcili tədbirlər həyata keçirilməsə rus qoşunları bütün Azərbaycanı tutaraq Tehrana doğru irəliləyəcəkdir.

Böyük səylərdən sonra nəhayət ki, Fətəli şah Abbas Mirzənin narahatlığının doğru olduğunu qəbul etdi və anladı ki Abbas Mirzəyə lazımi kömək göstərilməzsə rus qoşunlarının qarşısını saxlamaq mümkün olmayacaqdır Şah onu da anlayırdı ki, güclü qoşuna malik olmadan Azərbaycan xanlıqlarını nəzarət altına alınması da mümkün olmayacaqdır. O, oğluna mənəvi dəstək olmaq və onun döyüş mənəviyyatını qaldırmaq üçün "Mirzə Bozorg" ləqəbi ilə məşhur olan Mirzə İsa Fərahanini onun vəziri təyin etdi. Kifayət qədər təcrübəli dövlət xadimi olan Mirzə Bozorg əvvəllər də Abbas Mirzənin vəziri idi. Lakin o, bəzi saray intriqalarının qurbanı olaraq Abbas Mirzənin vəzirliyindən uzaqlaşdırılmışdı (202).

Qeyd etmək lazımdır ki, qoşunların təkmilləşdirilməsinə nail olunması istiqamətində Abbas Mirzəyə əngəl olan ən böyük maneələrdən biri onun qardaşları idi. Bu şəxslər heç bir vəchlə istəmirdilər ki, Abbas Mirzə əldə etdiyi qələbələrlə daha böyük nüfuz sahibinə çevrilsin, istedad və zəkası ilə fərqlənsin. Ona görə də onun qardaşları lazımi addımların atılmasında həm saray əyanlarına mane olur, həm də hər vasitə ilə Fətəli şahın diqqətini bu məsələlərdən yayındırmağa çalışırdılar.

Lakin bütün bu maneələrə baxmayaraq Abbas Mirzə 1805-ci ilin baharının ilk ayında Azərbaycana doğru hərəkət başladı. Farsdilli məlumatlara görə, onun ixtiyarında 50 minlik qoşun dəstəsi var idi. Abbas Mirzə əvvəlcə Zəncana gəldi və oradan da Təbrizə doğru hərəkətə başladı. Ondan bir müddət sonra Fətəli şah özü də Azərbaycana doğru hərəkətə başladı. O, rus qoşunlarına qarşı başlanan yeni döyüşlərdə Abbas Mirzəni

dəstəkləməyi qərarlaşdırmışdı. Bir müddət Sultaniyyə çəmənində düşərgə salan Fətəli şah sonra Ocan çəməninə yollandı (203).

Beləliklə, 1805-ci ilin baharında şah qoşunlarının Cənubi Qafqaza doğru yeni bir yürüşə başladı. Şah Təbrizə çatandan sonra Abbas Mirzə Araz çayını keçib Qarabağ doğru irəlilədi. 1805-ci ilin yazında və yayın əvvəlində Cənubi Qafqazda əsas proseslər Qarabağda və Gəncə ətrafında baş verdi. Abbas Mirzə öz qoşunları ilə bu istiqamətdə bir neçə döyüşdə iştirak etdi. Bəzi keçici uğurlar istisna edilərsə, bütünlükdə şah qoşunları qarşıya qoyulan məqsədə nail olmadı və Cənubi Qafqaz şah sarayının nəzarəti altına gətirilmədi. Yəni, bütün cəhdlərə baxmayaraq Abbas Mirzə Cənubi Qafqazda hərbi təşəbbüsü ələ ala bilmədi (204).

Belə bir şəraitdə də İrəvan xanlığının strateji əhəmiyyəti bir daha diqqət mərkəzinə gəldi. 1805-ci ilin yayının əvvəlində İrəvan xanı Məhəmməd xanın guya rus qoşunları rəhbərliyi ilə əməkdaşlığa başlaması barədə farsdilli mənbələrdə məlumatlar vardır. Bununla bağlı, hər hansı bir tutarlı fakt və sübut isə göstərilmir. Lakin güman etmək olar ki, Qarabağda və Gəncə ətrafında şah qoşunları ciddi uğurlar qazana bilməyəndə Cənubi Qafqaza nəzarətin əldə saxlanması üçün İrəvan xanlığında möhkəmlənməyin zəruriliyi diqqəti cəlb etdi və ona görə də konkret addımlar atıldı. Mənbələrdə və tarixi araşdırmalarda göstərildiyi kimi, Məhəmməd xanın İrəvan qalasına yaxın buraxmadığı Sisianovla yenidən əməkdaşlığa girə biləcəyi heç də inandırıcı görünmür. Əldə olan rus mənbələrinin məlumatları da bunu sübut edir ki, Məhəmməd xan Sisianovla və ya Rusiyanın hər hansı bir nümayəndəsi ilə əməkdaşlığa girməmişdi.

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar yazır ki, Qarabağ ətrafındakı döyüşlər zamanı Fətəli şaha İrəvan xanının yenidən ruslarla sazişə girməsi haqqında məlumat çatdırıldı və Abbas Mirzəni əmrinə əsasən, İsmayıl xan Damğani Zəncandan İrəvan qalası ətrafına göndərildi. İsmayıl xan Damğaniyə tapşırıldı ki, İrəvan xanının davranışını nəzarət alında saxlasın və bu xanlığın Rusiya ilə yeni əməkdaşlığa başlamasına imkan verməsin. İsmayıl xan da İrəvan yaxınlığına gəlib vəziyyəti öyrəndi və şaha məlumat göndərildi ki, doğrudan da şah qoşunları Qafqazı tərk etdikdən sonra ruslar aldadıcı vədlərlə Məhəmməd xanla sazişə girmiş və onu əməkdaşlığa razı salmışlar. O da bildirilir ki, bir neçə mayorla bir rus sərdarı İrəvan qalasındadır və 700 nəfər əsgər isə İrəvan xanlığındakı vəziyyəti nəzarət altında saxlayır (205).

Mənbədə olan məlumata görə, İsmayıl xan Damğanı bu vəziyyətdən xəbər tutandan sonra əvvəla ətrafındakı adamlara xəbərdarlıq etdi ki, özlərini çox ehtiyatla aparsınlar və onların davranışı İrəvan xanının adamlarında heç bir şübhə yaratmasın. O biri tərəfdən də İsmayı xan Damğani Mübarək adlı

xidmətçisini gizli şəkildə Xoy hakimi İsmayıl xan Şambayatinin yanına göndərdi. İrəvan xanının guya ruslarla olan sazişini ona xəbər verəndən sonra xahiş etdi ki, heç kimin xəbəri olmadan gecəliklə öz dəstəsi ilə İrəvana gəlsin. İsmayıl xan Şambayati də bu xəbəri alandan sonra gecəliklə 300 nəfərlik bir dəstəsi ilə İrəvana doğru hərəkətə başladı və İrəvan ətrafında İsmayıl xan Damğani ilə görüşdü. Bundan sonra bu xanlar birlikdə fəaliyyətə başladılar.

Mirzə Məhəmməd Sadıq Vəqayeneqar daha sonra yazır ki, İrəvan xanının şübhələrini oyatmamaq üçün İsmayıl xan Damğani xana məktub yazdı və bu məktubda xanın nəzərinə çatdırdı ki, şahın fərmanına əsasən onun köməyinə göndərilibdir və onun rəhbərliyi altında fəaliyyət göstərməlidir. Sonra İsmayıl xan Damğani nə etmək lazım gəldiyi barədə İrəvan xanının göstərişini gözlədiyini bildirdi.

İddia olunur ki, İrəvan xanı İsmayıl xan Damğaninin gəlməsi haqqında məsələni yanındakı rus zabitləri ilə məsləhətləşdi və qərara alındı ki, İsmayıl xan Damğani və onun adamları qalaya buraxılsınlar və sonra da onlar hamısı qala daxilində həbs edilsinlər. Xan cavab məktubu yazmaqla İsmayıl xan Damğanini və onun adamlarının gəlişini qəbul etdiyini və onları bir gün sonra qalaya dəvət etdiyini yazdı. İsmayıl xan Damğani də İrəvan qalasının hamamına getmək adı ilə xanın görüşünə gəlməyi gecəyə təxirə saldı.

İrəvan xanı və onun yanındakı ruslar İsmayıl xanın bu istəyi ilə razılaşmadılar. İsmayıl xan Damğani qalaya girmək əsnasında İsmayıl xan Şambayatinin 300 nəfərlik dəstəsini qala divarlarının arxasında yerləşdirdi və bir neçə şəxsin müşayiəti ilə qalaya daxil oldu. Qalanın qapıları açılan kimi İsmayıl xan Damğaninin göstərişi ilə darvaza mühafizəçiləri həbs edildilər və İsmayıl xan Şambayatinin adamlarından 100 nəfəri qala divarlarını və bürclərini nəzarət altına aldılar. İsmayıl xan Damğani hamamdan çıxandan sonra Məhəmməd xanın yanına yollandı və bu vaxt Məhəmməd xan xəbər tutdu ki, qala divarları və mühüm nöqtələr İsmayıl xan Damğaninin adamları tərəfində tutulub. Guya Məhəmməd xan vəziyyəti belə görəndə İrəvanı tərk edib qaçmalı oldu. Bundan sonra İsmayıl xan Damğani İrəvan qalasının ələ keçirilməsi haqqında Fətəli şaha məlumat göndərdi və Fətəli şah da onu İrəvan xanı təyin etdi (206).

Müəyyən tarixi mənbələrə istinad edən bəzi tarixi araşdırmalarda İsmayıl xan Damğaninin İrəvan qalasını ələ keçirməsi ilə Məhəmməd xanın qaladan çıxıb qaçdığı bildirilir və onun gələcək taleyi haqqında məlumat verilmir (207).

Bəzi tarixi ədəbiyyatda isə İrəvan qalasının İsmayıl xan Damğani tərəfində deyil, Mehdiqulu xan tərəfindən tutulduğu qeyd olunur. Bildirilir ki, Mehdiqulu xan Fətəli şah tərəfindən tapşırıq aldı ki, İrəvana yollansın və

İrəvan xanının hansı addımlar atmaq niyyətində olduğunu aydınlaşdırsın. Mehdiqulu xan da İrəvana gələndən sonra müəyyənləşdirdi ki, Məhəmməd xan yenidən rusların təsiri altına düşüb və ona görə də onu öz vəzifəsindən kənarlaşdırmağı qərarlaşdırdı. O, İrəvan qalasını yeni mühasirəyə qarşı hazırlamaq bəhanəsi ilə qalaya daxil oldu, qala divarlarını və bürclərini öz adamları vasitəsilə nəzarət altına aldı və Məhəmməd xan vəziyyətdən o vaxt xəbər tutdu ki, onda qalaya nəzarət artıq əldən çıxmışdı (208).

İstinad olan tarixi araşdırmada Məhəmməd xandan sonra İrəvan xanının kim olmasına işarə edilmir. Lakin rus mənbələri Məhəmməd xandan sonra İrəvan xanı vəzifəsinə məhz Mehdiqulu xanın təyin olunduğunu yazırlar. Qeyd etmək lazımdır ki, rus mənbələrində Məhəmməd xanla bağlı birbaşa məlumatlar olmasa da, orada daha konkret məqamlarla rastlaşmaq mümkündür. Həmin məlumatlardan aydın olur ki, 1805-ci il iyun ayının ortalarında Mehdiqulu xan 3 min nəfərlik qoşun dəstəsi ilə İrəvan qalasına daxil olmağa və Məhəmməd xanı ailəsi il birlikdə həbs etməyə nail oldu (209).

Məhəmməd xanın həbs edilməsi şah sarayı ilə birlikdə Sisianovun da sevincinə səbəb oldu. O, Rusiya xarici işlər nazirinə göndərdiyi məktubunda qeyd edirdi ki, Məhəmməd xan həm ruslara, həm də farslara xəyanət etmişdir. Ona görə Sisianov həm də sevinirdi ki, Məhəmməd xan İrana göndəriləcək və orada qətlə yetiriləcəkdir.

Sisianov tamamilə doğru olaraq qeyd edirdi ki, Məhəmməd xanın yeritdiyi siyasət nə Rusiyanı, nə də şah sarayını qane edir. Bu iki dövlət arasında varlığını qoruyub saxlamağa çalışan İrəvan xanının mövqeyi şah sarayının da istəklərinə zidd idi. Sisianovun komandanlığı altında rus qoşunlarının hücum zamanı Məhəmməd xanın Qacar sarayı ilə əməkdaşlıq etməsinə baxmayaraq şah da, Abbas Mirzə də yaxşı başa düşürdülər ki, Məhəmməd xan daxilən şah sarayının asılılığını qəbul etmək istəmir. Buna görə də imkan əldə edən kimi Məhəmməd xan İrəvan xanlığından kənarlaşdırıldı.

Məhəmməd xanın həbsi ilə İrəvan xanlığının tarixinin maraqlı səhifələrindən biri tamamlandı. 1805-ci ilin avqustunda Şamxor ətrafında məğlubiyyətə uğrayan Abbas Mirzə öz qoşunları ilə İrəvan qalasına gəldi və burada bir müddət qaldıqdan sonra Məhəmməd xanı və onun ailəsini də götürüb geri çəkildi (210). Xanlığın idarəsi Mehdiqulu xana tapşırıldı. Ondan başqa Kəlbəli xan Naxçıvanlı və gürcü vəliəhdi Aleksandr da hələlik qalada idilər. Məlumatlara görə, Mehdiqulu xanın ixtiyarında üç minlik qoşun dəstəsi saxlanılmışdı.

Zor qarşısında susmağa məcbur olan İrəvan əhalisi Məhəmməd xanın həbsindən və onun yerinə şah sərkərdəsinin təyin edilməsində çox narazı idi

və vaxt keçdikcə bu narazılıq açıq xarakter almağa başladı. Həmin narazılıq və etirazlar o dərəcədə çoxalıb kütləviləşdi ki, 1805-ci il avqust ayının axırlarında İrəvan əhalisi Mehdiqulu xana qarşı üsyan qaldırdı və şah sarayının ağalığına qarşı özünün barışmaz münasibətini bildirdi.

Qalada olan Kəlbəli xan şah ağalığından qurtarmaq üçün gizli yollarla rus generalları ilə əlaqə yaratdı və onlarla əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. Maraqlı burasıdır ki, verilən məlumatlara görə, İrəvan əhalisi onu da ruspərəstlikdə günahlandıraraq qaladan qovdu. Yəni, xalq kütlələri xanlığın nə Qacarların, nə də Rusiya işğalı altına düşməsini istəyirdi. Lakin malik olduqları imkanlarına görə irəvanlılar iki böyük imperiyaya qarşı bərabər səviyyədə mübarizə aparmaq gücünə malik deyil-dilər. Qoşunların uğursuzluğa düçar olub geri qayıtmasına baxmayaraq, Rusiya İrəvan xanlığına olan iddiasından heç də əl çəkmədi. Bu iddiasını rus generalları Qacar sarayı qarşısında qaldırmaqdan da çəkinmirdilər. Sisianov hələ 1805-ci ilin martında Fətəli şaha göndərdiyi məktubunda qeyd edirdi ki, əgər əmniyyət içində yaşamaq istəyirsə iki dövlət arasındakı sərhədin Kür və Araz çaylarından keçməsinə razı olmalıdır. Sisianov yenə də ona məxsus olan dikbaşlıq və təkəbbürlə bildirirdi ki, imperator qoşunları güclü tufan kimi onun qarşısına çıxan köklü palıdları belə yerindən qoparmağa qadirdir və imperatorun iradəsi olarsa bu qoşunlar hətta Hindistna kimi gedib çıxa bilərlər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1.Акты собранные Кавказской Археологической Комиссией (АКАК). Т. II, с.566
2. Yenə orada
3. Присоединение Восточной Армении к России. Ереван, 1972, с.42
4. Дубровин Н. История войн и владычества русских на Кавказе. Т.IV, СпБ, 1886, с.268
5. AKAK, т. I, с.273-274
6. Присоединение Восточной Армении к России..., с.11
7. Yenə orada, s.12
8. AKAK, т.II, ...с.609
9. AKAK, т.I, с.274
10. Дубровин Н. История войн. ... т.IV, с.277
11. AKAK, т.II, ...с.610
12. Дубровин Н. История войн ... т.IV, с.279; AKAK, ... т.II, с.610
13. Дубровин Н. История войн. ... т.IV, с.282
14. AKAK... т.II, ... с.605
15. Дубровин Н. История войн. ... т.IV, с.285
16. АКАК, т.II, с..611
17. Присоединение Восточной Армении к России..., с.184
18. دنبلی ا. ماثر سلطانیه. تهران، ۱۳۸۲، س.۱۸۲ ، آبادیان ن. روایت ایرانی جنگهای ایران و روس. تهران، ۱۳۸۰، ص.۳۸
19. Əsədov Q., Kərimova Z. Çarizmi Azərbaycana gətirnlər. Bakı, 1993, s.17
20. دنبلی ا. ۱۸۱
21. Присоединение Восточной Армении к России..., с.10
22. Потто В. Первые добровольцы Карабаха в эпоху водворение русского владычества. Тифлис, 1902, с.8
23. Abadian H. ... s.38
24. АКАК, т.II, с..605
25. Yenə orada
26. Yenə orada
27. دنبلی ا، ۱۸۳. Nəcmi N. Abbas Mirzə. Bakı, 1993, s.30
27a. نفیسی س. تاریخ اجتماعی و سیاسی ایران در دوره معاصر. جلد اول، تهران، ۱۳۸۳،ص۳۰۸.
28. АКАК, т.II, с..613
29. Yenə orada
30. Присоединение Восточной Армении к России..., с.13
31. دنبلی،۱۸۴
32. آهنگ سروش(میرزا محمد صادق وقایع نگار. تاریخ جنگ های ایران و روس. تهران، ۱۳۶۰، ص.۸۲-۸۳
33. شیرازی م. تاریخ ذلقرنین. جلد اول، تهران، ۱۳۸۴، ص.۱۴۰
34. ناصر نخمی، ۱۴۰

35. Дубровин Н. История войн. т.IV, с.290
36. Yenə orada
37. آهنگ سروش، ۸۲، آباديان،۳۹
38. شيرازى م، ۱۹۴
39. آهنگ سروش، ۸۳Ahəngsüruş ... s.83
40. Дубровин Н. История войн. ... т.IV, с.291
41. Yenə orada
42. قوزانلو ج. جنگ هاى ده ساله ايران و روس. تهران، ۱۳۶۲، ص.۲۳، ناصر نجميري، ۱۳۹
43. قوزانلو ج، ۲۳
44. Дубровин Н. История войн ... т.IV, с.290
45. قوزانلو ج، ۲۲
46. Дубровин Н. История войн. ... т.IV, с.291
47. Yenə orada
48. Присоединение Восточной Армении к России..., с.257
49. Дубровин Н. История войн. ... т.IV, с.296
50. АКАК, т.II, с..807
51. Присоединение Восточной Армении к России..., с.258
52. Дубровин Н. История войн. ... т.IV, с.300-301
53. Присоединение Восточной Армении к России..., с.258
54. نفيسى س، ۳۰۸
55. آباديان ح، ۳۹
56. Дубровин Н. История войн. ... т.IV, с.302
57. Григорян З.Т. Присоединение Восточной Армении к России в начале XIX века. Москва, 1959, с.69
58. Дубровин Н. История войн. ... т.IV, с.302
59. Yenə orada, s.303-304
60. Присоединение Восточной Армении к России..., с.258-259
61. Yenə orada, s.259
62. آباديان ج، ۴۰
63. آهنگ سروش، ۸۵
64. قوزانلو ج. تاريخ نطامى ايران . جلد اول،تهران، ۱۳۱۰، ص.۷۱۳
65. قوزانلو ج. تاريخ ده ساله...۲۶-۲۷
66. Анонимная записка о походе русских войск на Ереван, с.260. См: Присоединение Восточной Армении к России..., с. 257-277
67. Yenə orada, s.260
68. Yenə orada
69. Yenə orada, s.260-261
70. Yenə orada, s.261
71. Дубровин Н. История войн. ... т.IV, с.307
72. АКАК, т.II, с..615
73. Анонимная записка...с. 261; Григорян З.Т . ... s.70
74. Anonimnaya zapiska ... s.261
75. Yenə orada, s.262
76. Анонимная записка...с.262; Dubrovin N. ... т.IV, s.309

77. Дубровин Н. История войн. ... т. II, с.310; ناصر نجمی، ۱۴۱، آهنگ سروش، ۸۵
78. آهنگ سروش، ۸۶
79. Анонимная записка...с.263
80. Yenə orada
81. Yenə orada
82. آهنگ سروش، ۸۷
83. Yenə orada, s.88
84. Дубровин Н. История войн. ... т.IV, с.312
85. Анонимная записка...с.264
86. АКАК, т.II, с..1231
87. Анонимная записка...с.264
88. Yenə orada
89. Yenə orada
90. Ahəngsüruş ... s.89-90
91. Yenə orada, s.91
92. شیرازی م، ۲۰۲
93. آهنگ سروش، ۹۰
94. Присоединение Восточной Армении к России..., с.188
95. آهنگ سروش، ۹۰
96. Анонимная записка...с.265
98. Дубровин Н. История войн. ... т.IV, с.315
99. Анонимная записка...с.265
100. АКАК, т.II, с..615-616
101. Анонимная записка...с.265
102. Присоединение Восточной Армении к России..., с..227
103. Дубровин Н. История войн. ... т.IV, с.316
104. Анонимная записка...с.265
105. Присоединение Восточной Армении к России..., с.244
106. Анонимная записка...с.266
107.Дневник похода русских войск на Ереван под командованием П.Д.Сисианова. 1804, май-сентябр. С.277. См: Присоединение Восточной Армении к России. Ереван, 1972, с.225-240
108.Yenə orada, s.227
109. Yenə orada
110. دنبلی ا، ۱۸۷
111. شیرازی م، ۲۰۵
112. آهنگ سروش، ۹۳-۹۴ Ahəngsüruş ... s.93-94
113. Дубровин Н. История войн. ... t.ıv, с.320
114. Анонимная записка...с.266
115. Потто В.Утверждение русского владычества на Кавказе. Т.I , Тифлис, 1901, с.143
116. Дневник ... s.228
117. АКАК, т.II, с..616
118. Yenə orada

119. Yenə orada
120. Анонимная записка...c.267
121. Дубровин Н. История войн. ... т.IV, c.325
122. АКАК, т.II, c..616
123. Анонимная записка...c.268
124. Анонимная записка...c.268
125. Дубровин Н. История войн. ... т.IV, c.326
126. Yenə orada
127. Дневник .. s.229
128.Yenə orada
129. Анонимная записка...c.268
130. Yenə orada
131. Дневник ... s.230
132. Yenə orada
133. دنبلی ا، ۱۸۸، شیرازی م، ۲۰۶
134. شیرازی م، ۲۰۶
135. Дневник ... s.230
136. Анонимная записка...c.268
137. آهنگسروش، ۹۶
138. Yenə orada
139. Анонимная записка...c.269
140. Дубровин Н. История войн. .... т.IV, c.328
141. Дневник ... s.231
143. Потто В.Утверждение русского владычества.... c.144
144. Yenə orada, s.145
145. Yenə orada, s.146
146. Dnevnik ... s.232
147. Потто В.Утверждение русского владычества.... c.146-147
148. Dnevnik ... s.232
149. Yenə orada, s.233
150. Потто В.Утверждение русского владычества.... c.150
151. Анонимная записка...c.270
152. Дубровин Н. История войн. ... t.ıv, c.334
153. Потто В.Утверждение русского владычества.... c.148
154. Анонимная записка...c. 271
155. Дневник ... s.234
156. آهنگ سروش، ۹۷
157. Yenə orada, s.98-99
158. دنبلی ا، ۱۸۹-۱۹۰
159. Потто В.Утверждение русского владычества.... c.148
160. Анонимная записка...c.272
161. Yenə orada
162. Потто В.Утверждение русского владычества.... c s.149
163. Yenə orada

164. Анонимная записка...с.272
165. Yenə orada. S.273
166. Потто В.Утверждение русского владычества.... с.153
167. Дубровин Н. История войн. .... т.IV, с.338
168. Анонимная записка...с.272
169. Дневник ... s.234-235
170. Дневник... s.235; Анонимная записка...с.272
171. Потто В.Утверждение русского владычества.... с.150
172. Потто В.Утверждение русского владычества.... с.151; Дубровин Н. История войн. ... т.IV, с.353
173. Дневник ... s.235-236
174. Yenə orada, s.236
175. Yenə orada, s.236-237
176. Yenə orada, s.237
177. Дубровин Н. История войн. ... т.IV, с.353-354; Потто В.Утверждение русского владычества.... с .154
178. Дневник ... s.238
179. Дубровин Н. История войн. ... т.IV, с.354
181. شیرازی م، ۲۱۰-۲۱۱
182. اهنگ سروش، ۹۹-۱۰۰
183. Yenə orada, s.100
184. Yenə orada, s.101
185. Анонимная записка...с.275
186. Yenə orada
187. Дубровин Н. История войн. ... t.ıv, с.357
188. Анонимная записка...с.276
189. Присоединение Восточной Армении к России..., с.254-255; Григорян З.Т. ... с.75
190. АКАК, т.II, с..617-618
191. Yenə orada, s.618
191a. АКАК, т.I, с..619
192. Потто В.Утверждение русского владычества.... с.156
193. АКАК, т.II, с..619
194. Yenə orada, s.621-622
195. Дубровин Н. История войн. т.IV, с.362
196. Потто В.Утверждение русского владычества.... с .157
197. Дубровин Н. История войн. ... т.IV, с.365
198. دنبلی ا، ۱۹۳، شیرازی م، ۲۱۱، آهنگ سروش، ۲۱۱
199. شیرازی م، ۲۱۲، آهنگسروش ۱۰۳
200. Потто В.Утверждение русского владычества.... с.157

201. آهنگ سروش، ۱۰۲
202. ناصر نجمی، ۱۴۴
203. آهنگ سروش، ۱۰۳
204. Azərbaycan tarixi. Bakı, 1994, s.572-573
205. آهنگ سروش، ۱۱۱-۱۱۲
206. Yenə orada, s.114
207. آبادیان ح، ۴۹
208. واتسون ر. تاریخ قاجار. تهران، ۱۳۴۰، ۱۰۶
209. АКАК, т.II, c.625
210. Дубровин Н. История войн. ..ş. т.IV, c.440

# MÜNDƏRİCAT

GİRİŞ ........ 3

I FƏSİL
GÜLÜSTAN MÜQAVİLƏSİNƏ APARAN TARİXİN BAŞLANĞICI
1.XVIII əsrin əvvəlində Azərbaycanı özündə birləşdirən Səfəvi dövlətinin vəziyyəti ........ 7
2. Rusiyanın işğal siyasətinin aktuallaşması və bu siyasətin icrasında erməni vasitəçiliyi ........ 17
3.A.Volınskinin Səfəvi dövlətinə elçilik missiyası ........ 29
4. I Pyotrun Azərbaycana hücumu ........ 39
5. İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 69

II FƏSİL
MÜSTƏQİL AZƏRBAYCAN XANLIQLARININ YARANMASI
1. Nadir şah dövlətinin süqutu ........ 73
2. Müstəqil Azərbaycan xanlıqlarının yaranması ........ 81
3. İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 154

III FƏSİL
AZƏRBAYCAN XANLIQLARININ DAXİLİ VƏ XARİCİ HƏRBİ-SİYASİ VƏZİYYƏTİ
1.Azərbaycan xanlıqlarının qarşılıqlı hərbi-siyasimünasibətləri ........ 162
2.Kartli-Kaxetiya çarlığının Azərbaycan xanlıqlarına qarşı iddiaları ........ 167
3. Azərbaycan xanlıqları ərazisində erməni dövləti yaradılmasına cəhdlər ........ 181
4.Rusiya və Azərbaycan xanlıqları ........ 199
5.Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaz siyasəti ........ 216
6. İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 228

IV FƏSİL
QACARLAR HAKİMİYYƏTİNİN BƏRQƏRAR OLMASI
1.Qacar tayfası haqqında ........ 233
2.Ağa Məhəmməd xan Qacarın əcdadları ........ 241
3.Ağa Məhəmməd xan Qacar ........ 256
4. İstifadə olunmuş mənbə və ədəbiyyat ........ 277

## V FƏSİL
## AZƏRBAYCAN XANLIQLARI ŞİMALDAN VƏ CƏNUBDAN DOĞAN TƏHLÜKƏLƏRİN KƏSİŞMƏSİNDƏ

1.Ağa Məhəmməd xan Qacarın Azərbaycan xanlıqları üzərinə yürüşü ............... 280
2. V.Zubovun rəhbərliyi altında olan rus qoşunlarının Azərbaycan üzərinə hücumu ............... 303
3. Ağa Məhəmməd şah Qacarın Azərbaycan xanlıqları üzərinə ikinci yürüşü .... 358
4. İstifadə olunmuş mənbə və ədəbiyyat ............... 368

## VI FƏSİL
## TƏRƏFLƏRİN HƏRBİ POTENSİALI

1.Azərbaycan xanlıqlarının hərbi potensialı ............... 376
2.Qacar qoşunlarının vəziyyəti ............... 397
3. Rusiya ordusu ............... 412
4. İstifadə olunmuş mənbə və ədəbiyyat ............... 422

## VII FƏSİL
## XVIII ƏSRİN SONLARINDA CƏNUBİ QAFQAZDA HƏRBİ-SİYASİ ŞƏRAİT

1. Ağa Məhəmməd şahın qətlindən sonra Azərbaycan xanlıqlarının vəziyyəti ..... 426
2. XVIII əsrin sonunda Rusiyanın və Qacarlar dövlətinin Cənubi Qafqaz siyasəti ............... 436
3. İstifadə olunmuş mənbə və ədəbiyyat ............... 451

## VIII FƏSİL
## İŞĞALIN BAŞLANMASI

1. Gürcüstanın Rusiyaya birləşdirilməsi ............... 453
2. Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra bölgədə hərbi-siyasi şərait .... 462
3. P.D.Sisianovun Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilməsi .... 476
4. Car-Balakənin işğalı ............... 493
5. Gəncənin işğalı ............... 506
6. İstifadə olunmuş mənbə və ədəbiyyat ............... 526

## IX FƏSİL
## RUSİYA QOŞUNLARININ İRƏVAN ÜZƏRİNƏ HÜCUMU

1.Hücum ərəfəsində Məhəmməd xanla Sisianovun qarşılıqlı münasibətləri ............... 531
2.Rusiya qoşunlarının İrəvan üzərinə ilk hücumu və onun nəticələri ............... 546
3. İstifadə olunmuş mənbə və ədəbiyyat ............... 615

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Dizayn: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Rövşanə Nizamiqızı***

Yığılmağa verilmiş **14.01.2014**
Çapa imzalanmış **07.02.2014**
Şərti çap vərəqi **39.** Sifariş **№ 22**
Kağız formatı **70x100 1/16.** Tiraj **500**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***

Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.